# Azad Ağdam

**(Xronika AZƏRTAC-ın materialları əsasında tərtib edilir)**

***2024, 19 aprel***
- Ağdərə-Ağdam avtomobil yolunun inşasına başlanılıb - VİDEO
- ABŞ səfiri Ağdamın işğaldan azad edilmiş ərazisində səfərdə olub

***2024, 18 aprel***
- Ağdamda minaatan qurğular aşkarlanıb

***2024, 17 aprel***
- Əsgəran avtomobil yolunun inşasına start verilib

***2024, 15 aprel***
- ANAMA: Ötən həftə 725 partlamamış hərbi sursat zərərsizləşdirilib – VİDEO

***2024, 12 aprel***
- Ağdamda mina partlaması nəticəsində xəsarət alanların vəziyyəti açıqlanıb
- Ağdamda mina partlayıb, iki nəfər xəsarət alıb

***2024, 9 aprel***
- Ağdamda Milli Qəhrəman Yelmar Edilovun xatirəsi anılıb

***2024, 7 aprel***
- Laçında ödənişsiz peşə hazırlıq kursları təşkil olunur
- Ağdamda ekskavator piyada əleyhinə minaya düşüb

***2024, 6 aprel***
- Ağdamda baş verən partlayışla bağlı rayon prokurorluğunda araşdırma aparılır
- Detonator partlayışı nəticəsində xəsarət alan ANAMA əməkdaşının vəziyyəti stabildir
- Ağdamda detonator partlayıb, ANAMA əməkdaşı xəsarət alıb – VİDEO

***2024, 4 aprel***
- İşğaldan azad edilmiş ərazilərin sakinləri üçün peşə hazırlığı kursları təşkil olunur

***2024, 2 aprel***
- Ağdamda ANAMA əməkdaşı minaya düşərək xəsarət alıb

***2024, 30 mart***
- Avstriya Teleradiosunda Azərbaycanın işğaldan azad edilmiş əraziləri barədə geniş reportaj yayımlanıb – VİDEO

***2024, 18 mart***
- Ağdamda Bahar bayramı şənliyi keçirilib

***2024, 14 mart***
- “Füzuli Könüllüləri” qrupuna qəbula start verilib

***2024, 13 mart***
- Dövlət Məşğulluq Agentliyi Laçın, Füzuli və Ağdamda peşə kursları təşkil edib
- Keçmiş məcburi köçkünlərin 95 faizi doğma yurd-yuvasına qayıtmaq niyyətindədir – Sorğu

***2024, 7 mart***
- Nazir müavini: İşğaldan azad olunmuş ərazilərdə 4G şəbəkəsinin əhatə dairəsi 79 faizdir
- “Ağdamda əhalinin məşğulluğu ilə bağlı heç bir problem olmayacaq” - AÇIQLAMA

***2024, 6 mart***
- Ağdamın Xıdırlı, Sarıcalı və Kəngərli kəndlərində ilin sonunadək tikiləcək evlərin sayı açıqlanıb – FOTO

***2024, 5 mart***
- Andreas Minnix: Ağdamda Xan sarayının bərpası prosesini izləməkdən məmnun olduq
- Avstriya Milli Şurasının Avstriya-Cənubi Qafqaz parlament qrupunun üzvləri Ağdamda olublar - YENİLƏNİB

- Avstriya Milli Şurasının üzvlərinin Ağdama səfəri başlayıb

***2024, 4 mart***
- Ağdam Sənaye Parkında əhəng və perlit istehsalı müəssisəsi yaradılacaq

***2024, 3 mart***
- Mina partlayışı nəticəsində yaralanan Ağdam sakini əməliyyata götürülüb
- Ağdamda baş vermiş mina partlayışı ilə əlaqədar rayon prokurorluğunda araşdırma aparılır – VİDEO
- Ağdam sakini minaya düşüb

***2024, 28 fevral***
- Ağdam Dövlət Dram Teatrında “Qisas” tamaşasının premyerası olub

***2024, 26 fevral***
- Prezident İlham Əliyev: Gələn il Ağdama ilk köç başlanacaq
- Soyqırımı şahidi: Körpə uşağın alnına xaç çəkib, güllələmişdilər
- Keçmiş döyüşçü: Qaraqaya yaxınlığında amansız qətliamın şahidi olduq

***2024, 24 fevral***
- Keçmiş döyüşçü: Qara qaya yaxınlığında dəhşətli mənzərənin şahidi olduq

***2024, 23 fevral***
- Ağdam rayonu ərazisində partlamamış döyüş sursatları aşkar edilib - VİDEO
- Ağdamda "Texniki təhlükəsizlik bizim prioritetimizdir" mövzusunda seminar-müşavirə keçirilib

***2024, 22 fevral***
- Keniyanın Baş prokuroru Ağdama səfər edib

***2024, 21 fevral***
- İşğaldan azad olunmuş ərazilərə avtobus reyslərinin mart ayı üçün biletləri satışa çıxarılır
- Direktor müavini: Azad edilən ərazilərdə 218 kilometr su xətti çəkilib
- İşğaldan azad edilmiş ərazilərdə müasir hidrometeoroloji stansiyalar qurulub
- Gələn ay Ağdamda daha bir yaşayış məhəlləsinin inşasına başlanılacaq
- Ağdamın İmamqulubəyli kəndində “model müəssisə” prinsipi əsasında qurulmuş heyvan kəsimi məntəqəsi açılıb

***2024, 19 fevral***
- Ağdamda sement və beton qatqıların istehsalı müəssisəsi yaradılır

***2024, 10 fevral***
- Mərakeşli jurnalistlər Ağdam, Əsgəran və Şuşaya səfər ediblər

***2024, 8 fevral***
- Elçin Cəfərov: Əvvəllər düşünürdüm ki, görəsən, mən haçansa Ağdamı yenidən görə biləcəyəm – MÜSAHİBƏ

***2024, 7 fevral***
- Ağdamın işğaldan azad edilmiş ərazilərində 3 məntəqədə səsvermə təşkil olunub

***2024, 5 fevral***
- Ağdam rayonunda əkinlərin suvarma suyu ilə təminatı yaxşılaşdırılır

***2024, 4 fevral***
- Ağdam şəhəri növbədənkənar prezident seçkilərinə hazırdır

***2024, 2 fevral***
- Parlamentlərarası İttifaqın Baş katibi Ağdam şəhərinə səfər edib

***2024, 29 yanvar***
- Bu il Ağdam Sənaye Parkındakı şirkətlərdən biri ilk ixraca başlayacaq

***2024, 21 yanvar***
- Mina partlayışı ilə bağlı Ağdam rayon prokurorluğunda araşdırma aparılır
- Ağdamda mina partlayıb, bir nəfər xəsarət alıb

***2024, 20 yanvar***

- Bu il Şuşada, növbəti illərdə isə Ağdam, Cəbrayıl və Laçında "ASAN xidmət" mərkəzləri fəaliyyət göstərəcək

***2024, 17 yanvar***
- Ağdamda aşağı seçki komissiyalarının üzvləri üçün treninqlərə start verilib

***2024, 13 yanvar***
- CBC telekanalının çəkiliş qrupu Ağdam və Xirosimanın tarixlərinin bənzərliyindən söhbət açan film hazırlayıb

***2023, 29 dekabr***
- Goranboy, Ağdam və Tərtər rayonlarından olan 1025 ailəyə bayram sovqatı çatdırılıb

***2023, 27 dekabr***
- Ağdamın Baş Qərvənd kəndində birinci mərhələdə 851 ev tikiləcək
- Ağdam şəhərindəki yaşayış binalarının inşasında istilik tutumlu təbii materiallardan istifadə ediləcək
- Dörd hərəkət zolağı olan Bərdə-Ağdam avtomobil yolu I texniki dərəcəyə uyğun inşa edilib
- Ağdam şəhərində daxili yolların ümumi uzunluğu 189,7 kilometr təşkil edəcək
- Ağdamın Salahlı Kəngərli kəndi tarixi ənənələri qorunmaqla müasir üslubda inşa ediləcək
- Ağdamdakı Mərkəzi park botanika bağı, çəmənlik və meşəlik zonalarına ayrılacaq
- Ağdamda məşhur "Çay evi" yenidən inşa olunacaq
- Ağdamda mina hadisəsi zamanı xəsarət alan ANAMA əməkdaşının həyati təhlükəsi yoxdur

***2023, 26 dekabr***
- Baş prokurorluq: Ağdamda ANAMA əməkdaşının minaya düşərək xəsarət alması faktı ilə bağlı araşdırma aparılır
- ANAMA-nın əməkdaşı Ağdamda minaya düşüb

***2023, 25 dekabr***
- Ağdamda müxtəlif mənşəli 15 yataq mövcuddur
- Emin Hüseynov: Ağdamda 59 kəhriz kompleksi mövcuddur
- Ağdamda ekoloji məsələlər üzrə işçi qrupunun iclası keçirilir - YENİLƏNİB

***2023, 24 dekabr***
- Ağdam rayonunun Baş Qərvənd kəndinin də təməli qoyulub – VİDEO
- Uzunluğu 44,5 kilometr olan Bərdə-Ağdam avtomobil yolu istifadəyə verilib – VİDEO
- Ağdam rayonunun Salahlı Kəngərli kəndinin təməli qoyulub - VİDEO
- Prezident İlham Əliyev Ağdamın Qiyaslı kəndinin təməlini qoyub – VİDEO
- Ağdam şəhərinin daxili yollarında aparılan işlərlə tanışlıq – VİDEO
- Ağdam şəhər Mərkəzi parkının təməli qoyulub – VİDEO
- Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağdamda "İmarət" Kompleksində aparılan təmir-bərpa işləri ilə tanış olublar – VİDEO
- Ağdam şəhərində dördüncü yaşayış kompleksinin təməlqoyma mərasimi olub - VİDEO
- Ağdam şəhərində beşinci yaşayış kompleksinin təməli qoyulub – VİDEO
- Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın Ağdam rayonuna səfəri "AzərEnerji" ASC-nin 110/35/10 kV-luq "Ağdam" qovşaq yarımstansiyasının açılışı olub – VİDEO

***2023, 21 dekabr***
- Azərbaycan Prezidenti: Bir neçə aydan sonra Ağdam şəhərində "İmarət" stadionunun yenidən inşasına başlanılacaq – VİDEO

***2023, 19 dekabr***
- Ağdamda Avtomatika və telemexanika istehsalı zavodu gələn il işə salınacaq

***2023, 15 dekabr***
- "Aqroservis"in sədri Ağdamda vətəndaşların müraciətlərini dinləyib

***2023, 14 dekabr***

- Ağdamda “İşğaldan azad olunmuş ərazilərdə turizmin bərpası və inkişafı” I elmi-praktiki konfrans keçirilib – VİDEO
- Ağdamda “İşğaldan azad olunmuş ərazilərdə turizmin bərpası və inkişafı” elmi-praktik konfransı keçirilir
- Gələn il Ağdamda divar kağızlarının istehsalına başlanılacaq

***2023, 13 dekabr***
- Bərdə-Ağdam dəmir yolunun inşası yekunlaşır

***2023, 12 dekabr***
- ADY sədri: Bərdə-Ağdam dəmiryolunda işlərin 85 faizi tamamlanıb
- Ağdamın Xıdırlı kəndində ilk mərhələdə 719 ev inşa olunacaq - VİDEO

***2023, 11 dekabr***
- “Aqroservis” ASC-nin sədri Elmin Rəhmanov Ağdamda vətəndaşları qəbul edəcək

***2023, 9 dekabr***
- Ağdam Sənaye Parkında qazobeton zavodunun inşası yekunlaşıb - VİDEO
- Ağdam Sənaye Parkında yerləşən ayaqqabı fabrikinin istehsal gücü 900 minə çatdırılacaq - VİDEO

***2023, 8 dekabr***
- “Qarabağ”ın sabiq futbolçusu: Ağdam klubu Avropa Liqasının yarımfinalına kimi getmək gücündədir

***2023, 7 dekabr***
- “Dayanıqlı İnkişaf Məqsədlərinə nail olmaq üçün sağlam ətraf mühit və minasız həyat” adlı beynəlxalq forum Ağdamda davam edib
- “Dayanıqlı inkişaf məqsədlərinə nail olmaq üçün sağlam ətraf mühit və minasız həyat” adlı beynəlxalq forum işini Ağdamda davam etdirir
- Minatəmizləmə üzrə türkiyəli ekspert: Ağdamda olan mənzərə o qədər də ürəkaçan deyil
- Beynəlxalq forumun iştirakçıları Ağdamda minatəmizləmə prosesini izləyiblər - VİDEO

***2023, 6 dekabr***
- Əsgəran və Ağdamın işğaldan azad edilmiş ərazilərində rabitə qurulur - VİDEO

***2023, 5 dekabr***
- Baş Prokurorluq: Ağdamda baş verən mina hadisəsi ilə bağlı araşdırma aparılır
- ANAMA: Ağdam rayonunda mina hadisəsi baş verib
- Nazir Emin Əmrullayev Ağdamda vətəndaşlarla görüşəcək

***2023, 30 noyabr***
- Kədərlə sevinc bir arada - Ağdamın qızılı payızı - VİDEO
- Bərdə–Ağdam (40 km)–Əsgəran avtomobil yolunun yenidən qurulmasına 5 milyon manat ayrılıb - SƏRƏNCAM

***2023, 29 noyabr***
- Ağdamın ağ daşı ilə tikilən - Sarıcallıdan reportaj: Memarlıq elementləri ilə bəzədilmiş evlərdə günəş panelləri quraşdırılacaq

***2023, 24 noyabr***
- Ağdamın inşasında Ağdamda istehsal edilən ağ daşlardan istifadə olunur

***2023, 23 noyabr***
- Ağdamın Kəngərli kəndində tikinti işlərindən - FOTOREPORTAJ

***2023, 21 noyabr***
- Ağdamda tunc dövrünə aid olması ehtimal edilən məişət əşyaları tapılıb

***2023, 20 noyabr***
- Ağdamın siyasi yolla azad olunması Prezident İlham Əliyevin diplomatik qələbəsidir – AÇIQLAMA
- Dördzolaqlı Bərdə-Ağdam avtomobil yolu Ağdamın şəhərdaxili yol şəbəkəsi ilə birləşəcək - layihə gələn ilin sonunadək yekunlaşacaq
- Deputat: Ağdamın əvvəlki şöhrəti bərpa olunacaq

- Müasir Ağdamın mərkəzi hissəsi keçmiş Ağdam şəhəri və ətrafındakı 8 kənddən ibarət olacaq - AÇIQLAMA

***2023, 19 noyabr***
- Ağdam rayonunun işğaldan azad olunması tarixi hadisədir

***2023, 15 noyabr***
- İndoneziyada poçt markası: “Ağdam Qafqazın Xirosimasıdır”

***2023, 8 noyabr***
- Azərbaycan Prezidenti: Ağdamın, Laçının, Kəlbəcərin bir güllə atılmadan azad olunması minlərlə gəncimizin həyatını xilas etdi

***2023, 6 noyabr***
- Gələn il Ağdam Sənaye Parkında fəaliyyətə başlayacaq bir neçə müəssisənin adı bəlli olub

***2023, 26 oktyabr***
- Ağdam, Şəmkir və Cəbrayılda kəhrizlərdə bərpa işləri aparılır

***2023, 19 oktyabr***
- Ağdam Sənaye Parkının 190 hektarlıq ərazisinin yarısı rezidentlərə verilib

***2023, 15 oktyabr***
- **Ağdam-Füzuli avtomobil yolunun tikintisi ilə tanışlıq**

***2023, 2 oktyabr***
- Vətən müharibəsinin xronikası: 2 oktyabr

***2023, 1 oktyabr***
- Vətən müharibəsinin xronikası: 1 oktyabr

***2023, 17 sentyabr***
- Azərbaycan Qızıl Aypara Cəmiyyəti: Ağdam-Xankəndi və Laçın-Xankəndi yolları vasitəsilə yüklərin çatdırılması barədə razılığı alqışlayırıq
- XİN: Azərbaycan tərəfi Ağdam-Xankəndi və Laçın-Xankəndi yollarından paralel istifadənin təşkilinə hazırdır

***2023, 13 sentyabr***
- Ağdam-Xankəndi yolundan istifadə ölkəmizin növbəti qələbəsidir – ŞƏRH

***2023, 11 sentyabr***
- Ermənilər Ağdam-Xankəndi yolundan humanitar yüklərin buraxılmasına niyə mane olurlar?

***2023, 10 sentyabr***
- Ağdam-Xankəndi yolunun açılmamasının təşkilatçısı məhz BQXK-dır - ŞƏRH

***2023, 31 avqust***
- Diplomatik korpus Ağdam-Xankəndi yolunda Azərbaycan Qızıl Aypara Cəmiyyətinin ərzaq yüklərinin yerləşdiyi məntəqə ilə tanış olacaq

***2023, 30 avqust***
- Fəzail İbrahimli: Ağdam-Xankəndi marşrutunun ardınca hədəfimiz Zəngəzur-Naxçıvan yoludur

***2023, 16 avqust***
- Azərbaycanda akkreditə olunmuş diplomatik korpus üzvlərinin və hərbi nümayəndələrin Ağdama səfəri başlayıb
- Azərbaycandakı diplomatik korpus üzvlərinin Ağdama səfəri
- Xarici diplomatlar və hərbi nümayəndələr Bərdə-Ağdam dəmir və avtomobil yollarının tikintisi ilə tanış olublar
- Xarici diplomatların və hərbi nümayəndələrin Ağdama səfəri: Həqiqəti görmək istəyi və reallığın gözardı edilməsi cəhdi
- Diplomatik korpus üzvləri Ağdamda həyata keçirilən tikinti-quruculuq işləri ilə tanış olublar

*2023, 13 avqust*
- Ağdamdan Xankəndiyə gedən kommunikasiya xətlərinin perspektivləri

*2023, 31 iyul*
- Azərbaycan Respublikasının işğaldan azad edilmiş əraziləri üzrə şəhər günləri təsis olunub

*2023, 25 iyul*
- XİN: Ağdam-Xankəndi yolundan istifadədən erməni tərəfinin imtinası təəssüf doğurur

*2023, 13 iyul*
- Diplomatik xidmət orqanları rəhbərlərinin müşavirəsi "Ağdamın dirçəlişi" adlı tədbirlə yekunlaşıb

*2023, 24 iyun*
- Azərbaycan Ağdam-Xankəndi yolundan istifadə etməklə erməni sakinlərə yardım göstərə bilər

*2023, 19 iyun*
- QHT sədri: Ağdamda aşkarlanan kütləvi məzarlıq erməni qəsbkarlarının müharibə cinayətlərinin növbəti sübutudur
- Ağdamda aşkarlanan kütləvi məzarlıq erməni cinayətlərinə dair növbəti faktdır - İcraçı direktor

*2023, 2 may*
- **Prezident İlham Əliyev Bərdə-Ağdam dəmir yolu xəttinin tikintisi ilə tanış olub**
- **Ağdam şəhərində inzibati binanın təməli qoyulub**
- **Ağdam şəhərində 3-cü yaşayış məhəlləsinin təməlqoyma mərasimi olub**
- **Ağdam şəhərində salınacaq 2-ci yaşayış məhəlləsinin təməli qoyulub**
- **Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağdam rayonuna səfər ediblər: Dövlətimizin başçısı Ağdam Rəqəmsal İdarəetmə Mərkəzi və Təlim-Tədris Kompleksinin təməlini qoyub**

*2022, 13 dekabr*
- Prezident: Ağdam şəhərinin nə gündə olduğunu bütün dünya görür, amma Avropa təşkilatları özlərini görməzliyə vurur

*2022, 26 noyabr*
- Xalid Teymur Əkrəm: Ağdama hər səfərimdə erməni vandallığından dəhşətə gəlirəm
- İulian Çifu: Ermənilər Ağdamı tamamilə yararsız vəziyyətə salıblar

*2022, 7 oktyabr*
- Rayvis Raqaynis: Ağdamda gördüklərim məni dərindən sarsıtdı

*2022, 5 oktyabr*
- Prezident İlham Əliyev: Ağdam şəhəri işğal illəri ərzində dağıdılıb və buradakı daşlar oğurlanaraq satılıb
- Ağdamda Azərbaycan Milli Şəhərsalma Forumu işə başlayıb: Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Forumun açılış mərasimində iştirak ediblər: Prezident İlham Əliyevin çıxışı

*2022, 4 oktyabr*
- **Ağdamın Sarıcalı kəndinin təməli qoyulub**
- **Ağdamda Dəmir yolu və Avtovağzal Kompleksi inşa ediləcək**
- **Keçmiş məcburi köçkünlər üçün Ağdam şəhərində inşa olunacaq yaşayış məhəlləsinin təməli qoyulub**
- **İmarət kompleksində görüləcək işlərlə tanışlıq və Xurşidbanu Natəvanın qəbirüstü abidəsinin açılışı**
- **Ağdam şəhərində "City Hotel Agdam" mehmanxanası inşa olunacaq**
- **Ağdam şəhərinin daxili yol və kommunikasiya şəbəkəsinin təməlqoyma mərasimi keçirilib**

- **Ağdamın Kəngərli kəndinin təməli qoyulub**
- **Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağdamın Xıdırlı kəndinin təməlqoyma mərasimində iştirak ediblər**
- **Ağdamda Atçılıq Nəsilartırma Mərkəzinin təməli qoyulub: Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mərasimdə iştirak ediblər**
- **Prezident İlham Əliyev Bərdə-Ağdam avtomobil yolunda görülən işlərlə tanış olub**
- **Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağdam rayonuna səfər ediblər**

***2022, 15 sentyabr***

- İtaliya saytı ermənilərin işğal dövründə xarabalığa çevirdikləri Ağdam şəhərindən yazıb

***2022, 1 iyul***

- “Science Channel” telekanalında yayımlanan “Tərk edilmişlərin sirri” serialının növbəti buraxılışı Ağdam şəhərinə həsr olunub

***2022, 23 iyun***

- Niderlandın “oorlogsverhalen.com” portalında Ağdam reallıqlarını əks etdirən sənədli film yayımlanıb

***2022, 16 mart***

- Hikmət Hacıyev: İşğaldan azad edilmiş Ağdam, Füzuli və Cəbrayıl rayonlarında səhra missiyası həyata keçirilib

***2022, 3 mart***

- Kazuyasu İşida: “Azərbaycanın çox böyük potensialı və parlaq gələcəyi var”

***2022, 17 fevral***

- Milli Məclis sədrinin müavini Adil Əliyev: Ağdam Qarabağ və Şərqi Zəngəzur əsas sənaye mərkəzi olacaq

***2022, 16 fevral***

- Ağdam Sənaye Parkında iki müəssisənin təməlinin qoyulması gələcək iş yerlərinin yaradılması baxımından əhəmiyyətli hadisədir

***2022, 15 fevral***

- Misir KİV-i Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın Ağdama səfəri barədə xəbər yayımlayıb
- Deputat: Ağdamın bərpası ilə bağlı görülən kompleks tədbirlər onun tezliklə regionun ən gözəl şəhərlərindən birinə çevriləcəyini deməyə əsas verir
- Aqiyə Naxçıvanlı: Prezident İlham Əliyevin Ağdama növbəti səfəri bu bölgənin inkişafında prioritet istiqamətləri müəyyənləşdirdi

***2022, 14 fevral***

- Prezident İlham Əliyev: Ağdam Sənaye Parkında ilk müəssisələrin təməlinin qoyulması çox önəmli hadisədir
- Prezident İlham Əliyev: Ağdamın yol-nəqliyyat infrastrukturu tamamilə yenidən qurulur
- Prezident: Mən müharibədən sonra Ağdama üçüncü dəfədir səfər edirəm, hər dəfə buraya gələndə ürəyim ağrıyır
- **Dövlətimizin başçısı və birinci xanım Qarabağ xanlarının Ağdamdakı türbələri və yaşayış evi - İmarət kompleksində olublar**
- **Azərbaycan Prezidentinin xüsusi nümayəndəliyinin qərargahında yaradılan şəraitlə tanışlıq**
- **Ağdam Rayon Mərkəzi Xəstəxanasının təməli qoyulub**
- **Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağdam Cümə məscidində bərpa işlərinin gedişi ilə tanış olublar: Prezident İlham Əliyevin çıxışı**
- **Ağdamda 209 mənzildən ibarət yeni yaşayış kompleksinin təməli qoyulub**
- **Azərbaycan Prezidenti “Park Forest Otel Ağdam” mehmanxanasının təməlini qoyub**

- **Prezident İlham Əliyev Ağdam Sənaye Parkında iki müəssisənin təməlini qoyub**
- **Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağdam rayonunda səfərdə olublar: "Ağdam-1", "Ağdam-2" yarımstansiyaları və "Qarabağ" Rəqəmsal İdarəetmə Mərkəzi istifadəyə verilib**

***2021, 22 noyabr***

- Fransa jurnalı Ağdamı tərk olunmuş 10 şəhər sırasına daxil edib
- Rusiyalı jurnalist Ağdamın dirçəldilməsi barədə yazıb

***2021, 19 noyabr***

- Deputat: Ağdam tezliklə Azərbaycanın ən gözəl şəhərlərindən birinə çevriləcək
- Soltan Məmmədov: Ağdamın hərbi əməliyyatlarsız işğaldan azad olunması böyük diplomatik qələbəmizdir

***2021, 10 noyabr***

- Politoloq: Ağdam, Laçın və Kəlbəcərin döyüşsüz azad edilməsi hərbi-siyasi Zəfərimizin bariz nümunəsidir

***2021, 31 oktyabr***

- Braziliyalı senator Gəncə və Ağdam şəhərlərinə səfər edib

***2021, 27 oktyabr***

- Peter Erdeyi: Ağdam ruhlar şəhərinə bənzəyir

***2021, 15 oktyabr***

- Prezident İlham Əliyev: Ağdam şəhərini Qafqazın Hirosiması adlandırırlar

***2021, 14 avqust***

- Tezliklə "Yolumuz Ağdama" adlı səfərlər təşkil ediləcək

***2021, 5 avqust***

- İordaniya qəzetində Ağdamda aparılacaq yenidənqurma işləri barədə məqalə dərc edilib

***2021, 29 iyul***

- Misir portalı Ağdamda aparılan yenidənqurma işlərindən yazıb

***2021, 23 iyun***

- Migel Anxel Moratinos: Ağdama səfərim zamanı siyasi və peşəkar həyatımda heç vaxt görmədiklərimin şahidi oldum

***2021, 13 iyun***

- Deputat: Minaların xəritələrinin verilməsi Ağdamda infrastruktur layihələrinin icrasını sürətləndirəcək
- Hikmət Hacıyev: Xarici diplomatlarla buradan bir neçə ildən sonra müasir Ağdam şəhərinə qayıtmaq arzusu ilə ayrılırıq

***2021. 12 iyun***

- Ermənistanın Ağdam rayonu üzrə minalanmış ərazilərin xəritələrini təqdim etməsi Azərbaycan Prezidentinin qətiyyətli iradəsinin nəticəsidir

***2021, 6 iyun***

- "Caspianpost" saytı ermənilərin Azərbaycan ərazilərində məzarları təhqir etməsindən yazıb

***2021. 2 iyun***

- Deputat: Ağdam möhtəşəm dəyişikliklərin astanasındadır
- Ağdam rayonu ərazisində yeni hərbi hissələrin açılışı olub

***2021, 1 iyun***

- Bütün dünya üçün örnək olacaq Ağdam qurulacaq
- Respublika Gününün Ağdamda qeyd olunması ümummilli məsələnin ən yeni təsdiq tarixidir

***2021, 31 may***

- Aqiyə Naxçıvanlı: Dövlətimizin başçısının Ağdama səfəri ilə işğaldan azad edilmiş ərazilərdə quruculuq işlərinin yeni mərhələsinə start verildi
- Qırğızıstan portalı Azərbaycan Prezidentinin Ağdama səfərindən yazıb
- Deputat: Ağdam şəhərinin təməl daşının qoyulması yeni mərhələnin başlanğıcıdır
- Deputat: Prezident İlham Əliyevin Ağdam səfəri "Qarabağda cənnət yaradacağıq" vədinin növbəti akkordlarıdır
- Deputat: Prezident İlham Əliyevin Ağdama səfəri bütün Qarabağda yüksək texnologiyaların tətbiqinə start verilməsi baxımından xüsusi əhəmiyyət kəsb edir

***2021, 28 may***

- **Prezident İlham Əliyev: Respublika Gününü Ağdam şəhərində qeyd etməyimizin çox böyük rəmzi mənası var**
- **Prezident İlham Əliyev Ağdam ictimaiyyətinin nümayəndələri ilə görüşündə müharibəni qaçılmaz edən səbəblərdən danışıb**
- **Prezident İlham Əliyev: Biz Ağdamı bir güllə atmadan azad etdik və bundan sonra burada əbədi olacağıq**
- **Prezident İlham Əliyev Ağdam şəhərinin bərpasının təməl daşının qoyulması mərasimində iştirak edib, rayon ictimaiyyətinin nümayəndələri ilə görüşüb: Prezident İlham Əliyevin çıxışı**
- **Prezident İlham Əliyev Ağdamda Şahbulaq qalasında olub**
- **Prezident İlham Əliyev Ağdamda Qiyaslı məscidində olub**
- **Prezident İlham Əliyev Ağdam şəhər 1 saylı məktəbin yeni binasının təməlini qoyub**
- **Ağdamda Zəfər muzeyi və açıq hava altında İşğal muzeyi yaradılacaq**
- **Prezident İlham Əliyev Ağdamda Pənahəli xanın sarayının yerləşdiyi imarət kompleksində olub**
- **Prezident İlham Əliyev Ağdam Sənaye Parkının təməlqoyma mərasimində iştirak edib**
- **Ağdam şəhərində inşa olunacaq ilk yaşayış binasının təməli qoyulub**
- **Prezident İlham Əliyev Ağdam şəhər meşə-parkında ağac əkib**
- **Azərbaycan Prezidenti İlham Əliyevin Ağdama səfəri: Bərdə-Ağdam avtomobil yolunun təməli qoyulub**

***2021, 10 may***

- İşğaldan azad edilmiş ərazilərdə modul tipli yeni hərbi hissə istifadəyə verilib

***2021, 6 may***

- Müdafiə Nazirliyi Ağdam rayonunun Qarapirimli kəndinin videogörüntülərini paylaşıb

***2021, 5 may***

- Rusiyalı politoloq viran qoyulmuş Ağdama dair fotoşəkilləri paylaşıb: Qarabağ. Ağdam. Çörək muzeyi. Ağdam bütünlüklə dağıdılıb

***2021, 1 may***

- Müdafiə Nazirliyi Ağdam rayonunun Sarıhacılı kəndinin videogörüntülərini paylaşıb
- İordaniya agentliyi ermənilərin viran qoyduğu Ağdam haqqında məqalə yayıb

***2021, 27 aprel***

- Müdafiə Nazirliyi Ağdam rayonunun Umudlu kəndinin videogörüntülərini paylaşıb

***2021, 26 aprel***

- Müdafiə Nazirliyi Ağdam rayonunun Poladlı kəndinin videogörüntülərini paylaşıb
- Miqel Alvares: Köçkünlərin doğma yurdlarına qayıdışı üçün, ilk növbədə, minatəmizləmə prosesi həyata keçirilməlidir

***2021, 23 aprel***

- Ağdamdakı erməni vəhşiliyi Fransa portalında

***2021, 16 aprel***

- İtaliya nümayəndə heyəti Ağdam şəhərində səfərdə olub
  ***2021, 15 aprel***
- İtaliya Senatının komissiya sədri özünün "Twitter" səhifəsində Ağdama səfəri ilə bağlı paylaşım edib
  ***2021, 12 aprel***
- Misirin informasiya agentliyi Türk Şurasının informasiya və media üzrə rəsmilərinin Ağdama səfəri barədə xəbər yayıb
  ***2021, 9 aprel***
- Fransa portalı Qarabağda erməni vandalizmindən yazır
  ***2021, 8 aprel***
- Cibutili diplomat: Ağdama səfərimiz zamanı bu şəhərin tamamilə dağıdıldığını gördük
  ***2021, 30 mart***
- İtaliyanın AGİ xəbər agentliyi "Ruhlar şəhəri" Ağdamdan bəhs edən məqalə yayıb
  ***2021, 17 mart***
- Azərbaycandakı siyasi partiyaların rəhbərləri və bir sıra politoloqlar işğaldan azad olunmuş Ağdam rayonunda səfərdədirlər
- Siyasi partiyaların rəhbərləri və politoloqlar Ağdamda İmarət qəbiristanlığını, Çörək muzeyini və Şəhidlər xiyabanını ziyarət ediblər
- Siyasi partiyaların rəhbərləri və politoloqlar Ağdamda Cümə məscidində olublar
- Siyasi partiya rəhbərlərinin və politoloqların Ağdamda son dayanacağı Şahbulaq qalası olub
  ***2021, 16 mart***
- Yerlə-yeksan edilmiş "Ruhlar şəhəri" erməni vəhşiliyinin əyani sübutudur
  ***2021, 15 mart***
- "BCI" beynəlxalq media portalında Ağdam rayonundan bəhs olunan videomaterial yerləşdirilib
  ***2021, 13 mart***
- "France Inter" radiosunda Qarabağla bağlı veriliş yayımlanıb
  ***2021, 9 mart***
- Yaponiya portalı Qarabağ həqiqətləri ilə bağlı analitik məqalə yayıb
  ***2021, 7 mart***
- Müdafiə Nazirliyi Ağdam rayonunun Suma kəndindən videogörüntülər yayıb
  ***2021, 5 mart***
- Müdafiə Nazirliyi Ağdam rayonunun Tağıbəyli kəndinin videogörüntülərini yayıb
  ***2021, 1 mart***
- Müdafiə Nazirliyi Ağdam rayonunun Güllücə kəndinin videogörüntülərini yayıb
- "Ukrayna 24" telekanalı Azərbaycan Prezidentinin mətbuat konfransı və işğaldan azad olunan ərazilərimiz barədə xüsusi reportaj yayımlayıb
  ***2021, 28 fevral***
- Müdafiə Nazirliyi Ağdam rayonunun Eyvazxanbəyli kəndinin videogörüntülərini yayıb
  ***2021, 26 fevral***
- Müdafiə Nazirliyi Ağdam rayonunun Tərnöyüt kəndinin videogörüntülərini yayıb
  ***2021, 23 fevral***
- Müdafiə Nazirliyi Ağdam rayonunun Sırxavənd kəndinin videogörüntülərini paylaşıb
- Müdafiə Nazirliyi Ağdam rayonunun Yeni Qaralar kəndinin videogörüntülərini yayıb
  ***2021, 21 fevral***
- Ağdam rayonunun Əlimədətli kəndindən videogörüntülər
  ***2021, 20 fevral***
- Müdafiə Nazirliyi Ağdam rayonunun Qalayçılar kəndinin videogörüntülərini paylaşıb

***2021, 18 fevral***
- Müdafiə Nazirliyi Ağdam rayonunun Əliağalı kəndinin videogörüntülərini paylaşıb
- Rusiyalı deputat : Ağdam şəhərinin işğal dövründə qəsdən dağıdılmasından təəssüfləndim

***2021, 17 fevral***
- Müdafiə Nazirliyi Ağdam rayonunun Cinli kəndinin videogörüntülərini paylaşıb

***2021, 15 fevral***
- “Kommersant”: Ağdamın bugünkü görkəmi Qarabağın incisinə oxşamır

***2021, 11 fevral***
- Müdafiə Nazirliyi Ağdam rayonunun Qurdlar kəndinin videogörüntülərini paylaşıb

***2021, 9 fevral***
- Müdafiə Nazirliyi Ağdam rayonunun Mollalar kəndinin videogörüntülərini paylaşıb
- 2021, 6 fevral
- “National Geographic” jurnalında Azərbaycanın işğaldan azad edilmiş ərazilərində vəziyyət barədə fotoreportaj dərc edilib

***2021, 4 fevral***
- “France Inter” radiosu Azərbaycanın erməni işğalından azad edilmiş ərazilərindən reportaj hazırlayıb

***2021, 3 fevral***
- Fransanın “Atlantico” portalı: Qarabağın kabus şəhəri Ağdam dirçəlişini gözləyir
- Müdafiə Nazirliyi Ağdam rayonunun Qarazeynallı kəndinin videogörüntülərini paylaşıb

***2021, 31 yanvar***
- Müdafiə Nazirliyi Ağdam rayonunun Qullar kəndinin videogörüntülərini paylaşıb
- 2021, 30 yanvar
- Türkiyə KİV-ləri Ağdamda Birgə Monitorinq Mərkəzinin fəaliyyətə başlamasını geniş işıqlandırıb

***2021, 29 yanvar***
- Alman portalında ermənilər tərəfindən dağıdılmış kəndlər haqqında videoreportaj yerləşdirilib
- “National Geographic” “Instagram” səhifəsində Ağdam şəhərində ermənilərin törətdikləri dağıntıları əks etdirən fotolar paylaşıb
- 2021, 18 yanvar
- Müdafiə Nazirliyi Ağdam rayonunun işğaldan azad edilmiş Xıdırlı kəndinin videogörüntülərini paylaşıb

***2021, 16 yanvar***
- Müdafiə Nazirliyi Ağdam rayonunun Şelli kəndinin videogörüntülərini paylaşıb

***2021, 15 yanvar***
- Müdafiə Nazirliyi Ağdam rayonunun Qasımlı kəndinin videogörüntülərini paylaşıb

***2020, 10 dekabr***
- ANAMA tərəfindən beş rayonda 58 mina aşkarlanıb

***2020, 9 dekabr***
- Malayziyadakı iş adamları Azərbaycanın azad edilmiş ərazilərində bərpa işlərində iştiraka dəvət olunub
- Almaniyanın “ZDF” kanalında işğaldan azad olunmuş Ağdam və Füzuli rayonlarından reportaj yayımlanıb
- İtaliya Xarici İşlər və Beynəlxalq Əməkdaşlıq Nazirliyinin dövlət katibi Ağdama səfəri ilə bağlı təəssüratlarını bölüşüb
- Prezident İlham Əliyev İtaliya Xarici İşlər və Beynəlxalq Əməkdaşlıq Nazirliyinin nümayəndə heyətini qəbul edib
- Ağdam rayonunun Mirəşelli kəndindəki Şəmsi kəhrizində bərpa-təmir işlərinə başlanıb

***2020, 8 dekabr***

- Mehriban Əliyeva: "Heydər Əliyev Fondu qədim Qarabağ torpağında dini abidələrimizin, məscidlərimizin bərpası üzrə layihəyə başlayır"
- Andorranın xarici işlər naziri Azərbaycan ərazilərinin işğaldan azad edilməsi barədə məlumatlandırılıb

***2020, 7 dekabr***

- Martin Şüepp: Azərbaycan ilə BQXK arasında ötən illər ərzində formalaşmış əməkdaşlıq yüksək qiymətə layiqdir
- Prezident İlham Əliyev: İşğaldan azad olunmuş ərazilərin bərpasında iştirakla bağlı İtaliya tərəfinə təkliflər verilib
- Prezident İlham Əliyev İtaliya Deputatlar Palatasının sədr müavininin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib
- İtaliya parlamentinin nümayəndələri Gəncəyə və Ağdama səfərləri barədə təəssüratlarını bölüşüblər
- ANAMA son üç gün ərzində 102 mina zərərsizləşdirib

***2020, 6 dekabr***

- Azərbaycan ilə müvafiq razılıq əsasında Rusiya tərəfindən Xankəndiyə göndərilən humanitar yük Gəncə beynəlxalq hava limanına çatdırılıb
- “Arabnews” qəzetində işğaldan azad edilmiş torpaqlarımızın bərpasından bəhs edən məqalə dərc olunub

***2020, 5 dekabr***

- Belarus portalında Azərbaycanın Vətən müharibəsində Zəfər qazanması barədə məqalə dərc edilib
- “The New York Times” qəzetində Ağdamın Çıraqlı kəndi barədə məqalə dərc edilib

***2020, 4 dekabr***

- İqor Korotçenko Azərbaycanın öz əsgər və zabitlərinin həyatını qorumasına imkan verən amillər barədə danışıb

***2020, 3 dekabr***

- Moldova mətbuatında erməni vandalizmindən bəhs edən məqalə yayılıb
- Ceyhun Bayramov: Regional sülh və təhlükəsizliyə ciddi təhlükə yaradan münaqişələrin əsas səbəbləri beynəlxalq hüquqa və ATƏT-in prinsiplərinə uyğunsuzluqdur

***2020, 2 dekabr***

- Anadolu agentliyi Azərbaycanın qazandığı zəfərin bölgədə yaratdığı yeni reallıqlardan yazır
- Peru mətbuatında Ermənistanın Azərbaycana qarşı təcavüzünün tarixi barədə danışılıb
- Tarixi zəfərimiz Azərbaycan Prezidentinin müdrik siyasətinin nəticəsidir

***2020, 1 dekabr***

- Azərbaycan və Türkiyə xarici işlər nazirlərinin telefon danışığı olub
- “Associated Press”in məlumatında Azərbaycan Prezidentinin azad edilmiş ərazilərimizin dirçəldiləcəyi ilə bağlı fikirləri yer alıb

***2020, 30 noyabr***

- Prezidentə yazırlar: Fəxr edirik ki, Sizin kimi müdrik, uzaqgörən, Vətənini və xalqını sevən Prezidentimiz var
- “Post Bulletin”: Ermənistan qoşunları torpağı yandıraraq gedirlər
- Reza Deqati: Ötən bir neçə gündə Qarabağda qəbiristanlıqların dağıdıldığını, evlərin yandırıldığını, məscidlərin tövləyə çevrildiyini gördüm

***2020, 29 noyabr***

- Misirin “Cümhuriyyə” nəşri: Azərbaycan Prezidenti heç kimin İslam abidələrini təhqir etməsinə imkan verilməyəcəyini bəyan edib

- Ağdam rayonunun Şahbulaq kəndindən videogörüntülər

***2020, 28 noyabr***

- Hikmət Hacıyev: Ermənistan 28 il ərzində Ağdamda şəhər soyqırımı həyata keçirib
- “France-24” Ağdam haqqında: Bəzən onu “Qafqazın Xirosiması” adlandırırlar
- Azərbaycandakı diplomatik korpusun nümayəndələri Ağdama gedirlər

***2020, 27 noyabr***

- Anadolu agentliyi Ağdam rayonunun görüntülərini əks etdirən videomaterial yayımlayıb
- İspaniyanın nüfuzlu beyin mərkəzində keçirilən seminarda Ermənistanın törətdiyi müharibə cinayətlərindən danışılıb
- “Euronews” Azərbaycanın işğaldan azad edilmiş Ağdam rayonu ilə bağlı reportaj yayımlayıb
- Çin nəşri Azərbaycanın Qarabağ döyüşlərində PUA-larla uğurlu hücumlarından yazıb

***2020, 26 noyabr***

- “Associated Press” ermənilərin Ağdam şəhərində törətdikləri dağıntılar barədə məqalə yayıb

***2020, 25 noyabr***

- Azərbaycan Prezidenti: İşğaldan azad olunmuş rayonların bərpası ilə bağlı böyük planlarımız var, artıq bu planlar reallaşır
- ABŞ azərbaycanlılar şəbəkəsi Amerika ictimaiyyətini ermənilərin ekoloji terrorizmi haqqında məlumatlandırma kampaniyası keçirir
- Azərbaycan Prezidenti İlham Əliyev xalqa müraciət edib: Prezident İlham Əliyevin xalqa müraciəti

***2020, 24 noyabr***

- Bərdə–Ağdam dəmir yolu xəttinin layihələndirilməsi və tikintisi ilə bağlı tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı
- Müdafiə Nazirliyi işğaldan azad olunmuş Ağdam rayonunun Abdal və Gülablı kəndlərinin videogörüntülərini yayıb
- Ağdam rayonunun Gülablı kəndində məskunlaşan ermənilər şəxsi əşyalarını çıxarmaq üçün hərbçilərimizə müraciət ediblər
- Türkiyə mediası Prezident İlham Əliyevin Ağdam şəhərinə səfərini geniş işıqlandırıb
- Prezident İlham Əliyev Məkkədən gətirdiyi “Qurani-Kərim”i Ağdam məscidinə bağışlayıb
- Prezident İlham Əliyev: Müharibənin bütün sirlərini açmaq hələ tezdir. Vaxt gələcək çox maraqlı məsələlər üzə çıxacaq
- Prezident İlham Əliyev: Biz bütün dünyaya göstərdik ki, döyüşkən xalq Azərbaycan xalqıdır
- Prezident: Biz Koçaryan, Sarkisyan ordusunu, Xocalı qatillərini məhv etmişik, onları qabağımızda diz çökdürmüşük
- Prezident: Bizim beynəlxalq nüfuzumuz kifayət qədər yüksəkdir və bu, münaqişənin həllində xüsusi rol oynayıb
- Prezident İlham Əliyev: İqtisadi və siyasi müstəqillik olmadan torpaqlarımızı düşməndən azad edə bilməzdik
- Azərbaycan Prezidenti: Biz qəhrəman əsgər və zabitlərimizin hesabına qələbə qazanmışıq
- Prezident İlham Əliyev: Biz öz tarixi missiyamızı şərəflə yerinə yetirdik, işğal olunmuş torpaqları azad etdik
- Prezident İlham Əliyev: Biz informasiya müharibəsində qələbə qazandıq
- Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva işğaldan azad edilmiş Ağdam şəhərində olublar: Prezident İlham Əliyevin çıxışı

***2020, 23 noyabr***

- Ağdamın Gülablı kəndindəki keçmiş orta məktəbdə Azərbaycan bayrağı qaldırılıb

- Prezidentə yazırlar: Siz tariximizdə yeni bir şanlı səhifəni qızıl hərflərlə yazdınız və insanların qəlbində ömürlük məskən saldınız
- Vətən müharibəsində zərər çəkmiş şəxslərə könüllülərin “Birlikdə dəstək” yardım kampaniyası davam edir
- **Birinci vitse-prezident Mehriban Əliyeva rəsmi “Instagram” səhifəsində Ağdamdan görüntülər paylaşıb**

***2020, 22 noyabr***

- Azərbaycanın hərbi-diplomatik uğurları Ağdam rayonunun işğaldan azad olunmasını və 853 saylı qətnamənin icrasını şərtləndirdi
- TRT HABER: Ağdamdakı dəhşətli mənzərə Ermənistanın vəhşiliyinə daha bir nümunədir
- “Arabnews” qəzeti : Azərbaycanlılar öz evlərinə qayıdırlar
- “Kuwait Times” qəzetində Ağdamın işğaldan azad olunması barədə məqalə dərc edilib

***2020. 21 noyabr***

- “Əl-Cəzirə” kanalının müxbiri: Ağdamda dağıntılardan başqa heç nə qalmayıb
- Prezident İlham Əliyev Rusiyanın müdafiə nazirinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib
- Ağdamda ağacəkmə coşqusu
- Avstraliya saytında Ağdamın işğaldan azad edilməsi barədə məqalə dərc olunub
- Professor Zakir Avşar: Bu Qələbə Azərbaycan əsgərinin cəbhədə qazandığı möhtəşəm zəfərdir
- İran mətbuatı Prezident İlham Əliyevin Ağdamın azad olunması ilə əlaqədar xalqa müraciətinə geniş yer ayırıb
- İspaniyanın Dövlət Televiziyasında Ağdamın işğaldan azad olunması ilə bağlı süjet yayımlanıb

***2020, 20 noyabr***

- Ordumuz Ağdama Azərbaycan Bayrağını sancdı
- “Le Monde” Ağdamın işğaldan azad olunmasından yazır
- Argentinanın “Clarin” nəşri: Azərbaycan Ordusu Ağdama daxil olub
- Paytaxt sakinləri Ağdamın işğaldan azad edilməsinin sevincini yaşayır
- Birinci vitse-prezident Mehriban Əliyeva Ağdamın işğaldan azad edilməsi münasibətilə xalqımızı təbrik edib
- BERNAMA agentliyi Azərbaycan Ordusunun Ağdam rayonuna daxil olmasından yazıb
- Türkiyə mediası Prezident İlham Əliyevin Ağdamın azad edilməsi ilə bağlı xalqımıza müraciətini canlı yayımlayıb
- “Regional İnkişaf” İctimai Birliyi Ermənistanın ölkəmizə qarşı törətdiyi ekoloji və humanitar terrorun dayandırılması ilə bağlı beynəlxalq təşkilatlara müraciət edib
- Sahibə Qafarova: Fransanın Qarabağla bağlı qərəzli yanaşması qəbuledilməzdir
- Azərbaycan Prezidenti İlham Əliyev xalqa müraciət edib: Prezident İlham Əliyevin xalqa müraciəti
- Prezident: Füzuli-Şuşa yolunun çəkilişinə başlamaqla Qarabağda ilk böyük layihəyə start vermişik
- Prezident İlham Əliyev: Ağdam rayonu bizə bir güllə atmadan, bir nəfər də şəhid vermədən qayıdır
- ANAMA-nın əməliyyat-axtarış tədbirləri uğurla davam etdirilir
- Azərbaycan Ordusunun bölmələri Ağdam rayonuna daxil olub

***2020, 19 noyabr***

- Moldova saytı ermənilərin Qarabağda ekoloji terror törətməsindən yazıb

- BMT-nin agentlikləri Azərbaycanın münaqişədən əziyyət çəkən rayonlarında ehtiyacların dəyərləndirilməsi missiyasını başa vurub

***2020, 18 noyabr***

- Prezidentə yazırlar: Siz müdrik, cəsarətli siyasət yürüdərək Vətən müharibəsində tarixi zəfərə nail oldunuz

***2020, 17 noyabr***

- Cəbhəyanı ərazilərdə 40 ədəd partlamamış hərbi sursat aşkar olunub
- Avropa Komissiyasının eksperti ermənilərin Qarabağda törətdikləri dağıntılar barədə məlumatlandırılıb
- Prezident İlham Əliyev: Erməni vəhşiliyinin nə demək olduğunu bütün dünyaya göstərəcəyik

***2020, 15 noyabr***

- CGTN ermənilərin Kəlbəcəri tərk edərkən törətdikləri vandallıqlardan yazır
- Prezidentin köməkçisi: Ermənistan Kəlbəcərin tam boşaldılması üçün noyabrın 25-dək vaxt istəyib
- Hikmət Hacıyev: Ermənistanın Kəlbəcərdən çıxması da vandalizm aktları ilə müşahidə olunur

***2020, 14 noyabr***

- Rusiyalı ekspert: Ermənilərin tərk etdikləri ərazilərdə yalnız azərbaycanlılar yaşayırdı

***2020, 13 noyabr***

- İbrahim Məmmədov: Sentyabrın 27-dən Ermənistanın Azərbaycan ərazisinə təcavüzü nəticəsində dəyən ziyanın araşdırılması üçün 11 işçi qrupu yaradılıb
- BBC Kəlbəcərdən reportaj hazırlayıb: ermənilər hətta pəncərə çərçivələrini, unitazları belə söküb özləri ilə aparırlar

***2020, 12 noyabr***

- İşğalın Dağlıq Qarabağ və ətraf rayonların fitosanitar vəziyyətinə təsiri
- Cəbhəyanı ərazilərdə xeyli sayda partlamamış hərbi sursat aşkarlanaraq zərərsizləşdirilib

***2020, 11 noyabr***

- Erməni politoloq: Bu, rüsvayçı razılaşmadır, bu, tam təslim olmaq deməkdir
- Ombudsman: Müzəffər Ali Baş Komandanımızın rəhbərliyi ilə rəşadətli Ordumuz böyük Qələbə sevincini bizə yaşatdı

***2020, 10 noyabr***

- Azərbaycan Prezidenti: Hər kəs bizim gücümüzü gördü,hər kəs bizim dəmir yumruğumuz nədir, anladı
- Cəbhəyanı ərazilərdə xeyli sayda partlamamış hərbi sursat aşkarlanaraq zərərsizləşdirilib

***2020, 9 noyabr***

- Anar Eyvazov: Azərbaycan əsgəri bir əlində silah, bir əlində bayraq növbəti hədəfə doğru irəliləyir
- ANAMA tərəfindən ermənilərin atdıqları partlamamış hərbi sursatlar zərərsizləşdirilib
- Cəbhədə noyabrın 9-na olan son vəziyyət

***2020, 8 noyabr***

- Ağdamın atəşə tutulması nəticəsində daha bir nəfər xəsarət alıb
- Baş Prokurorluq: Ermənistan silahlı qüvvələri dinc mülki əhalimizə qarşı cinayət əməllərini davam etdirir
- Düşmən Tərtər və Ağdam rayonlarının yaşayış məntəqələrini atəşə tutur
- Ermənilərin atdıqları partlamamış hərbi sursatlar, minalar zərərsizləşdirilib
- Cəbhədə noyabrın 8-nə olan son vəziyyət

***2020, 7 noyabr***

- Azərbaycan Müdafiə Nazirliyi: Düşmənin növbəti hərbi kolonu məhv edilib

- Anar Eyvazov: Ordumuzun əməliyyatları nəticəsində xeyli itki verən düşmən geri çəkilməyə məcbur olub
- Müdafiə Nazirliyi: Cəbhənin Ağdam istiqamətində düşmən itki verib
- Düşmən yaşayış məntəqələrimizi artilleriya atəşinə tutur
- Düşmən Ağdamın kəndlərini atəşə tutur
- Müdafiə Nazirliyi: Düşmən cəbhənin bəzi sahələrində geri çəkilməyə məcbur edilib

***2020, 6 noyabr***

- Anar Eyvazov: Azərbaycan əsgəri düşmənin 30 il müddətində qurduğu istehkamları yarır, pusquları dağıdır və hədəfə yaxınlaşır
- BERNAMA agentliyi Azərbaycanın Tərtər və Ağdam rayonlarının Ermənistan tərəfindən artilleriya atəşinə tutulmasından yazıb
- Cəbhədə noyabrın 6-na olan son vəziyyət

***2020, 5 noyabr***

- Azərbaycan Müdafiə Nazirliyi: Düşmənin 41-ci artilleriya alayının batareyası məhv edilib
- Anar Eyvazov: Azərbaycan Ordusu yaşayış məntəqələrini atəşə tutmur, yalnız legitim hərbi hədəfləri məhv edir
- Düşmən Tərtər və Ağdam rayonlarının kəndlərini atəşə tutur
- Prezident İlham Əliyev: Ermənistanın baş naziri vaxt qazanmaq, daha çox hərbi yardım əldə etmək üçün atəşkəs istəyir

***2020, 4 noyabr***

- Anar Eyvazov: Hazırda qoşunlarımız döyüşləri tam üstünlüklə davam etdirir
- Hikmət Hacıyev: Ermənistan XİN-in açıqlamasında mülki vətəndaşlarımıza qarşı yeni müharibə cinayətləri üçün zəmin hazırlandığı açıq görünür
- Azərbaycan Prezidenti: Ermənistanın kompromisi işğal edilmiş bütün ərazilərin boşaldılması olmalıdır
- Düşmən Ağdamın kəndlərini intensiv atəşə tutur
- Cəbhədə noyabrın 4-nə olan son vəziyyət
- ANAMA: Ermənistan silahlı qüvvələrinin ərazilərimizə atdıqları fosforlu top mərmiləri, raket zərərsizləşdirilib

***2020, 3 noyabr***

- Düşmən Ağdam və Ağcabədi rayonlarının ərazisini atəşə tutur
- Düşmən ağır itkilərə məruz qalıb

***2020, 2 noyabr***

- Anar Eyvazov: Ordumuz havada və quruda əməliyyat şəraitinə tam nəzarət edir
- Düşmən Ağdam və Ağcabədi rayonlarının ərazisini atəşə tutur
- Cəbhədə noyabrın 2-nə olan son vəziyyət

***2020, 1 noyabr***

- Ermənistan silahlı qüvvələrinin atəşləri nəticəsində meşələrdə və mülki obyektlərdə yanğınlar baş verib
- Cəbhədə noyabrın 1-nə olan son vəziyyət
- ANAMA cəbhəyanı ərazilərdə əməliyyat-axtarış işlərini davam etdirir

***2020, 31 oktyabr***

- Anar Eyvazov: Ordumuzun döyüş ruhu yüksək səviyyədədir
- Prezidentin köməkçisi: Cenevrə görüşündən sonra Ermənistan ordusu Tərtər, Ağdam, Goranboy, Ağcabədi rayonlarını ağır artilleriya və digər atıcı silahlardan atəşə tutub
- Prezidentin köməkçisi: Ermənistan ağır artilleriya, ballistik və reaktiv raketlər, kasetli bombalardan istifadə edərək Azərbaycan Ordusunun mövqelərini davamlı şəkildə atəşə tutur
- Tərtər, Ağdam və Ağcabədi rayonlarının ərazisi artilleriya atəşinə tutulub

- ANAMA: Döyüş başlıqları, top mərmisi və bombacıq aşkarlanıb

***2020, 30 oktyabr***

- Düşmənin növbəti "Osa" ZRK-sı məhv edilib
- Anar Eyvazov: Cəbhənin bütün istiqamətlərində vəziyyət ordumuzun nəzarəti altındadır
- Baş prokuror: Ermənistan ordusunun mülki əhalini atəşə tutması nəticəsində 7 ailə tamamilə məhv olub
- Səhər saatlarından başlayaraq bir sıra yaşayış məntəqələrimiz atəşə tutulur
- ANAMA mütəxəssisləri cəbhəboyu ərazilərdə top mərmisi, raketlər, tank əleyhinə minaları zərərsizləşdirib

***2020, 28 oktyabr***

- Prezident: Baza prinsiplərində beş rayonun qaytarılmasını nəzərdə tutan birinci mərhələ aktuallığını itirib
- ANAMA mütəxəssisləri cəbhə bölgəsində əməliyyat-axtarış işlərini davam etdirirlər

***2020, 27 oktyabr***

- Rusiyalı analitik: Ermənilər "biz o zaman qalib gəlmişdik, indi də Bakıya kimi gedərik" əfsanəsi ilə yatıb-dururdular
- ANAMA mütəxəssisləri cəbhəyanı ərazilərdə raket və top mərmilərini zərərsizləşdiriblər

***2020, 26 oktyabr***

- Anar Eyvazov: Azərbaycan Ordusunun bölmələri növbəti humanitar atəşkəs rejiminə bütün cəbhəboyu riayət edir
- Ermənistan atəşkəs rejimini pozmaqda davam edir: Tovuz və Daşkəsən rayonlarının əraziləri atəşə tutulur

***2020, 25 oktyabr***

- Anar Eyvazov: Hazırda Azərbaycan Ordusunun bölmələri cəbhəboyu döyüşləri davam etdirir
- Azərbaycan MN: Düşmən Ağdam, Tərtər və Ağcabədi rayonlarının ərazilərini atəşə tutur
- Cəbhəboyu ərazilərdə raket, top mərmiləri və dronlar zərərsizləşdirilib

***2020, 24 oktyabr***

- Azərbaycan HHQ-si düşmənin hərbi texnikasını və infrastrukturunu məhv edib
- Təcavüzkar Ermənistan Azərbaycana son 30 ildə vurduğu maddi və mənəvi ziyana görə reparasiya ödəməlidir
- ANAMA 175 partlamamış hərbi sursat və 2 dron aşkarlayıb

***2020, 23 oktyabr***

- Anar Eyvazov: Ordumuzun zəfər yürüşü davam edir
- Baş Prokurorluq Ermənistanın təxribatları nəticəsində dinc əhaliyə qarşı törədilmiş cinayətlərin son statistikasını açıqlayıb
- Müdafiə Nazirliyi: Azərbaycan Ordusu mülki əhalini və infrastrukturu atəşə tutmur
- ANAMA mütəxəssisləri cəbhəyanı ərazilərdə raket və top mərmilərini zərərsizləşdiriblər

***2020, 22 oktyabr***

- Anar Eyvazov: Ordumuz qələbə əzmi ilə zəfər yoluna davam edir
- Cəbhədəki son vəziyyət
- ANAMA Cəbhəboyu ərazilərdə top mərmisi, müxtəlif raketlər və partlamış mərmi qalıqları aşkarlayıb

***2020, 21 oktyabr***

- ANAMA mütəxəssisləri əməliyyat-axtarış işlərini davam etdirirlər

***2020, 20 oktyabr***

- Anar Eyvazov: Hazırda qoşunlarımız bütün cəbhə boyu əməliyyat şəraitinə tam nəzarət edir
- Tərtər və Ağdam rayonlarının əraziləri atəşə tutulur

- ANAMA: Cəbhəboyu ərazilərdə top mərmiləri, dron və partlamış mərmi qalıqları aşkarlanıb
- Cəbhədə son vəziyyət

***2020, 19 oktyabr***

- Ermənistan silahlı qüvvələri Tərtər və Ağdam rayonlarının yaşayış məntəqələrini artilleriya atəşinə tutur
- Hikmət Hacıyev: Humanitar atəşkəsin birinci günü Ermənistan Azərbaycanın 5 rayonuna 229 mərmi atıb
- Düşmən yaşayış məntəqələrimizi atəşə tutur
- Cəbhədə son vəziyyət

***2020, 18 oktyabr***

- Ermənistan ordusu Ağdam rayonunu atəşə tutur
- Prezidentə yazırlar: Fəxr edirik ki, Azərbaycanın güclü Ordusu və Sizin kimi müdrik rəhbəri var
- Ermənistan ordusunun yaşayış məntəqələrimizi atəşə tutması nəticəsində Ağdam rayon sakini xəsarət alıb

***2020, 17 oktyabr***

- Azərbaycan Müdafiə Nazirliyi: Düşmənin BM-21 “Qrad” yaylım atəşli reaktiv sistemi məhv edilib
- Düşmən yaşayış məntəqələrimizi atəşə tutur
- Qoşunlarımız cəbhənin müxtəlif istiqamətlərində irəliləməyə nail olub

***2020, 16 oktyabr***

- MN: Düşmən yaşayış məntəqələrimizi atəşə tutmaqda davam edir
- Düşmən yaşayış məntəqələrimizi atəşə tutur
- Azərbaycan Müdafiə Nazirliyi: Cəbhədə vəziyyət gərgin olaraq qalır
- Prezident: Fərq ondadır ki, bu müharibə Azərbaycan xalqı üçün azadlıq müharibəsi, Ermənistan üçün isə işğalçılıq müharibəsidir
- ANAMA mütəxəssisləri cəbhəboyu ərazilərdə əməliyyat-axtarışları davam etdirirlər

***2020, 15 oktyabr***

- Düşmən cəbhənin müxtəlif istiqamətlərində geri çəkilməyə məcbur edilib
- Düşmən yaşayış məntəqələrimizi atəşə tutmaqda davam edir
- Düşmənin dinc əhalini atəşə tutması nəticəsində Ağdam rayonunda iki sakin xəsarət alıb, evlərə ciddi ziyan dəyib

***2020, 14 oktyabr***

- Düşmənin dinc əhalini atəşə tutması nəticəsində Ağdam rayonunun Çəmənli kənd sakini xəsarət alıb
- Səhər saatlarından başlayaraq bir sıra yaşayış məntəqələrimiz atəşə tutulur
- ANAMA-nın əməliyyat-axtarış tədbirləri zamanı 12 ədəd partlamış mərmi qalığı aşkarlanıb

***2020, 13 oktyabr***

- Goranboy, Tərtər və Ağdam rayonlarının əraziləri atəşə tutulur
- Düşmənin bütün cəbhəboyu fəaliyyətinin qarşısı alınıb
- ANAMA tərəfindən 374 ədəd bombacıq partlayış yolu ilə zərərsizləşdirilib

***2020, 12 oktyabr***

- Ağdam rayonu atəşə tutulub
- Goranboy, Tərtər və Ağdam rayonları atəşə tutulur

***2020, 11 oktyabr***

- Müdafiə Nazirliyinin bəyanatı: Bölgədəki vəziyyətin gərginləşməsinə görə məsuliyyət Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür

- XİN: Ermənistan silahlı qüvvələri humanitar atəşkəslə bağlı razılığı kobud şəkildə pozmağa davam edir

***2020, 10 oktyabr***

- Düşmən Ağdam rayonu ərazisini atəşə tutur
- ANAMA qadağan olunmuş sursatlar və "TOÇKA-U" taktiki raketi aşkarlayıb
- Tərtər və Ağdam düşmən tərəfindən atəşə tutulur
- Düşmən yaşayış məntəqələrimizi intensiv atəşə tutur
- ANAMA-nın mütəxəssisləri cəbhəboyu ərazilərdə operativ əməliyyat-axtarışlarını davam etdirirlər

***2020, 9 oktyabr***

- FHN: Ermənistan silahlı qüvvələrinin atdığı mərmilər Azərbaycandakı mülki obyektlərdə yanğınlara səbəb olub
- Müdafiə Nazirliyi: Ermənistan ordusu yaşayış məntəqələrimizi atəşə tutur
- Cəbhəboyu rayonlarda top mərmiləri, raketlər, patronlar və mərmi qalıqları aşkarlanıb

***2020, 8 oktyabr***

- Füzuli rayonunda Ermənistan silahlı qüvvələrinin atdığı ağ fosforlu tüstülü mərmi aşkarlanıb
- Düşmən yaşayış məntəqələrimizi artilleriya atəşinə tutub
- Anar Eyvazov: Azərbaycan Ordusunun qətiyyətli əks-hücum əməliyyatı davam edib
- Ermənistan ordusunun mülki əhalini hədəfə alması nəticəsində Ağdam rayonunun Böyükbəyli kəndində iki sakin xəsarət alıb
- Təmas xəttində 3 mərmi və 1 raket aşkarlanıb
- Düşmən yaşayış məntəqələrimizi atəşə tutmaqda davam edir

***2020, 7 oktyabr***

- Anar Eyvazov: Ordumuz qazandığı uğurları genişləndirmək üçün irəliləyərək yeni dayaq məntəqələrini azad edib
- Baş Prokurorluq: Düşmənin mülki şəxsləri hədəfə alması nəticəsində Ağdam rayonunun Xındırıstan kənd sakini həlak olub
- Ermənistan ordusu yaşayış məntəqələrimizi atəşə tutur
- ANAMA ötən gün raket, 598 bombacıq və 14 partlamış mərmi qalıqları aşkarlayıb
- Ombudsman Ermənistan silahlı qüvvələrinin ağır artilleriya atəşinə tutduğu Gəncədə faktaraşdırıcı missiya həyata keçirib

***2020, 6 oktyabr***

- ANAMA: Goranboy rayonu ərazisində kasetli mərmi aşkarlanıb

***2020, 5 oktyabr***

- Azərbaycan Həmkarlar İttifaqları Ermənistanın son təxribatları ilə əlaqədar beynəlxalq təşkilatlara müraciət edib
- Baş Prokurorluq: Təcavüzkar Ermənistanın hərbi-siyasi rəhbərliyi dinc əhaliyə qarşı terror əməllərini davam etdirir
- Azərbaycan Prezidenti: Fransa özü-özünü həmsədrlər üçlüyünün xaricinə qoyur və biz buna səssiz qala bilmərik
- ANAMA tərəfindən cəbhəboyu ərazilərdə təxirəsalınmaz əməliyyatlar keçirilib

***2020, 4 oktyabr***

- Dövlət Baxçalı: Ermənistan zülm saçan üzünü bir daha göstərdi
- Ombudsman Gəncə şəhərində baş vermiş insan tələfatı və törədilmiş dağıntılarla bağlı bəyanat yayıb
- Müdafiə Nazirliyi: Ermənistan ordusu Azərbaycanın yaşayış məntəqələrini atəşə tutmaqda davam edir
- Müdafiə Nazirliyinin mətbuat katibi: Azərbaycan Ordusu düşmənə ağır zərbələr endirir

- Müdafiə Nazirliyi: Kəndlərimiz raket və artilleriya atəşinə tutulur

***2020, 3 oktyabr***

- FHN: Ermənistan silahlı qüvvələri mülki obyektləri atəşə tutmaqda davam edir
- Kamran Əliyev: Ermənistan silahlı qüvvələrinin dinc əhaliyə qarşı törətdiyi cinayətlərlə bağlı Azərbaycanın Baş Prokurorluğu tərəfindən 12 cinayət işi başlanıb
- Müdafiə Nazirliyi: Hazırda düşmən kəndlərimizi atəşə tutur, qəti cavab tədbirləri görülür

***2020, 2 oktyabr***

- Ermənistan silahlı qüvvələri mülki obyektləri atəşə tutmağa davam edir
- XİN: Mülki şəxsləri və obyektləri hədəfə alan Ermənistan beynəlxalq humanitar hüquq normalarını kobudcasına pozur
- Anar Eyvazov: Azərbaycan Ordusunun əks-hücum əməliyyatı cəbhənin bütün istiqamətlərində uğurla davam edir
- Ermənistan ordusu Şəmkirin Sabirkənd və Ağdamın Quzanlı yaşayış məntəqələrini raket atəşinə tutur
- Müdafiə Nazirliyi: Düşmən Bərdə və Tovuz rayonlarının kəndlərini də raket atəşinə tutub

***2020, 1 oktyabr***

- Anar Eyvazov: Azərbaycan Ordusunun apardığı qətiyyətli əks-hücum əməliyyatı cəbhənin bütün istiqamətlərində uğurla davam edir
- Baş Prokurorluq: Düşmənin ağır artilleriyadan atəşi nəticəsində Ağdam rayonunun Hacıməmmədli kəndində ata və oğlu həlak olub
- Düşmən yaşayış məntəqələrimizi yenidən artilleriya atəşinə tutur

***2020, 30 sentyabr***

- FHN: Tərtər və Ağdam rayonlarında baş verən yanğınların qarşısı alınıb
- Baş Prokurorluq: Hazırkı vaxtadək mülki əhalidən 14 nəfər həlak olub, 46 nəfər xəsarət alıb

***2020, 29 sentyabr***

- Baş Prokurorluq: Hazırkı vaxtadək mülki əhalidən 33 nəfər müxtəlif dərəcəli xəsarətlərlə xəstəxanalara yerləşdirilib
- Xarici İşlər Nazirliyi və Baş Prokurorluq Ermənistanın son hərbi təxribatları ilə bağlı birgə bəyanat yayıb

***2020, 28 sentyabr***

- Ombudsman Ermənistanın mülki əhalini atəşə tutması və insan təlefatı ilə bağlı növbəti etiraz bəyanatını yayıb
- Bakı və daha 21 şəhər-rayonda komendant saatı başlayıb
- FHN: Düşmən bölmələrinin artilleriya atəşi nəticəsində Ağdam və Tərtər rayonlarının bir sıra kəndlərində mülki obyektlər yanıb
- Baş Prokurorluq: Düşmənin qrad qurğularından açdığı atəş nəticəsində Ağdam rayon sakinin həlak olması ilə bağlı cinayət işi başlanıb

***2020, 27 sentyabr***

- Pakistan XİN Ermənistanın növbəti hərbi təxribatını pisləyən bəyanat yayıb
- Ağdam və Tərtər rayonlarında fərdi evlərdə və mülki obyektlərdə baş vermiş yanğınların söndürülməsi üçün FHN-in müvafiq qüvvələri cəlb edilib
- Diasporla İş üzrə Dövlət Komitəsi Azərbaycan diaspor nümayəndələrinə müraciət edib
- Baş Prokurorluq Ermənistan ordusunun genişmiqyaslı təxribatları ilə bağlı yeni məlumat yayıb
- Baş Prokurorluq: Hazırkı vaxtadək mülki əhalidən müxtəlif dərəcəli bədən xəsarətləri alan 9 nəfər xəstəxanalara yerləşdirilib

- Türkiyə XİN: Azərbaycan öz xalqını və ərazi bütövlüyünü qorumaq üçün qanuni müdafiə haqqına malikdir
- Azərbaycan Ordusunun həyata keçirdiyi əks-həmlə əməliyyatı uğurla davam edir
- Baş Prokurorluq Ermənistan ordusunun mülki əhalini və yaşayış məntəqələrini atəşə tutması ilə bağlı məlumat yayıb
- Anar Eyvazov: Qoşunlarımızın sürətli əks-hücum əməliyyatları davam edir
- Ermənistan silahlı qüvvələri bütün cəbhə boyu genişmiqyaslı təxribat törədib
- Ermənistan silahlı qüvvələrinin atəş nöqtələri susdurulur və döyüş fəaliyyətinin qarşısı alınır

**Ermənistan silahlı qüvvələrinin atəş nöqtələri susdurulur və döyüş fəaliyyətinin qarşısı alınır**

[08:35] 27.09.2020

Cəbhənin ən gərgin Tərtər-Ağdam və Füzuli-Cəbrayıl istiqamətlərində yerləşən ön xətt hərbi hissələri, raket və artilleriya bölmələri, cəbhə aviasiyası, zirehli texnika və digər qoşun növlərinin qarşılıqlı fəaliyyəti ilə Ermənistan silahlı qüvvələrinin atəş nöqtələri susdurulur və döyüş fəaliyyətinin qarşısı alınır.

Müdafiəyə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, hazırda Azərbaycan Ordusu tərəfindən cavab tədbirləri görülür və qoşunlarımız əməliyyat şəraitinə tam nəzarət edir.

Cəbhəboyu zonada baş verən hadisələrlə bağlı mətbuata və ictimaiyyətə əlavə məlumat veriləcək.

Əhali arasında təşviş salmamaq, həmçinin hərbi qulluqçularımızın təhlükəsizliyini təmin etmək məqsədilə sosial şəbəkə istifadəçilərini, elektron media və digər kütləvi informasiya vasitələri nümayəndələrini rəsmi olmayan, dəqiqləşdirilməmiş və qeyri-obyektiv məlumatlardan istifadə etməməyə çağırırıq.

**AZƏRTAC**

**Ermənistan silahlı qüvvələri bütün cəbhə boyu genişmiqyaslı təxribat törədib**

[07:46] 27.09.2020

Sentyabrın 27-də saat 06:00 radələrində Ermənistan silahlı qüvvələri genişmiqyaslı təxribat törədərək cəbhəboyu zonada yerləşən Azərbaycan Ordusunun mövqelərini və yaşayış məntəqələrimizi iriçaplı silahlar, minaatanlar və müxtəlif çaplı artilleriya qurğularından intensiv atəşə tutub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, düşmən tərəfindən Tərtər rayonunun Qapanlı, Ağdam rayonunun Çıraqlı və Orta Qərvənd, Füzuli rayonunun Alxanlı və Şükürbəyli və Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndlərinin intensiv atəşə tutulması nəticəsində mülki əhali arasında həlak olan və yaralananlar var. Mülki infrastruktur obyektlərinə ciddi ziyan dəyib.

Mülki əhali və hərbi qulluqçular arasında itkilər və yaralılar barədə məlumat dəqiqləşdirilir.

Azərbaycan Ordusunun ön xətt bölmələri düşmənin bu təxribatının qarşısını almaq və qoşunların qarşıdurma xəttinə yaxın zonalarda yaşayan mülki əhalinin təhlükəsizliyini təmin etmək məqsədilə cavab tədbirləri görür.

**AZƏRTAC**

## Anar Eyvazov: Qoşunlarımızın sürətli əks-hücum əməliyyatları davam edir

[10:52] 27.09.2020

Sentyabrın 27-də saat 06:00 radələrində Ermənistan silahlı qüvvələri genişmiqyaslı təxribat törədərək cəbhəboyu zonada yerləşən Azərbaycan Ordusunun mövqelərini və yaşayış məntəqələrimizi iriçaplı silahlar, minaatanlar və müxtəlif çaplı artilleriya qurğularından intensiv atəşə tutub. Düşmən tərəfindən Tərtər rayonunun Qapanlı, Ağdam rayonunun Çıraqlı və Orta Qərvənd, Füzuli rayonunun Alxanlı və Şükürbəyli və Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndlərinin intensiv atəşə tutulması nəticəsində mülki əhali arasında həlak olan və yaralananlar var. Mülki infrastruktur obyektlərinə ciddi ziyan dəyib.

AZƏRTAC xəbər verir ki, bunu Müdafiə Nazirliyinin mətbuat xidmətinin mətbuat katibi polkovnik-leytenant Anar Eyvazov sentyabrın 27-də jurnalistlərə açıqlamasında deyib.

A.Eyvazov bildirib ki, cəbhənin ən gərgin Tərtər-Ağdam və Füzuli-Cəbrayıl istiqamətlərində yerləşən ön xətt hərbi hissələri, raket və artilleriya bölmələri, cəbhə aviasiyası, zirehli texnika və digər qoşun növlərinin qarşılıqlı fəaliyyəti ilə Ermənistan silahlı qüvvələrinin atəş nöqtələri susdurulur və döyüş fəaliyyətinin qarşısı alınır.

Ermənistan silahlı qüvvələrinin döyüş aktivliyinin qarşısını almaq, mülki əhalinin təhlükəsizliyini təmin etmək məqsədilə Azərbaycan Ordusunun komandanlığı tərəfindən qoşunlarımızın bütün cəbhə boyu əks-hücum əməliyyatı başlaması barədə qərar verilib.

Şəxsi heyət və tank bölmələrimiz raket-artilleriya qoşunlarının bölmələri, cəbhə aviasiyası və pilotsuz uçuş aparatlarının dəstəyi ilə Ermənistan silahlı qüvvələrinin ön xətdə və müdafiənin dərinliyində yerləşən xeyli sayda canlı qüvvəsi, hərbi obyektləri və döyüş texnikasını aşkar edərək məhv edirlər.

Əldə olunan məlumata görə müxtəlif istiqamətlərdə Ermənistan hava hücumundan müdafiə bölmələrinin 12 ədəd “OSA” zenit-raket kompleksi məhv edilib. Azərbaycan Hərbi Hava Qüvvələrinin cəbhənin Tərtər istiqamətində bir döyüş helikopteri zədələnib, ekipaj üzvləri xüsusi peşəkarlıq göstərərək helikopteri qoşunlarımızın nəzarət etdiyi əraziyə endirməyi bacarıblar. Canlı itki yoxdur. Qoşunlarımızın sürətli əks-hücum əməliyyatları davam edir.

Əhali arasında ajiotaj və süni çaşqınlıq salmamaq, həmçinin hərbi qulluqçularımızın təhlükəsizliyini təmin etmək məqsədilə sosial şəbəkə istifadəçilərini, elektron media və digər kütləvi informasiya vasitələri nümayəndələrini rəsmi olmayan, dəqiqləşdirilməmiş və qeyri-obyektiv məlumatlardan istifadə etməməyə çağırırıq.

Cəbhəboyu zonada baş verən hadisələrlə bağlı mətbuata və ictimaiyyətə mütəmadi olaraq məlumat veriləcək.

**AZƏRTAC**

**Baş Prokurorluq Ermənistan ordusunun mülki əhalini və yaşayış məntəqələrini atəşə tutması ilə bağlı məlumat yayıb**

[12:32] 27.09.2020

Azərbaycan Respublikasının Baş Prokurorluğu Ermənistan silahlı qüvvələrinin genişmiqyaslı təxribat törədərək cəbhəboyu zonada Azərbaycan Ordusunun mövqelərini və yaşayış məntəqələrimizi iriçaplı silahlar, minaatanlar və müxtəlif çaplı artilleriya qurğularından atəşə tutması ilə bağlı məlumat yayıb.

Baş Prokurorluğun mətbuat xidmətindən AZƏRTAC-a daxil olan məlumatda bildirilib ki, sentyabrın 27-də səhər saat 06 radələrində Ermənistan silahlı qüvvələri genişmiqyaslı təxribat törədərək cəbhəboyu zonada yerləşən Azərbaycan Ordusunun mövqelərini iriçaplı silahlar, minaatanlar və müxtəlif çaplı artilleriya qurğularından intensiv atəşə tutub.

Riyakar və qeyri-konstruktiv siyasət aparan təcavüzkar Ermənistanın hərbi-siyasi rəhbərliyi, həmçinin təxribatçı əməlləri ilə beynəlxalq hüququn fundamental norma və prinsiplərini kobud şəkildə pozaraq Azərbaycan Respublikasının qəsdən və hədəflənmiş şəkildə dinc əhalisinin sıx yaşadığı əraziləri artilleriya atəşinə tutmaqla mülki əhaliyə qarşı müxtəlif cinayətlər törədiblər.

Düşmən tərəfindən Tərtər rayonunun Qapanlı, Ağdam rayonunun Çıraqlı və Orta Qərvənd, Füzuli rayonunun Alxanlı və Şükürbəyli və Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndlərinin intensiv atəşə tutulması nəticəsində mülki əhali arasında həlak olanlar və yaralananlar var, o cümlədən çoxsaylı ev və mülki obyektlərə ciddi ziyan dəyib.

Mülki əhali arasında Tərtər rayon sakini 1987-ci il təvəllüdlü Röyal Həsənov, Daşkəsən rayon sakini 1982-ci il təvəllüdlü Cəlal Zalov, Füzuli rayon sakinləri 1960-cı il təvəllüdlü Füzuli Məmmədov, 1995-ci il təvəllüdlü Vüsal Quliyev, Ağdam rayon sakinləri 1961-ci il təvəllüdlü Bəykişi Zeynalov, 1997-ci il təvəllüdlü Eşqin Allahyarov müxtəlif dərəcəli bədən xəsarətləri alaraq xəstəxanalara yerləşdiriliblər.

Dərin təəssüf hissi ilə bildiririk ki, düşmən təxribatı nəticəsində mülki əhali və hərbi qulluqçular arasında itkilərimiz vardır.

Hazırda prokurorluq əməkdaşları tərəfindən döyüş şəraitində mümkün olan bütün istintaq əməliyyat tədbirləri həyata keçirilir, o cümlədən yaralananların aldıqları xəsarətlərin ağırlıq dərəcəsini, eləcə də mülki infrastruktur obyektlərinə dəymiş ziyanın məbləğini müəyyən etmək məqsədilə müvafiq ekspertizalar təyin edilib.

Yerlərdə prokurorluq, o cümlədən hərbi prokurorluq əməkdaşları tərəfindən baş vermiş hadisələrin tam təfərrüatları araşdırıldıqdan sonra məsələyə hüquqi qiymət veriləcək.

Müxtəlif cinayətlər törətmiş Ermənistan silahlı qüvvələrinin hərbi qulluqçularının beynəlxalq-hüquq normaları çərçivəsində məsuliyyətə cəlb olunaraq cəzalandırılmalarını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən zəruri sənədləşdirilmə aparılır və sübutların toplanılması həyata keçirilir.

Düşmən hücumunun qarşısını alarkən döyüşdə şəhid olan hərbi qulluqçularımızın qəhrəmancasına göstərdiyi yüksək əzmi və şücaəti hər zaman Azərbaycan xalqının xatirəsində əbədi yaşayacaq.

İctimaiyyətə mütəmadi qaydada məlumatların verilməsi təmin olunacaq.

Kütləvi informasiya vasitələrindən, həmçinin sosial media istifadəçilərindən rəsmi olmayan və dəqiqləşdirilməmiş məlumatların ictimailəşdirilməməsi xahiş edilir.

**AZƏRTAC**

**Azərbaycan Ordusunun həyata keçirdiyi əks-həmlə əməliyyatı uğurla davam edir**

[12:13] 27.09.2020

Azərbaycan Ordusunun bölmələri cəbhənin Tərtər-Ağdam, Füzuli-Cəbrayıl və Murovdağı istiqamətlərində Ermənistan qoşunlarının işğalı altında olan vacib yüksəkliklər uğrunda döyüşlər aparırlar.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, raket-artilleriya qoşunları və aviasiya vasitələri düşmənin komanda məntəqələrinə zərbələr endirir, manevr edən çoxlu sayda canlı qüvvəsini, döyüş texnikasını və hərbi obyektlərini məhv edirlər.

Bütün cəbhə boyu şiddətli döyüşlər gedir.

**AZƏRTAC**

**Türkiyə XİN: Azərbaycan öz xalqını və ərazi bütövlüyünü qorumaq üçün qanuni müdafiə haqqına malikdir**

[13:20] 27.09.2020

Ermənistan silahlı qüvvələrinin sentyabrın 27-də atəşkəsi pozaraq cəbhə xəttində Azərbaycanın Tərtər rayonunun Qapanlı, Ağdam rayonunun Çıraqlı və Orta Qərvənd, Füzuli rayonunun Alxanlı və Şükürbəyli və Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndlərini ağır silahlarla intensiv atəşə tutduğunu öyrəndik. Beynəlxalq hüquqa qarşı açıq təhdid olan və mülki əhalinin itkisinə yol açan erməni hücumlarını şiddətlə qınayırıq. Bu hücumlarla Ermənistan bölgədə sülh və sabitliyin qarşısını alan ən böyük əngəl olduğunu bir daha göstərmişdir.

Bu fikirlər AZƏRTAC-ın sorğusu əsasında Türkiyə Xarici İşlə Nazirliyinin sözçüsü Hami Aksoyun açıqlamasında ifadə olunub.

Nazirliyin rəsmisi deyib: "Azərbaycan öz xalqını və ərazi bütövlüyünü qorumaq üçün qanuni müdafiə haqqından istifadə edəcəkdir. Bununla bağlı bir ürək olaraq Türkiyənin Azərbaycana dəstəyi yekdildir. Azərbaycan necə istərsə, o şəkildə yanında olacağıq. Beynəlxalq ictimaiyyəti də haqlının yanında olmağa dəvət edirik. Yaralılara şəfa, şəhid azərbaycanlı qardaşlarımıza Allahdan rəhmət və itkilərə görə can Azərbaycana başsağlığı diləyirik".

**Sabir Şahtaxtı,**
AZƏRTAC-ın xüsusi müxbiri, Ankara

**AZƏRTAC**

**Baş Prokurorluq: Hazırkı vaxtadək mülki əhalidən müxtəlif dərəcəli bədən xəsarətləri alan 9 nəfər xəstəxanalara yerləşdirilib**

[14:51] 27.09.2020

Xəbər verdiyimiz kimi, sentyabrın 27-də səhər saat 06 radələrindən başlayaraq Ermənistan silahlı qüvvələri genişmiqyaslı təxribat törədərək Azərbaycan Ordusunun cəbhəboyu zonada yerləşən mövqelərini iriçaplı silahlar, minaatanlar və müxtəlif çaplı artilleriya qurğularından intensiv atəşə tutub.

Təcavüzkar Ermənistanın hərbi-siyasi rəhbərliyi təxribatçı əməllərini davam etdirməklə beynəlxalq hüququn fundamental norma və prinsiplərini kobud şəkildə pozaraq Azərbaycan Respublikasının qəsdən və hədəflənmiş şəkildə dinc əhalisinin sıx yaşadığı əraziləri artilleriya atəşinə tutmaqla mülki əhaliyə qarşı müxtəlif cinayətlər törədiblər.

Baş Prokurorluğun mətbuat xidmətindən AZƏRTAC-a daxil olan məlumatda bildirilib ki, düşmən tərəfindən Tərtər rayonunun Qapanlı, Ağdam rayonunun Çıraqlı və Orta Qərvənd, Füzuli rayonunun Alxanlı və Şükürbəyli, Cəbrayıl rayonunun Cocuq Mərcanlı, Goranboy və Daşkəsən rayonunun bir neçə kəndlərinin intensiv atəşə tutulması nəticəsində mülki əhali arasında həlak olanlar və yaralananlar var, o cümlədən çoxsaylı ev və mülki obyektlərə külli miqdarda ziyan dəyib.

Hazırkı vaxtadək ümumilikdə mülki əhalidən 9 nəfər müxtəlif dərəcəli bədən xəsarətləri alaraq xəstəxanalara yerləşdirilib.

Həmçinin bildirilib ki, düşmənin mülki obyektləri hədəfə alması nəticəsində bir sıra mülki evlərə külli miqdarda maddi ziyan dəyib, o cümlədən xırda və iri buynuzlu heyvan və ot tayaları məhv edilib.

Hazırda prokurorluq əməkdaşları tərəfindən döyüş şəraitində mümkün olan bütün istintaq-əməliyyat tədbirləri həyata keçirilir, o cümlədən yaralananların aldıqları xəsarətlərin ağırlıq dərəcəsinin, eləcə də mülki infrastruktur obyektlərinə dəymiş ziyanın məbləğinin müəyyənləşdirilməsi məqsədilə müvafiq ekspertizalar təyin olunub.

İctimaiyyətə mütəmadi qaydada məlumatlar veriləcək.

**AZƏRTAC**

**Baş Prokurorluq Ermənistan ordusunun genişmiqyaslı təxribatları ilə bağlı yeni məlumat yayıb**

[16:24] 27.09.2020

Xəbər verildiyi kimi, sentyabrın 27-də Ermənistan silahlı qüvvələri genişmiqyaslı təxribat törədərək cəbhəboyu zonada yerləşən Azərbaycan Ordusunun mövqelərini iriçaplı silahlar, minaatanlar və müxtəlif çaplı artilleriya qurğularından intensiv atəşə tutub. Təcavüzkar Ermənistanın hərbi-siyasi rəhbərliyi təxribatçı əməllərini davam etdirərək Cenevrə Konvensiyaları ilə üzərinə düşən öhdəlikləri kobud şəkildə pozmaqla dinc əhalinin sıx yaşadığı əraziləri ağır silahlardan atəşə tutub, bununla da mülki əhaliyə qarşı müxtəlif cinayətlər törətməyə davam ediblər.

Baş Prokurorluğun mətbuat xidmətindən AZƏRTAC-a daxil olan məlumatda bildirilib ki, düşmənin Tərtər rayonunun Qapanlı, Ağdam rayonunun Çıraqlı və Orta Qərvənd, Füzuli rayonunun Alxanlı və Şükürbəyli, Cəbrayıl rayonunun Cocuq Mərcanlı, Goranboy və Daşkəsən rayonunun bir neçə kəndlərinin intensiv atəşə tutması nəticəsində mülki əhali arasında həlak olanlar və yaralananlar var, o cümlədən çoxsaylı ev və mülki obyektlərə külli miqdarda ziyan dəyib, həmçinin xırda və iri buynuzlu heyvan və təsərrüfat təyinatlı məntəqələri, eləcə də nəqliyyat vasitələri məhv edilib.

Hazırkı vaxtadək ümumilikdə mülki əhalidən 14 nəfər müxtəlif dərəcəli bədən xəsarətləri alaraq xəstəxanalara yerləşdiriliblər.

Mülki əhalini hədəfə alan təcavüzkar Ermənistan silahlı qüvvələri tərəfindən dinc sakinlərin yaşadığı Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinə top mərmisinin atılması nəticəsində kənd ərazisində yerləşən elektrik yarımstansiyası sıradan çıxıb, kənddə elektrik enerjisi kəsilib.

Hazırda prokurorluq əməkdaşları tərəfindən döyüş şəraitində mümkün olan bütün istintaq əməliyyat tədbirləri həyata keçirilir, o cümlədən yaralananların aldıqları xəsarətlərin ağırlıq dərəcəsini, eləcə də mülki infrastruktur obyektlərinə dəymiş ziyanın məbləğini dəqiqləşdirmək məqsədilə müvafiq ekspertizalar təyin edilib.

Müxtəlif cinayətlər törətmiş Ermənistan silahlı qüvvələrinin hərbi qulluqçularının beynəlxalq hüquq normaları çərçivəsində məsuliyyətə cəlb edilərək cəzalandırılmaları istiqamətində Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən zəruri tədbirlər görülür.

Kütləvi informasiya vasitələrindən, həmçinin sosial media istifadəçilərindən rəsmi olmayan və dəqiqləşdirilməmiş məlumatların ictimailəşdirilməməsi xahiş edilir.

İctimaiyyətə mütəmadi qaydada məlumatlar veriləcək.

**AZƏRTAC**

**Diasporla İş üzrə Dövlət Komitəsi Azərbaycan diaspor nümayəndələrinə müraciət edib**

[18:09] 27.09.2020

Diasporla İş üzrə Dövlət Komitəsi Azərbaycan diaspor nümayəndələrinə müraciət edib. Bu barədə AZƏRTAC-a komitədən məlumat verilib. Müraciətdə deyilir:

Əziz həmvətənlər, Azərbaycan Respublikası Müdafiə Nazirliyinin rəsmi məlumatına əsasən, sentyabrın 27-si saat 06:00 radələrində Ermənistan silahlı qüvvələri genişmiqyaslı təxribat törədərək, cəbhəboyu zonada yerləşən Azərbaycan Ordusunun mövqelərini, Tərtər rayonunun Qapanlı, Ağdam rayonunun Çiraqlı və Orta Qaravənd, Füzuli rayonunun Alxanlı, Şükürbəyli və Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndlərini iriçaplı silahlar, minaatanlar və müxtəlif çaplı artilleriya qurğularından intensiv atəşə tutub.

Hazırda Azərbaycan Respublikası silahlı qüvvələri Ermənistanın növbəti hərbi təcavüzünün qarşısının alınması, mülki əhalinin təhlükəsizliyinin təmin edilməsi məqsədilə zəruri əks-həmlə tədbirləri həyata keçirir. Azərbaycan Ordusu qüdrətlidir, Ermənistanın hərbi təxribatlarına layiqli cavab verməyə və işğal olunmuş torpaqlarımızı düşməndən azad etməyə hazırdır.

Xaricdə yaşayan azərbaycanlılara müraciət edərək, sosial şəbəkədə, elektron media və digər kütləvi informasiya vasitələrində rəsmi olmayan, dəqiqləşdirilməmiş və qeyri-obyektiv məlumatlardan istifadə etməməyə çağırırıq.

Əziz diaspor nümayəndələri, bizə daxil olan müraciətlərdən cəbhəboyu zonada baş verənlərdən nə qədər narahat olduğunuzu başa düşürük və bildiririk ki, xaricdə yaşayan hər bir soydaşımız Ermənistanın təxribatçı hərəkətlərinin, eləcə də Azərbaycanın haqlı mövqeyinin dünyaya çatdırılmasında, yaşadıqları ölkələrin ictimaiyyətinin doğru məlumatlandırılmasında fəallıq göstərməli, hal-hazırda cəbhədə baş verənlərlə bağlı səhih məlumatların yayılmasında yaxından iştirak etməlidir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin bu gün xalqa müraciətində deyildiyi kimi: “Bu işğala son qoyulmalıdır və qoyulacaq! Biz haqq yolundayıq. Bizim işimiz haqq işidir. Biz zəfər çalacağıq. Qarabağ bizimdir, Qarabağ Azərbaycanındır!"

**AZƏRTAC**

**Ağdam və Tərtər rayonlarında fərdi evlərdə və mülki obyektlərdə baş vermiş yanğınların söndürülməsi üçün FHN-in müvafiq qüvvələri cəlb edilib**

[19:39] 27.09.2020

Məlum olduğu kimi, sentyabrın 27-də saat 06.00 radələrində Ermənistan silahlı qüvvələri genişmiqyaslı təxribat törədərək Azərbaycan Ordusunun cəbhəboyu zonada yerləşən mövqelərini iriçaplı silahlar, minaatanlar və müxtəlif çaplı artilleriya qurğularından intensiv atəşə tutub.

Fövqəladə Hallar Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, düşmənin təxribatı zamanı dinc əhalinin sıx yaşadığı yaşayış məntəqələri də atəşə məruz qalıb. Nəticədə mülki əhaliyə məxsus fərdi yaşayış evləri və digər mülki obyektlər dağıdılıb, dinc əhalinin əmlakına ciddi ziyan yetirilib.

Ermənistan silahlı qüvvələrinin atdığı mərmilər nəticəsində Ağdam və Tərtər rayonlarında fərdi evlərdə və mülki obyektlərdə baş vermiş yanğınların söndürülməsi üçün Fövqəladə Hallar Nazirliyinin Dövlət Yanğından Mühafizə Xidmətinin müvafiq qüvvələri dərhal əraziyə cəlb edilib.

Yanğınlar görülmüş operativ tədbirlər nəticəsində qısa müddətdə söndürülüb.

**AZƏRTAC**

## Pakistan XİN Ermənistanın növbəti hərbi təxribatını pisləyən bəyanat yayıb

[20:25] 27.09.2020

Pakistan Ermənistan silahlı qüvvələrinin Azərbaycanın Dağlıq Qarabağ bölgəsində növbəti hərbi təxribatını pisləyən bəyanat yayıb.

AZƏRTAC xəbər verir ki, Pakistan Xarici İşlər Nazirliyinin bəyanatında deyilir: "Erməni silahlı qüvvələri tərəfindən sentyabrın 27-də Azərbaycanın Tərtər, Ağdam, Füzuli və Cəbrayıl rayonlarının kəndlərinin mülki əhalisini intensiv atəşə tutmasını qınayırıq və bu, növbəti təxribatdır. Bu, bütün bölgənin sülh və təhlükəsizliyi üçün ciddi təhdiddir. Pakistan qardaş Azərbaycan xalqının yanındadır və onun ərazi bütövlüyünü dəstəkləyir. Azərbaycanın BMT Təhlükəsizlik Şurasının Dağlıq Qarabağla bağlı olan qətnamələrinə əsaslanan mövqeyini dəstəkləyirik".

**AZƏRTAC**

**Baş Prokurorluq: Düşmənin qrad qurğularından açdığı atəş nəticəsində Ağdam rayon sakinin həlak olması ilə bağlı cinayət işi başlanıb**

[12:50] 28.09.2020

Məlum olduğu kimi, təcavüzkar Ermənistanın hərbi-siyasi rəhbərliyi Cenevrə Konvensiyası ilə üzərinə düşən öhdəliklərini yerinə yetirməyərək beynəlxalq humanitar hüququn əsas norma və prinsiplərini kobud şəkildə pozaraq dinc əhalini, çoxsaylı ev və mülki obyektləri, təsərrüfat təyinatlı məntəqələri ağır artilleriya qurğularından intensiv atəşə tutmaqda davam edir.

Baş Prokurorluğun mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, hədəf kimi əhalinin kompakt olduğu məntəqələr - rayon və kənd mərkəzləri, mülki infrastruktur obyektlər - xəstəxanalar, tibb məntəqələri, məktəb binaları, uşaq bağçaları seçilir.

Hazırkı vaxtadək ümumilikdə mülki əhalidən 27 nəfər müxtəlif dərəcəli bədən xəsarətləri alaraq xəstəxanalara yerləşdiriliblər.

Dərin kədər hissi ilə qeyd edirik ki, bu gün düşmənin dinc Azərbaycan əhalisinin sıx yaşadığı əraziləri növbəti dəfə qrad qurğularından atəşə tutması nəticəsində Ağdam rayonunun Evoğlu kənd sakini 1979-cu il təvəllüdlü Paşayev Coşqun Ənvər oğlu həlak olub.

Faktla bağlı Ağdam Rayon Prokurorluğunda Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 120.2.1-ci (cinayətkar birlik–təşkilat tərəfindən qəsdən adam öldürmə), 120.2.4-cü (xüsusi amansızlıqla və ya ümumi təhlükəli üsulla qəsdən adam öldürmə), 120.2.12-ci (milli, irqi, dini ədavət və ya düşmənçilik niyyəti ilə qəsdən adam öldürmə), 100.2-ci (təcavüzkar müharibəni aparma) və digər maddələri ilə cinayət işi başlanıb.

Hazırda prokurorluq əməkdaşları tərəfindən hadisə yerində döyüş şəraiti nəzərə alınmaqla mümkün olan bütün istintaq-əməliyyat tədbirləri həyata keçirilir.

Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən müxtəlif cinayətlər törətmiş Ermənistan silahlı qüvvələrinin hərbi qulluqçularının beynəlxalq hüquq normaları çərçivəsində məsuliyyətə cəlb edilərək cəzalandırılmalarını təmin etmək məqsədi ilə zəruri sənədləşdirilmə aparılır və müvafiq qaydada sübutlar toplanılır.

İctimaiyyətə mütəmadi qaydada məlumatlar veriləcək.

**AZƏRTAC**

**FHN: Düşmən bölmələrinin artilleriya atəşi nəticəsində Ağdam və Tərtər rayonlarının bir sıra kəndlərində mülki obyektlər yanıb**

[17:14] 28.09.2020

Ermənistanın hərbi-siyasi rəhbərliyinin təxribatçı xislətindən irəli gələrək düşmənin silahlı qüvvələri beynəlxalq humanitar hüququn norma və prinsiplərini kobudcasına pozaraq əhalinin sıx yaşadığı yaşayış məntəqələrini, fərdi və çoxmənzilli binaları, o cümlədən mülki obyektləri ağır artilleriya qurğularından atəşə tutmaqda davam edir.

Fövqəladə Hallar Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, nəticədə yanğınlar baş verir, dinc əhalinin əmlakına ciddi ziyan vurulur. Sentyabrın 28-də də Ermənistan qoşunlarının atdığı mərmilər nəticəsində Ağdam və Tərtər rayonlarının bir sıra kəndlərində mülki obyektlərdə yanğınlar baş verib. Fövqəladə Hallar Nazirliyinin dərhal hadisə yerlərinə cəlb olunan Dövlət Yanğından Mühafizə Xidmətinin müvafiq qüvvələri yanğınları qısa müddətdə söndürüblər.

**AZƏRTAC**

**Bakı və daha 21 şəhər-rayonda komendant saatı başlayıb**

[21:07] 28.09.2020

Sentyabrın 28-i saat 21:00-da Bakı, Gəncə, Sumqayıt, Yevlax, Mingəçevir, Naftalan şəhərlərində, Abşeron, Cəbrayıl, Füzuli, Ağcabədi, Beyləqan, Ağdam, Bərdə, Tərtər, Goranboy, Göygöl, Daşkəsən, Gədəbəy, Tovuz, Şəmkir, Qazax və Ağstafa rayonlarında komendant saatı başlayıb.

AZƏRTAC xəbər verir ki, komendant saatı sentyabrın 29-u saat 06:00-dək davam edəcək.

**AZƏRTAC**

**Ombudsman Ermənistanın mülki əhalini atəşə tutması və insan tələfatı ilə bağlı növbəti etiraz bəyanatını yayıb**

[22:33] 28.09.2020

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Ermənistan silahlı qüvvələrinin mülki əhalinin məskunlaşdığı yaşayış məntəqələrini mütəmadi atəşə tutması və davam edən insan tələfatı ilə bağlı növbəti etiraz bəyanatını yayıb.

Ombudsman aparatından AZƏRTAC-a daxil olan bəyanatda deyilir:

"Beynəlxalq ictimaiyyətin diqqətinə çatdırıldığı kimi, 2020-ci il sentyabrın 27-də saat 06:00 radələrindən etibarən Ermənistan silahlı qüvvələri atəşkəs rejimini növbəti dəfə kobud şəkildə pozaraq Azərbaycan Ordusunun cəbhə zonasında yerləşən mövqelərini, yaşayış məntəqələri və sosial obyektləri müxtəlif növ iriçaplı artilleriya qurğuları və digər silahlardan intensiv şəkildə atəşə tutmaqda davam edir.

Təəssüf hissi ilə bildiririk ki, Ermənistan silahlı qüvvələrinin dinc Azərbaycan əhalisinin sıx yaşadığı əraziləri növbəti dəfə ağır artilleriya atəşinə tutması nəticəsində sentyabrın 28-də saat 11 radələrində Tərtər şəhərinin mərkəzində yerləşən rayon məhkəməsinin inzibati binasının yanına düşmüş mərmi qəlpələrindən bir nəfər həlak olub, həmin vaxt ərazidən keçən təcili tibbi yardım maşının sürücüsü və maşında olan hərbi polisin əməkdaşı, həmçinin ərazidə olan digər Tərtər şəhər sakini yaralanıb.

Eyni zamanda, bu gün Ermənistan silahlı qüvvələrinin dinc Azərbaycan əhalisinin sıx yaşadığı əraziləri növbəti dəfə ağır artilleriya qurğularından atəşə tutması Ağdam rayonu Evoğlu kənd sakininin həlak olması ilə nəticələnib. Ermənistan qoşunlarının atdığı mərmilər nəticəsində Ağdam və Tərtər rayonlarının bir sıra kəndlərində mülki obyektlərdə yanğınlar baş verib.

Ümumilikdə mülki əhalidən Naftalan şəhəri, Ağdam və Tərtər rayonlarından ikisi uşaq, ikisi ahıl olmaqla, 9 nəfər həlak olub, Ağdam, Tərtər, Daşkəsən, Goranboy, Füzuli və Cəbrayıl rayonlarından olan 31 nəfər isə ağır dərəcəli bədən xəsarətləri ilə xəstəxanalara yerləşdirilib. Təcavüzkar Ermənistan tərəfindən Azərbaycanın mülki əhalisinə qarşı qeyri-insani hərəkətlər hazırda da davam etdirildiyindən bu rəqəmlər hər an arta bilər.

Bir daha bildiririk ki, işğalçı Ermənistan beynəlxalq humanitar hüququn norma və prinsiplərinin, Cenevrə konvensiyalarının, o cümlədən müharibə zamanı mülki əhalinin müdafiəsi haqqında 1949-cu il 12 avqust tarixli Konvensiyanın, habelə BMT-nin Uşaq Hüquqları Konvensiyasının və insan hüquqları sahəsində digər sənədlərin müvafiq müddəalarını kobud şəkildə pozmaqla öz təcavüzkar siyasətindən, insanlıq əleyhinə cinayət əməllərindən hələ də əl çəkmir.

Təəssüflər olsun ki, Ermənistanın qeyri-insani hərəkətlərdən çəkindirilməsi istiqamətində nüfuzlu beynəlxalq təşkilatlar tərəfindən ciddi ölçü götürülməməsi onları daha da azğınlaşdırır və yeni cinayət əməlləri törətməyə sövq edir.

Təcili olaraq bütün dünya ictimaiyyətinə müraciət edərək, Ermənistan tərəfindən törədilən son dərəcədə qəddar, amansız və qeyri-insani hadisələrə laqeyd qalmamağa, beynəlxalq müharibə cinayətlərinə yol vermiş işğalçı Ermənistan dövlətindən beynəlxalq hüquq normalarına və BMT Nizamnaməsinin tələblərinə əməl etməyi, mülki əhalinin həyat və sağlamlığı üçün ciddi təhlükə yaradan cinayətkar əməllərdən çəkinməyi, Ermənistan silahlı qüvvələrinin işğal etdikləri Azərbaycan ərazilərindən qeyd-şərtsiz çıxmalarını tələb etməyə, dinc əhalinin qətlə yetirilməsində təqsirkar olan şəxslərin cəzalandırılmasını təşviq etməyə çağırırıq.

Bəyanat BMT-nin Baş katibinə, BMT-nin Təhlükəsizlik Şurasına, BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarına, BMT-nin Qaçqınlar üzrə Ali Komissarına, BMT-nin İnsan Hüquqları Şurasına, UNICEF-in, UNESCO-nun, Avropa İttifaqının, Avropa Şurasının, ATƏT-in rəhbərlərinə, Beynəlxalq və Avropa Ombudsmanlar institutlarına, Asiya Ombudsmanlar Assosiasiyasına, İslam Əməkdaşlıq Təşkilatına və bu quruma üzv dövlətlərin Ombudsmanlar Assosiasiyasına, İslam Əməkdaşlıq Təşkilatının Müstəqil Daimi İnsan Hüquqları Komissiyasına, Avropa Uşaq Hüquqları Ombudsmanları Şəbəkəsinə, Beynəlxalq Sülh Bürosuna, müxtəlif ölkələrin ombudsmanlarına və milli insan hüquqları institutlarına, Azərbaycan Respublikasının xarici ölkələrdəki və xarici ölkələrin respublikamızdakı səfirliklərinə, Azərbaycanın diaspor təşkilatlarına göndərilib.

**AZƏRTAC**

## Xarici İşlər Nazirliyi və Baş Prokurorluq Ermənistanın son hərbi təxribatları ilə bağlı birgə bəyanat yayıb

[13:17] 29.09.2020

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi və Baş Prokurorluğu Ermənistanın son hərbi təxribatları ilə bağlı birgə bəyanat yayıb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, bəyanatda deyilir: “Sentyabrın 27-də Ermənistan silahlı qüvvələri atəşkəs rejimini kobud şəkildə pozaraq təmas xətti boyunca Azərbaycan Respublikasının mövqelərini iriçaplı silahlar, minaatanlar və müxtəlif çaplı artilleriya qurğularından atəşə tutaraq Azərbaycana qarşı növbəti təcavüzə əl atıb.

Sentyabrın 27-29-da Ermənistanın davam edən hərbi təcavüzü çərçivəsində Azərbaycanın Tərtər, Ağdam və Cəbrayıl rayonları ilə yanaşı, Goranboy, Naftalan və Daşkəsən rayonları Ermənistan silahlı qüvvələri tərəfindən artilleriya atəşinə məruz qalıb.

Ermənistan tərəfi beynəlxalq hüququn norma və prinsiplərini, xüsusilə də beynəlxalq humanitar hüquq, 1949-cu il Cenevrə konvensiyaları və onların Əlavə protokollarını kobud şəkildə pozaraq, Azərbaycanın mülki əhalisini və infrastrukturunu məqsədyönlü şəkildə atəşə tutub, bununla da mülki əhaliyə qarşı müxtəlif cinayətlər törədib.

Sentyabrın 29-na olan məlumata əsasən, mülki əhali arasında 10 nəfər həlak olub, 30 nəfər isə yaralanıb. Həlak olanlar arasında 13 və 14 yaşlarında iki məktəbli də var.

Sentyabrın 27-si saat 18 radələrində erməni hərbi birləşmələrinin artilleriya silahlarından atdığı mərminin Naftalan şəhərinin Qaşaltı-Qaraqoyunlu kəndində yerləşən, kənd sakini Qurbanov Elbrus İsa oğluna məxsus fərdi yaşayış evinin həyətinə düşməsi nəticəsində həmin vaxt evdə olan 1951-ci il təvəllüdlü Qurbanov Elbrus İsa oğlu və onun 4 ailə üzvünün həlak olması, habelə mərminin partlaması nəticəsində Elbrus Qurbanova məxsus fərdi yaşayış evinə və evin həyətindəki yardımçı tikililərə 100 min manat məbləğində ziyan dəyməsi faktına görə Goranboy rayon prokurorluğunda Cinayət Məcəlləsinin 120.2.1-ci (cinayətkar birlik–təşkilat tərəfindən qəsdən adam öldürmə), 120.2.4-cü (qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən xuliqanlıq niyyəti ilə xüsusi amansızlıqla qəsdən adam öldürmə), 120.2.7 (iki və ya daha çox şəxsi qəsdən öldürmə), 120.2.12-ci (milli, irqi, dini ədavət və ya düşmənçilik niyyəti ilə qəsdən adam öldürmə), 100.2 (təcavüzkar müharibəni aparma) və digər maddələri ilə cinayət işi başlanıb.

Bundan əlavə, Ağdam rayonunun işğal olunmuş ərazilərindən cəbhənin təmas xətti boyunca Ermənistan silahlı birləşmələrinin iriçaplı silahlardan, top və minaatanlardan açdıqları intensiv atəşlər nəticəsində sentyabrın 28-də saat 07:00 radələrində Ağdam rayonunun Evoğlu kəndinin ərazisinə mərmi düşüb. Nəticədə kənd sakini, 1979-cu il təvəllüdlü Paşayev Coşqun Ənvər oğlunun baş nahiyəsindən qəlpə yarası alaraq Ağdam Rayon Mərkəzi Xəstəxanasına yerləşdirilməsi və göstərilmiş tibbi yardımlara baxmayaraq ölməsi faktına görə həmin tarixdə Ağdam Rayon Prokurorluğunda Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanıb.

Sentyabrın 28-də saat 11 radələrində Tərtər şəhəri Heydər Əliyev prospektində yerləşən rayon məhkəməsinin inzibati binasının yanına düşən mərmi qəlpələrindən 1975-ci il təvəllüdlü Əliyev Mehman Sovet oğlu həlak olub, həmin vaxt ərazidən keçən təcili tibbi yardım maşının sürücüsü 1968-ci il təvəllüdlü Əsədov Qənbər Əsgər oğlu və maşında olan polis əməkdaşı 1994-cü il təvəllüdlü Hüseynov Fəxrəddin Fərman oğlu, həmçinin ərazidə olan digər Tərtər şəhər sakini 1991-ci il təvəllüdlü İbrahimov Tural Firdovsi oğlu yaralanıb. Saat 19 radələrində Tərtər rayonu Şıxarx qəsəbəsində yerləşən əlillər və məcburi köçkünlər üçün inşa edilmiş çoxmənzilli yaşayış binasının həyətinə top mərmisinin atılması nəticəsində Tərtər rayon sakinləri 1981-ci il təvəllüdlü Abbasov Xaliq Asif oğlu və onun qardaşı 1987-ci il təvəllüdlü Abbasov Elşən Asif oğlu, 1981-ci il təvəllüdlü Əsədov Sabit Usub oğlu həlak olub, 1984-ci il təvəllüdlü Məmmədov Seymur Füzuli oğlu, 1989-cu il təvəllüdlü Mahmudov Faiq Malik oğlu isə müxtəlif dərəcəli bədən xəsarətləri alaraq xəstəxanalara yerləşdirilib. Həmin faktlar üzrə Tərtər Rayon Prokurorluğunda Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanıb.

Bundan başqa, sentyabrın 28-də saat 18:40-da erməni silahlı qüvvələri təcavüzkar əməllərini davam etdirərək, mülki əhalinin yaşadığı kəndləri hədəfə almaqla milli, irqi, dini ədavət və ya düşmənçilik niyyəti ilə ümumi təhlükəli üsulla kənd sakinlərini qəsdən öldürmək məqsədilə Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinə hücum edərək “Şamlıq” adlanan ərazini iriçaplı artilleriyadan atəşə tutub, atəş nəticəsində

qeyd edilən əraziyə düşən mərmi həmin vaxt orada olan kənd sakini 2000-ci il təvəllüdlü Həziyev Hilal Murad oğlunun sifət nahiyəsinə dəyərək sonuncunun qəsdən həyatdan məhrum edilməsinə cəhd edilib.

Həmin fakt üzrə Cəbrayıl Rayon Prokurorluğunda Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanıb.

Hazırda prokurorluq əməkdaşları tərəfindən döyüş şəraitində mümkün olan bütün istintaq əməliyyat tədbirləri həyata keçirilir, o cümlədən yaralananların aldıqları xəsarətlərin ağırlıq dərəcəsini eləcə də, mülki infrastruktur obyektlərinə dəymiş ziyanın məbləğini müəyyən etmək məqsədilə müvafiq ekspertizalar təyin edilib.

Göstərilən faktlara görə başlanmış 5 cinayət işi istintaqın davam etdirilməsi üçün Baş Prokurorluğun İstintaq İdarəsinə göndərilib.

Ermənistan tərəfinin məsuliyyət daşıdığı bu müharibə cinayətlərini qətiyyətlə qınayır, mülki şəxslərin atəşə tutulması və bu yolla dinc əhalinin qorxu içində saxlanılması cəhdinə son qoyulmasını tələb edirik.

Beynəlxalq ictimaiyyəti Ermənistanın Azərbaycana qarşı yeni təcavüzünü, azərbaycanlı mülki şəxsləri və infrastrukturu atəşə tutmasını kəskin qınamağa və Ermənistan tərəfindən beynəlxalq hüquq, o cümlədən beynəlxalq humanitar hüquq öhdəliklərinə əməl olunmasını təmin etməyə çağırırıq”.

**Baş Prokurorluq: Hazırkı vaxtadək mülki əhalidən 33 nəfər müxtəlif dərəcəli xəsarətlərlə xəstəxanalara yerləşdirilib**

[16:13] 29.09.2020

Məlum olduğu kimi, təcavüzkar Ermənistanın hərbi-siyasi rəhbərliyi beynəlxalq hüququn norma və prinsiplərini kobud şəkildə pozaraq dinc əhaliyə qarşı terror əməllərini davam etdirir. Riyakar və qeyri-konstruktiv siyasət aparan Ermənistanın hərbi-siyasi rəhbərliyinin göstərişi ilə düşmənin silahlı qüvvələri əhalinin kompakt olduğu məntəqələri - rayon və kənd mərkəzlərini, mülki infrastruktur obyektlərini – yaşayış evlərini, xəstəxanaları, tibb məntəqələrini, məktəb binalarını, uşaq bağçalarını, dövlət qurumlarının inzibati binalarını, təsərrüfat təyinatlı əraziləri ağır artilleriya qurğularından intensiv atəşə tutmaqda davam edir.

Baş Prokurorluğun mətbuat xidmətindən AZƏRTAC-a daxil olan məlumatda bildirilib ki, hazırkı vaxtadək ümumilikdə mülki əhalidən 33 nəfər müxtəlif dərəcəli bədən xəsarətləri alaraq xəstəxanalara yerləşdirilib.

Bundan başqa, düşmənin mülki obyektləri atəşə tutması nəticəsində 65 ev, 5 mülki obyekt yararsız vəziyyətə düşüb, çoxlu sayda xırda və iribuynuzlu heyvan tələf olub.

“Dərin kədər hissi ilə qeyd edirik ki, düşmənin dinc əhalinin sıx yaşadığı əraziləri növbəti dəfə ağır artilleriyadan atəşə tutması nəticəsində sentyabrın 29-da saat 13 radələrində Ağdam rayonunun Qaradağlı kəndində tibb məntəqəsinə düşmüş top mərmisinin qəlpələrindən kənd sakini 1997-ci il təvəllüdlü Sarıyev Elməddin Hümbət oğlu həlak olub, məntəqənin binası dağılıb, ərazidəki sakinlər təxliyə edilib.

Faktla bağlı Ağdam Rayon Prokurorluğunda Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 120.2.1-ci (cinayətkar birlik–təşkilat tərəfindən qəsdən adam öldürmə), 120.2.4-cü (xüsusi amansızlıqla və ya ümumi təhlükəli üsulla qəsdən adam öldürmə), 120.2.12-ci (milli, irqi, dini ədavət və ya düşmənçilik niyyəti ilə qəsdən adam öldürmə), 100.2-ci (təcavüzkar müharibəni aparma),186.3-cü (əmlakı qəsdən məhv etmə və ya zədələmə xüsusilə külli miqdarda ziyan vurmaqla törədildikdə) və digər maddələri ilə cinayət işi başlanıb.

Hazırda prokurorluq əməkdaşları tərəfindən döyüş şəraitində mümkün olan bütün istintaq əməliyyat tədbirləri həyata keçirilir, o cümlədən yaralananların aldıqları xəsarətlərin ağırlıq dərəcəsini, eləcə də mülki infrastruktur obyektlərinə dəymiş ziyanın məbləğini müəyyən etmək məqsədilə müvafiq ekspertizalar təyin olunub.

Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən müxtəlif cinayətlər törətmiş Ermənistan silahlı qüvvələrinin hərbi qulluqçularının beynəlxalq hüquq normaları çərçivəsində məsuliyyətə cəlb olunaraq cəzalandırılmalarını təmin etmək məqsədilə zəruri olan tədbirlər həyata keçirilir.

**AZƏRTAC**

**Baş Prokurorluq: Hazırkı vaxtadək mülki əhalidən 14 nəfər həlak olub, 46 nəfər xəsarət alıb**

[15:18] 30.09.2020

Məlum olduğu kimi, təcavüzkar Ermənistanın hərbi-siyasi rəhbərliyi beynəlxalq hüququn norma və prinsiplərini kobud şəkildə pozaraq dinc əhaliyə qarşı terror əməllərini davam etdirir.

Azərbaycan Respublikası Baş Prokurorluğunun mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, düşmənin silahlı qüvvələrinin dinc Azərbaycan əhalisinin sıx yaşadığı əraziləri növbəti dəfə ağır artilleriyadan atəşə tutması nəticəsində hazırkı vaxtadək ümumilikdə mülki əhalidən 46 nəfər müxtəlif dərəcəli bədən xəsarətləri alaraq xəstəxanalara yerləşdirilib, 14 nəfər isə həlak olub.

Bundan başqa, Ermənistan hərbi birləşmələri əhalinin kompakt olduğu məntəqələri - rayon və kənd mərkəzlərini, mülki infrastruktur obyektlərini – yaşayış evlərini, xəstəxanaları, tibb məntəqələrini, məktəb binalarını, uşaq bağçalarını, dövlət qurumlarının inzibati binalarını, təsərrüfat təyinatlı əraziləri ağır artilleriya qurğularından intensiv atəşə tutmaqda davam edir.

İşğalçı ölkənin silahlı qüvvələrinin mülki infrastruktur obyektləri atəşə tutması nəticəsində 116 yaşayış evinə, həmçinin 26 mülki obyektə, o cümlədən Tərtər şəhərində xalça-toxuculuq fabrikinə, Ağdam rayonu, Təzəkənd kəndində inşa edilmiş modul tipli məktəb binasına, Tərtər rayonunun Şıxarx qəsəbəsi 1 saylı tam orta məktəbin binasına, Tərtər şəhəri 2 saylı məktəb-liseyin binasına, Tərtər rayonunun Azad Qaraqoyunlu kəndi ərazisində yerləşən "MKT İstehsal Kommersiya" MMC-nin pambıq zavoduna, Tərtər rayonu Qapanlı kəndində tibb məntəqəsinə külli miqdarda ziyan vurulub. Eləcə də dinc sakinlərə məxsus nəqliyyat vasitələri yararsız vəziyyətə düşmüş, çoxsaylı xırda və iribuynuzlu heyvanlar tələf olub.

Hazırda prokurorluq əməkdaşları tərəfindən döyüş şəraitində mümkün olan bütün istintaq-əməliyyat tədbirləri həyata keçirilir.

Ordumuza və dinc əhaliyə qarşı cinayətlər törətmiş təxribatçı erməni birləşmələrinin hərbi qulluqçularının beynəlxalq hüquq normaları çərçivəsində məsuliyyətə cəlb olunmaları üçün Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən bütün zəruri tədbirlər görüləcək.

**AZƏRTAC**

**FHN: Tərtər və Ağdam rayonlarında baş verən yanğınların qarşısı alınıb**

[15:41] 30.09.2020

Ermənistan silahlı qüvvələri beynəlxalq humanitar hüququn norma və prinsiplərini kobudcasına pozaraq Azərbaycan əhalisinin sıx yaşadığı yaşayış məntəqələrini, mülki obyektləri, o cümlədən fərdi və çoxmənzilli yaşayış binalarını, təsərrüfatları ağır artilleriya qurğularından atəşə tutmağa davam edir. Bunun nəticəsində mülki obyektlərdə dağıntı və yanğınlar baş verir, dinc əhalinin, eləcə də dövlət əmlakına ciddi ziyan yetirilir.

AZƏRTAC Fövqəladə Hallar Nazirliyinin (FHN) saytına istinadla xəbər verir ki, sentyabrın 29-da Ermənistan silahlı qüvvələrinin atdığı mərmilər nəticəsində Tərtər rayonunun Şıxarx qəsəbəsi ərazisində yerləşən və "Azərişıq" ASC-yə məxsus transformatorda yanğın başlayıb. Transformatorun qoruyucu açarı və giriş-çıxış kabeli 15 poqonmetr yansa da, FHN-in Dövlət Yanğından Mühafizə Xidmətinin müvafiq qüvvələrinin operativ müdaxiləsi sayəsində transformatorun özü yanğından mühafizə olunub.

Bundan başqa, ötən gecə Ağdam rayonunun Əhmədağalı kəndində düşmən mərmisinin düşməsi nəticəsində vətəndaşa məxsus təsərrüfat obyektində yanğın baş verib. Operativ müdaxilə sayəsində obyektin bir hissəsi və bitişik ev yanğından mühafizə olunub. Ağdam rayonunun Baharlı-1 qəsəbəsində yerləşən vətəndaşa məxsus təsərrüfat obyektində də baş vermiş yanğın söndürülüb, obyektin bir hissəsi yanğından mühafizə olunub.

Həmçinin ötən axşam və gecə saatlarında Ağdam rayonunun Əhmədağalı, Çəmənli, Sarıcalı kəndlərində fərdi yaşayış evləri və təsərrüfat obyektlərində, Tərtər rayonunun Əskipara kəndində təsərrüfat obyektlərində yanğınlar baş verib. Bu ərazilər düşmən tərəfindən intensiv atəşə məruz qaldığından yanğınlara müdaxilə etmək mümkün olmayıb.

Ağdam rayonunun Baharlı-1 qəsəbəsində isə mərminin atılması nəticəsində evdə dağıntı olsa da, yanğın baş verməyib.

Qeyd edək ki, düşmənin artilleriya atəşləri nəticəsində müxtəlif obyektlərə, o cümlədən mülki obyektlərə, fərdi və çoxmənzilli yaşayış evlərinə, təsərrüfatlara, infrastruktur obyektlərinə dəyən ziyanın, zərbələr nəticəsində baş verən yanğınların dərhal aradan qaldırılması üçün Fövqəladə Hallar Nazirliyi gücləndirilmiş iş rejimində fəaliyyət göstərir.

**AZƏRTAC**

## Düşmən yaşayış məntəqələrimizi yenidən artilleriya atəşinə tutur

[13:37] 01.10.2020

Ermənistan silahlı qüvvələri yenidən Azərbaycanın yaşayış məntəqələrini artilleriya atəşinə tutur.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndi, Füzuli rayonunun Horadiz şəhəri, Goranboy, Tərtər və Ağdam rayonlarının cəbhəboyu kəndləri Ermənistan silahlı qüvvələrinin bölmələri tərəfindən artilleriya atəşinə məruz qalıb.

**AZƏRTAC**

**Baş Prokurorluq: Düşmənin ağır artilleriyadan atəşi nəticəsində Ağdam rayonunun Hacıməmmədli kəndində ata və oğlu həlak olub**

[14:34] 01.10.2020

Təcavüzkar Ermənistanın hərbi-siyasi rəhbərliyi beynəlxalq hüququn norma və prinsiplərini kobud şəkildə pozaraq dinc əhaliyə qarşı terror əməllərini davam etdirir. İşğalçı ölkənin silahlı qüvvələrinin dinc Azərbaycan əhalisinin sıx yaşadığı əraziləri növbəti dəfə ağır artilleriyadan atəşə tutması nəticəsində oktyabrın 1-də saat 13 radələrində Ağdam rayonunun Hacıməmmədli kəndində yaşadıqları evə düşmüş top mərmisinin qəlpələrindən 1966-cı il təvəllüdlü Məmmədov Mürşüd Rəşid oğlu və oğlu, 1996-cı il təvəllüdlü Samir Məmmədov həlak olub, yaşadıqları evə külli miqdarda ziyan dəyib.

Baş Prokurorluğun mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, faktla bağlı Ağdam Rayon Prokurorluğunda Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 120.2.1-ci (cinayətkar birlik–təşkilat tərəfindən qəsdən adamöldürmə), 120.2.4-cü (xüsusi amansızlıqla və ya ümumi təhlükəli üsulla qəsdən adamöldürmə), 120.2.12-ci (milli, irqi, dini ədavət və ya düşmənçilik niyyəti ilə qəsdən adamöldürmə), 100.2-ci (təcavüzkar müharibəni aparma),186.3-cü (əmlakı qəsdən məhv etmə və ya zədələmə xüsusilə külli miqdarda ziyan vurmaqla törədildikdə) və digər maddələri ilə cinayət işi başlanıb.

Hazırda prokurorluq əməkdaşları tərəfindən döyüş şəraitində mümkün olan bütün istintaq-əməliyyat tədbirləri həyata keçirilir.

Ordumuza və dinc əhaliyə qarşı cinayətlər törətmiş təxribatçı erməni birləşmələrinin hərbi qulluqçularının beynəlxalq hüquq normaları çərçivəsində məsuliyyətə cəlb edilmələri üçün Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən bütün zəruri tədbirlər görüləcək.

**AZƏRTAC**

**Anar Eyvazov: Azərbaycan Ordusunun apardığı qətiyyətli əks-hücum əməliyyatı cəbhənin bütün istiqamətlərində uğurla davam edir**

[19:48] 01.10.2020

Azərbaycan Ordusunun apardığı qətiyyətli əks-hücum əməliyyatı cəbhənin bütün istiqamətlərində uğurla davam edir. Ermənistan silahlı qüvvələrinin işğal etdiyi ərazilərdəki düşmən mövqelərinə gecə ərzində bölmələrimiz tərəfindən sarsıdıcı artilleriya zərbələri endirilib.

AZƏRTAC xəbər verir ki, bunu Müdafiə Nazirliyinin mətbuat xidmətinin mətbuat katibi polkovnik-leytenant Anar Eyvazov oktyabrın 1-də keçirilən brifinqdə deyib.

Anar Eyvazov bildirib ki, Ermənistan silahlı qüvvələrinin bölmələri Ermənistanın ərazisindən cəbhəboyu Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndini, Füzuli rayonunun Horadiz şəhərini, Goranboy, Tərtər və Ağdam rayonlarını yenidən artilleriya atəşinə tutub.

Əməliyyatın beşinci gününün sonunadək düşmənin canlı qüvvədə, hərbi və döyüş texnikası baxımından xeyli sayda itkisi var. Düşmən bütün cəbhə boyunca tutduqları mövqelərdən və ərazinin vacib sahələrindən geri çəkilməyə məcbur edilib. Ermənistan ordusunun müxtəlif istiqamətlərdə hərəkət edən hərbi kolonları bölmələrimiz tərəfindən dəqiq atəşlə məhv edilib.

Müdafiə Nazirliyinin mətbuat katibi xüsusilə qeyd edib ki, Ermənistan mətbuatında guya Azərbaycan Hərbi Hava Qüvvələrinə məxsus təyyarə və helikopterin vurulması və İran ərazisinə düşməsi barədə yayılan məlumatlar yanlışdır və əsassızdır. Hərbi Hava Qüvvələrimizə məxsus bütün aviasiya vasitələri tam tərkibdə sıradadır və döyüş qabiliyyətlidir.

Məlumat verilib ki, ötən müddət ərzində düşmənin 200-dək tank və digər zirehli texnikası, 228 ədəd artilleriya, yaylım atəşli raket sistemləri, minaatanları, 30 ədəd hava hücumundan müdafiə vasitələri, 6 komanda-idarəetmə və komanda-müşahidə məntəqəsi, 5 silah-sursat anbarı, 110-dan artıq avtomobil texnikası, 1 ədəd "S-300" zenit-raket kompleksi sıradan çıxarılıb.

"Dünən məlumat verildiyi kimi, Ermənistan ordusunun alay komandiri və onun müavini Azərbaycan Ordusunun bölmələrinin dəqiq artilleriya atəşi nəticəsində məhv edilib. Alayın köməyinə gələn düşmənin əlahiddə həmlə taborunun döyüş bayrağı və sənədləri ələ keçirilib. Əsgəri şərəf, şücaət və şöhrət rəmzi olan döyüş bayrağını döyüş meydanında atıb qaçan düşmən bir daha acizliyini nümayiş etdirib. Döyüş bayrağını qoruya bilməyən ordunun iki yolu var. Ya ərazimizi tərk etməli, ya da yerində məhv olacaq. Qələbə bizimlədir!", - deyə polkovnik-leytenant Anar Eyvazov bildirib.

**AZƏRTAC**

**Müdafiə Nazirliyi: Düşmən Bərdə və Tovuz rayonlarının kəndlərini də raket atəşinə tutub**

[13:00] 02.10.2020

Ermənistan silahlı qüvvələri Bərdə rayonunun Əmirli, Tovuz rayonunun Ağdam və Ağdam rayonunun Quzanlı yaşayış məntəqələrini artilleriya atəşinə tutur.

Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyinin mətbuat xidmətindən məlumat verilib.

**AZƏRTAC**

**Ermənistan ordusu Şəmkirin Sabirkənd və Ağdamın Quzanlı yaşayış məntəqələrini raket atəşinə tutur**

[12:54] 02.10.2020

Düşmən Ermənistan ərazisindən Şəmkirin Sabirkənd, işğal olunmuş ərazilərimizdən isə Ağdamın Quzanlı yaşayış məntəqələrini raket atəşinə tutur.

Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyinin mətbuat xidmətindən məlumat verilib.

**AZƏRTAC**

**Anar Eyvazov: Azərbaycan Ordusunun əks-hücum əməliyyatı cəbhənin bütün istiqamətlərində uğurla davam edir**

[14:56] 02.10.2020

Azərbaycan Ordusunun əks-hücum əməliyyatı cəbhənin bütün istiqamətlərində uğurla davam edir. Mülki əhalini və yaşayış məntəqələrimizi atəşə tutmamaları barədə Azərbaycan Müdafiə Nazirliyinin Ermənistan tərəfini dəfələrlə xəbərdarlıq etməsinə baxmayaraq, bu gün Şəmkirin Sabirkənd, Tovuzun Ağdam, Bərdənin Əmirli, Ağdamın Quzanlı, Xındırıstan, Əlibəyli, Əhmədağalı və Səfərli yaşayış məntəqələri düşmən tərəfindən intensiv artilleriya atəşinə məruz qalıb. Mülki əhali arasında ölən və yaralananlar var. Müəyyən olunub ki, yaşayış məntəqələrinin bəziləri məhz Ermənistan ərazisindən raket və artilleriya atəşinə tutulub.

AZƏRTAC xəbər verir ki, bunu Müdafiə Nazirliyinin mətbuat xidmətinin mətbuat katibi polkovnik-leytenant Anar Eyvazov oktyabrın 2-də keçirilən brifinqdə deyib.

Bildirilib ki, gecə ərzində, səhər saatlarında və bu dəqiqələrdə cəbhənin müxtəlif istiqamətlərində döyüş əməliyyatları uğurla davam edir. Madagizdə geri çəkilməyə məcbur edilən 6-cı dağ atıcı alayının əsgərləri arasında çaxnaşma və atışma baş verib. Düşmənin şəxsi heyəti arasında hökm sürən qorxu və vahimə dərin ruh düşkünlüyü yaradıb. Ermənistandan işğal olunmuş ərazilərimizə gətirilən erməni könüllüləri açıq döyüşdən və itkilərinin çox olmasından qorxaraq müxtəlif bəhanələrlə döyüşə girməkdən imtina edirlər. Bunun əvəzinə Ermənistan müdafiə nazirliyi tərəfindən qadın batalyonu yaradılıb və hazırda komplektləşdirilir.

Məlumat verilib ki, ordumuz uğurlu əməliyyat nəticəsində Ağdərə istiqamətində Madagiz ətrafındakı hakim yüksəklikləri düşməndən azad edib. Cəbrayıl-Füzuli istiqamətində qoşunlarımız düşmənin müqavimətini qıraraq onu geri çəkilməyə məcbur edib və irəliləyib. Murov dağı istiqamətində də əməliyyat şəraiti qoşunlarımızın tam nəzarəti altındadır. Əməliyyatın gedişində düşmənin 5 zirehli və avtomobil texnikası, 3 hərbi infrastruktur obyekti və xeyli sayda şəxsi heyəti məhv edilib. Bundan başqa, dayaq məntəqəsinə silah-sursat çatdıran texnikalar bölmələrimiz tərəfindən sıradan çıxarılıb.

Döyüşlərdə əldə etdiyimiz uğurlar və müxtəlif istiqamətlərdə hakim strateji mövqelərin azad olunması Azərbaycan Ordusunun şəxsi heyətinin yüksək döyüş ruhunun və qələbə əzminin bariz nümunəsidir.

A.Eyvazov çıxışının sonunda hərbi birliyin komandiri general-mayor Hikmət Həsənovun cəbhə bölgəsindən müraciətini diqqətə çatdırıb: “Hərbi birliyin şəxsi heyətinin amalı qələbə qazanmaq naminə son damla qanımızadək vuruşmaq və düşməni darmadağın etməkdir. Bunun üçün əsgərlərimizin döyüş ruhu və qələbə əzmi kifayət qədər yüksəkdir”.

**AZƏRTAC**

## XİN: Mülki şəxsləri və obyektləri hədəfə alan Ermənistan beynəlxalq humanitar hüquq normalarını kobudcasına pozur

[16:08] 02.10.2020

Azərbaycan Respublikası Müdafiə Nazirliyinin məlumatına əsasən, oktyabrın 2-də günorta saatlarından etibarən Ermənistan ərazisindən Azərbaycanın Şəmkir rayonunun Sabirkənd kəndi raket atəşinə, Tovuz rayonunun Ağdam kəndi isə artilleriya atəşinə tutulur. Ermənistan silahlı qüvvələri, həmçinin işğal olunmuş ərazilərimizdən Bərdə rayonunun Əmirli və Ağdam rayonunun Quzanlı yaşayış məntəqələrini artilleriya atəşinə tutur.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, mülki şəxsləri və obyektləri məqsədyönlü şəkildə hədəfə alan Ermənistan tərəfi beynəlxalq humanitar hüquq normalarını, eləcə də bu xüsusda üzərinə götürdüyü öhdəlikləri kobudcasına pozur.

Təcavüz siyasətini davam etdirən Ermənistan, ölkə rəsmilərinin bəyan etdiyi kimi, “yeni ərazilər üçün yeni müharibə” taktikasını həyata keçirməyə çalışır.

“Azərbaycan Ordusu ölkəmizin beynəlxalq sərhədləri çərçivəsində ərazi bütövlüyünü qorumaq və mülki əhalinin təhlükəsizliyini təmin etmək üçün Ermənistan tərəfinin həmlələrinə adekvat cavab verəcəkdir. Bir daha bəyan edirik ki, yaranmış vəziyyətə görə tam məsuliyyət Ermənistanın üzərinə düşür, - deyə məlumatda bildirilir.

**AZƏRTAC**

**Ermənistan silahlı qüvvələri mülki obyektləri atəşə tutmağa davam edir**

[18:57] 02.10.2020

Beynəlxalq humanitar hüququn norma və prinsiplərini kobudcasına pozan Ermənistan silahlı qüvvələri Azərbaycanın mülki əhalisini atəşə tutmağa davam edir. Şanlı ordumuzla döyüş meydanında üz-üzə gəlməyə cürət etməyən düşmən Azərbaycan əhalisinin sıx yaşadığı məntəqələri, mülki obyektləri, o cümlədən fərdi və çoxmənzilli yaşayış binalarını, təsərrüfat obyektlərini ağır artilleriya qurğularından atəşə tutaraq mülki obyektlərdə dağıntı və yanğınlar törədir, dinc əhalinin, eləcə də dövlət əmlakına ciddi ziyan yetirir.

Fövqəladə Hallar Nazirliyindən (FHN) AZƏRTAC-a bildiriblər ki, çirkin əməllərini davam etdirən Ermənistan silahlı qüvvələrinin atdığı mərmi nəticəsində Tərtər rayonunun mərkəzində vətəndaşa məxsus təsərrüfat obyektində yanğın baş verib. FHN-in hadisə yerinə cəlb edilmiş Dövlət Yanğından Mühafizə Xidmətinin müvafiq qüvvələrinin operativ müdaxiləsi sayəsində yanğın söndürülüb. Obyektin bir hissəsi yanğından mühafizə olunub.

Ağdam rayonunun Xındırıstan kəndinə atılan düşmən mərmisinin təsərrüfat sahəsində səbəb olduğu yanğın yanğınsöndürmə qüvvələri tərəfindən qısa müddətdə söndürülüb. Bundan başqa, Ağgöl Milli Parkının Ağcabədi rayonu ərazisinə, Tərtər rayonunun Şıxarx qəsəbəsinə, Füzuli rayonunun Horadiz şəhərinə atılan mərmilərin törətdiyi yanğınlara müdaxilə edilməsi düşmənin ərazini atəş altında saxlaması səbəbindən mümkün olmayıb.

Həmçinin Ağgöl Milli Parkının Ağcabədi rayonu ərazisinə və Kəbirli kəndinə düşən mərmilərin zərərsizləşdirilməsi ilə əlaqədar yanğınsöndürmə qüvvələrinin növbətçiliyi təşkil edilib.

Qeyd edək ki, düşmənin artilleriya atəşləri nəticəsində müxtəlif obyektlərə, o cümlədən mülki obyektlərə, fərdi və çoxmənzilli yaşayış evlərinə, təsərrüfatlara, infrastruktur obyektlərinə dəyən ziyanın, zərbələr nəticəsində baş verən yanğınların dərhal aradan qaldırılması üçün FHN gücləndirilmiş iş rejimində fəaliyyət göstərir. Baş verən hər hansı fövqəladə hadisə ilə əlaqədar nazirliyin 112 - qaynar telefon xəttinə dərhal məlumat verilməsi xahiş olunur.

**AZƏRTAC**

**Müdafiə Nazirliyi: Hazırda düşmən kəndlərimizi atəşə tutur, qəti cavab tədbirləri görülür**

[10:47] 03.10.2020

Oktyabrın 3-də gecə ərzində Ermənistan silahlı qüvvələri tərəfindən Tərtər şəhəri, rayonun Səhləbad, Qəzyan, Qapanlı, Qaynaq, Əskipara, Hüsənli, Ağdam rayonunun Ayaq Qərvənd, İmamqulubəyli, Qaradağlı, Təzəkənd, Ağcabədi rayonunun Muğanlı, Qiyaməddinli, Rəncbərlər və Goranboy rayonunun Tapqaraqoyunlu kəndləri intensiv artilleriya atəşinə tutulub.

Azərbaycan Respublikası Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, hazırda Ağdam rayonunun Quzanlı, Əlibəyli və Ayaq Qərvənd kəndləri artilleriya atəşinə tutulur.

Ordumuz tərəfindən düşmənə qarşı qəti cavab tədbirləri görülür.

**AZƏRTAC**

**Kamran Əliyev: Ermənistan silahlı qüvvələrinin dinc əhaliyə qarşı törətdiyi cinayətlərlə bağlı Azərbaycanın Baş Prokurorluğu tərəfindən 12 cinayət işi başlanıb**

[15:30] 03.10.2020

Ermənistan silahlı qüvvələrinin dinc əhaliyə qarşı törətdiyi cinayətlərlə bağlı Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən 12 cinayət işi başlanıb. Bu günədək 19 mülki şəxs həlak olub. Təəssüf doğurucu hal ondan ibarətdir ki, həlak olan şəxslər arasında qadınlar və uşaqlar da var. Üç qadın və iki azyaşlı uşaq Ermənistan silahlı qüvvələrinin atəşi nəticəsində öldürülüb.

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev oktyabrın 3-də təşkil olunan brifinqdə məlumat verib.

Baş prokuror bildirib ki, Ermənistan silahlı qüvvələrinin hərbi birləşmələrinin artilleriya silahlarından atdığı mərmi nəticəsində Naftalan şəhərinin Qaşaltı Qaraqoyunlu kəndi sakini Qurbanov Elbrus İsa oğlu və ailəsinin dörd üzvü – anası, həyat yoldaşı və övladları həlak olub. Həmin faktlarla bağlı Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 120.2.1-ci (cinayətkar birlik–təşkilat tərəfindən qəsdən adam öldürmə), 120.2.4-cü (qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən xuliqanlıq niyyəti ilə xüsusi amansızlıqla qəsdən adam öldürmə), 120.2.7-ci (iki və ya daha çox şəxsi qəsdən öldürmə), 120.2.12-ci (milli, irqi, dini ədavət və ya düşmənçilik niyyəti ilə qəsdən adam öldürmə), 100.2-ci (təcavüzkar müharibəni aparma) və digər maddələri ilə cinayət işi başlanıb.

Kamran Əliyev diqqətə çatdırıb ki, bu müddət ərzində dinc əhaliyə qarşı törədilən cinayətlərlə bağlı başlanan 12 cinayət işinin 1-i Goranboy, 5-i Tərtər, 3-ü Ağdam, 2-si Füzuli, 1-i isə Cəbrayıl rayonu üzrə başlanıb.

**AZƏRTAC**

**FHN: Ermənistan silahlı qüvvələri mülki obyektləri atəşə tutmaqda davam edir**

[18:12] 03.10.2020

Ermənistan silahlı qüvvələri beynəlxalq humanitar hüququn norma və prinsiplərini kobudcasına pozaraq Azərbaycan əhalisinin sıx yaşadığı yaşayış məntəqələrini, mülki obyektləri, o cümlədən fərdi və çoxmənzilli yaşayış binalarını, təsərrüfatları ağır artilleriya qurğularından atəşə tutaraq mülki obyektlərdə dağıntı və yanğınlar törədir, dinc əhalinin, eləcə də dövlət əmlakına ciddi ziyan vurur.

Fövqəladə Hallar Nazirliyindən (FHN) AZƏRTAC-a bildiriblər ki, Ermənistan silahlı qüvvələrinin atdığı mərmi nəticəsində Füzuli rayonunun Horadiz şəhərinin ətrafında qamışlıq-bataqlıq ərazidə yanğın baş verib, 20 hektar sahədə qamışlıq, kol-kos və ağaclıq yanıb. Hadisə yerinə cəlb olunan FHN-in Dövlət Yanğından Mühafizə Xidmətinin müvafiq qüvvələri tərəfindən görülən tədbirlər sayəsində yanğının daha geniş əraziyə yayılmasının qarşısı alınıb.

Goranboy rayonunun Tap Qaraqoyunlu kəndinə mərmi düşməsi nəticəsində vətəndaşa məxsus təsərrüfat obyekti yanıb. Yanğın zamanı tövlənin içərisində olan 3 baş iribuynuzlu heyvan çıxarılıb. Yaxınlıqdakı tikililər yanğından mühafizə olunub.

Düşmənin atdığı mərmi Ağdam rayonunun Evoğlu kəndində vətəndaşa məxsus təsərrüfat obyektində yanğına səbəb olub. Yanğınsöndürmə qüvvələrinin operativ müdaxiləsi sayəsində obyektin bir hissəsi yanğından mühafizə olunub.

Qeyd edək ki, düşmənin artilleriya atəşləri nəticəsində müxtəlif obyektlərə, o cümlədən mülki obyektlərə, fərdi və çoxmənzilli yaşayış evlərinə, təsərrüfatlara, infrastruktur obyektlərinə dəyən ziyanın, zərbələr nəticəsində baş verən yanğınların dərhal aradan qaldırılması üçün FHN gücləndirilmiş iş rejimində fəaliyyət göstərir. Baş verən hər hansı fövqəladə hadisə ilə əlaqədar nazirliyin 112 – “qaynar” telefon xəttinə dərhal məlumat verilməsi xahiş olunur.

**AZƏRTAC**

**Müdafiə Nazirliyi: Kəndlərimiz raket və artilleriya atəşinə tutulur**

[10:43] 04.10.2020

Düşmən Ermənistan ərazisindən Füzuli rayonunun ərazisini raket atəşinə tutur.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, işğal altında olan ərazilərimizdən isə Ağdam və Tərtər rayonlarının kəndləri artilleriya atəşinə məruz qalıb.

**AZƏRTAC**

## Müdafiə Nazirliyinin mətbuat katibi: Azərbaycan Ordusu düşmənə ağır zərbələr endirir

[14:25] 04.10.2020

Azərbaycan Ordusunun əks-hücum əməliyyatı cəbhənin bütün istiqamətlərində uğurla davam edir. Ermənistan tərəfi yenidən guya Azərbaycan Hərbi Hava Qüvvələrinə məxsus təyyarələrin, pilotsuz uçuş aparatlarının (PUA) vurulması və bu tipli digər feyk xəbərlər, müxtəlif dezinformasiyalar yayır. Bir daha bildiririk ki, Azərbaycan Hərbi Hava Qüvvələrinə məxsus heç bir döyüş təyyarəsi vurulmayıb. Azərbaycanın zərbə PUA-ları düşmənin döyüş texnikalarını darmadağın etməkdə davam edir.

AZƏRTAC xəbər verir ki, bunu Müdafiə Nazirliyinin mətbuat xidmətinin mətbuat katibi polkovnik-leytenant Anar Eyvazov oktyabrın 4-də keçirilən brifinqdə deyib.

Anar Eyvazov bildirib ki, Ermənistanın Müdafiə Nazirliyi Azərbaycan Ordusu barədə yalan məlumatlar yaymaqla döyüşlərdəki məğlubiyyətlərini ört-basdır etməyə çalışır. İctimaiyyəti düşmənin dezinformasiyasına uymamağa və yalnız Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin rəsmi bəyanatlarına istinad etməyə çağırış edirik.

Məlumat verilib ki, əks-hücum əməliyyatları çərçivəsində gedən şiddətli döyüşlər zamanı qoşunlarımızın şəxsi heyətinin şücaəti nəticəsində Tərtər rayonunun Suqovuşan və Talış yaşayış məntəqələri, Füzuli rayonunun Aşağı Əbdürrəhmanlı, Cəbrayıl rayonunun Mehdili, Çaxırlı, Aşağı Maralyan, Şəybəy və Quycaq kəndləri işğaldan azad olunub. Suqovuşan-Ağdərə istiqamətində gedən döyüşlər zamanı düşmənin 77-ci tank taborunun 4 tankı məhv edilib, 3 tankı isə qənimət götürülüb. Ermənistan silahlı qüvvələrinin Ağdərə istiqamətində yerləşən 5-ci dağ atıcı alayının müdafiə sahəsinə ordumuz tərəfindən artilleriya zərbələrinin endirilməsi nəticəsində alayın 4 ədəd avtomobil texnikası məhv edilib. Düşmənin şəxsi heyəti arasında çoxlu sayda ölən və yaralanan var. Həmin alayın bir neçə bölməsinin şəxsi heyəti döyüş mövqeyini tərk edərək qaçıb.

Hazırda cəbhədə vəziyyət gərgin olaraq qalır. Müxtəlif istiqamətlərdə düşmənin aktivliyinin qarşısı ordumuz tərəfindən alınır və ona ağır zərbələr endirilir. Canlı qüvvə və döyüş texnikası sarıdan xeyli itki verən Ermənistan silahlı qüvvələri artıq 60-70 yaşlarında olan qocaları da döyüşə göndərir. Belə görünür ki, bu, qadınların ardınca döyüşə ahıl yaşlıları da göndərən düşmənin son ehtiyat qüvvəsi olacaq.

Müdafiə Nazirliyinin mətbuat katibi qeyd edib ki, ötən müddət ərzində bir neçə yaşayış məntəqəmiz düşmənin artilleriya atəşinə məruz qalıb. Belə ki, Ermənistan silahlı qüvvələri tərəfindən Gəncə şəhəri, Tərtərin bir sıra yaşayış məntəqələri, o cümlədən rayonun Səhləbad, Qəzyan, Qapanlı, Qaynaq, Əskipara və Hüsənli, Ağdam rayonunun Quzanlı, Əlibəyli, Ayaq Qərvənd, İmamqulubəyli, Qaradağlı və Təzəkənd, Füzuli rayonunun Horadiz şəhəri, Ağcabədi rayonunun Muğanlı, Qiyaməddinli, Rəncbərlər və Goranboy rayonunun Tapqaraqoyunlu kəndləri intensiv olaraq raket və artilleriya atəşinə tutulub. Dəfələrlə edilən xəbərdarlıqlara məhəl qoymayan düşmənə qarşı adekvat tədbirlər görülür. Düşmənin guya Gəncədəki hərbi obyektləri vurması barədə yaydığı xəbər təxribat xarakteri daşıyır və tamamilə yalandır.

A.Eyvazov çıxışının sonunda Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənovun bəyanatını diqqətə çatdırıb: “Ermənistan ərazisindən Azərbaycan ərazisinə atəş açılması açıq təxribat xarakteri daşıyır və döyüş bölgəsini genişləndirir”.

**AZƏRTAC**

**Müdafiə Nazirliyi: Ermənistan ordusu Azərbaycanın yaşayış məntəqələrini atəşə tutmaqda davam edir**

[16:15] 04.10.2020

Ermənistan silahlı qüvvələri Azərbaycanın yaşayış məntəqələrini atəşə tutmaqda davam edir.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, hazırda Ağcabədi rayonunun Sarıcalı, Ağdam rayonunun Baharlı, Çıraqlı, Üçoğlan və Bərdə rayonunun Şahvəllər yaşayış məntəqələri düşmən tərəfindən intensiv artilleriya atəşinə tutulur, yaralananlar var.

Qeyd edək ki, Azərbaycan Ordusu ilə üz-üzə gəlməyə cürət etməyən düşmən yaşayış məntəqələrimizi intensiv atəşə tutur.

**AZƏRTAC**

**Ombudsman Gəncə şəhərində baş vermiş insan tələfatı və törədilmiş dağıntılarla bağlı bəyanat yayıb**

[18:34] 04.10.2020

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Ermənistan silahlı qüvvələrinin Azərbaycanın Gəncə şəhəri və digər ərazilərini atəşə tutması nəticəsində baş vermiş insan tələfatı və törədilmiş dağıntılarla bağlı növbəti etiraz bəyanatı yayıb.

Ombudsman aparatından AZƏRTAC-a daxil olan bəyanatda deyilir:

"Beynəlxalq ictimaiyyətə məlumdur ki, sentyabrın 27-dən başlayaraq Ermənistan silahlı qüvvələri tərəfindən atəşkəs rejimi və beynəlxalq hüquq normaları növbəti dəfə kobud şəkildə pozularaq mülki əhalinin sıx məskunlaşdığı yaşayış məntəqələri və sosial obyektlər ağır artilleriya qurğularından, aviasiyadan və xüsusi raket sistemlərindən istifadə edilməklə intensiv şəkildə atəşə tutulur.

Cinayətkar əməllərini davam etdirən Ermənistan silahlı qüvvələri oktyabrın 4-də səhər saatlarından başlayaraq münaqişə zonasından kənarda yerləşən, Azərbaycanın ikinci böyük şəhəri, qədim tarixə malik, çoxsaylı mədəniyyət obyektləri olan, turizm mərkəzi və əhalinin sıx məskunlaşdığı Gəncə şəhərinə raketlər atmaqla ağır artilleriya atəşinə tutub.

Ermənistan silahlı qüvvələri qəsdən və hədəflənmiş şəkildə Beyləqan və Tərtər şəhərlərini, Füzuli rayonunun Horadiz şəhərini, Bərdə, Ağdam, Ağcabədi, Cəbrayıl, habelə mülki əhalinin sıx məskunlaşdığı digər yaşayış məntəqələrini də ağır artilleriya və raketlərdən istifadə etməklə atəşə tutub.

Nəticədə dinc əhali arasında çoxsaylı ölən və yaralananlar olmuş, mülki evlərə, tarixi və mədəni abidələrə, inzibati binalara və digər sosial obyektlərə ciddi ziyan dəymişdir.

Halbuki, beynəlxalq humanitar hüquq əsas prinsip kimi hərbi əməliyyatların gedişində kombatantlar və mülki şəxslərin, hərbi və mülki obyektlərin aydın şəkildə fərqləndirilməsini tələb edir.

Xüsusi raket sistemlərindən istifadə etməklə mülki əhalini hədəf seçən işğalçı Ermənistan dövləti isə BMT Nizamnaməsini, beynəlxalq hüququn norma və prinsiplərini, beynəlxalq humanitar hüquq normalarını, Cenevrə Konvensiyalarını, xüsusilə Müharibə zamanı mülki əhalinin müdafiəsi haqqında 1949-cu il 12 avqust tarixli Konvensiyanın, "Silahlı münaqişə zamanı mədəni sərvətlərin mühafizəsi haqqında" 1954-cü il 14 may tarixli Haaqa Konvensiyasının və insan hüquqları sahəsində digər sənədlərin müddəalarını kobud şəkildə pozmaqla öz təcavüzkar siyasətini, müharibə cinayətlərini davam etdirir.

Təcavüzkar Ermənistanın törətmiş olduğu müharibə cinayətlərinin qarşısının alınması istiqamətində nüfuzlu beynəlxalq təşkilatlar tərəfindən ciddi tədbirlərin görülməməsi nəticəsində işğalçı dövlət daha da azğınlaşır, münaqişə zonasını bilərəkdən genişləndirir və insanlıq əleyhinə yeni cinayət əməlləri törətməkdə davam edir.

Təcili olaraq dünya ictimaiyyətini beynəlxalq humanitar hüququn pozulması ilə qəsdən törədilmiş və mülki əhalinin qətlə yetirilməsi ilə nəticələnən müharibə cinayətlərini törətməkdə davam edən işğalçı Ermənistan dövlətindən mülki əhalinin həyat və sağlamlığına, mülkiyyətinə qəsd edilməsinə, beləliklə də insan hüquq və azadlıqlarının kütləvi şəkildə pozulmasına səbəb olan cinayətkar əməllərdən çəkinməklə işğala son qoymasını tələb etməyə və beynəlxalq hüquqi məsuliyyət müəyyən edən qətiyyətli addımlar atmağa çağırırıq".

**AZƏRTAC**

**Dövlət Baxçalı: Ermənistan zülm saçan üzünü bir daha göstərdi**

[18:23] 04.10.2020

Ermənistanın Azərbaycanın ən böyük şəhərlərindən biri olan Gəncəyə xaincə hücum etməsi, dinc və günahsız soydaşlarımızı hədəf alması insanlığa qarşı cinayət, beynəlxalq hüququn açıqca tapdanması və inkar edilməsidir. Ermənistan zülm saçan üzünü bir daha göstərdi.

AZƏRTAC xəbər verir ki, bu fikirləri Türkiyənin Milliyyətçi Hərəkat Partiyasının (MHP) sədri Dövlət Baxçalı bildirib.

D.Baxçalı deyib: "Bundan əlavə, Füzuli, Ağdam və Tərtərin yaşayış əraziləri Ermənistan tərəfindən artilleriya və raket atəşinə tutulub. Erməni dəstələri Azərbaycan qarşısında sıxışdıqca münaqişə bölgələrini mülki yaşayış məntəqələrinə qədər genişləndirirlər. Qatil erməni zehniyyəti əvvəllər etdiyini bu gün də vəhşicəsinə təkrarlayır. Ermənistan qəddardır, qatildir və töküldüyü qana qərq olacaq.

Cənubi Qafqazdakı sülh və sabitliyin yeganə düşməni Ermənistandır. Beynəlxalq ictimaiyyət artıq mülki vətəndaşlara qarşı qanlı və alçaq hücumlara biganə qalmamalıdır. Buradan şəhidlərimizə Allahdan rəhmət, yaralı soydaşlarımıza şəfa diləyirəm.

Unutmaq lazım deyil ki, Dağlıq Qarabağ türk yurdudur. Bu hüququn haqq sahibi ilə birləşməsi həyat bahasına olsa belə təmin edilməlidir. Qatil və terrorçu bir dövlət olan Ermənistanı nifrətlə qınayıram. İlanın başının mütləq əziləcəyinə inanıram.

Ayrı olan heç nəyimiz yoxdur, uzağımız yaxınımız yoxdur, iki dövlət bir millətik, eyni damarda axan qan, eyni bədəndə döyünən ürəyik. Birik, bərabərik, Türkiyə ilə Azərbaycanıq. Birlikdə biz böyük bir Türk millətiyik".

**Günel Məlikova,**
AZƏRTAC-ın xüsusi müxbiri, İstanbul

**AZƏRTAC**

**ANAMA tərəfindən cəbhəboyu ərazilərdə təxirəsalınmaz əməliyyatlar keçirilib**

[02:58] 05.10.2020

Oktyabrın 2-dən Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyə (ANAMA) Ağdam, Ağcabədi, Bərdə, Beyləqan, Goranboy, Şəmkir, Xızı, Tərtər rayonları və Gəncə şəhəri ərazisinə mərmilərin düşməsi barədə Daxili İşlər Nazirliyinin ″102″ Xidməti-Zəng mərkəzi sistemindən 67 və Fövqəladə Hallar Nazirliyinin Böhran Vəziyyətlərində İdarəetmə mərkəzindən 3 müraciət daxil olub.

ANAMA-dan AZƏRTAC-a bildiriblər ki, daxil olmuş 70 çağırış əsasında agentliyin xüsusi mobil çevik əməliyyat qrupları tərəfindən Ağcabədi rayonunun E.Sadıqov küçəsi, Muğanlı, Diləğanlı, Boyat, Minəxorlu, Rəncbərlər, Poladlı, Cəfərli kəndləri və Hindarx qəsəbəsi, Ağdam rayonu Alıbəyli və Mərzili kəndləri, Füzuli rayonunun Horadiz şəhəri, Alxanlı kəndi və 5-ci Zobcuq qəsəbəsi, Goranboy rayonunun Goran qəsəbəsi və Boluslu kəndi, Şəmkir rayonunun Sabirkənd kəndi, Xızı rayonunun Türkoba kəndi, Tərtər rayonunun İ.İsgəndərov küçəsi, Gəncə, Mingəçevir və Beyləqan şəhərləri ərazisində Daxili İşlər Nazirliyinin və Fövqəladə Hallar Nazirliyinin əməkdaşları ilə birlikdə 66 operativ və təxirəsalınmaz əməliyyat çıxışı həyata keçirilib. Aparılmış əməliyyat-axtarış tədbirləri zamanı 14 ədəd partlamamış hərbi sursat (2 ədəd 300 mm-lik raket (9M528), 12 ədəd tank əleyhinə idarə olunmayan raket (5 ədəd PQ-22, 3 ədəd PQ-9 və 4 ədəd PQ-7) və 32 ədəd partlamış mərmi qalıqları aşkar olunub.

Həmçinin agentliyin partlayış qrupu tərəfindən 3 ədəd raket yerində işarələnib və növbəti iş günü ətrafında əməliyyat-axtarış tədbirləri həyata keçiriləcəkdir.

Ümumilikdə agentlik tərəfindən sentyabrın 27–dən oktyabrın 4-dək 200 siqnal (əməliyyat çağırışı) əsasında 194 operativ və təxirəsalınmaz əməliyyat çıxışı olub ki, nəticədə Ağdam, Ağdaş, Ağcabədi, Bərdə, Beyləqan, Biləsuvar, Goranboy, Naftalan, Füzuli, Tərtər, Şəmkir, Hacıqabul rayonları, Gəncə və Mingəçevir şəhərləri ərazisində ev və həyətyanı sahəyə, neft kəmərinin yaxınlığına, Mingəçevir İES-in ərazisinə, əkin və otlaq sahələrinə, yol kənarına, meşə massivinə, məktəbə baxış keçirilib, 66 ədəd müxtəlif növ partlamamış hərbi sursat (PHS), hərbi məqsədlər üçün istifadə olunan metroloji radiopelenqator, 1 ədəd kamikadze dron (partladıcısı yerində zərərsizləşdirilmişdir), 2 ədəd raketin mikrosxeması və 69 ədəd partlamış raket hissələri aşkar olunub.

**AZƏRTAC**

## Azərbaycan Prezidenti: Fransa özü-özünü həmsədrlər üçlüyünün xaricinə qoyur və biz buna səssiz qala bilmərik

[18:08] 05.10.2020

Bütün prosesdə biz həmsədrlərə eyni gözlə baxmışıq və mən dəfələrlə rəsmi çıxışlarımda demişdim ki, hər bir ölkə ilə Azərbaycanın ayrı münasibətləri var, təbii ki, bu münasibətlərin səviyyəsi fərqlidir. Amma, eyni zamanda, bu məsələdə biz bu ölkələri bir-birindən ayırmırıq və bu ölkələr bütün proses boyunca son olaylara qədər vahid bir mövqedən çıxış edirdi, bitərəf idi. Halbuki biz bilirdik ki, bəlkə də bunların ürəyində tərəftutma var. Bu da təbiidir. Amma rəsmi addımlarda və bizimlə təmaslarda heç zaman bunu göstərmirdilər.

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev bu fikirləri "TRT Haber" telekanalına müsahibəsində səsləndirib.

Aparıcının "Fransa prezidenti Makronu üzr istəməyə dəvət etdiniz" replikasına cavab olaraq dövlətimizin başçısı deyib: "Bəli, təbii, çünki bizə qarşı ittiham irəli sürdü. Olmayan şeyləri üstümüzə atdı. Bu, bizim ölkəmiz üçün qəbuledilməzdir. Deyib ki, Azərbaycan Türkiyə ilə birlikdə bölgəyə terrorçuları gətirib. Onun açıqlamasında bu, var. Ondan sonra bir açıqlamasında demişdir ki, "Azərbaycan Dağlıq Qarabağı fəth etmək istəyir və biz buna icazə vermərik". Dağlıq Qarabağ bizim torpağımızdır. Bir dövlət öz torpaqlarını fəth edə bilərmi? Yəni, həmsədr bilmirmi ki, bu torpaqlarda qanunsuz olaraq ermənilər oturub bizim bütün tarixi abidələrimizi, məscidlərimizi, qəbirlərimizi, evlərimizi yerlə-yeksan ediblər. Ağdamın, Füzulinin görüntülərinə baxın. Bizim yarıdağılmış məscidlərimizdə donuz, inək saxlayır. Bütün müsəlmanları təhqir edir. Görmürlərmi bunu?"

Prezident İlham Əliyev qeyd edib ki, ona görə də "Azərbaycan Dağlıq Qarabağı fəth etmək istəyir və biz buna icazə vermərik" sözləri qəbuledilməzdir. Ona görə Fransa özü-özünü artıq bu bərabər üçlüyün xaricinə qoyur və biz buna səssiz qala bilmərik.

**AZƏRTAC**

**Baş Prokurorluq: Təcavüzkar Ermənistanın hərbi-siyasi rəhbərliyi dinc əhaliyə qarşı terror əməllərini davam etdirir**

[20:40] 05.10.2020

Təcavüzkar Ermənistanın hərbi-siyasi rəhbərliyi beynəlxalq hüququn norma və prinsiplərini kobud şəkildə pozaraq dinc əhaliyə qarşı terror əməllərini davam etdirir.

Azərbaycan Respublikası Baş Prokurorluğunun mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, işğalçı ölkənin silahlı qüvvələrinin yaşayış məntəqələri və silahsızlaşdırılmış zonalar, habelə hərbi hədəf olmayan, aydın görünən və fərqləndirilən obyektlər, o cümlədən mülki əhalini hədəfə almaqla 5 oktyabr 2020-ci il tarixdə Ağdam rayonunun müxtəlif istiqamətlərində intensiv atəşə tutması nəticəsində 1954-cü il təvəllüdlü Rəhimov Eyvaz Musa oğlu həlak olub, rayonun Üçoğlan kənd sakini 1971-ci il təvəllüdlü Səfərov Mehman Ağalar oğlu isə müxtəlif dərəcəli bədən xəsarətləri alaraq xəstəxanaya yerləşdirilib.

Bundan başqa, düşmənin Goranboy rayonunun yaşayış məntəqələrini ağır artilleriyadan atəşə tutması səbəbindən yaşadığı evə top mərmisinin düşməsi nəticəsində Qızılhacılı kənd sakinləri 1955-ci il təvəllüdlü Abbasova Raziyə Bayraməli qızı həlak olub, eyni zamanda top mərmisinin düşdüyü başqa bir yaşayış evinin sakinləri 1958-ci il təvəllüdlü Həsənov Məşdi İbrahim oğlu, sonuncunun qızı 1984-cü il təvəllüdlü Sevinc Həsənova və azyaşlı nəvəsi 2011-ci il təvəllüdlü Həsənov Elcan Elgün oğlu, boş sahəyə düşmüş top mərmisinin qəlpələrindən 1969-cu il təvəllüdlü Ələkbərov Rasim Nadir oğlu müxtəlif dərəcəli bədən xəsarətləri alaraq xəstəxanaya yerləşdiriliblər.

Hazırda prokurorluq əməkdaşları tərəfindən hadisə yerlərində döyüş şəraitində mümkün olan bütün istintaq-əməliyyat tədbirləri həyata keçirilir.

**AZƏRTAC**

**Azərbaycan Həmkarlar İttifaqları Ermənistanın son təxribatları ilə əlaqədar beynəlxalq təşkilatlara müraciət edib**

[21:05] 05.10.2020

Azərbaycan Həmkarlar İttifaqları Ermənistanın son təxribatları ilə əlaqədar beynəlxalq təşkilatlara müraciət edib.

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasından AZƏRTAC-a bildirilib ki, müraciətdə deyilir: “Sentyabrın 27-dən hərbi təxribatlara başlayan işğalçı Ermənistanın faşist xislətli rejimi “ənənəsinə” sadiq qalaraq yenə də çirkin simasını göstərir, kəndlərimizi, dinc əhalini nişan almaqdan çəkinmir. Təcavüzkar Ermənistanın hərbi-siyasi rəhbərliyinin beynəlxalq hüququn norma və prinsiplərini kobud şəkildə pozaraq dinc əhaliyə qarşı terror əməllərini dayandırmaması, Azərbaycanı özünümüdafiə hüququndan yararlanaraq, nəhayət, düşməni sülhə məcbur etmək, Ermənistanın təxribatlarının, hərbi avantüralarının, ölkəmizə qarşı işğalçılıq siyasətinin qarşısını almaq məqsədilə əks-hücum əməliyyatlarına başlamağa vadar edib.

Ordumuzla döyüş meydanında rüsvayçı məğlubiyyətlər yaşayan Ermənistan silahlı qüvvələri Azərbaycan əhalisinin sıx yaşadığı yaşayış məntəqələrini, mülki obyektləri, fərdi və çoxmənzilli yaşayış evlərini, xəstəxanaları, tibb məntəqələrini, məktəb binalarını, uşaq bağçalarını, dövlət qurumlarının inzibati binalarını, təsərrüfat təyinatlı əraziləri ağır artilleriya qurğularından intensiv atəşə tutaraq dağıntı və yanğınlar törədir, dinc əhalini qətlə yetirir.

Ermənistan silahlı qüvvələri 2020-ci ilin oktyabrın 4-də səhər saatlarından başlayaraq münaqişə zonasından xeyli kənarda yerləşən, Azərbaycanın qədim tarixə malik, ikinci böyük şəhəri, çoxsaylı mədəniyyət turizm obyektləri olan, əhalinin sıx məskunlaşdığı Gəncə şəhərinə raketlər ataraq 1 mülki vətəndaşın ölümünə, 35 nəfərin yaralanmasına səbəb olub. Dağılan yaşayış binaları, tarixi abidələrin uçqunları altında xeyli insan xəsarət alıb.

Ermənistan silahlı qüvvələri qəsdən və hədəflənmiş şəkildə Beyləqan və Tərtər şəhərlərini, Füzuli rayonunun Horadiz şəhərini, Bərdə, Ağdam, Ağcabədi, Cəbrayıl, Xızı və Bakı ətrafındakı Abşeron rayonlarını, habelə mülki əhalinin sıx məskunlaşdığı digər yaşayış məntəqələrini də ağır artilleriyadan və raketlərdən istifadə etməklə atəşə tutub. Nəhəng su anbarının və elektrik stansiyasının yerləşdiyi Azərbaycanın iri sənaye mərkəzlərindən olan Mingəçevir şəhəri də atəşə məruz qalıb. Ermənilər tərəfinin məqsədyönlü atəşləri nəticəsində bu günədək 24 azərbaycanlı mülki şəxs qətlə yetirilib, 121 nəfər yaralanıb, 300-dən çox yaşayış binası və mülki obyektlər dağıdılıb. Halbuki, beynəlxalq humanitar hüquq əsas prinsip kimi hərbi əməliyyatların gedişində döyüşçülərin və mülki şəxslərin, hərbi və mülki obyektlərin aydın şəkildə fərqləndirilməsini tələb edir. Xüsusi raket sistemlərindən istifadə etməklə mülki əhalini hədəf seçən işğalçı Ermənistan dövləti isə BMT Nizamnaməsini, beynəlxalq hüququn norma və prinsiplərini, beynəlxalq humanitar hüquq normalarını, Cenevrə konvensiyalarını, xüsusilə müharibə zamanı “Mülki əhalinin müdafiəsi haqqında” 1949-cu il 12 avqust tarixli Konvensiyanı, “Silahlı münaqişə zamanı mədəni sərvətlərin mühafizəsi haqqında” 1954-cü il 14 may tarixli Haaqa Konvensiyasının və insan hüquqları sahəsində digər beynəlxalq sənədlərin müddəalarını kobud şəkildə pozmaqla öz təcavüzkar siyasətini, müharibə cinayətlərini davam etdirir.

Azərbaycan Ordusu dinc əhaliyə silah tuşlamır, bir güllə, mərmi belə atmır. Azərbaycan döyüşçüləri yad torpaqlarda deyil, öz qədim yurdunda sülhün bərqərar olması uğrunda erməni terrorçularına qarşı savaşır. Azərbaycan mülki əhaliyə zərər dəyməməsi üçün səy göstərməklə beynəlxalq hüququn tələbləri çərçivəsində özünü müdafiə hüququndan istifadə edir.

Təəssüflər olsun ki, Azərbaycan hökuməti, hüquq müdafiə və qeyri-hökumət təşkilatları, ayrı-ayrı vətəndaşlar tərəfindən erməni silahlı qüvvələri tərəfindən dinc əhaliyə qarşı törədilən cinayətlərlə bağlı dünyanın aparıcı beynəlxalq təşkilatlarına, o cümlədən Birləşmiş Millətlər Təşkilatına, ATƏT-ə, Avropa İttifaqına, Avropa Şurasına və digər beynəlxalq təşkilatlara etdikləri müraciətlər cavabsız qalmaqdadır. Dinc əhali qırılır, tarixi abidələr, mədəniyyət obyektləri dağıdılır, lakin başda Birləşmiş Millətlər Təşkilatı olmaqla, beynəlxalq təşkilatlar, eyni zamanda, münaqişənin nizamlanmasının birbaşa məsuliyyətini daşıyan ATƏT-in Minsk qrupu susmaqda davam edir. İkili standartlar sayəsində Ermənistanın cinayətlərinə göz yumulur, Azərbaycanın haqlı səsi eşidilmir.

Biz həmkarlar ittifaqları olaraq dünyanın aparıcı dövlətlərini, beynəlxalq qurumları, eləcə də beynəlxalq əməkçi təşkilatlarını Ermənistanın Azərbaycan ərazisində törətdiyi cinayətlərə seyrçi

qalmamağa, eyni zamanda, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi nəticəsində mülki əhalinin pozulmuş hüquq və azadlıqlarının bərpası istiqamətində üzərlərinə düşən zəruri addımları atmağa və müvafiq tədbirlər görməyə çağırırıq".

**AZƏRTAC**

**ANAMA: Goranboy rayonu ərazisində kasetli mərmi aşkarlanıb**

[17:48] 06.10.2020

Sentyabrın 27-dən etibarən Ermənistan silahlı qüvvələri atəşkəs rejimini kobud şəkildə pozaraq iriçaplı silahlardan və artilleriya qurğularından bütün təmas xətti boyunca ordumuzun mövqelərini atəşə tutub. Dinc əhalini və mülki infrastrukturu hədəfə alan düşmən Azərbaycanın şəhərlərinə, rayonlarına, kəndlərinə raket və mərmilər atıb. Həmin tarixdən Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyin (ANAMA) xüsusi mobil əməliyyat qrupları, həmçinin baş qərargahda operativ qərargah yaradılıb. Daxil olmuş çağırışlar və müraciətlər əsasında operativ şəkildə əməliyyat-axtarış çıxışları həyata keçirilir.

Bunu ANAMA-nın operativ qərargahının rəisi İdris İsmayılov AZƏRTAC-a açıqlamasında deyib.

ANAMA-nın operativ qərargahının rəisi bildirib ki, Ermənistan silahlı qüvvələri tərəfindən atılan raketlərdə kaset döyüş başlıqlarından istifadə olunur. Hazırda Goranboy rayonu ərazində iki məntəqədə kasetli mərmi aşkarlanıb. Agentliyin əməliyyat qrupu hazırda həmin ərazidədir və axtarış tədbirləri davam edir. Axtarış işləri tam yekunlaşdıqdan sonra bu barədə ətraflı məlumat veriləcək.

İdris İsmayılov əlavə edib ki, əvvəllər Beyləqan rayonunda da kaset bombaların çanaq hissəsi aşkarlanmışdı. Ümumiyyətlə, kasetli bombalar qadağan olunmuş bombalar sinfinə daxildir. 1949-cu il tarixli Cenevrə Konvensiyasına uyğun olaraq onun yaşayış ərazisinə, dinc əhaliyə atılması qadağandır.

O vurğulayıb ki, ümumilikdə sentyabrın 27–dən oktyabrın 5-dək agentliyə 258 təxirəsalınmaz siqnal (əməliyyat çağırışı) daxil olub və bu çağırışlar əsasında operativ və əməliyyat-axtarış çıxışları olub. Nəticədə Ağdam, Ağdaş, Ağcabədi, Bərdə, Beyləqan, Biləsuvar, Goranboy, Naftalan, Füzuli, Tərtər, Gəncə və Mingəçevir şəhərləri ərazisində ev və həyətyanı sahələrə, neft kəmərinin yaxınlığına, Mingəçevir İstilik Elektrik Stansiyasının ərazisinə, əkin və otlaq sahələrinə, yol kənarına və digər ərazilərə baxış keçirilib, 67 ədəd müxtəlif növ partlamamış hərbi sursat, hərbi məqsədlər üçün istifadə olunan 2 ədəd metroloji radiopelenqator, o cümlədən 94 ədəd partlamış mərmi qalıqları aşkarlanaraq götürülüb.

Hazırda agentliyin 24 əməliyyat-axtarış qrupu regionlarda əməliyyat axtarış tədbirlərini davam etdirirlər.

Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazisindəki yaşayış məntəqələrinə, insanların sıx yaşadığı ərazilərə kasetli bombalar atması hərbi cinayətdir. Kasetli bombalar insan orqanizmi üçün olduqca zərərlidir. Bu bombalar çoxlu sayda kiçik bombalardan ibarətdir və məhz bu xüsusiyyətinə görə bu silah növü böyük əraziləri dağıda bilir. Ona görə kasetli bombaların insanların kütləvi şəkildə yaşadığı ərazilərə atılması qadağandır.

**AZƏRTAC**

**Ombudsman Ermənistan silahlı qüvvələrinin ağır artilleriya atəşinə tutduğu Gəncədə faktaraşdırıcı missiya həyata keçirib**

[06:20] 07.10.2020

Ermənistan silahlı qüvvələri tərəfindən sentyabrın 27-dən başlayaraq beynəlxalq hüquq normaları növbəti dəfə kobud şəkildə pozulmaqla cəbhə bölgəsindən uzaq mülki əhalinin sıx məskunlaşdığı yaşayış məntəqələri, sosial, mədəni və strateji əhəmiyyətli obyektlər ağır artilleriya qurğularından, aviasiyadan, xüsusi raket sistemlərindən və qadağan olunmuş silahlardan istifadə edilməklə intensiv şəkildə atəşə tutulur.

Təəssüflə bildiririk ki, Ermənistan silahlı qüvvələri müharibə cinayətlərini davam etdirərək oktyabrın 4-dən başlayaraq münaqişə zonasından 100 kilometrdən artıq məsafədə yerləşən, Azərbaycanın ikinci böyük şəhəri olan, əhalinin sıx məskunlaşdığı Gəncə şəhərini Ermənistandan ağır artilleriya və raket atəşinə tutmaqda davam edir.

Ombudsman Aparatının mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Ombudsman Səbinə Əliyeva bununla əlaqədar növbəti faktaraşdırıcı missiya həyata keçirmək, Ermənistan silahlı qüvvələrinin hücumları nəticəsində insan hüquqlarının pozulmasına dair faktları araşdırmaq və həqiqətləri beynəlxalq təşkilatlara çatdırmaq məqsədilə ağır artilleriya atəşinə məruz qalan Gəncə şəhərinə səfər edib.

Monitorinq səfəri çərçivəsində Ombudsman ağır artilleriya atəşi nəticəsində dağılmış, ciddi ziyan dəymiş mülki evlərə, tarixi-mədəni abidələrə, iri ticarət mərkəzlərinə və digər ictimai obyektlərə baş çəkməklə araşdırma aparıb. Müvəkkil Ermənistan silahlı qüvvələrinin mülki əhalinin sıx yaşadığı əraziləri atəşə tutması nəticəsində yaralanmış şəxslərlə, habelə zərərçəkmiş şəhər sakinləri ilə görüşüb.

Ermənistan silahlı qüvvələri tərəfindən ağır artilleriya atəşi nəticəsində dağıntılara məruz qalmış Gəncə şəhərində davam etdirilən faktaraşdırıcı missiyanın nəticələrinə dair hesabat da beynəlxalq təşkilatlara təqdim ediləcək.

Qeyd olunmalıdır ki, Ermənistan silahlı qüvvələri qəsdən, məqsədli şəkildə Mingəçevir, Beyləqan, Füzuli rayonunun Horadiz şəhəri, Bərdə, Ağdam, Ağcabədi, Tərtər, Cəbrayıl, Xızı, Abşeron, habelə mülki əhalinin sıx məskunlaşdığı digər yaşayış məntəqələrini də ağır artilleriya və raketlərdən istifadə etməklə atəşə tutur. Nəticədə dinc əhali arasında çoxsaylı ölən və yaralananlar var, mülki evlərə, tarixi və mədəni abidələrə, inzibati binalara və digər sosial obyektlərə ciddi ziyan dəyib.

**AZƏRTAC**

**ANAMA ötən gün raket, 598 bombacıq və 14 partlamış mərmi qalıqları aşkarlayıb**

[04:40] 07.10.2020

Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentlik (ANAMA) oktyabrın 6-da cəbhəboyu ərazilərdə keçirilmiş təcili təxirəsalınmaz əməliyyatlar barədə məlumat yayıb.

ANAMA-dan AZƏRTAC-a bildirilib ki, oktyabrın 6-da agentliyə Ağdam, Ağcabədi, Bərdə, Beyləqan, Füzuli, Goranboy, Tərtər rayonları ərazisinə mərmilərin düşməsi barədə Daxili İşlər Nazirliyinin “102” Xidməti-Zəng mərkəzi sistemindən 24 və Fövqəladə Hallar Nazirliyinin Böhran Vəziyyətlərində İdarəetmə mərkəzindən bir müraciət daxil olub. Daxil olmuş 25 çağırış əsasında agentliyin xüsusi mobil çevik əməliyyat qrupları tərəfindən Ağcabədi rayonunun Hindarx qəsəbəsi və Qaraxanlı kəndi, Ağdam rayonunun Üçoğlan, Böyükbəyli kəndləri və 4 yol qəsəbəsi, Bərdə rayonunun Çəmənli və Xatınçay kəndləri, Beyləqan rayonunun Kəbirli kəndi, Füzuli rayonunun Horadiz şəhəri, Zobcuq qəsəbəsi, Alıxanlı və Kərimbəyli kəndləri, Goranboy rayonunun Qızılhacılı və Balakürd kəndləri, Bakı-Tbilisi-Ceyhan neft boru kəmərinin Yevlax rayonu ərazisindən keçən hissəsinə, Tərtər rayonunun Qazyan, Qarağacı kəndləri və Mehtiyev küçəsi ərazisində Daxili İşlər Nazirliyinin əməkdaşları ilə birlikdə 23 operativ və təxirəsalınmaz əməliyyat çıxışı həyata keçirilib. Aparılmış əməliyyat-axtarış tədbirləri zamanı bir ədəd raket, bir ədəd hərbi məqsədlər üçün istifadə olunan metroloji radiopelenqator, 598 ədəd bombacıq və 14 ədəd partlamış mərmi qalıqları aşkar edilib.

Həmçinin agentliyin partlayış qrupu tərəfindən bir ədəd kamikadze dron partlayış yolu ilə zərərsizləşdirilib.

Ümumilikdə agentlik tərəfindən 27 sentyabr – 6 oktyabr tarixlərində 306 siqnal (əməliyyat çağırışı) əsasında 282 operativ və təxirəsalınmaz əməliyyat çıxışı olub ki, nəticədə Ağdam, Ağdaş, Ağcabədi, Bərdə, Beyləqan, Biləsuvar, Cəbrayıl, Goranboy, Naftalan, Füzuli, Tərtər, Şəmkir, Hacıqabul, Zərdab rayonları, Gəncə və Mingəçevir şəhərləri ərazisində ev və həyətyanı sahəyə, neft kəmərinin yaxınlığına, Mingəçevirdəki İES-in ərazisinə, Cənubi Qafqaz Boru Kəmərinin yaxınlığına, əkin və otlaq sahələrinə, yol kənarına, meşə massivinə, məktəbə baxış keçirilib, 68 ədəd partlamamış hərbi sursat (PHS), 598 ədəd bombacıq, 3 ədəd hərbi məqsədlər üçün istifadə olunan metroloji radiopelenqator, 2 ədəd kamikadze dron (yerində zərərsizləşdirilib), 2 ədəd raketin mikrosxemi və 94 ədəd partlamış raket hissələri aşkar olunub.

**AZƏRTAC**

**Ermənistan ordusu yaşayış məntəqələrimizi atəşə tutur**

[10:35] 07.10.2020

Tərtər, Bərdə, Ağdam, Ağcabədi, Füzuli və Cəbrayıl rayonlarının kəndləri Ermənistan silahlı qüvvələri tərəfindən atəşə tutulur.

Azərbaycan Respublikası Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, ordumuz tərəfindən adekvat tədbirlər görülür.

**AZƏRTAC**

**Baş Prokurorluq: Düşmənin mülki şəxsləri hədəfə alması nəticəsində Ağdam rayonunun Xındırıstan kənd sakini həlak olub**

[13:05] 07.10.2020

Təcavüzkar Ermənistanın hərbi-siyasi rəhbərliyi beynəlxalq hüququn norma və prinsiplərini kobud şəkildə pozaraq ölkəmizin dinc əhalisinə qarşı terror əməllərini davam etdirir.

Baş Prokurorluğun mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, işğalçı ölkənin silahlı qüvvələri yaşayış məntəqələrini və silahsızlaşdırılmış zonaları, habelə mülki əhalini hədəfə almaqla ağır artilleriyadan Ağdam rayonunu müxtəlif istiqamətlərdən atəşə tutub. Rayonun Xındırıstan kəndi ərazisində yaşadığı evə mərmi düşməsi nəticəsində kənd sakini, 1945-ci il təvəllüdlü Əliyeva Zərifə Qamboy qızı həlak olub. Eyni zamanda, evə külli miqdarda ziyan dəyib.

Hazırda prokurorluq əməkdaşları tərəfindən döyüş şəraitində mümkün olan bütün istintaq-əməliyyat tədbirləri həyata keçirilir.

**AZƏRTAC**

**Anar Eyvazov: Ordumuz qazandığı uğurları genişləndirmək üçün irəliləyərək yeni dayaq məntəqələrini azad edib**

[19:56] 07.10.2020

Ötən müddət ərzində bütün cəbhəboyu döyüşlər davam edib. Ordumuz əldə olunan nailiyyətləri genişləndirmək məqsədilə müxtəlif istiqamətlərdə irəliləyərək yeni dayaq məntəqələrini azad edib. Bölmələrimiz ərazini düşməndən təmizləyib, onların zirehli texnikalarını məhv edib.

AZƏRTAC xəbər verir ki, bunu Müdafiə Nazirliyinin mətbuat xidmətinin mətbuat katibi polkovnik-leytenant Anar Eyvazov oktyabrın 7-də Hərbi İnformasiya Mərkəzində keçirilən brifinqdə deyib.

Anar Eyvazov bildirib ki, eyni zamanda, qarşılıqlı artilleriya atışları qeydə alınıb. Ordumuzun dəqiq artilleriya zərbələri ilə düşmənin müdafiə sahəsində bir tankı və üç topu məhv edilib. Beşinci alayın müdafiə sahəsində isə komanda-müşahidə məntəqəsi sıradan çıxarılıb. Düşmənin tərəfindən çoxlu sayda ölən və yaralananlar var. Əldə olunan məlumata görə düşmənin 1-ci alayında ərzaq çatışmazlığı səbəbindən şəxsi heyətin qida təminatında ciddi problemlər yaranıb. Buna görə də şəxsi heyət döyüş mövqelərini özbaşına tərk edərək fərarilik edib.

Müdafiə Nazirliyinin mətbuat katibi vurğulayıb ki, düşmənin digər bölmələrində döyüş sursatları və yanacaq təminatında ciddi problemlər var. Bəzi istiqamətlərdə müdafiə sahəsində düşmən bölmələrinin öz arasında qarşılıqlı əlaqənin olmaması nəticəsində bir-birinə atəş açılıb, ölən və yaralananlar var. Əks-hücum əməliyyatı başlayandan bu günədək ordumuz tərəfindən Ermənistan silahlı qüvvələrinin 250-dək tank və digər zirehli texnikası, 270-dək artilleriya, yaylım atəşli raket sistemləri, minaatanı, 60-dək hava hücumundan müdafiə vasitəsi, 11 komanda-idarəetmə və komanda-müşahidə məntəqəsi, 8 silah-sursat anbarı, 150-dək avtomobil texnikası və 1 ədəd "S-300" zenit-raket kompleksi və xeyli sayda şəxsi heyəti məhv edilib.

Diqqətə çatdırılıb ki, ordumuzun qətiyyətli əks-hücumu qarşısında aciz qalan qondarma rejimin və Ermənistan rəsmilərinin ziddiyyətli bəyanatları onların psixoloji durumunu aydın şəkildə əks etdirir. İtirilmiş mövqeləri dırnaqarası qaytaran işğalçı ordu Azərbaycanın dinc əhalisinin kompakt yaşadığı ərazilərdə, habelə Tərtər, Bərdə, Ağdam, Ağcabədi, Füzuli, Yevlax, Goranboy və Beyləqan və Cəbrayıl rayonlarını raket və artilleriya atəşinə tutub. Ordumuz tərəfindən düşmənə qarşı adekvat tədbirlər görülür. Ordumuzun və əsgərlərimizin qələbə əzmi tamdır. Ali Baş Komandan tərəfindən verilmiş bütün döyüş tapşırıqları müvəffəqiyyətlə icra edilir.

**AZƏRTAC**

**Düşmən yaşayış məntəqələrimizi atəşə tutmaqda davam edir**

[08:11] 08.10.2020

Səhər saatlarından başlayaraq Ermənistan silahlı qüvvələri Goranboy, Tərtər, Ağdam rayonlarının kəndlərini artilleriya atəşinə tutur. Ölən və yaralananlar var.

AZƏRTAC Müdafiə Nazirliyinin mətbuat xidmətinə istinadla xəbər verir ki, ordumuz adekvat tədbirlər görür.

**AZƏRTAC**

**Təmas xəttində 3 mərmi və 1 raket aşkarlanıb**

[02:31] 08.10.2020

Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyə (ANAMA) Ağdam, Ağcabədi, Bərdə, Beyləqan, Füzuli, Goranboy, Şəmkir, Tərtər rayonları və Gəncə şəhəri ərazisinə mərmilərin düşməsi barədə Daxili İşlər Nazirliyinin “102” Xidməti-Zəng mərkəzi sistemindən - 31 (otuz bir) və Fövqəladə Hallar Nazirliyinin Böhran Vəziyyətlərində İdarəetmə Mərkəzindən - 2 (iki) müraciət daxil olmuşdur.

ANAMA-dan AZƏRTAC-a bildirilib ki, daxil olmuş 33 çağırış əsasında agentliyin xüsusi mobil çevik əməliyyat qrupları tərəfindən Ağdam rayonunun Əfətli, Baharlı, Xındırıstan kəndləri, Ağcabədi rayonunun Qiyaməddinli, Muğanlı, Ağgöl, Böyük Kəhrizli kəndləri və Xan Şuşinski küçəsi, Bərdə rayonunun Şahvəlilər kəndi, Beyləqan rayonunun Şitilçilik qəsəbəsi, M.Ə.Rəsulzadə küçəsi, Füzuli rayonunun Alıxanlı, Aşağı Mollaməhərrəmli kəndləri, Zobcuq qəsəbəsi və Horadiz şəhəri, Goranboy rayonunun Qızılhacılı, Tapqaraqoyunlu kəndləri, Şəmkir rayonunun Sabirkənd kəndi, Tərtər rayonunun Borsunlu kəndi və Şəxarx qəsəbəsi, Gəncə şəhəri Hərbi şəhərcik, B.Əliyev və Ə.Əliyev küçələrinə Daxili İşlər Nazirliyinin əməkdaşları ilə birlikdə 31 operativ və təxirəsalınmaz əməliyyat çıxışı həyata keçirilib. Aparılmış əməliyyat-axtarış tədbirləri zamanı 1 ədəd 152 millimetrlik top mərmisi (OF-45), 1 ədəd 125 millimetrlik top mərmisi (OF-26), 1 ədəd 122 millimetrlik top mərmisi (OF-56-1), 1 ədəd 300 millimetrlik raket (9M528), 1 ədəd raketin təzyiq akkumulyatoru (9D180) (cəmi: 5 ədəd), 3 ədəd hərbi məqsədlər üçün istifadə olunan metroloji radiopelenqator və 6 ədəd partlamış mərmi qalıqları aşkar olunub.

Həmçinin agentliyin partlayış qrupu tərəfindən 56 ədəd 9M525 bombacıqları partlayış yolu ilə zərərsizləşdirilib.

Ümumilikdə agentlik tərəfindən sentyabrın 27–dən oktyabrın 7-dək 339 siqnal (əməliyyat çağırışı) əsasında 313 operativ və təxirəsalınmaz əməliyyat çıxışı olub ki, nəticədə Ağdam, Ağdaş, Ağcabədi, Bərdə, Beyləqan, Biləsuvar, Cəbrayıl, Goranboy, Naftalan, Füzuli, Tərtər, Şəmkir, Hacıqabul, Zərdab rayonları, Gəncə və Mingəçevir şəhərləri ərazisində ev və həyətyanı sahəyə, neft kəmərinin yaxınlığına, Mingəçevir İES-in ərazisinə, Cənubi Qafqaz Boru Kəmərinin yaxınlığına, əkin və otlaq sahələrinə, yol kənarına, meşə massivinə, məktəbə baxış keçirilib, 73 ədəd partlamamış hərbi sursat (PHS), 598 ədəd bombacıq, 6 ədəd hərbi məqsədlər üçün istifadə olunan metroloji radiopelenqator, 2 ədəd kamikadze dron (zərərsizləşdirilmişdir), 2 ədəd raketin mikrosxemi və 100 ədəd partlamış raket hissələri aşkar olunub.

**AZƏRTAC**

**Ermənistan ordusunun mülki əhalini hədəfə alması nəticəsində Ağdam rayonunun Böyükbəyli kəndində iki sakin xəsarət alıb**

[11:20] 08.10.2020

Təcavüzkar Ermənistanın hərbi-siyasi rəhbərliyi beynəlxalq hüququn norma və prinsiplərini kobud şəkildə pozaraq dinc əhaliyə qarşı terror əməllərini davam etdirir.

Baş Prokurorluğun mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, işğalçı ölkənin silahlı qüvvələrinin yaşayış məntəqələri və silahsızlaşdırılmış zonalar, habelə hərbi hədəf olmayan, aydın görünən və fərqləndirilən obyektlər, o cümlədən mülki əhalini hədəfə almaqla oktyabrın 8-də səhər saatlarından başlayaraq Ağdam rayonunu müxtəlif istiqamətlərdən raket və artilleriya mərmilərindən intensiv atəşə tutub.

Oktyabrın 8-də saat 08 radələrində Böyükbəyli kənd sakinləri 1992-ci il təvəllüdlü cəbrayıllı Sədi Bəbir oğlu və 1977-ci il təvəllüdlü Quliyeva Hürü Talış qızı avtomaşınla yol gedərkən Alıbəyli kəndi ərazisində mərmi düşməsi nəticəsində müxtəlif dərəcəli bədən xəsarətləri alaraq xəstəxanaya yerləşdiriliblər. Bundan başqa, kənd ərazisində çoxlu sayda mülki infrastruktur obyektinə və evinə külli miqdarda ziyan dəyib.

Hazırda prokurorluq əməkdaşları tərəfindən döyüş şəraitində mümkün olan bütün istintaq-əməliyyat tədbirləri həyata keçirilir.

**AZƏRTAC**

**Anar Eyvazov: Azərbaycan Ordusunun qətiyyətli əks-hücum əməliyyatı davam edib**

[19:06] 08.10.2020

Azərbaycan Ordusunun qətiyyətli əks-hücum əməliyyatı davam edib. Ermənistan-Azərbaycan dövlət sərhədinin Ağstafa rayonu sahəsində uçuş keçirməyə cəhd göstərən düşmənin pilotsuz uçuş aparatı Hava Hücumundan Müdafiə bölmələrimiz tərəfindən dərhal məhv edilib.

AZƏRTAC xəbər verir ki, bunu Müdafiə Nazirliyinin mətbuat xidmətinin mətbuat katibi polkovnik-leytenant Anar Eyvazov oktyabrın 8-də Hərbi İnformasiya Mərkəzində keçirilən brifinqdə deyib.

Müdafiə Nazirliyinin mətbuat katibi qeyd edib ki, Ermənistan silahlı qüvvələrinin hərbi hissəsinin qərargahına, infrastrukturuna və silah-sursat anbarlarına bölmələrimiz tərəfindən artilleriya zərbələri endirilib. Yerdəyişməyə cəhd göstərən düşmənin döyüş texnikasından ibarət hərbi kolonu dəqiq artilleriya atəşi ilə darmadağın edilib. Ordumuzun dəqiq atəş zərbələri nəticəsində cəbhənin müxtəlif istiqamətlərində düşmənin 10-dək tankı, 6 ədəd D-20 topu, 1 ədəd “Akasiya” özüyeriyən artilleriya qurğusu, 30-dək avtomobil texnikası və xeyli sayda canlı qüvvəsi məhv edilib.

Ermənistan ordusunun 1-ci və 7-ci alaylarının müdafiə sahələrində yerləşən bölmələrinin bir qrup əsgəri döyüş mövqelərini özbaşına tərk edərək fərarilik ediblər.

Anar Eyvazov bildirib ki, məğlubiyyətlə üzləşən Ermənistan silahlı qüvvələri Goranboy, Tərtər, Ağdam, Ağcabədi rayonlarını, o cümlədən “Toçka-U” taktiki raket kompleksindən istifadə edərək Bərdə rayonunu artilleriya və raket atəşinə tutub. Azərbaycanlı mülki əhali arasında ölən və yaralananlar var. Ordumuz adekvat tədbirlər görür. Azərbaycan Ordusunun atəş zərbələri endirdiyi bütün hədəflər beynəlxalq humanitar hüquq normaları və prinsiplərinə uyğun olaraq legitim xarakter daşıyır.

“Döyüşdə iştirak edən bölmələrimizin maddi – texniki təminat baxımından heç bir problemi yoxdur. Şəxsi heyət, o cümlədən hərbi texnika və döyüş vasitələrimiz bütün növ təminat vasitələri ilə tam şəkildə təmin edilib. Xüsusilə qeyd etmək istəyirəm ki, ordumuz əks-hücum əməliyyatı başlayandan bu günədək işğaldan azad olunmuş torpaqlarımızdan bir addım belə geri çəkilməyib. Əksinə, əməliyyat planına uyğun bütün tədbirlər fasiləsiz davam etdirilir. İstiqamət Qarabağdır. Qələbə bizimlədir”, - deyə Anar Eyvazov vurğulayıb.

**AZƏRTAC**

**Düşmən yaşayış məntəqələrimizi artilleriya atəşinə tutub**

[18:59] 08.10.2020

Ermənistan silahlı qüvvələri Goranboy, Tərtər və Ağdam rayonlarının kəndlərini artilleriya atəşinə tutur.

Azərbaycan Respublikası Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ordumuzun bölmələri tərəfindən düşmənə qarşı adekvat tədbirlər görülür.

**AZƏRTAC**

**Füzuli rayonunda Ermənistan silahlı qüvvələrinin atdığı ağ fosforlu tüstülü mərmi aşkarlanıb**

[19:20] 08.10.2020

Oktyabrın 8-də Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyin (ANAMA) xüsusi mobil əməliyyat qruplarının Füzuli rayonu ərazisində apardıqları əməliyyat-axtarış tədbirləri zamanı Ermənistan silahlı qüvvələri tərəfindən atılmış 122 millimetrlik tüstülü top mərmisi (D-4) aşkarlanıb.

ANAMA-dan AZƏRTAC-a bildiriblər ki, mərminin tərkibində 3,6 kiloqram ağ fosfor (P-4) var. Bu cür mərmilərin mülki əhaliyə və obyektlərə qarşı istifadə edilməsi beynəlxalq humanitar hüququn tələblərinə və prinsiplərinə görə qadağandır.

Sentyabrın 27-dən oktyabrın 8-dək ANAMA tərəfindən 339 siqnal (əməliyyat çağırışı) əsasında 313 operativ və təxirəsalınmaz əməliyyat çıxışı olub. Nəticədə Ağdam, Ağdaş, Ağcabədi, Bərdə, Beyləqan, Biləsuvar, Cəbrayıl, Goranboy, Naftalan, Füzuli, Tərtər, Şəmkir, Hacıqabul, Zərdab rayonları, Gəncə və Mingəçevir şəhərləri ərazisində ev və həyətyanı sahəyə, neft kəmərinin yaxınlığına, Mingəçevir İstilik Elektrik Stansiyasının ərazisinə, Cənubi Qafqaz Boru Kəmərinin yaxınlığına, əkin və otlaq sahələrinə, yol kənarına, meşə massivinə, məktəbə baxış keçirilib, 73 ədəd partlamamış hərbi sursat, 598 ədəd bombacıq, 6 ədəd hərbi məqsədlər üçün istifadə olunan meteoroloji radiopelenqator, 2 ədəd kamikadze dron (zərərsizləşdirilib), 2 ədəd raketin mikrosxemi və 100 ədəd partlamış raket hissələri aşkarlanıb.

**Cəbhəboyu rayonlarda top mərmiləri, raketlər, patronlar və mərmi qalıqları aşkarlanıb**

[08:08] 09.10.2020

Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyinə (ANAMA) Ağdam, Ağcabədi, Bərdə, Beyləqan, Füzuli, Goranboy, Tərtər rayonları və Gəncə şəhəri ərazisinə mərmilərin düşməsi barədə Daxili İşlər Nazirliyinin ″102″ Xidməti-Zəng mərkəzi sistemindən 60 müraciət daxil olub.

ANAMA-dan AZƏRTAC-a bildirilib ki, daxil olmuş 60 çağırış əsasında agentliyin xüsusi mobil çevik əməliyyat qrupları tərəfindən Ağdam rayonunun Əfətli, Sarıcalı kəndləri, Ergi, Quzanlı, 4 yol qəsəbələri, Ağcabədi rayonunun Yuxarı Qiyaməddinli, Minəxorlu, Muğanlı, Arazbar kəndləri, Bərdə rayonunun Əmirli və Meşəçilik kəndləri, Beyləqan rayonunun Şəfəq kəndi və A.Hacıyev küçəsi, Füzuli rayonunun Arayatlı, Kərimbəyli, Əhmədalılar kəndləri, Zobcuq qəsəbəsi və Horadiz şəhəri, Goranboy rayonunun Qaraçinar, Rəhimli, Şahməmmədli kəndləri, Qızılhacılı qəsəbəsi və E.Süleymanov küçəsi, Tərtər rayonunun Həsənli, Ələsgərli və Dəmirçilər kəndlərinə Daxili İşlər Nazirliyinin əməkdaşları ilə birlikdə 51 operativ və təxirəsalınmaz əməliyyat çıxışı həyata keçirilib. Aparılmış əməliyyat-axtarış tədbirləri zamanı 1 ədəd 152 mm-lik top mərmisi (OF-540), 1 ədəd 122 mm-lik top mərmisi (D-4), 2 ədəd 300 mm-lik raket (9M528), 33 ədəd patron (30 ədəd 5.45 mm-lik və 3 ədəd 7.62 mm-lik) və 9 ədəd partlamış mərmi qalıqları aşkar olunub.

Həmçinin agentliyin partlayış qrupu tərəfindən 29 ədəd bombacıq partlayış yolu ilə zərərsizləşdirilib.

**AZƏRTAC**

**Müdafiə Nazirliyi: Ermənistan ordusu yaşayış məntəqələrimizi atəşə tutur**

[10:48] 09.10.2020

Ermənistan silahlı qüvvələri Azərbaycanın Goranboy, Tərtər və Ağdam rayonlarının ərazilərini atəşə tutur.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycan Ordusu düşmənə qarşı adekvat tədbirlər görür.

Qeyd edək ki, rəşadətli Azərbaycan Ordusunun qətiyyətli və sarsıdıcı zərbələri nəticəsində geri çəkilən və bölmələrimizlə qarşılaşmağa cürət etməyən düşmən yaşayış məntəqələrimizi atəşə tutur.

**AZƏRTAC**

**FHN: Ermənistan silahlı qüvvələrinin atdığı mərmilər Azərbaycandakı mülki obyektlərdə yanğınlara səbəb olub**

[18:38] 09.10.2020

Ermənistan silahlı qüvvələri Azərbaycan əhalisinin sıx yaşadığı məntəqələri, mülki obyektləri, o cümlədən fərdi və çoxmənzilli yaşayış binalarını, təsərrüfatları ağır artilleriya qurğularından və raketlərdən atəşə tutaraq mülki obyektlərdə dağıntı və yanğınlar törətməkdə davam edir.

Fövqəladə Hallar Nazirliyindən (FHN) AZƏRTAC-a bildiriblər ki, Ermənistan silahlı qüvvələrinin atdığı mərmilər Ağdam rayonunda vətəndaşlara məxsus 3 fərdi evdə və təsərrüfat obyektində yanğına səbəb olub. FHN-in hadisələrin baş verdiyi ərazilərə cəlb olunan Dövlət Yanğından Mühafizə Xidmətinin müvafiq qüvvələri tərəfindən yanğınların qarşısı alınaraq yaxınlıqdakı tikililərə keçməsinin qarşısı alınıb.

Tərtər rayonuna mərmi düşməsi nəticəsində vətəndaşa məxsus təsərrüfat obyektində yanğın baş verməsi barədə FHN-ə məlumat daxil olub. Düşmən tərəfindən ərazi intensiv atəş altında saxlanıldığından yanğına müdaxilə edilməsi mümkün olmayıb.

Qeyd edək ki, Fövqəladə Hallar Nazirliyi hazırda gücləndirilmiş iş rejimində fəaliyyət göstərir. Baş verən hər hansı fövqəladə hadisə ilə əlaqədar nazirliyin 112 – “qaynar” telefon xəttinə dərhal məlumat verilməsi xahiş olunur.

**AZƏRTAC**

**ANAMA-nın mütəxəssisləri cəbhəboyu ərazilərdə operativ əməliyyat-axtarışlarını davam etdirirlər**

[04:15] 10.10.2020

Ötən gün Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyə Ağdam, Ağcabədi, Bərdə, Beyləqan, Füzuli, Goranboy, Tərtər rayonları və Gəncə şəhəri ərazisinə mərmilərin düşməsi barədə Daxili İşlər Nazirliyinin "102" Xidməti-Zəng mərkəzi sistemindən - 33 (otuz üç) və Fövqəladə Hallar Nazirliyinin Böhran Vəziyyətlərində İdarəetmə mərkəzindən 2 (iki) müraciət daxil olub.

ANAMA-dan AZƏRTAC-a verilən məlumata görə, daxil olmuş 34 çağırış əsasında Agentliyin xüsusi mobil çevik əməliyyat qrupları tərəfindən Ağdam rayonunun Orta Qərvənd, Xındırıstan, Paşabəyli kəndləri və Quzanlı, Ergi qəsəbələri, Ağcabədi rayonunun Rəncbərlər, Köyük kəndləri və Hindarx qəsəbəsi, Bərdə rayonunun Cəyirli və Həsənqaya kəndləri, Beyləqan rayonunun Yeni Mil qəsəbəsi, Füzuli rayonunun Babı kəndi və Horadiz şəhəri, Goranboy rayonunun Gürzallar, Şahməmmədli, Eyvazlılar, Qızılhacılı kəndləri və Goran qəsəbəsi, Tərtər rayonunun Dəmirçilər və Burcu kəndləri, Gəncə şəhərinin Nizami və Kəpəz rayonları ərazisində Daxili İşlər Nazirliyinin əməkdaşları ilə birlikdə 31 operativ və təxirəsalınmaz əməliyyat çıxışı həyata keçirilib. Aparılmış əməliyyat-axtarış tədbirləri zamanı 1 ədəd 152 mm-lik top mərmisi (OF-22), 1 ədəd 152 mm-lik top mərmisi partladıcısı, 1 ədəd dron (yerində zərərsizləşdirilmişdir), 1 ədəd dronun partladıcısı, 265 ədəd bombacıq, 1 147 ədəd patron (1 133 ədəd 5.45 mm-lik və 14 ədəd 7.62 mm-lik) və 16 ədəd partlamış mərmi qalıqları aşkar olunub.

**Düşmən yaşayış məntəqələrimizi intensiv atəşə tutur**

[10:15] 10.10.2020

Ermənistan silahlı qüvvələri Goranboy, Tərtər, Ağdam, Ağcabədi və Füzuli rayonlarının yaşayış məntəqələrini intensiv atəşə məruz qoyur.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Ordumuz tərəfindən düşmənə qarşı cavab tədbirləri görülür.

**AZƏRTAC**

**Tərtər və Ağdam düşmən tərəfindən atəşə tutulur**

[12:40] 10.10.2020

Tərtər və Ağdam rayonlarının ərazisi düşmən tərəfindən atəşə tutulur.
Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyinin mətbuat xidmətindən məlumat verilib.

**ANAMA qadağan olunmuş sursatlar və "TOÇKA-U" taktiki raketi aşkarlayıb**

[20:05] 10.10.2020

Oktyabrın 10-da Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyin (ANAMA) xüsusi mobil əməliyyat qrupları tərəfindən Goranboy rayonunun Goran qəsəbəsi ərazisində aparılmış əməliyyat-axtarış tədbirləri zamanı Ermənistan silahlı qüvvələri tərəfindən atılmış 1 ədəd bombacıq daşıyan 9M525 raketi aşkar olunub.

ANAMA-dan AZƏRTAC-a bildirilib ki, aşkar olunmuş raketin içərisində 72 ədəd qəlpəli təyinatlı 9N235 bombacıqları var. Bu bombacıqlar "Kaset sursatlar haqqında konvensiya"ya görə qadağan olunmuş sursatlar sinfinə daxildir.

Həmçinin qeyd olunan tarixdə Füzuli rayonunun Əhmədalılar kəndi ərazisində aparılmış əməliyyat-axtarış tədbirləri zamanı Ermənistan silahlı qüvvələri tərəfindən atılmış "TOÇKA-U" taktiki raketi (9M79M) aşkar olunub.

Agentlik tərəfindən sentyabrın 27-dən oktyabrın 9-dək 433 siqnal (əməliyyat çağırışı) əsasında 395 operativ və təxirəsalınmaz əməliyyat çıxışı olub ki, nəticədə Ağdam, Ağdaş, Ağcabədi, Bərdə, Beyləqan, Biləsuvar, Cəbrayıl, Goranboy, Naftalan, Füzuli, Tərtər, Şəmkir, Hacıqabul, Zərdab rayonları, Gəncə və Mingəçevir şəhərləri ərazisində ev və həyətyanı sahəyə, neft kəmərinin yaxınlığına, Mingəçevir İES-in ərazisinə, Cənubi Qafqaz Boru Kəmərinin yaxınlığına, əkin və otlaq sahələrinə, yol kənarına, meşə massivinə, məktəbə baxış keçirilib, 79 ədəd partlamamış hərbi sursat (PHS), 863 ədəd bombacıq, 1180 ədəd müxtəlif çaplı patronlar, 6 ədəd hərbi məqsədlər üçün istifadə olunan meteoroloji radiopelenqator, 2 ədəd dron (zərərsizləşdirilib), 2 ədəd raketin mikrosxemi və 109 ədəd partlamış raket hissələri aşkar olunub.

**AZƏRTAC**

**Düşmən Ağdam rayonu ərazisini atəşə tutur**

[20:01] 10.10.2020

Atəşkəs rejimini kobud şəkildə pozan Ermənistan silahlı qüvvələri Ağdam rayonu ərazisini atəşə tutur.

Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyinin mətbuat xidmətindən məlumat verilib.

**AZƏRTAC**

**XİN: Ermənistan silahlı qüvvələri humanitar atəşkəslə bağlı razılığı kobud şəkildə pozmağa davam edir**

[11:41] 11.10.2020

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi Ermənistanın humanitar atəşkəsi pozması ilə bağlı bəyanat yayıb.

AZƏRTAC bəyanatı təqdim edir.

Rusiya Federasiyasının vasitəçiliyi ilə baş tutmuş Azərbaycan Respublikası və Ermənistan Respublikası Xarici İşlər nazirlərinin Moskva görüşü nəticəsində 2020-ci il oktyabrın 10-da saat 12:00-dan etibarən humanitar atəşkəsə riayət olunması razılığının əldə olunmasına baxmayaraq, Ermənistan silahlı qüvvələri bu razılığı kobud şəkildə pozmağa davam edir.

Humanitar atəşkəsin müəyyən olunduğu vaxtdan dərhal sonra Azərbaycanın Ağdam və Tərtər rayonları Ermənistan silahlı qüvvələri tərəfindən artilleriya atəşinə tutulub. Bir neçə saat sonra isə Ermənistan silahlı qüvvələri cəbhənin Hadrut və Cəbrayıl istiqamətlərində hücum cəhdi göstərib.

Suqovuşan ərazisində erməni əsgərlərinin cəsədlərini yığan və üzərinə aydın şəkildə ağ bayraq sancılan sanitar maşının Ermənistan silahlı qüvvələri tərəfindən atəşə tutulması nəticəsində bir tibbi xidmət qulluqçusu ağır yaralanıb.

Oktyabrın 11-i gecə saatlarında Azərbaycanın ikinci böyük şəhəri olan və cəbhə bölgəsindən xeyli kənarda yerləşən Gəncə şəhəri Ermənistan silahlı qüvvələri tərəfindən raket atəşinə məruz qalıb. Bu hücum nəticəsində 7 mülki şəxs həlak olub, aralarında azyaşlı uşaqlar olmaqla, 34 nəfər yaralanıb.

Ermənistan silahlı qüvvələrinin humanitar atəşkəs razılığından sonra dinc insanları və şəhərləri atəşə tutması barbarçılığın növbəti bariz nümunəsidir və Ermənistan rəhbərliyinin atəşkəs çağırışlarının riyakarlıqdan başqa bir şey olmadığını göstərir.

Ermənistanın Azərbaycana qarşı təcavüzkar siyasəti çərçivəsində dinc insanları, evləri, mülki obyektləri, tibb işçilərini məqsədli atəşə tutması ölkənin beynəlxalq hüququn fundamental normalarına, o cümlədən beynəlxalq humanitar hüquq və Cenevrə Konvensiyalarına məhəl qoymadığını, öz öhdəliklərini aşkarcasına pozduğunu və adi humanizm prinsiplərindən çox uzaq olduğunu növbəti dəfə nümayiş etdirir.

Ermənistanın bu təcavüzkar əməllərini qətiyyətlə pisləyir və beynəlxalq ictimaiyyəti işğalçı Ermənistanı beynəlxalq hüquqa və beynəlxalq öhdəliklərinə riayət etməyə məcbur etmək üçün qətiyyətli addımlar atmağa çağırırıq.

Bölgədə yaranmış vəziyyətin tam məsuliyyəti Ermənistan siyasi-hərbi rəhbərliyinin üzərindədir.

**AZƏRTAC**

**Müdafiə Nazirliyinin bəyanatı: Bölgədəki vəziyyətin gərginləşməsinə görə məsuliyyət Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür**

[13:48] 11.10.2020

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi Ermənistan silahlı qüvvələrinin humanitar atəşkəs rejiminin tələblərini kobud şəkildə pozaraq yaşayış məntəqələrimizi atəşə tutması nəticəsində çoxlu sayda mülki şəxsin həlak olması və yaralanması ilə əlaqədar bəyanat yayıb.

Nazirliyin mətbuat xidmətindən AZƏRTAC-a daxil olan bəyanatda bildirilir: “Humanitar atəşkəs rejiminə əməl etməyən Ermənistan silahlı qüvvələri döyüş əməliyyatları aparılan ərazidən xeyli məsafədə yerləşən şəhər və kəndlərimizi raket və artilleriya atəşinə tutmaqda davam edir.

Oktyabrın 10-u və 11-i tarixlərində müxtəlif saatlarda Gəncə və Mingəçevir şəhərləri, Goranboy, Tərtər, Ağdam, Ağcabədi, Füzuli və Cəbrayıl rayonlarının kəndləri işğalçı ordu tərəfindən atəşə məruz qalıb. Nəticədə xeyli sayda dinc sakin həlak olub və yaralanıb, mülki infrastruktura ciddi ziyan dəyib.

Bölgədəki vəziyyətin gərginləşməsinə görə məsuliyyət tam şəkildə Ermənistanın siyasi və hərbi rəhbərliyinin üzərinə düşür”.

**AZƏRTAC**

## Goranboy, Tərtər və Ağdam rayonları atəşə tutulur

[09:50] 12.10.2020

Goranboy, Tərtər və Ağdam rayonlarının ərazisi Ermənistan silahlı qüvvələri tərəfindən atəşə tutulur. Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyinin mətbuat xidmətindən bildirilib.

**AZƏRTAC**

**Ağdam rayonu atəşə tutulub**

[08:35] 12.10.2020

Ağdam rayonu ərazisi Ermənistan silahlı qüvvələri tərəfindən atəşə tutulub.
Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyinin mətbuat xidmətindən bildirilib.

**ANAMA tərəfindən 374 ədəd bombacıq partlayış yolu ilə zərərsizləşdirilib**

[01:16] 13.10.2020

Oktyabrın 12-də Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyinə (ANAMA) Ağdam, Ağcabədi, Bərdə, Cəbrayıl, Füzuli, Goranboy, Tovuz, Tərtər rayonları, Gəncə və Mingəçevir şəhərləri ərazisinə mərmilərin düşməsi barədə Daxili İşlər Nazirliyinin “102” xidməti-zəng mərkəzi sistemindən 25 və Fövqəladə Hallar Nazirliyinin Böhran Vəziyyətlərində İdarəetmə mərkəzindən 2 müraciət daxil olub.

ANAMA-dan AZƏRTAC-a bildirilib ki, daxil olmuş 27 çağırış əsasında agentliyin xüsusi mobil çevik əməliyyat qrupları tərəfindən Ağdam rayonunun Əfətli, Təzəkənd, Alıbəyli, İmamqulubəyli kəndləri, Ağcabədi rayonunun Rəncbərlər, Arazbar, Hacılar kəndləri, Hacıbəyov və Xan Şuşinski küçələri, Bərdə rayonunun Hacılı kəndi, Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndi, Füzuli rayonunun Qazaxlar, Şükürbəyli kəndləri və haramı düzü, Goranboy rayonunun Tapqaraqoyunlu və Aşağı Ağcakənd kəndləri, Tovuz rayonunun Aşağı Mülkülü kəndi, Tərtər şəhərinin F.Qulami, N.İsgəndərov, T.Hüseynov, R.Orucov, V.Həsənov və Ü.Hacıbəyli küçələrinə, Gəncə və Mingəçevir şəhərləri ərazisində Daxili İşlər Nazirliyinin əməkdaşları ilə birlikdə 25 operativ və təxirəsalınmaz əməliyyat çıxışı həyata keçirilib. Aparılmış əməliyyat-axtarış tədbirləri zamanı 1 ədəd 240 mm-lik M24F raketi, 1 ədəd 100 mm-lik top mərmisi (OF-32), 1 ədəd 9M528 raketinin idarəetmə bloku, 24 ədəd partlamış mərmi qalıqları aşkar olunub.

Agentliyin partlayış qrupu tərəfindən 374 ədəd bombacıq partlayış yolu ilə mərkəzi məhvetmə ərazisində zərərsizləşdirilib, Mina Təhlükəsinə dair maarifləndirmə üzrə mütəxəssislər tərəfindən 1276 nəfər mülkü şəxs arasında mina təhlükəsizliyinə dair maarifləndirmə təbliğatı aparılıb.

**AZƏRTAC**

## Düşmənin bütün cəbhəboyu fəaliyyətinin qarşısı alınıb

[09:53] 13.10.2020

Humanitar atəşkəs rejiminə əməl etməyən Ermənistan silahlı qüvvələrinin bölmələri yenidən qruplaşma və yerdəyişmə apararaq cəbhənin bəzi istiqamətlərində kiçik qruplarla Azərbaycan Ordusunun mövqelərinə basqın etməyə cəhd göstərib.

AZƏRTAC-a Müdafiə Nazirliyinin mətbuat xidmətindən bildirilib ki, oktyabrın 12-dən 13-nə keçən gecə cəbhənin Ağdərə-Ağdam və Füzuli- Hadrut istiqamətlərində ümumi vəziyyət gərgin olaraq qalıb.

Azərbaycan Ordusu tərəfindən həyata keçirilən fəaliyyətlər nəticəsində cəbhənin müxtəlif istiqamətlərində düşmənin xeyli sayda canlı qüvvəsi, 3 ədəd BM-21 “Qrad” YARS, 1 ədəd “Tor-M2KM” ZRK, 1 ədəd ZSU-23-4 “Şilka” özüyeriyən zenit qurğusu, 2 ədəd PDM-2, 3 ədəd 2A36 “Qiasint-B” topu, 1 ədəd KS-19 zenit topu, 1 ədəd D-20 haubitsa topu, 3 ədəd PUA, bir neçə avtomobil texnikası məhv edilib və sıradan çıxarılıb.

Əldə olunan məlumata əsasən, döyüş əməliyyatları zamanı Ermənistan silahlı qüvvələrinin 5-ci dağatıcı alayının müdafiə sahəsində mövqe tutan şəxsi heyəti məhv edilib, 1-ci motoatıcı alayın bir bölüyə qədər canlı qüvvəsi pusquya salınıb, hərəkətdə olan avtomobil texnikası sıradan çıxarılıb.

Əsgəran istiqamətində hərəkət edən 4-cü motoatıcı alayın avtomobil texnikası kolonu və Ermənistanın Sisian yaşayış məntəqəsi istiqamətindən işğal olunmuş ərazilərimizə doğru hərəkət edən könüllülərdən ibarət bir qrup atəş zərbəsi ilə məhv edilib.

Müqaviməti qırılan düşmən bölmələrində kütləvi fərarilik halları müşahidə olunur.

Humanitar atəşkəs rejiminə əməl edən qoşunlarımız bütün cəbhəboyu əməliyyat üstünlüyünü saxlayır.

**AZƏRTAC**

**Goranboy, Tərtər və Ağdam rayonlarının əraziləri atəşə tutulur**

[08:33] 13.10.2020

Humanitar atəşkəs rejimini kobudcasına pozan Ermənistan silahlı qüvvələri Goranboy, Tərtər və Ağdam rayonlarının ərazilərini atəşə tutur.

Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyinin mətbuat xidmətindən məlumat verilib.

**ANAMA-nın əməliyyat-axtarış tədbirləri zamanı 12 ədəd partlamış mərmi qalığı aşkarlanıb**

[01:37] 14.10.2020

Oktyabrın 13-də Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyə (ANAMA) Ağdam, Ağcabədi, Bərdə, Füzuli, Oğuz, Tərtər rayonları və Gəncə şəhəri ərazisinə mərmilərin düşməsi barədə Daxili İşlər Nazirliyinin "102" xidməti-zəng mərkəzi sistemindən 10 və Dövlət Sərhəd Xidmətindən 1 müraciət daxil olub.

ANAMA-dan AZƏRTAC-a bildirilib ki, daxil olmuş 11 çağırış əsasında agentliyin xüsusi mobil çevik əməliyyat qrupları tərəfindən Ağdam rayonunun Alıbəyli kəndi, Ağcabədi rayonunun Rəncbərlər kəndi və E.Sadıqov küçəsi, Bərdə rayonunun Hacılar, Füzuli rayonunun Horadiz şəhəri, Oğuz rayonunun Xaçmaz kəndi, Tərtər rayonunun Borsunlu, Seydimli kəndləri və Gəncə şəhəri ərazisində Daxili İşlər Nazirliyinin əməkdaşları ilə birlikdə 10 operativ və təxirəsalınmaz əməliyyat çıxışı həyata keçirilib. Aparılmış əməliyyat-axtarış tədbirləri zamanı 12 ədəd partlamış mərmi qalığı aşkar olunub.

Agentliyin partlayış qrupu tərəfindən 722 ədəd bombacıq, 1 ədəd 152 millimetrlik top mərmisi, 1 ədəd tərkibində 72 ədəd bombacığı olan raket və 1 ədəd dronunun partladıcısı partlayış yolu ilə mərkəzi məhvetmə ərazisində zərərsizləşdirilib, Mina Təhlükəsinə dair Maarifləndirmə üzrə mütəxəsisslər tərəfindən 1 805 nəfər mülkü şəxs arasında mina təhlükəsizliyinə dair maarifləndirmə təbliğatı aparılıb.

Ümumilikdə agentlik tərəfindən sentyabrın 27-dən oktyabrın 13-dək 537 əməliyyat çağırışı əsasında 489 operativ və təxirəsalınmaz əməliyyat çıxışı olub ki, nəticədə Ağdam, Ağdaş, Ağcabədi, Bərdə, Beyləqan, Biləsuvar, Cəbrayıl, Goranboy, Naftalan, Füzuli, Tərtər, Tovuz, Şəmkir, Hacıqabul, Zərdab, Oğuz rayonları, Gəncə və Mingəçevir şəhərləri ərazisində ev və həyətyanı sahəyə, neft kəmərinin yaxınlığına, Mingəçevir İES-in ərazisinə, Bakı-Tbilisi-Ceyhan boru kəmərinin yaxınlığına, əkin və otlaq sahələrinə, yol kənarına, meşə massivinə, məktəbə baxış keçirilib 88 ədəd partlamamış hərbi sursat, 1 141 ədəd bombacıq, 1 180 ədəd müxtəlif çaplı patron, 6 ədəd hərbi məqsədlər üçün istifadə olunan meteoroloji radiopelenqator, 2 ədəd dron (zərərsizləşdirilib), 2 ədəd raketin mikrosxemi və 190 ədəd partlamış raket hissələri aşkar olunub.

**AZƏRTAC**

**Səhər saatlarından başlayaraq bir sıra yaşayış məntəqələrimiz atəşə tutulur**

[08:50] 14.10.2020

Oktyabrın 13-dən 14-ə keçən gecə cəbhənin Ağdərə-Ağdam və Füzuli- Hadrut-Cəbrayıl istiqamətlərində vəziyyət gərgin olaraq qalıb.

Müdafiə Nazirliyindən AZƏRTAC-a bildirilib ki, Ermənistan silahlı qüvvələrinin bölmələri gecə ərzində cəbhənin bəzi istiqamətlərində Azərbaycan Ordusunun mövqelərinə basqın edib və görülən tədbirlər nəticəsində itki verərək geri oturdulub.

Azərbaycan Ordusu tərəfindən həyata keçirilən fəaliyyətlər nəticəsində cəbhənin müxtəlif istiqamətlərində düşmənin 5 ədəd T-72 tankı, 3 ədəd BM-21 "Qrad" YARS, 1 ədəd "Osa-AKM" ZRK, 1 ədəd PDM-2, 1 ədəd KS-19 zenit topu, 2 ədəd D-30 haubitsa topu, bir neçə avtomobil texnikası məhv edilib və sıradan çıxarılıb.

Səhər saatlarından başlayaraq Tərtər, Ağdam və Ağcabədi rayonlarının ərazisi artilleriya atəşinə tutulur. Ordumuz tərəfindən adekvat tədbirlər görülür.

Humanitar atəşkəs rejiminə əməl edən qoşunlarımız bütün cəbhə boyu əməliyyat üstünlüyünü saxlayır.

**AZƏRTAC**

**Düşmənin dinc əhalini atəşə tutması nəticəsində Ağdam rayonunun Çəmənli kənd sakini xəsarət alıb**

[12:54] 14.10.2020

Ermənistanın silahlı qüvvələri oktyabrın 10-da saat 12:00-dan etibarən elan olunan humanitar atəşkəs rejiminin tələblərini, o cümlədən 1949-cu il tarixli Cenevrə Konvensiyalarının əsas norma və prinsiplərini kobud şəkildə pozmaqla dinc mülki əhalimizə qarşı terror əməllərini davam etdirir.

Baş Prokurorluğun mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, oktyabrın 14-də səhər saatlarından başlayaraq düşmən tərəfin silahlı birləşmələri tərəfindən Ağdam rayonu müxtəlif istiqamətlərdən intensiv raket və ağır artilleriyadan atəşə tutulub. Saat 12 radələrində Ağdam rayonunun Çəmənli kəndində fərdi yaşayış evinə mərmi düşməsi nəticəsində 1964-cü il təvəllüdlü Soltanov Saleh Eldar oğlu müxtəlif dərəcəli bədən xəsarətləri alaraq xəstəxanaya yerləşdirilib, evə isə ciddi ziyan dəyib.

Hazırda prokurorluq əməkdaşları tərəfindən mövcud şəraitdə mümkün olan bütün istintaq tədbirləri həyata keçirilir.

**AZƏRTAC**

**Düşmənin dinc əhalini atəşə tutması nəticəsində Ağdam rayonunda iki sakin xəsarət alıb, evlərə ciddi ziyan dəyib**

[10:33] 15.10.2020

Ermənistanın silahlı qüvvələri oktyabrın 10-da saat 12:00-dan etibarən elan edilmiş humanitar atəşkəs rejiminin tələblərini, o cümlədən 1949-cu il tarixli Cenevrə Konvensiyalarının əsas norma və prinsiplərini kobud şəkildə pozmaqla dinc mülki əhalimizə qarşı terror əməllərini davam etdirir.

Baş Prokurorluğun mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, oktyabrın 15-də səhər saatlarından başlayaraq düşmənin silahlı birləşmələri tərəfindən Ağdam rayonu müxtəlif istiqamətlərdən intensiv raket və ağır artilleriyadan atəşə tutulub. Səhər saat 09 radələrində Ağdam rayonunun Birinci Baharlı qəsəbəsində fərdi evlərə mərmi düşməsi nəticəsində 1969-cu il təvəllüdlü Vəliyev Şahsuvar Millət oğlu və 1979-cu il təvəllüdlü Musayev Loğman Yusif oğlu müxtəlif dərəcəli bədən xəsarətləri alaraq xəstəxanaya yerləşdiriliblər. Evlərə ciddi ziyan dəyib.

Hazırda prokurorluq əməkdaşları tərəfindən mövcud şəraitdə mümkün olan bütün istintaq tədbirləri həyata keçirilir.

**AZƏRTAC**

**Düşmən yaşayış məntəqələrimizi atəşə tutmaqda davam edir**

[08:44] 15.10.2020

Humanitar atəşkəs rejimini kobudcasına pozan Ermənistan silahlı qüvvələri Goranboy, Tərtər, Ağdam və Ağcabədi rayonlarının ərazilərini atəşə tutur.

Bu barədə AZƏRTAC-a Müdafiə nazirliyinin Mətbuat xidmətindən bildirilib.

**AZƏRTAC**

**Düşmən cəbhənin müxtəlif istiqamətlərində geri çəkilməyə məcbur edilib**

[08:38] 15.10.2020

Oktyabrın 14-dən 15-ə keçən gecə cəbhənin Ağdərə-Ağdam və Füzuli-Hadrut-Cəbrayıl istiqamətlərində əvvəlki günlərdə olduğu kimi vəziyyət gərgin olaraq qalıb.

Müdafiə Nazirliyindən AZƏRTAC-a bildirilib ki, Ermənistan silahlı qüvvələrinin bölmələri gecə ərzində cəbhənin bəzi istiqamətlərində Azərbaycan Ordusunun mövqelərinə basqın etməyə cəhd göstərib. Qoşunlarımız tərəfindən həyata keçirilən uğurlu tədbirlər nəticəsində qarşı tərəf ciddi itki verib və cəbhənin müxtəlif istiqamətlərində geri çəkilməyə məcbur edilib.

Azərbaycan Ordusu tərəfindən həyata keçirilən fəaliyyətlər nəticəsində cəbhənin müxtəlif istiqamətlərində düşmənin xeyli sayda canlı qüvvəsi, 2 ədəd T-72 tankı, 1 ədəd "Tor-M2KM" zenit raket kompleksi, 4 ədəd BM-21 "Qrad" YARS, 1 ədəd D-20, 1 ədəd D-30 və 2 ədəd D-1 haubitsa topu, bir neçə PUA-sı və avtomobil texnikası məhv edilib və sıradan çıxarılıb.

Əldə olunan məlumata əsasən Ermənistan silahlı qüvvələrinin müvəqqəti işğal etdiyi ərazilərdəki qüvvə və ehtiyatlarına ağır zərbə vurulub. Canlı qüvvə, döyüş texnikası, silah-sursat, yanacaq tükənmək üzrədir.

Humanitar atəşkəs rejiminə əməl edən qoşunlarımız bütün cəbhə boyu əməliyyat üstünlüyünü saxlayır.

**AZƏRTAC**

**ANAMA mütəxəssisləri cəbhəboyu ərazilərdə əməliyyat-axtarışları davam etdirirlər**

[01:00] 16.10.2020

Oktyabrın 15-də Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyə (ANAMA) Ağdam, Ağcabədi, Füzuli, Goranboy və Tərtər rayonları ərazisinə mərmilərin düşməsi barədə Daxili İşlər Nazirliyinin ″102″ Zəng Xidməti Mərkəzindən 27 və Fövqəladə Hallar Nazirliyinin Böhran Vəziyyətlərində İdarəetmə Mərkəzindən 1 müraciət daxil olub.

ANAMA-dan AZƏRTAC-a bildirilib ki, daxil olmuş 28 çağırış əsasında agentliyin xüsusi mobil çevik əməliyyat qrupları tərəfindən Ağdam rayonunun Baharlı, Çəmənli kəndləri və 1-ci Baharlı qəsəbəsi, Ağcabədi rayonunun Arazbar, Bala Kəhrizli, Taynaq kəndləri və Hindarx qəsəbəsi, Füzuli rayonunun Alxanlı, Şükürbəyli və Əhmədalılar kəndləri, Goranboy rayonunun Tapqaraqoyunlu, Qaraçinar, Qızılhacılı, Balakürd, Meşəli kəndləri, Tərtər rayonunun Seydimli, Buruc kəndləri və C.Məmmədquluzadə, N.Nərimanov küçələri ərazisində Daxili İşlər Nazirliyinin əməkdaşları ilə birlikdə 14 operativ və təxirəsalınmaz əməliyyat çıxışı həyata keçirilib. Aparılmış əməliyyat-axtarış tədbirləri zamanı 1 ədəd 100 mm-lik top mərmisi (OF-412), 1 ədəd tank əleyhinə idarə olunan raketin arxa motor hissəsi, 1 ədəd bombacıq və 16 ədəd partlamış mərmi qalıqları aşkar olunub.

Agentliyin Mina Təhlükəsinə dair Maarifləndirmə üzrə mütəxəssisləri tərəfindən 1805 nəfər mülkü şəxs arasında mina təhlükəsizliyinə dair maarifləndirmə təbliğatı aparılıb.

Ümumilikdə agentlik tərəfindən sentyabrın 27-dən oktyabrın 15-dək 598 siqnal (əməliyyat çağırışı) əsasında 519 operativ və təxirəsalınmaz əməliyyat çıxışı olub ki, nəticədə Ağdam, Ağdaş, Ağcabədi, Bərdə, Beyləqan, Biləsuvar, Cəbrayıl, Goranboy, Naftalan, Füzuli, Tərtər, Tovuz, Şəmkir, Hacıqabul, Zərdab, Oğuz rayonları, Gəncə və Mingəçevir şəhərləri ərazisində ev və həyətyanı sahəyə, neft kəmərinin yaxınlığına, Mingəçevir İES-in ərazisinə, Bakı-Tbilisi-Ceyhan boru kəmərinin yaxınlığına, əkin və otlaq sahələrinə, yol kənarına, meşə massivinə, məktəbə baxış keçirilib, 92 ədəd partlamamış hərbi sursat (PHS), 1142 ədəd bombacıq, 1180 ədəd müxtəlif çaplı patronlar, 6 ədəd hərbi məqsədlər üçün istifadə olunan meteoroloji radiopelenqator, 4 ədəd dron (zərərsizləşdirilmişdir), 2 ədəd raketin mikrosxemi və 219 ədəd partlamış raket hissələri aşkar olunub.

**AZƏRTAC**

**Prezident: Fərq ondadır ki, bu müharibə Azərbaycan xalqı üçün azadlıq müharibəsi, Ermənistan üçün isə işğalçılıq müharibəsidir**

[00:33] 16.10.2020

Bilirsiniz, hər bir müharibə qəddarlıq, qurbanlar, insanların iztirabları, yaxın adamların itirilməsi deməkdir. Fərq ondadır ki, Azərbaycan xalqı üçün bu müharibə azadlıq müharibəsi, Ermənistan üçün isə işğalçılıq müharibəsidir. Heç kəs üçün gizli deyil və bu faktı artıq beynəlxalq vasitəçilər də bilir ki, qondarma "Dağlıq Qarabağ ordusu" yoxdur. Bu gün erməni tərəfin belə adlandırdığı birləşmədəki hərbi qulluqçuların 90 faizi Ermənistan vətəndaşıdır. Onlar hərbi xidmətə Ermənistanın hərbi komissarlıqları tərəfindən çağırılır və Azərbaycanın işğal edilmiş ərazilərinə - Ağdama, Füzuliyə, Cəbrayıla, Kəlbəcərə, Qubadlıya, Laçına, Zəngilana göndərilir.

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev bu barədə Rusiyanın Ria Novosti agentliyi üçün "Rossiya Seqodnya Beynəlxalq İnformasiya Agentliyi" media qrupunun baş direktoru Dmitri Kiselyova müsahibəsində bildirib.

"Bu gün Ermənistanın işğalçı qüvvələri Azərbaycanın beynəlxalq aləmdə tanınmış ərazilərindədir. Buna heç nə ilə haqq qazandırmaq olmaz - istər beynəlxalq hüquq baxımından, istərsə də bəşəri əxlaq baxımından. Başa düşürsünüzmü, 30 il ərzində azərbaycanlıların öz əzəli torpaqlarına buraxılmaması siyasətini yürütmək mümkün deyil. Axı, erməni əhalisi bu ərazilərdə heç vaxt yaşamayıb. Başqa bir məsələ də var ki, orada hər şey dağıdılıb, oraya qayıtmaq üçün çox böyük qüvvə və vaxt sərf etmək lazımdır. Ermənilərin bu siyasətinə heç cür haqq qazandırmaq olmaz. Ona görə ki, bizim hərbi qulluqçular Azərbaycan torpağında döyüşür və həlak olur. Erməni hərbi qulluqçular isə onların hökumətinin işğal altında saxlamaq istədiyi torpaqda həlak olurlar", - deyə dövlətimizin başçısı əlavə edib.

Tarixdə rol məsələsinə münasibət bildirən Prezident İlham Əliyev deyib: "Mən əvvəllər heç vaxt, indi isə xüsusən bu barədə düşünməmişəm. Mənim əsas amalım Azərbaycan xalqının etimadını doğrultmaq, bu vəzifədə olduğum bütün illər ərzində verdiyim vədləri yerinə yetirmək və ölkəni inkişaf yolu ilə aparmaq, onun ərazi bütövlüyünü təmin etməkdir. Mənim rolumun gələcəkdə necə qiymətləndiriləcəyi isə artıq bizim nəyə nail olacağımızdan, Azərbaycan xalqının iradəsindən asılı olaraq müəyyən ediləcək".

**AZƏRTAC**

**Azərbaycan Müdafiə Nazirliyi: Cəbhədə vəziyyət gərgin olaraq qalır**

[10:03] 16.10.2020

Oktyabrın 15-i gün ərzində və 16-na keçən gecə cəbhənin Ağdərə-Ağdam və Füzuli-Hadrut istiqamətlərində əməliyyat şəraiti yenə də gərgin olaraq qalıb.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, düşmən işğaldan azad edilmiş Cəbrayıl və Hadrut istiqamətlərindəki bölmələrimizin mövqelərini və cəbhə xəttinə yaxın kəndləri dünən gün ərzində raket, artilleriya və minaatanlardan atəşə tutub.

Gecə ərzində cəbhənin bəzi istiqamətlərində düşmən fəallaşmağa cəhd göstərib. Qoşunlarımız tərəfindən bunun qarşısı alınıb, düşmən ciddi itki verib.

Azərbaycan Ordusu tərəfindən həyata keçirilən fəaliyyət nəticəsində cəbhənin müxtəlif istiqamətlərində düşmənin xeyli sayda canlı qüvvəsi, 2 ədəd T-72 tankı, 1 ədəd BM-21 "Qrad" YARS, 5 ədəd D-30 haubitsa topu, 2 ədəd ZSU-23-4 "Şilka" özüyeriyən zenit qurğusu və döyüş sursatı ilə yüklənmiş 8 avtomobil texnikası məhv edilib və sıradan çıxarılıb.

Əldə olunan məlumata əsasən, Ermənistan silahlı qüvvələrinin 18-ci motoatıcı diviziyasının müdafiə zolağında hərbi qulluqçular və ehtiyatdan çağırılmış hərbi vəzifəlilər arasında kütləvi şəkildə fərarilik halı qeydə alınıb. Ermənistan rəhbərliyi bunun qarşısını almaq məqsədilə Gorus və Turşsu yaşayış məntəqələrinin avtomobil yollarında hərbi polisin komendant postlarını qurub.

Ermənistan ordusunun 5-ci dağatıcı alayın müdafiə zolağında mövqe tutan şəxsi heyət arasında xeyli sayda ölən və yaralanan var. Alayın bölmələrində ərzaq və döyüş sursatı çatışmır. Həmçinin düşmənin 10-cu alayının müdafiə zolağına könüllüləri daşıyan avtomobil texnikasının vurulması nəticəsində ölən və yaralanan var. Geri çəkilən düşmən, xeyli sayda avtomobil və zirehli texnikanı mövqedə buraxaraq qaçıb. Bundan başqa, 9-cu motoatıcı alayın müdafiə zolağında artilleriya batareyası məhv edilib, alay komandirinin müavini isə yaralanıb.

Dağlıq Qarabağ ərazisinə gələn muzdluların bir qisminin döyüşə girməkdən imtina etməsi məlum olub.

Qoşunlarımız bütün cəbhə boyu əməliyyat üstünlüyünü saxlayır.

**AZƏRTAC**

**Düşmən yaşayış məntəqələrimizi atəşə tutur**

[08:30] 16.10.2020

Humanitar atəşkəs rejimini kobudcasına pozan Ermənistan silahlı qüvvələri səhər saatlarından başlayaraq Goranboy, Tərtər, Ağdam və Ağcabədi rayonlarının ərazilərini atəşə tutur.

Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyinin mətbuat xidmətindən məlumat verilib.

**AZƏRTAC**

**MN: Düşmən yaşayış məntəqələrimizi atəşə tutmaqda davam edir**

[13:35] 16.10.2020

Humanitar atəşkəs rejimini kobudcasına pozan Ermənistan silahlı qüvvələri Goranboy, Tərtər, Ağdam, Ağcabədi və Füzuli rayonlarının ərazilərini atəşə tutmaqda davam edir.

Bu barədə AZƏRTAC-a Azərbaycan Respublikası Müdafiə Nazirliyinin mətbuat xidmətindən məlumat verilib.

Qeyd edək ki, döyüş meydanında Azərbaycan Ordusunun sarsıdıcı zərbələri qarşısında duruş gətirə bilməyən düşmən beynəlxalq humanitar hüquq normalarını kobud şəkildə pozaraq yaşayış məntəqələrimizi, mülki şəxsləri hədəfə alır.

**AZƏRTAC**

## Qoşunlarımız cəbhənin müxtəlif istiqamətlərində irəliləməyə nail olub

[09:00] 17.10.2020

Oktyabrın 16-sı gün ərzində və 17-nə keçən gecə cəbhənin Ağdərə-Ağdam və Füzuli- Hadrut-Cəbrayıl istiqamətlərində əməliyyat şəraiti gərgin olaraq qalıb.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, qoşunlarımız düşmənin əvvəlcədən hazırlanmış müdafiə hədlərini müxtəlif istiqamətlərdə yarmağa, onu tutduğu mövqelərdən sıxışdıraraq çıxarmağa, qaçmağa məcbur etməyə və irəliləməyə nail olub.

Aparılan uğurlu hərbi əməliyyatlar nəticəsində döyüş təcrübəsi qazanan şəxsi heyətimiz əhəmiyyətli istiqamətlərdə əlverişli hədd, yüksəklik və mövqeləri tutur.

Azərbaycan Ordusu tərəfindən sutka ərzində həyata keçirilən fəaliyyətlər nəticəsində cəbhənin müxtəlif istiqamətlərində düşmənin xeyli sayda canlı qüvvəsi, 7 ədəd T-72 tankı, 2 ədəd BM-21 “Qrad” YARS, 8 ədəd D-30 və 1 ədəd D-20 haubitsa topları, döyüş sursatı ilə yüklənmiş 10 ədəd yük maşını və 7 ədəd digər avtomobil texnikası məhv edilib və sıradan çıxarılıb.

Əldə olunan məlumata əsasən döyüş əməliyyatları nəticəsində Ermənistan silahlı qüvvələrinin 5-ci dağatıcı alayının 1-ci taboru öz mövqelərini ataraq geri çəkilib, xeyli sayda ölən və yaralanan var.

Ermənistan silahlı qüvvələrinin 1-ci motoatıcı alayının müdafiə zolağında ehtiyatdan çağırılmış 300 nəfərədək hərbi vəzifəli döyüş mövqelərini özbaşına tərk edərək geri çəkilib. Hərbi vəzifəlilərin də arasında çoxlu sayda ölən və yaralanan var. Gücləndirmə məqsədilə alaya təhkim edilmiş xüsusi təyinatlı polis dəstəsinin üzvləri də döyüş mövqelərini tərk edərək qaçıb. Alayın bölmələrində ərzaq və döyüş sursatının çatışmazlığı müşahidə edilir.

Düşmən bölmələrində şəxsi heyətin yorğun və ümidsiz olması səbəbindən zabitlərə tabe olmama, həmçinin qorxu və təşvişə düşərək döyüşə girməkdən imtina etmə halları qeydə alınıb.

Qoşunlarımız bütün cəbhəboyu düşmənə dəqiq atəşlə zərər vurmaqla əməliyyat üstünlüyünü saxlayır.

**AZƏRTAC**

**Düşmən yaşayış məntəqələrimizi atəşə tutur**

[08:34] 17.10.2020

Humanitar atəşkəs rejimini kobudcasına pozan Ermənistan silahlı qüvvələri bu gün səhər saatlarından başlayaraq Tərtər, Ağdam, Bərdə və Ağcabədi rayonlarının ərazilərini atəşə tutur.

AZƏRTAC xəbər verir ki, bu barədə Müdafiə Nazirliyinin mətbuat xidmətindən bildirilib

**AZƏRTAC**

**Azərbaycan Müdafiə Nazirliyi: Düşmənin BM-21 "Qrad" yaylım atəşli reaktiv sistemi məhv edilib**

[19:37] 17.10.2020

Cəbhənin Ağdərə-Ağdam istiqamətində gedən döyüşlər zamanı bölmələrimizin mövqelərini atəşə tutan Ermənistan silahlı qüvvələrinə məxsus 1 ədəd BM-21 "Qrad" yaylım atəşli reaktiv sistemi məhv edilib.

Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyinin mətbuat xidmətindən məlumat verilib.

**AZƏRTAC**

**Ermənistan ordusunun yaşayış məntəqələrimizi atəşə tutması nəticəsində Ağdam rayon sakini xəsarət alıb**

[09:18] 18.10.2020

Ermənistan silahlı qüvvələri oktyabrın 10-da saat 12:00-dan etibarən elan edilmiş humanitar atəşkəs rejiminin tələblərini kobud şəkildə pozmaqla dinc mülki əhalimizə qarşı cinayət əməllərini davam etdirib.

Baş Prokurorluğun mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, oktyabrın 17-də saat 21 radələrində düşmənin silahlı birləşmələri tərəfindən Ağdam rayonunun müxtəlif istiqamətlərdən intensiv raket və ağır artilleriyadan atəşə tutulması səbəbindən Mahrızlı kənd sakini 1981-ci il təvəllüdlü Həsənov Ramil Kamal oğlu yaşadığı evin həyətinə top mərmisinin düşməsi nəticəsində müxtəlif dərəcəli bədən xəsarətləri alıb. Evə külli miqdarda ziyan dəyib.

Hazırda prokurorluq əməkdaşları mövcud şəraitdə mümkün olan bütün istintaq tədbirlərini həyata keçirirlər.

**AZƏRTAC**

**Prezidentə yazırlar: Fəxr edirik ki, Azərbaycanın güclü Ordusu və Sizin kimi müdrik rəhbəri var**

[13:21] 18.10.2020

Azərbaycan Ordusunun cəbhədə həyata keçirdiyi uğurlu əməliyyatlar, torpaqlarımızın ard-arda düşmən işğalından azad edilməsi vətəndaşlarımız, xaricdə yaşayan soydaşlarımız, eləcə də qardaş Türkiyənin vətəndaşları tərəfindən böyük sevinclə qarşılanır. Onlar sevinc hisslərini Prezident, Ali Baş Komandan İlham Əliyevə ünvanladıqları məktublarda ifadə edirlər.

AZƏRTAC Prezidentin saytına istinadla həmin məktubların bir neçəsini təqdim edir.

Türkiyənin İstanbul şəhərindən Uğur Ceylan yazır: "Hörmətli cənab Prezident, Azərbaycanda baş verən hadisələri narahatlıqla və eyni zamanda, qürurla izləyirik. Xalqın yenilməz lideri olaraq torpaqlarınızı azad etməyinizə və erməni terrorçularına qarşı qətiyyətli mövqe göstərdiyinizə görə Sizinlə şərəf duyuruq. Türk milləti olaraq daim Sizinləyik, dualarımız Sizinlədir. Bununla yanaşı, cəbhədə də Sizinlə çiyin-çiyinə döyüşməyə hazırıq. Allah qəhrəman şəhidlərimizə rəhmət eləsin. Allahdan əziz Azərbaycan xalqına cansağlığı diləyirəm".

Ankara şəhərindən Onur Gündüz: "Hörmətli cənab Prezident, Türkiyədə yaşayan qardaşlarınız olaraq qəlblərimizin Sizin ürəklərinizlə birlikdə döyündüyünü bildirmək istəyirəm. Mən Sakaryada doğulmuşam. Amma mənim üçün Qarabağın Sakaryadan heç fərqi yoxdur. Allah Vətən yolunda Sizə və ordunuza, xalqınıza kömək olsun. Oğuz tayfalarının davamçıları daim zülmə qarşı vuruşub və qalib gəlib. Dualarımız Sizinlədir".

Niderlandda yaşayan soydaşlarımız Elvin Hulşer və Tariyel Mirzəyev yazırlar: "Möhtərəm cənab Prezident, Azərbaycan-Niderland Biznes Qovşağının heyəti adından Azərbaycan xalqına öz dəstəyimizi ifadə etmək istəyirik. Ürəyimiz hərbi əməliyyatlar nəticəsində zərər çəkmiş insanların yanındadır. Arzu edirik ki, BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələri dərhal icra edilsin və beləliklə, sülh və davamlı rifah geri qayıtsın".

Bakı şəhər sakini Xanağa Əhədli: "Əziz Prezidentimiz, Sizi salamlayan 86 saylı orta məktəbin 5ç sinif şagirdidir. Mən Sizə təşəkkür etmək üçün məktub yazıram. Hər gün torpaqlarımızın düşməndən azad edilməsi barədə verdiyiniz xəbərləri dinləyən anamın gözündəki sevinc göz yaşlarını görmək məni də sevindirir. Biz də ailəliklə daim cəbhədəki vəziyyəti düşünürük və deyirik ki, Qarabağ Azərbaycandır!".

Masallı rayon sakini Tofiq Canaliyev: "Hörmətli Prezident, cənab Ali Baş Komandan, Sizin komandanlığınız altında Azərbaycan Ordusunun Qarabağ torpaqlarının işğaldan azad olunması uğrunda göstərdiyi şücaət bu gün dillər əzbəridir. Bu uğurların şəninə şeirlər qoşulur, nəğmələr oxunur. Xalqımızda çox yüksək əhval-ruhiyyə müşahidə olunur. Cənab Prezident, bu qətiyyətli və şücaətli işlərinizə görə Masallı rayonunun Xəlfələr kəndinin sakinləri adından Sizə böyük minnətdarlığımızı bildiririk. Sizə uzun ömür, cansağlığı və gələcək işlərinizdə müvəffəqiyyətlər arzu edirik. İnanırıq ki, tezliklə Azərbaycan ərazisinin bütövlüyünü bərpa edəcəksiniz. Yaşasın Azərbaycan xalqı, onun şanlı Ordusu və Ali Baş Komandanı!".

Şəki sakini Ömər Mirzəyev: "Hörmətli Prezidentimiz, bu gün ulu öndərimiz Heydər Əliyevin hər bir azərbaycanlının ömürlük yaddaşında həkk olunmuş şüarını xatırlatmaq istərdim: "Hər bir insanın milli mənsubiyyəti onun qürur mənbəyidir. Mən fəxr edirəm ki, azərbaycanlıyam!". Elə bu şüar altında da Şəki rayonunun Kiş kənd sakini olan xalam oğlu Vüsal Rzayev könüllü olaraq 31 yaşında Şəki Hərbi Komissarlığından Vətənə xidmət etmək üçün yola düşüb. Cənab Ali Baş Komandan, Ulu Tanrı Sizə və əsgərlərimizə yar olsun. Hər zaman Sizdən qələbə xəbərləri eşidək. Qarabağ Azərbaycanındır! Qarabağ Azərbaycandır!".

Quba sakini Tofiq Məmmədovun məktubunda deyilir: "Hörmətli Prezident, cənab Ali Baş Komandan, sentyabrın 27-dən, Vətən Müharibəsi başlayan gündən bu günədək hər bir vətəndaş kimi mən də televiziya kanallarından verilən xəbərləri, Sizin çıxışlarınızı, verdiyiniz müsahibələri həvəslə və diqqətlə dinləyirəm. Sizin rus, ingilis və türk dillərində sərbəst danışığınız, çox yüksək intellektual biliyə malik olmağınızdan qürur hissi duyuram. Sizin kimi dəyanətli, qətiyyətli dövlət başçımız, Prezidentimiz olduğu üçün özümü çox xoşbəxt hiss edirəm. Sizin uzaqgörən siyasətiniz sayəsində artıq bütün dünya Azərbaycanın necə güclü dövlət olduğunu bilir. Əziz Prezidentimiz, bu gün xalq Sizin ətrafınızda səfərbərdir, Sizin əmrinizə hazırdır. Bunu Siz öz bacarığınız və xalqımızda yaratdığınız inam hissi ilə qazanmısınız. Sizin və Birinci vitse-prezidentimiz Mehriban xanım Əliyevanın hərbi hospitalda yaralı əsgərlərlə necə səmimi görüşdüyünüzün, qayğınızın şahidi oldum. Cənab Prezident, artıq bıçaq sümüyə

dirənib, səbir kasamız dolub, hamı istəyir ki, torpaqlarımız erməni tapdağından azad olunsun və üçrəngli bayrağımız milli musiqimizin beşiyi olan Şuşamızda, Qarabağımızda dalğalansın. Bununla da şəhidlərimizin qanı yerdə qalmasın. Bu məktubu Ordumuzun dünən qazandığı şanlı zəfərdən ruhlanaraq yazdım. 67 yaşım olmasına baxmayaraq, torpaqlarımızın azad olunması üçün mən də ölməyə hazıram, böyük xalq şairimiz Səməd Vurğun demişkən: "Müsəlləh əsgərəm mən də bu gündən". Siz atanızın yolunu, arzularını şərəflə yerinə yetirirsiniz. Bu gün Sizin xalqımız üçün gördüyünüz işlərdən, xüsusən şəhid ailələrinə göstərdiyiniz diqqət və qayğıdan çox danışmaq olar. Mən fəxr edirəm ki, ulu öndər Heydər Əliyevin imzası olan partiya biletini daşıyıram. Tez bir zamanda şanlı komandan kimi işğaldan azad edilmiş torpaqlarımıza zəfər bayrağımızı sancasınız! Bu yolda Tanrıdan Sizə uğurlar diləyir, yeni-yeni qələbələr nəsib etməsini arzulayıram. Allah Sizi və müzəffər Ordumuzu qorusun! Qoy haqq-ədalət zəfər çalsın! Qarabağ Azərbaycandır!".

İmişlidən Osman İbrahimov yazır: "Hörmətli cənab Prezident, biz Sizinlə qürur duyuruq. Allah Sizi var eləsin. Sizin Azərbaycanımıza olan sevginiz biz gənclərə ruh yüksəkliyi verir. Allah Sizə yar olsun. Biz gənclər əminik ki, üçrəngli müqəddəs bayrağımız Sizin və Ordumuzun sayəsində tezliklə Qarabağda, Şuşada dalğalanacaqdır. Sizə inanır və işlərinizdə uğurlar arzulayırıq".

Bərdə sakini Musa Quliyev: "Hörmətli cənab Prezident, bu məktubu sevinc içərisində yazıram. Otuz ildən bəri gözlədiyimiz bu günlər – Sizin rəhbərliyiniz altında qəhrəmanlıq tarixi yazan Azərbaycan Ordusunun Qarabağ torpaqlarını qarış-qarış azad etdiyi zəfər günləri hamımızı sevindirir. Mənfur ermənilərə qarşı apardığınız haqlı mübarizədə Sizinləyik, həmişə Sizin arxanızdayıq və yanınızdayıq. Möhtərəm Prezidentimiz, əminliklə deyə bilərəm ki, bu gün hər bir Azərbaycan vətəndaşı qüdrətli, güclü dövləti ilə və öz sözünü, xalqın istəyini dünyaya çatdıran müdrik, cürətli Prezidenti ilə fəxr edir. Sizə bu haqq mübarizənizdə yeni-yeni uğurlar diləyir, Ulu Tanrıdan cansağlığı, uzun ömür arzulayıram. Arzum budur ki, doğma torpaqlarımız uğrunda canından keçməyə hazır olan mərd, igid oğullarımız Azərbaycanın üçrəngli bayrağını Şuşada dalğalandırsın. Qoy Allah-Təala yolunuzu açıq eləsin, məğlubedilməz Ordumuzu mənfur düşməndən qorusun. Allah Sizinlə və Ordumuzla olsun".

Şamaxı sakini Ruslan Əmrahov: "Hörmətli cənab Prezident, sentyabrın 27-dən xalqımız şərəfli, həyəcanlı, qürurlu günlər yaşayır. İlk qələbə xəbərlərindən sonra isə sevincimizin həddi-hüdudu yox idi. Mən döyüşə getmək üçün könüllü kimi ilk qeydə alınanlardan biriyəm. Çağırılacağım günü səbirsizliklə gözləyirəm. Ətrafımda isə minlərlə məni kimi qərarlı gənc var. Kimin üzünə baxsan məğrurdur, Sizin səlis, dəqiq, dürüst nitqinizdən razıdır. Açığı, bütün hislərimi, sevincimi sözlə ifadə etməkdə çətinlik çəkirəm. Amma şükür edirəm ki, düşmənləri doğma torpaqlardan qorumaq vaxtı çatıb. Hamımız Sizə minnətdarıq, hörmətli Prezident, Sizə və ailənizə ən xoş arzularımızı bildirir, Sizinlə fəxr edirik. Belə bir liderimiz olduğu üçün qürur duyuram. Biz həmişə Sizinləyik. Allah Sizi və Ordumuzu qorusun. Amin".

Bakı şəhər sakini Namiq Şavruqov: "Hörmətli Prezident, cənab Ali Baş Komandan, işğal olunmuş bəzi ərazilərimizi vəhşi erməni qəsbkarlardan Sizin rəhbərliyiniz altında müzəffər Ordumuz azad etmişdir. Ermənilərə dediyiniz kimi, elə bilirdiniz ki, Azərbaycan sizin işğal və təhqirlərinizlə barışacaq? Təbii ki, barışmayacaq. Buna görə Silahlı Qüvvələrimizin şəxsi heyətinə və Ali Baş Komandan kimi şəxsən Sizə sonsuz təşəkkürümü bildirirəm. Allahdan bütün şəhidlərimizə rəhmət, yaralılarımıza şəfa diləyirəm. Amin. Mən əminəm ki, apardığınız bu uğurlu hərbi əməliyyatlara görə şəhidlərimizin və Azərbaycanı parçalanmaqdan qurtaran ulu öndər Heydər Əliyevin ruhları şaddır. İndi Siz bir oğul kimi atanızın müqəddəs missiyasını davam etdirirsiniz. Lakin çox təəssüf ki, bəzi güclər işğalçı və başqasına güvənən Ermənistanı yenə də himayə edir. Bu çətin və müqəddəs mübarizədə Sizə və Ordumuza Uca Allahdan sağlamlıq, möhkəm dəyanət və sarsılmaz qətiyyət arzulayıram".

Şirvan sakini Asiman Nadirli: "Hörmətli Prezident, Cənab Ali Baş komandan, Sizin uğurla apardığınız siyasət nəticəsində bu gün ordumuzdan qələbə xəbərləri alırıq. Nəhayət ki, 27 ildir həsrətində olduğumuz torpaqlarımızı Sizin qətiyyətiniz sayəsində işğalçılardan geri alırıq. Biz fəxr edirik ki, Azərbaycan xalqının güclü ordusu və Sizin kimi müdrik rəhbəri var! Qələbə bizimdir! Qarabağ Azərbaycandır!".

Lerik sakini Gülbala Kamilov: "Hörmətli cənab Prezident, Sizin yürütdüyünüz daxili və xarici siyasət nəticəsində şanlı, qüdrətli və qorxmaz Ordumuz formalaşdırılmışdır. Bu Ordu Azərbaycanın mərd və igid oğullarını özündə cəmləşdirərək düşmən üzərində Qələbəni təmin etməkdədir. Cənab Ali Baş Komandan, erməni işğalçıları ilə cəbhədə hər zaman vuruşmağa hazırıq. Qələbə bizimlədir, Qarabağ Azərbaycandır! Allah Sizləri, Ordumuzu, xalqımızı qorusun!".

Tərtər sakini Məhəmməd Orucov: “Hörmətli cənab Prezident, nəhayət ki, 27 il düşmən torpağı altında qalan torpaqlarımızın alınacağı gün gəldi. Bu yolda atdığınız hər bir addımı bütün azərbaycanlılar kimi mən də bir Tərtər oğlu olaraq dəstəkləyir, Sizə və döyüş meydanındakı əsgərlərimizə möhkəm iradə, cansağlığı, qələbə sevinci arzulayıram. 9-cu sinif şagirdi olsam da, mən də silaha sarılıb Vətənimizi qorumağa, düşməndən azad etməyə getmək istəyirəm. Bilirik ki, bu bir döyüş meydanıdır, müharibədir. Əlbəttə, şəhidlərimiz olacaq, evlər dağılacaq. Təki tökülən şəhid qanı erməni tapdağı altında qalmasın. Cənab Ali Baş Komandan, Ulu Tanrıdan arzu edirəm ki, qara buludlar başımızın üstündən götürülsün, şəhidlərimizin qanı yerdə qalmasın, Azərbaycan xalqının üzü gülsün. Azərbaycan Ordusu üçrəngli Bayrağımızı Şuşada, Laçında, Kəlbəcərdə və bütün işğal olunmuş ərazilərimizdə dalğalandırsın. Bu yol bizim haqq yolumuzdur! Mən və ailəmiz hər gün dua edirik ki, başda Ali Baş Komandan olmaqla bütün əsgərləri Allah qorusun, gözlərinə işıq, qollarına qüvvət, dizlərinə təpər versin, hər biri sevinclə ailəsinin yanına qayıtsın. Amin!”.

Ağdam sakini Səlim Əzimov: “Möhtərəm cənab Prezident, mənim 90 yaşım var. Əməkdar müəllimən və 65 illik müəllimlik stajımın 56 ilini məktəb direktoru işləmişəm. Həmişə Sizin işlərinizin fəal təbliğatçısı olmuşam. Siz Ulu Öndərin layiqli davamçısı, əbədi yaddaşlarda qalan müdrik, uzaqgörən, xalqını və millətini sevən, onun qayğıları ilə yaşayan bir Prezidentsiniz. Hər gün şanlı Ordumuz tərəfindən əhəmiyyətli yüksəkliklərin, müqəddəs yurd yerlərimizin işğaldan azad olunması bizi çox sevindirir. Biz ziyalılar hər gün gedən prosesləri izləyir, Ulu Tanrıdan Sizə və Ordumuza cansağlığı, uğurlar arzulayırıq. Sizin apardığınız məqsədyönlü siyasət nəticəsində şanlı Ordumuzun əks-hücum əməliyyatları ilə müqəddəs torpaqlarımız işğaldan azad olunur. Düşmənin çoxsaylı qüvvəsinin və döyüş texnikalarının məhv edilməsindən qürur duyuruq. Cənab Prezident, Sizə bütün ağdamlılar adından Ulu Tanrıdan ən şirin nemət olan cansağlığı, apardığınız müqəddəs işlərdə uğurlar diləyir, yaxın günlərdə Sizin rəhbərliyinizlə işğaldan azad olunacaq Ağdamda, Şuşada, Xankəndidə və digər Qarabağ torpaqlarında şanlı Azərbaycan bayrağının dalğalanmasını arzulayırıq. Allah qoysa, Sizin və Mehriban xanımın gəlişi münasibətilə qurbanlar kəsərik. Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!”.

Şirvan sakini Həsən Hüseynov: “Hörmətli cənab Prezident, ulu öndər Heydər Əliyev siyasi irsinin uğurlu və layiqli davamçısı kimi Azərbaycan xalqı Sizinlə qürur duyur, fəxr edir. Cənab Ali Baş Komandan, bu gün rəşadətli Azərbaycan Ordusu öz xalqını sevindirir, uzun müddətdir düşmən tapdağı altında qalmış əzəli və əbədi Azərbaycan torpaqlarını işğaldan azad edir, əsl sahiblərinə geri qaytarır. Bu mütərəqqi hadisələr əslində tarixin özüdür və bu tarixi qızıl hərflərlə dünya salnaməsinə Siz Azərbaycan xalqı ilə birlikdə yazırsınız. Qəlbi Vətən sevgisi ilə çırpınan xalqımızın dilində əzbər, dünyaya isə qəti mesaj olan ifadənizi hər birimiz böyük rəğbətlə vurğulayırıq: Qarabağ Azərbaycandır!”.

**AZƏRTAC**

**Ermənistan ordusu Ağdam rayonunu atəşə tutur**

[13:54] 18.10.2020

Ağdam rayonunun ərazisi Ermənistan silahlı qüvvələri tərəfindən atəşə tutulur.

Bu barədə AZƏRTAC-a Azərbaycan Respublikası Müdafiə Nazirliyinin mətbuat xidmətindən məlumat verilib.

**AZƏRTAC**

**Cəbhədə son vəziyyət**

[08:02] 19.10.2020

Oktyabrın 18-də gün ərzində və 19-a keçən gecə cəbhənin Ağdərə-Ağdam, Füzuli-Hadrut-Cəbrayıl istiqamətlərində, eləcə də Araz çayı boyu müqavimət göstərməyə cəhd edən düşmənə qarşı döyüş əməliyyatları davam edib. Düşmən tərəfindən bölmələrimizin müdafiə mövqeləri atıcı silahlar, minaatanlar və toplardan atəşə tutulub.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Azərbaycan Ordusu tərəfindən həyata keçirilən fəaliyyətlər nəticəsində cəbhənin müxtəlif istiqamətlərində düşmənin canlı qüvvəsi, 2 ədəd T-72 tankı, 2 ədəd BM-21 "Qrad" YARS, 1 ədəd D-30 və 1 ədəd D-20 haubitsa topları və 11 ədəd avtomobil texnikası məhv edilib və sıradan çıxarılıb.

Hazırda qoşunlarımız bütün cəbhə boyu əməliyyat şəraitinə nəzarət edir.

Eyni zamanda məlum olub ki, bir çox istiqamətlərdə döyüş mövqelərini itirən Ermənistan silahlı qüvvələrinin 1-ci motoatıcı alayının müdafiə zolağında döyüş tapşırığı icra edən taborun komandiri şəxsi heyətlə birlikdə döyüş mövqelərini ataraq geri çəkilib. Alayın müdafiə sahəsində yerləşən 63-cü tank taborunun qərargah rəisi məhv edilib, 1-ci taborun komandiri və onun müavini Gevorq Makaryan isə yaralanıblar.

5-ci dağatıcı alayın müdafiə sahəsindəki taborun şəxsi heyətinin bir qismi məhv edilib, digərləri isə döyüş mövqelərini özbaşına tərk edərək qaçıb. Ölənlər arasında tabor komandirinin müavini mayor Hayk Stepanyan da var. Alayın bölmələrində ərzaq, yanacaq və döyüş sursatlarının çatışmazlığı barədə məlumat əldə edilib.

İşğal olunmuş ərazilərdə döyüş mövqelərindən qaçan hərbi vəzifəlilərin, könüllülərin, həmçinin Ermənistana köç etmək istəyən 55 yaşına qədər kişilərin qarşısını almaq məqsədilə yollarda komendant postları qurulub. Bu məntəqələrdə avtomobillərin yoxlanılması zamanı çoxlu sayda silah-sursat, hərbi geyim və ləvazimat, eləcə də yataq dəstlərinin döyüş bölgəsindən çıxarılaraq Ermənistana daşındığı məlum olub.

**AZƏRTAC**

**Düşmən yaşayış məntəqələrimizi atəşə tutur**

[08:24] 19.10.2020

Ermənistan silahlı qüvvələri gecə ərzində Goranboy, Tərtər və Ağdam rayonlarının ərazisini minaatanlar və toplardan atəşə tutub.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, bu gün səhər saatlarından Ağcabədi rayonunun ərazisi də atəşə tutulur.

**AZƏRTAC**

**Hikmət Hacıyev: Humanitar atəşkəsin birinci günü Ermənistan Azərbaycanın 5 rayonuna 229 mərmi atıb**

[09:10] 19.10.2020

18 oktyabr - humanitar atəşkəsin birinci günü, saat 00:00-dan etibarən Ermənistan silahlı qüvvələri mülki şəxslərə və mülki obyektlərə raket zərbəsi endirib.

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev özünün rəsmi "Twitter" hesabında yazıb:

"5 bölgəyə 229 mərmi atılıb: Tərtərə 160, Ağdama 63, Goranboya 6;

- 3 raket hücumu: 1 Xızı rayonuna, 2 Ağcabədidəki Poladlı kəndinə;

- 1 dron hücumu".

**AZƏRTAC**

**Ermənistan silahlı qüvvələri Tərtər və Ağdam rayonlarının yaşayış məntəqələrini artilleriya atəşinə tutur**

[17:03] 19.10.2020

Ermənistan silahlı qüvvələri Tərtər və Ağdam rayonlarının yaşayış məntəqələrini artilleriya atəşinə tutur.

Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyinin mətbuat xidmətindən məlumat verilib.

**AZƏRTAC**

**Cəbhədə son vəziyyət**

[07:54] 20.10.2020

Oktyabrın 19-u gün ərzində və 20-ə keçən gecə cəbhənin Ağdərə-Ağdam, Füzuli-Hadrut-Cəbrayıl və Qubadlı-Zəngilan istiqamətlərində müqavimət göstərməyə cəhd edən düşmənə qarşı döyüş əməliyyatları müxtəlif intensivliklə davam edib. Düşmən müdafiə mövqelərimizi atıcı silahlar, minaatanlar və toplardan atəşə tutub.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Azərbaycan Ordusu tərəfindən həyata keçirilən fəaliyyətlər nəticəsində cəbhənin müxtəlif istiqamətlərində düşmənin canlı qüvvəsi, 2 ədəd T-72 tankı, 4 ədəd BM-21 “Qrad” YARS, 1 ədəd D-30 haubitsa topu və 5 ədəd avtomobil texnikası məhv edilib və sıradan çıxarılıb.

Qoşunlarımız bütün cəbhə boyu əməliyyat şəraitinə nəzarət edir.

Eyni zamanda məlum olub ki, Azərbaycan Ordusunun endirdiyi artilleriya zərbələri nəticəsində Ermənistan silahlı qüvvələrinin 1-ci motoatıcı alayının müdafiə sahəsində düşmən bölmələrinin şəxsi heyəti arasında çoxlu sayda ölən və yaralanan olub. Alayın 1-ci motoatıcı taborunun şəxsi heyəti və döyüş texnikası tamamilə sıradan çıxarılıb. Alay komandirinin müavini Hovik Melkumyan, digər vəzifəli şəxs Qor Mirzoyan, həmçinin alayın müdafiə zolağında mövqe tutan xüsusi təyinatlı bölmənin komandiri kapitan Vahab Asetryan da zərərsizləşdirilib.

Azərbaycan Ordusunun həyata keçirdiyi tədbirlər nəticəsində 2-ci motoatıcı alayın müdafiə sahəsində düşmənin bir bölməsi döyüş mövqelərini tərk edərək geri çəkilib.

5-ci motoatıcı alayın müdafiə sahəsində düşmən bölmələrinin şəxsi heyəti arasında çoxlu sayda ölən və yaralanan var. Yaralılar arasında bölük komandiri Norik Ağakelyanın da olduğu bildirilir.

18-ci motoatıcı diviziyasının müdafiə zolağında yerləşdirilən muzdlulardan ibarət “Legion” dəstəsi və ehtiyatdan çağırılmış hərbi vəzifəlilər döyüşlərdə iştirak etməkdən imtina edib. Məlum olub ki, ağır itkilərə məruz qalan bu dəstələr onlara tapşırılmış müdafiə sahələrində tab gətirməyərək kütləvi şəkildə fərarilik edir.

Bundan əlavə, 10-cu dağatıcı diviziyanın müdafiə zolağına gətirilmiş kəşfiyyat bölüyü də canlı qüvvə baxımından itkilərə məruz qalıb. Şəxsi heyətin üçdə ikisini itirən bölmə mövqeləri ataraq geri çəkilməyə məcbur edilib.

Füzuli rayonu istiqamətində əks-hücuma keçən düşmən bölmələrindən birinin 30 nəfər şəxsi heyəti Azərbaycan Ordusunun atəşi nəticəsində darmadağın edilib.

246-ci alayın müdafiə sahəsində alay komandiri polkovnik Tatul Ğazaryan, alay komandirinin müavini Armen Ohanyan və 3-cü taborun komandiri də xüsusi tədbirlər nəticəsində zərərsizləşdirilib.

**AZƏRTAC**

**ANAMA: Cəbhəboyu ərazilərdə top mərmiləri, dron və partlamış mərmi qalıqları aşkarlanıb**

[02:00] 20.10.2020

Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyinə (ANAMA) Ağcabədi, Ağdam, Bərdə, Füzuli, Goranboy, Kürdəmir, Tərtər rayonları və Gəncə şəhəri ərazisinə mərmilərin düşməsi barədə Daxili İşlər Nazirliyinin "102" Xidməti-Zəng mərkəzi sistemindən 19 və Fövqəladə Hallar Nazirliyinin Böhran Vəziyyətlərində İdarəetmə mərkəzindən 1 müraciət daxil olub.

ANAMA-dan AZƏRTAC-a bildirilib ki, daxil olmuş 20 çağırış əsasında agentliyin xüsusi mobil çevik əməliyyat qrupları tərəfindən Ağcabədi rayonunun Şənlik, Nəcəfqulubəyli, Poladlı kəndləri, Ağdam rayonunun Çəmənli, Alıbəyli, Paşabəyli kəndləri və Ergi qəsəbəsi, Bərdə rayonunun Qaradağlı, Soğanverdilər, Təhlə kəndləri, Füzuli rayonunun Horadiz şəhəri, Goranboy rayonunun Tapqaraqoyunlu kəndi, Kürdəmir rayonunun Karrar kəndi, Tərtər rayonunun Seydimli, Əskipara, Ələsgərli kəndləri və H.Aslanov küçəsi və Gəncə şəhəri ərazisində Daxili İşlər Nazirliyinin əməkdaşları ilə birlikdə 12 operativ və təxirəsalınmaz əməliyyat çıxışı həyata keçirilib. Aparılmış əməliyyat-axtarış tədbirləri zamanı 1 ədəd 30 mm-lik zenit top mərmisi (OFZ), 2 ədəd 152 mm-lik top mərmisi (OF-45), 1 ədəd 240 mm-lik top mərmisi (M24F), 1 ədəd dron və 11 ədəd partlamış mərmi qalıqları aşkar olunub.

Agentliyin partlayış qrupu tərəfindən 1 ədəd 9N235 bombacığı zərərsizləşdirilib, Mina Təhlükəsinə dair Maarifləndirmə üzrə mütəxəssislər tərəfindən 2028 nəfər mülkü şəxs arasında mina təhlükəsizliyinə dair maarifləndirmə təbliğatı aparılıb.

**AZƏRTAC**

**Tərtər və Ağdam rayonlarının əraziləri atəşə tutulur**

[13:16] 20.10.2020

Ermənistan silahlı qüvvələri Tərtər və Ağdam rayonlarının ərazilərini atəşə tutur.
Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyinin mətbuat xidmətindən məlumat verilib.

**AZƏRTAC**

**Anar Eyvazov: Hazırda qoşunlarımız bütün cəbhə boyu əməliyyat şəraitinə tam nəzarət edir**

[19:33] 20.10.2020

Ötən müddət ərzində cəbhədə və dövlət sərhədi boyu müdafiə mövqelərimizi, eləcə də yaşayış məntəqələrimizi atıcı silahlarla və artilleriya vasitələri ilə atəşə tutan düşmən qüvvələri ordumuz tərəfindən darmadağın edilib. Ermənistan ordusu Kəlbəcər rayonu istiqamətindən Göygöl rayonu, Berd rayonu istiqamətindən Tovuz rayonu, Vardenis rayonu istiqamətindən isə Daşkəsən rayonu ərazisindəki döyüş mövqelərimizi, o cümlədən Goranboy, Tərtər və Ağdam rayonlarında yaşayış məntəqələrimizi artilleriya və iriçaplı silahlarla atəşə tutub. Atəş nəticəsində mülki şəxslərdən iki nəfər həlak olub, bir nəfər ağır yaralanıb. Ordumuz tərəfindən adekvat cavab tədbirləri görülüb.

AZƏRTAC xəbər verir ki, bunu Müdafiə Nazirliyinin mətbuat xidmətinin mətbuat katibi polkovnik-leytenant Anar Eyvazov oktyabrın 20-də Hərbi İnformasiya Mərkəzində keçirilən brifinqdə deyib.

Bildirilib ki, cəbhənin Ağdərə-Ağdam, Füzuli-Hadrut-Cəbrayıl və Qubadlı-Zəngilan istiqamətlərində itirdiyi mövqeləri bərpa etməyə cəhd edən düşmənə qarşı bölmələrimiz uğurlu əməliyyatlar yerinə yetirib. Artilleriya atəşləri ilə gücləndirilmiş bölmələrimizin xüsusi əməliyyatları nəticəsində düşmənin 1-ci, 2-ci, 5-ci və 246-cı alaylarının, eləcə də 10-cu dağatıcı, 18-ci motoatıcı diviziyalarının komandir heyəti və muzdlu döyüşçülər daxil olmaqla xeyli sayda canlı qüvvəsi məhv edilib və yaralanıb. Ümumilikdə düşmənin xeyli sayda canlı qüvvəsi, döyüş və avtomobil texnikası, artilleriya və zenit-raket qurğuları, silah və döyüş sursatları, əməliyyat-taktiki və ballistik raket qurğuları, yaylım atəşli, radioelektron mübarizə və tank əleyhinə vasitələri, o cümlədən S-300 tipli zenit-raket kompleksləri məhv edilib. Xeyli sayda silah-sursat, tank və artilleriya qurğuları ələ keçirilib.

Polkovnik-leytenant Anar Eyvazov qeyd edib ki, aparılan əməliyyatlar nəticəsində böyük itkilər verən düşmən bölmələri döyüşə girməkdən imtina edir, tutduqları mövqeləri tərk edib geriyə çəkilməyə məcbur olub. Füzuli, Xocavənd, Cəbrayıl, Zəngilan rayonlarında bir neçə kənd və Zəngilan şəhəri uzunmüddətli işğaldan azad edilib. Hazırda qoşunlarımız bütün cəbhə boyu əməliyyat şəraitinə tam nəzarət edir. Düşmən qüvvələri itkilər verərək döyüş meydanından fərarilik edir, geriyə çəkilir.

Müdafiə Nazirliyinin mətbuat katibi deyib ki, erməni mətbuatında düşmənin guya Xudafərin ərazisində əməliyyat keçirdiyi iddia edilir. Bildiririk ki, bu məlumatların hamısı yalandır. Ermənistan ordusu Xudafərin ərazisində əməliyyat keçirmək iqtidarında deyil və Xudafərini birdəfəlik unutmaları daha yaxşı olar.

Əməliyyatların gedişində Azərbaycan Ordusunun müasir silahları və döyüş texnikası yalnız düşmənin hərbi hədəflərinin məhv edilməsinə və preventiv tədbirlər çərçivəsində mülki əhalini hədəfə almış legitim hədəflərin dəqiq atəşlə məhv edilməsinə yönəldilib.

Brifinqdə media nümayəndələrinin diqqətinə çatdırılıb ki, bəzi sosial şəbəkə istifadəçilərinin əməliyyatlarla bağlı paylaşdığı şəxsi fikirlər məxfilik rejiminin pozulmasına və ən əsası hərbi qulluqçularımızın həyatına təhlükə yarada bilər. Bu məsələni nəzərə alaraq, bir daha sosial şəbəkə istifadəçilərini və KİV nümayəndələrini yalnız Ali Baş Komandanımızın ictimaiyyətə çatdırdığı məlumatlara və Müdafiə Nazirliyinin rəsmi məlumatlarına istinad etməyə çağırırıq.

“Sonda yeni uğurlar münasibətilə ordu rəhbərliyi adından xalqımızı bir daha təbrik edirik. Əmin edirik ki, ordumuz işğal altında qalan digər torpaqlarımızı da tezliklə və mütləq şəkildə azad edəcək. Qələbə bizimlədir”, - deyə polkovnik-leytenant Anar Eyvazov bildirib.

**AZƏRTAC**

**ANAMA mütəxəssisləri əməliyyat-axtarış işlərini davam etdirirlər**

[05:07] 21.10.2020

Oktyabrın 20-də Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyə (ANAMA) Ağcabədi, Ağdam, Bərdə, Beyləqan, Füzuli, Goranboy, Naftalan və Tərtər rayonları ərazisinə mərmilərin düşməsi barədə Daxili İşlər Nazirliyinin ″102″ Xidməti-Zəng mərkəzi sistemindən - 14 (on dörd) müraciət daxil olmuşdur.

ANAMA-dan AZƏRTAC-a bildirilib ki, daxil olmuş 14 çağırış əsasında agentliyin xüsusi mobil çevik əməliyyat qrupları tərəfindən Ağcabədi rayonunun Şənlik, Avşar, Hacılar kəndləri, Ağdam rayonunun Üçoğlan kəndi, Bərdə rayonunun Qazaxlar, Gərənə kəndləri, Beyləqan rayonunun Xaçın körpüsü, Füzuli rayonunun Alxanlı kəndi və Horadiz şəhəri, Goranboy rayonunun Tapqaraqoyunlu, Zeyvə kəndləri, Naftalan rayonunun Qaşaltı Qaraqoyunlu kəndi, Tərtər rayonunun Cəmilli, Yuxarı Sarıcallı kəndləri, V.Həsənov küçəsi ərazisində Daxili İşlər Nazirliyinin əməkdaşları ilə birlikdə 11 operativ və təxirəsalınmaz əməliyyat çıxışı həyata keçirilib. Aparılmış əməliyyat-axtarış tədbirləri zamanı 1 ədəd qaz qumbarası, 1 ədəd hərbi məqsədlər üçün istifadə olunan meteoroloji radiopelenqator və 14 ədəd partlamış mərmi qalıqları aşkar olunub.

Agentliyin partlayış qrupu tərəfindən 2 ədəd 152 mm-lik top mərmisi (OF-29), 1 ədəd dron zərərsizləşdirilib, Mina Təhlükəsinə dair Maarifləndirmə üzrə mütəxəssislər tərəfindən 2 357 nəfər mülkü şəxs arasında mina təhlükəsizliyinə dair maarifləndirmə təbliğatı aparılıb.

**AZƏRTAC**

**ANAMA Cəbhəboyu ərazilərdə top mərmisi, müxtəlif raketlər və partlamış mərmi qalıqları aşkarlayıb**

[02:25] 22.10.2020

Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyinə (ANAMA) oktyabrın 21-də Ağcabədi, Ağdam, Bərdə, Beyləqan, Cəbrayıl, Füzuli, Goranboy, Naftalan, Kürdəmir və Tərtər rayonları ərazisinə mərmilərin düşməsi barədə Daxili İşlər Nazirliyinin "102" Xidməti-Zəng mərkəzi sistemindən 31 və Fövqəladə Hallar Nazirliyinin Böhran Vəziyyətlərində İdarəetmə mərkəzindən bir müraciət daxil olub.

ANAMA-dan AZƏRTAC-a bildirilib ki, daxil olmuş 32 çağırış əsasında agentliyin xüsusi mobil çevik əməliyyat qrupları tərəfindən Ağcabədi rayonunun Aran, Arazbar, Hacılar, Kəbirli, Qaradolaq, Şərəfxanlı, Yeni Qaradolaq kəndləri, Ağdam rayonunun Qaradağlı, Ayaq Qərvənd kəndləri, Bərdə rayonunun Lənbəran kəndi, Beyləqan rayonunun 2-ci Aşıqlı, Cəbrayıl rayonunun Daşkəsən kəndi, Füzuli rayonunun Şükürbəyli, Kərimbəyli kəndləri, 1-ci və 5-ci Zobcuq qəsəbələri, Horadiz şəhəri, Goranboy rayonunun Tapqaraqoyunlu kəndi və Dəliməmmədli qəsəbəsi, Naftalan rayonunun Qaşaltı kəndi, Kürdəmir rayonunun Şilyan kəndi, Tərtər rayonunun Yuxarı Sarıcalı, Cəmilli, Buruc kəndləri, Cavanşir, Babək, Tağıyev küçələri ərazisində Daxili İşlər Nazirliyinin əməkdaşları ilə birlikdə 25 operativ və təxirəsalınmaz əməliyyat çıxışı həyata keçirilib. Aparılmış əməliyyat-axtarış tədbirləri zamanı bir ədəd 125 millimetrlik top mərmisi (OF-26), bir ədəd 300 millimetrlik 9M528 raketi, bir ədəd 300 millimetrlik 9M528 raketinin döyüş başlığı, bir ədəd 240 millimetrlik M24F raketi, 3 ədəd hava-yer tipli raket, bir ədəd hərbi məqsədlər üçün istifadə olunan meteoroloji radiopelenqator və 17 ədəd partlamış mərmi qalıqları aşkar olunub.

Agentliyin partlayış qrupu tərəfindən 3 ədəd hava-yer tipli raket zərərsizləşdirilib, Mina Təhlükəsinə dair Maarifləndirmə üzrə mütəxəssislər tərəfindən 3688 mülkü şəxs arasında mina təhlükəsizliyinə dair maarifləndirmə təbliğatı aparılıb.

Ümumilikdə agentlik tərəfindən 27 sentyabr – 21 oktyabr tarixlərində 755 siqnal (əməliyyat çağırışı) əsasında 624 operativ və təxirəsalınmaz əməliyyat çıxışı olub ki, nəticədə Ağdam, Ağdaş, Ağcabədi, Bərdə, Beyləqan, Biləsuvar, Cəbrayıl, Goranboy, Naftalan, Kürdəmir, Füzuli, Tərtər, Tovuz, Şəmkir, Hacıqabul, Zərdab, Xızı, Oğuz rayonları, Gəncə və Mingəçevir şəhərləri ərazisində ev və həyətyanı sahəyə, neft kəmərinin yaxınlığına, "Mingəçevir" İES-in ərazisinə, Bakı-Tbilisi-Ceyhan boru kəmərinin yaxınlığına, əkin və otlaq sahələrinə, yol kənarına, meşə massivinə, məktəbə baxış keçirilib, 106 ədəd partlamamış hərbi sursat (PHS), 1143 ədəd 9N235 bombacıqları, 1180 ədəd müxtəlif çaplı patronlar, bir ədəd qaz qumbarası, 12 ədəd hərbi məqsədlər üçün istifadə olunan meteoroloji radiopelenqator, 6 ədəd dron (zərərsizləşdirilib), 2 ədəd raketin mikrosxemi və 328 ədəd partlamış raket hissələri aşkar olunub.

**AZƏRTAC**

**Cəbhədəki son vəziyyət**

[08:51] 22.10.2020

Oktyabrın 21-i gün ərzində və 22-sinə keçən gecə cəbhənin Ağdərə-Ağdam, Füzuli-Cəbrayıl və Zəngilan-Qubadlı istiqamətlərində döyüş əməliyyatları müxtəlif intensivliklə davam edib. Düşmən müdafiə mövqelərimizi atıcı silahlar, minaatanlar və toplardan atəşə tutub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Azərbaycan Ordusunun keçirdiyi əməliyyat nəticəsində cəbhənin Qubadlı istiqamətində Ermənistan silahlı qüvvələrinin müdafiə olunan bölmələri şəxsi heyət və hərbi texnikada itki verərək vacib yüksəklik və bir sıra mövqelərdən geri çəkilməyə məcbur edilib.

Ermənistan silahlı qüvvələrinin cəbhənin Xocavənd istiqamətində mövqe tutan 155-ci artilleriya alayının D-20 batareyasının şəxsi heyəti arasında çoxlu sayda yaralanan var. Onların təxliyəsi üçün nəqliyyat vasitəsinin çatışmazlığı və yolların bağlı olması məlum olub.

Hadrut qəsəbəsindən şimalda yerləşən düşmənin artilleriya bölmələrinə yeni gətirilmiş könüllülər atəş mövqelərini tərk edərək qaçıb.

Ağdərə istiqamətində yerləşən 5-ci dağatıcı alayın müdafiə sahəsinə endirilən artilleriya zərbələri nəticəsində düşmən ölən və yaralanan olmaqla çoxlu sayda itki verib. Alayın 3-cü taborunun komandiri Robert Hambartsumyan itkin düşüb, taborun qərargah rəisi isə məhv edilib. Yeraltı sığınacağın sıradan çıxarılması nəticəsində düşmənin şəxsi heyət arasında xeyli itki olub.

543-cü alayın müdafiə sahəsinə vurulan atəş zərəri nəticəsində şəxsi heyət arasında xeyli itki var. Alay komandiri yaralanıb, onun müavini, tabor komandiri Araik Hovakimyan, onun müavinləri, minaatan batareyası və bölüyünün komandirləri məhv edilib. 1-ci taborun bir bölüyünün şəxsi heyəti döyüşə girməkdən imtina edib.

Hazırda bütün cəbhə boyu döyüşlər davam edir. Qoşunlarımız əməliyyat şəraitinə nəzarət edir.

**Anar Eyvazov: Ordumuz qələbə əzmi ilə zəfər yoluna davam edir**

[19:58] 22.10.2020

Oktyabrın 21-i gün ərzində və 22-sinə keçən gecə cəbhənin Ağdərə-Ağdam, Füzuli-Cəbrayıl və Zəngilan-Qubadlı istiqamətlərində döyüş əməliyyatları davam edib. Ermənistan silahlı qüvvələri işğal olunmuş ərazilərimizdən Füzuli rayonundakı və digər ərazilərdəki müdafiə mövqelərimizi atıcı silahlardan, minaatanlardan, toplardan və reaktiv artilleriya sistemlərindən atəşə tutub.

AZƏRTAC xəbər verir ki, bu barədə Müdafiə Nazirliyinin mətbuat xidmətinin mətbuat katibi polkovnik-leytenant Anar Eyvazov oktyabrın 22-də Hərbi İnformasiya Mərkəzində keçirilən brifinqdə məlumat verib.

Anar Eyvazov bildirib ki, düşmən dinc əhalini və mülki infrastrukturu hədəfə alaraq Ermənistan ərazisindən əməliyyat-taktiki raket kompleksindən Siyəzən, Qəbələ və Kürdəmir rayonları istiqamətində 6 ədəd ballistik raket atıb. Nəticədə bir mülki şəxs yaralanıb.

Müdafiə Nazirliyinin mətbuat katibi deyib ki, Azərbaycan Ordusu tərəfindən cəbhənin Qubadlı, Xocavənd və Ağdərə istiqamətində keçirilən əməliyyatlar nəticəsində Ermənistan silahlı qüvvələri şəxsi heyət və döyüş texnikası baxımından ağır itkilər verərək mühüm yüksəkliklərdən və bir sıra mövqelərdən geriyə çəkilməyə məcbur edilib. 155-ci artilleriya alayına, 5-ci dağatıcı alaya və 543-cü alaya vurulan artilleriya zərbələrimiz nəticəsində komandir heyəti daxil olmaqla, çoxlu sayda canlı qüvvə məhv edilib, yaralanıb və itkin düşüb. Düşmənin yeraltı sığınacaqları dağıdılıb. Yeni gətirilmiş könüllülər atəş mövqelərini tərk edərək qaçıb, döyüşə girməkdən imtina edib. Əlavə yolların bağlı olması və nəqliyyat vasitələrinin çatışmazlığı səbəbindən düşmən yaralıların təxliyəsində ciddi çətinliklərlə üzləşib.

Qeyd edilib ki, cəbhəni genişləndirmək istəyən düşmənin Naxçıvan Muxtar Respublikasının Sədərək və Şərur rayonları istiqamətində uçuş keçirməyə cəhd göstərən taktiki pilotsuz uçuş aparatı bölmələrimiz tərəfindən məhv edilib.

Diqqətə çatdırılıb ki, bu gün Ali Baş Komandanımız, Prezident İlham Əliyev özünün rəsmi "Twitter" hesabında Füzuli rayonunun Mollavəli, Yuxarı Rəfədinli, Aşağı Rəfədinli, Cəbrayılın Sirik, Şıxlar, Məstalıbəyli, Dərzili, Zəngilanın Kolluqışlaq, Malatkeşin, Kənd Zəngilan, Genlik, Vəliqulubəyli, Qaradərə, Çöpədərə, Tatar, Tiri, Əmirxanlı, Qarqulu, Bartaz, Dəlləkli kəndlərinin və Ağbənd qəsəbəsinin işğaldan azad edildiyini bildirib. Ağbənd qəsəbəsinin azad edilməsi ilə Azərbaycan və İran İslam Respublikası dövlət sərhədinin tam nəzarətə götürülməsi təmin olunub.

"Hazırda cəbhənin bütün istiqamətlərində döyüşlər gedir. Qoşunlarımız əməliyyat şəraitinə tam nəzarət edir. Ordumuz qələbə əzmi ilə zəfər yolunda irəliləyir. Qələbə bizimlədir!", - deyə Anar Eyvazov vurğulayıb.

**AZƏRTAC**

**ANAMA mütəxəssisləri cəbhəyanı ərazilərdə raket və top mərmilərini zərərsizləşdiriblər**

[02:07] 23.10.2020

Oktyabrın 22-də Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyə (ANAMA) Ağcabədi, Ağdam, Cəbrayıl, Füzuli, Goranboy, Kürdəmir, Qəbələ və Tərtər rayonları ərazisinə mərmilərin düşməsi barədə Daxili İşlər Nazirliyinin ″102″ Xidməti-Zəng mərkəzi sistemindən – 33 (otuz üç) və Fövqəladə Hallar Nazirliyinin Böhran Vəziyyətlərində İdarəetmə mərkəzindən 1 (bir) müraciət daxil olmuşdur.

ANAMA-dan AZƏRTAC-a bildirilib ki, daxil olmuş 34 çağırış əsasında agentliyin xüsusi mobil çevik əməliyyat qrupları tərəfindən Ağcabədi rayonunun Boyat, Kürdlər, Hacılar, Salmanbəyli kəndləri, Ağdam rayonunun Qaradağlı kəndi, Cəbrayıl rayonunun Şəbə kəndi, Füzuli rayonunun Alxanlı, Şükürbəyli, Qazaxlar kəndləri və Horadiz şəhəri, Goranboy rayonunun Tapqaraqoyunlu, Həmənli, Qızılhacılı, Qarasuçu kəndləri, Kürdəmir rayonunun Çöhramlı kəndi, Qəbələ rayonunun Hacalı kəndi, Tərtər rayonunun Cəmilli, Səhləbad, Yuxarı Sarıcalı kəndləri, Şıxarx qəsəbəsi, Ü.Hacıbəyov küçəsi ərazisinə Daxili İşlər Nazirliyinin əməkdaşları ilə birlikdə 30 operativ və təxirəsalınmaz əməliyyat çıxışı həyata keçirilib. Aparılmış əməliyyat-axtarış tədbirləri zamanı 1 ədəd 120 mm-lik minaatan mərmisi (OF-843B), 1 ədəd 9N235 bombacığı, 2 ədəd Elbrus/Scut (8K14) raketinin partlamış hissələri və 38 ədəd partlamış mərmi qalıqları aşkar olunub.

Agentliyin partlayış qrupu tərəfindən 2 ədəd 300 mm-lik 9M528 raketi və 1 ədəd 125 mm-lik top mərmisi (OF-26) zərərsizləşdirilib, Mina Təhlükəsinə dair Maarifləndirmə üzrə mütəxəssislər tərəfindən 4 913 nəfər mülkü şəxs arasında mina təhlükəsizliyinə dair maarifləndirmə təbliğatı aparılıb.

**AZƏRTAC**

**Müdafiə Nazirliyi: Azərbaycan Ordusu mülki əhalini və infrastrukturu atəşə tutmur**

[11:19] 23.10.2020

Dağlıq Qarabağ ərazisindəki Ağdərə, Xocavənd və Qırmızı Bazar yaşayış məntəqələrinin guya Azərbaycan Ordusu tərəfindən atəşə tutulması barədə Ermənistanın yaydığı xəbərin heç bir əsası yoxdur və yalandır.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, tam tərsinə, oktyabrın 23-ü gecə ərzində və bu gün səhər saatlarında Ermənistan silahlı qüvvələri tərəfindən Tərtər, Ağdam və Ağcabədi rayonlarının ərazisi intensiv atəşə tutulub.

Humanitar atəşkəs rejiminə əməl edən qoşunlarımız bütün cəbhəboyu əməliyyat üstünlüyünü saxlayır.

**AZƏRTAC**

**Baş Prokurorluq Ermənistanın təxribatları nəticəsində dinc əhaliyə qarşı törədilmiş cinayətlərin son statistikasını açıqlayıb**

[18:37] 23.10.2020

Azərbaycan Respublikasının Baş Prokurorluğu Ermənistanın təxribatları nəticəsində sentyabrın 27-dən oktyabrın 23-ü saat 17:00-dək dinc əhaliyə qarşı törədilmiş cinayətlərin statistikasını təqdim edib.

Baş Prokurorluğun mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, oktyabrın 4-də, 11-də, 17-də raket və ağır artilleriya hücumları nəticəsində Gəncə şəhərində 25 nəfər həlak olub, 139 nəfər yaralanıb. Şəhərdə yerləşən mülki infrastruktur obyektlərinə, nəqliyyat vasitələrinə külli miqdarda ziyan dəyib.

Goranboy rayonunda 7 nəfər həlak olub, 10 nəfər yaralanıb.

Sentyabrın 27-də saat 18:00 radələrində Naftalan şəhərinin Qaşaltı-Qaraqoyunlu kənd sakini Qurbanov Elbrus İsa oğlunun evinə top mərmisinin düşməsi nəticəsində bir ailənin beş üzvü məhv olub.

Eləcə də Tərtər rayonunda 16 nəfər həlak olub, 50 nəfər yaralanıb. Yaralanmış şəxslərdən biri KİV nümayəndəsidir.

Bərdə rayonunda 2 nəfər həlak olub, 12 nəfər xəsarət alıb. Beyləqan rayonunda 2 nəfər həlak olub, 2 nəfər yaralanıb. Ağcabədi rayonunda 1 nəfər həlak olub, 19 nəfər xəsarət alıb. Füzuli rayonunda 3 nəfər həlak olub, 17 nəfər yaralanıb. Ağdam rayonunda isə 7 nəfər həlak olub, 40 nəfər xəsarət alıb. Yaralanmış şəxslərdən biri KİV təmsilçisidir.

Bundan başqa, Mingəçevir şəhərinə 5, Daşkəsən, Cəbrayıl, Xocalı və Qəbələ rayonlarının hər biri üzrə 1 nəfər yaralanıb.

Ümumilikdə sentyabrın 27-dən oktyabrın 23-dək Ermənistan silahlı qüvvələrinin yaşayış məntəqələrimizi ağır artilleriya qurğularından və raket sistemlərindən atəşə tutması nəticəsində mülki şəxslərdən 63 nəfər həlak olub, 298 nəfər isə xəsarət alıb.

Qeyd edək ki, rəşadətli Azərbaycan Ordusunun sarsıdıcı cavab zərbələri qarşısında sürətlə geri çəkilən düşmən beynəlxalq hüququn norma və prinsiplərini, 1949-cu il tarixli Cenevrə konvensiyaları və onların Əlavə protokollarını, BMT-nin Təhlükəsizlik Şurasının qərar və qətnamələrini kobud şəkildə pozaraq, Azərbaycanın dinc əhalisini qəsdən hədəfə almaqla döyüş əməliyyatlarının aparıldığı bölgədən uzaqlıqda yerləşən Azərbaycan şəhərlərini və əhalinin sıx yaşadığı məntəqələri intensiv atəşə tutur.

**AZƏRTAC**

**Anar Eyvazov: Ordumuzun zəfər yürüşü davam edir**

[19:26] 23.10.2020

Oktyabrın 22-si gün ərzində və 23-nə keçən gecə cəbhənin Ağdərə, Füzuli-Hadrut-Cəbrayıl və Qubadlı istiqamətlərində döyüş əməliyyatları davam edib. Düşmən müdafiə mövqelərimizi, o cümlədən Tərtər, Ağdam və Ağcabədi rayonlarının ərazilərini atıcı silahlardan və artilleriya qurğularından atəşə tutub.

AZƏRTAC xəbər verir ki, bu barədə Müdafiə Nazirliyinin mətbuat xidmətinin mətbuat katibi polkovnik-leytenant Anar Eyvazov oktyabrın 23-də Hərbi İnformasiya Mərkəzində keçirilən brifinqdə deyib.

Anar Eyvazov qeyd edib ki, Azərbaycan Ordusunun keçirdiyi əməliyyatlar nəticəsində cəbhənin Füzuli, Cəbrayıl və Qubadlı istiqamətlərində Ermənistan silahlı qüvvələrinə ciddi zərbələr vurulub, düşmənin bir neçə dayaq məntəqəsi dağıdılıb, vacib ərazi və yüksəkliklər azad edilib.

Ağcabədi rayonu və digər istiqamətlərdə uçuş keçirməyə cəhd göstərən düşmənin 3 pilotsuz uçuş aparatı (PUA) Azərbaycan Hava Hücumundan Müdafiə bölmələri tərəfindən məhv edilib, 2-si isə xüsusi texniki vasitələrlə yerə endirilib.

Müdafiə Nazirliyinin mətbuat katibi deyib ki, bütün cəbhəboyu düşmənin əsas ehtiyatlarına, hərbi infrastrukturuna bərpa olunmayan zərər vurulub. Döyüş texnikası, silah və sursat, ərzaq ehtiyatları azalan düşmən artıq qoşunlarını praktiki olaraq idarə edə bilmir. Məlum olub ki, Ermənistanın Tavuş və Sisian rayonlarından Dağlıq Qarabağa gətirilmiş şəxsi heyət də Azərbaycan əsgərləri ilə döyüşlərə girməkdən imtina edir, mövqeləri qoyub qaçır. Döyüş mövqelərini qorumaq üçün nizami ordu bölmələri çatışmadığından onların əvəzinə məcburi şəkildə toplanan mülki insanlar gətirilir. Düşmənin vəziyyəti öz xeyrinə dəyişdirmək cəhdləri də tam olaraq iflasa uğrayıb.

Diqqətə çatdırılıb ki, bu gün Prezident, müzəffər Ali Baş Komandanımız İlham Əliyev özünün rəsmi "Twitter" hesabında qüdrətli Azərbaycan Ordusunun Qubadlı rayonunun Zilanlı, Kürd Mahrızlı, Muğanlı və Alaqurşaq, Xocavənd rayonunun Dolanlar, Bünyadlı, Cəbrayıl rayonunun Dağ Tumas, Nüsüs, Xələfli, Minbaşılı, Veysəlli, Zəngilan rayonunun Vənədli və Mirzəhəsənli kəndlərinin işğaldan azad edildiyini bildirib.

"Hazırda cəbhənin bütün istiqamətlərində döyüşlər gedir. Qoşunlarımız əməliyyat şəraitinə tam nəzarət edir. Ordumuzun zəfər yürüşü davam edir. Qələbə bizimlədir!", - deyə Anar Eyvazov vurğulayıb.

**AZƏRTAC**

**ANAMA 175 partlamamış hərbi sursat və 2 dron aşkarlayıb**

[04:57] 24.10.2020

Oktyabrın 23-də Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyə Ağcabədi, Ağdam, Bərdə, Beyləqan, Füzuli, Goranboy, Naftalan və Tərtər rayonları ərazisinə mərmilərin düşməsi barədə Daxili İşlər Nazirliyinin ″102″ Zəng Xidməti Mərkəzindən 38 və Fövqəladə Hallar Nazirliyinin Böhran Vəziyyətlərində İdarəetmə mərkəzindən 2 müraciət daxil olub.

ANAMA-dan AZƏRTAC-a bildirilib ki, daxil olmuş 40 çağırış əsasında agentliyin xüsusi mobil çevik əməliyyat qrupları tərəfindən Ağcabədi rayonunun Arazbar, Böyük Kəhrizli, Hacılar, Qaradolaq, Yeni Qaradolaq, Yuxarı Qiyaməddinli kəndləri, Ağdam rayonunun Bəybabalar, Çəmənli, Mahrızlı kəndləri, Bərdə rayonunun Xantorpaq, Əlyanlı kəndləri, Beyləqan rayonunda “Mayak” adlanan əraziyə, Füzuli rayonunun Alxanlı, Böyük Bəhmənli kəndləri və Horadiz şəhəri, Goranboy rayonunun Tapqaraqoyunlu, Şəfəq, Səfibəyli, Hacalı kəndləri, Naftalan rayonunun Qaşaltı kəndi, Tərtər rayonunun Borsunlu, Yuxarı Sarıcalı kəndləri, Qızıloba qəsəbəsi, V.Orucov, H.Hacıyev, V.Hüseynov küçələrinə Daxili İşlər Nazirliyinin əməkdaşları ilə birlikdə 33 operativ və təxirəsalınmaz əməliyyat çıxışı həyata keçirilib. Aparılmış əməliyyat-axtarış tədbirləri zamanı 175 ədəd partlamamış hərbi sursat (PHS), 2 ədəd hərbi məqsədlər üçün istifadə olunan meteoroloji radiopelenqator və 35 ədəd partlamış mərmi qalıqları aşkarlanıb.

Agentliyin partlayış qrupu tərəfindən 1 ədəd raket, 1 ədəd 9N235 bombacığı və 2 ədəd dron zərərsizləşdirilib, Mina Təhlükəsinə dair Maarifləndirmə üzrə mütəxəssislər tərəfindən 9714 nəfər mülkü şəxs arasında mina təhlükəsizliyinə dair maarifləndirmə təbliğatı aparılıb.

Ümumilikdə agentlik tərəfindən sentyabrın 27–dən oktyabrın 23-dək 829 siqnal (əməliyyat çağırışı) əsasında 687 operativ və təxirəsalınmaz əməliyyat çıxışı olub ki, nəticədə Ağdam, Ağdaş, Ağcabədi, Bərdə, Beyləqan, Biləsuvar, Cəbrayıl, Goranboy, Naftalan, Kürdəmir, Füzuli, Tərtər, Tovuz, Şəmkir, Hacıqabul, Zərdab, Xızı, Oğuz, Qəbələ rayonları, Gəncə və Mingəçevir şəhərləri ərazisində ev və həyətyanı sahəyə, neft kəmərinin yaxınlığına, Mingəçevir İES-in ərazisinə, Bakı-Tbilisi-Ceyhan Boru Kəmərinin yaxınlığına, əkin və otlaq sahələrinə, yol kənarına, meşə massivinə, məktəbə baxış keçirilib, 282 ədəd partlamamış hərbi sursat (PHS), 1144 ədəd 9N235 bombacıqları, 1180 ədəd müxtəlif çaplı patronlar, 1 ədəd qaz qumbarası, 14 ədəd hərbi məqsədlər üçün istifadə olunan meteoroloji radiopelenqator, 6 ədəd dron (zərərsizləşdirilib), 2 ədəd raketin mikrosxemi və 401 ədəd partlamış raket hissələri aşkar olunub.

**AZƏRTAC**

**Təcavüzkar Ermənistan Azərbaycana son 30 ildə vurduğu maddi və mənəvi ziyana görə reparasiya ödəməlidir**

[07:58] 24.10.2020

Təcavüzkar Ermənistan Azərbaycana son 30 ildə vurduğu maddi və mənəvi ziyana görə reparasiya ödəməlidir.

Bu fikri AZƏRTAC-a açıqlamasında Əməkdar jurnalist Rəşad Nəsirov söyləyib. O bildirib ki, reparasiya bir ölkənin digər ölkəyə vurduğu ziyana görə maddi məsuliyyət formasıdır.

Qeyd edək ki, Ermənistanın təcavüzü nəticəsində Dağlıq Qarabağ və ona bitişik rayonlarda 13 dünya əhəmiyyətli, 292 ölkə əhəmiyyətli və 330 yerli əhəmiyyətli tarix və mədəniyyət abidəsi, 40 mindən çox eksponatın toplandığı 22 muzey, 927 kitabxana, 808 klub, 4 teatr və 2 konsert salonu, 31 məscid, 9 tarixi saray, 8 mədəniyyət və istirahət parkı, 4 rəsm qalereyası, 85 musiqi məktəbi dağıdılıb. Ağdam Çörək muzeyi yerlə-yeksan edilib, dünya şöhrətli Kəlbəcər tarix-diyarşünaslıq muzeyinin 13 minədək, Laçın tarix-diyarşünaslıq muzeyinin 5 mindən çox qiymətli və nadir eksponatı Ermənistana daşınıb. Şuşanın işğalı nəticəsində 8 muzey, 31 kitabxana, 17 klub, 8 mədəniyyət evi viran edilib. Şuşa şəhərinin tarixi muzeyinin 5 minədək eksponatı, Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət muzeyinin Şuşa filialının, Dövlət Qarabağ Tarixi muzeyinin 1000-dək eksponatı, dahi bəstəkar Üzeyir Hacıbəylinin, böyük müğənni Bülbülün, görkəmli musiqiçi və rəssam Mir Mövsüm Navabın xatirə muzeylərinin, Ağdam, Qubadlı və Zəngilan tarix-diyarşünaslıq muzeylərinin fondları qarət edilib. Görkəmli Azərbaycan musiqiçisi Qurban Pirimovun Ağdam rayonundakı xatirə muzeyi, Cəbrayıl, Füzuli və Xocalı rayonlarının tarix-diyarşünaslıq muzeyləri də dağıdılıb. Ermənilər işğal etdikləri Azərbaycan torpaqlarında qeyri-qanuni arxeoloji qazıntılar aparıb, məzarlar, qəbirüstü abidələr dağıdılıb.

Otuz ilə yaxındır ki, işğal altında qalan ərazilərdə ekoloji cinayətlər törədilib. Bölgədəki biomüxtəliflik məhv edilib, meşələr qırılıb, faydalı qazıntı yataqları talan edilib, su anbarları və ətraf mühit qəsdən çirkləndirilib. Ən əsası isə təcavüz nəticəsində on minlərlə Azərbaycan vətəndaşı həlak olub və yaralanıb, bir milyondan çox insan isə doğma yurdundan didərgin düşüb. Törətdiyi bu bəşəri cinayətlərə görə Ermənistanın keçmiş və indiki rəhbərliyi məsuliyyət daşıyır. Azərbaycana vurulan maddi-mənəvi ziyanın ödənilməsi beynəlxalq hüquq və beynəlxalq təşkilatlar səviyyəsində gündəmə gətirilməlidir.

**AZƏRTAC**

**Azərbaycan HHQ-si düşmənin hərbi texnikasını və infrastrukturunu məhv edib**

[19:23] 24.10.2020

Oktyabrın 24-də saat 13:00-dan 15:00-dək Azərbaycan Hərbi Hava Qüvvələrinin (HHQ) döyüş aviasiyası cəbhənin Ağdərə və Ağdam istiqamətlərində Ermənistan silahlı qüvvələrinin 3 tankını, 2 sığınacağını və bölüyün 4 dayaq məntəqəsini dəqiq aviasiya zərbələri ilə məhv edib.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycan HHQ-si düşmənin hərbi infrastrukturuna hava zərbələri endirməkdə davam edir.

**AZƏRTAC**

**Cəbhəboyu ərazilərdə raket, top mərmiləri və dronlar zərərsizləşdirilib**

[02:43] 25.10.2020

2020-ci il oktyabrın 24-də Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyinə (ANAMA) Ağcabədi, Ağdam, Bərdə, Beyləqan, Füzuli, Goranboy, Naftalan və Tərtər rayonları ərazisinə mərmilərin düşməsi barədə Daxili İşlər Nazirliyinin "102" Xidməti-Zəng mərkəzi sistemindən 34 və Fövqəladə Hallar Nazirliyinin Böhran Vəziyyətlərində İdarəetmə Mərkəzindən 1 müraciət daxil olub.

ANAMA-dan AZƏRTAC-a bildirilib ki, daxil olmuş 35 çağırış əsasında Agentliyin xüsusi mobil çevik əməliyyat qrupları tərəfindən Ağcabədi rayonunun Hacılar, Hüsülü, Muğanlı, Rəncbərlər, Təzəkənd kəndləri, Ağdam rayonunun Alıbəyli kəndi, Quzanlı və Səfərli qəsəbəsi, Bərdə rayonunun Qazaxlar və Təhlə kəndləri, Beyləqan rayonunun Dünyamalılar kəndi, Füzuli rayonunun Alxanlı kəndi, Goranboy rayonunun Təklə kəndi, Naftalan rayonunun Qaşaltı, Tərtər rayonunun Azadqaraqoyunlu, Düyərli, Köçərli, Qazyan, Xoruzlu kəndləri, Şıxarx qəsəbəsi, M.Ə.Sabir və Nizami küçələrinə Daxili İşlər Nazirliyinin əməkdaşları ilə birlikdə 28 operativ və təxirəsalınmaz əməliyyat çıxışı həyata keçirilib.

Aparılmış əməliyyat-axtarış tədbirləri zamanı 9 ədəd partlamamış hərbi sursat (PHS), 2 ədəd hərbi məqsədlər üçün istifadə olunan meteoroloji radiopelenqator və 31 ədəd partlamış mərmi qalıqları aşkar olunub.

Agentliyin partlayış qrupu tərəfindən 2 ədəd raket, 8 ədəd top mərmisi və 2 ədəd dron zərərsizləşdirilib, Mina Təhlükəsinə dair Maarifləndirmə üzrə mütəxəssislər tərəfindən 14 min 496 nəfər mülkü şəxs arasında mina təhlükəsizliyinə dair maarifləndirmə təbliğatı aparılıb.

**AZƏRTAC**

**Azərbaycan MN: Düşmən Ağdam, Tərtər və Ağcabədi rayonlarının ərazilərini atəşə tutur**

[13:23] 25.10.2020

Ermənistan silahlı qüvvələri Azərbaycan Respublikasının Ağdam, Tərtər və Ağcabədi rayonlarının ərazilərini atəşə tutur.

Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyinin mətbuat xidmətindən məlumat verilib.

**AZƏRTAC**

**Anar Eyvazov: Hazırda Azərbaycan Ordusunun bölmələri cəbhəboyu döyüşləri davam etdirir**

[19:52] 25.10.2020

Oktyabrın 24-ü gün ərzində və 25-nə keçən gecə cəbhənin Ağdərə, Xocavənd, Füzuli, Hadrut, Qubadlı və Laçın istiqamətlərində döyüş əməliyyatları davam edib. Düşmən əməliyyat sahəsindəki qoşunlarımızı, həmçinin Ağdam, Tərtər, Ağcabədi rayonlarını tanklar, minaatanlar və toplardan atəşə tutub.

AZƏRTAC xəbər verir ki, bu barədə Müdafiə Nazirliyinin mətbuat xidmətinin mətbuat katibi polkovnik-leytenant Anar Eyvazov oktyabrın 25-də Hərbi İnformasiya Mərkəzində keçirilən brifinqdə deyib.

Anar Eyvazov bildirib ki, Azərbaycan Ordusunun bölmələri əməliyyat planına uyğun olaraq əsas istiqamətlərdə döyüş fəaliyyətlərini davam etdirib və işğaldan azad edilmiş əraziləri bir qədər də genişləndirib. Qoşunlarımız cəbhənin Xocavənd, Qubadlı və Laçın rayonları ərazisində düşmənə ciddi atəş zərbələri endirərək onun müqavimətini zəiflədib və müxtəlif istiqamətlərdə döyüş mövqelərini düşməndən təmizləyib. Ağdərə və Xocavənd istiqamətlərində yerləşən düşmən bölmələri ordumuzun cavab tədbirləri nəticəsində xeyli sayda canlı qüvvə itirib.

Qeyd edilib ki, artıq Ermənistan tərəfində döyüş sursatının tükəndiyi və artilleriya qurğularının sıradan çıxdığı məlum olub. Qubadlı istiqamətinə gətirilən Ermənistan silahlı qüvvələrinin 543-cü alayının 1-ci taborunun bölmələri canlı qüvvə və hərbi texnika baxımından itkilər verərək geriyə qayıdıb. Ermənistanın Kotayk vilayətinin Tsaxkadzor yaşayış məntəqəsindən Dağlıq Qarabağa göndərilən ehtiyatdan çağırılmış hərbi vəzifəlilərin böyük hissəsi bölmələrimizin dəqiq atəş zərbələri ilə məhv edilib.

Hərbi hava qüvvələrimizin döyüş aviasiyası cəbhənin Ağdərə və Ağdam istiqamətlərində düşmənin üç tankını, iki sığınacağını və dörd dayaq məntəqəsini dəqiq zərbələrlə sıradan çıxarıb.

Müdafiə Nazirliyinin mətbuat katibi deyib ki, Azərbaycan Ordusunun keçirdiyi fəaliyyətlər nəticəsində cəbhənin müxtəlif istiqamətlərində düşmənin xeyli sayda canlı qüvvəsi, eləcə də 3 tankı, 2 piyada döyüş maşını, 6 artilleriya qurğusu, 1 “Qiasint-B” topu, 2 “Qrad”, 1 komanda idarəetmə məntəqəsi, 9 avtomobil texnikası və bir neçə atəş nöqtəsi məhv edilib.

“Hazırda bölmələrimiz cəbhəboyu döyüşləri davam etdirir. Hərbi hava qüvvələrimizin döyüş aviasiyası düşmənin hərbi infrastrukturlarını hədəfə alır. Ümumi olaraq qoşunlarımız əməliyyat şəraitinə tam nəzarət edir. Düşmən havadan və qurudan darmadağın edilir. Qələbə bizimlədir!”, - deyə Anar Eyvazov vurğulayıb.

**AZƏRTAC**

**Ermənistan atəşkəs rejimini pozmaqda davam edir: Tovuz və Daşkəsən rayonlarının əraziləri atəşə tutulur**

[12:07] 26.10.2020

Ermənistan silahlı qüvvələri yeni humanitar atəşkəs rejimini pozmaqda davam edir.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, hazırda Ermənistanın Berd və Vardenis rayonları ərazisindən Azərbaycanın Tovuz və Daşkəsən rayonlarının əraziləri düşmən tərəfindən atəşə tutulur.

Eyni zamanda, Füzuli və Ağdam istiqamətlərindəki yaşayış məntəqələrimiz, habelə Azərbaycan Ordusu bölmələrinin mövqeləri də düşmən tərəfindən atəşə məruz qalır.

**AZƏRTAC**

**Anar Eyvazov: Azərbaycan Ordusunun bölmələri növbəti humanitar atəşkəs rejiminə bütün cəbhəboyu riayət edir**

[19:32] 26.10.2020

Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin göstərişinə əsasən Azərbaycan Ordusunun bölmələri oktyabrın 26-sı saat 08.00-dan qüvvəyə minmiş növbəti humanitar atəşkəs rejiminə bütün cəbhəboyu riayət edir.

AZƏRTAC xəbər verir ki, bu barədə Müdafiə Nazirliyinin mətbuat xidmətinin mətbuat katibi polkovnik-leytenant Anar Eyvazov oktyabrın 26-da Hərbi İnformasiya Mərkəzində keçirilən brifinqdə deyib.

Anar Eyvazov bildirib ki, Ermənistan silahlı qüvvələrinin bölmələri yeni humanitar atəşkəs rejimi qüvvəyə mindikdən bir neçə dəqiqə sonra - saat 08.05-dən etibarən onu kobudcasına pozaraq Tərtər, Ağdam, Ağcabədi, Füzuli, Qubadlı və Laçın istiqamətlərində yerləşən bölmələrimizin mövqelərini və yaşayış məntəqələrimizi, o cümlədən Ermənistanın Berd, Çəmbərək və Vardenis rayonları ərazisindən Tovuz, Gədəbəy və Daşkəsən rayonlarını müxtəlif növ atıcı silahlar, minaatanlar və toplardan atəşə tutub. Bir qədər əvvəl - saat 18:15-də düşmən "Smerç" yaylım atəşli reaktiv sistemindən Tərtər şəhərini atəşə tutub. Atılan üç raketdən biri hava hücumundan müdafiə bölmələrimiz tərəfindən zərərsizləşdirilib. Ümumilikdə bu gün ərzində Tərtər daxil olmaqla yaşayış məntəqələrimizə 200-dən çox mərmi atılıb.

Müdafiə Nazirliyinin mətbuat katibi deyib ki, Xocalı rayonunun Çanaqçı kəndinin guya Azərbaycan Ordusu tərəfindən atəşə tutulması, o cümlədən Ordumuza məxsus zərbə pilotsuz uçuş aparatının cəbhə xəttində guya məhv edilməsi barədə düşmən tərəfindən yayılan məlumatlar yalandır. Əksinə, Ermənistan-Azərbaycan dövlət sərhədinin Daşkəsən rayonu sahəsində bölmələrimizin mövqeləri üzərində uçuş keçirməyə cəhd göstərən düşmən kvadrokopteri atıcı silahlardan açılan atəşlə məhv edilib.

"Canlı qüvvə ehtiyatları tükənməkdə olan düşmən döyüşlərə daha çox könüllüləri, muzdlu və əcnəbi terrorçu döyüşçüləri, o cümlədən uşaqları cəlb etməyə çalışır. Belə olan halda isə düşmənin döyüş sahəsində vəziyyətə nəzarət edə bilməsi praktiki cəhətdən mümkün deyil. Nizami ordumuz düşmənin istənilən hücum və təxribatlarının qarşısını almaq üçün döyüşə tam hazır vəziyyətdədir", - deyə Anar Eyvazov vurğulayıb.

**AZƏRTAC**

**ANAMA mütəxəssisləri cəbhəyanı ərazilərdə raket və top mərmilərini zərərsizləşdiriblər**

[07:41] 27.10.2020

Oktyabrın 25-26-də Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyinə (ANAMA) Ağcabədi, Ağdam, Bərdə, Füzuli, Goranboy, Tərtər rayonları və Mingəçevir şəhəri ərazisinə mərmilərin düşməsi barədə Daxili İşlər Nazirliyinin “102” Xidməti-Zəng mərkəzi sistemindən 49 müraciət daxil olub.

ANAMA-dan AZƏRTAC-a bildirilib ki, daxil olmuş çağırışlar əsasında agentliyin xüsusi mobil çevik əməliyyat qrupları tərəfindən Ağcabədi rayonunun Sarıcalı, Salmanbəyli kəndləri və Hindarx qəsəbəsi, Ağdam rayonunun Rzalar, Bəybabalar, Əhmədağalı və Eyvazlı kəndləri, Bərdə rayonunun Təhlə kəndi, Füzuli rayonunun Şükürbəyli, Alxanlı və Arayatlı kəndləri, Goranboy rayonunun Qaraçinar, Meşəli və Tapqaraqoyunlu kəndləri, Tərtər rayonunun Nizami, Axundov, M.Rəsulzadə, H.Cavid və T.Rəhimov küçələri, Mingəçevir şəhərinin Yeni Yaşayış massivi ərazisinə Daxili İşlər Nazirliyinin əməkdaşları ilə birlikdə 45 operativ və təxirəsalınmaz əməliyyat çıxışı həyata keçirilib. Aparılmış əməliyyat-axtarış tədbirləri zamanı 1 ədəd 100 mm-lik top mərmisi (OF-412), 1 ədəd 122 mm-lik top mərmisi (OF-56), 1 ədəd 152 mm-lik top mərmisi (OF-29), 1 ədəd 240 mm-lik raket (M24F), 5 ədəd 9N235 bombacığı, 1 ədəd hərbi məqsədlər üçün istifadə olunan meteoroloji radiopelenqator və 54 ədəd partlamış mərmi qalıqları aşkar olunub.

Agentliyin partlayış qrupu tərəfindən 3 ədəd raket, 1 ədəd tank əleyhinə idarəolunmayan raket (PQ-7), 5 ədəd 9N235 bombacığı və 1 ədəd top mərmisi zərərsizləşdirilib, Mina Təhlükəsinə dair Maarifləndirmə üzrə mütəxəssislər tərəfindən 23418 nəfər mülkü şəxs arasında mina təhlükəsizliyinə dair maarifləndirmə təbliğatı aparılıb.

**AZƏRTAC**

**Rusiyalı analitik: Ermənilər “biz o zaman qalib gəlmişdik, indi də Bakıya kimi gedərik” əfsanəsi ilə yatıb-dururdular**

[20:17] 27.10.2020

Rusiyanın “Vzqlyad.ru” nəşri Dağlıq Qarabağda hərbi əməliyyatların başlanmasından ötən bir ay ərzində Ermənistan qoşunlarının məğlubiyyətinin səbəblərini araşdırıb.

AZƏRTAC xəbər verir ki, Yevgeni Krutikovun müəllifi olduğu materialda artıq Ermənistan ordusunun geri çəkildiyi vurğulanır. Qeyd olunur ki, Azərbaycan Ordusu Dağlıq Qarabağda müdafiə xəttini yararaq irəliləyib və hazırkı vəziyyət Ermənistan qoşunlarının strateji məğlubiyyətindən danışmağa imkan verir.

Müəllif Ermənistan və “DQR”nin kəşfiyyat strukturlarının səriştəsizliyini diqqətə çatdıraraq yazır ki, Azərbaycan artıq yay aylarından Dağlıq Qarabağla sərhədə iki döyüş korpusunu və döyüşqabiliyyətli hissələrini cəmləmişdi. Qoşunların təmas xəttinə yaxın ərazilərdə anbarlar tikilir, təchizat sistemləri çəkilirdi. Ermənistan kəşfiyyatı nə bu, nə də Azərbaycanın çoxlu sayda silah alması barədə də rəhbərliyə düzgün məlumatlar verməmişdi.

Yevgeni Krutikovun fikrincə, ermənilər 1990-cı illərin əvvəllərində qazandıqları uğurların psixoloji təsirindən çıxa bilmirlər. Azərbaycan Ordusunun kəmiyyət və keyfiyyət baxımından üstünlüyünə baxmayaraq, ermənilər “biz o zaman qalib gəlmişdik, indi də Bakıya kimi gedərik” əfsanəsi ilə yatıb-dururdular. Paşinyanın rəhbərliyi dövründə Ermənistan kəşfiyyatının 3 rəhbəri vəzifəsindən azad edilmişdi və tanınmamış “DQR” bəzi rəhbərləri “ruslar bizə lazım deyillər, biz onlarsız da Bakıya piyada gedib çıxarıq” deyirdilər.

Materialda deyilir ki, “DQR”in hava hücumundan müdafiə sistemləri “OSA”, “Kruq” və “KUB” komplekslərindən ibarətdir. Lakin Azərbaycan İsrail və Türkiyə istehsalı olan PUA-lar aldıqdan sonra bütün bu yaxınradiuslu köhnəlmiş sistemlər artıq heç nəyə yaramır. Dağlıq Qarabağda hava hücumundan müdafiə sistemləri (HHMS) az, Azərbaycanın PUA-ları isə çoxdur. Üstəlik də Azərbaycan Ordusu ermənilərin HHMS-lərini raketlər və uzaqmənzilli artilleriya ilə sıradan çıxarıb. Ermənistan bu sahədə Azərbaycanla rəqabət apara bilmir. Yerevanın PUA-sının az olması Azərbaycanın batalyon taktiki qruplarına, az qala, paraddakı kimi hərəkət etmək imkanı verir.

Müəllif Dağlıq Qarabağın 25 il əvvəl qurulmuş müdafiə sisteminin arxalandığını, lakin bu illər ərzində Azərbaycan Ordusunun xeyli inkişaf etdiyini nəzərə almadığını vurğulayır. Azərbaycan qoşunlarının Laçının təxminən 10-15 kilometrliyində olduğunu və Laçın dəhlizinin itirilməsinin ermənilər üçün artıq strateji fəlakət olduğunu yazan rusiyalı analitik qeyd edir ki, onsuz da cəbhənin cənubunda xeyli ərazinin itirilməsi ermənilər üçün ciddi siyasi və mənəvi məğlubiyyətdir. Məhz cənub istiqamətdə irəliləyişi rəsmi Bakı biraylıq döyüşlərdə özünün mühüm qələbəsi və əsas siyasi nailiyyəti hesab edə bilər.

Materialda deyilir ki, xəritəyə baxarkən, Azərbaycanın mərkəzdən zərbə endirəcəyi, Qarqarçay boyunca irəliləyərək, Ağdamdan və Xocalıdan keçərək Xankəndinə çıxacağını düşünmək olardı. Elə ermənilər də 25 il ərzində məhz bu zonada müdafiəni bərkitmişdilər. Lakin Azərbaycan Ordusu bu zonada hücuma keçmədi. Burada yalnız qarşılıqlı artilleriya atışmaları müşahidə olunur. Buna görə də ermənilər mərkəzdə böyük canlı qüvvə saxlamağa məcburdurlar.

Müəllif vurğulayır ki, əməliyyat təşəbbüsü tamamilə Azərbaycan tərəfindədir və Azərbaycan Ordusu bütün cəbhə boyunca qüvvələrin yerini dəyişə, yeni planlar həyata keçirə, ehtiyat qüvvə gətirə bilir. Ermənilər isə cənubda “təhlükəsizlik kəməri”ni əldən verəndən sonra əks-hücum barədə düşünə belə bilmirlər. Bütövlükdə, bütün bunlar Ermənistan üçün siyasi sondur. Ermənilər indi yalnız passiv müdafiəyə hazırdırlar.

Sonda Yevgeni Krutikov ermənilərin Qarabağda hərbi revanşın Azərbaycanın əsas milli strategiyası olduğunu da nəzərə almadıqlarını qeyd edir.

**Fəridə Abdullayeva,**
**AZƏRTAC-ın xüsusi müxbiri, Moskva**

**AZƏRTAC**

**ANAMA mütəxəssisləri cəbhə bölgəsində əməliyyat-axtarış işlərini davam etdirirlər**

[07:26] 28.10.2020

Oktyabrın 27-də Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyə (ANAMA) Ağcabədi, Ağdam, Bərdə, Cəbrayıl, Füzuli, Goranboy, Tərtər rayonları ərazisinə mərmilərin düşməsi barədə Daxili İşlər Nazirliyinin ″102″ Xidməti-Zəng mərkəzi sistemindən – 20 (iyirmi) və Fövqəladə Hallar Nazirliyinin Böhran Vəziyyətlərində İdarəetmə Mərkəzindən – 2 (iki) müraciət daxil olub.

ANAMA-dan AZƏRTAC-a bildirilib ki, daxil olmuş 22 çağırış əsasında agentliyin xüsusi mobil çevik əməliyyat qrupları tərəfindən Ağcabədi rayonunun Ağgöl kəndi, Taxtakörpü adlanan ərazisi və Hindarx qəsəbəsi, Ağdam rayonunun Ayaq Qərvənd və Əfətli kəndləri, Bərdə rayonunun Alpout, Qarayusifli, Böyük Göyüşlü kəndləri, Cəbrayıl rayonunun Soltanlı kəndi, Füzuli rayonunun 3-cü Zobcuq qəsəbəsi, Goranboy rayonunun Tapqaraqoyunlu kəndi, Tərtər rayonunun Buruc, Düyərli, Ələsgərli, Qazyan kəndləri, Narlıq qəsəbəsi və E.Səfərov küçəsi ərazisinə Daxili İşlər Nazirliyinin əməkdaşları ilə birlikdə 19 operativ və təxirəsalınmaz əməliyyat çıxışı həyata keçirilib. Aparılmış əməliyyat-axtarış tədbirləri zamanı 1 ədəd 100 mm-lik top mərmisi (OF-412), 1 ədəd 300 mm-lik raket (9M528), 1 ədəd 57 mm-lik top mərmisi (BM-8), 1 560 ədəd piyada əleyhinə PMN minası, 67 ədəd piyada əleyhinə OZM-72 minası, 33 ədəd tank əleyhinə TM-62M minası, 18 ədəd tank əleyhinə TM-62P2 minası, 34 ədəd MVP partladıcısı, 202 ədəd MVÇ partladıcısı, 76 ədəd detonator və 20 ədəd partlamış mərmi qalıqları aşkar olunub.

Agentliyin Mina Təhlükəsinə dair Maarifləndirmə üzrə mütəxəssislər tərəfindən 29 066 nəfər mülkü şəxs arasında mina təhlükəsizliyinə dair maarifləndirmə təbliğatı aparıb.

**AZƏRTAC**

**Prezident: Baza prinsiplərində beş rayonun qaytarılmasını nəzərdə tutan birinci mərhələ aktuallığını itirib**

[22:06] 28.10.2020

Bilirsiniz ki, sabah Cenevrədə Azərbaycanın və Ermənistanın Xarici İşlər nazirləri arasında danışıqlar olmalıdır. Erməni tərəfin baza prinsiplərinə nə dərəcədə sadiq olduğunu orada görəcəyik. Bundan sonra biz həmin prinsiplərin hazırda nə dərəcədə aktual olub-olmadığını artıq özümüz qiymətləndirəcəyik.

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev bunu Rusiyanın İnterfaks agentliyinə müsahibəsində baza prinsiplərinin bu gün nə dərəcə aktual olmasına münasibət bildirərkən deyib.

"Birinci mərhələdə beş rayonun qaytarılmasının nəzərdə tutulmasına gəldikdə isə, əlbəttə, indi bu, artıq aktual deyil. Ona görə ki, baza prinsiplərində ərazilərin qaytarılmasının növbəliliyi müəyyən edilmişdi. Birinci mərhələdə beş rayon, Kəlbəcər və Laçın rayonları ikinci mərhələdə. Sonra isə artıq azərbaycanlıların Dağlıq Qarabağ ərazisinə qaytarılması. Prinsip etibarilə, bütün məcburi köçkünlərin əvvəlki yaşayış yerlərinə qaytarılması. Buna görə də biz birinci mərhələni praktiki olaraq başa çatdırmışıq", - deyə dövlətimizin başçısı vurğulayıb.

Prezident deyib ki, əgər indi erməni tərəfi baza prinsiplərinə sadiq olduğunu bildirərsə, biz dərhal hazırda işğal altında olan Laçın, Kəlbəcər rayonlarının və Ağdam rayonunun bir hissəsinin Azərbaycanın nəzarətinə verilməsi barədə danışacağıq: "Beləliklə, biz müəyyən dərəcədə vasitəçilərin də işlərini asanlaşdıracağıq. Ona görə ki, mühüm bəndlərdən biri artıq həyata keçiriləcək və bizim hansısa ikinci mərhələni gözləməyimiz lazım olmayacaq. O mərhələ dərhal başlamalıdır. Əgər biz siyasi nizamlama barədə razılığa gəlsək, erməni qoşunları Kəlbəcər və Laçın rayonlarından, habelə Ağdam rayonunun bir hissəsindən dərhal çıxarılmalıdır".

**AZƏRTAC**

**ANAMA mütəxəssisləri cəbhəboyu ərazilərdə top mərmisi, raketlər, tank əleyhinə minaları zərərsizləşdirib**

[01:08] 30.10.2020

Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyə (ANAMA) Ağcabədi, Ağdam, Bərdə, Cəbrayıl, Füzuli, Goranboy, Tərtər rayonları ərazisinə mərmilərin düşməsi barədə Daxili İşlər Nazirliyinin ″102″ Xidməti-Zəng mərkəzi sistemindən 58 və Fövqəladə Hallar Nazirliyinin Böhran Vəziyyətlərində İdarəetmə Mərkəzindən 3 müraciət daxil olub.

ANAMA-dan AZƏRTAC-a verilən məlumata görə, daxil olmuş 61 çağırış əsasında agentliyin xüsusi mobil çevik əməliyyat qrupları tərəfindən Ağcabədi rayonunun Hacılar, Palıdlı, Qaraxanlı, Yuxarı Qiyaməddinli kəndləri, Ağdam rayonunun Çəmənli, İkinci Yüzbaşlı, Alıbəyli, Əfətli, Təzəkənd, Ayaq Qərvənd, Üçoğlan kəndləri, Bərdə rayonunun B.Hacıyev, Bakı, Koroğlu, Natavan, Ü.Hacıbəyov küçələri, H.Əliyev prospekti, Mirzalıbəyli kəndi, Cəbrayıl rayonunun Soltanlı kəndi, Füzuli rayonunun Əhmədalılar, Alxanlı, Arayatlı kəndləri, Goranboy rayonunun Tapqaraqoyunlu, Qızılhacılı kəndləri, Tərtər rayonunun Buruc, Düyərli, Köçərli, Ələsgərli kəndləri ərazisinə Daxili İşlər Nazirliyinin əməkdaşları ilə birlikdə 50 operativ və təxirəsalınmaz əməliyyat çıxışı həyata keçirilib. Aparılmış əməliyyat-axtarış tədbirləri zamanı 1 ədəd 122 mm-lik top mərmisi (OF-56), 1 ədəd 9N235 bombacığı, 2 ədəd 122 mm-lik raket (9M22U), 225 ədəd tank əleyhinə TM-62P2 minası, 224 ədəd MVP-62 partladıcısı və 44 ədəd partlamış mərmi qalıqları aşkar olunub.

Agentliyin partlayış qrupu tərəfindən 3 ədəd raket, 1 ədəd 9N235 bombacığı zərərsizləşdirilib, mina təhlükəsinə dair maarifləndirmə üzrə mütəxəssislər tərəfindən 36 045 nəfər mülki şəxs arasında mina təhlükəsizliyinə dair maarifləndirmə təbliğatı aparılıb.

**AZƏRTAC**

**Səhər saatlarından başlayaraq bir sıra yaşayış məntəqələrimiz atəşə tutulur**

[08:30] 30.10.2020

Oktyabrın 30-u saat 07:35-dən başlayaraq Goranboy, Tərtər, Ağdam və Ağcabədi rayonlarının ərazisi artilleriya atəşinə tutulur.

Ordumuz tərəfindən adekvat tədbirlər görülür.

Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyinin mətbuat xidmətindən məlumat verilib.

**AZƏRTAC**

**Baş prokuror: Ermənistan ordusunun mülki əhalini atəşə tutması nəticəsində 7 ailə tamamilə məhv olub**

[15:00] 30.10.2020

Ermənistan silahlı qüvvələrinin sentyabrın 27-dən oktyabrın 30-dək Azərbaycanın yaşayış məntəqələrini, mülki şəxsləri atəşə tutması nəticəsində indiyədək 7 ailə tamamilə məhv olub. Bundan başqa, 4 uşaq hər iki valideynini itirib.

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev oktyabrın 30–da Baş Prokurorluqda Ermənistan Silahlı Qüvvələrinin Azərbaycanın mülki əhalisinə qarşı törətdiyi cinayətlərlə bağlı ölkəmizdə akkreditə olunan diplomatik korpusun, beynəlxalq təşkilatların, yerli və beynəlxalq media qurumlarının nümayəndələri üçün təşkil olunan brifinqdə məlumat verib.

Baş prokuror bildirib ki, indiyədək həlak olan 91 mülki şəxsin 1-i körpə, 10-u uşaq, 27-si qadın, 53-ü kişi, 15-i ahıldır.

Ermənistan silahlı qüvvələri oktyabrın 4-də, 5-də, 8-də, 11-də və 17-də Gəncə şəhərində dinc əhalini ağır artilleriya və raket atəşinə tutması nəticəsində 26 nəfər, o cümlədən 10-qadın və 6 uşaq həlak olub, 57-si qadın, 32-si uşaq olmaqla 142 nəfər yaralanıb. Bərdə rayonunda isə 27 dinc sakin (8 qadın və 1 uşaq) həlak olub, 101 nəfər, o cümlədən 26 qadın və 14 uşaq xəsarət alıb.

Kamran Əliyev vurğulayıb ki, düşmənin raket və ağır artilleriya atəşləri nəticəsində Tərtər rayonunda 17 (1 uşaq, 1 qadın), Goranboy rayonunda 8 (2 qadın, 5 uşaq), Ağdam rayonunda 7 (1 qadın), Füzuli rayonunda 3 nəfər, Beyləqan rayonunda 2 qadın və Ağcabədi şəhərində 1 uşaq həlak olub.

**AZƏRTAC**

**Anar Eyvazov: Cəbhənin bütün istiqamətlərində vəziyyət ordumuzun nəzarəti altındadır**

[19:34] 30.10.2020

Ötən müddət ərzində humanitar atəşkəs rejimini pozan Ermənistan silahlı qüvvələri Goranboy, Tərtər, Ağdam və Ağcabədi rayonlarını, o cümlədən Gorus rayonu istiqamətindən Qubadlı rayonunun ərazilərini raket və artilleriya vasitələrindən atəşə tutub. Cəbhənin əsasən Ağdərə, Xocavənd və Qubadlı istiqamətlərində hücuma keçməyə cəhd edən düşmən bölmələrinin qarşısı qətiyyətlə alınıb.

AZƏRTAC xəbər verir ki, bu barədə Müdafiə Nazirliyinin mətbuat xidmətinin mətbuat katibi polkovnik-leytenant Anar Eyvazov oktyabrın 30-da Hərbi İnformasiya Mərkəzində keçirilən brifinqdə deyib.

Anar Eyvazov bildirib ki, döyüş texnikası və canlı qüvvə baxımından xeyli sayda itki verən düşmən geri çəkilməyə məcbur edilib. Bərdə və Tərtər şəhərlərinə raket hücumları həyata keçirən düşmənin üç ədəd “Smerç” yaylım atəşli reaktiv sistemi və ermənilərin qondarma özünü müdafiə ordusu adlandırdıqları Ermənistan silahlı qüvvələrinin 1-ci ümumqoşun ordusunun komandan müavini, o cümlədən düşmənin xeyli sayda canlı qüvvəsi, “Qrad” yaylım atəşli reaktiv sistemi, “Osa” zenit raket kompleksi, P-18 radiolokasiya stansiyası, 2 ədəd “Qvozdika” özüyeriyən haubitsası, 10 ədəd artilleriya topu, piyada döyüş maşını, 3 ədəd tankı, 4 ədəd avtomobil texnikası və yeni istismara verilmiş raket-artilleriya silahları anbarı bölmələrimizin dəqiq atəş zərbələri ilə məhv edilib.

Müdafiə Nazirliyinin mətbuat katibi bildirib ki, Azərbaycan Ordusunun uğurlu əməliyyatları çərçivəsində Cəbrayıl, Zəngilan və Qubadlı rayonlarının ümumilikdə 9 kəndi işğaldan azad edilib.

“Uğursuz fəaliyyətlərini gizlətmək məqsədilə müxtəlif dezinformasiyalar yayan düşmənin guya Azərbaycan Ordusuna aid silah anbarının və pilotsuz uçuş aparatının məhv edilməsi ilə bağlı məlumatları həqiqəti əks etdirmir. Hazırda cəbhənin bütün istiqamətlərində vəziyyət ordumuzun nəzarəti altındadır. Qələbə bizimlədir”, - deyə Anar Eyvazov vurğulayıb.

**AZƏRTAC**

**Düşmənin növbəti “Osa” ZRK-sı məhv edilib**

[22:35] 30.10.2020

Oktyabrın 30-da saat 20:25 radələrində cəbhənin Ağdam istiqamətində Ermənistan silahlı qüvvələrinə məxsus 1 ədəd “Osa” ZRK bölmələrimiz tərəfindən məhv edilib.

Bu barədə AZƏRTAC-a Azərbaycan Respublikası Müdafiə Nazirliyinin mətbuat xidmətindən məlumat verilib.

**AZƏRTAC**

**ANAMA: Döyüş başlıqları, top mərmisi və bombacıq aşkarlanıb**

[07:00] 31.10.2020

Oktyabrın 30-da Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyinə (ANAMA) Ağcabədi, Ağdam, Bərdə, Cəbrayıl, Füzuli, Goranboy, Tərtər, Xocavənd rayonları və Mingəçevir şəhəri ərazisində mərmilərin aşkar olunması barədə Daxili İşlər Nazirliyinin "102" Xidməti-Zəng mərkəzi sistemindən – 26 (iyirmi altı) və Fövqəladə Hallar Nazirliyinin Böhran Vəziyyətlərində İdarəetmə Mərkəzindən – 1 (bir) müraciət daxil olub.

ANAMA-dan AZƏRTAC-a bildirilib ki, daxil olmuş 27 çağırış əsasında Agentliyin xüsusi mobil çevik əməliyyat qrupları tərəfindən Ağcabədi rayonunun Minəxaorlu, Rəncbərlər kəndləri, Ağdam rayonunun Xındırıstan, Üçoğlan kəndləri, Bərdə rayonunun Qarayusifli, Yeni Daşkənd kəndləri, Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndi, Füzuli rayonunun Şükürbəyli kəndi, Haramı düzü adlanan ərazi, Horadiz şəhəri, Goranboy rayonunun Şahməmmədli, Meşəli kəndləri, Tərtər rayonunun Kəbirli, Seyidimli kəndləri, Narlıq qəsəbəsi, Axundov, E.Səfərov küçələri, Xocavənd rayonu ərazisi və Mingəçevir şəhəri ərazisinə Daxili İşlər Nazirliyinin əməkdaşları ilə birlikdə 24 operativ və təxirəsalınmaz əməliyyat çıxışı həyata keçirilib. Aparılmış əməliyyat-axtarış tədbirləri zamanı 1 ədəd 122 millimetrlik top mərmisi (OF-56), 2 ədəd mərminin döyüş başlığı, 1 ədəd 9N235 bombacığı, 1 ədəd hərbi məqsədlər üçün istifadə olunan meteoroloji radiopelenqator və 24 ədəd partlamış mərmi qalıqları aşkarlanıb.

Agentliyin partlayış qrupu tərəfindən 1 ədəd 9N235 bombacığı zərərsizləşdirilib, Mina Təhlükəsinə dair Maarifləndirmə üzrə mütəxəssislər tərəfindən 42 min 777 nəfər mülkü şəxs arasında mina təhlükəsizliyinə dair maarifləndirmə təbliğatı aparılıb.

**AZƏRTAC**

**Tərtər, Ağdam və Ağcabədi rayonlarının ərazisi artilleriya atəşinə tutulub**

[07:55] 31.10.2020

Oktyabrın 31-də saat 06:00-dan etibarən Ermənistan silahlı qüvvələri Tərtər, Ağdam və Ağcabədi rayonlarının ərazisini artilleriya atəşinə tutub.

Bu barədə AZƏRTAC-a Azərbaycan Respublikası Müdafiə Nazirliyinin mətbuat xidmətindən məlumat verilib.

**AZƏRTAC**

**Prezidentin köməkçisi: Ermənistan ağır artilleriya, ballistik və reaktiv raketlər, kasetli bombalardan istifadə edərək Azərbaycan Ordusunun mövqelərini davamlı şəkildə atəşə tutur**

[14:39] 31.10.2020

Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyev dəfələrlə bəyan edib ki, Azərbaycan Respublikasının Ermənistan ərazisində heç bir hərbi hədəfləri yoxdur. Azərbaycan Ordusu Azərbaycan Respublikasının beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində ölkəmizin ərazi bütövlüyünü bərpa edir.

AZƏRTAC xəbər verir ki, bu fikirlər Prezidentin köməkçisi-Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin açıqlamasında yer alıb.

Prezidentin köməkçisi deyib: "Ermənistan ərazisindən və işğal olunmuş ərazilərdən beynəlxalq insan hüquqları müdafiəsi təşkilatları tərəfindən bəyan edildiyi kimi, ballistik, qadağan edilmiş kasetli reaktiv raketlər və ağır artilleriya ilə Azərbaycanın Gəncə, Mingəçevir, Tərtər, Bərdə, Goranboy, Ağdam, Ağcabədi, Naftalan, Daşkəsən Qəbələ, Kürdəmir, Siyəzən, Xızı və digər şəhər və rayonlarının dinc sakinləri və mülki obyektləri bombardman edilib. Bu raket hücumları nəticəsində sıralarında 11 azyaşlı uşaq, 27 qadın olmaqla, 91 nəfər mülki insan həlak olub, 400-dən artıq mülki şəxs yaralanıb. Eyni zamanda, Ermənistan ərazisindən ağır artilleriya, ballistik və reaktiv raketlər, kasetli bombalar və digər atıcı silahlardan istifadə edilərək Azərbaycan Ordusunun mövqelərinə davamlı olaraq atəşlər açılır. Bu, dözülməzdir".

**AZƏRTAC**

**Prezidentin köməkçisi: Cenevrə görüşündən sonra Ermənistan ordusu Tərtər, Ağdam, Goranboy, Ağcabədi rayonlarını ağır artilleriya və digər atıcı silahlardan atəşə tutub**

[16:23] 31.10.2020

Cenevrədə ATƏT-in Minsk qrupunun həmsədrlərinin vasitəçiliyi ilə keçirilmiş görüşdən sonra Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycanın Tərtər, Ağdam, Goranboy, Ağcabədi rayonları ağır artilleriya və digər atıcı silahlardan atəşə tutulub.

Bu gün səhər saat 06.00 radələrindən saat 12 radələrinə qədər bu rayonlar üzrə 6 qəsəbə və 26 kənd olmaqla 32 yaşayış məntəqəsinə Ermənistan silahlı qüvvələri tərəfindən 300-dən artıq mərmi atılıb.

Cenevrə görüşlərinin keçildiyi gün Tərtər, Ağdam, Goranboy, Ağcabədi və Daşkəsən rayonlarına 200-dən artıq mərmi atılıb.

AZƏRTAC xəbər verir ki, bu fikirləri Prezidentin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev KİV-ə açıqlamasında bildirib.

Hikmət Hacıyev deyib: "Təəssüflə qeyd etməliyik ki, Tərtər şəhəri II Dünya müharibəsindən sonra Avropanın ən çox bombalar və raketlərin atıldığı şəhərlərindən biridir. Sentyabrın 27-dən bu günə qədər Tərtər rayonuna 15 mindən artıq mərmi və raket atılıb.

Muzdlular barədə propaqandası uğursuzluqla üzləşən Ermənistan ağ fosfor mövzusunda yeni dezinformasiyalar uydurmaqdadır. Ermənistan ağ fosforlu mərmilərdən istifadə edərək onun məsuliyyətini Azərbaycanın üzərinə atmağa çalışır.

Oktyabrın 8-də Ermənistan silahlı qüvvələri tərəfindən Füzuli rayonunun Arayatlı kəndinə atılmış mərminin fosfor olduğu müəyyən edilib və ANAMA tərəfindən zərərsizləşdirilib. ANAMA tərəfindən bu fakt sənədləşdirilib.

2016-cı ilin Aprel döyüşlərində də Ermənistan tərəfindən Tərtər rayonunun Əskipara kəndinə ağ fosfor mərmisi atılmışdı. Hərbi attaşelər və ATƏT-in nümayəndəsinin iştirakı ilə əkin sahəsinə düşmüş həmin mərmi yerində zərərsizləşdirilib.

Hazırda meşə yanğını formasında ekoloji terror törətmək və Azərbaycan Silahlı Qüvvələrinə qarşı istifadə etmək üçün Ermənistan silahlı qüvvələri tərəfindən Xocavənd istiqamətinə böyük həcmdə fosforun gətirildiyi barədə məlumatlar var".

**AZƏRTAC**

**Anar Eyvazov: Ordumuzun döyüş ruhu yüksək səviyyədədir**

[20:06] 31.10.2020

Ötən müddət ərzində Ermənistan silahlı qüvvələri cəbhənin müxtəlif istiqamətlərində Azərbaycan Ordusunun bölmələrinin yerləşdiyi mövqeləri və Tərtər, Ağdam, Ağcabədi daxil olmaqla bir sıra yaşayış məntəqələrimizi müxtəlif silahlardan, o cümlədən artilleriya qurğularından və raketlərlə atəşə tutub.

AZƏRTAC xəbər verir ki, bu barədə Müdafiə Nazirliyinin mətbuat xidmətinin mətbuat katibi polkovnik-leytenant Anar Eyvazov oktyabrın 31-də Hərbi İnformasiya Mərkəzində keçirilən brifinqdə deyib.

Müdafiə Nazirliyinin mətbuat katibi bildirib ki, döyüş əməliyyatları əsasən Ağdərə, Xocavənd və Qubadlı istiqamətlərində davam edib. Düşmən yenə də dezinformasiya yayaraq Azərbaycan Ordusunun guya Ermənistanın Qafan şəhəri yaxınlığındakı David Bek kəndi istiqamətində döyüş əməliyyatları apardığını iddia edib. Reallıqda isə bu istiqamətdən Qubadlını artilleriya atəşinə tutan legitim hərbi hədəfə ordumuz adekvat cavab tədbirləri olaraq atəş açıb.

“Düşmən bilməlidir ki, bundan sonra da ona qarşı adekvat cavab tədbirləri görüləcək. Qoşunlarımızın müdafiə xəttinə yaxınlaşmağa cəhd göstərən Ermənistanın xüsusi təyinatlılardan ibarət kəşfiyyat-diversiya qrupunun fəaliyyətinin qarşısı qətiyyətlə alınıb. Onları daşıyan avtomobil texnikası da şəxsi heyətlə birlikdə dəqiq atəş zərbəsi ilə məhv edilib. Bundan başqa, cəbhənin digər istiqamətlərində düşmənin xeyli sayda canlı qüvvəsi, 2 “Smerç” və üç “Qrad” olmaqla 5 yaylım atəşli reaktiv sistemi, 5 tankı, 3 piyada döyüş maşını, 15 müxtəlif tipli artilleriya topu, 1 “Osa” zenit raket kompleksi, 1 radioelektron mübarizə stansiyası, biri sursatla dolu 3 avtomobil texnikası ordumuzun cavab tədbirləri nəticəsində məhv edilib”, - deyə Anar Eyvazov bildirib.

Anar Eyvazov qeyd edib ki, Azərbaycan Ordusunun Xocalını, Şuşanı və Xankəndini raket atəşinə tutması, bunun guya mülki əhaliyə qarşı yönəlməsi barədə Ermənistan mətbuatının tirajladığı məlumatlar da saxtadır, növbəti dezinformasiyadır. Ordumuz düşməndən fərqli olaraq, mülki əhaliyə deyil, yalnız hərbi hədəflərə atəş açır. Azərbaycan Ordusunun silahlanmasında beynəlxalq hüquqla qadağan olunmuş heç bir silah-sursat yoxdur. Bununla bağlı yayılan dezinformasiyalar düşmənin törətdiyi müharibə cinayətlərindən diqqəti yayındırmaq məqsədi daşıyır.

“Hazırda qoşunlarımız bütün istiqamətlərdə əməliyyat şəraitinə tam nəzarət edir. Ordumuzun döyüş ruhu yüksək səviyyədədir. Ali Baş Komandanımızın bütün döyüş tapşırıqları icra edilir. Qələbə bizimlədir”, - deyə mətbuat katibi vurğulayıb.

**AZƏRTAC**

**ANAMA cəbhəyanı ərazilərdə əməliyyat-axtarış işlərini davam etdirir**

[06:29] 01.11.2020

Oktyabrın 31-də Ərazilərin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyə (ANAMA) Ağcabədi, Ağcabədi, Ağdam, Bərdə, Füzuli, Tərtər və Yevlax rayonları ərazisində mərmilərin aşkar olunması barədə Daxili İşlər Nazirliyinin ″102″ Xidməti-Zəng mərkəzi sistemindən – 25 (iyirmi beş) və Fövqəladə Hallar Nazirliyinin Böhran Vəziyyətlərində İdarəetmə Mərkəzindən – 1 (bir) müraciət daxil olub.

ANAMA-dan AZƏRTAC-a bildirilib ki, daxil olmuş 26 çağırış əsasında Agentliyin xüsusi mobil çevik əməliyyat qrupları tərəfindən Ağcabədi rayonunun Arazbar, Hacılar, Kəbirli, Mahrızlı kəndləri, Ağdam rayonunun Xındırıstan, Əhmədağalı, Üçoğlan kəndləri və Qarqar çayının sahili, Bərdə şəhəri Vaqif küçəsi, Füzuli rayonunun Şükürbəyli, Babı, Alxanlı kəndləri və Horadiz şəhəri, Tərtər rayonunun Qaynaq, Yuxarı Qapanlı kəndləri, Şıxarx qəsəbəsi, Bağırov küçəsi, Yevlax rayonunun Kolanı kəndi ərazisinə Daxili İşlər Nazirliyinin əməkdaşları ilə birlikdə 24 operativ və təxirəsalınmaz əməliyyat çıxışı həyata keçirilib. Aparılmış əməliyyat-axtarış tədbirləri zamanı 1 ədəd 100 mm-lik top mərmisi (OF-412), 1 ədəd 120 mm-lik minaatan mərmisi (OF-843), 1 ədəd tank əleyhinə idarə olunmayan RPQ-18 silahı (PQ-18 raketi ilə), 1 ədəd tank əleyhinə idarə olunmayan RPQ-26 silahı (PQ-26 raketi ilə), 1 ədəd tank əleyhinə idarə olunan 9K111 silahı (9M111 raketi ilə), 1 ədəd hərbi məqsədlər üçün istifadə olunan meteoroloji radiopelenqator və 25 ədəd partlamış mərmi qalıqları aşkar olunub.

Mütəxəssislər tərəfindən 42 777 nəfər mülkü şəxs arasında mina təhlükəsizliyinə dair maarifləndirmə təbliğatı aparılıb.

**AZƏRTAC**

**Cəbhədə noyabrın 1-nə olan son vəziyyət**

[08:08] 01.11.2020

Oktyabrın 31-i gün ərzində və noyabrın 1-nə keçən gecə Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində Azərbaycan Ordusu bölmələrinin yerləşdiyi mövqeləri və yaşayış məntəqələrimizi müxtəlif silahlardan, o cümlədən artilleriya və raketlərdən atəşə tutub.

Müdafiə Nazirliyinin Mətbuat xidmətidən AZƏRTAC-a bildirilib ki, döyüş əməliyyatları əsasən cəbhənin Ağdərə, Ağdam, Xocavənd və Qubadlı istiqamətlərində davam edib.

Ermənistan silahlı qüvvələrinə qarşı görülən cavab tədbirləri nəticəsində düşmənin şəxsi heyəti arasında xeyli sayda itki var.

Sutka ərzində cəbhənin müxtəlif istiqamətlərində düşmənin xeyli sayda canlı qüvvəsi, 1 ədəd PDM, 2 ədəd BM-21 "Qrad" yaylım atəşli reaktiv sistemi, 8 ədəd müxtəlif tipli topu, 2 rabitə qülləsi, 5 ədəd avtomobil texnikası məhv edilib və sıradan çıxarılıb.

Hazırda qoşunlarımız əməliyyat şəraitinə nəzarət edir.

**AZƏRTAC**

**Ermənistan silahlı qüvvələrinin atəşləri nəticəsində meşələrdə və mülki obyektlərdə yanğınlar baş verib**

[18:18] 01.11.2020

Ermənistan silahlı qüvvələri Azərbaycan əhalisinin sıx yaşadığı yaşayış məntəqələrini, mülki obyektləri, o cümlədən fərdi və çoxmənzilli yaşayış binalarını, təsərrüfatları ağır artilleriya qurğularından və raketlərdən atəşə tutaraq mülki obyektlərdə, habelə meşə massivlərində yanğınlar törətməkdə davam edir.

Fövqəladə Hallar Nazirliyindən AZƏRTAC-a verilən məlumata görə, dünən təcavüzkar Ermənistan növbəti ekoloji terror törədib. Belə ki, Ermənistanla sərhəddə, döyüş zonasından kənarda yerləşən Tovuz rayonunun ərazisinin Ermənistan silahlı qüvvələrinin ağır artilleriya qurğularından atəşlərə məruz qalması nəticəsində meşəlik ərazidə yanğın baş verib. Yanğın Fövqəladə Hallar Nazirliyi Dövlət Yanğından Mühafizə Xidmətinin (FHN DYMX) müvafiq qüvvələri və Ekologiya və Təbii Sərvətlər Nazirliyi Tovuz Regional Meşə Təsərrüfatı Mərkəzinin əməkdaşları tərəfindən söndürülüb. Yanğının sıx meşəliyə keçməsinin qarşısı alınıb.

Ermənistan silahlı qüvvələrinin atdığı mərmi nəticəsində Ağdam rayonunda vətəndaşa məxsus təsərrüfat obyektində də yanğın baş verib. Yanğın FHN DYMX-nin müvafiq qüvvələri tərəfindən söndürülərək alovun yaxınlıqdakı tikililərə keçməsinin qarşısı alınıb.

Xəbər verildiyi kimi, 30 oktyabrda döyüş zonasından kənarda yerləşən Göygöl rayonunun ərazisinin Ermənistan silahlı qüvvələrinin ağır artilleriya qurğularından atəşlərə məruz qalması nəticəsində meşəlik ərazidə yanğın baş vermişdi. Mürəkkəb dağlıq relyefə malik ərazidə baş vermiş yanğın Fövqəladə Hallar Nazirliyi Dövlət Yanğından Mühafizə Xidmətinin müvafiq qüvvələri və Ekologiya və Təbii Sərvətlər Nazirliyi Göygöl Regional Meşə Təsərrüfatı Mərkəzinin əməkdaşları tərəfindən söndürülüb.

Qeyd edək ki, Fövqəladə Hallar Nazirliyi hazırda gücləndirilmiş iş rejimində fəaliyyət göstərir. Baş verən hər hansı fövqəladə hadisə ilə əlaqədar Nazirliyin “112” “Qaynar xətti”nə dərhal məlumat verilməsi xahiş olunur.

**AZƏRTAC**

**Cəbhədə noyabrın 2-nə olan son vəziyyət**

[07:57] 02.11.2020

Noyabrın 1-i gün ərzində və 2-ə keçən gecə Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində Azərbaycan Ordusu bölmələrinin yerləşdiyi mövqeləri və yaşayış məntəqələrimizi müxtəlif silahlardan, o cümlədən artilleriya və raketlərdən atəşə tutub.

AZƏRTAC-a Müdafiə Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, döyüş əməliyyatları əsasən cəbhənin Ağdam, Xocavənd və Qubadlı istiqamətlərində davam edib.

Müdafiə olunan düşmən bölmələri cəbhənin bəzi istiqamətlərində şəxsi heyət və hərbi texnikada itkilər verərək geri çəkilməyə məcbur edilib. Düşmənin silah, sursat, ərzaq ehtiyatları tükənmək üzrədir. Avtomobil və digər hərbi texnika üçün ehtiyat hissələri çatışmır.

Sutka ərzində cəbhənin müxtəlif istiqamətlərində düşmənin xeyli sayda canlı qüvvəsi, 4 ədəd BM-21 “Qrad” yaylım atəşli reaktiv sistemi, 10 ədəd müxtəlif tipli topu, 3 ədəd sursatla dolu yük maşını və 5 ədəd digər avtomobil texnikası məhv edilib və sıradan çıxarılıb.

Hazırda qoşunlarımız əməliyyat şəraitinə nəzarət edir.

**AZƏRTAC**

**Düşmən Ağdam və Ağcabədi rayonlarının ərazisini atəşə tutur**

[08:05] 02.11.2020

Noyabrın 2-də saat 06.00-dan başlayaraq Ermənistan silahlı qüvvələrinin bölmələri Ağdam və Ağcabədi rayonlarının kəndlərini artilleriya atəşinə tutur.

AZƏRTAC-a bu barədə Müdafiə Nazirliyinin mətbuat xidmətindən məlumat verilib.

**AZƏRTAC**

**Anar Eyvazov: Ordumuz havada və quruda əməliyyat şəraitinə tam nəzarət edir**

[18:52] 02.11.2020

Ötən sutka ərzində döyüş əməliyyatları cəbhənin əsasən Ağdam, Xocavənd, Qubadlı və Zəngilan istiqamətlərində davam edib. Düşmən bölmələri Ermənistanın Noyemberyan, Berd və Vardenis rayonlarından Qazax, Tovuz və Daşkəsəndə, o cümlədən cəbhənin müxtəlif istiqamətlərində yerləşən mövqelərimizi, həmçinin Goranboy, Tərtər, Ağdam və Ağcabədi rayonlarının kəndləri daxil olmaqla, bir sıra yaşayış məntəqələrimizi atıcı silahlardan, raket və artilleriya vasitələrindən atəşə tutub.

AZƏRTAC xəbər verir ki, bu barədə Müdafiə Nazirliyinin mətbuat xidmətinin mətbuat katibi polkovnik-leytenant Anar Eyvazov noyabrın 2-də Hərbi İnformasiya Mərkəzində keçirilən brifinqdə deyib.

Mətbuat katibi bildirib ki, Zəngilan istiqamətində əlverişli yüksəklikləri ələ keçirmək məqsədilə hücum edən Ermənistanın hərbi qruplaşmaları bölmələrimiz tərəfindən vaxtında aşkarlanıb. Keçirilmiş uğurlu əməliyyatla düşmən itki verərək geri çəkilməyə məcbur edilib. Cəbhənin digər istiqamətlərində də ordumuzun fəaliyyəti nəticəsində düşmən şəxsi heyət və hərbi texnika baxımından itki verib. Səngərlərdə və yeraltı sığınacaqlarda gizlənən düşmənin canlı qüvvəsi Hərbi Hava Qüvvələrimizin zərbələri ilə məhv edilib. Hərbi sığınacaqlar darmadağın olunub.

Anar Eyvazov qeyd edib ki, Cəbrayıl, Zəngilan və Qubadlı rayonlarının ümumilikdə 8 kəndi işğaldan azad edilib. Cəbhənin müxtəlif istiqamətlərində düşmənin xeyli sayda canlı qüvvəsi ilə yanaşı, 8 ədəd "Qrad" yaylım atəşli reaktiv sistemi, 10 ədəd müxtəlif tipli topu, 3 ədəd sursatla dolu yük maşını, 5 ədəd digər avtomobil texnikası və mövqelərimizə hücum edən "Su-25" tipli döyüş təyyarəsi məhv edilib. Hazırda ordumuza qarşı döyüşən hərbi qruplaşmalarda silah-sursat, ərzaq və hərbi texnika üçün ehtiyat hissələri çatışmazlığı müşahidə olunur.

"Ordumuzun sayıqlığı nəticəsində düşmən bölmələrinin istənilən fəaliyyətinin qarşısı dərhal alınır. Ordumuz havada və quruda əməliyyat şəraitinə tam nəzarət edir. Bu gün Azərbaycan əsgəri Ali Baş Komandanımızın rəhbərliyi ilə döyüş meydanında düşməni ağır məğlubiyyətə uğradaraq Ermənistan rəhbərliyinin uzun müddətdir yaratdığı mifi yox edir. Qələbə bizimlədir", - deyə Anar Eyvazov vurğulayıb.

**AZƏRTAC**

**Düşmən ağır itkilərə məruz qalıb**

[15:52] 03.11.2020

Noyabrın 3-də Ermənistan silahlı qüvvələri cəbhənin Ağdərə, Ağdam və Xocavənd istiqamətində hücuma keçməyə cəhd göstərib.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, bölmələrimiz tərəfindən görülən qəti tədbirlər nəticəsində düşmən hücumunun qarşısı alınıb və o, ağır itkilərə məruz qalaraq geri çəkilməyə məcbur edilib.

Hazırda qoşunlarımız əməliyyat şəraitinə nəzarət edir.

**AZƏRTAC**

**Düşmən Ağdam və Ağcabədi rayonlarının ərazisini atəşə tutur**

[15:51] 03.11.2020

Ermənistan silahlı qüvvələrinin bölmələri yenidən Ağdam və Ağcabədi rayonlarının kəndlərindəki mülki infrastrukturu artilleriya atəşinə tutur.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Azərbaycan Ordusunun bölmələri tərəfindən adekvat cavab tədbirləri görülür.

**AZƏRTAC**

**ANAMA: Ermənistan silahlı qüvvələrinin ərazilərimizə atdıqları fosforlu top mərmiləri, raket zərərsizləşdirilib**

[02:01] 04.11.2020

Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyə (ANAMA) Ağcabədi, Ağdam, Bərdə, Beyləqan, Füzuli və Tərtər ərazisində mərmilərin aşkar olunması barədə Daxili İşlər Nazirliyinin ″102″ Xidməti-Zəng mərkəzi sistemindən 24 və Fövqəladə Hallar Nazirliyinin Böhran Vəziyyətlərində İdarəetmə mərkəzindən 1 müraciət daxil olub

ANAMA-dan AZƏRTAC-a verilən məlumata görə, daxil olmuş 25 çağırış əsasında agentliyin xüsusi mobil çevik əməliyyat qrupları tərəfindən Ağcabədi rayonunun Minəxorlu kəndi, Ağdam rayonunun Əfətli kəndi, Bərdə rayonu, Füzuli rayonunun Alxanlı kəndi, Tərtər Köçərli, Qaynaq, Qazyan, Səhləbad, Yenikənd kəndləri, Ə.İsmayılov, H.Aslanov, T.Rəhimov küçələrinə Daxili İşlər Nazirliyinin əməkdaşları ilə birlikdə 23 operativ və təxirəsalınmaz əməliyyat çıxışı həyata keçirilib. Aparılmış əməliyyat-axtarış tədbirləri zamanı 2 ədəd 122 mm-lik D-4 ağ fosfor (P-4) tərkibli top mərmisi, 1 ədəd 300 mm-lik raket (9M528), 1 ədəd hərbi məqsədlər üçün istifadə olunan meteoroloji radiopelenqator və 25 ədəd partlamış mərmi qalıqları aşkar olunub.

Agentliyin partlayış qrupu tərəfindən 2 ədəd 122 mm-lik D-4 ağ fosfor (P-4) tərkibli top mərmisi, 1 ədəd 300 mm-lik raket (9M528) zərərsizləşdirilib, mina təhlükəsinə dair maarifləndirmə üzrə mütəxəssislər tərəfindən 42 777 nəfər mülki şəxs arasında mina təhlükəsizliyinə dair maarifləndirmə təbliğatı aparılıb.

**AZƏRTAC**

**Cəbhədə noyabrın 4-nə olan son vəziyyət**

[07:45] 04.11.2020

Noyabrın 3-ü gün ərzində və 4-nə keçən gecə Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində Azərbaycan Ordusu bölmələrinin yerləşdiyi mövqeləri və yaşayış məntəqələrimizi müxtəlif atıcı silahlar, top və minaatanlardan atəşə tutub.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, döyüş əməliyyatları müxtəlif intensivliklə əsasən cəbhənin Tərtər, Ağdam, Xocavənd, Zəngilan və Qubadlı istiqamətlərində davam edib. Düşmən cəbhənin bəzi sahələrində şəxsi heyət və hərbi texnikada itkilər verərək geri çəkilməyə məcbur edilib.

Sutka ərzində düşmənin xeyli sayda canlı qüvvəsi, 2 ədəd T-72 tankı, 3 ədəd D-30 topu, “Zastava M-55” zenit qurğusu, 1 ədəd taktiki PUA-sı, 3 ədəd hərbi yük maşını məhv edilib və sıradan çıxarılıb.

Hazırda qoşunlarımız əməliyyat şəraitinə nəzarət edir.

**AZƏRTAC**

**Düşmən Ağdamın kəndlərini intensiv atəşə tutur**

[10:31] 04.11.2020

Noyabrın 4-ü saat 10:00-dan başlayaraq Ermənistan silahlı qüvvələrinin bölmələri Ağdam rayonunun kəndlərini intensiv artilleriya atəşinə tutur.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Azərbaycan Ordusunun bölmələri tərəfindən düşmənin atəş nöqtələrinə qarşı cavab tədbirləri görülür.

**AZƏRTAC**

**Azərbaycan Prezidenti: Ermənistanın kompromisi işğal edilmiş bütün ərazilərin boşaldılması olmalıdır**

[11:25] 04.11.2020

Mən düşünürəm ki, müharibə nə qədər tez qurtarsa, bir o qədər də yaxşı olar. Biz belə bir təklif irəli sürdük və bizim təklifimiz çox konstruktiv idi. Bu bir aydan çox müddətdə mən dəfələrlə demişəm və bir daha təkrar edə bilərəm ki, Ermənistanın baş naziri yerdə qalan ərazilərin boşaldılacağına dair üzərinə öhdəlik götürsə, biz bu gün dayanmağa hazırıq. Hələ ki, o, üzərinə belə bir öhdəlik götürməyib.

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev bu barədə İtaliyanın "La Repubblica" qəzetinə müsahibəsində bildirib.

Paşinyana kompromislər haqqında sual verildikdə onun həmişə müqəddəratı təyinetmədən danışdığına diqqət çəkən dövlətimizin başçısı deyib: "Lakin öz müqəddəratını təyinetmə onların getməli olduğu kompromis deyil. Onların kompromisi BMT Təhlükəsizlik Şurasının qətnamələrinin və əsas prinsiplərin icrasına müvafiq olaraq işğal olunmuş bütün ərazilərin boşaldılması olmalıdır. Əsas prinsiplərdə deyilir ki, əvvəlcə beş rayon, sonra da iki rayon boşaldılmalıdır. Biz artıq dörd rayonu birtərəfli qaydada azad etmişik. Buna görə də o, deməlidir ki, qoşunlarını Ağdam, Kəlbəcər və Laçın rayonlarının işğal altında qalmış ərazilərindən geri çəkəcəkdir. Lakin o, bəyanat vermir. Bu, onu göstərir ki, o, müharibənin dayanmasını istəmir".

**AZƏRTAC**

**Hikmət Hacıyev: Ermənistan XİN-in açıqlamasında mülki vətəndaşlarımıza qarşı yeni müharibə cinayətləri üçün zəmin hazırlandığı açıq görünür**

[11:20] 04.11.2020

Ermənistan silahlı qüvvələri Azərbaycanın işğal olunmuş Ağdam rayonunun kəndlərini ağır artilleriyadan atəşə tutur.

AZƏRTAC xəbər verir ki, bunu Prezidentin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev özünün "Twitter" hesabında bildirib.

Hikmət Hacıyev qeyd edib ki, Ermənistanın Xarici İşlər Nazirliyinin açıqlamasında onların Azərbaycanın mülki vətəndaşlarına qarşı yeni müharibə cinayətləri törətmək üçün zəmin hazırladıqları aydın görünür.

**AZƏRTAC**

**Anar Eyvazov: Hazırda qoşunlarımız döyüşləri tam üstünlüklə davam etdirir**

[19:05] 04.11.2020

Ötən sutka ərzində düşmənin bölmələri Ermənistanın Berd rayonu istiqamətindən Tovuz və Ağstafa rayonlarında yerləşən mövqelərimizi və cəbhənin müxtəlif istiqamətlərində ordumuzun digər mövqelərini, o cümlədən Ağdam, Ağcabədi, Tərtərdəki yaşayış məntəqələrimizi atıcı silahlardan, top və minaatanlardan atəşə tutub. Döyüş əməliyyatları əsasən cəbhənin Ağdərə, Tərtər, Ağdam, Xocavənd, Zəngilan və Qubadlı istiqamətlərində davam edib.

AZƏRTAC xəbər verir ki, bu barədə Müdafiə Nazirliyinin mətbuat xidmətinin mətbuat katibi polkovnik-leytenant Anar Eyvazov noyabrın 4-də Hərbi İnformasiya Mərkəzində keçirdiyi brifinqdə bildirib.

Mətbuat katibi deyib ki, Ağdərə, Ağdam və Xocavənd istiqamətlərində hücuma keçməyə cəhd edən düşmən bölmələrimizin qəti cavab tədbirləri nəticəsində şəxsi heyət və hərbi texnika baxımından itkilər verərək geri çəkilməyə məcbur edilib. Aparılan əməliyyatlar nəticəsində düşmənin 10-cu dağatıcı və 37-ci atıcı diviziyaları, 2-ci motoatıcı, 5-ci dağatıcı və 543-cü alayları ordumuzun ağır zərbələrindən sonra ciddi itkilərə məruz qalıb.

Sutka ərzində düşmənin alay komandiri, tabor komandiri, snayper qrupu və tank heyəti daxil olmaqla, xeyli sayda canlı qüvvəsi, 2 tankı, 3 topu, 1 pilotsuz uçuş aparatı, 3 hərbi yük maşını, “Zastava M-55” tipli zenit qurğusu və şəxsi heyətlə dolu UAZ markalı avtomobili məhv edilib. Hazırda qoşunlarımız əməliyyat sahəsində döyüşləri tam üstünlüklə davam etdirir.

Mətbuat katibi bildirib ki, Ermənistanın hərbi-siyasi rəhbərliyi indi bir tərəfdən çoxsaylı feyk məlumatlar yaymaq və fantastik ssenarilər qurmaqla hansısa “qələbələr”dən danışır. Digər tərəfdən, hədəflərimiz barədə saxta fikirlər aşılayaraq erməni cəmiyyətini Azərbaycan Ordusuna qarşı döyüşə cəlb etməyə çalışır. Bu cür hekayələrlə döyüşə cəlb edilən döyüşçülər müdafiə mövqelərində, yeraltı sığınacaqlarda, topların atəş nöqtələrində və tankların içində ordumuz tərəfindən məhv edilir, geriyə çəkilib itkin və əsir düşür. Ordumuza qarşı asimmetrik döyüş taktikaları ilə mübarizə aparan düşmən qruplaşmaları bölmələrimiz tərəfindən cəbhənin dərinliklərində belə aşkarlanır və onlar darmadağın edilir. Dağlarda, meşələrdə və səngərlərdə mərdliklə vuruşan Azərbaycan əsgəri bağçalarda, məktəblərdə və digər mülki obyektlərdə gizlənən namərd düşmənə qarşı mübarizə aparır.

“Azərbaycan Ordusu Müzəffər Ali Baş Komandanımızın tapşırığı ilə irəliləyərək işğal altında qalan torpaqları düşməndən təmizləyir. Bu fəaliyyətlə beynəlxalq humanitar hüququn norma və prinsiplərinə ciddi riayət edərək yalnız legitim hərbi hədəflərə atəş açır. Qələbə bizimlədir", - deyə Anar Eyvazov vurğulayıb.

**AZƏRTAC**

**Prezident İlham Əliyev: Ermənistanın baş naziri vaxt qazanmaq, daha çox hərbi yardım əldə etmək üçün atəşkəs istəyir**

[14:15] 05.11.2020

Ermənistanın baş naziri Kəlbəcər, Laçın və Ağdamın qalan hissəsini boşaldacaqlarını açıq şəkildə deməlidir. Əgər belə olmasa, hərb yolundan başqa variant qalmır.

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev bu fikri İspaniyanın EFE agentliyinə müsahibəsində səsləndirib.

"Biz hərbi əməliyyatları davam etdirmək istəmirik və mən dəfələrlə demişəm və bu gün də təkrar edə bilərəm, əgər Ermənistanın baş naziri şəxsən özü, bu qan tökülməsinə görə məsuliyyət daşıyan şəxs belə bir bəyanat versə, biz dərhal dayanmağa hazırıq, dərhal. Mən sözünə əməl edən insanam və biz bunu edərik. Lakin o, bunu demir. O, vaxt qazanmaq istəyir, daha çox hərbi yardım əldə etmək üçün atəşkəs istəyir, Azərbaycana qarşı yeni hücumlar etmək və bizim azad etdiyimiz əraziləri geri almaq üçün bu atəşkəsdən istifadə etmək istəyir. Onun niyyəti bundan ibarətdir", - deyə dövlətimizin başçısı qeyd edib.

**AZƏRTAC**

**Düşmən Tərtər və Ağdam rayonlarının kəndlərini atəşə tutur**

[15:25] 05.11.2020

Noyabrın 5-i saat 14:40-dan başlayaraq Ermənistan silahlı qüvvələrinin bölmələri Tərtər şəhəri, rayonun Səhləabad kəndini, eləcə də Ağdam rayonunun Hacıturallı və Əfətli kəndlərini artilleriya atəşinə tutur.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Azərbaycan Ordusunun bölmələri tərəfindən düşmənin atəş nöqtələrinə qarşı cavab tədbirləri görülür.

**AZƏRTAC**

**Anar Eyvazov: Azərbaycan Ordusu yaşayış məntəqələrini atəşə tutmur, yalnız legitim hərbi hədəfləri məhv edir**

[19:12] 05.11.2020

Ötən sutka ərzində Ermənistan silahlı qüvvələrinin bölmələri Ermənistan-Azərbaycan dövlət sərhədində və cəbhənin müxtəlif istiqamətlərində yerləşən mövqelərimizi, həmçinin Goranboy, Tərtər, Ağdam və Ağcabədi daxil olmaqla, bir sıra yaşayış məntəqələrimizi atıcı silahlardan, top və minaatanlardan atəşə tutub. Düşmənin atəş nöqtələrinə qarşı cavab tədbirləri görülüb.

AZƏRTAC xəbər verir ki, bu barədə Müdafiə Nazirliyinin mətbuat xidmətinin mətbuat katibi polkovnik-leytenant Anar Eyvazov noyabrın 5-də Hərbi İnformasiya Mərkəzində keçirilən brifinqdə deyib.

Mətbuat katibi qeyd edib ki, əsasən Ağdərə və Xocavənd istiqamətlərində davam edən döyüşlərdə düşmənin hücumlarının, Ermənistan-Azərbaycan dövlət sərhədinin Zəngilan rayonu hissəsində isə diversiya cəhdlərinin qarşısı qətiyyətlə alınıb. Tərtər istiqamətində endirilən artilleriya zərbələri nəticəsində Ermənistan silahlı qüvvələrinin 10-cu dağatıcı diviziyasının Tonaşen kəndində yerləşən 7-ci dağatıcı alayının qərargahı, əsgər kazarmaları, sursatla dolu avtomobil texnikaları və digər hərbi infrastrukturu darmadağın edilib.

Anar Eyvazov deyib ki, Ali Baş Komandanın rəhbərliyi ilə aparılan əks-hücum əməliyyatı nəticəsində məğlubiyyətə məhkum edilmiş Ermənistan çıxış yolunu yenə də yanlış olaraq dezinformasiya və feyk məlumatlar yaymaqda görür. Ermənistandan fərqli olaraq, biz Azərbaycan xalqına və dünya ictimaiyyətinə Ordumuzun uğurları barədə döyüş meydanında müasir avadanlıqlarla çəkilmiş foto və videogörüntülər əsasında məlumat çatdırırıq. Bu video təsvirlərdə aydın şəkildə görünür ki, Azərbaycan Ordusu yaşayış məntəqələri və mülki infrastrukturu atəşə tutmur, dəqiq zərbələrlə yalnız legitim hərbi hədəfləri məhv edir.

“Hazırda qoşunlarımız əməliyyat şəraitinə tam nəzarət edir. Qələbə bizimlədir”, - deyə Anar Eyvazov vurğulayıb.

**AZƏRTAC**

**Azərbaycan Müdafiə Nazirliyi: Düşmənin 41-ci artilleriya alayının batareyası məhv edilib**

[20:42] 05.11.2020

Cəbhənin Ağdam istiqamətində gedən döyüşlərdə Azərbaycan Ordusunun bölmələri tərəfindən Ermənistan silahlı qüvvələrinin 41-ci artilleriya alayının batareyalarına atəşlə zərər vurulub. Nəticədə şəxsi heyət arasında ölən və yaralananlar var.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, atəş zərbəsi ilə düşmənin xeyli sayda sursatı partladılıb, artilleriya qurğuları tam sıradan çıxarılıb.

**AZƏRTAC**

**Cəbhədə noyabrın 6-na olan son vəziyyət**

[07:45] 06.11.2020

Noyabrın 5-i gün ərzində və 6-na keçən gecə Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində Azərbaycan Ordusu bölmələrinin mövqelərini və yaşayış məntəqələrimizi müxtəlif atıcı silahlar, top və minaatanlardan atəşə tutub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, döyüş əməliyyatları müxtəlif intensivliklə əsasən cəbhənin Ağdərə, Ağdam, Xocavənd və Qubadlı istiqamətlərində davam edib. Düşmən cəbhənin bəzi sahələrində şəxsi heyət və hərbi texnikada itkilər verərək geri çəkilməyə məcbur edilib.

Hazırda döyüş əməliyyatları davam edir. Əməliyyat şəraiti qoşunlarımızın nəzarəti altındadır.

**AZƏRTAC**

**BERNAMA agentliyi Azərbaycanın Tərtər və Ağdam rayonlarının Ermənistan tərəfindən artilleriya atəşinə tutulmasından yazıb**

[18:44] 06.11.2020

Malayziyanın BERNAMA Milli İnformasiya Agentliyi AZƏRTAC-a istinadla Azərbaycanın Tərtər və Ağdam rayonlarının noyabrın 5-də Ermənistan ordusu tərəfindən artilleriya atəşinə tutulması barədə məqalə yayıb.

Məqalədə Azərbaycan Respublikasının Müdafiə Nazirliyinə istinadla deyilir: "Noyabrın 5-də saat 14:40-dan başlayaraq Ermənistan silahlı qüvvələri Tərtər şəhərini, Tərtər rayonunun Səhləbad kəndini, həmçinin Ağdam rayonunun Hacıturallı və Əfətli kəndlərini atəşə tutub. Azərbaycan Ordusunun bölmələri tərəfindən düşmənin atəş nöqtələrinə qarşı cavab tədbirləri görülür".

Məlumatda, həmçinin Anadolu agentliyinə istinadla bildirilir ki, noyabrın 5-də Azərbaycan Ermənistan hərbçilərinin atdığı "Smerç" raketini zərərsizləşdirib. Nəticədə Tərtər şəhərinə düşən raket partlamayıb.

Agentlik Azərbaycan Respublikası Müdafiə Nazirliyinə istinadla cəbhənin Tərtər istiqamətində aparılan uğurlu əməliyyat barədə də məlumat verib. Həmin məlumatda isə qeyd edilib ki, düşmənə endirilən artilleriya zərbələri ilə Ermənistan silahlı qüvvələrinin 10-cu dağatıcı diviziyasının Tonaşen kəndində yerləşən 7-ci dağatıcı alayının qərargahı, əsgər kazarmaları, sursatla dolu avtomobil texnikaları və digər hərbi infrastrukturu dağıdılıb.

Azərbaycan Respublikasının Baş Prokurorluğuna istinadla Ermənistanın hücumu nəticəsində bu günədək 92 dinc sakinin, o cümlədən 11 uşağın və körpənin həyatını itirdiyi, 36-sı uşaq olmaqla 400-dən çox insanın yaralandığı bildirilib.

Bununla yanaşı, 2971 evin və 100 çoxmənzilli binanın dağıdıldığı, 502 mülki obyektə zərər dəydiyi qeyd edilib.

**Vüqar Ağayev,**
**AZƏRTAC-ın xüsusi müxbiri, Kuala Lumpur**

**AZƏRTAC**

**Anar Eyvazov: Azərbaycan əsgəri düşmənin 30 il müddətində qurduğu istehkamları yarır, pusquları dağıdır və hədəfə yaxınlaşır**

[19:03] 06.11.2020

Ötən sutka ərzində düşmən bölmələri cəbhənin müxtəlif istiqamətlərində Azərbaycan Ordusunun mövqelərini, Tərtər, Goranboy daxil olmaqla, bir sıra yaşayış məntəqələrimizi, o cümlədən Ermənistanın Berd, Çəmbərək və Vardenis rayonları istiqamətindən Tovuz, Gədəbəy və Daşkəsəndə yerləşən mövqelərimizi müxtəlif atıcı silahlar, top və minaatanlardan atəşə tutub.

AZƏRTAC xəbər verir ki, bu barədə Müdafiə Nazirliyinin mətbuat xidmətinin mətbuat katibi polkovnik-leytenant Anar Eyvazov noyabrın 6-da Hərbi İnformasiya Mərkəzində keçirilən brifinqdə bildirib.

Anar Eyvazov deyib ki, əsasən cəbhənin Ağdərə, Ağdam, Xocavənd və Qubadlı istiqamətlərində gedən döyüş əməliyyatlarında düşmən bölmələri şəxsi heyət və texnika sarıdan itkilər verərək geriyə çəkilməyə məcbur edilib. Ordumuz Ağdam və Ağdərə istiqamətlərində pusquya salmaqla və atəş zərbələri ilə düşmənin hərbi kolonunu, artilleriya batareyasını və silah-sursat anbarını darmadağın edib. Düşmənin komandir heyəti daxil olmaqla xeyli sayda canlı qüvvəsi, bir rabitə avtomobili, sursatla dolu iki “KamAz” maşını və qoşqusunda top olan üç “Ural” maşını, xeyli sayda digər sursat və artilleriya qurğuları məhv edilib.

Mətbuat katibi qeyd edib ki, düşmənin Tərtərin işğal olunmuş Göyarx kəndinin ərazisindəki minaatan heyəti ordumuzun dəqiq atəşi ilə məhv edilib. Cəbhənin Ağdərə istiqamətində gedən döyüşlərdə canlı qüvvə və döyüş texnikası sarıdan xeyli itki verən düşmən bu itkilərin yerini doldura bilmir, bölmələrdə ərzaq, hərbi əmlak, döyüş sursatı və yanacaq çatışmır. Bölmələrinin idarə olunmasında problemlər var.

Qubadlı-Laçın istiqamətində gedən döyüşlərdə ordumuzun zərbələrinə tab gətirə bilməyən düşmən mövqeləri ataraq qaçıb.

Anar Eyvazov deyib ki, Müzəffər Ali Baş Komandanın əmri ilə Azərbaycan əsgəri düşmənin işğal edilmiş ərazilərdə 30 il müddətində tikdiyi istehkam maneələrini yarır, qurduğu pusquları dağıdır və hədəfə yaxınlaşır. Əks-hücum əməliyyatında ordumuzun qarşısında duran əsas tapşırıq çətin relyef və iqlim şəraitində mütəşəkkil qaydada irəliləmək və işğal altında olan torpaqlarımızı cinayətkar ordu qruplaşmasından xilas etməkdir.

Mətbuat katibi qeyd edib ki, hazırda Azərbaycan Ordusunun qarşısında təkcə Ermənistan silahlı qüvvələrinin bölmələri deyil, həm də xaricdən cəlb edilmiş xeyli sayda muzdlu və əcnəbi terrorçu döyüşçülər var. Əldə edilən kəşfiyyat məlumatlarına görə, bu döyüşçülər erməni əsilli müxtəlif ölkə vətəndaşlarıdır. Ermənistanın hərbi-siyasi rəhbərliyi hiyləgərcəsinə onları qabağa, faktiki olaraq ölümə verməklə bu əcnəbilərin Azərbaycan tərəfindən döyüşlərə cəlb edildiyinə dair iftiralar atır, onların cəsədlərinə də sahib çıxmır. Əcnəbilərin belə ərazilərdə kifayət qədər döyüş təcrübəsi olmadığına və dil probleminə görə onların qarşılıqlı fəaliyyətinin təşkilində ciddi problemlər yaranır. Pərakəndə şəkildə fəaliyyət göstərən bu qruplaşmaların Azərbaycan Ordusu ilə döyüşə girməkdən imtina etmələrinə dair məlumatlar var. Əcnəbi döyüşçülər də Ermənistanın hərbi-siyasi rəhbərliyinin tələsinə düşdüklərini dərk etməli, dərhal silahı yerə qoymalıdır. Ali Baş Komandanımızın rəhbərliyi ilə uzun müddətdir bu günə hazırlaşan Azərbaycan əsgəri hazırda döyüşdə zəfər qazanır. Qələbə bizimlədir.

**AZƏRTAC**

**Müdafiə Nazirliyi: Düşmən cəbhənin bəzi sahələrində geri çəkilməyə məcbur edilib**

[08:00] 07.11.2020

Noyabrın 6-sı gün ərzində və 7-nə keçən gecə Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində Azərbaycan Ordusunun bölmələrinin mövqelərini və yaşayış məntəqələrimizi müxtəlif atıcı silahlar, top və minaatanlardan atəşə tutub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, döyüş əməliyyatları müxtəlif intensivlikdə əsasən cəbhənin Ağdərə, Ağdam və Xocavənd istiqamətlərində davam edib. Düşmən cəbhənin bəzi sahələrində şəxsi heyət və hərbi texnikada itkilər verərək geri çəkilməyə məcbur edilib.

Cəbhənin Ağdərə istiqamətində Ermənistan silahlı qüvvələrinin 5-ci dağatıcı alayının müdafiə sahəsində döyüş mövqelərinin artilleriya atəşinə tutulması nəticəsində şəxsi heyət arasında ölən və yaralananlar var. Düşmənin bir neçə avtomobil texnikası və minaatan qurğusu sıradan çıxarılıb.

Azərbaycan Ordusunun bölmələri tərəfindən həyata keçirilən əməliyyat nəticəsində düşmənin 6-cı dağatıcı alayın 1-ci taboru bölmələrinin şəxsi heyət arasında itkilər var. Düşmənin D-30 artilleriya divizionunun 3-cü batareyasının topları da sıradan çıxarılıb.

Hazırda cəbhənin bütün istiqamətlərində döyüş əməliyyatları davam edir.

**AZƏRTAC**

**Düşmən Ağdamın kəndlərini atəşə tutur**

[11:08] 07.11.2020

Ermənistan silahlı qüvvələrinin bölmələri tərəfindən Ağdam rayonunun Çullu və Çıraqlı kəndləri artilleriya atəşinə tutulur.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, ordumuzun bölmələri tərəfindən düşmənin atəş nöqtələrinin susdurulması üzrə tədbirlər görülür.

**AZƏRTAC**

**Düşmən yaşayış məntəqələrimizi artilleriya atəşinə tutur**

[14:00] 07.11.2020

Ermənistan silahlı qüvvələrinin bölmələri Tərtər, Ağdam və Ağcabədi rayonlarının kəndlərini artilleriya atəşinə tutur.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, ordumuzun bölmələri tərəfindən düşmənə qarşı cavab tədbirləri görülür.

**AZƏRTAC**

**Müdafiə Nazirliyi: Cəbhənin Ağdam istiqamətində düşmən itki verib**

[18:27] 07.11.2020

Cəbhənin Ağdam istiqamətində gedən döyüşlərdə Ermənistan silahlı qüvvələrinin bölmələrinə ciddi ziyan vurulub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, bu istiqamətdəki 37-ci atıcı diviziyanın 4-cü motoatıcı alayının müdafiə sahəsindəki minaatan batareyasına endirilən artilleriya zərbələri nəticəsində düşmən itki verərək mövqelərini tərk edib.

Alayın gücləndirilməsi məqsədilə buraya gətirilən və içərisində könüllülər olan avtobus qəzaya uğrayıb. Nəticədə 30 nəfərədək ehtiyatdan çağırılmış hərbi vəzifəlilərin xəsarət aldığı məlum olub.

62-ci artilleriya briqadasının 4-cü reaktiv divizionunun atəşə tutulması nəticəsində bir BM-21 “Qrad” yaylım atəşli reaktiv sistemi sıradan çıxarılıb, şəxsi heyət arasında ölən və yaralanan var.

**AZƏRTAC**

**Anar Eyvazov: Ordumuzun əməliyyatları nəticəsində xeyli itki verən düşmən geri çəkilməyə məcbur olub**

[19:10] 07.11.2020

Ötən sutka ərzində düşmən bölmələri cəbhənin müxtəlif istiqamətlərində və Ermənistan ərazisindən Qubadlıda yerləşən bölmələrimizin mövqelərini, o cümlədən Tərtər, Ağdam və Ağcabədi rayonları daxil olmaqla, bir sıra yaşayış məntəqələrimizi müxtəlif atıcı silahlardan, top və minaatanlardan atəşə tutub. Düşmənin atəş nöqtələrinin susdurulması üçün ordumuz tərəfindən yalnız sərhədlərimiz çərçivəsində adekvat tədbirlər görülür.

AZƏRTAC xəbər verir ki, bu barədə Müdafiə Nazirliyinin mətbuat xidmətinin mətbuat katibi polkovnik-leytenant Anar Eyvazov noyabrın 7-də Hərbi İnformasiya Mərkəzində keçirilən brifinqdə məlumat verib.

Anar Eyvazov bildirib ki, düşmənin Ağdərə istiqamətində müdafiə olunan 5-ci dağatıcı alayının xeyli sayda şəxsi heyəti, avtomobil texnikası və minaatanları ordumuzun atəş zərbələri ilə məhv edilib. Bu istiqamətdə atış mövqelərinə çıxarılan D-30 haubitsasının şəxsi heyəti bölmələrimizin dəqiq atəşi ilə zərərsizləşdirilib.

Ordumuzun həyata keçirdiyi digər əməliyyat nəticəsində düşmənin 6-cı dağatıcı alayının bir taborunun şəxsi heyəti arasında itkin düşənlər var, artilleriya divizionunda isə bir batareyanın topları sıradan çıxarılıb.

Döyüşlər başlayandan indiyədək canlı qüvvə baxımından ağır itkilərə məruz qalan, buna görə də bir müddət əvvəl yerli sakinlər və Ermənistandan cəlb edilən könüllülərlə gücləndirilmiş düşmənin 022-ci xüsusi təyinatlı hərbi hissəsinin şəxsi heyəti bölmələrimiz tərəfindən mühasirəyə alınaraq darmadağın olunub. Qalan xüsusi təyinatlılar tutduqları mövqeləri tərk edərək geri çəkilməyə məcbur ediliblər. Döyüşlərə cəlb olunan Ermənistan silahlı qüvvələrinin 178-ci əlahiddə kəşfiyyat taborunda şəxsi heyətin bir hissəsi bölmələrimiz tərəfindən məhv edilib.

Mətbuat katibi qeyd edib ki, əsasən cəbhənin Ağdərə, Ağdam və Xocavənd istiqamətlərində davam edən döyüşlərdə xeyli sayda şəxsi heyət və hərbi texnika itkisi verən düşmən bir qədər də geriyə çəkilməyə məcbur edilib.

Füzuli, Cəbrayıl, Qubadlı, Zəngilan, Xocalı və Xocavəndin ümumilikdə 16 kəndi ordumuz tərəfindən işğaldan azad olunub.

"Zəngilanda və işğaldan azad edilmiş digər ərazilərə baxış zamanı əldə olunan sənədlər və digər kəşfiyyat materialları təsdiqləyir ki, Azərbaycan Ordusu təkcə Ermənistan silahlı qüvvələri ilə deyil, həmçinin muzdlu əcnəbilərdən ibarət hərbi qruplaşmalarla da mübarizə aparır. Düşmən bilməlidir ki, nə əcnəbi döyüşçülər, nə də ki hansısa könüllü dəstələr Azərbaycan əsgərini dayandıra bilməz. Sağ qalmaq üçün onların bir yolu var: vaxt itirmədən silahı yerə qoyaraq döyüş meydanını tərk etmək.

Hazırda əməliyyat şəraiti ordumuzun nəzarətindədir. Cəbhənin bütün istiqamətlərində döyüşlər davam edir. Qələbə bizimlədir", - deyə mətbuat katibi vurğulayıb.

**AZƏRTAC**

**Azərbaycan Müdafiə Nazirliyi: Düşmənin növbəti hərbi kolonu məhv edilib**

[22:06] 07.11.2020

Azərbaycan Ordusunun bölmələri tərəfindən Ermənistan silahlı qüvvələrinin 37-ci atıcı diviziyasının 4-cü motoatıcı alayının növbəti hərbi kolonu məhv edilib.

Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyindən məlumat verilib.

Bildirilib ki, Ağdamdan Xankəndi istiqamətində hərəkət edən 3 “KamAZ”, 2 “Ural” və 2 PDM-dən ibarət hərbi kolonun atəşə tutulması nəticəsində düşmənin çoxlu sayda hərbi qulluqçusu məhv edilib. Bundan əlavə, düşmənin 30 nəfərədək hərbi qulluqçusu yaralanıb və kolonda olan hərbi texnika yanıb.

**AZƏRTAC**

**Cəbhədə noyabrın 8-nə olan son vəziyyət**

[08:27] 08.11.2020

Noyabrın 7-si gün ərzində və 8-nə keçən gecə Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində Azərbaycan Ordusu bölmələrinin mövqelərini və yaşayış məntəqələrimizi müxtəlif atıcı silahlar, top və minaatanlardan atəşə tutub.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, döyüş əməliyyatları müxtəlif intensivlikdə əsasən cəbhənin Ağdərə, Ağdam, Xocavənd və Qubadlı istiqamətlərində davam edib. Sutka ərzində cəbhənin əsas istiqamətlərində düşmənə ciddi zərbələr vurulub. Cəbhənin bəzi sahələrində düşmən şəxsi heyət və hərbi texnika sarıdan itkilər verərək geri çəkilməyə məcbur edilib.

Cəbhədə müqavimət göstərə bilməyən düşmən çıxış yolunu dinc əhalini və mülki infrastrukturu atəşə tutmaqda görür. Keçən gün ərzində Ermənistan silahlı qüvvələri bölmələrinin Tərtər, Bərdə, Ağdam, Ağcabədi və Qubadlı rayonlarının kəndlərini artilleriya atəşinə tutması nəticəsində dinc sakinlər arasında ölən və xəsarət alanlar var, mülki infrastruktura ziyan dəyib. Azərbaycan Ordusunun gördüyü cavab tədbirləri yalnız düşmənin legitim hərbi hədəflərinə qarşı olub.

Sutka ərzində düşmənin xeyli sayda canlı qüvvəsi, 4 ədəd T-72 tankı, 2 ədəd D-20 topu və döyüş sursatı ilə dolu bir neçə hərbi yük avtomobili məhv edilib və sıradan çıxarılıb.

Hazırda döyüş əməliyyatları davam edir. Əməliyyat şəraiti qoşunlarımızın nəzarəti altındadır.

**AZƏRTAC**

**Ermənilərin atdıqları partlamamış hərbi sursatlar, minalar zərərsizləşdirilib**

[07:37] 08.11.2020

Noyabrın 5-dən 7-dək Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyinə (ANAMA) Ağcabədi, Ağdam, Bərdə, Goranboy, Füzuli, Şəmkir, Tərtər rayonları, Gəncə, Naftalan və Yevlax şəhərləri ərazisində mərmilərin aşkar olunması barədə Daxili İşlər Nazirliyinin ″102″ Xidməti-Zəng mərkəzi sistemindən 94 və Fövqəladə Hallar Nazirliyinin Böhran Vəziyyətlərində İdarəetmə Mərkəzindən 2 müraciət daxil olub.

ANAMA-dan AZƏRTAC-a bildirilib ki, daxil olmuş 96 çağırış əsasında Agentliyin xüsusi mobil çevik əməliyyat qrupları tərəfindən Ağcabədi rayonunun Hacılar, Qaraxanlı, Şənlik, Avşar, Aşağı Avşar, Minəxorlu, Hüsülü kəndləri, Tofiq İsmayılov küçəsi, Ağdam rayonunun Orta Qışlaq, Əfətli, Kolqışlaq, Mirəşelli, Çəmənli, Baharlı, Böyüklü, Sarıcalı, Zəngişalı kəndləri, Baharlı-2 qəsəbəsi, Bərdə rayonunun Yeni Əyricə, Zümürxan, Otuzikilər, İmamqulubəyli, Ərəblər, Nazırlı, Quşçuluq, Əyricə kəndləri, Nüşabə küçəsi, Naftalan şəhərinin Qaşaltı Qaraqoyunlu kəndi, Füzuli rayonunun Şükürbəyli, Yuxarı Veysəlli kəndləri, 3-cü və 5-ci Zobcuq qəsəbələri, Şəmkir rayonunun Aşağı Seyfəlli kəndi, Tərtər rayonunun Azad Qaraqoyunlu, Düyərli, Ələsgərli, Qaynaq, Sarıcalı, Yuxarı Sarıcalı, Yenikənd, Köçərli, Keçəlli, Səhləbad, Güyərli, Əskipara kəndləri, Naxır qəsəbəsi, E.Səfərov, H.Aslanov, Vaqif küçələri, Gəncə şəhəri Kəpəz rayonu və Yevlax şəhərinin Aran qəsəbəsində Daxili İşlər Nazirliyinin əməkdaşları ilə birlikdə 77 operativ və təxirəsalınmaz əməliyyat çıxışı həyata keçirilib. Aparılmış əməliyyat-axtarış tədbirləri zamanı 8 ədəd partlamamış hərbi sursat (PHS), 3 ədəd 9N235 bombacığı, 3 ədəd hərbi məqsədlər üçün istifadə olunan meteoroloji radiopelenqator və 45 ədəd partlamış mərmi qalıqları aşkarlanıb.

Agentliyin partlayış qrupu tərəfindən 3 ədəd partlamamış hərbi sursat (PHS), 3 ədəd 9N235 bombacığı, mexaniki minatəmizləmə qrupu tərəfindən 25 ədəd piyada əleyhinə mina (24 ədəd PMN və 1 ədəd PMD-6) zərərsizləşdirilib, Mina Təhlükəsinə dair Maarifləndirmə üzrə mütəxəssislər tərəfindən 42 777 nəfər mülkü şəxs arasında mina təhlükəsizliyinə dair maarifləndirmə təbliğatı aparılıb.

**AZƏRTAC**

**Düşmən Tərtər və Ağdam rayonlarının yaşayış məntəqələrini atəşə tutur**

[17:07] 08.11.2020

Noyabrın 8-i saat 16:30-dan başlayaraq Ermənistan silahlı qüvvələrinin bölmələri Tərtər və Ağdam rayonlarının kəndlərini atəşə tutur.

AZƏRTAC-a Müdafiə Nazirliyinin mətbuat xidmətindən bildirilib ki, Azərbaycan Ordusunun bölmələri tərəfindən düşmənin atəş nöqtələrinin susdurulması üzrə cavab tədbirləri görülür.

**AZƏRTAC**

**Baş Prokurorluq: Ermənistan silahlı qüvvələri dinc mülki əhalimizə qarşı cinayət əməllərini davam etdirir**

[17:36] 08.11.2020

Ermənistanın silahlı qüvvələri elan edilmiş humanitar atəşkəs rejiminin tələblərini kobud şəkildə pozmaqla dinc mülki əhalimizə qarşı cinayət əməllərini davam etdirir.

Baş Prokurorluğun mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, noyabrın 8-də düşmən tərəfin silahlı birləşmələri tərəfindən Ağdam rayonu müxtəlif istiqamətlərdən intensiv raket və ağır artilleriyadan atəşə tutulub.

Bu gün saat 16 radələrində Ağdam rayonu, Üçoğlan kəndinin ərazisinə mərmi düşməsi nəticəsində 1994-cü il təvəllüdlü Əhmədli Məhəmməd Xanlar oğlu xəsarət alıb.

Hazırda prokurorluq əməkdaşları tərəfindən mövcud şəraitdə mümkün olan bütün istintaq tədbirləri həyata keçirilir.

**AZƏRTAC**

**Ağdamın atəşə tutulması nəticəsində daha bir nəfər xəsarət alıb**

[22:11] 08.11.2020

Xəbər verildiyi kimi, noyabrın 8-də düşmən tərəfin silahlı birləşmələri tərəfindən Ağdam rayonu müxtəlif istiqamətlərdən ağır artilleriyadan atəşə tutulub.

Baş Prokurorluqdan AZƏRTAC-a bildirilib ki, bu gün saat 20 radələrində Ağdam rayonu, Orta Qərvənd kəndinin ərazisinə mərmi düşməsi nəticəsində 1967-ci il təvəllüdlü Bədəlov Muxtar Əli oğlu xəsarət alıb.

Hazırda prokurorluq əməkdaşları tərəfindən mövcud şəraitdə mümkün olan bütün istintaq tədbirləri həyata keçirilir.

**AZƏRTAC**

**Cəbhədə noyabrın 9-na olan son vəziyyət**

[07:44] 09.11.2020

Noyabrın 8-si gün ərzində və 9-na keçən gecə Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində Azərbaycan Ordusu bölmələrinin mövqelərini və yaşayış məntəqələrimizi müxtəlif atıcı silahlar, top və minaatanlardan atəşə tutub.

AZƏRTAC-a Müdafiə Nazirliyinin mətbuat xidmətindən bildirilib ki, cəbhənin Ağdərə, Ağdam, Xocavənd və Qubadlı istiqamətlərində döyüş əməliyyatları müxtəlif intensivlikdə davam edib. Sutka ərzində cəbhənin əsas istiqamətlərində düşmənə ciddi zərbələr vurulub. Cəbhənin bəzi sahələrində düşmən şəxsi heyət və hərbi texnikada itkilər verərək geri çəkilməyə məcbur edilib.

Sutka ərzində düşmənin xeyli sayda canlı qüvvəsi, 1 ədəd T-72 tankı, 1 ədəd D-30 topu, 1 minaatan heyəti, döyüş sursatı ilə dolu bir hərbi yük avtomobili məhv edilib və sıradan çıxarılıb.

Hazırda döyüş əməliyyatları davam edir. Əməliyyat şəraiti qoşunlarımızın nəzarəti altındadır.

**AZƏRTAC**

**ANAMA tərəfindən ermənilərin atdıqları partlamamış hərbi sursatlar zərərsizləşdirilib**

[07:37] 09.11.2020

Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyinə (ANAMA) Ağcabədi, Ağdam, Beyləqan, Cəbrayıl, Füzuli, Goranboy, Tərtər, Xocavənd rayonları ərazisində mərmilərin aşkar olunması barədə Daxili İşlər Nazirliyinin “102” Xidməti-Zəng mərkəzi sistemindən 19 və Fövqəladə Hallar Nazirliyinin Böhran Vəziyyətlərində İdarəetmə mərkəzindən 2 müraciət daxil olub.

ANAMA-dan AZƏRTAC-a bildirilib ki, daxil olmuş çağırışlar əsasında agentliyin xüsusi mobil çevik əməliyyat qrupları tərəfindən Ağcabədi rayonunun Avşar, Mirəşelli, Taxtakörpü, Yuxarı Qiyaməddinli kəndləri, Ağdam rayonunun Əfətli, Üçoğlan kəndləri, Beyləqan rayonunun Milabad kəndi, Cəbrayıl rayonunun Mehdili kəndi, Füzuli rayonunun Alxanlı, Aşağı Seyidəhmədli, Aşağı Əbdürrəhmanlı, Kərimbəyli kəndləri və Horadiz şəhəri, Goranboy rayonunun Meşəli kəndi, Tərtər rayonunun Yenikənd, Çaylı, Seyidimli kəndləri və Şıxarx qəsəbəsi, Xocavənd rayonunun Ağoğlan qəsəbəsi ərazisinə Daxili İşlər Nazirliyinin əməkdaşları ilə birlikdə 29 operativ və təxirəsalınmaz əməliyyat çıxışı həyata keçirilib. Aparılmış əməliyyat-axtarış tədbirləri zamanı 19 ədəd partlamamış hərbi sursat (PHS), 2 ədəd piyada əleyhinə mina, 296 ədəd tank əleyhinə mina, 21 ədəd tank əleyhinə minanın partladıcısı, 168 qram qara barıt, 903 ədəd müxtəlif çaplı patronlar, 1 ədəd hərbi məqsədlər üçün istifadə olunan meteoroloji radiopelenqator və 21 ədəd partlamış mərmi qalıqları aşkar olunub.

Agentliyin partlayış qrupu tərəfindən 2 ədəd partlamamış hərbi sursat (PHS), 1 ədəd 9N235 bombacığı, mexaniki minatəmizləmə qrupu tərəfindən 1 ədəd piyada əleyhinə mina (PMN) zərərsizləşdirilib, Mina Təhlükəsinə dair Maarifləndirmə üzrə mütəxəsisslər tərəfindən 42 777 nəfər mülkü şəxs arasında mina təhlükəsizliyinə dair maarifləndirmə təbliğatı aparılıb.

**AZƏRTAC**

## Anar Eyvazov: Azərbaycan əsgəri bir əlində silah, bir əlində bayraq növbəti hədəfə doğru irəliləyir

[19:10] 09.11.2020

Ötən sutka ərzində düşmən qüvvələri Ermənistanın Berd, Çəmbərək rayonları və müxtəlif istiqamətlərdən Tovuz, Gədəbəy və digər istiqamətlərdəki mövqelərimizi, o cümlədən Tərtər, Ağdam və Bərdə daxil olmaqla, bir sıra yaşayış məntəqələrimizi toplardan və minaatanlardan atəşə tutub.

AZƏRTAC xəbər verir ki, bu barədə Müdafiə Nazirliyinin mətbuat xidmətinin mətbuat katibi polkovnik-leytenant Anar Eyvazov noyabrın 9-da Hərbi İnformasiya Mərkəzində keçirilən brifinqdə məlumat verib.

Anar Eyvazov deyib ki, ordumuz tərəfindən yalnız sərhədlərimiz çərçivəsində legitim hərbi hədəflərə qarşı adekvat tədbirlər görülüb. Döyüş əməliyyatları əsasən cəbhənin Ağdərə, Ağdam, Xocavənd və Qubadlı istiqamətlərində davam edib. “Su-25” həmlə təyyarəsi və pilotsuz uçuş aparatlarının tətbiqi ilə hərbi hava qüvvələrimizin cəbhənin Xocavənd istiqamətində endirdiyi aviasiya zərbələri nəticəsində düşmənin səngər və sığınacaqları darmadağın edilib. Əsas komanda məntəqəsində bir neçə yüksək vəzifəli şəxs məhv edilib. Ordumuzun bu istiqamətdə və Qırmızı Bazar məntəqəsi ətrafındakı mövqelərə hücumları qarşısında aciz qalan düşmənin 2-ci və 3-cü motoatıcı alaylarının bölmələri ağır itkilər verərək müdafiə hədlərini atıb qaçmağa məcbur olub. Ermənistan silahlı birləşmələri xeyli sayda canlı qüvvə itirib. Cəbhənin Tərtər istiqamətindən bölmələrimizi atəşə tutan düşmənin 10-cu dağatıcı diviziyasının minaatan heyəti də ordumuzun dəqiq atəş zərbəsi ilə zərərsizləşdirilib.

Mətbuat katibi qeyd edib ki, düşmənin Şuşa istiqamətində mühasirədən çıxmaq məqsədilə bölmələrimizə hücum etməyə cəhd edən qüvvələri və Xankəndi istiqamətində hərəkət edən qoşqulu yük avtomobili “Zərbə” pilotsuz uçuş aparatları ilə məhv edilib.

Sutka ərzində düşmənin xeyli sayda canlı qüvvəsi, 3 tankı, 1 piyada döyüş maşını, 2 topu, minaatan heyəti, döyüş sursatı və 2 yük avtomobili sıradan çıxarılıb. Ağır itkilər verən qarşı tərəf bir neçə istiqamətdə geri çəkilməyə məcbur edilib. Füzuli, Xocalı, Xocavənd, Cəbrayıl, Qubadlı və Zəngilanın 23 kəndi işğaldan azad olunub.

“Düşmən ictimai fikri öz uğursuzluqlarından və işğal altındakı ərazilərimizdə törətdiyi hərbi cinayətlərdən yayındırmaq məqsədilə müxtəlif dezinformasiyalar yayır. Azərbaycan Ordusu beynəlxalq humanitar hüququn norma və prinsiplərini rəhbər tutaraq düşmənin yalnız hərbi təyinatlı obyektlərini hədəfə alır. Mənəvi-psixoloji vəziyyəti və maddi-texniki təminatı yüksək səviyyədə olan Azərbaycan əsgəri bir əlində silah, bir əlində bayraq növbəti hədəfə doğru irəliləyir”, - deyə Anar Eyvazov vurğulayıb.

Dövlət Bayraq Günü və şanlı bayrağımızın azad olunmuş Şuşa şəhərində dalğalanması münasibətilə ordu rəhbərliyi və şəxsi heyət adından təbriklərini çatdıran mətbuat katibi deyib: “Biz bu cəsarəti və döyüş ruhunu Müzəffər Ali Baş Komandanımızdan və sarsılmaz xalqımızdan alırıq. Hazırda Xocavənd istiqamətində hücumu genişləndirən Azərbaycan Ordusu əməliyyat şəraitini nəzarətdə saxlamaqla döyüşləri böyük ruh yüksəkliyi və mətinliklə davam etdirir. Qələbə bizimlədir!”.

**AZƏRTAC**

**Cəbhəyanı ərazilərdə xeyli sayda partlamamış hərbi sursat aşkarlanaraq zərərsizləşdirilib**

[06:39] 10.11.2020

Noyabrın 9-da Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyinə (ANAMA) Ağcabədi, Ağdam, Beyləqan, Füzuli, İmişli, Tərtər rayonları ərazisində mərmilərin aşkar olunması barədə Daxili İşlər Nazirliyinin "102" Xidməti-Zəng mərkəzi sistemindən – 18 (on səkkiz) və Fövqəladə Hallar Nazirliyinin Böhran Vəziyyətlərində İdarəetmə mərkəzindən – 1 (bir) müraciət daxil olub.

ANAMA-dan AZƏRTAC-a bildirilib ki, daxil olmuş 19 çağırış əsasında Agentliyin xüsusi mobil çevik əməliyyat qrupları tərəfindən Ağcabədi rayonunun Göyük, Hacılar, Yuxarı Qiyaməddinli kəndləri, Ağdam rayonunun Şükürağalı, Xındırıstan, Zəngişalı kəndləri, Beyləqan rayonunun Milabad kəndi, Füzuli rayonunun Alxanlı, Əhmədalılar, Əhmədbəyli kəndləri, İmişli rayonunun Xəlfəli kəndi, Tərtər rayonunun Azad Qaraqoyunlu, Düyərli, Seydimli, Yuxarı Sarıcalı kəndləri, Şıxarx qəsəbəsi, Axundov və Cavanşir küçələri ərazisinə Daxili İşlər Nazirliyinin əməkdaşları ilə birlikdə 32 operativ və təxirəsalınmaz əməliyyat çıxışı həyata keçirilib. Aparılmış əməliyyat-axtarış tədbirləri zamanı 131 ədəd partlamamış hərbi sursat (PHS), 65 ədəd bombacıq, 249 ədəd tank əleyhinə mina, 252 ədəd tank əleyhinə minanın partladıcısı, 8647 ədəd müxtəlif çaplı patronlar, 1 ədəd hərbi məqsədlər üçün istifadə olunan meteoroloji radiopelenqator, 36 ədəd boş avtomat darağı, 2 ədəd dron və 58 ədəd partlamış mərmi qalıqları aşkar olunub.

Agentliyin partlayış qrupu tərəfindən 130 ədəd partlamamış hərbi sursat (PHS), 65 ədəd bombacıq zərərsizləşdirilib, Mina Təhlükəsinə dair Maarifləndirmə üzrə mütəxəssislər tərəfindən 42 min 777 nəfər mülkü şəxs arasında mina təhlükəsizliyinə dair maarifləndirmə təbliğatı aparılıb.

**AZƏRTAC**

**Azərbaycan Prezidenti: Hər kəs bizim gücümüzü gördü,hər kəs bizim dəmir yumruğumuz nədir, anladı**

[06:20] 10.11.2020

Sentyabrın 27-də nə baş verib, onu tarixçilər deyəcək. Necə başlayıb, onu hesab edirəm ki, bir çoxları bilir.

AZƏRTAC xəbər verir ki, bunu Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev xalqa müraciətində bildirib.

Dövlətimizin başçısı deyib: "Artıq Azərbaycan xalqının səbri tükənmişdi və mən Ermənistan baş nazirinə son görüşlərdə demişdim ki, siz odla oynamayın, Azərbaycan xalqının səbri ilə oynamayın. Siz Azərbaycan xalqını tanımırsınız, siz tanıyacaqsınız bizi, amma gec olacaq. Düz yola gəlin, çıxın bu torpaqlardan, bu torpaqlar sizə mənsub deyil. Amma nə etdilər? Orada qanunsuz məskunlaşma aparmaq üçün beynəlxalq hüququ, beynəlxalq konvensiyaları, o cümlədən Cenevrə konvensiyalarını kobudcasına pozaraq nümayişkaranə şəkildə xaricdən erməniləri gətirib özü də məhz Şuşaya ki, bizi incitsin. Məhz Şuşada o dəstə başçısı hansı ki, indi deşik axtarır gizlənməyə, xunta başçısı özünə andiçmə mərasimi keçirmişdir və Ermənistan baş naziri gedib orada iştirak edib. Bu, bizə sataşmaq deyildimi? Bunun hesabını sizdən soruşan olmayacaqdımı?! Hesabını soruşduq, diz çökdürdük, diz üstə qoyduq! Onun-bunun ətəyindən yapışıb bu 40 gündən çox bir müddətdə adam qalmayıb ki, zəhləsini tökməsin, yardım istəməsin, özünü alçaltmasın. Biz alçaltmışıq onu, əcəb də etmişik. Bizim üçün müqəddəs olan Şuşa şəhərinin Cıdır düzündə sərxoş vəziyyətdə rəqs edəndə fikirləşəydi ki, bu gün gələcək, cəzasını alacaq, siçan kimi gizlənib bax bu sənədi götürüb ağlaya-ağlaya imzalayacaq. Yerini göstərdik, dərsini verdik. Qovmuşuq onları torpaqlarımızdan, iti qovan kimi qovmuşuq. Demişdim ki, qovacağıq, iti qovan kimi qovacağıq və qovmuşuq, iti qovan kimi qovmuşuq. Qorxularından indi bu sənədə imza atır, bilir ki, biz Ağdama da, Kəlbəcərə də, Laçına da gələcəyik. Heç kim bizi saxlaya bilməz. Hər kəs bizim gücümüzü gördü, hər kəs bizim dəmir yumruğumuz nədir, anladı. Ona görə qovmuşuq onları, əcəb də etmişik".

**AZƏRTAC**

**Ombudsman: Müzəffər Ali Baş Komandanımızın rəhbərliyi ilə rəşadətli Ordumuz böyük Qələbə sevincini bizə yaşatdı**

[12:18] 11.11.2020

10 noyabr 2020-ci il müstəqil Azərbaycanın tarixində ən parlaq səhifələrdən biridir. Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Ordumuz ölkəmizin ərazi bütövlüyünün təmin edilməsi istiqamətində uğurlara imza ataraq 30 ilə yaxındır ki, dərin həsrətlə gözlədiyimiz böyük Qələbə sevincini bizə yaşatdı.

AZƏRTAC xəbər verir ki, bu fikirləri ombudsman Səbinə Əliyeva bildirib.

Ombudsman qeyd edib ki, Ermənistanın ölkəmizə təcavüzünün qarşısını almaq, işğal altındakı torpaqlarımızı azad etmək məqsədilə 2020-ci ilin 27 sentyabr tarixindən etibarən sülhə məcburetmə əməliyyatı adlandırılan zəfər yürüşünə başlayan Azərbaycan Ordusu qısa bir dövr ərzində həyata keçirdiyi uğurlu əks-hücum nəticəsində qarşı tərəfin 30 il ərzində böyük məbləğdə vəsait sərf edərək qurmuş olduğu çoxsaylı müdafiə istehkamlarını vurub dağıtdı və onun "yenilməz" hesab etdiyi ordusunu məğlubiyyətə düçar etdi.

Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə cəmi 44 gün ərzində Azərbaycanın uzun illərdir işğal altında qalan 5 şəhərini, 4 qəsəbəsini, 286 kəndini, çoxsaylı strateji yüksəkliklərini, xüsusilə də Qarabağın incisi, mədəniyyət beşiyi, ölkəmizin qədim tarixə malik şəhərlərindən olan Şuşanı işğaldan azad edən rəşadətli Azərbaycan Ordusu tarixi ədaləti bərpa etməklə öz möhtəşəm gücünü və hərbi qüdrətini bütün dünyaya nümayiş etdirdi. Artıq müstəqil dövlətimizin üçrəngli, ay-ulduzlu dövlət bayrağı respublikamızın bütün guşələrində olduğu kimi, Şuşada və işğaldan azad edilmiş digər torpaqlarımızda əzəmətlə dalğalanmaqdadır.

"Bu gün bir daha böyük qürur və sevinc hissi ilə qeyd etmək istərdim ki, Azərbaycan Prezidentinin, Ermənistanın baş nazirinin və Rusiya Prezidentinin 2020-ci ilin 10 noyabr tarixində imzaladıqları birgə Bəyanata əsasən artıq Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə xalqımızın tarixi qələbəsi ilə son qoyulur.

Əldə olunan qələbələr Ermənistanı Ağdam, Laçın və Kəlbəcəri siyasi yolla qaytarmağa məcbur edir. Ali Baş Komandan eyni zamanda bir milyondan artıq qaçqın və məcburi köçkün soydaşlarımızın 30 ildən artıq müddətdə pozulan hüquq və azadlıqlarını bərpa etdi.

Bütün bunlar qəlbi Vətən eşqi ilə döyünən hər bir azərbaycanlıya sevinc və sonsuz qürur hissi yaşadan möhtərəm Prezidentimizin daxili və xarici siyasəti, Müzəffər Ali Baş Komandan kimi rəhbərliyi altında rəşadətli Azərbaycan Ordusu tərəfindən həyata keçirilən uğurlu həmlələr, Birinci vitse-prezident Mehriban Əliyevanın müdrik siyasəti və öz mənəvi dəstəyini xalqımızdan əsirgəməyən dost və qardaş ölkələrin prinsipial mövqeyi nəticəsində mümkün olmuşdur.

Şəhidlərimizin qanı bahasına əldə olunmuş möhtəşəm qələbə münasibətilə xalqımızı ürəkdən təbrik edir, torpaqlarımızı Ermənistanın işğalından azad edən bütün əsgərlərimizə bu şərəfli yolda möhkəm cansağlığı, güc-qüvvət diləyirəm!

Müstəqil Azərbaycanımızın ərazi bütövlüyü uğrunda şəhid olmuş bütün hərbi qulluqçularımıza Allah rəhmət eləsin, yaralılar tezliklə şəfa tapıb öz sağlamlıqlarına qovuşsunlar.

Yaşasın müstəqil Azərbaycan Respublikası! Yaşasın müzəffər Ali Baş Komandan, Birinci vitse-prezident və qüdrətli Azərbaycan Ordusu! Qarabağ Azərbaycandır!", - deyə S.Əliyeva qeyd edib.

**AZƏRTAC**

**Erməni politoloq: Bu, rüsvayçı razılaşmadır, bu, tam təslim olmaq deməkdir**

[21:03] 11.11.2020

Bu, rüsvayçı razılaşmadır, bu, tam təslim olmaq deməkdir.

AZƏRTAC xəbər verir ki, bu sözləri "Moskovskiy komsomolets" qəzetinə müsahibəsində erməni politoloq Andranik Miqranyan Azərbaycan Respublikasının Prezidenti, Ermənistan Respublikasının baş naziri və Rusiya Federasiyasının Prezidentinin imzaladıqları birgə bəyanatı şərh edərkən deyib. O, Laçın dəhlizinin gediş-gəliş üçün saxlanması məsələsinə toxunaraq bildirib ki, dəhliz Ermənistanın nəzarəti altında qalmır. Razılaşmaya əsasən, Dağlıq Qarabağın Azərbaycanın ayrılmaz hissəsi elan olduğunu xatırladan politoloq qeyd edib ki, Kəlbəcər, Laçın, Şuşa, Ağdam da Azərbaycana qaytarılır, üstəlik, Qarabağ Hadrutu da itirib. "Hər yer qaytarılır. Rusiya sülhməramlıları Ermənistanla Qarabağı birləşdirən beş kilometrlik zolağa müvəqqəti olaraq nəzarət edəcəklər. Sonradan Şuşa kənarından yeni yol çəkiləcək, ancaq bu yol da de-yure Azərbaycanın tərkibində olacaq. Erməni tərəfinin nəzarətində heç nə qalmır - 5 kilometrlik zolaq, o da hüquqi cəhətdən Azərbaycanın ərazidir", - deyə o bildirib.

Erməni politoloqu qeyd edib ki, imzalanan bəyanat razılaşma deyil, Ermənistanın total təslim olmasını əks etdirən aşağılayıcı sənəddir. Naxçıvana Ermənistandan keçən quru yolunun razılaşmaya daxil edilməsini isə politoloq "ümumiyyətlə fəlakət" adlandırıb.

Andranik Miqranyan Paşinyanın harada gizləndiyinin hələlik məlum olmadığını vurğulayıb.

**Fəridə Abdullayeva**
**AZƏRTAC-ın xüsusi müxbiri, Moskva**

**AZƏRTAC**

**Cəbhəyanı ərazilərdə xeyli sayda partlamamış hərbi sursat aşkarlanaraq zərərsizləşdirilib**

[05:18] 12.11.2020

Noyabr 10-11 tarixlərində Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyə (ANAMA) Ağcabədi, Ağdam, Beyləqan, Bərdə, Füzuli, Goranboy, Tərtər rayonları ərazisində mərmilərin aşkar olunması barədə Daxili İşlər Nazirliyinin “102” Xidməti-Zəng mərkəzi sistemindən 125 və Fövqəladə Hallar Nazirliyinin Böhran Vəziyyətlərində İdarəetmə Mərkəzindən 2 müraciət daxil olub.

ANAMA-dan AZƏRTAC-a bildirilib ki, daxil olmuş 127 çağırış əsasında agentliyin xüsusi mobil çevik əməliyyat qrupları tərəfindən Ağcabədi rayonunun Arazbar, Boyadı, Əhmədağalı, Göyük, Hacılar, Paşabəyli, Qaradolaq, Yuxarı Qiyaməddinli kəndləri və Hindarx qəsəbəsi, Ağdam rayonunun Orta Qərvənd, Əfətli, Evoğlu, Kolqışlaq, Mahrızlı, Mərzili, Mirəşelli, Zəngişalı kəndləri, Bərdə rayonunun Təhlə kəndi və S.Vurğun küçəsi, Beyləqan rayonunun Qəhrəmanlı, Milabad kəndləri, Füzuli rayonunun Əbdürrəhmanlı, Qarakollu kəndləri və 4-cü Zobcuq qəsəbəsi, Goranboy rayonunun Yenikənd, Tapqaraqoyunlu kəndləri, Tərtər rayonunun Azad Qaraqoyunlu, Düyərli, Ələsgərli, Əskipara, Güləbatlı, Hüsənli, Köçərli, Qaynaq, Qazyan, Yenikənd, Yuxarı Sarıcalı kəndləri, M.Hüseynov, E.Hüseynov, Ş.İ.Xətai, N.İsgəndərov, N.Nərimanov küçələri ərazisinə Daxili İşlər Nazirliyinin əməkdaşları ilə birlikdə 68 operativ və təxirəsalınmaz əməliyyat çıxışı həyata keçirilib. Aparılmış əməliyyat-axtarış tədbirləri zamanı 4 ədəd partlamamış hərbi sursat (PHS), 143 ədəd bombacıq, 212 ədəd tank əleyhinə mina, 96 ədəd tank əleyhinə minanın partladıcısı və 83 ədəd partlamış mərmi qalıqları aşkar olunub.

Agentliyin partlayış qrupu tərəfindən 142 ədəd bombacığı, mexaniki minatəmizləmə qrupu tərəfindən 3 ədəd PMN minası zərərsizləşdirilib, Mina Təhlükəsinə dair Maarifləndirmə üzrə mütəxəssislər tərəfindən 42 777 nəfər mülkü şəxs arasında mina təhlükəsizliyinə dair maarifləndirmə təbliğatı aparılıb.

**AZƏRTAC**

**İşğalın Dağlıq Qarabağ və ətraf rayonların fitosanitar vəziyyətinə təsiri**

[14:12] 12.11.2020

Bitki mühafizəsinin əsas vəzifələrindən biri də müxtəlif vasitələrlə fərqli zoocoğrafi ərazilərdən təsadüfən yeni əraziyə keçmiş invaziv zərərli orqanizmləri tədqiq etmək və ehtiyac olduğu təqdirdə lazımi mübarizə tədbirləri tətbiq etməkdən ibarətdir. Bu məqsədlə respublikamızın müxtəlif rayonlarına daxil olan fərqli ekosistemlərdə vaxtaşırı monitorinqlər aparılır və bitki sağlamlığı istiqamətində lazımi tədbirlər həyata keçirilir.

AZƏRTAC xəbər verir ki, bu barədə Qida Təhlükəsizliyi İnstitutunun Elmi-tədqiqat və risklərin qiymətləndirilməsi departamentinin Bitki sağlamlığı şöbəsinin mütəxəssisləri Camal Quliyev və Gülnar Qəhrəmanovanın hazırladığı məqalədə deyilir.

Müəlliflər daha sonra yazırlar: Təəssüf ki, uzun illər erməni işğalına məruz qalan ərazilərimizdə bu cür tədbirlər planı həyata keçirmək mümkün olmayıb. Belə ki, ölkəmizdə karantin zərərvericiləri, xəstəlik və alaq otlarının yayılması haqqında 1997-ci il yanvarın 2-nə aid hesabatda göstərilən məlumatlar işğaldan əvvəlki son illərə aiddir.

İşğaldan əvvəl həmin ərazilərdə Kolorado kartof böcəyi, filloksera, komstok yastıcası, sitrus ağqanadlısı, sürünən kəkrə, qızılsarmaşıq kimi karantin tətbiq edilən zərərli orqanizmlər qeydə alınıb. Ağdərə rayonunda 292 hektar, Xocavənd rayonunda 114 hektar, Xocalı rayonunda 293 hektar, Şuşa rayonunda isə 39 hektar sahədə Kolorado kartof böcəyinin yayıldığı müəyyən edilib. Bundan başqa, Qubadlıda 8 hektar, Zəngilanda 0,1 hektar, Ağdamda 2 hektar, Füzulidə 15,1 hektar ərazidə Kolorado böcəyinə rast gəlinib.

Filloksera zərərvericisi Ağdərə rayonunda 3000 hektar, Xocalı rayonunda 600 hektar, Xocavənd rayonunda 3750 hektar ərazidə qeydə alınıb. İşğal altında olan Ağdam rayonunda isə 2834 hektar ərazini əhatə edən üzüm sahəsində zərərvericinin yayıldığı məlumdur.

Komstok yastıcasına Ağdərə rayonunda 45 hektar, Xocavənd rayonunda 6 hektar, Xocalıda 14 hektar ərazidə rast gəlinib. İşğala məruz qalmış digər rayonlarımızdan Ağdamda 32 hektar, Zəngilanda 8 hektar, Tərtərdə 5 hektar, Füzulidə 6,9 hektar sahədə komstok yastıcası aşkar edilib.

Ərazidə həşəratlarla yanaşı, kənd təsərrüfatı sahələrinə ciddi ziyan vuran və karantin tətbiq edilən qızılsarmaşıq, sürünən kəkrə kimi alaq otları da qeydə alınıb. Qızılsarmaşığa Ağdam rayonunda 601,5 hektar, Zəngilan rayonunda 72 hektar, Laçın rayonunda 121 hektar, Füzuli rayonunda 1003 hektar, Ağdərə rayonunda 1500 hektar, Xocavənd rayonunda 2400 hektar, Xocalıda 1400 hektar, Şuşada isə 200 hektar ərazidə rast gəlinib. Bundan başqa, Ağdam rayonunda 300 hektar ərazidə sürünən kəkrə də yayılıb.

Lakin işğala məruz qalan ərazilərimizdəki fitosanitar vəziyyət haqqında sonralar heç bir məlumat toplamaq mümkün olmayıb.

Həmin zərərli orqanizmlərin vaxtaşırı monitorinqinin və onlara qarşı fitosanitar tədbirlərin aparılmaması onların kütləvi artımına və areallarının işğal olunmayan digər Azərbaycan ərazilərinə doğru genişlənməsi ilə nəticələnib. Digər tərəfdən, həmin ərazilərdə həyata keçirilən hərbi əməliyyatlar zamanı tətbiq edilən dağıdıcı vasitələr, yaşıllıqların, meşə və kənd təsərrüfatı sahələrinin yandırılaraq və ya digər üsullarla məhv edilməsi, kənd təsərrüfatına yararlı ərazilərə çirkab sularının axıdılması, aqrosenozların yerində narkotik xassəli bitkilərin əkilməsi, müəyyən məqsədlər üçün meşələrin qırılaraq daşınması və s. həmin ərazilərin flora və fauna tərkibinin dəyişməsi fonunda zərərli orqanizmlərin də növ tərkibinin və populyasiya sıxlığının dəyişməsinə səbəb olub.

Ekoloji terror - konkret ölkə tərəfindən və ya şəxs tərəfindən digər ölkənin flora və faunasına zərər yetirməklə, təbii sərvətlərini məhv etməklə, bilərəkdən vurulan ziyandır.

Ermənistan tərəfindən həyata keçirilən ekoloji terrorlardan biri də işğala məruz qalmış Azərbaycan torpaqlarında məqsədyönlü şəkildə törədilmiş yanğınlar və deqradasiyadır.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin məlumatına əsasən, respublikamızın meşə fondu sahəsi 1213,7 min hektar olmaqla ümumi ərazinin 14 faizini təşkil edir. Təəssüflə qeyd olunmalıdır ki, Ermənistanın təcavüzü nəticəsində meşələrimizə külli miqdarda ziyan dəyib. Belə ki, Kəlbəcər, Laçın, Zəngilan, Xankəndi, Şuşa, Xocavənd, Ağdərə meşə təsərrüfatlarının 261 min hektardan artıq sahəsi qırılaraq məhv edilib. Orada yetişən çox qiymətli palıd, fıstıq, vələs, ağcaqayın, ayı fındığı, qoz, Şərq çınarı kəsilərək Ermənistan ərazisinə daşınıb. 25-26 faizi meşə olan işğal altındakı torpaqların məhv edilməsi,

həm də regiondakı heyvan və bitki növlərinin zərər görməsi deməkdir. Aparılan hesablamalara görə, meşə sahələrinin təqribən 8-10 faizi məhv edilib.

Məlumdur ki, 261 min hektar meşə, o cümlədən 13197,5 hektar qiymətli meşə sahələri, hündürlüyü 45, diametri 6-8 metrədək, yaşı 120 ildən 2 min ilədək olan pasportlaşdırılmış 145 Şərq çinarı və digər təbiət abidələri işğal edilmiş ərazilərdə qalıb. Böyük əhəmiyyətə malik olan bu təbiət abidələrinin əksəriyyəti həmin ərazilərdə məskunlaşmış ermənilər tərəfindən məhv edilib.

Ermənistan ordusunun əsgərləri və orada məskunlaşan gəlmə əhali tərəfindən mütəmadi olaraq qəsdən törədilmiş yanğınlar nəticəsində 100 min hektar otlaq, biçənək və yaşıllıqlar, həmçinin meşə sahələri yanaraq məhv edilib, torpağın üst münbit qatı yararsız hala düşüb. Müxtəlif vaxtlarda ermənilər işğal etdikləri ərazilərin geniş hissəsində (Xocavənd, Ağdam, Qubadlı, Zəngilan) yanğınlar törədiblər. Qeyd edək ki, yanğınlar zamanı ətraf mühitə təxminən 300 milyon manat məbləğində ziyan dəyib. Yanğın nəticəsində torpağın üst qatı və bitki örtüyü, ərazidə olan qiymətli ağac və kollar məhv edilib. Orada olan fauna və floradan əsər-əlamət qalmayıb, təbiətə xeyli ziyan vurulub. Həmin yanğınlar ekoloji tarazlığın pozulmasına, heyvanat aləminin və bitki örtüyünün tələf edilməsinə, atmosferin çirklənməsinə səbəb olub.

Lakin törədilən yanğınların fəsadları bununla bitmir. Belə ki, təbii ekosistemlərin və aqrosenozların məhv edilməsi orada məskunlaşan zərərli orqanizmlərin qida bitkilərinin müxtəlifliyinin artmasına təkan verən amillərdəndir. Biçənəklərin və əkin sahələrinin yandırılması bir çox təhlükəli zərərvericilərin, xüsusən də ev siçanı, çöl siçanı, adi çöl siçanı, qırmızıquyruq qum siçanı, kiçik Asiya qum siçanı, boz siçan, boz siçovul və s. kimi siçanabənzər gəmiricilərin, Mərakeş çəyirtkəsi, Asiya çəyirtkəsi, İtaliya çəyirtkəsi kimi sürü halında köç edən zərərvericilərin kütləvi şəkildə sərhədboyu yaşayış ərazilərinə doğru yayılmasına və xüsusilə taxıl sahələrinin kütləvi məhvinə səbəb olub. Gəmiricilər kənd təsərrüfatına ziyan vurmaqla yanaşı, insanlara və kənd təsərrüfatı heyvanlarına bir çox xəstəliklər yoluxdurub.

Qeyd edək ki, son illər işğal altında olan ərazilərdən ölkə ərazisinə Mərakeş çəyirtkəsinin və siçanabənzər gəmiricilərin miqrasiyası fitosanitar vəziyyəti mürəkkəbləşdirən başlıca amillərdən biridir. Rəşadətli ordumuz tərəfindən işğal altında olan ərazilərimizin azad edilməsi həmin sahələrdə fitosanitar sabitliyin təmin edilməsi istiqamətində tədbirlərin həyata keçirilməsinə şərait yaradıb.

**AZƏRTAC**

**BBC Kəlbəcərdən reportaj hazırlayıb: ermənilər hətta pəncərə çərçivələrini, unitazları belə söküb özləri ilə aparırlar**

[13:39] 13.11.2020

Əldə edilən razılaşmaya uyğun olaraq ermənilər Kəlbəcər rayonunu tərk edirlər.

AZƏRTAC xəbər verir ki, razılaşmanın icra olunduğunu “BBC News” kanalının Kəlbəcərdən hazırladığı reportaj da təsdiq edir.

Reportajda ermənilərin Kəlbəcəri tərk etmələri əks olunub. Reportajdan da görünür ki, ermənilər aparılması mümkün olan hər şeyi özləri ilə götürürlər, hətta pəncərə çərçivələrini, unitazları belə aparırlar. Apara bilmədikləri hər şeyi isə yandırır, məhv edirlər. Onlar xüsusən də Kəlbəcərdə meşələri və evləri yandırmaqla daha çox ziyan vurmaq istəyirlər.

Bütün bu faktlar ermənilərin Azərbaycana aid ərazilərdə maddi-mədəni sərvətlərimizin dağıdılması və qarət olunmasını indi də davam etdirdiklərini bir daha sübut edir.

Xatırladaq ki, hələ oktyabrın 28-də Prezident İlham Əliyev “İnterfaks” agentliyinə müsahibəsində bu faktı bildirib. Dövlətimizin başçısı müsahibəsində deyib: “Biz Füzuli şəhərini işğaldan azad edəndə orada bircə salamat bina tapa bilmədik. Təsəvvür edirsinizmi? Bütün şəhərdə, halbuki orada 10 minlərlə insan yaşayırdı. Bircə bina da qalmayıb. Mənə zəng vurdular, dedim ki, bayrağı dirək üzərində qaldırın. Görün, onlar nə ediblər. Ağdamın, Cəbrayıl rayonunun xarabalıqlarına baxın. Hər şey dağıdılıb. Elə bil buradan vəhşilər keçiblər. Elə bil bunlar insan deyilmiş. Onlar hər şeyi söküb-dağıdıblar. Evlərin damlarını, pəncərə çərçivələrini, hətta unitazları da. Bu, sadəcə, quldurluqdur”.

Beləliklə, Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev hərbi sahədəki möhtəşəm uğurlarımızı məharətlə siyasi-diplomatik müstəviyə keçirməyə nail oldu. BBC-nin reportajından da göründüyü kimi, torpaqlarımız müharibəsiz, qansız, şəhidsiz geri qaytarılır.

**AZƏRTAC**

**İbrahim Məmmədov: Sentyabrın 27-dən Ermənistanın Azərbaycan ərazisinə təcavüzü nəticəsində dəyən ziyanın araşdırılması üçün 11 işçi qrupu yaradılıb**

[18:55] 13.11.2020

Noyabrın 6-da Azərbaycan Respublikası Prezidentinin "2020-ci il sentyabrın 27-dən başlayaraq Ermənistan Respublikası silahlı qüvvələrinin Azərbaycan Respublikasının ərazisinə təcavüzü nəticəsində mülki əhaliyə, dövlət əmlakına, o cümlədən infrastruktur obyektlərinə, habelə sahibkarlıq fəaliyyəti subyektlərinə dəymiş ziyanın qiymətləndirilməsi və aradan qaldırılması ilə bağlı tədbirlər haqqında" Sərəncamı ilə Dövlət Komissiyası yaradılıb.

AZƏRTAC xəbər verir ki, bunu sentyabrın 27-dən başlayaraq Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazisinə hücumları nəticəsində mülki əhaliyə, dövlət əmlakına, o cümlədən infrastruktur obyektlərinə, habelə sahibkarlıq fəaliyyəti subyektlərinə dəymiş ziyanın qiymətləndirilməsi və aradan qaldırılmasına həsr olunmuş brifinqdə Nazirlər Kabinetinin mətbuat xidmətinin rəhbəri İbrahim Məmmədov bildirib.

Dəymiş ziyanla bağlı məlumat bazasının yaradılacağını qeyd edən İbrahim Məmmədov deyib: "Prezidentin sərəncamına əsasən, proses şəffaf olmalıdır. Beynəlxalq ictimaiyyət və xalqımız bununla bağlı davamlı məlumatlandırılacaq, bu brifinq də bu məqsədə xidmət edir".

Nazirlər Kabinetinin mətbuat xidmətinin rəhbəri qeyd edib ki, artıq Dövlət Komissiyasının işçi qrupları yaradılıb. Ağdam, Ağcabədi, Beyləqan, Bərdə, Tərtər, Füzuli və Cəbrayıl, Goranboy və Naftalan, Gəncə, Mingəçevir rayon və şəhərləri üzrə 11 işçi qrupu yaradılıb. Tərtər rayonu üzrə dəymiş ziyanın miqyasını nəzərə alaraq 3 işçi qrupu formalaşdırılıb.

"Ermənistanın təcavüzü nəticəsində ziyan dəymiş obyektlər arasında fərdi yaşayış evləri, yardımçı tikililər, çoxmənzilli yaşayış evləri, istehsal, ictimai-iaşə obyektləri, məscidlər və kilsələr, tarixi abidələr, su təchizat obyektləri və tələf olmuş mal-qara var", - deyən İbrahim Məmmədov diqqətə çatdırıb ki, dəymiş ziyan qısa müddətdə araşdırılacaq və nəticələr dövlətimizin başçısına təqdim olunacaq.

**AZƏRTAC**

**Rusiyalı ekspert: Ermənilərin tərk etdikləri ərazilərdə yalnız azərbaycanlılar yaşayırdı**

[06:37] 14.11.2020

Rusiya mətbuatında Qarabağdan çıxarılan ermənilərin evlərini yandırmağa başladıqları barədə məlumat yayılır. Bu məlumatda yalnız bir həqiqət var - həqiqətən ermənilər son 25 ildə yaşadıqları evləri yandırırlar. Lakin doğrudanmı fakt olaraq, özlərinə məxsus evləri yandırırlar?

AZƏRTAC xəbər verir ki, bu barədə "Facebook" səhifəsində Q.V.Plexanov adına Rusiya İqtisadiyyat Universitetinin politologiya və sosiologiya kafedrasının dosenti, hərbi ekspert Aleksandr Perenciyev yazıb.

"Mən diqqəti ona cəlb edirəm ki, ermənilər tərk etdikləri rayonlarda 90-cı illərin ortalarına qədər yaşamırdılar. Orada demək olar ki, azərbaycanlılar yaşayırdılar və Ermənistan tərəfindən başlanmış soyqırımı nəticəsində ya öldürülmüş ya da öz evlərini atıb qaçmağa macal tapmışdılar. Sonradan orada ermənilər məskunlaşmışlar. İndi ermənilər Laçın, Kəlbəcər, Ağdam rayonlarında əvvəllər azərbaycanlılara məxsus olan özlərinin 25 il yaşadıqları evləri yandırırlar", - deyə, ekspert yazır.

A.Perenciyevin sözlərinə görə, indi şikayətlənən erməni qaçqınlarını mediada göstərən zaman 1990-cı illərin əvvəllərində bu torpaqlarda öldürülən və ya sağ qalan, tələsik kiçik vətənlərini tərk etməyə məcbur olan azərbaycanlıları xatırlamaq lazımdır. "Ədalət ikili standartlar üzərində qurula bilməz! Xüsusilə tarixi ədalət. Azərbaycan Qarabağda sülh tərəfdarıdır, Qarabağ isə Azərbaycandır!", - deyə, o, yazıb.

**Fəridə Abdullayeva**
**AZƏRTAC-ın xüsusi müxbiri, Moskva**

**AZƏRTAC**

**Hikmət Hacıyev: Ermənistanın Kəlbəcərdən çıxması da vandalizm aktları ilə müşahidə olunur**

[15:25] 15.11.2020

Ermənistanın Kəlbəcərdən çıxması da vandalizm aktları ilə müşahidə olunmaqdadır. Ərazilərimizin işğaldan azad edilməsi prosesində son məqamda da maddi mədəniyyət abidələrinə zərərlərin vurulması həyata keçirilir.

AZƏRTAC xəbər verir ki, bu sözləri Azərbaycan Prezidentinin köməkçisi-Prezident Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev noyabrın 15-də keçirilən brifinqdə söyləyib.

"Ağdamda Tiqranakert adlandırdıqları ərazidə qanunsuz arxeoloji qazıntılar aparırdılar. Bu qazıntılar zamanı əldə edilənlərin Ermənistana aparılması cəhdləri də var. Bu, beynəlxalq qanunların pozulmasıdır. Azərbaycanın işğal olunmuş ərazilərində maddi-mədəni irsi talan edən də Ermənistan olub. Biz işğal olunmuş ərazilərdə maddi mədəniyyət abidələrinə, xüsusən məscidlərinə vurulan zərərləri görürük, hətta məscidlərdə donuzlar saxlanılıb. Daha ətraflı araşdırmalardan sonra Ermənistanın barbar əməllərinin nəticələri bir daha özünü büruzə verəcək", - deyə Prezidentin köməkçisi qeyd edib.

**AZƏRTAC**

**Prezidentin köməkçisi: Ermənistan Kəlbəcərin tam boşaldılması üçün noyabrın 25-dək vaxt istəyib**

[15:10] 15.11.2020

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan və Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin noyabrın 10-da imzaladığı birgə bəyanatın icrası istiqamətində işlər davam etdirilir. Ermənistan Kəlbəcərin tam boşaldılması üçün noyabrın 25-dək vaxt istəyib.

AZƏRTAC xəbər verir ki, bunu Azərbaycan Prezidentinin köməkçisi-Prezident Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev noyabrın 15-də keçirilən brifinqdə bildirib.

Ermənilərin bəyanatda göstərilən rayonlardan çıxarılması işlərinin davam etdiyini bildirən Hikmət Hacıyev deyib: "Bəyanatın tələblərindən biri ermənilərin noyabrın 15-dək Kəlbəcərdən çxarılması idi. Lakin Ermənistan tərəfi Rusiya vasitəsilə bu vaxtın uzadılması üçün müraciət edib. Hava şəraiti çətinləşir, o istiqamətdən yalnız bir yol var və yolun ötürücülük qabiliyyəti aşağıdır. Azərbaycan bunu nəzərə alaraq, humanistlik nümayiş etdirib və Kəlbəcərdə yerləşdirilmiş mülki əhalinin noyabrın 25-dək çıxarılmasına razılıq verib. Öhdəliklər qüvvədə qalır, vaxtın uzadılması ilə bağlı xüsusi bəyanat imzalanmasına ehtiyac yoxdur"

Azərbaycan Prezidentinin köməkçisi qeyd edib ki, Ermənistan silahlı qüvvələrinin noyabrın 20-də Ağdamdan, dekabrın 1-dək isə Laçından çıxarılması nəzərdə tutulur.

**AZƏRTAC**

## CGTN ermənilərin Kəlbəcəri tərk edərkən törətdikləri vandallıqlardan yazır

[17:38] 15.11.2020

Çin Mərkəzi Televiziyasının ingilis dilində yayımlanan CGTN (China Global Television Network) kanalının internet səhifəsində ermənilərin Kəlbəcəri tərk edərkən törətdikləri vandallıqlar barədə məqalə yerləşdirilib.

AZƏRTAC xəbər verir ki, məqalədə Azərbaycan, Rusiya və Ermənistanın rəhbərləri tərəfindən imzalanmış bəyanatın şərtlərinə uyğun olaraq Azərbaycana qaytarılmalı olan Kəlbəcər rayonunda sonradan məskunlaşmış ermənilərin yaşadıqları evləri yandırmalarından, dam örtüyü də daxil olmaqla tikinti materiallarını söküb aparmalarından söz açılıb.

Qeyd olunub ki, Azərbaycanın hüquqi ərazisi olan Kəlbəcər 1994-cü ildə başa çatan müharibə nəticəsində ermənilərin nəzarətinə keçib. Amma bu il sentyabrın sonunda başlayan döyüşlərin gedişində Azərbaycan davamlı hərbi uğurlar əldə edib ki, bunların da kulminasiyası strateji vacib mövqeyi və Azərbaycan mədəniyyətində həssas yeri olan Şuşa şəhərinin azad edilməsidir. Bundan sonra Azərbaycan, Rusiya və Ermənistan rəhbərləri atəşkəs barədə bəyanat imzalayıblar. Bəyanata əsasən, Ermənistanın işğalı altında olan ərazilər Azərbaycana qaytarılacaq. Artıq Kəlbəcərdən Ermənistana gedən yolda kilometrlərlə uzanan avtomobil karvanı yaranıb.

Məqalədə 1994-cü ildə başa çatmış döyüşlər nəticəsində yüz minlərlə azərbaycanlının öz yurdlarından didərgin düşdükləri bildirilib. Kəlbəcərin Azərbaycanın nəzarətinə qaytarılması ilə öz evlərinə qayıdacaq sakinlər yanmış, xarabalığa çevrilmiş evlərlə qarşılaşacaqlar. Qarşıdakı günlərdə Azərbaycana qaytarılmalı olan və vaxtilə minlərlə sakinin yaşadığı Ağdam birinci müharibədə dağılması və ya sonradan qarətçilərin binaların tikinti materiallarını söküb aparması nəticəsində xarabalığa çevrilib.

Məqalədə Azərbaycanın Baş Prokurorluğuna istinadla qeyd olunub ki, Füzuli rayonunda mina partlaması nəticəsində bir nəfər ölüb, digəri isə ağır dərəcəli bədən xəsarəti alıb.

**Şahin Cəfərov**
**AZƏRTAC-ın xüsusi müxbiri, Pekin**

**AZƏRTAC**

**Prezident İlham Əliyev: Erməni vəhşiliyinin nə demək olduğunu bütün dünyaya göstərəcəyik**

[14:19] 17.11.2020

Füzuli şəhəri işğalçılardan azad edilib. Füzuli şəhərində Azərbaycan bayrağı qaldırılıb. Biz Füzuliyə qayıtmışıq. Ancaq indi yol boyunca dağıdılmış kəndləri və Füzuli şəhərini dağılmış vəziyyətdə görəndə adamın ürəyi ağrıyır. Vəhşilər bizim şəhərimizi nə günə salıblar?! Evləri dağıdıblar, bütün infrastrukturu dağıdıblar, bir dənə də salamat bina yoxdur.

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev işğaldan azad olunmuş Füzuli şəhərində Azərbaycan bayrağını qaldırdıqdan sonra çıxış edərkən bildirib.

Dövlətimizin başçısı deyib: “Bütün dünya görməlidir erməni vəhşiliyi nə deməkdir və bütün dünyaya biz bunu göstərəcəyik. Təkcə Füzuli yox, Ağdam şəhəri nə gündədir, başqa şəhərlər. Sanki bu torpaqlardan bir vəhşi qəbilə keçib. Hər şeyi dağıdıb, talan edib, bizim mədəni, tarixi, dini irsimizi silmək istəyib, ancaq istədiyinə nail ola bilməyib. Çünki biz gəlməli idik, qayıtmalı idik. Gəlmişik və qayıtmışıq. Düşməni qovmuşuq torpaqlarımızdan, Azərbaycanın Dövlət Bayrağını ucaltmışıq. Bundan sonra bu torpaqda biz yaşayacağıq, necə ki, əsrlərboyu biz yaşamışıq, bizim xalqımız yaşayıb”.

**AZƏRTAC**

**Avropa Komissiyasının eksperti ermənilərin Qarabağda törətdikləri dağıntılar barədə məlumatlandırılıb**

[19:34] 17.11.2020

Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədr müavini Fuad Hüseynov Avropa Komissiyasının Mülki Müdafiə və Humanitar Yardım Əməliyyatları üzrə Direktoratlığının eksperti Nikolas Qovartla onlayn görüş keçirib.

Komitədən AZƏRTAC-a bildiriblər ki, görüşdə Ermənistanın işğalçılıq siyasətinin nəticələri və ölkəmizin humanitar ehtiyacları müzakirə olunub.

F.Hüseynov Ermənistanın hərbi təxribatının qarşısını almaq üçün Azərbaycan Ordusunun sentyabrın 27-dən noyabrın 10-dək apardığı əks-həmlə əməliyyatı haqqında məlumat verib. Bildirilib ki, bu əməliyyat nəticəsində Azərbaycan özünün ərazi bütövlüyünü bərpa edib. Eyni zamanda, qeyd edilib ki, hərbi əməliyyatlar zamanı Ermənistan silahlı birləşmələrinin ölkəmizin cəbhə zonasından uzaq yaşayış məntəqələrini artilleriya və raket atəşinə məruz qoyması nəticəsində mülki şəxslər, o cümlədən məcburi köçkünlər arasında ölənlər və yaralananlar var. Məcburi köçkünlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması məqsədilə istifadəyə verilmiş qəsəbələr də daxil olmaqla, 300-dən çox müvəqqəti məskunlaşma obyekti qismən, yaxud tamamilə dağıdılıb. Mütəmadi atəşə tutulan Ağdam, Tərtər, Goranboy, Füzuli, Bərdə və Cəbrayıl rayonlarında məskunlaşmış köçkünlər digər rayonlara təxliyə olunub. Bu ailələrin ərzaq, qeyri-ərzaq, tibbi yardım və digər ləvazimatlara ehtiyacı var.

Bundan başqa, diqqətə çatdırılıb ki, 30 ilə yaxın işğal altında saxlanılan rayonlar tamamilə dağıdılıb, yaşayış üçün yararsız hala salınıb. Ermənilər indi də vandalizm əməllərindən əl çəkmirlər. Azərbaycan, Ermənistan və Rusiya rəhbərlərinin bu il noyabrın 10-da imzaladıqları bəyanata uyğun olaraq, Kəlbəcər rayonunu tərk edən ermənilər evləri, məktəbləri, meşələri yandırır, ağacları kəsib aparırlar. Halbuki, azərbaycanlılar doğma yurdlarını tərk edən zaman özləri ilə heç nə apara bilməmişdilər.

Qeyd olunub ki, Azərbaycan 30 ilə yaxın müddətdə işğal altında saxlanılan ərazilərinə dəyən zərərin qiymətləndirilməsinə ekspertlər cəlb edəcək. Dövlət məcburi köçkünlərin doğma yurdlarına qayıtması üçün bütün zəruri tədbirləri görəcək.

Avropa Komissiyasının Mülki Müdafiə və Humanitar Yardım Əməliyyatları üzrə Direktoratlığının eksperti Nikolas Qovart bildirib ki, missiyanın məqsədi Avropa İttifaqı (Aİ) ilə Azərbaycan arasında humanitar əməkdaşlığı müzakirə etmək, həmçinin Aİ tərəfindən edilə biləcək yardımların formasını, eyni zamanda, Qarabağda gələcəkdə nəzərdə tutulan bərpa və quruculuq işlərində dəstəyini müəyyənləşdirməkdir. Missiya məcburi köçkünlərin, eyni zamanda, hərbi əməliyyatlar zamanı zərər görmüş mülki şəxslərin ehtiyaclarını öyrənəcək və Avropa İttifaqının bu ailələrə necə dəstək verəcəyini müəyyən edəcək.

Onlayn görüşdə Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyinin rəhbəri Kestutis Yankauskas da iştirak edib.

**AZƏRTAC**

**Cəbhəyanı ərazilərdə 40 ədəd partlamamış hərbi sursat aşkar olunub**

[23:57] 17.11.2020

2020-ci il 15-17 noyabr tarixlərində Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyə (ANAMA) Ağcabədi, Ağdam, Beyləqan, Bərdə, Füzuli, Goranboy, Yevlax, Tərtər rayonları və Gəncə şəhəri ərazisində mərmilərin aşkar olunması barədə Daxili İşlər Nazirliyinin ″102″ Xidməti-Zəng mərkəzi sistemindən – 141 (yüz qırx bir) və Fövqəladə Hallar Nazirliyinin Böhran Vəziyyətlərində İdarəetmə mərkəzindən – 9 (doqquz) müraciət daxil olub.

ANAMA-dan AZƏRTAC-a verilən məlumata görə, daxil olmuş 150 çağırış əsasında Agentliyin xüsusi mobil çevik əməliyyat qrupları tərəfindən Daxili İşlər Nazirliyinin əməkdaşları ilə birlikdə 66 operativ və təxirəsalınmaz əməliyyat çıxışı həyata keçirilib. Aparılmış əməliyyat-axtarış tədbirləri zamanı 40 ədəd partlamamış hərbi sursat (PHS), 2 ədəd bombacıq, 1 ədəd tank əleyhinə minanın partladıcısı və 79 ədəd partlamış mərmi qalıqları aşkar olunub.

Agentliyin partlayış qrupu tərəfindən 40 ədəd partlamamış hərbi sursat (PHS) zərərsizləşdirilib, Mina Təhlükəsinə dair Maarifləndirmə üzrə mütəxəssislər tərəfindən 45 687 nəfər mülkü şəxs arasında mina təhlükəsizliyinə dair maarifləndirmə təbliğatı aparılıb.

Ümumilikdə Agentlik tərəfindən 27 sentyabr – 17 noyabr 2020-ci il tarixlərində 1 806 siqnal (əməliyyat çağırışı) əsasında 1 345 operativ və təxirəsalınmaz əməliyyat çıxışı olub ki, nəticədə Ağdam, Ağdaş, Ağcabədi, Bərdə, Beyləqan, Biləsuvar, Cəbrayıl, Goranboy, Naftalan, Kürdəmir, Füzuli, Tərtər, Tovuz, Şəmkir, Hacıqabul, Zərdab, Xızı, Xocavənd, Oğuz, Qəbələ rayonları, Gəncə və Mingəçevir şəhərləri ərazisində ev və həyətyanı sahəyə, neft kəmərinin yaxınlığına, Mingəçevir İES-in ərazisinə, Cənubi Qafqaz Boru Kəmərinin yaxınlığına, əkin və otlaq sahələrinə, yol kənarına, meşə massivinə, məktəbə baxış keçirilib, 566 ədəd partlamamış hərbi sursat (PHS), 4 228 ədəd piyada əleyhinə mina, 1 033 ədəd tank əleyhinə mina, 1 736 ədəd tank əleyhinə minanın partladıcısı, 76 ədəd detonator, 1 387 ədəd 9N235 bombacıqları, 10 730 ədəd müxtəlif çaplı patronlar, 2 ədəd qaz qumbarası, 168 qram qara barıt, 26 ədəd hərbi məqsədlər üçün istifadə olunan meteoroloji radiopelenqator, 7 ədəd dron (zərərsizləşdirilmişdir), 2 ədəd raketin mikrosxemi və 1 334 ədəd partlamış raket hissələri aşkar olunub.

**AZƏRTAC**

**Prezidentə yazırlar: Siz müdrik, cəsarətli siyasət yürüdərək Vətən müharibəsində tarixi zəfərə nail oldunuz**

[11:02] 18.11.2020

Azərbaycan vətəndaşlarından, xaricdə yaşayan soydaşlarımızdan, eləcə də qardaş Türkiyənin vətəndaşlarından Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevə minnətdarlıq məktubları gəlməkdə davam edir. Onlar Qarabağ müharibəsində qazandığımız tarixi Qələbəni böyük sevinc və qürur hissləri ilə qarşıladıqlarını bildirirlər.

AZƏRTAC Prezidentin saytına istinadla həmin məktubların daha bir neçəsini təqdim edir.

Türkiyənin İstanbul şəhərindən Fuat Aytan yazır: "Hörmətli cənab Prezident, mən bir türk vətəndaşı kimi ata dediyim Azərbaycanla, Sizinlə, ölkənizlə, dövlətinizlə, əsgərinizlə qürur duyuram. Var olun, sağ olun, Müzəffər Ali Baş Komandan! Ata-baba yurdumun yerləşdiyi torpaqların işğaldan qurtulması məni xoşbəxt etdi. Azərbaycan üçün nələr edə biləcəyimi bilmirəm. Bir evim, bir az da pulum var. Lazım olsa, onları böyük məmnuniyyətlə Azərbaycanın gələcəyi üçün fəda etməyə hazıram. İnşallah, azad olunmuş torpaqları ziyarət etmək, həmin torpaqları öpmək arzum da həyata keçər. Sizin kimi Ali Baş Komandanın qarşısında baş əyirəm".

Antalya şəhərindən Hakan Yağmur: "Hörmətli cənab Prezident, Qarabağın azadlığı üçün göstərdiyiniz əzmkarlıq, qətiyyət və cəsarət Azərbaycan xalqı kimi bizi də qürurlandırdı. Sizin kimi qardaşlarımız olduğu üçün biz xoşbəxtik. Azərbaycan xalqı isə Sizin kimi Lideri olduğuna görə xoşbəxtdir. Hamımız ona görə xoşbəxtik ki, eyni qanı daşıyır, eyni tarixə malikik, ürəklərimiz eyni həyəcanı paylaşır. Mən Türkiyə Respublikasının vətəndaşı olaraq ən səmimi hisslərlə bildirirəm ki, canımızla, qanımızla sizlərin yanında olmaqdan qürur duyuruq. Heç bir qarşılıq gözləmədən hər zaman Azərbaycan xalqının yanındayıq. Bütün cəbhələrdə Sizinlə çiyin-çiyinə dayanmaq, əlimizdən gələni etmək bizim borcumuzdur. Sizə və Azərbaycan xalqına sonsuz sevgi və ehtiramımı çatdırmaq istəyirəm. Unutmayaq ki, bizlər bazara qədər deyil, məzara qədər qardaşıq. Zəfər Azərbaycan xalqınındır!".

Rusiyanın Omsk şəhərindən soydaşımız Emil Cəfərov yazır: "Müzəffər Ali Baş Komandan, Sizi Rusiya Federasiyasının Omsk şəhərindən salamlayıram. Bu məktubu yazmaqda məqsədim bir azərbaycanlı kimi öz səmimi duyğularımı Sizə bildirməkdir. Əziz Prezidentim, xarici dövlətdə yaşamağımıza baxmayaraq, uzun illər Rusiya Federasiyasında məskunlaşan mənfur qonşularımızın vətəndaşları ilə qarşılaşdıqda içimdən utancverici bir hiss keçirdi. Əslində, bu hissləri hər bir Azərbaycan vətəndaşı yaşayıb. Mən bu hissləri büruzə verməsəm də, düşmənə hiss etdirməsəm də qəlbimdə böyük əzab çəkirdim. Qarabağda itirilmiş torpaqlarımız, qətlə yetirilmiş vətəndaşlarımız, körpələr, qocalar, bacı və qardaşlara edilmiş zülmlər bizi çox sarsıtmışdı. Nəhayət, o gün yetişdi. 2020-ci il sentyabrın 27-dən etibarən hər şey dəyişdi. İşğalda olan şəhər, rayon, qəsəbə və kəndlərimizin Ordumuz tərəfindən ard-arda azad edilməsi xəbərlərini verdiyiniz hər çıxışınızı səbirsizliklə gözləyirdik. 30 ildən sonra üzümüzə təbəssüm bəxş etdiniz, bizə əzmkarlıq hissini yaşatdınız. Böyük işlər gördünüz, ölkəmizi dünya səviyyəsində təmsil etdiniz. Dünyaya sübut etdiniz ki, biz birlikdə güclüyük. Azərbaycan xalqı Sizinlə qürur duyur, hər zaman yanınızdayıq. Şəxsən öz adımdan və Omsk vilayətində yaşayan bütün azərbaycanlılar adından 2020-ci il noyabrın 10-da böyük Qələbə sevincini bəxş etdiyiniz üçün Sizə minnətdarlığımı bildirirəm. Sizə uzun ömür, cansağlığı arzulayıram. Yaşasın xalqımız və şanlı Ordumuz! Vətən uğrunda şəhid olmuş bütün qardaşlarıma Allahdan rəhmət, ailələrinə səbir diləyirəm. Qarabağ Azərbaycandır!".

Türkiyənin Bolu şəhərindən Ömər Cengizhanoğlu, Mehmetcan Cengizhanoğlu və Doğanacan Cengizhanoğlu yazırlar: "Hörmətli cənab Prezident, Sizi uca Allahın adı ilə salamlayır, gözəl Türkiyəmizdən, türk xalqının adından sevgi və ehtiramımı bildirirəm. Zəfəri zəfərə calamaqla tarixə düşən Azərbaycan Ordusunu səmimi qəlbdən təbrik edir, hər əsgərin alnından öpürük. Çanakkale, Sakarya döyüşləri ilə türk və dünya tarixinə qızıl hərflərlə yazan türk ordusunun qardaşı olan, ermənilərə tarixi dərs verən Azərbaycan Ordusu bu gün cəbhədən Qələbə ilə qayıdır. Bir yumruq kimi birləşmiş Azərbaycan Ordusu qazandığı qələbələrlə ulu öndər Heydər Əliyevin və minlərlə şəhidin ruhlarını şad etmişdir. Dəyərli Prezidentimiz, bütün sahələrdə apardığınız uğurlu siyasətlə tarixə ad salmış türk fatehlərinin davamçısı olduğunuzu dünyaya göstərdiniz. Mən təqaüddə olan müəlliməm. İnşaat mühəndisi olan və Gülhanə tibb fakültəsində oxuyan oğlumla birlikdə Azərbaycan Ordusu üçün əlimizdən gələn köməyi etməyə hazırıq. Dünyanın hələ də unutmadığı Çanakkale zəfərindən sonra sizlər Qarabağ zəfərini tarixə yazdınız. Bütün türk xalqları Sizin bu qəhrəmanlığınızı unutmayacaqdır. Heç şübhəm yoxdur ki, Qarabağdan zəfərlə dönən

şanlı Azərbaycan Ordusu əsl qəhrəmanlar kimi qarşılanacaq. Onlara bir daha Azərbaycan xalqına və bizlərə yaşatdıqları sevinc və xoşbəxtliyə görə minnətdarlıq bildirirəm. Qarabağın azad olunması münasibətilə keçiriləcək şənliklərdə iştirak etmək ümidi ilə müraciətimi ən ülvi hisslərimi ifadə edən sözlərlə bitirmək istəyirəm:

Salam olsun qızıl qəlbli rəhbərimiz İlham Əliyevə!

Salam olsun Qarabağ yolunda dastan yazan şanlı Azərbaycan Ordusuna!

Salam olsun ordusu ilə milli birlik göstərən qardaş Azərbaycan və türk xalqlarına!".

Zaqataladan Elxan Şabanovun məktubunda deyilir: "Hörmətli Prezident, Müzəffər Ali Baş Komandan, noyabrın 8-də Siz Şuşamızın alınması xəbərini verməklə xalqımıza qələbə sevincini yaşatdınız. Otuz illik böyük bir yükü çiyinləri üzərində gəzdirən, ağrıdan-acıdan qovurulan xalqımız məhz Sizin sayənizdə indi sevinc, zəfər salnaməsinin himni altında qürurla addımlayır. Allah Sizi və rəşadətli Ordumuzu qorusun!".

Gəncə şəhərinin sakini Tahir Cəbrayılov: "Hörmətli Prezident, Müzəffər Ali Baş Komandan, müharibə başlayandan hər gün Sizə məktub yazıb ürək sözlərimi çatdırmaq istəyirdim. Amma böyük günü – Şuşanın işğaldan azad olunması gününü gözləyirdim. Mən Azərbaycanın bir vətəndaşı olaraq ailəmlə birlikdə həmişə Sizə inanmışıq və güvənmişik. Yaşasın Müzəffər Ali Baş Komandanımız və rəşadətli Azərbaycan Ordusu! Elimin şanlı, qəhrəman oğlu, bu böyük Qələbə münasibətilə Sizi ürəkdən təbrik edirəm".

Ağdam sakini Dilrubə Behbudova: "Hörmətli Prezident, Müzəffər Ali Baş Komandan, əzəli və əbədi torpaqlarımız olan Qarabağın düşmənlərdən azad edilməsi haqqında verdiyiniz əmri eşidəndə çox sevindim. Siz bütün dünyaya bizim xalqın, millətin gücünü və qüdrətini bir daha sübut etdiniz. Mənim bu gün sevincimin həddi-hüdudu yoxdur. Mənim oğlum Zəngilan rayonu uğrunda gedən döyüşlərdə - 1992-ci ildə itkin düşüb. Zəngilanın işğaldan azad edilməsi xəbərini eşidəndə çox qəhərləndim, çox sevindim ki, oğlumun uğrunda vuruşduğu torpaq alındı, qisası yerdə qalmadı. Sevimli oğlum, Sizi dünya durduqca yaşayasınız. Siz mənə bu yaşlı vaxtımda bu sevinci yaşatdınız. Allah Sizi və övladlarınızı qorusun. Allah şanlı və qüdrətli Ordumuzu qorusun. Siz biz məcburi köçkünlərin 30 ilə yaxın olan Vətən-torpaq həsrətinə son qoydunuz. Mən ürəyimdən gələn xoş arzuları Sizə çatdırmağı özümə borc bilirəm. Arzu edirəm ki, bütün Qarabağ torpaqlarımız düşmən işğalından tamamilə azad olunsun, Azərbaycanımızın bütövlüyü təmin edilsin və mən Sizi öz torpağımda - Ağdamda öz evimdə çay süfrəsinə qonaq edim. Mən Sizin sözlərinizi çox böyük fəxrlə təkrar edirəm: Qarabağ Azərbaycandır!".

Bakı şəhər sakini Sayad Cəbrayılova: "Hörmətli Cənab Prezident, Müzəffər Ali Baş Komandan, torpaqlarımızın işğaldan azad edilməsinə çox sevinirik. Qarabağımızın 30 illik işğalına son qoyuldu. Qazandığınız hərbi-siyasi uğurlarla qürur duyuruq. Allah Sizi, Ordumuzu və millətimizi qorusun. Şəhidlərimizə Allah rəhmət eləsin. Şəhid analarının qarşısında baş əyirəm. Ümummilli Qələbə təbrikləri Sizindir. Qarabağ Azərbaycandır!".

Beyləqan sakini Nilay Cahangirli: "Möhtərəm cənab Prezident, mənim adım Nilaydır. 10 yaşım var. Mən çox xoşbəxtəm, çünki Sizin komandanlığınız altında torpaqlarımızı geri aldıq. Sizin kimi Prezidentimiz olması ilə, azərbaycanlı olmağım ilə fəxr edirəm. Mən bilirdim ki, Azərbaycan Ordusuna qarşı heç bir ordu qalib gələ bilməz. Mən və ailəm hər zaman Sizə dəstəyik. İnşallah tezliklə bütün həmyerlilərimiz öz ata-baba yurdlarına geri dönərlər. Qələbəmizə görə Sizə təşəkkür edirəm. Sizi və ailənizi də bu qələbə münasibətilə təbrik edirəm. Eşq olsun Azərbaycan Ordusuna! Yaşasın Ali Baş Komandan!".

Naftalan sakini Natiq Məmmədov: "Müzəffər Ali Baş Komandan, mən bu məktubu Sizə fəxrlə, dolu ürəklə və göz yaşı ilə yazıram. Şuşa şəhərinin azad edilməsi bu hissləri keçirməyimə səbəb oldu. Öncə Ulu Öndərimizin ruhu qarşısında baş əyirəm. Məhz onun səyi ilə Orduda vahid Ali Komandanlıq yaradıldı, ölkədə hərc-mərcliyə son qoyuldu. Əldə olunmuş uğurlar gələcək böyük Qələbənin təməlini qoydu. Siz də atanız kimi müdrik, cəsarətli siyasət yürüdərək Ordumuzu gücləndirdiniz, onun siyasətini davam etdirərək Vətən müharibəsində bu uğurlara nail oldunuz. Allah Sizi heç vaxt Azərbaycan Respublikasının Ali Baş Komandanlığından əskik etməsin! Daim ölkəmizin qoruyucu mələyi olasınız!".

Şəmkir sakini Brilyant Quliyeva: "Hörmətli Prezidentimiz cənab İlham Əliyev, hamımıza məlumdur ki, Azərbaycan qədim dövlətçilik ənənələrinə malik bir ölkədir. Xalqımızın tarixdə üzləşdiyi ən böyük fəlakətlərdən biri XX əsrin 90-cı illərinin əvvəlində mənfur düşmənlərimiz olan ermənilər tərəfindən işğala, soyqırımları və vəhşiliklərə məruz qalmasıdır. İki əsrdir torpaqlarımız yadellilərin işğalına məruz qalmış, zaman-zaman torpaqlarımız işğal olunmuşdu. Cənab Prezident, bu gün mən özümü xoşbəxt sayıram. Siz

müdrik və uzaqgörən siyasətinizlə Azərbaycan xalqına şərəfli bir tarix yaşatdınız. Azərbaycan xalqının bu günü və xoşbəxt gələcəyi naminə yorulmadan çalışdınız. Xalq Sizi sevir və ürəkdən dəstəkləyir. Hörmətli Prezidentimiz, Müzəffər Ali Baş Komandanımız, Sizə Kəlbəcər, Şuşa dağları, Zəngilan, Laçın çinarları kimi ucalıq, uzunömürlülük arzulayıram".

Füzuli sakini Məlahət Cəfərova: "Müzəffər Ali Baş Komandan, Sizin rəhbərliyinizlə doğma torpaqlarımızın öz həqiqi sahiblərinə - bizə qaytarılması uğrunda başladığımız haqq mübarizəsində Qələbə bizim oldu. Azərbaycan xalqının necə igidlər yetirdiyini bütün dünya gördü. Qalibiyyəti bizə bəxş edən Sizi və müzəffər Ordumuzu Allah daim qorusun! Qarabağ bizimdir!".

Ağcabədidən Telman Hacıyev: "Hörmətli cənab Prezident, rəhbərliyiniz altında şanlı Ordumuzun işğal altında inləyən torpaqlarımızı azad etməsi və Vətən müharibəsinin bizim Qələbəmizlə başa çatması münasibətilə Sizi səmimi qəlbdən təbrik edirəm. Yorulmaz fəaliyyətinizdə Sizə uğurlar arzulayıram. Qarabağımızı bizə qaytaran Müzəffər Ali Baş Komandan, Allahdan Sizə uzun ömür, cansağlığı diləyirəm. Yaşasın Azərbaycan!".

Xaçmazdan Elxan Mövlamov: "Müzəffər Ali Baş Komandan, Azərbaycanın könüllülərindən ilk şəhid Mövlamov Elçinin ailəsi adından Sizə dərin təşəkkürümüzü bildiririk. Çox sağ olun ki, Siz bu böyük Qələbə sevincini bizə yaşatdınız. Cənab Prezidentimiz, biz Mövlamovlar ailəsi hər il şəhidimizin anım gününü böyük üzüntü və kədərlə keçirirdik. Lakin bundan sonra oğlumuzu qürurla ana biləcəyik. Çünki Elçinimizin və bütün şəhidlərimizin qanı Siz və rəşadətli Ordumuz sayəsində yerdə qalmadı. Rəbbim Sizi və şanlı Ordumuzu qorusun!".

**AZƏRTAC**

**BMT-nin agentlikləri Azərbaycanın münaqişədən əziyyət çəkən rayonlarında ehtiyacların dəyərləndirilməsi missiyasını başa vurub**

[20:11] 19.11.2020

BMT agentliklərinin mütəxəssislərindən ibarət əlaqələndirilmiş qiymətləndirmə missiyasının Azərbaycanın münaqişədən əziyyət çəkən rayonlarına dördgünlük səfəri başa çatıb. Missiya BMT-nin Rezident Əlaqələndiricisinin Ofisi, Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı, Beynəlxalq Miqrasiya Təşkilatı, BMT-nin Humanitar Məsələlərin Əlaqələndirilməsi Ofisi, BMT-nin İnkişaf Proqramı, UNICEF, BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı və Ümumdünya Səhiyyə Təşkilatının nümayəndələrindən ibarət olub.

BMT-nin Azərbaycandakı nümayəndəliyindən AZƏRTAC-a bildirilib ki, missiya üzvləri Bərdə, Ağdam və Ağcabədi rayonlarında icra hakimiyyətlərinin başçıları ilə görüşüblər, eləcə də müvəqqəti məcburi köçkünlər və münaqişədən əziyyət çəkən icmaların yaşadığı yerlərə baş çəkiblər. Onlar, həmçinin mülki evlər və infrastruktura dəyən ziyanı qiymətləndirmək üçün münaqişə zonasının yaxınlığında yerləşən kənd və qəsəbələrə səfər ediblər. Əsas ehtiyacları anlamağa imkan verən və hökumətin fəaliyyətlərini dəstəkləmək üçün müxtəlif sektorlarda müvafiq humanitar cavab mexanizmlərini planlaşdırmaq məqsədilə missiyanın nəticələrinə dair hesabat hazırlanacaq.

**AZƏRTAC**

**Moldova saytı ermənilərin Qarabağda ekoloji terror törətməsindən yazıb**

[18:36] 19.11.2020

Moldovanın nüfuzlu NOİ.md saytında Azərbaycanın bu ölkədəki səfiri Qüdsi Osmanovun ermənilərin Kəlbəcər, Laçın və Ağdam rayonlarında ekoloji fəlakətlər törətməsinə dair bəyanatı dərc olunub.

AZƏRTAC xəbər verir ki, bəyanatda ermənilərin işğal altındakı rayonlarımızı tərk edərkən törətdikləri vandalizm hərəkətləri qeyd olunub.

Bəyanatda bildirilir ki, son günlərdə Kəlbəcərdən çəkilən görüntülər bütün dünyanı təəccübləndirib, ermənilərin oradan çıxmazdan əvvəl yol boyu evləri, dükanları, məktəbləri, xəstəxanaları yandırdıqlarını göstərir.

"Meşələrin yandırılması və ağacların kütləvi şəkildə kəsilməsi vandalizm, ekoloji terrordur, çünki söhbət canlı təbiətdən gedir. Qarabağın meşələri onun zənginliyidir. Oradakı ağacların orta yaşı 165 ildir. Ağaclar o qədər sıx böyüyür ki, meşə yarı kol kimi görünür", - deyə Q.Osmanov vurğulayıb.

Səfir, həmçinin bu vandalizm hərəkətlərinə dair video və fotoların tanınmış erməni KİV-ləri tərəfindən yayımlandığını, bu hərəkətləri öz nəşrlərində "əsaslandırdıqları"na və məqalələrin altında bir çox üsyankar şərhlərin yer almasına da təəccübləndiyini bildirib.

Bəyanatda Azərbaycanın rəsmi qurumlarının ermənilərin bu vandal hərəkətlərinə dair mövqeyi də yer alıb.

**Emil Hüseynli**
**AZƏRTAC-ın xüsusi müxbiri, Kişineu**

**AZƏRTAC**

**Azərbaycan Ordusunun bölmələri Ağdam rayonuna daxil olub**

[08:00] 20.11.2020

Azərbaycan Respublikasının Prezidenti, Ermənistan Respublikasının baş naziri və Rusiya Federasiyasının Prezidentinin imzaladığı 3 tərəfli Bəyanata əsasən Azərbaycan Ordusunun bölmələri noyabrın 20-də Ağdam rayonuna daxil olub.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Ağdam rayonundan foto və videomateriallar gün ərzində təqdim olunacaq.

**AZƏRTAC**

**ANAMA-nın əməliyyat-axtarış tədbirləri uğurla davam etdirilir**

[02:02] 20.11.2020

Noyabrın 18-19-da Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyə (ANAMA) Ağcabədi, Ağdam, Bərdə, Füzuli, Goranboy, Tərtər rayonları və Mingəçevir şəhəri ərazisində mərmilərin aşkar olunması barədə Daxili İşlər Nazirliyinin ″102″ Xidməti-Zəng mərkəzi sistemindən – 61 (altımış bir) və Fövqəladə Hallar Nazirliyinin Böhran Vəziyyətlərində İdarəetmə mərkəzindən – 5 (beş) müraciət daxil olub.

ANAMA-dan AZƏRTAC-a bildirilib ki, daxil olmuş 66 çağırış əsasında agentliyin xüsusi mobil çevik əməliyyat qrupları tərəfindən Daxili İşlər Nazirliyinin əməkdaşları ilə birlikdə 65 operativ və təxirəsalınmaz əməliyyat çıxışı həyata keçirilib. Aparılmış əməliyyat-axtarış tədbirləri zamanı 55 ədəd partlamamış hərbi sursat (PHS) və 119 ədəd partlamış mərmi qalıqları aşkar olunub.

Agentliyin partlayış qrupu tərəfindən 12 ədəd partlamamış hərbi sursat (PHS), 2 ədəd bombacıq zərərsizləşdirilib, Mina Təhlükəsinə dair Maarifləndirmə üzrə mütəxəsisslər tərəfindən 52 247 nəfər mülkü şəxs arasında mina təhlükəsizliyinə dair maarifləndirmə təbliğatı aparılıb.

**AZƏRTAC**

**Prezident İlham Əliyev: Ağdam rayonu bizə bir güllə atmadan, bir nəfər də şəhid vermədən qayıdır**

[12:35] 20.11.2020

Onlar bu istehkamları qurarkən və eyni zamanda, digər addımlar atarkən bir məqsədi güdürdülər ki, bu işğalı əbədi etsinlər. Əks-təqdirdə, onlar bizim tarixi şəhərlərimizin, kəndlərimizin adlarını dəyişdirməzdilər. Ağdama bir eybəcər ad veriblər, Füzuliyə başqa bir eybəcər ad veriblər. Yeni xəritələr tərtib ediblər və bu xəritələrdə qondarma "Dağlıq Qarabağ respublikası" keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətini yox, işğal edilmiş digər bütün torpaqları da əhatə edirdi və bunu onlar beynəlxalq ictimaiyyətə təqdim edirdilər.

AZƏRTAC xəbər verir ki, bu fikirləri Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev noyabrın 20-də xalqa müraciətində səsləndirib.

Dövlətimizin başçısı sözünü davam etdirərək deyib: "Mən bu məsələ ilə məşğul olan vasitəçilərə dəfələrlə demişdim ki, siz buna diqqət yetirin. Siz indi bu məsələnin sülh yolu ilə həll olunmasından danışırsınız. Amma biz bunun tam əksini görürük. Görürük ki, Azərbaycan irsi bu torpaqlarda silinir, Azərbaycan abidələri, tarixi abidələr erməniləşdirilir, Azərbaycan məscidləri dağıdılır, bizim bütün tarixi-mədəni irsimiz silinir, yeni xəritələr tərtib edilir. Ermənistan məktəbləri üçün hazırlanan dərsliklərdə qondarma "Dağlıq Qarabağ respublikası"nın xəritələri dərc edilərkən orada işğal edilmiş bütün torpaqlar bu qondarma quruma aid edilir... İndi nə oldu bu xəritələr? İndi bu xəritələr cəhənnəmə getdi, bu xəritələr artıq yoxdur".

Prezident qeyd edib ki, indi Kəlbəcər rayonunu boşaldan işğalçılar bütün evləri, binaları, məktəbləri dağıdırlar, sökürlər, öz vəhşiliklərini göstərirlər. "Bütün beynəlxalq aparıcı media qurumları bunu lentə alır və dünyaya yayır, biabır edir onları. Onlar özləri özlərini biabır edirlər, qorxaqcasına qaçıblar bizim qabağımızdan. Bizim qabağımızda duruş gətirə bilmədilər. Özlərini yenilməz ordu adlandıranlar, döyüşkən xalq adlandıranlar, bəs nə oldu sizin döyüşkən ordunuz? Haradadır bu? Pərən-pərən oldu, vurduq, dağıtdıq, məhv etdik. Yoxdur Ermənistan ordusu, biz onu məhv etmişik. Bizim döyüş meydanındakı qələbəmiz siyasi qələbəmizi də şərtləndirdi. Ağdam rayonu bizə bir güllə atmadan, bir nəfər də şəhid vermədən qayıdır. Bu, böyük siyasi uğurumuzdur. Amma əgər o hərbi qələbə olmasaydı, bu da mümkün olmazdı", - deyə Müzəffər Ali Baş Komandan vurğulayıb.

**AZƏRTAC**

**Prezident: Füzuli-Şuşa yolunun çəkilişinə başlamaqla Qarabağda ilk böyük layihəyə start vermişik**

[12:13] 20.11.2020

Əslində, bizim bərpa işlərimiz artıq başlanıb. Füzulidən Şuşaya yeni yolun çəkilişi ilə bağlı bütün müvafiq göstərişlər verilib, Prezidentin ehtiyat fondundan ilkin olaraq 50 milyon manat vəsait ayrılıb. Ancaq bu vəsait kifayət etməyəcək. Gələn il əlavə vəsait ayrılacaq.

AZƏRTAC xəbər verir ki, bunu Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev noyabrın 20-də xalqa müraciətində bildirib.

Dövlətimizin başçısı deyib: “Mənim göstərişimlə Əhmədbəyli-Alxanlı-Füzuli-Şuşa yolu bir neçə hissəyə bölünüb. Göstəriş vermişəm, bir neçə şirkət cəlb edilsin ki, biz vaxt itirmədən və qısa müddət ərzində bu yolu çəkək. Çünki Azərbaycan vətəndaşları bilirlər ki, əvvəllər Şuşaya gedən yol Ağdam-Xankəndi yolu idi, indi isə hələlik bu yoldan istifadə etmək mümkün deyil. Noyabrın 10-da imzalanmış üçtərəfli bəyanatda göstərilir ki, bütün kommunikasiyalar açılacaq, o cümlədən hesab edirəm ki, Ağdam-Xankəndi-Şuşa avtomobil yolu da müəyyən müddətdən sonra açılacaqdır. Hesab edirəm ki, kommunikasiyaların açılması, eyni zamanda, Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın əsas hissəsini birləşdirən yollar və kommunikasiyalar gələcəkdə bölgədə uzunmüddətli sülhə də öz töhfəsini verəcəkdir”.

Prezident qeyd edib ki, bu işlər planlı şəkildə öz həllini tapacaq. “Biz artıq birinci böyük layihəyə start verdik. Eyni qayda ilə biz Ağdam şəhərini və onun bütün infrastrukturunu bərpa etmək üçün ardıcıl addımlar atacağıq. Ağdamlılar və işğaldan azad edilmiş bütün başqa rayonların sakinləri əmin ola bilərlər ki, Azərbaycan dövləti hər zaman onların yanında olacaqdır”, - deyə dövlətimizin başçısı vurğulayıb.

**AZƏRTAC**

**Azərbaycan Prezidenti İlham Əliyev xalqa müraciət edib**

[12:01] 20.11.2020

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev xalqa müraciət edib.
AZƏRTAC müraciəti təqdim edir.

**Prezident İlham Əliyevin xalqa müraciəti**

-Əziz həmvətənlər.

Mən sizi Ağdam rayonunun işğaldan azad olunması münasibətilə ürəkdən təbrik edirəm. Bütün ağdamlıları ürəkdən təbrik edirəm. Əziz ağdamlılar, siz artıq köçkün deyilsiniz. Siz doğma dədə-baba torpağınıza qayıdacaqsınız.

Ağdam rayonunun işğaldan azad olunması noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanatın nəticəsidir. Mən dəfələrlə demişdim ki, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli həm siyasi, həm hərbi yollarla mümkündür. Biz uzun illər ərzində bu məsələni siyasi yollarla həll etməyə çalışırdıq. Ancaq bütün dünya gördü ki, məhz Ermənistanın mövqeyinə görə bu məsələ öz həllini tapmamışdır və məsələnin hərbi yollarla həll edilməsi bizim qanuni hüququmuz idi. Bu hüququ beynəlxalq norma və prinsiplər tanıyır. Bu hüquq bizə BMT Nizamnaməsi tərəfindən verilibdir. Hər bir ölkə özünü müdafiə edə bilər və biz də özümüzü müdafiə etmişik.

Ağdam rayonunun işğaldan azad olunması tarixi hadisədir. Deyə bilərəm ki, işğal edilmiş rayonların arasında əhalinin sayına görə Ağdam ən böyük rayondur. İşğaldan əvvəl Ağdam rayonunda 143 min insan yaşayırdı. Hazırda Ağdam rayon sakinlərinin sayı 204 mindir. Rayonun 73 faizi işğal edilmişdi və qalan ərazilərdə - bizim nəzarətimizdə olan ərazilərdə biz son illər ərzində böyük quruculuq, abadlıq işləri aparmışıq. Biz Quzanlı kəndinə qəsəbə statusu verdik və Quzanlını faktiki olaraq Ağdam rayonunun mərkəzinə çevirdik. Mənim göstərişimlə Quzanlıda sosial obyektlər, infrastruktur və sənaye müəssisələri yaradılmışdır. İnsanlar üçün iş yerləri yaradıldı. Quzanlı təbii qazla təchiz edildi, orada bütün digər infrastruktur layihələri icra olundu, böyük Olimpiya İdman Kompleksi, xəstəxana, məktəblər, Muğam Mərkəzi inşa edilmişdir. Bütün bu obyektlərin açılışlarında mən şəxsən iştirak etmişəm. Onu da bildirməliyəm ki, son illər ərzində mənim göstərişimlə Ağdam rayonunun bizim nəzarətimizdə olan hissəsində 18 köçkün şəhərciyi salınmışdır və biz Ağdam rayonuna 93 min köçkünü yerləşdirə bildik. Görülmüş işlər və böyük investisiyalar hesabına bu gün Ağdam rayonunun əhalisinin 45 faizi Ağdam rayonunun ərazisində yaşayır.

İndi isə Ağdam üçün yeni dövr başlayır. Bizim böyük planlarımız var. İşğal edilmiş torpaqlarda hər şey dağıdılıb. Mənim Füzuli və Cəbrayıla səfərlərim mətbuat tərəfindən işıqlandırılıb və hər kəs, bütün dünya gördü ki, hansı vəhşi düşmənlə biz üz-üzə qalmışdıq. Nə Cəbrayılda, nə Füzulidə bir dənə də salamat bina qalmayıb, yalnız hərbi hissə və hərbi hissəyə aid olan bəzi tikililər. Qalan bütün infrastruktur, bütün binalar, evlər, tarixi abidələr, dini abidələrimiz vəhşi düşmən tərəfindən dağıdılıb.

Mən orada o dağıntılar arasında Azərbaycan xalqına müraciət edərək demişdim ki, biz bu torpaqları, bu şəhərləri, bu kəndləri bərpa edəcəyik. Ermənilər hesab edirdilər ki, bu dağıntılardan sonra heç vaxt Azərbaycan əhalisi bu torpaqlara qayıtmayacaq. Səhv etdilər. Onlar bilmirlər ki, Azərbaycan xalqının ürəyində - bizim xalqımızın qəlbində doğma torpaqlar əbədi yaşayır və yaşayacaq. Bizim bütün köçkünlərimiz bu illər ərzində bir arzu ilə yaşayıblar ki, öz doğma torpaqlarına qayıtsınlar, dövlətin dəstəyi və köməyi ilə orada özləri üçün yeni həyat qursunlar.

Biz Ağdam şəhərini də bərpa edəcəyik. Əlbəttə ki, bunun üçün biz bütün işləri əsaslı şəkildə etməliyik. Baş plan hazırlanacaq, mütəxəssislər cəlb olunacaq, infrastruktur layihələri planlı şəkildə icra ediləcək, inzibati binalar, sosial obyektlər, yollar və digər lazım olan işlər görüləcək. Vətəndaşlara oraya qayıtmaq üçün dövlət tərəfindən kömək göstəriləcək. Ona görə Ağdam rayonunun bərpası bizim gələcək planlarımızda xüsusi yer tutacaq. Çünki həm ərazi baxımından böyük rayondur, eyni zamanda, dediyim kimi, əhali baxımından ən böyük rayondur.

Əslində, bizim bərpa işlərimiz artıq başlanıb. Füzulidə olarkən Füzulidən Şuşaya yeni yolun çəkilişi ilə bağlı bütün müvafiq göstərişlər verilib, Prezidentin ehtiyat fondundan vəsait ayrılıb, ilkin olaraq 50 milyon manat. Ancaq bu vəsait kifayət etməyəcək. Gələn il əlavə vəsait ayrılacaq. Mənim göstərişimlə

Əhmədbəyli-Alxanlı-Füzuli-Şuşa yolu bir neçə hissəyə bölünüb. Göstəriş vermişəm, bir neçə şirkət cəlb edilsin ki, biz vaxt itirmədən və qısa müddət ərzində bu yolu çəkək. Çünki Azərbaycan vətəndaşları bilirlər ki, əvvəllər Şuşaya gedən yol Ağdam-Xankəndi yolu idi, indi isə hələlik bu yoldan istifadə etmək mümkün deyil. Noyabrın 10-da imzalanmış üçtərəfli bəyanatda göstərilir ki, bütün kommunikasiyalar açılacaq, o cümlədən hesab edirəm ki, Ağdam-Xankəndi-Şuşa avtomobil yolu da müəyyən müddətdən sonra açılacaqdır. Hesab edirəm ki, kommunikasiyaların açılması, eyni zamanda, Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın əsas hissəsini birləşdirən yollar və kommunikasiyalar gələcəkdə bölgədə uzunmüddətli sülhə də öz töhfəsini verəcəkdir.

Bu işlər planlı şəkildə öz həllini tapacaq. Biz artıq birinci böyük layihəyə start verdik. Eyni qayda ilə biz Ağdam şəhərini və onun bütün infrastrukturunu bərpa etmək üçün ardıcıl addımlar atacağıq. Ağdamlılar və işğaldan azad edilmiş bütün başqa rayonların sakinləri əmin ola bilərlər ki, Azərbaycan dövləti hər zaman onların yanında olacaqdır.

Ağdamın işğaldan azad edilməsi şanlı hərbi Qələbə nəticəsində mümkün olmuşdur. Əgər Azərbaycan Ermənistanı döyüş meydanında məğlub etməsəydi, Ermənistan öz xoşu ilə bizim torpaqlarımızdan çıxmayacaqdı. Bunu deməyə əsas verən bir çox amillər var. İlk növbədə, o bölgələrdə - işğal edilmiş torpaqlarda qurulmuş istehkamlar, oraya böyük vəsait xərclənib. O istehkamlar elə qurulub ki, Azərbaycan Ordusu oradan keçə bilməsin. Amma yenə də səhv etdilər. Bizim gücümüzü düzgün hesablaya bilmədilər. Bilmirdilər ki, bu gün Azərbaycan Ordusu, Azərbaycan vətəndaşı nəyə qadirdir. Bilmirdilər ki, bizi o Qələbəyə aparan həm gücümüzdür, texniki təchizatımızdır, həm də mənəvi ruhumuzdur. Bilmirdilər ki, Azərbaycan xalqı bütün bu illər ərzində bir arzu ilə yaşayır ki, öz dədə-baba torpağına qayıtsın. Bütün bu amillər və digər amillər bu Qələbəni şərtləndirdi.

Ona görə onlar bu istehkamları qurarkən və eyni zamanda, digər addımlar atarkən bir məqsədi güdürdülər ki, bu işğalı əbədi etsinlər. Əks-təqdirdə, onlar bizim tarixi şəhərlərimizin, kəndlərimizin adlarını dəyişdirməyəcəkdilər. Ağdama bir eybəcər ad veriblər, Füzuliyə başqa bir eybəcər ad veriblər. Yeni xəritələr tərtib ediblər və bu xəritələrdə qondarma "Dağlıq Qarabağ respublikası" keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətini yox, işğal edilmiş digər bütün torpaqları da əhatə edirdi və bunu onlar beynəlxalq ictimaiyyətə təqdim edirdilər.

Mən bu məsələ ilə məşğul olan vasitəçilərə dəfələrlə demişdim ki, siz buna diqqət yetirin. Siz indi bu məsələnin sülh yolu ilə həll olunmasından danışırsınız. Amma biz bunun tam əksini görürük. Görürük ki, Azərbaycan irsi bu torpaqlarda silinir, Azərbaycan abidələri, tarixi abidələr erməniləşdirilir, Azərbaycan məscidləri dağıdılır, bizim bütün tarixi-mədəni irsimiz silinir, yeni xəritələr tərtib edilir. Ermənistan məktəbləri üçün hazırlanan dərsliklərdə qondarma "Dağlıq Qarabağ respublikası"nın xəritələri dərc edilərkən orada işğal edilmiş bütün torpaqlar bu qondarma quruma aid edilir. Ermənistan xarici dillərdə nəşr etdiyi kitablarda, bukletlərdə qondarma qurumu təqdim edərkən işğal olunmuş bütün torpaqlar əhatə edilir. Onlar qanunsuz yollarla beynəlxalq sərgilərdə iştirak edərkən də eyni hərəkətləri edirlər. Yaxşı, bəs, necə olacaq, siz deyirsiniz ki, bu, sülh yolu ilə həll ediləcək.

İndi nə oldu bu xəritələr? İndi bu xəritələr cəhənnəmə getdi, bu xəritələr artıq yoxdur. İndi Kəlbəcər rayonunu boşaldan işğalçılar bütün evləri, binaları, məktəbləri dağıdırlar, sökürlər, öz vəhşiliklərini göstərirlər. Bütün beynəlxalq aparıcı media qurumları bunu lentə alır və dünyaya yayır, biabır edir onları. Onlar özləri özlərini biabır edirlər, qorxaqcasına qaçıblar bizim qabağımızdan. Bizim qabağımızda duruş gətirə bilmədilər. Özlərini yenilməz ordu adlandıranlar, döyüşkən xalq adlandıranlar, bəs nə oldu sizin döyüşkən ordunuz? Haradadır bu? Pərən-pərən oldu, vurduq, dağıtdıq, məhv etdik. Yoxdur Ermənistan ordusu, biz onu məhv etmişik. Bizim döyüş meydanındakı qələbəmiz siyasi qələbəmizi də şərtləndirdi. Ağdam rayonu bizə bir güllə atmadan, bir nəfər də şəhid vermədən qayıdır. Bu, böyük siyasi uğurumuzdur. Amma əgər o hərbi qələbə olmasaydı, bu da mümkün olmazdı.

Ağdamlılar Birinci Qarabağ müharibəsində qəhrəmancasına vuruşmuşlar, çoxlu şəhidlər vermişlər. İkinci Qarabağ müharibəsində - Vətən müharibəsində də cəsarətlə vuruşmuşlar, şəhidlər vermişlər. Mən fürsətdən istifadə edərək bu Qələbəni bizə bəxş edən bütün şəhidlərimizi yad etmək istəyirəm, Allah onlara rəhmət eləsin, Allah onların yaxınlarına səbir versin. Şəhidlərimizin valideynlərinə, yaxınlarına bir daha müraciət edərək onlara öz təşəkkürümü bildirirəm ki, belə gözəl, igid övladlar yetişdiriblər dövlətimiz üçün, xalqımız üçün. Yaralı əsgərlərimizə, zabitlərimizə tezliklə normal həyata qayıtmağı arzu edirəm. Allah onlara şəfa versin. Onların reabilitasiyası ilə bağlı artıq tədbirlər planı hazırlanır, müvafiq göstərişlər verilib. Onlar daim diqqət mərkəzində olacaqlar.

Beləliklə, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi artıq arxada qalır və bunu beynəlxalq ekspertlər də qeyd edirlər. Azərbaycan döyüş meydanında parlaq Qələbə qazanaraq siyasi meydanda da istədiyinə nail ola bilmişdir. Bu torpaqların abadlaşdırılması ilə bağlı tədbirlər görüləcək. İlk növbədə, minalardan təmizləmə işləri aparılmalıdır. Bu da çox vaxt aparan bir məsələdir. Çünki mənfur düşmən böyük əraziləri minalaşdırıb. Ondan sonra infrastruktur layihələri ilə bağlı işlər aparılmalıdır. Artıq göstəriş verilib, mövcud infrastruktur təhlil edilir. Bizim indi peyk imkanlarımız və digər imkanlar var. Mən Füzuli və Cəbrayıl rayonlarına səfər edərkən artıq qısa müddət ərzində salınmış yeni yoldan istifadə etdim. O müvəqqəti yoldur, amma hər halda, bu yoldan istifadə etmək olar. Yəni, bütün bu işləri biz görəcəyik və bizim böyük qayıdış planımız hazırda tərtib edilir.

Müharibəyə gəldikdə, bir daha deməliyəm ki, Azərbaycan əsgəri, zabiti qəhrəmanlıq göstərib. Lakin Ermənistan ordusundan fərarilik edənlərin sayı 10 mini ötüb, özü də bunu onlar özləri deyirlər, onların rəsmi şəxsləri deyirlər - 10 mindən çox fərari olub. İndi bu, bir daha göstərir ki, hansı ordu yenilməz ordudur? Hansı ordu qəhrəman ordudur? Onların ordusu, əslində, o quldur dəstəsi yalnız mülki, əliyalın insanlara qarşı müharibə apara bilərdi. Xocalı qatilləri, kəndlərimizi yandıran, insanlarımızı, mülki şəxsləri öldürən digər qatillər hərbçi sayıla bilməz. Onların ordusu oğrulardan ibarətdir. Son iki il ərzində nə qədər oğru erməni generalı həbs edildi?! Tuşonka satan, əsgərin payını satan generallar oğrudurlar. Onların “qəhrəmanları” qorxaqdırlar, onların rəhbərləri cinayətkardırlar. Ermənistan rəhbərliyi artıq özü bunu deyir ki, 20 il ərzində - 1998-ci ildən 2018-ci ilə qədər bu ölkəyə quldurlar, oğrular, qorxaqlar, fərarilər rəhbərlik edib. Son iki il yarım ərzində isə kim rəhbərlik edib? Artıq bütün dünya görür və bu ölkəyə hansı ad vermək olar? Ancaq bir ad – uğursuz ölkə. Bu uğursuzluğun səbəbi nədir? İşğal! Mən bunu dəfələrlə demişəm. Hər kəs baxa bilər mənim çıxışlarıma, müsahibələrimə. Demişəm ki, bu işğal Ermənistanı uçuruma aparacaq. Demişəm ki, biz heç vaxt bu işğalla barışmayacağıq, gec-tez torpağımızı qaytaracağıq. Ancaq Ermənistan o tarixi şansı itirəcək. Ermənistan bu 30 ilə yaxın müddətdə müstəqil ölkə ola bilmədi, bu gün də müstəqil deyil. Ermənistan faktiki olaraq müstəmləkədir. Bu idimi erməni xalqının arzuları? Bu idimi onların gözləntiləri? Onlar nə üçün müstəqil ölkə ola bilmədilər? İşğala görə. İşğaldan nə qazandılar? Heç nə. Biabır oldular siyasi müstəvidə, bütün beynəlxalq təşkilatlarda biz fəal iş apararaq onları biabır etdik və bizə lazım olan, beynəlxalq hüququ tələb edən qətnamələr, qərarlar qəbul olundu. Onlar döyüş meydanında məğlub olaraq bütün dünya qarşısında rəzil oldular. Bundan sonra bu damğa ilə yaşayacaqlar, “məğlub edilmiş ölkə” damğası ilə yaşayacaqlar. Onlar Bakıda, Gəncədə, bizim başqa şəhər, rayonlarımızda yaşayırdılar. Onlara söz deyən var idi? Yox. Onlar bundan məhrum oldular. Bizim xalqımızı oradan qovaraq, etnik təmizləmə siyasəti apararaq buradan da getməli oldular. Nə qazandılar? Heç nə. İndi isə bax, bu rəzil durumda bir-birini didirlər, olan-qalan dövlətçiliyi də məhv edirlər. Mən o vaxt demişdim ki, onlar ağıllarını başlarına yığsınlar, bu işğala son qoysunlar. Bu işğal davam etdikcə Ermənistan inkişaf edə bilməz və bilmədi. Siyasi cəhətdən asılı, hərbi cəhətdən asılı, iqtisadi cəhətdən natamam. İdeologiya baxımından çox ziyanlı bir ideoloji əsaslar formalaşdırıblar. Bunların ideoloji əsasları yalan üzərində qurulub, tarixi saxtakarlıq üzərində qurulub və keçmiş üzərində qurulub. Saxtalaşdırılmış keçmişdən əl çəkə bilməyən ölkə necə qabağa gedə bilər? Baxın, dünyada nə qədər müharibələr olub. Elə bu son 100 ili, 200 ili götürün. Nə qədər insanlar həlak olub müharibələrdə. Kim bu ədavəti, kim bu kini-küdurəti yaşadıb öz ürəyində illərlə? Kim öz uşaqlarını nifrət hissi ilə böyüdüb? Budur, bunun gələcəyi, budur, bunun reallıqları. Sovet İttifaqı Almaniya ilə müharibə zamanı on milyonlarla insan itirib, 10 il, 20 il keçəndən sonra artıq barışıq olub. İndi Rusiya ilə Almaniya arasındakı münasibətlər normal inkişaf edir. Avropa ölkələri özləri. Fransa İtaliya ilə nə qədər müharibə aparıb. Almaniya ilə Fransa nə qədər müharibə aparıb. Hansı ölkənin xalqı bu nifrəti öz ürəyində yaşadır, bunu, necə deyərlər, alovlandırır. Bax, budur, Ermənistanı bu günə salan. Onlar bütün öz bəlalarında özləri günahkardır. Digər tərəfdən, qonşularla normal münasibət qura bilməyən ölkə necə inkişaf edə bilər? Türkiyəyə qarşı ərazi iddiası. Heç ağlı yoxdur. Türkiyə kimi böyük bir ölkəyə qarşı ərazi iddiası irəli sürmək özünəqəsd deməkdir. Azərbaycana qarşı ərazi iddiası. Onlar bu iddianı müəyyən müddət ərzində reallaşdıra bilmişdilər, bizim torpaqlarımızı işğal etmişdilər, qonşu xalqı didərgin salmışdılar. Hesab edirdilər ki, onlar haqlıdır və saxta tarix yaradırdılar. İndi onlar bütün başqa ölkələrdən yardım gözləyirlər. Elə bil ki, bütün dünya bunlara borcludur. Müstəqil ölkəsən, müstəqil ölkə kimi yaşa. Müstəqil ölkə kimi yaşaya bilmirsən, get başqa ölkənin tərkibinə gir. Endir o bayrağı dirəkdən, bük, qoy cibinə, get başqa ölkənin tərkibində yaşa. Onlar özləri öz bəlalarının səbəbkarlarıdır. Onlara vurulmuş bu zərbə, onların başına gələn bu hadisələr bəlkə də onları ayıltdı ki, onlar normal ölkə kimi bundan sonra yaşaya bilsinlər, əgər düzgün seçim etsələr, əgər qonşularla münasibətləri normallaşdırsalar.

Mən nə üçün bu barədə danışıram?! Çünki biz bu bölgədə yaşayırıq və istər-istəməz bu qonşuluq davam edəcək, istəsək də, istəməsək də. Mən ölkə Prezidenti və Ali Baş Komandan kimi maraqlıyam ki, bölgəmizdə, Cənubi Qafqazda ədavətə artıq son qoyulsun və normal, işgüzar münasibətlər qurulsun. Hər halda, biz bunu istəyirik. Mən müharibə dövründə demişəm, bir daha deyirəm, bizim erməni xalqı ilə heç bir problemimiz yoxdur. Biz erməni xalqına qarşı enik təmizləmə aparmamışıq, necə ki, onlar bizə qarşı aparıblar. Biz onların tarixi abidələrini dağıtmamışıq, biz onları qoruyuruq və bildiyiniz kimi, bu məsələ ilə bağlı önəmli addımlar atmışıq.

Biz onların şəhərlərini dağıtmamışıq, halbuki dağıda bilərdik. Şuşanı götürəndən sonra Xankəndini dağıtmaq nə böyük problem idi. Bir gün ərzində dağıda bilərdik. Biz etdikmi bunu? Yox. Amma onlar nə günə saldılar bizim şəhərlərimizi. Ona görə bizim erməni xalqı ilə problemimiz yoxdur. Bir daha demək istəyirəm ki, vahid Azərbaycan dövlətində yaşayan bütün xalqlar bərabər hüquqlara malikdir, o cümlədən erməni xalqı. Azərbaycanda minlərlə erməni yaşayır. Onlara bir söz deyən var ölkəmizdə? Yox. Azərbaycan vətəndaşları kimi normal yaşayırlar. Əminəm, bu gün Dağlıq Qarabağda yaşayan ermənilər də gün gələcək başa düşəcəklər ki, onlar üçün yeganə yol Azərbaycan xalqı ilə yanbayan yaşamaq, qonşuluq şəraitində yaşamaq və bütün bu çirkin əməllərdən əl çəkməkdir.

O ki qaldı, bu gün Ermənistan tərəfindən növbəti bir uydurmanın ortalığa atılmasına, mən ona da aydınlıq gətirmək istəyirəm. İndi belə bir rəqəm səsləndirirlər ki, guya, Dağlıq Qarabağdan 90 min erməni qaçıb, qaçqın olub. Yalandır. Dağlıq Qarabağ ərazisində və işğal edilmiş bizim torpaqlarda İkinci Qarabağ müharibəsinə qədər maksimum 60-65 min insan yaşayıb. Biz bunu haradan öyrənmişik? Bizdə operativ məlumat var. Bizim o bölgədə bir çox informasiya mənbələrimiz var və bizim uğurlarımızın səbəblərindən biri də məhz bundadır. Biz tam dəqiqliklə bilirdik və bilirik indi orada nə baş verir, onların xunta başçısı harada gizlənir. Yəqin o da bilir ki, biz bilirdik. Ona görə burnunu çıxara bilmirdi küçəyə, bunkerdə otururdu. Bizim məlumatımız var, mənbələrimiz var, peyk görüntüləri var. Ona görə mən tam əminliklə deyirəm ki, Dağlıq Qarabağda, o cümlədən işğal edilmiş torpaqlarda maksimum 65 min insan yaşayıb. Yaxşı, belə olan halda 90 min qaçqın haradan gəldi? Yenə saxtakarlıq, yenə yalan. İndi yenə məliyə-məliyə, sürünə-sürənə onun-bunun ətəyindən yapışacaq ki, mənə kömək edin. “Mənə kömək edin” onların ideologiyasının əsas prinsipidir. Bu ideologiya ilə hansı xalq inkişaf edə bilər? Ancaq kimdənsə, nə isə gözləmək, ummaq və ondan sonra küsmək, incimək, tələb irəli sürmək kimə xeyir gətirib bu günə qədər?

Biz qaçqınların sayı ilə bağlı bu yalanları ifşa edəcəyik və əgər bu qaçqınlar olubsa, o, bizim günahımız deyil. Çünki biz mülki əhaliyə qarşı vuruşmamışıq. Onlar mülki əhaliyə qarşı vuruşublar. Bizim mülki vətəndaşlar arasında 94 şəhidimiz var, 400-dən çox yaralı mülki şəxs var, 3000-dən çox evimiz dağıdılıb. Onlarda mülki şəxslər arasında itkilər qat-qat aşağıdır. Amma onlar bizim mülki əhalini məqsədyönlü şəkildə vururdular. Gəncəni ballistik raketlərlə vurmuşdular. Kasetli bombalarla Bərdəni vurmuşdular, fosforlu bombalarla. Bu, hərbi cinayətdir. Tərtər şəhəri demək olar ki, dağıdılıb. Ən çox mərmi düşən Tərtər idi. Hər səhər mənə məlumat verilirdi nə qədər mərmi düşür. Gün var idi ki, bir şəhərə, özü də balaca şəhərə iki min mərmi düşürdü. Bu, erməni vəhşiliyi deyilmi? Xocalı soyqırımının təkrarı deyilmi? Görün biz kimlərlə üz-üzə idik və biz kimi məğlub etmişik? Yenə də deyirəm, bu, təkcə ərazi bütövlüyümüzün bərpası deyil, erməni faşizminin belinin qırılmasıdır. Biz bölgəni erməni faşizmindən xilas etdik, dünyanı erməni faşizmindən xilas etdik. Amma baş qaldıra bilər. Ancaq biz imkan verməyəcəyik. Hər kəs bunu bilsin. Özümüzü müdafiə etmək üçün istənilən addımı atacağıq. Öz vətəndaşlarımızı müdafiə etmək üçün istənilən addımı atacağıq və heç kim bizi saxlaya bilməz. Bu 44 gün ərzində bütün dünya gördü. Heç kim bizim qabağımızda dura bilməz, bizə şərt qoya bilməz. Bizə müharibənin ilk günlərində şərt qoymaq istəyən, hədələmək istəyən, şərləmək istəyən ölkələrin, bəzi Qərb ölkələrinin nümayəndələri sərt cavabımızı aldılar. Gördülər, biz o ölkələrdən deyilik ki, kiminsə qabağında baş əyək və mən də o liderlərdən deyiləm ki, kimdənsə nə isə qəbul edim, hansısa sözü. Artıqlaması ilə cavab vermişəm və verəcəyəm lazım gəldikdə. Ona görə əgər erməni faşizmi bir də baş qaldırsa, əgər bizə qarşı hər hansı bir təxribat törədilərsə, 10 qatını alacaqlar, 10 qatını və heç kim bizi durdura bilməz.

Hazırda Qarabağ bölgəsində mövcud olan coğrafi vəziyyət, əlbəttə ki, bizim imkanlarımızı qat-qat artırıb. Sadəcə olaraq, xəritəyə baxmaq kifayətdir, hər kəs görsün ki, kimin əlində hansı imkanlar var. Ona görə mən bir daha sözümü demək istəyirəm. İndi Ermənistanda daxili böhran hökm sürür. Bu da təbiidir. Çünki hərbi məğlubiyyət, özü də belə biabırçı məğlubiyyət, əlbəttə ki, istənilən ölkədə təlatümlərə gətirib çıxara bilər. Ona görə yəqin ki, indi bu böhran da keçəndən sonra əgər Ermənistanda sağlam qüvvələr hakimiyyətə gələrsə, biz o sağlam qüvvələrlə normal münasibətlər qurmağa hazırıq. Ancaq cəlladlarla, Azərbaycan xalqının qanını tökənlərlə bizim heç bir əlaqəmiz ola bilməz. Bunu hər kəs bilsin! Bundan

sonra təbii ki, bu bölgədə Azərbaycanın imkanları genişlənəcək, o cümlədən təsir imkanları. Amma bizim imkanlarımız yalnız əməkdaşlığa hesablanıb. Bu günə qədər yaşadığımız bu bölgədə gördüyümüz bütün işlər əməkdaşlığa təkan verib. Bütün layihələrimiz - energetika, nəqliyyat, humanitar layihələrimiz əməkdaşlığı dərinləşdirir. Biz bir dənə də səhv addım atmamışıq, misal üçün qonşumuza hansısa problem yarada biləcək bir dənə də addım atmamışıq. Ona görə qonşu ölkələrlə münasibətlərimiz normaldır, yaxşıdır. Deyə bilərəm ki, bir çoxları üçün nümunə ola bilər. Ermənistanın qonşuları ilə münasibətləri necədir? Azərbaycanla belə işğal, Türkiyəyə qarşı ərazi iddiası. Rusiyaya indi, necə deyərlər, narazılıq ifadə edir. Mən bunu bilirəm ki, nə üçün İran üzərindən silahları gətirə bilməyiblər. Ona görə ki, İran bizim dost, qardaş ölkəmizdir. Ona görə ki, bizim xahişimizi nəzərə alaraq öz hava məkanını bağlayıb. Ona görə ki, istəməyib, onlar gəlib azərbaycanlıları öldürsünlər. Gürcüstana da eyni iddia irəli sürür. Çünki Gürcüstan da müharibə dövründə öz hava sahəsini bağlayıb və quru yollarla silahların daşınmasına imkan verməyib. O da istəməyib ki, vəhşi düşmən mülki vətəndaşlarımızı öldürsün. Onlar Rusiyaya qarşı iddia qaldırırlar ki, Rusiya bunlara kömək etməyib. Rusiya Prezidenti öz müsahibəsində kifayət qədər açıq və tam dəqiq məlumat verdi, öz mövqeyini bildirdi. Azərbaycan beynəlxalq hüquq tərəfindən tanınmış öz ərazisində müharibə aparırdı. Ona görə burada hansısa bir müttəfiqlik münasibətlərinin qarışmasına imkan yaradılmasından söhbət gedə bilməz. Ancaq bunlar hamıya irad tuturlar, hamıdan narazıdırlar. Belə təfəkkürlə necə yaşamaq olar?

Biz isə bundan sonra inkişaf yolumuzla daha sürətlə gedəcəyik. Biz döyüş meydanında istədiyimizə nail olduq. Əsgər və zabitlərimiz öz gücünü göstərdi. Biz siyasi müstəvidə gücümüzü göstərdik və üçtərəfli Bəyanat bizim maraqlarımıza tam cavab verir. Məhz buna görə bu Bəyanat dünyanın gözü qarşısında imzalandı, Rusiya Prezidenti və mən. Amma Ermənistanın baş naziri bunu harada imzalayıb onu hələ ki, yəqin etmək mümkün deyil. Amma o qədər də önəmli deyil. Hansısa anbarda, ya qapalı bir yerdə, ya yaşadığı bunkerdə, fərqi yoxdur. Onun imzası orada var. O, əslində, kapitulyasiya aktıdır. Bu, Azərbaycanın Qələbəsidir, torpaqlarımızın qayıtmasıdır, bayrağımızın ucaldılmasıdır. Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Hadrut, Suqovuşan, Murov dağı, Şuşa döyüş meydanında işğalçılardan azad edilib, o cümlədən Laçın rayonunun bir neçə kəndi, Kəlbəcər rayonunun bir hissəsi. Bu, şərtləndirib bizim qələbəmizi. Bizim qələbəmiz artıq Ermənistanda böyük problemlər yaratdı. Amma baxın beynəlxalq təşkilatların buna reaksiyası nədir? Varmı reaksiya? Yoxdur. Ermənistanda gündə hansısa müxalifət lideri həbs olunur, özü də tamamilə əsassız. Bir Qərb ölkəsi buna reaksiya veribmi? Yox. Bunu qınayıbmı? Yox. Əsas müxalifət partiyalarının rəhbərləri həbs olunub. Bir nəfər də söz demir. Avropa Şurası haradasan? Azərbaycana xor gözlə baxan, bizi qaralamağa çalışan, haradasan Avropa Şurası, niyə susursan? Yaxud da ki, monitorinq komitəsi. Orada bizim Azərbaycan üzrə bir neçə məruzəçi təyin ediblər. Ermənistan monitorinq altında olmalıdır. Niyə susursan Avropa Şurası? Hanı sənin rəhbərlərin, hanı sənin monitorinq komitən, siyasi komitən. Görmürsünüz ki, Ermənistanda repressiya baş alıb gedir? Görmürsünüz ki, diktator at oynadır? Özü də məğlub edilmiş diktator, rəzil vəziyyətdə olan diktator. Bəs, niyə səsinizi çıxarmırsınız? Bəs, hanı sizin demokratiyanız, insan haqlarınız? Cavab var? Yoxdur. Olmayacaq. Mənim sözlərimdən sonra bax, görərsiniz, olmayacaq. Ört-basdır edəcək, ört-basdır. Avropa Parlamenti Azərbaycana qarşı 10-dan çox eybəcər, yalan üzərində qurulmuş qətnamə qəbul edib. Niyə susursan Avropa Parlamenti? Özünü guya dünyanın demokratiya mərkəzi sayırsan. Bir səs çıxar, açıqlama ver, bəyanat ver, qına bunu. Dünyanın gözü qarşısında diktator bütün müxalifəti məhv edir. Bir adamı öldürüb. O parlamenti zəbt edənlər arasında bir nəfər artıq ölü tapılıb. Nə üçün səs qaldırmırsınız? Niyə? Müntəzəm olaraq bizə qarşı çirkin kampaniya aparan qeyri-hökumət təşkilatları, niyə susursunuz, niyə söz demirsiniz? Yaxşı, ballistik raketlə bizi vurdu susdunuz, kasetli bombalarla, fosforlu bombalarla bizi vurdu susdunuz. Böyük ölkələr, özlərindən Avropanın lideri düzəldən ölkələr, siz niyə susursunuz? Deyin, cavab verin. Yoxsa, yerindən duran burada bizə mız qoymaq istəyir, sataşmaq istəyir. Hamısının cavabını verirəm, hamısının, artıqlaması ilə.

Ermənistan diktatoru bunkerdə otura-otura özünü tamamilə dünyadan, öz xalqından təcrid edib, Azərbaycanda xalq-iqtidar birliyi. Bax, budur fərq. Budur bizim gücümüz. Bizim gücümüz birliyimizdədir. Güc və birlik. Yəqin, Azərbaycan xalqı xatırlayır, son 3-4 il ərzində mən öz çıxışlarımda dəfələrlə demişdim ki, dünya dəyişir, münasibətlər dəyişir, beynəlxalq hüquq işləmir, güc amili önə çıxır, “kim güclüdür o da haqlıdır” prinsipi üstünlük təşkil edir. Bütün bunları mənim çıxışlarımda görmək olar. Çünki mən beynəlxalq vəziyyəti düzgün təhlil etmişəm. Demək istəmirəm ki, biz də bu yolla gedək. Yox. Bizim yolumuz ədalət yoludur və beynəlxalq hüquq yoludur. Biz beynəlxalq hüququn kənarında bir iş görməmişik. Ancaq demişəm ki, güc amili ön plana çıxır və biz buna hazır olmalıyıq və hazırlıq işləri gedirdi, bütün bu illər ərzində, həm iqtisadi sahədə, həm beynəlxalq münasibətlər sahəsində, ilk növbədə,

ordu quruculuğu sahəsində. Bu gücü topladıq, lazım olan anda vurduq, əzdik düşmənin başını. Elə əzdik ki, onu əbədi yadda saxlayacaq, əbədi. O damğanı vurduq. Azərbaycan xalqı müzəffər xalqdır. Azərbaycan Ordusu müzəffər ordudur. Biz döyüş meydanında qələbə qazanmışıq, siyasi müstəvidə qələbə qazanmışıq, torpaqlarımızı işğalçılardan azad etmişik.

Mən bu gün Ağdamın azad olunması xəbərini xalqıma böyük qürur hissi ilə çatdırıram, bu müjdəni verirəm. Bu gün bizim yaşadığımız günlər, yaşadığımız anlar, əminəm ki, hər bir azərbaycanlının yaddaşında əbədi qalacaq. Biz tarix yazırıq, yeni tarix. Xalqımızın, ölkəmizin yeni şanlı tarixini yazırıq. Bu, Zəfər tarixidir. Bundan sonra biz, ilk növbədə, işğaldan azad edilmiş torpaqlara vətəndaşlarımızın qaytarılmasını təmin etməliyik. Bütün gücümüzü səfərbər etməliyik. Bütün maddi imkanlarımızı səfərbər etməliyik ki, tezliklə vətəndaşlarımızı doğma torpaqlarına qaytaraq.

Əziz xalqım, əziz ağdamlılar, sizi bu gözəl tarixi hadisə münasibətilə bir daha ürəkdən təbrik etmək istəyirəm. Sizə cansağlığı, xoşbəxtlik arzulayıram. Ağdam bizimdir! Qarabağ Azərbaycandır!

**AZƏRTAC**

**Sahibə Qafarova: Fransanın Qarabağla bağlı qərəzli yanaşması qəbuledilməzdir**

[11:39] 20.11.2020

Azərbaycan Ordusu bu gün Ağdama daxil olub. Bu münasibətlə xalqımızı təbrik edirəm. Biz işğaldan azad edilmiş bütün torpaqlarımız kimi, Ağdamı da yenidən qurub yaradacağıq.

Azərbaycan 44 günlük Vətən müharibəsindən sonra işğalçı Ermənistanın tam kapitulyasiyasına nail oldu, biz ərazi bütövlüyümüzü bərpa edirik. Noyabrın 10-da Azərbaycan, Rusiya prezidentlərinin, Ermənistan baş nazirinin iştirakı ilə birgə bəyanat imzalandı. Amma bu birgə bəyanatdan narahat olan qüvvələr də var. Fransanın bu məsələyə qeyri-obyektiv münasibəti bizi çox narahat edir. Bunu Milli Məclisin sədri Sahibə Qafarova parlamentin noyabrın 20-də keçirilən iclasında deyib.

Sahibə Qafarova qeyd edib ki, Fransanın məsələyə qərəzli yanaşması qəbuledilməzdir. Bildirilib ki, Fransa Senatı Qarabağdakı qondarma qurumu tanımağı Fransa dövlətinə tövsiyə edən qətnaməni müzakirəyə çıxarması heç bir çərçivəyə sığmır. Fransa ATƏT-in həmsədri kimi düzgün mövqe nümayiş etdirmir. Bu addımlar beynəlxalq hüquq normalarına və Azərbaycanın ərazi bütövlüyünə ziddir.

Milli Məclisin sədri, eyni zamanda, vurğulayıb ki, vasitəçilər qərəzsiz olmalı, obyektiv mövqe nümayiş etdirməlidir.

**AZƏRTAC**

**“Regional İnkişaf” İctimai Birliyi Ermənistanın ölkəmizə qarşı törətdiyi ekoloji və humanitar terrorun dayandırılması ilə bağlı beynəlxalq təşkilatlara müraciət edib**

[14:21] 20.11.2020

“Regional İnkişaf” İctimai Birliyi (RİİB) Ermənistanın hərbi-siyasi hakimiyyətinin Azərbaycana qarşı yürütdüyü təcavüzkar siyasət nəticəsində uzun illərdir işğal altında saxladığı ərazilərdə törətdiyi cinayətlərin, xüsusilə ekoloji cinayətlərin, vandalizm aktlarının dayandırılmasına dəstək verilməsi ilə bağlı 40-dan çox beynəlxalq təşkilata müraciət ünvanlayaraq, baş verən hadisələrə laqeyd qalmamağa çağırıb.

İctimai birlikdən AZƏRTAC-a verilən məlumata görə, müraciətdə bildirilir ki, dünya ictimaiyyəti tərəfindən ərazi bütövlüyü birmənalı olaraq tanınan Azərbaycanın torpaqlarının 20 faizini işğal edən Ermənistan 1 milyondan çox soydaşımızın məcburi köçkün həyatı yaşamasına səbəb olmaqla, onların yaşamaq və mülkiyyət hüququnu pozmuş, illərdir bu torpaqlarda mədəni və ekoloji terror törətməklə Azərbaycana maddi-mənəvi zərər vurmuşdur.

Birinci Qarabağ müharibəsi dövründə işğal olunmuş torpaqlarda Azərbaycanın mədəni irsi - tarixi və dini abidələri məhv edilmiş, sənət əsərləri talan olunmuş, müxtəlif ölkələrdə hərraca çıxarılaraq satılmış, antik sikkələrin, qızıl və gümüş məmulatlarının, nadir və qiymətli daşların, xalçaların və əl işlərinin saxlandığı Kəlbəcər Tarix-Diyarşünaslıq Muzeyi, Şuşa Tarix Muzeyi, Ağdamda yerləşən və dünyada yeganə olan Çörək Muzeyi və Daş Abidələr Muzeyi dağıdılmışdır.

Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Silahlı Qüvvələri tərəfindən erməni işğalından azad edilmiş Zəngilan rayonundakı tarixi məscidin, Ağdam Cümə Məscidinin donuz tövləsi kimi istifadə edildiyi aşkar olunmuş, bu barədə müxtəlif xarici KİV-də məlumat yayımlanmışdır.

Azərbaycanın işğal altında olmuş 25 faiz meşə massivinə, həmin ərazilərdəki ekoloji mühitə, təbii sərvətlərə, bioloji müxtəlifliyə Ermənistan bu gün də qəsd etməkdə davam edir. Azərbaycan, Ermənistan və Rusiya arasında 10 noyabr 2020-ci il tarixdə əldə edilmiş üçtərəfli razılaşmaya əsasən, ermənilər qanunsuz olaraq məskunlaşdıqları əraziləri tərk edərkən ölkəmizin özünəməxsus ekosistemini məqsədli şəkildə məhv edir, ağacları kütləvi şəkildə kəsir, evləri yandırırlar. Şuşa şəhərinin meşə zolaqlarının zəhərli maddələrdən istifadə edilərək yandırılması təcavüzkar ölkənin qeyri-insani mahiyyətini bir daha nümayiş etdirir.

İndiyədək təqribi hesablamalara görə, ümumilikdə 1815 hektar meşə sahəsi məhv edilib. İşğalçı ölkənin təbiətə və ekologiyaya vurduğu zərər Ermənistanın 2002-ci ildən tərəfdaşı olduğu İqlim Dəyişikliyi üzrə BMT Çərçivə Konvensiyasının müddəaları ilə də qadağan edilir.

Müraciətdə, həmçinin Ermənistanın Azərbaycanın Gəncə və Mingəçevir şəhərlərində, Tərtər, Naftalan, Bərdə, Ağcabədi, Ağdam, Xızı və Abşeron rayonlarında yaşayış məntəqələrinə raket zərbələri endirərək, mülki vətəndaşların həyatına son qoyması, yaşayış evlərinə, infrastruktura ciddi ziyan vurması barədə ətraflı məlumat verilib.

**AZƏRTAC**

**Türkiyə mediası Prezident İlham Əliyevin Ağdamın azad edilməsi ilə bağlı xalqımıza müraciətini canlı yayımlayıb**

[15:09] 20.11.2020

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Ağdamın işğaldan azad olunması ilə əlaqədar xalqa müraciəti Türkiyə kütləvi informasiya vasitələri (KİV) tərəfindən qardaş ölkə ictimaiyyətinə canlı yayımla təqdim edilib.

AZƏRTAC xəbər verir ki, birgə bəyanata əsasən təcavüzkar Ermənistanın silahlı dəstələrinin geri çəkilməsi nəticəsində Ağdam rayonunun düşməndən azad edilməsi münasibətilə dövlətimizin başçısının noyabrın 20-də Azərbaycan xalqına müraciəti Türkiyə ictimaiyyətinin həsrətlə gözlədiyi xəbərlərdən idi. Prezident İlham Əliyevin müraciətindəki əsas fikirlər və çağırışlar Türkiyə mediasının manşet xəbərinə çevrilib.

Ümumiyyətlə, Azərbaycan Silahlı Qüvvələrinin işğaldan azad edilmiş Ağdam rayonu ərazisinə daxil olmasına dair proseslər iki gündür ki, Türkiyə KİV-lərinin əsas xəbəri kimi qalmaqdadır.

**Sabir Şahtaxtı**
**AZƏRTAC-ın xüsusi müxbiri, Ankara**

**AZƏRTAC**

**BERNAMA agentliyi Azərbaycan Ordusunun Ağdam rayonuna daxil olmasından yazıb**

[16:39] 20.11.2020

Azərbaycan Ordusu 27 illik işğaldan sonra Ağdam rayonuna daxil olub.

AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, bu barədə noyabrın 20-də Malayziyanın BERNAMA Milli İnformasiya Agentliyi məlumat yayıb. Məlumatda Azərbaycanın Müdafiə Nazirliyinə istinadla Silahlı Qüvvələrimizin Azərbaycan, Rusiya və Ermənistan liderləri arasında imzalanmış üçtərəfli sənədə əsasən Ağdama daxil olduğu bildirilir. Qeyd edilir ki, 1993-cü ildə xarici havadarlarının köməyi ilə rayon ərazisinin 77 faizini işğal edən erməni silahlıları buradan 200 mindən çox azərbaycanlını zorla qovublar.

Yazıda münaqişənin tarixi barədə də məlumat verilir. Qeyd edilir ki, ötən əsrin 90-cı illərinin əvvəllərində başlayan münaqişə nəticəsində Ermənistan ordusu Dağlıq Qarabağ regionunu və ona bitişik 7 rayonu işğal edib. Vurğulanır ki, həmin ərazilər beynəlxalq ictimaiyyət tərəfindən Azərbaycan torpaqları kimi tanınır.

Xatırladılır ki, sentyabrın 27-də Ermənistan ordusunun dinc əhaliyə qarşı növbəti hərbi təxribatı Azərbaycan Silahlı Qüvvələrinin əks-hücumuna səbəb olub. Cəmi 44 gün davam edən döyüşlər nəticəsində Azərbaycan düşmən tapdağı altında olan bir neçə şəhəri və 300-dən çox yaşayış məntəqəsini azad edib.

Rusiyanın təşəbbüsü ilə imzalan üçtərəfli sənədə uyğun olaraq, hərbi əməliyyatlar noyabrın 10-da dayandırılıb və Ermənistan ordusu işğal etdiyi bütün əraziləri boşaltmağa başlayıb.

**Vüqar Ağayev**
**AZƏRTAC-ın xüsusi müxbiri**, **Kuala Lumpur**

**AZƏRTAC**

**Birinci vitse-prezident Mehriban Əliyeva Ağdamın işğaldan azad edilməsi münasibətilə xalqımızı təbrik edib**

[17:10] 20.11.2020

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Ağdam rayonunun işğaldan azad olunması ilə bağlı rəsmi "Instagram" səhifəsində paylaşım edib. AZƏRTAC paylaşımı təqdim edir.

"Əziz həmvətənlər,

Sizi Ağdam rayonunun işğaldan azad edilməsi münasibətilə səmimi-qəlbdən təbrik edirəm və hər birinizə ən xoş arzularımı çatdırıram! Qoy Azərbaycanda daim sülh, sabitlik, əmin-amanlıq və təhlükəsizlik hökm sürsün! Qoy ölkəmizdə hər bir ev nur, xeyirxahlıq və səadətlə dolsun! Uca Tanrı xalqımızı, Vətənimizi və Prezidentimizi qorusun! Qarabağ Azərbaycandır!".

**AZƏRTAC**

**Paytaxt sakinləri Ağdamın işğaldan azad edilməsinin sevincini yaşayır**

[16:52] 20.11.2020

Noyabrın 20-də Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev Ağdamın işğaldan azad olunması müjdəsini verdikdən sonra paytaxtımızın sakinləri Şəhidlər xiyabanına, Bakının küçə və meydanlarına, parklarına axışaraq sevinc hisslərini bölüşüblər.

Yürüş iştirakçıları Vətən müharibəsində şanlı zəfəri Müzəffər Ali Baş Komandanın portretini başları üzərinə qaldırmaqla, üçrəngli bayrağımızı dalğalandırmaqla qeyd edir, qəhrəman Vətən oğularının xatirəsinə hörmət və ehtiramlarını bildirirlər.

Bu gün əllərdə yenə yanaşı dalğalanan Azərbaycan və Türkiyə bayraqları xalqlarımızın qardaşlığının əbədi olacağından soraq verir.

AZƏRTAC Şəhidlər xiyabanından və Bakının müxtəlif guşələrindən fotosessiyanı təqdim edir.

**AZƏRTAC**

**Argentinanın “Clarin” nəşri: Azərbaycan Ordusu Ağdama daxil olub**

[17:33] 20.11.2020

Argentinanın “Clarin” gündəlik qəzetinin saytında “Azərbaycan Ordusu Qarabağ üzrə razılaşma çərçivəsində Ağdama daxil olub” sərlövhəli material dərc olunub.

AZƏRTAC xəbər verir ki, Argentina nəşri döyüş əməliyyatlarının dayandırılması barədə Azərbaycan, Rusiya və Ermənistan liderlərinin imzaladığı razılaşmaya müvafiq olaraq, Azərbaycan Ordusunun bu gün Ağdam rayonuna daxil olmasını diqqətə çatdırır.

Qəzet bildirir ki, Ağdam 1992-1994-cü illərdə Birinci Qarabağ müharibəsindən sonra erməni qüvvələrinin nəzarəti altında qalan Dağlıq Qarabağla həmsərhəd rayonlardan biridir. Bu işğal nəticəsində Ağdamın 120 min sakini öz evlərini tərk etmək məcburiyyətində qalıb.

Argentina nəşri diqqətə çatdırır ki, bundan əvvəl Azərbaycanın hakimiyyət orqanları erməni qoşunlarının Kəlbəcər rayonundan çıxarılması tarixinin 10 gün uzadılmasına razılıq verib, indi həmin tarix noyabrın 25-nə müəyyən edilib.

Qəzetdə, həmçinin qeyd edilir ki, 44 günlük müharibə Ermənistan cəmiyyətində ciddi siyasi böhran əmələ gətirib. Artıq 10 gündür ki, hökumətə qarşı keçirilən etiraz aksiyalarında hökumətin istefası tələb edilir.

**Nigar Cəfərli**
**AZƏRTAC-ın xüsusi müxbiri, Madrid**

**AZƏRTAC**

**"Le Monde" Ağdamın işğaldan azad olunmasından yazır**

[19:10] 20.11.2020

Ağdam - Azərbaycana geri qaytarılmalı olan 3 rayondan biri artıq bu ölkənin nəzarəti altındadır. Otuz ilə yaxın idi Ağdam Ermənistan silahlı qüvvələrinin nəzarətində idi. Azərbaycan Prezidenti, Rusiya Prezidenti və Ermənistan baş naziri tərəfindən imzalanmış bəyanata uyğun olaraq, noyabrın 20-də Azərbaycan Ordusunun bölmələri Ağdama daxil olub.

AZƏRTAC xəbər verir ki, bu fikirlər Fransanın "Le Monde" qəzetində dərc olunmuş məqalədə yer alıb.

Məqalədə altı həftəlik döyüşlərdən sonra Azərbaycanın öz rayonlarını azad etdiyi bildirilir. Qeyd edilir ki, bu rayonlardan bəziləri silah gücünə azad olunub, üçü - Ağdam, Kəlbəcər, Laçın isə bəyanata uyğun olaraq qaytarılır. Məqalədə ermənilərin Ağdamı da yandıraraq tərk etdikləri vurğulanır. Ermənilərin evləri yandırdıqları, azərbaycanlılara yalnız xarabalıqlar qoyduğu qeyd edilir.

Diqqətə çatdırılır ki, 1990-cı illərdə müharibə zamanı Azərbaycan əhalisi bu əraziləri tərk etməli olmuşdu. Ermənistan həmin ərazilərdə erməniləri məskunlaşdırmışdı.

Məqalədə Azərbaycan Prezidenti İlham Əliyevin birinci xanım Mehriban Əliyeva ilə birlikdə azad olunmuş ərazilərə səfər etməsindən də bəhs olunur.

**Şəhla Ağalarova**
**AZƏRTAC-ın xüsusi müxbiri, Paris**

**AZƏRTAC**

**Ordumuz Ağdama Azərbaycan Bayrağını sancdı**

[19:41] 20.11.2020

Azərbaycan Respublikasının Prezidenti, Ermənistan Respublikasının baş naziri və Rusiya Federasiyasının Prezidentinin imzaladığı üçtərəfli Bəyanata əsasən noyabrın 20-də Ağdam rayonuna daxil olan Azərbaycan Ordusunun bölmələri ərazidə bir sıra tədbirləri həyata keçirib.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, qoşunlarımızın bu istiqamətdə təhlükəsiz hərəkətinin təmin edilməsi məqsədilə ərazilər gecə saatlarında minalardan təmizlənib, mühəndis-istehkam işləri başa çatdırılıb, hərəkət marşrutu üzrə yollar istifadəyə hazır vəziyyətə gətirilib. Hazırda bölmələrimizin şəxsi heyəti və zirehli texnikasının ərazidə dislokasiya olunması üçün zəruri tədbirlər icra olunur.

İşğaldan azad olunan Ağdam rayonu tamamilə Azərbaycan Ordusunun nəzarəti altına keçib. Ağdam şəhərinin mərkəzində Azərbaycanın Dövlət Bayrağı ucaldılıb, Dövlət Himni səsləndirilib və Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə məruzə olunub.

Ağdam şəhərindəki Cümə məscidi və ərazisi hərbçilərimiz tərəfindən təmizlənib, məsciddə azan oxunub və cümə namazı qılınıb.

**AZƏRTAC**

**İspaniyanın Dövlət Televiziyasında Ağdamın işğaldan azad olunması ilə bağlı süjet yayımlanıb**

[11:42] 21.11.2020

İspaniyanın Dövlət Televiziyasının (RTVE) "Xəbərlər" proqramının buraxılışında noyabrın 20-də Azərbaycanın Ağdam rayonunun işğaldan azad olunması ilə bağlı süjet yayımlanıb.

AZƏRTAC xəbər verir ki, süjetdə Azərbaycan və Rusiyanın prezidentləri, Ermənistanın baş naziri tərəfindən imzalanmış birgə bəyanata əsasən Azərbaycan silahlı qüvvələrinin Ermənistan işğalından azad edilmiş Ağdam rayonuna daxil olduqları bildirilir.

Qeyd olunur ki, Ağdamda qanunsuz olaraq məskunlaşmış erməni əhalisi rayon ərazisini vandalizm aktları törədərək tərk edirlər.

**Nigar Cəfərli**
**AZƏRTACın xüsusi müxbiri, Madrid**

**AZƏRTAC**

**İran mətbuatı Prezident İlham Əliyevin Ağdamın azad olunması ilə əlaqədar xalqa müraciətinə geniş yer ayırıb**

[15:40] 21.11.2020

Azərbaycan Prezidenti İlham Əliyevin Ağdam rayonunun işğaldan azad edilməsi münasibətilə xalqa müraciəti İran mətbuatının diqqət mərkəzində olub.

AZƏRTAC xəbər verir ki, İRNA, Mehr, İSNA, İLNA, "Tasnim news", "Fars news" və digər media orqanlarında dərc olunan materiallarda Prezident İlham Əliyevin İran haqqında dediyi fikirlərə xüsusilə toxunulub.

Qeyd olunub ki, Azərbaycan Prezidenti İranı dost və qardaş dövlət adlandıraraq, rəsmi Tehranın İran üzərindən Ermənistana silah göndərilməsinin qarşısını aldığını bildirib.

Materiallarda qeyd olunub ki, Azərbaycan beynəlxalq qanunları rəhbər tutaraq işğal altındakı Qarabağı azad edib.

Qeyd edək ki, sosial şəbəkələrdə də Prezident İlham Əliyevin İranı dost və qardaş adlandırması müzakirə mövzusu olub. İran ictimaiyyəti Azərbaycanı haqlı sayır və onun Qarabağdakı qələbəsini təbrik edir.

**Rabil Kətanov**
**AZƏRTAC-ın xüsusi müxbiri, Tehran**

**AZƏRTAC**

**Professor Zakir Avşar: Bu Qələbə Azərbaycan əsgərinin cəbhədə qazandığı möhtəşəm zəfərdir**

[15:32] 21.11.2020

Bu günlər Azərbaycan böyük sevinc içərisindədir. Təbii ki, hamı kimi, mən də çox sevincliyəm. Ağdam rayonunun 27 ildən sonra Azərbaycana geri qaytarılması tarixi hadisədir. Bu, şəhid və qazilərimizin rəşadəti hesabına qazanılmış uğurdur. Bu, böyük hərbi zəfəri ilə müdrik diplomatiyanın ortaq nəticəsidir. Azərbaycan öz problemini təkbaşına həll edərək hərbi gücünü və diplomatik imkanlarını bütün dünyaya göstərdi.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Ankara Hacı Bayram Vəli Universitetinin dekanı, professor Zakir Avşar ifadə edib.

Azərbaycan Silahlı Qüvvələrinin həyata keçirdiyi əks-hücum əməliyyatları və işğal altındakı ərazilərimizin düşməndən xilas edilməsi prosesini Çanaqqala zəfəri və Qafqaz İslam Ordusunun tarixi missiyası ilə müqayisə edən professoru Zakir Avşar deyib: "Azərbaycan Ordusu həqiqətən də mübarək bir Ordudur. Müstəqilliyin qorunması üçün üzərinə düşən missiyanı qorumağa qadirdir".

Türkiyənin bu prosesdə ilk gündən Azərbaycana siyasi və mənəvi dəstək verdiyini, bütün zəruri yardımı göstərməyə hazır olduğunu diqqətə çatdıran professor Zakir Avşar bildirib: "Bu Qələbə Azərbaycan Silahlı Qüvvələrinin, Azərbaycan əsgərinin cəbhədə qazandığı möhtəşəm zəfərdir".

Azərbaycan-Türkiyə qardaşlıq münasibətlərinin real vəziyyətini yüksək dəyərləndirən alim əminliklə deyib ki, tarixdə çətin və sevincli günlərdə bir-birinin yanında olan dövlətlərimiz və xalqlarımız bunu əbədiyyətə qədər davam etdirəcəklər.

**Sabir Şahtaxtı**
**AZƏRTAC-ın xüsusi müxbiri, Ankara**

**AZƏRTAC**

**Avstraliya saytında Ağdamın işğaldan azad edilməsi barədə məqalə dərc olunub**

[17:12] 21.11.2020

Avstraliyanın “stuff.co.au” saytında Ermənistan ordusu tərəfindən 27 il əvvəl işğal edilmiş Ağdam rayonunun Azərbaycana təhvil verilməsi barədə məqalə dərc olunub.

AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, məqalədə noyabrın 20-də Azərbaycan Prezidenti İlham Əliyevin Qarabağda döyüşlərin dayandırılması barədə üçtərəfli sənədə əsasən Silahlı Qüvvələrimizin Ağdam rayonuna daxil olduğunu bəyan etdiyi vurğulanır. Bildirilir ki, Azərbaycan, Rusiya və Ermənistan liderləri arasında noyabrın 10-da imzalanan sənədə əsasən, Ermənistan 30 ilə yaxın müddətdə işğalda saxladığı əraziləri Azərbaycana qaytarır.

Məqalədə münaqişənin tarixi barədə də ətraflı məlumat verilir. Qeyd olunur ki, ötən əsrin 1990-cı illərinin əvvəllərində Ermənistan ordusu xarici havadarların dəstəyi ilə Dağlıq Qarabağı və ətraf 7 rayonu işğal edib.

Cari il sentyabrın 27-də Ermənistan ordusunun mülki əhaliyə qarşı növbəti təxribatlarına cavab olaraq hücuma keçən Azərbaycan Silahlı Qüvvələri həmin əraziləri azad etməyə başlayıb. Döyüşlər ərzində üç dəfə humanitar atəşkəs barədə razılıq əldə olunsa da, onlara əməl edilməyib. Yalnız Azərbaycan Ordusu Şuşa şəhərini azad etdikdən sonra Ermənistan tərəfi təslim olduğunu təsdiqləyən sənədi imzalamağa məcbur olub.

Məqalədə üçtərəfli sənədin imzalanmasından sonra Ermənistanda baş verən proseslərdən də bəhs olunur. Bildirilir ki, razılaşmaya əsasən Azərbaycan ərazilərini tərk etməli olan ermənilər buradakı evləri və sosial obyektləri yandırırlar.

Yazıda Ağdam şəhərinin tarixinə də toxunulur. Qeyd edilir ki, bir vaxtlar regionun ən böyük şəhərlərindən biri olan Ağdamda 50 mindən çox insan yaşayıb. Bu şəhər ağ rəngli evləri, üçmərtəbəli çayxanası ilə məşhur olub. Lakin erməni işğalından sonra bu gözəl şəhər “Qafqazın Xirosiması” adını alıb.

Bildirilir ki, 1993-cü ildə yerli sakinlər qovulduqdan sonra şəhərə daxil olan və tikinti materialları axtaran erməni talançıları bütün evləri soyublar. Şəhərin tarixi abidələrindən biri olan Çörək muzeyi xarabalığa çevrilib. Şəhərin məşhur konyak zavodu da artıq yoxdur.

**Vüqar Ağayev**
**AZƏRTAC-ın xüsusi müxbiri, Kanberra**

**AZƏRTAC**

**Ağdamda ağacəkmə coşqusu**

[17:01] 21.11.2020

İşğaldan azad olunmuş Ağdam rayonu ərazisində karantin rejiminin tələblərinə əməl olunmaqla və böyük ruh yüksəkliyi ilə ağacəkmə aksiyası keçirilib.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, nazirliyin Ağdamda ağac əkilməsi çağırışına rayon icra hakimiyyətinin əməkdaşları ilə birgə digər qurumların təmsilçiləri və ictimaiyyət nümayəndələri də sevinc və fəxrlə qatılıb.

Hər kəs Qarabağ bölgəsində Ermənistanın işğalçı ordusu tərəfindən məhv edilmiş yaşıllıq massivlərinin yenidən bərpasına, Ağdamın gözəlləşməsinə, doğma torpaqlarımıza Böyük Qayıdış təntənəsinə öz töhfəsini verməyə çalışıb.

Ölkə üzrə həyata keçirilən payız ağacəkmə kampaniyası çərçivəsində Ağdam rayonu ərazisində də baş tutan aksiyada, əsasən yerli şəraitə uyğun Şərq çinarı olmaqla, 1000-dək müxtəlifcinsli ağac əkilib, palıd və digər meşəcinsli ağac toxumları səpilib.

Xatırladaq ki, işğaldan azad olunmuş Füzuli və Zəngilan rayonlarının ərazilərində də yaşıllıqların bərpası məqsədilə ağacəkmə aksiyaları keçirilib və bu cür kütləvi ağacəkmə tədbirlərinin bütün Qarabağ bölgəsində təşkili nəzərdə tutulur.

**AZƏRTAC**

**Prezident İlham Əliyev Rusiyanın müdafiə nazirinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib**

[17:20] 21.11.2020

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 21-də Rusiya Federasiyasının müdafiə naziri Sergey Şoyqunun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

AZƏRTAC xəbər verir ki, nümayəndə heyətini salamlayan Prezident **İlham Əliyev** dedi:

-Hörmətli cənab nazir.

Hörmətli nümayəndə heyətinin üzvləri.

Sizi Azərbaycanda salamlamağa şadam. Sergey Kujuqetoviç, sizinlə 3 ay bundan əvvəl görüşmüşük. O vaxt siz Ordu Oyunları ilə əlaqədar Azərbaycana gəlmişdiniz. Bu gün biz Rusiya Prezidenti, Azərbaycan Prezidenti və Ermənistanın baş naziri tərəfindən imzalanmış üçtərəfli Bəyanatın yerinə yetirilməsi ilə bağlı məsələləri müzakirə edəcəyik. Bizim fikrimizcə, Bəyanatın müddəaları uğurla həyata keçirilir və bu, həm Azərbaycan tərəfin, həm də Ermənistan tərəfin çoxillik münaqişəyə son qoymağa və siyasi nizamlama mərhələsinə çıxmağa hazır olduğunu bir daha nümayiş etdirir.

Mən keçən dəfə Dağlıq Qarabağ münaqişəsinə dair bizim mövqeyimiz barədə sizə danışmışdım. Siz ölkəmizə avqustun axırında gəlmişdiniz. O vaxt həm iyul ayında, həm də avqust ayında Azərbaycana qarşı hərbi təxribat, silahlı təxribat üçün iki dəfə cəhd göstərilmişdi. Onlardan birincisi iyul ayında, sərhədin Tovuz rayonu hissəsində, digəri avqust ayında Ermənistan silahlı qüvvələrinin təxribat qrupu təmas xəttindən ölkəmizə soxulmağa cəhd göstərmiş və həmin qrupun rəhbəri saxlanılmışdı. Onun ifadələri məhz silahlı təxribat təşkil etmək niyyətində olduqlarını sübut edirdi. Bu siyasət davam etdi və onunla bitdi ki, sentyabrın axırlarında Ermənistan silahlı qüvvələri növbəti dəfə bizim yaşayış məntəqələrinə hücum etdilər və biz onlara layiqli cavab verməli olduq. Sonra nələr baş verdiyini biz hamımız yaxşı bilirik.

Qırx dörd günlük silahlı mübarizədən, silahlı əməliyyatlardan sonra sənəd imzalandı. Mən həmin sənədi çox mühüm siyasi sənəd hesab edirəm, o, mahiyyət etibarilə çoxillik qarşıdurmaya nöqtə qoyur. Sizə, həmçinin Rusiyanın rəhbərliyinə, Prezident Vladimir Vladimiroviç Putinə bu mühüm siyasi sənədin hazırlanmasında və qəbul edilməsində şəxsən fəal iştirak etdiyinə görə təşəkkürümü bildirmək istərdim.

Təəssüf ki, hərbi əməliyyatlar dövründə Ermənistan tərəfi müharibə aparılmasının bütün normalarını, habelə humanitar normaları kobud şəkildə pozub. Bizim şəhərlərimiz və kəndlərimiz hər gün bombardmana məruz qalırdı. Nəticədə aralarında uşaqların və qadınların da olduğu 94 dinc Azərbaycan sakini həlak olub, 400-dən çox adam yaralanıb, 3 mindən çox ev yararsız vəziyyətə düşüb, yaxud tamamilə məhv edilib. Hərbi əməliyyatlar zonasının yaxınlığında yerləşən şəhərlər praktiki olaraq hər gün atəşlərə, minaatan və artilleriya atəşlərinə məruz qalırdı, dinc əhalinin məhv edilməsi üçün Gəncə, Mingəçevir, Bərdə və digər şəhərlərə ballistik raketlərlə məqsədyönlü şəkildə hücum edilirdi. Biz bütün bu hərbi cinayətləri – ballistik raketlərdən, kasetli və fosforlu döyüş sursatlarından istifadə edilməsini sənədləşdirmişik və Azərbaycan tərəfinin görəcəyi sonrakı hüquqi tədbirlərlə əlaqədar müvafiq tapşırıqlar vermişik.

Ermənistan əcnəbi muzdlulardan fəal istifadə edirdi. Bizdə çoxsaylı fotosənədlər və videosənədlər var, əcnəbi vətəndaşların, o cümlədən Fransa, ABŞ, Livan, Kanada, Gürcüstan və başqa ölkələrin vətəndaşlarının pasportları var. Bu vətəndaşların bir qismi erməni mənşəlidir, digərləri belə deyil. Lakin bu, məsələnin mahiyyətini dəyişmir, ona görə ki, Ermənistan tərəfində əcnəbi muzdluların iştirak etməsi, əlbəttə, yolverilməzdir.

Bütün bunlara baxmayaraq, hərbi əməliyyatların nəticəsi hamıya məlumdur. Azərbaycan Ordusu parlaq hərbi qələbə qazandı və beləliklə biz siyasi nizamlama müstəvisinə keçdik. Dünən Azərbaycan Ordusu Ağdam şəhərinə, Ağdam rayonunun işğal altındakı qalan hissəsinə daxil oldu. Beləliklə, Bəyanatın bəndləri yerinə yetirilir.

Biz Rusiya Federasiyasının sülhməramlı missiyasının yerləşdirilməsini də alqışlayırıq. Bu missiya bizim müvafiq strukturlarla və bildiyimizə görə, Ermənistan tərəfi ilə də işgüzar əlaqəli şəkildə işləyir. Hesab edirəm ki, bu, vəziyyətin sabitləşməsi üçün mühüm amildir və Bəyanat imzalanan andan atəşkəslə bağlı hər hansı ciddi pozuntular olmayıb və əminəm ki, olmayacaq.

Biz Azərbaycan ərazisində atəşkəsin müşahidə edilməsi üzrə mərkəz yaradılması barədə Rusiya Federasiyası ilə Türkiyə arasında danışıqların fəal gedişini də alqışlayırıq. Hesab edirik ki, bu, regionda sabitliyin və təhlükəsizliyin möhkəmlənməsi üçün çox mühüm elementdir. Biz Türkiyə rəhbərliyinə və şəxsən Prezident Rəcəb Tayyib Ərdoğana hərbi əməliyyatların dayandırılması üçün ilkin şərait yaradılmasında iştirakına görə təşəkkür edirik. Həm Rusiya, həm də Türkiyə - bizim üçün dost olan iki

ölkə, iki qonşumuz atəşkəsə riayət edilməsi və atəşkəsə nəzarət tədbirlərində iştirak edəcəklər. Bu da bizim qonşularımız olan iki ölkə arasında, habelə regional əməkdaşlıq çərçivəsində qarşılıqlı fəaliyyət formatının möhkəmlənməsinə dəlalət edir. Ümidvaram ki, bugünkü atəşkəs və Ermənistan ilə münasibətlərin normallaşması barədə bizim planlarımız, - əgər onlar Ermənistan tərəfindən müsbət qəbul edilərsə, - regionda yeni vəziyyətin, əməkdaşlığın, sabitliyin və təhlükəsizliyin möhkəmlənməsi üçün şərait yarada bilər. Bu, hamının xeyrinə olar. Bizim regionda məskunlaşan xalqlar da, qonşularımız da, bütövlükdə dünya da daha təhlükəsiz olacaq.

Sizi bir daha salamlayıram. Çox şadam ki, siz ölkəmizə böyük nümayəndə heyəti ilə gəlirsiniz, bu gün müzakirə etmək üçün geniş gündəliyimiz var. Bir daha xoş gəlmisiniz.

Rusiyanın müdafiə naziri **Sergey Şoyqu** dedi:

-Sağ olun, hörmətli cənab Prezident. Əvvələn, Sizə təşəkkür edirəm ki, bizimlə görüşmək, bir qismi təcili, əksəriyyəti aktual, ümdə olan məsələlərin müzakirə edilməsi üçün vaxt tapmısınız. Zaman dinamik hərəkət edir, sürətlə keçir. Rusiya, Azərbaycan və Ermənistan dövlətlərinin rəhbərləri tərəfindən plan, mənim fikrimcə, tarixi Bəyanat qəbul ediləndən sonra o qədər də çox vaxt keçməyib, lakin sülhməramlı kontingent, sülhməramlı qüvvələr müəyyən edilmiş mövqeləri tutublar, yəni orada 23 post var. Təmas xəttində təhlükəsizliyi təmin etmək üçün magistral tərəfdə yerləşən bu postlar nəzarətə götürülüb. Köçkünlərin qayıtması başlanıb. Əlbəttə, nizamlanmış bütün işlər bu gün öz nəticələrini verir.

Siz qeyd etdiyiniz kimi, bu müddətdə, ola bilsin, nadir istisnalarla, hesab edirik ki, əhəmiyyətsiz atışmaları nəzərə almasaq, atəşkəs rejiminə riayət edilir və mən əminəm ki, bundan sonra da belə olacaq.

**AZƏRTAC**

**"Əl-Cəzirə" kanalının müxbiri: Ağdamda dağıntılardan başqa heç nə qalmayıb**

[17:40] 21.11.2020

"Əl-Cəzirə" telekanalı Azərbaycanın işğaldan azad olunmuş Ağdam rayonundan reportaj yayımlayıb.

AZƏRTAC xəbər verir ki, reportajda Azərbaycan Ordusunun 30 ilə yaxın müddətdə Ermənistanın nəzarətində qalmış Ağdam rayonuna daxil olduğu bildirilir. Qeyd edilir ki, əldə edilmiş razılaşmaya əsasən Ermənistan Ağdamı Azərbaycana geri qaytarıb.

Telekanalın Ağdama ezam olunmuş müxbiri rayonun dağıntılar altında qaldığını bildirir. O deyir: "Ağdamda dağıntılardan başqa heç nə yoxdur. Hətta şəhərin mərkəzi belə vandalizmə məruz qaldıqdan sonra tərk edilib. Buranın yerli əhalisi artıq geri qayıtmaq istəyir".

Reportajda ərazinin minalandığı, yalnız bir neçə saat ərzində buradan 150-yə yaxın mina tapıldığı diqqətə çatdırılır.

Vurğulanır ki, Ağdamın bir zamanlar məşhur olan Mədəniyyət Mərkəzi də tamamilə dağıdılıb.

Reportajda Azərbaycan rəsmilərinə istinadla ölkənin uğurları müharibə yolu ilə əldə etdiyi bildirilir. Bununla yanaşı, o da qeyd edilir ki, Ağdam tək bir silah işlətmədən, itki vermədən geri qaytarıldı. Dörd gün sonra ermənilər Kəlbəcər, ayın sonunda isə Laçın rayonlarından çıxmalıdırlar.

**AZƏRTAC**

**"Kuwait Times" qəzetində Ağdamın işğaldan azad olunması barədə məqalə dərc edilib**

[13:33] 22.11.2020

Küveytin ingilis dilli "Kuwait Times" qəzetində Azərbaycan qoşunlarının Ermənistanın təhvil verdiyi Ağdam rayonuna daxil olması barədə məqalə dərc edilib.

Ölkəmizin Küveyt Dövlətindəki səfirliyindən AZƏRTAC-a bildiriblər ki, yazıda Azərbaycan, Rusiya və Ermənistan arasında imzalanmış üçtərəfli razılaşmaya əsasən, Ermənistan Azərbaycanın işğal olunmuş Ağdam rayonunu təhvil verdiyi və hərbi birləşmələrimizin rayona daxil olduğu diqqətə çatdırılıb. Həmçinin qeyd olunub ki, razılaşmaya əsasən, dekabrın 1-dək Kəlbəcər və Laçın rayonları da Azərbaycana təhvil veriləcək. Ağdam rayonunu tərk edən ermənilərin ağaclardakı meyvələri yığıb mikroavtobuslarla qaçdıqları, gedərkən evlərini yandırdıqları da qeyd olunub.

Məqalədə 6 həftəlik döyüşlərdən sonra əldə edilən üçtərəfli atəşkəs razılaşması haqqında məlumat verilib. Vurğulanıb ki, razılaşmaya əsasən, tərəflər döyüşlərə son qoymağı və işğal altındakı əraziləri Azərbaycana qaytarmağı qəbul ediblər.

Eyni zamanda, yazıda münaqişənin tarixinə toxunulub, Qarabağda yaradılmış qondarma rejimin Ermənistanın özü də daxil olmaqla, dünyanın heç bir dövləti tərəfindən tanınmadığı diqqətə çatdırılıb.

Yazıda, həmçinin razılaşmadan sonra Azərbaycan və Ermənistan paytaxtlarındakı vəziyyət müqayisə olunub. Bildirilib ki, Bakıda insanların qələbə sevinci yaşadığı halda, Ermənistanın paytaxtı İrəvan küçələrində əsl xaosdur.

**AZƏRTAC**

**“Arabnews” qəzeti : Azərbaycanlılar öz evlərinə qayıdırlar**

[15:23] 22.11.2020

Səudiyyə Ərəbistanının ingilis dilində nəşr edilən nüfuzlu “Arabnews” qəzetində “Azərbaycanlılar öz evlərinə qayıdırlar” sərlövhəli məqalə dərc olunub.

AZƏRTAC xəbər verir ki, məqalədə Azərbaycan Ordusunun 27 il işğal altında qalan torpaqları azad etdiyi və məcburi köçkünlərin öz doğma yurdlarına qayıtdıqları qeyd olunur. Diqqətə çatdırılır ki, ötən əsrin 90-cı illərinin əvvəlində 1 milyona yaxın azərbaycanlı torpaqların Ermənistan tərəfindən işğalı nəticəsində öz evlərini tərk etmək məcburiyyətində qalmışdı. Sentyabrın 27-də başlayan və 44 gün davam edən döyüşlər nəticəsində Azərbaycan Ordusu tərəfindən 300-dən çox yaşayış məntəqəsi azad edilib. Noyabrın 10-da Ermənistan baş nazirinin kapitulyasiya bəyanatını imzalamasından sonra Ağdam, Laçın və Kəlbəcər rayonlarının da Azərbaycana təhvil verilməsi prosesinə başlanılıb.

Məqalədə vurğulanıb ki, azərbaycanlılar işğaldan azad edilmiş Ağdam və Füzuli şəhərlərində dəhşətli mənzərə, dağıdılmış binalar, yollar və digər infrastrukturla qarşılaşıblar. Vaxtilə 50 mindən çox sakini olan Ağdam şəhəri xarabalığa çevrilib.

Müəllif Cəbrayıl sakini Adil Şərifovun ailəsinin 27 ildir Bakıda məcburi köçkün həyatı yaşadığını, onun torpaqlarımızın azad edilməsi ilə bağlı sevinc hisslərini də diqqətə çatdırıb. Qeyd edib ki, azərbaycanlı ailə Cəbrayıl şəhərinin erməni işğalçıları tərəfindən dağıdıldığı barədə danışıb. O bildirib ki, ailə üzvləri ilə birlikdə öz doğma yurdundakı evini yenidən tikəcək.

**Oqtay Bayramov**
**AZƏRTAC-ın xüsusi müxbiri. Qahirə**

**AZƏRTAC**

**TRT HABER: Ağdamdakı dəhşətli mənzərə Ermənistanın vəhşiliyinə daha bir nümunədir**

[14:54] 22.11.2020

Türkiyənin "TRT Haber" televiziya kanalı Ermənistan işğalından xilas edilən Ağdam rayonundakı tükürpədici vəziyyətlə bağlı geniş reportaj yayıb.

AZƏRTAC xəbər verir ki, talan edilən, qapı və pəncərələrinə, divarlarına qədər sökülüb aparılan evlərin dəhşətli mənzərəsini canlı yayımla tamaşaçılara çatdıran aparıcı real mənzərənin rayon mərkəzi də daxil olmaqla, bölgənin 27 il işğalda saxlanıldığını deyil, sanki əsrlər əvvəl dağıdılıb məhv edilməsi barədə acı təəssürat yaratdığını vurğulayıb. Ağdamdakı dəhşətli mənzərə Ermənistanın vəhşiliyinə daha bir nümunədir. Ağdamda da eynilə Cəbrayıl, Füzuli, Zəngilan və Qubadlıda qarşılaşdığımız acınacaqlı vəziyyətin şahidi olduq.

Diqqətə çatdırılıb ki, artıq Ağdam Cümə məscidinin işıqlandırılıb, hərbi birliklər rayonun minalardan təmizlənməsini davam etdirir.

Qeyd edək ki, Azərbaycanın işğal altındakı torpaqlarını düşməndən azad etmək üçün Silahlı Qüvvələrimizin rəşadətli Qələbəsi ilə nəticələnən möhtəşəm zəfər və təcavüzkar Ermənistanın təslim olması Türkiyənin kütləvi informasiya vasitələri tərəfindən ən əsas mövzu kimi diqqət mərkəzində saxlanılmaqdadır.

**Sabir Şahtaxtı**
**AZƏRTAC-ın xüsusi müxbiri, Ankara**

**AZƏRTAC**

**Azərbaycanın hərbi-diplomatik uğurları Ağdam rayonunun işğaldan azad olunmasını və 853 saylı qətnamənin icrasını şərtləndirdi**

[21:55] 22.11.2020

Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu sentyabrın 27-dən Ermənistanın hərbi təcavüzünə cavab olaraq, işğal altında olan torpaqlarımızı azad etmək üçün genişmiqyaslı əks-hücum əməliyyatları həyata keçirməklə yanaşı, xalqımız bütünlüklə Müzəffər Ali Baş Komandanın ətrafında səfərbər oldu. Azərbaycan torpaqlarının hər qarışının azad edilməsi uğrunda gedən döyüşlər, qüdrətli ordumuzun şanlı tarix yazaraq düşmən üzərindəki sarsıdıcı zərbələri, eləcə də bir sıra mühüm əhəmiyyətli şəhərlərimizin, yaşayış məntəqələrimizin, həmçinin müxtəlif istiqamətlərdə strateji yüksəkliklərin işğalçılardan azad edilməsi xalqımızda böyük inam və ruh yüksəkliyi yaratdı.

Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Ermənistanın işğalı altında olan torpaqlarımızı azad etmək üçün rəşadətli Azərbaycan Ordusunun sentyabrın 27-də Qarabağda başladığı genişmiqyaslı və uğurlu əks-hücum əməliyyatları nəticəsində noyabrın 9-dək 5 şəhər, 4 qəsəbə və 286 kənd işğaldan azad edildi. 44 gün ərzində Cəbrayıl şəhəri və rayonun 90 kəndi, Füzuli şəhəri və rayonun 53 kəndi, Zəngilan şəhəri, rayonun Mincivan, Ağbənd, Bartaz qəsəbələri və 52 kəndi, Xocavənd rayonunun Hadrut qəsəbəsi və 35 kəndi, Tərtər rayonunun 3 kəndi, Qubadlı şəhəri və 41 kəndi, Xocalı rayonunun 9 kəndi, Şuşa şəhəri, Laçın rayonunun 3 kəndi, həmçinin Ağdərə və Murovdağ istiqamətlərində bir neçə strateji yüksəklik, Zəngilanda isə Bartaz, Sığırt, Şükürataz yüksəklikləri və daha 5 adsız yüksəklik azad olundu.

Bu ilin noyabrın 8-i tariximizə ən şanlı bir gün kimi yazıldı. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuz Azərbaycanın tarixi, mədəni və strateji əhəmiyyətə malik, Qarabağın baş tacı olan Şuşa şəhərini işğalçılardan azad etdi. Bu, 44 gün içərisində aparılan uğurlu əks-hücum əməliyyatlarının sırasında ən mühüm tarixi hadisə və böyük hərbi Qələbə oldu. Azərbaycanın hərbi-diplomatik uğurları, xüsusilə strateji əhəmiyyətli Şuşa şəhərinin azad edilməsi müharibənin sonrakı gedişinə və taleyinə ciddi təsir göstərdi.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının professoru, siyasi elmlər doktoru Elçin Əhmədov bildirib.

E.Əhmədov deyib ki, 27 il ərzində təcavüzkara qarşı nəinki heç bir təzyiq edilməyib, hətta dünya birliyi Ermənistanın yürütdüyü faşist ideologiyası, Azərbaycana qarşı etnik təmizləmə, dövlət terrorizmi və işğalçılıq siyasətinə, bütün dünyanın gözü qarşısında baş verən bu qanlı terror hadisələrinə seyrçi mövqedən yanaşaraq, xüsusilə onu sülhə məcbur etmək üçün BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi 822, 853, 874, 884 saylı qətnamələr əsasında qeyd-şərtsiz Azərbaycan torpaqlarından çıxmasını birmənalı şəkildə tələb etməyib.

Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyətli və prinsipial mövqeyi hərb meydanında olduğu kimi, diplomatiya meydanında da uğurlarımızı şərtləndirdi. Azərbaycan dövləti oktyabrın 4-də Cəbrayıl şəhərini, 17-də Füzuli şəhərini, 22-də Zəngilan şəhərinin işğalçılardan azad olunması ilə BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi və 27 il yerinə yetirilməmiş qalan 874 və 884 saylı qətnaməni özü icra etdi.

1993-cu il iyulun 23-də Ağdam rayonunun Ermənistan silahlı qüvvələri tərəfindən işğalından sonra iyulun 29-da BMT Təhlükəsizlik Şurasının 3259-cu rəsmi iclasında Təhlükəsizlik Şurasının sədri Devid Henney (Böyük Britaniya) Şura üzvlərinə məlumat verərək bu iclasın Azərbaycan dövləti adından Təhlükəsizlik Şurasına göndərilən və BMT-dəki daimi nümayəndəlik tərəfindən yayılmış məktubdakı təkidli xahişə müvafiq surətdə keçirildiyini bildirdi. Müzakirələrdən sonra BMT Təhlükəsizlik Şurası Azərbaycanın Ağdam rayonunun işğal edilməsi ilə bağlı 853 saylı qətnamə qəbul etdi. Bu qətnamədə də Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında gərginliyin olduğu göstərilir, beynəlxalq sərhədlərin pozulmazlığı və ərazilərin zor gücünə ələ keçirilməsinin yolverilməzliyi bir daha təsdiq olunur, hərbi əməliyyatların təxirə salınmadan dayandırılması və işğalçı qüvvələrin Azərbaycan Respublikasının Ağdam rayonundan və bu yaxınlarda işğal olunmuş bütün digər rayonlarından dərhal, tamamilə və qeyd-şərtsiz çıxarılması tələb olunurdu.

2020-ci il noyabrın 20-də Ağdam rayonunun işğaldan azad olunması mühüm tarixi hadisədir. Ağdamın işğaldan azad edilməsi noyabrın 10-da imzalanmış üçtərəfli bəyanatın müvafiq maddəsinin yerinə

yetirilməsidir. Bununla yanaşı, Prezident, Ali Baş Komandan İlham Əliyevin qətiyyətli və prinsipial mövqeyi nəticəsində BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi və 27 il yerinə yetirilməmiş qalan, eləcə də işğalçı qüvvələrin Azərbaycan Respublikasının Ağdam rayonundan çıxmasını nəzərdə tutan 853 saylı qətnamə də məhz Azərbaycanın şərtləri ilə icra edildi.

Ağdam rayonu Kiçik Qafqaz dağları ilə Kür-Araz ovalığının təmas zonasında, yəni Qarabağ silsiləsinin şimal-şərq ətəklərində, Kür-Araz ovalığının qərb hissəsində yerləşir. Relyefi əsasən düzənlik, qismən dağlıqdır. Rayonun ərazisindən Qarqar və Xaçın çayları axır. Şimalda Tərtər və Bərdə rayonları, cənubda Xocavənd, şərqdə Ağcabədi rayonu, qərbdə isə Kəlbəcər rayonu və Xocalı şəhəri ilə həmsərhəddir.

Bununla yanaşı, işğal nəticəsində Ağdam rayonu ərazisindəki memarlıq abidələri bütünlüklə talan edilmiş, yandırılmış, dağıdılmış və məhv edilmişdir. Aparılan arxeoloji tədqiqatlar zamanı aydın olmuşdu ki, Üçoğlantəpə deyilən yerdə ilk qədim insanlar rayon ərazisində altı-səkkiz min il bundan əvvəl, yəni, eneolit dövründə (e.ə. IV-VI minilliyi əhatə edir) yaşamış, qədim əkinçilik və maldarlıq mədəniyyətinə yiyələnmişlər. Rayonun digər ərazilərində qədim yaşayış məskəni olmuş Leylatəpə və Üzərliktəpə deyilən yerlərdə apardığı arxeoloji tədqiqatlar zamanı eneolit və orta tunc dövrünə aid (e.ə. II minilliyin birinci yarısı) dulusçuluq, metaləritmə, zərgərlik və digər sahələrə aid maddi-mənəvi abidələr aşkarlanıb.

Tarixi və memarlıq abidələrindən Sarıhacılı kəndindən 3 kilometr cənub-şərqdə Çinartəpə yaşayış yeri (e.ə. II-I minilliklər), Göytəpə kəndinin qərbində Göytəpə yaşayış yeri (tunc dövrü), Papravənd kəndinin cənub-şərqində Güllütəpə - II yaşayış yeri (son tunc dövrü, ilk orta əsrlər), Güllütəpə - I yaşayış yeri (III-XIII əsrlər), Ağdam şəhərinin şimal-qərbində Xındırıstan kəndində yerləşən Üzərliktəpə abidəsi, Xaçındərbənd kəndindəki Qutlu Musa oğlu günbəzi (1314-cü il), Salahlı-Kəngərli kəndindəki türbə və daş abidələr (XIV əsr), Papravənd kəndindəki Xanoğlu türbəsi (XVII əsr), Şeyx Nigari türbəsi, türbələr və məscid (XVIII əsr), Qarabağ xanı Pənahəli və onun nəslinin Ağdam şəhərindəki imarəti (XVIII əsr) və türbəsi, iki sandığabənzər abidə (XVI əsr), o cümlədən görkəmli Azərbaycan şairəsi Xurşidbanu Natəvanın və onun oğlunun türbələri, Ağdam şəhərinin Qaraağacı qəbiristanında Uğrulla bəyin türbəsi (XIX əsr), Şahbulaq ərazisində Şahbulaq qalası və Karvansara, eləcə də rayonun ərazisində mövcud olan çoxlu sayda tarixi, mədəni və dini abidələr məhv edilmişdir.

Bununla yanaşı, Ağdamda bütün dünyada yeganə olan "Çörək muzeyi" ilə yanaşı, tarzən Qurban Pirimovun xatirə muzeyi, Ağdam Şəkil Qalereyası və şəhərin mərkəzində yerləşən qədim memarlıq abidəsi sayılan Məscid və onun minarələri də erməni vandalları tərəfindən vəhşicəsinə dağıdılmışdır. Ümumilikdə, 130-dan çox tarixi abidə və maddi-mədəniyyət nümunələri yer üzündən silinmişdir.

Bundan əlavə, işğaldan əvvəl Ağdamda 1898 sayda sosial-iqtisadi tikinti obyekti, 17 sənaye, 31 tikinti, 753 ticarət, 397 ictimai iaşə, 220 məişət müəssisəsi, 480 sosial bina, 24 min 446 yaşayış tikililəri, həmçinin 54 məktəbəqədər uşaq, 116 ümumtəhsil müəssisəsi, bir neçə ali məktəb filialı, 13 mədəniyyət evi, muzeylər, 109 mədəniyyət klubu fəaliyyət göstərmişdir.

Prezident İlham Əliyev bəyan edib ki, Azərbaycanın mövqeyində hər hansı bir dəyişiklik yoxdur, ola da bilməz, çünki biz həm tarixi ədalətə, eyni zamanda, beynəlxalq hüquqa əsaslanırıq. "Azərbaycanın ərazi bütövlüyü istənilən digər ölkənin ərazi bütövlüyü kimi eyni dəyərə malikdir" fikrini bütün dünyaya bəyan edən Prezident İlham Əliyev dəfələrlə bildirib ki, heç vaxt Azərbaycan torpağında ikinci erməni dövlətinin yaranmasına icazə verilməyəcək, işğal edilmiş bütün torpaqlar işğalçılardan azad olunmalı, Azərbaycan vətəndaşları öz doğma yurdlarına qayıtmalıdırlar.

Azərbaycan Prezidenti deyib: "Əgər beynəlxalq birlik Ermənistanı törədilmiş cinayətlərə görə məsuliyyətə cəlb etmək istəmirsə, - necə ki, Xocalı soyqırımına görə heç kim onları məsuliyyətə cəlb etməyib, - biz özümüz onları məsuliyyətə cəlb edəcəyik. Biz özümüz onların cəzasını verəcəyik, özümüz onları cəzalandıracağıq və bizim cəzamız ədalətli cəza olacaqdır. Onlar ən ağır cəzaya layiqdirlər. Ermənistanın hərbi-siyasi rəhbərliyi cinayətkarlardır və biz bu cinayətkarları cəzalandıracağıq".

Ağdam rayonunun işğaldan azad olunması tarixi hadisə kimi dəyərləndirən Azərbaycan Prezidenti İlham Əliyev noyabrın 20-də xalqa müraciətində qeyd etmişdir ki, işğal edilmiş rayonların arasında əhalinin sayına görə Ağdam ən böyük rayondur, işğaldan əvvəl Ağdam rayonunda 143 min insan yaşayırdı, hazırda isə Ağdam rayon sakinlərinin sayı 204 mindir.

Prezident İlham Əliyev indi Ağdam üçün yeni dövrün başladığını vurğulayaraq demişdir: "Ağdamın işğaldan azad edilməsi şanlı hərbi Qələbə nəticəsində mümkün olmuşdur. Əgər Azərbaycan Ermənistanı döyüş meydanında məğlub etməsəydi, Ermənistan öz xoşu ilə bizim torpaqlarımızdan çıxmayacaqdı. Bunu deməyə əsas verən bir çox amillər var. İlk növbədə, o bölgələrdə - işğal edilmiş torpaqlarda qurulmuş istehkamlar, oraya böyük vəsait xərclənib. O istehkamlar elə qurulub ki, Azərbaycan Ordusu oradan keçə

bilməsin. Amma yenə də səhv etdilər. Bizim gücümüzü düzgün hesablaya bilmədilər. Bilmirdilər ki, bu gün Azərbaycan Ordusu, Azərbaycan vətəndaşı nəyə qadirdir. Bilmirdilər ki, bizi o Qələbəyə aparan həm gücümüzdür, texniki təchizatımızdır, həm də mənəvi ruhumuzdur. Bilmirdilər ki, Azərbaycan xalqı bütün bu illər ərzində bir arzu ilə yaşayır ki, öz dədə-baba torpağına qayıtsın. Bütün bu amillər və digər amillər bu Qələbəni şərtləndirdi".

**AZƏRTAC**

**Birinci vitse-prezident Mehriban Əliyeva rəsmi “Instagram” səhifəsində Ağdamdan görüntülər paylaşıb**

[18:14] 23.11.2020

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi “Instagram” səhifəsində Ağdamdan görüntülər paylaşıb.

AZƏRTAC həmin görüntüləri təqdim edir.

**AZƏRTAC**

**Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva işğaldan azad edilmiş Ağdam şəhərində olublar**

[10:03] 24.11.2020

Xəbər verdiyimiz kimi, noyabrın 23-də Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva işğaldan azad edilmiş Ağdam şəhərində olublar.

AZƏRTAC xəbər verir ki, Ağdama gedən yolda avtomobili özü idarə edən **Prezident İlham Əliyev** dedi:

-Baxın, düşmənin müdafiə xətti. Ağdam şəhərinə qədər düşmənin bir neçə müdafiə xətti var idi, baxın.

İndi biz işğaldan azad edilmiş torpaqlara keçirik. İstiqamət Ağdam şəhəridir. Ağdam şəhərini və Ağdam rayonunun işğal altında olmuş torpaqlarını biz bir güllə atmadan azad etdik. Düşməni döyüş meydanında məğlub edərək məcbur etdik ki, Ağdam rayonundan çəkilsin.

Baxın, daha bir müdafiə xətti. Sağda da Azərbaycan vətəndaşlarının düşmən tərəfindən dağıdılmış evləridir. Bütün dünya görsün ki, vəhşi düşmən bizim kəndlərimizi nə günə qoyub, biz hansı vəhşilərlə üz-üzə idik, biz hansı vəhşiləri məğlub etmişik. Bütün dünya bunu görməlidir.

Bir dənə də salamat bina yoxdur, hamısını dağıdıblar. Evlərimizi, kəndlərimizi dağıdıblar, torpaqlarımızdan istifadə ediblər. Bütün hərbi cinayətlərə görə düşmən cavab verəcək. Biz Ağdam şəhərinə də jurnalistləri, o cümlədən xarici jurnalistləri, diplomatik korpusun nümayəndələrini dəvət edəcəyik. Qoy, gəlsinlər, görsünlər.

Dövlətimizin başçısı Ağdamda Azərbaycanın üçrəngli bayrağını qaldırdı. İyirmi yeddi ildən sonra işğaldan azad olunan Ağdamda indi dövlət bayrağımız qürurla dalğalanır. Bu görüntüləri hər bir azərbaycanlı fəxrlə və böyük sevinclə izləyir.

Bir vaxtlar qaynar həyatın olduğu, əməksevər insanların qurub-yaratdıqları abad şəhərdən əsər-əlamət qalmayıb. Erməni işğalçılar xislətlərinə uyğun olaraq, Ağdamın ağ damlarını xarabalığa çeviriblər, şəhəri darmadağın ediblər.

Sonra dövlətimizin başçısı və birinci xanım Ağdam məscidini ziyarət etdilər. Xocalı soyqırımında sağ qalan xocalıların ümid, pənah yerinə çevrilən qoşa minarəli məscid də yırtıcı düşmən tərəfindən vəhşicəsinə dağıdılıb.

Prezident İlham Əliyev Məkkədən gətirdiyi "Qurani-Kərim"i Ağdam məscidinə bağışladı.

Azərbaycan Prezidenti və birinci xanım məsciddə dua etdilər.

Dövlətimizin başçısı Ağdam məscidinin qarşısında çıxış etdi.

**Prezident İlham Əliyevin**
**çıxışı**

-Əziz həmvətənlər.

Bildiyiniz kimi, noyabrın 20-də Ağdam şəhəri və Ağdam rayonunun işğal altında olan hissəsi işğaldan azad edilib. Bu münasibətlə mən Azərbaycan xalqını təbrik etmişdim, ağdamlıları təbrik etmişdim. Bu gün mən buradayam, Ağdam şəhərindəyəm. Ağdam məscidini ziyarət etmişəm, Azərbaycan Dövlət Bayrağını qaldırmışam. Biz Ağdama qayıtmışıq. Bütün ağdamlıları bu tarixi hadisə münasibətilə bir daha təbrik etmək istəyirəm. Bilirəm ki, ağdamlılar bu günü uzun illər ərzində səbirsizliklə gözləyiblər. Həm işğal dövründə - 30 ilə yaxın müddət ərzində, eyni zamanda, İkinci Qarabağ müharibəsi, Vətən müharibəsi dövründə gözləyirdilər ki, Ağdam işğaldan nə vaxt azad ediləcək. Biz öz tarixi missiyamızı şərəflə yerinə yetirdik, işğal olunmuş torpaqları düşməndən azad etdik. Döyüş meydanında əldə edilən qələbə imkan verdi ki, Ağdam rayonu, eyni zamanda, Kəlbəcər və Laçın rayonları bir güllə atmadan, bir şəhid vermədən işğaldan azad edilsin.

Biz bu torpaqlara Azərbaycan xalqının, şəhidlərimizin canı, qanı bahasına, qəhrəmanlarımızın şücaəti hesabına qayıtmışıq. Biz güc toplamalı idik və toplayırdıq. Mən son 17 il ərzində xalqa müraciət edərkən dəfələrlə deyirdim ki, biz daha güclü olmalıyıq, daha qüdrətli ordu qurmalıyıq. Bu gün dünyada güc amili həlledici rol oynayır. Haqq-ədalət bizim tərəfimizdədir, beynəlxalq hüquq bizim tərəfimizdədir, güc də bizim tərəfimizdə olmalıdır. Məhz gücümüzün yetərli dərəcədə olmaması nəticəsində Azərbaycan

1990-cı illərin əvvəllərində işğala məruz qalmışdır. Biz güc toplayırdıq, güclənirdik. Mən deyirdim ki, hər gün hər bir Azərbaycan vətəndaşı bu müqəddəs günü, bu zəfər gününü öz əməyi, zəhməti, Vətənə olan sədaqəti ilə yaxınlaşdırmalıdır.

Biz beynəlxalq müstəvidə böyük işlər apardıq və mən öz çıxışlarımda xalqa bu barədə kifayət qədər məlumat vermişdim. Bu gün, müharibə başa çatandan sonra və hətta müharibə dövründə bütün dünya, bütün Azərbaycan xalqı gördü ki, bunun nə qədər böyük əhəmiyyəti var idi. Əgər biz münaqişənin həlli üçün lazımi hüquqi baza yaratmasaydıq, bu gün problemlərlə üzləşə bilərdik. Biz bütün beynəlxalq təşkilatlarda ədaləti, beynəlxalq hüququ tanıyan, əks etdirən qərar və qətnamələr qəbul etdirdik. BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi 1993-cü ildə qəbul edilmişdir. Amma ondan sonra biz BMT Baş Assambleyasının qətnamələrini, İslam Əməkdaşlıq Təşkilatının qətnamələrini, Qoşulmama Hərəkatının, Avropa Parlamentinin, Avropa Şurası Parlament Assambleyasının qərar, qətnamələrini qəbul etdirərək münaqişənin həlli üçün çox möhkəm hüquqi baza yaratdıq. 2003-cü ildən bu günə qədər bütün bu lazımi addımlar atıldı və biz siyasi müstəvidə qələbə qazandıq. Eyni zamanda, iki il bundan əvvəl Avropa İttifaqı ilə Azərbaycan arasında paraflanmış "Tərəfdaşlıq prioritetləri" sənədində də Azərbaycanın suverenliyi, ərazi bütövlüyü və sərhədlərimizin toxunulmazlığı haqqında açıq ifadələr var. Bu, bizim böyük uğurumuzdur. Çünki uzun illər ərzində biz buna nail ola bilməmişdik. Bəzi beynəlxalq təşkilatlar işğalçını öz adı ilə çağırmaq istəmirdilər. Bəzi beynəlxalq təşkilatlar işğalla bağlı qəbul edilmiş sənədlərdə işğalçının kim olduğunu göstərmək istəmirdilər. Hətta BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsində Ermənistan işğalçı dövlət kimi göstərilmədi. Orada "erməni qüvvələri" yazılmışdı.

Biz son 17 il ərzində münaqişənin həlli üçün hüquqi baza yaratdıq. Mən bütün beynəlxalq təmaslarımda Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Azərbaycanın mövqeyini, tarixi həqiqətləri və mövcud vəziyyəti bütün həmkarlarıma çatdırmışdım. Mənim demək olar ki, bütün ikitərəfli beynəlxalq təmaslarımda Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi xüsusi yer alır. Mənim bütün çıxışlarıma baxmaq kifayətdir. Son 17 il ərzində demək olar ki, bütün çıxışlarımda bu məsələ ilə bağlı öz fikrimi bildirmişdim, dünya ictimaiyyətini məlumatlandırmışdım. Çünki əfsuslar olsun ki, 1990-cı illərin əvvəllərində münaqişə ilə bağlı dünyada dolğun təsəvvür yox idi, təhrif edilmiş məlumat var idi. Erməni lobbisi tərəfindən ortalığa atılmış məlumat var idi. Əks təqdirdə, bizim torpaqlarımız işğal altına düşə-düşə Amerika Konqresi məşhur 907-ci düzəlişi qəbul etməzdi. Azərbaycan torpaqları işğal altına düşürdü, ancaq Amerika Konqresi Azərbaycanı təcavüzkar kimi tanımışdır və bizi humanitar yardımdan məhrum etmişdir. O vaxt erməni lobbisi buna nail oldu. Azərbaycan diplomatiyası, sadəcə olaraq, onların qarşısında adekvat addım ata bilməmişdir.

Biz informasiya müharibəsində qələbə qazandıq. Biz Xocalı soyqırımı haqqında dünyaya dolğun məlumat verdik. Xocalı soyqırımı haqqında dünyada məlumat yox idi. "Xocalıya ədalət!" kampaniyası, 10-dan çox ölkə tərəfindən Xocalı soyqırımının soyqırımı kimi tanınması demək olar ki, münaqişə ilə bağlı həqiqəti əks etdirən mənzərəni yaratdı və dünya ictimaiyyətinə çatdırdı.

Biz - Qoşulmama Hərəkatına sədrlik edən ölkə BMT-dən sonra ikinci böyük təsisat olan Qoşulmama Hərəkatına sədrlik etdiyimiz dövrdə də bu məsələni diqqət mərkəzində saxlamışıq. Bu gün 120 ölkəni birləşdirən təşkilata Azərbaycan sədrlik edir. Keçən il Zirvə görüşü keçirilmişdir. Bu gün Azərbaycan xalqı bir daha görür ki, bunun nə qədər böyük önəmi var idi. Çünki İkinci Qarabağ müharibəsi dövründə BMT-də, BMT Təhlükəsizlik Şurası tərəfindən yeni qətnamənin qəbul edilməsi cəhdləri də baş vermişdir. O qətnamə qəbul edilsəydi, əlbəttə ki, bizi dayandıra bilməzdi, ancaq lazım olmayan bir mənzərə yarada bilərdi. Məhz Qoşulmama Hərəkatına üzv ölkələr o qətnamənin qəbul olunmasına imkan vermədilər, bizi dəstəklədilər. Mən də onlara təşəkkürümü bildirdim və demişdim ki, onlar bizim arxamızda kişi kimi durdular. Baxmayaraq ki, böyük dövlətlər onlara böyük təzyiqlər göstərirdi. Qoşulmama Hərəkatının bir çox üzvləri Azərbaycanı həm müstəqil, həm güclü, həm də onları müdafiə etməyə hazır olan ölkə kimi tanıyır. Biz pandemiya dövründə 30-dan çox ölkəyə humanitar maliyyə yardımı göstərmişik, o cümlədən Ümumdünya Səhiyyə Təşkilatının xətti ilə Qoşulmama Hərəkatına xüsusi bir yardım göstərmişik. Görülmüş bütün bu işlər səmərəsini verdi. Biz bizim üçün əsas məsələ olan Ermənistan-Azərbaycan Dağlıq Qarabağ məsələsində lazımi beynəlxalq dəstəyi ala bildik.

Biz bu gün təkcə Qoşulmama Hərəkatına yox, eyni zamanda, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına da sədrlik edirik. Bizim beynəlxalq nüfuzumuz kifayət qədər yüksəkdir və bu, münaqişənin həlli üçün xüsusi rol oynamışdır.

Mən bu 17 il ərzində daim deyirdim ki, biz iqtisadi sahəyə güclü təkan verməliyik, iqtisadi müstəqilliyimizi təmin etməliyik və təmin etdik. Bu gün biz iqtisadi cəhətdən heç kimdən asılı deyilik. Asılı

olsaydıq, bizə təzyiqlər edilə bilərdi. Onsuz da edilmişdi, ancaq onların heç bir səmərəsi olmadı. Çünki bizə qarşı iqtisadi amildən istifadə etmək mənasızdır. Biz heç kimdən asılı deyilik, hansısa ölkədən, hansısa beynəlxalq maliyyə qurumundan asılı deyilik. Əksinə, biz özümüz indi donor ölkəyik, biz özümüz indi kreditlər veririk. Bizim kifayət qədər güclü iqtisadi potensialımız və maliyyə resurslarımız imkan verdi ki, iqtisadi müstəqilliyi tam təmin edək. Bu da qələbənin əldə edilməsində xüsusi rol oynayırdı. Çünki əgər biz iqtisadi cəhətdən müstəqil olmasaydıq, biz siyasi müstəqillik əldə edə bilməzdik. Siyasi müstəqillik olmadan torpaqlarımızı düşməndən azad edə bilməzdik. O düşməndən ki, onların arxasında böyük dövlətlər, o dövlətlərin çox nüfuzlu dairələri, erməni lobbi təşkilatları dayanır.

Bu amillər gücümüzü artırdı, qələbəmizi şərtləndirdi. O amillərin arasında birinci nömrəli məsələ hərbi gücümüzdür. Mən dəfələrlə demişdim ki, bizim üçün hərbi gücümüzün möhkəmləndirilməsi birinci məsələdir. Təsadüfi deyil ki, mənim prezidentlik dövrümdə bizim hərbi xərclərimiz hər il büdcə xərcləri arasında birinci yerdə idi. Mən deyirdim və ya vətəndaşlara izah edirdim ki, bəli, bizim çoxlu başqa məsələlərimiz var, həllini gözləyən problemlər var. Ancaq bizim əsas problemimiz torpaqlarımızın işğal altında olmasıdır. Ona görə bizim xərclərimiz arasında birinci yerdə hərbi xərclər dayanır. Biz lazım olan texnikanı aldıq. Bu texnikanı, müasir silahları Azadlıq meydanında dəfələrlə keçirilmiş paradlarda nümayiş etdirirdik. Biz ordumuzu inkişaf etdirərkən ən qabaqcıl meyilləri nəzərdən keçirmişdik. Biz o silahları alırdıq ki, bu silahlar bizim üstünlüyümüzü təmin etsin və İkinci Qarabağ müharibəsi bunu göstərdi.

Bu gün bir çox ölkələrdə, inkişaf etmiş ölkələrdə bizim təcrübəmiz öyrənilir. Bu gün bu məsələ ilə məşğul olan bir çox ekspertlər qeyd edirlər ki, Azərbaycan XXI əsrin müharibəsini aparıb. XXI əsrdə ilk dəfə olaraq, bu miqyasda və bu səmərə ilə qısa müddət ərzində tarixi nailiyyətlər əldə edilib. İndi buraya gələrkən mən ən azı üç müdafiə xəttini gördüm. Amma mənə hərbçilər tərəfindən verilən məlumata görə, beş müdafiə xətti var. Füzulidə də, həmçinin. Biz bu əsgər və zabitlərimizin qəhrəmanlığı, peşəkarlığı sayəsində müdafiə xəttini yarmışıq. Biz texniki cəhətdən ən müasir silahlarla təchiz edilmişik və İkinci Qarabağ müharibəsi bunu göstərdi, o videogörüntülər var. İndi onlar bir çox ölkələrdə öyrənilir və öyrəniləcək, hərbi kitablara salınacaq.

Eyni zamanda, biz ordumuzun döyüş potensialını gücləndirirdik. Çünki tam aydın idi ki, təkcə silahlarla qələbə qazanmaq mümkün deyil. Bayrağı qaldıran, bayrağı düşmənin mövqeyinə sancan, azad edilmiş torpaqlara sancan əsgərdir, zabitdir. Bizim əsgər və zabitlərimiz aslan kimi vuruşdular. Şəhidlər verdik. Allah bütün şəhidlərimizə rəhmət eləsin! Onların valideynlərinə Allah səbir versin! Yaralı hərbçilərimiz var, onlar da sağalırlar. Onların bir çoxu artıq sağalıb. Allah onlara şəfa versin! Biz qəhrəman əsgər və zabitlərimiz hesabına qələbə qazanmışıq. Təkcə Şuşanın işğaldan azad edilməsi əməliyyatı, əminəm ki, tarixdə əbədi qalacaq. Demək olar ki, yüngül silahlarla dərədən, meşələrdən, dağlardan keçərək əlbəyaxa döyüşdə düşməni məhv etdik, Qarabağın tacı olan Şuşanı azad etdik.

Bax, bütün bu amillər bizim qələbəmizi şərtləndirdi. Mən bir daha qeyd etmək istəyirəm ki, ağdamlılar bu günü uzun illər ərzində - 30 ilə yaxın idi gözləyirdilər. Eyni zamanda, İkinci Qarabağ müharibəsi zamanı da gözləyirdilər. Mən bilirəm və hiss edirəm ki, bizim şəhərlərimiz, rayonlarımız, kəndlərimiz işğaldan azad olunduqca ağdamlılar da fikirləşirdilər ki, nə vaxt onların kəndləri, Ağdam şəhəri azad olunacaq. Cəbrayıl azad olundu, Füzuli azad olundu, Hadrut azad olundu, Zəngilan, Qubadlı, Suqovuşan, Şuşa azad olundu və yəqin ki, ağdamlılar fikirləşirdilər ki, nə üçün Ağdam azad olunmur? İndi mən bunu deyə bilərəm. Amma mən istəyirdim, bunu hansısa formada ağdamlılara çatdırım, amma onlar da başa düşürlər ki, müharibə dövründə bunu edə bilməzdim. Burada beş müdafiə xətti var. Düşmən bizi buradan gözləyirdi. Biz imkan verə bilməzdik ki, düşmənin gözlədiyi yerdən hücuma keçək. Biz bu istiqamətdə kifayət qədər böyük hərbi birləşmə saxlamışdıq ki, düşmənin hərbi qüvvələri də burada qalsın, başqa yerə getməsin. Füzulini, Hadrutu, Xocavənd rayonunun böyük hissəsini və Şuşanı azad edəndən sonra təbii ki, biz artıq Ağdam şəhərinə istiqamət götürmüşdük və əmr verilmişdi ki, növbəti istiqamət Ağdamdır. Düşmən də bilir və artıq etiraf edir ki, əgər onlar torpaqlarımızın azad edilməsi ilə bağlı mənim şərtlərimi qəbul etməsəydilər, burada məhv olacaqdılar. Çünki biz Ağdama gəlirdik.

Müharibənin bütün sirlərini açmaq hələ ki, tezdir. Vaxt gələcək çox maraqlı məsələlər üzə çıxacaq. Ancaq bu gün tam rahat deyə bilərəm ki, Ağdam əməliyyatı planlaşdırılırdı. Biz Ağdamı onsuz da alacaqdıq. Amma itkilər olacaqdı, özü də böyük sayda. Ona görə Şuşanı və noyabrın 9-da 70-dən çox kəndimizi azad edəndən sonra düşmənin beli qırıldı, təslim oldu, ağ bayraq qaldırdı, mənim şərtlərimə əməl etdi və öz məğlubiyyətini etiraf etdi.

Mən, demək olar ki, müharibənin ilk günlərindən çoxsaylı müsahibələrimdə və xalqa müraciətlərimdə demişdim ki, - bütün bunları qaldırmaq olar, hər şey sənədləşdirilib, - bizə tarix versin.

Dedim, Paşinyan, sən özün, sənin xarici işlər nazirin, yaxud müdafiə nazirin yox, hansılar ki, bu məğlubiyyətə görə işdən qovuldular, sən özün, Paşinyan, bizə tarix verməlisən, özün deməlisən və buna nail oldum.

Əgər mənim sözümə qulaq assaydı, indi belə rəzil durumda olmazdı. Tam qətiyyətlə deyə bilərəm, biz işğal olunmuş torpaqlarımızı onsuz da azad edəcəkdik. Ancaq düşmən hesab edirdi ki, ona kimsə kömək edəcək. Hesab edirdi ki, onun bütün havadarları gəlib onun yerinə bizimlə vuruşacaq. Səhv etdi, böyük səhv etdi. Füzuli, Cəbrayıl, Hadrut, Zəngilan, Qubadlı, Şuşa, Suqovuşan, Xocavənd rayonunun böyük hissəsi döyüş meydanında işğaldan azad olunandan sonra düşmən diz çökdü və bu gün diz üstədir. Biz düşmənin belini qırdıq, biz şanlı Qələbə qazandıq. Biz bütün dünyaya sübut etdik ki, onların əfsanələri, onların mifləri hamısı boş şeydir. On mindən çox fərari var Ermənistan ordusunda və daha da çox olacaqdı. Əgər biz Ağdama planlaşdırdığımız əməliyyatı həyata keçirsəydik, bax, burada minlərlə erməni hərbçisi ya fərari olacaqdı, ya da məhv olacaqdı. Biz göstərdik ki, döyüşkən xalq Azərbaycan xalqıdır. Biz göstərdik ki, heç vaxt bu işğalla barışmayacağıq. Açsınlar baxsınlar mənim çıxışlarıma, mən son 17 il ərzində bəlkə də min dəfə demişəm, biz bu işğalla barışmayacağıq. Hesab edirdilər ki, bizim torpaqlarımızı işğal altında əbədi saxlayacaqlar. Çünki bu qədər xərc qoyan, burada, Füzulidə, Cəbrayılda bu qədər istehkam quranlar onu da istəyirdilər. Cəbrayıl rayonunun Soltanlı kəndi uğrunda bir neçə gün şiddətli döyüşlər gedirdi. Orada elə istehkamlar qurmuşdular ki, bəlkə də heç dünyada belə istehkamlar olmayıb. Nə üçün? Çıxmaq istəmirdilər. Hesab edirdilər ki, orada əbədi oturacaqlar. Erməniləşdirmək istəyirdilər. Bax, bütün Ağdam şəhəri dağıdılıb. Oranı onlar 1990-cı illərdə dağıdıblar ki, əgər sülh müqaviləsi imzalansa, Azərbaycan xalqı gəlib burada yaşaya bilməsin. Hər tərəf minalanıb. Ən çox minalar məhz buradadır. Amma səhv etdilər. Biz bütün bu illər ərzində bir amalla, bir arzu ilə yaşamışıq ki, bu torpaqlara qayıdaq və qayıtmışıq. Ermənistan ordusunu məhv etmişik. Ermənistan ordusu demək olar ki, yoxdur. Hərbi cinayətkarları məhv etmişik, onların tör-töküntülərini məhv etmişik. Mən Füzuli şəhərində demişəm, bir daha demək istəyirəm, biz Koçaryan, Sarkisyan ordusunu məhv etmişik. Biz Koçaryana, Sarkisyana qarşı qüdrətimizi göstərmişik. Biz onları məğlub etmişik. Paşinyan kimdir, mən indi onun haqqında danışmaq istəmirəm, nə lazımsa demişəm. Koçaryan, Sarkisyan, siz diz çökdünüz bizim qabağımızda, siz buranı, işğal edilmiş bütün torpaqları bax, bu günə saldınız. Siz bu məscidi dağıtdınız. İkinci Qarabağ müharibəsi dövründə qaçıb gizləndilər. Döyüş bölgəsinə burunlarını da belə soxa bilmədilər. Bəs, haradadır sizin qəhrəmanlığınız? Dedim ki, çıxarın dəmir-dümürləri, onun qiyməti yoxdur. Qəhrəman ordenləri taxmısınız döşünüzə. Yalançı qəhrəmandırlar bunlar. Bax, mən burada durmuşam, dağıtdığınız məscidin önündə, dağıtdığınız Ağdam şəhərində, öz ordumla buraya gəlmişəm. Qalib kimi gəlmişəm. Siz isə öz miskin həyatınızın sonuna qədər məğlub edilmiş, qorxaq damğası ilə yaşayacaqsınız. Nə gizlənirsiniz orada siçan kimi?! Koçaryan, Sarkisyan, mən sizə deyirəm. Paşinyan heç kimdir. İndi onun dərdi, azarı hakimiyyətdə qalmaqdır. Buna görə də bütün müxalifəti tutdurur. Qərb də susur buna, susur, ağzına su alıb. Görmür ki, nələr baş verir orada?! Hərbi cinayətkarlar, Xocalı qatilləri, sizi məhv etmişik. Azərbaycan əsgəri, Azərbaycan zabiti sizi məhv edib. Əcəb də eləyib!

Bu gün Ağdam şəhərini dağılmış vəziyyətdə görmək çox ağrılıdır. Amma mən bir neçə il bundan əvvəl bu bölgədə olarkən, bizim səngərlərdə olarkən, o binanı binoklla görmüşəm. Bu hissləri sözlə ifadə etmək çətindir, mümkün deyil. Öz torpağımızda öz şəhərimizi, bax, o binanı binoklla uzaqdan görmək, buraya gələ bilməmək nə qədər ağrılı idi. Dəfələrlə təmas xəttində olarkən, səngərlərdə olarkən, fikirləşirdim ki, gün gələcək biz qayıdacağıq, biz öz ərazi bütövlüyümüzü bərpa edəcəyik.

Bu gün mən Ağdam məscidinə Məkkədən gətirdiyim “Qurani-Kərim”i bağışladım. Mən xoşbəxt adamam ki, dörd dəfə Məkkə ziyarətində olmuşam. Bir dəfə rəhmətlik atamla, üç dəfə isə Prezident kimi. Xoşbəxtəm ki, mən ailə üzvlərimlə bərabər müqəddəs Kəbənin içində dualar etmişəm. Hər bir insanın ürəyində nə varsa, mənim ürəyimdə də eyni duyğulardır. Etdiyim duaların arasında birinci duam torpaqlarımızın işğaldan azad edilməsi idi. Allahdan xahiş edirdim, mənə güc versin ki, biz torpaqları işğalçılardan azad edək, o xoşbəxtliyi bizə nəsib etsin, biz yenə də dədə-baba torpağımıza qayıdaq.

Bu gün burada, vandallar tərəfindən dağılmış məscidin önündə deyirəm ki, xoşbəxt adamam. Bir daha Allaha şükür edirəm ki, mənim dualarımı eşidib, bu gücü mənə verib. Biz gücümüzü səfərbər edərək bax, bu tarixi günləri yaşayırıq. Bu, həqiqətən də tarixi günlərdir. Bəlkə də çoxəsrlik Azərbaycan tarixində buna bənzər şərəfli və qürurlu günlər olmayıb. Biz bunu birliyimiz sayəsində qazanmışıq, gücümüz sayəsində qazanmışıq. Heç kim bizə kömək etməyib. Əksinə, ancaq maneçilik törədib. Gün gələcək bu barədə də ətraflı danışacağam.

Bu 44 gün ərzində bizə mənəvi və siyasi dəstək verən Türkiyə Cümhuriyyəti olub, mənim qardaşım Prezident Rəcəb Tayyib Ərdoğan olub və bir neçə digər müsəlman və qeyri-müsəlman ölkələrin rəhbərləri olub. Biz bu Qələbəni birlik, əzm, iradə və güc hesabına əldə etdik. Bu gün, müharibə başa çatandan sonra artıq Qərb dairələrindən bəzi Qərb liderləri məsələ qaldırırlar ki, bəs, Azərbaycanın nəzarətinə keçən azad edilmiş torpaqlarda xristian məbədləri necə olacaq? Həm mənimlə söhbət zamanı, həm rəsmi bəyanatlarda narahatlıq ifadə edirlər. Heç kim narahat olmasın, xüsusilə Qərb dövlətlərinin liderləri, hansılar ki, islamofob hissləri alovlandırırlar. Hansılar ki, İslam müqəddəslərinin təhqirlərinə göz yumurlar və hətta onları təhqir edənlərə bəraət qazandırırlar. Onların haqqı yoxdur bu barədə danışmağa, bu, birincisi. İkincisi, bizim ərazimizdə olan bütün məbədlər tarixi sərvətimizdir. Azərbaycanda hər il Bakı Humanitar Forumu, ya da ki, Mədəniyyətlərarası Dialoq Forumu keçirilir. Azərbaycanda dünya dini liderlərinin Zirvə görüşləri keçirilib. Baxın, görün, nələr deyilib bizim haqqımızda. İslam Əməkdaşlıq Təşkilatı Azərbaycanda İslam dininə olan münasibəti örnək kimi göstərir. Rusiya Pravoslav Kilsəsinin patriarxı Kiril Bakıda olarkən Azərbaycanda bu sahədə görülmüş işlərə yüksək qiymət verib, Pravoslav kilsələrində olub. Roma Papası Fransisk Bakıda olarkən rəsmi çıxışında Azərbaycanda tolerantlıq, dini dözümlülük, multikulturalizm haqqında danışıb. Kim bizə irad tuta bilər? Məscidləri bağlayan? Yaxud da ki, müsəlman məscidlərinə öldürülmüş donuzların başlarını atan bizə dərs deyəcək, narahatlıq ifadə edəcək? Bizə heç bir narahatlıq ifadə etmək lazım deyil. Bizim bütün tarixi abidələrimiz dövlət tərəfindən qorunur. Mənim göstərişimlə və dövlət vəsaiti hesabına hazırda iki pravoslav kilsəsi təmir edilir, üçüncü kilsə isə təmir olunub. İnzibati bina tikilir. Müharibə dövründə udi qardaşlarımızın kilsəsi Heydər Əliyev Fondu tərəfindən təmir olunaraq istifadəyə verilib. Bizim Qafqaz Albaniyası kilsələri milli sərvətimizdir. Gürcü kilsələrimiz, erməni kilsəsi. Vəhşi düşmən bax bu məsciddə inək saxlayıb, donuz saxlayıb. Bu şəkillər var internetdə. Azad edilmiş Zəngilan məscidində, Cəbrayıl məscidində donuz saxlayıb.

Biz UNESCO ilə çox sıx əməkdaşlıq edirik. Amma gəlib xristian məbədlərinə baş çəkmək istəsə, buraya gəlsin. Gəlsin və desin vəhşi erməni neyləyib burada. Bir də ki, bir neçə il bundan əvvəl Minsk qrupunun həmsədr ölkələrinin səfirləri bu məsciddə, burada olublar. Onlar iki dəfə faktaraşdırıcı missiyalar keçiriblər və mənə deyiblər ki, Ağdam məscidində olublar. Niyə məsələ qaldırmayıblar? Niyə bu, bəzi Qərb liderlərində narahatlıq yaratmayıb? Deməli, müsəlman məscidlərini təhqir etmək olar, inək, donuz saxlamaq olar, dağıtmaq olar. Belədirsə, belə də desinlər və getsinlər öz ölkələrində problemlərlə məşğul olsunlar, bizim işimizə burunlarını soxmasınlar. Heç kim bizim işimizə qarışmasın. Biz özümüz gəlmişik buraya. Bütün o ölkələrin səylərinə rəğmən gəlmişik, bütün təxribatlara rəğmən gəlmişik, qan tökə-tökə gəlmişik və durmuşuq bizim torpağımızda. Hərə getsin öz işi ilə məşğul olsun. Bizim işimizə qarışmaq istəyənin cavabını vermişik və verəcəyik.

Bu gün tarixi bir gündür. Biz şanlı Qələbəmizi qeyd edirik. Dağılmış Ağdam şəhəri erməni vəhşiliyinin şahididir. Biz Ağdam şəhərini bərpa edəcəyik, bütün kəndləri bərpa edəcəyik. Heç kimdə bu haqda şübhə olmasın. Bu, böyük iş olacaqdır. Əlbəttə ki, böyük zəhmət tələb edəcək. Amma necə ki, biz 44 gün ərzində birlik göstərmişik, əminəm ki, azad edilmiş torpaqlarımızın bərpası işində də birlik, əzmkarlıq göstərəcəyik. Bütün şəhərlərimizi bərpa edəcəyik, daha da gözəl şəhərlər olacaqdır. Şəhərlərimizdə qalan tarixi abidələri bərpa edəcəyik və bir daha gücümüzü göstərəcəyik.

Biz Qələbəmizi dəmir yumruq hesabına, düşməni qova-qova qazanmışıq və indi durmuşuq öz torpağımızda.

Eşq olsun Azərbaycan xalqına! Eşq olsun Azərbaycan əsgərinə, Azərbaycan zabitinə! Ağdam bizimdir! Qarabağ Azərbaycandır!

**xxx**

Ağdamdan qayıdarkən Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva dağıdılmış şəhəri avtomobildən seyr etdilər.

**Birinci xanım Mehriban Əliyeva:** Bir dənə də dağıdılmamış bina yoxdur.

**Prezident İlham Əliyev:** Qaldırdığım bayraq. Eşq olsun!

**AZƏRTAC**

**Vətən müharibəsində zərər çəkmiş şəxslərə könüllülərin "Birlikdə dəstək" yardım kampaniyası davam edir**

[19:06] 23.11.2020

Vətən müharibəsində Ermənistan silahlı qüvvələrinin hücumları nəticəsində zərər çəkmiş vətəndaşlarımıza mənəvi və maddi dəstək olmaq məqsədilə başladılan "Birlikdə dəstək" aksiyası davam edir.

Azərbaycan Könüllü Təşkilatları İttifaqından AZƏRTAC-a bildiriblər ki, bu dəfə xeyirxah tərəfdaşların və vətəndaşların dəstəyi ilə Azərbaycan könüllüləri Ağdam və Tərtər rayonlarında yaşayan ailələrə ərzaq və digər məhsullar çatdırıblar. Bağlamalar tarixi qələbənin hər bir Azərbaycan vətəndaşına bəxş etdiyi böyük sevinc hissi ilə təqdim olunub.

Aksiya Gənclər Fondunun dəstəyi, Azərbaycan Könüllü Təşkilatları İttifaqı və Gənclərin İnkişaf və Karyera Mərkəzinin təşəbbüsü ilə başladılıb. Aksiyaya qoşulmaq istəyən şəxslər gec xarab olan ərzaq məhsulları, yararlı qış geyimləri, müxtəlif növ ev, mətbəx əşyaları, uşaqlar üçün oyuncaqlar, boyama kitabçaları və s. ianə edə bilərlər. Eyni zamanda maddi ianə də etmək mümkündür. İanə edilən məhsullar və kart hesabına köçürülən maddi vəsait hesabına alınan məhsullar könüllülər tərəfindən çeşidlənərək bağlamalara yığılır və zərər çəkən vətəndaşlarımıza çatdırılır.

Bu nəcib təşəbbüsə dəstək olmaq istəyən vətəndaşlar linkdə qeyd olunan ünvanlara yaxınlaşa və ya qaynar xətt ilə əlaqə saxlaya bilərlər:

https://cutt.ly/ygAbaQk

Qaynar xətt: 070 266 80 90

Ətraflı:

Facebook: https://www.facebook.com/birlikdedestek/

İnstagram: https://www.instagram.com/birlikde.destek/.

**AZƏRTAC**

**Prezidentə yazırlar: Siz tariximizdə yeni bir şanlı səhifəni qızıl hərflərlə yazdınız və insanların qəlbində ömürlük məskən saldınız**

[19:07] 23.11.2020

Rəşadətli Azərbaycan Ordusunun tarixi Qələbə qazanaraq torpaqlarımızı düşmən işğalından azad etməsi münasibətilə Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevə minnətdarlıq məktubları gəlməkdə davam edir.

AZƏRTAC Prezidentin saytına istinadla həmin məktubların daha bir neçəsini təqdim edir.

Türkiyənin İstanbul şəhərindən Elza Nağıyeva yazır: "Möhtərəm Prezidentimiz, bizə yaşatdığınız bu qürur və sevinc üçün Sizə və Azərbaycanın müzəffər Ordusuna təşəkkürlərimi bildirirəm. Türkiyədə olmağımıza baxmayaraq, müharibənin ilk günlərindən qəlbimiz Azərbaycanla döyündü. Bu Vətən müharibəsinin ilk günlərindən iki oğlum və kürəkənim bütün vətənsevər övladlar kimi müharibəyə getmək üçün İstanbuldakı Azərbaycan konsulluğuna müraciət edib qeydiyyata düşmüşdülər. Allah bütün şəhidlərimizə rəhmət eləsin, yaralılarımıza şəfa versin, Sizin kölgənizi Azərbaycan xalqının başı üzərindən əskik etməsin!".

Şəkidən Elçin Harunov: "Dəyərli ölkə başçımız, çiçəklənən Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandanımız İlham Əliyev, bizlərə yaşatdığınız Qələbə sevincinə və ən əsası, Azərbaycan Respublikasının qurucusu, yaradıcısı, dahi şəxsiyyət Heydər Əliyevin Sizə etdiyi vəsiyyəti şərəflə yerinə yetirdiyinizə görə öz adımdan və ailəm adından Sizə təşəkkür edirəm. Mən fəxr edirəm ki, azərbaycanlıyam və mən fəxr edirəm ki, Sizin kimi dahi, insani dəyərləri yüksək tutan Prezidentim, Ali Baş Komandanım var. Biz birlikdə güclüyük! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!".

Kəlbəcər sakini Alim Fəttahov: "Hörmətli cənab Prezident, Müzəffər Ali Baş Komandan, mən öz adımdan və ailəm adından Sizə Kəlbəcər və digər işğal olunmuş rayonlarımızın azad olunması münasibətilə dərin təşəkkürümü və minnətdarlığımı çatdırıram. Sizin uğurlu siyasətiniz və şanlı Ordumuzun qəhrəmanlıqları nəticəsində ərazi bütövlüyümüz tam bərpa olundu və mən artıq məcburi köçkün deyiləm. Bütün Azərbaycan xalqı Sizinlə fəxr edir. Eşq olsun Sizə! Allah Sizi və ailənizi qorusun! Sizə və şanlı Ordumuza Allahdan daha da böyük qüvvət arzulayırıq. Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!".

Şəmkir sakini Elbrus Məmmədov: "Hörmətli cənab Prezident, mən də bir Azərbaycan vətəndaşı kimi Qələbə qazandığımız üçün çox sevinirəm və fəxr edirəm ki, azərbaycanlıyam. Doğma torpaqlarımız işğaldan azad edildiyi üçün Sizə çox minnətdaram. Allah Sizin kölgənizi bizim başımızın üzərindən əskik etməsin! Allah cəbhədə olan igid əsgərlərimizi qorusun! Qazilərimizə isə Allah şəfa versin! Şəhidlərimizə Allahdan rəhmət diləyirəm, yerləri cənnətməkan olsun, inşallah. Bu günümüzə çox şükür, min şükürlər olsun! Bir daha Sizə minnətdaram, cənab Prezidentimiz".

Mingəçevir şəhərindən Zivər Bəylərova: "Hörmətli cənab Prezident, Sizi və bütün Azərbaycan xalqını böyük Qələbə münasibətilə ürəkdən təbrik edirəm. Bu zəfərdə Sizin uzun illər həyata keçirdiyiniz müdrik diplomatik, iqtisadi və hərbi strategiyanız, Ordumuzun zəhməti, şəhidlərimizin qanı və xalqımızın dəstəyi vardır. Siz Azərbaycan tarixində yeni bir şanlı səhifəni qızıl hərflərlə yazdınız və xalq qəhrəmanı kimi tarixdə, insanların qəlbində ömürlük məskən saldınız. Bu Qələbə nəticəsində ölkəmizin ərazi bütövlüyü ilə yanaşı, həm də xalqımızın qalibiyyət hissini də bərpa etdiniz. Sizə çox minnətdarıq. Allah Sizin kölgənizi xalqımızın başı üzərindən əskik etməsin!".

Ağdam sakini Rövşən Əliyev: "Müzəffər Ali Baş Komandanımız, Prezidentimiz, Azərbaycanın Milli Qəhrəmanı İlham Heydər oğlu Əliyev, Sizin işğaldan azad olunmuş Qarabağ torpaqlarına uğur və nur gətirən səfəriniz Azərbaycan xalqını, dünya azərbaycanlılarını və hərbçilərimizi daha da ruhlandırır. Bilirik ki, ayağınız uğurludur, Qarabağa ancaq xoşbəxtlik gələcək. Sizin simanızda Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanı və bizə dəstək olan bütün dövlətləri Birinci Qarabağ müharibəsi veteranı, II qrup Çernobıl əlili kimi təbrik edir və Sizə Uca Allahdan uzun ömür, cansağlığı arzu edirəm".

Göyçaydan Şəmistan Məmmədov: "Müzəffər Ali Baş Komandan İlham Əliyev, ilk növbədə, Sizi salamlayır, ailəm və öz adımdan Sizə və müzəffər Ordumuza minnətdarlığımı bildirmək istəyirəm. Uca Allah Sizi, Ordumuzu və bütün xalqımızı qorusun! Bu möhtəşəm Qələbənin banisi Sizsiniz. Sizinlə bütün Azərbaycan xalqı fəxr edir. Yaşasın Azərbaycan! Yaşasın Ali Baş Komandan! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!".

Bakı şəhər sakini Aygün Bağırova: "Hörmətli Prezidentimiz, Müzəffər Ali Baş Komandan, işğal altında olan torpaqlarımız uğrunda apardığınız Vətən müharibəsinin qalibiyyətlə sonlandırmağınız

münasibətilə Sizi təbrik edirəm. Sizin müdrik rəhbərliyiniz sayəsində ölkəmiz öz ərazi bütövlüyünü bərpa etdi. Bu Qələbənin memarı Sizsiniz. Bu şanlı yolda Sizin sözlərinizə istinad edərək "dəmir yumruq kimi" daim Sizin yanınızdayıq, cənab Prezident. Sizə yazılası ürək sözlərim o qədər çoxdur ki, sadəcə, bunu ifadə etməkdə kəlmələr acizdir. Siz bizim qürurumuz, fəxrimizsiniz. Allahdan Sizə cansağlığı və uzun ömür arzulayıram. Uca Yaradan Sizi və ailənizi qorusun! Yaşasın Azərbaycanın möhtərəm və möhtəşəm Prezidenti cənab İlham Əliyev!”.

Füzuli sakini Vidadi Sadıqov: “Hörmətli cənab Prezident, mən Füzuli rayonunun Arışlı kənd sakini və Birinci Qarabağ müharibəsi veteranı olaraq Sizi Qələbə münasibətilə ürəkdən təbrik edirəm. Sizə cansağlığı, uzun ömür arzulayıram. Biz, bütün xalqımız Sizin ətrafınızda bir yumruq kimi birləşmişik. Bu dəmir yumruqla erməni təcavüzkarlarına, vandallarına qarşı gücümüzü sübut etdik, intiqamımızı aldıq. Dövlətimiz və xalqımız üçün etdiklərinizə görə Sizə sonsuz təşəkkürlərimi bildirirəm. Sizin xalqımıza yaşatdığınız sevincin həddi-hüdudu yoxdur. Biz çox xoşbəxt xalqıq ki, onun Sizin kimi əvəzolunmaz Lideri var. Allah Sizi qorusun!”.

Ağdam sakini Səfayə Əliyeva: “Hörmətli cənab Prezident, Mən 5-ci sinifdə oxuyuram, 10 yaşım var. Mən əslən Kəlbəcər rayonundanam. Sizə təşəkkür edirəm. Çünki Siz Azərbaycan xalqının, eləcə də mənim valideynlərimin 30 il həsrətini çəkdikləri doğma torpaqlarını geri qaytardınız. Sizə və Milli Ordumuzun bütün qəhrəman əsgərlərinə minnətdarıq. Bizi dəstəklədikləri üçün türk xalqına və dövlətinə təşəkkür edirik. Allah onların da yardımçısı olsun! Yaşasın Ali Baş Komandan! Qarabağ Azərbaycandır!”.

Sumqayıt sakini Müslüm Abbasov: “Otuz illik həsrəti qələbə ilə başa çatdıran, qələbəni isə tarixə qızıl hərflərlə həkk etdirən yenilməz Sərkərdəm. Sizi və xalqımızı bu gün münasibətilə şəhid atası kimi, səmimi qəlbdən təbrik edirəm. Siz mənim, eyni zamanda, bütün şəhid ailələrinin yaralı qəlbinə bu qələbə ilə su səpmiş oldunuz. Mən inanırdım ki, yenilməz Ordumuz Sizin uzaqgörən siyasətiniz sayəsində düşmənin layiqli cavabını verəcək. Qardaş Türkiyənin mənəvi dəstəyi də bizə güc verdi. Ata vəziyyətini yerinə yetirdiyiniz üçün biz atalar Sizinlə qürur duyuruq. Hər gün efirlərdən bu şad xəbərin nə vaxt veriləcəyini gözləyirdim və 10 noyabr – şəhidlərin qisas günü, torpaqların işğaldan azad olunduğu gün, anaların, gəlinlərin, övladların göz yaşlarına son qoyulduğu gün gəldi. Siz mənim qəlbimdə qızıldan büstü qoyulmuş, heç vaxt unudulmayan Ali Baş Komandanımsınız”.

Lerik sakini Ağalar Tağıyev: “Möhtərəm cənab Prezident, Müzəffər Ali Baş Komandan, Azərbaycan xalqının xilaskarı. Sizi və Azərbaycan xalqını bu möhtəşəm qələbə münasibətilə təbrik edirəm. Balanslaşdırılmış, uzaqgörən, səbirli xarici və daxili siyasətin, düzgün hərbi strategiyanın nəticəsi bax, budur. Cənab Prezident, Azərbaycan xalqı öz tarixi boyu heç bu qədər sevinməmişdi. Bu sevinci Siz bizə bəxş etdiniz. Hörmətli Prezident, mən bu məktubu yazarkən göz yaşlarımı saxlaya bilmədim, hər şey insana yuxu kimi gəlir. Mümkün olmayanı mümkün etdiniz, xalqımızın qürurunu özünə qaytardınız. Cənab Prezident, mən 2002-ci ildən Yeni Azərbaycan Partiyasının üzvüyəm. Sizin siyasi kursunuzu daim dəstəkləyirəm. Siz ilk dəfə Azərbaycan Respublikasının Prezidenti seçiləndə, Sizin ilk çıxışlarınızı eşidəndə, əmin oldum ki, Sizin ziyalılığınız, kübarlığınız, humanizminiz, uzaqgörənliyiniz, savadınız Azərbaycan xalqını xilas edəcək və onu zirvələrə qaldıracaq. Belə də oldu. Sizinlə fəxr edirik, cənab Prezident. Mən müəlliməm. Azərbaycanın müəllim ordusu daim arxanızdadır. Bir sözlə, bütün Azərbaycan xalqı adından, ailəmiz adından Sizə dərin minnətdarlığımı bildirirəm. Bu çətin və şərəfli yolda Sizə uğurlar arzulayırıq”.

**AZƏRTAC**

**Ağdamın Gülablı kəndindəki keçmiş orta məktəbdə Azərbaycan bayrağı qaldırılıb**

[19:45] 23.11.2020

Azərbaycan Ordusunun bölmələri Ağdam rayonunun Gülablı kəndində yerləşən keçmiş orta məktəbdə üçrəngli dövlət bayrağımızı yüksəldiblər.

AZƏRTAC-ın bölgəyə ezam olunmuş müxbiri xəbər verir ki, işğalçı Ermənistan silahlı qüvvələrinin əvvəllər yerləşdiyi məktəbin ərazisi mina və digər partlayıcılardan təmizlənib. Sonra hərbçilərimiz Gülablı kənd orta məktəbinin qarşısında sıra düzülüşündə ölkəmizin ərazi bütövlüyü uğrunda həlak olan şəhidlərimizin xatirəsini bir dəqiqəlik sükutla yad edib. Dövlət Himni ifa olunub. "Qarabağ Azərbaycandır!" deyən döyüşçülər Azərbaycan bayrağını dalğalandırıb.

**AZƏRTAC**

**Prezident İlham Əliyev: Biz informasiya müharibəsində qələbə qazandıq**

[11:02] 24.11.2020

Mən bütün beynəlxalq təmaslarımda Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Azərbaycanın mövqeyini, tarixi həqiqətləri və mövcud vəziyyəti bütün həmkarlarıma çatdırmışdım. Mənim demək olar ki, bütün ikitərəfli beynəlxalq təmaslarımda Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi xüsusi yer alır. Mənim bütün çıxışlarıma baxmaq kifayətdir. Son 17 il ərzində demək olar ki, bütün çıxışlarımda bu məsələ ilə bağlı öz fikrimi bildirmişdim, dünya ictimaiyyətini məlumatlandırmışdım.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev bu barədə işğaldan azad edilmiş Ağdam şəhərində olarkən danışıb.

1990-cı illərin əvvəllərində münaqişə ilə bağlı dünyada dolğun təsəvvür olmadığını, təhrif edilmiş, erməni lobbisi tərəfindən ortalığa atılmış məlumat olduğunu təəssüflə xatırladan dövlətimizin başçısı deyib: “Əks-təqdirdə, bizim torpaqlarımız işğal altına düşə-düşə Amerika Konqresi məşhur 907-ci düzəlişi qəbul etməzdi. Azərbaycan torpaqları işğal altına düşürdü, ancaq Amerika Konqresi Azərbaycanı təcavüzkar kimi tanımışdır və bizi humanitar yardımdan məhrum etmişdir. O vaxt erməni lobbisi buna nail oldu. Azərbaycan diplomatiyası, sadəcə olaraq, onların qarşısında adekvat addım ata bilməmişdir”.

Prezident vurğulayıb ki, biz informasiya müharibəsində qələbə qazandıq. Biz Xocalı soyqırımı haqqında dünyaya dolğun məlumat verdik. Xocalı soyqırımı haqqında dünyada məlumat yox idi. “Xocalıya ədalət!” kampaniyası, 10-dan çox ölkə tərəfindən Xocalı soyqırımının soyqırımı kimi tanınması demək olar ki, münaqişə ilə bağlı həqiqəti əks etdirən mənzərəni yaratdı və dünya ictimaiyyətinə çatdırdı.

**AZƏRTAC**

**Prezident İlham Əliyev: Biz öz tarixi missiyamızı şərəflə yerinə yetirdik, işğal olunmuş torpaqları azad etdik**

[10:47] 24.11.2020

Biz Ağdama qayıtmışıq. Bütün ağdamlıları bu tarixi hadisə münasibətilə bir daha təbrik etmək istəyirəm. Bilirəm ki, ağdamlılar bu günü uzun illər ərzində səbirsizliklə gözləyiblər. Həm işğal dövründə - 30 ilə yaxın müddət ərzində, eyni zamanda, İkinci Qarabağ müharibəsi, Vətən müharibəsi dövründə gözləyirdilər ki, Ağdam işğaldan nə vaxt azad ediləcək. Biz öz tarixi missiyamızı şərəflə yerinə yetirdik, işğal olunmuş torpaqları düşməndən azad etdik.

AZƏRTAC xəbər verir ki, bu fikirləri Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev işğaldan azad edilmiş Ağdam şəhərində olarkən söyləyib.

Ağdam məscidini ziyarət edən, Azərbaycan Bayrağını qaldıran dövlətimizin başçısı deyib: "Döyüş meydanında əldə edilən qələbə imkan verdi ki, Ağdam rayonu, eyni zamanda, Kəlbəcər və Laçın rayonları bir güllə atmadan, bir şəhid vermədən işğaldan azad edilsin".

Prezident qeyd edib ki, biz bu torpaqlara Azərbaycan xalqının, şəhidlərimizin canı, qanı bahasına, qəhrəmanlarımızın şücaəti hesabına qayıtmışıq. "Biz güc toplamalı idik və toplayırdıq. Mən son 17 il ərzində xalqa müraciət edərkən dəfələrlə deyirdim ki, biz daha güclü olmalıyıq, daha qüdrətli ordu qurmalıyıq. Bu gün dünyada güc amili həlledici rol oynayır. Haqq-ədalət bizim tərəfimizdədir, beynəlxalq hüquq bizim tərəfimizdədir, güc də bizim tərəfimizdə olmalıdır. Məhz gücümüzün yetərli dərəcədə olmaması nəticəsində Azərbaycan 1990-cı illərin əvvəllərində işğala məruz qalmışdır. Biz güc toplayırdıq, güclənirdik. Mən deyirdim ki, hər gün hər bir Azərbaycan vətəndaşı bu müqəddəs günü, bu zəfər gününü öz əməyi, zəhməti, Vətənə olan sədaqəti ilə yaxınlaşdırmalıdır", - deyə Prezident İlham Əliyev vurğulayıb.

**AZƏRTAC**

**Azərbaycan Prezidenti: Biz qəhrəman əsgər və zabitlərimizin hesabına qələbə qazanmışıq**

[11:14] 24.11.2020

Bu gün bir çox ölkələrdə, inkişaf etmiş ölkələrdə bizim təcrübəmiz öyrənilir. Bu gün bu məsələ ilə məşğul olan bir çox ekspertlər qeyd edirlər ki, Azərbaycan XXI əsrin müharibəsini aparıb. XXI əsrdə ilk dəfə olaraq, bu miqyasda və bu səmərə ilə qısa müddət ərzində tarixi nailiyyətlər əldə edilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev bu barədə işğaldan azad edilmiş Ağdam şəhərində olarkən bildirib.

Ağdama gələrkən ən azı üç müdafiə xətti gördüyünü söyləyən dövlətimizin başçısı deyib: "Amma mənə hərbçilər tərəfindən verilən məlumata görə, beş müdafiə xətti var. Füzulidə də, həmçinin. Biz bu əsgər və zabitlərimizin qəhrəmanlığı, peşəkarlığı sayəsində müdafiə xəttini yarmışıq. Biz texniki cəhətdən ən müasir silahlarla təchiz edilmişik və İkinci Qarabağ müharibəsi bunu göstərdi, o videogörüntülər var. İndi onlar bir çox ölkələrdə öyrənilir və öyrəniləcək, hərbi kitablara salınacaq".

Prezident qeyd edib ki, təkcə silahlarla müharibəni qazanmaq mümkün deyil. "Bayrağı qaldıran, bayrağı düşmənin mövqeyinə sancan, azad edilmiş torpaqlara sancan əsgərdir, zabitdir. Bizim əsgər və zabitlərimiz aslan kimi vuruşdular. Şəhidlər verdik. Allah bütün şəhidlərimizə rəhmət eləsin! Onların valideynlərinə Allah səbir versin! Yaralı hərbçilərimiz var, onlar da sağalırlar. Onların bir çoxu artıq sağalıb. Allah onlara şəfa versin! Biz qəhrəman əsgər və zabitlərimiz hesabına qələbə qazanmışıq. Təkcə Şuşanın işğaldan azad edilməsi əməliyyatı, əminəm ki, tarixdə əbədi qalacaq. Demək olar ki, yüngül silahlarla dərədən, meşələrdən, dağlardan keçərək əlbəyaxa döyüşdə düşməni məhv etdik, Qarabağın tacı olan Şuşanı azad etdik", - deyə Prezident İlham Əliyev vurğulayıb.

**AZƏRTAC**

**Prezident İlham Əliyev: İqtisadi və siyasi müstəqillik olmadan torpaqlarımızı düşməndən azad edə bilməzdik**

[11:10] 24.11.2020

Bu gün biz iqtisadi cəhətdən heç kimdən asılı deyilik. Asılı olsaydıq, bizə təzyiqlər edilə bilərdi. Onsuz da edilmişdi, ancaq onların heç bir səmərəsi olmadı. Çünki bizə qarşı iqtisadi amildən istifadə etmək mənasızdır. Biz heç kimdən asılı deyilik, hansısa ölkədən, hansısa beynəlxalq maliyyə qurumundan asılı deyilik. Əksinə, biz özümüz indi donor ölkəyik, biz özümüz indi kreditlər veririk.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev bu fikirləri işğaldan azad edilmiş Ağdam şəhərinə səfəri zamanı iqtisadi və siyasi müstəqilliyin əhəmiyyəti barədə danışarkən söyləyib.

“Bizim kifayət qədər güclü iqtisadi potensialımız və maliyyə resurslarımız imkan verdi ki, iqtisadi müstəqilliyi tam təmin edək. Bu da qələbənin əldə edilməsində xüsusi rol oynayırdı. Çünki əgər biz iqtisadi cəhətdən müstəqil olmasaydıq, biz siyasi müstəqillik əldə edə bilməzdik. Siyasi müstəqillik olmadan torpaqlarımızı düşməndən azad edə bilməzdik. O düşməndən ki, onların arxasında böyük dövlətlər, o dövlətlərin çox nüfuzlu dairələri, erməni lobbi təşkilatları dayanır”, - deyə dövlətimizin başçısı vurğulayıb.

Bu amillərin gücümüzü artırdığını, qələbəmizi şərtləndirdiyini qeyd edən Prezident İlham Əliyev deyib: “O amillərin arasında birinci nömrəli məsələ hərbi gücümüzdür. Mən dəfələrlə demişdim ki, bizim üçün hərbi gücümüzün möhkəmləndirilməsi birinci məsələdir. Təsadüfi deyil ki, mənim prezidentlik dövrümdə bizim hərbi xərclərimiz hər il büdcə xərcləri arasında birinci yerdə idi. Mən deyirdim və ya vətəndaşlara izah edirdim ki, bəli, bizim başqa məsələlərimiz var, həllini gözləyən problemlər var. Ancaq bizim əsas problemimiz torpaqlarımızın işğal altında olmasıdır. Ona görə bizim xərclərimiz arasında birinci yerdə hərbi xərclər dayanır. Biz lazım olan texnikanı aldıq. Bu texnikanı, müasir silahları Azadlıq meydanında dəfələrlə keçirilmiş paradlarda nümayiş etdirirdik. Biz ordumuzu inkişaf etdirərkən ən qabaqcıl meyilləri nəzərdən keçirmişdik. Biz o silahları alırdıq ki, bu silahlar bizim üstünlüyümüzü təmin etsin və İkinci Qarabağ müharibəsi bunu göstərdi”.

**AZƏRTAC**

**Prezident: Bizim beynəlxalq nüfuzumuz kifayət qədər yüksəkdir və bu, münaqişənin həllində xüsusi rol oynayıb**

[11:07] 24.11.2020

Biz BMT-dən sonra ikinci böyük təsisat olan Qoşulmama Hərəkatına sədrlik etdiyimiz dövrdə də bu məsələni diqqət mərkəzində saxlamışıq. Bu gün 120 ölkəni birləşdirən təşkilata Azərbaycan sədrlik edir. Keçən il Zirvə görüşü keçirilib. Bu gün Azərbaycan xalqı bir daha görür ki, bunun nə qədər böyük önəmi var idi.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev bu fikirləri

Ağdam məscidinin qarşısında çıxış edərkən söyləyib.

İkinci Qarabağ müharibəsi dövründə BMT Təhlükəsizlik Şurası tərəfindən yeni qətnamənin qəbul edilməsi cəhdlərinin qarşısının məhz Qoşulmama Hərəkatının sayəsində alındığını diqqətə çatdıran dövlətimizin başçısı deyib: “O qətnamə qəbul edilsəydi, əlbəttə ki, bizi dayandıra bilməzdi, ancaq lazım olmayan bir mənzərə yarada bilərdi. Məhz Qoşulmama Hərəkatına üzv ölkələr o qətnamənin qəbul olunmasına imkan vermədilər, bizi dəstəklədilər. Mən də onlara təşəkkürümü bildirdim və demişdim ki, onlar bizim arxamızda kişi kimi durdular. Baxmayaraq ki, böyük dövlətlər onlara böyük təzyiqlər göstərirdi”.

Prezident qeyd edib ki, Qoşulmama Hərəkatının bir çox üzvləri Azərbaycanı həm müstəqil, həm güclü, həm də onları müdafiə etməyə hazır olan ölkə kimi tanıyır. “Biz pandemiya dövründə 30-dan çox ölkəyə humanitar maliyyə yardımı göstərmişik, o cümlədən Ümumdünya Səhiyyə Təşkilatının xətti ilə Qoşulmama Hərəkatına xüsusi bir yardım göstərmişik. Görülmüş bütün bu işlər səmərəsini verdi. Biz bizim üçün əsas məsələ olan Ermənistan-Azərbaycan Dağlıq Qarabağ məsələsində lazımi beynəlxalq dəstəyi ala bildik. Biz bu gün təkcə Qoşulmama Hərəkatına yox, eyni zamanda, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına da sədrlik edirik. Bizim beynəlxalq nüfuzumuz kifayət qədər yüksəkdir və bu, münaqişənin həlli üçün xüsusi rol oynamışdır”, - deyə Prezident İlham Əliyev vurğulayıb.

**AZƏRTAC**

## Prezident: Biz Koçaryan, Sarkisyan ordusunu, Xocalı qatillərini məhv etmişik, onları qabağımızda diz çökdürmüşük

[11:28] 24.11.2020

Biz bütün bu illər ərzində bir amalla, bir arzu ilə yaşamışıq ki, bu torpaqlara qayıdaq və qayıtmışıq. Ermənistan ordusunu məhv etmişik. Ermənistan ordusu demək olar ki, yoxdur. Hərbi cinayətkarları məhv etmişik, onların tör-töküntülərini məhv etmişik. Biz Koçaryan, Sarkisyan ordusunu məhv etmişik, onları qabağımızda diz çökdürmüşük.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev bu fikirləri işğaldan azad edilmiş Ağdam şəhərində olarkən söyləyib.

İşğal edilmiş bütün torpaqları dağıdan Ermənistanın keçmiş rəhbərlərinin İkinci Qarabağ müharibəsi dövründə qaçıb gizləndiklərini qeyd edən dövlətimizin başçısı deyib: "Döyüş bölgəsinə burunlarını da belə soxa bilmədilər. Bəs, haradadır sizin qəhrəmanlığınız? Dedim ki, çıxarın dəmir-dümürləri, onun qiyməti yoxdur. Qəhrəman ordenləri taxmısınız döşünüzə. Yalançı qəhrəmandırlar bunlar. Bax, mən burada durmuşam, dağıtdığınız məscidin önündə, dağıtdığınız Ağdam şəhərində, öz ordumla buraya gəlmişəm. Qalib kimi gəlmişəm. Siz isə öz miskin həyatınızın sonuna qədər məğlub edilmiş, qorxaq damğası ilə yaşayacaqsınız. Nə gizlənirsiniz orada siçan kimi?! Koçaryan, Sarkisyan, mən sizə deyirəm. Paşinyan heç kimdir. Onun indi dərdi, azarı hakimiyyətdə qalmaqdır. Buna görə də bütün müxalifəti tutdurur. Qərb də susur buna, susur, ağzına su alıb. Görmür ki, nələr baş verir orada?! Hərbi cinayətkarlar, Xocalı qatilləri, sizi məhv etmişik. Azərbaycan əsgəri, Azərbaycan zabiti sizi məhv edib. Əcəb də eləyib!".

**AZƏRTAC**

**Prezident İlham Əliyev: Biz bütün dünyaya göstərdik ki, döyüşkən xalq Azərbaycan xalqıdır**

[11:23] 24.11.2020

Tam qətiyyətlə deyə bilərəm, biz işğal olunmuş torpaqlarımızı onsuz da azad edəcəkdik. Ancaq düşmən hesab edirdi ki, ona kimsə kömək edəcək. Hesab edirdi ki, onun bütün havadarları gəlib onun yerinə bizimlə vuruşacaq. Səhv etdi, böyük səhv etdi. Füzuli, Cəbrayıl, Hadrut, Zəngilan, Qubadlı, Şuşa, Suqovuşan, Xocavənd rayonunun böyük hissəsi döyüş meydanında işğaldan azad olunandan sonra düşmən diz çökdü və bu gün diz üstədir.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev bu barədə işğaldan azad edilmiş Ağdam şəhərində olarkən bildirib.

Dövlətimizin başçısı sözünə davam edərək deyib: "Biz düşmənin belini qırdıq, biz şanlı Qələbə qazandıq. Biz bütün dünyaya sübut etdik ki, onların əfsanələri, onların mifləri hamısı boş şeydir. On mindən çox fərari var Ermənistan ordusunda və daha da çox olacaqdı. Əgər biz Ağdama planlaşdırdığımız əməliyyatı həyata keçirsəydik, bax, burada minlərlə erməni hərbçisi ya fərari olacaqdı, ya da məhv olacaqdı. Biz göstərdik ki, döyüşkən xalq Azərbaycan xalqıdır. Biz göstərdik ki, heç vaxt bu işğalla barışmayacağıq. Açsınlar baxsınlar mənim çıxışlarıma, mən son 17 il ərzində bəlkə də min dəfə demişəm, biz bu işğalla barışmayacağıq. Hesab edirdilər ki, bizim torpaqlarımızı işğal altında əbədi saxlayacaqlar. Çünki bu qədər xərc qoyan, burada, Füzulidə, Cəbrayılda bu qədər istehkam quranlar onu da istəyirdilər".

Prezident qeyd edib ki, Cəbrayıl rayonunun Soltanlı kəndi uğrunda bir neçə gün şiddətli döyüşlər gedirdi. "Orada elə istehkamlar qurmuşdular ki, bəlkə də heç dünyada belə istehkamlar olmayıb. Nə üçün? Çıxmaq istəmirdilər. Hesab edirdilər ki, orada əbədi oturacaqlar. Erməniləşdirmək istəyirdilər. Bax, bütün Ağdam şəhəri dağıdılıb. Oranı onlar 1990-cı illərdə dağıdıblar ki, əgər sülh müqaviləsi imzalansa, Azərbaycan xalqı gəlib burada yaşaya bilməsin", - deyə Prezident İlham Əliyev əlavə edib.

**AZƏRTAC**

**Prezident İlham Əliyev: Müharibənin bütün sirlərini açmaq hələ tezdir. Vaxt gələcək çox maraqlı məsələlər üzə çıxacaq**

[11:18] 24.11.2020

Mən bilirəm və hiss edirəm ki, bizim şəhərlərimiz, rayonlarımız, kəndlərimiz işğaldan azad olunduqca ağdamlılar da fikirləşirdilər ki, nə vaxt onların kəndləri, Ağdam şəhəri azad olunacaq. Cəbrayıl azad olundu, Füzuli azad olundu, Hadrut azad olundu, Zəngilan, Qubadlı, Suqovuşan, Şuşa azad olundu və yəqin ki, ağdamlılar fikirləşirdilər ki, nə üçün Ağdam azad olunmur? İndi mən bunu deyə bilərəm.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev bu fikirləri Ağdam məscidinin qarşısında çıxışı zamanı deyib.

"Amma mən istəyirdim, bunu hansısa formada ağdamlılara çatdırım, amma onlar da başa düşürlər ki, müharibə dövründə bunu edə bilməzdim. Burada beş müdafiə xətti var. Düşmən bizi buradan gözləyirdi. Biz imkan verə bilməzdik ki, düşmənin gözlədiyi yerdən hücuma keçək. Biz bu istiqamətdə kifayət qədər böyük hərbi birləşmə saxlamışdıq ki, düşmənin hərbi qüvvələri də burada qalsın, başqa yerə getməsin. Füzulini, Hadrutu, Xocavənd rayonunun böyük hissəsini və Şuşanı azad edəndən sonra təbii ki, biz artıq Ağdam şəhərinə istiqamət götürmüşdük və əmr verilmişdi ki, növbəti istiqamət Ağdamdır. Düşmən də bilir və artıq etiraf edir ki, əgər onlar mələyə-mələyə, sürünə-sürünə, onun-bunun dabanlarını yalaya-yalaya torpaqlarımızın azad edilməsi ilə bağlı mənim şərtlərimi qəbul etməsəydilər, burada məhv olacaqdılar. Çünki biz Ağdama gəlirdik, amma, bax, buradan yox, arxa tərəfdən", - deyə Müzəffər Ali Baş Komandan bildirib.

Müharibənin bütün sirlərini açmağın hələ tez olduğunu qeyd edən dövlətimizin başçısı deyib: "Vaxt gələcək çox maraqlı məsələlər üzə çıxacaq. Ancaq bu gün tam rahat deyə bilərəm ki, Ağdam əməliyyatı planlaşdırılırdı. Biz Ağdamı onsuz da alacaqdıq. Amma itkilər olacaqdı, özü də böyük sayda. Ona görə Şuşanı və noyabrın 9-da 70-dən çox kəndimizi azad edəndən sonra düşmənin beli qırıldı, təslim oldu, ağ bayraq qaldırdı, mənim şərtlərimə əməl etdi və öz məğlubiyyətini etiraf etdi".

**AZƏRTAC**

**Prezident İlham Əliyev Məkkədən gətirdiyi "Qurani-Kərim"i Ağdam məscidinə bağışlayıb**

[11:34] 24.11.2020

Bu gün mən Ağdam məscidinə Məkkədən gətirdiyim "Qurani-Kərim"i bağışladım. Mən xoşbəxt adamam ki, dörd dəfə Məkkə ziyarətində olmuşam. Bir dəfə rəhmətlik atamla, üç dəfə isə Prezident kimi. Xoşbəxtəm ki, mən ailə üzvlərimlə bərabər müqəddəs Kəbənin içində dualar etmişəm. Hər bir insanın ürəyində nə varsa, mənim ürəyimdə də eyni duyğulardır.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev bu barədə Ağdam məscidinin qarşısında çıxışı zamanı danışıb.

Ürəyindəki duyğuları dilə gətirən Prezident deyib: "Etdiyim duaların arasında birinci duam torpaqlarımızın işğaldan azad edilməsi idi. Allahdan xahiş edirdim, mənə güc versin ki, biz torpaqları işğalçılardan azad edək, o xoşbəxtliyi bizə nəsib etsin, biz yenə də dədə-baba torpağımıza qayıdaq.

Bu gün burada, vandallar tərəfindən dağılmış məscidin önündə deyirəm ki, xoşbəxt adamam. Bir daha Allaha şükür edirəm ki, mənim dualarımı eşidib, bu gücü mənə verib. Biz gücümüzü səfərbər edərək bax, bu tarixi günləri yaşayırıq. Bu, həqiqətən də tarixi günlərdir. Bəlkə də çoxəsrlik Azərbaycan tarixində buna bənzər şərəfli və qürurlu günlər olmayıb. Biz bunu birliyimiz sayəsində qazanmışıq, gücümüz sayəsində qazanmışıq. Heç kim bizə kömək etməyib. Əksinə, ancaq maneçilik törədib. Gün gələcək bu barədə də ətraflı danışacağam".

**AZƏRTAC**

**Türkiyə mediası Prezident İlham Əliyevin Ağdam şəhərinə səfərini geniş işıqlandırıb**

[14:03] 24.11.2020

Noyabrın 23-də Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva işğaldan azad edilmiş Ağdam şəhərinə səfəri Türkiyə kütləvi informasiya vasitələri (KİV) tərəfindən geniş işıqlandırılıb.

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyevin Məkkədən gətirdiyi "Qurani-Kərim"i Ağdam məscidinə bağışlaması, dağıdılıb viran qoyulan məscidə müsəlman qaydalarına tam əməl edərək daxil olması, dövlətimizin başçısının üçrəngli bayrağımıza ehtiramı və digər mühüm məqamlar qardaş ölkə KİV-lərinin diqqətindən yayınmayıb. Bütün bu qürurverici görüntülər video və fotolarla Türkiyə ictimaiyyətinə çatdırılmaqdadır. Prezident İlham Əliyevin dərin məzmunlu nitqindəki xüsusi mesajlar da media tərəfindən diqqətlə izlənilib.

Qeyd edək ki, Türkiyə kütləvi informasiya vasitələri erməni vandalları tərəfindən vəhşicəsinə dağıdılan Ağdam rayonu barədə geniş materiallar yaymaqdadır. Mətbuat haqlı olaraq Ağdamı Xirosima ilə müqayisə edir.

**Sabir Şahtaxtı**
**AZƏRTAC-ın xüsusi müxbiri, Ankara**

**AZƏRTAC**

**Ağdam rayonunun Gülablı kəndində məskunlaşan ermənilər şəxsi əşyalarını çıxarmaq üçün hərbçilərimizə müraciət ediblər**

[14:38] 24.11.2020

İşğaldan azad olunan Ağdam rayonunun Gülablı kəndində məskunlaşan erməni əsilli mülki vətəndaşlar yaşayış yerlərindən şəxsi əşyalarını çıxarmaq üçün Azərbaycan Ordusunun hərbi qulluqçularına müraciət ediblər.

AZƏRTAC-ın bölgəyə ezam olunmuş müxbiri xəbər verir ki, bununla bağlı yayılan videoda hərbi qulluqçularımızın azad edilmiş torpaqlarımızda məskunlaşan ermənilərin yaşayış yerlərindən əşyalarının təxliyəsi və onların təhlükəsizliklərinin təmin edilməsi məqsədilə beynəlxalq humanitar hüququn norma və prinsiplərinə, o cümlədən 1949-cu il Cenevrə Konvensiyasının müddəalarına uyğun olaraq zəruri humanitar dəstək göstərmələrinə dair görüntülər yer alıb.

**AZƏRTAC**

**Müdafiə Nazirliyi işğaldan azad olunmuş Ağdam rayonunun Abdal və Gülablı kəndlərinin videogörüntülərini yayıb**

[16:50] 24.11.2020

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi işğaldan azad olunmuş Ağdam rayonunun Abdal və Gülablı kəndlərinin videogörüntülərini yayıb.

AZƏRTAC Müdafiə Nazirliyinin mətbuat xidmətinə istinadla həmin videogörüntüləri təqdim edir.

**AZƏRTAC**

**Bərdə–Ağdam dəmir yolu xəttinin layihələndirilməsi və tikintisi ilə bağlı tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı**

[16:30] 24.11.2020

2020-ci il sentyabrın 27-də başlanmış Vətən müharibəsi Azərbaycan xalqının tarixi Qələbəsi ilə başa çatmış, Ağdam rayonunun erməni təcavüzünə məruz qalmış bütün əraziləri də işğaldan azad edilmişdir.

Rayonun 27 il ərzində işğal altında saxlanılmış ərazilərində, Ağdam şəhəri də daxil olmaqla bütün yaşayış məntəqələri, o cümlədən həyati vacib təsərrüfat sahələri, yaşayış evləri tamamilə dağıdılmış, ətraf mühitə, tarixi-mədəniyyət və dini abidələrə ciddi ziyan vurulmuşdur.

Ağdam rayonunun işğal altında olmayan 44 yaşayış məntəqəsində son illərdə müxtəlif dövlət proqramları çərçivəsində geniş tikinti-bərpa və abadlıq-quruculuq işləri görülmüş, Olimpiya İdman Kompleksi, Muğam Mərkəzi, Mərkəzi Rayon Xəstəxanası və digər sosialyönümlü obyektlər tikilmiş, Ağdam Dövlət Dram Teatrının binası əsaslı təmir olunmuş, xalçaçılıq müəssisəsi yaradılmışdır. 6600-dən çox məcburi köçkün ailəsi üçün salınmış 18 yeni qəsəbədə 18 ümumtəhsil və 3 musiqi məktəbi, 12 tibb və 10 məktəbəqədər təhsil müəssisəsi inşa edilmiş, qaz, elektrik, içməli su xətləri çəkilmiş, yol-nəqliyyat infrastrukturu yaxşılaşdırılmış, digər mühüm layihələr həyata keçirilmişdir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, bu istiqamətdə aparılan işlərin davam etdirilməsi, işğaldan azad olunmuş ərazilərin bərpası və Ağdam rayonunun dayanıqlı sosial-iqtisadi inkişafının təmin edilməsi məqsədilə **qərara alıram:**

1. Ümumi uzunluğu 45,0 kilometr olan Bərdə–Ağdam dəmir yolu xəttinin layihələndirilməsi və tikintisi üçün Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinə ilkin olaraq 5,0 (beş) milyon manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsi layihəsində dövlət əsaslı vəsait qoyuluşunun (investisiya xərclərinin) bölgüsündə bu Sərəncamın 1-ci hissəsində göstərilən dəmir yolu xəttinin tikintisinin davam etdirilməsi üçün zəruri olan maliyyə vəsaitini nəzərdə tutsun.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

**Azərbaycan Prezidenti İlham Əliyev xalqa müraciət edib**

[12:02] 25.11.2020

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev xalqa müraciət edib.
AZƏRTAC müraciəti təqdim edir.

**Prezident İlham Əliyevin xalqa müraciəti**

-Əziz həmvətənlər. Bu gün Kəlbəcər rayonu işğaldan azad olundu. Bu münasibətlə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm.

Əziz kəlbəcərlilər, gözünüz aydın olsun! Doğma rayonunuz işğaldan azad olundu. Bu günü Azərbaycan xalqı uzun illər ərzində səbirsizliklə gözləyirdi. Kəlbəcər rayonu 1993-cü il aprelin 2-də işğal edilmişdir. Günahsız insanlar öz dədə-baba torpağından vəhşicəsinə qovulmuşdur. Kəlbəcərin tarixi abidələrinə, təbiətinə böyük ziyan vurulmuşdur.

Kəlbəcər rayonunun işğal altına düşməsi böyük faciə idi. Hər bir rayonun işğal altına düşməsi böyük faciə idi. 1992-ci ilin may ayında Şuşa və Laçın rayonlarının işğal altına düşməsindən sonra Kəlbəcərin də işğal altına düşməsi Ermənistanla Dağlıq Qarabağ arasında coğrafi əlaqə yaratdı. Hər kəs yaxşı bilir ki, keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistan Respublikası ilə sərhədi yox idi. Ermənistanı Dağlıq Qarabağdan Laçın rayonu ayırırdı, Laçın dəhlizi ayırırdı. Laçın, Şuşa və ondan sonra Kəlbəcər rayonlarının işğal altına düşməsi böyük ərazidə Ermənistanla Dağlıq Qarabağ arasında coğrafi bağlantı yaratdı və düşmənin məqsədi məhz bundan ibarət idi. Kəlbəcərin işğal altına düşməsindən sonra demək olar ki, Ermənistanla Dağlıq Qarabağ arasında bir çox yollar vasitəsilə əlaqə yaradıldı və ilk növbədə, silahlar, texnikalar, canlı qüvvə göndərilmişdir. Eyni zamanda, Ermənistanın sonrakı işğalçılıq siyasətinə də bu, böyük üstünlüklər təmin etmişdir.

Kəlbəcər rayonunun işğal altına düşməsi o vaxt hakimiyyətdə olmuş Azərbaycan Xalq Cəbhəsinin birbaşa məsuliyyətidir. Bütövlükdə torpaqlarımızın işğal altına düşməsində əsas günahkar Azərbaycan Xalq Cəbhəsidir. Çünki əgər 1992-ci ildə onlar qanunsuz yollarla hakimiyyətə gəlməsəydilər, əgər dövlət çevrilişi etməsəydilər, bəlkə də, torpaqlarımız işğal altına düşməyə bilərdi. Əlbəttə ki, tarixə qayıdıb nə ola bilərdi, nə olmaya bilərdi demək çox çətindir. Ancaq hər halda, torpaqlarımızın işğal altına düşməsində onların birbaşa iştirakı, əli var və bu məsuliyyəti onlar daşıyır. Çünki 1992-ci ilin yaz aylarında hakimiyyət uğrunda mübarizə pik həddə çatmışdı. Azərbaycanda daxili çəkişmələr baş alıb gedirdi, xaos, böhran yaranmışdı, siyasi böhran yaranmışdı və hakimiyyət uğrunda mübarizə çox ciddi fəsadlara gətirib çıxarmışdı. Ermənistan isə bundan istifadə edərək torpaqlarımızı zəbt etməyə davam edirdi. Şuşa və Laçının işğal altına düşməsindən sonra vəziyyət kritik həddə çatdı. Bundan istifadə edən Azərbaycan Xalq Cəbhəsi dövlət çevrilişi edərək hakimiyyətə gəldi. Ancaq ondan sonra nə oldu? Ondan sonra bütün səylərini öz laxlamış hakimiyyətini möhkəmləndirmək, ölkəmizdə repressiyalar təşkil etmək, senzuranı tətbiq etmək və digər antidemokratik addımlar atmağa yönəltdi. Torpaqlarımız işğala məruz qalırdı, mülki əhalimiz öz dədə-baba torpaqlarından didərgin salınırdı, Azərbaycan Xalq Cəbhəsi, onun rəhbərliyi ancaq bir məqsədi güdürdülər ki, öz ciblərini doldursunlar, öz yaxın adamlarını vəzifələrə təyin etsinlər və öz hakimiyyətinin ömrünü uzatsınlar. Kəlbəcərin işğal altına düşməsi bax, bu çirkin addımların nəticəsi idi. Başqa cür ola da bilməzdi. İndi gənc nəsil xatırlamır, ancaq bilməlidirlər ki, o vaxt Azərbaycana kimlər rəhbərlik edirdi, hansı bilik sahibləri, hansı səriştə sahibləri. O adamların heç bir təcrübəsi yox idi. O adamlar - o vaxt rəhbərlikdə təmsil olunmuş adamlar, yüksək postlar tutmuş adamlar bir gün belə heç bir idarəyə, heç bir kiçik bir müəssisəyə rəhbərlik etməmişdilər. Onlar ölkəni, xüsusilə böhranlı vəziyyətdə olan ölkəni necə idarə edə bilərdilər? Amma onların vəzifə hərisliyi, tamahı, iştahası, görməmişliyi Azərbaycanı bax, bu vəziyyətə gətirib çıxardı. Baxın, görün, Azərbaycanı o vaxt kimlər idarə edirdi?! Parlamentin sədri kiçik elmi işçi idi, özü də uğursuz bir elmi işçi idi. Dövlət katibi - komsomoldan çıxmış karyerist, özü də sonrakı mərhələdə öz liderinə xəyanət etmiş, onun kürsüsünə, kreslosuna göz dikmiş, onun ölümünə hamıdan çox sevinmiş və ondan sonrakı həyatını, sadəcə olaraq, xarici dairələrin idarəsi altında keçirən bir adam. Onlardan hansı idarəçilik gözləmək olardı? Onlardan hansı vətənpərvərlik gözləmək olardı? Hansı peşəkarlıq gözləmək olardı? Xarici işlər naziri. Heç bir dildə danışa bilməyən təsadüfi bir adam, fizika müəllimi. Hansı ki, ümumiyyətlə, başa düşmürdü xarici münasibətlər nədir, beynəlxalq norma, prinsiplər

nədir? Sadəcə olaraq, turist kimi ora-bura gedirdi və ağzına gələni danışırdı. Müdafiə naziri, riyaziyyat müəllimi. Riyaziyyat müəllimi müdafiə naziri ola bilərmi? Məhz bu riyaziyyat müəllimi Şuşanı düşmənə təhvil verdi. Deyirdi ki, Şuşa əldən gedərsə, başıma güllə vuracağam. Bu günə qədər orada-burada sülənir. Şuşanı biz qaytarmışıq, biz. Siz satmısınız onu, xalq xainləri. Daxili işlər naziri. Quldurluq baş alıb gedirdi, jurnalistlər həbs olunurdu, döyülürdü, canlı efirdə maşınların yük yerinə atılırdı. Bu idi Azərbaycan Xalq Cəbhəsinin rəhbərləri. Baş nazir elmi kommunizm üzrə kiçik elmi işçi idi. Baxın, bu təzadlara baxın. Ölkə iqtisadiyyatını bazar iqtisadiyyatı prinsipləri əsasında qabağa aparmağa məsul olan adam elmi kommunizm üzrə kiçik elmi işçi idi. Hansı idarəçilik, hansı islahatlar, hansı müdafiə qabiliyyəti təmin oluna bilərdi? Bizim dərdimiz və faciəmiz budur ki, təsadüfi adamlar hakimiyyətə gəldilər, hakimiyyəti qanunsuz yollarla qəsb etdilər və ölkəmizi uçuruma apardılar.

Əgər Heydər Əliyev 1993-cü ildə xalqın tələbi ilə gəlməsəydi, Azərbaycan nəinki öz qalan torpaqlarını itirəcəkdi, ümumiyyətlə, dövlətçilik əldən gedəcəkdi. Öz laxlamış hakimiyyətini saxlamaq üçün vətəndaş müharibəsi başlamışdılar. Öz əsgərlərini əsir götürmüşdülər. Gəncəni bombalamışdılar. Bunu heç kim unutmasın! Bilməyənlər bilsinlər və gənc nəsil bunu bilsin, kim bizi bu bəlaya saldı? Kim bu bəlanın səbəbkarıdır? Kim bir milyon insanın ağır vəziyyətə düşməsinin səbəbkarıdır? O vaxtkı Azərbaycan Xalq Cəbhəsi hakimiyyəti. Əslində, indi paralel aparsaq, onların obrazı elə bil kollektiv Paşinyandır - savadsız, biliksiz, iradəsiz, qorxaq, fərari, idarəetmədə heç bir təcrübəsi olmayan, xarici dairələrin təsiri altında olan, onların əli ilə idarə olunan və öz ölkəsini məhv edən. Bax, kollektiv Paşinyandır onlar. Onları tanımayanlar, əgər onlar haqqında hər hansı bir təsəvvür yaratmaq istəsələr, Paşinyana baxsınlar. Onun addımlarına baxsınlar və onun simasında o vaxtkı Azərbaycan Xalq Cəbhəsinin və ölkə rəhbərliyinin simasını görəcəklər.

Kəlbəcər bizim qədim torpağımızdır. Qədim Azərbaycan torpağıdır. Kəlbəcər ərazi baxımından bizim ən böyük rayonlarımızdan biridir. Kəlbəcərin tarixi abidələri bizim böyük sərvətimizdir. Həm məscidlər, həm kilsələr bizim tarixi sərvətimizdir. Azərbaycan xalqı onu yaxşı bilir və bütün dünya bilməlidir ki, Kəlbəcərdə mövcud olan kilsələr qədim Qafqaz Albaniyası dövlətinə məxsusdur. Bunu təsdiqləyən bir çox tarixi sənədlər var. Bu, heç kəsə sirr deyil. Sadəcə olaraq, erməni "tarixçiləri" və saxtakarlar qədim alban kilsələrini saxtakarlıqla erməniləşdiriblər, öz yazılarını oraya əlavə ediblər və bu kilsələri özününküləşdiriblər. Tarixə baxmaq kifayətdir, hər kəs görsün ki, 1830-cu illərdə çar Rusiyası alban kilsəsini ləğv etdi, alban kilsəsinin bütün mülkiyyətini erməni Qriqoryan kilsəsinə verdi və erməni keşişləri, onların havadarları bu kilsələri mənimsəməyə başladılar. Qafqaz Albaniyasının tarixini silmək, unutdurmaq onların başlıca vəzifəsi idi. Amma biz imkan vermədik. Azərbaycanda bu məsələ ilə bağlı kifayət qədər böyük elmi baza var, əsərlər var. Bu əsərlər nəinki elm ictimaiyyətinə, bütövlükdə dünya ictimaiyyətinə çatdırılır və çatdırılmalıdır. Qafqaz Albaniyası böyük dövlət olub. Onun paytaxtı Qəbələ şəhəri olub. Qafqaz Albaniyasına aid olan tarixi abidələr, kilsələr bizim tarixi-mədəni sərvətimizdir. Biz bu kilsələri qoruyuruq. Mən bu kilsələrdə dəfələrlə olmuşam, Şəki şəhərində, Qəbələ rayonunda, Udi kilsəsində. Bildiyiniz kimi, müharibə dövründə Heydər Əliyev Fondunun təşəbbüsü ilə Nic qəsəbəsində qədim Udi Qafqaz Albaniyası kilsəsinin təmir işləri yekunlaşdı və bu kilsənin açılışı oldu. Biz bu kilsələri mədəni sərvətimiz kimi qoruyuruq. Ona görə, heç kim narahat olmasın. Bu kilsələr bundan sonra da dövlət tərəfindən qorunacaq. Azərbaycanın multikulturalizmlə, dinlərarası münasibətlə bağlı apardığı siyasət bütün dünya tərəfindən, dünya liderləri tərəfindən təqdirlə qarşılanır. Narahatlıq ifadə etmək istəyən bəzi Qərb dairələri bizim dağılmış məscidlərə baxsınlar, Ağdam, Şuşa, Zəngilan, Cəbrayıl, Füzuli məscidlərinə və digər məscidlərə. O məscidlər ya dağıdılıb, ya da ki, təhqir edilib, donuzlar saxlanılıb. Niyə bu, narahatlıq doğurmurdu? Otuz il bu barədə niyə heç kim məsələ qaldırmırdı, bizdən başqa? Mən bu məsələni dəfələrlə beynəlxalq tribunalardan, beynəlxalq kürsülərdən, xarici həmkarlarımla təmaslar əsnasında qaldırmışdım. Nə üçün buna heç kim narahatlıq ifadə etmirdi? Nə üçün bu məsələ ilə bağlı heç kim beynəlxalq heyət göndərmək istəmirdi? Bu suallara cavab istəyir Azərbaycan xalqı. Biz bu cavabı bilirik. Ona görə bir daha demək istəyirəm, bizim işimizə qarışmaq istəyən, yaxud da ki, nədəsə ittiham etmək istəyən getsin, ilk növbədə, güzgüyə baxsın.

Kəlbəcər rayonu füsunkar təbiətə, zəngin mədəni irsə malikdir. Bizim bir neçə böyük çayımızın mənbəyi Kəlbəcər rayonundadır. Onların arasında ən böyüyü Tərtər çayıdır, uzunluğu 200 kilometrdir. Bazarçay, Xaçınçay. Onların uzunluğu təqribən 200 kilometrə yaxındır. Bu çaylar böyük ərazini qidalandırır. Ancaq mənfur düşmən bizi bu imkanlardan məhrum etdi. Çünki Tərtər çayı 1970-ci illərdə ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə inşa edilmiş Sərsəng su anbarına axıdılır. Sərsəng su anbarı o vaxt o məqsədlə tikilmişdi ki, Qarabağın Aran zonasında yerləşən 6-7 rayonda suvarma işləri təmin edilsin. O vaxt

Sərsəng su anbarı inşa ediləndən sonra heç vaxt suvarılmayan 100 min hektar ərazi artıq suvarılmağa başlamışdır. Ağdam, Goranboy, Yevlax, Bərdə, Tərtər və digər rayonlar oradan qaynaqlanırdı. Mənfur düşmən suyumuzu kəsdi. Yayda suyu kəsirdi, qışda buraxırdı və su basırdı bütün torpaqları. Bax, bizə qarşı ekoloji terror təşkil edilirdi. Ermənistan terror dövlətidir, bu terrorun bir çox əlamətləri var. Tarixi abidələrimizin dağıdılması, mülki əhaliyə qarşı törədilən soyqırımı, meşələrimizin qırılması, çaylarımızın məcrasının dəyişdirilməsi və digər əlamətlər var. Baxın, Kəlbəcərdən başlayan Tərtər çayının suyu Sərsəng su anbarında və ondan sonra Suqovuşan su anbarında yığılırdı, işğalçının maraqlarını təmin edirdi, bizə isə su gəlmirdi. Biz Suqovuşan qəsəbəsini alandan sonra indi artıq suyun verilməsi başlamışdır və 100 min hektara suyun verilməsi nəzərdə tutulur.

Kəlbəcər rayonunda böyük meşə əraziləri vardır. Kəlbəcər rayonunda 24 min hektar meşə ərazisi var. Bu, böyük sərvətimizdir. Mənfur düşmən bu meşələri qırıb, talayıb, satıb. Görün, son günlər ərzində onlar hansı çirkin işlərlə məşğuldur, meşələri yandırırlar ki, ekoloji faciə, fəlakət yaratsınlar. Bu oğrular meşələri qırırlar, aparırlar ki, Ermənistanda satsınlar. Evləri yandırırlar, hansı ki, o evləri onlar tikməyiblər. Onlar kəlbəcərlilərin evlərinə giriblər, soxulublar, orada yaşayıblar. Məktəbləri yandırırlar, apara bilmədikləri ev heyvanlarını öldürürlər. Görün, biz kimlərlə, hansı vəhşilərlə üz-üzə idik! Mən bir daha deyirəm və hər dəfə də deyəcəyəm, bizim Qələbəmiz təkcə Ermənistan dövləti üzərində əldə edilmiş qələbə deyil, biz erməni faşizmini məhv etdik.

Biz Kəlbəcəri bərpa edəcəyik, heç kimin şübhəsi olmasın və həyat qayıdacaq. Kəlbəcərdə kənd təsərrüfatı inkişaf edəcək, xüsusilə heyvandarlıq. Bizim orada böyük otlaq sahələrimiz var. Kəlbəcərin zəngin təbii qaynaqları, təbii ehtiyatları var. Düşmən bu ehtiyatları vəhşicəsinə istismar edib. Sovet vaxtında bütün sovet məkanında məşhur olan İstisu suyu Kəlbəcərdə istehsal olunurdu. İndi İstisu da bizim nəzarətimizə qayıdır. Vaxtilə ora böyük kurort zonası idi. Mənfur düşmən hər tərəfi dağıdıb. İndi o görüntülər var, hər kəs görə bilər. Hamısını bərpa edəcəyik, Kəlbəcəri yenidən quracağıq, kəndləri, Kəlbəcər şəhərini. Tapşırıq vermişəm ki, şəhərin yenidən qurulması ilə əlaqədar baş plan hazırlansın, təkcə Kəlbəcər şəhəri yox, bütün şəhərlər üzrə və həyat qayıdacaqdır.

Kəlbəcərdə mənfur düşmən digər cinayət də törədib, qanunsuz məskunlaşma aparıb. Həm Ermənistan ərazisindən qanunsuz yollarla orada insanlar məskunlaşıb, həm də xarici ölkələrdən. Bu isə hərbi cinayətdir və Cenevrə Konvensiyasına görə hərbi cinayət sayılır. Biz düşməni məsuliyyətə cəlb edəcəyik, cavab verəcəkdir, bütün hərbi cinayətlərə görə, bütün dağıntılara görə. Mən Ağdam şəhərində olarkən bir salamat bina tapmadım, Füzulidə də həmçinin, Cəbrayılda da həmçinin. Hər tərəfi dağıdıblar, elə bil ki, vəhşi qəbilə keçib oradan.

Biz isə qurub-yaradanıq. Biz bu şəhərləri, bu rayonları yenidən dirçəldəcəyik. Bu rayonların bərpası ilə bağlı böyük planlarımız var. Artıq, bu planlar reallaşır, infrastruktur layihələri icra edilməyə başlayır. Şuşaya yeni yolun çəkilişi artıq başlanmışdır. Sovet vaxtında Şuşaya getmək üçün bir yol var idi - Ağdamdan Xankəndiyə, oradan da Şuşaya. İndi biz Füzuli rayonundan yeni yol çəkirik. Bu yol Xocavənd rayonunun bir hissəsindən keçəcək. Göstəriş vermişəm ki, bu, tezliklə təmin edilsin. Halbuki bu, böyük işdir, orada yol olmayıb və meşələrin içi ilə yol salınır, dərələr, təpələr, çox ağır relyef var orada. Amma biz bunu edəcəyik. Dəmir yollarını bərpa edəcəyik. O cümlədən, Naxçıvan Muxtar Respublikasına gedən dəmir yolunun bərpası ilə əlaqədar artıq ilkin göstərişlər verilmişdir. Bərdə-Ağdam dəmir yolunun bərpası ilə əlaqədar artıq praktiki addımlar atılmışdır. Ağdam rayonunun bərpası və gələcəkdə orada yaşayacaq insanların rahatlığı üçün bu yol mütləq olmalıdır. Yəni, bütün bu işlər planlı şəkildə aparılacaq və Azərbaycan vətəndaşları görüləcək işlərlə bağlı müntəzəm olaraq məlumatlandırılacaqdır. Bütün işləri biz planlı şəkildə etməliyik. Bir daha demək istəyirəm, ilk növbədə, dəymiş bütün ziyan beynəlxalq ekspertlərin iştirakı ilə hesablanacaq. Ondan sonra məhkəmə iddiaları. Ondan sonra şəhərlərimizin, kəndlərimizin baş plan əsasında yenidən qurulması, kənd təsərrüfatı, digər infrastruktur layihələri, su, işıq ilə əlaqədar lazımi tədbirlər. Ondan sonra yollar. Biz düşməni Şuşadan qovanda oraya gedən su xəttini sıradan çıxarıb. İndi Şuşada su yoxdur. Bax, budur bu düşmən.

Bizim əsgərlərimiz görəndə ki, Ağdam rayonunun bir kəndində erməni əhalisi vaxtında çıxa bilməyib, onlara çıxmaq üçün şərait yaradıblar. Onlara söz deyən olmayıb. Amma mənfur düşmən bizim meşələrimizi yandırır, evlərimizi yandırır, su xəttini sıradan çıxarıb. Hesab edir ki, bu, bizi dayandıracaq? Biz istənilən yerə su xətti çəkmişik - ucqar dağlara çəkmişik, dağ kəndlərinə çəkmişik. Hamısını bərpa edəcəyik, hamısını. Artıq müvafiq göstərişlər verilibdir və əminəm ki, biz bu işləri vaxtında görəcəyik.

Düşmən Kəlbəcərə yeni eybəcər bir ad verib. Onlar "Dağlıq Qarabağ respublikası"nın xəritələrini düzəltmişdilər. Hanı o xəritələr? Hamısı məhv oldu. O xəritələr, sadəcə olaraq, kağız parçasıdır. Həm

Dağlıq Qarabağ Muxtar Vilayətinin bütün ərazisini, Şuşanı, eyni zamanda, ətrafda yerləşən bütün 7 rayonu da aid etmişlər "Dağlıq Qarabağ respublikası"na. Bu xəritələri dərc edirdilər, dərsliklərə salmışdılar, sərgilərdə nümayiş etdirirdilər. Bu xəritələri onlar elə təqdim edirdilər ki, budur "Dağlıq Qarabağ respublikası". İndi nə qalıb o xəritələrdə? Heç nə. Azərbaycan öz ərazi bütövlüyünün bərpası istiqamətində lazımi addımlar atıbdır.

Mən bir daha danışıqlar dövrünə qayıtmaq istəyirəm. O vaxt dəfələrlə mənə deyilirdi ki, münaqişə yalnız sülh yolu ilə həll olunmalıdır. Deyə bilərəm ki, bütün beynəlxalq təşkilatlar, təmasda olduğum bütün böyük dövlətlərin liderləri dəfələrlə deyirdilər ki, münaqişənin hərbi həlli yoxdur. Bu, ifadələr açıq mətbuatda da var. Mən nə deyirdim? Deyirdim ki, var! Deyirdim ki, lazım olsa torpaqlarımızı hərbi yolla azad edəcəyik. Deyirdim ki, müharibə heç zaman istisna olunmur. Danışıqlar dövründə müxtəlif mərhələlərdə dəfələrlə təklif irəli sürülürdü ki, Azərbaycan tərəfi müharibə yolundan imtina etsin. Mən heç vaxt buna razılıq vermirdim. Ondan sonra məni ittiham etməyə başlayırdılar ki, İlham Əliyev müharibəyə başlamaq istəyir. Mən deyirdim ki, məsələni sülh yolu ilə həll etmək istəyirəm. Amma həll etmək istəyirəm. Ermənistan nə istəyirdi? Status-kvonu saxlamaq, əbədi etmək. Hesab edirdi ki, əgər 26-27 il ərzində buna nail olubsa, deməli, bundan sonra da nail olacaq. Hesab edirdilər ki, onların havadarları daim onları müdafiə edəcəklər, onların arxasında duracaqlar, onların əvəzinə müharibə aparacaqlar. Onlar, ümumiyyətlə, hesab edirlər ki, bütün dünya bunlara borcludur. Onlar bu ziyanlı və xəstə təfəkkürlə öz ölkəsini idarə etmək istəyirlər ki, kimsə gəlməlidir, bunlara mütləq kömək göstərməlidir. Bəs, siz özünüz nəyə qadirsiniz? Əgər hər zaman kiminsə ətəyindən yapışıb hansısa imtiyaz umursunuzsa, bəs, özünüz nəyə qadirsiniz? Bax, bu təfəkkür onların cəmiyyətini də demək olar ki, yanlış istiqamətə aparıb. Bu gün də hamıdan narazıdırlar. Bu gün də hamıya qarşı iddialar irəli sürürlər ki, nə üçün bizi heç kim müdafiə etmir. Sizi kim müdafiə etməlidir? Siz müstəqil ölkəsiniz, - əgər belə demək mümkündürsə, - müstəqil ölkə kimi də yaşayın, bu, birincisi. İkincisi, siz başqasının torpağını zəbt etmisiniz. Bir milyon insanı evsiz-eşiksiz qoymusunuz. Bütün binaları, evləri, şəhərləri dağıtmısınız. Siz özünüzü vəhşilər kimi aparmısınız. Haqq-ədalət sizin tərəfinizdə deyil, beynəlxalq hüquq sizin tərəfinizdə deyil, tarixi həqiqət sizin tərəfinizdə deyil. Amma hesab edirdilər ki, bu torpaqları əbədi saxlayacaqlar. Hesab edirdilər ki, vaxt keçəcək, nəsillər dəyişəcək. Azərbaycan xalqı bunu unudacaq, bu vəziyyətlə barışacaq. Səhv etdilər. Heç vaxt biz bu vəziyyətlə barışmaq fikrində deyildik. Mən Prezident kimi bu illər ərzində əlimdən gələni edirdim ki, Dağlıq Qarabağ məsələsi daim gündəlikdə olsun, özü də daim gündəliyin mərkəzində olsun. Həm ölkə daxilində vətənpərvərlik, milli qürur, həmrəylik hissləri daha da yüksək səviyyəyə qalxsın. Həm beynəlxalq müstəvidə daim bu məsələ gündəlikdə olsun. Hər kəs bilsin, həqiqət nədən ibarətdir, hər kəs bilsin, təcavüzkar kimdir, zərərçəkmiş tərəf kimdir və biz buna nail olduq. İndi dünyada hər kəs bunu bilir. Əgər Vətən müharibəsi dövründə xarici mətbuata diqqət yetirsək, görərik ki, əlbəttə, qərəzli, islamofob, anti-Azərbaycan, ermənipərəst məqalələr və reportajlar üstünlük təşkil edir. Ancaq, eyni zamanda, əvvəlki dövrdən fərqli olaraq bir çox obyektiv, həqiqəti əks etdirən reportajlar, məqalələr də dərc edildi. Deyə bilərəm ki, biz informasiya müharibəsində qələbə qazandıq. Biz döyüş meydanında qələbə qazandıq, informasiya məkanında qələbə qazandıq, siyasi müstəvidə qələbə qazandıq. Müharibənin nəticələri mən deyən kimi oldu. Mən ilk günlərdən deyirdim ki, bu məsələ öz həllini hərbi, siyasi yollarla tapmalıdır. Deyirdim ki, biz məsələnin hərbi yollarla həllini hər an dayandıra bilərik və buna hazırıq. Bir şərtlə, Paşinyan şəxsən özü deməlidir ki, nə vaxt o, bizim torpaqlarımızdan çıxır. Öhdəlik götürməlidir, tarix verməlidir. Deməlidir ki, nə vaxt bizim torpaqlarımızdan çıxır. Bu olan kimi, mən bizim hücum əməliyyatlarımızı dayandırıram. O, artıq cəzasını alıb. Halbuki o vaxt o, 7 şərti bizə irəli sürəndə demişəm: Mənim bir şərtim var, - sənin yeddi şərtini zibil yeşiyinə atıram, - rədd ol, çıx get torpağımızdan. Öz xoşunla çıx get. Əgər qulaq assaydı, bu rəzil vəziyyətə düşməzdi. Müharibənin nəticələri də mən deyən kimi oldu. Biz Cəbrayılı, Füzulini, Zəngilanı, Qubadlını, Murovdağı, Suqovuşanı, Hadrutu, Xocavənd rayonunun böyük hissəsini və Şuşanı hərbi yollarla azad etdik. Döyüş meydanında düşmənin belini qırdıq. Şuşanın azad olunmasından bir gün sonra 70-dən çox kəndin azad edilməsi ilə düşmən diz çökdü, kapitulyasiya aktına imza atdı. Hələ ki, bilmirəm harada. Bunu gizlədirlər. Yəqin ki, nə vaxtsa bizə deyəcəklər. Paşinyan, harada imzalamısan sən bu kapitulyasiya aktını? Ancaq məcbur olub bizim şərtlərimizi qəbul edib.

Müharibə bir daha göstərdi kim kimdir. Ermənistan məğlub edilmiş ölkədir. Azərbaycan zəfər çalmış ölkədir. Kəlbəcər bizimdir! Qarabağ Azərbaycandır!

**AZƏRTAC**

**ABŞ azərbaycanlılar şəbəkəsi Amerika ictimaiyyətini ermənilərin ekoloji terrorizmi haqqında məlumatlandırma kampaniyası keçirir**

[11:12] 25.11.2020

ABŞ Azərbaycanlılar Şəbəkəsi Amerika ictimaiyyətini və dövlət strukturlarını ermənilərin ekoloji terrorizmi və işğal edilmiş ərazilərin minalanması haqqında məlumatlandırma kampaniyası keçirir.

AZƏRTAC xəbər verir ki, ABŞ Konqresinə, Prezidentə və yerli KİV-lərə göndərilmiş müraciətdə noyabrın 10-da Azərbaycan, Rusiya və Ermənistan liderləri tərəfindən atəşkəs haqqında Birgə Bəyanat imzalanması və bununla Azərbaycanın Dağlıq Qarabağ regionunda 44-günlük müharibəyə son qoyulması bildirilir. Birgə Bəyanata əsasən, erməni qoşunları dekabrın 1-inə qədər Azərbaycanın Kəlbəcər, Ağdam və Laçın rayonlarından çıxarılmalıdır. Əvvəlcə erməni qoşunlarının Kəlbəcər rayonundan çıxarılmasının son müddəti noyabrın 15-inə təyin edilmişdi. Sonradan humanitar mülahizələrə əsasən həmin müddət noyabrın 25-inə qədər uzadıldı. Lakin son günlərdə müxtəlif KİV-lərdə dərc edilən dəhşətli kadrlar erməni qoşunları və başqa silahlı dəstələri tərəfindən həyata keçirilən yandırılmış torpaq siyasətini əks etdirir. Ermənilər noyabrın 9-dan başlayaraq bütün evləri yandırıb, elektrik xətlərini söküb, minlərlə ağacı kəsib, bütün ev heyvanlarını kəsib, onların içalatını tullayaraq virus xəstəliklərinin yayılmasına şərait yaradır, bir sözlə, ekoloji terrorizm törədirlər. Bundan başqa, alınan məlumata görə, erməni hərbi hissələri Kəlbəcər, Ağdam və Laçın rayonlarında öz doğma yerlərinə qayıdan azərbaycanlı köçkünləri məhv etmək üçün həmin rayonlarda yüz minlərlə mina basdırıblar.

Müraciətdə daha sonra deyilir ki, 1992-1993-cü illərdə erməni qoşunları tərəfindən işğal edilmiş Laçın, Kəlbəcər və Ağdam rayonları Azərbaycanın beynəlxalq hüquqla tanınmış əraziləridir. Ermənilərin həyata keçirdiyi etnik təmizləmə siyasəti nəticəsində yüz minlərlə azərbaycanlı bu rayonları tərk etməyə məcbur olub. Ermənistanın hakimiyyət orqanları diaspordan olan erməniləri bu rayonlarda məskunlaşdırmağa çalışır, bununla da işğalçı dövlət tərəfindən demoqrafik vəziyyətin öz xeyrinə süni surətdə dəyişdirilməsini qadağan edən 1949-cu il Cenevrə Konvensiyasının 49-cu maddəsini pozur.

ABŞ Azərbaycanlılar Şəbəkəsinin müraciətinin sonunda deyilir ki, BMT Təhlükəsizlik Şurasının 822 və 853 saylı qətnamələri bu Azərbaycan ərazilərinin işğalını qətiyyətlə pisləyir, işğalçı erməni qoşunlarının dərhal və qeyd-şərtsiz çıxarılması tələb edilir. Lakin həmin qətnamələr qəbul ediləndən sonra 27 il BMT bu istiqamətdə heç bir fəaliyyət göstərmədi, Ermənistan bu sənədlərə etinasız qaldı. Nəhayət, Azərbaycan bu qətnamələrin icrasını təmin etmək üçün əks-hücuma başladı.

**AZƏRTAC-ın Vaşinqton bürosu**

**AZƏRTAC**

**Azərbaycan Prezidenti: İşğaldan azad olunmuş rayonların bərpası ilə bağlı böyük planlarımız var, artıq bu planlar reallaşır**

[12:24] 25.11.2020

Kəlbəcərdə mənfur düşmən digər cinayət də törədib, qanunsuz məskunlaşma aparıb. Həm Ermənistan ərazisindən qanunsuz yollarla orada insanlar məskunlaşıb, həm də xarici ölkələrdən. Bu isə hərbi cinayətdir və Cenevrə Konvensiyasına görə hərbi cinayət sayılır. Biz düşməni məsuliyyətə cəlb edəcəyik, bütün hərbi cinayətlərə görə, bütün dağıntılara görə cavab verəcək.

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev xalqa müraciətində bu barədə danışarkən işğaldan azad olunmuş rayonlarda həyata keçiriləcək infrastruktur layihələrindən də söhbət açıb.

Dövlətimizin başçısı deyib: “Biz isə qurub-yaradanıq. Biz bu şəhərləri, bu rayonları yenidən dirçəldəcəyik. Bu rayonların bərpası ilə bağlı böyük planlarımız var. Artıq, bu planlar reallaşır, infrastruktur layihələri icra edilməyə başlayır. Şuşaya yeni yolun çəkilişi artıq başlanmışdır. Sovet vaxtında Şuşaya getmək üçün bir yol var idi - Ağdamdan Xankəndiyə, oradan da Şuşaya. İndi biz Füzuli rayonundan yeni yol çəkirik. Bu yol Xocavənd rayonunun bir hissəsindən keçəcək. Göstəriş vermişəm ki, bu, tezliklə təmin edilsin. Halbuki bu, böyük işdir, orada yol olmayıb və meşələrin içi ilə yol salınır, dərələr, təpələr, çox ağır relyef var orada. Amma biz bunu edəcəyik”.

**AZƏRTAC**

**“Associated Press” ermənilərin Ağdam şəhərində törətdikləri dağıntılar barədə məqalə yayıb**

[17:33] 26.11.2020

“Associated Press” agentliyi erməni işğalı nəticəsində Ağdam şəhərindəki dağıntılar barədə məqalə yayıb.

AZƏRTAC xəbər verir ki, məqalədə azərbaycanlıların Ağdam şəhərinin azad olunmasının sevincini yaşadıqları, lakin onların dağıntılarla qarşılaşdıqları bildirilir.

Məqalədə şəhərin əsas görməli yerlərindən olan Çörək muzeyi, eləcə də konyak zavodunun dağıdılması xüsusi qeyd olunub.

Uzun fasilədən sonra şəhəri ilk dəfə görən 63 yaşlı Ağdam sakini Arif Hacıyev bildirib ki, şəhərdəki evlərdən, mehmanxanalardan, inzibati binalardan əsər-əlamət qalmayıb: “Elə təəssürat yaranır ki, 12 ballıq zəlzələ baş verib”.

61 yaşlı Nəsibə Zamanova isə bildirib ki, doğma evi minalandığı üçün oraya daxil olmayıb.

Müəllif yazır ki, Ağdam şəhərində işğala qədər 50 min nəfər yaşayıb. Evlərinin ağ damları ilə məşhur olmuş şəhər o qədər dağılıb ki, indi oranı “Qafqazın Xirosiması” adlandırırlar.

**AZƏRTAC**

**Çin nəşri Azərbaycanın Qarabağ döyüşlərində PUA-larla uğurlu hücumlarından yazıb**

[07:32] 27.11.2020

Çin Mərkəzi Televiziyasının ingilis dilində yayımlanan CGTN (China Global Television Network) kanalının internet səhifəsində "Dronların Azərbaycana necə üstünlük gətirdiyini görün" başlıqlı xəbər və eyni mövzuda videoxəbər yerləşdirilib.

AZƏRTAC xəbər verir ki, materiallarda sentyabrın 27-dən başlayan 2-ci Qarabağ müharibəsində Azərbaycanın müxtəlif növ pilotsuz uçuş aparatlarının (PUA) köməyi ilə düşmən hədəflərini ustalıqla məhv etməsindən söz açılıb. Azərbaycanın Müdafiə Nazirliyinin yaydığı görüntüləri təqdim edən nəşr yazır ki, son vaxtlar hücum PUA-larına maraq çoxalıb.

Materiallarda sentyabrın 27-dən başlayan müharibənin Rusiyanın vasitəçiliyi ilə imzalanmış sənəd əsasında dayandırıldığı, razılaşmaya əsasən, Ermənistan tərəfinin Ağdam, Kəlbəcər və Laçın rayonlarını Azərbaycana qaytarmalı olduğu qeyd olunub.

**Şahin Cəfərov**
**AZƏRTAC-ın xüsusi müxbiri, Pekin**

**AZƏRTAC**

**İspaniyanın nüfuzlu beyin mərkəzində keçirilən seminarda Ermənistanın törətdiyi müharibə cinayətlərindən danışılıb**

[12:32] 27.11.2020

İspaniyanın beynəlxalq münasibətlər və diplomatiya sahəsində tanınmış araşdırma institutlarından sayılan Beynəlxalq və Strateji Araşdırmalar üzrə Fondun təşəbbüsü və təşkilatçılığı ilə Madrid şəhərində Ermənistanın ölkəmizə hərbi təcavüzü, habelə azərbaycanlı mülki əhaliyə qarşı törətdiyi müharibə cinayətləri, tarixi-dini abidələrimizə qarşı vandalizm aktları mövzusunda seminar təşkil olunub.

AZƏRTAC xəbər verir ki, Fondun prezidenti Xose Mariya Alveres de Eulate i Penyaranda bu məqsədlə seminara dəvət olunmuş Azərbaycanın İspaniyadakı səfiri Anar Məhərrəmovu şanlı Qələbə və Ermənistanın işğalı altındakı ərazilərimizin müzəffər Ordumuz tərəfindən azad olunması münasibətilə təbrik edib, bunun regionda sülh və sabitliyə əhəmiyyətli töhfə verəcəyinə əminliyini bildirib.

Seminarda çıxış edən səfir Anar Məhərrəmov diqqətə çatdırıb ki, sentyabr 27-də Ermənistan silahlı qüvvələri atəşkəs rejimini yenidən kobud şəkildə pozaraq, təmas xətti boyunca Azərbaycan Respublikasının mövqelərini, habelə təmas xəttinin yaxınlığında yerləşən kəndləri iriçaplı silahlar, minaatanlar və müxtəlif növ artilleriya qurğularından atəşə tutaraq Azərbaycana qarşı növbəti hərbi təcavüz törədib. Hərbi təxribat zamanı mülki əhali məqsədli şəkildə hədəf seçilib, nəticədə 94 dinc sakin həlak olub, 414 nəfər müxtəlif dərəcəli bədən xəsarətləri alaraq xəstəxanalara yerləşdirilib, bir sıra yaşayış və inzibati binalar ciddi dağıntılara məruz qalıb.

Bildirilib ki, Azərbaycan Respublikasının Silahlı Qüvvələri Ermənistanın növbəti hərbi təcavüzünün qarşısını almaq və təmas xətti boyunca sıx şəkildə yaşayan mülki əhalinin təhlükəsizliyini təmin etmək məqsədilə özünümüdafiə hüququ çərçivəsində, eyni zamanda, beynəlxalq humanitar hüquqa tam riayət etməklə əks-hücum və cavab tədbirləri həyata keçirib.

A.Məhərrəmov qeyd edib ki, Azərbaycanın dinc əhalisini qətlə yetirmək məqsədilə ardıcıl olaraq hərbi təxribatlar törədərək sülh və insanlıq əleyhinə yönəlmiş müharibə cinayətlərini və terror aktlarını davam etdirən Ermənistan silahlı qüvvələri oktyabrın 10-u və 17-də cəbhə bölgəsindən 100 kilometr uzaqda yerləşən, ölkəmizin qədim tarixə malik, ikinci ən böyük şəhəri olan Gəncənin əhalinin sıx məskunlaşdığı mərkəzi hissələrini, oktyabrın 28-də isə Bərdə şəhərini Ermənistan ərazisindən ballistik raket atəşinə tutub. Dinc əhalinin sıx məskunlaşdığı yaşayış məntəqələrinin Ermənistanın növbəti hərbi təcavüzünə məruz qalması nəticəsində aralarında azyaşlı uşaqlar olmaqla, çoxsaylı insan itkisi və yaralanma halları baş verib, bir çox mülki infrastruktur obyektləri dağıdılıb, beləliklə, mülki əhaliyə külli miqdarda maddi, mənəvi və fiziki ziyan vurulub.

Xüsusi olaraq vurğulanıb ki, Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə şanlı Azərbaycan Ordusu tərəfindən 28 ildir Ermənistanın işğalı altında olan torpaqlarımız, o cümlədən ölkəmizin musiqi beşiyi olan qədim Şuşa şəhəri işğaldan azad edilib.

Azərbaycan Respublikasının və Rusiya Federasiyasının prezidentləri, Ermənistan Respublikasının baş naziri tərəfindən noyabrın 10-da imzalanmış, Ermənistan ilə Azərbaycan arasında atəşkəsin əldə olunması və erməni silahlı qüvvələrinin Ağdam, Kəlbəcər və Laçın rayonlarından çıxarılmasını özündə ehtiva edən birgə bəyanatdan irəli gələn bəzi müddəalar barədə seminar iştirakçılarına məlumat verilib. Qeyd olunub ki, sözügedən bəyanatın müddəalarına əsasən, işğalçı qüvvələr Kəlbəcər rayonundan noyabrın 15-dək çıxmalı olduğu halda, Ermənistan tərəfi Rusiya vasitəsilə Azərbaycandan rayonun təhvil verilməsi üçün əlavə 10 gün vaxt istəyib. Azərbaycanlı mülki əhaliyə qarşı müharibə və insanlıq əleyhinə cinayətlər, Xocalı soyqırımını törətmiş Ermənistanın 1993-cü ildə Kəlbəcər rayonunu işğal edərkən azərbaycanlı əhaliyə rayonun ərazisini tərk etmək üçün cəmi 10 saat vaxt versə də, Azərbaycan dövləti öz humanistliyini bir daha nümayiş etdirərək işğalçı Ermənistan qüvvələrin Kəlbəcərdən çıxma müddətinin noyabrın 25-dək uzadılmasına razılıq verib.

Noyabrın 20-də Ağdam rayonunun, 25-də isə Kəlbəcərin Ermənistanın işğalından azad edildiyi, dekabrın 1-də Laçın rayonunun Azərbaycana təhvil veriləcəyi iştirakçıların diqqətinə çatdırılıb.

Ermənistanın işğaldan azad olunmuş Azərbaycan ərazilərindən çıxmasının vandalizm aktları ilə müşayiət olunduğu diqqətə çatdırılıb, yaşayış məskənlərinin yandırılması, meşələrin kütləvi şəkildə qırılması ilə Ermənistanın növbəti dəfə ekoloji cinayətlər törətməsi, qanunsuz arxeoloji qazıntılar apararaq aşkar olunmuş nadir mədəni nümunələrin Ermənistana daşınması, işğal olunmuş ərazilərdə Azərbaycanın maddi-mədəni irsinin talan edilməsi barədə seminar iştirakçıları ətraflı məlumatlandırılıb.

Seminar zamanı Azərbaycan-Ermənistan münaqişəsinin reallıqları ilə bağlı fotoslayd və videoçarxlar, həmçinin Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin işğaldan azad olunmuş Füzuli, Cəbrayıl və Ağdam rayonlarındakı çıxışları təqdim olunub.

Sonra tədbirdə iştirak edən müəllim və tələbələrin mövzu ilə bağlı çoxsaylı sualları cavablandırılıb.

Seminardan məmnunluğunu bildirən Fondun rəhbərliyi və tələbələr tədbirin maraqlı keçdiyini, münaqişə reallıqlarının onlarda dərin təəssürat doğurduğunu bildiriblər.

Fondun prezidenti Xose Mariya Alveres de Eulate i Penyaranda dərin məzmunlu çıxışına və təqdimata görə səfir A.Məhərrəmova minnətdarlığını bildirib.

**Nigar Cəfərli**
**AZƏRTACın xüsusi müxbiri, Madrid**

**AZƏRTAC**

**"Euronews" Azərbaycanın işğaldan azad edilmiş Ağdam rayonu ilə bağlı reportaj yayımlayıb**

[12:00] 27.11.2020

"Euronews" telekanalı Azərbaycanın işğaldan azad edilmiş Ağdam rayonu ilə bağlı reportaj yayımlayıb.

AZƏRTAC xəbər verir ki, reportajda 1990-cı illərdə, münaqişənin qızğın vaxtında Ağdamdan qovulmuş azərbaycanlıların indi öz doğma yurdlarına qayıtmaq arzuları barədə məlumat verilir.

Bildirilir ki, "Ağdam" sözü Azərbaycan dilindən tərcümədə "ağ ev" deməkdir. Bu şəhərdə qanlı döyüşlərin izləri qalıb. Ona görə Ağdamı indi bəzən "Qafqazın Xirosiması" adlandırırlar.

Reportajda Ağdam sakinlərindən birinin fikirlərinə də yer verilib. O, vaxtilə təhsil aldığı məktəbin yerləşdiyi ərazini göstərir. Qeyd edir ki, həmin ərazidə digər qurumlar da fəaliyyət göstərirdi. İndi burada heç nəyi tanımaq mümkün deyil. Ermənilər nə var idisə, hamısını darmadağın ediblər. Heç kim öz küçəsini tapa bilmir.

Reportajda qeyd edilir ki, uzaqdan Ağdam məscidinin minarələri görünür. Ermənilər şəhəri tutandan sonra bu kompleksin çox hissəsini dağıdıb, binanın özündən isə mal tövləsi kimi istifadə ediblər. Bu gün son 28 ildə ilk dəfə buradan azan səsi eşidilir.

Bildirilir ki, Azərbaycan Ağdama nəzarəti bərpa edəndən sonra ərazinin minalardan təmizlənməsinə başlanılıb. Təxminən 30 il bundan əvvəl minlərlə azərbaycanlı buradakı doğma yurdlarını tərk edib məcburi köçkün vəziyyətinə düşüb. Onlar indi buraya qayıtmağı arzu edirlər. Azərbaycan hökuməti Qarabağda və ona bitişik rayonlarda bərpa işlərinə başlamağı planlaşdırır.

**AZƏRTAC**

## Anadolu agentliyi Ağdam rayonunun görüntülərini əks etdirən videomaterial yayımlayıb

[22:21] 27.11.2020

Türkiyənin Anadolu agentliyi işğaldan azad olunana Ağdam rayonunun dəhşət saçan görüntülərini əks etdirən "Ağdam 27 il sonra azadlığına qovuşdu" sərlövhəli videomaterial hazırlayıb.

AZƏRTAC xəbər verir ki, videomaterial erməni vandalları tərəfindən dağıntı və təhqirə məruz qalam Ağdam cümə məscidinin görüntülərinin nümayişi ilə başlayır. Sonra məscidin tarixi geniş planda tamaşaçıya çatdırılır. Bunun ardınca şəhərin acınacaqlı mənzərəsi göstərilir. Kadrlardan belə təsəvvür yaranır ki, vaxtilə Qafqazın ən əzəmətli şəhərlərindən sayılan bu məkan sanki vəhşi bir qəbilənin, gəmiricilər sinfinə daxil olan sürünün hücumuna məruz qalıb.

Qeyd edək ki, xarici mətbuat, eləcə də Türkiyənin aparıcı KİV-ləri Ağdam rayonunu atom bombasının təsirindən dağıdılıb viran qalan Xirosimaya bənzədiblər.

**Sabir Şahtaxtı**
**AZƏRTAC-ın xüsusi müxbiri, Ankara**

**AZƏRTAC**

**Azərbaycandakı diplomatik korpusun nümayəndələri Ağdama gedirlər**

[10:22] 28.11.2020

“Prezident İlham Əliyevin tapşırığına əsasən, diplomatik korpusun nümayəndələrini, beynəlxalq təşkilatların rəhbərlərini Tərtərə və işğaldan azad olunmuş Ağdama aparırıq”.

AZƏRTAC xəbər verir ki, bunu Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev özünün “Twitter” hesabında bildirib.

“Tərtərdə Ermənistanın ağır bombardmanının nəticələrini görəcəyik. Dağıdılmış ruhlar şəhəri Ağdam soyqırımı nümunəsidir. “Qarabağ” futbol klubunun üzvləri də bizimlədir”, - deyə Prezidentin köməkçisi qeyd edib.

**AZƏRTAC**

**"France-24" Ağdam haqqında: Bəzən onu "Qafqazın Xirosiması" adlandırırlar**

[21:06] 28.11.2020

"France-24" kanalı işğaldan azad edilmiş Ağdam rayonu haqqında reportaj yayımlayıb.

AZƏRTAC xəbər verir ki, reportajda münaqişəyə son qoyan razılaşmaya əsasən, dekabrın 1-də Laçın rayonunun Azərbaycana təhvil verilməli olduğu bildirilir. Qeyd edilir ki, bununla da Azərbaycan Dağlıq Qarabağın ətrafındakı 7 rayonun hamısını geri qaytarmış olacaq.

Kanalın xüsusi müxbirləri Lüdoviq dö Fuko, Katrin Norestrent və Hüseyn Əsədin Ağdamdan hazırladıqları reportajda deyilir: "Bu şəhər o qədər dağıdılıb ki, bəzən onu "Qafqazın Xirosiması" adlandırırlar. 1980-ci illərin sonlarında 40 min əhalisi olan Ağdam bu gün "ruhlar şəhəri"dir. Bu gün Ağdamda hələ də qalan yeganə bina məsciddir. Bu şəhər 30 il əvvəl Birinci Qarabağ müharibəsi zamanı böyük strateji əhəmiyyət daşıyırdı. 1993-cü ildə bu şəhərin itirilməsi müharibənin dönüş nöqtəsi oldu. Buranın sakinləri köç etmək məcburiyyətində qaldı. Bu gün məcburi köçkünlər qayıdırlar və dağılmış binaları görürlər".

Reportajda Ağdam sakini Zülfü Qasımovun bu fikirlərinə də yer verilir: "Belə bir şəhəri bu günə salmaq olarmı? Bu evləri belə dağıtmaq olarmı? Siz bu evlərin keçmişini görsəydiniz bilərdiniz ki, ən müasir evlər, ən yaxşı tikilmiş evlər ancaq Ağdamda olub. Onlar bilirdilər ki, burada yaşamayacaqlar. Onların inamı yox idi ki, burada qalsınlar. Çünki qalmaqları mümkün deyildi. Ona görə də əllərinə düşən hər şeyi dağıdıblar".

Reportajda qeyd edilir ki, bərpa işlərindən əvvəl təhlükəsizliyi təmin etmək lazımdır. Azərbaycan tərəfindən azad edilmiş digər rayonlar kimi, Ağdam da mina ilə doludur. Hakimiyyət orqanları bu istiqamətdə işə başlayıblar.

ANAMA-nın əməliyyat qərargahının rəhbəri İdris İsmayılov deyir ki, 4500-ə yaxın piyada əleyhinə mina, 2000-ə yaxın tank əleyhinə mina, 750-yə yaxın isə müxtəlif növ bombalar aşkar edilərək zərərsizləşdirilib.

Reportajda, həmçinin Azərbaycanın işğaldan azad edilmiş ərazilərə vurulmuş ziyanı 10 milyardlarla dollar həcmində dəyərləndirdiyi və Ermənistan tərəfindən təzminat almaq üçün məhkəmələrə müraciət edəcəyi diqqətə çatdırılır.

**AZƏRTAC**

**Hikmət Hacıyev: Ermənistan 28 il ərzində Ağdamda şəhər soyqırımı həyata keçirib**

[23:45] 28.11.2020

Ağdam urbisidin (şəhərlərə qarşı soyqırımı) canlı təsviri və etirafıdır.

AZƏRTAC xəbər verir ki, bu sözləri Prezidentin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev özünün "Twitter" səhifəsində yazıb.

O bildirib: "Şəhərlərin soyqırımı. Ermənistan 28 il ərzində Ağdamda həqiqi urbisid həyata keçirib".

**AZƏRTAC**

**Ağdam rayonunun Şahbulaq kəndindən videogörüntülər**

[12:51] 29.11.2020

Müdafiə Nazirliyi işğaldan azad olunan Ağdam rayonunun Şahbulaq kəndindən videogörüntülər paylaşıb.

AZƏRTAC videogörüntüləri təqdim edir.

**AZƏRTAC**

**Misirin "Cümhuriyyə" nəşri: Azərbaycan Prezidenti heç kimin İslam abidələrini təhqir etməsinə imkan verilməyəcəyini bəyan edib**

[15:39] 29.11.2020

Misirin "Cümhuriyyə" nəşri "Azərbaycan Prezidenti heç kimin İslam abidələrini təhqir etməsinə imkan verilməyəcəyini bəyan edib" sərlövhəli məqalə dərc edib.

AZƏRTAC xəbər verir ki, jurnalist Mustafa Yasinin müəllifi olduğu məqalədə Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin işğaldan azad edilmiş Ağdam məscidinin qarşısında etdiyi çıxışdan sitatlar yer alıb. Qeyd olunub ki, Azərbaycanın dövlət başçısı məscidləri bağlayan, islamofobiya yayan dairələrin, yaxud müsəlman məbədlərinə kəsilmiş donuz başları atanların tolerantlıq nümunəsi olan Azərbaycana irad tuta bilməyəcəyini vurğulayıb.

Məqalədə Azərbaycanın dövlət başçısının dini-mənəvi dəyərlərə verdiyi əhəmiyyət diqqətə çatdırılıb. Qeyd olunub ki, Prezident İlham Əliyev bu kontekstdə deyib: "Bizim bütün tarixi abidələrimiz dövlət tərəfindən qorunur. Mənim göstərişimlə və dövlət vəsaiti hesabına hazırda iki pravoslav kilsəsi təmir edilir, üçüncü kilsə isə təmir olunub. İnzibati bina tikilir. Müharibə dövründə udi qardaşlarımızın kilsəsi Heydər Əliyev Fondu tərəfindən təmir olunaraq istifadəyə verilib. Bizim Qafqaz Albaniyası kilsələri milli sərvətimizdir. Gürcü kilsələrimiz, erməni kilsəsi. Vəhşi düşmən bax, bu məsciddə inək saxlayıb, donuz saxlayıb. Bu şəkillər var internetdə. Azad edilmiş Zəngilan məscidində, Cəbrayıl məscidində donuz saxlayıb".

O əlavə edib ki, bir neçə il əvvəl Ağdam məscidində olan ATƏT-in Minsk qrupunun həmsədrləri ermənilərin bu vəhşiliyinə biganə qalıb, beynəlxalq ictimaiyyət qarşısında heç bir məsələ qaldırmayıb. Eyni zamanda, bu cür vəhşiliklər Qərb liderlərində də heç bir narahatlıq yaratmayıb.

**Oqtay Bayramov**
**AZƏRTAC-ın xüsusi müxbiri, Qahirə**

**AZƏRTAC**

**Reza Deqati: Ötən bir neçə gündə Qarabağda qəbiristanlıqların dağıdıldığını, evlərin yandırıldığını, məscidlərin tövləyə çevrildiyini gördüm**

[14:19] 30.11.2020

Mədəni, mənəvi və dini irsin vandalizmə məruz qalması anlaşılmaz və qəbuledilməzdir. Mən müxtəlif münaqişələr zamanı bunun şahidi olmuşam. Ötən bir neçə gündə Qarabağda qəbiristanlıqların dağıdıldığını, evlərin yandırıldığını və məscidlərin tövləyə çevrildiyini gördüm.

AZƏRTAC xəbər verir ki, bu sözləri məşhur fotoqraf Reza Deqati özünün "Facebook" səhifəsindəki paylaşımında bildirib.

Reza Deqati qeyd edib ki, Ağdam rayonunun Qiyaslı kəndində XVIII əsrə aid məscid işğalın davam etdiyi üç onillik ərzində inəkləri saxlamaq üçün istifadə olunub. İşğalçılar rayonu tərk etməmişdən əvvəl bacardıqlarını özləri ilə aparıb, məscidi isə yandırıblar.

**AZƏRTAC**

**“Post Bulletin”: Ermənistan qoşunları torpağı yandıraraq gedirlər**

[12:43] 30.11.2020

ABŞ-da çıxan “Post Bulletin” qəzetində Ermənistanın dekabrın 1-dək öz qoşunlarını çıxarmalı olduğu Azərbaycan rayonlarında törətdiyi ekoloji terror və ərazilərin minalanması haqqında məqalə dərc edilib.

AZƏRTAC xəbər verir ki, “Ermənistan qoşunları torpağı yandıraraq gedirlər” sərlövhəli məqalədə noyabrın 10-da Azərbaycan, Rusiya və Ermənistan liderləri tərəfindən atəşkəs haqqında bəyanatın imzalanması ilə Azərbaycanın Dağlıq Qarabağ regionunda 44 günlük müharibəyə son qoyulduğu vurğulanır.

Həmin bəyanata əsasən, Ermənistan qoşunları dekabrın 1-dək Azərbaycanın Kəlbəcər, Ağdam və Laçın rayonlarından çıxarılmalıdır. Lakin dünyanın bir sıra informasiya agentlikləri ermənilərin “yandırılmış torpaq” siyasətini əks etdirən dəhşətli kadrlar dərc ediblər. Ermənilər öz qoşunlarını bu ərazilərdən çıxarmazdan əvvəl orada bərpa işlərinin başlanmasını və azərbaycanlı məcburi köçkünlərin öz əzəli torpaqlarına qayıtmalarını ləngitmək məqsədilə bütün evləri yandırıb, elektrik xətlərinin dirəklərini uçurub, meşələri qırıb, ev heyvanlarını kəsib, onların içalatını ətrafa tullayıblar ki, virus xəstəlikləri yayılsın. Bütün bunlar ekoloji terrorun tərkib hissələridir.

Belə məlumatlar daxil olur ki, erməni hərbçiləri bu üç rayona qayıdacaq azərbaycanlı məcburi köçkünləri məhv etmək məqsədilə həmin əraziyə piyadalar əleyhinə minlərlə mina basdırıblar.

Bu məqalə ABŞ Azərbaycanlılar Şəbəkəsi tərəfindən Amerika ictimaiyyətini erməni təcavüzü barədə məlumatlandırmaq üçün həyata keçirilən kampaniya çərçivəsində dərc edilib.

**AZƏRTAC-ın Vaşinqon bürosu**

**AZƏRTAC**

**Prezidentə yazırlar: Fəxr edirik ki, Sizin kimi müdrik, uzaqgörən, Vətənini və xalqını sevən Prezidentimiz var**

[17:39] 30.11.2020

Azərbaycan vətəndaşları, xaricdə yaşayan soydaşlarımız Qarabağ müharibəsində əldə etdiyimiz tarixi Qələbə münasibətilə Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevə məktublar ünvanlamaqda davam edirlər. Sevinc və qürur hissləri ifadə olunan məktublarda dövlətimizin başçısına minnətdarlıq bildirilir, zəfər təbrikləri çatdırılır.

AZƏRTAC Prezidentin saytına istinadla həmin məktubların bir neçəsini təqdim edir.

Almaniyanın Bonn şəhərində yaşayan Ramil Teymurov yazır: “Möhtərəm Prezident, Müzəffər Ali Baş Komandan, biz, ölkə hüdudlarından kənarda yaşayan azərbaycanlılar ölkəmizdə baş verən son siyasi və hərbi prosesləri, Sizin rəhbərliyiniz altında Silahlı Qüvvələrimizin işğal altında olan torpaqlarımızı qanı və canı bahasına necə işğaldan azad etməsini qürur hissi ilə yaxından izlədik. Bu haqq işində bütün qəlbimizlə Sizin, xalqımızın və Ordumuzun yanındayıq. Sizin müdrik və uzaqgörən siyasətinizin nəticəsində Ordumuz qısa müddətdə işğal altında olan ərazilərimizi mənfur erməni işğalçılarından azad etdi, müstəqil Azərbaycanımızın ərazi bütövlüyü bərpa olunur. Bu mübarizədə biz, hər bir Azərbaycan vətəndaşı öz üzərinə düşən vətəndaşlıq borcunu yerinə yetirməli, bununla fəxr etməlidir. Düşmənin hərbi əməliyyatlardan kənarda yerləşən Gəncə şəhərinə və onun dinc əhalisinə edilən raket zərbələrini şiddətlə qınayırıq. Heç bir insani çərçivəyə sığmayan bu hərəkətlər düşmənin zəifliyinin əlamətidir. Gəncə əhalisinə və xalqımıza səbir diləyirik. Möhtərəm Prezident, Sizin siyasi və hərbi iradəniz, xalqımızın birliyi və Ordumuzun əzmkarlığı sayəsində müstəqil Azərbaycanımızın üçrəngli bayrağı tezliklə Qarabağımızın mərkəzi Xankəndi şəhərində dalğalanacaq, regionda sülh və əmin-amanlıq bərpa olunacaq və Azərbaycan xalqı Sizin adınızı tarixə qızıl hərflərlə yazacaqdır. Siz xalqımızın fəxrisiniz. Tanrı Sizi və xalqımızı qorusun! Allah ərazi bütövlüyümüz uğrunda canından keçən şəhidlərimizə rəhmət eləsin! Qarabağ Azərbaycandır!”.

Almaniyanın Kassel şəhərindən Şarani Utsiyevin məktubunda deyilir: “Hörmətli cənab Prezident, Sizin və Ordunuzun möhtəşəm Qələbəsi münasibətilə təbriklərimi çatdırır, həmçinin minnətdarlığımı bildirirəm. Bu, ümumi qələbəmizdir. Əlil olmasaydım azərbaycanlı qardaşlarımızla birlikdə döyüşüb şəhid olmaqdan şərəf duyardım. Qələbənizlə məni xoşbəxt bir insan etdiniz. Allah Sizi xeyirlə mükafatlandırsın! Əmin olun ki, çeçen xalqı həmişə Sizin yanınızda olacaq”.

Beyləqan sakini Sahilə Fərmanova: “Müzəffər Ali Baş Komandan, Azərbaycanımızın şərəfli tarixində misli görünməmiş uğurlu addımlarınıza görə Sizə sonsuz təşəkkürümü bildirirəm. Siz uzaqgörən siyasətinizlə, fenomen şəxsiyyətlərə xas idarəetmə bacarığınızla nəinki Azərbaycan tarixinə, dünya tarixinə silinməz İlham Heydər oğlu Əliyev imzası atdınız, müqəddəs torpaqlarımızın xilaskarı oldunuz. Siz xalqın ürəyində qurulan sevgi taxtını zirvələrə ucaltdınız. Qürurumuz, fəxrimiz, inam yerimiz oldunuz. Çıxışlarınızla vüqarlı, cəsur xalq olduğumuzu hər dəfə isbat etdiniz. Tanrı Sizi, cəsur, yenilməz Ordumuzu qorusun. Tanrı Sizi, ailənizi bəd nəzərdən, xətadan, bəladan hifz etsin. Var ol, yaşa Prezidentim! Nə qədər ki, Siz varsınız, biz də varıq. Bütöv Azərbaycan var. Dünyaya isbatladığınız haqqınız mübarək! Qarabağ Azərbaycandır!”.

Bakı şəhər sakini Həbib Əhmədli: “Müzəffər Ali Baş Komandan, mən 258 nömrəli məktəbin 3b sinif şagirdiyəm. Sizi şanlı Qələbəmiz münasibətilə təbrik edirəm. Sizinlə və müzəffər Ordumuzla fəxr edirəm. Böyüyəndə mən də hərbçi olmaq, Vətənimin keşiyində dayanmaq istəyirəm. Cənab Prezident, istərdim ki, Şuşanın ən yüksək bir yerində torpaqlarımızı işğaldan azad etmiş qəhrəmanlarımıza abidə ucaldılsın. Mən Sizi çox sevirəm və çox xoşbəxtəm ki, bizim ölkəmizə Sizin kimi müdrik şəxsiyyət rəhbərlik edir. Qarabağ Azərbaycandır!”.

Ağdam sakini Eliza İsayeva: “Cənab Prezident, mən bu məktubu Sizə sevinc göz yaşları ilə yazıram. Üzümü Allaha tutub deyirəm: “Nə yaxşı ki, mənim xalqıma Sizin kimi sadə, alicənab, Vətəninə bağlı, xalqını sevən belə bir rəhbər bəxş edib”. Tanrı Sizi qorusun cənab Ali Baş Komandan! Siz və Sizin başçılıq etdiyiniz Milli Ordumuzun sayəsində xalqımızın 27 illik torpaq həsrətinə son qoyuldu. Mənə də uşaqlıq və gənclik illərimin xatirəsi olan doğma Ağdam torpağına qovuşmaq nəsib oldu. Cənab Prezident, Sizin və Birinci vitse-prezidentimiz Mehriban xanımın işğaldan azad olunmuş torpaqlarımıza gəlişiniz xalqımızı çox sevindirir. Siz Ağdamda Cümə məscidinə Məkkədən gətirdiyiniz “Qurani-Kərim”i bağışladınız və çıxışınızda qeyd etdiniz ki, Məkkədə ziyarətdə olarkən işğal altında olan torpaqların azad edilməsi üçün

dua etmisiniz. Şükürlər olsun ki, bu arzunuz həyata keçdi. Azərbaycan xalqı xoşbəxt xalqdır ki, onun Sizin kimi ölkə başçısı var. Azərbaycan xalqı Sizə inanır. İnanırıq ki, xarabalığa çevrilmiş torpaqlarımız gülüstana çevriləcək. Bütün bunları həyata keçirmək üçün Tanrıdan Sizə və Sizin ətrafınızda sıx birləşən xalqımıza güc-qüvvət diləyirəm. Yaşasın Ali Baş Komandan! Yaşasın Azərbaycan xalqı! Qarabağ Azərbaycandır!".

Bakı şəhər sakini Sevil Mansurova: "Əziz Prezidentim, mənim 9 yaşım var, 183 saylı məktəbin 4-cü sinif şagirdiyəm. Siz Qarabağ müharibəsini dayandırdınız. Sizə eşq olsun! Sizinlə fəxr edirəm. Siz dünyada ən güclü, ən ağıllı siyasətçi, dəmir iradəsi olan gözəl Prezidentsiniz! Noyabrın 10-u ikiqat sevindim, qürurlandım. Çünki həmin günü mənim də ad günümdür. Sizə çox minnətdaram, Sizi çox sevirəm. Çox istərdim ki, Sizinlə görüşüm".

Salyan sakini Zərnişan Abbasova: "Hörmətli cənab Prezidentimiz və Ali Baş Komandanımız, torpaqlarımızın işğaldan azad olunması münasibətilə Sizi, ailənizi, Ordumuzu və xalqımızı təbrik edirəm. Sizə dərin minnətdarlığımı bildirirəm. Sizin göstərdiyiniz şücaət, düzgün siyasətiniz sayəsində Ordumuz Qələbə qazandı və 30 illik həsrətə son qoyuldu. Allah Sizə möhkəm cansağlığı versin. Allahdan bütün şəhidlərimizə rəhmət, yaralılarımıza şəfa diləyirəm".

Mingəçevir şəhər sakini Mayis Abdullayev: "Möhtərəm Prezident, Müzəffər Ali Baş Komandan, Sizi, bütün ailə üzvlərinizi və Azərbaycan xalqını torpaqlarımızın azad olunması və böyük Qələbə münasibətilə təbrik edirəm. Cənab Prezident, bu Qələbəyə görə biz Sizə, şanlı Ordumuzun bütün zabit və əsgərlərinə borcluyuq. Allah Vətən uğrunda canından keçmiş bütün qəhrəman şəhidlərimizə rəhmət eləsin! Mən şəhidlərimizin müqəddəs ruhları, onların valideynləri qarşısında baş əyirəm. Cənab Prezident, 30 ildir bizlər özümüzü çox günahkar hesab edirdik, sınmışdıq, başıaşağı gəzirdik. Üzdə deyib-gülsək də, qəlbən ağlayırdıq, əzab çəkirdik. Xalqımızda bir ruh düşkünlüyü var idi. Çox sağ olun ki, Siz bu xalqın inamını özünə qaytardınız, onu bir yumruq kimi birləşdirdiniz. Cənab Prezident, Siz erməni vandallarına sübut etdiniz ki, millətimiz qorxmaz, döyüşkən, mübariz və lazım gələrsə, istənilən düşmənin başını yumruqla əzməyə qadir olan millətdir. 68 yaşıma və 2-ci qrup əlil olmağıma baxmayaraq, mən də səfərbərliyə alınmaq üçün müraciət etmişdim. Uca Allah Sizə uzun ömür, cansağlığı versin. Allah Sizi bu millətə çox görməsin. Arzu edirəm ki, Siz ömürlük Prezident seçiləsiniz".

Ucar rayonundan Zəka Binyətov: "Müzəffər Ali Baş Komandan, əvəzolunmaz Sərkərdə, Sizi Qələbə münasibətilə ürəkdən təbrik edirəm. İllərdir gözü yolda qalan torpaqlarımız Sizin və müzəffər Ordumuz sayəsində işğaldan azad olundu. Halal olsun Sizə, Ali Baş Komandanımız! Siz bütün xalqın iftixarısınız. Azərbaycan Fatehi, Allah Sizə uzun ömür, cansağlığı versin. Yaşasın ulu öndərimiz Heydər Əliyevin layiqli davamçısı Prezidentimiz İlham Əliyev! Ulu Öndərimiz Azərbaycan xalqını xilas etdi. Siz də ərazi bütövlüyümüzü bərpa etdiniz. Var olun, cənab Prezident! Eşq olsun Ali Baş Komandanımıza!".

Ağdam sakini Amil İsmayılov: "Möhtərəm Prezident, Müzəffər Ali Baş Komandan, Sizin Komandanlığınızla müzəffər Ordumuzun şücaəti sayəsində 30 il düşmən əsarətində qalan torpaqlarımız 44 gün ərzində işğaldan azad edildi. Siz bizim üçün başımızı uca, çiyinlərimizi dik tutmağa zəmin yaratdınız. Təkrarolunmaz siyasi və hərbi taktikanızla mənfur düşmənə və onun havadarlarına iki kəlmə ilə dediniz: Şah! Mat! Siz bütün dünyaya sübut etdiniz ki, Qarabağ Azərbaycandır! Uca Yaradan Sizi, Ordumuzu, dövlətimizi, xalqımızı qorusun!".

Qusardan Samirə Qasımova: "Cənab Prezident, Müzəffər Ali Baş Komandan, bir Azərbaycan vətəndaşı kimi Sizə bu məktubu yazmağı özümə borc bilirəm. Siz illərdir hər bir azərbaycanlının köksündə yara bağlamış Vətən həsrətinə, Qarabağ ayrılığına son qoydunuz. Düşmən tapdağı olan Vətən torpağı əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan və Sizin layiqincə davam etdirdiyiniz uğurlu siyasət, güclü və yenilməz Azərbaycan Ordusunun rəşadəti sayəsində azad olundu. Biz bütün Azərbaycan xalqı olaraq böyük bir tarixə şahidlik edirik. Sizin zəngin dünyagörüşünüz, uzaqgörən siyasətiniz, dərin tarixi və diplomatik biliklərinizi ölkəmizin dünya arenasında layiqli təmsil olunmasında əsas rol oynadı. Cənab Prezident, Sizin rəhbərliyinizlə yaradılan güclü Ordumuz düşmənin 30 ildə qurduğu barrikadaları, mövqeləri 44 günün içində yerlə-yeksan etdi. Bu qürurlu tarixə şahid olduğumuz üçün Sizə sonsuz minnətdarıq. Var olsun müdrik Prezidentimiz! Var olsun Azərbaycan xalqı! Var olsun Azərbaycan Ordusu!".

Cəbrayıl sakini İlqar Quliyev: "Cənab Prezident, keçmiş məcburi köçkün olaraq Vətən müharibəsində apardığınız hərbi və diplomatik uğurlarınıza görə Sizi təbrik edirəm və Qələbə münasibətilə sonsuz təşəkkür edirəm. Müzəffər Ali Baş Komandan, Sizin hər bir çıxışınız 10 milyonluq xalqın ürəyindən xəbər verir. Həmişə dəmir yumruğunuz var olsun! Əminik ki, İnşallah, tez bir zamanda Qarabağı cənnət

diyara döndərəcəksiniz. Uca Tanrıdan Sizə möhkəm cansağlığı, uzun ömür diləyirəm. Yaşasın Azərbaycan! Yaşasın Müzəffər Ali Baş Komandan! Yaşasın güclü Ordumuz!”.

Bərdədən Qurban Qurbanov: “Müzəffər Ali Baş Komandan, Sizi Qələbə münasibətilə təbrik edirəm. Mən uzun illərdir Şuşa həsrəti ilə yaşayıram. Şuşanı görməsəm də, atam onun haqqında bizə çox danışıb, oranı yalnız şəkillərdə göstərib. Şuşanın düşməndən azad edildiyini eşidəndə çox sevindim, çünki doğma şəhərimizi artıq şəkillərdə yox, real olaraq görəcəyik. Sizə çox-çox təşəkkür edirəm. Allahdan Sizə, ailənizə və yaxınlarınıza uzun ömür, cansağlığı arzulayıram”.

Lerik sakini İslam Şabanov: “Çox hörmətli cənab Prezident, Müzəffər Ali Baş Komandan, Lerik rayonunun sakinləri adından erməni işğalçıları üzərində qazandığımız möhtəşəm Qələbə münasibətilə Sizi səmimi qəlbdən təbrik edirik. Bu Qələbə Sizin, qalib Ordumuzun və Azərbaycan xalqının həmrəyliyi və qətiyyəti sayəsində əldə olundu. Eşq olsun Sizə! Eşq olsun Azərbaycan xalqına!”.

Ağsu rayonundan Leyla Salehli: “Hörmətli cənab Prezident, Sizi qazandığımız böyük Qələbə münasibətilə təbrik edirəm. Ərazi bütövlüyümüzün bərpa edilməsində yorulmaz fəaliyyətinizə görə Sizə minnətdarlığımı bildirirəm. Sizin rəhbərliyiniz altında şanlı Ordumuz əzəli torpaqlarımızı bizə qaytarmaqla üzərimizdən “köçkün” adı götürüldü. Mən fəxr edirəm ki, Sizin kimi müdrik, uzaqgörən və Vətənini, xalqını sevən ölkə başçımız var”.

**AZƏRTAC**

**“Associated Press”in məlumatında Azərbaycan Prezidentinin azad edilmiş ərazilərimizin dirçəldiləcəyi ilə bağlı fikirləri yer alıb**

[19:40] 01.12.2020

“Associated Press” agentliyi Azərbaycan Prezidenti İlham Əliyevin erməni işğalından azad edilmiş Kəlbəcər rayonunun yenidən bərpa ediləcəyi ilə bağlı fikirlərinin əks olunduğu məlumat yayıb.

AZƏRTAC xəbər verir ki, məlumatda 44 günlük gərgin döyüşlərə son qoymuş üçtərəfli razılaşmaya əsasən Ermənistanın Azərbaycana qaytardığı Kəlbəcər rayonunun yenidən dirçəldiləcəyi barədə Azərbaycan Prezidentinin fikirləri yer alıb.

Dövlətimizin başçısı xalqa müraciəti zamanı söylədiyi bu fikirlər məlumatda əksini tapıb: “Biz Kəlbəcəri bərpa edəcəyik, heç kimin şübhəsi olmasın və həyat qayıdacaq. Kəlbəcəri yenidən quracağıq, kəndləri, Kəlbəcər şəhərini. Tapşırıq vermişəm ki, şəhərin yenidən qurulması ilə əlaqədar baş plan hazırlansın, təkcə Kəlbəcər şəhəri yox, bütün şəhərlər üzrə və həyat qayıdacaqdır”.

Məlumatda Ermənistanla Azərbaycan arasında 30 ilə yaxındır davam edən müharibənin yenidən alovlandığı və sentyabrın 27-dən etibarən gərgin döyüşlərin başladığı qeyd olunur. Bildirilir ki, razılaşmaya əsasən noyabrın 15-də Kəlbəcərin qaytarılması nəzərdə tutulsa da, Ermənistan tərəfinin xahişindən sonra Azərbaycan rayonun geri qaytarılması üçün əlavə vaxtın verilməsinə razı olub. Azərbaycanın həmin vaxtı bölgədəki hava şəraitinin pisləşməsi ilə əlaqədar yaranan çətinliklə bağlı olaraq verdiyi qeyd edilir.

Məlumatda gərgin döyüşlər nəticəsində Azərbaycan Silahlı Qüvvələrinin Cəbrayıl və Füzuli şəhərlərini və bir çox əhəmiyyətli əraziləri işğaldan azad etdiyi bildirilir.

Müəllif Prezident İlham Əliyevin xalqa müraciəti zamanı ermənilərin işğal altında saxladığı əraziləri məhv etdiyini kəskin pislədiyini və həmin əraziləri bərpa edəcəyini vurğuladığını qeyd edir. Məqalədə Azərbaycan Prezidentinin bununla bağlı fikirlərindən sitat gətirilir: “Biz düşməni məsuliyyətə cəlb edəcəyik, cavab verəcəkdir, bütün hərbi cinayətlərə görə, bütün dağıntılara görə. Mən Ağdam şəhərində olarkən bir salamat bina tapmadım, Füzulidə də həmçinin, Cəbrayılda da həmçinin. Hər tərəfi dağıdıblar, elə bil ki, vəhşi qəbilə keçib oradan. Biz bu şəhərləri, bu rayonları yenidən dirçəldəcəyik. Bu rayonların bərpası ilə bağlı böyük planlarımız var”.

Məqalədə, həmçinin üçtərəfli razılaşmaya əsasən Kəlbəcər rayonunu tərk edən ermənilərin öz evlərini yandırdıqları bildirilir.

“Kəlbəcərdə baş verənlər əsl vandalizmdir. Ermənilər nəinki evlərimizi, hətta rayondakı məktəbləri, mədəniyyət mərkəzlərini və digər mülki obyektlərimizi yandırıblar, meşələri, hətta mal-qaranı məhv ediblər,” – deyə 1990-cı illərdə rayondan köçkün düşmüş Vəlyəddin İsmayılov “Associated Press”ə bildirib.

**AZƏRTAC**

**Azərbaycan və Türkiyə xarici işlər nazirlərinin telefon danışığı olub**

[23:01] 01.12.2020

Dekabrın 1-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovun Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu ilə telefon danışığı baş tutub.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, nazirlər 10 noyabr tarixli üçtərəfli bəyanatın icrası ilə bağlı fikir mübadiləsi aparıblar. Nazir Mövlud Çavuşoğlu bəyanata uyğun olaraq, Ağdam və Kəlbəcər rayonlarının ardınca Laçın rayonunun azad olunması münasibətilə təbriklərini bildirib. Bölgədə dayanıqlı sülh və təhlükəsizliyin təmin olunması üçün imzalanmış bəyanatın yerinə yetirilməsinin vacib olduğunu qeyd edib.

Nazirlər, həmçinin ikitərəfli əməkdaşlıq gündəliyinə daxil olan məsələləri müzakirə ediblər.

**AZƏRTAC**

**Tarixi zəfərimiz Azərbaycan Prezidentinin müdrik siyasətinin nəticəsidir**

[10:29] 02.12.2020

Artıq minilliklərdən soraq verən qalalar məskəni, qədim türk yurdu Laçın da öz əzəli və əbədi sahiblərinə qaytarıldı, işğaldan azad edildi, əsirlikdən azad edilmiş digər torpaqlarımız kimi yeni tarixə qədəm qoydu. Prezident İlham Əliyevin xalqa müraciətində qeyd etdiyi kimi, "Özü də bir güllə atmadan biz Laçın rayonunu qaytardıq. Düşməni buna məcbur etdik. Döyüş meydanında əldə edilmiş parlaq qələbə bu gözəl nəticəyə gətirib çıxardı ki, üç rayonumuz – Ağdam, Kəlbəcər və Laçın bizə qaytarıldı. Biz bu rayonları bir güllə atmadan, bir şəhid vermədən qaytarmışıq".

Bunu AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı Naqif Həmzəyev bildirib.

O qeyd edib ki, noyabrın 10-da imzalanan birgə Bəyanata əsasən, müqəddəs Qarabağ torpaqları uğrunda apardığımız müharibə Azərbaycanın parlaq qələbəsi ilə başa çatdı. Müzəffər Azərbaycan Ordusunun misilsiz şücaəti ilə darmadağın olan düşmən Kəlbəcər, Ağdam və Laçın rayonlarını tərk etməyə məcbur oldu. Bir güllə belə atılmadan geriyə qaytarılan tarixi şəhərlərimiz həm də siyasi arenadakı mütləq qalibiyyətimizin göstəricisidir. Eyni zamanda, tarixi yurd yerlərimizin Kəlbəcərin, Ağdamın, Laçının işğaldan azad edilməsi Azərbaycanın həm siyasi, həm də diplomatik müstəvidə qələbəsinin təcəssümü oldu.

"Artıq xalqımız Ağdam və Kəlbəcərdən sonra Laçının da işğaldan azad edilməsinin sevincini yaşayır. Dövlətimizin başçısı, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Laçının işğaldan azad edilməsi münasibətilə xalqa müraciətində bir daha bildirdi ki, bizim qələbəmiz tarixi Qələbədir. Biz bir neçə rayonu döyüş meydanında düşməndən azad etdik, üç rayonu düşməni məcbur edərək qaytardıq və beləliklə, Dağlıq Qarabağ münaqişəsini həll etdik. İndi artıq Dağlıq Qarabağ münaqişəsi yoxdur. Əgər kimsə hesab edir ki, bu münaqişə hələ də davam edir, səhv edir. Bu gün Dağlıq Qarabağda yaşayan insanlar Azərbaycan vətəndaşlarıdır.

Faşist ideologiyasından qaynaqlanan Ermənistan hakimiyyəti hər fürsətdən dinc azərbaycanlı sakinlərə qarşı istifadə edib, onlara işgəncə verib, qətlə yetirib. İkinci Qarabağ müharibəsi zamanı da Ermənistan silahlı qüvvələri döyüş bölgəsindən xeyli uzaqda yerləşən şəhərləri raket atəşinə tutdu. Gecə saatlarında Gəncənin bombalanmasını, Bərdənin raket atəşinə tutulmasını, Tərtərdə ölüsünü dəfn edən dinc sakinlərin bombardman olunmasını, Goranboyun, Ağcabədinin, Siyəzənin, Xızının raket atəşinə tutulmasını dünya ictimaiyyəti də gördü və işğalçı Ermənistanın terror aktlarını qınadı", - deyə deputat vurğulayıb.

Bildirib ki, dünyada sülhə, tolerantlığa, mədəniyyət və sivilizasiyalara xüsusi hörmət, ehtiram və qayğısı ilə seçilən Azərbaycan əzəli-əbədi torpaqlarını 30 illik işğaldan azad edərkən də nümunə oldu. Müharibə şəraitində belə ölkəmiz sahib olduğu humanizm dəyərlərinə sadiq qalaraq mülki insanların, tarixi-dini abidələrin, sosial-ictimai obyektlərin təhlükəsizliyinə xüsusi həssaslıq və diqqətlə yanaşdı. Düşmən isə işğal altında olan torpaqlarımızda tarixi abidələrimizi, maddi-mənəvi irsimizi qəsdən, riyakarcasına dağıtdı, təhqir etdi, beynəlxalq hüquq və ədalət prinsiplərinə sığmayan acı həqiqətlərə imza atdı. Bu gün illərlə düşmən tapdağı altında olan torpaqlarımız azad edilib. "Qarabağ Azərbaycandır və nida" deyən Prezident İlham Əliyev bir daha xalqa verdiyi bütün vədlərə sadiq olduğunu nümayiş etdirdi. Özünün tarixi, coğrafi mövqeyinə görə Azərbaycanın ən qədim və strateji cəhətdən vacib olan yaşayış məskənlərindən sayılan Laçının işğaldan azad edilməsi münasibətilə xalqımızı təbrik edərkən dövlətimizin başçısı hər bir Azərbaycan vətəndaşının illərlə arzusunda olduğu sözləri dilə gətirdi: Cəbrayıl bizimdir, Füzuli bizimdir, Zəngilan bizimdir, Qubadlı bizimdir, Ağdam bizimdir, Kəlbəcər bizimdir, Laçın bizimdir, Şuşa bizimdir, Qarabağ bizimdir! Qarabağ Azərbaycandır! Eşq olsun Azərbaycan xalqına! Yaşasın Azərbaycan!

Ölkə Prezidentimizin müdrik, məqsədyönlü siyasətinin təsdiqi olan tarixi zəfərimiz Azərbaycan xalqının iftixar və qürur mənbəyidir.

**AZƏRTAC**

**Peru mətbuatında Ermənistanın Azərbaycana qarşı təcavüzünün tarixi barədə danışılıb**

[09:38] 02.12.2020

Perunun nüfuzlu "Diario UNO" qəzetində bu ölkədəki səfirimiz Məmməd Talıbovun Ermənistanın Azərbaycana qarşı təcavüzünün tarixi və atəşkəs bəyanatı haqda "Azərbaycan hər zaman sülh tərəfdarı olub" başlıqlı müsahibəsi dərc edilib.

Müsahibədə səfir Ermənistanın 1991-1994-cü illər ərzində Azərbaycanın beynəlxalq qaydada tanınmış Dağlıq Qarabağ və 7 ətraf rayonunu işğal etdiyini, bu ərazilərdə etnik təmizləmə apararaq 1 milyon azərbaycanlını oradan qovduğunu, BMT Təhlükəsizlik Şurası tərəfindən qəbul edilmiş və Ermənistandan işğal etdiyi əraziləri azad etməsini tələb edən qətnamələrə məhəl qoymadığını, əvəzində işğalın nəticələrini gücləndirmək siyasəti apardığını və bu səbəbdən 28 il ərzində Minsk qrupu çərçivəsində aparılan danışıqlarda da heç bir nəticə əldə olunmadığını bildirib.

Qeyd edib ki, Azərbaycan daim münaqişənin danışıqlar yolu ilə həllinə tərəfdar olsa da, Ermənistanda 2018-ci ildə milliyyətçi qüvvələrin hakimiyyətə gəlməsindən sonra bu ölkənin Azərbaycana qarşı təxribat əməlləri artmış, sentyabrın 27-dən etibarən isə Ermənistan silahlı qüvvələri dinc yaşayış məntəqələrini bombalamağa başlamış, nəticədə Azərbaycan Ordusu özünümüdafiə hüququ çərçivəsində mülkü əhalinin təhlükəsizliyini təmin etmək, BMT Təhlükəsizlik Şurasının qətnamələrinin icrasına nail olmaq və ərazi bütövlüyümüzü bərpa etmək üçün əks-hücum əməliyyatları aparmağa başlamışdır. Ermənistanın 44 günlük müharibə ərzində üç dəfə əldə olunmuş humanitar atəşkəsi pozduğunu deyən səfir, bu zaman münaqişə zonasından kənarda yerləşən Azərbaycanın iri şəhərlərinə raket zərbələri endirildiyini, mülki əhali arasında qorxu yaymaq məqsədi daşıyan bu hücumların qadınlar və uşaqlar da daxil olmaqla çoxsaylı itkilərə səbəb olduğunu və bu kimi müharibə cinayətlərinin Ermənistanın dövlət səviyyəsində terror həyata keçirdiyinin sübutu olduğunu məlumat verib.

Rusiyanın vasitəçiliyi və Türkiyənin yaxından iştirakı ilə əldə olunan atəşkəs razılaşması barədə danışan səfir, Azərbaycan və Rusiya Prezidentləri və Ermənistanın baş naziri tərəfindən imzalanan bu sənədin tələblərinə əsasən, Ermənistan ordusunun Azərbaycanın işğal altında qalan ərazilərindən çıxarılmaqda olduğunu, bölgədə 5 il müddətinə Rusiya sülhməramlı qüvvələrinin yerləşdirildiyini və razılaşmanın müddəalarının icrasına nəzarət məqsədilə Rusiya və Türkiyənin daxil olduğu birgə monitorinq mərkəzinin yaradılacağını söyləyib.

İşğaldan azad edilmiş Azərbaycan ərazilərinin 30 il ərzində Ermənistan tərəfindən tamamilə darmadağın edildiyini, ermənilərin tərk etdiyi Azərbaycan şəhər və qəsəbələrində də infrastruktura və tarixi-mədəni irsə qarşı kütləvi talan hallarının müşahidə edildiyini və işğalçı ölkənin törətdiyi bu talanlarla bağlı Azərbaycanın beynəlxalq məhkəmə instansiyalarına müraciət edəcəyini bildirən səfir, bu ərazilərdə Azərbaycan tərəfindən yenidənqurma işlərinin başa çatmasından sonra məcburi köçkünlərimizin öz yurdlarına qayıdacağını qeyd edib.

Azərbaycanın çoxmədəniyyətli ölkə olduğunu, 40-a yaxın müxtəlif etnik mənsubiyyətdən olan insanlara, o cümlədən on minlərlə erməni ailəsinə ev sahibliyi etdiyini, bu baxımdan Qarabağ ərazisində məskunlaşmış ermənilərlə də heç bir problemimiz olmadığını deyən səfir, ermənilərin Xocalı soyqırımı kimi insanlıq əleyhinə cinayətlər törətmiş olmasına və bu səbəbdən barışığın çətin olmasına rəğmən, azərbaycanlı məcburi köçkünlərin öz doğma yurdlarına qayıtmasından sonra iki xalqın birlikdə barışıq içində yaşaması gərəkdiyini, Ermənistanın da qisasçı və təcavüzkar xislətini kənara qoymalı və öz xalqını davamlı sülhə hazırlamalı olduğunu qeyd edib.

**AZƏRTAC-ın Vaşinqton bürosu**

**AZƏRTAC**

**Anadolu agentliyi Azərbaycanın qazandığı zəfərin bölgədə yaratdığı yeni reallıqlardan yazır**

[18:55] 02.12.2020

Türkiyənin Anadolu agentliyi "Azərbaycanın zəfərinin bölgədə yaratdığı yeni reallıqlar" sərlövhəli analitik məqalə dərc edib.

AZƏRTAC xəbər verir ki, məqalədə Azərbaycan Ordusunun cəbhədə qazandığı qələbələrdən və Ermənistan ordusunun acınacaqlı məğlubiyyətdən, noyabrın 10-da imzalanan birgə Bəyanatdan bəhs edilir. Bildirilir ki, təcavüzkar Ermənistan 44 günlük müharibədən sonra götürdüyü öhdəlik əsasında qüvvələrini Ağdam, Kəlbəcər və Laçın rayonlarından çıxarmaq məcburiyyətində qalıb.

Məqalədə hazırda bölgədəki hərbi-siyasi vəziyyət barədə məlumat verilir və Prezident İlham Əliyevin Azərbaycan xalqına müraciətində səsləndirdiyi ifadələrdən sitatlar gətirilir. Oxuculara məlumat verilir ki, Bəyanata əsasən Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonlarını birləşdirən yeni nəqliyyat kommunikasiyalarının inşası təmin ediləcək. Bu da regionda səmərəli əməkdaşlıq üçün geniş imkanlar açır.

**Sabir Şahtaxtı**
**AZƏRTAC-ın xüsusi müxbiri, Ankara**

**AZƏRTAC**

**Ceyhun Bayramov: Regional sülh və təhlükəsizliyə ciddi təhlükə yaradan münaqişələrin əsas səbəbləri beynəlxalq hüquqa və ATƏT-in prinsiplərinə uyğunsuzluqdur**

[15:33] 03.12.2020

Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov ATƏT-in Nazirlər Şurasının 27-ci iclasında iştirak edib.

Xarici İşlər Nazirliyinin mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, iclasda çıxış edən xarici işlər naziri Ceyhun Bayramov deyib: “Bu il biz iştirakçı dövlətlər üçün ümumi təhlükəsizlik təməlini təşkil edən Helsinki Yekun Aktının 45-ci ildönümünü və Yeni Avropa üçün Paris Xartiyasının 30-cu ildönümünü qeyd edirik. Helsinki Yekun Aktında təsbit edilmiş və Paris Xartiyasında bir daha təsdiqlənmiş prinsiplər, xüsusi ilə suveren bərabərlik, ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığı ilə əlaqəli olan prinsiplər hər zamankı kimi qüvvədə qalır və münasibətlərimizin əsasını təşkil edir”.

Regional sülh və təhlükəsizliyə ciddi təhlükə yaratmaqda davam edən zorakı münaqişələrin əsas səbəblərinin arxasında beynəlxalq hüquqa və ATƏT prinsiplərinə uyğunsuzluğun dayandığını söyləyən C.Bayramov bildirib: “Bu təntənəli tədbirdə iştirakçı dövlətlər hər hansı istisna, ikili standartlar, coğrafi və ya digər üstünlükləri olmadan Helsinki Yekun Aktının prinsiplərinə qeyd-şərtsiz hörməti və onların yerinə yetirilməsini təmin etmək üçün öhdəliklərini bir daha təsdiqləməlidirlər”.

Nazir qeyd edib ki, noyabrın 10-da Azərbaycan, Ermənistan və Rusiya arasında imzalanmış üçtərəfli Bəyanat Ermənistanla Azərbaycan arasında təxminən 30 ildir davam edən silahlı münaqişəyə son qoymaq üçün zəmin yaratdı. Bu Sazişin həyata keçirilməsi bütün hərbi əməliyyatların dayandırılmasını, Ağdam, Kəlbəcər və Laçın rayonlarının Azərbaycana qaytarılmasını təmin etdi.

Bu Bəyanat məcburi köçkünlərin və qaçqınların BMT QAK-ın nəzarəti altında evlərinə qayıtması ilə bağlı vacib müddəanı özündə ehtiva edir.

Eyni zamanda, razılaşma bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələrində olan maneələrin aradan qaldırılmasını nəzərdə tutur, Azərbaycanın əsas ərazisi ilə onun Naxçıvan Muxtar Respublikası arasında əlaqə daxil olmaqla, Ermənistan və Azərbaycan arasında hər iki istiqamətdə insanların, nəqliyyat vasitələrinin və yüklərin təhlükəsiz hərəkətini təmin edir.

Üçtərəfli Bəyanata əsasən, Ermənistan və Azərbaycan arasında razılaşmaların həyata keçirilməsinə nəzarət etmək üçün Rusiya Federasiyası və Türkiyənin Birgə Monitorinq Mərkəzi yaradılacaq.

Bu razılaşmanı reallığa çevirmək üçün verdikləri töhfələrə görə Rusiya Federasiyasına və Türkiyə Respublikasına təşəkkürünü bildirən C.Bayramov qeyd edib: “Bu qonşu dövlətlər Cənubi Qafqaz regionunda çoxdan gözlənilən sülh və sabitliyi təmin edəcək razılaşmanın zamini kimi mühüm rol oynayırlar.

Sülh, bərpa və yenidənqurma fəaliyyətinin davam etdirilməsi, qayıdan məcburi köçkünlər və qaçqınlar daxil olmaqla, ehtiyacı olanlara humanitar yardımın göstərilməsi mütləq şəkildə prioritet vəzifə olmalıdır. Bu məqsədlə, Azərbaycan 1991-ci il Birləşmiş Millətlər Təşkilatının humanitar yardım barədə rəhbər prinsiplərinə tam uyğun olaraq bölgədəki sülh və sabitliyə töhfə vermək niyyətində olan BQXK, BMT QAK və BMT-nin digər qurumları, habelə ayrı-ayrı dövlətlər də daxil olmaqla, aidiyyəti beynəlxalq tərəfdaşlarla işləməyə hazırdır”.

**AZƏRTAC**

**Moldova mətbuatında erməni vandalizmindən bəhs edən məqalə yayılıb**

[21:16] 03.12.2020

Azərbaycanın Moldovadakı səfiri Qüdsi Osmanovun “Allahın evinə necə əl qaldırmaq olar?” sərlövhəli məqaləsi Moldovanın nüfuzlu “Tribuna”, “Noi”, “İPN” və “Deschide” xəbər agentlikləri tərəfindən yayılıb.

Məqalədə ermənilərin müharibə başa çatdıqdan sonra xristian kilsələri və abidələri mövzusunda isterikaya başladıqları, bütün gücləri ilə müxtəlif ölkələri və beynəlxalq təşkilatları azad edilmiş Azərbaycan torpaqlarında xristian abidələrinin məhv edilməsi məsələsinə inandırmağa çalışdıqları bildirilir.

Səfir məqaləsində ermənilərin bəhs etdikləri bütün tarixi və dini məbədlərin burada qədim zamanlardan bəri yaşamış albanlara məxsus olduğunu, ermənilərin bu ərazilərə 1828-ci ildən sonra Rusiya imperiyası tərəfindən köçürüldüyünü və Qafqazda tarixi kökləri olmayan ermənilərin burada yaşadıqlarına dair süni şəkildə izlər yaratmaq məqsədilə alban abidələrinin özününküləşdirilməsi və milli mənşəyinin dəyişdirilməsi yolunu seçdiklərini qeyd edir. O, tarixin saxtalaşdırılmasının əsl cinayət olduğunu vurğulayır.

Eyni zamanda, məqalədə Q.Osmanov alban məbədlərinin bir qisminin ermənilərin özləri tərəfindən dağıdıldığını qeyd edir, Prezident İlham Əliyevin Ağdam rayonuna səfəri zamanı Qərb siyasətçilərini bu barədə narahat olmamağa dair çağırışını xatırladaraq Azərbaycanda müxtəlif konfessiyaların, millətlərin nümayəndələrinin həmişə sülh və əmin-amanlıq şəraitində yaşadıqlarını bildirir. O, ölkəmizin ən tolerant ölkə kimi tanındığını, habelə Azərbaycana müasir dünyanın ən mədəni və savadlı liderlərindən birinin rəhbərlik etdiyini diqqətə çatdırır.

Məqaləsinin sonunda Q.Osmanov 30 il ərzində Azərbaycan rəhbərliyinin dəfələrlə dünya ictimaiyyətinə ermənilərin müsəlman məbədlərinə təcavüzünün dayandırılması çağırışı ilə müraciət etdiyini, bölgədəki 67 məsciddən 64-nün tamamilə dağıdılması və bunlardan üçündə donuz da daxil olmaqla mal-qaranın saxlanılmasına göz yumulduğunu, ermənilərin vandalizminin XXI əsrdə normal davranış olmadığını və beynəlxalq təşkilatların bu həqiqətə diqqət yetirmələrinin vacib olduğunu qeyd edir.

**Emil Hüseynli**
**AZƏRTAC-ın xüsusi müxbiri, Kişineu**

**AZƏRTAC**

**İqor Korotçenko Azərbaycanın öz əsgər və zabitlərinin həyatını qorumasına imkan verən amillər barədə danışıb**

[21:17] 04.12.2020

Qarabağda bir nizami ordunun digər nizami orduya qarşı müharibəsi gedirdi. Suriyalı muzdluların hazırlıq səviyyəsi onların yalnız partizan əməliyyatlarında az-çox səmərəli iştirak etməsinə imkan verir. Buna görə də onlar Azərbaycana gərək deyildilər.

AZƏRTAC xəbər verir ki, “Nasionalnaya oborona” jurnalının baş redaktoru İqor Korotçenko bu sözləri “Vzqlyad” qəzetinə müsahibəsində deyib.

Ekspert vurğulayıb ki, guya birinci olaraq hücuma keçən suriyalı döyüşçülərin özlərini güllə qabağına atması - erməni təbliğatının uydurmasıdır.

İ.Korotçenko İkinci Qarabağ müharibəsindəki itkilər barədə Bakının məlumatına şübhə etmir. “Nasionalnaya oborona” jurnalının baş redaktoru deyib: “Müharibə başa çatıb və bu rəqəmləri gizlətmək Azərbaycana artıq gərək deyil. Əgər müharibənin xüsusiyyətini, istifadə olunan silah-sursatı nəzərə alsaq, itkilər çox aşağı olub. Təkcə mən yox, hərbi sahə üzrə olan başqa mütəxəssislər də təəccüblənibləm ki, Azərbaycan tərəfi bu qədər az itkilər hesabına qələbəyə nail olub”.

Onun fikrincə, Azərbaycanın öz əsgər və zabitlərinin həyatını qoruması bir neçə amil sayəsində mümkün olub. Birincisi, Bakı ən müasir silahlanma növlərindən, xüsusən zərbə pilotsuz uçuş aparatlarından fəal istifadə edib. Onların sayəsində Azərbaycan Ordusu əvvəlcə ermənilərin müdafiə xəttinə şiddətli və yüksəkdəqiqlikli artilleriya və hava zərbələri endirib, yalnız bundan sonra piyada bölmələri döyüşə qoşulub. İkinci, strateji amil isə əsas zərbənin istiqamətinin uğurla seçilməsidir.

İ.Korotçenko deyib: “Ermənilər gözləyirdilər ki, əsas zərbə mərkəzdə, Ağdam şəhəri istiqamətində, yaxud da birbaşa bütün təmas xətti boyunca endiriləcək. Azərbaycan əsas zərbəni cənubda endirdi, orada müdafiə xəttini yardı və dayanmadan irəliyə - şimala doğru, Şuşa şəhərinə çatanadək hücuma keçdi. Şuşanın süqutundan sonra isə, məlum olduğu kimi, tərəflər Rusiyanın vasitəçiliyi ilə döyüş əməliyyatlarının dayandırılması barədə razılığa gəldilər”.

**Fəridə Abdullayeva**
**AZƏRTAC-ın xüsusi müxbiri, Moskva**

**“The New York Times” qəzetində Ağdamın Çıraqlı kəndi barədə məqalə dərc edilib**

[12:39] 05.12.2020

“The New York Times” qəzetində nəşrin İstanbul bürosunun rəhbəri Karlotta Qollun Azərbaycanın Ağdam rayonunun Çıraqlı kəndində müharibədən sonrakı vəziyyətə həsr olunan “Mən nə hiss edirəm? Ən əsası odur ki, biz salamatıq” adlı məqaləsi dərc edilib.

AZƏRTAC xəbər verir ki, məqalədə qoşunların əvvəlki təmas xəttində yerləşən kəndin 20 ildən artıq müddətdən sonra yenidən bütün dünya üçün açıq olmasından bəhs edilir.

Qoll yazır ki, 1994-cü ildə Azərbaycan ilə Ermənistan arasında atəşkəs nəticəsində müharibə dayandırılandan sonra dünya sanki Çıraqlı kəndinin sakinlərinin taleyini unutmuşdu. Lakin münaqişə bu kəndin sakinləri üçün başa çatmadı. Atəşkəs nəticəsində iki ordu cəbhə xətti boyunca üzbəüz qaldı, onların arasındakı məsafə cəmi bir neçə yüz metr idi. İndi, altı həftəlik müharibədən sonra bərqərar olan sülh şəraitində kənd camaatı evlərinə qayıdır, mərmi qəlpələrini təmizləyir, gözəl gələcəyə böyük ümidlə evlərini bərpa edirlər.

Ağdam rayonunun Azərbaycana qaytarılması dövründə Çıraqlı kəndində olan müəllif yazır ki, Çıraqlı sakinlərinin öz kəndlərini bərpa etdikləri bir zamanda uzaqda qara tüstü görünür, orada ermənilər öz əşyalarını toplayaraq tərk etdikləri evləri yandırırlar. Ermənistan atəşkəs barədə bəyanata uyğun olaraq qoşunların çıxarılması öhdəliyini üzərinə götürüb. Qoll kənd sakinləri ilə söhbət edib, onlar deyiblər ki, əvvəllər evlərin damına yaxud əkin sahələrinə çıxmaq mümkün deyildi, çünki erməni qoşunları ilə aralarındakı məsafə çox az idi. Erməni qoşunları mütəmadi olaraq kəndi atəşə tuturdular.

Müəllif atışma və erməni hərbçiləri tərəfindən təcavüz aktları nəticəsində doğmalarını itirən kənd sakinlərinin faciəli talelərindən söhbət açır.

Qoll yazır ki, 1994-cü ildə atəşkəslə başa çatan Birinci Qarabağ müharibəsində erməni qüvvələri hüquqi cəhətdən Azərbaycanın ayrılmaz hissəsi olan Dağlıq Qarabağı və ona bitişik yeddi rayonu işğal etmişdilər. İkinci Qarabağ müharibəsində Azərbaycan ordusu Dağlıq Qarabağa əsas zərbəni cənub istiqamətində endirdi.

Kənd sakinlərinin əksəriyyəti fermerlərdir və onlar erməni qüvvələrinin çıxarılmasına çox sevinirlər. Çünki indiyədək ermənilərin atəşi altında olan öz əkin sahələrinə bundan sonra ayaq basa biləcəklər.

**AZƏRTAC-ın Vaşinqton bürosu**

**AZƏRTAC**

**Belarus portalında Azərbaycanın Vətən müharibəsində Zəfər qazanması barədə məqalə dərc edilib**

[13:26] 05.12.2020

Belarus portalında Vətən müharibəsində Azərbaycanın tarixi Zəfər qazanması ilə bağlı məqalə dərc edilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycanın Belarusdakı səfiri Lətif Qəndilovun müəllifi olduğu və "Belaruskaya prauda" portalında dərc edilən "Xalq və hakimiyyət birliyi olduqda ölkə yenilməzdir" sərlövhəli məqalədə Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın igid əsgər və zabitlərinin addım-addım irəliləyərək Ermənistanın illər ərzində qurduğu istehkam sistemlərini aşdığı, torpaqlarımızın cəsur hərbçilərimizin canı və qanı bahasına azad edildiyi qeyd olunub.

Müəllif vurğulayır ki, Azərbaycanın hərbi sahədə qazandığı qələbə, xüsusən də Şuşa şəhərinin düşmən işğalından azad edilməsi xalqımızın tarixi yaddaşında əbədi qalacaq. Şuşanın azad edilməsi müharibənin gedişində dönüş nöqtəsi oldu və Ermənistan məğlubiyyətini etiraf etməyə, silahlı qüvvələrini Azərbaycanın işğal olunmuş Kəlbəcər, Ağdam və Laçın bölgələrindən çıxarmağa məcbur oldu. Beləliklə, Azərbaycan həm hərbi, həm də siyasi sahədə qələbə qazandı. Biz tarixi ədaləti bərpa etdik.

"Azərbaycan Prezidenti İlham Əliyevin xalqa müraciətində dediyi kimi, ölkəmiz üçün yeni bir dövr başlayır - inkişaf dövrü, azad edilmiş ərazilərimizin bərpası dövrü başlayır. Azərbaycanın qətiyyəti və iradəsi, iqtisadi gücü, müasir ordu quruculuğu, xalq və hakimiyyət birliyi ölkəmizin qələbəsini təmin edən mühüm amillər idi. Zəngin dövlətçilik tarixindən və əcdadlarımızın hərbi tarixindən ilham alan qürurlu Azərbaycan xalqı, daha bir şanlı qəhrəmanlıq salnaməsi yazaraq düşmən üzərində tarixi qələbə qazandı", - deyə Lətif Qəndilov məqaləsində yazıb.

**Emil Hüseynli**
**AZƏRTAC-ın xüsusi müxbiri, Minsk**

**AZƏRTAC**

**“Arabnews” qəzetində işğaldan azad edilmiş torpaqlarımızın bərpasından bəhs edən məqalə dərc olunub**

[07:38] 06.12.2020

Səudiyyə Ərəbistanının ingiliscə nəşr olunan “Arabnews” qəzetində Azərbaycanın bu ölkədəki səfiri Şahin Abdullayevin “Azərbaycan işğaldan azad olunmuş ərazilərini bərpa edir” sərlövhəli geniş məqaləsi dərc edilib.

AZƏRTAC xəbər verir ki, məqalədə Ermənistanın 44 gün davam edən müharibədə Azərbaycanın yaşayış məntəqələrini raket atəşinə tutduğu, mülki obyektləri, evləri dağıtdığı qeyd olunur. Diqqətə çatdırılır ki, münaqişənin həlli üzrə danışıqların davam etdiyi 30 ilə yaxın müddətdə ermənilər hərbi təxribatlarını davam etdirib. Nəhayət, sentyabrın 27-də törədilən növbəti təxribatdan sonra əks-hücum əməliyyatına başlayan Azərbaycan Ordusu işğal altında olan torpaqları azad edib, beləliklə, BMT Təhlükəsizlik Şurasının qətnamələrini yerinə yetirib. Noyabrın 10-da imzalanmış bəyanatın şərtlərinə uyğun olaraq, Ermənistan silahlı qüvvələri daha üç rayonu qeyd-şərtsiz tərk edib.

Müəllif qeyd edir ki, işğaldan azad edilmiş Azərbaycan ərazilərində ermənilər binaları, mülki obyektləri və məbədləri dağıdıb, təbii sərvətləri talan ediblər. Azıx və Tağlar mağaraları, “Qara köpək” və “Üzərlik” təpə-kurqanları kimi qədim tarixi irs nümunələri erməni vandalları tərəfindən hərbi məqsədlər üçün istifadə olunub. Azərbaycanın işğaldan azad edilmiş şəhərləri Xirosimanı xatırladır. Son məlumatlara görə, Qarabağda 67 məsciddən 63-ü vəhşicəsinə dağıdılıb, Ağdam isə kabuslar şəhərinə çevrilib. Bundan başqa, barbar ermənilər Kəlbəcər rayonunda tərk etdikləri evləri və meşələri yandırıb, mülki infrastruktura böyük zərər veriblər.

Daha sonra məqalədə Qarabağın işğalı, münaqişənin tarixi barədə ətraflı məlumat verilib. Vurğulanıb ki, Azərbaycan Ordusunun möhtəşəm qələbəsindən sonra Müzəffər Ali Baş Komandan İlham Əliyev ermənilərin dağıtdığı ərazilərin bərpa olunacağını bəyan edib. O bildirib ki, artıq Füzuli-Şuşa avtomobil və Bərdə-Ağdam dəmir yollarının tikintisinə başlanılıb. Azərbaycan Prezidenti qısa zaman ərzində infrastrukturun, mülki obyektlərin və yaşayış binalarının bərpa ediləcəyini, məcburi köçkünlərin doğma yurdlarına qayıdacağını vurğulayıb. Dövlətimizin başçısı bəyan edib ki, Qarabağ əsl cənnət məkanına çevriləcək.

**Oqtay Bayramov**
**AZƏRTAC-ın xüsusi müxbiri, Qahirə**

**AZƏRTAC**

**Azərbaycan ilə müvafiq razılıq əsasında Rusiya tərəfindən Xankəndiyə göndərilən humanitar yük Gəncə beynəlxalq hava limanına çatdırılıb**

[17:11] 06.12.2020

Azərbaycan Respublikası ilə müvafiq razılıq əsasında Rusiya Federasiyası tərəfindən Xankəndiyə çatdırılması məqsədilə göndərilən humanitar yük dekabrın 6-da Gəncə beynəlxalq hava limanına çatdırılıb.

AZƏRTAC xəbər verir ki, humanitar yardım müəyyən edilmiş Gəncə-Bərdə-Ağdam-Xankəndi marşrutu üzrə avtomobil yolu ilə yola düşüb.

**AZƏRTAC**

**ANAMA son üç gün ərzində 102 mina zərərsizləşdirib**

[06:46] 07.12.2020

Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyə (ANAMA) 03-06 dekabr tarixlərində Ağdam, Cəbrayıl, Füzuli, Qubadlı və Tərtər rayonları ərazisində mərmilərin aşkar olunması barədə Daxili İşlər Nazirliyinin "102" Xidməti-Zəng mərkəzi sistemindən 33 və Fövqəladə Hallar Nazirliyinin Böhran Vəziyyətlərində İdarəetmə Mərkəzindən 2 müraciət daxil olub.

ANAMA-dan AZƏRTAC-a verilən məlumata görə, daxil olmuş 35 çağırış əsasında agentliyin xüsusi mobil çevik əməliyyat qrupları tərəfindən Daxili İşlər Nazirliyinin əməkdaşları ilə birlikdə 30 operativ və təxirəsalınmaz əməliyyat çıxışı həyata keçirilib.

Aparılan əməliyyat-axtarış tədbirləri zamanı 178 ədəd partlamamış hərbi sursat, 13 ədəd tank əleyhinə mina, 25 ədəd piyada əleyhinə mina, 6700 ədəd müxtəlif çaplı patronlar, 12 ədəd partlamış mərmi qalıqları aşkar olunub.

Agentliyin partlayış qrupu tərəfindən 102 ədəd mina və partlamamış hərbi sursat zərərsizləşdirilib, Mina Təhlükəsinə dair Maarifləndirmə üzrə mütəxəssislər tərəfindən 80141 nəfər mülkü şəxs arasında mina təhlükəsizliyinə dair maarifləndirmə təbliğatı aparılıb.

**AZƏRTAC**

**İtaliya parlamentinin nümayəndələri Gəncəyə və Ağdama səfərləri barədə təəssüratlarını bölüşüblər**

[13:25] 07.12.2020

Gəncədə erməni terroru nəticəsində böyük dağıntıların yarandığı əraziyə və Ermənistanın işğalından azad olunmuş Ağdam şəhərinə səfər edən İtaliya parlamentinin nümayəndə heyətinin üzvləri öz təəssüratlarını sosial şəbəkələrdəki hesablarında paylaşıblar.

AZƏRTAC xəbər verir ki, nümayəndə heyətinin rəhbəri, Deputatlar Palatasının sədr müavini Ettore Rosato Azərbaycanın ikinci böyük şəhəri Gəncədə mülki əhalinin bombalanmasının dəhşətli nəticələri ilə tanış olduqlarını və bu dramatik mənzərəni heç zaman unutmayacağını yazıb. Qarabağda şəhər və kəndlərin talan olunduğunu və tamamilə yerlə-yeksan edildiyini bildirən E.Rosato Ağdam məscidinin minarəsindən videogörüntülər də paylaşıb. Qarabağa səfər edən ilk Avropa parlament nümayəndə heyətinin rəhbəri videoda Ağdam şəhərindəki dağıntıları nümayiş etdirib və tezliklə burada həyatın bərpa olunacağına ümid ifadə edib.

İtaliya Senatının Xarici əlaqələr daimi komissiyasının üzvü, hakim “5 Ulduz Hərəkatı” partiyasından olan senator Canluka Ferrara “Qafqazın Xirosiması” adlanan Ağdama gedən yolun minalanmış ərazilərdən keçdiyini yazıb. 1993-cü ildə erməni qoşunları tərəfindən işğal edilən və dağıdılaraq “ruhlar şəhərinə“ çevrilən Ağdamda yeganə salamat binanın şəhər məscidi olduğunu qeyd edən C.Ferrara işğal illərində bu dini məbədin donuz tövləsi kimi istifadə edildiyini diqqətə çatdırıb. Bu dəhşəti, misli görünməmiş vəhşiliyi yaxından görə bilən ilk beynəlxalq missiyanın üzvü kimi o, səhraya dönmüş bu ərazilərə insanların tezliklə geri qayıdacaqlarına inam ifadə edib.

İtaliya parlamentində “İtaliya qardaşları” partiyasından olan senator, Senatın xarici əlaqələr daimi komissiyasının üzvü Adolfo Urso öz qeydlərində Gəncədə onlarla qadın, uşaq və qocanın ölümünə səbəb olan raket hücumundan bəhs edib. O, məhv olan ailələr, qətlə yetirilmiş uşaqların oyuncaqları, evlərin dağıdılmış divarlarını sağalması çətin olan yaranın təzahürləri kimi təqdim edib. Həmin dramatik hadisələrin bir daha təkrarlanmaması üçün bu yaraların və acıların sağaldılmalı olduğu qeyd edilib.

A.Urso Ağdamda məscidin donuz tövləsi kimi istifadəsini isə təhqir nümunəsi kimi dəyərləndirib və bu gördüklərinin təəssüf ki, ağrılı həqiqət olduğunu yazıb.

İtalyan parlamentari Alessandro Alfieri Gəncə və Ağdamda gördüyü vəziyyəti ətraflı təsvir edib. Bir zamanlar Azərbaycanın çiçəklənən şəhərlərindən biri olan Ağdama gedən yolda bütün üzüm bağlarının məhv edildiyi, əkin sahələrinin səhraya çevrildiyi, ətraf ərazilərin minalandığı və yalnız xüsusi hərbi hissələrin həmin ərazidə təmizləmə işləri apardığı bildirilir. Qeyd edilir ki, müharibə başa çatsa da, mülki əhali bu ərazilərə geri dönə bilmək üçün səbir etməlidir. O, yaxın günlərdə qohumlarının məzarlarını ziyarət etmək istəyərkən minaya düşən bir ailənin faciəsini də diqqətə çatdırır.

Parlamentari Ağdam haqqında təəssüratlarını müsbət notlarla bitirir. O qeyd edir ki, dəfələrlə Azərbaycan çempionu olmuş və Çempionlar Liqasında mübarizə aparmış Ağdamın “Qarabağ” futbol klubu bir neçə gün öncə öz ev stadionuna baş çəkdi və həmin mənzərə insanlarda təsirli hisslər doğurdu. Bu, bir daha göstərdi ki, dağıdılmış şəhər yenidən həyata geri dönə bilər.

Parlamentarilərin “Facebook“, “Twitter“ və “Instagram“ sosial şəbəkələrində birbaşa hadisə yerlərindən paylaşdıqları foto və videolar Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünün ağır nəticələri barədə dolğun təsəvvürlər yaradıb.

**Elgün Niftəli**
**AZƏRTAC-ın xüsusi müxbiri, Roma**

**AZƏRTAC**

**Prezident İlham Əliyev İtaliya Deputatlar Palatasının sədr müavininin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib**

[15:37] 07.12.2020

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 7-də İtaliya Deputatlar Palatasının sədr müavini Ettore Rosatonun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

AZƏRTAC xəbər verir ki, qonaqları salamlayan **Prezident İlham Əliyev** dedi:

-Xoş gəlmisiniz. Mən sizi ürəkdən salamlayıram. Şadam ki, siz Azərbaycana səfər edirsiniz. Müharibədən sonra Azərbaycana səfər edən ilk Avropa nümayəndə heyətisiniz. Yəqin ki, bu, təsadüfi deyil, çünki İtaliya ilə Azərbaycan arasındakı əlaqələr çox sürətlə inkişaf edir və bu gün ən yüksək səviyyədədir. Hesab edirəm ki, siyasi əlaqələr ən yüksək səviyyədədir. Mənim bu ilin əvvəlində İtaliyaya etdiyim dövlət səfəri bunun bariz nümunəsidir. Səfər zamanı bir çox önəmli sənədlər imzalanmışdır. Onların arasında Çoxölçülü Strateji Tərəfdaşlıq haqqında sənəd xüsusi yer tutur. Bu sənəd bizim strateji tərəfdaşlığımızı bir daha təsdiqlədi. Səfər zamanı həm Prezident, həm Baş nazirlə görüşlərim əsnasında bir çox önəmli məsələlər müzakirə olundu. Eyni zamanda, Senatın və Nümayəndələr Palatasının rəhbərləri ilə mənim görüşlərim də çox gözəl keçdi.

Bildiyiniz kimi, iki il bundan əvvəl İtaliya Prezidenti cənab Mattarella Azərbaycanda rəsmi səfərdə idi. Bu səfərlər ikitərəfli əlaqələrimizin çox möhkəm zəmində olmasını göstərir. Bu gün İtaliya-Azərbaycan əlaqələri həm siyasi, həm iqtisadi, həm bütün başqa sahələrdə çox uğurla inkişaf edir. Siz də bilirsiniz ki, İtaliya Azərbaycanın birinci ticarət tərəfdaşıdır. Keçən il ticarət dövriyyəmiz 6 milyard dollara çatmışdır. Bunun böyük hissəsi enerji resurslarına aiddir. Amma mən hesab edirəm ki, gələcək illərdə qeyri-neft sektoru da bizim aramızda xüsusi çəkiyə malik olacaq. Energetika sektoruna gəldikdə, bildiyiniz kimi, yaxın gələcəkdə TAP layihəsi istismara veriləcək və şübhəsiz ki, bu, İtaliya-Azərbaycan əlaqələrini daha da möhkəmləndirəcək.

Bizim humanitar sahə ilə bağlı da böyük planlarımız var və artıq bir çox reallaşan layihələrimiz var. İtaliyaya dövlət səfərim çərçivəsində, eyni zamanda, təhsil sahəsində əməkdaşlıq müzakirə olundu. İtaliya-Azərbaycan Universitetinin yaradılması ilə bağlı razılığa gəlmişik. Bakıya qayıdandan sonra mənim tərəfimdən bu məsələ ilə bağlı müvafiq göstərişlər verilmişdir. Hesab edirəm ki, yaxın gələcəkdə universitet üçün bina da inşa ediləcək. Mən bu məsələni diqqətimdə saxlayıram və mənə müntəzəm olaraq bu məsələ ilə bağlı məlumatlar verilir. Onu da bildirməliyəm ki, mənə verilən məlumat əsasında orada bir neçə fakültə fəaliyyət göstərəcək. O siyahıya baxanda gördüm ki, orada memarlıq fakültəsi yoxdur və təklif etdim ki, bu da əlavə olunsun. Çünki İtaliya memarlığı ümumbəşəri dəyərdir və ölkəmizdə geniş vüsət almış tikinti sektorunun əlbəttə ki, müasir görkəmi olmalıdır. Əlbəttə, İtaliya-Azərbaycan Universitetində təhsil alacaq gənclər iki ölkə arasındakı əlaqələrə xüsusi töhfə verəcəklər.

Mən, eyni zamanda, sizə təşəkkürümü bildirmək istəyirəm ki, siz həm Gəncəyə, həm Ağdama səfər etmisiniz, Ermənistan dövlətinin törətdiyi hərbi cinayətləri görmüsünüz. Ermənistan tərəfindən törədilmiş hərbi cinayətlər göz qabağındadır. Döyüş meydanında məğlubiyyətə uğrayarkən Ermənistan mülki vətəndaşları atəşə tutub. Gəncəni Ermənistan ərazisindən ballistik raketlərlə atəşə tutmuşdur. Bu, hərbi cinayətdir və bu cinayətə görə Ermənistan rəhbərliyi cavab verəcək. Müharibə zamanı 94 mülki şəxs həlak olmuşdur, 400-dən çox yaralanmışdır. Ballistik raketlərlə bu zərbə təsadüfi xarakter daşımırdı, məqsədyönlü şəkildə məhz mülki vətəndaşların yaşadığı məkana gecə vaxtı istiqamətləndirilmişdir ki, daha çox qurbanlar olsun. Ağdam şəhərini də gördünüz. Daha doğrusu, artıq şəhərdən bir şey qalmayıb, orada bütün binalar dağıdılıb. Bu, Ermənistan faşizminin eybəcər sifətini göstərən cinayətdir. Onlar hesab edirdilər ki, azərbaycanlılar bu torpaqlara heç vaxt qayıtmayacaqlar. Amma biz qayıtmışıq, döyüşə-döyüşə onları torpaqlarımızdan qovduq. Onlar bizim qabağımızda diz çökdülər.

İndi ölkəmizin yeni dövrü başlayır, biz bütün o bölgələri yenidən quracağıq. Artıq ilkin addımlar atılır, ilkin infrastruktur layihələrinə start verilib. Amma demək olar ki, Ağdamda gördüyünüz mənzərə azad edilmiş bütün torpaqlarda müşahidə olunur. Füzuli şəhərində də bir dənə salamat bina qalmayıb, Cəbrayıl şəhərində də. Zəngilan, Qubadlı eyni vəziyyətdədir. Kəlbəcər və Laçın rayonlarında Ermənistan dövləti qanunsuz məskunlaşma siyasəti aparmışdır. Bu da hərbi cinayət sayılır, Cenevrə Konvensiyalarına zidd olan bir addımdır. Ona görə bu rayonlarda bəzi yaşayış məntəqələrində bəzi evlər qalıb. Orada ermənilər yaşayırdılar. Ancaq noyabrın 10-dan dekabrın 1-nə qədər - o vaxt çərçivəsində onlar bu bölgələri tərk etməli idilər - onlar orada da vəhşilik törətdilər, evləri yandırdılar, sökdülər. Halbuki o evləri onlar yox,

o vaxta qədər - 30 il bundan əvvəl orada yaşamış azərbaycanlılar tikmişdilər. Meşələri yandırdılar, ağacları kəsdilər, yəni, dünyanın gözü qarşısında vəhşilik törətdilər. Beynəlxalq media qurumları da bu barədə reportajlar hazırlayıb mətbuata vermişlər. Bütün dünya indi gördü ki, Azərbaycan hansı vandallarla üz-üzə qalmışdır və bu vandallara qarşı təkbaşına müharibə apararaq öz ərazi bütövlüyünü bərpa etmişdir.

İndi bərpa dövrü başlayır, genişmiqyaslı quruculuq işləri aparılacaq. Əlbəttə ki, Azərbaycan şirkətləri, ilk növbədə, bu işlərdə iştirak edəcək və bizim üçün dost olan ölkələrin şirkətlərini də biz dəvət edəcəyik, daha doğrusu, artıq dəvət etmişik. Mən çox istərdim ki, İtaliya şirkətləri bu işlərdə, yəni, bərpa, yenidənqurma işlərində fəal iştirak etsinlər. İtaliya tərəfinə artıq bu təkliflər verildi. Yaxın günlərdə videokonfrans vasitəsilə ilkin təmaslar olacaq. Əlbəttə, bir daha demək istəyirəm ki, dost ölkələrin şirkətləri bu işlərdə iştirak edəcəklər. Əsl dostluq isə özünü çətin anlarda büruzə verir. Bizim üçün də bu müharibə, eyni zamanda, onu göstərdi ki, Azərbaycanın əsl dostları kimlərdir, hansı ölkələrdir. Biz dostluğu qiymətləndirən xalqıq. Sizin Azərbaycana səfəriniz bir daha onu göstərir ki, İtaliya doğrudan da Azərbaycanın əsl dostudur. Bir daha xoş gəlmisiniz.

İtaliya Deputatlar Palatasının sədr müavini **Ettore Rosato** dedi:

- Cənab Prezident, bizi qəbul etdiyinizə görə sağ olun. Sizin ölkəniz üçün olduqca xüsusi əhəmiyyət kəsb edən belə bir dövrdə burada olmaqdan məmnunluq hissi duyuruq. Buna görə də Sizə olan dostluq hisslərimizi ifadə etmək üçün əslində, bu səfərə çoxdan hazırlaşırdıq. Dedik ki, belə bir əhəmiyyətli dövrdə biz mütləq Sizin ölkənizə gəlməliyik. Zati-aliləri, Sizin də söylədiyiniz kimi, bizim aramızdakı dostluq, onun əlamətləri son illərdə xüsusi olaraq öz təzahürünü tapıb. Əslində, ölkələrimiz arasındakı səfərlərə gəldikdə, bu səfərlər çox yüksək səviyyədə təşkil olunmuşdur. İtaliya Respublikası Prezidentinin Sizin ölkənizə rəsmi səfəri münasibətlərimizin inkişafında çox mühüm bir addıma çevrildi. Sizin də Romaya etdiyiniz dövlət səfəri də bizim tərəfimizdən strateji əhəmiyyət kəsb edən bir hadisə kimi qəbul olunur. Biz də Sizə dost olaraq bilirik ki, səfər çərçivəsində bir çox razılaşmalar və xüsusən də, strateji tərəfdaşlıq haqqında mühüm sənəd imzalanıb. Əslində, bunlar elə sazişlərdir ki, onlarda çox konkret öhdəliklər və olduqca vacib mahiyyət əks olunubdur.

Azərbaycan İtaliya üçün enerji daşıyıcılarının ilk ixracatçısıdır. Belə bir keşməkeşli vaxtlarda enerji təhlükəsizliyini etimad göstərib o ölkəyə həvalə edə bilirik ki, o ölkə ilə həqiqətən dostluq münasibətləri olsun. Biz bu dostluğu daha da gücləndirmək istəyirik və münasibətlərimizi daha da şaxələndirmək fikrindəyik.

**X X X**

İtaliya parlamentinin Deputatlar Palatasının sədr müavini Ettore Rosato Azərbaycanın münaqişədə həyatını itirən mülki şəxslərinə görə başsağlığı verdi, Gəncə və Ağdama səfərlərinə toxundu. O qeyd etdi ki, 30 illik işğal dövründə Ağdamda törədilmiş viranəliyin şahidi olublar. “Hətta inanmaq belə çətin idi ki, burada nə zamansa insanlar yaşayıb”, - deyə vurğuladı.

Ettore Rosato Prezident İlham Əliyevə İtaliya Deputatlar Palatası və İtaliya Senatı sədrlərinin salamlarını çatdırdı.

Sonda xatirə şəkli çəkdirildi.

**AZƏRTAC**

**Prezident İlham Əliyev: İşğaldan azad olunmuş ərazilərin bərpasında iştirakla bağlı İtaliya tərəfinə təkliflər verilib**

[16:15] 07.12.2020

İndi ölkəmizin yeni dövrü başlayır, biz bütün o bölgələri yenidən quracağıq. Artıq ilkin addımlar atılır, ilkin infrastruktur layihələrinə start verilib. Sizin Ağdamda gördüyünüz mənzərə azad edilmiş bütün torpaqlarda müşahidə olunur. Füzuli şəhərində də bir dənə salamat bina qalmayıb. Cəbrayıl, Zəngilan, Qubadlı eyni vəziyyətdədir.

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev bu barədə İtaliya Deputatlar Palatasının sədr müavini Ettore Rosatonun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşündə danışıb.

Gəncəyə və Ağdama səfər etdiklərinə görə qonaqlara minnətdarlığını bildirən dövlətimizin başçısı deyib: "İndi bərpa dövrü başlayır, genişmiqyaslı quruculuq işləri aparılacaq. Əlbəttə ki, Azərbaycan şirkətləri, ilk növbədə, bu işlərdə iştirak edəcək və bizim üçün dost olan ölkələrin şirkətlərini də biz dəvət edəcəyik, daha doğrusu, artıq dəvət etmişik. Mən çox istərdim ki, İtaliya şirkətləri bu işlərdə, yəni, bərpa, yenidənqurma işlərində fəal iştirak etsinlər. İtaliya tərəfinə artıq bu təkliflər verildi. Yaxın günlərdə videokonfrans vasitəsilə ilkin təmaslar olacaq".

Prezident İlham Əliyev qeyd edib ki, əsl dostluq özünü çətin anlarda göstərir. "Bizim üçün də bu müharibə, eyni zamanda, onu göstərdi ki, Azərbaycanın əsl dostları kimlərdir, hansı ölkələrdir. Biz dostluğu qiymətləndirən xalqıq. Sizin Azərbaycana səfəriniz bir daha onu göstərir ki, İtaliya doğrudan da Azərbaycanın əsl dostudur", - deyə dövlətimizin başçısı vurğulayıb.

**AZƏRTAC**

# Martin Şüepp: Azərbaycan ilə BQXK arasında ötən illər ərzində formalaşmış əməkdaşlıq yüksək qiymətə layiqdir

[19:49] 07.12.2020

Dekabrın 7-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov ölkəmizdə səfərdə olan Beynəlxalq Qırmızı Xaç Komitəsinin (BQXK) Avropa və Mərkəzi Asiya üzrə Regional direktoru Martin Şüepp ilə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, görüşdə nazir Ceyhun Bayramov qarşı tərəfə Azərbaycan və Rusiya prezidentləri, həmçinin Ermənistanın baş nazirinin 10 noyabr tarixində imzaladığı birgə Bəyanatdan sonra regionda vəziyyətin sabitləşdirilməsi istiqamətində atılan addımlar barəsində məlumat verərək, birgə bəyanat ilə atəşkəsin təmin edildiyini, hərbi fəaliyyətlərin dayandırıldığını və bununla əlaqəli şəkildə Azərbaycan Respublikasının işğal edilmiş Ağdam, Kəlbəcər və Laçın rayonlarının sülh yolu ilə Azərbaycanın nəzarətinə qaytarıldığını diqqətə çatdırıb. Birgə bəyanatın icra edilməsi ilə regionda sülh, təhlükəsizlik və əməkdaşlıq üçün yeni imkanlar açıldığı vurğulanıb.

Bölgədə yaranmış yeni şərait nəzərə alınmaqla, BQXK-nın Ermənistan-Azərbaycan münaqişəsinin təsirinə məruz qalmış ərazilərimizdə bütün insanların həyat şəraitinin yaxşılaşdırılması və dinc birgəyaşayışın təmin edilməsi işinə özünün müsbət töhfəsini verəcəyinə ümid ifadə edilib.

Öz növbəsində, Martin Şüepp Azərbaycan ilə BQXK arasında ötən illər ərzində formalaşmış əməkdaşlığın, o cümlədən təşkilatın mandatının əsasını təşkil edən beynəlxalq humanitar hüquqa əməl edilməsi istiqamətində Azərbaycan tərəfindən atılmış addımların BQXK tərəfindən yüksək qiymətləndirildiyini diqqətə çatdırıb. O, həmçinin 10 noyabr tarixli birgə Bəyanatdan irəli gələn, BQXK-nın mandatına aid müvafiq məsələlərin həlli istiqamətində görülən işlər barədə məlumat verib.

Görüşdə, habelə Azərbaycan ilə BQXK arasında əməkdaşlığın perspektivlərinə dair geniş fikir mübadiləsi aparılıb, BQXK-nın ölkəmizdəki fəaliyyətinin səmərəliliyi və effektivliyinin daha da artırılması yolları müzakirə edilib.

**AZƏRTAC**

**Andorranın xarici işlər naziri Azərbaycan ərazilərinin işğaldan azad edilməsi barədə məlumatlandırılıb**

[13:17] 08.12.2020

Azərbaycan Respublikasının İspaniya Krallığında, eyni zamanda, Andorra Knyazlığındakı səfiri Anar Məhərrəmov Andorranın xarici işlər naziri Maria Ubaç Font ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, görüş zamanı Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə cari ilin 27 sentyabr tarixindən etibarən özünümüdafiə hüququ çərçivəsində və beynəlxalq humanitar hüquqa tam riayət etməklə əks-hücum və cavab tədbirlərini həyata keçirmiş müzəffər Azərbaycan Ordusunun 44 gün davam edən döyüşlərdə şanlı Qələbə qazanaraq, işğal altında olan torpaqlarımızı azad etdiyi qeyd olunub.

Bildirilib ki, Ermənistan silahlı qüvvələrinin işğal olunmuş Azərbaycan ərazilərindən çıxarılmasını özündə şərtləndirən, Azərbaycanın və Rusiyanın prezidentləri, Ermənistanın baş naziri tərəfindən 2020-ci il 10 noyabr tarixində imzalanmış birgə Bəyanata uyğun olaraq, Ermənistan silahlı qüvvələrinin 1 dekabr tarixinədək Azərbaycanın Ağdam, Kəlbəcər və Laçın rayonlarından çıxarılması təmin edilib, beləliklə, bütün Azərbaycan ərazisində ölkəmizin suverenliyi bərpa olunub.

Qeyd olunub ki, Azərbaycan ərazilərini tərk edən Ermənistan qoşunları və əhalisi bu zaman vandalizm aktları həyata keçiriblər. Yaşayış məskənlərinin, habelə ağ fosfordan istifadə edilməklə meşələrin yandırılması, fauna və floranın məhv edilməsi ilə Ermənistanın növbəti dəfə Azərbaycana qarşı ekoloji cinayətlər törətməsi, qanunsuz arxeoloji qazıntılar apararaq aşkar olunmuş nadir nümunələrin Ermənistana daşınılması, işğal olunmuş ərazilərdə Azərbaycanın maddi-mədəni irsinin talan edilməsi barədə faktlar müqabil tərəfin diqqətinə çatdırılaraq, vandalizm əməllərini özündə əks etdirən çap materialları və fotoşəkillər əyani qaydada Andorranın xarici işlər nazirinə təqdim edilib.

Xüsusi olaraq vurğulanıb ki, Azərbaycanın işğaldan azad olunmuş ərazilərində Ermənistan tərəfindən sosial-iqtisadi infrastruktura, tarixi-mədəniyyət və dini abidələrinə, ətraf mühitə, fərdi və çoxmənzilli yaşayış evlərinə külli miqdarda vurulmuş maddi zərər beynəlxalq ekspertlər tərəfindən qiymətləndiriləcək və Ermənistanın məsuliyyətə cəlb olunaraq, Azərbaycan tərəfinə təzminatın ödənilməsinin təmin edilməsi məqsədilə beynəlxalq tribunala müraciət ediləcəkdir.

Diqqətə çatdırılıb ki, 28 ildir Ermənistanın işğalı altında olan Azərbaycan torpaqlarının azad olunması ilə regionda sülh və sabitlik bərqərar olunmuş, düşmən tərəfindən vandalizmə məruz qalmış ərazilərimiz yeni quruculuq və inkişaf dövrünə qədəm qoymuşdur.

Görüşdə ikitərəfli əlaqələrin inkişaf perspektivləri, beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq, müqavilə-hüquq bazasının genişləndirilməsi və bir sıra beynəlxalq məsələlər ətrafında müzakirələr aparılıb.

Andorranın qış turizmi sahəsində böyük təcrübəyə malik olduğunu, ölkəmizdə “Şahdağ” qış turizm kompleksinin qurulmasında bu ölkə ilə həyata keçirilən uğurlu əməkdaşlığı nəzərə alaraq, işğaldan azad olunmuş ərazilərimizin də zəngin turizm potensialına malik olması baxımından, bu səpkidə əlaqələrin genişləndirilməsi imkanlarının mövcud olduğu qeyd olunub.

Görüş zamanı, həmçinin qarşılıqlı maraq kəsb edən digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

**Nigar Cəfərli**
**AZƏRTAC-ın xüsusi müxbiri, Madrid**

**AZƏRTAC**

**Mehriban Əliyeva: "Heydər Əliyev Fondu qədim Qarabağ torpağında dini abidələrimizin, məscidlərimizin bərpası üzrə layihəyə başlayır"**

[13:06] 08.12.2020

Heydər Əliyev Fondu qədim Qarabağ torpağında dini abidələrimizin, məscidlərimizin bərpası üzrə layihəyə başlayır.

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın rəsmi "Instagram" səhifəsindəki paylaşımında bildirilir. Paylaşımda deyilir:

"Əziz həmvətənlər!

Bu günlər biz hamımız Azərbaycanın ərazi bütövlüyünün bərpa olunmasının qürurunu və sevincini yaşayırıq. 30 ilə yaxın Ermənistanın işğalı altında olan torpaqlarımız Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında qəhrəman əsgər və zabitlərimizin şücaəti sayəsində azad edilmişdir.

Əlbəttə, işğaldan azad olunmuş torpaqlarımızdakı hazırkı mənzərəni hər birimiz ürək ağrısı ilə seyr edirik. Erməni təcavüzkarları bu illər ərzində şəhər və rayonlarımızı, oradakı yaşayış və inzibati binaları, bütün infrastrukturu dağıtmış, təbii sərvətlərimizi talan etmiş, bu ərazilərdəki dini, tarixi, mədəni abidələrimizi vandalizm aktlarına məruz qoymuşdur. Bir vaxtlar Azərbaycanın dilbər guşəsi olan Qarabağ bölgəsindəki abadlıqdan əsər-əlamət qalmamışdır.

Amma əminliklə bildirmək istəyirəm ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə bütün Qarabağ bölgəsini Azərbaycanın ən gözəl bölgələrindən birinə çevirəcəyik. Burada yenidən həyat canlanacaq, bütün rayonlarımız bərpa olunacaq, vətəndaşlarımız öz doğma yurd-yuvalarında yaşayıb, yaradacaqlar.

Əziz həmvətənlər,

Heydər Əliyev Fondu fəaliyyət göstərdiyi ilk gündən Azərbaycanda müxtəlif sahələri əhatə edən layihə və proqramlar həyata keçirir. Fondun tarixi, mədəniyyət və dini abidələrin qorunub saxlanılması və bərpası istiqamətindəki fəaliyyəti hər kəsə məlumdur. Bu gün isə qürur hissi ilə sizə Heydər Əliyev Fondunun qədim Qarabağ torpağında Azərbaycan xalqının milli sərvəti olan dini abidələrimizin, məscidlərimizin bərpası üzrə layihəyə başladığını bildirmək istəyirəm. Layihə çərçivəsində yerli və xarici mütəxəssislərin iştirakı ilə bölgədəki ziyarətgahlarımızın bərpası, konservasiyası və yenidən qurulması həyata keçiriləcəkdir. İşğal illəri ərzində Şuşa şəhərində və Ağdam rayonunda dağıntılara məruz qalmış dini ibadət yerlərinin bərpası üzrə müvafiq işlərə artıq başlanılmışdır.

Bir zamanlar ermənilərin vəhşicəsinə dağıtdığı, tövləyə çevirdiyi müqəddəs dini məkanlarımız yenidən dirçələcək və bütün Qarabağ ərazisindəki məscidlərimizdə azan səsləri eşidiləcək, dualar oxunacaqdır!

Dərin hörmət və sevgilərlə,

Sizin MEHRİBAN".

**AZƏRTAC**

**Ağdam rayonunun Mirəşelli kəndindəki Şəmsi kəhrizində bərpa-təmir işlərinə başlanıb**

[07:20] 09.12.2020

Müharibə bitdikdən sonra Beynəlxalq Miqrasiya Təşkilatının (BMqT) Azərbaycan nümayəndəliyinin kankanları (kəhriz ustaları) Koreya Beynəlxalq Əməkdaşlıq Agentliyinin (KOICA) maliyyə dəstəyi ilə təşkilatın həyata keçirdiyi “Azərbaycanda kəhriz su sistemlərinin bərpası vasitəsilə məcburi köçkünlərin məskunlaşdığı ərazilərdə kənd yerlərinin kompleks inkişafı” layihəsi çərçivəsində Ağdam rayonunun Mirəşelli kəndinin ərazisindəki Şəmsi kəhrizində yarımçıq qalmış bərpa-təmir işlərinə başlayıb.

Nümayəndəlikdən AZƏRTAC-a bildiriblər ki, dörd illik layihə ənənəvi və dayanıqlı su təchizatı sistemi olan 40 kəhrizin bərpası vasitəsilə təxminən 8 mindən çox ailəyə təhlükəsiz və davamlı su təminatı məqsədini daşıyır.

Layihənin ümumi məqsədi Azərbaycanda kənd təsərrüfatı icmalarının enerjisiz su təchizatını təmin etməklə kənd təsərrüfatı məhsuldarlığını və yaşayış imkanlarını artırmaqla məcburi iqtisadi miqrasiyanın qarşısının alınmasına töhfə verməkdir. Kəhrizlərin bərpası ilə yanaşı, layihə gender, idarəetmə və ətraf mühitin davamlılığı kimi məsələlərə xüsusi diqqət yetirərək icma tərəfindən idarə olunan bir yanaşmanı tətbiq etməyə davam edir.

Bu layihə üç fərqli, lakin sıx əlaqəli yanaşma çərçivəsində həyata keçirilir. Bunlar kəhrizlərin bərpası və icmaların və kankanların bacarıqlarının artırılmasıdır.

**AZƏRTAC**

**Prezident İlham Əliyev İtaliya Xarici İşlər və Beynəlxalq Əməkdaşlıq Nazirliyinin nümayəndə heyətini qəbul edib**

[14:03] 09.12.2020

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 9-da İtaliya Respublikasının Xarici İşlər və Beynəlxalq Əməkdaşlıq Nazirliyinin dövlət katibi, Azərbaycan Respublikası və İtaliya Respublikası arasında İqtisadi Əməkdaşlıq üzrə birgə Hökumətlərarası Komissiyanın həmsədri Manlio Di Stefanonun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

AZƏRTAC xəbər verir ki, qonaqları salamlayan **Prezident İlham Əliyev** dedi:

-Sizin ölkənizə çox uğurlu səfərim xatirimdədir. Qonaqpərvərliyinizə görə bir daha təşəkkür edirəm. Səfər məndə olduqca müsbət təəssürat yaratmışdır. Səfər zamanı imzalanmış sənədlər, əlbəttə ki, bizim tərəfdaşlığımızı gücləndirəcəkdir. Mən ölkələrimiz arasında strateji tərəfdaşlığın yeni formatı ilə bağlı imzalanmış sənədi xüsusilə qeyd etmək istəyirəm.

Ölkənizin Prezidenti, Baş naziri, parlamentin hər iki palatasının sədrləri və Romanın meri ilə keçirdiyim görüşlər çox müsbət olmuşdur.

**Manlio Di Stefano:** Bir neçə gün öncə Siz İtaliyadan olan nümayəndə heyətini qəbul etmisiniz.

**Prezident İlham Əliyev:** Bəli, mən İtaliya parlamentinin sədr müavininin başçılığı ilə müxtəlif siyasi qrupları təmsil edən nümayəndə heyətini qəbul etmişəm. Onlar Ağdamda və Gəncədə olmuşlar. Birinin işğal nəticəsində viran qoyulduğu, digərinin isə müharibə vaxtı ballistik raket hücumu nəticəsində çoxsaylı qurban verdiyi bu iki şəhərə səfər etməklə bağlı onların qərarı məni təsirləndirdi.

Bizim münasibətlərimizə gəldikdə, hesab edirəm ki, bunun gözəl gələcəyi var. Bu günədək biz siyasi, iqtisadi və enerji təhlükəsizliyi sahələrində böyük uğura nail olmuşuq. Biz Cənub Qaz Dəhlizinin sonuncu hissəsini tezliklə başa çatdıracağıq. Bununla da Azərbaycan və İtaliya gələcək onilliklər ərzində enerji sahəsində çox yaxın tərəfdaş olacaqdır.

Bu, müxtəlif ölkələrdən ibarət geniş bir qrupun birgə səyləri nəticəsində ərsəyə gələn çox əhəmiyyətli nailiyyətdir. Bildiyiniz kimi, biz hər il Bakıda Cənub Qaz Dəhlizi Məşvərət Şurasının toplantısını təşkil edirik və İtaliya hər zaman burada yüksək səviyyədə təmsil olunur. Həmin toplantıların sayəsində biz 3500 kilometr uzunluğunda boru kəmərini inşa etməyə müvəffəq olduq. Kəmərin başlanğıcı Bakıda, sonu isə İtaliyadadır.

Əlbəttə, biz əməkdaşlığımızı dərinləşdirmək arzusundayıq. Bilirəm ki, sizin səfərinizin gündəliyi olduqca genişdir. Biz ölkələrimiz arasında gözəl siyasi münasibətlərimizdən faydalanaraq iqtisadi əməkdaşlıq və daha çox İtaliya şirkətinin Azərbaycanda fəaliyyətə cəlb edilməsi məsələlərini nəzərdən keçirmək niyyətindəyik. Buraya ənənəvi əməkdaşlıq sahələri ilə yanaşı, Azərbaycanın dağıdılmış şəhərlərinin bərpasına dair böyük planlarımız da daxildir. Çünki bizim yeni infrastrukturun yaradılmasına - yeni yolların, dəmir yolu xətlərinin, hava limanlarının, məktəb və xəstəxanaların inşasına ehtiyacımız var.

Bunun səbəbi ermənilər tərəfindən hər şeyin dağıdılması, yerlə-yeksan edilməsidir. Buna dair kifayət qədər videomaterial var. Onlar vəhşi kimi davranmış və şəhərlərimizi darmadağın etmişlər. Bu da Azərbaycana qarşı olan təcavüzkar siyasətin bariz nümunəsidir.

Biz yenidənqurma işləri ilə bağlı ilk addımlar atmışıq. İlk müqavilələr artıq bağlanıb və dediyim kimi, biz işğaldan azad olunan ərazilərdə dost ölkələrdən olan şirkətlərlə çalışacağıq.

İlk müqavilələr türk şirkətləri ilə bağlanılıb və bu da təbiidir, çünki Türkiyə qardaş ölkədir. Ümidvaram ki, növbəti müqavilələr italyan şirkətləri ilə imzalanacaq. Bu da təbiidir. Çünki İtaliya Azərbaycanın yaxın dostudur. Ölkələrimiz arasında çoxillik diplomatik münasibətlərin mövcudluğu dövründə və xüsusilə də müharibə zamanı biz sizin mövqeyinizin şahidi olduq. Ölkənizin parlament nümayəndələrinin müharibənin başa çatmasından bir aydan az vaxt keçməmiş Azərbaycana səfəri bizim güclü dostluq münasibətlərimizi nümayiş etdirir. Biz bu həmrəylik və dəstək jestini yüksək qiymətləndiririk.

Bir neçə gün əvvəl görüşdüyüm nümayəndə heyəti Avropa İttifaqı məkanından olan və müharibədən sonra ölkəmizə gələn ilk qonaqlar idi. Əminəm ki, bu dostluq jestinin praktiki təzahürü olacaq, çünki bu gün biz təkcə enerji sektoru deyil, həmçinin qeyri-enerji sektoru haqqında danışırıq. Azad edilmiş torpaqlarda böyük potensial kənd təsərrüfatı, turizm, bərpa olunan enerji mənbələri ilə bağlıdır. Artıq söylədiyim kimi, böyük infrastruktur layihələri də olacaq. İndi biz həmin ərazilərin bərpa və yenidənqurma planlarını hazırlayırıq. Əminəm ki, biz çox uğurla işləyəcəyik.

Həmçinin bildirmək istərdim ki, İtaliya parlamentarilərinin səfəri Azərbaycan cəmiyyətində çox yüksək dəyərləndirildi. Çünki təsəvvür edin, insanlar bütün dəstək əlamətlərini çox böyük diqqətlə izləyirlər, ona həssaslıqla yanaşırlar. Bir sözlə, bütün cəmiyyət həmin səfəri dəstəyin təzahürü kimi qəbul etdi. Həmçinin insanlar qeyd edir və mən onların rəyi ilə razıyam ki, qonşularınızdan bəziləri parlamentdə Dağlıq Qarabağın tanınması ilə bağlı müəmmalı qətnamələr qəbul edirlər. İtaliyanın millət vəkilləri Azərbaycana hörmət və ehtiramını ifadə etmək, Azərbaycan xalqının əziyyətlərini bölüşdüyünü bildirmək üçün Ağdama getdilər, Gəncəyə səfər etdilər.

Dağlıq Qarabağın tanınmasına gəldikdə isə, hamı bilir ki, hətta Ermənistan həmin qanunsuz strukturu tanımayıb. Buna görə, əgər hansısa ölkə Dağlıq Qarabağı tanımaq istəyirsə, onlar öz ölkəsinin daxilində müəyyən addımlar atsınlar. Onlar öz ölkəsində müəyyən ərazini ayıra bilər və Azərbaycanda yox, öz ölkəsində ikinci erməni dövlətini yarada bilər.

Bir sözlə, bu, bir daha göstərir ki, ölkələrimiz arasında dostluq və xalqlarımız arasında qarşılıqlı müsbət yanaşma artıq reallığa çevrilib. Biz, həmçinin sizin səfərinizi bunun yaxşı əlaməti kimi dəyərləndiririk. Əminəm ki, səfərinizin çox müsbət nəticəsi olacaq və biz bütün sahələrdə güclü əməkdaşlıq məqsədilə növbəti 5–10 il üçün gündəliyimizi lazımi şəkildə tərtib edəcəyik. Bir daha, Azərbaycana xoş gəlmisiniz.

**Manlio Di Stefano:** Sağ olun, cənab Prezident. Əvvəlcə, icazə verin bildirim ki, bu gün burada olmağımdan şərəf hissi duyuram. Səfərim cəmi 24 saatlıq olsa da, onu tam şəkildə təşkil etdiyinə görə sizin Hökumətə minnətdarlığımı bildirirəm. Dünən mən artıq xarici işlər naziri ilə görüşdüm. Məmnun qaldım və biz bir çox sahələrə aid olan məsələlər ətrafında fikir mübadiləsi apardıq. Bu gün mənim digər nazirlərlə görüşmək imkanım olacaq. Bu, aramızda olan əməkdaşlığın real təzahürüdür. İcazə verin, əvvəlcə Sizə və xalqınıza müharibə qurbanları ilə əlaqədar başsağlığımızı verim. Bu, həqiqətən şiddətli müharibə idi və biz İtaliyada bunu böyük narahatlıqla izlədik. Hətta təsəvvür etmək çətindir ki, bu müharibə İtaliyada nə dərəcədə hiss olunurdu, çünki dünyanın bu bölgəsini istənilən mənada özümüzə çox yaxın hesab edirik.

Biz çox çalışdıq ki, hadisələrə hər hansı siyasi rəng qatmayaq. Biz, sadəcə, ölkəmizə nəyin baş verdiyi ilə əlaqədar həqiqəti söyləməyə çalışdıq. Məmnunam, Siz də siyasi mövqeyimizi müsbət dəyərləndirdiniz və o, BMT-nin qətnamələrinə, bir sözlə, sənədlərdə yazılanlara əsaslanır. Təbii ki, atəşkəsin imzalanması bizim hamımıza rahatlıq gətirdi. Hesab edirik ki, bu, birinci və ən vacib məsələ idi. Çünki bilirsiniz, qurbanların sayının artmaması hər kəs tərəfindən hər zaman müsbət qarşılanır. Hazırda biz üçtərəfli Bəyanatdakı müddəaların icrasına yardım etməkdə öz imkanlarımızı təmin etməyə hazır olduğumuzu bildiririk. Hesab edirik ki, bu, bundan sonra görəcəyimiz bütün işlər üçün yaxşı başlanğıc nöqtədir.

**AZƏRTAC**

**İtaliya Xarici İşlər və Beynəlxalq Əməkdaşlıq Nazirliyinin dövlət katibi Ağdama səfəri ilə bağlı təəssüratlarını bölüşüb**

[16:54] 09.12.2020

İtaliya Respublikasının Xarici İşlər və Beynəlxalq Əməkdaşlıq Nazirliyinin dövlət katibi, Azərbaycan Respublikası və İtaliya Respublikası arasında İqtisadi Əməkdaşlıq üzrə birgə Hökumətlərarası Komissiyanın həmsədri Manlio Di Stefano işğaldan azad olunmuş Ağdam şəhərinə səfəri ilə bağlı təəssüratlarını özünün "Facebook" səhifəsində paylaşıb.

AZƏRTAC xəbər verir ki, dövlət katibi vaxtilə Azərbaycanın ən inkişaf etmiş şəhərlərindən biri olan Ağdamın indi "ruhlar şəhəri" kimi tanındığını yazır. O, bir zamanlar on minlərlə insanın yaşadığı bir şəhərdə hazırda tənəzzülün müşahidə olunduğunu, qəbirlərin dağıdıldığını, məscidlərin tövləyə çevrildiyini diqqətə çatdırır.

Manlio Di Stefano imzalanmış üçtərəfli Bəyanata əsasən bu torpaqların Azərbaycana geri qaytarılmasından bəhs edir. O, İtaliya hökumətinin bu ərazilərdə mədəni irsin qorunması və bərpası, infrastruktur işlərinin həyata keçirilməsi ilə bağlı Azərbaycana əməkdaşlıq təklif etdiyini bildirir.

Dövlət katibi Ağdam şəhərində çəkdiyi şəkilləri "Facebook" səhifəsində paylaşıb.

**Elgün Niftəli**
**AZƏRTAC-ın xüsusi müxbiri, Roma**

**AZƏRTAC**

**Almaniyanın "ZDF" kanalında işğaldan azad olunmuş Ağdam və Füzuli rayonlarından reportaj yayımlanıb**

[17:50] 09.12.2020

Almaniyanın "ZDF" telekanalında Azərbaycanın işğaldan azad olunmuş Ağdam və Füzuli rayonlarından reportaj yayımlanıb.

Kanalın Qarabağ bölgəsinə ezam olunmuş müxbiri Yörq Braze Azərbaycanın 1990-cı illərdə itirdiyi əraziləri bu yaxınlarda geri qaytardığını qeyd edir. Ağdam və Füzuli rayonlarında yerli sakinlərlə söhbət edən müxbir bildirir ki, getdikcə daha çox azərbaycanlı bu regiona qayıdır. Həmin sakinlərdən biri, hələ Birinci Qarabağ müharibəsində iştirak etmiş Hamlet İbrahimov ermənilərin bu ərazilərdə törətdiyi vəhşiliklərdən və Vətən müharibəsinin gedişindən bəhs edir. "Bu dəfə biz qələbə qazana bildik", - deyən Hamlet qənimət götürülmüş iki erməni tankını fəxrlə göstərir. İyirmi səkkiz il bundan əvvəl Qarabağda ermənilərə qarşı döyüşən və həmin müharibəni uğursuzluqla başa vuran Hamletin indiki məmnuniyyəti göz qabağındadır. O deyir: "Baxın, mərmilər də içəridədir, biz tankları bütün sursatı ilə birgə ələ keçirmişik. Ermənilər nələri var idisə, atıb qaçıblar".

Reportajda Ağdam şəhərinin dağıntıları da göstərilir. Jurnalist qeyd edir ki, razılaşmaya əsasən Azərbaycanın döyüşsüz nəzarətə götürdüyü üç rayondan biri olan Ağdamın şəhər mərkəzi "ruhlar şəhəri" təəssüratını yaradır. Bura 1993-cü ildə Ermənistan tərəfindən işğal edilmiş, yerli əhalisi tərk etdikdən sonra talan olunmuş və indiyədək kimsənin yaşamadığı bir ərazidir. Bu şəhəri, həmçinin "Qafqazın Xirosiması" adlandırırlar.

Reportajda vurğulanır ki, 27 ildən sonra geri qayıdan şəhər sakini Məryəm İsmayılova da qürurludur. O, məscidin minbərindən öz yaşadığı məhəlləsini göstərir və evlərinin tamamilə dağıdıldığını söyləyir. Bildirir ki, şəhərdə yeganə salamat qalan tikili məsciddir. M.İsmayılova göz yaşları içində deyir ki, vaxtilə Ağdam çox gözəl şəhər olub, lakin indi həmin gözəllikdən əsər-əlamət qalmayıb. O qeyd edir ki, ermənilər şəhərə hücum edəndə evlərindən heç nə götürə bilməyib, bütün əşyalarını orada qoyaraq canlarını xilas etməyə çalışıblar. Qardaşı və həyat yoldaşı həmin vaxt yaralanaraq itkin düşüblər, onlardan indiyədək heç bir xəbər yoxdur. Onlar minlərlə itkin düşəndən yalnız ikisidir: "O vaxt bizi niyə öldürürdülər, mənim həyat yoldaşımın günahı nə idi? Oğlum mənə ermənilərin əsirləri qətlə yetirdikləri videoları göstərir. Haradan bilim, bəlkə mənim də həyat yoldaşımı o cür işgəncələrə məruz qoyub və qətlə yetiriblər?".

Reportajda deyilir ki, 1990-cı illərə aid digər bir "ruhlar şəhəri" olan Füzulidə Hamlet dağıdılmış məscidin xarabalığı arasında gəzişir. O, alman jurnalistə vaxtilə Ağdam məscidi böyüklükdə olan Füzuli məscidinin yerini və həmin məsciddən qalan minarənin qalığını göstərir: "Bu, məscidin minarəsi də Ağdam məscidinin minarəsi kimi hündür olub. Lakin ermənilər onu məhv ediblər. Füzuli məscidi böyük olub, lakin ona qarşı edilənlərin nəticəsi budur, daş-daş üstündə qalmayıb".

Hamlet onu da bildirdi ki, Azərbaycan Prezidentinin dediyi kimi, ermənilər bizimlə bizim ölkəmizdə bizim dövlətin vətəndaşı kimi bizim bayrağımızın altında və bizim pasportla yaşaya bilərlər.

Sonda müxbir hələ müharibənin acısının təzə olduğunu və ətrafda dağıntıların çox olduğunu qeyd edir.

**Elgün Niftəli**
**AZƏRTAC-ın xüsusi müxbiri, Vyana**

**AZƏRTAC**

**Malayziyadakı iş adamları Azərbaycanın azad edilmiş ərazilərində bərpa işlərində iştiraka dəvət olunub**

09.12.2020 [18:32]

Malayziyanın BERNAMA Milli İnformasiya Agentliyi Azərbaycanın bu ölkədəki səfiri Qaley Allahverdiyevin müsahibəsini yayıb.

AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, "Azərbaycan azadetmə mərhələsindən müharibədən sonrakı bərpa işləri dövrünə qədəm qoyub" adlı müsahibədə diplomat malayziyalı iş adamlarını ölkəmizdə işğaldan azad edilmiş ərazilərdə aparılacaq bərpa işlərində fəal iştiraka dəvət edib. Bildirib ki, 30 ilə yaxın bir müddətdə Ermənistanın işğal altında saxladığı ərazilərdə bərpa işlərinin aparılmasında malayziyalı iş adamları da fəal şəkildə iştirak edə bilərlər.

Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə Ağdam, Laçın və Kəlbəcər rayonlarının bir güllə atılmadan belə azad edilməsinə diqqət çəkən diplomat hazırda həmin ərazilərdə bərpa işlərinə başlanılmasının planlaşdırıldığını bildirib. Qeyd edib ki, Prezident İlham Əliyevin bu ərazilərin sosial-iqtisadi bərpası ilə əlaqədar çox dəqiq fikirləri var.

Səfir Azərbaycan Prezidentinin birinci xanım Mehriban Əliyeva ilə birlikdə işğaldan azad edilmiş ərazilərə şəxsən səfər etdiyi və buradakı dağıntılarla yerində tanış olduğu barədə də məlumat verib. Vurğulayıb ki, dövlətimizin başçısı Ermənistanın işğalından azad edilmiş ərazilərin əsaslı bərpası və dirçəldilməsi üçün hökumətin ciddi plana sahib olduğunu bəyan edib. İşğal altında olmuş ərazilərdə dağıntıların səviyyəsi barədə təsəvvür yaratmaq üçün Q.Allahverdiyev son illər "Qafqazın Xirosiması" adı verilmiş Ağdam şəhəri barədə də danışıb.

Səfir işğalın Azərbaycana iqtisadi ziyanla yanaşı, böyük ekoloji zərbə vurduğunu da müsahibəsində xüsusi qeyd edib.

Müsahibədə Ermənistan-Azərbaycan münaqişəsinin tarixi barədə də ətraflı məlumat verilib. Qeyd edilib ki, 1988-ci ildə Ermənistanın Azərbaycana qarşı əsassız iddiaları 1991-ci ildə müharibəyə çevrilib və xarici havadarlarına arxalanan Ermənistan Azərbaycan ərazisinin 20 faizini işğal edib. Bir milyona yaxın azərbaycanlı öz ata-baba yurdlarından didərgin salınıb.

1994-cü ilin mayında imzalanan atəşkəs rejimi Ermənistan ordusunun təxribatları nəticəsində daim pozulub və cari il sentyabrın 27-də başlanan növbəti təxribat Azərbaycan Silahlı Qüvvələrinin əks-hücumuna səbəb olub. Altı həftə davam edən döyüşlər nəticəsində işğal altında olan Azərbaycan torpaqları tam azad edilib.

**Vüqar Ağayev**
**AZƏRTAC-ın xüsusi müxbiri, Kuala Lumpur**

**AZƏRTAC**

**ANAMA tərəfindən beş rayonda 58 mina aşkarlanıb**

[08:32] 10.12.2020

Son iki gündə Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyə (ANAMA) Ağdam, Ağcabədi, Bərdə, Füzuli və Tərtər rayonları ərazisində mərmilərin aşkar olunması barədə Daxili İşlər Nazirliyinin "102" Xidməti-Zəng mərkəzi sistemindən 28 və Fövqəladə Hallar Nazirliyinin Böhran Vəziyyətlərində İdarəetmə mərkəzindən 2 müraciət daxil olub.

ANAMA-dan AZƏRTAC-a bildirilib ki, daxil olmuş 30 çağırış əsasında agentliyin xüsusi mobil çevik əməliyyat qrupları tərəfindən Daxili İşlər Nazirliyinin əməkdaşları ilə birlikdə 25 operativ və təxirəsalınmaz əməliyyat çıxışı həyata keçirilib. Aparılmış əməliyyat-axtarış tədbirləri zamanı 20 ədəd partlamamış hərbi sursat (PHS), 1 ədəd bombacıq, 18 ədəd tank əleyhinə mina, 40 ədəd piyada əleyhinə mina, 54 ədəd tank əleyhinə minanın partladıcısı və 21 ədəd partlamış mərmi qalıqları aşkar olunub.

Agentliyin partlayış qrupu tərəfindən 9 ədəd mina və partlamamış hərbi sursat (PHS) zərərsizləşdirilib, Mina Təhlükəsinə dair Maarifləndirmə üzrə mütəxəssislər tərəfindən 80 141 nəfər mülki şəxs arasında mina təhlükəsizliyinə dair maarifləndirmə təbliğatı aparılıb.

**AZƏRTAC**

**Müdafiə Nazirliyi Ağdam rayonunun Qasımlı kəndinin videogörüntülərini paylaşıb**

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi Ağdam rayonunun Qasımlı kəndinin videogörüntülərini yayıb.

AZƏRTAC Müdafiə Nazirliyinin mətbuat xidmətinə istinadla həmin görüntüləri təqdim edir.

**AZƏRTAC**
**2021, 15 yanvar**

**Müdafiə Nazirliyi Ağdam rayonunun Şelli kəndinin videogörüntülərini paylaşıb**

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi Ağdam rayonunun işğaldan azad edilmiş Şelli kəndinin videogörüntülərini yayıb.

AZƏRTAC Müdafiə Nazirliyinin mətbuat xidmətinə istinadla həmin görüntüləri təqdim edir.

**AZƏRTAC**
**2021, 16 yanvar**

**Müdafiə Nazirliyi Ağdam rayonunun işğaldan azad edilmiş Xıdırlı kəndinin videogörüntülərini paylaşıb**

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi Ağdam rayonunun işğaldan azad edilmiş Xıdırlı kəndinin videogörüntülərini yayıb.

AZƏRTAC Müdafiə Nazirliyinin mətbuat xidmətinə istinadla həmin görüntüləri təqdim edir.

Xıdırlı Kəndi 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunub. İkinci Qarabağ müharibəsində ordumuzun Şanlı Qələbəsindən sonra Azərbaycan Prezidenti, Rusiya Prezidenti və Ermənistan baş naziri tərəfindən ötən il noyabrın 10-da imzalanmış üçtərəfli bəyanata əsasən, noyabrın 20-də Ağdam rayonu Azərbaycana təhvil verilib.

**AZƏRTAC**
**2021, 18 yanvar**

**"National Geographic" "Instagram" səhifəsində Ağdam şəhərində ermənilərin törətdikləri dağıntıları əks etdirən fotolar paylaşıb**

"National Geographic" özünün "Instagram" səhifəsində Azərbaycanın işğaldan azad edilmiş Ağdam şəhərində ermənilərin törətdikləri dağıntıları əks etdirən fotolar paylaşıb.

AZƏRTAC xəbər verir ki, "National Geographic"in paylaşımında bir vaxtlar 40 min əhalinin yaşadığı, bu yaxınlarda azad edilmiş Ağdam şəhərinin təxminən 30 il Ermənistanın işğalı altında qalması nəticəsində dağıntılar içində olduğu bildirilir. Qeyd edilir ki, 1993-cü ildə Ermənistan-Azərbaycan münaqişəsi zamanı Ağdam işğal olunduqdan sonra şəhərdə məsciddən başqa bütün tikililər dağıdılıb. Uzun sürən münaqişə bir milyondan çox insanın köçkün düşməsinə səbəb olub.

Paylaşımda diqqətə çatdırılır ki, ötən ilin sentyabr ayında başlayan hərbi əməliyyatlar 44 gün davam etdi və Rusiyanın vasitəçiliyi ilə əldə olunan sülh razılaşması ilə başa çatdı. Azərbaycan 1990-cı illərdə itirdiyi ərazilərin böyük hissəsini geri qaytardı.

**AZƏRTAC**
**2021, 29 yanvar**

**Alman portalında ermənilər tərəfindən dağıdılmış kəndlər haqqında videoreportaj yerləşdirilib**

Almaniyanın "Die Welt" qəzetinin onlayn platforması olan "welt.de" portalında Klemens Hirmke və Daniel-Dilan Bömerin müəllifliyi ilə "Mən qürurla geri dönəcəyəm" başlıqlı videoreportaj yerləşdirilib.

AZƏRTAC xəbər verir ki, videoreportajda Azərbaycanın Tərtər rayonunun Şıxarx kəndi və ermənilər tərəfindən dağıdılmış Ağdam şəhərindəki vəziyyətdən bəhs olunur.

Bildirilir ki, Azərbaycanın Şıxarx kəndinin sakinləri bu kəndə 1993-cü ildə Dağlıq Qarabağdan qovulma nəticəsində köçüblər və hazırda qovulduqları ərazinin qonşuluğunda yaşayırlar. Kənd sakini Akif Əhmədov azərbaycanlıların kəndə köçməsindən sonra burada öz evlərini inşa etdiklərini bildirir. O, həmçinin son müharibə zamanı gözündən və əlindən qəlpə yarası alıb.

Digər kənd sakini Nəsibə Cabbarova ermənilər tərəfindən qovulan zaman bütün əmlaklarını tərk etdikləri ərazidə qoyub gəldiklərini və ermənilərin onların yurdunu zorla ələ keçirməyə cəhd etdiyini vurğulayır. O, həmçinin son müharibə zamanı ona məxsus evin ermənilərin raket hücumuna məruz qalmasından bəhs edir.

Şıxarx kəndinin sakinləri vətənlərinin işğaldan azad olunmasını məmnunluqla vurğulayır, sevinclə artıq qaçqın olmadıqlarını və geri qayıdacaqlarını bildirir, habelə buna görə Azərbaycan Ordusuna və Prezidentinə təşəkkür edirlər.

Qeyd olunur ki, 2020-ci ilin payız aylarında baş vermiş müharibə zamanı Azərbaycan 1993-cü ildə Ermənistan tərəfindən işğal olunmuş Ağdam şəhəri də daxil olmaqla, bir sıra ərazilərini geri qaytarıb. Əlavə olunur ki, bir zamanlar Ağdamda 28 min əhali yaşayıb. 10 noyabr 2020-ci il tarixində əldə olunmuş razılaşmanın şərtlərinə əsasən ermənilər şəhəri tərk etməli olub. Hazırda ərazi sıx şəkildə minalanıb və oradakı binalar dağıdılıb. Vurğulanır ki, ərazinin minalardan təmizlənməsi bir neçə il davam edəcək.

Videoreportajda Ağdam şəhərinin keçmiş sakini Məlahət Quliyeva doğma şəhərinin əvvəlki vəziyyəti barədə məlumat verir. O, yurd-yuvalarından qovulan zaman yaxın qohumlarından 8 nəfərin şəhid olduğunu, onlardan dördünün itkin düşdüyünü, dördünü isə dəfn edə bildiklərini qeyd edir.

**Vüqar Seyidov**
**AZƏRTAC-ın xüsusi müxbiri, Berlin**

**AZƏRTAC**
**2021, 29 yanvar**

**Türkiyə KİV-ləri Ağdamda Birgə Monitorinq Mərkəzinin fəaliyyətə başlamasını geniş işıqlandırıb**

Azərbaycanın Qarabağ bölgəsində Türkiyə-Rusiya Birgə Monitorinq Mərkəzinin fəaliyyətə başlaması qardaş ölkənin kütləvi informasiya vasitələri tərəfindən geniş işıqlandırılıb.

AZƏRTAC xəbər verir ki, bu münasibətlə yanvarın 30-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanla telefon danışığı da türkdilli oxuculara təqdim olunub.

Anadolu, DHA xəbər agentlikləri, "TRT Haber", "A Haber", NTV, "Haber Türk", "CNN Türk" telekanalları, "Sabah", "Milliyet" və digər qəzetlər Birgə Monitorinq Mərkəzinin açılış mərasimindən video və fotolar yayıblar.

Məlumatlarda qeyd olunur ki, Monitorinq Mərkəzinin ümumi sahəsi 4 hektara yaxındır. Ərazidə 65 ədəd modul tipli xidməti, inzibati və yaşayış otaqları var. Bütün otaqlar zəruri avadanlıqlar, su, elektrik və istiliklə təmin olunub.

Diqqətə çatdırılır ki, müzəffər Azərbaycan Ordusu ötən il sentyabrın 27-də başlanan Vətən müharibəsi nəticəsində ərazilərini işğaldan azad edərək təcavüzkar Ermənistanı təslim olmağa məcbur edib. Türkiyə-Rusiya Birgə Monitorinq Mərkəzi məhz bu Qələbə nəticəsində yaranmış atəşkəsin davamlı olmasına nəzarət edəcək.

**Sabir Şahtaxtı**
**AZƏRTAC-ın xüsusi müxbiri, Ankara**

**AZƏRTAC**
**2021, 30 yanvar**

**Müdafiə Nazirliyi Ağdam rayonunun Qullar kəndinin videogörüntülərini paylaşıb**

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi işğaldan azad edilmiş Ağdam rayonunun Qullar kəndinin videogörüntülərini paylaşıb.

AZƏRTAC Müdafiə Nazirliyinin mətbuat xidmətinə istinadla həmin görüntüləri təqdim edir.

**AZƏRTAC**
**2021, 31 yanvar**

**Müdafiə Nazirliyi Ağdam rayonunun Qarazeynallı kəndinin videogörüntülərini paylaşıb**

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi Ağdam rayonunun işğaldan azad edilmiş Qarazeynallı kəndinin videogörüntülərini yayıb.

AZƏRTAC Müdafiə Nazirliyinin mətbuat xidmətinə istinadla həmin görüntüləri təqdim edir.

Xatırladaq ki, İkinci Qarabağ müharibəsində Ordumuzun Şanlı Qələbəsindən sonra Azərbaycan Prezidenti, Rusiya Prezidenti və Ermənistan baş naziri tərəfindən ötən il noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanata əsasən, Ağdam rayonu noyabrın 20-də Azərbaycana təhvil verilib.

**AZƏRTAC**
**2021, 3 fevral**

**Fransanın "Atlantico" portalı: Qarabağın kabus şəhəri Ağdam dirçəlişini gözləyir**

Fransanın "Atlantico" portalında "Qarabağın kabus şəhəri Ağdam dirçəlişini gözləyir" adlı məqalə dərc olunub.

Məqalədə deyilir ki, Birinci Qarabağ müharibəsi zamanı bölgədəki çoxsaylı şəhər və kəndlər "böyük Ermənistan" xəyallarını reallaşdırmağa cəhd edən ermənilərin nəzarəti altına keçdi. Müharibə nəticəsində 800 min azərbaycanlı doğma yurdundan didərgin düşərək məcburi köçkünə çevrildi. Ermənilər tərəfindən işğal ediləndən sonra Ağdamda müharibədən əvvəlki həyat yoxa çıxdı və şəhər kabus məkana çevrildi. Ağdam sakini olan Tərlan İsgəndərova müharibə zamanı başlarına gələn hadisələrdən danışır. O, həmin vaxt 26 yaşlı ərinin həlak olduğunu, özünün hamilə vəziyyətdə evindən qaçmağa məcbur qaldığını bildirir. "Həyat yoldaşımdan qalan yeganə yadigarım qızımdır. Bütün əşyalarımızı qoyub çıxmalı olduq", - deyən Tərlan Xocalıda törədilmiş qırğının onların şəhərində də təkrarlanacağından ehtiyat etdiklərini deyir. Köçkünlüyün ilk illərini çadırda keçirən, sonradan dövlətin bağışladığı gözəl mənzildə yaşayan Tərlan Ağdamı tərk edərkən hətta ərinin cəsədini tapa bilmədiyi, bu gün onun bir qəbri belə olmadığını söyləyir.

Jurnalist ermənilərin Ağdamda törətdikləri dağıntılardan bəhs edir. O yazır ki, şəhər talan edilərək dağıdılıb. Bir vaxtlar teatrı, mehmanxanaları, müxtəlif müəssisələri ilə Qarabağın əsas mərkəzlərindən olan Ağdamdan heç nə qalmayıb. Dünyada yeganə olan Çörək muzeyi, məşhur Muğam Mərkəzi yerlə-yeksan edilib. Yalnız ermənilərin nəzarət məntəqəsi kimi istifadə etdikləri bir məscid qalıb. Ermənilər hər şeyi, hətta evlərin daşlarını belə söküb aparıblar.

Müəllif onu da diqqətə çatdırır ki, İkinci Qarabağ müharibəsindən sonra ermənilər əraziləri tərk edərkən bütün evləri yandırıb, hər tərəfi minalayıblar. O qeyd edir ki, 2020-ci il noyabrın 20-də Azərbaycana qaytarılmış və geniş xarabalıqdan ibarət olan Ağdamda bu gün minatəmizləyənlər fəaliyyət göstərirlər. Əhalinin doğma evlərinə qayıtmaları üçün zamana ehtiyac var. Azərbaycan hökuməti şəhəri əvvəlki formada yenidən bərpa edəcəyini bildirib.

Jurnalist vurğulayır ki, bu gün bütün məcburi köçkünlərin yeganə bir arzusu var, o da doğma torpaqlarına qayıtmaqdır.

**Şəhla Ağalarova**
**AZƏRTAC-ın xüsusi müxbiri, Paris**

**AZƏRTAC**
**2021, 3 fevral**

**“France Inter” radiosu Azərbaycanın erməni işğalından azad edilmiş ərazilərindən reportaj hazırlayıb**

“France Inter” radiosu Azərbaycanın erməni işğalından azad edilmiş ərazilərindən reportaj hazırlayıb.

AZƏRTAC xəbər verir ki, verilişdə erməni işğalından azad edilmiş rayonlarımızdakı vəziyyət haqqında məlumat verilir, Ağdamdan, Zəngilandan olan köçkünlərin fikirləri təqdim edilir. Jurnalistin olduğu şəhər və kəndlərdən çəkilmiş şəkillər və məcburi köçkünlərlə söhbət radionun internet səhifəsində yerləşdirilib.

Qeyd edilib ki, Birinci Qarabağ müharibəsinin 30 min qurbanı olub və yüz minlərlə azərbaycanlı doğma evindən qovularaq məcburi köçkün həyatı yaşayıb. Həmin köçkünlər tezliklə evlərinə qayıtmaq arzusu ilə yaşayırlar.

Jurnalist əvvəlcə Ağdam haqqında məlumat verərək, Ermənistan silahlı qüvvələrinin onu Dağlıq Qarabağ ətrafında bufer zona kimi istifadə etməsindən, şəhəri yerlə-yeksan etməsindən söhbət açır. Bildirir ki, şəhərdə yalnız ermənilərin hərbi məqsədlər üçün istifadə etdikləri tikili və tövləyə çevrilmiş məscid qalıb. Kabusu xatırladan Ağdamdan çəkilmiş şəkillər radionun internet səhifəsində yerləşdirilib.

“Bu torpaq bizim əcdadlarımızın torpağıdır. Bura bizim Vətənimizdir. Bu torpaq uğrunda mənim üçün ən əziz insanı itirdim. Qızım atasız böyüdü”, - deyə azərbaycanlı məcburi köçkün yaşadığı dəhşətlərdən söz açır.

Zəngilan rayonuna səfər etmiş fransız jurnalist bu rayonun aparılan döyüşlər nəticəsində azad olunduğunu qeyd edir. O bildirir ki, hazırda Zəngilanda yalnız minatəmizləyənlər gözə dəyir.

Zəngilanda döyüşmüş və yaralanmış Qədir jurnalistlərlə söhbətində xalqın Prezident İlham Əliyevin arxasında dayandığını bildirir. O, Prezident İlham Əliyevin qalib Ali Baş Komandan olduğunu vurğulayır: “Birinci Qarabağ müharibəsi zamanı hazırlıqlı deyildik. Ancaq ikinci müharibədə Ali Baş Komandanın yolu bəlli idi və xalq onun qələbəsinə inanırdı. Mən inanırdım ki, biz qısa zamanda qələbə qazanacağıq. Bu qələbədən sonra Prezidentimizə hörmətimiz daha çox artdı”.

Verilişdə ölkənin hər yerində “Qarabağ Azərbaycandır!” şüarının nümayiş etdirildiyi, qəhrəman əsgərlərin şücaətini əks etdirən videoların yayıldığı bildirilir.

Verilişdə mədəniyyət naziri Anar Kərimovun fikirlərinə də yer verilir. O, birgə yaşamağın davamlı həllin tapılması baxımından əhəmiyyətini qeyd edir. “Ermənilərin etdiklərini unutmuruq, ancaq hər iki icmanın barışığına açığıq”, - deyə nazir bildirir.

Sonda qeyd olunur ki, ki, müharibə yaralarının sağalması vaxt tələb edir. Həmçinin yüz minlərlə azərbaycanlı köçkünün qayıdışı, ilk növbədə, ərazilərin minalardan təmizlənməsi, infrastrukturun bərpası üçün hələ müəyyən vaxt lazımdır.

**Şəhla Ağalarova**
**AZƏRTAC-ın xüsusi müxbiri, Paris**

**AZƏRTAC**
**2021, 4 fevral**

**“National Geographic” jurnalında Azərbaycanın işğaldan azad edilmiş ərazilərində vəziyyət barədə fotoreportaj dərc edilib**

Amerikada çıxan “National Geographic” jurnalında azərbaycanlı məşhur fotoqraf Rəna Əfəndinin “Mən evimin hələ öz yerində qalıb-qalmadığını bilmirəm” sərlövhəli fotoreportajı dərc edilib.

AZƏRTAC xəbər verir ki, fotoqrafın erməni işğalından azad edilmiş Ağdam, Qubadlı, Füzuli və Kəlbəcər rayonlarına səfəri zamanı hazırlanmış bu reportajda Birinci Qarabağ müharibəsi dövründə həmin ərazilərdən qovulmuş ailələrin taleyindən bəhs edilir.

Belə insanlardan biri – İradə Quliyeva müsahibəsində deyib: “Biz hər şeyi qoyub getdik. Hətta pulumuzu və sənədlərimizi də götürə bilmədik. Haçansa oraya qayıdacağımıza ümidimizi itirmişdik”.

1992-ci ildə Ağdam rayonu erməni qoşunları tərəfindən işğal edilərkən İradə və onun ailəsi doğma Qasımlı kəndini tərk ediblər.

Qasımlı kəndi işğal ediləndən bir neçə həftə əvvəl 1992-ci il fevral ayında erməni işğalçılar tərəfindən Xocalı şəhərində dinc əhaliyə qarşı törədilmiş qırğından sonra İradə və həyat yoldaşı İmran Xocalıdan olan bir neçə ailəyə sığınacaq vermişdi. İmran o günləri xatırlayaraq deyir: “Bu insanlar yarıçılpaq vəziyyətdə gəlmişdi, yaralarından qan axırdı. Bir uşaq, demək olar ki, donmuşdu, nəfəs ala bilmirdi”.

Erməni silahlı dəstələrinin Xocalıdan qaçan dinc azərbaycanlı sakinlərə atəş açması nəticəsində yüzlərlə kişi, qadın və uşaq qətlə yetirilib. Sonradan “Human Right Watch” hüquq-müdafiə təşkilatı və digər beynəlxalq təşkilatlar bu vəhşiliyi pisləmişdi. Erməni quldurlarının əlindən qaçan onlarca insan meşələrdə donmuşdu. İmran deyib: “Xocalı işğal ediləndə bildik ki, bizim də aqibətimiz belə olacaq”.

Ermənilər Azərbaycanın 7 rayonunu işğal edəndə yarım milyondan çox azərbaycanlı, o cümlədən Quliyevlər ailəsi evlərini itirdi. Bu ailə Bakı ətrafında sovet dövründən qalmış bir sanatoriyada sığınacaq tapıb və 20 ildən çox orada yaşayıb.

2020-ci il noyabrın 20-də İradə eşitdiyi xəbərdən sevinərək televizorun ekranını öpüb. Azərbaycan Ordusu Ağdamı geri alıb. Keçən il sentyabr ayında Azərbaycan əvvəllər azərbaycanlıların yaşadığı öz əraziləri üzərində nəzarəti bərpa etmək üçün hərbi əməliyyata başladı. İkinci Qarabağ müharibəsi 44 gün davam etdi və Rusiyanın vasitəçiliyi ilə atəşkəs barədə bəyanat imzalanması ilə başa çatdı. İradə deyir: “Elə bil üstümdən ağır bir yük götürüldü”.

Azərbaycanlı məcburi köçkünlər 30 ilə yaxın müddətdə ilk dəfə olaraq işğaldan azad olunmuş torpaqlara qayıda biləcəklər. Lakin az sonra məlum oldu ki, bu insanların həmin ərazilərdə daimi yaşaya bilməsi üçün hələ xeyli vaxt lazımdır. Hələlik hərbçilər bu regiona səfərlərə ciddi nəzarət edirlər. Ən pisi budur ki, orada, hətta döyüş əməliyyatları aparılmayan rayonlarda da həyat üçün zəruri olan nə vardısa, hamısı məhv edilib. Buna baxmayaraq, Quliyevlər ailəsi öz köhnə evlərini görmək istəyirdi.

Rəna Əfəndi daha sonra qeyd edir ki, o, İmran, oğlu Rəşad və onun ailəsi ilə birlikdə Ağdama gedib. Rəşad valideynləri ilə birlikdə Ağdamı tərk edəndə onun 12 yaşı vardı. Fotoqraf xüsusi qoruyucu geyimli insanların işğaldan azad edilmiş torpaqları minlərlə minadan təmizləmək üçün apardıqları gərgin və təhlükəli işi təsvir edir.

Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin yerli bölməsinin rəhbəri Xaliq Zülfüqarovun sözlərinə görə, işğal edilmiş bütün ərazilərin minalardan təmizlənməsi 10 ilə qədər vaxt tələb edə bilər.

R.Əfəndi yazır: “Biz vaxtilə 40 minə yaxın insanın yaşadığı Ağdam şəhərinə çatanda Quliyevlər ailəsinin həyəcanları heyrətlə əvəz olundu. Bu şəhərdə salamat qalmış yeganə bina məscid idi. Ermənilər son 30 ildə şəhərdəki bütün tikililəri mütəmadi olaraq söküb və qarət ediblər. Rəşad və onu həyat yoldaşı Ağdamın mərkəzindəki sakit meydanda uşaqları ilə bərabər selfi çəkdilər. Şəhərin mərkəzindən xeyli uzaqda hərbçilərin səsləri və mina partlayışları eşidilirdi”.

Qasımlı kəndində keçmiş məscidin əsas zalına daxil olan Rəna Əfəndi açıq səmaya baxıb: Məscidin günbəzi və minarəsi yox idi. Döşəməyə quru ot tökülmüşdü. Yaxın vaxtlarda yandırılmış küləş və mal peyini iyi gəlirdi. Ermənilər bu məsciddən anbar kimi istifadə ediblər.

Quliyevlər ailəsi özlərinin dağıdılmış evlərinə yaxınlaşmaq üçün əsgərlərdən icazə alıblar. Bir neçə telefon zəngindən sonra hərbçilər bu ailənin öz evlərinin xarabalıqlarına yaxınlaşmasına icazə veriblər, o şərtlə ki, asfalt yoldan kənara çıxmasınlar. Kəndin kənarında bəzi evlərin divarları hələ salamatdır, lakin binaların əksəriyyətinin dam örtüyü və pəncərə çərçivələri yoxdur, bəzi evlərdə isə yanğın izləri görünür.

1993-cü ildə bu rayonda məskunlaşmış bəzi erməni fermerləri 2020-ci il noyabr ayında rayon Azərbaycana təhvil verilənə qədər bu ərazini tərk etməzdən əvvəl oradakı evləri yandırıblar.

Müəllif Quliyevlər ailəsi ilə vidalaşandan sonra Kəlbəcərə - işğal edilmiş rayonların ən böyüyünə yola düşüb. 1993-cü ildə Kəlbəcər rayonu erməni qoşunları tərəfindən işğal ediləndə rayonun dinc sakinləri Murovdağ silsiləsindən qaçmağa məcbur olmuşdu. Həmin günlərdə xeyli insan soyuqdan ölmüşdü.

Bu amansız və sürəkli müharibənin son mərhələsində 3 minə yaxın azərbaycanlı hərbi qulluqçu həlak olub, 750 mindən çox insan məcburi köçkün vəziyyətində qalır. Qubadlıdan olan bir sakin Azərbaycan Ordusunun əsgərləri barədə söhbət açaraq deyir: "Bütün bu illər ərzində bizə zülm edilib. Əsgərlərimiz bizim mənliyimizi özümüzə qaytardılar".

Məcburi köçkünlərin çoxu, xüsusən yaşlı adamlar öz ata-baba yurdlarına qayıtmaq istəyir, lakin onların şəhərləri və kəndləri daimi yaşayış üçün yararlı vəziyyətə gətirilənə qədər hələ 10 il vaxt lazım gələ bilər.

Rəna Əfəndinin təqdim etdiyi materialda Azərbaycan ərazilərinin erməni silahlı qüvvələri tərəfindən işğal olunmasının nəticələrini əks etdirən çoxlu fotoşəkil var. Bu fotoşəkillərdə illər boyu torpaqların azad olunmasını gözləyən məcburi köçkünlərin yorğun sifətləri, ermənilər tərəfindən yandırılmış torpaqlar, ermənilər həmin əraziləri tərk edəndən əvvəl qırdıqları elektrik xətləri, Ağdam, Füzuli və azad edilmiş digər rayonlarda kütləvi dağıntılar görünür.

Xudavəng alban monastırının və Ağdam rayonunun Qiyaslı kəndindəki məscidin xarabalıqlarının müqayisəli fotoşəkilləri xüsusilə diqqəti cəlb edir. Azərbaycanın hakimiyyət orqanlarının icazəsi ilə erməni keşişlər Xudavəng monastırında ibadəti davam etdirirlər, Qiyaslı məscidində isə ermənilər heyvan saxlayırdılar. Bax budur erməni işğalının və Ermənistan dövlətinin pozucu siyasətinin reallıqları.

**AZƏRTAC-ın Vaşinqton bürosu**

**AZƏRTAC**
**2021, 6 fevral**

**Müdafiə Nazirliyi Ağdam rayonunun Mollalar kəndinin videogörüntülərini paylaşıb**

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi Ağdam rayonunun işğaldan azad edilmiş Mollalar kəndinin videogörüntülərini yayıb.

AZƏRTAC Müdafiə Nazirliyinin mətbuat xidmətinə istinadla həmin görüntüləri təqdim edir.

Xatırladaq ki, Mollalar kəndi 1993-cü il iyunun 15-də Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunub.

İkinci Qarabağ müharibəsində ordumuzun Şanlı Qələbəsindən sonra Azərbaycan Prezidenti, Rusiya Prezidenti və Ermənistan baş naziri tərəfindən ötən il noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanata əsasən, Ağdam rayonu noyabrın 20-də Azərbaycana təhvil verilib.

**AZƏRTAC**
**2021, 9 fevral**

**Müdafiə Nazirliyi Ağdam rayonunun Qurdlar kəndinin videogörüntülərini paylaşıb**

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi işğaldan azad edilmiş Ağdam rayonunun Qurdlar kəndinin videogörüntülərini yayıb.

AZƏRTAC Müdafiə Nazirliyinin mətbuat xidmətinə istinadla həmin görüntüləri təqdim edir.

Qurdlar kəndi 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunub. İkinci Qarabağ müharibəsində ordumuzun Şanlı Qələbəsindən sonra Azərbaycan Prezidenti, Rusiya Prezidenti və Ermənistan baş naziri tərəfindən ötən il noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanata əsasən, Ağdam rayonu noyabrın 20-də Azərbaycana təhvil verilib.

**AZƏRTAC**
**2021, 11 fevral**

## “Kommersant”: Ağdamın bugünkü görkəmi Qarabağın incisinə oxşamır

“Qarabağ Azərbaycandır” sözləri bu gün Azərbaycanda ən geniş yayılmış ifadədir. Heydər Əliyev Beynəlxalq Aeroportunun binasındakı böyük ekranlarda yazılıb: “Qarabağ Azərbaycandır”. Şəhərin küçələrindəki reklam şitlərində deyilir: “Qarabağ Azərbaycandır”. Yollarda şütüyən reys avtobuslarının marşrut tablolarında yazılıb: “Qarabağ Azərbaycandır”.

Rusiyada nəşr edilən “Kommersant” qəzetində Aleksey Naumovun “Qaliblərin müharibədən sonrakı şoku. Azərbaycan müasir tarixdə ən iri hərbi qələbəyə öyrəşməyə çalışır” sərlövhəli məqaləsi dərc olunub.

AZƏRTAC həmin məqaləni təqdim edir.

**X X X**

Qarabağ həmişə Azərbaycanın ərazisi olub. Təkcə hüquqi mənada deyil, rəmzi mənada da belə olub: yerli mətbəələrdə mütəmadi olaraq müvafiq xəritələr çap edilib, “Şuşa” və ya “Ağdam” sözləri yazılmış yol nişanları uzun illər boyu öz yerində qalıb və səylə təzələnib.

Vəziyyət barədə əcnəbilərə də məlumat verilirdi: məsələn, Bakı bank terminallarının ekranlarında respublika ərazisinin 20 faizinin işğal edilməsi barədə ingilis dilində məlumat verilirdi. Bakının xarici aləmlə əlaqələri də əsasən Qarabağ problemi və “Dağlıq Qarabağ erməniləri”nin nəzarəti altında olan rayonları Azərbaycana qaytarmağa çağıran BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsi üzərində qurulmuşdu.

Böyük mağazaların vitrinlərində, küçələrdə şaurma satılan balaca köşklərin pəncərələri arxasında, təmtəraqlı şirkətlərin binalarında da bu yaxınlarda başa çatmış müharibənin və bu müharibədə müzəffər qələbənin izlərini – Azərbaycan torpağı uğrunda döyüşə yola düşən əsgərlərin hərbi formada çəkilmiş fotoşəkillərini görmək olar.

Ölkənin yerli sakinlərinin şəkilləri ilə yanaşı sarışın saçlı oğlanların şəkilləri də tez-tez rast gəlir. “Kommersant” nəşrinin şərhçisi “Azərbaycan İctimai Televiziyası”nın binasında fəxri stenddə bir nəfərin fotoşəklini göstərərək dedi: “Bu, Dmitri Markovdur”. Başqa etnik qrupların nümayəndələrinin yerli KİV-lərdə xüsusi fərqlənməsini demək düz olmazdı, lakin belə qonşuluq ölkədə bəyan edilmiş beynəlmiləliyin ən yaxşı təsdiqidir.

Yaxın vaxtlarda baş vermiş hadisələrə daha bir sübut – küçələrdə və balkonlarda çoxsaylı bayraqlar asılmasıdır. Bu ölkədə artıq bir neçə ildir ki, Azərbaycan bayraqları asılır, amma Türkiyə bayraqlarının çoxu Qarabağ müharibəsində Türkiyənin qətiyyətli dəstəyindən sonra görünməyə başlayıb. Bəzən bu iki bayrağa Pakistanın bayrağını da əlavə edirlər və üzərində aypara şəkli çəkilmiş üç bayraq bir növ siyasi triptix təşkil edir. “Kommersant” qəzetinin apardığı rəy sorğusunda iştirak etmiş Bakı sakinləri xatırlayırlar ki, Rusiyanın fəal iştirakı ilə Qarabağda vəziyyət nizamlanandan sonra postsovet tarixində ilk dəfə Bakı küçələrində Rusiya Federasiyasının bayraqları da görünüb.

Müharibə artıq keçmişdə qalıb: Ermənistan tərəfinin “Dağlıq Qarabağın təhlükəsizlik kəməri” adlandırdığı yeddi Azərbaycan rayonu Bakının nəzarəti altına qaytarılıb. Bu quru rəqəmlərin arxasında 7,5 min kvadratkilometr ərazi dayanır. Vaxtilə həmin ərazilərdən qaçmağa məcbur olmuş 600 mindən çox insan sonradan ölkənin digər regionlarında məskunlaşıb.

Azərbaycan Milli Elmlər Akademiyasının İqtisadiyyat İnstitutunun direktoru Nazim İmanov “Kommersant” nəşrinin müxbirinə bildirib ki, ölkə rəhbərliyi torpaqların yenidən inteqrasiya edilməsi üçün genişmiqyaslı işə başlayıb. “Prezident Administrasiyasının rəhbəri başda olmaqla 17 işçi qrupdan ibarət bütöv bir qərargah işləyir”, - deyən cənab İmanovun sözlərinə görə bu, çox mürəkkəb məsələdir, çünki ərazinin xeyli hissəsi minalanıb. Yolları nisbətən qısa müddətdə təmizləmək mümkündür, amma bütün torpaqların, o cümlədən əkin yerlərinin minalardan təmizlənməsi üçün illərlə vaxt lazım gələ bilər. Müharibədən əvvəl yerli əhalinin 60 faizinin əkinçiliklə məşğul olduğunu nəzərə alsaq, bu, son dərəcə əhəmiyyətli məsələdir.

Azərbaycan rəhbərliyi ərazilərin bərpası zamanı məhz repatriasiyaya, yəni müharibəyə qədər orada yaşamış insanların və onların övladlarının bu torpaqlara qaytarılmasına üstünlük verməyi qərara alıb. Nazim İmanov bu fikri dəqiqləşdirərək deyib: “Biz oraya 1 milyon insanın qayıdacağını nəzərdə tuturuq. Yaşayış məntəqələri iriləşdiriləcək, iqtisadiyyatın informasiya texnologiyaları kimi müasir sektorları inkişaf etdiriləcək”.

Onu da qeyd etmək lazımdır ki, cənab İmanov işğal altında olan ərazilərin iqtisadiyyatının bərpası məsələsini İkinci Qarabağ müharibəsindən xeyli əvvəl öyrənib və bu mövzuda kitab yazıb. Müzəffər Azərbaycan Ordusunun qələbəsindən sonra N.İmanovun ekspertizası əvvəllər görünməmiş dərəcədə əhəmiyyətli olub. Onun hesablamalarına görə, azad olunmuş torpaqların bərpası üçün 10 il ərzində zəruri investisiyaların həcmi 60 milyard dollara çata bilər. Hazırda Azərbaycanın ümumi daxili məhsulunun həcminin təqribən 48 milyard dollar olduğunu nəzərə alsaq, bu, fantastik məbləğdir. İqtisadçı alim deyib: "Bu məbləğin yalnız dövlət investisiyası olması zəruri deyil. Oraya ayrı-ayrı fiziki şəxslər də, Azərbaycana dost olan Türkiyə və Rusiya kimi dövlətlər də sərmayə qoya bilərlər".

Rəsmi hakimiyyət orqanları onların qarşısına qoyulmuş iqtisadi məsələləri müzakirə edərkən daha təmkinli mövqe tuturlar. Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarov rusiyalı jurnalistlərlə söhbətində deyib: "2021-ci ilin büdcəsində bu məqsədlə təqribən 2,2 milyard manat və ya təqribən 1,3 milyard dollar nəzərdə tutulub". Nazirin sözlərinə görə, Azərbaycanın ehtiyatları sosial ödənişləri və ya digər mühüm dövlət xərclərini azaltmadan reinteqrasiya məsələsini səmərəli həll etməyə imkan verir.

Cənab Cabbarov qeyd edib ki, Azərbaycanın hakimiyyət orqanları işğaldan azad olunmuş əraziləri fəal inkişaf etdirmək, dağ-mədən sənayesi, kənd təsərrüfatı, turizm və yükdaşımalar kimi sahələr üzərində diqqəti cəmləşdirməklə özəl investisiyaları cəlb etmək niyyətindədir. Nazir belə bir ideya da səsləndirib ki, normal iqtisadi fəaliyyətin bərpası regiondakı bütün dövlətlərin, o cümlədən Ermənistanın da xeyrinə olar.

Ümumiyyətlə, "Kommersant" nəşrinin Bakıda apardığı müsahibələrin iştirakçıları ümumi fayda və qarşılıqlı mənfəət ideyası barədə tez-tez danışırdılar. Özü də bu ideya həm iqtisadiyyata – regionun normal fəaliyyətinin bərpasına, həm də siyasətə aiddir.

Azərbaycan Xarici İşlər Nazirliyinin xüsusi tapşırıqlar üzrə səfiri Elşad İsgəndərov deyib: "Azərbaycan rəhbərliyinin həm müharibə dövründə, həm də üçtərəfli Bəyanatın razılaşdırılması prosesində fəaliyyəti bir daha təsdiq etdi ki, əvvələn, Bakı qərarlar qəbul edilməsində müstəqildir və ikincisi, məsuliyyətli və hərəkətləri proqnozlaşdırıla bilən tərəfdaşdır". O vurğulayıb ki, Bakı beynəlxalq hüququn, regional tərəfdaşların mənafelərinin nəzərə alınmasının tərəfdarıdır.

Diplomat daha sonra deyib: "Məhz Prezident İlham Əliyevin etibarlı və ölçülüb-biçilmiş xarici siyasət kursunun sayəsində Azərbaycan bu müharibədən sonra mühüm geosiyasi aktorların, ilk növbədə Rusiyanın və Türkiyənin regional əməkdaşlığı üçün unikal məkana çevrilir. Rusiya-Türkiyə birgə monitorinq mərkəzinin uğurlu fəaliyyətə başlaması bu fikri əyani şəkildə təsdiqləyir. Bu mərkəz Qarabağda uzunmüddətli sülhün mühüm elementi olmaqla bərabər, həm də daha geniş geosiyasi kontekstdə etimad amilidir".

Nəşrin müsahibləri vurğulayıblar ki, Bakı Rusiya və Türkiyə ilə üçtərəfli qarşılıqlı fəaliyyətdə tərəfdaş rolunu yüksək qiymətləndirir və bu, heç kəsdən asılı vəziyyətə düşmədən, öz suverenliyini qurban vermədən regiondakı iki güclü aktor ilə uğurlu iş qurmağa imkan verir. Bundan əlavə, onlar qeyd ediblər ki, Suriya və ya Liviya barədə qarşılıqlı fəaliyyət üçün səciyyəvi olan rəqabət, qarşıdurma kimi aspektlər Moskva ilə Ankaranın qarşılıqlı fəaliyyətində "Azərbaycan keysi"nə xas deyil.

Bakıdan Tərtərə avtomobillə getmək üçün təqribən 4 saat vaxt lazımdır. Vaxtilə cəbhəyanı şəhər sayılan Tərtərin mərkəzi küçəsi göz oxşayır, lakin zahirən cəlbedici binaların demək olar ki, hər birinin zirzəmisində bomba sığınacaqları, sadə çarpayılar, taxta stullar, naqillərdən asılmış elektrik lampaları diqqəti cəlb edir. Yerli administrasiya binasının girəcəyində bütün şəhərdən toplanmış raket qırıntıları yığılıb. Müharibə dövründə döyüş sursatlarını fərqləndirməyi öyrənmiş yerli sakinlər deyirlər: "Balaca raketlər "Qrad", böyük raketlər "Smerç"dir".

Şəhərin hakimiyyət orqanları burada müharibə muzeyi yaratmağa hazırlaşır. Həmin muzey üçün rayondan gətirilmiş birinci eksponat – üzərində partlamamış "Smerç" raketinin səliqə ilə yerləşdirildiyi taxta stol artıq hazırdır. Müharibənin bu əyani sübutunun gətirildiyi Tərtər rayonu da atəşə tutulmaqdan zərər çəkib: Qarabağ qaçqınları üçün tikilmiş evlərin bir qisminin pəncərə çərçivələri çıxarılıb, bəzi yerlərdə bütöv məhəllələr dağıdılıb, divarlarda mərmi qəlpələri qalıb. Məktəblərə də ziyan vurulub: mərmilər məktəb binalarının damlarını dağıdıb, sinif otaqları məhv edilib. Yerli hakimiyyət orqanları təmir işlərinə başlayıblar, yerli sakinlər isə ümid edirlər ki, şəhər daha heç vaxt atəşə tutulmayacaq.

Sakinlər təəccüblə soruşurlar: Bu şəhərdə hərbi hədəflər yox idi, yaxınlıqdakı bütün yüksəkliklərə erməni silahlı qüvvələri nəzarət edirdi, onlar haraya atəş açdıqlarını yaxşı görürdülər, bəs kəndlərə atəş açmaq nəyə lazım idi? Bu suallara cavab verən yoxdur. Ona görə də azərbaycanlılarla ermənilərin tezliklə barışacağının reallığına inam çox zəifdir.

Qarabağın dağlıq və aran hissələrinin sərhədində yerləşən, bir vaxtlar çox zəngin olmuş Ağdam şəhərinə yaxınlaşdıqca bu inam tamam heçə enir. Oraya getmək asan deyil, rayonda mülki administrasiya hələ bərpa olunmayıb, polis bizi hərbi əks-kəşfiyyat xidmətinin qayğıkeş əməkdaşlarına təhvil verir. Bizim mikroavtobus hərbi "Niva" avtomobilinin ardınca gedir. Yolsuzluq şəraitinə uyğunlaşdırılmış "Niva" istehkamçılar tərəfindən hələ tədqiq edilməmiş sahələrdən yan keçməklə şütüyür. Bizim avtomobilin salonunda əyləşmiş əsgərin əlində köhnə AKC-74U silahı var.

Bu gün Ağdam antiutopiya filmi üçün çəkilmiş dekorasiyaya, Curiosity marsoxodundan çəkilmiş fotoşəkillərə, Çuryumov – Gerasimenko kometlərinə və daha nələrə oxşayır, amma Qarabağın incisinə, vaxtilə bütün SSRİ-də məşhur olan portveynin vətəninə oxşamır. Şəhərdə salamat qalmış yeganə bina Ağdam məscididir. Ağdamı işğal etmiş ermənilər bu binadan artilleriya zərbələri endirilməsi üçün nişangah kimi istifadə edirdilər. Uçmuş binaların, məsələn Çörək Muzeyinin qalıqları altında bəzən Azərbaycan dilində kiril əlifbası ilə yazılmış pannolar görünür. Belə qalıqların birində "Konstitusiyası" sözünü çətinliklə də olsa oxuya bildik. (Görünür, həmin pannoda 1978-ci il sovet Əsas Qanununun üstünlüklərindən bəhs edilirmiş).

Birinci Qarabağ müharibəsi zamanı Ağdam şəhərinin çox zərər çəkmədiyini, erməni silahlı qüvvələri tərəfindən şəhərin döyüşsüz təhvil verilməsini nəzərə alsaq, buradakı dağıntıların miqyası sarsıdıcı təsir bağışlayır. Binalar dağıdılıb, ağaclar məhv edilib, tarlalar yandırılıb. Şübhə yoxdur ki, Bakı "DQR-in təhlükəsizlik kəməri"ni sivil görkəmə qaytarmaq üçün hələ uzun müddət çalışmalı olacaq.

Hələlik çox cansıxıcı olan bu mənzərədə yeganə sabitlik adacığı Rusiya-Türkiyə monitorinq mərkəzinin ərazisidir. Azərbaycan hakimiyyət orqanları tərəfindən zərgər dəqiqliyi ilə qurulmuş bu ərazi "güzgü" siyasətinə tam müvafiqdir. Şəhərcik hər mənada bərabər olan iki hissəyə bölünüb. Bu bölgü tərəflərin bərabərhüquqlu və eyni dərəcədə yüksək hörmət sahibi olduqlarını göstərir.

Sov.İKP MK-nın Baş katibi Leonid Brejnevin məşhur "Azərbaycan iri addımlarla irəliləyir!" kəlamını bu günə də aid etmək olar.

Qarabağ müharibəsində qələbə qazanmış, regionun nüfuzlu dövlətlərindən biri kimi özünü təsdiq etmiş Bakı həm Rusiyanın, həm Türkiyənin, həm də regiondakı digər dövlətlərin əsas və ən mühüm tərəfdaşı statusunu tam təsdiqləyərək bir növ "Cənubi Qafqazın İsveçrəsi"nə çevrilib. Bu, ardıcıl taktikadır: Bakıda bunu xatırlatmağı xoşlayırlar ki, Rusiyanın və NATO-nun ali rütbəli hərbi məmurlarının görüşləri məhz Azərbaycanın paytaxtında keçirilir. Bu taktika həm diplomatik formada, həm də torpaqların qaytarılması şəklində real səmərə verir.

**Fəridə Abdullayeva**
**AZƏRTAC-ın xüsusi müxbiri, Moskva**

**AZƏRTAC**
**2021, 15 fevral**

**Müdafiə Nazirliyi Ağdam rayonunun Cinli kəndinin videogörüntülərini paylaşıb**

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi Ağdam rayonunun işğaldan azad edilmiş Cinli kəndinin videogörüntülərini yayıb.

AZƏRTAC Müdafiə Nazirliyinin mətbuat xidmətinə istinadla həmin görüntüləri təqdim edir.

Cinli kəndi 1993-cü il iyunun 11-də Ermənistan ordusu tərəfindən işğal olunub. İkinci Qarabağ müharibəsində ordumuzun Şanlı Qələbəsindən sonra Azərbaycan Prezidenti, Rusiya Prezidenti və Ermənistan baş naziri tərəfindən ötən il noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanata əsasən, Ağdam rayonu noyabrın 20-də Azərbaycana təhvil verilib.

**AZƏRTAC**
**2021, 17 fevral**

**Rusiyalı deputat : Ağdam şəhərinin işğal dövründə qəsdən dağıdılmasından təəssüfləndim**

Rusiya Federasiyası Dövlət Dumasının üzvü, "Rodina" partiyasının sədri Aleksey Juravlyov Azərbaycana səfəri çərçivəsində fevralın 18-də Ağdam şəhərində olub.

AZƏRTAC xəbər verir ki, rusiyalı deputat 1993-cü ildə işğal olunmuş, son 27 il ərzində böyük dağıntılara məruz qalmış "ruhlar şəhəri" kimi tanınan Ağdama səfəri zamanı bir vaxtlar bölgədə inkişafı ilə tanınmış bu şəhərin hazırkı vəziyyətindən dərin məyusluğunu ifadə edib.

Deputat yarıdağıdılmış vəziyyətdə olan Ağdam məscidini ziyarət etdikdən sonra şəhərin məhz işğal dövründə qəsdən dağıdılmasından təəssüfləndiyini bildirib. O deyib ki, qismən qorunan məscid işğalçıların heç də Azərbaycanın dini irsinə hörmətlə yanaşdığının göstəricisi deyil. "Məscidin minarələri hərbi məqsədlə, yəni, artilleriya zərbələrinin koordinasiyası üçün saxlanılıb və istifadə olunub",- deyə Juravlyov vurğulayıb.

Sonda deputat Azərbaycanın dağıdılmış bu və digər şəhər və qəsəbələrini bərpa edəcəyinə inandığını, növbəti dəfə artıq dirçəlmiş Ağdam şəhərini ziyarət edəcəyinə əminliyini söyləyib.

**AZƏRTAC**
**2021, 18 fevral**

**Müdafiə Nazirliyi Ağdam rayonunun Əliağalı kəndinin videogörüntülərini paylaşıb**

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi Ağdam rayonunun işğaldan azad edilmiş Əliağalı kəndinin videogörüntülərini yayıb.

AZƏRTAC Müdafiə Nazirliyinin mətbuat xidmətinə istinadla həmin görüntüləri təqdim edir.

Əliağalı kəndi 1993-cü ildə Ermənistan ordusu tərəfindən işğal olunub. İkinci Qarabağ müharibəsində ordumuzun Şanlı Qələbəsindən sonra Azərbaycan Prezidenti, Rusiya Prezidenti və Ermənistan baş naziri tərəfindən ötən il noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanata əsasən, Ağdam rayonu noyabrın 20-də Azərbaycana təhvil verilib.

**AZƏRTAC**
**2021, 18 fevral**

**Müdafiə Nazirliyi Ağdam rayonunun Qalayçılar kəndinin videogörüntülərini paylaşıb**

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi Ağdam rayonunun işğaldan azad edilmiş Qalayçılar kəndinin videogörüntülərini yayıb.

AZƏRTAC Müdafiə Nazirliyinin mətbuat xidmətinə istinadla həmin görüntüləri təqdim edir.

Qalayçılar kəndi 1993-cü ildə Ermənistan ordusu tərəfindən işğal olunub. İkinci Qarabağ müharibəsində ordumuzun Şanlı Qələbəsindən sonra Azərbaycan Prezidenti, Rusiya Prezidenti və Ermənistan baş naziri tərəfindən ötən il noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanata əsasən, Ağdam rayonu noyabrın 20-də Azərbaycana təhvil verilib.

**AZƏRTAC**
**2021, 20 fevral**

**Ağdam rayonunun Əliməddətli kəndindən videogörüntülər**

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi Ağdam rayonunun Əlimədətli kəndindən videogörüntülər paylaşıb.

AZƏRTAC Müdafiə Nazirliyinin mətbuat xidmətinə istinadla həmin görüntüləri təqdim edir.

**AZƏRTAC**
**2021, 21 fevral**

**Müdafiə Nazirliyi Ağdam rayonunun Yeni Qaralar kəndinin videogörüntülərini yayıb**

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi Ağdam rayonunun işğaldan azad edilmiş Yeni Qaralar kəndinin videogörüntülərini paylaşıb.

AZƏRTAC Müdafiə Nazirliyinin mətbuat xidmətinə istinadla həmin görüntüləri təqdim edir.

Yeni Qaralar kəndi 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunub. İkinci Qarabağ müharibəsində düşmənə sarsıdıcı zərbə vuran rəşadətli Azərbaycan Ordusu noyabrın 20-də kəndi işğaldan azad edib.

**AZƏRTAC**
**2021, 23 fevral**

**Müdafiə Nazirliyi Ağdam rayonunun Sırxavənd kəndinin videogörüntülərini paylaşıb**

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi Ağdam rayonunun işğaldan azad edilmiş Sırxavənd kəndinin videogörüntülərini yayıb.

AZƏRTAC Müdafiə Nazirliyinin mətbuat xidmətinə istinadla həmin görüntüləri təqdim edir.

Ulubab və Ballıqaya silsilə yüksəkliklərinin əhatəsində, Xaçın çayının sol sahilində yerləşən Sırxavənd kəndi 1992-ci il martın 12-də Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunub. İkinci Qarabağ müharibəsində ordumuzun Şanlı Qələbəsindən sonra Azərbaycan Prezidenti, Rusiya Prezidenti və Ermənistan baş naziri tərəfindən ötən il noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanata əsasən, Ağdam rayonu noyabrın 20-də Azərbaycana təhvil verilib.

**AZƏRTAC**
**2021, 23 fevral**

**Müdafiə Nazirliyi Ağdam rayonunun Tərnöyüt kəndinin videogörüntülərini yayıb**

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi Ağdam rayonunun işğaldan azad edilmiş Tərnöyüt kəndinin videogörüntülərini paylaşıb.

AZƏRTAC Müdafiə Nazirliyinin mətbuat xidmətinə istinadla həmin görüntüləri təqdim edir.

Tərnöyüt kəndi 1993-cü ildə Ermənistan ordusu tərəfindən işğal olunub. İkinci Qarabağ müharibəsində ordumuzun Şanlı Qələbəsindən sonra Azərbaycan Prezidenti, Rusiya Prezidenti və Ermənistan baş naziri tərəfindən ötən il noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanata əsasən, Ağdam rayonu noyabrın 20-də Azərbaycana təhvil verilib.

**AZƏRTAC**
**2021, 26 fevral**

**Müdafiə Nazirliyi Ağdam rayonunun Eyvazxanbəyli kəndinin videogörüntülərini yayıb**

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi Ağdam rayonunun işğaldan azad edilmiş Eyvazxanbəyli kəndinin videogörüntülərini paylaşıb.

AZƏRTAC Müdafiə Nazirliyinin mətbuat xidmətinə istinadla həmin görüntüləri təqdim edir.

Eyvazxanbəyli kəndi 1993-cü ildə Ermənistan ordusu tərəfindən işğal olunub. İkinci Qarabağ müharibəsində ordumuzun Şanlı Qələbəsindən sonra Azərbaycan Prezidenti, Rusiya Prezidenti və Ermənistan baş naziri tərəfindən ötən il noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanata əsasən, Ağdam rayonu noyabrın 20-də Azərbaycana təhvil verilib.

**AZƏRTAC**
**2021, 28 fevral**

**“Ukrayna 24” telekanalı Azərbaycan Prezidentinin mətbuat konfransı və işğaldan azad olunan ərazilərimiz barədə xüsusi reportaj yayımlayıb**

Ukraynanın nüfuzlu “Ukrayna 24” telekanalı Azərbaycan Prezidenti İlham Əliyevin fevralın 26-da yerli və xarici media nümayəndələri üçün keçirdiyi mətbuat konfransı və işğaldan azad olunan Ağdam və Füzuli rayonlarından xüsusi reportaj yayımlayıb.

AZƏRTAC xəbər verir ki, reportajda dövlətimizin başçısının Azərbaycan Ordusunun işğaldan azad etdiyi ərazilərdə uğurlu hərbi əməliyyatları, Ermənistanın diversiya qrupunun törətdiyi cinayətləri, ərazilərin minalardan təmizlənməsi, məcburi köçkünlərin qaytarılması qrafiki, işğaldan azad olunan ərazilərimizin bərpası və yenidən qurulması barədə sitatları yer alıb.

Ukraynalı jurnalist tamaşaçılara Ağdam şəhərindən görüntülərini təqdim edərək tarixi, dini abidələrin, yaşayış binalarının ermənilər tərəfindən necə məhv edildiyini göstərir. Həmin ərazilərdə minalanmış sahələrdən başqa heç nəyin qalmadığını qeyd edir. Reportajda Ağdamdan olan məcburi köçkünlərin ermənilərin törətdiyi vəhşiliklər barədə fikirləri də yer alıb.

Reportajda, həmçinin ərazilərin minalardan necə təmizlənməsi barədə görüntülər də yer alıb. Bundan başqa Füzuli rayonunda beynəlxalq hava limanının inşası barədə məlumat verən ukraynalı jurnalist Azərbaycanın işğaldan azad olunan ərazilərində 3 aeroportun inşa ediləcəyini vurğulayır. Şuşa və Laçına yeni magistral yolun çəkilişləri barədə məlumat verib.

**Emil Hüseynli**
**AZƏRTAC-ın xüsusi müxbiri, Kiyev**

**AZƏRTAC**
**2021, 1 mart**

**Müdafiə Nazirliyi Ağdam rayonunun Güllücə kəndinin videogörüntülərini yayıb**

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi Ağdam rayonunun işğaldan azad edilmiş Güllücə kəndinin videogörüntülərini paylaşıb.

AZƏRTAC Müdafiə Nazirliyinin mətbuat xidmətinə istinadla həmin görüntüləri təqdim edir.

Rayon mərkəzində 26 kilometr şimalda yerləşən Güllücə kəndi 1994-cü il aprelin 16-da Ermənistan ordusu tərəfindən işğal olunub. İkinci Qarabağ müharibəsində ordumuzun Şanlı Qələbəsindən sonra Azərbaycan Prezidenti, Rusiya Prezidenti və Ermənistan baş naziri tərəfindən ötən il noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanata əsasən, Ağdam rayonu noyabrın 20-də Azərbaycana təhvil verilib.

**AZƏRTAC**
**2021, 1 mart**

**Müdafiə Nazirliyi Ağdam rayonunun Tağıbəyli kəndinin videogörüntülərini yayıb**

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi Ağdam rayonunun işğaldan azad edilmiş Tağıbəyli kəndinin videogörüntülərini paylaşıb.

AZƏRTAC Müdafiə Nazirliyinin mətbuat xidmətinə istinadla həmin görüntüləri təqdim edir.

Tağıbəyli kəndi 1994-cü ildə Ermənistan ordusu tərəfindən işğal olunub. İkinci Qarabağ müharibəsində ordumuzun Şanlı Qələbəsindən sonra Azərbaycan Prezidenti, Rusiya Prezidenti və Ermənistan baş naziri tərəfindən ötən il noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanata əsasən, Ağdam rayonu noyabrın 20-də Azərbaycana təhvil verilib.

**AZƏRTAC**
**2021, 5 mart**

**Müdafiə Nazirliyi Ağdam rayonunun Suma kəndindən videogörüntülər yayıb**

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi işğaldan azad edilmiş Ağdam rayonunun Suma kəndindən videogörüntülər yayıb.

AZƏRTAC Müdafiə Nazirliyinin mətbuat xidmətinə istinadla həmin görüntüləri təqdim edir.

**AZƏRTAC**
**2021, 7 mart**

**Yaponiya portalı Qarabağ həqiqətləri ilə bağlı analitik məqalə yayıb**

Martın 9-da Yaponiyanın nüfuzlu “fnn.jp” portalı özünün İstanbul bürosunun rəhbəri Yasuhiko Şimizunun Azərbaycana səfərindən, həmçinin Qarabağ həqiqətlərindən bəhs edən analitik məqaləsini yayıb.

AZƏRTAC xəbər verir ki, məqalədə Ermənistanla Azərbaycan arasındakı münaqişənin tarixi və səbəbləri barədə danışılır. Bildirilir ki, tərəflər arasında ötən ilin sentyabrında başlayan və 44 davam edən müharibə Azərbaycanın tam qələbəsi ilə başa çatıb, işğal altındakı ərazilərimiz azad olunub.

Azərbaycan hökuməti tərəfindən 2021-ci ilin fevralında təşkil olunan müsahibələr turuna qatıldığını deyən müəllif cəmi üç ay əvvəl döyüşlərin getdiyi ərazidə gördüyü həqiqətləri, hadisələrin şahidlərindən aldığı müsahibələri oxuculara təqdim edir. Azərbaycanın tarixi ərazisi olan Qarabağın Ermənistanın dəstəyi ilə erməni separatçıları tərəfindən ötən əsrin 90-cı illərində işğal edildiyi qeyd olunur. Bildirilir ki, dünyanın heç bir dövləti, o cümlədən Yaponiya qondarma “Dağlıq Qarabağ respublikası”nı tanımayıb.

Ermənistan ordusunun Birinci Qarabağ müharibəsi zamanı törətdiyi qırğınlara toxunan müəllif onların arasında Xocalı soyqırımının xüsusi yer tutduğunu qeyd edir. Bildirir ki, bu soyqırımı zamanı mülki əhaliyə qarşı görünməmiş qətliam törədilib. 1992-ci il fevralın 25-26-da törədilən qırğın nəticəsində əksəriyyəti qadınlar, uşaqlar və yaşlı insanlar olmaqla, 613 nəfər qətlə yetirilib. Törədilən vəhşiliyi təsvir etmək üçün söz tapmaq çox çətindir.

Məqalədə müəllif bu qətliamın canlı şahidi olmuş keçmiş döyüşçü Əkbər Rüstəmovun sözlərinə də geniş yer verib.

Eyni zamanda, müəllif Xocalıdan qaçan insanların toplaşdığı Ağdam şəhərində gördüklərini təsvir edir. Bildirir ki, o vaxt bu şəhərə də hücum edən ermənilər burada çoxlu sayda mülki insanı öldürüblər. Ağdamın tamamilə dağıdıldığını diqqətə çatdıran müəllif şəhərdəki məscidin minbərindən ətrafı dəhşətlə müşahidə etdiklərini vurğulayır. Bildirir ki, buradakı dağıntının həcmi onların gözlədiklərindən daha çoxdur və bu şəhəri əbəs yerə “Qafqazın Xirosiması” adlandırmışlar. Məscidin minbərindən seyr etdiyi mənzərənin ona sanki min illər əvvəllərin dağıntılarını xatırlatdığını qeyd edən müəllif bu ərazidən bufer zona kimi istifadə edildiyini diqqətə çatdırır. Məhz həmin məsciddə qarşılaşdığı qadının azyaşlı qızını itirməsi barədə acı xatirələrini oxuculara təqdim edir. Yazır ki, öz bədəni ilə qızını xilas etməyə cəhd göstərən ana buna nail ola bilməyib və həlak olan qızını məscidin yaxınlığında dəfn edib. Faciədən 30 il sonra qızının qəbrini ziyarət etmək üçün bu əraziyə gələn ana onu tapa bilmir. Qeyd edir ki, yaxınlarını həmin ərazidə dəfn edən digər insanlar da onların qəbrini tapmaqda çətinlik çəkirlər. Çünki ərazidəki qəbirlər ermənilər tərəfindən tamamilə dağıdılıb.

Müəllif, həmçinin bildirir ki, ərazi ermənilər tərəfindən minalanıb və bu, real təhlükə mənbəyidir.

Məqalədə əcnəbi jurnalistlərin Azərbaycan Ordusunun düşmən işğalından azad etdiyi digər ərazilərdə də olduqlarını bildirən Y.Şimuzu Laçın dəhlizinin əhəmiyyətini xüsusi vurğulayır.

Məqalənin müəllifi qeyd edir ki, işğal edilmiş ərazilərdəki evlərin damları, qapı və pəncərələri sökülüb, ərazidəki ağaclar kəsilib. Müharibədən sonra bu əraziləri tərk edən ermənilər gedərkən də misli görünməmiş dağıntılar törədib, yaşayış üçün bütün şəraiti məhv ediblər.

Sonda müəllif müharibədə məğlub olmuş Ermənistandakı vəziyyətə də toxunur, bu ölkədə etirazların davam etdiyini bildirir.

Yazıda Yaponiya hökumətinin BMT agentliyi vasitəsilə ərazidə humanitar vəziyyəti yaxşılaşdırmaq üçün maddi yardım göstərdiyi qeyd edilir. Bildirilir ki, Azərbaycan hökuməti Yaponiyanın həm müharibənin gedişində, həm də ondan sonra yürütdüyü siyasətdən razıdır.

Məqalədə səfər zamanı müəllif tərəfindən çəkilmiş fotolara da geniş yer verilib.

**Vüqar Ağayev**
**AZƏRTAC-ın xüsusi müxbiri, Tokio**

**AZƏRTAC**
**2021, 9 mart**

**“France Inter” radiosunda Qarabağla bağlı veriliş yayımlanıb**

“France Inter” radiosunun “85-ci epizod” proqramında “Dağlıq Qarabağ: parçalanmış həyatlar, itirilmiş zaman” adlı veriliş yayımlanıb.

AZƏRTAC xəbər verir ki, verilişdə Ağdamdan məcburi köçkün Elşən 1993-cü ildə 6 yaşında olarkən Ermənistan silahlı qüvvələri tərəfindən rayonun Boyəhmədli kəndindən didərgin salınmalarından danışıb. O, kəndləri və evləri haqqında xatirələrinin valideynlərinin, baba və nənəsinin danışıqlarından ibarət olduğunu qeyd edib. Elşən evlərini tərk etmələrindən, kiçik bacısının ölümündən, həmin qorxulu gündə müvəqqəti məktəb binasında sığınacaq tapmalarından, sonra Mingəçevirdəki köçkün düşərgəsində məskunlaşmalarından söz açıb. Atasına “Niyə Mingəçevirdə ev tikmirik” sualı verən Elşən bir cavab alırmış: “Tezliklə Qarabağa, evimizə qayıdacağıq”.

Bildirilir ki, Azərbaycan Ordusunun qələbəsindən sonra indi Elşən tezliklə doğma evlərinə qayıtmağı gözləyir.

Qeyd edilib ki, Strasburq Siyasi Elmlər İnstitutunda təhsil alan Elşən Lyonda elmi tədqiqatlarını davam etdirib. Sonra doğma Vətəninə qayıdıb və hazırda Bakıda ailəsi ilə birlikdə yaşayır.

**Şəhla Ağalarova**
**AZƏRTAC-ın xüsusi müxbiri, Paris**

**AZƏRTAC**
**2021, 13 mart**

**“BCI” beynəlxalq media portalında Ağdam rayonundan bəhs olunan videomaterial yerləşdirilib**

“BCI” beynəlxalq media portalının əməkdaşı Ağdam rayonu ilə bağlı yunan dilində videomaterial hazırlayıb.

AZƏRTAC xəbər verir ki, videomaterialda Ağdamı “Qafqazın Xirosiması” adlandıran müəllif bildirir ki, rayon təxminən 30 ildən sonra erməni təcavüzündən azad edilib

Vurğulanır ki, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsindən əvvəl Qarabağın incisi sayılan Ağdam bölgənin ticarət mərkəzi olub, burada üzümçülük və şərabçılıq geniş inkişaf edib. İşğal nəticəsində rayonun əhalisi doğma torpaqlarından didərgin salınıb, rayon isə darmadağın edilib. Müəllif hazırkı Ağdamı infrastrukturu, mədəni irsi olmayan “kabus şəhər” adlandırır. Diqqətə çatdırılır ki, buradakı bütün muzeylər, tarixi abidələr, xəstəxanalar, məktəblər, ictimai binalar və evlər məhv edilib, avtomobil və dəmir yolları dağıdılıb. Ağdam şəhərində yalnız məscid qalıb.

Müəllif qeyd edir ki, rayonun bərpası üçün müəyyən vaxt lazım olacaq. Lakin bərpa işlərindən əvvəl bölgəni minalardan zərərsizləşdirmək lazımdır. Bildirilir ki, artıq bu işlər həyata keçirilir.

**İqbal Hacıyev**
**AZƏRTAC-ın xüsusi müxbiri, Afina**

**AZƏRTAC**
**2021, 15 mart**

**Yerlə-yeksan edilmiş "Ruhlar şəhəri" erməni vəhşiliyinin əyani sübutudur**

Martın 13-də möhtərəm Prezidentimiz, Müzəffər Ali Baş Komandan İlham Əliyevin tapşırığına uyğun olaraq bir qrup media və qeyri-hökumət təşkilatlarının rəhbərləri Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin başçılığı ilə işğaldan azad olunmuş Ağdam şəhərinə səfər etdilər. Heyətin tərkibində, həmçinin ölkədəki bütün televiziya, agentlik, əksər sayt və qəzet rəhbərləri, həmçinin blogerlər, ictimai və sosial media fəalları təmsil olunurdular.

"İki sahil" qəzetinin baş redaktoru, Əməkdar jurnalist Vüqar Rəhimzadə səfərlə bağlı təəssüratlarını "Yerlə-yeksan edilmiş "Ruhlar şəhəri" erməni vəhşiliyinin əyani sübutudur" adlı məqaləsində qeydə alıb. AZƏRTAC məqaləni təqdim edir.

Səfər zamanı bir daha hiss etdik ki, 27 il erməni işğalı altında olan torpaqlarımızı azad görmək, onun bütün dərdlərə dərman olan saf havasını duymaq, hər parçası bir tarix olan daşına, kəsəyinə əl vurmaq, illərdir vəhşi ermənilər tərəfindən yerlə-yeksan edilən tarixi, dini abidələrimizi ziyarət etmək və sair anları yaşamaq nə qədər çətin olsa da böyük xoşbəxtlikdir. Bu sevinci bizə yaşadan möhtərəm Prezidentimiz, Müzəffər Ali Baş Komandan İlham Əliyevə, rəşadətli Azərbaycan Ordusuna minnətdarıq. Dövlətimizin başçısı İlham Əliyev daim çıxışlarında bu əminliyi ifadə edirdi ki, gün gələcək bütün işğal altında olan torpaqlarımızda üçrəngli bayrağımız dalğalanacaq. Həmin gün gəldi. Azərbaycan Ordusu xalqımızın vaxtilə itirilmiş qürurunu özünə qaytardı, 30 ilə yaxın dövrün acısına, nisgilinə son qoydu, torpaqlarımızı tarixi sahibinə qaytardı. Cənab İlham Əliyevin işğaldan azad edilmiş ərazilərimizə ardıcıl səfərləri, hər səfərində diplomatik korpus nümayəndələrini, yerli və xarici jurnalistləri bu torpaqları ziyarət etməyə çağırması erməni vəhşiliyinin ağır nəticələrini gözlə görüb dünyaya çatdırmaq mesajıdır.

Möhtərəm Prezidentimiz İlham Əliyev bu yaxınlarda yerli və xarici media nümayəndələri üçün keçirdiyi mətbuat konfransında da bu məqamı etiraf etdi ki, sonuncu dəfə nə vaxt mətbuat konfransı təşkil etdiyi heç xatirində deyil. Bildirdi ki, hər bir işin öz vaxtı var. Sənin vermək istədiyin bir mesaj və səni dinləyəcək bir auditoriya varmı? Əgər bütün bunlar varsa, deməli, mətbuat konfransı keçirməyə dəyər. Məhz fevralın 26-da belə bir məqam gəldi. Dövlətimizin başçısı həmin mətbuat konfransında işğaldan azad edilmiş torpaqlarımızda erməni vandallarının törətdikləri vəhşilikləri, 30 ilə yaxın müddətdə necə düşmən ilə üz-üzə dayandığımızın mesajını bir daha bütün dünyaya ünvanladı.

Səfər zamanı hər şeyi gözlərimizlə görüb bir daha əmin olduq ki, yerlə-yeksan edilən, xarici həmkarlarımızın "Ruhlar şəhəri" adlandırdıqları Ağdam erməni vəhşiliyinin əyani sübutudur. Bir vaxtlar Ağdam tarixi, mədəni və dini abidələri ilə məşhur olan canlı bir şəhər idi. İndi bu şəhərdən əsər-əlamət qalmayıb, tamamilə dağıdılmış bir vəziyyətdədir.

Ağdamın bu gününü 27 il bundan öncəki vəziyyəti ilə müqayisə etdikdə sanki adını özündə ehtiva etdiyi mənada da yaşanan dəyişiklik diqqətdən kənarda qalmır. Ağdam adının mənşəyi haqqında müxtəlif fikirlər vardır. Bəzi mənbələrə görə, "Ağdam" sözü qədim türk dilində "kiçik qala" deməkdir. Bu versiyaya görə, uzaq keçmişdə bu ərazidə yaşamış türkdilli qəbilələr özlərini müdafiə etmək üçün əsasən kiçik qalalar tikirdilər. Zaman keçdikcə bu şəhərin adının mənası dəyişmişdir. XVIII əsrin birinci yarısında Qarabağ xanlığının banisi Pənahəli xan bu şəhərdə özü üçün ağ daşdan imarət tikdirmək barədə əmr vermişdi. Həmin imarət uzun müddət ətraf kəndlərin sakinləri üçün bir növ oriyentirə çevrilmişdi. Bu mənada, "Ağdam" – günəş şüaları ilə nurlanmış işıqlı, ağ ev deməkdir.

Ürəkağrısı ilə qeyd etməliyəm ki, 27 il işğal altında qaldığı dövrdə ermənilərin burada törətdikləri vəhşiliklər artıq nurlanmış şəhəri sanki qaranlıq, ruhlar şəhərinə çevirmişdir. 2008-ci ildə "Lonely Planet" jurnalı Ağdamı "Qafqazın Xirosiması" adlandırıb. 2010-cu ildə "Əl- Cəzirə"nin internet nəşri Ağdamı "Ruhlar şəhəri" siyahısına salıb.

Bu səfər hər kəs kimi məndə də sevinclə kədərin bir araya gəldiyi an idi. Ermənilərin torpaqlarımızda törətdikləri vəhşilikləri, tarixi, dini abidələrimizi yerlə-yeksan etmələrini, bir zamanlar öz milli arxitekturası ilə seçilən, necə deyərlər, topdağıtmaz evlərdən əsər-əlamətin qalmadığını gördükcə dəhşətə gəlirdim. Əyani şəkildə o müqəddəs torpaqları ziyarət edərək bir daha əmin olurdum ki, ermənilərin törətdikləri vandalizm aktlarını yaxından izləməklə televiziya reportajlarında dağıdılmış, viran qoyulmuş o əraziləri görmək fərqli hisslərdir. Həmin dağıntılar bir daha onu göstərirdi ki, biz ötən 30 ildə hansı vəhşi vandallarla üz-üzə qalmışıq. Qoy, Azərbaycanın haqlı davasına kölgə salmaq istəyən ermənipərəst, anti-Azərbaycan, islamofob dairələr bir daha görsünlər ki, mənfur erməni qəsbkarları torpaqlarımızı işğal edərkən bütün infrastrukturu dağıdıb, Ağdam və digər şəhərlərimizi tamamilə yerlə-yeksan ediblər. Burada bir dənə də

olsun salamat binanın qalmaması səfərin bütün iştirakçıları kimi məni də dəhşətə gətirirdi. Cənab İlham Əliyev işğaldan azad edilmiş torpaqlara səfəri zamanı erməni vəhşiliklərinin izlərini ürəkağrısı ilə izləyərkən haqlı olaraq bu fikri böyük qətiyyətlə söyləyir ki, biz təkcə öz ərazi bütövlüyümüzü bərpa etməmişik, erməni faşizmini, erməni vəhşiliyini məhv etmişik.

Ermənilərin bu ərazilərdə tarixi, dini abidələrimizi, yaşayış evlərini dağıtmalarından bu qənaəti də əldə edirik ki, onlar bir daha bizim bu torpaqlara qayıtmayacağımızı düşünürdülər. Amma unudurdular ki, torpaq öz sahibinin əlində olanda canlanır, özünü rahat və xoşbəxt hiss edir, daha məhsuldar olur, bolluq rəmzinə çevrilir. "Ruhlar şəhəri"nin xarabazarlığa çevrilmiş qalıqlarına baxarkən açıq-aydın hiss etmək olur ki, vəhşi toplum olan ermənilər törətdikləri qeyri-insani əməllərlə bu torpaqların onlara aid olmadığını nümayiş etdiriblər. Xislətlərini, azərbaycanlılara və türklərə qarşı nifrətlərini sanki bu daşları, qayaları, bütün tikililəri dağıtmaqla ifadə ediblər. Erməni vandallarının ürəyində bu düşmənçilik toxumları həmişə olub. Şuşada Bülbülün, Natəvanın, Üzeyir Hacıbəylinin büstlərini güllləbaran etmək üçün gərək adamın ürəyində nə qədər nifrət, nə qədər düşmənçilik hissi olsun, özü də kimə? O xalqa ki, sənə burada yer verib. Sən burada yuva salmısan. Sənin üçün yad olan torpağa, Qarabağa köçürülmüsən. Azərbaycan xalqı sənə burada qucaq açıb, çörək verib. "Çox sağ ol" deyib burada azərbaycanlılarla birgə yaşamaq əvəzinə, onun torpaqlarını özününküləşdirmək niyyətinə düşmüsən, işğalın davam etdiyi illər ərzində burada daşı-daş üstündə qalmağa qoymamısan. Nəinki Azərbaycan xalqına, onun şəhərlərinə, kəndlərinə, hətta Allahın yaratdığı təbiətə də qənim kəsilmisən.

Məlumdur ki, 10 noyabr üçtərəfli razılaşmasına uyğun olaraq Kəlbəcər, Ağdam və Laçın nəzərdə tutulan tarixlərdə geri qaytarılmalı idi. Ermənilərin bu müddət ərzində həmin ərazilərimizdə törətdikləri vəhşiliklər ölçüyəgəlməz idi. Evləri, ağacları yandırır, ekoloji terror törədirdilər. Məscidlərimizi dağıdır, dinimizi təhqir edirdilər. 27 ildə Ağdam, sözün əsl mənasında, xarabalığa çevrilməsinə qarşı sanki üsyan etdi, azadlığa qovuşacağı günü səbirsizliklə gözlədi. Necə ki, öz doğma yurd-yuvalarından didərgin düşmüş soydaşlarımız torpaqlarına qayıtmağın həsrətini yaşayırdılar, eləcə də bu ərazilər sahiblərinin gələcəyi, bu torpaqlara yeni nəfəsin veriləcəyi günü gözləyirdilər. Sanki daşlar, qayalar, xırdalanmış daş parçaları da dil açıb bu gəlişimizdən sevinirdilər. Çünki bu torpaqlara ayaq basan, ən əsası onun üzərində ehtiyatla, sanki qəlbinə toxunmamaq üçün sakit gəzən öz doğma sakinidir. Möhtərəm Prezidentimiz İlham Əliyev işğaldan azad edilmiş torpaqlarımıza səfəri zamanı bu fikirləri səbəbsiz yerə söyləmirdi ki, gün də çıxır, hava da öz sevincini büruzə verir, ona görə ki, bu torpaqlara sahibləri gəlib.

Səfər proqramına uyğun olaraq Ağdam rayonunun Baş Qərvənd kəndində dəmir yolu ətrafında minatəmizləmə prosesi və partlayışın nümayişi ilə tanış olduq. İkinci Qarabağ müharibəsində tarixi Qələbəmiz yeni dövrün - Böyük Qayıdış proqramının icrasına başlandığı mərhələnin əsasını qoydu. Bu prosesin ilk mərhələsi ərazilərimizin minalardan təmizlənməsidir. Səfər çərçivəsində bu sahədə görülən işlər barədə məlumat verildi. Bu fakt da məlumdur ki, Ermənistanın minalanmış ərazilərin xəritələrini verməməsi bu prosesin həyata keçirilməsində gecikmələrə səbəb olur. Eyni zamanda, mülki əhalinin minaya düşməsi kimi hallar baş verir. Bu baxımdan icazə lövhələrinin olmadığı ərazilərə daxil olmaq qadağandır və biz də bu tələblərə ciddi surətdə əməl edirdik.

Proqrama uyğun olaraq tanışlıq üçün nəzərdə tutulan məkanlarda olarkən üzləşdiyimiz xarabalıq hər birimizi dəhşətə gətirirdi. 27 il əvvəl şəhərdən çıxarkən evlər, dövlət binaları, mədəniyyət obyektləri sağ-salamat, əşya ilə dolu olduğu halda işğaldan sonrakı acı mənzərənin qalıqlarını ürəkağrısı ilə izləyərkən ermənilərin və onların işğalçılıq siyasətlərinə, vəhşi əməllərinə haqq qazandıranların ünvanına deməyə söz tapmırsan. Bir zamanlar öz gözəlliyi, abadlığı ilə Azərbaycanın başqa bölgələrinə nümunə göstərilən Ağdamda sanki heç vaxt yol olmayıb. Bütün dağıntılar yolları, cığırları tanınmaz edib. Amma diqqət çəkən məqam odur ki, bu torpaqlarımıza yad olduqları üçün onun hər bir daşından xəbərsiz olan erməni vandallarından fərqli olaraq, soydaşlarımız bu ərazilərə ayaq basarlarsa, evlərinin yerləşdiyi küçəni asanlıqla tapa bilərlər. Budur, torpağın əsl sahibi olmaq! Bizimlə birlikdə səfərdə olan ağdamlı həmkarlarımız da vaxtilə salamat qoyub, hətta qapısına qıfıl vuraraq açarlarını özləri ilə götürdükləri evlərin yerini asanlıqla bildirir, bu dağıntılara baxmayaraq torpaqlarımıza sahib olduğumuz üçün qürur hissi keçirirdilər. Soydaşlarımız qapılara qıfıl vuraraq açarları özləri ilə götürərkən, həyətdə gəzən toyuq-cücələrə yem verib isti yuvalarına yerləşdirərkən, bütün hallarda yenə də geri qayıdacaqlarına əmin idilər. Elə də oldu…

Səfər proqramına uyğun olaraq Ağdamın 1868-ci ildə tikilmiş və tarixi abidə sayılan Cümə məscidində olduq. Məscidin sadəcə bir tikili kimi daşı-daş üstündədir, bəzi yerlərdə kümbəzi dağılıb, divar üzlükləri tökülüb, döşəməsi sökülüb.

Uzundərədəki II Şəhidlər xiyabanında isə Milli Qəhrəman Allahverdi Bağırovun dağıdılmış və Ağdam işğaldan azad edildikdən sonra bərpa olunmuş məzarı ilə yanaşı, bir neçə məzar qalıb. Qalan digər məzarların ermənilər tərəfindən barbarlara xas üsullarla, necə deyərlər, altı üstünə çevrilmiş, burada dəfn olunmuş insanların cəsədləri çıxarılıb məhv edilmiş, sadəcə qəbirlərin yerində çuxurlar qalmışdı. Rəşadətli Azərbaycan Ordusu bura ayaq basan kimi məzarların baş daşı yerinə Azərbaycan bayrağının fonunda tanıtım lövhələri qoyulmuşdur.

Səfər zamanı, həmçinin Ağdam Dövlət Dram Teatrının, Qarabağ xanlarının abidələr kompleksinin, Ağdamın "Qarabağ" futbol klubunun "İmarət" stadionunun qalıqlarını ziyarət etdik. Bu məkanlarda da erməni vandalizminin izləri ilə qarşılaşdıq. Ermənilər işğal etdikləri digər rayonlarda olduğu kimi, Ağdamda da Azərbaycanın tarixi-mədəni irsinə qarşı görünməmiş vandalizm aktları həyata keçiriblər. Rayondakı abidələr, mədəniyyət ocaqları, məscidlər, qəbiristanlıqlar dağıdılıb, təhqir edilib, bəziləri isə erməniləşdirilib. Ağdam məscidi də ermənilər tərəfindən dağıntılara məruz qalıb, minarələri daxildən sökülüb, tavanı bir neçə yerdən uçurulub, dizayn və yazıları bilərəkdən yararsız, tanınmaz vəziyyətə salınıb.

Dağıdılan digər tarixi abidə isə keçmiş SSRİ məkanında yeganə olan məşhur Ağdam Çörək Muzeyidir. Tarixə nəzər salsaq görərik ki, muzey ilk dəfə 25 noyabr 1983-cü ildə ziyarətçilərini qəbul edib. Muzeydə 2800-ə yaxın eksponat olub. Bu muzey Azərbaycan hökuməti tərəfindən yerli mədəniyyət abidəsi kimi qorunurdu. Hazırda həmin muzeyin yerləşdiyi küçə belə yerlə-yeksan edilib.

Şahbulaq qalası ilə tanışlıq səfərimizin ən yaddaqalan məqamlarından biri oldu. Məlumat verildi ki, mənfur düşmən Azərbaycanın bu tarixi abidəsini belə özününküləşdirməyə çalışıb, lakin öz çirkin niyyətinə nail ola bilməyib.

Ümumiyyətlə, Ağdam səfəri ilə bağlı təəssüratlarımı sözlə ifadə etməkdə çətinlik çəkirəm. Hesab edirəm ki, 27 il düşmən tapdağı altında qalan bu ərazilərimiz bu gün dil açsaydı dünyaya çox ciddi mesajlarını ünvanlayardı. Özgə torpağına göz dikib, havadarlarının dəstəyi ilə bu ərazilərə sahiblənmək sevdasına düşən ermənilər çox yaxşı bilirdilər ki, gec-tez bu torpaqlarımız öz əzəli sahibinə qayıdacaq. Azərbaycan işğalçı dövlətə və ona havadarlıq edənlərə dərs verəcək və verdi. Ermənistan diz çökdü. İşğalçılar Azərbaycan xalqının səbrinin tükənməz olmadığının şahidi oldular. Dövlətimizin başçısı İlham Əliyev müsahibələrində hər zaman qeyd etdiyi kimi, Dağlıq Qarabağ məsələsi milli qürur məsələsidir. Münaqişənin hərbi-siyasi yolla həlli xalqımızın başını uca etdi. Bu gün böyük fəxr hissi ilə qeyd edirik ki, möhtərəm Prezidentimiz, Ali Baş Komandan İlham Əliyev dünyanın ən güclü lideri, Müzəffər Sərkərdəsi, Azərbaycan xalqı məğrur xalq, Azərbaycan Ordusu ən güclü ordudur. Dövlətimizin başçısı İlham Əliyev Ağdama səfəri zamanı “Bax, mən burada durmuşam, dağıtdığınız məscidin önündə, dağıtdığınız Ağdam şəhərində, öz ordumla buraya gəlmişəm. Qalib kimi gəlmişəm. Siz isə öz miskin həyatınızın sonuna qədər məğlub edilmiş, qorxaq damğası ilə yaşayacaqsınız” söyləyərək bu fikirləri də bildirmişdir ki, bu gün Ağdam şəhərini dağılmış vəziyyətdə görmək çox ağrılıdır: “Amma mən bir neçə il bundan əvvəl bu bölgədə olarkən, bizim səngərlərdə olarkən, o binanı binoklla görmüşəm. Bu hissləri sözlə ifadə etmək çətindir, mümkün deyil. Öz torpağımızda öz şəhərimizi, bax, o binanı binoklla uzaqdan görmək, buraya gələ bilməmək nə qədər ağrılı idi. Dəfələrlə təmas xəttində olarkən, səngərlərdə olarkən, fikirləşirdim ki, gün gələcək biz qayıdacağıq, biz öz ərazi bütövlüyümüzü bərpa edəcəyik”.

Bəli, Müzəffər Ali Baş Komandanımızın dediyi kimi, bu gün həmin istəklər reallığa çevrildi. Qələbəmizi dəmir yumruq hesabına qazandıq, düşməni iti qovan kimi qovduq, bu gün öz torpağımızdayıq. Qısa zamanda dövlətimizin başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə bütün işğaldan azad edilmiş torpaqlarımız, o cümlədən Ağdam cənnətməkana çevriləcək. Növbəti səfərimizdə bu ərazilərimizi 27 il bundan əvvəlkindən də gözəl, müasir səviyyədə görəcək, yeni nəfəs verilən torpaqlarımız Azərbaycanın daha da qüdrətlənməsinə, çiçəklənməsinə öz töhfəsini verəcək.

**AZƏRTAC**
**2021, 16 mart**

**Siyasi partiya rəhbərlərinin və politoloqların Ağdamda son dayanacağı Şahbulaq qalası olub**

Ağdama səfər edən siyasi partiyaların rəhbərlərinin və politoloqların rayondakı son dayanacağı Şahbulaq qalası olub.

AZƏRTAC xəbər verir ki, nümayəndə heyətinin üzvləri qalanın tarixi barədə məlumatlandırılıb.

Bildirilib ki, Qarabağın ən məşhur abidələrindən biri Ağdam rayonunun ərazisində yerləşən və XVIII əsrə aid olan Şahbulaq qalasıdır. Ağdam şəhərinin 10 kilometrliyində, Şahbulaq kəndi yaxınlığında yerləşən bu qala 1751-1752-ci illərdə Qarabağ xanlığının banisi Pənahəli xan tərəfindən inşa edilib. Elmi ədəbiyyatda "Şahbulaq qəsri" adı ilə tanınan abidə, əslində, iri qəsr kompleksinin iç qalası olub. Kompleks yaşayış evlərindən, bazar, hamam və məsciddən ibarət idi. Kompleksin ətrafı mühafizə divarları, nəzarətçi qüllələri ilə əhatələnib. Şahbulaq saray kompleksinin şimal-qərbində, bulağın yaxınlığında məscid də inşa edilib. Qəsr adını gur sulu bulağın adından alıb.

Pənahəli xan Şuşa qalasını inşa etdirənədək Şahbulaq qalası Qarabağ xanlığının inzibati mərkəzi olub. Şahbulaq tikililəri Qarabağ xanlığının, xüsusilə də onun paytaxtı olmuş Şuşa şəhərinin memarlığına təsir göstərib.

Hazırda Şahbulaq qəsr kompleksindən bulaq yanındakı təpə üzərində ucalan qala və məscid binası qalıb. Ermənilər 1993-cü ildə Ağdamı işğal etdikdən sonra əksər abidələrimiz kimi, Şahbulaq qalasını da erməniləşdirməyə çalışıb, yaxınlıqdakı məscidi isə kilsə kimi təqdim ediblər.

Bununla da Azərbaycandakı siyasi partiya rəhbərlərinin və politoloqların işğaldan azad olunmuş Ağdam rayonuna səfəri başa çatıb.

Səfər zamanı nümayəndə heyətini Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyev müşayiət edib.

**AZƏRTAC**
**2021, 17 mart**

**Siyasi partiyaların rəhbərləri və politoloqlar Ağdamda Cümə məscidində olublar**

Ağdam rayonunda səfərdə olan siyasi partiyaların rəhbərləri və politoloqlar martın 17-də Cümə məscidini ziyarət edib, Dram Teatrının, Çay evinin dağıntılarına baxıblar.

AZƏRTAC xəbər verir ki, səfər iştirakçılarına məscidin tarixi və ermənilərin törətdiyi barbarlıq barədə məlumat verilib. Bildirilib ki, Ağdam Cümə məscidi 1868-1870-ci illərdə memar Kərbəlayi Səfixan Qarabaği tərəfindən tikilib. Bu məscid “Qarabağ məscid memarlığı” məktəbinə aiddir. Ermənilər tərəfindən dağıntılara məruz qalan Ağdam məscidinin minarələri daxildən sökülüb, tavanı bir neçə yerdən uçurulub, dizayn və yazıları bilərəkdən yararsız, tanınmaz vəziyyətə salınıb.

Diqqətə çatdırılıb ki, Ağdamda törədilən dağıntılar erməni vandalizminin və barbarlığının bariz nümunələridir. Ermənilər işğal etdikləri digər rayonlarda olduğu kimi, Ağdamda da ölkəmizin tarixi-mədəni irsinə qarşı misli görünməmiş vandalizm aktları həyata keçiriblər. Rayondakı bütün abidələr, mədəniyyət ocaqları, məscidlər, qəbiristanlıqlar dağıdılıb, təhqir olunub, bəziləri isə erməniləşdirilib.

Ermənilər işğal etdikləri ərazilərdə azərbaycanlılara məxsus tarixi və dini irsi silməyə çalışsalar da, buna nail olmayacaqlar. Azad edilmiş ərazilərin tamamilə yenidən qurulacağını bildirən Azərbaycan Prezidenti İlham Əliyev Ağdam məscidinin qarşısındakı çıxışında deyib: "Dağılmış Ağdam şəhəri erməni vəhşiliyinin şahididir. Biz Ağdam şəhərini bərpa edəcəyik, bütün kəndləri bərpa edəcəyik. Heç kimdə bu haqda şübhə olmasın. Bu, böyük iş olacaqdır. Əlbəttə ki, böyük zəhmət tələb edəcək. Amma necə ki, biz 44 gün ərzində birlik göstərmişik, əminəm ki, azad edilmiş torpaqlarımızın bərpası işində də birlik, əzmkarlıq göstərəcəyik. Bütün şəhərlərimizi bərpa edəcəyik, daha da gözəl şəhərlər olacaqdır. Şəhərlərimizdə qalan tarixi abidələri bərpa edəcəyik və bir daha gücümüzü göstərəcəyik".

**AZƏRTAC**
**2021, 17 mart**

**Siyasi partiyaların rəhbərləri və politoloqlar Ağdamda İmarət qəbiristanlığını, Çörək muzeyini və Şəhidlər xiyabanını ziyarət ediblər**

Martın 17-də Azərbaycandakı siyasi partiyaların rəhbərləri və bir sıra politoloqlar işğaldan azad olunmuş Ağdam şəhərində Qarabağ xanlarının türbələrinin də yerləşdiyi İmarət qəbiristanlığını ziyarət ediblər.

AZƏRTAC-ın məlumatına görə, səfər iştirakçılarına məlumat verilib ki, qəbiristanlıqda Qarabağ xanlığının əsasını qoymuş Pənahəli xanın, həmçinin İbrahimxəlil xanın və onun oğlu Mehdiqulu xanın qəbirüstü türbələri, Mehdiqulu xanın qızı, şairə Xurşidbanu Natəvanın məzarları olub. Qarabağ xanlarının nəslindən olmuş digər görkəmli şəxslər də bu qəbiristanlıqda dəfn edilib. 1993-cü ildə Ağdam şəhəri işğal olunduqdan sonra qəbiristanlıq erməni vandalizminə məruz qalıb. Erməni vandalları İbrahimxəlil xanın türbəsini, Natəvanın qəbirüstü abidəsini də dağıdıblar.

Bildirilib ki, vaxtilə "Qarabağ" futbol klubunun ev oyunlarını keçirdiyi "İmarət" stadionu da yağı düşmən tərəfindən dağıdılıb. Əvvəllər bu stadionda el şənlikləri, festivallar, incəsənət xadimlərinin konsertləri də təşkil edilərdi. Natəvanın yaxınlıqda ucaldılmış heykəlindən əsər-əlamət qalmayıb.

Nümayəndə heyəti Ağdam Çörək muzeyinin dağıntıları ilə də tanış olub. Bildirilib ki, dünyada ikinci hesab edilən bu muzey cəmi 9 il - 1983-cü ildən 1992-ci ilədək fəaliyyət göstərib. Muzeydə nadir eksponatlar - taxılçılıqla bağlı arxeoloji tapıntılar toplanmışdı. Eksponatlar arasında daşa dönmüş dənlər, əl dəyirmanları, qab-qacaq, qədim kitablar, əlyazmalar, əkinçilik alətlərindən (oraq, xış, taxıldöyən vərdənə və s.) bəhs edən müxtəlif dəyərli nümunələr olub.

Sonra siyasi partiya rəhbərləri və politoloqlar Ağdamın I Şəhidlər xiyabanını ziyarət ediblər. Məlumat verilib ki, burada I Qarabağ müharibəsində şəhid olan qəhrəman Vətən övladları, o cümlədən Xocalı soyqırımında öldürülən şəhər sakinlərinin bir hissəsi dəfn edilib.

Azərbaycanın Milli Qəhrəmanı Allahverdi Bağırovun qəbri də buradadır. Ermənilər xislətlərinə uyğun olaraq, Şəhidlər xiyabanındakı qəbirlərin əksəriyyətini qarət məqsədilə qazaraq dağıdıblar.

Qeyd edək ki, siyasi partiya rəhbərlərini və politoloqları Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyev müşayiət edir.

**AZƏRTAC**
**2021, 17 mart**

**Azərbaycandakı siyasi partiyaların rəhbərləri və bir sıra politoloqlar işğaldan azad olunmuş Ağdam rayonunda səfərdədirlər**

Azərbaycan Respublikası Prezidentinin tapşırığına əsasən, ölkəmizdəki siyasi partiyaların rəhbərlərinin və bir sıra politoloqların işğaldan azad olunmuş Ağdam rayonuna səfəri təşkil olunub. Onları Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyev müşayiət edir.

AZƏRTAC xəbər verir ki, siyasi partiya rəhbərləri və politoloqlar əvvəlcə rayonun Yuxarı Qərvənd kəndində Kümbəz restoranının hazırkı vəziyyəti ilə tanış olub, Uzundərə ərazisində yerləşən, işğal zamanı erməni vandallarının dağıtdıqları İkinci Şəhidlər xiyabanının dağıntılarına baxıblar. Bildirilib ki, vaxtilə burada 1000-dən çox şəhid dəfn edilib. Lakin indi həmin məzarlıqdan əsər-əlamət qalmayıb.

Yolboyu hərbi istehkamların olduğu ərazilərlə tanış olan səfər iştirakçılarına həmin qurğuların mürəkkəbliyi barədə məlumat verilib.

Qeyd edək ki, Ağdam rayonu üçtərəfli Bəyanata uyğun olaraq, noyabrın 20-də Ermənistan tərəfindən Azərbaycana təhvil verilib.

Səfər davam edir.

**AZƏRTAC**
**2021, 17 mart**

**İtaliyanın AGİ xəbər agentliyi "Ruhlar şəhəri" Ağdamdan bəhs edən məqalə yayıb**

İtaliyanın AGİ xəbər agentliyində "Dünyanın ən böyük "Ruhlar şəhəri" Ağdama səyahət" sərlövhəli məqalə dərc olunub.

AZƏRTAC xəbər verir ki, məqalə jurnalist Cüseppe Didonnanın Ağdama səfəri və orada gördükləri əsasında qələmə alınıb. Müəllif qeyd edir ki, 1200 il ərzində bölgənin mühüm mərkəzi olan şəhər, on illər ərzində davam edən Qarabağ münaqişəsinin rəmzinə çevrilib.

Ağdamın hazırkı vəziyyətini əks etdirən fotoların yer aldığı məqalədə müəllif yazır: "Qafqazın Xirosiması" adlandırılan Ağdamın vahiməli mənzərəsini seyr etdikcə inana bilmirsən ki, VIII əsrdə əsası qoyulan bu şəhərdə 30 il bundan əvvəl 60 min insanın yaşayıb. Təsəvvür etmək olmur ki, Azərbaycanın ən məşhur futbol klublarından biri olan "Qarabağ" bir zamanlar oyunlarını bu şəhərdə keçirib".

C.Didonna məqaləsində Ağdamın dağıdılmış vəziyyətini təsvir edir. O yazır ki, Ağdamda indi hər şey müharibəni xatırladır, heç bir həyat nişanəsi yoxdur. Dram Teatrının fasadı və birinin içində donuzların saxlanıldığı iki məsciddən başqa şəhərdə heç nə qalmayıb. Məscidlər də təhqir olunub, orada donuz saxlanılıb.

Qeyd edilir ki, Ağdamda qəbiristanlıqlar sistemli şəkildə talan edilib. Əsgərlər, nizamsız silahlı birləşmələr və muzdlular vəfat etmiş insanların qızıl dişlərini oğurlamaq üçün cəsədləri qazıb çıxarıb, qəbirləri dağıdıblar.

Ağdamın strateji əhəmiyyətinə toxunan müəllif yazır ki, məhz bu amilə görə şəhər Ermənistan ilə Azərbaycan arasında 1992-ci ildə başlayan müharibənin mərkəzinə çevrilib. Ağdamın şəhər mərkəzinin fəal döyüş əməliyyatlarından kənar qaldığını diqqətə çatdıran müəllif bildirir ki, məhz sonrakı illərdə Ermənistan bu şəhəri yerlə-yeksan edib, onu dünyanın ən böyük "Ruhlar şəhəri"nə çevirib.

İllərdir rəsmi Bakı üçün əlçatmaz olan Ağdam 44 davam edən İkinci Qarabağ müharibəsindən sonra Azərbaycana qaytarıldıqdan sonra jurnalistlərin oraya girişi təmin olunub. "Qafqazın Xirosiması"nın bu günü kimyəvi maddələrin yayılması ilə deyil, hər yerə səpələnmiş minlərlə mina səbəbindən həyatın mümkün olmadığı ürəksıxan bir mənzərəni xatırladır.

Müəllif qeyd edir ki, "Qafqazın Xirosiması"nda hidrogen bombası partlamayıb, amma müharibə eyni şiddətdə dağıntılara, həmçinin etnik və dini kinin yaratdığı nifrətin nəticəsi olan ölümün həyat üzərində ən yüksək səviyyədə qələbəsinə gətirib çıxarıb.

**Elgün Niftəli**
**AZƏRTAC-ın xüsusi müxbiri, Roma**

**AZƏRTAC**
**2021, 30 mart**

**Cibutili diplomat: Ağdama səfərimiz zamanı bu şəhərin tamamilə dağıdıldığını gördük**

Ağdama səfərimiz zamanı şəhərin tamamilə dağıdıldığının şahidi olduq. Gəncədə isə müxtəlif raket atəşləri nəticəsində şəhərə dəymiş ziyanı öz gözlərimizlə gördük. İƏT olaraq işğaldan azad edilmiş bölgələrdə normal həyatın bərpası üçün Azərbaycan dövlətinə dəstəyimizi davam etdirəcəyik.

AZƏRTAC xəbər verir ki, bu sözləri işğaldan azad olunmuş bölgələrə səfərin yekunlarına dair keçirilən mətbuat konfransında Cibutinin Səudiyyə Ərəbistanındakı səfiri və İslam Əməkdaşlıq Təşkilatı (İƏT) yanında daimi nümayəndəsi Dya-Eddine Said Bamakhrama deyib.

O bildirib: "Bildiyimiz kimi, İslam sülh dinidir. Bu baxımdan, biz dünyada sülhün bərqərar olması üçün əlimizdən gələni əsirgəməməliyik. Biz dünyada sülhün, barışın tərəfdarı olduğumuzu bir daha bəyan edirik".

**AZƏRTAC**
**2021, 8 aprel**

# Fransa portalı Qarabağda erməni vandalizmindən yazır

Bəzi ölkələr işğal olunmuş ərazilərin təbii ehtiyatlarından son dərəcə bəhrələnib, digərləri isə buna laqeyd qalaraq onu yalnız hərbi işğal kimi qəbul ediblər. Təəssüf ki, Qarabağın Ermənistan tərəfindən 27 il işğalı dövründə sadalanan ssenarilər baş verib: işğal altındakı ərazilərdəki şəhərlər, oranın təbiəti, mədəni və tarixi obyektləri Ermənistan tərəfindən dağıdılıb və viran edilib. Bölgənin inkişafı üçün konkret heç bir iş görülməyib və bu işğal sayəsində Ermənistan iqtisadi cəhətdən inkişaf da edə bilməyib.

AZƏRTAC xəbər verir ki, bu fikirlər Fransanın "Mondeafrique" portalında dərc olunan "Ermənistanın işğalı altında Qarabağ mədəniyyətinin məhv edilməsi" sərlövhəli məqalədə yer alıb.

Yazıda 1992-ci ilə qədər azərbaycanlıların yaşadığı bu bölgənin Ermənistan tərəfindən işğal edilməsindən ötən 27 il ərzində bölgədəki tarixi və mədəniyyət abidələrinin məhv olunmasından söz açılıb.

Bildirilib ki, işğal dövründə Ağdam kabus şəhərə çevrilib, buradakı bütün tarixi və mədəni irs nümunələri, eləcə də şəxsi evlər və binaların yerlə-yeksan edilib. Vurğulanıb ki, işğal dövründə Ağdamda 571 mədəniyyət abidəsi, o cümlədən 286 kitabxana, 237 ev və klub, 19 muzey, 24 musiqi məktəbi, 1 kinoteatr, 2 teatr və 2 qalereya binası darmadağın edilib.

Diqqətə çatdırılıb ki, rayonda olan 67 məsciddən yalnız biri pis vəziyyətdə olsa da qalıb. Ermənilər bu məsciddən nəzarət postu kimi istifadə etdikləri üçün onu tam dağıtmayıblar. Digər məscidlər isə tamamilə məhv edilib. Rayondakı körpülər, Zərdüşt ibadətgahları, Füzuli rayonunda Hacı Ələkbər məscidi, Dədəli, Merdinli, Gecəgözlü, Yuxarı Veysəlli kəndlərindəki məscidlər, Horadiz kəndində 2 məscid, Cəbrayıl rayonunun Süleymanlı və Papı kəndlərindəki məscidlər, Qubadlı rayonundakı Mamer və Yusifbəyli kəndlərindəki, həmçinin Zəngilandakı məscidlər yerlə-yeksan edilib. Ağdam şəhərindəki Pənahəli xan (XIX əsr) və Mehdiqulu xan türbələrinə, abidələrə ciddi ziyan dəyib. XIX əsr tarixi abidəsi olan İbrahimxəlil xanın türbəsi isə yer üzündən tamamilə silinib.

Vurğulanıb ki, işğal dövründə erməni silahlı qüvvələrinin İslam mədəni irsini hədəfə aldığı aydın görünür. Həmçinin qeyd olunub ki, işğal altındakı ərazilərdə qanunsuz arxeoloji qazıntılar aparılıb. Qafqaz Albaniyasına məxsus bir çox abidələrin, eləcə də Xudavəng və Gəncəsər monastırlarının da erməni silahlı qüvvələri tərəfindən vandalizmə məruz qaldığı bildirilib.

Müəllif yazıb ki, regionun mədəni irsinə qarşı Ermənistan tərəfindən törədilən vandalizm aktlarının beynəlxalq sənədlərin, xüsusilə də "Silahlı münaqişələr zamanı mədəni sərvətlərin qorunmasına dair 1954-cü il Haaqa Konvensiyası", "Arxeoloji irsin qorunmasına dair Avropa Konvensiyası" və "Dünya mədəni və təbii irsinin qorunmasına dair Konvensiya"ların kobud şəkildə pozulmasıdır. Azərbaycanın meşə ehtiyatlarının 54 min hektarı erməni və ermənipərəst qüvvələr tərəfindən məhv edilib. Müharibə dövründə də ermənilərin Azərbaycan mədəni irsinə maksimum zərər verməyə çalışıb, evləri yandırıblar.

Eyni zamanda, diqqətə çatdırılıb ki, Azərbaycanın azad edilmiş ərazilərdə bərpa işlərinə başlanıb. Bildirilib ki, aeroportların, yolların tikintisi, ümumiyyətlə, azad olunmuş ərazilərdə infrastrukturun yaradılması bir milyona yaxın azərbaycanlı məcburi köçkünün doğma yurduna qayıtmasına imkan yaradacaq.

**Şəhla Ağalarova**
**AZƏRTAC-ın xüsusi müxbiri, Paris**

**AZƏRTAC**
**2021, 9 aprel**

**Misirin informasiya agentliyi Türk Şurasının informasiya və media üzrə rəsmilərinin Ağdama səfəri barədə xəbər yayıb**

Misirin “Asiaelyom” informasiya agentliyi Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (Türk Şurası) informasiya və media üzrə məsul nazirləri, yüksək vəzifəli rəsmilərinin Azərbaycanın işğaldan azad edilmiş Ağdam rayonuna səfəri barədə xəbər yayıb.

AZƏRTAC xəbər verir ki, yazıda Türkiyə Prezidenti Administrasiyasının Kommunikasiya İdarəsinin sədri Fahrettin Altunun erməni işğalçılarının Azərbaycanın Qarabağ bölgəsində törətdikləri dağıntılara və barbarlığa münasibətdə ikiüzlü mövqeyinə görə beynəlxalq ictimaiyyəti sərt tənqid etdiyi bildirilir. “Türkiyə rəsmisi qeyd edib ki, 30 illik işğalın sona çatdırılması Prezident İlham Əliyevin qətiyyətli mövqeyi nəticəsində mümkün olub və Türkiyə bu haqlı mübarizədə Azərbaycana dəstək verdi”, - deyə xəbərdə vurğulanıb.

Xəbərdə diqqətə çatdırılıb ki, Fahrettin Altun Ağdamda gördüyü erməni vəhşiliyindən bəhs edərək deyib: “Buradakı zülmü, əziyyəti və barbarlığı gördük. Bu, bənzəri olmayan bir barbarlıqdır. Burada barbarlıq olan zaman dünyanın, beynəlxalq təşkilatların necə ikiüzlü bir mövqe sərgilədiyini də gördük. Baxın, burada mədəniyyət abidələri tar-mar edilib. Amma özünü dünyanın mədəniyyət abidələrini qorumaq məsuliyyəti daşıyan qurumlardan heç bir səs çıxmayıb. Ona görə də buradakı mədəniyyət abidələri məhv edilib. Bu abidələr, əslində, türklüyün və İslamın izlərini itirmək üçün məhv edilib. Amma bunu bacarmadılar, bacara bilməyəcəklər. Çünki bu torpaqlar türklərin, İslamın torpaqlarıdır”.

Xəbərdə qeyd olunub ki, Türkiyə rəsmisi işğaldan azad edilən torpaqların yenidən bərpa ediləcəyini vurğulayıb. O əlavə edib ki, Türkiyə dövlət və özəl qurumları ilə bu ərazilərin bərpasında iştirak edəcək.

**Oqtay Bayramov**
**AZƏRTAC-ın xüsusi müxbiri, Qahirə**

**AZƏRTAC**
**2021, 12 aprel**

**İtaliya Senatının komissiya sədri özünün "Twitter" səhifəsində Ağdama səfəri ilə bağlı paylaşım edib**

İtaliya Senatının Xarici Əlaqələr daimi komissiyasının sədri Vito Petroçelli özünün "Twitter" səhifəsində Ağdama səfəri ilə bağlı paylaşım edib.

AZƏRTAC xəbər verir ki, Ağdamdan şəkillər paylaşan Vito Petroçelli yazıb: "Mən Ağdamın qalıqlarına səfər edirəm. Sual verirəm: Əgər Ermənistan buranı öz ərazisi hesab edirdisə, nəyə görə darmadağın edib?".

**AZƏRTAC**
**2021, 15 aprel**

## İtaliya nümayəndə heyəti Ağdam şəhərində səfərdə olub

Xəbər verildiyi kimi, İtaliya Senatının Xarici işlər və emiqrasiya daimi komissiyasının sədri Vito Petroçellinin başçılıq etdiyi nümayəndə heyəti ölkəmizdə səfərdədir.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, səfər çərçivəsində aprelin 15-də İtaliya nümayəndə heyəti işğaldan azad olunmuş Ağdam şəhərində olub. İtaliya parlamentinin üzvləri burada Ermənistanın işğal zamanı Azərbaycan ərazisində törətdiyi vandalizmi öz gözləri ilə görüblər. Səfər zamanı italiyalı qonaqlar Ağdam Cümə məscidi və Ağdam Dövlət Dram Teatrının qalıqları ilə tanış olublar.

Qonaqlar ermənilərin müharibə cinayətləri, mədəni, tarixi, dini abidələri məhv etmələri barədə ətraflı məlumatlandırılıb. Onlara məlumat verilib ki, Ermənistanın işğalına qədər Ağdam nəinki Qarabağ bölgəsinin, eləcə də respublikanın ən böyük, inkişaf etmiş şəhərlərindən idi. Ermənilər işğal etdikləri Ağdam şəhərində və rayonun kəndlərində yaşayış evlərini, ictimai binaları, məktəbləri, uşaq bağçalarını, xəstəxanaları, istehsal müəssisələrini talan edib, uçurub və yandırıblar. Erməni vandalları, hətta Şəhidlər xiyabanlarını, qəbiristanlıqları da dağıdıblar.

Ağdam səfəri zamanı İtaliya nümayəndə heyətini Milli Məclisin Azərbaycan-İtaliya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Azər Kərimli və digər rəsmi şəxslər müşayiət ediblər.

**AZƏRTAC**
**2021, 16 aprel**

**Ağdamdakı erməni vəhşiliyi Fransa portalında**

Azərbaycanın yeganə fransızdilli mətbu orqanı “Le Carrefour” (Yol qovşağı) qəzetinin təsisçisi, fransızdilli jurnalist Zeynab Kazımovanın Medianın İnkişafı Agentliyinin (MEDİA) təşəbbüsü ilə aprelin 15-də jurnalistlərin Ağdama səfərindən hazırladığı “Qarabağın ruhlar şəhəri Ağdamda bir gün” adlı məqaləsi Fransanın “musulmansenfrance.fr” xəbər portalında yayımlanıb.

AZƏRTAC xəbər verir ki, məqalədə Ağdamın 1993-cü il iyulun 23-də erməni silahlı birləşmələri tərəfindən işğal edildiyinə diqqət çəkən müəllif Ağdam şəhərinin və rayonun kəndlərinin ermənilər tərəfindən dağıdıldığını vurğulayıb. Bildirilib ki, işğal altında olduğu dövrdə Ağdam şəhəri və rayonun kəndləri yerlə-yeksan edilib. Eyni zamanda, Ağdamın işğal olunmuş ərazilərində tarixi abidələr, qəbiristanlıqlar, yaşayış evləri, xəstəxanalar, kitabxanalar, məktəblər, idarə və müəssisələr ermənilər tərəfindən tamamilə dağıdılıb.

Məqalədə Ağdamdakı Qarağacı qəbiristanlığında, Şəhidlər xiyabanına, İkinci Şəhidlər xiyabanında bütün məzarların, həmçinin Xocalı soyqırımı nəticəsində ermənilər tərəfindən qətlə yetirilmiş azərbaycanlıların qəbirlərinin dağıdılaraq məhv edildiyi vurğulanıb. Ağdamın işğaldan əvvəl yaxşı infrastruktura malik olduğuna diqqət çəkən müəllif şəhəri Qarabağın mədəniyyət və musiqi beşiyi kimi xarakterizə edərək, Şuşa kimi, burada da Azərbaycan musiqisinin, muğam sənətinin inkişaf etdiyini, teatr, mədəniyyət abidələri, dünyada yeganə olan Çörək muzeyinin bu şəhərdə yerləşdiyini, lakin ermənilərin rayonu işğal etməsi nəticəsində Ağdamın tamamilə viran qoyulduğunu qeyd edib. Yazıda məzarlıqların, o cümlədən Azərbaycanın görkəmli şairəsi Natəvanın qəbrinin, həmçinin qəbirüstü abidələrin ermənilər tərəfindən vəhşicəsinə dağıdılmasına diqqət çəkilib.

Məqalədə Ağdam sözünün etimologiyasını izah edən jurnalist bu gözəl şəhərin indi “Qafqazın Xirosiması” adlandırıldığını təəssüflə nəzərə çatdırır. O təəssüflə bildirir: “Bu gün Ağdam heç nəyi olmayan, xarabalıqlarla dolu ruhlar şəhəridir. “Ağ ev” indi “Qafqazın Xirosiması”na çevrilib”.

Səfər boyu əslən ağdamlı olan jurnalist həmkarlarının hisslərini və təəssüratlarını da qələmə alan jurnalist onların öz evlərinin xarabalıqlarına ürək sızladan göz yaşları ilə baxdıqlarını, hər bir evin, məktəbin yerini göstərdiklərini, uşaq vaxtı müxtəlif oyunlar, o cümlədən futbol oynadıqları meydançanın yerini göstərdiklərini, lakin heç bir iz tapa bilmədiklərini oxuculara çatdırır. Müəllif təəssüf hissi ilə onların acısını ovuda bilmədiyini və bu insanların həyatlarının ən qiymətli dövrünü – uşaqlıqlarını itirdiklərini yazır.

İtaliya Senatının Xarici əlaqələr komitəsinin sədri Vito Petroçellinin Ağdama səfəri ilə əlaqədar “Twitter” səhifəsində etdiyi paylaşımı xatırladan jurnalist senatorun “Ermənistan onu öz ərazisi hesab edirdisə, niyə dağıtdı?” sualına diqqəti yönəldir.

Müəllif, həmçinin bildirir ki, Ermənistan hələ də minalanmış ərazilərin xəritələrini Azərbaycana təhvil verməkdən imtina edir və bu da hökumətin bərpa işləri aparmasına mane olur, mülki şəxslərin, məcburi köçkünlərin doğma torpaqlarına qayıtmalarını ləngidir.

**AZƏRTAC**
**2021, 23 aprel**

**Miqel Alvares: Köçkünlərin doğma yurdlarına qayıdışı üçün, ilk növbədə, minatəmizləmə prosesi həyata keçirilməlidir**

Azərbaycana səfərim zamanı dünyanın aparıcı beyin mərkəzlərinin nümayəndələri ilə Dağlıq Qarabağ münaqişəsinin həllindən sonra yaranan problemləri və əməkdaşlıq perspektivlərini müzakirə etmək üçün əla fürsət əldə etdim.

Bunu İspaniya Strateji və Beynəlxalq Araşdırmalar Fondunun (FESEİ) direktoru Miqel Alvares de Eulate Moreno AZƏRTAC-a müsahibəsində söyləyib. Müsahibəni təqdim edirik:

- Cənab Alvares, siz "Cənubi Qafqaza yeni baxış: münaqişədən sonra inkişaf və əməkdaşlıq" adlı beynəlxalq konfransda iştirak etmisiniz. Sizin fikrinizcə, Cənubi Qafqaz regionunda yeni inkişaf və əməkdaşlıq yolu hansıdır?

- Azərbaycan Prezidenti konfrans iştirakçılarının suallarına cavab verərək, dövlətləri Dağlıq Qarabağ bölgəsinin bərpasında iştirak etməyə dəvət edib və bununla da bütün təkliflərə açıq olduğunu nümayiş etdirib.

Mən beynəlxalq konfransdakı çıxışından sonra Azərbaycan Prezidenti ilə şəxsi görüşümü xüsusilə qeyd etmək istərdim. Prezident İlham Əliyevə dedim ki, Dağlıq Qarabağ münaqişəsində qazanılan zəfər ölkənin problemlərinin həlli, sabitlik və rifahın əldə olunması üçün üç vacib amilin birləşməsi sayəsində əldə edilib. Bunlar İlham Əliyevin müdrik rəhbərliyi, uğurlu diplomatiyası və iti zəkası kimi keyfiyyətlərdir. İspaniyanın Strateji və Beynəlxalq Araşdırmalar Fondunun rəhbəri olaraq, mən FESEİ-nin İspaniya-Azərbaycan münasibətlərinin uğurlu inkişafına əhəmiyyətli töhfə verməyə hazır olduğunu Prezidentin diqqətinə çatdırdım.

Bizim Azərbaycanla əla əlaqələrimiz var. Biz İspaniyanın Bakıda səfirliyinin açılmasında maraqlıyıq, çünki diplomatiya səmərəli beynəlxalq münasibətlərin təmin edilməsi üçün mühüm vasitədir.

İspaniyanın Dağlıq Qarabağ bölgəsinin bərpasında iştirakına gəldikdə, ölkəmiz güclü magistralların, yüksəksürətli dəmir yollarının, pilotsuz limanların daxili logistika şəbəkəsini qura bilər. Bərpaolunan enerji sahəsində ixtisaslaşan İspaniyanın qabaqcıl şirkətləri Azərbaycanın neft və qazdan əlavə, onun enerji diplomatiyasına da strateji komponent əlavə edə bilər.

- Siz səfəriniz çərçivəsində Ermənistanın işğalından azad edilmiş Azərbaycan ərazilərinə baş çəkmisiniz. Zəhmət olmasa, təəssüratlarınızı bizimlə bölüşərdiniz.

- Dağlıq Qarabağ bölgəsinə, xüsusən Ağdam şəhərinə səfər məndə dəhşətli təəssüratlar yaratdı. Ağdam şəhəri tamamilə dağıdılıb, yerlə-yeksan edilib, minalanıb. Hesab edirəm ki, dağılmış şəhərləri bərpa etmək, onları çiçəklənən bir bölgəyə çevirmək və bununla da yerli sakinlər üçün dinc gələcəyi təmin etmək lazımdır.

Ağdam bir zamanlar yalnız mədəni cəhətdən zəngin deyil, həm də bölgənin inkişafı üçün mühüm aqrar-qida sənayesinə sahib olub. Bu gün Ağdam perspektivli gələcək naminə mübarizə aparır. Ən əsası təkcə şəhərin deyil, bütün bölgənin yenidən qurulmasıdır. Şəhərin gələcəklə bağlı proqramlarının icrasına və keçmiş məcburi köçkünlərin doğma yurdlarına qayıdışına başlamaq üçün, ilk növbədə, çox vacib olan minalardan təmizləmə prosesi həyata keçirilməlidir.

Mən Azərbaycana sülh və firavanlıq, Cənubi Qafqaz bölgəsində sabitliyin əldə olunmasında uğurlar arzulayıram.

**Nigar Cəfərli**
**AZƏRTAC-ın xüsusi müxbiri, Madrid**

**AZƏRTAC**
**2021, 26 aprel**

**Müdafiə Nazirliyi Ağdam rayonunun Poladlı kəndinin videogörüntülərini paylaşıb**

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi Ağdam rayonunun Poladlı kəndinin videogörüntülərini yayıb.

AZƏRTAC Müdafiə Nazirliyinin mətbuat xidmətinə istinadla həmin görüntüləri təqdim edir.

**AZƏRTAC**
**2021, 26 aprel**

**Müdafiə Nazirliyi Ağdam rayonunun Umudlu kəndinin videogörüntülərini paylaşıb**

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi Ağdam rayonunun Umudlu kəndinin videogörüntülərini yayıb.

AZƏRTAC Müdafiə Nazirliyinin mətbuat xidmətinə istinadla həmin görüntüləri təqdim edir.

**AZƏRTAC**
**2021, 27 aprel**

**İordaniya agentliyi ermənilərin viran qoyduğu Ağdam haqqında məqalə yayıb**

İordaniyalı tədqiqatçı və jurnalist Ömər Əl-Armuti rəhbəri olduğu "Nayrouz" informasiya agentliyinin saytında azərbaycanlı jurnalist Süleyman İsmayılbəylinin işğaldan azad olunmuş Ağdam haqqında ərəb dilinə tərcümə edilmiş məqaləsini yayıb.

AZƏRTAC xəbər verir ki, "Evlərinin damları olmayan Ağdam" sərlövhəli məqalədə ermənilərin işğalı dövründə bu şəhərdə çoxlu vandalizm aktları törədildiyi, Ağdamın tamamilə viran qoyulduğu diqqətə çatdırılıb. Müəllif yazır: "Avtobusumuz Bərdə rayonunu keçdikdən sonra gördüklərim məndə fərqli hisslər – qürur, məyusluq və təəssüf doğurdu. Əvvəl mövcud olmuş təmas xəttini keçdikdən sonra Azərbaycan Ordusunun, Azərbaycan əsgərinin rəşadətindən qürur hissi keçirdim. Orada ermənilərin inşa etdikləri 200-300 metrlik istehkamlar onların Azərbaycan əsgərindən nə qədər qorxduğunun əlaməti idi. Düşmən Ağdamda demək olar hər qarışı, hər küçəni minalayıb. Bu şəhərdə olduğum 6 saat müddətində gördüm ki, ermənilər ərazinin 95 faizinə minalar basdırıb. Bunun əsas hissəsi atəşkəsdən sonra vaxt qazanmaq üçün edilib. Belə ki, 10 noyabr razılaşmasından sonra Azərbaycanın humanist yanaşmasından sui-istifadə edən ermənilər Ağdamın bütün ərazisini minalayıblar. İndi onlar minaladıqları ərazilərin xəritələrini Azərbaycana verməkdən imtina edirlər. Bu səbəbdən ərazinin minalardan təmizlənməsi əməliyyatları mürəkkəb və olduqca təhlükəli şəraitdə aparılır".

Məqalədə ətrafı yaşıllıqlar olan şəhərdə hər addımda görünməmiş vəhşiliklər, vandalizm və cinayətlərin izləri olduğu, düşmənin şəhəri viran qoymaqla yanaşı, Ağdamın zəngin təbiətini də məhv etdiyi bildirilib. Müəllif yazıb: "Bu səbəbdən bir zamanlar füsunkar təbiəti ilə məşhur olan şəhərdə baharın gözəlliyi, yazın nəfəsi də hiss olunmurdu. Səmada quşlar da görünmürdü. Onlar da düşmənin vəhşiliyinə görə bu yerləri tərk edib. Ağdamda həyat yoxdur, bu şəhər sanki ruhlar məkanına çevrilib. Mən bu ifadəni təsadüfən işlətmirəm; qəddar düşmən məzarlıqlarda da dəhşətli vandalizm aktları törədib, qəbirləri qazaraq insanların nəşini ətrafa tullayıb. Sanki mərhumların ruhları ətrafda dolaşırdı. Bu yerlərdə Xocalı şəhidlərinin də uyuduğu onlarla belə məzarlıq vardı. Bu qəbiristanlıqlarda qazılmış məzarları görəndə düşündüm: axı, insan bu cür vəhşilikləri necə törədə bilər? Azərbaycana və azərbaycanlılara qarşı kin və nifrətin ölülərdən qisas almaq qədər vəhşiliyə səbəb olması insanın qanını dondurur. Bu məzarlıqlarda hər hansı bir baş daşı, yaxud mərhumun nəşini tapa bilməzsən. Ermənilər onların hamısını məhv ediblər".

**Oqtay Bayramov**
**AZƏRTAC-ın xüsusi müxbiri, Qahirə**

**AZƏRTAC**
**2021, 1 may**

**Müdafiə Nazirliyi Ağdam rayonunun Sarıhacılı kəndinin videogörüntülərini paylaşıb**

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi Ağdam rayonunun Sarıhacılı kəndinin videogörüntülərini yayıb.

AZƏRTAC Müdafiə Nazirliyinin mətbuat xidmətinə istinadla həmin görüntüləri təqdim edir.

**AZƏRTAC**
**2021, 1 may**

**Rusiyalı politoloq viran qoyulmuş Ağdama dair fotoşəkilləri paylaşıb**

**Qarabağ. Ağdam. Çörək muzeyi. Ağdam bütünlüklə dağıdılıb.**

AZƏRTAC xəbər verir ki, bu barədə politoloq, Rusiyanın Siyasi Araşdırmalar İnstitutunun Baş direktoru Sergey Markov Ağdama səfərdən sonra özünün feysbuk səhifəsində yazıb.

"Fikrimcə, gözəl freskalara görə məhz bu bina Ağdamın tam bərpasından sonra belə vəziyyətdə vandalizm və vəhşilik abidəsi qismində qalacaq. Xirosimada dağıdılmış bir bina qaldığı kimi", - deyə rusiyalı politoloq Ağdamda ermənilər tərəfindən viran qoyulan Çörək muzeyinin binasının şəklini paylaşıb.

S.Markov heyrətlə bildirib ki, bəzi insanlar ermənilərin Qarabağda vəhşi hərəkətlərini ört-basdır edərək, onları müdafiə etməyə çalışırlar. O yazıb: "Bəziləri məni bu vəhşilik barədə yazmaqda və fotolar paylamaqda qınayırlar. Mənə isə elə gəlir ki, məhz susmaq yolu ilə barbarlığın müdafiə edilməsi - millətlərarası ədavətin qızışdırılması və gələcəkdə baş verəcək qarşılıqlı cinayətlərə yol açılmasıdır. Sülhə aparan yol törədilmiş cinayətin etiraf edilməsindən keçir".

S.Markov, həmçinin Ağdamdakı Mədəniyyət sarayının xarabalıqlarının fotoşəkillərini bölüşüb. "Əhalisinin ümumi sayı təqribən 200 min, o cümlədən şəhər əhalisi 65 min olan, vaxtilə çiçəklənən Ağdam yerlə-yeksan edilərək 25 ildən artıq boş vəziyyətdə qalıb. Kütləvi qırğın və etnik təmizləmə təhlükəsi ilə üzləşən sakinlər hamı bir nəfər kimi buranı tərk ediblər. 25 ildən artıq müddətdə Ağdamda heç kəs məskunlaşmayıb. İşğalçı ermənilər şəhəri boş saxlayıb. Burada törədilmiş vəhşilik insanı çox sarsıdır. İnsanlığa ümidsiz baxmağa başlayırsan. Ümidvarıq ki, sivilizasiya tezliklə Ağdama qayıdacaq", - deyə politoloq təəssüratları ilə bölüşüb.

S.Markov izləyicilərinə erməni işğalçıların Qarabağ torpağında qoyub getdikləri minalanmış ərazilərdən söhbət açıb: "Neytral zolaqda isə qeyri-adi gözəllikdə çiçəklər bitir. Vladimir Vısotski bir mahnısında oxuduğu kimi. Bu çiçəklər isə Ağdam yaxınlığında Qarabağda keçmiş neytral zolaqdakı minalanmış ərazilərdə bitir. Bu çiçəklərə baxıb zövq ala bilərsiniz. Lakin onları dərmək olmaz. Çünki minada partlamaq təhlükəsi var".

**Fəridə Abdullayeva**
**AZƏRTAC-ın xüsusi müxbiri, Moskva**

**AZƏRTAC**
**2021, 5 may**

**Müdafiə Nazirliyi Ağdam rayonunun Qarapirimli kəndinin videogörüntülərini paylaşıb**

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi Ağdam rayonunun Qarapirimli kəndinin videogörüntülərini yayıb.

AZƏRTAC Müdafiə Nazirliyinin mətbuat xidmətinə istinadla həmin görüntüləri təqdim edir.

**AZƏRTAC**
**2021, 6 may**

## İşğaldan azad edilmiş ərazilərdə modul tipli yeni hərbi hissə istifadəyə verilib

İşğaldan azad edilmiş ərazilərdə dislokasiya olunan Azərbaycan Ordusu bölmələrinin hərtərəfli təminatı və qoşun xidmətinin təşkili, eləcə də şəxsi heyətin sosial-məişət şəraitinin daha da yaxşılaşdırılması ilə bağlı Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin göstərişinə əsasən həyata keçirilən tədbirlər davam edir.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, şəxsi heyətin xidməti və döyüş fəaliyyətinin təşkili, eləcə də məişət şəraitinin təmin edilməsi məqsədilə Ağdam rayonu ərazisində müasir avadanlıqla təchiz olunmuş müxtəlif təyinatlı qurğulardan ibarət növbəti modul tipli kompleks istifadəyə verilib.

Açılış mərasimdə çıxış edən hərbi birlik komandiri general-mayor Hikmət Həsənov müdafiə nazirinin təbriklərini şəxsi heyətə çatdırıb. Tədbirdə bildirilib ki, hərbi qulluqçuların bütün zəruri ehtiyaclarını təmin edəcək bu modul tipli qurğuda silah otağı, yataqxana, yeməkxana, mətbəx, eləcə də hamam-sanitar qovşağı mövcuddur.

Azad olunmuş digər ərazilərimizdə modul tipli yeni hərbi hissələrin tikintisi prosesi davam etdirilir.

**AZƏRTAC**
**2021, 10 may**

**Azərbaycan Prezidenti İlham Əliyevin Ağdama səfəri**
**Bərdə-Ağdam avtomobil yolunun təməli qoyulub**
*(28 may 2021-ci il)*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 28-də Ağdama səfərə gəlib.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Bərdə-Ağdam avtomobil yolunun təməlqoyma mərasimində iştirak edib.

Qeyd edək ki, bu layihə Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin tapşırığına əsasən işğaldan azad edilmiş ərazilərdə yol infrastrukturunun yenidən qurulması istiqamətində həyata keçirilən genişmiqyaslı işlərin tərkib hissəsidir.

Məlumat verildi ki, 14 kilometrlik hissəsi Bərdə şəhərindən və bir neçə yaşayış məntəqəsindən keçəcək yolun uzunluğu 44.5 kilometrdir.

Dövlətimizin başçısının tapşırığına əsasən bu avtomobil yolu Qarabağın inkişaf planı nəzərə alınmaqla 4 hərəkət zolaqlı olacaq. Avtomobil yolu Bərdə və Ağdam şəhərləri də daxil olmaqla, bu rayonların 20-dən artıq yaşayış məntəqəsini əhatə edəcək.

Prezident İlham Əliyev yolun təməlini qoydu.

**AZƏRTAC**
**2021, 28 may**

**Prezident İlham Əliyev Ağdam şəhər meşə-parkında ağac əkib**
*(28 may 2021-ci il)*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 28-də Ağdam şəhər meşə-parkında dağdağan ağaclarının əkilməsi mərasimində iştirak edib.

AZƏRTAC xəbər verir ki, "ağ şəhər" layihəsinin icraçı direktoru **Ruslan Sadıqov** dövlətimizin başçısına burada salınacaq meşə-park barədə məlumat verdi.

Bildirildi ki, burada ilkin olaraq şəhər sakinləri və qonaqları üçün 125 hektarlıq böyük meşə parkı salınacaq. Bərpa olunacaq Ağdam kanalı şəhərin içindən keçəcək və onun suyu burada yaradılacaq gölə töküləcək.

**Prezident İlham Əliyev:** Hansı tərəfdən?

**Ruslan Sadıqov**: Bu göldür, bu isə kanaldır, hansı ki, bayraq qoymuşuq, o kanalın səviyyəsidir. Bu göl onun ətrafında olacaq və sonra kanal öz yoluna davam edəcək. Ətraf ərazilər abadlaşdırılacaq və burada gözəl meşə-park yaradılacaq. Parkda sakinlər və turistlər üçün gözəl istirahət guşələri təşkil olunacaq.

**Prezident İlham Əliyev:** Çox gözəl, yəni, şəhərə giriş böyük meşə massividir.

**Ruslan Sadıqov:** Bəli, böyük meşə massividir. Məlum olduğu kimi, erməni işğalçılar burada meşələrin, yaşıllıqların hamısını qırıblar. Demək olar ki, heç bir yaşıllıq qalmayıb. Ona görə də burada Ekologiya və Təbii Sərvətlər Nazirliyi, IDEA İctimai Birliyi ilkin olaraq bu təşəbbüslə çıxış ediblər və əkinə də başlayıblar. Bu, dağdağan ağacıdır. O Azərbaycanın simvolik ağacıdır.

**Prezident İlham Əliyev:** Simvoludur.

**Ruslan Sadıqov:** Ağdamda bu ağaclar bizi gözləyirdilər. Ona görə şərəf olardı ki, Siz ağacın birini əkəsiniz.

**XXX**

Prezident İlham Əliyev ərazidə dağdağan ağacı əkdi.

**AZƏRTAC**
**2021, 28 may**

**Ağdam şəhərində inşa olunacaq ilk yaşayış binasının təməli qoyulub**
*(28 may 2021-ci il)*

Mayın 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ağdam şəhərində inşa olunacaq ilk yaşayış binasının təməlqoyma mərasimində iştirak edib.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısına inşa ediləcək ilk yaşayış binası barədə məlumat verilib.

Qeyd olunub ki, ABŞ-ın “Gensler”, Azərbaycanın “Azərbaycan inkişaf” və Türkiyənin “URAL mühendislik” şirkətləri binanın layihələndirilməsinə cəlb olunub. Binanın fasadında Ağdamın yerli ağ daşından və Avropa memarlıq elementlərindən istifadə ediləcək. Mənzillər 1, 2, 3, 4 və 5 otaqlı olacaq.

Dövlətimizin başçısı binanın təməlini qoydu.

**AZƏRTAC**
**2021, 28 may**

**Prezident İlham Əliyev Ağdam Sənaye Parkının təməlqoyma mərasimində iştirak edib**
*(28 may 2021-ci il)*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 28-də Ağdam Sənaye Parkının təməlqoyma mərasimində iştirak edib.

AZƏRTAC xəbər verir ki, Sənaye Parkı qida sənayesi, kiçik sənaye və xidmət, iri sənaye müəssisələri, sosial və texniki zonalar, TIR parkı, tikinti materiallarının satışı bazası hissələrinə bölünəcək. Burada tikinti materiallarının istehsalı müəssisələrinin yaradılması, kənd təsərrüfatı məhsullarının qablaşdırılmasının, meyvə-tərəvəz konservlərinin, ət və süd məhsullarının, şərab, yem, gübrə istehsalı və emalının, eyni zamanda, xidmət sahələrinin, soyuducu kameraların təşkili də planlaşdırılır.

Qeyd edildi ki, işğaldan azad olunmuş ərazilərin müqayisəli üstünlükləri əsasında 4 regional mərkəzin yaradılması nəzərdə tutulub. Ağdamda sənaye mərkəzi, Cəbrayılda logistika və ticarət mərkəzi, Şuşada mədəniyyət və turizm mərkəzi, Kəlbəcərdə hasilat və turizm mərkəzi yaradılacaq. Ağdamda yaradılacaq sənaye mərkəzində ilkin müraciətlər əsasında 33 kiçik istehsal və xidmət müəssisəsi, iri sənaye və qida sənayesi müəssisələri fəaliyyət göstərəcək. Buraya 110 milyon manata yaxın sərmayə qoyulacaq, 330 iş yeri açılacaq. Ağdamın strateji coğrafi mövqeyi, digər bölgələrlə qovuşuqda yerləşməsi, insan resursları potensialı və infrastruktura çıxış imkanları rayonun gələcəkdə Qarabağın sənaye mərkəzinə çevrilməsi imkanlarını genişləndirir.

Dövlətimizin başçısı Ağdam Sənaye Parkının təməlini qoydu.

**AZƏRTAC**
**2021, 28 may**

**Prezident İlham Əliyev Ağdamda Pənahəli xanın sarayının yerləşdiyi imarət kompleksində olub**
*(28 may 2021-ci il)*

Mayın 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ağdamda Qarabağ xanlığının banisi Pənahəli xanın sarayının yerləşdiyi imarət kompleksində olub.

Ağdam rayonunda erməni vandalizminə məruz qalan tarixi-memarlıq tikililərindən biri də Qarabağ xanlığının banisi Pənahəli xanın imarətidir.

AZƏRTAC xəbər verir ki, İmarət barədə dövlətimizin başçısına məlumat verən “ağ şəhər” layihəsinin icraçı direktoru **Ruslan Sadıqov dedi**: Cənab Prezident, bu məşhur imarət yeridir. Pənahəli xan burada atlarını saxlayırmış. Bu atlar burada nümayiş olunub, satışa çıxarılıb. Eyni zamanda, sonradan bura Ağdam ictimaiyyətinin bayram keçirdiyi yerlərə çevrilib.

**Prezident İlham Əliyev:** Stadion burada olub?

**Ruslan Sadıqov**: Bəli, stadion burada olub, bu, onun tribunasıdır.

**Prezident İlham Əliyev:** Bu, tribunadır?

**Ruslan Sadıqov**: Xeyr, o dağılmış daşlar.

**Prezident İlham Əliyev:** Hamısı bərpa olunacaq.

**Ruslan Sadıqov:** İnşallah. Burada kompleks yerləşib. Onun işlədiyi yer, yaşadığı yer və məzarlıqlar da var. Birinci gördüyünüz Pənahəli xanın türbəsidir. İkinci gördüyünüz İbrahim xanın dağıdılmış türbəsidir.

**Prezident İlham Əliyev:** Məzarları dağıdıblar.

**Ruslan Sadıqov:** Bunlar Natəvan xanımın məzarının dağıntılarıdır. Qarşısında durduğumuz Pənahəli xanın imarətidir, yaşayış yeridir. Bu ortada onun bağı olub. O sahədə isə onun karvansarayı olub. Gələn qonaqlar burada qalıblar.

İmarət sonradan Azərbaycan ictimaiyyətinin toy-bayram keçirdiyi yerlərdən biri olub. Bu fotolar Ağdamın 1970-1980-ci illərdəki həyatından bəzi məqamlardır.

**Prezident İlham Əliyev:** “Xarıbülbül” festivalıdır, burada keçirilmişdir.

**Ruslan Sadıqov**: İşğal dövründə buraya çox vəhşi münasibət bəsləyiblər. Hər yerdə olduğu kimi, burada da heyvan saxlayıblar və bərbad haldadır.

**X X X**

Qeyd edək ki, XVIII əsrə aid bu tarix-memarlıq abidəsi xan nəslinin ilk mülklərindən olmaqla, iki binadan ibarətdir. Saray Azərbaycan ərazisində yayılmış digər xan saraylarından fərqlənərək dəbdəbəli yaşayış evi xüsusiyyəti daşıyıb. Buna görə də, Pənahəli xanın imarəti də adlandırılıb. İşğal edilən ərazilərdəki digər tarixi-mədəni, dini abidələr kimi Pənahəli xanın imarəti də ermənilər tərəfindən təhqir edilib, vandalizmə məruz qalıb. Buradan tövlə kimi istifadə olunub.

Xan sarayının yaxınlığında yerləşən və Qarabağ xan nəslinin bir çox nümayəndələrinin dəfn edildiyi İmarət qəbiristanlığı da erməni vəhşiliyinin canlı şahididir.

Pənahəli xanın, İbrahimxəlil xanın və Mehdiqulu xanın türbələri və Xurşidbanu Natəvanın qəbirüstü abidəsi də burada yerləşir.

**AZƏRTAC**
**2021, 28 may**

**Ağdamda Zəfər muzeyi və açıq hava altında İşğal muzeyi yaradılacaq**
*(28 may 2021-ci il)*

Ağdamda Zəfər muzeyi və açıq hava altında İşğal muzeyi yaradılacaq.

AZƏRTAC xəbər verir ki, mayın 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə yeni muzeylər barədə məlumat verilib.

Ağdam rayonunun işğaldan azad edilmiş hissəsində Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi **Emin Hüseynov:** Cənab Prezident, əvvəlcə, onu qeyd edim ki, Zəfər və İşğal muzeylər kompleksinin konsepsiyası İtaliya şirkəti tərəfindən hazırlanmışdır. İcazə verin, əvvəlcə, çox qısa bir videoya baxaq.

Deməli, bu, hər iki kompleksin iki hissəsidir - İşğal muzeyi kompleksində həm muzey, həm də memorial bağ.

**Prezident İlham Əliyev:** Bir yerdə yerləşir?

**Emin Hüseynov:** Bir-birinin yanında yerləşir və 18 hektar ərazini əhatə edir. Bizim durduğumuz yer açıq hava altındadır. Dram teatrının yanındadır. Muzey o tərəfdə olacaq. Bu şəkildə də gördüyünüz kimi 8 hektar ərazini əhatə edir.

**Prezident İlham Əliyev:** Qalıqlar qalacaq?

**Emin Hüseynov:** Bəli, fikir verirsinizsə, burada həmin o göldür. Biz buna yaddaş gölü deyirik. Onun üstündə həm Dram teatrının qapıları, həm kitabxana, poçt ofisi də var idi. Kitabxana olub, otel olub, poçt ofisi olub və balaca dükan da olub.

Prezident İlham Əliyev: Bu da belə qalacaq?

**Emin Hüseynov:** Bəli, bu da belə qalacaq. Bunların görüntüsü həm gündüz, həm də axşam xüsusi rəqəmsal işıqlandırma vasitəsilə gölün üzərində əks olunacaq.

**Prezident İlham Əliyev:** Bəs, dağıdılmış digər evlər, mən demişdim ki, onlar saxlanılsın. Onlar da bu ərazidədir?

**Emin Hüseynov:** Bəli, o bağdadır, memorial bağda, bax, bu ərazidə. Hamısı qalır burada, orada həm də nar bağları arasında cığırlar təşkil olunacaq.

**Prezident İlham Əliyev:** Marşrutlar.

**Emin Hüseynov:** Bəli, xüsusi mobil tətbiqlər olacaq ki, "mented Reality" ilə onun üzərindən keçəndə haqqında müəyyən hekayələr çıxacaq, insanların danışdıqları rəvayətlər.

**Prezident İlham Əliyev:** Sonra Zəfər muzeyinə birləşir?

**Emin Hüseynov:** Bəli, bu, ümumilikdə 22,5 hektar ərazini əhatə edir. Zəfər muzeyi isə digər tərəfdə, Bayraq meydanının yanında yerləşir, yaxınlıqda isə Zəfər arenası olacaq. Çörək muzeyi burada olacaq, o da bərpa ediləcək.

**Prezident İlham Əliyev:** Gölün içindəki bina nədir?

**Emin Hüseynov:** Həmin bu binadır, cənab Prezident.

**Prezident İlham Əliyev:** Yəni, bu da gölün içində olacaq?

**Emin Hüseynov:** Bəli. Eyni zamanda, burada belə bir obyekt də olacaq. Konsepsiyası hazırlanır. Bu ortadakı bina. Sizin diqqətinizə muzeyin strukturu haqqında məlumatı çatdırmaq istərdim. Bu, çox dağınıq struktura malikdir. Məqsəd 30 illik işğal dövründə Azərbaycan xalqının keçdiyi çox çətin yolu göstərməkdir. Bu, xarici görünüşüdür. Burada giriş hissəsi var. Giriş hissəsində çox nəhəng ekranlar quraşdırılacaq. Orada işğal dövrünün ağrılı-acılı günləri nümayiş etdiriləcək. Birinci zalda Qarabağın, Ağdamın tarixi faktlarla göstəriləcək, ikinci zalda 360 dərəcəlik rəqəmsal ekranlarda müharibə dövrünün çox ağır günləri, dairəvi zalda Ağdamın dağıdılması, yerlə-yeksan edilməsi göstəriləcək. Bu vəhşiliklərin hamısı videolarla və hekayələrlə olacaq. Dördüncü çox böyük və hündür zaldır. Bu, məhz 30 illik dövr ərzində verdiyimiz qurbanların xatirəsinin ehtiramla yad edilməsinə həsr olunub. Nəhayət ən vacibi - beşinci zal Xocalı soyqırımından xilas olmaq üçün Ağdama üz tutmuş köçkünlərimizin keçdiyi əzab-əziyyətli yolu əks etdirəcək. Onlara həmin hissləri yaşatmaq üçün o otaqda çox soyuq temperatur olacaq ki, insanlar, ziyarətçilər o soyuğu hiss etsinlər. Bura isə sükunət zalı dediyimiz yerdir. Bu sarı xətt işıq kimi görsənir. Amma yaxınlaşdığımız zaman belə bir mənzərə ortaya çıxır, dağıntılar, evlərin yanması. Böyük otaq insanlara həmin o hissi yaşatmaq üçün böyük effekt verəcək. Arxiv zalında tarixi faktların hamısı əks olunacaq. Bütün bunlar və virtual zal. Memorial bağ qeyd edildiyi kimi, səma altında muzey olacaq. Hətta yanmış o sınıq-salxaq avtomobillərin qalıqları nar bağlarının arasında göstəriləcək.

Bir də dediyim mobil tətbiq budur. Bina üzərinə gətirildikdə artıq onun haqqında hekayələr çıxacaq. Bu göldür, həmin Dram Teatrının qapıları və bu tağlardan ibarət bir hasar. Bu tağ Qələbə rəmzidir. Lakin çox əlamətdar məsələ odur ki, bu hasar tamamilə Ağdam daşlarından qurulacaq. Həm burada qalıqlar şəklində yığılıb qalmış daşlar, həm də Ağdamın özündə istehsal olunmuş daşlarla inşa olunacaq. Bütün bu binaların hamısının əksi göldə həm gündüz, həm də gecə görünəcəkdir. Zəfər muzeyinin simvolikası Şuşa qalasının qapısını və Qələbə rəmzini təcəssüm etdirir.

**Prezident İlham Əliyev:** Zəfər tağı kimi?

**Emin Hüseynov:** Bəli, Zəfər tağı kimi, ağ və qara fonlarda hazırlanıb. Bakıda da belə bir Zəfər muzeyi yaradılacaq. Həmin simvolikadan orada da istifadə olunacaq. Zəfər muzeyi həm abidədir, həm də muzeydir. Üstündəki həmin tağ Günəşin ardınca hərəkət edir, Günəş enerjisi əsasında. O da bərpaolunan enerjidir. O da o anlama gəlir ki, bizim Zəfərimiz, bizim Qələbəmiz tükənməzdir, əbədidir. İçərisindəki muzey dəmir və şüşə konstruksiyalardan ibarətdir. Dəmir "Dəmir yumruq" əməliyyatını, şüşə isə bizim müharibənin, bizim Qələbəmizin ədalətli, saf olduğunu təcəssüm etdirir. İstəyirik burada da qürur, sülh və doğma torpaq təntənəsini çatdıraq. Bir neçə sərgi zalı var. Giriş zalında nəhəng rəqəmsal ekranlar quraşdırılacaq. Ondan sonra bizim pilotsuz uçuş aparatları, ən müasir hərbi texnika, müharibə zamanı istifadə olunan nadir hərbi əməliyyatlar taktikası və sözsüz ki, simulyasiya otaqları. Ən vacib otaq isə bizim qəhrəman oğullarımızın adları həkk edilmiş divarda sakit axan şəlalə, üstündə qırmızı güllər olacaq. Bu, qurbanlarımızın xatirəsini daim yad etmək üçündür.

**Prezident İlham Əliyev:** Eyni zamanda, 44 günlük müharibənin hər bir günü burada əks olunmalıdır. O günün tarixçəsi əks etdirilməlidir.

**Emin Hüseynov:** Bu ikinci zaldakı rəqəmsal masalarda hər bir əməliyyat barədə geniş məlumat veriləcək. Zəfər arenası amfiteatr şəklində qurulub. Quruluşu elədir ki, buradan həm Zəfər muzeyi, həm də Bayraq meydanı görünür. Üzərində avtomatik rejimdə açılıb-yığılan dam örtüyü olacaq.

**AZƏRTAC**
**2021, 28 may**

**Prezident İlham Əliyev Ağdam şəhər 1 saylı məktəbin yeni binasının təməlini qoyub**
*(28 may 2021-ci il)*

Mayın 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ağdam şəhər 1 saylı məktəbin yeni binasının təməlini qoyub.

AZƏRTAC xəbər verir ki, Ağdam rayonunun işğaldan azad edilmiş hissəsində Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi **Emin Hüseynov** dövlətimizin başçısına məktəb barədə məlumat verərək dedi:

- Cənab Prezident, bu məktəb Qarabağ bölgəsinin ən qədim məktəbi hesab olunur. Əslində, Əsgər bəy Eyvazov tərəfindən 1883-cü ildə əsası qoyulub. O, müxtəlif yerlərdə fəaliyyət göstərib. 1904-cü ildə həmin bu binaya, bu əraziyə gəlib və 1949-cu ilə kimi burada qalıb.

**Prezident İlham Əliyev**: Bu ərazidə?

**Emin Hüseynov:** Bəli, bu ərazidə qalıb. Məktəb 1993-cü ildə erməni işğalı zamanı tamamilə dağıdılmışdır. İkimərtəbəli bina olub. Amma təqdim olunan layihədə üçmərtəbəli bina nəzərdə tutulur. Plana uyğun olaraq, inzibati hissə, tədris korpusları, idman meydançası, texniki zona təşkil olunacaqdır.

**Prezident İlham Əliyev:** Şagirdlərin sayı nə qədər olacaq?

**Emin Hüseynov:** Məktəb 960 nəfər şagird üçündür.

**Prezident İlham Əliyev:** Əvvəlki məktəbdə nə qədər olub?

**Emin Hüseynov:** Əvvəlki məktəbdə az olub, 500 nəfər. Amma indi 960 şagird yerlik olacaq. Eyni zamanda, 18 sinif otağı, 37 fənn kabineti, kimya, fizika, biologiya laboratoriyaları yaradılacaq. Məktəbdə təhsil üçün hər cür şərait, bütün texniki imkanlar olacaqdır.

**Prezident İlham Əliyev:** Çox yaxşı.

**X X X**

Sonra dövlətimizin başçısı məktəbin təməlini qoydu.

**Prezident İlham Əliyev:** Xeyirli olsun.

**AZƏRTAC**
**2021, 28 may**

**Prezident İlham Əliyev Ağdamda Qiyaslı məscidində olub**
*(28 may 2021-ci il)*

Mayın 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ağdama səfəri çərçivəsində Qiyaslı məscidində olub.

AZƏRTAC xəbər verir ki, "ağ şəhər" layihəsinin icraçı direktoru **Ruslan Sadıqov** dövlətimizin başçısına məscidlə bağlı məlumat verdi.

Bildirildi ki, ermənilər burada da heyvanlar saxlamış, gedəndə də yandırıblar və xeyli ziyan dəyib. Bunlar bərpaçıdan verilən ilkin sənədlərdir.

**Prezident İlham Əliyev**: Buranın əvvəlki görüntüləri var? Kitablarda, şəkillərdə.

**Ruslan Sadıqov:** Bərpaçı tərəfindən belə təqdim olunur.

**Prezident İlham Əliyev:** İki minarə olub da burada?

**Ruslan Sadıqov:** Bəli.

**XXX**

Qeyd edək ki, bu məscid də Qarabağda erməni vandalizminə məruz qalan tarixi-dini abidələrdən biridir. Ağdam rayonunun Qiyaslı kəndində bu dini abidə XVIII əsrə aiddir. Qiyaslı məscidi 2001-ci ildən yerli əhəmiyyətli memarlıq abidəsi kimi dövlət qeydiyyatına götürülüb.

**AZƏRTAC**
**2021, 28 may**

**Prezident İlham Əliyev Ağdamda Şahbulaq qalasında olub**
*(28 may 2021-ci il)*

Mayın 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ağdamda Şahbulaq qalasında olub.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısına abidənin yenidənqurma planı təqdim edilib.

Bildirilib ki, XVIII əsrə aid bu qala Qarabağ ərazisindəki ən məşhur abidələrdən biridir. Ağdam şəhərinin 10 kilometrliyində, Şahbulaq kəndi yaxınlığında yerləşən qala 1751-1752-ci illərdə Qarabağ xanlığının banisi Pənahəli xan tərəfindən inşa edilib. Elmi ədəbiyyatda "Şahbulaq qəsri" adı ilə tanınan abidə, əslində, iri qəsr kompleksinin iç qalası olub. Kompleks yaşayış evlərindən, bazar, hamam və məsciddən ibarət idi. Pənahəli xan Şuşa qalasını inşa edənədək Şahbulaq qalası Qarabağ xanlığının inzibati mərkəzi olub. Ermənilər Ağdamı işğal etdikdən sonra bir sıra abidələrimiz kimi Şahbulaq qalasını da erməniləşdirməyə çalışıb, yaxınlıqdakı məscidi isə kilsə kimi təqdim ediblər.

**AZƏRTAC**
**2021, 28 may**

**Prezident İlham Əliyev Ağdam şəhərinin bərpasının təməl daşının qoyulması mərasimində iştirak edib, rayon ictimaiyyətinin nümayəndələri ilə görüşüb**
*(28 may 2021-ci il)*

Mayın 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə Ağdam şəhərinin baş planı təqdim olunub.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı əvvəlcə Ağdam ictimaiyyətinin nümayəndələri ilə görüşüb.

Dövlətimizin başçısı görüşdə çıxış edib.

**Prezident İlham Əliyevin**
**çıxışı**

- Əziz dostlar.

Bu gün Respublika Günüdür. İlk növbədə, sizi və bütün Azərbaycan xalqını Respublika Günü münasibətilə ürəkdən təbrik etmək istəyirəm. Bütün Azərbaycan xalqına xoşbəxtlik, firavanlıq arzulayıram.

Görüşümüzün əvvəlində xahiş edirəm ki, İkinci və Birinci Qarabağ müharibələrində Vətən uğrunda öz canlarını fəda etmiş qəhrəman şəhidlərimizin əziz xatirəsini bir dəqiqəlik sükutla yad edək.

Allah bütün şəhidlərimizə rəhmət eləsin.

**Sakinlər:** Amin. Allah rəhmət eləsin.

**Prezident İlham Əliyev:** Bu gün Respublika Gününü biz Ağdamda, Ağdam şəhərində qeyd edirik. Bunun çox böyük rəmzi mənası var. Ağdam şəhərinin Baş Planı bu gün təsdiq ediləcək. Bu Baş Plan mənə təqdim edilmişdir. Biz bir müddət bu plan üzərində işləyirdik və istərdim ki, Ağdam rayonunun tanınmış şəxsləri Baş Planla tanış olsunlar, öz fikirlərini bildirsinlər və sizin iştirakınızla biz bu gün bu gözəl mərasimi keçirək.

Bu mərasim üçün, bu görüş üçün başqa vaxt da müəyyən oluna bilərdi. Ancaq mən hesab etdim ki, ən düzgün tarix bizim milli bayramımız olan Respublika Günüdür, müstəqillik günüdür. Çünki bu gün burada olmağımız bir daha müstəqilliyimizin nə qədər güclü olmasını göstərir. Əgər biz güclü müstəqil dövlət qurmasaydıq, öz tarixi torpaqlarımızı işğalçılardan azad edə bilməzdik. Ancaq güclü Azərbaycan, müstəqil Azərbaycan, sözün əsl mənasında, müstəqil siyasət aparan Azərbaycan bu tarixi missiyanı şərəflə yerinə yetirdi. Ağdam şəhərinin bərpasının başlanğıcı bu gün baş verir, Respublika Günündə. Əminəm ki, bütün nəzərdə tutulmuş planlar Baş Plan əsasında icra ediləcək və Ağdam şəhəri yenidən qurulacaq.

Mən Ağdam rayonunda işğal dövründə doqquz dəfə olmuşam. Bildiyiniz kimi, şəhər işğal altında olduğu üçün rayonun mərkəzini biz Quzanlı qəsəbəsində müəyyən etdik. Quzanlı və digər kəndlərdə dəfələrlə olmuşam. Bu ərazi ilə bağlı bir çox tədbirlər keçirilmişdir. Regionların sosial-iqtisadi inkişafı Dövlət proqramlarının icrası nəticəsində Ağdam rayonunun quruculuqla bağlı inkişaf planları təsdiq edilmişdir. Burada bir çox sosial layihələr icra edildi, bir çox məktəblər, Muğam Mərkəzi, uşaq xəstəxanası, mərkəzi rayon xəstəxanası, Olimpiya Mərkəzi, infrastruktur layihələri icra edilmişdir və deyə bilərəm ki, ölkə üzrə olan göstəricilərdən daha da yüksək göstəricilər burada var. Qazlaşdırma təxminən 100 faizdir, elektrik enerjisi, su ilə təchizat təmin edilmiş, 150-dən çox artezian quyusu qazılmışdır. Çünki mənfur düşmən bu bölgəni sudan da məhrum etmişdi. Bir sözlə, işğal dövründə Ağdam rayonunun inkişafı ilə bağlı çox ciddi addımlar atılmışdır. Ağdamdan olan məcburi köçkünlərlə dəfələrlə görüşlər əsnasında deyirdim ki, torpaqlarımız, Ağdam şəhəri və bütün rayon azad olunandan sonra daha da gözəl şərait yaradılacaq. Bu gün sizə təqdim ediləcək Ağdam şəhərinin Baş Planı bu sözümün təsdiqidir. Biz elə bir şəhər quracağıq, elə bir Ağdam quracağıq ki, bütün dünya üçün örnək olacaqdır.

İşğal dövründə Ağdam şəhərinin dağıntılarını, o şəhərin bir hissəsini mən təmas xəttində dəfələrlə olarkən binokl ilə görürdüm. Hər dəfə, bax, təmas xəttində olarkən və bu dağıntıları uzaqdan seyr edərkən öz-özümə deyirdim ki, biz mütləq qayıdacağıq. Nəyin bahasına olursa-olsun qayıdacağıq. Tarixi ədaləti bərpa edəcəyik. Düşməni torpağımızdan qovacağıq və buna nail olduq.

Çalışırdıq ki, bunu sülh yolu ilə həll edək. Ancaq Azərbaycan vətəndaşları yaxşı bilirlər ki, sülh danışıqları, sadəcə olaraq, status-kvonun əbədi olmasına istiqamətləndirilmişdi. Əfsuslar olsun ki, bu məsələ ilə məşğul olan vasitəçilər 30 ilə yaxın davam edən danışıqlar müddətində aqressora – işğalçıya təzyiq göstərmədilər, onları məcbur etmədilər, onlara sanksiyalar tətbiq etmədilər. Açıq-aydın demədilər

ki, işğalçı qüvvələr Azərbaycan torpağından çıxmalıdır. Aqressor təbii olaraq, daha da azğınlaşırdı, daha da qudururdu və bu torpaqları əbədi işğal altında saxlamaq istəyirdi və bu, sirr deyil.

Əgər mən Prezident kimi birinci mərhələdə müəyyən ümidlərlə yaşayırdımsa, son mərhələdə artıq bu ümidlər də aradan qalxdı. Çünki Ermənistan rəhbərliyi açıq-aydın bildirirdi ki, bu torpaqların bizə qaytarılması mümkün deyil. Belə olan halda faktiki olaraq danışıqlar prosesinə son qoyuldu. Mən bunu açıq-aydın bildirirdim. Bütün danışıqlar dövrü – 2003-cü ildən son hadisələrə qədər hər zaman Azərbaycan xalqına həqiqətləri çatdırırdım. Hər zaman deyirdim ki, biz heç vaxt bizim torpağımızda ikinci erməni dövlətinin yaradılmasına imkan verməyəcəyik. Deyirdim, məsələnin həlli elə olmalıdır ki, bu, yarımçıq həll olmasın. Məhz buna görə bizim mövqeyimiz bir çox hallarda vasitəçilər tərəfindən birmənalı qarşılanmırdı. Bəzi ermənipərəst qüvvələr bizi günahlandırmağa çalışırdılar. Sanki biz aqressoruq, sanki biz işğalçıyıq. Ona görə Ağdam rayonuna binoklla baxarkən, bax, mən bu günü görürdüm və bilirdim ki, əgər məsələ danışıqlar yolu ilə həll olunmasa, müharibə qaçılmazdır. Xüsusilə keçən ilin iyul, avqust, sentyabr aylarında Ermənistan dövlətinin bizə qarşı hərbi təxribatları nəticəsində baş vermiş hadisələr artıq müharibəni qaçılmaz etmişdi.

Qırx dörd günlük müharibə bizim gücümüzü göstərdi, Silahlı Qüvvələrimizin rəşadətini göstərdi, qəhrəmanlığını göstərdi, xalqımızın birliyini göstərdi. Biz bir yumruq kimi birləşərək düşmənə sarsıdıcı zərbələr endirdik, düşməni torpağımızdan qovduq. Qırx dörd günün hər bir günü qəhrəmanlıq dastanıdır, hər bir günü bizim üçün əzizdir, doğmadır. Çünki hər gün biz irəli gedirdik, hər gün. Bir gün də geri addım atmamışıq. Düşmən müharibənin son mərhələsində panikaya, isterikaya qapılaraq öz məğlubiyyətini artıq dərk etməyə başlamışdı. Bir daha gördü ki, Azərbaycan qarşısında onlar duruş gətirə bilməyəcəklər.

Biz müharibə dövründə də özümüzü ləyaqətlə aparmışıq və müharibənin bütün qaydalarına riayət etmişik. Məhz buna görə Ermənistan tərəfində mülki vətəndaşlar arasında itkilər həddindən artıq azdır. Biz ancaq işğalçı orduya qarşı mübarizə aparmışıq, müharibə aparmışıq. Dinc əhaliyə qarşı heç vaxt müharibə aparmamışıq. Ermənilərdən fərqli olaraq, soyqırımı törətməmişik və digər hərbi cinayətlər törətməmişik. Ancaq ermənilərin törətdikləri cinayətlər artıq bütün dünyaya bəllidir: Xocalı soyqırımı, digər kəndlərimizin sakinlərinin qətlə yetirilməsi, şəhərlərimizin dağıdılması. Baxın, görün, Ağdam şəhəri yoxdur, yoxdur. Bir bina da yoxdur. Bir Cümə məscidinin qalıqları qalıb. Onu da mən demişəm, onlar iki məqsəd üçün saxlamışdılar. Bir məqsəd o torpağa bağlı olan bir işarə idi. Yəni, artilleriya atəşinin tənzimlənməsi üçün lazım idi bu məntəqə, bu obyekt. İkinci məqsəd müşahidə məntəqəsi idi. Məscidin minarələrindən onlar müşahidə edirdilər. İndi mən müharibədən sonra Ağdama ikinci dəfə səfər edirəm. Birinci dəfə Ağcabədi istiqamətindən gəldim. Bu dəfə isə Bərdə istiqamətindən gəldim. Hər iki istiqamət üzrə bir neçə müdafiə xətti var, istehkamlar var. Cümə məscidinin qalıqlarından başqa, bir dənə də salamat bina yoxdur. Bunu hansısa yad planetli, necə deyərlər, ünsürlər törətməyiblər. Bunu bizim qonşumuz olan, bizim çörəyimizi yeyən, bizim torpağımızda özünə yuva salan, ancaq bizə qarşı daim nifrət hissi ilə yaşayan ermənilər törədiblər. Bu dağıntılar Birinci Qarabağ müharibəsindən sonra törədildi. Bu, ikinci müharibə dövründə törədilən dağıntılar deyil. Bizim bütün maddi sərvətimiz məqsədyönlü şəkildə dağıdıldı, talan edildi. Tarixi-dini abidələrimiz söküldü. Bunun da bir neçə məqsədi var idi. Birincisi, bizə olan nifrət. İkincisi, Azərbaycan xalqının mədəni irsini bu torpaqlardan silmək məqsədi və əlbəttə ki, gələcəkdə elə bir vəziyyət yaratmaq ki, Azərbaycan əhalisi bu torpaqlara qayıda bilməsin.

Ancaq səhv etdilər. Onlar dərk edə bilmədilər ki, bizim üçün, xalqımız üçün torpaqlarımızın işğaldan azad edilməsi ümummilli məsələdir və heç vaxt biz bu vəziyyətlə barışmadıq və bunu açıq bəyan edirdik. İkinci Qarabağ müharibəsi bir daha Azərbaycan xalqının əzmini, iradəsini göstərdi, bütün dünyaya göstərdi və bu şanlı Qələbə tarixdə əbədi qalacaqdır. Bundan sonra Azərbaycan dövləti qalib dövlət kimi inkişaf edəcək. Azərbaycan xalqı müzəffər xalq kimi yaşayacaq, qürur hissi ilə yaşayacaq. Ermənistan isə məğlub edilmiş dövlətdir və bizim işğal altında olan torpaqlarda törədilmiş vəhşilik o erməni lobbi təşkilatlarının öz xalqı haqqında yaratdıqları mifologiyaya da son qoydu. Çünki bu dağıntıları törədən vəhşidir. Bunun başqa adı yoxdur. Təkcə bura deyil, azad edilmiş bütün torpaqlarda mənzərə eynidir. Mən maşınla yüz kilometrlərlə torpaqları gəzərkən gördüm ki, sağda-solda hər şey dağıdılıb, talan edilib. Sanki bu torpaqlardan vəhşi qəbilə keçib. Mən bunu demişəm, bir daha burada Respublika Günündə Ağdam şəhərində demək istəyirəm, bizim müharibəmiz təkcə faşist Ermənistan dövlətinə qarşı deyildi, bizim müharibəmiz faşizm əleyhinə müharibədir. Bizim qələbəmiz göstərir ki, bütün faşistlərin aqibəti, bax, ermənilərin aqibətinə bənzər olacaq.

Müharibə ilə bağlı, əlbəttə ki, çox danışmaq olar. Ancaq bu gün biz daha çox gələcəklə bağlı danışmalıyıq. Müharibə tarixdir, şanlı tariximizdir. Bu tarix əbədi qalacaqdır, bu tarix dərindən

öyrənilməlidir və öyrənilir. Dünya miqyasında, dünyanın aparıcı ölkələrinin ali hərbi məktəblərində 44 günlük müharibə öyrənilir və Azərbaycanın göstərdiyi yeniliklər öyrənilir. Əlbəttə ki, texniki imkanlarımız müharibənin nəticələrinə ciddi təsir etmişdir. Ancaq bayrağı sancan, bayrağı ucaldan, öz sinəsini qabağa verən, ölümə gedən Azərbaycan əsgər-zabiti idi. Biz bu müharibəni, bu Qələbəni bizim qəhrəman hərbçilərimizə borcluyuq, şəhidlərimizə borcluyuq. İstənilən texnikan ola bilər, istənilən maddi imkanın ola bilər, əgər Vətən sevgisi yoxdursa, əgər milli ruh yoxdursa, əgər Vətən uğrunda ölümə getməyə hazır deyilsənsə heç vaxt Qələbə qazanmazsan. Dırnaqarası qəhrəman erməni əsgərləri bizim əsgərlərimizi görərkən müharibənin artıq ikinci mərhələsində silahları yerə qoyub qaçırdılar, bu gün də qaçırlar.

Bu gün əfsuslar olsun ki, Ermənistan tərəfi öz təxribatçı əməllərindən əl çəkmir. Mən bunu bir neçə gün bundan əvvəl mayın 10-da Naxçıvanda olarkən demişdim. Əgər biz görsək ki, xalqımızın, dövlətimizin təhlükəsizliyinə zərrə qədər təhlükə var, dərhal düşməni yerindəcə məhv edəcəyik. Onlar da bizim gücümüzü bilirlər və görürlər. Ona görə son günlər ərzində Azərbaycan-Ermənistan sərhədi ərazisində Ermənistan ordusu tərəfindən törədilmiş təxribat, təbii ki, cavabsız qalmamalı idi və qalmadı. Növbəti dəfə rəzil oldular, növbəti dəfə biabır oldular. İndi görün, bütün dünya bunlara gülür. Baş nazir bir versiyanı deyir, baş qərargah rəisinin müavini başqa versiya deyir, özü də bir gündə. Bu versiyalar da yalandır. Yəni, 30 il ərzində ermənilər dövlət qura bilmədilər. Deməli, bu xalq dövlət qura bilmir. Deməli, bu xalq ancaq başqa böyük dövlətlərin çərçivəsində yaşaya bilir. O böyük dövlətlərin imkanlarından istifadə edib, orada özü üçün həyat qura bilər. Otuz il ərzində bunların unikal şansı var idi - əgər bu işğal olmasaydı, əgər düşmənçilik olmasaydı, əgər bu vəhşilik ermənilər tərəfindən xalqımıza qarşı törədilməsəydi, bu gün bəlkə də Ermənistan da müstəqil dövlət kimi yaşaya bilərdi. İndi görün, necə, hansı rüsvayçı durumdadırlar. Açıq etiraf edirlər ki, öz dövlətini, öz sərhədlərini qoruya bilmirlər. Günahı biri-birinin üstünə atırlar - indiki hakimiyyət köhnə hakimiyyətin üstünə, köhnə hakimiyyət indiki hakimiyyətin üstünə. Amma, əslində, onların hamısı günahkardır. Çünki onlar böyük səhv etdilər. Onlar düşünmürdülər ki, bu dərəcədə aciz vəziyyətə düşəcəklər və onların bütün bəlalarının səbəbkarları da özləridir.

Biz isə öz sərhədlərimizi bundan sonra möhkəmləndirəcəyik, dövlət sərhədində möhkəmlənəcəyik. Heç kim bizə təzyiq edə bilməz, heç kim bizə təsir edə bilməz. İndi bəzi ermənipərəst ölkələr, dairələr hansısa açıqlamalar verirlər. Versinlər, onların öz işidir. Avropa Parlamenti növbəti dəfə saxta faktlar əsasında qətnamə qəbul edib. Mən heç ona fikir vermirəm. Sizə də məsləhət görmürəm, Azərbaycan xalqına da məsləhət görmürəm. Bunlar hamısı əhəmiyyətsiz şeylərdir. Əhəmiyyətli məsələ odur ki, bax, biz bu gün buradayıq, burada oturmuşuq, burada durmuşuq və əbədi burada yaşayacağıq. Qırx dörd günlük müharibə və müharibədən sonrakı dövr, – altı ay artıq keçibdir, - bir daha göstərdi ki, kim kimdir, kim nəyə qadirdir. Biz də bir çox məsələləri xüsusilə beynəlxalq müstəvidə özümüz üçün yəqin etdik və bu, bizə gələcəkdə düzgün qərar qəbul etməyimizə kömək göstərəcəkdir.

Hesab edirəm ki, bu gün tarixi gündür. Çünki bu gün azad edilmiş torpaqlarda birinci Baş Plan artıq təsdiqlənir. İndi Şuşa şəhərinin Baş Planı hazırlanır, artıq bir müddətdən sonra təsdiqlənəcək. Füzuli şəhərinin, Cəbrayıl şəhərinin, digər şəhərlərin Baş Planları üzrə iş gedir. Amma birinci Baş Plan, bax, burada təsdiqlənəcəkdir. Artıq bir neçə tədbir keçirildi. Ağdam şəhəri üçün çox önəmli olan 1 saylı məktəbin təməli qoyuldu. Siz yaxşı bilirsiniz ki, bu məktəbin çox böyük tarixi var, 140 illik tarixi var. Gələcəkdə burada iş yerlərinin yaradılması üçün Ağdam Sənaye Parkının təməli qoyuldu. Bu parkın ərazisi təqribən 200 hektara yaxındır və orada yüzlərlə, gələcəkdə bəlkə də minlərlə insan işlə təmin ediləcək. Bərdə-Ağdam avtomobil yolunun təməli qoyuldu və artıq yaxın gələcəkdə yol istismara veriləcəkdir. Eyni zamanda, mənim göstərişimlə Bərdə-Ağdam dəmir yolunun və dəmir yolu vağzalının tikintisi nəzərdə tutulur. İmarət kompleksinin bərpası ilə əlaqədar artıq işlərə start verilir. Ağdamda İşğal muzeyi və Zəfər muzeyi konsepsiyası mənə təqdim edildi. Yer seçildi və həm Zəfər, həm İşğal muzeyləri çox möhtəşəm olacaq. Digər obyektlər, digər tədbirlər, böyük meşə sahəsinin təməli qoyuldu. Şəhərin içində böyük bir meşə zolağı olacaq - 125 hektarlıq. Süni göl yaradılacaq, kanallar, körpülər. Şəhərin müasir standartlara, müasir tələblərə uyğun inkişaf planı artıq tam işlənib hazırlanıb. Bütün Qarabağ zonası “yaşıl enerji” zonası olacaq. Bütün şəhərlər “ağıllı şəhər” konsepsiyası əsasında qurulacaq. Yəni, bu gün bu görüşdən sonra birlikdə bizə bu təqdimat göstəriləcəkdir.

Əminəm ki, nəzərdə tutulmuş bütün məsələlər öz həllini tapacaq və biz sizinlə bundan sonra Ağdam şəhərində, Ağdam rayonunda çox görüşəcəyik. Bir daha dediyim sözlərə qayıtmaq istəyirəm, mən bu 17 il ərzində - 2003-cü ildən 2020-ci ilə qədər ovaxtkı məcburi köçkünlərlə bir çox görüşlər keçirmişdim və hər zaman onlara deyirdim ki, biz torpaqlara qayıdacağıq, siz torpaqlara qayıdacaqsınız. Ancaq görürdüm ki, son illər onların gözlərində ümidlər azalır. Görürdüm və bu da təbii idi. Çünki 30 ilə yaxın vaxt keçmişdi.

Ancaq mən hər zaman əmin idim ki, bu, olacaq. Sadəcə olaraq, deyə bilmirdim. Sadəcə olaraq, deyə bilmirdim ki, nə vaxt olacaq, necə olacaq. Amma bilirdim ki, olacaq.

Bir məqama toxunmaq istəyirəm, bilirəm ki, müharibə dövründə mənim "Twit"lərimi, mənim çıxışlarımı xalqımız səbirsizliklə gözləyirdi. Mən öz çıxışlarımda və bütün "Twitter"imdə də hər zaman həqiqətləri deyirdim və yazırdım. Bir gün fikirləşdim, dedim ki, yəqin, ağdamlılar fikirləşirlər ki, bəs nə üçün indi Cəbrayıl azad olundu, Xocavənd azad olundu, Hadrut, Suqovuşan, Murovdağ, Füzuli, Zəngilan, Qubadlı, gör, haralara gedib çıxmışıq. Bəs nə üçün Ağdamın kəndləri azad olunmur? Fikirləşirdim, yəqin ki, siz fikirləşirsiniz, ağdamlılar fikirləşir. Amma özümü saxlayırdım, deyə bilmirdim ki, nə üçün, deyə bilmirdim. Amma indi hər kəs bilir nə üçün. Çünki əgər biz bu istiqamətdən hücuma keçsəydik, bir çox şəhidlərimiz olacaqdı. Çünki onlar elə bir istehkam qurmuşdular, elə minalamışdılar ki, buradan bizim hücum etməyimiz, əlbəttə, böyük səhv olardı. Ancaq biz bu istiqamətdə kifayət qədər böyük hərbi qüvvə saxlamışdıq ki, erməni ordusunun əhəmiyyətli hissəsi, bax, burada olsun. Beləliklə biz onların manevr imkanlarını böyük dərəcədə məhdudlaşdırdıq. Onsuz da biz Ağdamı alacaqdıq. Şuşa - alınmaz qala götürüləndən sonra mənim göstərişimlə növbəti istiqamət Ağdam oldu. Mən indi bunu deyə bilərəm. Artıq biz elə bil ki, arxa hissədən gələrək erməni qruplaşmasını mühasirəyə alıb tam məhv edəcəkdik.

Çox güman ki, Ermənistan tərəfi də bunu dərk edib və artıq ağ bayraq qaldırmağa məcbur olub, bizim qarşımızda diz çöküb. Otuz il bizə meydan oxuyan, bizim əsəblərimizlə oynayan, xalqımızı təhqir edən, özündən uydurma qəhrəman düzəldən düşmən diz çökdü bizim qabağımızda, ağ bayraq qaldırdı, təslim oldu və kapitulyasiya aktına imza atdı. Biz Ağdamı bir güllə atmadan, bir şəhid vermədən azad etdik və bu gün buradayıq və bundan sonra əbədi burada olacağıq.

**x x x**

**Xalq artisti Mənsum İbrahimov:** Möhtərəm cənab Prezident, biz Sizi salamlayırıq. Bu gün biz Sizinlə Qarabağımızın döyünən ürəyi olan Ağdamımızda tarixi təməlqoyma mərasiminə şahidlik edirik. 28 ildən sonra şanlı Ordumuzun və Müzəffər Ali Baş Komandanımızın rəhbərliyi ilə, onların sayəsində Zəfər çalmış bir xalq kimi Respublika Gününü məhz Ağdamda qeyd etmək bizim üçün böyük bir qürurdur.

Bizim qəhrəman Ordumuzun böyük tarixi Qələbəsindən sonra Heydər Əliyev Fondunun Şuşamızda təşkil etdiyi möhtəşəm "Xarıbülbül" festivalı mədəniyyətimizin qələbəsi və dünyaya bir mesaj idi. Təbii ki, biz buna görə Sizə - Müzəffər Ali Baş Komandanımıza, şanlı Ordumuza təşəkkür edirik, şəhidlərimizin ruhu qarşısında baş əyirik, qazilərimizə cansağlığı arzulayırıq.

Cənab Prezident, 2018-ci ildə Quzanlıda Muğam Mərkəzinin açılışında çıxışınızda qeyd etdiniz ki, tezliklə Ağdamın mərkəzində bunu daha möhtəşəm tikəcəyik. Artıq bu gün biz o tarixi hadisənin şahidiyik. Həqiqətən bizim üçün böyük bir qürurdur. Mən bütün ağdamlılar adından, bütün sənətkarlar adından Sizə təşəkkür edirəm ki, bizim dövlətçiliyimiz əbədidir. Biz bundan sonra burada ancaq böyük Muğam mərkəzlərində muğam festivalları keçirəcəyik, böyük tədbirlər keçirəcəyik, festivallar keçirəcəyik Sizin sayənizdə. Diqqətinizə görə Sizə təşəkkür edirəm.

**Prezident İlham Əliyev:** Sağ olun.

**x x x**

**Milli Məclisin deputatı Bəxtiyar Sadıqov:** Möhtərəm cənab Prezident, bu gün həyatımızın ən xoşbəxt günlərindən biridir. Yeni Qarabağımızın, yeni Ağdamın təməli qoyulur. Biz də bunun iştirakçısına çevrilmişik. Bu xoşbəxtliyi bizə Müzəffər Ali Baş Komandan kimi Siz nəsib etmisiniz. Bu xoşbəxtliyi təkcə bizə yox, keçmiş məcburi köçkünlərə yox, bütün Azərbaycan xalqına bəxş etmisiniz. Siz bizim itmiş inamımızı qaytarmısınız. Bizim ölməkdə olan ümidlərimizi yenidən dirçəltdiniz, yeni həyat verdiniz. Çox sağ olun, minnətdarıq. Siz Azərbaycan xalqını dünyaya yenidən qürurlu xalq, döyüşkən xalq, itirilmiş torpaqlarını qaytaran xalq kimi təqdim etdiniz.

Möhtərəm cənab Prezident, 44 günlük Vətən müharibəsində Siz əsl möcüzə yaratdınız, - buna başqa ad vermək mümkün deyil, - bizim hamımızın gördüyümüz və şahidi olduğumuz möcüzə. Siz yeni ordu qurdunuz, yeni vətənpərvər gənclər nəsli yetirdiniz. Siz milli birlik yaratdınız. Siz bu ordumuzu ən yeni silahlarla silahlandırdınız. XXI əsrin müharibəsini apararaq ən yeni taktika və strategiya tətbiq etdiniz. Bu gün hətta Amerika Birləşmiş Ştatları kimi güc mərkəzi də Sizin taktikanızdan, İkinci Qarabağ müharibəsindəki taktikadan öyrənir və ordusunda dəyişiklik aparır.

Siz dəmir yumruğunuzla düşmənin başını əzdiniz, belini qırdınız. Siz Ermənistanı təkcə hərb meydanında darmadağın etmədiniz, diplomatiya sahəsində, informasiya müharibəsində də biabırçı məğlubiyyətə uğratdınız. Siz informasiya müharibəsinin yeganə baş qəhrəmanısınız.

Möhtərəm cənab Prezident, Siz bizi bəxtəvər günlərə, xoşbəxt günlərə gətirmisiniz. Siz özünüz də xoşbəxt insansınız. Beş əsrlik dövrdə itirilmiş Azərbaycan torpaqlarını geri qaytaran qüdrətli sərkərdəsiniz. İki əsrlik Qarabağ münaqişəsini uğurla həll edən Müzəffər Ali Baş Komandansınız. Müqəddəs ata vəsiyyətini yerinə yetirən xoşbəxt övladsınız. Azərbaycan xalqını ən ülvi arzusuna çatdıran əsl xilaskarsınız. Var olun, sağ olun.

Möhtərəm cənab Prezident, Siz bizə demişdiniz ki, bizi Qarabağa qaytaracaqsınız, Ağdama qaytaracaqsınız. Çox sağ olun, bu gün Ağdamdayıq. Siz demisiniz, Qarabağı cənnətə çevirəcəyik, bir-birindən gözəl layihələr var. Bu layihələrin baş müəllifi Sizsiniz. Biz inanırıq ki, tezliklə gözəl Qarabağda asudə, şən yaşayacağıq. Həmişə Sizinlə qürur duyacağıq. Biz Sizinlə fəxr edirik, cənab Prezident. Bayramınız mübarək! Qarabağ Azərbaycandır! Qarabağ bizimdir!

**x x x**

**Ağdam rayon Ağsaqqallar şurasının sədri Əvəz Mikayılov:** Hörmətli cənab Prezident, icazə verin, çıxışımın əvvəlində Ağdam rayonunun çoxsaylı ağsaqqalları adından Sizi salamlayım, onların bütün arzularını burada Sizə çatdırım.

Əlbəttə, biz bugünkü günü çox səbirsizliklə gözləyirdik. Müharibə, nə qədər dəhşətli, nə qədər müdhiş səslənir bu söz. Bu sözün arxasında minlərlə ana-bacı harayı, viran olmuş şəhərlər, kəndlər, oğul itkisi – bütün bunlar hamısı məhz 30 illik müharibədə ermənilərin bizim başımıza açdığı oyunların qısa xülasəsidir. Çox möhtəşəm bir gündür ki, biz bu günləri arxada qoyduq və bu gün Ağdamda belə bir təməlqoyma mərasimi keçirilir. Siz 44 günlük müharibə dövründə Bakıda bir çox xarici ölkə müxbirlərinin suallarını elə cavablandırdınız ki, onlar sanki mat vəziyyətinə düşürdülər. Onlar peşman olurdular ki, Sizə belə suallar veriblər. Gözləmirdilər. Əlbəttə, biz bunu Sizdən gözləyirdik. Yaxud götürək müharibədən sonrakı dövrdə Bakıda keçirdiyiniz böyük, dörd saatlıq mətbuat konfransını, hansı ki, orada Siz dörd dildə - Azərbaycan, türk, rus və ingilis dillərində bütün dünyaya ürək sözlərinizi çatdırdınız. Bütün bunlara görə, Sizinlə fəxr edirik. Sizin Ağdama bu ikinci səfəriniz, Baş Planı təsdiq etməyə gəlməyiniz biz ağdamlılar üçün böyük şərəfdir. Buna görə Sizə minnətdarlığımızı bildirir və Sizinlə fəxr edirik. Çox sağ olun.

**x x x**

**Milli Məclisin deputatı Aqil Abbas:** Möhtərəm Prezident, əvvəla, Sizinlə burada olduğumuz üçün dünyanın ən xoşbəxt adamlarıyıq. Siz başda olmaqla xalqımız xoşbəxtdir. Horadizdə bayrağın altında üzü Naxçıvana dayananda, dedim ki, möhtərəm Prezident, o bayrağı ilk dəfə dövlət bayrağı kimi Ulu Öndər atanız qaldırıb. Biz, xüsusən Qarabağ camaatı inanırıq ki, Siz o bayrağı götürüb, düz bu yolla Naxçıvana gedəcəksiniz və bayrağı orada ucaldacaqsınız. Siz o bayrağı qaldırdınız, gətirib Şuşada ucaltdınız, Himnimizi, uvertüramızı səsləndirdiniz. Siz o bayrağı Zəngəzur dəhlizindən asacaqsınız.

Möhtərəm Prezident, Ulu Öndər Məmməd Arazın bir şeirini çox sevirdi: Dünya sənin, dünya mənim, dünya heç kimin. İndi o şeir dəyişib. İndi deyirlər, dünya sənin, dünya mənim, dünya bizim. Siz o dünyanı verdiniz bizə, bu xalqa o dünyanı verdiniz. Doğrudan, o şeirin sözlərini camaat elə oxuyur, o cürdür.

Möhtərəm Prezident, dostlar 44 günlük Zəfərimiz haqqında dedilər, mən təkrar etmək istəmirəm. Mən o zaman burada - cəbhə xəttində idim, izləyirdik. Mən başqa bir fikrimi demək istəyirəm. Ola bilər, mən bir az çox danışdım. Yenə Məmməd Arazdan demək istəyirəm. Deyir: "Vətən mənə oğul desə nə dərdim, mamır olub qayasında bitərdim". Siz təkcə bu Vətənin oğlu olmadınız, Siz bütün türk xalqının oğlu oldunuz. Ən böyük oğul oldunuz. Eşq olsun Sizə.

**x x x**

**Prezident İlham Əliyev:** Çox sağ olun, təşəkkür edirəm. Bilirsiniz ki, müharibə dövründə birinci Cəbrayıl rayonu işğaldan azad olunmuşdur. Mən bunu xalqa çatdırandan sonra fikirləşdim, yəqin ki, mənim həyatımda ən xoşbəxt günlərimdən biridir. Çünki birinci rayonu tam azad etmək, işğalçılardan tam təmizləmək doğrudan böyük tarixi hadisə idi və xalqımıza, ordumuza əlavə ruh verdi, inam verdi. Ondan

sonra Füzuli, ondan sonra Hadrut, ondan sonra Murovdağ, Suqovuşan, Zəngilan, Qubadlı. Hər dəfə özözümə deyirdim ki, ən xoşbəxt günlərimi yaşayıram. 10 noyabr – Ermənistanın kapitulyasiya aktı. Özü də nəinki Azərbaycan ictimaiyyəti, bütün dünya bilir ki, o, hansı formada imzalandı. Bu günə qədər mən bilmirəm, Paşinyan onu hansı tində imzalayıb. O da müharibənin, zəfərin kulminasiyası idi, o, əsl kapitulyasiya aktı idi. İndi hər kəs bunu belə qəbul edir.

Ondan sonra yanvarın 14-də Şuşada birinci dəfə olarkən özümə dedim ki, ən xoşbəxt günlərimi yaşayıram. Bu gün də eyni sözləri deyirəm. Əminəm ki, bizim xalqımızın həyatında bundan sonra belə xoşbəxt günlər çox olacaq. Xalqımız xoşbəxt olsun. Tezliklə doğma Ağdamı bərpa edək, vətəndaşları qaytaraq və bu gözəl diyarımız olan Qarabağ torpağında əbədi yaşayaq. Bir daha təbrik edirəm.

**Yerdən:** Siz başda olmaqla.

**X X X**

**Prezident İlham Əliyev:** Onlar Ağdamı heç vaxt görməyiblər, amma çox gözəl nəticələr göstəriblər. Mənə məlumat verildi ki, 644 bal, 644 bal və 650 bal toplayıblar. Elədirmi? Keçən il qəbul imtahanlarında bu balla onlar öz biliklərini göstəriblər və indi də öz doğma vətənində, bu tarixi gündə mən onları xüsusilə dəvət etmişəm ki, burada ağsaqqallar, tanınmış insanlarla bərabər, gənc nəslin nümayəndələri də olsun. Çünki bu tarixi günümüzü biz bu cür qeyd etməliyik, bütün nəsillərin nümayəndələri ilə. Ölkəmizin gələcəyi məhz bilikli, savadlı və öz doğma torpağına bağlı olan belə gənclərin əlində olacaq.

**İctimaiyyət nümayəndələri:** Siz başda olmaqla, inşallah. Var olun.

**"Ağ şəhər" layihəsinin icraçı direktoru Ruslan Sadıqov:** Bu şəkillər Ümummilli Liderimizin Ağdam ictimaiyyəti ilə görüşlərindəndir.

**Prezident İlham Əliyev:** Bu bulaq haradadır?

**İctimaiyyət nümayəndələri:** Bulaq Xındırıstandadır, İldırım Cəfərov da kolxozun sədri idi. Bu, Qərvənddəkidir, Xuraman Abbasova. Mən Qərvənddənəm.

**Prezident İlham Əliyev:** Qərvənd kəndindən?

**İctimaiyyət nümayəndəsi:** Bəli, mən orada tədbirdə iştirak etmişəm. Adı da Heydər bulağıdır. Allah rəhmət eləsin.

**Prezident İlham Əliyev:** Bu da ağsaqqallarla görüşdəndir.

**Ruslan Sadıqov**: Cənab Prezident, Siz tapşırmışdınız ki, Ağdam şəhərinin planına rayon ictimaiyyəti ilə bir yerdə baxılsın. Çünki Ağdam rayonunun kommunikasiya, yol xətləri, dəmir yolu və vacib strukturunu təşkil edən meliorasiya xətləri bir-biri ilə vəhdət təşkil etməlidir. Ona görə də rayonun işğaldan azad olunmuş 70 min 900 hektarlıq bu hissəsinə baxılmış, eyni zamanda, onun coğrafi şəraiti nəzərdən keçirilmiş, iqlim şəraiti burada əks etdirilmişdir. İqlim şəraitinə görə burada hansı bitkilər əkilə bilər, hansı kənd təsərrüfatı məhsulları yetişdirilə bilər. Bunun əsasında ictimaiyyətlə, administrasiya ilə bir yerdə 71 kəndi daha rahat, daha uyğun qurmaq üçün 33 kənd layihələndirilib.

**Prezident İlham Əliyev:** Birinci mərhələdə olacaq. Birinci mərhələdə 33 kənd müəyyən olunub, bəzi kəndlər isə birləşəcək. Ondan sonrakı mərhələdə qalan kəndlər də tədricən bərpa ediləcək. Amma biz əsas planımızı 33 kəndin ətrafında qurmuşuq.

**Ruslan Sadıqov:** Burada ilkin islahatlar kənd təsərrüfatı torpaqları ilə bağlıdır. İslahatlara əsasən, təqribən 25 sotdan nəzərdə tutulub, Sizin icazənizlə 18 sotdan insanların hər birinə həyətyanı sahə müəyyən olunub. O biri rayonlara baxanda bu, yüksək rəqəmdir, Siz bunu tövsiyə etmisiniz.

**Prezident İlham Əliyev**: Yəni, həyətyanı sahə?

**İctimaiyyət nümayəndələri:** Çox yüksək rəqəmdir. Çox gözəl. Çox böyük, gen-bol.

**Ruslan Sadıqov:** Bunları təmin edəndən sonra Sizin tapşırığınıza uyğun olaraq, investorların cəlb edilməsi və Ağdamın müasir kənd təsərrüfatı növlərinin inkişafını təmin etmək üçün 10, 50 hektarlıq 200 müasir fermer təsərrüfatı nəzərdə tutulub. Yerdə qalan dövlət torpaqlarında isə 50,100 hektarlıq 50 müasir fermer təsərrüfatının yaradılması nəzərdə tutulub. Eyni zamanda, Sizin tapşırığınıza uyğun olaraq, ilk böyük müəssisələr artıq ilk gündən gəliblər və burada əkin işləri aparırlar ki, əkin sahələri boş qalmasın. 1500, 3000, 4000 hektarlıq bir neçə iri, müasir təsərrüfatlar da yaradılacaq.

**Prezident İlham Əliyev:** Ağdamlı sahibkarlar da bunu indi eşidirlər. Gəlsinlər təkliflərini versinlər ki, burada bir qarış torpaq da boş qalmasın.

**Ruslan Sadıqov:** Təşəkkür edirik, cənab Prezident. Bu slayda biz fikir versək, burada kəndlərin birləşməsi nəzərdə tutulub. Bunlar elə formada birləşdirilib ki, gələcək meliorasiya kanallarının suyu bərpa

olandan sonra meliorasiya strukturu kəndlərin yollarına və suyun axınına uyğun olsun, bir-birinə mane olmasın. Bu kəndləri görürsünüz, artıq Ağdam rayonunun orta hissəsində Xaçınçaydan Qarqarçayadək olan ərazini burada illüstrativ nümayiş etdiririk. Bu kəndlər bu formada birləşir və yerdə qalan dövlət torpaqları da bir ayrı formada olacaq. Kəndlərarası yolların hamısının arasında qalan yerlərdə meşə zonaları yaradılacaq ki, Ağdam şəhərində yaşıllıqlar bərpa olunsun. Kəndlər bölünəndə elə bölünüb ki, cənab Prezident, böyük hissələr 150 hektardır, biz o hissələri daha kiçik - 25 hektarlıq hissələrə bölə bilərik. Ailəyə düşən paya uyğun olaraq biz onları 4 hektarlıq, 5 hektarlıq, bir ailəyə 18 sot necə ki, deyilmişdi, elə qurulacaq ki, gələcək su xətləri artıq kənd tikilib tikilməyib, o xətlərimizin yeri bəllidir.

**Prezident İlham Əliyev:** Hər kəsin də suyu olacaq?

**Ruslan Sadıqov:** Bəli, ola bilər ki, meliorasiya xətləri 2-3 il sonra qurulsun, artıq onların planları uyğun olacaq və heç kəsə də mane olmayacaq. Yeni sistem üzrə, burada bu şəkildə görünür, hər bir həyətin önündə suları, meliorasiya suları olacaq. Bu, imkan verəcək ki, Ağdam rayonunun sakinləri istəsələr həm intensiv təsərrüfat qura, həm də dədə-baba qaydası ilə də öz işlərini apara bilərlər.

**Prezident İlham Əliyev:** Necə baxırsınız bu təklifə?

**İctimaiyyət nümayəndələri:** Çox gözəl, yüksək səviyyədə, cənab Prezident. Uğurlu, xeyirli olsun. Hər şey düşünülüb. Gələcək üçün tikilir, əsas məsələ gələcəkdir. Nümunəvi layihədir.

**Prezident İlham Əliyev:** Mən deyirəm, bu şəhər və bütöv rayon dünya üçün nümunə olacaq.

**Ruslan Sadıqov:** Cənab Prezident, şəhərə gəldikdə, şəhər əsasən öz tarixi hüdudlarında götürülüb, tarixi hüdudlarından başqa bir neçə kənd də ona birləşdirilib.

**Prezident İlham Əliyev:** Şəhərə hansı kəndlər birləşib?

**İctimaiyyət nümayəndələri:** Səkkiz kənd birləşdirilib, deməli, Ətyeməzli, Qaraqaşlı, Xıdırlı, Sarıhacılı, Çuxurməhlə, Qarazeynallı. Cənab Prezident, o kəndlərdə şəhər ənənəsi var.

**Prezident İlham Əliyev:** Onlar bitişikdir?

**Ruslan Sadıqov:** Bəli. Ağdam şəhərinin əhalisi 36 min nəfər olub. Birləşdirilən kəndlərlə və əhalinin artımını da nəzərə alsaq 50 mindən yuxarıdır. Sizin tapşırığınıza uyğun olaraq, şəhər 100 min nəfər əhali üçün planlaşdırılıb. İnanırıq ki, Ağdam Azərbaycanın böyük sənaye, turizm şəhərlərindən biri olacaq və tapşırığınıza uyğun olaraq hər bir aspekt nəzərə alınıb. Şəhərin özünə gəldikdə, ətrafı bağlarla əhatə olunub, intensiv, müasir bağlarla. Turistlər, yaxud da yerli sakinlər şəhərə yaxınlaşanda onun ətrafında ən müasir bağlar görəcəklər. O bağlarda kiçik müəssisələr, turizm obyektləri, 8-12-20 yerlik otellər ola bilər ki, şəhərə gələn qonaqlar kənara çıxmadan bağ-bağatın içində o otellərdə qala bilsinlər. Maraqlı mənzərə olacaq. Bitkilər elə seçilib ki, lavanda bitkisi kimi gül açanlar, badam bitkisi, digər bitkilər, çiçəklənən olsunlar. Yaz gələndə Ağdam hər ay dəyişən çiçəklərin əhatəsində olacaq.

**İctimaiyyət nümayəndəsi**: Cənab Prezident, Ağdamda nə əksən bitər, subtropik bitkilərin hamısı Ağdamda bitir. Torpaq çox münbitdir.

**Prezident İlham Əliyev:** Bəli, torpaq çox münbitdir.

**İctimaiyyət nümayəndəsi** : Cənab Prezident, mən Qərvənddənəm. Su kanalları gəlirdi. Bax, indi onun gələcəkdə açılması ilə əlaqədar yəqin ki, müəyyən tədbirlər görüləcək.

**Prezident İlham Əliyev:** Tapşırıq verilib, komissiya yaradılıb, Baş nazirin müavininin rəhbərliyi ilə indi bu işlərə baxılır. Suqovuşan azad olunduğuna görə işlər daha da asanlaşacaq. İş orasındadır ki, oradan iki kanal gəlirdi səhv etmirəmsə. Bir kanal bağlıdır, çünki o, işğal dövründə hərbi məqsədlər üçün istifadə olunub, onu açmaq lazımdır və Suqovuşandan da biz istənilən həcmdə suyu ötürə bilərik. Bizim planlarımızda vaxtilə suvarılan təqribən 100 min hektara yaxın torpağı yenə su ilə təmin etməkdir. Siz bilirsiniz ki, ermənilər yayda suyu kəsirdilər, sonra buraxırdılar.

**İctimaiyyət nümayəndələri:** Bəli, Xaçını da kəsirdilər, oranı da.

**Prezident İlham Əliyev:** Xaçın indi bizdədir, tam su anbarı, indi oraya da mən qrup ezam etmişəm, onun da ətrafına baxıblar, Xaçınçay su anbarı özü də böyük tutumludur. Təqribən 23 milyon kubmetr. Böyük su anbarıdır. Yəni, mənim nəzarətimdədir. O kanalların birində iş gedir, o biri də açılacaq. Oradan təkcə Ağdam yox, Bərdə, Yevlax, Tərtər, Goranboy və bir neçə başqa rayona su gələcək. Ona görə də biz burada artezianları qazdırırdıq. Ən çox artezianı biz burada qazdırdıq, 150 quyu, bir də 10 quyu da əlavə qazılmalıdır.

**Ruslan Sadıqov:** Cənab Prezident, Ağdamın xüsusiyyətlərini nəzərə alaraq bilirik ki, Şahbulaq şəhər ətrafında ən gözəl, tanınmış yerlərdən biridir, həm tarixi, həm də görməli yerdir. Ona görə də şəhərin ətrafı belə qurulmuşdur ki, şimala doğru ətrafında bağlar salına-salına Şahbulaq qalasına və Xaçınçaya qədər getmiş olacaq, oradan da Sizin tapşırığınıza uyğun olaraq yaradılacaq atçılıq zavodunun yerləşəcəyi

Eyvazxanbəyli kəndinə. Beləliklə, Ağdama gələn qonaqlarımız Şahbulağı seyr edə biləcək, qalanın daxilində tarixi hissə, muzeylər olacaq. Elə indi də insanlar gəlib buranı seyr edirlər, artıq muzey marşrutu kimi qurulub, hər yerdə nişanlar, göstəricilər qoyulub, minadan xeyli təmizləmə işləri görülüb və qonaqlar da buraya artıq turist kimi gəlirlər.

**Prezident İlham Əliyev**: Atçılıq kompleksini biz Ağcabədidə qurduq, bilirsiniz, amma birini də burada quracağıq, öz tarixi yerində.

**Ruslan Sadıqov:** Ona görə buraya gedən yollar diqqətdə saxlanılır və ətrafında bağlar salınacaq ki, o yollara xüsusi gözəllik versin.

Burada dünya şəhərlərinin şəbəkələrinin təhlili verilib. Bu, dünyanın ən gözəl şəhərləri necə qurulub, onların şəbəkələridir, onların küçə enləridir, görünüşləridir, bölünüşləridir, parklarıdır, nəqliyyat vasitələridir. Biz burada 813 minlik, 6 milyonluq, 2 milyonluq, eyni zamanda, 90 minlik, 350 minlik şəhərləri görə bilirik. Bu, Ağdam şəhərinin əvvəlki planıdır və bu şəbəkəni onun əsasında qurmuşuq ki, özünəməxsus gözəlliyi olsun.

**Prezident İlham Əliyev:** Yaşıl enerji növləri, "ağıllı şəhər", bu təqdimat var? O avtobuslarla bağlı, o tramvaylarla bağlı?

**Ruslan Sadıqov:** Bəli, hamısı var. İctimaiyyətə də böyük məmnuniyyətlə bildirmək istəyirik ki, Sizin tapşırığınıza uyğun olaraq, Birləşmiş Millətlər Təşkilatının UNICEF qurumu "Ağıllı və dayanıqlı şəhərin müddəaları haqqında" kitabça buraxıb, onun 18 müddəası var. İT şəbəkəsindən tutmuş turizm və yaşıllıq zonaları, nəqliyyat - onların hamısı burada vəhdət halında əksini tapıb, hər biri də nəzərə alınacaq.

**Prezident İlham Əliyev:** Burada da müqayisə göstərilib?

**Ruslan Sadıqov:** Bəli, müqayisədir, şəhərlərin sıxlığıdır. Bunlar dünya şəhərləridir. Burada onların sıxlığı göstərilib. Burada isə bizim kəndlər və Ağdam şəhəri öz yerini tutur. Təkcə Gəncə və Sumqayıt şəhərləri Ağdamdan sıx olacaq.

**Prezident İlham Əliyev:** Amma ərazi baxımından Sumqayıtdan böyük olacaq?

**Ruslan Sadıqov**: Ərazi baxımından Sumqayıtdan böyük olacaq. Cənab Prezident, 1700 hektar götürülməsinə baxmayaraq, biz sıxlığı təhlil edəndə gördük ki, məsələn, Berlin kimi şəhərdə sıxlıq 1 vahid təşkil edir. O, kifayət qədər yaşıl şəhərdir. Ondan az olanda nəqliyyat üçün ərazilər bir qədər böyüyür. Ona görə də Sizin məsləhətinizlə qərar verdik ki, o 1700 hektarın içində də bəzi əraziləri bağlara verək ki, bir balaca sıxlıq olsun.

**Prezident İlham Əliyev:** Vaxtilə Ağdam şəhərinin ərazisi 700-800 hektar idi. İndi iki dəfə böyüdürük.

**Ruslan Sadıqov:** Bəli, sənaye zonası da nəzərdə tutulub. Gələcək nəqliyyat zonalarında hamısı vəhdət təşkil edir. Burada yüksək mərtəbəli binalar olacaq. Ağdam şəhərinin ərazisinin 30 faizi əhalinin 70 faizini əhatə edəcək. Əhalinin 30 faiz fərdi evlərdə yaşayacaq. Ağdamda 1750 fərdi ev, 23 min mənzil olacaq, 100 min də əhalimiz. Ən sıx yeri mərkəz olacaq. Bu, artıq Baş Planın özüdür.

**Prezident İlham Əliyev:** Bu, Bərdə yoludur?

**Ruslan Sadıqov**: Bəli, bu, Bərdə yoludur. İlk dağdağan ağacı əkdiniz, burada dağdağan ağacları çox möhtəşəmdir, gözəldir. Söküntülər aparanda bu dağdağanların hər birini qoruyuruq. Meşə parkını tez açdıq ki, imkan olduqca onları əkməyə yerimiz olsun. Buradan yararlı ağacları götürüb hamısını parka köçürəcəyik.

**İctimaiyyət nümayəndələri:** Dağdağan müqəddəs ağacdır, gözdəymənin qarşısını alır.

**Prezident İlham Əliyev:** Dediyim park budur, 125 hektar, uzun şəhər parkı?

**Ruslan Sadıqov:** Bəli. Adını çəkdiyimiz kanal da buradan keçir. Biz o kanalı elə yönəltmişik ki, ətrafında evlər də olsun.

**Prezident İlham Əliyev:** Kanal şəhərin içindən çay kimi axacaq?

**Ruslan Sadıqov**: Bəli, meliorasiya layihələrinə görə, orada həmişə su olacaq, bəzi anlarda iti axacaq, bəzi anlarda zəif. İnsanlar bu 2 kilometrlik məsafədə qayıqlarla gəzə biləcəklər.

**Prezident İlham Əliyev:** Bulvar kimi gəzinti və qayıqlar?

**Ruslan Sadıqov:** Bəli, indi o haqda da məlumat verəcəyik və oradan buraya iki kilometrlik məsafəni qayıqlarla gələcəklər. Bilirik ki, ağdamlıların gözəl mətbəxləri var, onların mətbəxinə hər kəs qonaq olmaq istəyir, burada o tipli istirahət zonaları nəzərdə tutulacaq. Bu, nəzərdə tutulan tarixi mərkəzdir. Bu isə açıq səma altında İşğal muzeyidir. Bu biri isə məsciddir. Məscidin qarşı tərəfində qədim Ağdam üslubunda yaradılacaq kvartal olacaq. Bura 1 nömrəli məktəbin yeridir və 4 hektarlıq mərkəzi park məscidin yanında idi, ora işğal muzeyi kimi saxlanıldığından park buraya keçirilir. Bura isə möhtəşəm Bərdə-Ağdam yolunun

girişidir. Ağdamlıların böyük xatirəsi olan "Fərhad Bisütun dağını çapır" heykəl kompozisiyasını bərpa etmək fikrimiz var. Gördüyümüz bu park şəhərin ən gözəl ərazisi olacaq, artıq torpaq işləri görülür.

**Prezident İlham Əliyev:** Burada da biri olacaq.

**İctimaiyyət nümayəndələri**: Parklar çoxdur.

**Ruslan Sadıqov:** Parklar çoxdur, cənab Prezident. Adətən şəhərlərdə 15 faiz yaşıllıq olur, burada meşə zolaqlarına görə 23 faizə çatacaq. Bu da bizim "dayanıqlı şəhər", "ağıllı şəhər" prinsiplərinin əsaslarından biridir. Ümumiyyətlə, burada qurulan mexanizm barədə əlavə məlumat verəcəyik. Üstünlük əsasən piyadalara veriləcək. Sosial infrastruktur, məktəblər elə qurulub ki, insanlar hər yerdən oraya piyada getsinlər.

**Prezident İlham Əliyev:** İnsanlar piyada istənilən yerə çata bilərlər?

**Ruslan Sadıqov**: Bəli, istənilən yerə. Bütün yollarda, - indi yol sxemlərini də göstərəcəyik, - velosiped yolları nəzərdə tutulub ki, insanlar velosipeddən istifadə etsinlər. Çünki bilirik ki, böyük şəhərlərdə hərəkətsizlik artıq aktual bir məsələdir.

**Prezident İlham Əliyev:** Ekoloji tarazlıq da mütləq maksimum qorunmalıdır.

**Ruslan Sadıqov:** Bəli, faizlər barədə Sizə əlavə məlumat verəcəyik. Nəqliyyat infrastrukturu - piyadalar birincidir, fərdi velosiped vasitələri ikincidir, ictimai nəqliyyat üçüncü yeri tutur. Sizin tapşırığınıza uyğun olaraq, elektriklə işləyən yeni tramvay xətləri də nəzərdə tutulub, relslər olmadan təkərlər üzərində hərəkət edəcək.

**Prezident İlham Əliyev:** Tramvaylar ölkəmizdə hələ heç yerdə yoxdur, özü də elektriklə işləyən.

**İctimaiyyət nümayəndələri:** Trolleybus da. Möhtərəm cənab Prezident, Allah Sizi qorusun, elə gözəl layihələr həyata keçirmisiniz ki, Ağdamımız da Şuşa ilə bir yerdə cənnət bağı olacaq.

**Prezident İlham Əliyev:** Mən demişəm, cənnət olacaq.

**İctimaiyyət nümayəndəsi:** Cənnət bağında mənim tarım da olacaq, ifam da olacaq, başda Siz olmaqla. Allah Sizi qorusun.

**Ruslan Sadıqov:** Cənab Prezident, bu tramvay dairə ilə hərəkət edəcək, bu dairənin ortasında 60 metrlik yol olacaq. Bu yol Sizin təməlini qoyduğunuz ilk yaşayış kvartalından başlayır və gəlib administrativ mərkəzə çıxır. Mərkəzdə yeni meydan qurulacaq, o meydanın tribunası olacaq, şəhər administrasiyası yerləşəcək və qarşısında da konqres hol olacaq.

**Prezident İlham Əliyev**: Kütləvi tədbirlər, paradlar, konqres hol.

**Ruslan Sadıqov:** Bəli, kütləvi tədbirlər, sərgilər, ola bilər kənd təsərrüfatı sərgiləri, turizm sərgiləri təşkil edilsin. Ağdam şəhərinin yanında bir hündürlük var, o hündürlüyü isə Dağüstü park kimi istifadə etmək olar. Orada açıq teatr nəzərdə tutulub ki, Ağdamda təşkil olunacaq muğam konsertlərinin sədaları bütün şəhəri bürüsün.

Təhsil Nazirliyinin təklifi ilə 15 məktəb layihəsi verilib. Sizin göstərişinizlə Qarabağ Universitetinin yaradılması nəzərdə tutulur. Universitetdən əlavə, xüsusi orta təhsil müəssisələri və liseylər yaradılacaq.

**Prezident İlham Əliyev**: Ağdam bütün Qarabağın təhsil mərkəzi olacaq.

**Ruslan Sadıqov:** Gələcək investorlar da xüsusi məktəb inşa etmək istəyirlər. Onlar da istəsələr gəlib burada kamplarını qura bilərlər, tələbələrimiz gedib orada-burada qalmaqdansa, özləri gözəl Ağdamda, Şuşaya çox yaxın tarixi bir yerdə təhsillərini ala bilərlər. Bu hissədə isə Sizin tapşırığınıza əsasən stadion nəzərdə tutulub. Stadionun tamaşaçı tutumu 30 min nəfərdən çox olacaq. Stadion müəyyən standartlara uyğun gəlməlidir ki, burada oyunlar keçirilə bilsin.

**Prezident İlham Əliyev:** Adı İmarət olacaq. Amma İmarəti də biz yenidən bərpa edəcəyik. Çünki o, cıdır kimi nəzərdə tutulmuşdu, ona görə biz onu elə cıdır formasına salacağıq.

**Ruslan Sadıqov:** Bəli, düşünürəm ki, Pənahəli xanın İmarət sarayı Ağdamın, ümumiyyətlə, Azərbaycanın ziyarətgahlarından biri olacaq. Sizin tapşırığınıza uyğun olaraq, layihələr hazırlanıb. Düşünürəm ki, çox möhtəşəm turizm obyektinə çevriləcəkdir.

**Prezident İlham Əliyev:** Dəmir yolu vağzalı?

**Ruslan Sadıqov:** Bəli, şəhərin şərqində yerləşdirilib. Vağzala gedən yollarda iri müəssisələr, bir-iki mərtəbəli ticarət obyektləri yaradılacaq ki, şəhərin içində böyük müəssisələr olmasın, onlar o yolda yerləşdirilsin. Ağıllı və dayanıqlı sosial infrastruktur elə qurulub ki, burada məktəblər, sosial xidmətlər, tibb müəssisələri, parklar, şəhər meydanı - bunlar hamısı vəhdət təşkil edir və bir-birinin yaxınlığındadır. Uşaq məktəblərinin əlçatanlığı burada dairələrlə göstərilib, hamısı 300-350 metr məsafədədir. İnsanın hansı nöqtədə yaşamasından asılı olmayaraq, 300-350 metrliyində məktəb olacaq.

**Prezident İlham Əliyev:** Piyada gedəcək?

**Ruslan Sadıqov:** Bəli, piyada gedəcək. Bu da ictimai nəqliyyatdan, şəxsi nəqliyyatdan istifadənin sayını minimuma endirmək üçün nəzərdə tutulub. Burada şəhər parklarının əhatə dairəsi də verilib. İnsan evindən çıxarkən 400 metrdən bir istirahət parkına çatmış olacaq. Bu da ictimai məkanlardır.

**Prezident İlham Əliyev:** Yaşamaq üçün əsl şəhər olacaqdır.

**Ruslan Sadıqov**: Ağıllı və dayanıqlı şəhər, ictimai nəqliyyat. Siz artıq bu haqda dediniz - birinci piyadalardır, ikinci velosiped, sonra ictimai nəqliyyatdır, ondan sonra isə taksi və "Carsharing". Bilirsiniz, insanlar maşınlarını bölüşürlər. Sifarişlə "Smart mobility" və yaxud elektrik samakatları var, gənclər buna çox üstünlük verirlər, şəhərimizin özündə də bunu görə bilirik. Bunun üçün ayrıca şərait və infrastruktur olacaq ki, insanlar yola çıxmadan velosipeddən təhlükəsiz, rahat istifadə edə bilsinlər. Piyadalar onlara, onlar isə piyadalara mane olmayacaqlar. Bu, ağıllı və dayanıqlı şəhərin müddəalarının ən vaciblərindən biridir, hansı ki, ekologiyaya da təsir edir, insanların yaşayış səviyyəsinə də. 79 kilometr velosiped yolu nəzərdə tutulub. Bu, həmin o dediyimiz elektrik tramvayıdır.

**Prezident İlham Əliyev:** Relsi yoxdur da?

**Ruslan Sadıqov:** Xeyr, bunun relsi yoxdur. Bu, birinci dairədir, hansı ki, ilkin mərhələdə olacaq. Bu, ikinci dairədir. Allah qoysa, şəhər əhalisi 100 min nəfərə çatanda üçüncü dairə kimi də əlavə avtobus nəqliyyatı nəzərdə tutulub.

Bu, yolların infrastrukturudur, cənab Prezident. Biz görürük ki, ən enli yol - tramvay xətti prospekti 60 metrlikdir. Burada piyada yolları, velosiped yolları var. Tramvay və avtomobil yolları buraya aid edilmir.

**Prezident İlham Əliyev:** Ayrıca xətdir?

**Ruslan Sadıqov:** Bəli, ayrıca xətdir. Deməli, avtomobil sıxışdırılıb ortaya salınıb ki, onlar gediş-gəlişdə piyadalara heç cür təsir etməsin.

**Prezident İlham Əliyev**: Bütün şəhərlərdə adətən tramvay avtomobil yolunun ortası ilə gedir və bu, bir qədər təhlükə yaradır, amma burada ayrıca xətt olacaq.

**Ruslan Sadıqov:** Bəli, bu, ayrıca xətdir, dayanacaqlar olacaq, insanlar oradan tramvaya minib gedəcəklər. Bu, şəxsi avtomobillərə, trafikə təsir etməyəcək. Bu 60 metrlik yol Portuqaliyanın Lissabon şəhərindəkinə oxşar olacaq, səkiləri çox enlidir. Bunlar yol kəsişmələridir, ən kiçik yollarımız isə 20 metrlikdir. Onların da strukturu verilib. Hamısında da velosiped yolları nəzərdə tutulub.

Sizə məruzə etmək istəyirəm ki, "Azərenerji" tərəfindən artıq yüksək gərginlikli xətt çəkilir. "Azərişıq" tərəfindən artıq müvəqqəti xətlər buraya gətirilib, 2 yarımstansiyanın yeri artıq müəyyən olunub, onlar yaxın günlərdə istifadəyə veriləcək. Su mənbələri müəyyən olunur. Şəhərin qərbindəki su mənbələrindən təqribən 500 metrlik hündürlükdən anbara vurulacaq və buradan özü öz təzyiqi ilə axacaq. Dairəvi xətt suda da qurulacaq ki, hər bir evdə əlavə mühərriklərə, motor sistemlərinə ehtiyac olmadan su təzyiqləri təmin edilsin. Bu da yenə ağıllı və dayanıqlı şəhər müddəalarına uyğun bir işdir. Bunlar isə Ağdam şəhərində tikiləcək bina nümunələridir. Əlbəttə, bu, ola bilər ki, bu və ya digər formada müxtəlif olsun, amma ilk görünüşdə bu, şəhərətrafı bağlardır, hansı ki, haqqında Sizə məruzə etdim, bax belə təsərrüfatlardır.

**Prezident İlham Əliyev:** Kənd təsərrüfatı?

**Ruslan Sadıqov:** Bəli, şəhərətrafı. Şəhərətrafı ola bilər ki, çox güman Ağdamın bütün kəndləri elə olacaq. Çünki onların hamısının, kəndlərin də bölgüləri o sistemlə verilib. Ağdamın özünəməxsus çox gözəl daşı var. Söküntülərdən yığılan o daşlar üçün müəyyən yer ayırmışıq, oraya yığmışıq. Hələ ki, karxanalardan istifadə olunmasa da, biz Ağdamda, məsələn, açıq səma altında İşğal muzeyinə, - artıq o layihədə nəzərdə tutulub, - o daş xüsusi gözəllik verəcək. Bu isə Ağdamın böyük tarixi olan Qarağacı qəbiristanlığıdır. O qəbiristanlıqda daşların hamısı ermənilər tərəfindən dağıdılıb, qəbiristanlıq şumlanıb. Bu, ağdamlıların ən ağrılı yeridir. Ora üçün də ayrı layihə işlənir ki, nə mümkün olacaqsa, bərpa edək.

**İctimaiyyət nümayəndələri:** Valideynlərimizin hamısının qəbri oradadır. Dağıdıblar hamısını, şumlayıblar.

**Ruslan Sadıqov:** Cənab Prezident, Siz Şuşada möhtəşəm bir məscidin təməlini qoydunuz. Şuşa öz məscidi ilə bizim xalqı gözləyir. Şükür Allaha ki, bu da Ağdamın ən böyük tarixi eksponatı kimi qalır, fəxrimizdir, eyni zamanda, yeni məscid layihələri də var.

**Prezident İlham Əliyev:** Ağdam Cümə məscidinin bərpası ilə bağlı işlərə artıq start verildi. Heydər Əliyev Fondu bu işləri öz üzərinə götürdü, mütəxəssislər cəlb edildi. İlk növbədə, biz o məscidi bərpa etməliyik.

**İctimaiyyət nümayəndələri:** Mehriban xanıma minnətdarıq.

**Prezident İlham Əliyev:** Bəli, bir də Qiyaslı məscidini də bərpa etməliyik. Onu da dağıtmışlar. Ondan sonra da əlbəttə ki, digər yerlərdə məscidlər tikiləcəkdir.

**Ruslan Sadıqov:** Bu filmdə Ağdamın keçmiş xoşbəxt günləri, sonra işğal dövründə dağıdılmış şəhər göstərilir.

**Prezident İlham Əliyev:** Buranı da göstər, bax, bu, maraqlıdır.

**Ruslan Sadıqov:** Bəli, bu, həmin dediyimiz kanal sistemidir. O kanal şəhər şəlaləsinə gələcək.

**Prezident İlham Əliyev:** Venesiya kimi.

**Ruslan Sadıqov:** Şəhər şəlaləsindən başlayacaq kanal evlərin arasından keçib Siz ağac əkdiyiniz həmin o parkadək uzanacaq. Şəhər ətrafında həmin kanalın bu formada olması nəzərdə tutulur.

**Prezident İlham Əliyev:** Eni nə qədər nəzərdə tutulur?

**Ruslan Sadıqov:** Eni təqribən 30 metrə qədər nəzərdə tutulur. Çox böyük də olmasın, kiçik də olmasın. Ətrafında da səkilər və gəzinti yerləri, iaşə obyektləri olacaq.

**Prezident İlham Əliyev**: Körpülər.

**Ruslan Sadıqov:** Gözəl körpülər nəzərdə tutulub, dünyanın ən yaxşı körpülərindəndir, hansı ki, Siz göstəriş vermisiniz, bəyənmisiniz. Orada istirahət zonaları və insanların yayda asudə vaxtlarını səmərəli keçirmələri üçün gözəl yerlər olacaq.

**Prezident İlham Əliyev:** Bu da təməl qoyduğumuz binadır. Birinci binanın təməlini qoyduq, ağ rəngdə.

**İctimaiyyət nümayəndələri:** Bir sözlə, dediyiniz möcüzə. Həqiqətən möcüzədir.

**Prezident İlham Əliyev:** Ağdam ağ bina deməkdir.

**Ruslan Sadıqov:** Şəhərin birinci böyük ağ binasının təməlini qoydunuz.

**İctimaiyyət nümayəndələri:** Cənab Prezident, müharibəmiz də nümunə oldu, quruculuğumuz da.

**Prezident İlham Əliyev:** Elədir, mən demişəm ki, bu, dünya üçün nümunə olacaq. Bu, şəhərsalma prinsiplərinin müasir konsepsiyasıdır.

**Ruslan Sadıqov:** Cənab Prezident, gördüyünüz məkan elə qurulub ki, bu, artıq gələcəkdə şəhər pavilyonu kimi qalacaq. Burada təməl daşı da qoyulacaq ki, gələcək nəsillər bunu görsünlər.

**Prezident İlham Əliyev:** Görsünlər ki, təməli burada qoyulub.

**Ruslan Sadıqov:** Burada Sizin tapşırığınıza uyğun olaraq, pavilyon qurulacaq. Gələcək Ağdamın modeli orada nümayiş etdiriləcək. Bunu həm sakinlər, həm də qonaqlar seyr edə biləcəklər. Qarşımızda Sizin ucaltdığınız Bayraq meydanıdır. Sağ tərəfdə İşğal muzeyi üçün ayrılmış ərazidir. Hansı ki, o formada da qalacaq. Qarşımızdakı isə 4 hektarlıq parkdır.

**Prezident İlham Əliyev:** Gəlirik bu tarixi məqama.

**X X X**

Dövlətimizin başçısı şəhərin bərpasının təməl daşını qoydu.

**X X X**

**İctimaiyyət nümayəndələri:** Xeyirli olsun. Bu, bizə böyük şərəf oldu.

**Prezident İlham Əliyev**: Bu, tarixi gündür, tarixi hadisədir.

**İctimaiyyət nümayəndəsi:** Biz də istəyirik ki, Sizin də xeyir-dualarınızla burada tamaşalarımızı, “Leyli və Məcnun”u nümayiş etdirək.

**Prezident İlham Əliyev:** Burada tikinti işləri gedə-gedə müxtəlif konsertlər təşkil etmək olar.

**İctimaiyyət nümayəndəsi:** İnanın, cənab Prezident, 60 il tarımla səhnədə olmuşam. O festivalların sayı nə qədər çox olsa da, ən sanballısı Şuşada oldu. Allah Sizi qorusun. Allah Sizə Şuşa qədər ömür versin.

**İctimaiyyət nümayəndəsi:** Cənab Prezident, yaşamağa, yaratmağa dəyər. Dahiyanə işlər gördünüz. Buna inanmaq olmur, amma həqiqətdir. Allah Sizi qorusun.

**X X X**

Sonra xanəndələr birgə muğam ifa etdilər.

**X X X**

**İctimaiyyət nümayəndəsi:** Cənab Prezident, bizim arzumuzdur ki, “Leyli və Məcnun” Üzeyir bəyin doğulduğu Şuşada tamaşaya qoyulsun, orada səhnəyə çıxaq.

**Prezident İlham Əliyev:** Çox yaxşı təklifdir.

**İctimaiyyət nümayəndəsi:** Cənab Prezident, Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının 100 illik yubileyinin keçirilməsi haqqında dünən çox gözəl Sərəncam imzaladınız. Akademiyanın 100 illiyində ən gözəl ifaları Sizə təqdim edəcəyik. Lakin ən böyük poemanı, povesti, simfoniyanı, əsəri Siz yazmısınız. Bu torpaqları azad etməklə Siz çox nəhəng iş gördünüz. Buna görə musiqi də, incəsənət də, Vətən də yaşayacaq. Biz də hər zaman Sizinlə birgə olacağıq. Siz bizə həyat verdiniz. Allah Sizi qorusun.

**X X X**

Sonra xatirə şəkilləri çəkdirildi.

**X X X**

Dövlətimizin başçısı ərazidə ağac əkdi.

**X X X**

**İctimaiyyət nümayəndəsi:** Ulu Öndər Ağdamdan, Quzanlıdan keçirdi, dedi ki, ağdamlılar, darıxmayın, vaxt gələcək Ağdam işğaldan azad ediləcək.

**Prezident İlham Əliyev:** Bəli, düzdür, mən də orada idim.

**İctimaiyyət nümayəndəsi:** Ulu Öndər hər zaman Ağdamın inkişafına diqqət göstərib. Siz də Ağdamı işğaldan azad etdiniz. Biz ağdamlılar hər zaman Sizə borcluyuq.

**Prezident İlham Əliyev:** Sağ olun, bir daha təbrik edirəm.

**AZƏRTAC**
**2021, 28 may**

**Prezident İlham Əliyev: Biz Ağdamı bir güllə atmadan azad etdik və bundan sonra burada əbədi olacağıq**

Əminəm ki, nəzərdə tutulmuş bütün məsələlər öz həllini tapacaq və biz sizinlə bundan sonra Ağdam şəhərində, Ağdam rayonunda çox görüşəcəyik.

AZƏRTAC xəbər verir ki, bu barədə Prezident İlham Əliyev Ağdam ictimaiyyətinin nümayəndələri ilə görüşündə çıxış edərkən bildirib.

“Bir daha dediyim sözlərə qayıtmaq istəyirəm, mən bu 17 il ərzində - 2003-cü ildən 2020-ci ilə qədər ovaxtkı məcburi köçkünlərlə bir çox görüşlər keçirmişdim və hər zaman onlara deyirdim ki, biz torpaqlara qayıdacağıq, siz torpaqlara qayıdacaqsınız. Ancaq görürdüm ki, son illər onların gözlərində ümidlər azalır. Görürdüm və bu da təbii idi. Çünki 30 ilə yaxın vaxt keçmişdi. Ancaq mən hər zaman əmin idim ki, bu, olacaq. Sadəcə olaraq, deyə bilmirdim. Sadəcə olaraq, deyə bilmirdim ki, nə vaxt olacaq, necə olacaq. Amma bilirdim ki, olacaq”, - deyə dövlətimizin başçısı vurğulayıb.

Müharibə dövründəki çıxışlarında və “Twit”lərində hər zaman həqiqətləri dediyini və yazdığını diqqətə çatdıran Prezident deyib: “Bir gün fikirləşdim, dedim ki, yəqin, ağdamlılar fikirləşirlər ki, bəs nə üçün indi Cəbrayıl azad olundu, Xocavənd azad olundu, Hadrut, Suqovuşan, Murovdağ, Füzuli, Zəngilan, Qubadlı, gör, haralara gedib çıxmışıq. Bəs nə üçün Ağdamın kəndləri azad olunmur? Fikirləşirdim, yəqin ki, siz fikirləşirsiniz, ağdamlılar fikirləşir. Amma özümü saxlayırdım, deyə bilmirdim ki, nə üçün, deyə bilmirdim. Amma indi hər kəs bilir nə üçün. Çünki əgər biz bu istiqamətdən hücuma keçsəydik, bir çox şəhidlərimiz olacaqdı. Çünki onlar elə bir istehkam qurmuşdular, elə minalamışdılar ki, buradan bizim hücum etməyimiz, əlbəttə, böyük səhv olardı. Ancaq biz bu istiqamətdə kifayət qədər böyük hərbi qüvvə saxlamışdıq ki, erməni ordusunun əhəmiyyətli hissəsi, bax, burada olsun. Beləliklə biz onların manevr imkanlarını böyük dərəcədə məhdudlaşdırdıq. Onsuz da biz Ağdamı alacaqdıq. Şuşa - alınmaz qala götürüləndən sonra mənim göstərişimlə növbəti istiqamət Ağdam oldu. Mən indi bunu deyə bilərəm. Artıq biz elə bil ki, arxa hissədən gələrək erməni qruplaşmasını mühasirəyə alıb tam məhv edəcəkdik”.

Prezident İlham Əliyev deyib ki, Ermənistan tərəfi də bunu dərk edərək ağ bayraq qaldırmağa məcbur oldu: “Otuz il bizə meydan oxuyan, bizim əsəblərimizlə oynayan, xalqımızı təhqir edən, özündən uydurma qəhrəman düzəldən düşmən diz çökdü bizim qabağımızda, ağ bayraq qaldırdı, təslim oldu və kapitulyasiya aktına imza atdı. Biz Ağdamı bir güllə atmadan, bir şəhid vermədən azad etdik və bu gün buradayıq və bundan sonra əbədi burada olacağıq”.

**AZƏRTAC**
**2021, 28 may**

**Prezident İlham Əliyev Ağdam ictimaiyyətinin nümayəndələri ilə görüşündə müharibəni qaçılmaz edən səbəblərdən danışıb**

Çalışırdıq ki, məsələni sülh yolu ilə həll edək. Ancaq Azərbaycan vətəndaşları yaxşı bilirlər ki, sülh danışıqları, sadəcə olaraq, status-kvonun əbədi olmasına istiqamətləndirilmişdi.

AZƏRTAC xəbər verir ki, bu barədə Prezident İlham Əliyev Ağdam ictimaiyyətinin nümayəndələri ilə görüşündə çıxış edərkən bildirib.

Müharibəni qaçılmaz edən səbəblərdən danışan dövlətimizin başçısı deyib: "Əfsuslar olsun ki, bu məsələ ilə məşğul olan vasitəçilər 30 ilə yaxın davam edən danışıqlar müddətində aqressora – işğalçıya təzyiq göstərmədilər, onları məcbur etmədilər, onlara sanksiyalar tətbiq etmədilər. Açıq-aydın demədilər ki, işğalçı qüvvələr Azərbaycan torpağından çıxmalıdır. Aqressor təbii olaraq, daha da azğınlaşırdı, daha da qudururdu və bu torpaqları əbədi işğal altında saxlamaq istəyirdi və bu, sirr deyil".

Prezident İlham Əliyev qeyd edib ki, əgər birinci mərhələdə müəyyən ümidlərlə yaşayırdımsa, son mərhələdə artıq bu ümidlər də aradan qalxdı. "Çünki Ermənistan rəhbərliyi açıq-aydın bildirirdi ki, bu torpaqların bizə qaytarılması mümkün deyil. Belə olan halda faktiki olaraq danışıqlar prosesinə son qoyuldu. Mən bunu açıq-aydın bildirirdim. Bütün danışıqlar dövrü – 2003-cü ildən son hadisələrə qədər hər zaman Azərbaycan xalqına həqiqətləri çatdırırdım. Hər zaman deyirdim ki, biz heç vaxt bizim torpağımızda ikinci erməni dövlətinin yaradılmasına imkan verməyəcəyik. Deyirdim, məsələnin həlli elə olmalıdır ki, bu, yarımçıq həll olmasın. Məhz buna görə bizim mövqeyimiz bir çox hallarda vasitəçilər tərəfindən birmənalı qarşılanmırdı. Bəzi ermənipərəst qüvvələr bizi günahlandırmağa çalışırdılar. Sanki biz aqressoruq, sanki biz işğalçıyıq. Ona görə Ağdam rayonuna binoklla baxarkən, bax, mən bu günü görürdüm və bilirdim ki, əgər məsələ danışıqlar yolu ilə həll olunmasa, müharibə qaçılmazdır. Xüsusilə keçən ilin iyul, avqust, sentyabr aylarında Ermənistan dövlətinin bizə qarşı hərbi təxribatları nəticəsində baş vermiş hadisələr artıq müharibəni qaçılmaz etmişdi.

**AZƏRTAC**
**2021, 28 may**

**Prezident İlham Əliyev: Respublika Gününü Ağdam şəhərində qeyd etməyimizin çox böyük rəmzi mənası var**

Bu gün Respublika Gününü biz Ağdamda, Ağdam şəhərində qeyd edirik. Bunun çox böyük rəmzi mənası var. Ağdam şəhərinin Baş Planı bu gün təsdiq ediləcək.

AZƏRTAC xəbər verir ki, bu barədə Prezident İlham Əliyev Ağdam ictimaiyyətinin nümayəndələri ilə görüşündə çıxış edərkən bildirib.

Dövlətimizin başçısı deyib: "Bu Baş Plan mənə təqdim edilmişdir. Biz bir müddət bu plan üzərində işləyirdik və istərdim ki, Ağdam rayonunun tanınmış şəxsləri Baş Planla tanış olsunlar, öz fikirlərini bildirsinlər və sizin iştirakınızla biz bu gün bu gözəl mərasimi keçirək".

Prezident qeyd edib ki, bu mərasim üçün, bu görüş üçün başqa vaxt da müəyyən oluna bilərdi. "Ancaq mən hesab etdim ki, ən düzgün tarix bizim milli bayramımız olan Respublika Günüdür, müstəqillik günüdür. Çünki bu gün burada olmağımız bir daha müstəqilliyimizin nə qədər güclü olmasını göstərir. Əgər biz güclü müstəqil dövlət qurmasaydıq, öz tarixi torpaqlarımızı işğalçılardan azad edə bilməzdik. Ancaq güclü Azərbaycan, müstəqil Azərbaycan, sözün əsl mənasında, müstəqil siyasət aparan Azərbaycan bu tarixi missiyanı şərəflə yerinə yetirdi. Ağdam şəhərinin bərpasının başlanğıcı bu gün baş verir, Respublika Günündə. Əminəm ki, bütün nəzərdə tutulmuş planlar Baş Plan əsasında icra ediləcək və Ağdam şəhəri yenidən qurulacaq", - deyə Prezident İlham Əliyev vurğulayıb.

**AZƏRTAC**
**2021, 28 may**

**Deputat: Prezident İlham Əliyevin Ağdama səfəri bütün Qarabağda yüksək texnologiyaların tətbiqinə start verilməsi baxımından xüsusi əhəmiyyət kəsb edir**

Azərbaycan Prezidenti İlham Əliyevin işğaldan azad olunmuş rayonlara səfərləri və ən əsası, bu səfərlər zamanı həmin ərazilərdə aparılan quruculuq işləri çərçivəsində inşa edilən yeni strateji obyekt və müəssisələrin təməlini qoyması həm siyasi, həm iqtisadi, həm də mənəvi cəhətdən mühüm əhəmiyyət kəsb edir. Bu, bir daha göstərir ki, Azərbaycan dövləti işğaldan azad edilmiş ərazilərin bərpası və yenidən qurulması ilə bağlı bütün ideya və planlarını sürətlə reallaşdırmağa qadirdir.

Bunu AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı Anar Məmmədov deyib.

Deputat vurğulayıb ki, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev qətiyyətli və yenilməz Sərkərdə kimi rəşadətli Ordumuzun gücünə və xalq-iqtidar birliyinə söykənərək düşməni ildırım sürəti ilə necə məğlub etdisə, o cür yenilməz ruhla da işğaldan azad edilmiş ərazilərdə sistemli quruculuq işlərinin, yüksək texnologiyaların tətbiqinə start verib. İndi az qala bütün dünya həmin ərazilərdə bərpa-quruculuq işlərinin birinci mərhələsinin necə geniş vüsət almasına şahidlik edir.

"Hazırda Azərbaycan dövləti işğaldan azad edilmiş ərazilərdə intensiv şəkildə bərpa-quruculuq işləri həyata keçirməkdədir. Bu işlər çərçivəsində inşasına başlanılan mühüm strateji obyektlərin, müəssisələrin təməlinin Prezident İlham Əliyev tərəfindən şəxsən qoyulması isə görülən işlərin xüsusi diqqət mərkəzində saxlandığından xəbər verir. Bu baxımdan, Prezident İlham Əliyevin mayın 28-də Ağdam şəhərinə səfəri bütün Qarabağda yüksək texnologiyaların tətbiqinə start verilməsi baxımından böyük maraq doğurur və xüsusi əhəmiyyət kəsb edir", - deyən A.Məmmədov vurğulayıb ki, səfər çərçivəsində Bərdə-Ağdam avtomobil yolunun təməlinin qoyulması, eyni zamanda, gələcəkdə Bərdə-Ağdam dəmir yolunun və dəmir yolu vağzalının tikintisinin nəzərdə tutulması Qarabağda müasir tələblərə cavab verən yol infrastrukturunun yaradılacağından xəbər verir. Bu layihələr, həmçinin işğaldan azad edilmiş rayon və kəndlərin sosial-iqtisadi inkişafında çox mühüm rol oynayacaq. Bununla Azərbaycan həm də quruculuq ənənələrinə, sülhə və əmin-amanlığa sadiqliyini nümayiş etdirir - özü də qonşu Ermənistanda siyasi qüvvələrin qarşıdurmasının sərtləşdiyi bu zamanda.

Deputatın sözlərinə görə, dövlətimizin başçısının işğaldan azad edilən bütün şəhərlərin baş planlarının hazırlandığını bildirməsi yaxın gələcəkdə bu ərazilərdə ciddi şəhərsalma fəaliyyətinə start veriləcəyinin və yerli yol-nəqliyyat infrastrukturunun qurulacağının anonsu kimi qiymətləndirilə bilər. "Prezident İlham Əliyev, həmçinin bərpa olunacaq ərazilərdə müasir iqtisadi və texnoloji innovasiyaların tətbiqi barədə fikirlərini bölüşdü. Bu isə dövlətimizin başçısı tərəfindən xalqımızın Qarabağın "ağıllı region" kimi inkişafı ilə bağlı istəklərinə cavab verməsi deməkdir. Bu istiqamətdə işğaldan azad olunan ərazilərdə ekoloji cəhətdən təmiz, bərpaolunan enerji növlərinin yaradılması üçün də geniş imkanlar mövcuddur. Dövlət başçısı bəyan etdi ki, bu torpaqlar "yaşıl enerji" zonası olacaq", - deyən deputat vurğulayıb ki, bu yolla ölkəmiz daha geniş aspektdən alternativ enerjinin tətbiqini reallaşdırmış olacaq. Ümumilikdə isə layihənin spektri çox geniş olmaqla yaşayış, istehsal, sosial xidmətlər, "ağıllı kənd təsərrüfatı" və alternativ enerji kimi bir sıra zəruri sahələri əhatə edir. Həmçinin şəhərin içində 125 hektarlıq böyük bir meşə zolağı və süni gölün yaradılması, kanal və körpülərin salınması gələcəkdə bütün Qarabağ bölgəsinin "yaşıl enerji" zonası olacağından xəbər verir.

"Artıq Qarabağ bölgəsində infrastrukturun bərpasına başlanıb. Tezliklə həmin ərazilərdə digər quruculuq-abadlıq işləri və sosial-iqtisadi layihələr də icra ediləcək. Bunun üçün indidən zəruri infrastruktur qurulur ki, bərpa prosesində heç bir problem yaranmasın. İnfrastruktur layihələrinin sürətlə həyata keçirilməsi isə dövlət başçısının bu sahədə işlərin tezliklə başa çatdırılması üçün verdiyi tapşırıqların vaxtında yerinə yetiriləcəyindən xəbər verir", - deyə Anar Məmmədov fikirlərini yekunlaşdırıb.

**AZƏRTAC**
**2021, 31 may**

**Deputat: Prezident İlham Əliyevin Ağdam səfəri "Qarabağda cənnət yaradacağıq" vədinin növbəti akkordlarıdır**

Prezident İlham Əliyev bu günə qədər verdiyi bütün sözləri, vədləri yerinə yetirib. "Qarabağ Azərbaycandır və nida işarəsi" deyən dövlətimizin başçısı sözlərinə sadiq qalaraq Ermənistanın faşizm siyasətini məhv etdiyi, Qarabağı işğaldan azad etdiyi kimi, "Qarabağda cənnət yaradacağıq" vədini də addım-addım yerinə yetirməkdədir. Prezident İlham Əliyevin bu dəfə işğaldan azad olunmuş Ağdam rayonuna səfər etməsi, şəhərinin Baş Planının təqdim olunması, Bərdə-Ağdam avtomobil yolunun, Ağdam şəhərində inşa olunacaq ilk yaşayış binasının, Sənaye Parkının, Zəfər muzeyi və açıq hava altında İşğal muzeyinin, 1 saylı məktəbin yeni binasının təməlqoyma mərasimlərində iştirak etməsi, Şahbulaq qalasında, Qiyaslı məscidində, Qarabağ xanlığının banisi Pənahəli xanın sarayının yerləşdiyi imarət kompleksində olması, bərpaları barədə göstərişlər verməsi dövlətimizin başçısının "Qarabağda cənnət yaradacağıq" vədinin növbəti akkordlarıdır. Bu gün artıq hər kəs əmindir ki, qısa zaman çərçivəsində işğaldan azad olunmuş ərazilər bərpa ediləcək, Böyük Qayıdış başlayacaq.

Bunu AZƏRTAC-a açıqlamasında Yeni Azərbaycan Partiyası Nizami rayon təşkilatının sədri, Milli Məclisin deputatı Sədaqət Vəliyeva deyib.

İşğaldan azad olunmuş ərazilərdə bərpa-quruculuq işləri sürətlə davam etdiyini vurğulayan deputat deyib: "Ağdam şəhəri kimi digər azad olunmuş şəhərlərin də baş planları təsdiq ediləcək, onun əsasında şəhərlərimiz planlı şəkildə bərpa olunacaq. İşğaldan azad olunmuş ərazilərimizin tanınmış şəxsləri Baş Planlarla tanış olacaq və onların təklifləri də nəzərə alınacaq. Bütün şəhərlərin infrastrukturu tamamilə bərpa olunacaq. Bütün Qarabağ zonası "yaşıl enerji" zonası olacaq. Bütün şəhərlər "ağıllı şəhər" konsepsiyası əsasında qurulacaq. Bu gün artıq Ağdamla yanaşı, Zəngilanda, Şuşada sürətli şəkildə bərpa işləri aparılmaqdadır".

Sədaqət Vəliyeva əlavə edib ki, müharibədən çıxmış bir dövlətin pandemiya şəraitində, dünya iqtisadiyyatında böyük problemlərin yarandığı bir dövrdə işğaldan azad olunan ərazilərdə "ağıllı şəhər", "ağıllı kənd" konsepsiyalarını reallaşdırması, şəhərlərin bərpasına start verməsi bir daha ölkəmizin gücünü və qüdrətini nümayiş etdirir.

**AZƏRTAC**
**2021, 31 may**

**Deputat: Ağdam şəhərinin təməl daşının qoyulması yeni mərhələnin başlanğıcıdır**

Prezident İlham Əliyev Ağdam şəhərinin bərpasının təməl daşını qoyması mərasimi hər birimizdə qürur yaradan tarixi hadisədir. Bu təməl daşı, əslində, Azərbaycan dövlətçilik tarixinin əbədi divarlarına qoyulan yeni bir qat, yeni bir mərhələnin başlanğıcıdır. Bərpa gününün təməlqoyma mərasiminin 28 May - Respublika Günündə baş tutması da təsadüfi deyildi.

Bunu AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı, "Yeni Azərbaycan" qəzetinin baş redaktoru Hikmət Babaoğlu deyib.

Deputat diqqətə çatdırıb ki, Azərbaycan Prezidenti 28 may tarixini milli bayram, müstəqillik günü kimi xarakterizə edərək əldə etdiyimiz tarixi Qələbəni müstəqil olmağımızla əlaqələndirdi. Bu fikirlər isə siyasi ideoloji müstəvidə dövlətçilik şüurumuzun yeni qatının müstəqil və qalib əsaslarında formalaşması üçün atılan təməl daşı idi, genetik yaddaşımıza edilən müraciət idi. Azərbaycan Xalq Cümhuriyyəti xalqımızın milli şüurunu ümmətçilikdən dövlətçiliyə, dövlətçilikdən cümhuriyyətçiliyə qədər inkişaf etdirdiyi kimi, bu fikirlər də milli şüurumuzu məğlubiyyətdən qalibiyyətə, qalibiyyətdən yeni milli mentalitetə qədər inkişaf etdirəcək. Bu bir xalqın ictimai-siyasi fikir tarixində tamamilə yeni bir mərhələnin, yeni bir eranın başlanması deməkdir.

Bəzi azərbaycanofob mərkəzlərin müxtəlif internet resurslarında, sosial şəbəkələrdə tarixi zəfərimizə və nailiyyətlərimizə kölgə salmaq üçün ən müxtəlif səviyyələrdə qarayaxma kampaniyası aparması məsələsinə də toxunan deputat deyib: "Bəzi marginal müxalif qruplar da bu prosesdə fəal iştirak edirlər. Ancaq şübhəsiz ki, bütün bu antimilli fəaliyyətlər xalqımızın ümummilli sevinci və coşqusu qarşısında olduqca cılız görünür və belələri əsla öz qaranlıq məqəsdlərinə çatmayacaqlar. Bəzən siyasət mümkün olmayanı mümkünetmə sənəti də adlandırılır. Doğrusu, bunu isbat edəcək nümunələr o qədər də çox deyil. Ancaq düşünürəm ki, 44 günlük müharibə və ondan sonra ötən zaman ərzində Azərbaycan Prezidenti öz fəaliyyəti ilə bunun ən yaxşı təcrübi nümunəsini yaratdı".

Deputatın sözlərinə görə, bu gün Ermənistan dövlətinin iflas etməsi, haqq etdiyi şəkildə küncə sıxışdırılması, öz sərhədlərini qorumaq üçün yeni sahiblər axtarışına çıxması da məhz mümkün olmayanı mümkünetmə sənətinin yaratdığı reallıqdır. Axı cəmisi bir neçə ay bundan öncəyə qədər bu dövlət Azərbaycan torpaqlarını işğal altında saxlayaraq, bizə meydan oxuyur, xalqımıza qarşı saysız-hesabsız cinayətlər törədirdi.

"İndi isə həmin ölkə miskin vəziyyətə düşüb. Bütün bunlar Azərbaycan Prezidentinin həyata keçirdiyi milli-strateji siyasət və rasional-praqmatik davranışları nəticəsində baş verib. Bundan sonrakı mərhələ cinayətkarın öz cəzasına çatdırılması Azərbaycanın isə yeni inkişaf tarixinin başlanğıcıdır, - deyə o qeyd edib.

**AZƏRTAC**
**2021, 31 may**

**Qırğızıstan portalı Azərbaycan Prezidentinin Ağdama səfərindən yazıb**

Qırğızıstanın "turktoday.info" portalı Azərbaycan Prezidenti İlham Əliyevin Ağdama səfəri ilə bağlı AZƏRTAC-ın materiallarını rus dilində yayıb.

Materiallarda bildirilib ki, Prezident İlham Əliyev Ağdama səfəri zamanı Bərdə-Ağdam avtomobil yolunun, şəhərdə inşa olunacaq ilk yaşayış binasının təməlini qoyub, meşə-parkında ağac əkib, Sənaye Parkının təməlqoyma mərasimində iştirak edib, Qarabağ xanlığının banisi Pənahəli xanın sarayının yerləşdiyi İmarət kompleksində olub.

Eyni zamanda, diqqətə çatdırılıb ki, Azərbaycanın dövlət başçısının Ağdamda Zəfər muzeyi və açıq hava altında İşğal muzeyi yaradılacaq əraziyə gedib, 1 saylı məktəbin yeni binasının təməlini qoyub, Qiyaslı kənd məscidində olub, şəhərin bərpasının təməl daşının qoyulması mərasimində iştirak edib və rayon ictimaiyyətinin nümayəndələri ilə görüşüb.

**Qulu Kəngərli**
**AZƏRTAC-ın xüsusi müxbiri, Bişkek**

**AZƏRTAC**
**2021, 31 may**

**Aqiyə Naxçıvanlı: Dövlətimizin başçısının Ağdama səfəri ilə işğaldan azad edilmiş ərazilərdə quruculuq işlərinin yeni mərhələsinə start verildi**

Bu gün Azərbaycanın işğaldan azad edilmiş ərazilərində aparılan bərpa-quruculuq işləri getdikcə daha geniş vüsət alır. Artıq bütün dünya bu torpaqlarda 30 il davam edən işğal dövrü ərzində erməni qəsbkarlarının törətdikləri misli görünməmiş vandalizm aktlarının əsl miqyasını və acı nəticələrini görür. Lakin bu talançılığın nəticələri nə dərəcədə dağıdıcı, miqyası nə qədər böyük olsa da, Azərbaycan dövlətinin həmin ərazilərdə apardığı quruculuq işlərinin həcmi bundan qat-qat artıq olacaq. Prezident İlham Əliyevin işğaldan azad edilmiş ərazilərə ardıcıl səfərləri də bu işlərin ən yüksək səviyyədə həyata keçirildiyinin və xüsusi diqqət mərkəzində saxlandığının bariz göstəricisidir.

Bu sözləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı, professor Aqiyə Naxçıvanlı deyib.

Deputat qeyd edib ki, işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən bərpa-quruculuq işlərinin gedişi həmin bölgələrdə tezliklə ən müasir şəhər və kəndlərin salınacağını, dünyaya tamamilə yeni tipli yaşayış məntəqələri modellərinin təqdim olunacağını deməyə əsas verir. “Bildiyimiz kimi, Prezident İlham Əliyevin may ayının 28-də Ağdama səfəri zamanı bu şəhərin Baş Planı təsdiqlənib. Bu, işğaldan azad edilmiş ərazilərdə təsdiqlənən ilk Baş Plandır. Həmçinin səfər zamanı Ağdam şəhəri 1 saylı orta məktəbin, Ağdam Sənaye Parkının təməli qoyulub. Dövlətimizin başçısının çıxışlarında bəyan etdiyi kimi, bütün Qarabağ bölgəsinin “yaşıl enerji” zonası olacağı və bu ərazilərdə bütün şəhərlərin “ağıllı şəhər” konsepsiyası əsasında qurulacağı barədə qərar verilib. Bu qərar təbii ki, Ağdam şəhərinin də məhz rəqəmsallaşma, dekarbonizasiya və desentralizasiyaya əsaslanan, fövqəladə hallarda elektrik enerjisi təchizatının davam etdirilməsi üçün ötürücü və paylayıcı şəbəkələrin optimallaşdırılması, enerjidən səmərəli istifadə edilməsi məqsədilə bərpaolunan enerji mənbələrindən və elektromobillərdən istifadənin genişləndirilməsini özündə ehtiva edən “ağıllı şəhər” konsepsiyası əsasında yenidən qurulacağını nəzərdə tutur. Həmçinin bu gün Ağdamda start verilən layihələr şəhərin və bölgənin gələcək iqtisadi inkişafı baxımından mühüm əhəmiyyət kəsb edir. Belə ki, dövlətimizin başçısı tərəfindən təməli qoyulmuş Ağdam Sənaye Parkında qida sənayesi, kiçik sənaye və xidmət, iri sənaye müəssisələri, sosial və texniki zonalar, TIR parkı, tikinti materiallarının satışı bazası yaradılacaq. Burada tikinti materiallarının istehsalı müəssisələrinin yaradılması, kənd təsərrüfatı məhsullarının qablaşdırılmasının, meyvə-tərəvəz konservlərinin, ət və süd məhsullarının, şərab, yem, gübrə istehsalı və emalının, eyni zamanda, xidmət sahələrinin, soyuducu kameraların təşkili də planlaşdırılır. Ümumilikdə isə işğaldan azad olunmuş ərazilərin müqayisəli üstünlükləri əsasında 4 regional mərkəzin yaradılması nəzərdə tutulub. Ağdamda sənaye mərkəzi, Cəbrayılda logistika və ticarət mərkəzi, Şuşada mədəniyyət və turizm mərkəzi, Kəlbəcərdə hasilat və turizm mərkəzi yaradılacaq. Bütün bunlar deməyə əsas verir ki, tezliklə bütün dünya Azərbaycanın təqdimatında tamamilə yeni tipli yaşayış məntəqələri və iqtisadi zona modellərini müşahidə etmək imkanı əldə edəcək”, - deyə deputat qeyd edib.

Aqiyə Naxçıvanlı bu məqamı da vurğulayıb ki, Ermənistanın hələ də Azərbaycana qarşı təxribatlardan əl çəkməməsi bu ölkənin özünü yeni yaranmış regional iqtisadi inkişaf imkanlarından məhrum etməsi deməkdir. Deputat Bildirib: “Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində tarixi Qələbəyə imza atan Azərbaycan artıq Cənubi Qafqazda yeni reallıq yaradıb. Bu reallıq isə öz növbəsində, regionda yeni əməkdaşlıq və inkişaf perspektivləri açıb. Təbii ki, bu yeni imkanlar ölkəmizin daha da güclənməsi və qüdrətinin daha da artması üçün əlverişli şərait yaradır. Lakin dövlətimizin başçısı öz çıxışlarında bu imkanların konstruktiv mövqelərdə duran bütün ölkələr üçün açıq olduğunu dəfələrlə vurğulayıb. Eyni zamanda, Ermənistan da bu imkanlardan yararlanaraq regional iqtisadi əməkdaşlıq proqramlarına qatıla və bu zəmində öz inkişafını təmin etmək şansı əldə edə bilər. Lakin dediyimiz kimi, bunun üçün həmin ölkənin, ilk növbədə, mövqeyinə yenidən nəzər salması və konstruktiv addımlar atmağa qərar verməsi tələb olunur. Əks halda, Ermənistanın vəziyyəti yalnız daha acınacaqlı olacaq”.

**AZƏRTAC**
**2021, 31 may**

**Respublika Gününün Ağdamda qeyd olunması ümummilli məsələnin ən yeni təsdiq tarixidir**

28 May - Respublika Günü Azərbaycan tarixində nə qədər önəmli bir gündürsə, Prezident İlham Əliyevin məhz həmin gün Ağdama reallaşdırılan səfəri də bir o qədər vacib və tarixi əhəmiyyətə malik hadisədir. Prezident İlham Əliyevin işğaldan azad edilmiş torpaqlara səfəri o ərazilərin azad olunduğu gün, tarix qədər coşqulu, qürurverici hadisə olmaqla yanaşı, həm də dünyaya Azərbaycan xalqının bir daha əzmini və Vətən sevgisini sübut edən bir hadisə və mesajdır. Prezident İlham Əliyevin Ağdama budəfəki səfərinin məna yükü isə daha dərin, daha anlamlı idi. Belə ki, dövlətimizin başçısının özünün də ifadə etdiyi kimi, bu mərasim, bu görüş üçün başqa vaxt da müəyyən oluna bilərdi. Lakin məhz Respublika Gününü Ağdam şəhərində qeyd etmək Azərbaycan xalqının və Liderinin dövlətçilik tarixinə göstərdiyi hörmət onun nə qədər dərin köklərə və milli kimliyə bağlı olmasının ən bariz nümunəsidir. Azərbaycan xalqının malik olduğu bu qürur və tarixi reallıqlar fonunda isə ermənilər 30 il ərzində dövlət qura bilmədilər. Azərbaycan Prezidenti də qeyd etdiyi kimi, deməli, bu xalq dövlət qura bilmir, ancaq başqa böyük dövlətlərin çərçivəsində yaşaya bilir. 1918-ci ildə Şərqdə ilk demokratik respublika quran xalq isə 2020-ci ildə XXI əsrin müharibə tarixində misli görünməmiş Zəfər əldə etdi. Müharibə dövründə bir gün də olmadı ki, Azərbaycan əsgəri geriyə addım atsın. Müharibə zamanı elə bir gün olmadı ki, Azərbaycan xalqının yumruğu yumşalsın, açılsın, sarsılsın. Azərbaycan xalqı Prezident İlham Əliyevin ətrafında yumruq kimi hər gün daha da sıx birləşir, bütün dünyaya Vətən yolunda sinəsini sipər etməyin nə demək olduğunu göstərirdi. Tarix boyu isə elə bir gün olmadı ki, düşmən nifrət siyasətindən əl çəksin, Azərbaycan xalqının mədəni irsini bu torpaqlardan silmək məqsədindən, fikrindən daşınsın.

Bunu AZƏRTAC-a açıqlamasında politoloq Şəbnəm Həsənova bildirib.

Politoloq qeyd edib ki, Ağdam səfəri adını Azərbaycan tarixinə qızıl hərflərlə yazdıran və ən əsası mənsub olduğu xalqın dərin, səmimi, əvəzsiz və bir o qədər də sonsuz sevgisini, hörmətini və rəğbətini qazanan Müzəffər Ali Baş Komandan İlham Əliyevin ən qürurlu, parlaq, həm də xalqımızın ən gözəl adət-ənənələrindən biri olan ağsaqqallara, ictimai xadimlərə, sənətkarlara ehtiramının əyani sübutu idi. Səfərin ana xətti Ağdam şəhərinin Baş Planını məhz ağdamlılarla təsdiq etmək, təməlqoyma mərasimini məhz onlarla keçirmək idisə, onların xeyir-duası və qəlblərində kök salan ən dərin, bəlkə də ən əlçatmaz arzusunu reallaşdıran Prezident İlham Əliyevin güclü və müdrik bir Sərkərdə kimi tarixi missiyasının təsdiqi, həm də onun insan olaraq ən nəcib hisslərinin, xalqına sevgisinin təmiz və şəffaf aynası idi.

Politoloq qeyd edib ki, Şərqdə ilk demokratik respublikanı quran xalq XX əsrin sonlarında səriştəsiz idarəçilik səbəbindən torpaq itkisinə məruz qalmışdısa, bu gün o xalq Prezident İlham Əliyevin müdrik rəhbərliyi, əzmi, təmkini sayəsində müstəqil siyasət yürüdən və torpaqlarını düşmən tapdağından ləyaqətlə azad edən bir dövlətdir. Bu, həm də dövlətimizin başçısının verdiyi hər vədi yerinə yetirməsinin bariz nümunəsidir. Çünki Müzəffər Ali Baş Komandanın özü də ifadə etdiyi kimi, Ağdamdan olan məcburi köçkünlərlə dəfələrlə görüşlər əsnasında deyirdi ki, torpaqlarımız, Ağdam şəhəri və bütün rayon azad olunandan sonra daha da gözəl şərait yaradılacaq. Hələ işğal dövründə Ağdam rayonunun inkişafı ilə bağlı çox ciddi addımlar atılmışdısa, bundan sonra görüləcək hər bir tədbir dədə-baba yurdumuzda qurulacaq evlərin təməl daşları olacaq.

“Bəli, dövlətimizin başçısının Ağdama səfər etdiyi gün xalqının milli maraqlarını atdığı hər addımda əsas prioritet kimi müəyyənləşdirən bir Prezidentin sözünün təsdiqidir. Dövlətimizin başçısı da ifadə etdiyi kimi, Azərbaycan bu məsələnin sülh yolu ilə həlli üçün əlindən gələni etdi. Bu zaman kəsiyində isə işğalçını dəstəkləyən dairələr ona nə hüquqi, nə də siyasi təzyiq göstərmədilər. Əksinə, Azərbaycan xalqının mədəni abidələri, mədəni sərvəti dağıdıldı. Xalqımız doğma-yurd yuvasına dönərkən daş üstündə salamat bir daş tapmadı. Azərbaycan xalqı istər müharibə dövründə, istərsə də ondan sonra atdığı bütün addımları ləyaqətlə atıb, mülki insanlara əl qaldırmayıb. Azərbaycanın Lideri dəfələrlə bəyan edib ki, torpağımızda ikinci erməni dövlətinin yaradılmasına imkan verilməyəcək. Bu, belə də oldu. Düşmənin və onu dəstəkləyən məkrli qüvvələrin bu siyasəti də məhv edildi. Hazırkı reallığı dəyərləndirərkən əminliklə deyə bilirik ki, Azərbaycan təkcə torpaqlarını azad etmədi, həm də bölgəni siyasi oyunlarının meydanına çevirmək istəyən oyunbazların planını məhv etdi. Əfsuslar olsun ki, bu gün Ermənistan tərəfi təxribatçı əməllərindən yenə də əl çəkmir. Lakin Azərbaycan xalqının iradəsi, onun Liderinin “dəmir yumruğ”u hələ də yerindədir. Bunu həm Ermənistan, həm də ona havadarlıq etməyə çalışan bütün dairələr bilməlidir. Biz bu gün sərhədlərimizi bərpa edirik və edəcəyik”, - deyə Ş.Həsənova qeyd edib.

Politoloq deyib ki, torpaqlarımızın işğaldan azad edilməsi ümummilli məsələdir, Prezident İlham Əliyev bu ümummilli məsələnin öndə gedən bayraqdarı, Respublika Gününün isə məhz Ağdamda qeyd olunması bu məsələnin ən yeni təsdiq tarixidir.

**AZƏRTAC**
**2021, 1 iyun**

**Bütün dünya üçün örnək olacaq Ağdam qurulacaq**

“Qırx dörd günlük müharibə bizim gücümüzü göstərdi, Silahlı Qüvvələrimizin rəşadətini göstərdi, qəhrəmanlığını göstərdi, xalqımızın birliyini göstərdi. Biz bir yumruq kimi birləşərək düşmənə sarsıdıcı zərbələr endirdik, düşməni torpağımızdan qovduq. Qırx dörd günün hər bir günü qəhrəmanlıq dastanıdır, hər bir günü bizim üçün əzizdir, doğmadır. Çünki hər gün biz irəli gedirdik, hər gün. Bir gün də geri addım atmamışıq. Düşmən müharibənin son mərhələsində panikaya, isterikaya qapılaraq öz məğlubiyyətini artıq dərk etməyə başlamışdı. Bir daha gördü ki, Azərbaycan qarşısında onlar duruş gətirə bilməyəcəklər”. Prezident İlham Əliyev Respublika Günündə Ağdam şəhərinin bərpasının təməl daşının qoyulması mərasimində iştirakı və rayon ictimaiyyətinin nümayəndələri ilə görüşü zamanı səsləndirdiyi bu fikirlər həm düşmənə, həm də ermənipərəst qüvvələrə bir mesaj idi.

Bunu AZƏRTAC-a açıqlamasında Demokratiya və İnsan Hüquqları Komitəsinin sədri, hüquq üzrə fəlsəfə doktoru Çingiz Qənizadə bildirib.

Bəli, həqiqətən də bu gün Azərbaycan dünyanın inkişaf etmiş güclü, qüdrətli dövlətlərindən birinə çevrilib. Qırx dörd günlük müharibədə düşməni yerlə-yeksan edən rəşadətli Ordumuzun döyüş taktikası bu gün dünyanın inkişaf etmiş dövlətləri tərəfindən öyrənilir. 31 illik müstəqillik tarixi olan ölkə üçün bu, qürurverici hadisədir. Məhz bunun nəticəsidir ki, bu gün Azərbaycanla əməkdaşlıq etmək istəyən dövlətlərin sayı getdikcə artır. Bunu müstəqillik günü münasibətilə Prezident İlham Əliyevə ünvanlanmış təbrik məktubları da təsdiqləyir.

Dövlətimizin başçısı ölkəyə rəhbərlik etdiyi 17 il ərzində məcburi köçkünlərlə (hazırda ölkəmizdə bir nəfər də olsun məcburi köçkün yoxdur) keçirdiyi görüşlərdə hər zaman onları əmin edirdi ki, siz tezliklə ata-baba yurdlarınıza qayıdacaqsınız. 30 il isti ocaqlarının həsrəti ilə yaşayan soydaşlarımızın ümid çıraqları nəhayət ki, işıqlandı. 28 May - Respublika Günü hər birimiz üçün iki qat sevincli gün oldu. Həmin günü Ağdamda - düşməndən azad edilmiş ərazilərdə yerli ziyalılarla, tanınmış xadimlərlə və ictimaiyyətin nümayəndələri ilə birlikdə qeyd edən dövlətimizin başçısı Ağdam şəhərinin baş planını təsdiqlədi.

Ağdam rayonunun baş planının məhz müstəqillik günü təsdiqlənməsinin rəmzi mənası var. Çünki həmin gün işğaldan azad olunmuş torpaqlarda Prezidentimizlə bilikdə olmağımız müstəqilliyimizin nə qədər güclü və əbədi olmasının göstəricisidir. Dövlətimizin başçısı qeyd etdiyi kimi, əgər biz güclü müstəqil dövlət qurmasaydıq, öz tarixi torpaqlarımızı işğalçılardan azad edə bilməzdik. Ancaq müstəqil siyasət aparan qüdrətli Azərbaycanın xilaskar Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə bu tarixi missiyanı şərəflə yerinə yetirdi.

Dövlətimizin başçısı dəfələrlə bildirib ki, düşmənin 30 il ərzində yerlə-yeksan etdiyi ərazilər əvvəlkindən də gözəl olacaq. Həmin ərazilərin hamısı Ağdam şəhərində olduğu kimi, baş plan əsasında icra ediləcək. Hazırda Şuşa şəhərinin baş planı hazırlanır və bir müddətdən sonra təsdiqlənəcək. Füzuli, Cəbrayıl şəhərlərinin, o cümlədən işğaldan azad edilmiş digər şəhərlərin də baş planları üzrə iş gedir.

Dövlətimizin başçısı Ağdam rayonunun işğal altında olduğu dövrdə doqquz dəfə səfər etdiyini xatırlatdı. Həmin ərazi ilə bağlı bir çox tədbirlər keçirilmişdir. Regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarının icrası nəticəsində Ağdam rayonunun quruculuqla bağlı inkişaf planları təsdiq edilmişdir. Burada bir çox sosial layihələr icra edildi, məktəblər, Muğam Mərkəzi, uşaq xəstəxanası, mərkəzi rayon xəstəxanası, Olimpiya Mərkəzi, infrastruktur layihələri icra edildi. Əhali təbii qazla, elektrik enerjisi, su ilə təmin edilmiş, 150-dən çox artezian quyusu qazılmışdır. İşğal dövründə Ağdam rayonunun inkişafı ilə bağlı çox ciddi addımlar atılmışdır. Dövlətimizin başçısı Ağdamdan olan məcburi köçkünlərlə dəfələrlə görüşlər əsnasında demişdir ki, torpaqlarımız, o cümlədən Ağdam şəhəri və bütün rayon azad olunandan sonra buralar cənnətə çevriləcək, daha gözəl şərait yaradılacaq. Müstəqillik günü təqdim edilən Ağdam şəhərinin baş planı verilən vədlərin məntiqi nəticəsi oldu. Dövlətimizin başçısı rayon ictimaiyyətinin nümayəndələri ilə görüşü zamanı bir daha vurğuladı ki, biz elə bir şəhər quracağıq, elə bir Ağdam quracağıq ki, bütün dünya üçün örnək olacaqdır.

Ağdam şəhəri üçün çox önəmli olan 140 illik tarixi olan 1 saylı məktəbin təməli qoyulub. Həmçinin gələcəkdə burada iş yerlərinin yaradılması üçün təqribən 200 hektara yaxın ərazisi olan Ağdam Sənaye Parkının təməli qoyuldu. Yaxın gələcəkdə istismara veriləcək Bərdə - Ağdam avtomobil yolu iki rayon arasında əlaqələri daha da yaxınlaşdıracaq. Ağdamda İşğal və Zəfər muzeylərinin yaradılması düşmənə böyük zərbə olacaq. Şəhərin içində 125 hektarlıq böyük bir meşə zolağının, süni gölün yaradılması, kanalların , körpülərin tikintisi baş planda öz əksini tapıb.

Dövlətimizin başçısı qeyd etdiyi kimi, bütün Qarabağ zonası "yaşıl enerji" zonasına çevriləcək. İşğaldan azad edilmiş bütün şəhərlər "ağıllı şəhər" konsepsiyası əsasında qurulacaq. Yaxın gələcəkdə işğaldan azad edilmiş bütün ərazilər əvvəlki illərdən fərqli olaraq daha gözəl olacaq. Bəli, bütün dünya şahiddir ki, Qarabağ Azərbaycandır!

**AZƏRTAC**
**2021, 1 iyun**

**Ağdam rayonu ərazisində yeni hərbi hissələrin açılışı olub**

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin göstərişinə əsasən, azad edilmiş ərazilərdə dislokasiya olunan bölmələrin hərtərəfli təminatı, qoşun xidmətinin təşkili və sosial-məişət şəraitinin yaxşılaşdırılması ilə bağlı həyata keçirilən tədbirlər davam edir.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, şəxsi heyətin xidməti və döyüş fəaliyyətinin təşkili, eləcə də məişət şəraitinin təmin edilməsi məqsədilə Ağdam rayonu ərazisində müasir avadanlıqla təchiz olunmuş müxtəlif təyinatlı qurğulardan ibarət modul tipli növbəti iki hərbi hissə istifadəyə verilib.

Birlik komandiri general-mayor Hikmət Həsənov açılış münasibətilə müdafiə nazirinin təbriklərini şəxsi heyətə çatdırıb, onlara xidmətlərində uğurlar arzulayıb. Xidmətdə fərqlənən bir qrup hərbi qulluqçuya qiymətli hədiyyələr təqdim edilib.

Qeyd edək ki, döyüş növbətçiliyi və qoşun xidmətinin yüksək səviyyədə təşkili və aparılması məqsədilə modul tipli komplekslərdəki xidməti otaqlar kondisionerlər, mebellər, müasir tipli sanitar qovşaqları, yataq ləvazimatları, mətbəx avadanlıqları və generatorlarla təchiz olunub.

Azad olunmuş digər ərazilərimizdə yeni hərbi hissələrin tikintisi planlı şəkildə davam edir.

**AZƏRTAC**
**2021, 2 iyun**

**Deputat: Ağdam möhtəşəm dəyişikliklərin astanasındadır**

Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Ordumuzun Vətən müharibəsində şanlı Qələbə qazanması və ərazi bütövlüyünün bərpa olunması ilə Azərbaycan dövləti yeni quruculuq mərhələsinə qədəm qoyub. Artıq işğaldan azad edilmiş rayonlar möhtəşəm dəyişikliklərin astanasındadır. Dəfələrlə Qarabağ bölgəsinə səfər edən dövlətimizin başçısı bildirib ki, biz dədə-baba torpağımız olan Qarabağı qısa müddətdə bərpa edəcəyik. Dövlətimizin başçısının inamla söylədiyi bu fikirlərin təsdiqi olaraq demək lazımdır ki, işğaldan azad edilmiş torpaqlarımızda quruculuq işlərinə start verilib.

Bunu AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı Ağalar Vəliyev bildirib.

Deputatın sözlərinə görə, bu günlərdə Ağdam rayonuna səfər edən dövlət başçısının rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdə səsləndirdiyi fikirlər və bölgədə nəhəng quruculuq işlərinin başlaması bir daha onu göstərir ki, bərpa işləri sürətlə davam etdiriləcək, həyat canlanacaq və Prezidentimizin qürurla söylədiyi kimi, biz Qarabağ bölgəsində cənnət yaradacağıq. Ağdamın Baş Planının təqdim olunması, şəhərin təməlqoyma mərasiminin keçirilməsi və Prezident İlham Əliyevin verdiyi mesajlar böyük tarixi hadisə kimi dəyərəndirilməlidir. Bu gün hər bir Azərbaycan vətəndaşı inanır ki, Qarabağın mərkəzi olan Ağdam modern səviyyədə qurulacaq, əzəmətli, inkişaf etmiş rayona çevriləcək və biz bütün bunlardan sonra Qarabağa Böyük Qayıdışın şahidi olacağıq.

Ağalar Vəliyev qeyd edib ki, 50 min nəfər əhalinin yaşayacağı Ağdam şəhərinin ictimaiyyət nümayəndələrinə təqdim olunan Baş Planına əsasən qısa zaman ərzində kommunal, iqtisadi və sosial strukturların qurulması, yaşayış binalarının tikilməsi və ən başlıcası "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyalarının icra olunması təmin ediləcək. Ağdam rayonunun infrastrukturunun qurulması başa çatdıqdan sonra burada "yaşıl enerji" əraziləri yaradılacaq və bununla da "ağıllı şəhər" , "ağıllı kənd" layihələrinin həyata keçirilməsi uğurla başa çatdırılacaq.

Deputat söyləyib ki, müharibədən yenicə çıxmış ölkədə ən müasir texnologiyaların tətbiq olunduğu "ağıllı şəhər" , "ağıllı kənd" kimi “smart” layihələrin işə düşməsi dünyada iqtisadi problemlərin cövlan etdiyi indiki pandemiya şəraitində Azərbaycan dövlətinin iqtisadi qüdrətindən xəbər verir.

Ağdam şəhərində aparılacaq genişmiqyaslı quruculuq işləri işğaldan azad edilmiş digər rayonlara da əhəmiyyətli təsir göstərəcək. Şəhərin Baş Planının təqdim olunması mərasimində diqqət cəlb edən əsas məqamlardan biri də o oldu ki, Ağdam sakinlərinin hər birinə 18 sot həyətyanı sahənin verilməsi nəzərdə tutulub. Prezident İlham Əliyev tərəfindən verilən göstərişə əsasən həyətyanı sahə olaraq hər bir sakinə 18 sot torpaq sahəsinin ayrılması təqdirəlayiq hadisə kimi dəyərləndirilməlidir. Rayon ərazisində iri müasir fermer təsərrüfatlarının yaradılması yalnız Ağdamın deyil, ölkəmizin kənd təsərrüfatı məhsulları ilə təminatında vacib rol oynayacaq, ərzaq təhlükəsizliyinin möhkəmlənməsinə xidmət edəcək və ən nəhayət minlərlə Ağdam sakininin məşğulluğu məsələsinin həllinə öz töhfəsini verəcək. 200 hektara yaxın sahədə Ağdam Sənaye Parkının qurulması və yaxın gələcəkdə istismara verilməsi nəticəsində burada minlərlə ağdamlı işlə təmin olunacaq.

Vurğulanıb ki, Ağdam rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdə dövlətimizin başçısının söylədiyi “Biz elə bir şəhər quracağıq, elə bir Ağdam quracağıq ki, bütün dünya üçün örnək olacaqdır” fikri hər bir azərbaycanlının qəlbinə işıq saçır və Qarabağın döyünən ürəyi olan Ağdamın möhtəşəm bir rayona çevriləcəyindən xəbər verir.

**AZƏRTAC**
**2021, 2 iyun**

## “Caspianpost” saytı ermənilərin Azərbaycan ərazilərində məzarları təhqir etməsindən yazıb

“Caspianpost” saytı işğaldan azad edilmiş Azərbaycan ərazilərində ermənilərin məzarları necə təhqir etdiyinə dair “Bacılar yenidən qovuşdu” sərlövhəli məqalə dərc olunub.

AZƏRTAC xəbər verir ki, məqalə fotoqraf Orxan Əzimin işğaldan azad edilmiş Ağdam rayonunda səfərdə olarkən Yusifcanlı kəndində qarşılaşdığı ürəkağrıdıcı mənzərəyə həsr olunub.

Müəllif qeyd edir ki, hazırda insanda melanxolik təəssüratlar yaradan bu kiçik kəndi heç vaxt ölkənin ən gözəl yurdlarından biri olduğunu iddia etməyib. Ancaq ötən əsrin 90-cı illərinə qədər qərbdə Kiçik Qafqaz dağlarının arxasında günəşin qürubunu seyr edə bilən 1350 nəfərə yaxın azərbaycanlının ata-baba yurdu idi. İndi hamısı xarabalığa çevrilmiş tikililər XX əsrdə inşa edilmişdilər, eyni zamanda, kəndin ətrafındakı çöllük ərazidə təkəmseyrək qədim məzar təpələri burada minilliklər boyu unudulmuş qədim tarixi təsdiqləyən nümunələrdir.

Qeyd edilir ki, Orxan Əzim kənd qəbiristanlığında təsiredici mənzərəyə rast gəlib. Məzar daşları arasında dar bir yarğanla ayrılan iki məzar daşı onun diqqətini cəlb edib. Daşlardan birinin üzərində Səringül Mürşüd qızı, digərində isə Təyarə Mürşüd qızının adları yazılıb. Onlar Mürşüd Qəhrəmanov adlı kənd sakinin övladları olublar, yəni həmin məzarlarda uyuyan Səringül və Təyarə bacı idilər. Əvvəlcə onlar yan-yana basdırılmışdılar - buradakı kolxozda doğulub boya-başa çatan bacılar həyatda olduqları kimi vəfat etdikdən sonra da bir yerdə idilər. Onları bir-birindən ayrı salan yarğan isə çox sonralar meydana gəldi. 12 aprel 1994-cü ildə kəndin əsas hissəsini zəbt edən erməni işğalçıları tərəfindən kənd qəbiristanlığının içi ilə səngərlər qazıldı.

Məlum olduğu kimi, həmin dövrdə ermənilərin hücumları dayandırıldı və Yusifcanlı kəndinin kənarları təmas xəttinə çevrildi. Həmin təmas xətti boyunca Birinci Qarabağ müharibəsi “dondurulmuş” şəkildə sona çatdı. 25 ildən çox müddət ərzində bura minalanmış sahələr, partlamamış sursat və qəfil atəş təhlükəsi altındakı neytral zonanın ən qaynar nöqtələrindən biri idi. Bu 25 il ərzində bacıların hər biri səngərin bir tərəfində qaldılar.

Məqalədə Azərbaycan əraziləri üzərində ərazi bütövlüyünün bərpasına da toxunulur. Qeyd edilir ki, 2020-ci ilin noyabr ayında 44 günlük İkinci Qarabağ müharibəsinə son qoyan razılaşma ilə Azərbaycan əvvəl itirdiyi bütün əraziləri geri aldı. Yusifcanlı da daxil olmaqla. Ağdam rayonunun xarabalığa çevrilmiş qalan hissəsində olduğu kimi, burada da minaların təmizlənməsi və 30 il əvvəl öz torpaqlarından didərgin düşmüş ailələrin geri dönməsi üçün tələb olunan böyük bir yenidənqurma layihəsinin ilk mərhələsinə start verilib: “Bu arada, əmin-amanlığın bərpası ilə qəbiristanlığı bölən səngər tezliklə doldurulacaq. Müharibənin izləri itdikcə Qəhrəmanov bacıları Səringül və Təyarə yenidən bir araya gələrək qovuşacaqlar.”

**AZƏRTAC**
**2021, 6 iyun**

**Ermənistanın Ağdam rayonu üzrə minalanmış ərazilərin xəritələrini təqdim etməsi Azərbaycan Prezidentinin qətiyyətli iradəsinin nəticəsidir**

Ermənistanın Ağdam rayonu üzrə tank və piyada əleyhinə 97 min minanı özündə əks etdirən xəritələri Azərbaycan tərəfinə təqdim etməsi Prezident İlham Əliyevin qətiyyətli iradəsinin nəticəsidir. Bu, həmçinin ölkəmizin növbəti diplomatik qələbəsidir.

Bunu AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı, YAP İdarə Heyətinin üzvü Şahin İsmayılov bildirib.

Deputat deyib: “Bundan əvvəl Azərbaycan tərəfinin erməni əsirlərinin qaytarılması ilə bağlı gördüyü işlər humanist dəyərlərimizdən və siyasətimizdən irəli gəlirdi. İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin Ermənistanın Azərbaycanda saxlanılan 11 Ermənistan vətəndaşının dərhal sərbəst buraxılması tələbini rədd edən qərar qəbul etməsi ilə ermənilərin ümidləri puç oldu. Beynəlxalq hüquq çərçivəsində heç bir əsasının olmadığını görən düşmən bir daha bizimlə anlaşmağa, tələblərimizi yerinə yetirməyə məcbur oldu”.

Şahin İsmayılov qeyd edib ki, Azərbaycan tərəfi mina xəritəsi müqabilində 15 erməni vətəndaşını təqdim etməklə həm humanistlik, həm də mina təhlükəsi ilə üzləşə biləcək hər bir vətəndaşımızın təhlükəsizliyinin və həyatının bizim üçün dəyərli olmasını göstərdi. Anlaşma, eyni zamanda, tarixi torpaqlarımızın yenidən canlanması və böyük qayıdış üçün böyük töhfə verəcək. Ümid edirəm ki, bütövlükdə Cənubi Qafqaz regionunda əməkdaşlığın və sabitliyin təmin olunması üçün Ermənistan tərəfi əsasız iddialarını kənara qoyacaq, yeni reallıqlara barışacaq və üzərinə düşən öhdəlikləri yerinə yetirəcəkdir. Hadisələrin başqa variantda inkişafı isə yalnız Ermənistanın ziyanına olacaq.

**AZƏRTAC**
**2021, 12 iyun**

**Hikmət Hacıyev: Xarici diplomatlarla buradan bir neçə ildən sonra müasir Ağdam şəhərinə qayıtmaq arzusu ilə ayrılırıq**

Ağdama 120-dən çox diplomatla etdiyimiz səfər ailə fotosunun çəkdirilməsi ilə başa çatdı.

AZƏRTAC xəbər verir ki, bu sözləri Azərbaycan Respublikası Prezidentinin köməkçisi Hikmət Hacıyev "Tvitter" səhifəsindəki paylaşımında yazıb.

Hikmət Hacıyev qeyd edib ki, xarici diplomatlarla buradan bir neçə ildən sonra müasir, "ağıllı" Ağdam şəhərinə qayıtmaq arzusu ilə ayrılırlar: "Arxamızdakı kran Ermənistanın 30 illik işğalı dövründə çevirdiyi xarabalığın, urbisidin və yara izlərinin aradan qaldırılmağa başlanılmasının əlamətidir".

**AZƏRTAC**
**2021, 13 iyun**

**Deputat: Minaların xəritələrinin verilməsi Ağdamda infrastruktur layihələrinin icrasını sürətləndirəcək**

Ermənistan Ağdam üzrə minalanmış zonaların xəritələrini verməyə məcbur edildi. Bu, Azərbaycanın növbəti diplomatik qələbəsidir.

Bu xəritələr rayon üzrə tank və piyada əleyhinə 97 min minanı özündə əks etdirir. Bu, kifayət qədər böyük rəqəmdir. Bununla xeyli sayda insanın həyatı üçün gözlənilən təhlükə aradan qalxacaq, eyni zamanda, bərpa prosesi və keçmiş məcburi köçkünlərin doğma yurdlarına qayıdışı sürətlənəcək. Bildiyimiz kimi, ötən ay Ağdamın Baş Planı təsdiqlənib və genişmiqyaslı infrastruktur layihələrinə start verilib. Bu mənada xəritənin verilməsi olduqca vacib idi və Azərbaycan Prezidenti bununla növbəti qələbəyə imza atdı. Bu proses, eyni zamanda, Azərbaycanın humanitar təşəbbüsü ilə müşayiət olundu.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı Könül Nurullayeva deyib.

Deputat bildirib ki, razılığa əsasən, xəritələrin Azərbaycan tərəfinə təqdim etməsi müqabilində, saxlanılan 15 nəfər erməni Azərbaycan-Gürcüstan sərhədində Ermənistana təhvil verildi. Prosesə töhfə verənlər arasında ABŞ-ın Dövlət katibi Entoni Blinken, onun Avropa və Avrasiya məsələləri üzrə köməkçisi vəzifəsini icra edən Filip Rikerin, Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin və ATƏT-in İsveç sədrliyinin vasitəçilik rolunun olması da təqdirəlayiqdir. Bu, Qarabağda sülhün, təhlükəsizliyin davamlı və dayanıqlı olmasına töhfədir.

“Azərbaycan hər zaman beynəlxalq vasitəçilərdən bu cür konstruktiv yanaşma gözləyir və burada birtərəfli maraqdan söhbət getmir. Ermənistan xəritələri təqdim etməklə 15 nəfərin geri qaytarılmasına nail oldu. Yəni, Azərbaycan bu cür proseslərdə qarşılıqlı kompromisin əleyhinə deyil. Geri qaytarılan 15 nəfərə gəlincə, onlar hazırda məhkəmə qarşısına çıxarılan cinayətkar yaraqlılardan fərqlənir. Təbii ki, bu cinayətkarlarla bağlı Azərbaycanın mövqeyi prinsipialdır-onlar törətdikləri cinayətlərə görə mütləq şəkildə ədalət mühakiməsi qarşısında cavab verməlidirlər və verirlər. Ermənistan bölgədəki sülhyaratma missiyasında nə qədər sağlam mövqe tutarsa, bu, həm də onun özü üçün faydalı ola bilər. İstər beynəlxalq vasitəçilər, istərsə də Ermənistan bundan sonra da təhlükəsizlik prosesində konstruktivliyi qorumalıdır”, - deyə deputat qeyd edib.

**AZƏRTAC**
**2021, 13 iyun**

**Migel Anxel Moratinos: Ağdama səfərim zamanı siyasi və peşəkar həyatımda heç vaxt görmədiklərimin şahidi oldum**

Ağdama səfərim zamanı siyasi və peşəkar həyatımda heç vaxt görmədiklərimin şahidi oldum. Heç nə yoxdur, tamamilə dağıntıdır. İnsan kədərlənir ki, XXI əsrdə belə bir halın necə şahidi olmaq olar?

AZƏRTAC xəbər verir ki, bu fikirləri BMT-nin Sivilizasiyalar Alyansının ali nümayəndəsi Migel Anxel Moratinos Azərbaycan Prezidenti İlham Əliyev ilə görüşündə söyləyib.

"Düşünürəm ki, Ağdama səfərim yaxşı keçdi, çünki Sizin xüsusi nümayəndəniz mənə gələcək üçün planı göstərdi. Bu, böyük baxışdır, cənab Prezident. Yolları, insanların məşğul olduğunu, dinamikanı görmək imkanı böyük qürur hissi verir", - deyə ali nümayəndə bildirib.

Azərbaycanın hər zaman inkişaf etdiyini və bu inkişafın daha da güclənəcəyini vurğulayan Migel Anxel Moratinos deyib: "Mən özümü hər zaman Azərbaycanın dostu hesab etmişəm, bu dəfə də Sizinlə olmaqdan və BMT Sivilizasiyalar Alyansının ali nümayəndəsi qismində yeni missiyamda Sizin səylərinizi, Xarici İşlər Nazirliyini və Mədəniyyət Nazirliyinizi dəstəkləməyə çalışmaqdan qürur duyuram".

**AZƏRTAC**
**2021, 23 iyun**

**Misir portalı Ağdamda aparılan yenidənqurma işlərindən yazıb**

Azərbaycan Prezidenti İlham Əliyev Ağdamın yenidən qurulmasına və 190 hektar ərazidə böyük sənaye şəhərciyinin yaradılmasına başlayıb. Məqsəd yeni “ağıllı kənd”lərin, muzeylərin, mənzillərin və Ağdamın ölkənin digər şəhərləri ilə əlaqələndirilməsi üçün dəmir yollarının, hava limanlarının tikintisinə xarici sərmayələrin cəlb edilməsidir.

AZƏRTAC xəbər verir ki, bu fikirlər “Le Progres Egyptien” portalında fransız dilində dərc olunmuş “Azərbaycan: Ağdamın yenidən qurulmasına yaşıl işıq” sərlövhəli məqalədə yer alıb. Məqalədə qeyd olunur ki, rayonun 450 minlik əhalisi üçün minlərlə mənzil tikiləcək. Ermənistan tərəfindən işğal edilməmişdən əvvəl bu rayon ticarət mərkəzi olub. Şəhərdə salamat qalan yeganə bina Ağdam məscididir.

Yazıda bildirilib ki, bərpa və yenidənqurma işlərindən sonra Ağdam Azərbaycan tarixində dönüş nöqtəsi olacaq, burada sərmayə yatırımı üçün geniş imkanlar yaradılacaq, iqtisadi inkişaf təmin ediləcək.

Vurğulanıb ki, 1930-cu ildə 21 min 450 hektar ərazidə salınan Ağdamın abidə və tikililəri tarixin müxtəlif dövrlərini əks etdirir. Ağdam ən mühüm şəhərlərdən biri olub. Rayonun ərazisi dağlıq və düzənlik hissələrdən ibarətdir. Ağdam 2020-ci ildə 27 illik erməni işğalından azad edilib.

**Şəhla Ağalarova**
**AZƏRTAC-ın xüsusi müxbiri, Paris**

**AZƏRTAC**
**2021, 29 iyul**

**İordaniya qəzetində Ağdamda aparılacaq yenidənqurma işləri barədə məqalə dərc edilib**

Xarici jurnalistlərdən ibarət qrupun tərkibində Azərbaycanın işğaldan azad olunmuş ərazilərə səfər edən iordaniyalı jurnalist Nemat əl-Xura "Əl Ənbat" qəzetində "Ermənilərin viran qoyduğu Ağdamda "ağıllı şəhər" olacaq" sərlövhəli məqalə ilə çıxış edib.

AZƏRTAC xəbər verir ki, məqalədə 27 ilə yaxın erməni işğalı altında qalmış Ağdamda "ağıllı şəhər" layihəsinin həyata keçiriləcəyi diqqətə çatdırılıb. Müəllif yazıb ki, xarici jurnalistlərə məlumat verən hökumət rəsmisi yerlə-yeksan edilmiş şəhərin Baş planının Prezident İlham Əliyevə təqdim olunduğunu bildirib. Baş plana görə, Yeni Ağdam təqribən 100 min nəfər sakin üçün nəzərdə tutulur, şəhərə onun tarixi hüdudlarından başqa, daha 8 kənd birləşdirilib. Ağdamda 1750 fərdi ev və 23 min mənzilin inşa olunacağı planlaşdırılır. Şəhərdə ictimai yaşıllıq məkanları yaradılacaq, ən müasir texnologiya və avadanlıqlarla təchiz edilmiş məktəblər istifadəyə veriləcək.

Məqalədə bildirilib ki, Ağdamda BMT-nin UNICEF qurumunun "Ağıllı və dayanıqlı şəhərin müddəaları haqqında" kitabçasında göstərilən 18 müddəası nəzərə alınacaq, müvafiq prinsipləri kompüter şəbəkəsindən tutmuş turizm və yaşıllıq zonalarına qədər əks olunub. Eyni zamanda, konsertlərin keçiriləcəyi bina, məscid, xəstəxanalar və digər sosial obyektlər inşa ediləcək. 1868-ci ildə tikilmiş, ermənilərin inək və donuz saxladıqları, xaraba qoyduqları Ağdam Cümə məscidi peşəkar memarların nəzarəti ilə əvvəlki görkəminə qaytarılacaq.

**Oqtay Bayramov**
**AZƏRTAC-ın xüsusi müxbiri, Qahirə**

**AZƏRTAC**
**2021, 5 avqust**

**Tezliklə "Yolumuz Ağdama" adlı səfərlər təşkil ediləcək**

Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Ordumuz 30 il düşmən tapdağı altında olmuş əzəli torpaqlarımızı işğaldan azad edib və xalqımız öz doğma diyarına qovuşub. Mənfur düşmən işğal dövründə torpaqlarımızı talan edib, xarabalığa çevirib, daşı daş üstündə qoymayıb. Qarabağımızın qədim və zəngin mədəni-tarixi irsinə, bioekoloji müxtəlifliyinə, iqtisadiyyatına külli miqdarda zərər vurulub, keçmiş təmas xətti boyunca, xüsusilə də Cəbrayıl, Füzuli və Ağdam rayonlarının işğaldan azad edilmiş əraziləri yüz minlərlə piyada və tank əleyhinə minalarla, partlamamış hərbi sursatlarla çirkləndirilib.

Vətən müharibəsində əldə olunmuş tarixi Zəfərdən dərhal sonra Azərbaycan Respublikası Prezidentinin tapşırığı ilə həmin ərazilərdə təhlükəsizliyin təmin edilməsi, Qarabağın bərpası, məcburi köçkünlərin öz dədə-baba torpaqlarına qayıdışının təşkili və digər bu kimi tədbirlər müxtəlif dövlət qurumları arasında əlaqələndirilməklə həyata keçirilir. Bu tədbirlərdən biri də məcburi köçkünlərin azad olunmuş ərazilərə qayıdışına hazırlıq çərçivəsində təhlükəsizliyin tam təmin edilməsi şərtilə Azərbaycan vətəndaşlarının ilkin mərhələdə işğaldan azad olunmuş ərazilərə səfərlərinin təşkili ilə bağlıdır.

Ağdam şəhəri daxil olmaqla Ağdam rayonunun işğaldan azad edilmiş hissəsində Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyindən AZƏRTAC-a bildiriblər ki, "Yolumuz Ağdama" adlanan ilk belə səfərin Ağdam şəhəri daxil olmaqla, bu rayonun minalardan təmizlənmiş hissəsinə təşkili nəzərdə tutulur. Zəruri hazırlıq və təhlükəsizlik işləri başa çatdıqdan sonra işğaldan azad olunmuş digər ərazilərə də belə səfərlərin təşkili planlaşdırılır.

"Yolumuz Ağdama" səfərləri xüsusi qaydalara əsaslanmaqla təlimlərdən keçmiş bələdçilər, sürücülər və səfər təşkilatçılarının nəzarəti altında təşkil olunacaq.

Məlum olduğu kimi, işğaldan azad edilmiş bir çox ərazilərdə, o cümlədən Ağdamda infrastrukturun bərpası və yenidənqurma işlərinə başlanılıb, Ağdam şəhərinin Baş Planı ictimaiyyətə təqdim edilib. Bu baxımdan "Yolumuz Ağdama" səfərlərinin təşkilinin davam etməkdə olan bərpa işlərinin hazırkı ilkin mərhələsindən başlaması vətəndaşlarımıza həm mənfur düşmənin törətdiyi vandalizmin və vəhşiliklərin şahidi olmaq, həm də şəhər və digər yaşayış məntəqələri bərpa edildikcə gedən quruculuq işləri ilə tanış olmaq üçün tarixi bir imkan yaradacaqdır.

Bununla yanaşı, bir daha qeyd olunmalıdır ki, hazırda minalar və partlamamış hərbi sursatlarla bağlı ciddi təhlükə qalmaqda davam etdiyi üçün işğaldan azad edilmiş ərazilərə icazəsiz səfərlər qadağandır. Səfərlərin təşkil ediləcəyi dəhliz Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi tərəfindən minalardan təmizlənsə də, digər ərazilərdə işlər hələ davam edir. Bunu nəzərə alaraq səfər iştirakçıları bütün qaydalara və göstərişlərə əməl etməlidirlər.

Qeyd olunanları nəzərə alaraq tezliklə təşkil olunacaq "Yolumuz Ağdama" adlı səfərlərin keçiriləcəyi tarix və şərtlər barədə ictimaiyyətə ətraflı məlumat veriləcəkdir.

**AZƏRTAC**
**2021, 14 avqust**

**Prezident İlham Əliyev: Ağdam şəhərini Qafqazın Hirosiması adlandırırlar**

Azərbaycanın Ağdam şəhərini Qafqazın Hirosiması adlandırırlar.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu fikri Müstəqil Dövlətlər Birliyinin Dövlət Başçıları Şurasının videokonfrans formatında keçirilən iclasındakı çıxışında söyləyib.

**AZƏRTAC**
**2021, 15 oktyabr**

**Peter Erdeyi: Ağdam ruhlar şəhərinə bənzəyir**

Macarıstanlı məşhur jurnalist və publisist Peter Erdeyi Azərbaycanın erməni işğalından azad edilmiş ərazilərinə bu yaxınlarda baş tutmuş səfəri haqqında "Elet es Tudomany" jurnalında məqalə dərc etdirib.

AZƏRTAC xəbər verir ki, Azərbaycana üçüncü dəfə, yaxın vaxtlara qədər "od tutub yanan" Qarabağa isə ilk dəfə səfər etmiş müəllif orada gördüyü dağıntılara görə sarsıldığını bildirir. Erdeyi yazır: "Müharibə kəndlərə, meşələrə, üzümlüklərə, faunaya, insanlara, hətta dəfn edilmiş ölülərə də rəhm etməyib. Qarabağın cənub hissəsindəki yandırılmış torpaq işğalçıların zəbt etdikləri torpaqların sakinlərinə dərin nifrət bəsləməsinə sübutdur".

1917-ci il inqilabına qədər Azərbaycan ərazisində çox xalqların nümayəndələri, hətta öz tarixi vətənlərindən uzaq düşmüş almanlar, polyaklar, yunanlar da yaşayırdı. Burada hətta atəşpərəst hindilərin icması da olub. Lakin millətlər palitrasının bir qədər məhdudlaşmasına baxmayaraq indi də burada yaşayan etnik azlıqların xəritəsi yetərincə müxtəlifdir.

SSRİ dağılandan bir il sonra, 1992-ci ildə başlanmış birinci Ermənistan-Azərbaycan müharibəsi iki il davam etdi. Azərbaycanın müstəqil dövlətə çevirilməsindən cəmi bir il keçmişdi və sovet qoşunları onun ərazisini tərk etmişdi. Qonşu Ermənistandan isə bu qoşunlar getmədi, hətta indi də Rusiyanın 102-ci bazasının hərbi kontingenti Ermənistanda yerləşir. Siyasi rejim dəyişəndən və azərbaycanlılara qarşı etnik təmizləmələrdən sonra Ermənistan etnik baxımdan bircins milli dövlətə çevrildi. 2011-ci ildə siyahıyaalma zamanı Ermənistan sakinlərinin yalnız 2 faizi özlərini qeyri-erməni hesab ediblər. Eyni zamanda, əhalisinin sayı 10 milyon olan Azərbaycanda sakinlərin təqribən 10 faizi titul millətinə aid deyil və etnik azlıqları təmsil edir. Bəzi hesablamalara görə, Bakıda təqribən 30 min, Qarabağda isə daha 25 minə yaxın erməni yaşayır. Qafqaz dağlarının cənubunda yerləşən Qarabağın əhalisi əsirlər boyu dəfələrlə dəyişib. Bu, 1992-ci ildə erməni silahlı qüvvələri tərəfindən işğal edilmiş keçmiş Dağlıq Qarabağ Muxtar Vilayəti üçün xüsusilə səciyyəvi idi. Erdeyi xatırladır ki, Qarabağdan əlavə ona bitişik rayonlar da işğal edilmiş, orada ermənilər "bufer zonası" yaratmışdılar.

Müəllif yazır: "Bu yaxınlarda Qarabağın aran rayonlarına səfər zamanı mənə ən güclü təsir göstərən bu oldu ki, bəzən saatlarla bu ərazidə yalnız xarabalıqları görmək mümkün idi, bircə salamat bina, elektrik dirəyi, ağac da qalmamışdı. Hətta vəhşi heyvanlar da görünmürdü. Sanki Ayın səthində idi – qumsal səhra, ətrafda yalnız kötüklər və daşlar var. Bir də, əlbəttə, piyadalar əleyhinə milyonlarla mina. Bu minaların basdırmağın məqsədi o olub ki, bu torpağın əvvəlki sahibləri buraya qayıtmağı ağlına belə gətirməsinlər.

Ağdam şəhərinin taleyi çox faciəli olub. 1993-cü ildə şəhər tamamilə dağıdılıb. İşğalçılar hətta şəhər qəbiristanlığını da dağıdıb, məşhur tarixi şəxsiyyətlərin məzarlarını alt-üst ediblər. Erdeyi öz həmkarı, azərbaycanlı jurnalist Eldar İsmayılovun dediklərini sitat gətirir: "Hər şeyi bərpa etmək olar – evləri də, təsərrüfat tikililərini də, məbədləri də. Amma atamın cəsədinin başına gətirilənləri necə "düzəltmək" olar? Bu, təkcə bizə deyil, mənim ailəmlə eyni vəziyyətdə olan insanların hamısına çox böyük mənəvi zərbədir. Qərara almışam ki, Ermənistana qarşı iddia ilə Avropa Məhkəməsinə müraciət edim. Dağlıq Qarabağa qarşı bunu edə bilmərəm, çünki o, heç kəs tərəfindən tanınmamış siyasi qurumdur".

40 min sakini olan Ağdam şəhəri elə viran qoyulub ki, indi onu çox vaxt "Qafqazın Hirosiması" adlandırırlar. Elə ilk baxışdan görünür ki, bu həqiqətən belədir. Mərkəzi şəhər məscidinin iki uca minarəsi istisna olmaqla bütün şəhər xarabalığa çevrilib. Həmin minarələrdən erməni əsgərlər kəşfiyyat qüllələri kimi istifadə edirdilər. Məscidlərdə ermənilər ev heyvanları, o cümlədən müsəlmanlar üçün "murdar" sayılan donuz saxlayıblar.

Macar jurnalist yazır: "Mən orada olanda məscidin daş döşəməsi peyinlə dolu idi. Bu mənzərə mənim təsəvvürümü daha da kəskinləşdirdi. Azərbaycanın məşhur tarixi şəxsiyyətlərinin məzarları, möhtərəm xanların və imamların türbələri dağıdılıb, məzar daşları uçurulub və sındırılıb, skelet qalıqları ətrafa səpələnib. Şəhərin təməlini qoymuş İbrahimxəlil xanın məqbərəsi də dağıdılıb. Xurşidbanu Natəvanın abidəsi dağıdılıb, onun məzarı qazılıb, sümükləri ətrafa səpələnib. XIX əsrdə yaşamış Natəvan xeyriyyəçi olub. Onu Azərbaycan poeziyasının ən yaxşı nümayəndələrindən biri hesab ediblər. Natəvanın əsərləri məhəbbət mövzusunda qəzəllərdir".

Ermənilər müsəlman qəbiristanlıqlarını təhqir etmələrini belə izah edirlər ki, bu yolla xristianlığın əsasını aqressiv şəkildə yayılmaqda olan İslam fundamentalizmindən qoruyurlar. Əgər kimsə haçansa Azərbaycanda olubsa o adam təsdiqləyər ki, bu ölkə sülh və asayiş diyarıdır, burada kor-koranə mövhumatdan əsər-əlamət yoxdur.

Erdeyi məqaləsinin sonunda yazır: "Məsələn, bizim sürücü sünni idi, iş vaxtı dayanmadan çalışırdı. Sadəcə, səhər nahar vaxtı və axşam bizim qrupdan aralanır namaz qılırdı. Amma müəzzin səsini eşitmədim. Məhz bu cür liberal münasibətə görə, qonşu ölkələrdən, məsələn İrandan olan milliyyətcə azərbaycanlı turistlər buraya axın-axın gəlir. Onlar bu Avropa ölkəsində istirahət etməyə, alış-veriş və əyləncə üçün gəlirlər".

**Pərvanə Qarayeva**
**AZƏRTAC-ın xüsusi müxbiri, Budapeşt**

**AZƏRTAC**
**2021, 27 oktyabr**

**Braziliyalı senator Gəncə və Ağdam şəhərlərinə səfər edib**

Ölkəmizdə səfərdə olan Braziliya Milli Konqresi Senatının Braziliya-Azərbaycan parlamentlərarası əməkdaşlıq üzrə dostluq qrupunun rəhbəri Antonio Anastasiya oktyabrın 31-də Gəncə şəhərinə səfər edib.

AZƏRTAC xəbər verir ki, dostluq qrupunun rəhbəri Vətən müharibəsi zamanı Ermənistan silahlı qüvvələrinin Gəncəni raket atəşinə tutması nəticəsində dağılan əraziyə baş çəkib. Qonaq ötən ilin oktyabrında burada mülki əhaliyə qarşı törədilmiş cinayət izlərinin şahidi olub.

Qonağı müşayiət edən Milli Məclisin Azərbaycan-Braziliya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Müşfiq Məmmədli və Gəncədən seçilmiş deputat Müşfiq Cəfərov ona məlumat veriblər ki, Azərbaycanın ikinci böyük şəhəri Gəncə 2020-ci il oktyabrın 4, 5, 8, 11 və 17-də raket və ağır artilleriya hücumlarına məruz qalıb. Aralarında qadın və uşaqlar da olmaqla 26 mülki şəxs həlak olub, 175 nəfər isə yaralanıb. Şəhərdə mülki infrastruktur obyektlərinə, tarix-mədəniyyət abidələrinə, o cümlədən nəqliyyat vasitələrinə külli miqdarda ziyan dəyib.

Antonio Anastasiya həlak olanların xatirəsinə ehtiram əlaməti olaraq dağıntılar olan əraziyə güllər düzüb.

Senator Gəncə şəhərindəki pravoslav, alban və lüteran kilsələrini də ziyarət edib.

Sonra Braziliya Milli Konqresi Senatının Braziliya-Azərbaycan parlamentlərarası əməkdaşlıq üzrə dostluq qrupunun rəhbəri Antonio Anastasiya Ağdam şəhərində olub.

Qonağa məlumat verilib ki, ermənilər 1993-cü il iyulun 23-də Ağdam şəhərini işğal etdikdən sonra şəhərdə və rayonun kəndlərində yaşayış evlərini, ictimai binaları, məktəbləri, mədəniyyət ocaqlarını, uşaq bağçalarını, xəstəxanaları, istehsalat müəssisələrini talan edib, dağıdıb və yandırıblar. Ağdamda qəbiristanlıqlar, tarixi, mədəni abidələr də erməni vandalizminə məruz qalıb.

Qonaq Ağdam şəhərindəki İmarət kompleksini, Pənahəli xanın buradakı sarayını və qəbiristanlığı, Ağdam Cümə məscidini ziyarət edib, inzibati binaların və Ağdam Dram Teatrının binasının qalıqları ilə tanış olub.

Braziliyalı senatora Ağdam şəhərinin Baş planı və burada həyata keçiriləcək quruculuq işləri barədə də ətraflı məlumat verilib.

Səfərin yekununda senator Antonio Anastasiya Gəncə və Ağdamla bağlı təəssüratlarını KİV nümayəndələri ilə bölüşüb.

**AZƏRTAC**
**2021, 31 oktyabr**

**Politoloq: Ağdam, Laçın və Kəlbəcərin döyüşsüz azad edilməsi hərbi-siyasi Zəfərimizin bariz nümunəsidir**

Mübarizliyi və cəsurluğu ilə seçilən Azərbaycan xalqı tarixboyu müstəqilliyə can atması ilə regiondakı digər xalqlardan seçilib. Böyük imperiyaların hədəfində olması da, Azərbaycanı daim gərgin mübarizələrin və qaynar hadisələrin mərkəzinə çevirib.

Bunu AZƏRTAC-a açıqlamasında Siyasi və Hüquqi Araşdırmalar Mərkəzinin rəhbəri Xəyal Bəşirov deyib.

Politoloq bildirib ki, XIX əsrin əvvəllərindən başlayaraq artıq planın növbəti mərhələsi, tarixi ərazilərimizdə süni şəkildə hayların yerləşdirilməsi və qədim Azərbaycanın parçalanması prosesinə başlanıldı: "Bu proses ötən əsrdə də davam etdi və Qarabağın və ətraf ərazilərin də daxil olduğu iyirmi faiz torpaqlarımızın düşmənin nəzarətinə keçməsi ilə nəticələndi. Ancaq bu prosesə başı qarışan və əvvəlki itkiləri kimi müəyyən müddət bu hadisələri də əvvəlkilər kimi unudacağımıza ümid edən düşmən yanıldı. Yanıldı ki, biz xalq olaraq, əslində, heç əvvəlki xəyanətləri də, itkiləri də unutmamışıq. Əksinə, bu günə qədər verdiyimiz itkilər və bizim itkilərimiz nəticəsində onların qazandıqları bizim qan yaddaşımıza həkk olunub. İki əsrlik bir məkrli planın qarşısını almaq və bu məğlubiyyət sindromunu qırmaq üçün bizə, ilk növbədə, çox güclü milli birlik, sarsılmaz və mərkəzləşdirilmiş dövlət və məğlubedilməz ordu lazım idi. Bunun da həyata keçirilməsi üçün bütün xalqı bu istiqamətdə səfərbər edəcək qətiyyətli iradəyə sahib liderə ehtiyac var idi. Çünki biz yalnız yeni imicdə qarşımıza çıxan ermənilərə deyil, həm də onları əsrlərdir ki, özlərinin planlarına alət edən qüvvələrə qarşı mübarizəyə hazır olmalıydıq.

Xalqımızın ümummilli lideri Heydər Əliyev müstəqil Azərbaycanda siyasi hakimiyyətinin ilk illərindən siyasi, iqtisadi və beynəlxalq əlaqələr baxımından çox güclü mərkəzi idarəetmə mexanizminə malik dövlətin əsasını qoydu. Ancaq bu prosesi yekunlaşdırmaq üçün daha uzun zamana ehtiyac var idi və o prosesin daha da sürətli davamını Prezident İlham Əliyev özünün gərgin fəaliyyəti ilə gətirdi. Dövlətimizin başçısı hakimiyyətdə olduğu 18 ilin hər ilində, hər ayında, hər günündə və hər saatında belə qarşıya qoyulan hədəflərə doğru uğurla irəlilədi. Bütün bu illər ərzində dövlətimizin siyasi, iqtisadi, beynəlxalq əlaqələr və ordu quruculuğu istiqamətində yüksək inkişafını təmin etməklə yanaşı, artıq tarixə qovuşmuş Qarabağ münaqişəsi ilə bağlı sülh və danışıqlar prosesini də davam etdirdi. Paralel olaraq danışıqlar prosesini davam etdirməklə Prezident İlham Əliyev Azərbaycan xalqının çoxəsrlik sülhün, sabitliyin və mehribançılığın tərəfdarı olmaqla bağlı müsbət imicini də qorudu. Bununla biz həm də, gələcəkdə istənilən an danışıqlar prosesinə alternativ olacaq əks-hücum yolu ilə torpaqlarımızı işğaldan azad edəcəyimizlə bağlı prosesə hüquqi zəmini gücləndirdik".

Danışıqlar prosesinin artıq dalana dirəndiyini və Ermənistan rəhbərliyinin təxribatçı bəyanatlarının bu danışıqların sonu olduğunu söyləyən X.Bəşirov bildirib ki, artıq Azərbaycanın da səbri tükəndi və Ermənistanın sentyabrın 27-də başladığı hərbi təxribata Ordumuz əks-hücum əməliyyatı ilə cavab verdi: "Azərbaycan dünyada müharibələr tarixində müddət baxımından ən qısa, məzmun və nəticə baxımından isə ən böyük müharibələrindən birini reallaşdırdı. Azərbaycan ən yeni texnologiyalar vasitəsilə həyata keçirdiyi döyüşün Qalibi adını qazandı. Müharibəyə qədər əldə etdiyimiz siyasi və diplomatik uğurlarımız nəticəsində düşməni bütün siyasi, hərbi və maddi dəstəyinə rəğmən döyüş meydanında tək qoymağımızın da bu prosesdə çox böyük rolu oldu. 44 gün ərzində düşməni çox böyük itkilərə məruz qoyub darmadağın etdik. Nəticədə Ermənistan kapitulyasiya sənədinə imza atmağa məcbur oldu. Bir sözlə, Azərbaycan mövcud imkanları olmasına baxmayaraq, 30 ilə yaxın gözləməklə, əslində, müharibənin deyil, məhz sülhün tərəfdarı olduğunu nümayiş etdirdi".

X.Bəşirov üçtərəfli Bəyanatın Ermənistanın kapitulyasiyası olduğunu bildirərək deyib: "Düşmən təslim olmağa, ağ bayraq qaldırmağa məcbur oldu. Məhz o sənəd əsasında düşmən iyirmi gün ərzində üç böyük rayonumuzu - Ağdam, Laçın və Kəlbəcəri döyüşsüz boşaltdı. Əlbəttə ki, bu, hərbi-siyasi Zəfərimizin bariz nümunəsidir".

**Səadət Hakıyeva**

**AZƏRTAC**
**2021, 10 noyabr**

**Soltan Məmmədov: Ağdamın hərbi əməliyyatlarsız işğaldan azad olunması böyük diplomatik qələbəmizdir**

Ağdam rayonunun işğaldan azad olunması Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycan Ordusunun Vətən müharibəsində qazandığı tarixi Qələbənin siyasi müstəvidə təsdiqi idi. Azərbaycan, Rusiya və Ermənistan rəhbərlərinin imzaladığı üçtərəfli Bəyanatın nəticəsində Ermənistan silahlı qüvvələri Ağdamı tərk etməyə məcbur oldu. Bu, Azərbaycanın həm də diplomatik müstəvidə qazandığı tarixi nailiyyətdir.

Bunu AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı Soltan Məmmədov deyib.

Ağdamın Ermənistan tərəfindən işğal edilmiş rayonlar arasında əhali sayına görə ən böyük rayon olduğunu xatırladan deputat bildirib ki, rayon həm də hərbi baxımdan böyük strateji əhəmiyyətə malik idi: "Ermənistan 30 il ərzində bu ərazidə çox güclü istehkamlar qurmuşdu. Bundan başqa, bildiyiniz kimi, bu il iyunun 12-də Ermənistan Ağdam rayonu ərazisində 97 min tank və piyada əleyhinə minalara dair xəritələri Azərbaycana təhvil verib. Bu xəritələrin reallığı yalnız 25 faiz əks etdirdiyini nəzərə alsaq, belə qənaətə gəlmək olar ki, rayon ərazisində daha çox mina basdırılıb. Bütün bunlar təbii ki, proseslərin hərb ssenarisi ilə davam edəcəyi təqdirdə Azərbaycan Ordusunun işini xeyli çətinləşdirə, böyük itkilərə səbəb ola bilərdi. Bu baxımdan Ağdamın hərbi əməliyyatlarsız işğaldan azad olunması böyük diplomatik qələbəmizdir".

Ermənistanın 30 ilə yaxın müddətdə Ağdamda böyük dağıntılar törətdiyini qeyd edən Soltan Məmmədov bildirib ki, bu gün Azərbaycan dövlətinin Ağdamda, eləcə də işğaldan azad olunmuş digər ərazilərdə həyata keçirdiyi quruculuq işləri dövlətimizin gücünü, xalqımızın iradəsini nümayiş etdirir: "Ağdamı bir çoxları Qafqazın Xirosiması adlandırırdılar. Bu gün biz həmin ərazilərə səfər edərkən öz gözlərimizlə bu rayonda hansı miqyasda və amansızlıqla dağıntıların törədildiyinin şahidi oluruq. Lakin indi Ağdamda insanların məskunlaşması, normal həyat şəraitinin yaradılması istiqamətində işlər həyata keçirilir. Müxtəlif profilli müəssisələrin fəaliyyət göstərəcəyi Ağdam Sənaye Parkının təməli qoyulub. Şəhərin içərisində isə 125 hektar sahəni əhatə edən böyük bir meşə zolağı salınacaq. Ağdamda 1750 fərdi ev, 23 min mənzilin inşası nəzərdə tutulur. İlkin mərhələdə 33 kəndin bərpasına başlanması gözlənilir. Hesab edirəm ki, bütün bunlar Azərbaycan dövlətinin işğaldan aza dolunmuş ərazilərdə həyata keçirdiyi quruculuq işlərinin miqyası barədə təsəvvür yaradır".

**AZƏRTAC**
**2021, 19 noyabr**

**Deputat: Ağdam tezliklə Azərbaycanın ən gözəl şəhərlərindən birinə çevriləcək**

Ağdamın ötən il noyabrın 20-də işğaldan azad olunması ilə əlaqədar danışmazdan əvvəl şəhərin erməni faşizmi tərəfindən qəsb edilməsinə toxunmağı zəruri bilirəm. Belə ki, 1993-cü ilin iyun-iyul aylarında Gəncədə və Bakıda baş verən özbaşınalıq, xaos şəraiti düşmənə Qarabağ cəbhəsində hücum əməliyyatlarını genişləndirmək imkanı verdi. Ağdamın müdafiəsini həyata keçirən yerli özünümüdafiə batalyonları erməni silahlı birləşmələri ilə qanlı döyüşlərə girdi. Ancaq heç bir kömək almayan döyüşçülər iyulun 23-də geri çəkilməyə məcbur oldular. Bununla da 43 gün düşmənə sinə gərən Ağdam şəhəri süqut etdi.

İşğalçı erməni silahlı birləşmələri mənsub olduğu xalqın xislətinə uyğun olaraq, evlərə od vurdular, insanların əmlaklarını taladılar və şəhəri tərk edə bilməyən dinc əhaliyə amansız divan tutdular. Beləliklə, rayonunun 1094 kvadratkilometrlik ərazisinin 882 kvadratkilometri zəbt edildi, 128 min nəfər doğma ev-eşiyindən didərgin düşdü.

İşğal nəticəsində Ağdamın 122 kəndi, 24 min 446 yaşayış binası, 48 sənaye və tikinti müəssisəsi, 160 məktəb binası, 65 səhiyyə mərkəzi, 373 mədəniyyət ocağı, 1 teatr, 3 məscid və 2 muzey yandırılaraq məhv edildi. Erməni terrorçuları tərəfindən işğal zamanı ağır hərbi cinayətlər törədildi.

AZƏRTAC xəbər verir ki, bu fikirləri Milli Məclisin deputatı, YAP İdarə Heyətinin üzvü Rəşad Mahmudov söyləyib.

Rəşad Mahmudov deyib: “Ağdamın bu müharibədə 6 minə yaxın sakini şəhid oldu. Onlardan 16-sı Milli Qəhrəmandır. Rayonun 160 min nəfər əhalisindən 128 mini ev-eşiyindən didərgin düşərək, respublikanın 62 şəhər və rayonunda məskunlaşdı. İşğal nəticəsində rayona 3 milyard 135 milyon ABŞ dolları məbləğində ziyan dəydi.

ATƏT-in Minsk qrupunun 9 ölkəsi adından bu hücum qətiyyətlə pislənildi, işğal olunmuş ərazilərdən erməni qoşunlarının çıxarılması bildirildi. Bununla bərabər, 1993-cü il iyulun 29-da BMT-nin Təhlükəsizlik Şurası 853 saylı qətnaməni qəbul etdi. Bu sənəddə də işğalçı qüvvələrin Ağdam rayonu və digər işğal edilən Azərbaycan ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılması tələb olundu. Bütün bunlara baxmayaraq, Ermənistan tərəfi beynəlxalq qanunlara tabe olmaqdan yayındı”.

Deputat vurğulayıb ki, işğalçı Ermənistan Cenevrə Konvensiyaları ilə üzərinə düşən öhdəliklərini kobud şəkildə pozaraq, Ağdam rayonunda coğrafi adların dəyişdirilməsi, oradakı mülkiyyətin talan edilməsi və ərazilərin yandırılması kimi qeyri-qanuni əməllər törədib. Ümumiyyətlə, o dövrdə Ermənistan Ağdamla yanaşı, digər rayonları da qəsb etməklə, soydaşlarımıza qarşı etnik təmizləmə aparıb. Bununla da özünün əsl niyyətinin hərbi təcavüz və işğal yolu ilə ərazi tutmaq olduğunu qabarıq şəkildə nümayiş etdirib.

“Azərbaycan uzun illərdən sonra, nəhayət, özü beynəlxalq qanunların aliliyini və tarixi ədaləti bərpa etdi. Vətən müharibəsində qazanılan möhtəşəm Qələbə nəticəsində imzalanmış üçtərəfli Bəyanata əsasən, noyabrın 20-də Ağdam rayonunun işğal olunmuş ərazisi Azərbaycana təhvil verildi və bununla da əsaslı şəkildə insan tələfatının qarşısı alındı. Bununla Azərbaycan müharibəni həm döyüş meydanında, həm də siyasi müstəvidə uddu ğunu bütün dünyaya nümayiş etdirdi”, - deyən Rəşad Mahmudov, həmçinin bildirib ki, ötən il noyabrın 26-da “Ağdamın azad olunmasına görə” medalı təsis edildi. Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin müvafiq sərəncamları ilə rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarında iştirak edərək, şəxsi igidlik və şücaət nümayiş etdirən Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 5770 hərbi qulluqçusu “Ağdamın azad olunmasına görə” medalı ilə təltif olundu.

Ağdam xarici və yerli jurnalistlər tərəfindən Qafqazın Xirosiması adlandırılıb. İşğaldan azad olunan Ağdam erməni vandalizminin şahididir. Düşməndən təmizlənən torpaqlarda bütün yaşayış evləri, infrastruktur dağıdılıb. Ermənistan tərəfindən mədəni və dini abidələrimiz barbarlığa məruz qoyulub, təhqir və qarət edilib.

Rəşad Mahmudov deyib: “Ağdam rayonunun əvvəlki şöhrəti qaytarılacaq. Ağdam və işğaldan azad olunan bütün digər şəhərlər Baş Plan əsasında bərpa olunacaq. Yeri gəlmişkən, xatırladım ki, 2021-ci 28 may tarixində Ağdamın Baş Planı Azərbaycan ictimaiyyətinə təqdim olunub.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva 2020-ci il noyabrın 23-də düşməndən təmizlənən Ağdamda olarkən, dövlətimizin başçısı şəhərdə Azərbaycan bayrağını qaldırdı. Prezident İlham Əliyev orada dedi: “Bu gün tarixi bir gündür. Biz şanlı Qələbəmizi qeyd edirik. Dağılmış Ağdam şəhəri erməni vəhşiliyinin

şahididir. Biz Ağdam şəhərini bərpa edəcəyik, bütün kəndləri bərpa edəcəyik. Heç kimdə bu haqda şübhə olmasın. Bu, böyük iş olacaqdır…”.

Bu il mayın 28-də rayona növbəti səfər çərçivəsində isə dövlətimizin başçısı şəhərdə inşa olunacaq ilk yaşayış binasının, Sənaye Parkının, Zəfər muzeyinin, açıq hava altında İşğal muzeyinin və140 illik tarixi olan şəhər 1 saylı məktəbin yeni binasının təməlqoyma mərasimlərində iştirak etdi”.

**AZƏRTAC**
**2021, 19 noyabr**

**Rusiyalı jurnalist Ağdamın dirçəldilməsi barədə yazıb**

Füsunkar gözəlliyi ilə insanı valeh edən Bakıdan sonra Ağdamda gördüklərim sözün həqiqi mənasında məni sarsıtdı. Ağdam mənə neçə il bundan əvvəl Polşada gördüyüm, faşist ölüm düşərgəsinin yerində ucaldılmış memorialı xatırlatdı.

AZƏRTAC xəbər verir ki, rusiyalı jurnalist, hərbi icmalçı Aleksandr Artamonov bu barədə özünün Facebook səhifəsində yazıb.

A.Artamonov yazır: "Çoxzolaqlı sürət şosesi ilə bu şəhərə yaxınlaşanda blokpostu keçəndən sonra saysız-hesabsız xəndəklərlə, uzunmüddətli atəş nöqtələri, tanklar üçün stasionar mövqelərlə, yol kənarında qalaq-qalaq yığılmış minalarla dolu bir mənzərə açılır. Bunların arxasında vaxtilə Ağdam şəhərinin özünün yaşayış massivləri olmuş ərazilərin lal-dinməz xarabalıqları görünür".

Jurnalist qeyd edir ki, şəhərdə tikililərin qalıqları yerlə-yeksan edilib. O yazır: "Əslində, bu hüznlü ərazini şəhər adlandırmaq çətindir. Burada nə küçə qalıb, nə səki, nə qəbiristanlıq, nə kanalizasiya xətləri...Ağdamın ilk müdafiəçiləri və Xocalı faciəsinin qurbanları dəfn edilmiş şəhidlər xiyabanında işğalçılar məzarları yerlə-yeksan ediblər. Xan sarayında məqbərələri dağıdıb, məscidi murdarlayıb, hətta vaxtilə Ağdamı şöhrətləndirən yaşıllıqları da məhv ediblər. Qazılmış cansız sahə, qulaqbatırıcı sakitlik... 29 il uzunluğunda lal faciə", - rusiyalı hərbi icmalçı işğaldan azad edilmiş Ağdam şəhərində gördüklərini belə təsvir edir.

O, acı-acı soruşur: "İşğalçılar bu şəhəri nəyə görə xarabalığa çeviriblər? Qədim Pombeyi xatırladan bu mənzərəni görəndə sual edirsən: nə üçün? Belə təsəvvür yaranır ki, təcavüzkarlar bir neçə əsr bundan əvvəl bu şəhərin salındığı torpağın özündən qisas alıblar. Aşkar görünür ki, gəlmələr özləri burada yaşamaq istəmirdilər, bu yer özü onlarda nifrət hissi oyadırdı. Ona görə də 36 min sakini olan bu yaşayış məntəqəsi haqqında xatirəni məhv etmək istəyiblər.

Belə üzdəniraq siyasəti yalnız terror taktikası adlandırmaq olar. Çörək muzeyinin sovet dövründən qalmış mozaikasında körpənin güllələnmiş sifəti mənim nəzərimdə məhv edilmiş Ağdamın rəmzi oldu".

A.Artamonov daha sonra bildirir ki, Azərbaycan işğaldan azad edilmiş torpaqları bərpa edir. Jurnalist yazır: "Azərbaycan Ağdamı sürətlə bərpa edir – kommunikasiya xətləri çəkilir, avtomagistral inşa edilir, evlərin, parkların və bağçaların layihələri təsdiq olunur. Burada, vaxtilə 36 min sakini olan şəhərin yerində 100 minlik istehsalat mərkəzi, yaşayış massivləri ucaldılacaq, Qarabağ istiqamətində dəmiryol xətti çəkiləcək. Şəhər və onun bərpası sonuncu müharibənin rəmzi, Ağdamın dirçəldilməsi - gələcəyə ümid rəmzidir".

**Fəridə Abdullayeva**
**AZƏRTAC-ın xüsusi müxbiri, Moskva**

**AZƏRTAC**
**2021, 22 noyabr**

## Fransa jurnalı Ağdamı tərk olunmuş 10 şəhər sırasına daxil edib

Azərbaycanda dağlarla əhatə olunmuş XVIII əsr şəhəri olan Ağdam bu ölkə ilə Ermənistan arasında baş vermiş münaqişə zamanı dağıdılıb, talan edilib, şəhərdən yalnız xarabalıqlar qalıb.

AZƏRTAC xəbər verir ki, bu fikir Fransanın "Admagazine" jurnalının internet səhifəsində dərc edilmiş "Böyük təəccüb doğuran 10 tərk edilmiş şəhər" sərlövhəli məqalədə yer alıb.

Məqalədə dünyanın ən çox dağılmış 10 şəhəri təqdim olunub. Bu şəhərlər arasına 30 ilə yaxın erməni işğalı altında qalmış, "Qafqazın Xirosiması" adlandırılan Ağdam şəhəri də daxil edilib. Siyahıda yer almış şəhərlərin əksəriyyəti təbii fəlakətlərə görə tərk edilib. Yeganə olaraq Ağdam erməni işğalı zamanı dağıdılmış şəhər kimi təqdim olunub.

**Şəhla Ağalarova**
**AZƏRTAC-ın xüsusi müxbiri, Paris**

**AZƏRTAC**
**2021, 22 noyabr**

**Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağdam rayonunda səfərdə olublar
"Ağdam-1", "Ağdam-2" yarımstansiyaları və "Qarabağ" Rəqəmsal İdarəetmə Mərkəzi istifadəyə verilib**

*(13 fevral 2022-ci il)*

Xəbər verildiyi kimi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva fevralın 13-də Ağdam rayonunda səfərdə olublar.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı və birinci xanım əvvəlcə Ağdam şəhərində yeni inşa olunmuş "Ağdam-1" və "Ağdam-2" yarımstansiyalarının, o cümlədən "Qarabağ" Regional Elektrik Şəbəkəsinin Rəqəmsal İdarəetmə Mərkəzinin açılışında iştirak ediblər.

"Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin prezidenti Baba Rzayev dövlətimizin başçısı İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, işğaldan azad edilən Ağdam rayonunun Azərbaycanın ümumi enerji sisteminə qoşulması, dayanıqlı və fasiləsiz elektrik enerjisi ilə təchiz edilməsi üçün "Azərenerji" ASC tərəfindən "Xındırıstan" yarımstansiyasından 35 kilometr məsafədə ikidövrəli 110 kilovoltluq yüksəkgərginlikli elektrik verilişi xətti çəkilib. Demək olar ki, xətt tam minalanmış ərazidən keçib. Bəzi yerlərdə minalar arasından bir neçə metr enində cığır açılaraq bu çətin vəzifə icra edilib. Ən əsası isə Ağcabədidən Xındırıstana, oradan da "Ağdam-1" və "Ağdam-2" yarımstansiyalarına qədər ümumilikdə 63 kilometr məsafədə 110 kilovoltluq xəttin üzərində ildırımdan mühafizə və yarımstansiyalararası informasiya mübadiləsi üçün 24 damarlı fiberoptik kabel çəkilib. Bununla da Ağdama təkcə elektrik xətti deyil, həm də ən yüksək ötürmə qabiliyyətli sürətli internet xətti gətirilib.

Məlumat verildi ki, Ağdam rayon mərkəzində yaradılan böyük və müasir enerji kompleksinin bir hissəsində 110 kilovoltluq açıq və 35, 10 kilovoltluq qapalı paylayıcı qurğuların yerləşdirildiyi inzibati bina da daxil olmaqla, yeni 110/35/10 kilovoltluq "Ağdam-1" yarımstansiyası tikilib. "Ağdam-1" yarımstansiyası tam rəqəmsallaşdırılaraq avtomatlaşdırılıb. Yarımstansiyada aktivlərin, proseslərin, resursların idarə edilməsi, tədarük və paylanma zəncirlərinin təkmilləşdirilməsi, qüsurların vaxtında aradan qaldırılması, sistemin monitorinq və analizinin, problemlərin tez həllinin proqram təminatı vasitəsilə avtomatik həyata keçirilməsi təmin olunub.

Azərbaycanın elektroenergetika tarixində ilk dəfə Qarabağ və Şərqi Zəngəzurun elektrik şəbəkəsinin Regional Rəqəmsal İdarəetmə Mərkəzi məhz Ağdamda yaradılıb. Rəqəmsal İdarəetmə Mərkəzinin binası Operativ Qərargahın şəhərsalma işçi qrupu tərəfindən təsdiq edilmiş müasir üslubda hazırlanmış memarlıq layihəsi əsasında inşa olunub.

Dövlətimizin başçısı Qarabağ Regional Rəqəmsal İdarəetmə Mərkəzində "Ağdam-1" elektrik yarımstansiyasının açılışını etdi.

Bildirildi ki, Qarabağ Regional Rəqəmsal İdarəetmə Mərkəzi vasitəsilə regiondakı bütün elektrik stansiyaları, yarımstansiyalar, ötürmə xətlərinin monitorinqi, önləyici analizlər, açılıb-qoşulmalar, tənzimlənmələr və başqa əməliyyatlar avtomatik şəkildə həyata keçirilir. Ölkə üzrə 2500 kilometr məsafədə çəkilən optik kabel şəbəkəsi üzərindən qurulan yeni sistem vasitəsilə nəinki Qarabağın, bütövlükdə Azərbaycanın enerji sistemi əhatə olunur. Rəqəmsal İdarəetmə Mərkəzindən obyektlərin monitorinqi aparılmaqla, parametrlərdə düzəlişlər edilməsi imkanı yaradılıb. Bu da serverlərin, o cümlədən digər şəbəkə aktivlərinin istismarı üzrə məlumat axınına nəzarət və onun idarə olunmasını mümkün edir. Yeni tətbiq olunan elektron texniki pasportlaşma nəticəsində Mərkəzdən "Azərenerji" ASC-nin struktur tərkibinə daxil olan istənilən müəssisənin nəzdindəki avadanlığın texniki göstəricilərinə və formullarına nəzarət etmək mümkündür.

Həmçinin Qarabağ üzrə Operativ Qərargaha təqdim edilən və ali rəhbərlik tərəfindən təsdiqlənmiş memarlıq layihələri, xətlərin keçdiyi yerlər, icazələr sənədləşdirilərək elektron qaydada sistemləşdirilib. Satınalmalar prosesinin rəqəmsallaşdırılması balans və qalıq dəyərlərinin dəqiq uçotunun aparılmasına, materialların naviqasiyalı hərəkətinin izlənməsinə, israfçılığın aradan qaldırılmasına və səmərəliliyin artırılmasına imkan verib. Nəticədə avadanlığın təmiri, daşınması, qəzaların aradan qaldırılması xərcləri, ehtiyat hissələrinin alınması və başqa sahələrdə səmərəlilik orta hesabla 30 faiz yüksələrək böyük həcmdə maliyyə vəsaitinə qənaət edilib.

Qarabağ Rəqəmsal İdarəetmə Mərkəzinin ərazisində elektrik avadanlığının təmiri sahəsi, xüsusi təyinatlı maşın və mexanizmlər üçün qaraj, anbar binası və mühəndis yataqxanası da daxil olmaqla, digər xüsusi təyinatlı binalar tikilib.

"Ağdam-1" yarımstansiyasının və Rəqəmsal İdarəetmə Mərkəzinin ətrafındakı 2,5 hektarlıq ərazidə yaşıllıq zolağı və meyvə bağı salınıb, xüsusi suvarma sistemi qurulub.

Dövlətimizin başçısına məlumat verildi ki, Ağdam rayonunun Əsgərana yaxın Şelli kəndi istiqamətində yeni 110/35/10 kilovoltluq “Ağdam-2” yarımstansiyası da inşa edilib. Bir neçə ay ərzində minalardan təmizlənmiş ərazidə dördüncü sənaye inqilabının yaratdığı texnoloji yeniliklərə uyğun olaraq süni intellektə adaptasiya edilən enerjisistem şəbəkəsi konsepsiyası çərçivəsində müasir, dayanıqlı, tam rəqəmsallaşdırılmış yarımstansiya tikilib. Burada 110 kilovoltluq açıq paylayıcı qurğu yaradılıb, açarların, ayırıcıların və digər texniki avadanlığın açılıb-qoşulması, o cümlədən aktivlərin, proseslərin, resursların idarə edilməsi, qüsurların təcili aradan qaldırılması və başqa əməliyyatların proqram təminatı vasitəsilə avtomatik həyata keçirilməsi təmin edilib. Yarımstansiyanın yeni tikilən İdarəetmə Mərkəzi isə 35 və 10 kilovoltluq rəqəmsal qapalı paylayıcı qurğular yerləşdirilməklə yanaşı, əks-qəza avtomatikası, mikroprosessor tipli rele mühafizəsi, avtomatika və idarəetmə panelləri, sabit və dəyişən cərəyan qurğuları ilə təmin edilib. Yarımstansiyada müasir tələblərə cavab verən micro-SCADA sistemi yaradılıb və “Azərenerji”nin mərkəzi SCADA sistemi ilə sinxronlaşdırılıb.

Prezident İlham Əliyev "Ağdam-2" yarımstansiyasını məsafədən idarə olunan SCADA dispetçer idarəetmə sistemi vasitəsilə işə saldı.

**AZƏRTAC**
**2022, 14 fevral**

**Prezident İlham Əliyev Ağdam Sənaye Parkında iki müəssisənin təməlini qoyub**
*(13 fevral 2022-ci il)*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva fevralın 13-də Ağdam Sənaye Parkında iki müəssisənin təməlinin qoyulması mərasimində iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, İqtisadi Zonaların İnkişafı Agentliyinin sədri vəzifəsini icra edən Elşad Nuriyev dövlətimizin başçısına və birinci xanıma görüləcək işlər barədə məlumat verdi.

Qeyd edək ki, Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən ölkəmizdə həyata keçirilən iqtisadi siyasətin ən önəmli istiqamətlərindən biri sənaye sektorunun, xüsusilə də qeyri-neft sənayesinin sürətli inkişafıdır. Bu baxımdan yeni dövrün iqtisadi inkişaf tələbləri ilə uzlaşan mütərəqqi mexanizmlərin tətbiqi - sənaye zonalarının (sənaye parkları və məhəllələri) yaradılması xüsusi önəm kəsb edir. Sənaye zonaları sahibkarlıq fəaliyyətinin genişləndirilməsində, biznesin innovativliyinin və səmərəliliyinin artırılmasında, yüksək texnologiyalara əsaslanan rəqabətqabiliyyətli məhsul istehsalında, neft-qaz amilindən asılılığın azaldılmasında, qeyri-neft sektorunun inkişafında və əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsində mühüm amilə çevrilir.

Qeyri-neft sektorunun inkişafına mühüm töhfə verən sənaye parklarında sahibkarlığın inkişafı üçün əlverişli şərait yaradılıb və rezidentlər üçün stimullaşdırıcı tədbirlər tətbiq olunur. Hazırda Azərbaycanda 5 sənaye parkı - Sumqayıt Kimya, Balaxanı, Mingəçevir, Qaradağ və Pirallahı sənaye parkları fəaliyyət göstərir. Dövlətimizin başçısının 2021-ci il 28 may tarixli Fərmanına əsasən Ağdam, 4 oktyabr tarixli Fərmanı ilə Araz Vadisi İqtisadi Zonası sənaye parklarının yaradılması nəticəsində ölkəmizdə sənaye parklarının sayı 7-yə çatıb.

Regionların, xüsusilə də kiçik və orta sahibkarlığın inkişafında sənaye məhəllələri də əhəmiyyətli rol oynayır. Hazırda ölkəmizdə 5 sənaye məhəlləsi – Hacıqabul, Masallı, Neftçala, Sabirabad və Şərur sənaye məhəllələri fəaliyyət göstərir.

Sənaye zonaları üzrə indiyədək 90 sahibkarlıq subyektinə rezidentlik statusu verilib və bunlardan artıq 58-i istehsal fəaliyyətinə başlayıb. Sənaye zonalarında məhsul istehsalı və ixracı istiqamətində müsbət dinamika müşahidə olunur. 2021-ci ildə 2,4 milyard manatlıq məhsul istehsalı ilə sənaye zonalarının ölkə sənayesinin qeyri-neft sektorunda xüsusi çəkisi 15,5 faiz, qeyri-neft sənaye məhsullarının ixracında isə xüsusi çəkisi 30,8 faiz (959,3 milyon manatlıq ixrac) təşkil edib. Sənaye zonalarında istehsal olunan məhsullar dünyanın 35-dən çox ölkəsinə ixrac edilir.

Vətən müharibəsində Azərbaycanın qazandığı böyük Zəfərlə ərazi bütövlüyümüzün bərpa olunması, işğaldan azad edilmiş torpaqlarımızın ölkə iqtisadiyyatına reinteqrasiyası, regionda mövcud yeni reallıqlar və əməkdaşlıq imkanları, beynəlxalq və regional nəqliyyat-logistika dəhlizlərinin artan potensialı Azərbaycanın sürətli inkişafı üçün əlavə stimul yaradır. İqtisadi resursları, təbii ehtiyatları, enerji mənbələri, yeraltı metal filizi yataqları, termal suları, tikinti materialları üçün xammal bazası, nəqliyyat-tranzit, turizm imkanları və s. azad edilmiş ərazilərimizə investor marağını da artırır. Ağdamın Qarabağ regionundakı strateji coğrafi mövqeyi, Qarabağla digər bölgələrin qovuşuğunda yerləşməsi, insan resursları potensialı və infrastruktura çıxış imkanları şəhərin gələcəkdə Qarabağın sənaye mərkəzinə çevrilməsi imkanlarını genişləndirir. Ağdam Sənaye Parkının yaradılması da məhz bu məqsədə xidmət edir.

Məlumat verildi ki, Ağdam Sənaye Parkı 190 hektar ərazini əhatə edir. Sənaye Parkının prioritet istiqamətləri kimi tikinti materiallarının istehsalı, kənd təsərrüfatı məhsullarının qablaşdırılması, meyvə-tərəvəz konservləri, ət və süd məhsulları, yem, gübrə istehsalı və emalı, eyni zamanda, xidmət sahələrinin, soyuducu kameraların və s. təşkili müəyyənləşdirilib.

Sənaye Parkında quruculuq işləri mərhələli şəkildə həyata keçirilir. İlk olaraq Parkın ərazisinin minalardan və hərbi sursatlardan təmizlənməsi işlərinə başlanılıb və artıq 190 hektar ərazinin 74 hektardan çoxu mina və hərbi sursatlardan təmizlənib, qalan ərazilərdə isə hazırda təmizləmə işləri aparılır. Rezidentlər fəaliyyətə başlayanadək Sənaye Parkında bütün lazımi şərait yaradılacaq. İşçilərin rahatlığının təmin edilməsi məqsədilə artıq Sənaye Parkında mobil tipli şəhərcik salınıb. Burada rezidentlər üçün konteyner tipli ofis, yataqxana, tibb məntəqəsi, mağaza, aptek və yeməkxana yaradılıb, əraziyə asfalt yol çəkilib, abadlıq işləri görülüb. Parkın ərazisində bankomat quraşdırılıb.

Sənaye Parkının ərazisində tikinti aparılacaq sahənin su ilə təmin edilməsi məqsədilə 350 metr dərinliyində subartezian quyusu qazılıb. Əraziyə 10 kilovoltluq elektrik xətti çəkilib və 630 kilovoltluq transformator məntəqəsi quraşdırılıb. Belə ki, işğaldan azad olunduqdan sonra Ağdam şəhərində ilk elektrik

enerjisi və su təchizatı sistemi Ağdam Sənaye Parkının ərazisində quraşdırılıb. Sənaye Parkının işıqlandırılmasında günəş enerjisindən qidalanan panellərdən istifadə edilir.

Qeyd olundu ki, Ağdam Sənaye Parkının 74 hektar ərazisində topoqrafik planlama və mühəndis-geoloji tədqiqat işləri yekunlaşdırılıb. Topoqrafik planlama zamanı Parkın ərazisində dağılmış tikililərin geometrik ölçüləri müəyyən edilib və ərazidən daşınması nəzərdə tutulan tullantıların həcmi dəqiqləşdirilib. Geoloji-tədqiqat işləri zamanı isə Parkın ərazisində süxurların tərkibi və litoloji təsviri, fiziki və mexaniki xüsusiyyətləri müəyyənləşdirilib.

Ağdam Sənaye Parkına sahibkarlar tərəfindən böyük maraq göstərilir. Artıq 5 sahibkarlıq subyekti bu Parkın rezidenti kimi qeydiyyata alınıb. Hazırda İqtisadi Zonaların İnkişafı Agentliyində sahibkarlar tərəfindən təqdim edilən daha 10-dan çox layihəyə baxılır. Havalandırma, yanğınsöndürmə avadanlıqları və metal məmulatları istehsalı, beton istehsalı, ağır texnikaya texniki xidmətin göstərilməsi və bununla əlaqədar olaraq bəzi metal ehtiyat hissələrinin bərpası və istehsalı, ortopedik matras və yumşaq mebellərin (divan və kresloların), kanalizasiya və içməli su borularının istehsalı və s. təqdim olunan layihələr üzrə əsas fəaliyyət istiqamətləridir.

Ağdam Sənaye Parkının rezidenti “Smartpoint” MMC burada reallaşdıracağı layihə çərçivəsində alternativ və bərpaolunan enerji mənbələri ilə (əsasən günəş enerjisi) qidalanan işıq dirəklərinin və digər qurğuların istehsalını təşkil edəcək. Layihənin investisiya dəyəri 9,1 milyon manatdır. Layihə çərçivəsində yaradılacaq müəssisədə Türkiyə və İtaliya texnologiyalarından istifadə ediləcək. Müəssisədə ildə 21 min işıq dirəyi və 40 meqavat gücündə digər qurğuların istehsal olunması nəzərdə tutulur. “Smartpoint” MMC Sənaye Parkının rezidentləri üçün nəzərdə tutulan bütün güzəştlərdən (tam infrastruktur təminatı və vergi azadolmaları) faydalanacaq. Sənaye Parkının 1,3 hektar ərazisində inşa ediləcək müəssisədə 80 daimi iş yeri yaradılacaq. Yaxın vaxtlarda müəssisənin layihələndirmə işlərinə başlanacaq. Müəssisənin tikintisinə başlandıqdan sonrakı 6 ay müddətində istismara verilməsi nəzərdə tutulur. İstehsal edilən məhsulların daxili bazarda satılması ilə yanaşı, Gürcüstan, Qazaxıstan və Özbəkistana da ixrac olunması planlaşdırılır.

Digər rezident -“Dadaş-N” MMC Sənaye Parkında həyata keçirəcəyi layihə çərçivəsində müxtəlif çeşidli sintetik xalçalar istehsal edəcək. İnvestisiya dəyəri 9,5 milyon manat olan layihə çərçivəsində yaradılacaq müəssisədə il ərzində 700 min kvadratmetr xalça istehsal ediləcək. Məhsul istehsalında polipropilen, polietilen və poliakril kimi yerli xammaldan istifadə olunacaq. İstehsal prosesində Belçika və Çin texnologiyaları tətbiq ediləcək. “Dadaş-N” MMC də Sənaye Parkının rezidentləri üçün nəzərdə tutulan bütün güzəştlərdən yararlanacaq. Sənaye Parkının 2 hektar ərazisində inşa ediləcək müəssisədə 60 daimi iş yeri yaradılacaq. Müəssisənin tikintisinə başlandıqdan 24 ay müddətinə istismara verilməsi nəzərdə tutulur. İstehsal edilən məhsulların daxili bazarda satılmaqla yanaşı, MDB ölkələrinə ixrac olunması planlaşdırılır.

Dövlətimizin başçısı hər iki müəssisənin təməlini qoydu.

Beləliklə, yeni yaradılan sənaye zonaları, həmçinin Ağdam Sənaye Parkında yaradılan müəssisələr yerli istehsalın inkişafına təkan verməklə, bölgənin resurslarının iqtisadi dövriyyəyə cəlb edilməsinə, Qarabağın dirçəlişinə, bütünlükdə ölkəmizdə qeyri-neft sənayesinin inkişafına mühüm töhfə verəcək.

**AZƏRTAC**
**2022, 14 fevral**

**Azərbaycan Prezidenti “Park Forest Otel Ağdam” mehmanxanasının təməlini qoyub**
*(13 fevral 2022-ci il)*

Fevralın 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağdam şəhərində inşa olunacaq “Park Forest Otel Ağdam” mehmanxanasının təməlinin qoyulması mərasimində iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, “PMD Projects” MMC-nin İdarə Heyətinin sədri Nəriman Topçibaşev dövlətimizin başçısına və xanımına layihə barədə məlumat verdi.

Bildirildi ki, 2,16 hektar ərazidə inşa ediləcək “Park Forest Otel Ağdam” mehmanxanası 110 nömrədən ibarət olacaq. Mehmanxananın ərazisində əsas bina ilə yanaşı, konfrans mərkəzi, açıq havada üzgüçülük hovuzu, uşaq oyun meydançası, gəzinti yolları və istirahət zonaları yaradılacaq. Tikinti işlərinin 2024-cü ilin dekabrında başa çatdırılması nəzərdə tutulub.

Prezident İlham Əliyev otelin təməlini qoydu.

Qeyd edək ki, son illər Azərbaycanda turizmin inkişafı istiqamətində böyük işlər görülsə də, ölkəmizin ən böyük turizm potensialına malik Qarabağ bölgəsi işğal altında olduğundan bu proseslərdən kənarda qalmışdı. İlin dörd fəslində füsunkar təbiəti ilə qonaqları heyran edən, saf havası, müalicəvi suları, tarixi abidələri ilə dillərdə dastan olan bu diyar Müzəffər Ali Baş Komandanın qətiyyəti və Ordumuzun rəşadəti sayəsində artıq düşmən tapdağından azad edilib. Qarabağın işğaldan azad olunmasından qısa müddət ötməsinə baxmayaraq, bu tarixi torpaqlarımızın dirçəldilməsi prosesi sürətlə davam etdirilir. Bu prosesdə diqqət yetirilən əsas sahələrdən biri də işğaldan azad olunmuş ərazilərimizdə turizmin inkişaf etdirilməsidir.

Strateji mövqeyinə görə Qarabağın giriş qapısı hesab edilən Ağdam rayonunda ən müasir standartlara cavab verən mehmanxananın inşası sürətlə dirçəldilən tarixi ərazilərimizin turizm potensialının inkişafına mühüm töhfə verəcək. Bu, həm də işğaldan azad edilən ərazilərimizdə, o cümlədən Ağdam rayonunda sosial layihələrin davamlı şəkildə həyata keçirilməsinin növbəti göstəricisidir.

**AZƏRTAC**
**2022, 14 fevral**

**Ağdamda 209 mənzildən ibarət yeni yaşayış kompleksinin təməli qoyulub**
*(13 fevral 2022-ci il)*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva fevralın 13-də Ağdamda yeni yaşayış kompleksinin təməlinin qoyulması mərasimində iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov və "PMD Projects" MMC-nin İdarə Heyətinin sədri Nəriman Topçibaşev dövlətimizin başçısına və xanımına inşa olunacaq kompleks barədə məlumat verdilər.

Qeyd olundu ki, ümumi sahəsi 1,55 hektar olan ərazidə ilkin mərhələdə 209 mənzildən ibarət 6 yaşayış binası inşa ediləcək. Mənzillərin ümumi yaşayış sahəsi 21 min 921 kvadratmetr olacaq. Kompleksin tikintisinin 2023-cü ilin dekabrında başa çatdırılması nəzərdə tutulub.

Prezident İlham Əliyev yaşayış kompleksinin təməlini qoydu.

Vətən müharibəsində şanlı Qələbə müjdəsini Azərbaycan xalqına çatdırmaq üçün tarixi müraciətində Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin ifadə etdiyi "Məcburi köçkünlər yaxşı bilirlər ki, onların öz dədə-baba torpaqlarına qayıtması üçün biz əlimizdən gələni edəcəyik, işğaldan azad edilmiş bu torpaqları yenidən quracağıq" ifadəsi Ağdam rayonunda yeni yaşayış kompleksinin təməlinin qoyulması ilə bir daha təsdiqini tapır. Otuz ilə yaxın müddətdə doğma yurd-yuvalarına qovuşmaq həsrəti ilə yaşayan ağdamlılar üçün bu yaşayış kompleksinin təməlinin qoyulması onları bu arzularına daha da yaxınlaşdırır. Bu mərasim, eləcə də növbəti mərhələdə 0,86 hektar ərazidə daha 4 yaşayış binasının inşası ilə bağlı layihələndirmə işləri aparılması ağdamlılarda bu arzularının da olduqca qısa müddətdə reallaşdırılacağına qəti inam yaradır.

**AZƏRTAC**
**2022, 14 fevral**

**Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağdam Cümə məscidində bərpa işlərinin gedişi ilə tanış olublar**
*(13 fevral 2022-ci il)*

Fevralın 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Heydər Əliyev Fondu tərəfindən Ağdam Cümə məscidində görülən bərpa-restavrasiya işlərinin gedişi ilə tanış olublar.

AZƏRTAC xəbər verir ki, işğaldan azad olunan ərazilərdə Heydər Əliyev Fondunun layihələrinin koordinatoru Sabiq Abdullayev dövlətimizin başçısına və birinci xanıma görülən işlər barədə məlumat verdi.

Qeyd edək ki, Ağdam Cümə məscidi 1868-1870-ci illərdə memar Kərbəlayi Səfixan Qarabaği tərəfindən tikilib. Bu məscid Ağdamın işğal altında olduğu müddətdə şəhərdə ermənilər tərəfindən dağıntıya nisbətən az məruz qalan yeganə tikilidir.

Cümə məscidinin bərpa-restavrasiyasına Heydər Əliyev Fondu tərəfindən başlanılıb. Layihənin icrası üçün Avstriyanın “Brugger&KO Restauratoren GmbH” şirkəti ilə müqavilə imzalanıb.

Bildirildi ki, ilk addımda örtük və sement birləşmələri tamamilə çıxarılacaq. Tarixi kərpiclərin zədələnməməsi və kompozitin divardan qopmaması üçün işlər əl ilə aparılacaq. Bərpa prosesinin ikinci mərhələsində fasadlar biogen böyümədən təmizlənəcək, zədələnmiş və ya qırılmış kərpiclər bərpa ediləcək, karxana daşı hörgüsü əhəng əsaslı birləşmiş məhlul ilə yenidən işarələnəcək.

Məscidin bişmiş kərpicdən hörülmüş iki minarəsinə spiralvari pilləkənlə qalxmaq mümkündür. Birinci mərhələdə qırıq birləşmələr, kafel başları və mövcud rəng nümunələri çıxarılacaq, ikinci mərhələdə minarələrin kərpic hörgülərinin biogen artımının qarşısı alınacaq, üçüncü mərhələdə isə kərpic başları bərpa olunacaq. Daha sonra rəng nümunələri və yazı zolaqları tarixi xüsusiyyətlərə uyğun olaraq mineral rəngli materialla bərpa ediləcək.

Tarixi görüntülərdən də göründüyü kimi, məscid əvvəlcə taxta dam örtüyü ilə örtülüb, kərpic günbəzlər damın altında havadan və küləkdən qorunub. İlkin mərhələdə damın bütün landşaftı son biogen artımından azad ediləcək, qübbələr üzərində qırılan hörgü birləşmələri və gips örtükləri çıxarılacaq.

Konservasiya zamanı çatışmayan, zəifləmiş və ya qeyri-sabit hörgü və tonoz konstruksiyaları yenilənəcək və ya birləşdiriləcək.

Namaz zalında birinci mərhələdə əsas kərpicdən başqa bütün gips çıxarılacaq və sonrakı iş mərhələləri üçün hazırlanacaq. Bütün otaqlarda əhəng əsasında yeni, üçqatlı suvaq sistemi tətbiq ediləcək, son qatda ilk versiyaya (ağ rəngli) uyğun mineral boya tətbiq olunacaq.

Məscidin mehrabı hazırda qəzalı vəziyyətdədir. Müvafiq olaraq, məscidin bərpası zamanı təxminən 2 metr hündürlüyə qədər torpaq sahəsində duzsuzlaşdırma tədbirləri həyata keçiriləcək.

Bərpa işləri bütövlükdə tarixi görünüşə uyğun olaraq həyata keçiriləcək.

Görülən işlərlə tanışlıqdan sonra dövlətimizin başçısı çıxış etdi.

**Prezident İlham Əliyevin**
**çıxışı**

- Ağdam rayonunun bərpası ilə bağlı kompleks tədbirlərin görülməsi bizə imkan verəcək ki, qısa müddət ərzində Ağdamı yenidən quraq, yaradaq. Bu gün Ağdamın gələcək inkişafı ilə bağlı çox önəmli addımlar atılmışdır, bir neçə təməlqoyma mərasimi keçirilmişdir. Hesab edirəm ki, qısa müddət ərzində görülmüş işlər yaxın gələcəkdə konkret nəticələrə gətirib çıxaracaq.

Bu gün Ağdam şəhərində sənaye parkının ilk rezidentləri tərəfindən yaxın gələcəkdə istifadəyə veriləcək yeni müəssisələrin təməl daşı qoyuldu. Sənaye parkının təməl daşını mən keçən dəfə Ağdamda qoymuşdum, Müstəqillik Günündə qoymuşdum. Bu gün isə artıq ilk müəssisələrin təməli qoyuldu. Artıq 5 rezident vardır və onlar işə başlayırlar. Beləliklə, 190 hektar ərazidə qurulacaq Ağdam Sənaye Parkının ilk müəssisələri artıq bu sahədə ilk addımlarını atır. Bu, çox önəmli hadisədir. Ona görə ki, Ağdam şəhərinin gələcək inkişafı ilə bağlı planlarımızda, ilk növbədə, yaşayış binalarının inşası və iş yerlərinin açılması var. Çünki burada yaşayacaq ağdamlılar işlə təmin olunmalıdırlar. İş yerlərinin yaradılması ilə bağlı əlavə addımlar da atılacaq. Əminəm ki, yaxın gələcəkdə Ağdam Sənaye Parkında onlarla müəssisə işə başlayacaqdır. Azərbaycan iş adamlarına da mən bu gün burada – Ağdam Cümə məscidinin önündə çağırış edirəm ki, gəlsinlər həm Ağdama, həm də azad edilmiş bütün digər ərazilərə sərmayə qoysunlar, vəsait

qoysunlar. Çünki bu gün Azərbaycanda biznes üçün, sahibkarlar üçün çox gözəl şərait yaradılıb. Dövlət sahibkarları dəstəkləyir və həm mənəvi-siyasi dəstək verilir, eyni zamanda, güzəştli kreditlər verilir. Əlbəttə ki, bölgələrdə infrastruktur layihələrinin icrası sahibkarlıq üçün də gözəl imkanlar yaradır. Ona görə Azərbaycan sahibkarları gərək azad edilmiş torpaqlara gəlsinlər və burada müəssisələr qursunlar, iş yerləri yaratsınlar. Biz azad edilmiş torpaqları ancaq bu yolla tezliklə canlandıra bilərik. Əlbəttə, dövlət öz tərəfindən lazımi addımları atır və atacaq. Ağdam şəhərinin Baş planı hazırlanıb, Baş plan əsasında işlər görülür. Əlbəttə ki, özəl sektorun nümayəndələri bu işlərdə fəal olmalıdırlar.

Bu gün, eyni zamanda, iki yarımstansiyanın açılışı olmuşdur. Beləliklə, azad edilmiş torpaqlarda yarımstansiyaların sayı 9-a çatıb. “Ağdam-1” və “Ağdam-2” yarımstansiyalarının fəaliyyəti nəticəsində bütün rayon elektrik enerjisi ilə dayanıqlı şəkildə təmin ediləcək. Bu gün Ağdamda mehmanxananın təməli qoyuldu. Müasir mehmanxana təqribən 2 ildən sonra fəaliyyətə başlayacaq. Buraya böyük sayda gələcək qonaqlara indi şərait yaradılır. Əlbəttə ki, bu gün qeyd etdiyimiz hadisələrdən biri də yaşayış kompleksinin təməl daşının qoyulmasıdır. Altı evdən ibarət yaşayış kompleksi təqribən il yarıma - iki ilə inşa ediləcək, bəlkə də ondan da tez və beləliklə, Ağdamın hərtərəfli inkişafı təmin olunacaq.

Bu gün, eyni zamanda, Ağdam Mərkəzi Şəhər Xəstəxanasının təməli qoyulur. Əlbəttə ki, 210 çarpayılıq xəstəxana ağdamlılara tibbi xidmətin göstərilməsi üçün imkanlar yaradacaq.

Keçən dəfə Ağdamda olarkən mən burada 1 nömrəli məktəbin təməlini qoydum. O məktəbdə təqribən minə yaxın şagird oxuyacaq. Yəni, bir daha demək istəyirəm, kompleks tədbirlər görülür – elektrik enerjisi ilə təchizat, Ağdama qaz xətlərinin çəkilişi layihəsi indi işlənilir, içməli suyun gətirilməsi, o cümlədən Xaçınçay su anbarının təmiri layihəsi builki İnvestisiya Proqramında vardır, yaşayış binaları, mehmanxana, iş yerləri. Yəni, bu, hərtərəfli inkişaf deməkdir. Elə bu gün açılışında və təməlqoyma mərasimində iştirak etdiyim obyektlərdə biz bu genişmiqyaslı işləri görə bilərik.

Bununla yanaşı, Ağdamın yol-nəqliyyat infrastrukturu tamamilə yenidən qurulur. Bərdə-Ağdam avtomobil yolu, dəmir yolu inşa edilir. Hesab edirəm ki, avtomobil yolu təqribən bir ilə hazır olacaq. Mənim göstərişimlə Füzuli-Ağdam avtomobil yolunun çəkilişi layihəsi artıq icra olunmağa başlamışdır. Bu yol həm Füzuli və Ağdam şəhərlərini birləşdirəcək, eyni zamanda, Ağdamı Füzuli Beynəlxalq Hava Limanı ilə birləşdirəcək və Ağdama başqa ölkələrdən gəlmək daha asan olacaq.

Bu işlər bir daha onu göstərir ki, biz vaxt itirmədən, tarixi Zəfərdən sonra vaxt itirmədən bu işlərə start vermişik, siyasi iradə ortaya qoymuşuq, bütün maliyyə və texniki imkanlarımızı, kadr potensialımızı səfərbər etmişik. Bütün bu işləri biz özümüz görürük, öz vəsaitimiz hesabına, büdcəmiz hesabına, heç kimdən yardım istəmədən, heç bir kredit almadan. Bunu Azərbaycan vətəndaşları edir. Əlbəttə ki, müxtəlif xarici şirkətlər artıq bu işlərdə fəal iştirak edirlər. Bu şirkətlərin sayı artmaqdadır. Mən çox şadam ki, həm yerli şirkətlər, həm xarici şirkətlər azad edilmiş torpaqlarda işləməyə can atırlar, maraq göstərirlər və biz bunu alqışlayırıq.

Qarşımızda böyük işlər vardır. Bu işləri maksimum səmərə ilə və keyfiyyətlə aparmaq üçün əlbəttə ki, düşünülmüş addımlar planı olmalıdır. Bütün şəhərlər Baş plan əsasında yenidən qurulacaq. Ağdamın, Füzulinin Baş planları təsdiq edilib. Ağdam və Füzuli rayonlarının ictimaiyyəti bu Baş planlarla tanış olub və öz müsbət rəyini verib. Hazırda yerli və xarici şirkətlər tərəfindən digər şəhərlərin Baş planları işlənilir. Onlar hazır olan kimi biz artıq praktiki işlərə başlayacağıq.

Görülmüş bütün bu işlərlə yanaşı, əlbəttə ki, biz tarixi, dini abidələrimizi də bərpa edirik. Mənə bu gün verilən məlumata görə, Ağdam Cümə məscidinin bərpa işlərinə başlanılır. Artıq bütün tədqiqatlar aparılıb və mart ayından başlayaraq məscidin həm daxilində, həm çöl hissəsində təmir-bərpa işlərinə start veriləcək. Azad edilmiş torpaqlarda hazırda 8 məscidin əsaslı təmiri, bərpası və tikintisi nəzərdə tutulub. Bütün bu istiqamətlər üzrə işlər gedir. Ağdam Cümə məscidi, Şuşada Yuxarı Gövhərağa, Aşağı Gövhərağa, Saatlı məscidləri əsaslı təmir edilir. Şuşa şəhərində yeni məscidin inşasına start verilib. Zəngilan şəhərində, Hadrutda və Daşaltıda məscidlərin yenidən qurulması və tikintisi prosesi başlamışdır.

Bütün bu işləri Heydər Əliyev Fondu öz imkanları hesabına görür. Bu, Heydər Əliyev Fondunun Azərbaycanın milli-mənəvi dəyərlərinin qorunmasına növbəti töhfəsidir. Bu, bizim borcumuzdur. Bunu biz edirik. Vətən qarşısında bu borcu şərəflə yerinə yetiririk. Necə ki, Vətən müharibəsində Azərbaycan xalqı tarixi ədaləti bərpa etdi, düşməni doğma torpaqlarımızdan qovdu. Beləliklə Azərbaycan ərazi bütövlüyünü bərpa etdi. Mən müharibədən sonra Ağdama 3-cü dəfədir ki, səfər edirəm. Hər dəfə buraya gələndə ürəyim ağrıyır. Çünki Ağdamda bir dənə də olsun salamat bina yoxdur. Təkcə bu yarıdağılmış məsciddir ki, onun da dam örtüyü zədələnmişdir. Bu məscid ermənilər tərəfindən təhqir edilib, burada inəklər, donuzlar saxlanılıb. Ermənilər nəinki Azərbaycan xalqını, bütün müsəlman aləmini təhqir ediblər. Ağdam şəhərində,

Ağdam rayonunda bu yarıdağılmış məsciddən başqa bir dənə də bina ayaq üstə deyil. Bütün binalar, bütün kəndlərdəki evlər, ictimai binalar ermənilər tərəfindən dağıdılıb. Bu, misli görünməmiş barbarlıqdır, vandallıqdır, vəhşilikdir. Bu, erməni faşizminin eybəcər sifətinin göstəricisidir. Bütün dünya bunu görməlidir və görür. Biz bundan sonra da xarici vətəndaşları buraya dəvət edəcəyik. Onlar gələcəklər və erməni vəhşiliyi nədir onu görəcəklər.

Artıq Ağdama və Şuşaya avtobus marşrutları təşkil edilib. Ağdamlılar, şuşalılar və digər bölgələrdən olan vətəndaşlar gəlirlər, tanış olurlar və öz gözləri ilə görürlər ki, bizim xalqımız hansı bəla ilə üz-üzə idi. Otuz il ərzində məqsədyönlü şəkildə bütün şəhərlərimiz, kəndlərimiz, məscidlərimiz, qəbiristanlıqlarımız ermənilər tərəfindən dağıdılıb. İmarət ermənilər tərəfindən dağıdılıb, təhqir edilib. İndi bəziləri gələcək barışıq haqqında danışırlar. Əlbəttə ki, Ermənistan-Azərbaycan arasında sülh müqaviləsi olmalıdır. Beynəlxalq hüququn norma və prinsipləri əsasında qarşılıqlı surətdə ölkələrin ərazi bütövlüyünü tanımaq şərtilə bu sülh müqaviləsi imzalanmalıdır. Mən də onu demişəm. Ancaq heç vaxt Azərbaycan xalqı bu vəhşiliyi unutmamalıdır. Heç kim bu vəhşiliyi unutmamalıdır.

Əminəm ki, bizim bu gün gördüyümüz işlər, o cümlədən ordu quruculuğu sahəsində gördüyümüz işlər Azərbaycanı daha da gücləndirəcək və Ermənistanda baş qaldıran revanşist qüvvələrə cavab olacaq. Biz öz torpağımızdayıq. Biz bu torpağa qan tökərək, şəhidlər verərək qayıtmışıq. Bu torpaqda möhkəm dayanmışıq və bu torpaqlarda əbədi yaşayacağıq. Qarabağ Azərbaycandır!

**AZƏRTAC**
**2022, 14 fevral**

**Ağdam Rayon Mərkəzi Xəstəxanasının təməli qoyulub**
*(13 fevral 2022-ci il)*

Fevralın 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva 210 çarpayılıq Ağdam Rayon Mərkəzi Xəstəxanasının təməlinin qoyulması mərasimində iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov görüləcək işlər barədə dövlətimizin başçısına və birinci xanıma məlumat verdi.

Bildirildi ki, 6 hektardan çox ərazidə inşa olunacaq bu tibb müəssisəsində qəbul, terapiya, kardiologiya, cərrahiyyə, travmatologiya-ortopediya, ürək-damar cərrahiyyəsi, oftalmologiya, LOR, pediatriya, doğum, ginekologiya, yoluxucu xəstəliklər, anesteziologiya-reanimasiya, hemodializ şöbələri və əməliyyat bloku fəaliyyət göstərəcək.

Xəstəxananın ambulator xidmət hissəsi isə konsultativ poliklinika, uşaq poliklinikası, şüa-diaqnostika, funksional diaqnostika, fizioterapiya və tibbi bərpa şöbələrindən, klinik diaqnostika laboratoriyasından və aptekdən ibarət olacaq.

Müalicə ocağı ən müasir tibbi avadanlıqla, həmçinin Regional Kardiocərrahiyyə Mərkəzi xidmətini təmin etmək üçün angioqrafiya cihazı ilə təchiz olunacaq. Binanın zirzəmi hissəsindən isə stasionar tibbi xidmət və sığınacaq kimi istifadə ediləcək, ehtiyac yaranarsa, dərhal hərbi hospital kimi fəaliyyət göstərəcək.

Prezident İlham Əliyev xəstəxananın təməlini qoydu.

Qeyd olundu ki, növbəti mərhələdə Ağdam rayonu üzrə daha bir neçə səhiyyə müəssisəsinin inşası nəzərdə tutulub. Belə ki, qarşıdakı dövrdə burada Gigiyena və Epidemiologiya Mərkəzi, Təcili Tibbi Yardım Stansiyası, Məhkəmə Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyinin binası, çoxprofilli modul tipli xəstəxana, onkoloji, 50 çarpayılıq psixiatriya və 50 çarpayılıq vərəm əleyhinə xəstəxanalar, 20 çarpayılıq Narkoloji Dispanser, Regional Perinatal Mərkəz və QİÇS-lə Mübarizə Mərkəzi, 20 həkim məntəqəsi və ya kiçik həcmli Ailə Sağlamlıq Mərkəzi, Regional Tibb Kolleci də inşa olunacaq.

**AZƏRTAC**
**2022, 14 fevral**

**Azərbaycan Prezidentinin xüsusi nümayəndəliyinin qərargahında yaradılan şəraitlə tanışlıq**
*(13 fevral 2022-ci il)*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva fevralın 13-də Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin qərargahında yaradılan şəraitlə tanış olublar.

AZƏRTAC xəbər verir ki, Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov dövlətimizin başçısına və birinci xanıma qərargahda yaradılan şərait barədə məlumat verdi.

Bildirildi ki, Ağdam şəhərində yerləşən Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin qərargahı ən son innovativ texnologiyalar əsasında tikilib.

Bir hektar sahəni əhatə edən qərargahın ərazisi düşərgə və inzibati hissədən ibarət olmaqla, inşası əsasən 6 komponent üzrə həyata keçirilib. Bunlar yaşayış, inzibati, sağlamlıq, iaşə, müasir düşərgə idarəetmə sistemi və alternativ enerji sahələridir.

Qərargahda innovativ tikinti materiallarından istifadə olunmaqla, yüksəkkeyfiyyətli modul tipli isti və soyuğa davamlı, ekoloji fərdi yaşayış və inzibati binalar inşa olunub. Təhlükəsizliyin təmin edilməsi məqsədilə müasir kamera müşahidə məntəqəsi yaradılıb, açıq və qapalı idman zalları, futbol, basketbol və voleybol meydançaları, ilkin tibbi yardım məntəqəsi, müxtəlif tədbirlər üçün iclas zalı və avtomobil dayanacaqları tikilib.

Qərargahda günəş və bioqaz enerjisindən istifadə sistemləri quraşdırılıb və daxili yollar müasir işıqlandırma sistemləri ilə təchiz edilib. Ümumilikdə 3300 kvadratmetr sahədə salınmış yaşıllıq zolağında ilin hər fəslinə uyğun 30-dan çox növdə ağac və bitki kolları əkilib. Yaşıllıqların suvarılması üçün 3500 metr avtomatlaşdırılmış damcılama və çiləmə sistemləri quraşdırılıb.

İnzibati ərazinin tam mərkəzində Bayraq Meydanı tikilib. Meydanın ətrafı abadlaşdırılıb, burada günəş enerjisi ilə qidalanan işıq dirəkləri quraşdırılıb. Ümumiyyətlə, günəş enerjisi düşərgə daxilində istifadə olunan əsas alternativ enerji mənbəyidir.

**AZƏRTAC**
**2022, 14 fevral**

**Dövlətimizin başçısı və birinci xanım Qarabağ xanlarının Ağdamdakı türbələri və yaşayış evi - İmarət kompleksində olublar**

*(13 fevral 2022-ci il)*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva fevralın 13-də Ağdamda Qarabağ xanlarının türbələri və yaşayış evi - İmarət kompleksində olublar.

AZƏRTAC xəbər verir ki, Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov dövlətimizin başçısına və xanımına kompleksdə görülməsi nəzərdə tutulan tədbirlər barədə məlumat verdi.

Qeyd edək ki, XVIII əsrə aid bu tarix-memarlıq abidəsi xan nəslinin ilk mülklərindən olmaqla, iki binadan ibarətdir. Saray Azərbaycan ərazisində yayılmış digər xan saraylarından fərqlənərək dəbdəbəli yaşayış evi xüsusiyyəti daşıyıb. Buna görə də, Pənahəli xanın imarəti də adlandırılıb. İşğal edilən ərazilərdəki digər tarixi-mədəni, dini abidələr kimi Pənahəli xanın imarəti də ermənilər tərəfindən təhqir edilib, vandalizmə məruz qalıb. Buradan tövlə kimi istifadə olunub.

Qarabağ xanları Pənahəli xanın, İbrahimxəlil xanın və Mehdiqulu xan Cavanşirin, eləcə də onların ailə üzvlərinin - Xan qızı, şairə və xeyriyyəçi Xurşidbanu Natəvanın, şair və ictimai xadim Cəfərqulu xan Cavanşirin, xeyriyyəçi, Şuşada Aşağı və Yuxarı Gövhərağa məscidlərini tikdirmiş Gövhərnisə bəyimin, şairə, “Məclisi-üns”ün iştirakçılarından olmuş Xanbikə xanımın qəbirləri burada yerləşir. Xan sarayının yaxınlığında yerləşən və Qarabağ xan nəslinin bir çox nümayəndələrinin dəfn edildiyi İmarət qəbiristanlığı da erməni vəhşiliyinə məruz qalıb.

**AZƏRTAC**
**2022, 14 fevral**

**Prezident: Ağdam şəhərinin nə gündə olduğunu bütün dünya görür, amma Avropa təşkilatları özlərini görməzliyə vurur**

Artıq minlərlə insan – siyasətçi, deputat, ictimai xadim, jurnalist, xarici vətəndaş Ağdamda olub və bu dağıntıları görüb. Müharibənin başa çatmasından bir ildən çox vaxt keçir. İndi baxın, bir Avropa təşkilatı bu müsibət, bu fəlakət, bu faşizmlə bağlı bir söz deyib? Yox! Görməzliyə vururlar, sanki bu, heç olmayıb.

AZƏRTAC xəbər verir ki, bu fikirləri Prezident İlham Əliyev UEFA Konfrans Liqasında pley-off mərhələsinə yüksələn "Qarabağ" futbol klubunun üzvlərini qəbul edərkən söyləyib.

“İndi Ağdam şəhəri yoxdur, tamamilə dağıdılıb, talan edilib və hər tərəf minalanıb. Müharibə başa çatandan sonra biz artıq 200 nəfərə yaxın insanı ya itirmişik, ya da ki, onlar şikəst olub, əlil olub. Amma bir Avropa təşkilatı Ermənistanı bu müsibətə görə qınayıbmı? Yox! İşğal dövründə etnik təmizləməyə görə, Xocalı soyqırımına görə bir Avropa təşkilatı Ermənistanı qınayıbmı? Yox! Həqiqət budur, reallıq budur və əlbəttə ki, biz bu reallığı nəzərə almalıyıq, amma heç vaxt barışmamalıyıq. Necə ki, işğalla barışmamışdıq, ədalətsizliklə barışmamışdıq. Güc topladıq, düşmənə elə zərbə vurduq ki, bütün dünya bizim Qələbəmizlə bağlı artıq bir söz deyə bilmir və bütün dünya məcbur olub bizim tarixi Zəfərimizi qəbul edib. Çünki bunun başqa yolu yoxdur. Nəyə görə? Güc, iradə, birlik, həmrəylik və məsuliyyət. Siyasətdə, həyatda, idmanda bax, bu amillər hesab edirəm ki, hər bir insana, siyasətçiyə başucalığı gətirəcək”, - deyə Prezident İlham Əliyev vurğulayıb.

"Qarabağ" futbol klubunun qələbəsinin, sadəcə, idman qələbəsi olmadığını bir daha vurğulayan Azərbaycan Prezidenti deyib: “Çünki siz Ağdam şəhərini təmsil edirsiniz. Əminəm ki, gün gələcək biz Ağdamı dediyim kimi quracağıq, elə Ağdam quracağıq ki, bütün dünyaya örnək olacaq və siz ev oyunlarınızı Ağdamda keçirəcəksiniz, “İmarət” stadionunda keçirəcəksiniz, orada parlaq qələbələr qazanaraq, xalqımızı sevindirəcəksiniz.

**AZƏRTAC**
**2021, 13 dekabr**

**Prezident: Mən müharibədən sonra Ağdama üçüncü dəfədir səfər edirəm, hər dəfə buraya gələndə ürəyim ağrıyır**

Mən müharibədən sonra Ağdama üçüncü dəfədir ki, səfər edirəm. Hər dəfə buraya gələndə ürəyim ağrıyır. Çünki Ağdamda bir dənə də olsun salamat bina yoxdur.

AZƏRTAC xəbər verir ki, bunu Prezident İlham Əliyev Ağdam rayonuna səfəri zamanı Cümə məscidinin qarşısındakı çıxışında bildirib.

"Təkcə bu yarıdağılmış məsciddir ki, onun da dam örtüyü zədələnmişdir. Bu məscid ermənilər tərəfindən təhqir edilib, burada inəklər, donuzlar saxlanılıb. Ermənilər nəinki Azərbaycan xalqını, bütün müsəlman aləmini təhqir ediblər. Ağdam şəhərində, Ağdam rayonunda bu yarıdağılmış məsciddən başqa bir dənə də bina ayaq üstə deyil", - deyə dövlətimizin başçısı vurğulayıb.

Rayondakı bütün binaların, evlərin ermənilər tərəfindən dağıdıldığını qeyd edən Prezident İlham Əliyev deyib: "Bu, misli görünməmiş barbarlıqdır, vandallıqdır, vəhşilikdir. Bu, erməni faşizminin eybəcər sifətinin göstəricisidir. Bütün dünya bunu görməlidir və görür. Biz bundan sonra da xarici vətəndaşları buraya dəvət edəcəyik. Onlar gələcəklər və erməni vəhşiliyi nədir onu görəcəklər".

**AZƏRTAC**
**2022, 14 fevral**

**Prezident İlham Əliyev: Ağdamın yol-nəqliyyat infrastrukturu tamamilə yenidən qurulur**

Ağdamın yol-nəqliyyat infrastrukturu tamamilə yenidən qurulur. Bərdə-Ağdam avtomobil yolu, dəmir yolu inşa edilir. Hesab edirəm ki, avtomobil yolu təqribən bir ilə hazır olacaq.

AZƏRTAC xəbər verir ki, bu barədə Prezident İlham Əliyev Ağdama səfəri zamanı rayonda həyata keçirilən infrastruktur layihələrindən danışarkən bildirib.

Dövlətimizin başçısı deyib: "Mənim göstərişimlə Füzuli-Ağdam avtomobil yolunun çəkilişi layihəsi artıq icra olunmağa başlamışdır. Bu yol həm Füzuli və Ağdam şəhərlərini birləşdirəcək, eyni zamanda, Ağdamı Füzuli Beynəlxalq Hava Limanı ilə birləşdirəcək və Ağdama başqa ölkələrdən gəlmək daha asan olacaq".

Prezident qeyd edib ki, tarixi Zəfərdən sonra vaxt itirmədən bu işlərə start verilib, siyasi iradə ortaya qoyulub, bütün maliyyə və texniki imkanlar, kadr potensialı səfərbər edilib. "Bütün bu işləri biz özümüz görürük, öz vəsaitimiz hesabına, büdcəmiz hesabına, heç kimdən yardım istəmədən, heç bir kredit almadan. Bunu Azərbaycan vətəndaşları edir. Əlbəttə ki, müxtəlif xarici şirkətlər artıq bu işlərdə fəal iştirak edirlər. Bu şirkətlərin sayı artmaqdadır. Mən çox şadam ki, həm yerli şirkətlər, həm xarici şirkətlər azad edilmiş torpaqlarda işləməyə can atırlar, maraq göstərirlər və biz bunu alqışlayırıq ", - deyə Prezident İlham Əliyev vurğulayıb.

**AZƏRTAC**
**2022, 14 fevral**

**Prezident İlham Əliyev: Ağdam Sənaye Parkında ilk müəssisələrin təməlinin qoyulması çox önəmli hadisədir**

Ağdam rayonunun bərpası ilə bağlı kompleks tədbirlərin görülməsi bizə imkan verəcək ki, qısa müddət ərzində Ağdamı yenidən quraq, yaradaq. Bu gün Ağdamın gələcək inkişafı ilə bağlı çox önəmli addımlar atılıb, bir neçə təməlqoyma mərasimi keçirilib. Hesab edirəm ki, qısa müddət ərzində görülmüş işlər yaxın gələcəkdə konkret nəticələrə gətirib çıxaracaq.

AZƏRTAC xəbər verir ki, bu fikirləri Prezident İlham Əliyev Ağdam rayonuna səfəri zamanı çıxışında söyləyib.

"Bu gün Ağdam şəhərində sənaye parkının ilk rezidentləri tərəfindən yaxın gələcəkdə istifadəyə veriləcək yeni müəssisələrin təməl daşı qoyuldu. Sənaye parkının təməl daşını mən keçən dəfə Ağdamda qoymuşdum, Müstəqillik Günündə qoymuşdum. Bu gün isə artıq ilk müəssisələrin təməli qoyuldu. Artıq 5 rezident vardır və onlar işə başlayırlar. Beləliklə, 190 hektar ərazidə qurulacaq Ağdam Sənaye Parkının ilk müəssisələri artıq bu sahədə ilk addımlarını atır. Bu, çox önəmli hadisədir. Ona görə ki, Ağdam şəhərinin gələcək inkişafı ilə bağlı planlarımızda, ilk növbədə, yaşayış binalarının inşası və iş yerlərinin açılması var. Çünki burada yaşayacaq ağdamlılar işlə təmin olunmalıdırlar. İş yerlərinin yaradılması ilə bağlı əlavə addımlar da atılacaq", - deyə dövlətimizin başçısı qeyd edib.

Prezident əmin olduğunu bildirib ki, yaxın gələcəkdə Ağdam Sənaye Parkında onlarla müəssisə işə başlayacaq.

**AZƏRTAC**
**2022, 14 fevral**

**Aqiyə Naxçıvanlı: Prezident İlham Əliyevin Ağdama növbəti səfəri bu bölgənin inkişafında prioritet istiqamətləri müəyyənləşdirdi**

Ağdam sürətlə yenidən qurulur və artıq çox az müddətdən sonra bir zamanlar erməni işğalı səbəbindən öz tarixi torpaqlarından, dədə-baba yurdlarından didərgin düşmüş vətəndaşlarımız bu torpaqlara daimi yaşamaq üçün geri dönəcəklər. Bu gün Ağdam rayonunun bərpası ilə bağlı həyata keçirilən kompleks tədbirlərin miqyası və əhatəliliyi bunu deməyə əsas verir. Prezident İlham Əliyevin birbaşa göstərişləri əsasında artıq Ağdamın gələcək inkişafı ilə bağlı bir çox önəmli addımlar atılıb və bu istiqamətdə işlər davam etdirilir. Fevral ayının 13-də Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın Ağdam rayonuna növbəti səfərləri də bu proseslərin dövlətin xüsusi diqqətində saxlandığını bir daha təsdiq edir.

AZƏRTAC xəbər verir ki, bu sözləri Azərbaycan Respublikası Milli Məclisinin deputatı, professor Aqiyə Naxçıvanlı deyib.

Deputat qeyd edib ki, Ağdama səfəri çərçivəsində Prezident İlham Əliyevin açılışını etdiyi müəssisələr və təməlini qoyduğu obyektlər rayonun məruz qaldığı erməni vandalizminin nəticələrinin tezliklə tamamilə aradan qaldırılmasına və bu torpaqların yenidən dirçəlməsinə misilsiz töhfələr verəcək. “Dövlətimizin başçısı bölgələrə etdiyi bütün digər səfərləri kimi, Ağdama səfəri də bir çox önəmli açılışlar və təməlqoyma mərasimləri ilə əlamətdar oldu. İlk növbədə, səfər çərçivəsində dövlətimizin başçısı Ağdam şəhərində sənaye parkının iki yeni müəssisəsinin təməlini qoydu. Həmçinin işğaldan azad olunmuş ərazilərdə, o cümlədən Ağdamda infrastruktur layihələri sürətlə icra olunur. Belə ki, artıq azad edilmiş torpaqlarda yarımstansiyaların sayı 9-a çatıb. Prezident İlham Əliyevin açılışını etdiyi “Ağdam-1” və “Ağdam-2” yarımstansiyalarının fəaliyyəti nəticəsində bütün rayon elektrik enerjisi ilə dayanıqlı şəkildə təmin ediləcək. Bundan başqa, səfər çərçivəsində dövlətimizin başçısı Ağdamda “Park Forest Otel Ağdam” mehmanxanasının təməlini qoydu. Məlumdur ki, son illər Azərbaycanda turizmin inkişafı istiqamətində böyük işlər görülüb. Lakin ölkəmizin ən böyük turizm potensialına malik Qarabağ bölgəsi işğal altında olduğundan bu proseslərdən kənarda qalmışdı. Bu gün isə Müzəffər Ali Baş Komandanın qətiyyəti və Şanlı Ordumuzun rəşadəti sayəsində artıq işğaldan azad edilmiş bu torpaqlarda bir çox digər sahələr kimi, turizmin inkişaf etdirilməsi üçün də məqsədyönlü addımlar atılır. O cümlədən Ağdam rayonunda ən müasir standartlara cavab verən mehmanxananın inşası sürətlə dirçəldilən tarixi ərazilərimizin turizm potensialının inkişafına mühüm töhfə verəcək. Bu, həm də işğaldan azad edilən ərazilərimizdə, o cümlədən Ağdam rayonunda sosial layihələrin davamlı şəkildə həyata keçirilməsinin növbəti göstəricisidir. Əlbəttə ki, xüsusi əhəmiyyət kəsb edən daha bir əlamətdar hadisə dövlətimizin başçısı tərəfindən yaşayış kompleksinin təməl daşının qoyulmasıdır. Ümumi sahəsi 1,55 hektar olan ərazidə ilkin mərhələdə 209 mənzildən ibarət 6 yaşayış binası inşa ediləcək. Mənzillərin ümumi yaşayış sahəsi 21 min 921 kvadratmetr olacaq. Kompleksin tikintisinin 2023-cü ilin dekabrında başa çatdırılması nəzərdə tutulub. Bir məqamı da xüsusi olaraq qeyd etmək lazımdır. Vətən müharibəsində əldə olunmuş tarixi Qələbənin müjdəsini Azərbaycan xalqına çatdırarkən Prezident, Ali Baş Komandan İlham Əliyev demişdi: “Məcburi köçkünlər yaxşı bilirlər ki, onların öz dədə-baba torpaqlarına qayıtması üçün biz əlimizdən gələni edəcəyik, işğaldan azad edilmiş bu torpaqları yenidən quracağıq”. Bu gün dövlətimizin başçısının dediyi bu sözlər Ağdam rayonunda yeni yaşayış kompleksinin təməlinin qoyulması ilə bir daha öz təsdiqini tapır”, - deyə deputat bildirib.

Sonda Prezident İlham Əliyevin çıxışında erməni faşizmini qızışdıranlara ünvanlanan növbəti xəbərdarlıq mesajının da yer aldığını vurğulayan Aqiyə Naxçıvanlı vurğulayıb: “Dövlətimizin başçısı çıxışında bir daha bildirdi ki, Ermənistanla Azərbaycan arasında sülh müqaviləsi olmalıdır. Bu sülh müqaviləsi beynəlxalq hüququn norma və prinsipləri əsasında ölkələrin ərazi bütövlüyünü qarşılıqlı surətdə tanımaq şərti ilə imzalanmalıdır. Bununla belə, Azərbaycan xalqı ermənilər tərəfindən törədilmiş vəhşiliyi heç vaxt unutmamalıdır. Bu gün regionda qeyri-sabitlik yaratmağa meyilli olan qüvvələr hələ də Cənubi Qafqazda gedən mütərəqqi prosesləri əngəlləməyə çalışırlar. Bu, ilk növbədə, Ermənistanda mövcud olan və xalqı qeyri-real revanşist ideyalarla yenidən və bu dəfə artıq daha dərin uçuruma doğru aparmağa çalışan qüvvələrə aiddir. Məhz bu qüvvələrin təsiri altında rəsmi İrəvan hələ də üçtərəfli Bəyanatın müddəalarına uyğun olaraq üzərinə götürdüyü öhdəliklərin icrasını həyata keçirməkdə lazımi fəallığı nümayiş etdirmir. Lakin bu qüvvələr də bilməlidirlər ki, Azərbaycan bölgəmizdə erməni faşizminin yenidən baş qaldırmasına heç vaxt imkan verməyəcək. Bunu hər kəs bilməlidir və Azərbaycanın görə biləcəyi əks-tədbirlərin Ermənistana çox baha başa gələ biləcəyini də hər kəs dərk etməlidir. Bu gün Prezident İlham Əliyev

tərəfindən görülən işlər, o cümlədən ordu quruculuğu sahəsində atılan addımlar Azərbaycanı daha da gücləndirəcək və Ermənistanda baş qaldıran revanşist qüvvələr bunu hər zaman xatırlamalıdırlar”.

**AZƏRTAC**
**2022, 15 fevral**

**Deputat: Ağdamın bərpası ilə bağlı görülən kompleks tədbirlər onun tezliklə regionun ən gözəl şəhərlərindən birinə çevriləcəyini deməyə əsas verir**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin fevralın 13-də Ağdam rayonuna səfəri zamanı bir sıra obyektlərin təməlinin qoyulması, bəzilərinin açılışlarının edilməsi Ağdam rayonunun bərpası ilə bağlı kompleks tədbirlərin görülməsinin əyani təzahürüdür. Rayonda aparılan bərpa və quruculuq işləri Ağdamın tezliklə nəinki Azərbaycanın, həmçinin regionun ən gözəl və müasir şəhərlərindən birinə çevriləcəyini deməyə əsas verir. Əminik ki, qısa müddət ərzində görülmüş mühüm işlər yaxın gələcəkdə konkret nəticələrə gətirib çıxaracaq.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı Ağalar Vəliyev söyləyib.

Deputat bildirib ki, Ağdamdakı sənaye parkının ilk rezidentləri tərəfindən yaxın gələcəkdə istifadəyə veriləcək yeni müəssisələrin təməl daşının qoyulması, artıq 5 rezident işə başlaması işğaldan azad edilmiş rayonlarda, ilk növbədə, iş yerlərinin yaradılmasına göstərilən diqqətdən xəbər verir. Bu onu göstərir ki, işğaldan azad edilmiş rayonlara qayıdacaq sakinlərin iş yerləri ilə təmin olunması, onların sosial rifah halının yaxşılaşdırılması dövlətimizin qarşısında duran başlıca vəzifədir.

Dövlətimizin başçısı Ağdam Cümə məscidinin qarşısında çıxışı zamanı azərbaycanın iş adamlarını Ağdama və azad edilmiş digər ərazilərə sərmayə qoymağa, orada müasir layihələri reallaşdırmağa çağırdı. Bildirdi ki, bu gün Azərbaycanda biznes üçün, sahibkarlar üçün çox gözəl şərait yaradılıb. Dövlət sahibkarları dəstəkləyir, onlara mənəvi-siyasi dəstək, eyni zamanda, güzəştli kreditlər verilir. Bu, ölkəmizdə biznesin inkişafına göstərilən dəstəyin daha bir nümunəsidir, həmçinin sərmayədarları işğaldan azad edilmiş ərazilərə investisiya yatırmağa həvəsləndirəcək. Beləliklə, həyata keçiriləcək layihələr nəticəsində həmin torpaqlarda əhalinin iş yerləri ilə təminatında heç bir problem yaranmayacaq.

A.Vəliyev diqqətə çatdırıb ki, işğaldan azad olunmuş ərazilərdə infrastruktur layihələri sürətlə icra olunur. Orada istismara verilən yarımstansiyaların sayı 9-a çatıb. “Ağdam-1” və “Ağdam-2” yarımstansiyalarının fəaliyyəti nəticəsində bütün rayon elektrik enerjisi ilə dayanıqlı şəkildə təmin ediləcək. Həmçinin qeyd olunub ki, Ağdamda müasir mehmanxana təqribən 2 ildən sonra fəaliyyətə başlayacaq. Bu isə şəhərə gələnlərin sayının artmasına, rayonun turizm potensialının artmasına şərait yaradacaq.

Deputat deyib ki, Ağdamda yaşayış kompleksinin təməl daşının qoyulması da əlamətdar hadisədir. Ağdam Mərkəzi Şəhər Xəstəxanasının inşası ağdamlılara tibbi xidmətin göstərilməsi üçün imkanlar yaradacaq. Eyni zamanda, 1 nömrəli məktəb inşa olunur. Bu təhsil ocağında təqribən minə yaxın şagird oxuyacaq. Ağdama qaz xətlərinin çəkilişi layihəsi işlənilir. İçməli suyun gətirilməsi, o cümlədən Xaçınçay su anbarının təmiri layihəsi İnvestisiya Proqramında öz əksini tapıb. Bütün bunlar Azərbaycan dövlətinin işğaldan azad olunmuş ərazilərə həyatın qaytarılmasına, keçmiş məcburi köçkünlərin öz doğma torpaqlarına köçürülməsinə və onlar üçün layiqli həyat şəraitinin yaradılmasına nə qədər böyük önəm verdiyini nümayiş etdirir.

“Ağdamın yol-nəqliyyat infrastrukturu tamamilə yenidən qurulur. Bərdə-Ağdam avtomobil yolu, dəmir yolu inşa edilir. Füzuli-Ağdam avtomobil yolunun çəkilişi layihəsi artıq icra olunmağa başlayıb. Bu yol həm Füzuli və Ağdam şəhərlərini, eyni zamanda, Ağdamı Füzuli Beynəlxalq Hava Limanı ilə birləşdirəcək. Beləliklə, başqa ölkələrdən Ağdama gəlmək daha asan olacaq”, - deyən deputat vurğulayıb ki, bütün bu işlər Azərbaycanın daxili vəsaiti hesabına reallaşdırılır. İcra olunan layihələr onu göstərir ki, Azərbaycan öz şəhərlərini yenidən qurmaq üçün bütün maliyyə və texniki imkanlara, habelə kadr potensialına malikdir. Müxtəlif xarici şirkətlərin bu işlərdə fəal iştirakı isə ölkəmizə olan marağın, inamın təzahürüdür.

“Dövlətimizin başçısının Ağdama səfəri zamanı Cümə məscidində Heydər Əliyev Fondu tərəfindən aparılan bərpa-restavrasiya işləri ilə tanış olması Azərbaycanda dini-mədəni və tarixi irsə göstərilən qayğının daha bir nümunəsidir. Azad olunmuş torpaqlarda bütün tarixi və dini abidələr bərpa olunacaq. Hazırda 8 məscidin əsaslı təmiri, bərpası və tikintisi nəzərdə tutulub. Tarixi və dini abidələrin bərpası işləri Heydər Əliyev Fondunun imkanları hesabına görülür. İşğaldan azad olunmuş ərazilərdə görülən işlər Heydər Əliyev Fondunun Azərbaycanın milli-mənəvi dəyərlərinin qorunmasına növbəti töhfəsidir”, - deyə A.Vəliyev qeyd edib.

**AZƏRTAC**
**2022, 15 fevral**

## Misir KİV-i Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın Ağdama səfəri barədə xəbər yayımlayıb

Misirin "Asia Əl Yom" agentliyinin saytında və "Əl Masriyə" portalında Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın Ağdamda Qarabağ xanlarının türbələri və yaşayış evi - İmarət kompleksində olmaları barədə xəbər yayımlanıb.

AZƏRTAC-a istinadla hazırlanan xəbərdə qeyd olunub ki, dövlətimizin başçısına və xanımına kompleksdə görülməsi nəzərdə tutulan tədbirlər barədə məlumat verilib. Misirli oxucuların diqqətinə çatdırılıb ki, XVIII əsrə aid və iki binadan ibarət olan bu tarix-memarlıq abidəsi xan nəslinin ilk mülklərindəndir. Saray Azərbaycan ərazisində yayılmış digər xan saraylarından fərqlənərək dəbdəbəli yaşayış evi xüsusiyyəti daşıyıb. Buna görə də, Pənahəli xanın imarəti də adlandırılıb.

Xəbərdə vurğulanıb ki, işğal edilən ərazilərdəki digər tarixi-mədəni, dini abidələr kimi Pənahəli xanın imarəti də ermənilər tərəfindən təhqir edilib, vandalizmə məruz qalıb, buradan tövlə kimi istifadə olunub.

Materialda diqqətə çatdırılıb ki, Qarabağ xanları Pənahəli xanın, İbrahimxəlil xanın və Mehdiqulu xan Cavanşirin, eləcə də onların ailə üzvlərinin - Xan qızı, şairə və xeyriyyəçi Xurşidbanu Natəvanın, şair və ictimai xadim Cəfərqulu xan Cavanşirin, xeyriyyəçi, Şuşada Aşağı və Yuxarı Gövhərağa məscidlərini tikdirmiş Gövhərnisə bəyimin, şairə, "Məclisi-üns"ün iştirakçılarından olmuş Xanbikə xanımın qəbirləri burada yerləşir. Xan sarayının yaxınlığında yerləşən və Qarabağ xan nəslinin bir çox nümayəndələrinin dəfn edildiyi İmarət qəbiristanlığı da erməni vəhşiliyinə məruz qalıb.

**Oqtay Bayramov**
**AZƏRTAC-ın xüsusi müxbiri, Qahirə**

**AZƏRTAC**
**2022, 15 fevral**

**Ağdam Sənaye Parkında iki müəssisənin təməlinin qoyulması gələcək iş yerlərinin yaradılması baxımından əhəmiyyətli hadisədir**

Ağdam rayonunda həyata keçirilən quruculuq və bərpa işləri Prezident İlham Əliyevin böyük qayıdışla bağlı xalqımızın 30 illik arzularının gerçəkləşdirilməsinin göstəricisidir. İşğaldan azad edilmiş bütün ərazilərimizdə ilk növbədə kommunikasiyaların bərpası və yenidən qurulması layihələri həyata keçirildi ki, bu, birinci mərhələnin ən vacib komponentlərindən biri idi. Yol və nəqliyyat layihələrinin icrası istər ərazilərimizin minalarla çirkləndirilmiş olması baxımından, istərsə də köhnə infrastrukturun tamamilə dağıdılması səbəbi ilə ən çətin vəzifələrdən biridir. Qısa müddətdə demək olar ki, azad edilmiş ərazilərin böyük bir hissəsində bu işlər çox sürətlə həyata keçirildi. İkinci mərhələ isə enerji layihələrinin icra olunması idi. Bu da özlüyündə mürəkkəb və yenə də təhlükəsizlik məsələləri baxımından olduqca çox diqqət və zaman tələb edən məsələdir. Ancaq Azərbaycan qısa müddətdə bu çətinliklərin öhdəsindən gəlməyi bacardı. Hazırda işğaldan azad edilmiş ərazilərimiz, hər iki iqtisadi rayon, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları üzrə elektrik enerjisi təminatı layihələri təkcə bugünkü deyil, eyni zamanda, perspektiv tələbatı da nəzərə almaqla elə icra edilib ki, onlar elektrik enerjisi ilə təchizatın uzunmüddətli təminatçısı olacaq.

Bu sözləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı Hikmət Babaoğlu deyib.

O bildirib ki, təkcə son Ağdam səfəri zamanı Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva 110/35/10 kilovoltluq “Ağdam-1” və “Ağdam-2” elektrik yarımstansiyalarının, “Qarabağ” Regional Elektrik Şəbəkəsinin Rəqəmsal İdarəetmə Mərkəzinin, Ağcabədi rayonunda isə “Ağcabədi” yarımstansiyasının açılışlarında iştirak etdilər. Bu yarımstansiyalar, eyni zamanda, ölkəmizin ümumi enerji şəbəkələrinə inteqrasiya edilməklə etibarlı təchizat üçün mühüm təminatçı olacaqlar. Beləliklə, yol və enerji kommunikasiyalarının ən yüksək səviyyədə qurulması Qarabağ iqtisadi rayonunun inkişafı üçün mühüm rol oynayacaq. Şübhəsiz ki, yalnız bundan sonra azad edilmiş ərazilərimizdə sənaye kompleksləri və digər iş yerlərinin yaradılmasından danışmaq mümkündür ki, artıq bu istiqamətdə də paralel olaraq ardıcıl və sistemli addımlar atılmaqdadır. Ağdam səfəri zamanı Ağdam Sənaye Parkında iki müəssisənin təməlinin qoyulması gələcək iş yerlərinin yaradılması baxımından mühüm əhəmiyyətli hadisə oldu. Çünki məskunlaşma və böyük qayıdış özlüyündə iş yerlərinin açılması və sosial təminatın əvvəlcədən yaradılmasını tələb edir ki, bu da qayıdış və məskunlaşma problemlərinin həllinə kompleks yanaşmanı şərtləndirir.

“Azərbaycan Prezidenti və Birinci vitse-prezidentin Ağdama səfəri zamanı Rayon Mərkəzi Xəstəxanasının təməlinin qoyulması, işğaldan azad olunmuş ərazilərdə səhiyyə infrastrukturunun yaradılması, hazırkı dövrə qədər ölkəmizdə müasir səhiyyə infrastrukturunun qurulması işlərinin tərkib hissəsi kimi işğaldan azad olunmuş ərazilərimizdə də səhiyyə xidmətlərini əlçatan edəcək. Bu da öz doğma yurdlarında yenidən məskunlaşan vətəndaşlarımız üçün zəruri sosial və tibbi xidmətin təminatı olacaq. Ən mühüm məsələlərdən biri isə 30 il işğal altında qalmaqla erməni vandalları tərifindən dağıdılan və təhqir edilən mədəni irsimizin bərpası məsələsidir. Bu istiqamətdə Heydər Əliyev Fondu tərəfindən Ağdam Cümə məscidində görülən bərpa-restavrasiya işləri mühüm əhəmiyyət kəsb edir. Ağdam Cümə məscidi xalqımızın yüzilliklər boyu dini-mənəvi həyatında mühüm rol oynamış, mənəvi kontekstə olduqca qiymətli abidələrimizdən biridir. Onun bərpa edilməsi, eyni zamanda, mənəvi dirçəlişimiz və bütövlüyümüznün simvollarından birinin bərpası kimi əhəmiyyətlidir. Ona görə də işğaldan azad olunmuş ərazilərimizdə mədəni və dini abidələrin bərpasında Heydər Əliyev Fondunun rolu olduqca böyükdür və xalqımız tərəfindən çox yüksək qiymətləndirilir. Səfər çərçivəsində Ağdamda yeni yaşayış kompleksinin təməlinin qoyulması isə qısa müddətdə doğma yurd yerlərimizə qayıdacağımızın müjdəsi oldu”, - deyə Milli Məclisin deputatı qeyd edib.

**AZƏRTAC**
**2022 16 fevral**

**Milli Məclis sədrinin müavini Adil Əliyev: Ağdam Qarabağ və Şərqi Zəngəzur əsas sənaye mərkəzi olacaq**

Prezident İlham Əliyev 2022-ci ildə işğaldan azad edilmiş ərazilərimizə növbəti səfərini fevralın 13-də Ağdama etdi. Səfər zamanı Ağdamın ölkəyə reinteqrasiyası və rayon sakinlərinin – keçmiş məcburi köçkünlərin qayıtması üçün zəruri şəraitin yaradılmasına xidmət edən əsas infrastruktur və digər obyektlərin təməlqoyma və açılış mərasimlərində iştirak etdi. Əlbəttə ki, həmin məqsədə nail olmaq üçün enerji və yol-nəqliyyat infrastrukturunun qurulması fundamental şərtdir.

AZƏRTAC xəbər verir ki, bunu Milli Məclis sədrinin müavini Adil Əliyev söyləyib.

Səfər çərçivəsində Prezident İlham Əliyevin Qarabağ Regional Rəqəmsal İdarəetmə Mərkəzinin açılışını etdiyini diqqətə çatdıran Adil Əliyev deyib: “Bu mərkəz vasitəsilə Qarabağ və Şərqi Zəngəzurun bütün elektrik stansiyaları, yarımstansiyalar, ötürmə xətlərinin monitorinqi, önləyici analizlər, açılıb-qoşulmalar, tənzimlənmələr və başqa əməliyyatlar avtomatik şəkildə həyata keçirilir. Prezident İlham Əliyev yeni inşa edilmiş “Ağdam-1” və “Ağdam-2” yarımstansiyalarını da işə saldı. Həmin yarımstansiyalar Ağdam rayonunu elektrik enerjisi ilə tam təmin etməyə imkan verəcək. Qarabağ Regional Rəqəmsal İdarəetmə Mərkəzinin binası, digər texniki qurğu və tikililərdən əlavə mərkəzin ətrafında 2.5 hektarlıq yaşıllıq zolağı, meyvə bağı salınıb və suvarma sistemi yaradılıb. İnzibati binalar və texniki tikililərlə yanaşı, yaşıllıqların salınması Ağdamın dirçəlişinin ilkin cücərtiləridir”.

Milli Məclis sədrinin müavini qeyd edib ki, dirçəliş və yenidənqurma üçün yol-nəqliyyat infrastrukturunun yaradılması prioritet istiqamətdir. Hazırda Ağdama dəmiryolu xətti çəkilir, avtomobil yolları inşa edilir. Eləcə də, Ağdamı Fizuli aeroportu ilə birləşdirən avtomobil yolu tikilir. Yəni Ağdama gediş-gəliş qatarla, avtomobillə və Fizuli aeroportu vasitəsilə demək olar ki, təyyarə ilə mümkün olacaq.

Prezidentin səfəri zamanı bir sıra sosial obyektlərin, o cümlədən 210 çarpayılıq Ağdam Mərkəzi Şəhər Xəstəxanasının təməli qoyuldu. Hazırda minə yaxın şagirdin təhsil ala biləcəyi 1 nömrəli orta məktəbin inşası davam edir. Prezident İlham Əliyev 209 mənzillik yaşayış kompleksinin təməlini qoydu. Həmin sosial obyektlərin inşası, xüsusən də yaşayış kompleksinin təməlinin qoyulması olduqca əlamətdar və strateji xarakter daşıyır. Çünki həmin mənzillər Ağdam sakinlərinin tezliklə doğma yurdlarına qayıdacağından xəbər verir.

“Keçmiş məcburi köçkünlərin Ağdama qayıtması və orada yenidən məskunlaşması üçün iş yerlərinin olması vacibdir. Bu məsələ də dövlətimizin diqqət mərkəzindədir. Birincisi, qeyd edilməlidir ki, adıçəkilən obyektlərin inşası, infrastruktur və sosial obyektlərin yaradılması, öz-özlüyündə müəyyən iş yerlərinin açılması deməkdir. İkincisi və daha önəmlisi isə Ağdamın aparıcı sənaye şəhərinə çevrilməsi məqsədidir. Artıq Ağdam Sənaye Parkı yaradılıb və Prezidentin səfəri zaman parkda qurulacaq ilk müəssisələrin təməl daşı qoyuldu. Bundan əlavə, “Park Forest Otel Ağdam” mehmanxanasının təməli də qoyuldu. Belə bir otelin inşası Ağdamda işgüzar turizmin inkişafı üçün dəyərli töhfə olacaq.

Ağdamda tarixi və mədəni-mənəvi abidələrimizin bərpasına xüsusi diqqət yetirilir. Hazırda Ağdam Cümə məscidində bərpa işləri gedir. Qarabağ xanlarının türbələri və yaşayış evindən ibarət İmarət kompleksində də bərpa işlərinin görülməsi nəzərdə tutulur. Sosial obyektlər, yaşayış kompleksləri, iş yerləri insanları maddi və məişət şəraiti baxımdan əraziyə kökləyirsə, tarixi, dini və mədəni abidələr onları mənəvi baxımdan bağlayır. Eləcə də Cümə məscidi, İmarət kompleksi kimi tarixi, mədəni və dini abidələrimiz Ağdamla keçmiş məcburi köşkün olan sakinlər arasında mənəvi bağlantı rolunda çıxış edir. Bu, xüsusilə gənc nəslin vətənpərvərlik ruhunda tərbiyəsi üçün mühümdür. Otuz ilə yaxın işğal dövründə Azərbaycanda nəsil dəyişikliyi baş vermiş və yeni nəsil yetişmişdir. Yaşlı nəsil üçün həmin abidələrin tariximizin və mədəniyyətimizin bir parçası olması bəlli faktdır. Gənc nəsil üçün isə Vətən müharibəsinədək işğal altında qalmış tarixi və mədəni abidlərimiz müəyyən mənada yeni bir səhifədir və onların gənc nəsillə də işğaldan azad edilmiş ərazilərimiz arasında mənəvi bağlantı rolunu oynaması mühümdür. Həmin abidələrin bərpa olunmasına Heydər Əliyev Fondu böyük töhfə verir. Mahiyyət etibarilə Heydər Əliyev Fondunun verdiyi bu töhfələr gənc nəsillə işğaldan azad edilmiş torpaqlarımız, o cümlədən Ağdam arasında mənəvi bağların qorunması amalına xidmətdir.

Beləliklə, Ağdamın reinteqrasiyası və yenidən öz doğma sakinləri ilə məskunlaşması istiqamətində iqtisadi, sosial, infrastruktur və mədəni-mənəvi sahələri əhatə edən hərtərəfli, mütəşəkkil fəaliyyət aparılır. Dövlət tərəfindən belə əlverişli şəraitin yaradılmasının məntiqi davamı kimi iş adamlarının Prezident İlham Əliyevin çağırışına cavab olaraq Ağdama sərmayələr yatırması və müəssisələr açması onun Qarabağın və Şərqi Zəngəzurun əsas sənaye mərkəzinə çevrilməsində mühüm rol oynayacaq.

**AZƏRTAC**
**2022, 17 fevral**

**Kazuyasu İşida: "Azərbaycanın çox böyük potensialı və parlaq gələcəyi var"**

Yaponiyanın "Cross Border Club 3.0" adlı yutub kanalının rəhbəri Kazuyasu İşida digər xarici ölkələrin jurnalistləri ilə birlikdə Qarabağa səfər edib. Yaponiyalı yutuber Ağdam şəhəri haqqında təəssüratlarını öz izləyiciləri ilə bölüşüb.

AZƏRTAC xəbər verir ki, Ağdamda gördüklərini Yaponiyanın atom bombası atılmış Hirosima şəhəri ilə müqayisə edən K.İşida erməni işğalından sonra şəhərdə bir dənə də olsun salamat tikilinin qalmadığını xüsusi qeyd edib: "Bu gün Bakıdan xeyli uzaq məsafədə olan Ağdam şəhərinə gəlmişik. Bu şəhər Birinci Qarabağ müharibəsində ən çox zərər görən şəhər kimi tanınır. Şəhər işğal edilməmişdən əvvəl burada təxminən 20 minə yaxın azərbaycanlı yaşayırmış. Müharibə vaxtı bu şəhəri kifayət qədər atəşə tutan ermənilər işğaldan sonra buranı tamamilə dağıdıblar".

Ağdamın kifayət qədər böyük ərazini əhatə etdiyini qeyd edən yutuber buranın turizm üçün əlverişli məkan olduğunu qeyd edib: "Buradan baxanda hündür Qafqaz dağlarını görmək mümkündür. Bakıdan uzaq olsa da, hava limanı inşa edildikdən və magistral yolların salınmasından sonra Ağdam şəhərinə turistlərin gəlməsi üçün əlverişli imkan yaranacaq".

K.İşida ermənilərin ərazidəki dini və tarixi abidələrə böyük zərər vurduğunu xüsusi ilə vurğulayıb: "Bu gördüyünüz yerli əhlinin istifadə etdiyi məsciddir. İndiki vəziyyətinə baxdıqda heç məscid olduğu bilinmir. Bu dərəcədə məhv edilib".

Səfər çərçivəsində Şuşada da olduğunu qeyd edən yaponiyalı yutuber Ağdamın həmin şəhərə nisbətən daha çox ziyan çəkdiyini bildirib: "Bura Şuşadan da çox pis vəziyyətə salınıb. Yerlə-yeksan edilib desək, daha doğru olar. Bütün şəhəri əhatə edən dağıntıların aradan qaldırılması üçün xeyli zaman lazımdır. Minaların da ən çox olduğu yer bura sayılır. Minaların təmizlənməsindən sonra torpaqda qalan boşluqlar aydın görünür".

Azərbaycan dövlətinin bu istiqamətdə böyük işlər gördüyünü diqqətə çatdıran K.İşida bərpa və quruculuq işlərinin aparılması üçün kifayət qədər maddi vəsait ayrıldığını qeyd edib. O, yenidənqurma işlərinin sürətlə aparıldığını vurğulayıb: "Azərbaycan hökumətinin bu ərazilərdə apardığı irimiqyaslı bərpa-quruculuq işləri gələcəyə böyük inamla baxmağa əsas verir. Biz Füzuli Beynəlxalq Hava Limanında olarkən buna bir daha əmin olduq. Mən deyərdim ki, qısa müddətdə inşa edilmiş bu obyekti Qarabağın dirçəliş rəmzi kimi də adlandırmaq olar. Şuşada görkəmli şəxsiyyətlərin ev-muzeyləri, tarixi abidələr, Cıdır düzü məndə böyük təəssürat yaratdı".

Azərbaycana, Qarabağa səfərinin onda fərqli hisslər oyatdığını bildirən yutuber həqiqətlərin yaponlara çatdırılması üçün çalışacağını da bildirib: "Azərbaycanın çox böyük potensialı və parlaq gələcəyi var. Azərbaycanda gördüklərim barədə rəhbərlik etdiyim yutub kanalında və digər yerli kütləvi-informasiya vasitələrində çıxış edərək bu ölkə barədə yeni verilişlər hazırlayacağam".

Qeyd edək ki, Kazuyasu İşidanın rəhbərlik etdiyi "Cross Border Club 3.0" kanalının 75 mindən çox abunəçisi, 500 minə yaxın izləyicisi var.

**Vüqar Ağayev**
**AZƏRTAC-ın xüsusi müxbiri, Tokio**

**AZƏRTAC**
**2022, 3 mart**

**Hikmət Hacıyev: İşğaldan azad edilmiş Ağdam, Füzuli və Cəbrayıl rayonlarında səhra missiyası həyata keçirilib**

Aİ, BMT və Dünya Bankının birgə "Bərpa və sülh quruculuğunun qiymətləndirilməsi" komandası ilə səmərəli müzakirələr apardıq.

AZƏRTAC xəbər verir ki, bunu Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev tviter səhifəsində etdiyi paylaşımda bildirib.

Prezidentin köməkçisi qeyd edib ki, səhra missiyası işğaldan azad edilmiş Ağdam, Füzuli və Cəbrayıl rayonlarında həyata keçirilib. Azərbaycan Hökumətinin münaqişədən sonrakı yenidənqurma gündəliyinin səylərinə beynəlxalq ictimaiyyətin dəstəyi vacibdir.

**AZƏRTAC**
**2022, 16 mart**

**Niderlandın "oorlogsverhalen.com" portalında Ağdam reallıqlarını əks etdirən sənədli film yayımlanıb**

Niderland Krallığında fəaliyyət göstərən "Birlikdə güclüyük" Fondunun təşəbbüsü və təşkilatçılığı ilə lentə alınmış Ağdam rayonu ilə bağlı sənədli film müharibə hekayələrindən bəhs edən "oorlogsverhalen.com" portalında yayımlanıb.

AZƏRTAC xəbər verir ki, "Birlikdə güclüyük" və Niderlandın "Müharibə hekayələri" fondları Birinci və İkinci Qarabağ müharibələrində Azərbaycanın yaşadığı zillətləri əks etdirmək üçün Ağdam və digər rayonlarda erməni işğalının qurbanı olan insanlar, eləcə də işğalçılar tərəfindən törədilmiş vəhşilikləri beynəlxalq ictimaiyyətin diqqətinə çatdırmaq üçün birgə layihə həyata keçirirlər. Ağdam rayonu ilə bağlı sənədli film həmin layihənin bir hissəsidir. Layihənin əsas məqsədi müharibənin fəlakət və ağrılarını şahidlərin vasitəsi ilə təqdim etməkdir.

Sənədli filmdə Ağdamda anadan olmuş, bu gün Niderlandda yaşayan "Birlikdə güclüyük" Fondunun təsisçisi İlkanə Qocanın Qarabağ, Ağdam şəhərində müharibə zamanı yaşanılmış fəlakətlərlə bağlı xatirələri yer alıb. O, Birinci Qarabağ müharibəsində itkin düşmüş qardaşı Teymur Yusifovdan danışaraq, onun hələ də yaşadığına ümid etdiklərini bildirib. Ancaq qardaşının silahdaşları ona qardaşı Teymur Yusifovun həlak olduğunu xəbər verdikdə yaşadığı acılardan söz açıb. Ailəsinin bu ağır itkini necə yaşamasına dair xatirələrini bölüşüb.

Sənədli filmdə İlkanə Qocanın Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında rəşadətli Ordumuzun sayəsində azad edilmiş Ağdamdakı ata yurduna səfəri, doğma evlərinin qalıqlarını tapması da yer alıb. İ. Qoca ata yurduna səfər etməkdə, sənədli filmin çəkilişində ona yardımçı olmuş aidiyyəti orqan və insanlara təşəkkürünü bildirib. Bu gündə düşmənin basdırdığı minalardan hələ də tam təmizlənməmiş bu ərazilərə səfərin nə qədər çətin olmasından danışıb.

İlkanə Qoca tərəfindən Ağdamda toplanmış məlumatlar, çəkilmiş filmlər əsasında sənədli film və məqalə hazırlayaraq, portalında paylaşmış "Müharibə hekayələri" Fondu dünyanın müxtəlif yerlərində müharibədə olmuş niderlandlılar haqqında filmlər çəkib yayımlayaraq, geniş dinləyici auditoriyasını müharibə fəlakətlərinə dair məlumatlandırır. "Müharibə hekayələri" Fondunun hazırladığı məlumatlar bu Fondun əməkdaşlıq etdiyi bir neçə yerli televiziya kanalı vasitəsi ilə də yayımlanır.

"Müharibə hekayələri" Fondunun portalında Ağdam reallıqlarını əks etdirən sənədli filmlə bağlı məqalədə dərc olunub.

**Şəhla Ağalarova,**
**AZƏRTAC-ın xüsusi müxbiri, Rotterdam**

**AZƏRTAC**
**2022, 23 iyun**

## "Science Channel" telekanalında yayımlanan "Tərk edilmişlərin sirri" serialının növbəti buraxılışı Ağdam şəhərinə həsr olunub

Dünyanın nüfuzlu "Science Channel" telekanalında yayımlanan "Tərk edilmişlərin sirri" (Mysteries of the abandoned) elmi serialının növbəti buraxılışı Azərbaycanın Ağdam şəhərinə həsr olunub.

AZƏRTAC xəbər verir ki, reportajda son otuz ildə Ermənistan-Azərbaycan münaqişəsinin on minlərlə insanın həyatına son qoyduğu, müharibə zamanı və ondan sonra işğal dövründə şəhər və kəndlərin məhv edildiyi əksini tapır. Qeyd edilir ki, vaxtilə regionun mədəniyyət mərkəzi olan və bir vaxtlar minlərlə insanın yaşadığı Ağdam işğal dövründə yerlə-yeksan olunub və heç kimin yaşamadığı, tamamilə dağıdılmış "ruhlar şəhəri"nə çevrilib.

Reportajda viran qoyulmuş Ağdamdan görüntülər, o cümlədən işğal dövründə şəhərdə yeganə salamat qalmış bina – Ağdam Cümə məscidi, eləcə də Dram teatrının, Çörək muzeyinin və digər ictimai binaların dağıntıları nümayiş olunur. Həmçinin bu şəhər barədə tarixçi Dominik Selvudun fikirləri təqdim edilir: "İnanmaq çətindir ki, Ağdam bir vaxtlar normal həyat yaşayan insanların çiçəklənən, səs-küylü şəhəri olub. Yaşıl ağaclar arasında yüzlərlə bina görünür. Lakin onlar məhv edilib və həmin binaların yalnız qalıqları qalır. Məscid bu yerin irsini təqdim edir".

Jurnalist Cim Meyqs isə Ağdamın vaxtilə çox müasir şəhər olduğunu vurğulayır: "İstənilən qərbli küçələrdə gəzə, kafelərə baş çəkə və özünü evdəki kimi hiss edə bilərdi. Lakin bütün bunlar qısa müddətdə məhv oldu. Bura qorxunc yerdir, sanki qorxu filmlərindəki kadrlara bənzəyir. Yollar və küçələr kimsəsiz qalıb. Heç yerdə insan görünmür. Şəhərdə salamat qalmış yalnız bir bina var. İnsanlar digər bölgələrdəki münaqişələr haqqında eşitdikləri qədər bu münaqişə barədə eşitməyiblər".

Reportajda Ağdamdakı Çörək muzeyindən də bəhs olunur: "Başqa bir gözlənilməz tapıntı kimi bu dağıntının ortasında gözəl bir boyalı divar var. Bəlkə də bu, dağılmış şəhərin canlanmasından xəbər verir".

Azərbaycanlı jurnalist Emin İbrahimov Çörək muzeyinin divarındakı rəsmdə Azərbaycan mədəniyyətinin üç atributunun təsvir olunduğunu bildirir: "Qadın əlində Novruz bayramının rəmzlərindən olan məcməyi tutub. Aşığın əlində Azərbaycanın milli musiqi aləti olan saz var. Uşaqlı qadın isə kəlağayı adlanan örpək geyinib. Bunların üçü də UNESCO tərəfindən qorunur və bəşəriyyətin qeyri-maddi mədəni irsinin bir hissəsidir. Ağdam şəhərində salamat qalan yeganə bina 1870-ci illərdə tikilmiş köhnə məsciddir. Ermənilər, əslində, ondan müşahidə qülləsi, anbar və artilleriya atəşlərini istiqamətləndirmək üçün istifadə edirdilər".

Ermənistan-Azərbaycan münaqişəsinin tarixindən də söhbət açıldığı reportajda məlumat verilir ki, sovet dövründə Dağlıq Qarabağ Azərbaycanın tərkibində olub. Lakin həmin vaxt muxtar respublikada əhalinin əksər hissəsini təşkil edən ermənilər vilayətin Ermənistana birləşdirilməsi tələbi ilə çıxış etməyə başladılar. 1990-cı illərin əvvəllərində baş verən münaqişə nəticəsində Azərbaycan əraziləri həmin vaxt daha yaxşı silahlanmış Ermənistan ordusu tərəfindən işğal olundu. Minlərlə erməni silahlısı Ağdama girib şəhəri güllləbaran etdi.

"1993-cü ildə şəhərin 40 min əhalisi və bölgədəki yarım milyondan çox azərbaycanlı öz evlərini tərk etmək məcburiyyətində qaldı. 1994-cü ilə qədər Ermənistan Ağdam şəhəri də daxil olmaqla regionu zəbt etmişdi", - deyə kimya mühəndisi Caega Vays bildirir.

Məlumat verilir ki, 2020-ci ildə dünya koronavirusa qarşı mübarizə apardığı bir vaxtda bu bölgədə münaqişə yenidən alovlanmağa başladı. Müharibədə ən müasir hərbi texnika ilə silahlanan Azərbaycan Ordusu qələbə qazandı. Azərbaycan Ordusunun müasir dron texnologiyasından uğurla istifadə etməsi uğur əldə olunmasında mühüm rol oynadı.

C.Vays Qarabağ müharibəsinin dronların həlledici rol oynadığı ilk müharibə olduğunu qeyd edib.

Həmçinin reportajda bildirilir ki, müharibə nəticəsində 2020-ci ilin noyabrında Ağdam şəhəri işğaldan azad edildi. Lakin şəhər sakinləri üçün mübarizə hələ bitməyib. Silahlar susmuş ola bilər. Ancaq mülki insanlar üçün hələ də travmatik zamandır.

Xüsusi vurğulanır ki, Ağdamı təmsil edən "Qarabağ" futbol komandası yerlə-yeksan edilən şəhərin gələcəyinə olan ümidin carçısına çevrilib. Komandanın uğurları göstərir ki, bu şəhərin həyata yenidən qayıdacağı ümidləri yaşayır. Komandanın Ağdamda yenidən oynamaq şansı var. Çünki dövlət "ruhlar şəhəri"ni super şəhərə çevirmək planlarını bəyan edib. Ağdamın Baş planı 2021-ci ilin mayında təsdiqlənib. Plana əsasən, yenilənmiş şəhərin əhalisi 100 min nəfər olacaq.

**AZƏRTAC**

**2022, 1 iyul**

**İtaliya saytı ermənilərin işğal dövründə xarabalığa çevirdikləri Ağdam şəhərindən yazıb**

İtaliyanın "Il Giornale" qəzetinin "Insideover" analitik-informasiya portalında baş redaktor Matteo Karnielettonun Azərbaycanın işğaldan azad olunmuş ərazilərinə səfəri ilə bağlı təəssüratlarını qələmə aldığı məqalə dərc olunub.

AZƏRTAC xəbər verir ki, məqalədə işğaldan azad olunmuş ərazilərimizə, o cümlədən Gəncəyə və Ağdama səfəri ilə bağlı təəssüratlarını bölüşən italiyalı jurnalist bildirir: "Gəncədə dağılmış evləri sanki gözətçi kimi qoruyan uşaq burada müharibənin, dolayısı ilə ölümün həyatın ilk günlərindən sadiq yol yoldaşı olduğunu insana xatırladır. Şəhərin mərkəzində yerləşən memorial kompleksin içərisində tamamilə dağılmış üç ev var. Həmin evlər 2020-ci il müharibəsi zamanı oktyabrın əvvəlində Ermənistandan atılan "Toçka-U", "Smerç" və "Skad" raketləri ilə vurulub. Bu hücumların onlarla qurbanı olub. Onların arasında qadınlar və uşaqlar da var. Həlak olanların şəkilləri evlərinin qarşısında böyük lövhəyə vurulub. Sanki əbədi olaraq buraya nəzarət edəcəklər. Bu gün memorial kompleksə daxil olan hər kəs artıq orada olmayan, hər yerdə və istənilən vaxt hər kəsi vura biləcək müharibənin qəddarlığının rəmzi kimi həmin insanların rəsmlərdəki baxışları ilə qarşılaşır".

Ağdama səfəri zamanı şəhərin küçələrinin hər küncündə münaqişənin ağır yaralarını müşahidə etdiyini vurğulayan Matteo Karnieletto yazır: "Həlak olan əsgərlərin şəkilləri... Onların bəziləri çox gənc, 2001-ci il təvəllüdlüdür. Ağdamda – "Qafqazın Xirosiması"nda müharibə hər şeyi məhv edib. Hələ 1993-cü ilin iyulunda şəhərdə ağır döyüşlər olub. Döyüş əməliyyatları başa çatdıqdan sonra isə erməni qüvvələri heç kimin geri qayıtmaması üçün evləri yandırıb və ya partladıblar. Heç bir əsər-əlamət qalmasın deyə Azərbaycan əsilli sakinlər oradan qovulub. Şəhər təxminən otuz ildən - 2020-ci ildəki müharibədən sonra Azərbaycanın nəzarətinə keçib".

İtaliyalı jurnalist fikirlərini davam etdirərək bildirir: "Ağdam şəhərinə daxil olarkən bizi kabus kimi bir yer qarşılayır. Evlər dağıdılıb, onlardan heç əsər-əlamət də qalmayıb. Ərazidə minatəmizləmə əməliyyatları davam etdirilir. İndiyədək 7 mindən çox minanın zərərsizləşdirildiyi bildirilir. Şəhərə getmək üçün piyada yolları istisna olmaqla, dar cığırla hərəkət edirdik. Görünür ki, minatəmizləmə əməliyyatları uzun müddət çəkəcək. Çünki burada partlamamış hərbi sursatlar çoxdur".

Ermənistana qarşı müharibədə həlak olanların məzarlarına baş çəkdiyini deyən Matteo Karnieletto qeyd edir ki, şəhid olanların çoxu iyirmi yaşlarındadır. O bildirir ki, erməni işğalı zamanı onların məzarları qazılıb və meyitləri oğurlanıb. 2020-ci ildə Azərbaycan bu əraziləri işğaldan azad etdikdən sonra onların ailə üzvləri çoxunun məzarda olmayan cəsədləri axtarmaq üçün geri qayıdıblar. Məzarların üzərinə xatirə şəkli, bayraq və güllər qoyublar. Ərazidə insanların dəfn edildiyini göstərən çoxlu çuxurlar var.

Məqaləsində Ağdamda bərpa və yenidənqurma işlərinin aparıldığını vurğulayan italiyalı jurnalist qeyd edir: "Ağdamda yavaş-yavaş yeni tikililər peyda olur. Burada ən mühüm mədəni və dini obyektlər bərpa edilir. Minarələri uzun müddət ermənilər tərəfindən gözətçi qülləsi kimi istifadə edilən, onilliklər boyu tövlə kimi istifadə olunan məscid bunlardan biridir. O, 1868-1870-ci illər arasında tikilib və hazırda Heydər Əliyev Fondu tərəfindən təmir edilir. Ağdama həyatın bərpası cəhdlərinə baxmayaraq, görünən odur ki, normal vəziyyətə qayıtmaq hələ uzaqdadır".

**Nihad Budaqov**
**AZƏRTAC-ın xüsusi müxbiri, Roma**

**AZƏRTAC**
**2022, 15 sentyabr**

**Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağdam rayonuna səfər ediblər**
*(4 oktyabr 2022-ci il)*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 4-də Ağdam rayonuna səfər ediblər.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı yeni çəkilən Bərdə-Ağdam avtomobil yolunda aparılan işlərlə tanış olub. Sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağdam rayonunun Eyvazxanbəyli kəndində Atçılıq Nəsilartırma Mərkəzinin, Ağdam rayonunun Xıdırlı və Kəngərli kəndlərinin, şəhərin daxili yol və kommunikasiya şəbəkəsinin, City Hotel Agdam mehmanxanasının təməlqoyma mərasimlərində iştirak ediblər.

Dövlətimizin başçısı və birinci xanım Pənahəli Xanın Sarayı və İmarət Kompleksində görüləcək işlərlə tanış olub, Xurşidbanu Natəvanın abidəsinin açılışında, Ağdam şəhərində keçmiş məcburi köçkünlər üçün inşa olunacaq 470 mənzildən ibarət yaşayış məhəlləsinin, şəhərin dəmir yolu və avtovağzal kompleksinin, rayonun Sarıcalı kəndinin təməlqoyma mərasimlərində iştirak ediblər.

**AZƏRTAC**
**2022, 4 oktyabr**

**Prezident İlham Əliyev Bərdə-Ağdam avtomobil yolunda görülən işlərlə tanış olub**
*(4 oktyabr 2022-ci il)*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 4-də Bərdə-Ağdam avtomobil yolunda görülən işlərlə tanış olub.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov dövlətimizin başçısına yolun texniki göstəriciləri və görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, başlanğıcını Bərdə şəhərindən götürən bu avtomobil yolunun uzunluğu 44,5 kilometr, eni 26,5 metrdir. Birinci texniki dərəcəyə uyğun inşa olunan avtomobil yolu Qarabağın inkişaf planı nəzərə alınmaqla dörd hərəkət zolağından ibarətdir.

Məlumat verildi ki, yolboyu 4 körpünün, o cümlədən 3 yolüstü piyada keçidinin inşası nəzərdə tutulur. Həmçinin avtomobil yolunda 29 avtobus dayanacağı tikilir. Onlardan 14-nün inşası tamamlanıb.

Qeyd edildi ki, layihə üzrə torpaq işləri başa çatdırılıb, ümumi iş həcminin 75 faizi icra olunub.

**AZƏRTAC**
**2022, 4 oktyabr**

**Ağdamda Atçılıq Nəsilartırma Mərkəzinin təməli qoyulub**
**Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mərasimdə iştirak ediblər**
*(4 oktyabr 2022-ci il)*

Oktyabrın 4-də Ağdam rayonunun Eyvazxanbəyli kəndində Atçılıq Nəsilartırma Mərkəzinin təməlqoyma mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mərasimdə iştirak ediblər.

Dövlətimizin başçısı və birinci xanım atlara baxış keçirdilər.

Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya Atçılıq Nəsilartırma Mərkəzi barədə məlumat verildi.

Qeyd olundu ki, mərkəzin konsepsiyası "Reflect Architechts" şirkəti tərəfindən hazırlanıb. Potensial böyümə hədəfi 30 hektar olan ərazinin 7 hektarında yerləşən mərkəzin tərkibində 120 baş at üçün xüsusi dizayn edilmiş tövlələr, nəsilartırma laboratoriyaları, baytarlıq klinikası və digər zəruri obyektlər yaradılacaq.

Diqqətə çatdırıldı ki, mərkəzdə 60-80 otaqlı mehmanxana, muzey, kafe, restoran və tribunalar nəzərdə tutulub. İstər peşəkar, istərsə də həvəskar çaparlar üçün xüsusi məşq zonaları, qaçış zolaqları və Çövkən yarışları üçün meydança layihələndirilib.

Prezident İlham Əliyev Atçılıq Nəsilartırma Mərkəzinin təməlini qoydu.

**AZƏRTAC**
**2022, 4 oktyabr**

**Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağdamın Xıdırlı kəndinin təməlqoyma mərasimində iştirak ediblər**
*(4 oktyabr 2022-ci il)*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 4-də Ağdam rayonunun Xıdırlı kəndinin təməlqoyma mərasimində iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov dövlətimizin başçısına və birinci xanıma kənddə görüləcək işlərlə bağlı məlumat verdi.

Kəndin tikintisi və inkişaf planı barədə videoçarx nümayiş olundu.

Prezident İlham Əliyev Xıdırlı kəndinin təməlini qoydu.

Bildirildi ki, Ağdam şəhərinin mərkəzindən 3 kilometr məsafədə yerləşən Xıdırlı kəndində 5990 nəfərin (1500 ailə) məskunlaşması planlaşdırılıb. Layihələndirilən ümumi ərazi 418 hektardır. Burada məskunlaşacaq əhalinin yaşayış yükünü nəzərə alaraq, məhəllələrin salınmasının birinci mərhələsi üçün 160 hektar torpaq sahəsi ayrılıb. Birinci mərhələdə kəndə 2951 nəfərin köçürülməsi üçün 719 fərdi evin tikilməsi planlaşdırılır.

Vurğulandı ki, kənddə əhalinin məşğulluğunun təmin edilməsi üçün də hər cür şərait yaradılacaq. Burada mədəniyyət və əyləncə mərkəzləri, dini, xidmət, kommersiya müəssisələri, iqtisadi inkişaf obyektləri, təhsil, idarəetmə və kənd təsərrüfatı sahələri üzrə ümumilikdə 2595 nəfərin işlə təmin olunması planlaşdırılır.

Qeyd edilib ki, Xıdırlıda tikinti işlərinə bu il oktyabrın 10-da başlanılacaq. Kənddə tikinti işlərinin 2024-cü il aprelin 10-da tamamlanması nəzərdə tutulur.

**AZƏRTAC**
**2022, 4 oktyabr**

**Ağdamın Kəngərli kəndinin təməli qoyulub**
*(4 oktyabr 2022-ci il)*

Oktyabrın 4-də Ağdam rayonunun Kəngərli kəndinin təməli qoyulub.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mərasimdə iştirak ediblər.

Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov dövlətimizin başçısına və birinci xanıma kənddə görüləcək işlərlə bağlı məlumat verdi.

Kəndin inkişaf planı barədə videoçarx nümayiş olundu.

Qeyd edildi ki, Ağdam şəhərindən 6 kilometr məsafədə yerləşən Kəngərli kəndində 2626 nəfərin (639 ailə) məskunlaşması planlaşdırılıb. Layihələndirilən ümumi ərazi 177,2 hektardır. Burada məskunlaşacaq əhalinin sayı nəzərə alınaraq, yaşayış məhəllələrinin salınmasının birinci mərhələsi üçün 66,2 hektar torpaq sahəsinin ayrılması nəzərdə tutulur. Birinci mərhələdə 1279 nəfərin köçürülməsi üçün 290 fərdi evin inşa edilməsi planlaşdırılır.

Diqqətə çatdırıldı ki, kənddə əhalinin məşğulluğunun təmin edilməsi üçün hər cür şərait yaradılacaq. Burada mədəniyyət və əyləncə mərkəzləri, müxtəlif təyinatlı bir sıra müəssisələr, iqtisadi inkişaf obyektləri, təhsil, idarəetmə və kənd təsərrüfatı sahələri üzrə ümumilikdə 1182 nəfərin işlə təmin olunması nəzərdə tutulur.

Prezident İlham Əliyev Kəngərli kəndinin təməlini qoydu.

Bildirildi ki, kənddə tikinti işlərinin bu il oktyabrın 10-da başlanılması və 2024-cü il aprelin 10-da tamamlanması nəzərdə tutulur.

**AZƏRTAC**
**2022, 4 oktyabr**

**Ağdam şəhərinin daxili yol və kommunikasiya şəbəkəsinin təməlqoyma mərasimi keçirilib**
*(4 oktyabr 2022-ci il)*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 4-də Ağdam şəhərinin daxili yol və kommunikasiya şəbəkəsinin təməlqoyma mərasimində iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov dövlətimizin başçısına və birinci xanıma görüləcək işlərlə bağlı məlumat verdi.

Bildirildi ki, dördzolaqlı Bərdə-Ağdam avtomobil yolu Ağdamın şəhərdaxili yol şəbəkəsi ilə birləşir. Şəhərdaxili yolların ümumi uzunluğu isə 191,1 kilometrdir. İlkin mərhələdə 121 kilometr uzunluğunda yolların inşası nəzərdə tutulur.

Qeyd edildi ki, şəhərdaxili yollar eni 55-60 metr olan 1-ci dərəcəli və eni 40 metr olan 2-ci dərəcəli ümumşəhər əhəmiyyətli prospektlərdən, həmçinin eni 34 metr olan ümumşəhər əhəmiyyətli və eni 20-24 metr olan yerli əhəmiyyətli küçə və yollardan ibarət olacaq. Yolların 2, 4 və 6 zolaqlı olması nəzərdə tutulur.

Prezident İlham Əliyev Ağdam şəhərinin daxili yol və kommunikasiya şəbəkəsinin təməlini qoydu.

**AZƏRTAC**
**2022, 4 oktyabr**

**Ağdam şəhərində “City Hotel Agdam” mehmanxanası inşa olunacaq**
*(4 oktyabr 2022-ci il)*

Oktyabrın 4-də Ağdam şəhərində “City Hotel Agdam” mehmanxanasının təməli qoyulub.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mərasimdə iştirak ediblər.

“PMD Projects” şirkətinin direktoru Nəriman Topçubaşov dövlətimizin başçısına və birinci xanıma inşa olunacaq mehmanxana barədə məlumat verdi.

Bildirildi ki, Ağdamın bərpası konsepsiyasında şəhərin turizm potensialı da nəzərə alınaraq, ona uyğun infrastruktur yaradılır. Hotel müasir səviyyədə inşa olunacaq, rayona səfər edəcək ziyarətçilərin rahatlığı üçün burada hər cür şərait yaradılacaq.

Diqqətə çatdırıldı ki, 130 nömrədən ibarət olacaq beşmərtəbəli hotel binasında konfrans, iclas və banket zalları, fitnes və spa mərkəzləri, restoran və açıq terras yaradılacaq.

Prezident İlham Əliyev “City Hotel Agdam” mehmanxanasının təməlini qoydu.

**AZƏRTAC**
**2022, 4 oktyabr**

**İmarət kompleksində görüləcək işlərlə tanışlıq və Xurşidbanu Natəvanın qəbirüstü abidəsinin açılışı**
*(4 oktyabr 2022-ci il)*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 4-də Ağdamda Pənahəli xanın sarayı və İmarət kompleksində görüləcək işlərlə tanış olub, Xurşidbanu Natəvanın qəbirüstü abidəsinin açılışını ediblər.

AZƏRTAC xəbər verir ki, əvvəlcə dövlətimizin başçısına və birinci xanıma Pənahəli xanın sarayı və İmarət kompleksində görüləcək işlər barədə məlumat verildi.

Bildirildi ki, Ağdam rayonunda erməni vandalizminə məruz qalan tarixi-memarlıq abidələrindən biri də Qarabağ xanlığının banisi Pənahəli xanın sarayıdır. Burada Qarabağ xanlığının əsasını qoymuş Pənahəli xanın və xanlıqda müxtəlif illərdə hakimiyyətdə olmuş hökmdarlar - İbrahimxəlil xanın və onun oğlu Mehdiqulu xanın qəbirüstü türbələri, həmçinin Mehdiqulu xanın qızı Xurşidbanu Natəvanın məzarları olub. Lakin Ağdam şəhəri işğal olunduqdan sonra İbrahimxəlil xanın türbəsi və Xurşidbanu Natəvanın qəbirüstü abidəsi də ermənilər tərəfindən dağıdılıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq tapşırığına əsasən bu kompleksin bərpası işlərinə başlanılıb.

Qeyd edildi ki, Pənahəli xanın sarayının yerləşdiyi İmarət kompleksi üçün ilkin konsepsiya layihəsi İtaliyanın “ArtCloud Network International s.c.r.l.” şirkəti tərəfindən hazırlanıb.

İlkin konsepsiyaya əsasən, kompleks Pənahəli xanın sarayı, məqbərələr, kassa, məlumat mərkəzi və Qarabağ atları parkından ibarət olacaq. Pənahəli xanın sarayı bərpa edilərək interaktiv muzey kimi fəaliyyət göstərəcək.

Vurğulandı ki, bu kompleksdə aparılacaq bərpa və konservasiya işlərinə mədəniyyət üzrə beynəlxalq ekspert Alesandro Bianççi rəhbərlik edəcək. O, İtaliya ilə yanaşı, Türkiyə, Gürcüstan, İsrail, İraq, Albaniya, Efiopiya və sair ölkələrdə bərpa və konservasiya işləri üzrə fəaliyyət göstərib, bir çox beynəlxalq təşkilatların həyata keçirdiyi layihə, treninq və proqramlarda mütəxəssis kimi iştirak edib.

Kompleksin ilkin layihələndirilmə işləri üçün tələb olunan maliyyə vəsaitinin qrant qismində Qarabağ Dirçəliş Fondu tərəfindən ayrılması nəzərdə tutulur.

Sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva XIX əsr Azərbaycan romantik şeirinin görkəmli nümayəndəsi, şair, rəssam, xan qızı Xurşidbanu Natəvanın qəbirüstü abidəsinin açılışını etdilər.

Onu da deyək ki, Prezident İlham Əliyevin 2022-ci il 14 mart tarixli Sərəncamı ilə bu il Xurşidbanu Natəvanın 190 illiyinin qeyd olunduğu nəzərə alınaraq yubiley ilində Mədəniyyət Nazirliyi tərəfindən həmin qəbirüstü abidənin bərpa olunması istiqamətində işlərə başlanılıb.

Şairənin qəbirüstü abidəsi özünün ilkin görkəmi əsasında heykəltaraş Kənan Əliyev tərəfindən 350 santimetr hündürlükdə boz qranit materialından hazırlanıb və əvvəlki yerində quraşdırılıb. Ağdamda 1982-ci ildə ucaldılmış və Elcan Şamilovun müəllifi olduğu qəbirüstü abidənin daş yonulması işlərini görmüş Rəfi Zeynalov 40 il sonra da eyni abidənin hazırlanması üçün daş yonub. Bununla bağlı Rəfi Zeynalovun xatirələrini bölüşdüyü qısa film də hazırlanıb.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Xurşidbanu Natəvanın qəbirüstü abidəsinin üzərindəki ağ örtüyü götürdülər, önünə gül dəstələri qoydular.

**AZƏRTAC**
**2022, 4 oktyabr**

**Keçmiş məcburi köçkünlər üçün Ağdam şəhərində inşa olunacaq yaşayış məhəlləsinin təməli qoyulub**
*(4 oktyabr 2022-ci il)*

Oktyabrın 4-də keçmiş məcburi köçkünlər üçün Ağdam şəhərində inşa olunacaq yaşayış məhəlləsinin təməlqoyma mərasimi olub.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tədbirdə iştirak ediblər.

Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov dövlətimizin başçısına və birinci xanıma məhəllə barədə məlumat verdi.

Bildirildi ki, Ağdam şəhərinin təsdiq edilmiş Baş planına uyğun olaraq, əhalinin səmərəli və yüksək həyat səviyyəsini təmin etmək məqsədilə müasir tələblərə cavab verəcək yaşayış məhəllələrinin salınması nəzərdə tutulub. Təməli qoyulan yaşayış məhəlləsinin salınması üçün 6,9 hektar torpaq sahəsi ayrılıb. Ərazi şəhərin şimal-şərqində yerləşir. Şərqdən Üzərliktəpə tarixi arxeoloji abidəsi, qərbdən isə şəhərin tarixi mərkəzi ilə əhatələnib. Həmçinin “İmarət” adlanan tarixi ərazi də məhəllənin yaxınlığındadır.

Qeyd edildi ki, layihə üzrə yaşayış binaları 4-7 mərtəbəli olacaq. Burada 1139 mənzil inşa ediləcək. Yaşayış məhəlləsində 3068 nəfər məskunlaşdırılacaq. İşğaldan azad edilmiş ərazilərdə “yaşıl enerji” zonasının yaradılması hədəfinə uyğun olaraq, məhəllədəki binaların enerji təchizatında alternativ enerji mənbələrindən istifadə üzrə konseptual həllər işlənmişdir.

Prezident İlham Əliyev yaşayış məhəlləsinin təməlini qoydu.

**AZƏRTAC**
**2022, 4 oktyabr**

**Ağdamda Dəmir yolu və Avtovağzal Kompleksi inşa ediləcək**
*(4 oktyabr 2022-ci il)*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 4-də Ağdam şəhərində Dəmir yolu və Avtovağzal Kompleksinin təməlqoyma mərasimində iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısına və birinci xanıma kompleks barədə məlumat verildi.

Bildirildi ki, iki mərtəbə və terrasdan ibarət olmaqla layihələndirilən kompleksə dəmir yolu vağzalı və avtovağzal daxildir. Kompleks vahid nəqliyyat qovşağı şəklində milli arxitektura üslubunda dizayn edilib. Eyni zamanda, kompleksin tikintisində milli ornamentlər əsas götürülməklə, şüşə elementlərdən geniş istifadə olunacaq. Kompleks Ağdam rayonunun logistik imkanlarını genişləndirəcək. Dəmir yolu vağzalı gündəlik 800-1000 nəfər sərnişinin daşınmasına imkan verəcək. Avtovağzal isə gündəlik 1300-1500 nəfər sərnişinə xidmət edəcək.

Qeyd olundu ki, kompleksdə gözləmə zalları, bilet kassaları, tibb və polis məntəqələri, ana və uşaq otağı, əl yüklərini saxlama kamerası, texniki otaqlar, mağazalar, uşaqlar üçün əyləncə zonası, restoran və istirahət guşələri yaradılacaq.

Prezident İlham Əliyev kompleksin təməlini qoydu.

**AZƏRTAC**
**2022, 4 oktyabr**

**Ağdamın Sarıcalı kəndinin təməli qoyulub**
*(4 oktyabr 2022-ci il)*

Oktyabrın 4-də Ağdam rayonunun Sarıcalı kəndinin təməli qoyulub.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev təməlqoyma mərasimində iştirak edib.

Dövlətimizin başçısına kənddə görüləcək işlər barədə məlumat verildi.

Bildirildi ki, Sarıcalı kəndi 1720 nəfər (425 ailə) əhali üçün planlaşdırılır. Layihələndirilən ümumi ərazi 101,9 hektardır. Burada məskunlaşacaq əhalinin sayı nəzərə alınaraq, yaşayış məhəllələrinin salınmasının birinci mərhələsi üçün 50,3 hektar torpaq sahəsi ayrılıb.

Qeyd olundu ki, birinci mərhələdə 895 nəfərin köçürülməsi üçün 211 fərdi ev tikiləcək. Ağdam şəhərinin mərkəzindən 6 kilometr məsafədə yerləşən Sarıcalı kəndində əhalinin məşğulluğunun təmin edilməsi üçün hər cür şərait yaradılacaq. Burada mədəniyyət və əyləncə mərkəzləri, müxtəlif təyinatlı bir sıra müəssisələr, iqtisadi inkişaf obyektləri, təhsil, idarəetmə və kənd təsərrüfatı sahələri üzrə ümumilikdə 774 nəfərin işlə təmin olunması nəzərdə tutulur.

Prezident İlham Əliyev Sarıcalı kəndinin təməlini qoydu.

**AZƏRTAC**
**2022, 4 oktyabr**

**Ağdamda Azərbaycan Milli Şəhərsalma Forumu işə başlayıb**
**Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Forumun açılış mərasimində iştirak ediblər**
*(5 oktyabr 2022-ci il)*

Oktyabrın 5-də BMT-nin Məskunlaşma Proqramı (UN-HABITAT) və Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin birgə əməkdaşlığı, ADA Universitetinin təşkilati dəstəyi ilə Ağdamda "Dayanıqlı İnkişaf Məqsədləri" və "Yeni Şəhər Gündəliyi" – postmünaqişə dövründə bərpa və yenidənqurmanın aparıcı qüvvəsi kimi" mövzusunda Azərbaycan Milli Şəhərsalma Forumu işə başlayıb.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Forumun açılış mərasimində iştirak ediblər.

Dövlətimizin başçısı tədbirdə çıxış edib.

**Prezident İlham Əliyevin**
**çıxışı**

-Hörmətli BMT-nin Məskunlaşma Proqramının icraçı direktoru Maimuna Mohd Şərif.

Hörmətli qonaqlar.

Xanımlar və cənablar.

Ağdama xoş gəlmisiniz. Mən çox şadam ki, biz Azərbaycan Milli Şəhərsalma Forumunu burada - Ağdam şəhərinin bir zamanlar yerləşdiyi məkanda təşkil edirik. İndi görə bilərsiniz ki, bir zamanlar həyat dolu olan şəhərdən heç nə qalmayıb. O, dağıdılıb, işğal dövründə dağıdılıb. Mən, həmçinin bizimlə birgə olduqlarına, Qarabağ regionunun bir zamanlar ən böyük şəhəri olan Ağdama nə olduğunu görmək və keçmiş məcburi köçkünləri öz evlərinə qaytarmaq üçün bizim həyata keçirdiyimiz və qarşıdakı illərdə planlaşdırdığımız işləri görmək üçün buraya gəldiklərinə görə müxtəlif ölkələrdən olan qonaqlarımıza, - Forumumuzda 40-dan çox ölkənin nümayəndələri iştirak edirlər, - minnətdarlığımı ifadə etmək istərdim. Artıq qeyd etdiyim kimi, Ağdam işğal illərində dağıdılıb. O, Birinci Qarabağ müharibəsi dövründə dağılmamışdı. O, sonradan, demək olar ki, 30 il ərzində daşları bir-bir sökülməklə dağıdılıb, bütün binalar viran qoyulub və sökülüb, daşlar oğurlanıb və satılıb. Görə bilərsiniz ki, yarıdağılmış yeganə tikili Cümə məscidinin binası olub. Lakin onun keçmiş işğal altında olan ərazilərdə Ermənistanın dağıtdığı digər məscidlərlə birlikdə dağıdılmamasının səbəbi odur ki, onlar minarələrdən müşahidə üçün, Azərbaycan Silahlı Qüvvələrinin potensial hərəkətini görmək üçün istifadə edirdilər. Lakin bizdə Ağdam məscidinin təhqir olunmasına dair foto və video sübutlar var. Ermənilər məsciddə donuz və inək saxlayıblar. Azad etdiyimiz ərazilərdə yerləşən ümumilikdə 67 məsciddən 65-i tamamilə dağılıb. Onlardan 2-si – biri burada, digəri Şuşada yarımçıq sökülüb və təhqir olunub.

Burada - Ağdamda gördüklərinizi Qarabağ ərazisində hər bir kənddə görə bilərsiniz. Bilirəm ki, qonaqlarımız buraya təyyarə ilə yeni tikilmiş Füzuli Hava Limanına gəliblər. Füzuli şəhəri tamamilə dağıdılıb. Bir tikili belə qalmayıb. Eynilə Cəbrayıl, eynilə Qubadlı, Zəngilan da. Bütün binaların dağıdılmadığı yeganə yerlər Şuşa, Laçın və qismən Kəlbəcər olub. Lakin bunun səbəbi odur ki, Ermənistan dövləti müxtəlif ölkələrdən olan erməniləri işğal edilmiş ərazilərdə yerləşdirmək üçün qanunsuz məskunlaşma siyasəti yürüdürdü. Bu, beynəlxalq hüququn və Cenevrə Konvensiyasının kobud şəkildə pozulması hesab olunur.

Hazırda biz keçmiş məcburi köçkün və qaçqınları öz doğma yurdlarına mümkün qədər tez bir zamanda geri qaytarmaq üçün nəhəng bir çağırışla üz-üzəyik. Lakin genişmiqyaslı bərpa proqramı ilə yanaşı, ən böyük çətinliklərdən biri minalardır. Müharibə demək olar ki, iki il bundan əvvəl başa çatandan bəri təxminən 250 azərbaycanlı minaların partlaması nəticəsində həlak olub və ya ağır yaralanıb. Əfsuslar olsun ki, bu rəqəm hər həftə artır. Təkcə keçən həftə 2 nəfər həlak olub, 3 nəfər ağır yaralanıb. Ermənilər işğal dövründə 1 milyondan çox mina basdırıblar. Azərbaycana və azərbaycanlılara qarşı olan bu terror siyasəti davam edir. Lap bu yaxınlarda biz İkinci Qarabağ müharibəsi bitəndən sonrakı dövrdə Ermənistan silahlı qüvvələri tərəfindən Laçın rayonunda basdırılmış 1400-dən çox mina aşkar edərək zərərsizləşdirmişik. Beləliklə, Azərbaycana qarşı təcavüz, Azərbaycana qarşı terror davam edir.

Millətimiz ciddi humanitar böhrandan əziyyət çəkib. Çünki Ermənistanın təcavüzü və işğalı nəticəsində Qarabağ, Zəngəzur, həmçinin bugünkü Ermənistanda 1 milyondan çox azərbaycanlı öz doğma torpaqlarından tamamilə etnik təmizləməyə məruz qalıb. Bu, baş verəndə Azərbaycan əhalisi 8 milyondan

az idi. Bir milyonun qaçqın və məcburi köçkünə çevrildiyini təsəvvürünüzə gətirə bilərsinizmi? Biz xüsusilə müstəqilliyin ilk illərində, bu dəstəyə ciddi şəkildə ehtiyacımız olan zaman qaçqın və məcburi köçkünlərimizə göstərdiyi dəstəyə görə beynəlxalq təşkilatlara, xüsusilə BMT təsisatlarına çox minnətdarıq. İşğaldan azad edilmiş ərazilərə gələn hər kəs Ermənistanın işğalı və təcavüzünün nəticələrini görür. İkinci Qarabağ müharibəsi başa çatandan bəri minlərlə əcnəbi qonaq, jurnalist, siyasətçi, vətəndaş cəmiyyəti nümayəndələri buraya gələrək bunu öz gözləri ilə görüblər. Erməni barbarlığı və vandalizminin miqyası faktiki olaraq o qədər böyükdür ki, Azərbaycanın bu hissəsinə gələn bir çox insanlar özlərini mənəvi cəhətdən tamamilə tükənmiş hiss edirlər. Siz bizim, azərbaycanlıların, xüsusilə Ağdam, Füzuli, Azərbaycanın işğal altında olmuş digər ərazilərində yaşamış insanların buraya gələndə nə hiss etdiklərini təsəvvürünüzə gətirə bilərsiniz. Onlar hətta evlərinin yerləşdiyi yeri belə tapa bilmirlər, çünki hər şey tamamilə dağıdılıb.

İşğalçılıq siyasəti yürütməklə Ermənistanın əsas hədəfi de-fakto vəziyyəti yerində dəyişmək və bununla Azərbaycanla danışıqlar prosesini sonsuz etmək idi. Məhz buna görə danışıqlar heç bir nəticə olmadan 28 il davam etdi. Nəticə faktiki olaraq sıfır idi. BMT, ATƏT kimi aparıcı beynəlxalq təşkilatların və digərlərinin Ermənistan qoşunlarının Azərbaycan ərazilərindən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən qətnamə və qərarlar qəbul etməsinə, xüsusilə BMT Təhlükəsizlik Şurasının demək olar ki, 30 il ərzində kağız üzərində qalan 4 qətnaməsinə, bizim Ermənistana sanksiyalar tətbiq etməklə bağlı bütün müraciətlərimizə baxmayaraq, biz buna nail ola bilmədik. Beynəlxalq ictimaiyyət Azərbaycan xalqının humanitar fəlakətinə müəyyən mənada göz yummağa qərar verdi. Ən çox təəssüf doğuran odur ki, ATƏT-dən mandatı olan Minsk qrupu adlandırılan struktur və onun həmsədrləri işğal olunmuş ərazilərə dəfələrlə səfərlər edib, bütün şəhər və kəndlərin qəddarcasına dağıdılmasının, ermənilərin bizim torpaqlarımızda qanunsuz məskunlaşdırılmasının şahidi olublar, lakin Ermənistanı qınamayıblar. İyirmi səkkiz illik belə dırnaqarası fəaliyyətləri dövründə onlar tərəfindən Ermənistanı qınamaq üçün bir söz belə deyilməyib. İndi biz bu Minsk qrupunu yenidən canlandırmaq istiqamətində bəzi səyləri görəndə, əlbəttə ki, bunu dəstəkləyə bilmərik, çünki onlar öz mandatlarını həyata keçirmək üçün heç nə etmədilər, onların gördüyü yeganə iş faktiki surətdə ondan ibarət olub ki, müəyyən mənada erməni təcavüzünü legitimləşdirməyə çalışıblar. Onlar təcavüzkar və təcavüz qurbanı arasında balans yaratmağa çalışıblar. Ona görə də bu gün Azərbaycan özü beynəlxalq hüququ bərpa edib, BMT qətnamələrini icra edib, BMT-nin Nizamnaməsini, xüsusilə də onun özünümüdafiə ilə bağlı müddəasından istifadə edərək bizim milli ləyaqətimizi bərpa edib.

Bizim hər hansı vasitəçiliyə ehtiyacımız yoxdur. Biz İkinci Qarabağ müharibəsi başa çatdıqdan sonra təklif irəli sürdük. Ağdamda gördüklərinizə, 10 min kvadratkilometrdən çox ərazinin Ermənistan tərəfindən dağıdılmasına baxmayaraq, insanlarımızın çəkdiyi zülmlərə baxmayaraq, biz Ermənistana sülh təklif etdik. Sülh müqaviləsi üçün əsas olan beynəlxalq hüququn beş əsas prinsipini, - xüsusən də ölkələrin ərazi bütövlüyünün qarşılıqlı tanınması, gələcəkdə ərazi iddialarından çəkinmək, güc tətbiq etməmək və ya güc tətbiq etmək hədəsindən çəkinmək, dövlət sərhədlərinin müəyyən edilməsi və kommunikasiyaların açılması, - irəli sürdük. Bütün bunlar, əslində, beynəlxalq hüququn əsas prinsipləridir və hesab edirəm ki, münasibətlərini normallaşdırmağa çalışan ölkələr arasında sülh sazişləri və ya hər hansı sazişlər buna əsaslanmalıdır. Hələ də Azərbaycanın Qarabağ bölgəsində yaşayan erməni əhalisinə gəlincə, onlar bizim vətəndaşlarımızdır və biz indi onların öz ərazimizdə həyatını necə təşkil edəcəyimizi heç bir beynəlxalq oyunçu ilə müzakirə etməyəcəyik. Qarabağ Azərbaycandır! İkinci Qarabağ müharibəsi bunu meydanda sübut etdi. İşğal dövründə dünyanın heç bir ölkəsi, o cümlədən Ermənistan bu qondarma qurumu tanımadı. Ona görə də daxili işlərimizlə bağlı məsələləri heç vaxt beynəlxalq qurumlarla və ya böyüklüyündən və potensialından asılı olmayaraq, heç bir ölkə ilə müzakirə etmirik.

Sülh prosesi ilə bağlı bizdə müəyyən nikbinlik var. Çünki bu yaxınlarda Azərbaycanın və Ermənistanın xarici işlər nazirlərinin görüşü, xüsusilə də sülh sazişi layihəsinin hazırlanması gündəliyi ilə bağlı ilk belə görüş keçirilib. Ümid edirik ki, bu, çox vaxt aparmayacaq. Biz bilirik ki, ermənilər 28 ildir Qarabağ münaqişəsi ilə bağlı danışıqlar aparmaq kimi razılığa gəlmək istəmədikdə adətən hansı taktikalardan istifadə edirlər. Belə davam edərsə, biz də sülh əldə edə bilməyəcəyik. Əgər bu, Ermənistanın seçimidirsə, bu, o deməkdir ki, onlar növbəti ciddi səhvə yol verəcəklər. Onlar bizi düzgün qiymətləndirmədilər, onlar bizim iradəmizi, Azərbaycan xalqının iradəsini, Azərbaycanın potensialını düzgün qiymətləndirmədilər və bunun əvəzini ödəməli oldular. İki il bundan əvvəl baş verən müharibə Azərbaycan ərazisində aparılıb. Bu, bir daha bizim mövqeyimizi sübut edir və göstərir ki, bütün bunlara, bir milyondan çox vətəndaşımızın çəkdiyi zülmlərə baxmayaraq, biz düşmənçiliyə, qarşılıqlı nifrətə son

qoymaq və yeni sülh səhifəsi açmaq istəyirik. Müvəffəq olub-olmayacağıq, görəcəyik. Əmin deyiləm, amma ən azından biz bu istiqamətdə irəliləyirik.

Eyni zamanda, ümid edirik ki, sərhədlərin delimitasiyası üzrə iki müvafiq komissiya - Azərbaycan və Ermənistan komissiyaları da vaxt itirməyəcək və iki ölkə arasında faktiki mövcud olmayan sərhədin müəyyənləşdirilməsi üzərində fəal işləyəcəklər. Demək olar ki, 30 ilə yaxın davam edən işğal illəri ərzində bu sərhəd tamamilə Ermənistanın nəzarəti altında olub. İşğal bitdikdən sonra biz sərhəd hesab etdiyimiz bu sərhədə gəldik və burada qərarlaşdıq. Ona görə də 400 kilometrdən çox olan bu sərhədi müəyyənləşdirmək üçün tarixi sənədlərə, tarixi xəritələrə, beynəlxalq təcrübə və metodologiyaya əsaslanaraq fəal şəkildə işləməliyik. Beləliklə, bu proses artıq gedir. Ancaq yenə də deyirəm, bunun nə qədər uğurlu olacağını demək çətindir.

Beləliklə, bu, ötən müddət ərzində baş verən hadisələr idi. Bu gün biz yeni çağırışlarla üzləşirik. Ancaq bunlar xoş çağırışlardır - Qarabağın və Şərqi Zəngəzurun yenidən qurulması, insanların geri qayıtması və Azərbaycanın hər hansı bölgəsində yaşayan keçmiş məcburi köçkünlər üçün daha yaxşı şəraitin yaradılması. Əminəm ki, bu insanlar buna layiqdirlər. Onlar uzun illər boyu çətin şəraitdə yaşayıblar. Baxmayaraq ki, biz 300 mindən çox məcburi köçkünü yeni ev və mənzillərlə təmin etmişik, bu mənzillərin açılışı zamanı onlar bizə minnətdarlıqlarını bildirirdilər və hər dəfə qeyd edirdilər ki, bizi öz torpaqlarımıza qaytarın. Mən onlara hər dəfə söz verirdim ki, bunu reallaşdıracağam və mən fəxr edirəm ki, biz bunu reallaşdıra bildik və artıq Böyük Qayıdış proqramı başlayıb.

Bu ilin mayında Zəngilanda ilk kənd qurulub və ilk məcburi köçkünlər artıq qayıdıblar. Mən həqiqətən fəxr edirəm və inanıram ki, bütün Azərbaycan xalqı da fəxr edir ki, təkcə orada yaşayanlar deyil, onların uşaqları və nəvələri də buraya qayıdırlar. Bu ilin sentyabrında Zəngilanda məktəb açıldı və gənc zəngilanlılar artıq bu məktəbdə təhsil alırlar. Onlar bu torpaqları görməyiblər, çünki onlar işğaldan sonra dünyaya göz açıblar. Ancaq bu, onu göstərir ki, Azərbaycan xalqı öz köklərinə və doğma torpaqlarına bağlıdır. Keçmiş məcburi köçkünlərin öz torpaqlarına qayıtması ilə bağlı keçirdiyimiz sorğu əsasında deyə bilərik ki, əksəriyyət insanların həmin torpaqları belə görmədiklərinə baxmayaraq, bu torpaqlara geri qayıtmaq istəyini bildirməsi həqiqətən qürurvericidir. Bu, əlbəttə ki, cəmiyyətimizdə xüsusi mühit, qürur hissi, qələbə hissi, ədalətin bərpa olunması hissi, xalqın ləyaqət hissinin bərpası hisslərini formalaşdırır ki, bunlar ölçüyəgəlməz hisslərdir, bunları siz hiss etməlisiniz. Biz bunu hiss edirik və xoşbəxtik.

İndi biz burada - işğaldan azad olunmuş Ağdamda keçmiş məcburi köçkünlərin öz yurdlarına tezliklə qayıtması üçün bütün potensialımızı səfərbər edirik. İrimiqyaslı infrastruktur layihələr icra olunur. Siz Füzuli Beynəlxalq Hava Limanını gördünüz, o, səkkiz ay ərzində tikilib. Bu ay biz Zəngilan Beynəlxalq Hava Limanını açmağı və 2025-ci ildə isə Laçında Beynəlxalq Hava Limanını istifadəyə verməyi planlaşdırırıq. Bərdə-Ağdam dəmir yolu gələn il istifadəyə veriləcək. Dünən mən yeni dəmir yolunun təməl daşını qoydum. Hazırda magistral yollar və kənd yolları tikilməkdədir. Təsdiq olunmuş investisiya planına əsasən, işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur ərazisində ümumi uzunluğu 50 kilometrdən çox olan 33 tunel olacaq, uzunluğu 12 kilometr olan 84 yeni körpü salınacaq. Bu, bizim gördüyümüz işlərin yalnız bir hissəsidir. Biz bütün azad olunmuş ərazilərdə elektrik təchizatını tamamilə bərpa etmişik və ümidvaram ki, tezliklə Cəbrayılda 230 meqavat gücündə olan günəş elektrik stansiyasının tikintisinə başlayacağıq.

Ümumiyyətlə, biz işğaldan azad olunmuş ərazilərdə bərpaolunan enerjinin potensialını qiymətləndirmişik və ilkin təhlillərə görə, bu, demək olar ki, on min meqavat təşkil edir. Biz artıq bir neçə su elektrik stansiyasının açılışını etmişik və su elektrik enerjisinin ümumi gücü beş yüz meqavatdan çox olacaq. Yerdə qalan güc isə günəş və külək elektrik enerjisindən qaynaqlanacaq. Bu ərazi nəinki təkcə işğal illərində Azərbaycanın müxtəlif bölgələrində yaşamaq məcburiyyətində qalan insanları bir araya gətirəcək, eyni zamanda, gələcəkdə Azərbaycanın iqtisadiyyatı üçün aparıcı qüvvə olacaqdır. Bizim burada işğal dövründə məhrum olduğumuz geniş su ehtiyatlarımız var. Çünki ermənilər təkcə bizim şəhərlərimizi işğal etməmişdilər, onlar bizim ehtiyatlarımızı da işğal etmişdilər. Qanunsuz olaraq dağ-mədən işləri aparılırdı, bizim suya çıxışımızı kəsən qanunsuz işlər görülürdü və biz yüz minlərlə hektar torpağı suvara bilmirdik. İndi biz çaylarımıza, torpağımıza qayıtmışıq. Bütün şəhərlərin Baş planları aparıcı beynəlxalq şirkətlər tərəfindən artıq hazırlanmışdır və təsdiqlənmişdir.

Beləliklə, biz artıq burada - Ağdamda bir neçə evin tikintisinə başlamışıq. Mən dünən burada idim və 3 kəndin - Xıdırlı, Kəngərli və Sarıcalının təməlqoyma mərasimlərində iştirak etmişdim. Maksimum iki ildən sonra bu kəndlərdə bir neçə min insan yaşayacaqdır. Ağdam şəhərində biz demək olar ki, min yerlik məktəb tikirik. Bu məktəb də ola bilsin bu il, ya da gələn il hazır olacaq. Xəstəxana və bir neçə yaşayış

binası tikilir. Bu, sadəcə, Ağdamdır. Eyni işlər Füzulidə, Qubadlıda, Zəngilanda da görülür. İki ay bundan əvvəl qayıtdığımız Laçın şəhərini növbəti ilin sonuna kimi bərpa etməyi planlaşdırırıq. Çünki dediyim kimi, orada qeyri-qanuni məskunlaşma var idi. Heç də bütün binalar sökülməmişdir. Biz artıq bir qrup mütəxəssisi oraya göndərmişik. Beləliklə, biz Qarabağı və Zəngəzuru yenidən quracağıq. Buna heç bir şübhəmiz yoxdur. Necə bahalı olursa-olsun, bunu edəcəyik. Bu, bizim milli ideyamızdır. Əvvəllər bizim milli ideya torpaqlarımıza qayıtmaqdan, ədaləti və ərazi bütövlüyümüzü bərpa etməkdən ibarət idi və bütün Azərbaycan xalqı bu ideya ətrafında birləşmişdi, özünü buna hazırlamışdı. Canlarını qurban vermiş gənc nəsil, - müharibə zamanı demək olar ki, üç min nəfəri qurban verdik, - və Qələbəmizi qeyd edən minlərlə insan, bu, həqiqətən də müasir Azərbaycandır, bu, yeni Azərbaycandır. İndi artıq işğal damğasından azad olunmuş Azərbaycan yüksəlməkdədir və mən əminəm ki, Azərbaycan ən uğurlu ölkələrdən biri olacaq və söhbət təkcə bizim regiondan getmir.

Əziz dostlar, xanımlar və cənablar, bizimlə burada olduğunuz üçün bir daha sizə təşəkkür edirəm. Bu Forum həqiqətən də bizim üçün çox vacibdir. Mən BMT-nin Məskunlaşma Proqramının icraçı direktoruna minnətdaram. O, altı ay bundan əvvəl bizi ziyarət etmişdi. Onunla çox yaxşı görüşümüz olmuşdu və ondan sonra bizi Polşada keçirilən Dünya Şəhərsalma Forumuna dəvət etdilər. Bizim nümayəndələr orada iştirak etmişdir. İndi biz Milli Şəhərsalma Forumunu təşkil edirik və mən bizimlə bir yerdə olduğu üçün BMT-nin nümayəndəsinə, merlərə və mer müavinlərinə, bütün ölkələrdən olan nümayəndələrə minnətdaram. Bu, deyərdim ki, Ağdamın beynəlxalq əlaqələrinin başlanğıcıdır. Mən ümid edirəm ki, Ağdam və dünyanın bir çox şəhərləri qardaş şəhərlər olacaqdır. Bilirsiniz, Sovet İttifaqının vaxtında Ağdam Qarabağda ən böyük şəhər idi, həyatla coşub-daşan şəhər idi və Azərbaycanda hər kəs bunu bilir. Əraziləri işğaldan azad etdikdən sonra xarici ekspertlər, jurnalistlər buraya gəldilər və Ağdama bir neçə ad verdilər. Bu adlardan biri "urbisid qurbanı" idi, bu da tamamilə doğru idi. Digər ad "ruhlar şəhəri" idi, bu da tamamilə doğrudur. Biri də "Qafqazın Xirosiması" idi. Lakin Xirosimadan fərqli olaraq, dağıntılar atom bombasının partlaması nəticəsində baş verməmişdir, bu, qonşularımızın vandalizmi və barbarlığı nəticəsində olmuşdur. Lakin indi biz qayıtmışıq, biz güc yolu ilə geri qayıtdıq, biz beynəlxalq hüquq normalarından istifadə edərək geri qayıtdıq və biz burada yaşamağa, əbədi yaşamağa geri qayıtdıq. Təşəkkür edirəm.

**X X X**

Sonra BMT-nin Məskunlaşma Proqramının icraçı direktoru xanım Maimuna Mohd Şərif çıxış edib.

**Xanım Maimuna Mohd Şərifin çıxışı**

-Təşəkkür edirəm, cənab moderator.

Zati-aliləri, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev.

Möhtərəm nazirlər.

BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi xanım Vladanka Andreyeva.

Hörmətli nümayəndələr, xanımlar və cənablar.

Hamınızın sabahı xeyir olsun. Sabahınız xeyir (Azərbaycan dilində deyir). Ümidvaram ki, düzgün tələffüz etdim, əlimdən gələni etdim, cənab Prezident.

Zati-aliləri Prezident İlham Əliyevin himayəsi altında Azərbaycan hökumətinin təşkil etdiyi ilk Milli Şəhərsalma Forumunda iştirak etmək mənim üçün böyük şərəfdir. Bu, xüsusilə ona görə əhəmiyyətlidir ki, biz "Urban October" ayındayıq, ilk dəfə olaraq Dünya Məskunlaşma Günü Avrasiya qitəsində, iki gün əvvəl Türkiyə Respublikasının Balıkesir şəhərində qeyd olundu. "Fərqi aradan qaldır" mövzusu heç kimin, heç bir yerin geridə qalmaması deməkdir.

Cənab Prezident, Ağdamda keçirilən birinci Azərbaycan Milli Şəhərsalma Forumuna dəvətiniz məni çox məmnun etdi. Bu konfrans zalı, Füzuli Hava Limanı və tikinti layihələri Sizin hökumətinizin postmünaqişə ərazisində şəhərlərin bərpası istiqamətində səylər göstərmək əzmini və fədakarlığını nümayiş etdirir. Siz vətəndaşlarınız üçün daha yaxşı gələcək qurursunuz. Təbrik edirəm. BMT-nin Baş katibi cənab Antonio Quterreşin dediyi kimi, müharibə və münaqişələrdə qaliblər olmur, yalnız məğlublar olur. 2022-ci il BMT Məskunlaşma Proqramının Dünya Şəhərləri hesabatına əsasən, münaqişələr səbəbindən 70 milyondan çox insan yoxsulluq həddindən aşağı səviyyədə yaşayır. Təkcə 2021-ci ildə 84 milyon insan zorakılıq, təhlükə və iqlim dəyişikliyinin təsiri səbəbindən evlərindən didərgin düşüb. Məsələn, ərəb

regionunda 26 milyon qaçqının əksəriyyəti şəhərlərdə cəmləşib. Pakistanda son vaxtlar güclü daşqınlar 33 milyon insanı evlərindən didərgin salıb. BMT-nin Məskunlaşma Proqramında bizim üçün inkişafın əsas amili sülh və sabitlikdir. Məhz bu səbəbdən, bizim İcraiyyə Komitəsi 2022-ci ilin martında keçirilən iclasında məndən postmünaqişə və fəlakətdən sonrakı urban dayanıqlılıq üzrə fəaliyyətimizi genişləndirməyi xahiş edib. BMT-nin Məskunlaşma Proqramı lazımi yaşayış və vacib infrastruktur təmin etməklə Suriya, İraq, Livan, İordaniya, Fələstin, Sudan və Yəməndə məcburi köçkün və qaçqınları dəstəkləyir. Biz, həmçinin ictimai məkanları reabilitasiya edirik, torpaq mülkiyyətçiliyinə və mülkiyyət hüquqlarına şərait yaradaraq onları bərpa edirik.

BMT-nin Məskunlaşma Proqramı, həmçinin Ukraynada şəhərlərə dəstək vermək üçün şəhərlərin böhranı proqramını hazırlayır. Biz, eyni zamanda, qonşuluğun təşviqi inteqrasiya proqramı vasitəsilə venesuelalı miqrantların Kolumbiya, Ekvador, Peru, Trinidad və Tobaqo, Panama və Dominikan Respublikasında ev sahibi olan icmalara inteqrasiyasını dəstəkləyirik. COVID, iqlim və münaqişə çağırışları yaşayış məntəqələri və şəhərlərə qeyri-mütənasib şəkildə təsir edir. Bir çox hallarda COVID pandemiyasının şəhərlərə mənfi təsiri davam edir. Müharibə və münaqişələr qaçqınların şəhərlərə üz tutmasına gətirib çıxarır. Bu səbəbdən, BMT-nin Məskunlaşma Proqramı 36 ölkədə fəaliyyət göstərir, normativ təlimatlar və texniki dəstəklə ön cəbhədə olanlara bərpa işlərində kömək etmək üçün 1000-dən çox şəhərin "City İQ şəbəkəsi"ni qurub.

Möhtərəm nümayəndələr, biz bərpa işlərini yalnız o zaman daha yaxşı həyata keçirə, sığınacaq və yaşayışla bağlı əsas xidmətlərdəki boşluğu o zaman aradan qaldıra bilərik ki, resursların strateji qaydada ayrılmasına dair məlumatlarımız olsun. BMT-nin bu cür milli şəhərsalma forumunu təşkil etməsi sayəsində üzv dövlətlər və şəhər merləri qərarların qəbul olunmasında onları maarifləndirən məlumatları daha yaxşı toplaya və təhlil edə bilirlər. On birinci Dayanıqlı İnkişaf Məqsədi bütün digər dayanıqlı inkişaf məqsədləri üçün dayaq yeridir. Bu məqsəd bir neçə sahəyə təsir edir, mərkəzi və yerli hökumətlərə yerlərdə müsbət təsirə gətirib çıxaran milli inkişaf siyasətlərinin həyata keçirilməsini təmin etmək üçün daha yaxşı mövqe tutmağa imkan verir.

Bu günədək BMT-nin Məskunlaşma Proqramı milli şəhərsalma proqramlarını təşkil etmək üçün 49 ölkəyə kömək göstərib. Biz dünyanın bütün regionlarında fəaliyyət göstəririk və Afrikanın 17, Avropanın 13, Latın Amerikası və Karib hövzəsinin 7, Asiya-Sakit okean regionunun 7 ölkəsinin və 5 ərəb dövlətinin milli şəhərsalma forumunu təşkil etmişik. Asiya-Sakit okean regionu, Karib hövzəsi ölkələri və Mərmərə subregionu daxil olmaqla, üç bölgədə regional şəhərsalma forumu keçirilib. Bu milli şəhərsalma forumlarının yeni tsiklinin əsas istiqaməti bu forumu milli şəhərsalma siyasətlərinə çevirən paradiqma dəyişikliyini təbliğ etməkdir. 2016-cı ildən bəri könüllü xarakter daşıyan 167 yerli rəy dərc edilib. Otuz yeddi ölkə ən azından bir könüllü milli rəyi hazırlayıb, 133 ölkə bunu yerli və regional hökumətlər səviyyəsində edib.

Cənab Prezident, mən Azərbaycanı könüllü yerli rəylərini hazırlamağa və yeni şəhərsalma gündəliyinin icrası üzrə yeni milli hesabatını bizə təqdim etməyə çağırıram. Həmin hesabat üzrə biz sübut əsaslı qərarlar qəbul edə və yerlərdə müsbət təsirə nail olmaq üçün siyasətlərin praktikada tətbiqinə kömək məqsədilə insanların dəstəyini qazana bilərik.

Cənab Prezident, icazə verin, bu ilin aprel ayında Nyu-Yorkda keçirilmiş və yeni şəhərsalma gündəliyinin icrasına həsr olunmuş yüksək səviyyəli toplantıda dayanıqlı şəhərsalmanı dəstəklədiyi üçün Azərbaycan hökumətinə təşəkkürümü bildirim. Həmçinin Polşanın Katovitse şəhərində keçirilən Dünya Şəhərsalma Forumunun 11-ci sessiyasında iştirak etmiş Azərbaycan nümayəndə heyəti çox yaxşı təsir bağışlayıb. Eyni zamanda, ümidvaram ki, Azərbaycan noyabrın 17-də COP 27 çərçivəsində Misirin Şarm-əl-Şeyx şəhərində keçiriləcək Şəhərlər və İqlim Dəyişikliyi, Mənzil Təsərrüfatı və Şəhərsalmanın İnkişafı üzrə nazirlərin toplantısında iştirak edəcək.

Cənab Prezident, söz verdiyimiz kimi, biz BMT-nin Məskunlaşma Proqramının Azərbaycan üçün ölkə proqramı sənədini hazırlamışıq və mən bu sənədi bu gün Sizə təqdim edəcəyəm. İcazə verin, bu sənədin hazırlanmasına töhfəsini vermiş Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədrinə və müxtəlif nazirliklərə təşəkkürümü bildirim. BMT-nin Azərbaycanda rezident əlaqələndiricisi, mənim bacım Vladanka Andreyevaya da böyük minnətdarlığımı bildirirəm. O, BMT-nin ölkə üzrə heyətindən gələn dəstəyin əlaqələndirilməsini təmin edib.

BMT-nin Məskunlaşma Proqramı şəhərsalma nöqteyi-nəzərindən daha yaxşı gələcək qurmaq, şəhər və icmaları yenidən yaratmaq üçün milli səylərə qoşulmağı səbirsizliklə gözləyir. BMT-nin Məskunlaşma Proqramının Katovitsedə keçirilən Dünya Şəhərsalma Forumunda təqdim edilmiş 2022-ci il üzrə Dünya

Şəhərləri hesabatında göstərilir ki, bəşəriyyət yol ayrıcındadır. Şəhərsalmanın qarşısının alınması mümkün olmayan meqa trend olmasına baxmayaraq, inteqrasiya edilmiş planlaşdırma, mərkəzi, yerli və regional hökumətlər səviyyəsində çoxşaxəli əməkdaşlıq olmadan bizim şəhərsalma nöqteyi-nəzərindən gələcəyimiz qaranlıq görünür. Buna görə mən Zati-aliləri Prezident Əliyevə bu ilk Azərbaycan Milli Şəhərsalma Forumuna himayədarlıq etdiyinə görə çox minnətdaram. Sizin bu gün burada iştirakınız yeni şəhərsalma gündəliyinin bütün tərəfdaşlarına dayanıqlı şəhərsalmaya aid siyasət tövsiyələrini müzakirə və tərtib etməyə imkan verən bu platformanı daha yüksək səviyyəyə qaldırıb. Buraya ziyalılar, özəl sektor, vətəndaş cəmiyyəti, gənclər, qadınlar və yerli icmalar daxildir. Mən onları bizim BMT-də ümumi gündəliyimiz çərçivəsində yeni şəhərsalma gündəliyinin icrasına dəstək məqsədilə tərəfdaşlıqlar yaratmağa və hərəkətlərini bəyan etməyə çağırıram. Ağdamı yenidən bərpa etmək üçün sadiqliyə və ayrılmış ehtiyatlara həqiqətən də heyranam. Əminəm ki, özümüzü bu məqsədə həsr etsək, biz Zati-aliləri cənab Prezidentin heç kimin, heç bir yerin urbanizasiyaya məruz qalmış dünyada geridə qalmamasına dair baxışının reallaşdırılmasını təmin edə bilərik. Təşəkkür edirəm.

**X X X**

Forum işini sessiyalarla davam etdirib.

Qeyd edək ki, 44 ölkədən 130-dan çox nümayəndənin, ümumilikdə isə 400 nəfərdən çox insanın qatıldığı Azərbaycan Milli Şəhərsalma Forumu şəhərlərin bərpası ilə bağlı beynəlxalq və çoxtərəfli əməkdaşlıq üçün yeni imkan yaradacaq və şəhər ərazilərində böhranların aradan qaldırılmasına dair çətinliklərin müəyyən edilməsi, həllərin müzakirəsi ilə bağlı bilik və təcrübə mübadiləsi aparmaq üçün platforma rolunu oynayacaq. Ölkəmizdə ilk dəfə məhz Ağdam şəhərində keçirilən Azərbaycan Milli Şəhərsalma Forumu şəhərsalma sahəsində dünyanın müxtəlif ölkələrindən olan sahə mütəxəssislərinin təcrübələrinin bölüşülməsi və dayanıqlı inkişafın təmin edilməsi üçün əməkdaşlıq əlaqələrinin genişləndirilməsi baxımından da nadir və uğurlu platformadır.

Xatırladaq ki, bu il iyunun 27-də Polşanın Katovitse şəhərində keçirilmiş Ümumdünya Şəhər Forumunun “Daha yaxşı gələcək naminə şəhərlərimizi dəyişdirək” mövzusunda 11-ci sessiyasında videoformatda çıxış edən Prezident İlham Əliyev bəyan etmişdi ki, Azərbaycan Ümumdünya Şəhər Forumunun növbəti sessiyalarının birinə ev sahibliyi etmək arzusundadır və buna hazırdır.

Ümumdünya Şəhər Forumu BMT-nin Məskunlaşma Proqramı (UN-HABITAT) tərəfindən hər iki ildən bir keçirilir.

**AZƏRTAC**
**2022, 5 oktyabr**

**Prezident İlham Əliyev: Ağdam şəhəri işğal illəri ərzində dağıdılıb və buradakı daşlar oğurlanaraq satılıb**

Ağdam şəhəri işğal illəri ərzində dağıdılıb və burada olan daşlar oğurlanaraq satılıb. Ermənilər yalnız şəhərdəki Cümə məscidini tam dağıtmayıblar, çünki ondan müşahidə məntəqəsi kimi istifadə ediblər.

AZƏRTAC xəbər verir ki, bu barədə Prezident İlham Əliyev Ağdamda keçirilən Azərbaycan Milli Şəhərsalma Forumunda çıxışı zamanı bildirib.

Dövlətimizin başçısı deyib: "Ermənilər işğaldan azad olunmuş ərazilərdə məscidləri dağıdıblar. Yalnız Şuşa, Laçın və Kəlbəcərin bir hissəsində dağıntılar törədilməyib. Bunun səbəbi Ermənistanın beynəlxalq hüquq normalarını pozaraq köçürmə siyasəti aparması və bu ərazilərə erməniləri qeyri-qanuni köçürməsi olub".

**AZƏRTAC**
**2022, 5 oktyabr**

**Rayvis Raqaynis: Ağdamda gördüklərim məni dərindən sarsıtdı**

Biz Latviyanın Yekabpils ilə Bakının Suraxanı rayonu arasında qarşılıqlı əməkdaşlıq həyata keçirir, birgə layihələr icra edir, Azərbaycan və Latviyanın milli ənənələrini və mədəni irsini təbliğ edirik.

AZƏRTAC xəbər verir ki, bu sözləri Ağdamda və Bakıda keçirilən Azərbaycan Milli Şəhərsalma Forumunun iştirakçısı, Latviyanın Yekabpils şəhərinin meri Rayvis Raqaynis söyləyib.

O, Ağdama səfərindən aldığı təəssüratlarını bölüşərək deyib: “Biz yer üzündən silinən Ağdam şəhərini gördük. Bu mənzərə məni dərindən sarsıtdı. Buna baxmayaraq, mən işğaldan azad edilmiş ərazilərdə aparılan işlərin şahidi oldum. Azərbaycan Milli Şəhərsalma Forumuna gəlincə, bu tədbir çox yüksək səviyyədə təşkil olunub. Forumda xeyli maraqlı çıxışlar oldu, təkliflər irəli sürüldü, müxtəlif layihələr müzakirə edildi”.

Azərbaycanın Latviyadakı səfiri Elnur Sultanovun bu yaxınlarda Yekabpils şəhərinə səfərini qeyd edən Rayvis Raqaynis vurğulayıb ki, azərbaycanlı diplomat bir neçə müəssisə ilə tanış olub, eləcə də ölkələrimiz arasında iqtisadi əlaqələr müzakirə edilib.

**AZƏRTAC**
**2022, 7 oktyabr**

**İulian Çifu: Ermənilər Ağdamı tamamilə yararsız vəziyyətə salıblar**

Ağdamda dağıdılmış binaların, səliqəsiz yolların olduğunu gördüm. Bu ərazi yaşayış üçün tamamilə yararsız vəziyyətə salınıb.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Rumıniyadan olan nümayəndə İulian Çifu deyib.

Bərpa işlərinin sürətlə davam etdiyini vurğulayan İulian Çifu qeyd edib: “Bu ərazilərdə yenidənqurma işlərinin aparıldığını da gördüm. Məktəb tikilir, məscid təmir edilir və bütün bunlar müsbət haldır. İnsanların doğma yurdlarına qayıtmaları üçün bu ərazilərin tezliklə bərpa edilməsi lazımdır. Ümid edirəm ki, hər şey yaxşı olacaq”.

**AZƏRTAC**
**2022, 26 noyabr**

**Xalid Teymur Əkrəm: Ağdama hər səfərimdə erməni vandallığından dəhşətə gəlirəm**

Bu mənim Ağdama ikinci səfərimdir. Hər iki gəlişimdə erməni vandallığını görərək dəhşətə gəlmişəm.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Pakistanın Qlobal və Strateji Araşdırmalar Mərkəzinin İcraçı direktoru Xalid Teymur Əkrəm deyib. O bildirib ki, Azərbaycan azad edilmiş torpaqlarda çox sürətlə bərpa işləri həyata keçirir: "Burada bərpa işləri sürətlə davam edir. Pakistan Azərbaycanın hər zaman haqlı mövqeyini dəstəkləyib və Ermənistanı dövlət kimi tanımayıb. Mən ümid edirəm ki, ölkənizin yenidənqurma işləri tezliklə yekunlaşacaq və regionda sülh tezliklə bərqərar olacaq".

**AZƏRTAC**
**2022, 26 noyabr**

**Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağdam rayonuna səfər ediblər**
**Dövlətimizin başçısı Ağdam Rəqəmsal İdarəetmə Mərkəzi və Təlim-Tədris Kompleksinin təməlini qoyub**
*(2 may 2023-cü il)*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 2-də Ağdam rayonuna səfər ediblər.

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev "Azərişıq" ASC-nin Ağdam şəhərində Rəqəmsal İdarəetmə Mərkəzi və Təlim-Tədris Kompleksinin təməlini qoyub.

"Azərişıq" ASC-nin sədri Vüqar Əhmədov dövlətimizin başçısına mərkəz və kompleks barədə ətraflı məlumat verdi.

Bildirildi ki, Rəqəmsal İdarəetmə Mərkəzi şəhərin müxtəlif təyinatlı infrastrukturunun elektrik enerjisinə tələbatını ödəməklə yanaşı, təchizat sxeminə daxil olan şəbəkələrin real vaxt rejimində və rəqəmsal formatda idarə olunmasını təmin edəcək. Müasir tipli mərkəz vasitəsilə ətraf ərazilərin də elektrik enerjisi ilə təchizatının etibarlılığına və dayanıqlılığına nəzarət təmin olunacaq. Elektrik şəbəkələrinin Rəqəmsal İdarəetmə Mərkəzinin yaradılması elektrik enerjisinin paylanması prosesinə fasiləsiz nəzarətin təmin edilməsinə, enerji səmərəliliyinə, elektrik enerjisinin fasiləsizliyinə və keyfiyyətinin yüksəldilməsinə zəmin yaradacaq. Burada mühəndis–texniki heyətin səmərəli fəaliyyətini təmin edən müasir avadanlıqla təchiz olunmuş iş otaqlarının, vətəndaş qəbulu üçün şəraitin yaradılması nəzərdə tutulub.

Qeyd olundu ki, Təlim-Tədris Kompleksində beynəlxalq tədbirlərin keçirilməsi üçün lazımi şərait yaradılacaq.

Kompleksin Regional Tədris Mərkəzində yerli və xarici təlimçilərin iştirakı ilə elektroenergetika sahəsi üzrə ixtisaslı kadrların hazırlığı, bərpaolunan enerji mənbələrinin tətbiqi və istismarı qaydaları, peşə vərdişlərinin formalaşdırılması, real iş şəraitində təlim və ustalıq yarışlarının təşkili nəzərdə tutulur. Mərkəz təlim-tədris zalından və təlim poliqonundan ibarətdir. Tədris zalı 35/0,4 kV-luq müasir şəbəkə modelinin, 35 və 0,4 kV-luq fiberoptik kabellərin, kompozit şüşə-lifli dayaqların tətbiq sahələri, perspektiv inkişafı və üstünlüklərinin əyani şəkildə təqdim edilməsi üçün nəzərdə tutulub. Burada, həmçinin xüsusi dayaqlarda şəbəkədə istifadə edilən element və ləvazimatlar qurulacaq.

İşğaldan azad edilmiş ərazilərdə yaşıl enerji mənbələrinin (günəş və külək enerji qurğuları) tətbiqinə dair real işlək model də tərtib olunub, həm personalın, həm də gələcəkdə aktiv istehlakçıların maarifləndirilməsi təlimlərində istifadəsi nəzərdə tutulub. Burada elektroenergetika sahəsində əldə olunmuş tarixi nailiyyətləri əks etdirən elektron guşə və əyani vəsait stendləri, müasir uçot cihazları (SMS, Smart, NFC-sayğacları) və təhlükəsizlik texnikası, idarəetmə plakatları təqdim ediləcək.

Məlumat verildi ki, beynəlxalq tədbirlər poliqonu isə peşə ustalığı yarışları və müasir texnologiyaların əyani nümayişi üçün nəzərdə tutulmuş texnoloji ərazidir. Poliqonda günəş və külək enerji mənbələrinin qurulması, istismarı və müasir idarəetmə sistemləri üçün BOEM-təlim sahəsi planlaşdırılıb. Təlim poliqonunda real iş şəraitində istifadə edilən müasir şəbəkə modeli, Yaşıl enerji elementləri (günəş və külək enerji mənbələri) və innovativ layihə maketlərinin yerləşdirilməsi nəzərdə tutulub. Poliqon beynəlxalq peşə ustalığı yarışlarının, elektrotexniki təlim tədbirlərinin keçirilməsi və müxtəlif istiqamətlər üzrə təcrübə mübadiləsinin əyani nümayiş etdirilməsi üçün də geniş imkanlar yaradacaq.

Burada yaradılacaq Regional Logistika Mərkəzi isə region üzrə tələb olunan nəqliyyat, xüsusi texnika və mal-materialın daşınması, təmiri və saxlanması üçün nəzərdə tutulub. Məqsəd tələb olunan texniki vasitələrin vaxt itkisi olmadan əraziyə çatdırılması və saz vəziyyətdə saxlanmasından ibarətdir.

Transformator xidmət sahəsində müasir paylayıcı şəbəkələrdə tətbiq edilən güc transformatorlarının təmiri, sazlanması və müasir cihazlarla təchiz edilməsi həyata keçiriləcək.

Mərkəzi Laboratoriya smart-sayğaclar, kabel, izolyator, qurğu və avadanlıqların test-sınaq-diaqnostika tədbirlərinin həyata keçirilməsi üçün nəzərdə tutulub.

Dövlətimizin başçısına işğaldan azad olunmuş ərazilərdə "Azərişıq" ASC tərəfindən paylayıcı elektrik şəbəkəsinin qurulması istiqamətində görülmüş işlər barədə də məlumat verildi. Qeyd edildi ki, Ağdam rayonu ərazisində yerləşən infrastruktur və strateji obyektlərin ilkin mərhələdə elektrik təchizatı üçün 28 kilometr məsafədə 10 kV-luq hava elektrik verilişi xətləri çəkilib, 7 ədəd müxtəlif gücdə komplekt transformator məntəqəsi quraşdırılıb. Hazırda isə 35 kV-luq "Ağdam-1" və "Ağdam-2" yarımstansiyalarının tikintisi və bu yarımstansiyaların qidalandırılması üçün 35 kV-luq kabel xətlərinin

çəkilməsi işləri görülür. Kəlbəcər rayonu üzrə dayanıqlı elektrik təchizatı üçün 31 kilometr uzunluğunda 110 kV-luq hava xətti çəkilib, 110/35/6 kV-luq “Daşkəsən yarımstansiyası yenidən qurularaq, 33,7 kilometr uzunluğunda 110 kV-luq hava xətləri bərpa edilib. Hazırda 35/0,4 kV-luq “Kəlbəcər” yarımstansiyası və Rəqəmsal İdarəetmə Mərkəzinin tikintisi, 35 kV-luq “Çaykənd-Zod” kabel xəttinin çəkilməsi işləri aparılır. Laçın rayonunda da bir çox işlər görülüb, o cümlədən Azərbaycan-Ermənistan şərti dövlət sərhədi istiqamətində qurulan sərhəd-keçid məntəqəsini elektrik enerjisi ilə təmin etmək üçün 1,8 kilometr uzunluğunda 0,4 kV-luq kabel xətləri çəkilib və 160 kVA gücündə 2 transformator quraşdırılıb. Hazırda Kilsəlidağ, 6-cı rayon və Şəlvə əraziləri istiqamətində 66 kilometr uzunluğunda 35 kV-luq elektrik verilişi xətlərinin çəkilməsi və müxtəlif gücdə komplekt transformator məntəqələrinin quraşdırılması işləri aparılır.

Prezident İlham Əliyev Ağdam Rəqəmsal İdarəetmə Mərkəzi və Təlim-Tədris Kompleksinin təməlini qoydu.

**AZƏRTAC**
**2023, 2 may**

**Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağdam Muğam Mərkəzinin təməlinin qoyulması mərasimində iştirak ediblər**
*(2 may 2023-cü il)*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 2-də Ağdam Muğam Mərkəzinin təməlinin qoyulması mərasimində iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov dövlətimizin başçısına və birinci xanıma layihə barədə məlumat verdi.

Mərkəzin binasının birinci mərtəbəsində kafe, kinozal, kitabxana, 637 yerlik konsert və iki rəqs zalının yaradılması nəzərdə tutulur. İkinci mərtəbədə isə inzibati otaqlar olacaq. Mərkəzdə 15 dərs otağı, sərgi salonu, iclas zalı, müəllimlər və müdir otaqları yaradılacaq, ərazisində isə min kvadratmetrlik açıq amfiteatr inşa ediləcək.

Qeyd edək ki, qədim və zəngin mədəniyyətimizin vizit kartı muğam, eyni zamanda, xalqımızın malik olduğu milli mədəniyyətin koloriti, hər birimizin mənəvi və ruhi qidasıdır. Bütün azərbaycanlıların həyat hekayətinə çevrilən muğamın təbliğinə son illərdə istər ölkəmizdə, istərsə də onun hüdudlarından kənarda dövlət səviyyəsində yüksək diqqət və qayğı göstərilir. Muğamın yaşaması, dünyada layiqincə təbliği və gələcək nəsillərə ötürülməsi baxımından son dövrlərdə yaradılan muğam mərkəzlərinin müstəsna əhəmiyyəti var.

Bəşəriyyətin şifahi və mənəvi irsinin incilərindən olan muğamın təbliği və inkişafı istiqamətində dövlətimiz tərəfindən son illərdə görülən sanballı işlərə Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu da layiqli töhfələr verir. Fondun həyata keçirdiyi layihələrin nəticəsidir ki, 2003-cü ildə UNESCO həm milli, həm də bəşər mədəniyyəti üçün Azərbaycan muğamının bədii dəyərini etiraf etdi. Muğam UNESCO-nun "Bəşəriyyətin şifahi və qeyri-maddi irsinin şah əsərləri" siyahısına salınıb. Son illərdə muğam müsabiqələrinin keçirilməsi bu əvəzsiz sənət incisinin yaşadılması istiqamətində mühüm hadisə kimi tarixə düşüb. Azərbaycan milli musiqi mədəniyyətinə görkəmli muğam ifaçıları bəxş etmiş Ağdam rayonunda Muğam Mərkəzinin inşası işğaldan azad olunmuş ərazilərimizdə digər sahələr kimi, mədəniyyətin də sürətlə dirçəldilməsi istiqamətində ardıcıl işlərin görüldüyünü göstərir.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağdam Muğam Mərkəzinin təməlini qoydular.

**AZƏRTAC**
**2023, 2 may**

**Ağdam şəhərində salınacaq 2-ci yaşayış məhəlləsinin təməli qoyulub**
*(2 may 2023-cü il)*

Mayın 2-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağdam şəhərində salınacaq 2-ci yaşayış məhəlləsinin təməlinin qoyulması mərasimində iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısına və birinci xanıma yaşayış məhəlləsi barədə məlumat verildi.

Bildirildi ki, ümumi sahəsi 14 hektara yaxın olan yaşayış məhəlləsinin ərazisinin böyük bir hissəsi yaşıllıq zonasından ibarət olacaq. Məhəllə Ağdamın mərkəzi küçəsində, şəhərin təsdiq edilmiş ümumi Baş planına uyğun salınacaq. Bu məhəllədə tikiləcək yaşayış binalarında ümumilikdə 1268 mənzil olacaq. Mənzillərdən 114-nün birotaqlı, 464-nün ikiotaqlı, 536-nın üçotaqlı, 154-nün isə dördotaqlı olması planlaşdırılır.

Məhəllədəki binaların inşasında modern memarlıq yanaşmalarından və milli naxış elementlərindən istifadə olunacaq. Burada idman meydançalarının, istirahət guşələrinin, velosiped dayanacaqlarının və digər zəruri infrastruktur obyektlərinin yaradılması, geniş yaşıllıq zolaqlarının salınması nəzərdə tutulur.

Bütün binalar daimi su, elektrik və yüksəksürətli internet ilə təmin ediləcək. İstilik və isti su təchizatı mərkəzi qazanxana sistemi ilə həyata keçiriləcək. Binaların inşasında istilik tutumlu təbii inşaat materiallarından istifadə olunacaq.

Dövlətimizin başçısı Ağdam şəhərində 2-ci yaşayış məhəlləsinin təməlini qoydu.

**AZƏRTAC**
**2023, 2 may**

**Ağdam şəhərində 3-cü yaşayış məhəlləsinin təməlqoyma mərasimi olub**
*(2 may 2023-cü il)*

Mayın 2-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağdam şəhərində salınacaq 3-cü yaşayış məhəlləsinin təməlinin qoyulması mərasimində iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısına və xanımına əvvəlcə Ağdam şəhər 1 saylı məktəbin yeni binasında tikinti işlərinin gedişi barədə məlumat verildi. Bildirildi ki, 960 şagird yerlik bu məktəbdə təhsil üçün hər cür şərait yaradılacaq.

Qeyd edək ki, bu məktəbin binasının təməli 2021-ci il mayın 28-də Prezident İlham Əliyev tərəfindən qoyulub. Fəaliyyətə 1883-cü ildə başlayan bu təhsil ocağı Qarabağ bölgəsinin ən qədim məktəbidir.

Məlumat verildi ki, ümumi sahəsi 17 hektara yaxın olan yaşayış məhəlləsinin salınacağı ərazinin bir hissəsi çoxfunksiyalı zonanı əhatə edir və bu hissələrdə əhalinin sıxlığı azdır. Bu məhəllədə tikiləcək yaşayış binalarında ümumi sahəsi 120 min kvadratmetr təşkil edən 1239, o cümlədən 25 birotaqlı, 396 ikiotaqlı, 533 üçotaqlı, 285 dördotaqlı mənzil olacaq.

Yaşayış məhəlləsindəki binaların inşasında istilik tutumlu təbii materiallardan istifadə olunacaq. Binalar daimi su, elektrik və yüksəksürətli internet ilə təmin ediləcək. İstilik və isti su təchizatı mərkəzi qazanxana sistemi ilə həyata keçiriləcək.

Məhəllədə, həmçinin idman meydançaları, velosiped və avtomobil dayanacaqları yaradılacaq.

Dövlətimizin başçısı Ağdam şəhərində 3-cü yaşayış məhəlləsinin təməlini qoydu.

**AZƏRTAC**
**2023, 2 may**

**Ağdam şəhərində inzibati binanın təməli qoyulub**
*(2 may 2023-cü il)*

Mayın 2-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağdam şəhərində tikiləcək inzibati binanın təməlinin qoyulması mərasimində iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısına və birinci xanıma layihə barədə məlumat verildi.

Bildirildi ki, zirzəmi və beş mərtəbədən ibarət olacaq binanın tikinti sahəsi ümumilikdə 24,5 min kvadratmetr təşkil edəcək. Zirzəmi qatında avtomobil dayanacağı, mülki müdafiə sığınacağı, texniki otaqlar, anbar, mətbəx, auditoriya yaradılacaq. Binanın birinci mərtəbəsində rayon statistika idarəsi, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin rayon şöbəsi, Qida Təhlükəsizliyi Agentliyinin, Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidmətinin regional bölmələri, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin yerli bölməsi, rayon mədəniyyət şöbəsi, Məşğulluq Mərkəzi (DOST mərkəzi), Dövlət Aqrar İnkişaf Mərkəzi, Dövlət Vergi Xidmətinin Ərazi Vergilər İdarəsi, iclas otağı və arxiv olacaq.

İkinci mərtəbədə 7 iclas otağı, 8 açıq ofis, zal, katiblik fəaliyyət göstərəcək. Üçüncü mərtəbədə Azərbaycan Respublikasının Prezidentinin xüsusi nümayəndəliyinin qərargahı, iki hissəyə bölünə bilən ziyafət zalı yaradılacaq. Dördüncü və beşinci mərtəbələrdə də ofislər, görüş, iclas və digər otaqlar olacaq.

İnzibati binanın qarşısında tədbirlərin keçirilməsi üçün parad meydanının, sahəsi 17,5 min kvadratmetr olan park və şəhər meydanının da tikintisi nəzərdə tutulub.

Prezident İlham Əliyev inzibati binanın təməlini qoydu.

**AZƏRTAC**
**2023, 2 may**

**Prezident İlham Əliyev Bərdə-Ağdam dəmir yolu xəttinin tikintisi ilə tanış olub**
*(2 may 2023-cü il)*

Mayın 2-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bərdə-Ağdam dəmir yolu xəttinin tikintisi ilə tanış olub.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısına görülən işlər barədə məlumat verildi.

Qeyd edək ki, Azərbaycan Prezidentinin 2020-ci il 24 noyabr tarixli Sərəncamına əsasən inşa olunan bu dəmir yolu xəttinin tikintisinin 2023-cü ildə başa çatdırılması nəzərdə tutulur. Uzunluğu 47,1 kilometr (yan yolları ilə birlikdə 57 kilometr) olan bu dəmir yolu təkxətlidir və elektrikləşdirilməyib. Yol boyunca Bərdə, Köçərli, Təzəkənd və Ağdam stansiyaları fəaliyyət göstərəcək. Dəmir yolunun üzərində 3 körpü inşa olunacaq. Yolun keçdiyi ərazi minalardan təmizlənib.

Bildirildi ki, dəmir yolu xəttinin layihələndirilməsi işləri 90 faiz yerinə yetirilib, Ağdam vağzalının təməli qoyulub. Həmçinin Bərdə və Ağdam mənzillərində 3 platforma, həmin platformalar üçün əlavə yolun və iki yoldəyişənin layihələndirilməsi nəzərdə tutulur. Dəmir yolu xəttinin 32,8 kilometrlik hissəsində relslər quraşdırılıb. Həmçinin torpaq işləri, mühəndis qurğularının tikintisi, yolun üst quruluş elementlərinin və yoldəyişənlərin quraşdırılması birinci mərhələ üzrə tam başa çatdırılıb. Hazırda 45-ci və 47-ci kilometrlərarası ərazidə üst quruluş elementlərinin quraşdırılması və Ağdam stansiyasının 6-cı yolunun torpaq işləri davam etdirilir.

Diqqətə çatdırıldı ki, tikinti-quraşdırma işləri iki mərhələdə həyata keçirilir. Yolun Bərdə-Təzəkənd hissəsində işlərin 80 faizi icra edilib. Təzəkənd-Ağdam istiqamətini əhatə edən ikinci mərhələdə isə icra vəziyyəti 71 faizdir.

Dövlətimizin başçısına Ağdam şəhər dəmir yolu və avtovağzal kompleksi barədə də məlumat verildi.

Bildirildi ki, kompleks vahid nəqliyyat qovşağı kimi dizayn olunub. Bu da sərnişinlərin rahat hərəkətinə imkan yaradacaq. Milli memarlıq üslubunda inşa olunacaq kompleksin binasında şüşə elementlər üstünlük təşkil edəcək.

Avtovağzalda ilkin mərhələdə şəhərlərarası (rayonlararası) müntəzəm avtobus marşrutlarının sayının 10 olması planlaşdırılır. Dəmir yolu vağzalında gündəlik 1000, avtovağzalda isə 1500 nəfərədək sərnişinin qəbul edilməsi nəzərdə tutulur.

**AZƏRTAC**
**2023, 2 may**

**Ağdamda aşkarlanan kütləvi məzarlıq erməni cinayətlərinə dair növbəti faktdır - İcraçı direktor**

Torpaqlarımız işğaldan azad edildikdən sonra ermənilərin uzun illər həmin ərazilərdə apardıqları maddi və mənəvi vandallığın yeni-yeni nümunələri ilə qarşılaşırıq. Həmçinin ötən illər ərzində aparılmış araşdırmalar sayəsində bir çox yeni faktlar aşkarlanıb. Son günlərdə Ağdamda aşkarlanan kütləvi məzarlıq erməni cinayətlərinə dair növbəti faktdır.

Bu sözləri AZƏRTAC-a açıqlamasında Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində Mənəvi Dəyərlərin Təbliği Fondunun İcraçı direktoru Mehman İsmayılov söyləyib.

O bildirib ki, bu gün də dünya ictimaiyyətini aldatma cəhdlərindən əl çəkməyən Ermənistan etdikləri vəhşilikləri gizlətməyə çalışsa da, bu cür vandallıqları ört-basdır edə bilmir. Özünü Qafqazın "ən insanpərvər" xalqı kimi qələmə verən ermənilər türk xalqına münasibətdə hər zaman qəddar davranıb, dinc sakinlərə qarşı amansızlıq ediblər.

“Ermənistanın bu cinayətlərə görə beynəlxalq miqyasda məsuliyyətə cəlb olunması istiqamətində atılan addımlar daha da intensivləşməlidir. Azərbaycan xalqının, dövlətinin gücünə bir daha yaxından bələd olan Ermənistan xülyalardan əl çəkməli, qonşuları ilə sülh şəraitində yaşamağın vacibliyini dərk etməli və bunu öz cəmiyyətinə də aşılamalıdır”, - deyə icraçı direktor vurğulayıb.

**AZƏRTAC**
**2023, 19 iyun**

**QHT sədri: Ağdamda aşkarlanan kütləvi məzarlıq erməni qəsbkarlarının müharibə cinayətlərinin növbəti sübutudur**

Qarabağda bir-birinin ardınca kütləvi məzarlıqların aşkar olunması torpaqlarımızı işğal altında saxlayan erməni qəsbkarlarının müharibə cinayətlərinin növbəti sübutudur. Bu günlərdə isə Ağdam rayonunun işğaldan azad olunan Sarıcalı kəndi ərazisində kütləvi məzarlıq aşkarlanıb.

Bunu AZƏRTAC-a açıqlamasında Azərbaycan-Amerika Gəncləri İctimai Birliyinin sədri Vüqar Əhmədov deyib.

Bundan əvvəl Şuşa həbsxanasının ərazisində kütləvi məzarlığın tapıldığını qeyd edən V.Əhmədov bildirib ki, Ağdamda aşkarlanan məzarlıq artıq Qarabağda Edillidəki və Şuşadakı kütləvi məzarlıqlardan sonra sayca üçüncü böyük kütləvi məzarlıqdır. "İşğaldan azad edilən Qarabağ ərazisində quruculuq və tikinti işləri davam etdikcə yeni kütləvi məzarlıqların aşkar olunacağı istisna deyil. Bütün bunlar onu göstərir ki, erməni qəsbkarları torpaqlarımızı işğal edən zaman məqsədləri əsir və girov düşmüş vətəndaşlarımıza işgəncə vermək və onları vəhşicəsinə, qeyri-insani şəkildə qətlə yetirmək, azərbaycanlılara məxsus bütün tarixi, mədəni və dini abidələri dağıtmaq olub. Burada məqsəd bir millətə, xalqa məxsus tarixi irsi və mədəniyyəti məhv etməkdən gedir", - deyə QHT sədri diqqətə çatdırıb.

Onun sözlərinə görə, bütün bunların kökündə irqçilik, ekstremizm, milli və dini zəmində nifrət yaymaq və faşist xisləti dayanır. Çünki müharibə qanunlarına və BMT konvensiyalarına görə, hər hansı sivil xalqı işgəncələrə məruz qoymaq qəti qadağandır. Aparılan araşdırmalar isə onu göstərir ki, erməni hərbi cinayətkarları Qarabağı işğalda saxladıqları zaman yalnız dağıtmaq, tarixi irsi məhv etmək, azərbaycanlı əsir və girovlara işgəncə verməklə məşğul olublar.

V.Əhmədov vurğulayıb ki, bütün dünyanın sivil və mütərəqqipərvər qüvvələri, beynəlxalq təşkilatları bu reallıqlara göz yummamalı, özünü dünyaya sivil xalq kimi təqdim edən ermənilərin necə vəhşi və insanlıq əleyhinə yönəlmiş cinayətləri haqqında həqiqətləri bilməlidir. Şübhəsiz ki, torpaqlarımızın işğaldan azad edilməsi təkcə Azərbaycanın ərazi bütövlüyünün bərpası və məcburi köçkünlərin öz yurd-yuvalarına qayıtmasına deyil, eyni zamanda, illərlə erməni işğalçılarının, Sarkisyan-Köçəryan cinayətkar cütlüyünün insanlıq əleyhinə törətdikləri cinayətlərinin aşkarlanmasına səbəb oldu. Artıq bunu bütün dünya sübut və faktlarla görür. Erməni işğalçılarının bu əməlləri sərt şəkildə qınanmalı və gələcək tarix üçün bir yaddaşa çevrilməlidir.

**AZƏRTAC**
**2023, 19 iyun**

## Azərbaycan Ağdam-Xankəndi yolundan istifadə etməklə erməni sakinlərə yardım göstərə bilər

Xarici işlər naziri Ceyhun Bayramov iyunun 24-də Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK) Azərbaycandakı nümayəndəliyinin rəhbəri Draqana Kojiçlə görüşüb.

XİN-in Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, görüş zamanı Azərbaycanla BQXK arasında əməkdaşlıq məsələləri, Laçın yolu ətrafında vəziyyət, habelə BQXK-ın Azərbaycanın Xankəndi şəhərində fəaliyyəti məsələləri müzakirə olunub.

Laçın sərhəd-buraxılış məntəqəsinin fəaliyyəti ilə bağlı yaranmış vəziyyətə münasibət bildirən Ceyhun Bayramov deyib ki, məntəqə təsis ediləndən sonra gündəlik əsasda erməni sakinlərin hər iki istiqamətdə şəffaf, təhlükəsiz və nizamlanan keçidi üçün müvafiq şərait yaradılıb. Aprelin 23-dən etibarən yüzlərlə erməni sakinin keçidi təmin olunub.

Nazir diqqətə çatdırıb ki, erməni sakinlərlə sərhədçilərimiz arasında normal ünsiyyətin formalaşması Ermənistanın xoşuna gəlməyib və iyunun 15-də qarşı tərəf keçid məntəqəsini atəşə tutub. Nəticədə bu, Laçın sərhəd-buraxılış məntəqəsindən təhlükəsiz keçidə maneə törədib.

Azərbaycan tərəfinin hazırda sərhəd məntəqəsindən təhlükəsiz keçidə mane olmuş Ermənistanın bu hücumunu araşdırmaq məqsədilə müvafiq tədbirlər gördüyü diqqətə çatdırılıb. Eyni zamanda, vurğulanıb ki, Ermənistanın gələcəkdə belə təxribatlarının təkrarlanmayacağına dair Azərbaycan tərəfinə müvafiq zəmanətin verilməsi zəruridir.

Qeyd edilən zəruri tədbirlər görülməklə yanaşı, BQXK vasitəsilə erməni sakinlərin tibbi məqsədlər üçün sərhəd məntəqəsindən keçidinə və zəruri tibbi ləvazimatların təchizatına imkan yaratmağa Azərbaycan tərəfinin hazır olduğu bildirilib. Mövcud vəziyyətlə əlaqədar erməni sakinlərin digər tədarük ehtiyaclarına gəldikdə, Azərbaycan tərəfinin BQXK vasitəsilə Ağdam-Xankəndi yolundan istifadə etməklə yardım göstərmək imkanının mövcud olduğu qeyd edilib.

Görüş zamanı, həmçinin digər qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

**AZƏRTAC**
**2023, 24 iyun**

**Diplomatik xidmət orqanları rəhbərlərinin müşavirəsi "Ağdamın dirçəlişi" adlı tədbirlə yekunlaşıb**

İyulun 13-də Azərbaycan Respublikasının diplomatik xidmət orqanlarının rəhbərlərinin müşavirəsi çərçivəsində Xarici İşlər Nazirliyinin rəhbər heyətinin və xarici ölkələrdə akkreditə olunmuş diplomatik nümayəndəliklərimizin rəhbərlərinin Ağdam şəhərinə səfəri təşkil olunub.

AZƏRTAC xəbər verir ki, səfərdə iştirak edən xarici işlər naziri Ceyhun Bayramov, Birinci vitse-prezidentin köməkçisi Elçin Əmirbəyov, Xarici İşlər Nazirliyinin rəhbər heyəti, xaricdəki diplomatik missiyalarımızın rəhbərləri ilk öncə Ağdam Şəhidlər xiyabanını ziyarət edib, vətən uğrunda canından keçmiş şəhidlərin məzarlarının üzərinə gül dəstələri qoyublar.

Sonra "Ağdamın dirçəlişi" adlı tədbir keçirilib.

Tədbirdə açılış nitqi ilə çıxış edən nazir Ceyhun Bayramov Ağdamın, Qarabağın Azərbaycan xalqı üçün əhəmiyyətindən bəhs edərək, bir zamanlar ölkəmizin ən inkişaf etmiş bölgələrindən biri olan bu gözəl şəhərin Ermənistan tərəfindən məqsədyönlü şəkildə dağıdılmasının Ermənistanın Azərbaycana qarşı etnik nifrət və dözümsüzlük siyasətinin tərkib hissəsi olduğunu bildirib. Bu gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birinci vitse-prezident xanım Mehriban Əliyevanın qayğısı nəticəsində bütün işğaldan azad olunmuş ərazilərimizin, o cümlədən Ağdamın qarış-qarış bərpa edilməsinin diqqət mərkəzində olduğu bildirilib. Mövcud çətinliklər, dağıntıların miqyası və mina təhdidinə baxmayaraq, Azərbaycanın işğaldan azad olunmuş ərazilərin bərpası və məcburi köçkünlərimizin öz yurdlarına layiqli qayıdışı prosesin irəlilədilməsində qərarlı olduğu bildirilib.

Vətən müharibəsi nəticəsində torpaqlarımızın işğalına son qoyulmasından sonra diplomatiyamız qarşısında duran ən vacib məsələnin azad edilmiş ərazilərimizdə təhlükəsizliyə hədə ola biləcək addımların qarşısının alınması və bərpa-quruculuq işləri istiqamətində bütün səylərin səfərbər edilməsi olduğu bildirilib.

Daha sonra çıxış edən Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov aparılan genişmiqyaslı bərpa və quruculuq işləri barədə tədbir iştirakçılarını ətraflı məlumatlandırıb.

Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin İdarə Heyətinin sədri Vüqar Süleymanov işğaldan azad olunmuş ərazilərin mina və partlamamış hərbi sursatlardan təmizlənməsi məqsədilə görülən işlər barədə təqdimat edib.

Tarix üzrə elmlər doktoru, professor, A.A.Bakıxanov adına Tarix İnstitutunun Azərbaycan mədəniyyəti tarixi şöbəsinin müdiri Mais Əmrahov isə Ağdamın, Qarabağın tarixi ilə bağlı mühazirə ilə çıxış edib.

Tədbirdə, eyni zamanda, işğaldan azad olunmuş ərazilərimizdə aparılan bərpa və quruculuq işlərinə həsr olunmuş videoçarx nümayiş olunub.

Səfər çərçivəsində, müşavirə iştirakçıları Ağdamda aparılan bərpa və quruculuq işləri, ərazilərimizin minalardan təmizlənməsi ilə bağlı fəaliyyətlə tanış olublar. Tədbir iştirakçıları mina partlayışı tədbirində iştirak ediblər. İştirakçılar Ağdamın tarixi və mədəni irs nümunələri ilə tanış olublar

Ağdama səfər və "Ağdamın dirçəlişi" tədbiri ilə iyulun 11-də öz işinə başlayan diplomatik xidmət orqanları rəhbərlərinin müşavirəsi yekunlaşıb.

**Tahir Ağaməmmədov**

**AZƏRTAC**
**2023, 13 iyul**

**XİN: Ağdam-Xankəndi yolundan istifadədən erməni tərəfinin imtinası təəssüf doğurur**

Daha böyük miqdarda dərman preparatları və yüklərin daşınması, tədarükü üçün Azərbaycan tərəfindən Ağdam-Xankəndi yolundan istifadə etməklə yardım təklif olunub. Lakin buna baxmayaraq, təəssüflər olsun ki, erməni tərəfi təkidlə bu yoldan imtina edir.

AZƏRTAC xəbər verir ki, bu fikirlər Azərbaycan Xarici İşlər Nazirliyinin (XİN) Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK) bölgədə humanitar vəziyyətlə bağlı iyulun 25-də səsləndirdiyi bəyanatına dair şərhində əksini tapıb.

Bildirilib ki, erməni sakinlərin tibbi məqsədlər üçün Laçın sərhəd-buraxılış məntəqəsindən BQXK vasitəsilə keçidinin daha da asanlaşdırılması məqsədilə Komitənin həkiminin əraziyə getməsi ilə bağlı razılıq əldə olunmasına baxmayaraq, yerində bundan imtina olunması təəssüf doğurur.

"Erməni tərəfinin Azərbaycan tərəfindən atılan addımlara və dəstək niyyətinə, o cümlədən BQXK tərəfindən sözügedən bəyanatda da qeyd edildiyi kimi, Ağdam-Xankəndi və digər alternativ yollardan istifadə edilməsi təkliflərinə qarşı çıxması bölgədə "gərgin humanitar vəziyyət" iddialarının siyasi manipulyasiya və təzyiq vasitəsi olduğunu bir daha sübut edir", - deyə Xarici İşlər Nazirliyinin şərhində bildirilib.

**AZƏRTAC**
**2023, 25 iyul**

## Azərbaycan Respublikasının işğaldan azad edilmiş əraziləri üzrə şəhər günləri təsis olunub

Prezident İlham Əliyev "Azərbaycan Respublikasının işğaldan azad edilmiş əraziləri üzrə şəhər günlərinin təsis edilməsi haqqında" Sərəncam imzalayıb.

AZƏRTAC xəbər verir ki, işğaldan azad edilmiş şəhər günlərinin təsis olunması Vətən müharibəsində qazanılmış tarixi qələbəni əbədiləşdirmək məqsədi daşıyır.

Sənədə əsasən, 26 avqust – Laçın şəhəri günü, 4 oktyabr – Cəbrayıl şəhəri günü, 17 oktyabr – Füzuli şəhəri günü, 20 oktyabr – Zəngilan şəhəri günü, 25 oktyabr – Qubadlı şəhəri günü, 8 noyabr – Şuşa şəhəri günü, 20 noyabr – Ağdam şəhəri günü, 25 noyabr – Kəlbəcər şəhəri günü kimi hər il təntənəli şəkildə qeyd olunacaq.

Sərəncamda vurğulanır ki, Ermənistanın hərbi təcavüzü nəticəsində 30 ilə yaxın işğal altında qalmış əzəli tarixi torpaqlarımız 44 günlük Vətən müharibəsində hərbi-siyasi yolla işğaldan azad olundu və şanlı Zəfərə aparan hər bir gün Azərbaycan tarixinə qızıl hərflərlə yazıldı.

"Rəşadətli Azərbaycan Ordusunun əsgər və zabitlərinin canı, qanı bahasına Vətən müharibəsində Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı şəhərləri, Zəngilan rayonunun Mincivan, Ağbənd, Bartaz qəsəbələri, Xocavənd rayonunun Hadrut qəsəbəsi və bir çox kəndləri, Tərtər rayonunun Suqovuşan kəndi, Xocalı və Laçın rayonlarının bir neçə kəndi daxil olmaqla, ümumilikdə 300-dən çox yaşayış məntəqəsi, həmçinin Ağdərə, Murovdağ və Zəngilan istiqamətlərində mühüm strateji yüksəkliklər işğaldan azad edildi. Qarabağın tacı Şuşa şəhərinin azad edilməsi və Ermənistanın kapitulyasiya aktını imzalamağa məcbur olması ilə müharibə başa çatdı", - deyə sənəddə qeyd olunub.

İşğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzurun hazırda yenidən qurulduğunun, ərazilərin minalardan təmizləndiyinin, sürətlə genişmiqyaslı bərpa və yenidənqurma işləri aparıldığının vurğulandığı Sərəncamda deyilir: "Məcburi köçkünlərin öz doğma yurdlarına dönüşü üçün Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 16 noyabr tarixli 3587 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın icrasına başlanılmışdır. Artıq Zəngilan rayonunun Ağalı kəndinə, Tərtər rayonunun Talış kəndinə və Laçın şəhərinə məcburi köçkünlərin qayıdışı təmin olunmuşdur və bu istiqamətdə işlər davam etdirilir".

**AZƏRTAC**
**2023, 31 iyul**

**Ağdamdan Xankəndiyə gedən kommunikasiya xətlərinin perspektivləri**

Ağdam–Xankəndi dəmir yolu 1979-cu ildə Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə inşa olunub. Dağlıq Qarabağın inkişafına hər zaman böyük diqqət yetirən Heydər Əliyev Qarabağ bölgəsinə dəmir yolu xətlərinin çəkilməsinə xüsusi əhəmiyyət verirdi. Bakı–Yevlax–Xankəndi dəmir yolunun açılması nəticəsində Qarabağın sosial-iqtisadi, mədəni inkişafı daha da sürətləndi, Bakı ilə əlaqələri möhkəmləndi. Bu əhalinin maddi-texniki təchizatını yaxşılaşdırmaqla bərabər, həm də regionun iqtisadi göstəricilərinin əhəmiyyətli dərəcədə artmasına imkan verdi - məsələn, xammalın tədarükü və məhsulların daşınması xərclərinin aşağı düşməsi səbəbindən Qarabağda istehsal olunan məhsulların maya dəyəri xeyli aşağı düşdü. Bütün bunlar məhz Ümummilli Liderin səyləri nəticəsində əldə olunmuşdu.

AZƏRTAC Ağdamdan keçərək Xankəndiyə gedən kommunikasiya xətlərinin əhəmiyyəti, region üçün perspektivləri barədə bəzi statistik məlumtaları təqdim edir.

Ötən əsrin 80-ci illərində Yevlax-Xankəndi xəttinin Bərdə-Ağdam dəmir yolu xətti hissəsi üzrə yük daşınmalarının illik dövriyyəsi 1,5 milyon ton, Ağdam-Xankəndi (27 kilometr) dəmir yolu xətti hissəsi üzrə isə 1 milyon ton olub. Həmin dövrdə qatarların hərəkət sürəti Bərdə-Ağdam dəmir yolu xətti üzrə 60 kilometr/saat, Ağdam-Xankəndi dəmir yolu üzrə 40 kilometr/saat idi.

Bərdə-Ağdam-Xankəndi dəmir yolu xətti istiqaməti üzrə statistik və proqnoz məlumatlara aşağıdakı cədvəldə nəzər salaq.

1990-cı illərin əvvəlində Ermənistan tərəfindən Azərbaycan ərazisinin 20 faizinin işğalı nəticəsində iqtisadiyyatın digər sahələri kimi respublikanın dəmir yolu təsərrüfatına da külli miqdarda ziyan vurulub. Texnika ilə birlikdə Azərbaycan dəmir yollarının mühüm hissəsi işğal altında qalıb, Yevlax–Xankəndi dəmir yolunun fəaliyyəti dayandırılıb, bu xəttin Ağdam, Əsgəran və Xankəndi stansiyaları işğal edilib, dəmir yolu xətləri ermənilər tərəfindən vəhşicəsinə dağıdılıb.

Otuz ildən sonra müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə azad edilmiş torpaqlarımızda yenidən həyat canlanır - həmin regionlarda yeni dəmir yolu xətlərinin inşası rallaşdırılır.

Qeyd edək ki, Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 24 noyabr tarixli Sərəncamı ilə Bərdə-Ağdam dəmir yolu xəttinin layihələndirilməsi və tikintisi işlərinə başlanılıb. Hazırda layihələndirilməsi işləri 90 faiz yerinə yetirilib, xəttin tikinti-quraşdırma işləri üzrə fiziki tərəqqi 70 faiz təşkil edir. O cümlədən 56,951 kilometr uzunluğunda uzunölçülü relslər quraşdırılıb, həmçinin birinci mərhələ üzrə torpaq işləri, mühəndis qurğularının tikintisi, yolun üst quruluş elementlərinin və yoldəyişən qurğuların quraşdırılması işləri tam şəkildə başa çatdırılıb. Bərdə-Ağdam dəmir yolu xəttinin layihələndirilməsi və tikinti işlərinin bu ilin sonunadək başa çatdırılması planlaşdırılır.

Layihə üzrə texniki göstəricilər və iş həcmləri barədə aşağıdakı məlumatları təqdim edirik:

- Xəttin yan yollarla birlikdə uzunluğu 57.857 kilometr, o cümlədən ox üzrə uzunluğu 47.1 kilometrdir;
- Torpaq işlərinin həcmi 1 368 816 kubmetrdir;
- Stansiyalar (4 ədəd): Bərdə, Köçərli, Təzəkənd və Ağdam;
- Mühəndis qurğuların sayı 130 ədəddir;
- • O cümlədən, 3 ədəd körpü, 1 ədəd yolötürücü, 7 ədəd heyvan keçidi, 85 ədəd suötürücü boru, 1 ədəd piyada üst keçidi və 33 ədəd ehtiyat keçidi;
- Layihədə 9 ədəd qorunan və 7 ədəd qorunmayan olmaqla, ümumilikdə 16 ədəd avtomobil yolu ilə eyni səviyyəli kəsişmə mövcuddur;
- Yoldəyişən qurğuların sayı 34 ədəddir;
- Rabitə-işarəvermə sistemlərinin uzunluğu 47,1 kilometrdir;

Qatarların proqnozlaşdırılan hərəkət sürəti - 80 kilometr/saat, yük daşınmalarının illik dövriyyəsi - 1.5 milyon tondur.

Qarabağa yüklər daha sürətli və səmərəli şəkildə hansı yolla çatdırıla bilər?

Vaxtilə Ağdamdan keçən kommunikasiya xətləri - avtomobil yolu və dəmir yolu Xankəndi, Şuşa, Laçın sakinlərinin bütün ehtiyaclarını təmin edirdi. Bakıdan Xankəndiyə, Şuşaya, Laçına gedən ən qısa yol məhz Ağdamdan keçirdi. Bakı-Yevlax-Ağdam-Xankəndi-Şuşa-Laçın avtomobil yolu ilə sərbəst hərəkət daha əlverişli idi. Bu yol humanitar yüklərin daha sürətli və səmərəli şəkildə çatdırılmasına imkan yarada bilər.

Qeyd edək ki, 1980-ci illərdə Bakı şəhərindən Xankəndi və Şuşa şəhərlərinə getmək üçün respublika əhəmiyyətli R-28 Yevlax-Xocalı-Laçın avtomobil yolundan Ağdam şəhərinin mərkəzindən keçməklə

istifadə olunurdu. Həmin illərdə Ağdam-Bərdə avtomobil yolunun 40-cı kilometrindən ayrılmaqla, Ağdam şəhərinin mərkəzinə daxil olmadan Əsgəran rayonunun inzibati ərazisinədək 17,5 kilometr uzunluğunda yerli əhəmiyyətli 2 hərəkət zolaqlı Ağdam dairəvi yolu çəkilmiş və Ermənistan tərəfindən Azərbaycan torpaqlarının işğalınadək Qarabağın bütün əhalisi, eləcə də Laçın rayonunun əhalisi daimi olaraq bu yoldan istifadə edib.

Məlumat üçün xatırladaq ki, Ağdam şəhərindən Əsgəran rayonuna kimi məsafə 6 kilometr, Xankəndi şəhərinə 23 kilometr və Xankəndidən Şuşa şəhərinə qədər 11 kilometrdir. Bakı şəhərindən Ağdam şəhərinə kimi olan məsafə 360 kilometr, Xankəndi şəhərinə 383 kilometr, Şuşa şəhərinə 394 kilometr və Laçın şəhərinə qədər 435 kilometr təşkil edir.

Qeyd edək ki, işğaldan azad edilmiş ərazilərdə infrastrukturun bərpası layihəsinə uyğun olaraq Bərdə-Ağdam, uzunluğu 44,5 kilometr və Ağdam-Füzuli, uzunluğu 65,7 kilometr olan birinci texniki dərəcəli, 4 hərəkət zolaqlı avtomobil yollarının tikintisi sürətlə davam edir. Hər iki avtomobil yolu sutka ərzində 17 min avtomobili buraxmaq qabiliyyətinə malikdir.

Münaqişədən əvvəl Bakı-Yevlax-Ağdam-Xankəndi-Şuşa-Laçın avtomobil yolu və Bakı-Ağdam-Xankəndi dəmir yolu xətti Qarabağın inkişafında önəmli rol oynayırdı. İşğal dövründə dəmir yolu xətti sıradan çıxsa da, avtomobil yolu ilə gediş-gəliş tamamilə mümkündür. Bu səbəbdən, ermənilərin hər hansı bəhanəsinə yer yoxdur. Bu gün Azərbaycanın iqtisadi potensialı da Qarabağdakı erməni sakinlərimizin sosial məsələlərinin həllinə imkan verir. Bu bölgə Azərbaycanın ərazisi olduğu üçün artıq bütün kommunikasiyalar məhz dövlətimizin vasitəsilə həyata keçirilməlidir. Hazırda Qarabağ iqtisadi rayonu və ona yaxın ərazilərdə üç hava limanı – Gəncə, Yevlax, Füzuli hava limanları fəaliyyət göstərir. Bu da regionun nəqliyyat-logistika layihələrinin xabına çevrilməsinə əsas yaradır. Belə ki, hava limanlarından Bərdə şəhərinə məsafə yaxın olduğundan yüklərin oradan Bərdə-Ağdam avtomobil, Bərdə-Ağdam dəmir yolu vasitəsilə daşınması vaxt itkisinin qarşısını almış olar. Bu baxımdan, Ağdam-Xankəndi yolu böyük əhəmiyyət kəsb edir.

Onu da qeyd edək ki, Azərbaycan tərəfi erməni sakinlərinin ehtiyaclarının qarşılanması üçün Ağdam-Xankəndi yolundan istifadəyə icazə verib. Dövlətimiz Qarabağda yaşayan etnik erməni sakinlərinin bərabərhüquqlu vətəndaşlar kimi Azərbaycanın siyasi, hüquqi, iqtisadi və sosial çərçivəsinə yenidən inteqrasiyasında qərarlıdır. Ona görə də, dövlətlərin daxili işlərinə qarışmamaq, milli azlıqlara mənsub şəxslərin inteqrasiyasına xələl gətirməmək və ya qonşu dövlətlərin ərazisində separatizmi qızışdırmamaq üzrə Ermənistan öz öhdəliklərinə ciddi şəkildə riayət etməlidir.

**Hikmət Əhmədov**

**AZƏRTAC**
**2023, 13 avqust**

**Diplomatik korpus üzvləri Ağdamda həyata keçirilən tikinti-quruculuq işləri ilə tanış olublar**

Ağdama səfər edən Azərbaycanda akkreditə edilmiş diplomatik korpus üzvləri və hərbi nümayəndələr burada aparılan genişmiqyaslı tikinti-quruculuq işləri ilə tanış olublar.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsinin müavini Bəşir Hacıyev nümayəndə heyətinin üzvlərinə Ağdam şəhərinin Baş planı çərçivəsində həyata keçirilən quruculuq işləri barədə ətraflı məlumat verib. Bildirib ki, Böyük Qayıdış proqramına əsasən, 2026-cı ilədək Ağdam şəhərində keçmiş məcburi köçkünlər üçün beş yaşayış məhəlləsi və rayonda 12 kənd tikiləcək.

Artıq şəhərdə Ağdam Konfrans Mərkəzi istifadəyə verilib, 1 nömrəli tam orta məktəbin tikintisi isə yekunlaşmaq üzrədir. İlk yaşayış məhəlləsinin, “Ağdam Residence” yaşayış kompleksinin, “City Hotel Agdam” mehmanxanasının, Ağdam Muğam Mərkəzinin, “Park Qarabağ” yaşayış kompleksinin tikintisi həyata keçirilir. Ağdam Cümə məscidində görülən bərpa-restavrasiya işləri yekunlaşmaq üzrədir. Rayonda iqtisadiyyatın, yerli istehsalın inkişafı məqsədilə sənaye parkı yaradılır. “Qafqazın Xirosiması” kimi tanınan Ağdam Azərbaycan Prezidentinin diqqət və qayğısı ilə regionun ən gözəl şəhərlərindən birinə çevriləcək, doğma yurdlarından 30 il ayrı düşmüş insanların bu torpaqlara təhlükəsiz şəraitdə qayıdışı təmin ediləcək.

**AZƏRTAC**
**2023, 16 avqust**

**Xarici diplomatların və hərbi nümayəndələrin Ağdama səfəri: Həqiqəti görmək istəyi və reallığın gözardı edilməsi cəhdi**

Avqustun 16-da Azərbaycanda akkreditə olunmuş diplomatik korpus üzvləri və hərbi nümayəndələr Ağdama səfər ediblər. Səfərin əsas məqsədi başda Ağdam-Xankəndi avtomobil yolu, həmçinin Bərdə-Ağdam dəmir yolu olmaqla Qarabağ iqtisadi zonasının hazırkı yol infrastruktur potensialı ilə əyani tanış olmaqdır. Eyni zamanda, diplomatik korpus nümayəndələrinə 30 ilə yaxın davam etmiş işğal dövründə Ağdamda törədilən dağıntılar haqqında məlumat verilib. Onlar hazırda davam edən genişmiqyaslı quruculuq işləri və yol-infrastruktur, kommunikasiya, şəhərsalma prosesləri ilə də yaxından tanış olublar.

Ağdama səfər edən heyətə 41 ölkə və 13 beynəlxalq təşkilatdan 100-ə yaxın diplomat və hərbçi daxildir. Lakin təəssüf ki, ermənilərin hazırda şər-böhtan, əsassız ittihamlarla dolu çirkin kampaniyaya başladıqları bir zamanda həqiqətləri yerindəcə görmək, haqqı yalandan ayırmaq üçün Azərbaycanın təqdim etdiyi bu imkandan yararlanmaq istəməyən və bu təşəbbüsə qatılmayan diplomatlar və hərbi nümayəndələr də oldu.

AZƏRTAC bununla bağlı qısa dəyərləndirməni təqdim edir.

Hər bir səfir ölkəsinin təmsilçisi olmaqla yanaşı, həm də siması və simvolu hesab edilir. Bu gün xarici siyasətin, diplomatların imkanları da dəyişərək yeniləşir, zənginləşir. “Yumşaq güc” adlanan çoxşaxəli imkanlar arsenalı beynəlxalq münasibətlər sisteminin bütün sahələrinə nüfuz edir, öz dövlətinin strateji hədəflərini, həm də cəlbedici obrazını real şəkildə tanıtmağa xidmət edir. Məhz buna görədir ki, işğaldan azad edilmiş ərazilərə postmüharibə dövründə mütəmadi qaydada müxtəlif ölkələrin, beynəlxalq diplomatik təsisatların, təşkilatların və nümayəndəliklərin, qlobal assosiasiya, birlik və blokların təmsilçilərinin səfərləri təşkil edilir.

Azərbaycanın təşkil etdiyi budəfəki səfər də diplomatlara Ermənistanın son otuz il ərzində Qarabağda törətdiyi vəhşiliklərin, vandalizm əməllərinin nəticələrini canlı müşahidə imkanı yaradır. Həmçinin nümayiş etdirilir ki, birmənalı şəkildə blokadadan söhbət gedə bilməz, bu iddialar həqiqəti əks etdirmir, reallıqdan tamamilə uzaqdır. İsveç, Kolumbiya, Macarıstan, Meksika, Braziliya, İsrail, Litva, İndoneziya, Liviya, Tacikistan, Gürcüstan, Yaponiya, Argentina, Slovakiya, Sudan, Xorvatiya, Latviya, Türkiyə, Böyük Britaniya, Rumıniya, Rusiya, Çin, Estoniya, Ukrayna, Pakistan, İtaliya, Qırğızıstan, Birləşmiş Ərəb Əmirliyi, Polşa, Mərakeş, Serbiya, Belçika, İsveçrə, İraq, ABŞ, İran, Qazaxıstan, Almaniya, Bolqarıstan, Çexiya, Qətər kimi ölkələrin və BMT, TÜRKPA, İslam Əməkdaşlıq Təşkilatı Gənclər Forumu, Dünya Bankı, Asiya İnkişaf Bankı, Ümumdünya Səhiyyə Təşkilatı, Avropa İttifaqı, Beynəlxalq Miqrasiya Təşkilatının nümayəndələri humanitar fəlakət yaradan Ermənistandan fərqli olaraq Azərbaycanın təklif etdiyi və beynəlxalq tərəfdaşlar tərəfindən də qəbul olunan Ağdam-Xankəndi yolundan istifadənin real olduğuna şahidlik etdilər.

Azərbaycanın Ağdama səfərlə bağlı dəvətinə Fransa, İspaniya, Venesuela kimi ölkələr, ümumiyyətlə, reaksiya verməyiblər. Misir, Kuba, Türkmənistan, Hindistan, Moldova, Fələstin, Çili, Monteneqro, Malayziya, Belarus, Yunanıstan, Avstriya, Küveyt, Koreya, İordaniya, Niderland və Əlcəzairin diplomatik nümayəndələri zəng edib müxtəlif səbəblərlə əlaqədar, yaxud bəziləri heç bir səbəb demədən səfərə qatılmayacaqlarını ifadə ediblər. Bu, əslində, onların Ağdama səfərdən deyil, həqiqəti görməkdən imtina etməsidir.

Azərbaycan dövləti 30 ilə yaxındır ki, müstəqil dövlət qurmaqla yanaşı, təkcə erməni işğalına qarşı deyil, həm də beynəlxalq münasibətləri və hüququ iflic edən ikili standartlara qarşı da mübarizə aparıb. Ermənistanın işğalçılıq və etnik təmizləmə siyasətinin ağır nəticələrinin, dünya ictimaiyyətinin erməni həyasızlığına biganəliyinin və bitərəfliyinin ən yüksək tribunalardan bəyan edilməsi, ölkəmizlə bağlı həqiqətlərin beynəlxalq aləmə çatdırılması üçün gecə-gündüz yorulmadan mübarizə aparılıb və bu, hazırda da davam edir. Məhz haqq-yalan savaşında Azərbaycanın qalib gəlməsi ilə Zəfər diplomatiyası modeli ortaya qoyuldu. Bu, həm də onu göstərdi ki, beynəlxalq aləmdə ikili standartlar siyasəti ağır nəticələr doğurur. Bu ədalətsiz yanaşma, ikili standartlar bumeranq effekti kimi, həmin dövlətlərin özlərinə zərər vuracaq.

Qeyd edək ki, işğaldan azad olunan ərazilərə səfərlər Ermənistanın otuz il ərzində formalaşdırdığı dezinformasiya mənzərəsinin alt-üst edilməsinə, dünya erməniliyinin əsl simasının çılpaq şəkildə ifşa olunmasına, müharibə dövründə törədilmiş vandalizmi, normallaşma prosesində Ermənistanın və onun yaratdığı qondarma separatçı rejimin qeyri-konstruktiv mövqeyinin əsassızlığını tam şəkildə sübuta yetirilməsinə xidmət edir. Bu, həm də Azərbaycanın üzləşdiyi postmüharibə reallıqlarını, ermənilərin azad

edilmiş torpaqlarımızın az qala hər qarışını minaladıqlarını görməyə, Azərbaycanın regionu sabitlik və inkişaf bölgəsinə çevirmək istiqamətində həyata keçirdiyi genişmiqyaslı layihələri, Qarabağın erməni əhalisinin reinteqrasiyası istiqamətində atılan addımları görmək, ermənilərin dünya ictimaiyyətini çaşdırmaq üçün həyata keçirdiyi siyasi manipulyasiyaların əsassız olduğunu dərk etmək üçün gözəl imkandır. Bu baxımdan Ağdama səfər həqiqəti görmək istəyənlər və onu gözardı edərək yalan iddialara qulaq verənlərin aydın təsəvvürünü yaradır.

**Hikmət Əhmədov**

**AZƏRTAC**
**2023, 16 avqust**

**Xarici diplomatlar və hərbi nümayəndələr Bərdə-Ağdam dəmir və avtomobil yollarının tikintisi ilə tanış olublar**

Avqustun 16-da Ağdama səfər edən Azərbaycanda akkreditə edilmiş diplomatik korpus üzvləri və hərbi nümayəndələr Bərdə-Ağdam dəmir və avtomobil yollarının tikintisi işləri ilə tanış olublar.

AZƏRTAC xəbər verir ki, qonaqlara hər iki yolun layihəsi və tikintisi ilə bağlı ətraflı məlumat verilib.

Bildirilib ki, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları ərazisində icra edilən yol infrastrukturu layihələrindən olan Bərdə-Ağdam avtomobil yolunun tikintisi yekunlaşmaq üzrədir. Başlanğıcını Bərdə şəhərindən götürən yolun uzunluğu 44,5 kilometrdir. Avtomobil yolu dörd hərəkət zolaqlı olmaqla I texniki dərəcəyə uyğun inşa edilir. Yolda qovşaqlar, körpülər, yeraltı keçidlər və digər qurğuların inşası tam başa çatdırılıb. Ümumilikdə layihə üzrə nəzərdə tutulan işlərin 88 faizi icra edilib. Yolun tikintisinin yaxın müddətdə başa çatdırılması üçün əraziyə lazımi sayda qüvvə cəlb olunub.

Həmçinin bildirilib ki, Bərdə-Ağdam avtomobil yolu işğaldan azad olunmuş Ağdam şəhərinə qədər inşa edilir. Yolun ilk 14 kilometrlik hissəsi Bərdə şəhəri və rayonun bir neçə yaşayış məntəqəsindən keçir. Ümumilikdə isə avtomobil yolu Bərdə və Ağdam şəhərləri də daxil olmaqla həmin rayonların 20-dən çox yaşayış məntəqəsini əhatə edir.

Bərdə-Ağdam dəmir yolu xətti barədə xarici diplomatlara və hərbi nümayəndələrə məlumat verilərkən bildirilib ki, dəmir yolunun inşası Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 24 noyabr tarixli Sərəncamına əsasən, "Azərbaycan Dəmir Yolları" QSC (ADY) tərəfindən yerinə yetirilir. Layihənin icrasına 2020-ci ildə başlanılıb. Tikinti işlərinin bu ilin sonunadək başa çatdırılması planlaşdırılır.

Qeyd olunub ki, xəttin yan yollarla birlikdə uzunluğu 57,9 kilometr, o cümlədən ox üzrə uzunluğu 47,1 kilometrdir. Bu xəttin üzərində Bərdə, Köçərli, Təzəkənd və Ağdam stansiyaları fəaliyyət göstərəcək. Ümumiyyətlə yol üzərində 130 mühəndis qurğusu, o cümlədən 3 körpü, 1 yolötürücü, 85 suötürücü boru, 1 piyada üst keçidi və 33 ehtiyat keçidinin yaradılması nəzərdə tutulub. Bərdə-Ağdam dəmir yolu xəttinin layihələndirilməsi işlərinin 90, tikinti-quraşdırma işlərinin isə 70 faizi yerinə yetirilib. Xətt üzərində 56,9 kilometr uzunluğunda uzunölçülü relslər quraşdırılıb, mühəndis və digər qurğuların tikintisi başa çatdırılıb.

Qeyd edək ki, səfərdə 45 ölkə və 12 beynəlxalq təşkilatdan 100-ə yaxın diplomat və hərbçi iştirak edir. Səfərin əsas məqsədi başda Ağdam-Xankəndi avtomobil yolu, həmçinin Bərdə-Ağdam dəmir yolu olmaqla Qarabağ iqtisadi zonasının hazırkı yol infrastruktur potensialı ilə əyani tanış olmaqdır. Eyni zamanda, qonaqlara 30 ilə yaxın davam etmiş işğal dövründə Ağdamda törədilən dağıntılar haqqında məlumat veriləcək. Qonaqların hazırda şəhərdə davam edən genişmiqyaslı quruculuq işləri ilə də yaxından tanış olması nəzərdə tutulur.

**AZƏRTAC**
**2023, 16 avqust**

**Azərbaycandakı diplomatik korpus üzvlərinin Ağdama səfəri**

Azərbaycanda akkreditə olunan diplomatik korpus üzvləri və hərbi nümayəndələr avqustun 16-da Ağdama səfər ediblər. Səfərə 45 ölkə və 12 beynəlxalq təşkilatdan 100-ə yaxın diplomat və hərbçi qatılıb.

AZƏRTAC xəbər verir ki, səfər çərçivəsində xarici diplomatlar və hərbi nümayəndələr Ağdam-Xankəndi yolunun istifadəyə açıq olması barədə yerində məlumatlandırılıblar.

Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev yol barədə qonaqlara məlumat verib.

Bildirib ki, tarixən geniş istifadə olunan bu yol Qarabağın dağlıq və aran hissələrini birləşdirir. Sovet dövründə Ulu Öndər Heydər Əliyevin tapşırığı ilə bu yola paralel şəkildə Xankəndiyə qədər uzanan dəmir yolu xətti də inşa edilib.

Məlumat verilib ki, torpaqlarımızın işğaldan azad edilməsindən sonra Prezident İlham Əliyevin tapşırığı ilə görülən ilk iş yolların çəkilməsi olub. Bu yollar həm də Qarabağda ermənilərin yaşadığı ərazilər istiqamətində də çəkilir. Azərbaycan Ermənistan istiqamətində də dəmir və avtomobil yolları çəkir. Bu, onu göstərir ki, Azərbaycan divar və maneələr yox, yollar qurur. Azərbaycan Ağdam-Xankəndi yolunu Qarabağın erməni sakinlərinin Azərbaycanın siyasi, sosial, iqtisadi və mədəni həyatına inteqrasiyasının tərkib hissəsi hesab edir. Bu yol inteqrasiyaya xidmət etməklə yanaşı, nəqliyyat imkanları baxımından daha sərfəlidir. Yol, həmçinin yüklərin Azərbaycanın əsas hissəsindən Qarabağa çatdırılması ilə yanaşı, Qarabağda yaşayan sakinlərin də Azərbaycanın əsas nəqliyyat-infrastruktur sisteminə çıxışını təmin edir.

Qonaqlara məlumat verilib ki, Azərbaycan Qarabağdakı ermənilərə yüklərin, malların çatdırılması üçün Füzuli-Şuşa yolundan istifadə olunmasını da təklif edib. Beynəlxalq Qırmızı Xaç Komitəsinin humanitar yüklərinin bu yol vasitəsilə Xankəndinə çatdırılması barədə avqustun 5-də razılıq əldə olunub. Həmin razılığa əsasən, bundan 24 saat sonra da Azərbaycanın sərhəd və gömrük rejimi qaydalarına riayət olunmaqla Laçın-Xankəndi yolunun da açılması nəzərdə tutulurdu. Lakin Azərbaycan bu yoldan istifadə ediləcəyini bəyan etdikdən sonra ermənilər həmin yolda beton sədlər quraşdırmağa başladılar. Daha sonra isə ermənilər Azərbaycanı guya yolları bağlamaqda ittiham etməyə başladılar. Prezident İlham Əliyev də Şuşa Qlobal Media Forumunda bildirdi ki, Ermənistan yolları bloklayır, Azərbaycan isə avtomobil və dəmir yollarını açır.

Qeyd edilib ki, reinteqrasiyaya alternativin olmadığını hesab edən Azərbaycan Qarabağ ermənilərini öz vətəndaşları kimi görür, onların hüquqlarını və öhdəliklərini öz Konstitusiyası əsasında təmin etməyə hazırdır. Lakin Ermənistan Azərbaycanın bu xoşməramlı addımlarına cavab olaraq, Qarabağda yaratdığı qondarma separatçı rejim vasitəsilə proseslərə mane olur. Eyni zamanda, bu, Ermənistan ilə Azərbaycan arasında sülh müqaviləsi üzrə danışıqlara və iki ölkə arasında münasibətlərin normallaşdırılmasına da mənfi təsir göstərir. Ermənilər beynəlxalq qarayaxma kampaniyasına başlayıblar, lakin bunun heç bir təsiri olmayacaq. Ermənistanın müraciəti əsasında bu məsələ bu gün BMT Təhlükəsizlik Şurasının iclasında müzakirə olunacaq. İyirmi beş il ərzində BMT Təhlükəsizlik Şurasının Azərbaycan torpaqlarının işğalı ilə əlaqədar dörd qətnaməsi masa üzərində qalmışdı. BMT Təhlükəsizlik Şurası cəsarət tapıb Azərbaycanın torpaqlarının işğalını müzakirə edə bilməmişdi, amma bu gün Ermənistanın qaldırdığı məsələ müzakirəyə çıxarılır.

Diqqətə çatdırılıb ki, müzakirələrə hər zaman açıq olan Azərbaycanın arqumentləri və mövqeyi hüquqi, siyasi, hətta mənəvi baxımdan da kifayət qədər əsaslıdır. Ağdamda və Azərbaycanın digər şəhərlərində törədilmiş bu qədər dağıntıdan sonra Ermənistanın Azərbaycan xalqından və dövlətindən üzr istəmək əvəzinə, belə bir təbliğatla məşğul olması məsələnin mənəvi tərəfinin önəmini ortaya qoyur. Buna baxmayaraq, Azərbaycan iki ölkə arasında sülh müqaviləsi istiqamətində danışıqları və münasibətlərin beynəlxalq hüququn norma və prinsipləri əsasında normallaşdırılması prosesini dəstəkləyir. Azərbaycan Qarabağın erməni sakinləri ilə reinteqrasiya məsələlərini müzakirə etmək üçün onları iki dəfə - bir dəfə Bakıya, bir dəfə də Yevlaxa dəvət edib. Təəssüf ki, Ermənistan qeyri-konstruktiv yanaşmasını davam etdirərək, bu dəvətlərdən imtina edib. Bütün bu mesajlar beynəlxalq ictimaiyyət tərəfindən Ermənistana çatdırılmalıdır. Ermənistan ilə Azərbaycan arasında münasibətlərin normallaşdırılması prosesinə töhfə verən tərəfdaşlar - Avropa İttifaqı, Rusiya, ABŞ da danışıqlar prosesində çətinliklə əldə edilmiş nailiyyətlərin Ermənistanın manipulyasiya əməlləri nəticəsində itirilməsinə imkan verməməli, münasibətlərin normallaşdırılması prosesinə, danışıqlara dəstək verməlidirlər. Azərbaycan bu məsələlərin müzakirəsinin digər yerlərdə deyil, məhz burada aparılmasını vacib hesab edir. Bu yol istənilən humanitar yükün Beynəlxalq Qırmızı Xaç Komitəsi vasitəsilə çatdırılması, eyni zamanda, ehtiyac duyulan malların

Azərbaycan ərazisindən daşınması üçün açıqdır və bu yüklər, mallar ən qısa zamanda Xankəndiyə çatdırıla bilər.

**AZƏRTAC**
**2023, 16 avqust**

**Azərbaycanda akkreditə olunmuş diplomatik korpus üzvlərinin və hərbi nümayəndələrin Ağdama səfəri başlayıb**

Avqustun 16-da Azərbaycanda akkreditə olunmuş diplomatik korpus üzvlərinin və hərbi nümayəndələrin Ağdama səfəri başlayıb.

AZƏRTAC xəbər verir ki, heyətə 45 ölkə və 12 beynəlxalq təşkilatdan 100-ə yaxın diplomat və hərbçilər daxildir.

Səfərin əsas məqsədi başda Ağdam-Xankəndi avtomobil yolu, həmçinin Bərdə-Ağdam dəmir yolu olmaqla Qarabağ iqtisadi zonasının hazırkı yol infrastruktur potensialı ilə əyani tanış olmaqdır.

Eyni zamanda, qonaqlara 30 ilə yaxın davam etmiş işğal dövründə Ağdamda törədilən dağıntılar haqqında məlumat veriləcək. Qonaqların hazırda şəhərdə davam edən genişmiqyaslı quruculuq işləri ilə də yaxından tanış olması nəzərdə tutulur.

**Tahir Ağaməmmədov**

**AZƏRTAC**
**2023, 16 avqust**

**Fəzail İbrahimli: Ağdam-Xankəndi marşrutunun ardınca hədəfimiz Zəngəzur-Naxçıvan yoludur**

Bu gün əli hər yerdən üzülən separatçılar beynəlxalq miqyasda rezonans doğurmaq məqsədilə müxtəlif vasitələrdən istifadə edir, erməni diasporunun lobbiçilik etdiyi məlum Avropa institutlarının köməyi ilə Azərbaycana qarşı sanksiyaların tətbiqinə çalışır. Onların uğursuz aksiyası göstərdi ki, separatçılar məğlubiyyətə məhkumdurlar. Son nəticə hər şey prinsipi ilə çıxış edən erməni tərəfi "bədbəxt və əzabkeş artsaxlılar" şüarını gündəmdə saxlamağa, qadın fəalları, feministləri mübarizəyə qatmaqla insan haqları ilə bağlı Avropa institutlarının diqqətini bölgədə cərəyan edən hadisələrə yönəltməyə səy göstərirlər. Amma bu dəfə durum başqadır. Artıq bölgədə ərazi bütövlüyümüzü təmin edən qalib Ordu, beynəlxalq arenada iqtisadi gücü ilə milli maraqlarını həyata keçirən qüdrətli Azərbaycan dövləti və onun güclü lideri var.

Bunu Milli Məclis sədrinin müavini Fəzail İbrahimli AZƏRTAC-a açıqlamasında bildirib.

“Azərbaycan və Ermənistanın mənzərəsini bir anlıq müqayisə edək, yerlə-göy qədər fərq var. Düşmən ölkə quyunun dibindədir. Ermənilər Qarabağ döyüşlərində rəzil günə düşmüşdülər, Ermənistanda indi baş verənlər isə bu ölkənin taleyinin qaranlıq olduğunu göstərir. Son BMT fiaskosunda ermənilər bunu anlamış olmalı idilər. Amma yenidən fransız ikiüzlülüyünə və rus hərbinə güvənib erməni xislətini ortaya qoyurlar. Bakıdan Xankəndiyə göndərilən yardım karvanının qarşısı rus sülhməramlıları tərəfindən alınır, əvəzində Fransanın yeni “humanitar təxribat”ına rəvac verilir. Baş verənlər bir daha Ağdam-Xankəndi yolunun istifadəsinə məqsədyönlü şəkildə Ermənistan və onun Azərbaycanın Qarabağ bölgəsində yaratdığı və dəstəklədiyi qondarma rejim tərəfindən süni əngəllər yaradıldığını sübut edir”, - deyə Milli Məclis sədrinin müavini deyib.

Azərbaycan tərəfinin Qarabağda yaşayan erməni vətəndaşlarımızın təhlükəsizliyini, sağlamlığını və təminatını da öz üzərinə götürməyə hazır olduğunu diqqətə çatdıran F.İbrahimli qeyd edib: “Ağdam-Xankəndi yolu ilə humanitar missiyanı reallaşdırmaq tam mümkündür. Bu proses məhz dövlətimizin dəstəyi ilə baş tutmalıdır. Çünki kənar dəstək, Ermənistanın dəstəyi ilə humanitar yardımlar siyasi məqsəd daşıyır. Bizim mövqeyimiz budur ki, Qarabağ ermənilərinin cəmiyyətimizə reinteqrasiya prosesi sürətləndirilsin, bölgəni hərbisizləşdirilməklə dayanıqlı sülh təmin olunsun. Əks təqdirdə, biz görürük ki, Ermənistan vəziyyətdən sui-istifadə edir, Azərbaycanın humanist jestinə qarşı atəş açır, mövqelərimiz atəşə tutulur. Ona görə də “Laçın” dövlət sərhədindən buraxılış məntəqəsindən mülki insanların keçdiyini nəzərə alaraq Azərbaycan bu sərhəd postunda təhlükəsizliyi birtərəfli qaydada təmin etmək məsuliyyətini öz üzərinə götürüb. Bir məqamı da xatırladaq ki, münaqişədən əvvəl Bakı-Ağdam-Xankəndi-Şuşa avtomobil yolu və Bakı-Ağdam-Xankəndi dəmir yolu xətti Qarabağın inkişafında önəmli rol oynayırdı. Münaqişə dövründə dəmir yolu xətti sıradan çıxsa da, avtomobil yolu ilə gediş-gəliş tamamilə mümkündür. Ona görə də ermənilərin hər hansı bəhanəsinə yer yoxdur”.

Milli Məclis sədrinin müavini bildirib ki, bu gün Azərbaycanın iqtisadi potensialı, gücü Qarabağdakı erməni sakinlərimizin sosial məsələlərinin həllinə imkan verir. Bu bölgə Azərbaycanın ərazisi olduğu üçün artıq bütün kommunikasiyalar məhz dövlətimizin vasitəsilə həyata keçirilməlidir. Bu baxımdan, Ağdam-Xankəndi yolu böyük önəm kəsb edir. Buna görə Azərbaycanın bu məsələdə mövqeyi qətidir: Ağdam-Xankəndi yolu açıldıqdan sonra Azərbaycanın gömrük və sərhəd rejimi qaydalarına riayət etməklə Laçın-Xankəndi yolundan istifadə edilə bilər. Ermənistan da, ona havadar olanlar da əmin olsun ki, Azərbaycan mövqeyindən geri çəkilən deyil, əksinə, son təxribatlar Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə quru əlaqəsini yaratması istiqamətində arqumentlərini gücləndirir, belə ki, əsl blokadada qalan elə Naxçıvandır. Amma nədənsə Naxçıvanın blokadasından danışmaq məsələsinə gələndə Ermənistana havadar olanların qulaqları kar, gözləri kor, dilləri lal olur.

“Azərbaycan isə irəliyə baxır, Bakı üçün regional nəqliyyat və kommunikasiya blokadasının yarılması Zəngəzur dəhlizi paketinin içərisində xüsusi əhəmiyyət daşıyır. Azərbaycan üçün artıq “Laçın dəhlizi deyilən anlayış yoxdur, əvəzində Zəngəzur koridoru olacaq” diktəsi var. Hətta o məntiq də doğur ki, Azərbaycanın Zəngəzur dəhlizi ilə əldə etdiyi razılaşmaları yaxın zamanlarda icra edəcəyinə cavab olaraq humanitar yük şousu ortaya atılıb. Ancaq bu təxribat Azərbaycanın qarşısını ala bilməyəcək və gün keçdikcə, Zəngəzur dəhlizi aktuallıq çəkisini artırdıqca rəsmi Bakı lazım olan bütün addımları atacaq. Bakı-Ağdam-Xankəndi marşrutunun ardınca növbəti addım Bakı-Zəngəzur-Naxçıvan yoludur”, - deyə F.İbrahimli qeyd edib.

**AZƏRTAC**

**2023, 30 avqust**

**Diplomatik korpus Ağdam-Xankəndi yolunda Azərbaycan Qızıl Aypara Cəmiyyətinin ərzaq yüklərinin yerləşdiyi məntəqə ilə tanış olacaq**

Avqustun 31-də Azərbaycanda akkreditə olunan diplomatik korpusun nümayəndələri və hərbi attaşelərinin Ağdama tanışlıq səfəri başlayıb.

AZƏRTAC xəbər verir ki, səfərdə 50-dən artıq ölkə və beynəlxalq təşkilatdan 60-a yaxın şəxs, o cümlədən Türkiyə, Çin, Rusiya, Yaponiya, İsveçrə, Polşa, Çexiya, Bolqarıstan, Rumıniya, Serbiya, Argentina, Kolumbiya, Meksika, Cənubi Koreya, İndoneziya, İsrail, Birləşmiş Ərəb Əmirlikləri, Əlcəzair, Qətər, İraq, İran, Əfqanıstan, Liviya, Fələstin, Ukrayna, Qazaxıstan, Özbəkistan, Belarus, Gürcüstan, Tacikistan və digər ölkələrin, Birləşmiş Millətlər Təşkilatı, Ümumdünya Səhiyyə Təşkilatı, TÜRKPA və sair beynəlxalq təşkilatların təmsilçiləri, habelə xarici jurnalistlər iştirak edirlər.

Diplomatlar Ağdam-Xankəndi yolunda Azərbaycan Qızıl Aypara Cəmiyyətinin ərzaq yüklərinin yerləşdiyi məntəqə ilə tanış olacaqlar.

Qeyd edək ki, avqustun 29-da Azərbaycan Qızıl Aypara Cəmiyyəti Qarabağ iqtisadi rayonunda yaşayan erməni əsilli şəxslərin ehtiyaclarını qarşılamaq üçün ərzaq yükü təşkil edib. İlkin mərhələdə Ağdam-Xankəndi yolu ilə 40 ton un məmulatının ünvana çatdırılması nəzərdə tutulur.

**AZƏRTAC**
**2023, 31 avqust**

**Ağdam-Xankəndi yolunun açılmamasının təşkilatçısı məhz BQXK-dır - ŞƏRH**

Qarabağda fəaliyyət göstərən qondarma qurumun rəhbərliyi dəyişdi və hətta bu gün təntənəli şəkildə "andiçmə mərasimi" təşkil olundu. Elə təəssürat yarandı ki, Araik Arutunyandan fərqli olaraq Samvel Şahramanyan baş verən proseslərə məntiqli yanaşacaq və reinteqrasiya proseslərini başlamağa cəhd edəcək. Lakin erməni xisləti S.Şahramanyanda da təcəlli edərək Azərbaycana qarşı bəyanatların səslənməsi və bu gün "inauqurasiya" keçirilməsi ilə müsbət nəticələrə olan ümidləri birdəfəlik yox etdi. Yerli ermənilər və onlara dəstək verən Beynəlxalq Qırmızı Xaç Komitəsinin (BQXK) ofisi humanitar fəlakət şousunun təkcə Azərbaycana deyil, həmçinin Rusiya Federasiyasına qarşı olduğunu bir daha öz əməlləri ilə sübut etdi.

Bu sözləri AZƏRTAC-a açıqlamasında politoloq Amid Əliyev söyləyib.

Onun sözlərinə görə, Rusiyadan Qarabağda yaşayan ermənilər üçün məhz Azərbaycanın təklif etdiyi yol ilə gələn humanitar yardım maşını artıq 2 gündür Bərdədə gözləyir. Ərazidə təhlükəsizliyi təmin edən Rusiya sülhməramlı qüvvələri mövcud olduğu təqdirdə belə bir hadisənin baş verməsi anlaşılmır, həm də qəbuledilməzdir. Qeyd olunanlar fonunda Qərbin direktivlərini canla-başla yerinə yetirən BQXK-nın canfəşanlığı ortaya çıxır. Ümumiyyətlə, bu təşkilatın fəaliyyətinin istər Birinci Qarabağ müharibəsində, istərsə də 44 günlük Vətən müharibəsində çox şübhəli və ermənipərəst olması artıq heç kimdə şübhə yaratmır. Bu, açıq-aşkar Qarabağda casusluq və kəşfiyyat-pozuculuq fəaliyyəti kimi qiymətləndirilə bilər.

"Əslində 4000 nəfərə yaxın itkin düşmüş azərbaycanlının taleyi ilə maraqlanmayan, humanitar yardım işini bərbad hala salan, əsirlərin dəyişdirilməsini biznesə çevirən və sonda Laçın yolu ilə əraziyə kontrabanda keçirən BQXK-dan bu addım gözlənilən idi. Qərbin bir sıra siyasi dairələrindən maliyyə yardımları alan bu təşkilat bölgədə sülhün əldə olunmasını tamamilə əngəlləməyə və reallığa uyğun olmayan aclıq şousunu yaratmağa çalışır. Həmçinin reinteqrasiya prosesinə maneə olmağa xidmət edir. Ağdam- Xankəndi yolunun açılmaması və bölgədəki uydurulmuş "blokada şousu"nun təşkilatçısı məhz BQXK-dır. İkinci Qarabağ müharibəsində ermənilərə kəşfiyyat və əməliyyat məlumatlarını ötürən belə bir təşkilatın məramı təbii ki, humanistlik yox, ziddiyyət yaratmaq, konfrantasiyanı pik həddə çatdırmaq və ərazidə yaşayan erməniləri özlərinin çirkin oyunlarının alətinə çevirməkdir.

Əgər Azərbaycandan gələn humanitar yükün əraziyə buraxılmamasının kökündə iki xalq arasında illərlə formalaşan əks münasibətlər durursa, Rusiyadan gələn yardımın əraziyə daxil ola bilməməsində isə Qərb imperializminin siyasi ambisiyaları və Rusiyanın ərazidən çıxarılması iddiası dayanır. Yüklərin əraziyə buraxılması bütövlükdə bölgədə "blokada", "humanitar fəlakət" və "aclıq" kimi terminləri özündə cəmləşdirən şounun tamamilə oyun olmasını ortaya qoyacaq. Eyni zamanda, ermənilərin onsuz da itirilmiş etibarı bir daha darmadağın olacaq. Məhz ona görə BQXK və ona təlimat verənlər bunun baş verməməsimə çalışırlar", - deyə A.Əliyev bildirib.

O əlavə edib ki, Azərbaycanın bu istiqamətdə mövqeyi daha aydın və demokratikdir. Ərazidəki qondarma qurum özünü buraxmalı, silahlı ermənilər ərazini tərk etməli, yüklər ancaq Azərbaycan tərəfindən təmin edilməli və reinteqrasiya prosesi başlamalıdır. Bunları yerinə yetirilməsi isə birbaşa Ermənistan siyasi hakimiyyətinin üzərinə düşən funksiyadır. Bu gün separatçıları hər cür dəstəkləyən Ermənistan siyasi hakimiyyəti bununla bir daha sülhə hazır olmadığını bəyan edir. Belə olan halda isə Azərbaycan dövləti yenidən "Ermənistanı sülhə məcburetmə mexanizm"indən istifadə edəcək. Əgər Ermənistan eyni ritorikanı davam etdirərsə, bu proses olduqca yaxındır. Bunu ermənilər nə qədər tez başa düşsələr, bir o qədər faydalarına olar.

**AZƏRTAC**
**2023, 10 sentyabr**

**Ermənilər Ağdam-Xankəndi yolundan humanitar yüklərin buraxılmasına niyə mane olurlar?**

Artıq bir neçə aydır ki, Laçın yolu ətrafında Azərbaycana qarşı Ermənistan və onun havadarları tərəfindən təşkil edilmiş geniş beynəlxalq qarayaxma və təzyiq kampaniyası davam etməkdədir. Bu proseslərin davamı olaraq avqustun 29-da Azərbaycan Qızıl Aypara Cəmiyyəti tərəfindən Qarabağda yaşayan ermənilərə göndərilən ərzaq tırları 14 gündür ki, Qarabağa daxil ola bilmir. Dünən isə Rusiya Qırmızı Xaç Cəmiyyətinin göndərdiyi yardım tırı da Qarabağa orada kök salmış cinayətkar ünsürlər tərəfindən buraxılmır. Bütün bunlar bir daha onu göstərir ki, Ermənistan rəhbərliyi, Qarabağdakı cinayətkar ünsürlər Ağdam yolunun açılmasına tək bir səbəbə görə müqavimət göstərirlər. Onlar Ağdam yolunun açılması ilə qarşısı alınmaz reinteqrasiya prosesinin başlanacağını anlayırlar. Bu isə onların gələcək üçün bütün məkrli planlarının bir dəfəlik dəfn edilməsi deməkdir.

Bu sözləri AZƏRTAC-a açıqlamasında Cənubi Qafqaz Tədqiqatlar Mərkəzinin direktor müavini, politoloq Fuad Çıraqov söyləyib

Onun sözlərinə görə, Azərbaycan bütün “humanitar böhran şousu” dövründə istifadə üçün təkidlə Ağdam yolunu göstərirdi. Ermənistan tərəfi isə bunu qətiyyətlə rədd edirdi. Onun havadarları da Qarabağa getmək üçün Ağdam və digər yolların mövcudluğu faktını riyakarcasına görməzlikdən gəlirlər. Qarabağ sanki tək bir limanı olan adadır. Gözləmək olardı ki, Rusiya Qırmızı Xaç Cəmiyyətindən sonra Ağdam yolundan istifadə növbəsi ABŞ, Fransa və humanitar vəziyyətdən digər "narahat" ölkələrə gələcək. Onlar da öz yardımlarını “əzabkeş” və “məzlum” donuna bürünmüşlərə göndərəcəklər və bununla da məsələ bağlanaraq, yenidən sülh gündəliyindəki fundamental məsələlər müzakirə olunacaq. Sual yaranır axı nə üçün digərləri də eyni qayda ilə Ağdam yolundan istifadə edərək humanitar yardım göndərə bilmirlər? Nə mane olur onlara? Nə üçün həmin ölkələr bu qədər enerjilərini Azərbaycanla münasibətlərini pisləşdirmək üçün sərf edirlər? Fransa və Avropa İttifaqının (Aİ) Xarici Əlaqələr və Təhlükəsizlik Siyasəti üzrə Ali Nümayəndəsi/Aİ Komissiyasının vitse-prezidenti Cozep Borel nə deyirdi? Ağdam Laçına alternativ olmamalıdır. Niyə? Nə üçün hansısa dövlət hər ikisi Azərbaycanın tam suveren ərazisi olan Ağdam və ya Laçın yolunun istifadəsi ilə bağlı ölkəmizə diktə etməlidir? Kim və nə onlara bu hüququ verib? Elə dünən C.Borell amiranə formada tvitində "Laçın yolu açılmalıdır" deyə yazmışdı.

"Rusiya Qırmızı Xaç Cəmiyyətinin göndərdiyi tır alternativ yolun olduğunu hər kəsə göstərdi. Artıq həmin yardımın qəbul edilib- edilməməsi heç nəyi dəyişmir. Rusiya Qırmızı Xaç Cəmiyyətinin göndərdiyi tır bütün əsassız təbliğatı alt-üst və ifşa etdi. Məhz buna görə də bəzi ölkələr narahat olaraq hər vəchlə indi Ağdam yolunda olan tırlara mane olmaq üçün əllərindən gələni edirlər. Onlar yaxşı anlayırlar ki, bundan sonra artıq Qarabağdakı Qırmızı Xaç Cəmiyyətinin fəaliyyəti birbaşa Bakı ofisinə tabe edilməli olacaq. Bu isə həmin təşkilat vasitəsi ilə bölgədə əvvəllər həyata keçirilən bütün qeyri-qanuni fəaliyyətə son qoyulması demək olacaq",- deyə F. Çıraqov söyləyib.

**AZƏRTAC**
**2023, 11 sentyabr**

**Ağdam-Xankəndi yolundan istifadə ölkəmizin növbəti qələbəsidir – ŞƏRH**

Tarixən belədir ki, xalqın özü yox, başqaları tərəfindən yaradılıb ortaya atılan dövlətlər heç zaman müstəqil yaşaya bilmir, kimlərinsə əlində alətə çevrilir, təcavüzkar xislətə malik olurlar. Təbii ki, belə qurama dövlətlərin fəaliyyətindən ən çox ziyan çəkənlər də onun qonşuları olur. Mövcud olduğu vaxtdan Ermənistanın davranışlarına baxdıqda bunu aydın görmək olur. Tarixi Azərbaycan torpaqlarında quraşdırılan bu dövlət Cənubi Qafqazda hər zaman təhlükə mənbəyi olub, qonşularına problemlər yaşadıb, soyqırımları törədib. Otuzillik işğala son qoyulduqdan keçən 3 il müddətdə Ermənistanın hələ də sülhə gəlməməsinin kökündə də mahiyyət etibarilə məhz bu amillər dayanır. Azərbaycanın münasibətlərin normalaşması istiqamətində atdığı addımlara baxmayaraq, məğlub ölkə bundan boyun qaçırır, əldə olunmuş razılaşmalardan geri çəkilir, siyasi və hərbi təxribatlar törədərək öhdəlikləri yerinə yetirmir, yenə də işğal xəyalları ilə yaşayır. Son günlər şərti sərhəddə Ermənistanın məğlub və fərari ordusunun törətdiyi hərbi təxribatlar da bilavasitə bunların davamıdır.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının (AHİK) sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev deyib.

“Ermənistan Laçın yolundan qanunsuz hərbi və digər çirkin məqsədlər üçün istifadə etdiyinə görə, Azərbaycan bu ilin aprel ayında yolda normal və nümunəvi şəkildə fəaliyyət göstərən sərhəd-buraxılış məntəqəsini qurdu. Bunu həzm edə bilməyən Ermənistan bütün qarayaxmalardan istifadə etdi, real vəziyyəti gizlədərək Azərbaycan əleyhinə yalan və böhtan xarakterli təbliğat apardı, hətta hərbi təxribata belə getdi. Həmçinin sərhədə "humanitar konvoy" göndərərək beynəlxalq ictimaiyyəti çaşdırmağa çalışdı. Bölgədə "blokada" və "humanitar böhran"ın olması ilə bağlı əsasız ittihamlar səsləndirdi, şoular düzəltdi. Bizim təklif etdiyimiz Ağdam-Xankəndi yolundan isə birmənalı şəkildə imtina edirdi. Elə düşünürdü ki, guya Azərbaycanı geri çəkilməyə məcbur edə biləcək. Amma unutdu ki, döyüş meydanında böyük hərbi Qələbə qazanan Azərbaycanı, ümumiyyətlə, siyasi müstəvidə məğlub etmək mümkün deyil. Ermənistanın bütün cəhdlərinə baxmayaraq, Qarabağın erməni sakinlərinin ehtiyaclarının qarşılanması üçün təklif etdiyimiz Ağdam-Xankəndi yolundan istifadə artıq reallığa çevrilib. Azərbaycan sübut etdi ki, bura Azərbaycan ərazisidir və yolun haradan keçəcəyi barədə qərarı da o verir. Ermənistanın mənasız və əsassız çabaları isə Azərbaycanın daxili işlərinə qarışmaqdır ki, digər iddiaları kimi, mütləq iflasa uğrayacaq. O ki qaldı, havadarlarının dəstəyinə, bu məsələdə də Azərbaycan sübut edib ki, onunla heç kim təzyiq dili ilə danışa bilməz”, - deyə AHİK sədri bildirib.

Səttar Möhbalıyev əlavə edib ki, Ermənistanın xüsusən son zamanlar bölgəyə yad olan qüvvələr gətirməsi, sərhəddə hərbi təxribatlara əl atması, qoşun cəmləməsi, Xankəndidəki “prezident seçkiləri” oyunları onun özü üçün yaxşı heç nə vəd etmir və baş verəcək hadisələrə görə məsuliyyət daşıyır.

**AZƏRTAC**
**2023, 13 sentyabr**

**XİN: Azərbaycan tərəfi Ağdam-Xankəndi və Laçın-Xankəndi yollarından paralel istifadənin təşkilinə hazırdır**

Azərbaycanla əlaqələndirilmiş şəkildə Laçın-Xankəndi və Ağdam-Xankəndi yollarından paralel istifadə edilməsi təklifi uzun müddətdir ki, Azərbaycan tərəfindən irəlilədilir və müxtəlif səviyyələrdə geniş müzakirə olunurdu. Təəssüf ki, əldə edilmiş razılıqlara və beynəlxalq tərəfdaşların çağırışlarına baxmayaraq, Ermənistan və onun tərəfindən Qarabağ bölgəsində yaradılmış qondarma rejim belə keçidin təşkilinə mane olurdu.

AZƏRTAC xəbər verir ki, bunu Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadə Ağdam-Xankəndi və Laçın-Xankəndi yollarından eyni zamanda istifadə ilə bağlı yerli medianın sualını cavablandırarkən deyib.

“Bu gün BQXK Azərbaycan tərəfinə müraciət edərək qarşı tərəfin sentyabrın 18-də Ağdam-Xankəndi və Laçın-Xankəndi yollarından paralel olaraq yüklərin qəbuluna razı olduğu barədə ilkin məlumat verib. Yaxın zamanlarda BQXQ tərəfindən Azərbaycan tərəfinə bu barədə rəsmi nota təqdim edilməsi gözlənilir. Əvvəllər də qeyd edildiyi kimi, Azərbaycan tərəfi ölkəmizin qanunvericiliyinin tələblərinə riayət olunmaqla, Ağdam-Xankəndi və Laçın-Xankəndi yollarından paralel istifadənin təşkilinə hazırdır”, - deyə Ayxan Hacızadə qeyd edib.

**AZƏRTAC**
**2023, 17 sentyabr**

**Azərbaycan Qızıl Aypara Cəmiyyəti: Ağdam-Xankəndi və Laçın-Xankəndi yolları vasitəsilə yüklərin çatdırılması barədə razılığı alqışlayırıq**

Azərbaycan Qızıl Aypara Cəmiyyəti Beynəlxalq Qızıl Xaç Komitəsinin maşınları ilə Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi ərazilərimizə yüklərin Ağdam-Xankəndi və Laçın-Xankəndi yolları vasitəsilə çatdırılması barədə razılığın əldə edilməsini alqışlayır.

Bu barədə AZƏRTAC-a Azərbaycan Qızıl Aypara Cəmiyyətindən bildirilib.

"Təəssüf edirik ki, hər iki yolun eyni anda açılması ilə bağlı hələ bu il sentyabrın 1-də razılıq əldə edilməsinə baxmayaraq, bunun reallaşdırılması yalnız sentyabrın 18-də baş verəcək.

Azərbaycan Qızıl Aypara Cəmiyyəti hesab edir ki, yüklərin aparılmasının siyasiləşdirilməsi, onun qarşısının alınması yolverilməzdir. Zərurət olduğu təqdirdə, müstəqil, bitərəf təşkilat olan Azərbaycan Qızıl Aypara Cəmiyyəti bu prosesə istənilən dəstəyi verməyə hazırdır", - deyə məlumatda qeyd edilib.

**AZƏRTAC**
**2023, 17 sentyabr**

**Vətən müharibəsinin xronikası: 1 oktyabr**

***2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin cəbhəboyu törətdiyi genişmiqyaslı təxribatlara cavab olaraq Azərbaycan Ordusu əks-hücum əməliyyatına başladı. İgid döyüşçülərimiz 44 gün dayanmadan irəlilədilər və otuz il işğal altında qalan torpaqlarımızı azad edərək qəhrəmanlıq dastanı yazdılar.***

***AZƏRTAC 44 günlük Vətən müharibəsinin gedişini xronoloji ardıcıllıqla təqdim edir.***

***Müharibənin 5-ci günü***

• Vətən müharibəsinin beşinci gününün sonunadək düşmən bütün cəbhə boyunca tutduğu mövqelərdən və ərazinin mühüm sahələrindən geri çəkilməyə məcbur edilib. Ermənistan ordusunun müxtəlif istiqamətlərdə hərəkət edən hərbi kolonları bölmələrimiz tərəfindən dəqiq atəşlə məhv edilib. Vətən müharibəsi başladığı gündən düşmənin 200-dək tank və digər zirehli texnikası, 228 ədəd artilleriya, yaylım atəşli raket sistemləri, minaatanları, 30 ədəd hava hücumundan müdafiə vasitələri, 6 komanda-idarəetmə və komanda-müşahidə məntəqəsi, 5 silah-sursat anbarı, 110-dan çox avtomobil texnikası, 1 ədəd "S-300" zenit-raket kompleksi sıradan çıxarılıb.

Bu barədə hərbi informasiya mərkəzində keçirilən brifinqdə **məlumat** verilib.

• Belarus Prezidenti Aleksandr Lukaşenko Azərbaycan Prezidenti İlham Əliyevə telefonla **zəng edib** və Ermənistan-Azərbaycan təmas xəttində silahlı qarşıdurma ilə bağlı yaranmış vəziyyətlə maraqlanıb. Dövlətimizin başçısı Belarus Prezidentini Ermənistan tərəfinin törətdiyi təxribatlar və buna cavab olaraq Azərbaycan Ordusunun əks-hücum əməliyyatları barədə məlumatlandırıb.

• Ermənistan silahlı qüvvələri Azərbaycanın yaşayış məntəqələrini növbəti dəfə ağır artilleriyadan atəşə tutub. Nəticədə mülki əhali arasında həlak olanların sayı 19-a, xəsarət alanların sayı 55-ə çatıb. Bu barədə Azərbaycan Respublikası Baş Prokurorluğu **məlumat yayıb**.

• Azərbaycan Ordusunun sentyabrın 27-dən başlayaraq əks-hücum əməliyyatları nəticəsində işğaldan azad etdiyi ərazilərdən **ilk görüntülər** yayılıb. Görüntülərdə Azərbaycan Silahlı Qüvvələrinin hərbçilərinin həmin ərazilərdə möhkəmləndiyi əks olunub. Kadrlardan görünür ki, ərazilərdə məhv edilən düşmənin xeyli sayda texnikası, silah-sursatı qalıb.

• AZƏRTAC-ın cəbhə bölgəsinə ezam olunmuş müxbirləri xəbər verib ki, Ermənistan ordusunun bölmələri **Tərtər** şəhərini, Ağdamın **Gül Baharlı** kəndini, Füzulinin **Horadiz** şəhərini və **Arayatlı** kəndini, Goranboy rayonunun **Tapqaraqoyunlu** kəndini, **Aşağı Ağcakənd** qəsəbəsini və digər yaşayış məntəqələrini ağır silahlardan atəşə tutublar. Bu müharibə cinayətləri nəticəsində onlarla ev və infrastruktur obyekti dağılıb, yaxud ziyan çəkib.

**AZƏRTAC**
**2023, 1 oktyabr**

**Vətən müharibəsinin xronikası: 2 oktyabr**

***2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin cəbhəboyu törətdiyi genişmiqyaslı təxribatlara cavab olaraq Azərbaycan Ordusu əks-hücum əməliyyatına başladı. İgid döyüşçülərimiz 44 gün dayanmadan irəlilədilər və otuz il işğal altında qalan torpaqlarımızı azad edərək qəhrəmanlıq dastanı yazdılar.***

***AZƏRTAC 44 günlük Vətən müharibəsinin gedişini xronoloji ardıcıllıqla təqdim edir.***

**Müharibənin 6-cı günü**

• Azərbaycan Ordusu əks-hücum əməliyyatlarını cəbhənin bütün istiqamətlərində uğurla davam etdirib. Müdafiə Nazirliyinin **məlumatına** görə, Ağdərə istiqamətində Madagiz ətrafındakı strateji yüksəkliklər düşməndən azad olunub. Cəbrayıl-Füzuli istiqamətində qoşunlarımız düşmənin müqavimətini qıraraq onu geri çəkilməyə məcbur edib. Ordumuz Murov dağı istiqamətində də əməliyyat şəraitini tam nəzarətə götürüb. Əməliyyatların gedişində düşmənin 5 zirehli və avtomobil texnikası, 3 hərbi infrastruktur obyekti və xeyli sayda canlı qüvvəsi məhv edilib. Bundan başqa, dayaq məntəqəsinə silah-sursat çatdıran texnikalar bölmələrimiz tərəfindən sıradan çıxarılıb.

• Azərbaycan Prezidenti İlham Əliyev oktyabrın 2-də “Əl-Cəzirə” televiziya kanalına **müsahibə** verib. Dövlətimizin başçısı müsahibəsində Ermənistan silahlı qüvvələrinin genişmiqyaslı təxribatları və Azərbaycan Ordusunun həyata keçirdiyi əks-həmlə əməliyyatı, habelə münaqişə barədə sualları cavablandırıb.

• Ermənistan silahlı qüvvələrinin 193-cü desant həmlə taborunun hava endirim komanda birliyinin döyüş bayrağı **ələ keçirilib**.

• Düşmən ordusuna məxsus ondan çox texnika, o cümlədən “URAL” markalı hərbi maşınlarında silah-sursat, geyimlər, əsgər ləvazimatları **aşkarlanıb**. Texnikaların əksəriyyəti istifadəyə yararlıdır.

• Müdafiə Nazirliyi düşmənin canlı qüvvəsinin və döyüş texnikasının məhv edilməsinə dair **yeni görüntüləri** paylaşıb.

• AZƏRTAC-ın cəbhə bölgəsinə ezam olunmuş müxbirləri xəbər verib ki, Ermənistan ordusunun bölmələri Ağdamın **Birinci Alıbəyli** qəsəbəsini, Goranboy rayonunun **Səfikürd** kəndini, Ağcabədi rayonunun **Hacılar** kəndini, Cəbrayıl rayonunun **Cocuq Mərcanlı** kəndini və digər yaşayış məntəqələrini ağır silahlardan atəşə tutublar. Bu müharibə cinayətləri nəticəsində onlarla ev və infrastruktur obyekti dağılıb, yaxud ziyan çəkib.

**AZƏRTAC**
**2023, 2 oktyabr**

**Ağdam-Füzuli avtomobil yolunun tikintisi ilə tanışlıq**
*(15 oktyabr 2023-cü il)*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 15-də Ağdam-Füzuli avtomobil yolunun tikintisi işlərinin gedişi ilə tanış olub.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov dövlətimizin başçısına görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, 2021-ci ilin oktyabrında təməli qoyulan və inşası sürətlə davam edən Ağdam-Füzuli avtomobil yolu Qarabağ iqtisadi rayonu ərazisində icra olunan, işğaldan azad edilmiş rayon və kəndlərin sosial-iqtisadi inkişafında mühüm rol oynayacaq layihələrdən biri sayılır.

Bərdə-Ağdam avtomobil yolunun davamı olan bu yol Ağdam, Ağcabədi, Füzuli rayonlarının ərazisindən keçir. Uzunluğu 64,8 kilometr, hərəkət hissəsinin eni 15 metr təşkil edəcək yol 4 hərəkət zolaqlı olmaqla, birinci texniki dərəcəyə uyğun inşa edilir.

Torpaq işlərinin icrası çərçivəsində yararsız süxurun çıxarılması, qazma, yatağın genişləndirilməsi işləri davam etdirilir. Həmçinin yol boyunca suların ötürülməsini təmin etmək məqsədilə müxtəlif ölçülü suötürücü borular, su keçidləri, zəruri olan yerlərdə yeraltı və kommunikasiya xətləri üçün nəzərdə tutulan ehtiyat keçidlərinin tikintisi aparılır. Yol üzərində layihələndirilən körpülərin tikintisi davam etdirilir və yol əsasının inşası bitən hissələrdə asfalt-beton örtüyün döşənməsi işləri görülür.

Sonra yolun tikintisi ilə bağlı görülən işləri əks etdirən videoçarx nümayiş olundu.

Qeyd edək ki, yolun inşası Bərdədən Ağdam və Füzuliyədək, həmçinin əks istiqamətdə rahat gediş-gəlişi təmin edəcək, yolboyu sosial-iqtisadi inkişafa müsbət təsir göstərəcək.

**AZƏRTAC**
**2023, 15 oktyabr**

**Ağdam Sənaye Parkının 190 hektarlıq ərazisinin yarısı rezidentlərə verilib**

Ağdam Sənaye Parkında təmir-tikinti materiallarının istehsalına üstünlük verilir. Burada fəaliyyət göstərəcək rezidentlər müxtəlif imtiyazlardan yararlana biləcəklər və ərazidə çalışan inşaat şirkətləri üçün də əlverişli mühit yaradılacaq.

AZƏRTAC xəbər verir ki, bunu Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Prezidentinin xüsusi nümayəndəsinin müavini Bəşir Hacıyev Xəzər İnşaat Həftəsi çərçivəsində keçirilən "Azərbaycan Respublikasının işğaldan azad olunmuş ərazilərə əhalinin geri qayıdışı, daha yaxşı quruculuğu" panelində deyib.

Bəşir Hacıyev qeyd edib ki, Ağdam şəhərində yerləşən 190 hektarlıq Sənaye Parkının ərazisinin tam yarısı rezidentlərə verilib.

**AZƏRTAC**
**2023, 19 oktyabr**

**Ağdam, Şəmkir və Cəbrayılda kəhrizlərdə bərpa işləri aparılır**

Beynəlxalq Miqrasiya Təşkilatının (BMqT) və Koreya Beynəlxalq Əməkdaşlıq Agentliyinin (KOICA) Azərbaycandakı nümayəndəlikləri Ağdam, Şəmkir və Cəbrayıl rayonlarına monitorinq səfəri həyata keçirib.

BMqT-nin Azərbaycandakı nümayəndəliyindən AZƏRTAC-a verilən məlumata görə, səfərin məqsədi “Azərbaycanda kəhriz su sistemlərinin bərpası vasitəsilə məcburi köçkünlərin məskunlaşdığı ərazilərdə kənd yerlərinin kompleks inkişafı” layihəsinin icrasını qiymətləndirmək olub. Layihə sahələrinə baş çəkməzdən əvvəl Mingəçevirdə tamamlanan və planlaşdırılan bərpa işlərinin icmalı ilə bağlı görüş keçirilib. İştirakçılar gələcək planları və bərpa olunan kəhrizlərin təhvil verilmə tarixlərini müzakirə ediblər.

Layihə sahələrinə səfər zamanı BMqT-nin Azərbaycan nümayəndəliyinin rəhbəri vəzifəsini müvəqqəti icra edən Amr Taha kəhrizlərin bərpasının fərdi ev təsərrüfatları səviyyəsində su və gigiyena imkanlarının yaxşılaşdırılmasına, icma səviyyəsində iqtisadi inkişafa töhfə verdiyini və daha geniş miqyasda Azərbaycanın yaşıl və ağıllı yaşayış məntəqələrinin yaradılması konsepsiyasına dəstək olduğunu qeyd edib. “Bütün bunlar Azərbaycanın hüdudlarından kənarda da təkrarlanması lazım olan layihə üçün heç də kiçik töhfələr deyil”, - deyə Amr Taha vurğulayıb.

Monitorinq qrupu Ağdam və Şəmkir rayonlarında yerli icmalara təhvil verilmiş kəhrizlərə onların hazırkı vəziyyətlərini qiymətləndirmək üçün baxış keçirib, Cəbrayıl rayonundakı “Əsgər”, “Orta”, “Xəlifə dərəsi”, “Gül Qasım”, “Sığı” kimi kəhrizlərdə aparılan və planlaşdırılan bərpa işləri ilə tanış olublar. Qrup üzvləri, həmçinin layihənin icrasında iştirak edən kankanlar, mühəndislər və yerli sakinlərlə də görüşüb.

Şəmkir rayonunun İrmaşlı kənd bələdiyyəsinin sədri Qalib Atakişiyev təşkilatın Qaraoğlanlı kəhrizlərinin bərpası istiqamətində gördüyü işləri yüksək qiymətləndirib. O, vurğulayıb ki, bərpa edilərək təhvil verilən kəhrizlər iqlim dəyişikliyinin mənfi təsiri olan su qıtlığı ilə üzləşən kənd sakinlərinin içməli su ilə təminatında mühüm əhəmiyyət kəsb edir.

Layihə çərçivəsində indiyədək BMqT-nin Azərbaycan nümayəndəliyi Ağdam, Goranboy, Füzuli, Göygöl, Qazax, Şəmkir və Cəbrayıl rayonlarındakı ümumilikdə 28 kəhrizi bərpa edib.

Ümumi məqsəd Azərbaycanda kənd təsərrüfatı icmalarının enerjisiz su təchizatını təmin etməklə kənd təsərrüfatı məhsuldarlığını və yaşayış imkanlarını artırmaqla məcburi iqtisadi miqrasiyanın qarşısının alınmasına töhfə verməkdir. Kəhrizlərin bərpası ilə yanaşı, layihə gender, idarəetmə və ətraf mühitin davamlılığı kimi məsələlərə xüsusi diqqət yetirərək icma tərəfindən idarə olunan bir yanaşmanı tətbiq etməyə davam edir.

**AZƏRTAC**
**2023, 26 oktyabr**

**Gələn il Ağdam Sənaye Parkında fəaliyyətə başlayacaq bir neçə müəssisənin adı bəlli olub**

Hazırda Azərbaycanda mövcud sənaye zonalarında 71 müəssisə istehsal fəaliyyətinə başlayıb. 2024-cü ildə isə Ağdam Sənaye Parkında bir neçə müəssisənin, o cümlədən divar kağızları, ayaqqabı, havalandırma, yanğınsöndürmə avadanlıqları və müxtəlif metal məlumatların istehsalını həyata keçirən “BAFCO Invest” MMC, “Metkons” MMC və “Mister Decor” MMC-lərin açılışı nəzərdə tutulur.

Bu barədə AZƏRTAC-a İqtisadi Zonaların İnkişafı Agentliyi İdarə Heyəti sədrinin müavini Elkiyar Ziyadov deyib.

O bildirib ki, ölkəmizdə 7 sənaye parkı (Sumqayıt Kimya, Mingəçevir, Balaxanı, Qaradağ, Pirallahı, Ağdam, “Araz Vadisi İqtisadi Zonası” sənaye parkları, 5 sənaye məhəlləsi (Hacıqabul, Masallı, Neftçala, Sabirabad, Şərur) fəaliyyət göstərir. İndiyədək sənaye zonalarına 6,6 milyard manat investisiya yatırılıb və 11 mindən çox daimi iş yeri yaradılıb. Növbəti mərhələdə sənaye zonalarına mövcud layihələr üzrə 780 milyon manata yaxın investisiyanın yatırılması, 6400-dən çox daimi iş yerinin yaradılması nəzərdə tutulur.

E.Ziyadov bildirib ki, sənaye zonalarında indiyədək ümumilikdə 11,1 milyard manatlıq məhsul istehsal edilib. Bunun 3,6 milyard manatlıq hissəsi ixrac olunub. Bu ilin 9 ayında sənaye zonalarında fəaliyyət göstərən müəssisələr tərəfindən 2,3 milyard manatlıq məhsul satılıb ki, bunun 31 faizdən çoxu, yəni 722 milyon manatdan artıq hissəsi ixracın payına düşür. Hesabat dövründə 2,3 milyard manatlıq məhsul istehsalı ilə sənaye zonalarının ölkə sənayesinin qeyri-neft sektorunda xüsusi çəkisi 17,9 faiz, qeyri-neft sənaye məhsullarının ixracında isə 22,9 faiz (722,3 milyon manat) olub. Bu bir daha onu göstərir ki, sənaye zonaları qeyri-neft sektorunun inkişafında mühüm rol oynayırlar. Ən əsası sənaye zonaları ölkənin idxaldan asılılığını aradan qaldırır (valyutanın ölkədən çıxmasının qarşısını alır), ixracı təşviq edir. Bu da öz növbəsində sənaye parklarından kənarda fəaliyyət göstərən müəssisələrə qarşı haqsız rəqabətin olmadığını göstərir.

Sədr müavini qeyd edib ki, Prezident İlham Əliyevin iştirakı ilə Sumqayıt Kimya Sənaye Parkında 3 müəssisənin açılışı (1-keramik plitələrin; 2-qablaşdırma məhsullarının; 3- polimer qatqıların istehsalı müəssisələrinin), 2 müəssisənin isə (1-müxtəlif növ tikinti kimyəvilərinin; 2-sənaye qazlarının istehsalı müəssisələrinin) təməlqoyma mərasimi keçirilib. Sözügedən 3 müəssisənin açılışı ilə Sumqayıt Kimya Sənaye Parkında fəaliyyət göstərən müəssisələrin sayı 23-ə, ümumilikdə isə ölkəmizdə mövcud sənaye zonalarında işləyən müəssisələrin sayı 71-ə çatıb. Yeni müəssisələrin fəaliyyətə başlaması ölkəmizdə qeyri-neft sektorunun inkişafına təkan verəcək, ölkənin ixrac coğrafiyasını genişləndirəcək, iqtisadiyyatın diversifikasiyasını sürətləndirəcək, əhalinin məşğulluğunun artırılmasına mühüm töhfə verəcək. Bu 3 müəssisə tərəfindən Sumqayıt Kimya Sənaye Parkına ümumilikdə 100 milyon manatdan artıq investisiya yatırılıb, 600-ə yaxın daimi iş yeri yaradılıb. Təməli qoyulmuş 2 müəssisə tərəfindən isə Sumqayıt Kimya Sənaye Parkına 30 milyon manatdan artıq investisiyanın yatırılması, 300-dən çox isə daimi iş yerinin yaradılması nəzərdə tutulur. Bu müəssisələrin 2024-2025-ci illərdə fəaliyyətə başlaması planlaşdırılır.

“Sumqayıt Kimya Sənaye Parkında fəaliyyət göstərən və yeni fəaliyyətə başlayan sənaye müəssisələri istehsalın şaxələndirilməsinə və əlaqələndirilməsinə şərait yaradır. Belə ki, “Novus Plastica” MMC tərəfindən istehsal prosesində istifadə ediləcək xammallardan biri polimer olacaq ki, bu da Sumqayıt Kimya Sənaye Parkının rezidenti “SOCAR Polymer” MMC tərəfindən ödəniləcək. O cümlədən “Azərbaycan Vanhong Ceramics Co.” MMC tərəfindən keramik plitələr istehsalı zamanı xammal kimi yeni təməli qoyulan “Kartaş Kimya” MMC tərəfindən istehsal ediləcək müxtəlif tikinti kimyəvilərdən istifadə olunacaq. Bu növ istehsal müəssisələrinin qurulması sənaye parklarında klasterləşmənin yaranmasını sürətləndirəcək”, - deyə E.Ziyadov diqqətə çatdırıb.

**AZƏRTAC**
**2023, 6 noyabr**

**Azərbaycan Prezidenti: Ağdamın, Laçının, Kəlbəcərin bir güllə atılmadan azad olunması minlərlə gəncimizin həyatını xilas etdi**

O vaxt (2020-ci il 10 noyabr – red.) mən heç şübhə etmirdim ki, gün gələcək və burada - Xankəndi şəhərində Azərbaycan Bayrağı qaldırılacaqdır. 44 günlük müharibənin 10 noyabr 2020-ci il tarixində dayandırılması imkan verdi ki, Ağdam, Kəlbəcər və Laçın rayonları bir güllə atılmadan bizə qaytarıldı.

AZƏRTAC xəbər verir ki, bu fikirləri Azərbaycan Prezidenti İlham Əliyev 8 Noyabr – Zəfər Günü münasibətilə Xankəndi şəhərində keçirilən hərbi paradda çıxışında səsləndirib.

Bunun Ermənistanın imzaladığı kapitulyasiya aktının tərkib hissəsi və bizim tələbimiz olduğunu vurğulayan dövlətimizin başçısı deyib ki, Ermənistan bu tələbi yerinə yetirməyə məcbur oldu. Çünki döyüş meydanında Azərbaycan Silahlı Qüvvələrinin gücünü və Azərbaycan siyasi rəhbərliyinin siyasi müstəvidə iradəsini görmüşdü. "Ağdam, Laçın, Kəlbəcər rayonlarının bir güllə atılmadan azad edilməsi minlərlə gəncimizin həyatını xilas etdi. Biz onsuz da o bölgələri də döyüş meydanında azad edəcəkdik. Ancaq şəhidlərimizin sayı daha çox ola bilərdi", - deyə Prezident İlham Əliyev qeyd edib.

**AZƏRTAC**
**2023, 8 noyabr**

**İndoneziyada poçt markası: "Ağdam Qafqazın Xirosimasıdır"**

İndoneziya Dövlət Poçt Şirkət Ağdama həsr olunan poçt markası buraxıb.

AZƏRTAC xəbər verir ki, ölkəmizin İndoneziyadakı səfirliyi Prezident İlham Əliyevin "Azərbaycan Respublikasının işğaldan azad edilmiş əraziləri üzrə şəhər günlərinin təsis edilməsi haqqında" Sərəncamından irəli gələrək, 20 Noyabr - Ağdam şəhər günü ilə əlaqədar poçt markasının buraxılması təşəbbüsünü irəli sürüb. Poçt markasının üzərində İndoneziya dilində "Aghdam Hiroshima dari Kaukasus" ("Ağdam Qafqazın Xirosimasıdır") sözləri qeyd olunub. İndoneziya Dövlət Poçt Şirkəti ilə səfirlik arasında əldə olunmuş razılığa əsasən, həmin marka noyabr ayı ərzində ölkənin mərkəzi və regional poçt şöbələrində dövriyyədə olacaq.

***Şahin Cəfərov***
***AZƏRTAC-ın xüsusi müxbiri, Pekin***

**AZƏRTAC**
**2023, 15 noyabr**

**Ağdam rayonunun işğaldan azad olunması tarixi hadisədir**

2020-ci il noyabrın 10-da Azərbaycan, Rusiya prezidentlərinin və Ermənistan baş nazirinin imzaladıqları birgə Bəyanatla 30 ilə yaxın davam edən münaqişəyə son qoyuldu, düşmən sülhə məcbur edildi. 44 günlük İkinci Vətən müharibəsi Qələbəmizlə başa çatdı! Ali Baş Komandanın Azərbaycan xalqına tarixi Qələbə müraciətində də deyildiyi kimi, bu bəyanat bizim şanlı qələbəmizdir. Müqavilənin şərtlərinə əsasən noyabrın 20-də Azərbaycan Ağdam rayonunu hərbi əməliyyat keçirmədən, siyasi yolla işğaldan azad edərək öz yurisdiksiyasına qaytardı.

Prezident İlham Əliyev Ağdamın işğaldan azad edilməsi ilə bağlı xalqımıza müraciətində demişdi: "Əziz ağdamlılar, siz artıq köçkün deyilsiniz. Siz doğma dədə-baba torpağınıza qayıdacaqsınız. Biz tarix yazırıq, yeni tarix. Xalqımızın, ölkəmizin yeni şanlı tarixini yazırıq. Bu, Zəfər tarixidir".

AZƏRTAC xəbər verir ki, bu sözləri Azərbaycan Jurnalistlər Birliyinin üzvü İsrafil Kərimov söyləyib.

Ağdamın Azərbaycanın böyük və strateji əhəmiyyət kəsb edən rayonlarından biri olduğunu xatırladan İ.Kərimov deyib: "Ağdam özündə çox qədim mədəni-tarixi irsi daşıyır. Rayonda çox sayda tarixi-mədəniyyət abidələri var. Təəssüf ki, onların əksəriyyəti işğal dövründə məhv edilib. Ağdam şəhərinin mərkəzində yerləşən qədim memarlıq abidəsi sayılan məscid və onun minarələri də vəhşicəsinə dağıdılıb.

Artıq işğaldan azad edilmiş torpaqlarımızda Prezident İlham Əliyevin göstərişi ilə genişmiqyaslı bərpa və quruculuq işləri sürətlə həyata keçirilir. Vəhşi ermənilərin torpaqlarımızda hər şeyi dağıtmalarına baxmayaraq, bu ərazilər əvvəlkindən daha yaxşı qurulucaq. Dövlətimizin başçısı İlham Əliyev xalqa müraciətində bildirmişdi: "Ağdam üçün yeni dövr başlayır. Bizim böyük planlarımız var. İşğal edilmiş torpaqlarda hər şey dağıdılıb. Biz bu torpaqları, bu şəhərləri, bu kəndləri bərpa edəcəyik".

Prezident İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad edilən bütün ərazilərdəki kimi, bu gün Ağdamda da böyük quruculuq işləri həyata keçirilir. Ağdam azad edildikdən sonra Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva 2020-ci il noyabrın 23-də buraya gələrək bərpa işlərinin başlanğıcını elan etdilər. Dövlətimizin başçısının 2021-ci il mayın 28-də Ağdama növbəti səfəri zamanı isə Bərdə-Ağdam avtomobil yolunun, Ağdam şəhərində inşa olunacaq ilk yaşayış binasının, Ağdam Sənaye Parkının, Zəfər muzeyinin və açıq hava altında İşğal muzeyinin, 140 illik tarixi olan Ağdam şəhər 1 saylı məktəbin yeni binasının təməlqoyma və Ağdam şəhərinin bərpasının təməl daşının qoyulması mərasimlərində iştirak etdi. Səfər günü həm də sahəsi 125 hektar olan Ağdam şəhər meşə-parkında ağacların əkilməsinə start verildi.

Ötən il isə dövlətimizin başçısı Ağdama iki dəfə - fevralın 13-də və noyabrın 4-də səfər edib. Fevralın 13-də reallaşdırılan səfər zamanı Ağdam Sənaye Parkında iki müəssisənin, "Park Forest Otel Ağdam" mehmanxanasının, yeni yaşayış kompleksinin, 210 çarpayılıq Ağdam Rayon Mərkəzi Xəstəxanasının təməlqoyma mərasimləri keçirilib, Prezident İlham Əliyev Heydər Əliyev Fondu tərəfindən Ağdam Cümə məscidində görülən bərpa-quruculuq işlərinin gedişi, Qarabağ xanlarının türbələri və yaşayış evi - İmarət kompleksi və Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin qərargahında yaradılan şəraitlə tanış olub.

Noyabrın 4-də isə Prezident İlham Əliyev Xurşidbanu Natəvanın abidəsinin açılış mərasimində, Eyvazxanbəyli kəndində Atçılıq Nəsilartırma Mərkəzinin, Xıdırlı, Sarıcalı və Kəngərli kəndilərinin, Ağdam şəhərinin daxili yol və kommunikasiya şəbəkəsinin, Dəmir yolu və Avtovağzal Kompleksinin, "City Hotel Agdam" mehmanxanasının, daha bir yaşayış məhəlləsinin təməlqoyma mərasimlərində iştirak edib. Dövlətimizin başçısına Pənahəli xanın sarayı və İmarət Kompleksi, Bərdə-Ağdam avtomobil yolunda aparılan işlər ilə bağlı məlumat verilib.

"Bu il noyabrın 15-də isə Azərbaycan Prezidenti Ağdam rayonuna səfəri zamanı Ağdam-Füzuli avtomobil yolunun tikintisi işlərinin gedişi ilə tanış olub. Prezidentin rayona hər bir səfəri burada aparılan işlərin daha da sürətlənməsinə səbəb olur. Əminliklə söyləmək olar ki, bu işlər nəticəsində Ağdamın əvvəlki şöhrəti tezliklə özünə qaytarılacaq.

Bu il isə ağdamlılar ilk dəfə olaraq Ağdamın işğaldan azad edilən günü - noyabrın 20-ni Ağdam Şəhəri Günü kimi qeyd edəcəklər", - deyə Jurnalistlər Birliyinin üzvü bildirib.

**AZƏRTAC**
**2023, 19 noyabr**

**Müasir Ağdamın mərkəzi hissəsi keçmiş Ağdam şəhəri və ətrafındakı 8 kənddən ibarət olacaq - AÇIQLAMA**

Müasir Ağdamın mərkəzi hissəsi 2026-cı ildə formalaşdırılacaq. Müasir Ağdam keçmiş Ağdam şəhəri və ətrafındakı səkkiz kənddən ibarət olacaq.

Bunu AZƏRTAC-ın bölgə müxbirinə 20 Noyabr - Ağdam Şəhəri Günü ilə bağlı eksklüziv açıqlamasında Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Prezidentinin xüsusi nümayəndəsinin müavini Bəşir Hacıyev deyib.

O bildirib ki, Ağdamda 5 yaşayış məhəlləsi tikiləcək, "Zəfər" və açıq hava altında "İşğal" muzeyləri fəaliyyət göstərəcək: "İşğal" muzeyi məscidin arxasında viran qoyulmuş sahədə yaradılacaq. Həmin ərazidə olan dağıntılar konservasiya ediləcək və olduğu kimi də saxlanılacaq. Muzey erməni vandallığının və işğal tarixinin şahidi olaraq gələcək nəsillərə Ağdamın 30 illik acı taleyindən söhbət açacaq, tarixi həqiqətləri unutmağa imkan verməyəcək. Gələcək nəsil, qonaqlar, turistlər burada oxuduqları, eşitdikləri işğal tarixinin acı həqiqətlərini öz gözləri ilə görə biləcəklər".

Ağdam şəhərinin Ermənistan silahlı qüvvələrinin işğalından azad edilməsindən 3 il ötür. Bu gün - noyabrın 20-də şəhər erməni işğalçılarından azad edilib. Prezident İlham Əliyev imzaladığı sərəncama əsasən, hər il noyabrın 20-si Ağdam Şəhəri Günü kimi qeyd olunur.

**T.Ağaməmmədov**

**AZƏRTAC**
**2023, 20 noyabr**

**Ağdamın siyasi yolla azad olunması Prezident İlham Əliyevin diplomatik qələbəsidir – AÇIQLAMA**

Bu gün 20 Noyabr – Ağdam Şəhəri Günüdür. Ermənistanın hərbi təcavüzü nəticəsində 30 ilə yaxın işğal altında qalmış əzəli tarixi torpaqlarımız 44 günlük Vətən müharibəsi nəticəsində hərbi-siyasi yolla işğaldan azad olunub və şanlı Zəfərə aparan hər bir gün Azərbaycan tarixinə qızıl hərflərlə yazılıb. Vətən müharibəsindən sonra 2020-ci il noyabrın 20-si hərb tariximizə Ağdam şəhərinin erməni işğalından azad edildiyi gün kimi həkk olunub. Dövlətimizin başçısı 2023-cü il iyulun 31-də imzaladığı müvafiq Sərəncama əsasən şəhərin işğaldan azad edildiyi 20 noyabr tarixi Ağdam Şəhəri Günü kimi qeyd olunur. Sərəncam işğaldan azad edilmiş şəhər günlərinin təsis olunması Vətən müharibəsində qazanılmış tarixi Qələbəni əbədiləşdirmək məqsədi daşıyır.

Bununla bağlı AZƏRTAC-a açıqlama verən Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədr müavini, hərbi-siyasi ekspert, polkovnik Cəlil Xəlilov Ağdam şəhərinin üç il bundan əvvəl siyasi yolla azad edilməsinin əhəmiyyətinə toxunub.

O bildirib ki, ümumiyyətlə 2020-ci il noyabrın 20-də Ağdam şəhərinin erməni işğalından siyasi yolla – bir güllə belə atılmadan azad edilməsi Prezident İlham Əliyevin diplomatik qələbəsidir. Bu Qələbə dövlətimizin hərbi müstəvidə olduğu kimi, siyasi müstəvidə də son dərəcə güclü olduğunu sübut edir. Ali Baş Komandan Ağdamın diplomatik yolla azadlığına nail olmaqla Silahlı Qüvvələrimizin hərbi uğurlarını siyasi müstəvidə də davam etdirdi. Bütün dünya Azərbaycanın hərbi qələbələrinin diplomatik platformada davamına şahid oldu.

Polkovnik qeyd edib ki, dövlət başçısı Ağdamın siyasi yolla azadlığına nail olmaqla, həm də çoxlu sayda hərbçimizin həyatını xilas etdi: “Ağdamın 2020-ci il noyabrın 10-da imzalanan üçtərəfli Bəyanatına uyğun olaraq diplomatik yolla azad edilməsinin hərbi baxımdan da mühüm nəticələri oldu. Belə ki, şəhərin döyüşsüz alınması yüzlərlə, minlərlə hərbçimizin həyatını xilas etdi, əlavə itkilərdən qaçmağa imkan verdi. Dövlətimizin başçısı bununla bir daha Azərbaycan hərbçisinə, onun həyatına və təhlükəsizliyinə necə böyük önəm verdiyini ortaya qoydu. Bu fakt bir daha sübut etdi ki, Ali Baş Komandan üçün hər bir əsgərin, hər bir zabitin həyatı əzizdir və Vətən müharibəsi dövrünün hər bir anında dövlət başçısı bu amilə çox böyük həssaslıqla yanaşıb.

Ağdam Şəhəri Günü münasibətilə xalqımızı təbrik edirəm. Əminəm ki, qısa zamanda doğma Ağdamımızın yenidən çiçəklənməsinə şahid olacaq, onun tərəqqisi ilə fəxr edəcəyik”.

**AZƏRTAC**
**2023, 20 noyabr**

**Dördzolaqlı Bərdə-Ağdam avtomobil yolu Ağdamın şəhərdaxili yol şəbəkəsi ilə birləşəcək - layihə gələn ilin sonunadək yekunlaşacaq**

Dördzolaqlı Bərdə-Ağdam avtomobil yolu Ağdamın şəhərdaxili yol şəbəkəsi ilə birləşəcək. Şəhərdaxili yollarda rahat hərəkəti təmin etmək üçün piyada, velosiped və ictimai nəqliyyatın hərəkət edəcəyi avtobus yolları, tıxacın qarşısını almaq üçün parkinq zolaqlarının tikintisi nəzərdə tutulub. Layihənin 2024-cü ilin sonuna kimi yekunlaşdırılması nəzərdə tutulub.

Bunu AZƏRTAC-ın bölgə müxbirinə 20 Noyabr - Ağdam Şəhəri Günü ilə bağlı eksklüziv açıqlamasında Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Prezidentinin xüsusi nümayəndəsinin müavini Bəşir Hacıyev deyib.

“Ağdamda, həmçinin Muğam Mərkəzi, hotellər, Mərkəzi və Meşə parkı da fəaliyyət göstərəcək. Şəhərin istirahət zonasında süni göl yaradılacaq və ətrafı bulvar, meşə parkı olacaq. Şəhər əhalisini istiliklə təmin etmək məqsədilə qazanxana komplekslərinin tikintisi planlaşdırılır. Bir sözlə, Ağdam həqiqətən Azərbaycanın ən müasir və mötəbər ünvanlarından biri, modern şəhərlərindən olacaq”, - deyə o əlavə edib.

Ağdam şəhərinin Ermənistan silahlı qüvvələrinin işğalından azad edilməsindən 3 il ötür. Bu gün - noyabrın 20-də şəhər erməni işğalçılarından azad edilib. Prezident İlham Əliyevin imzaladığı Sərəncama əsasən, hər il noyabrın 20-si Ağdam Şəhəri Günü kimi qeyd olunur.

**T.Ağaməmmədov**

**AZƏRTAC**
**2023, 20 noyabr**

## Deputat: Ağdamın əvvəlki şöhrəti bərpa olunacaq

Bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın bütün regionlarının sosial-iqtisadi inkişafına xüsusi diqqət ayrılır, xalqın rifah halının yaxşılaşdırılması və əldə olunan nailiyyətlərə hər bir sahədə əlçətanlığın təmin olunması üçün ardıcıl, davamlı siyasət həyata keçirilməkdədir. 2020-ci ildə, Vətən müharibəsində xalqımızın torpaqlarını işğaldan azad etməsi regionların idarə olunmasının keyfiyyətcə yeni mərhələsi ilə nəticələndi. Belə ki, 30 ilə yaxın işğal altında saxlanılmış, eyni zamanda, viran qoyulmuş Qarabağ iqtisadi zonasında yerləşən rayonların bərpa və yenidən qurulması istiqamətində sürətli tədbirlər görülməyə başlandı. Təsadüfi deyil ki, keçdiyimiz üç ildə işğaldan azad olunmuş ərazilərdə dövlətimiz tərəfindən gecə-gündüz aparılan və bütün dünyaya nümayiş etdirilən yenidənqurma, bərpa, abadlaşdırma işləri bilavasitə Prezident İlham Əliyevin nəzarəti ilə həyata keçirilir. Yeni infrastrukturun yaradılması ilə yanaşı, bir çox dövlətlər üçün nümunəvi hesab olunan müasir idarəçilik modelinin tətbiqi işğaldan azad olunan ərazilərimizi, ümumilikdə regionu yeni inkişaf mərkəzinə çevirməkdədir.

Bu fikirləri Ağdam şəhərinin işğaldan azad olunmasının üçüncü ildönümü ilə əlaqədar AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı Məzahir Əfəndiyev söyləyib.

“İşğaldan azad olunmuş Ağdamı erməni vandalizminin ən böyük şahidi hesab etmək olar. Ermənistan uzun illər qəsdən mədəni və dini abidələrimizi vandalizmə məruz qoymuş, təhqir və qarət etmişdir. Xarici və yerli jurnalistlər Ağdamı Qafqazın Xirosiması adlandırırlar”, - deyən M.Əfəndiyev bildirib ki, Azərbaycan hökuməti erməni vandallarının törətdikləri vəhşilikləri, eləcə də 30 il işğal altında saxlayaraq darmadağın etdikləri, viran qoyduqları şəhərləri dünya ictimaiyyətinin görməsi üçün yüksək səviyyəli nümayəndə heyətlərinin, habelə ölkəmizə təşrif buyurmuş diplomatik korpus və vətəndaş cəmiyyəti nümayəndələrinin həmin ərazilərə səfərlərini təşkil edir.

Prezident İlham Əliyevin tapşırıqlarına əsasən Ağdam şəhərinin dünya şəhərsalma standartlarına uyğun olaraq bərpa ediləcəyini deyən deputat qeyd edib ki, 2022-ci il oktyabrın 5-də Azərbaycan hökuməti və BMT-nin İnsan Məskənləri Proqramının (UN-HABİTAT) əməkdaşlığı ilə "Dayanıqlı İnkişaf Məqsədləri" və "Yeni Şəhər Gündəliyi - post-münaqişə dövründə bərpa və yenidənqurmanın aparıcı qüvvəsi kimi" mövzusunda ilk Azərbaycan Milli Şəhərsalma Forumu məhz Ağdam şəhərində keçirildi. Həmin Forum sülh və təhlükəsizliyin dayanıqlılığını özündə ehtiva edirdi. Eyni zamanda, Azərbaycanın regionların sosial-iqtisadi inkişafında beynəlxalq əməkdaşlığı təşviq etdiyinin bariz nümunəsi oldu.

“Sevindirici haldır ki, bu gün artıq Ağdama səfər edən qonaqlar burada Azərbaycan hökuməti tərəfindən həyata keçirilən abadlıq işləri ilə tanış olurlar. 2021-ci il mayın 28-də Azərbaycan ictimaiyyətinə təqdim olunmuş Baş Plan əsasında Ağdamın əvvəlki şöhrəti bərpa olunacaq. Prezident İlham Əliyevin “Biz Ağdam şəhərini bərpa edəcəyik, bütün kəndləri bərpa edəcəyik. Heç kimdə bu haqda şübhə olmasın” sözləri bu gün öz təsdiqini görülən əməli işdə tapır”, - deyə o əlavə edib.

**AZƏRTAC**
**2023, 20 noyabr**

**Ağdamda tunc dövrünə aid olması ehtimal edilən məişət əşyaları tapılıb**

Ağdam rayonunun Quzanlı qəsəbəsində qədim dövrə aid maddi-mədəniyyət nümunələri, beş ədəd qab və çoxlu saxsı qırıntıları aşkar olunub.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, maddi-mədəniyyət nümunələrini Ağdam şəhərindən məcburi köçkün olan Lalə Abbasova həyətində quyu qazarkən tapıb.

Ağdam Tarix-Diyarşünaslıq Muzeyinin direktoru Ülvi Qədirov bildirib ki, tapıntıların tunc dövrünə aid olması ehtimal edilir.

**Tahir Ağaməmmədov**

**AZƏRTAC**
**2023, 21 noyabr**

**Ağdamın Kəngərli kəndində tikinti işlərindən**
**FOTOREPORTAJ**

İşğaldan azad olunan digər ərazilərdə olduğu kimi, Ağdam rayonunun Kəngərli kəndində tikinti işləri sürətlə davam etdirilir. Birinci mərhələdə 1279 nəfərin köçürülməsi üçün kənddə 290 fərdi ev inşa olunacaq.

“Qarabağ İqtisadi Rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidməti” publik hüquqi şəxsin icraçı direktoru Övsət Həmidov AZƏRTAC-ın bölgə müxbirinə bildirib ki, Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramının icrası ilə əlaqədar olaraq Ağdam şəhərində beş yaşayış məhəlləsi, 12 kəndin tikintisi həyata keçiriləcək. Eyni zamanda, şəhər infrastrukturuna daxil olan daxili yollar və kommunikasiya şəbəkəsi, şəhər parkı, meşə park və inzibati mərkəz inşa ediləcək. Artıq şəhərdaxili yolların tikintisinə başlanılıb. Paralel olaraq şəhərdə beş yaşayış məhəlləsinin ikisində ərazinin inşaat tullantılarından təmizlənməsi və hamarlama işlərinə start verilib. Digər yaşayış məhəllələrinin layihələndirmə işləri və ekspertizadan keçirilməsi tamamlanma ərəfəsindədir.



Kəngərli kəndində tikinti işləri 4 mərhələyə bölünüb: ərazinin tullantılardan təmizlənməsi, vertikal hamarlanma, yol yataqlarının profilə gətirilməsi və yaşayış evlərinin tikintisi. Sonrakı mərhələdə qeyri-yaşayış binalarının tikintisi həyata keçiriləcək, ən sonda kənddaxili yolların və kommunikasiya şəbəkəsinin inşasına və landşaft işlərinin icrasına başlanılacaq. İşlərin 2024-cü ilin sonunadək yekunlaşması planlaşdırılır. Kəngərli kəndinin öz sakinlərini 2025-ci ilin əvvəllərində qəbul edəcəyi nəzərdə tutulur.

Ö.Həmidov qeyd edib ki, artıq 118 evin bünövrəsi qazılıb, 90 evdə bünövrəyə hazırlıq işləri görülüb, 86 evin bünövrə işləri tamamlanıb, 76 evdə hörgü işlərinə başlanılıb. Bəzi evlərdə hörgü işləri tamamlanmaq üzrədir. Yaşayış evləri iki, üç, dörd və beşotaqlı olacaq. Əsali əsasən üç və dörd otaqlı mənzillərdə yerləşəcək.



“Layihələrin özəlliyi ondan ibarətdir ki, mənzillər həm görünüş, həm də istilik tutumu baxımından fərqlənir. İstilik tutumlu evlər daha az enerji ilə qızdırılacaq və soyudulacaq. Eyni zamanda, alternativ enerji mənbələrindən istifadə ediləcək. Hər evin damında 3 kV-lıq solar panel quraşdırılacaq. İstifadə olunmayan enerji mərkəzi elektrik şəbəkəsinə qaytarılacaq. Bununla da insanlar enerji xərclərinə ciddi qənaət edəcəklər” – deyə, Övsət Həmidov bildirib.

Hazırda Kəngərlidə tikinti işləri ilə yanaşı, inşaat tullantılarının emal edilərək təkrar materiala çevrilməsi də həyata keçirilir.



Kəngərli kəndinin yenidən qurulmasında çalışanların əhval-ruhiyyəsi yüksəkdir. Onlar işğaldan azad edilmiş ərazilərin bərpasında iştirak etdiyi üçün qürur duyduqlarını bildirirlər. Ağdam rayonunun Saybalı kəndindən olan Şahid Kərimov deyib: “Mən çox sevinirəm ki, torpaqlarımız işğaldan azad edilib. Tezliklə bütün məcburi köçkünlər öz torpaqlarına qayıdacaqlar. Mən də bir bənna kimi aparılan tikinti işlərində iştirak edirəm. İşğaldan azad olunmuş ərazilərin tikintisində mənim də əməyim olduğu üçün fəxr

**Tahir Ağaməmmədov**
**AZƏRTAC**
**2023, 23 noyabr**

## Ağdamın inşasında Ağdamda istehsal edilən ağ daşlardan istifadə olunur

Ağdamda aparılan inşaat işlərində rayon ərazisindəki Şahbulaq yatağında istehsal edilən mişar daşlarından istifadə olunur.

"Qarabağ İqtisadi Rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidməti" publik hüquqi şəxsin icraçı direktoru Övsət Həmidov AZƏRTAC-ın bölgə müxbirinə eksklüziv açıqlamasında bildirib ki, Ağdamda karxanaların istifadəsi nəticəsinə həm iş yerləri yaranır, həm də tikinti materialları yaxın məsafədən sahələrə daşınır: "Ağdam daşından istifadə edilməsi məsrəflərin azalması deməkdir. Ağdam daşının keyfiyyət göstəriciləri də digər daşların keyfiyyət göstəricilərindən aşağı deyil. Laborator nəticələr göstərir ki, Ağdam daşının yük götürmə qabiliyyəti digər daşlardan hətta çoxdur. Odur ki, karxana istifadəyə verilib. Kəngərli, Sarıcalı və Xıdırlı kəndlərinin tikintisində bu ağ daşlardan istifadə olunur. Beləliklə də, həm Ağdamın inşasında Ağdam daşından istifadə edilir, həm yeni iş yerləri yaradılır, həm də dövlət büdcəsinə qənaət olunur".

**Tahir Ağaməmmədov**

**AZƏRTAC**
**2023, 24 noyabr**

## Ağdamın ağ daşı ilə tikilən - Sarıcallıdan reportaj

### Memarlıq elementləri ilə bəzədilmiş evlərdə günəş panelləri quraşdırılacaq

Otuz ilə yaxın dövrdə erməni vandalizminə məruz qalaraq xarabalığa çevrilmiş Qarabağ özünün yeni dövrünə qədəm qoyub. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun düşmən üzərində qazandığı şanlı Qələbə nəticəsində azadlığına qovuşmuş torpaqlarımıza həyat yenidən qayıdır. İşğaldan azad edilən digər ərazilərdə olduğu kimi, Ağdam rayonunda da genişmiqyaslı tikinti-quruculuq işləri həyata keçirilir.

Ağdam rayonunda tikintisinə başlanılan yaşayış məntəqələrindən biri də Sarıcalı kəndidir. AZƏRTAC-ın bölgə müxbiri Sarıcalı kəndinə gedərək, inşaat işləri ilə tanış olub.

"Qarabağ İqtisadi Rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidməti" publik hüquqi şəxsin icraçı direktoru Övsət Həmidov aparılan işlər barədə məlumat verərək bildirib ki, ilk növbədə, ərazi tikinti tullantılarından təmizlənib, mobilizasiya işləri görülüb, ərazinin vertikal hamarlanması tamamlanıb. Artıq yaşayış evlərinin tikintisinə başlanılıb.

"Sarıcalıda da digər kəndlərdə olduğu kimi istilik, alternativ enerji mənbələrindən istifadə tədbirləri həyata keçiriləcək. Evlər istilik tutumlu olacaq, günəş panelləri quraşdırılacaq. Sarıcalı kəndinin memarlığı digər kəndlərdən fərqlidir. Müxtəlif memarlıq elementləri ilə bəzədilmiş evlər olacaq. Tikintidə Ağdamın ağ daşlarından istifadə olunur. Ağdam sakinləri üçün evlərin Ağdamın ağ daşından tikilməsi əhəmiyyət kəsb edir", - deyə o əlavə edib.



Qeyri-yaşayış sahələrinin, yol-kommunikasiya şəbəkəsinin, landşaftın layihələndirmə işləri də artıq tamamlanıb. Övsət Həmidovun sözlərinə görə, Sarıcalı kəndindəki evlər birmərtəbəli olacaq. Kənddə bütün infrastruktur yaradılacaq: "Məktəb, uşaq bağçası, inzibati bina və digər obyektlər inşa ediləcək. İş yerləri üçün kənd ətrafında istehsalat sahələri yaradılacaqdır. İşlərin 2024-cü ilin sonunadək yekunlaşması planlaşdırılır".

Tikintidə çalışanların əhval-ruhiyyəsi yüksəkdir. Ağdam rayonundan olan Fəxri Əhmədov işğaldan azad edilmiş ərazilərin bərpasında iştirak etdiyi üçün qürur duyduğunu deyib: "Mən keçmiş məcburi köçkünəm. Ağdamın Mərzili kəndindənəm, bu gün rayonumuzda aparılan tikinti işlərində iştirak edirəm. Sevinirəm ki, Qarabağın yenidən qurulmasında mənim də əməyim var".



Qeyd edək ki, Ağdam rayonunda ilkin mərhələdə 1 şəhər və 12 kəndin bərpası nəzərdə tutulur. Sarıcalı, Xıdırlı və Kəngərli kəndlərində 2024-cü ilin sonuna kimi işlərin birinci mərhələsinin yekunlaşdırılması planlaşdırılır.

**Tahir Ağaməmmədov**

**AZƏRTAC**
**2023, 29 noyabr**

**Bərdə–Ağdam (40 km)–Əsgəran avtomobil yolunun yenidən qurulmasına 5 milyon manat ayrılıb – SƏRƏNCAM**

Prezident İlham Əliyev "Bərdə–Ağdam (40 km)–Əsgəran avtomobil yolunun yenidən qurulması ilə bağlı tədbirlər haqqında" Sərəncam imzalayıb.

AZƏRTAC xəbər verir ki, Sərəncama əsasən, on səkkiz kilometr uzunluğu olan Bərdə–Ağdam (40 km)–Əsgəran avtomobil yolunun yenidən qurulması məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 23 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.31.25-ci yarımbəndində göstərilmiş məbləğin 5 milyon manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılıb.

**AZƏRTAC**
**2023, 30 noyabr**

**Kədərlə sevinc bir arada - Ağdamın qızılı payızı**
**VİDEO**

Payız fəsli öz rəngarəngliyi, gözəllikləri ilə qəlbə sakitlik gətirir, insanın ruhunu oxşayır. Qızılı payız insanın ruhunu qidalandırsa, mənəvi rahatlıq versə də, Ağdamda kədər və sevinc hisslərini bir arada yaşayırsan. Payız müxtəlif rəng çalarları ilə sanki erməni işğalçılarının dağıdaraq viran qoyduğu Ağdam şəhərinə gözəllik gətirmək istəyir. Dağıntılar arasında həyatda qalmağı bacarmış Xan çinarı ağaclarının, həmçinin nar və digər kolların sarı-qızılı rəngləri Cümə məscidinə və yeni inşa olunan binalara xüsusi yaraşıq verir.

Ağdam şəhərindən üzü dağlara doğru irəlilədikcə yolboyu Qarqarçayın, Şahbulaq dağının, Xaçınçay su anbarının ətrafında təbiətin yaratdığı müxtəlif rənglər, itburnu, böyürtkən, nar kolları, müxtəlif payız çiçəklərinin gözəllikləri insanı valeh edir. Füsunkar təbiətin qoynunda yerləşən Şahbulaq qalasının ətrafı isə özünəməxsus gözəlliyi ilə seçilir, qızılı boyalarla işlənən tablonu xatırladır. Qalanın yaxınlığında axan bulağın göz yaşı kimi dumduru suyunun toplandığı kiçik göl buraya xüsusi gözəllik verir. Ağacların sarı, qırmızı rəngləri göldə əks olunaraq insanda xoş ovqat yaradır.

AZƏRTAC-ın bölgə müxbiri Tahir Ağaməmmədovun Ağdam rayonundan çəkdiyi fotoları təqdim edirik.

**AZƏRTAC**
**2023, 30 noyabr**

**https://video.azertag.az/site/video/193845**

**Nazir Emin Əmrullayev Ağdamda vətəndaşlarla görüşəcək**

Elm və təhsil naziri Emin Əmrullayev dekabrın 22-də Ağdam rayonunun Quzanlı qəsəbəsində vətəndaşlarla görüşəcək.

Nazirlikdən AZƏRTAC-a bildirilib ki, görüşdə Ağdam, Ağcabədi, Bərdə, Şuşa, Füzuli, Tərtər, Xocalı, Xocavənd sakinləri iştirak edə bilərlər.

Adları qeyd olunan rayonların sakinləri dekabrın 14-ü saat 18:00-dək Elm və Təhsil Nazirliyinin Çağrı Mərkəzinin 146–2 və 146–6 nömrəli telefonlarına (yalnız iş günləri və saatları ərzində) zəng etməklə qəbula yazıla bilərlər. Bununla yanaşı, nazirliyin rəsmi saytından elektron formada və ya +994 51 206 78 48 nömrəsinə vatsap vasitəsilə müraciət göndərmək mümkündür.

**AZƏRTAC**
**2023, 5 dekabr**

**ANAMA: Ağdam rayonunda mina hadisəsi baş verib**

Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin (ANAMA) əməkdaşı 1992-ci il təvəllüdlü Əkbərov Vaqif Sabir oğlu işğaldan azad edilmiş Ağdam rayonunun Sarıcalı kəndi ərazisində xidməti vəzifəsini yerinə yetirərkən dekabrın 5-də piyada əleyhinə mina partlayışı baş verib.

Bu barədə ANAMA-nın mətbuat xidmətindən AZƏRTAC-a məlumat verilib.

Bildiriblər ki, xəsarət alan şəxs hadisə yerindən təxliyə edilərək rayon xəstəxanasına çatdırılıb. Xəsarət alan şəxsin sağ ayağı dizdən aşağı nahiyədən amputasiya edilib. Onun vəziyyəti qənaətbəxşdir.

**AZƏRTAC**
**2023, 5 dekabr**

**Baş Prokurorluq: Ağdamda baş verən mina hadisəsi ilə bağlı araşdırma aparılır**

Ağdam rayonu ərazisində şəxsin mina partlaması nəticəsində xəsarət alması faktı ilə bağlı rayon prokurorluğunda araşdırma aparılır.

Bu barədə Baş Prokurorluğun mətbuat xidmətindən AZƏRTAC-a məlumat verilib.

Qeyd edək ki, dekabrın 5-də Azərbaycan Respublikası Minatəmizləmə Agentliyinin əməkdaşı, 1992-ci il təvəllüdlü Əkbərov Vaqif Sabir oğlu Ağdam rayonunun işğaldan azad edilmiş Sarıcalı kəndi ərazisində xidməti vəzifəsini yerinə yetirən zaman mina partlaması nəticəsində xəsarət alıb.

**AZƏRTAC**
**2023, 5 dekabr**

**Əsgəran və Ağdamın işğaldan azad edilmiş ərazilərində rabitə qurulur**
**VİDEO**

2020-ci ildən bu günədək Qarabağın rayon və şəhərləri rabitə ilə təmin edilib. Artıq "Bakı Telefon Rabitəsi" MMC tərəfindən Füzuli rayonunda, Tərtər rayonun Talış kəndində, Şuşa şəhərində, Laçın şəhərində, Xankəndidə, Zəngilan rayonun Ağalı kəndində rabitə yaradılıb və əhaliyə xidmət göstərilir.

Bunu AZƏRTAC-a müsahibəsində "Bakı Telefon Rabitəsi" MMC-nin şöbə müdiri Fərhad Zahidov deyib.

Fərhad Zahidov vurğulayıb ki, hazırda növbəti mərhələdə Əsgəran rayonu və Ağdamın yeni işğaldan azad edilmiş ərazilərində rabitəni yaratmağa çalışırlar: "Bunun üzərində işlər hazırda davam edir".

Qeyd edək ki, bu gün rabitə və informasiya texnologiyaları işçilərinin peşə bayramı günüdür. Bu münasibətlə AZƏRTAC-ın hazırladığı videoreportajı da təqdim edirik.

**AZƏRTAC**
**2023, 6 dekabr**
https://video.azertag.az/site/video/194147

**Beynəlxalq forumun iştirakçıları Ağdamda minatəmizləmə prosesini izləyiblər
VİDEO**

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, beynəlxalq forumun iştirakçıları Ağdamın Baş Qərvənd kəndi ərazisində mina təmizləmə prosesi ilə tanış olublar.

Qonaqlara Azərbaycanda ilk qadın minatəmizləmə qruplarının yaradılması, minatəmizləmə zamanı itlərlə yanaşı, siçovullardan da istifadə edilməsi barədə də məlumat verilib.

Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin təşkilatçılığı ilə dekabrın 6-da Bakıda işə başlayan "Dayanıqlı inkişaf məqsədlərinə nail olmaq üçün sağlam ətraf mühit və minasız həyat" adlı beynəlxalq forumun iştirakçıları Ağdam şəhərinə gəliblər.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, forum iştirakçıları əvvəlcə Ağdam şəhərindəki Şəhidlər xiyabanını ziyarət ediblər.

Sonra rayonun Baş Qərvənd kəndi ərazisində minatəmizləmə prosesi ilə tanışlıq olacaq. Forum işini Ağdam Konfrans Mərkəzində davam etdirəcək.

**Tahir Ağaməmmədov,**

**AZƏRTAC
2023, 7 dekabr**

https://video.azertag.az/site/video/194275

**Minatəmizləmə üzrə türkiyəli ekspert: Ağdamda olan mənzərə o qədər də ürəkaçan deyil**

İlk dəfədir ki, Ağdama gəlirik. Burada olan mənzərə o qədər də ürəkaçan deyil. Hər yer dağılmış vəziyyətdədir.

Bunu AZƏRTAC-ın bölgə müxbirinə açıqlamasında "Dayanıqlı inkişaf məqsədlərinə nail olmaq üçün sağlam ətraf mühit və minasız həyat" adlı beynəlxalq forum çərçivəsində Ağdama səfər edən və Baş Qərvənd kəndi ərazisində minatəmizləmə prosesi ilə tanış olan minatəmizləmə üzrə türkiyəli ekspert Engin Özdəmir söyləyib.

Son illər Ağdamda çox gözəl yenidənqurma, tikinti-quruculuq prosesinin getdiyini söyləyən E.Özdəmir deyib: "Bu da türk olaraq bizləri xoşbəxt edir. Bu yerləri təmizləyərək mina bəlasından xilas ola biləcəyimizə ümid edirik".

**T.Ağaməmmədov**

**AZƏRTAC**
**2023, 7 dekabr**

**“Dayanıqlı inkişaf məqsədlərinə nail olmaq üçün sağlam ətraf mühit və minasız həyat” adlı beynəlxalq forum işini Ağdamda davam etdirir**

Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin təşkilatçılığı ilə keçirilən “Dayanıqlı inkişaf məqsədlərinə nail olmaq üçün sağlam ətraf mühit və minasız həyat” adlı beynəlxalq forum işini bu gün Ağdamda davam etdirir.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, dekabrın 6-da Bakıda işə başlayan forumun Ağdam Konfrans Mərkəzində təşkil edilən ikinci günündə sağlam ətraf mühit, ərazilərin minalardan təmizlənməsi, insan təhlükəsizliyi kimi mövzular müzakirə olunur.

,

**Tahir Ağaməmmədov**

**AZƏRTAC**
**2023, 7 dekabr**

**“Dayanıqlı İnkişaf Məqsədlərinə nail olmaq üçün sağlam ətraf mühit və minasız həyat” adlı beynəlxalq forum Ağdamda davam edib**

Dekabrın 7-də Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin təşkilatçılığı və ANAMA-nın tərəfdaşlığı ilə “Dayanıqlı İnkişaf Məqsədlərinə nail olmaq üçün sağlam ətraf mühit və minasız həyat” adlı beynəlxalq forum Ağdamda davam edib.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, beynəlxalq ekspertlər ilk olaraq Ağdam Şəhidlər xiyabanını ziyarət ediblər. Sonra rayonun Baş Qərvənd kəndi ərazisində Azərbaycanda ilk qadın minatəmizləmə qrupu tərəfindən siçovullar və itlərlə minatəmizləmə təlimi nümayiş olunub.

Forum çərçivəsində Ağdam Konfrans Mərkəzində panel müzakirələri olub. Vətəndaş cəmiyyəti təmsilçisi Orxan Amaşovun moderatorluğu ilə keçirilən müzakirələrdə ANAMA-nın Metodologiya və qiymətləndirmə şöbəsinin müdiri Adil Aslanov, “Minalar Əleyhinə Azərbaycan Kampaniyası” İctimai Birliyinin sədri Hafiz Səfixanov, BMTİP eksperti Don Makdonald, siyasi analitik Hamdi Rifai, Türkiyənin Siyasət, İqtisadiyyat və Araşdırmalar Mərkəzinin (SETA) eksperti Mustafa Caner, “Piyada Əleyhinə Minaların Aşkarlanması İnkişafı” İctimai Birliyinin eksperti İtamar Levy, “Minadan Azad Sarayeva” layihəsinin rəhbəri, “Minaaxtaran itlər” Mərkəzinin direktor müavini Mariya Trlin, Humanitar Yardım Fondunun eksperti Mehmet Altıntaş, Mina Məsləhət qrupunun Azərbaycan üzrə direktoru Joanne La Terriere, UNICEF-in humanitar minatəmizləmə üzrə eksperti Tetiana Kazanzhy və digər ekspertlər minanın törətdiyi qorxulu fəsadlardan, ondan qorunma və maarifləndirmə yollarından bəhs ediblər. Xarici ekspertlər Ağdamda basdırılan minaların miqyasından dəhşətə gəliblər. Vurğulanıb ki, dünya ictimaiyyəti Ağdamda, o cümlədən digər işğaldan azad edilmiş ərazilərdə minadan təmizlənmə işlərinin sürətləndirilməsi və yaşayışın bərpa edilməsi üçün əlindən gələni etməlidir.

Panel müzakirələri sual-cavab formatında davam edib.

Tədbirin sonunda forum iştirakçıları adından dünya ictimaiyyətinə müraciət səslənib və konfransın xatirə hədiyyələri təqdim edilib.

Qeyd edək ki, iki gün davam edən “Dayanıqlı İnkişaf Məqsədlərinə nail olmaq üçün sağlam ətraf mühit və minasız həyat” adlı forumda müxtəlif ölkələrdən 10-dan çox xarici ekspert iştirak edib.

**Tahir Ağaməmmədov**

**AZƏRTAC**
**2023, 7 dekabr**

**“Qarabağ”ın sabiq futbolçusu: Ağdam klubu Avropa Liqasının yarımfinalına kimi getmək gücündədir**

“Qarabağ”ın sabiq futbolçusu, hazırda İsveçdə yaşayan Yalçın Bağırov AZƏRTAC-ın suallarını cavablandırıb. Həmin müsahibəni təqdim edirik:

**- Sabiq komandanız "Qarabağ"ın Avropa Liqasının qrup mərhələsindəki çıxışını necə dəyərləndirirsiniz?**

- "Qarabağ" Avropa Liqasında çox layiqli mübarizə aparır. Sadəcə, qrupda bizim üçün çətin rəqib Almaniyanın “Bayer” klubu idi. Onlar da Almaniya Bundesliqasının nəhəng komandalarından biridir. Səviyyə fərqinə baxmayaraq, Qurban Qurbanovun kollektivi Bakıda leverkuzenlilərdən xal almağa yaxın idi. Təəssüf ki, qapımıza son dəqiqələrdə təyin olunan penalti planlarımızın üstündən xətt çəkdi.

**- Sizcə, "Qarabağ" Avropa Liqasında hara kimi irəliləmək gücünə sahibdir?**

- "Qarabağ"ın heyətində bir-birini yaxşı anlayan Benzia, Zubir, Juninyo kimi oyunçular var. Düşünürəm ki, "Qarabağ" "Hakken"lə Bakıdakı oyunun birinci hissəsində oyunun taleyini həll edəcək. Növbəti mərhələ şanslarımız öz əlimizdədir. Komandamız Avropa Liqasının yarımfinalına qədər getmək gücündədir.

**- Bu turnirdə “Qarabağ”ın hansı zəif nöqtələrinin şahidi oldunuz?**

-“Qarabağ”ın problemi son dəqiqələrdə qol buraxmasıdır. Hətta ötən mövsüm “Nant”la Fransadakı oyunda xal almağa yaxın idi. Təəssüf ki, final fitinə saniyələr qalmış qapımızda gördüyümüz qol hər şeyi alt-üst etdi. Məncə bu komandanın geri çəkilməsi ilə bağlı da ola bilər.

**- “Qarabağ” dekabrın 14-də Avropa Liqasının qrup mərhələsinin son oyununda Bakıda "Hakken"lə qarşılaşacaq. Rəqibin qrupda heç bir iddiası yoxdur. Ümumiyyətlə, İsveç klubları bu cür oyunlara necə hazırlaşır?**

- Belə oyunlar hər zaman çətin olur. Çünki iddiası olmayan komandalar sürpriz edə bilirlər. İsveçdə ölkə çempionatı başa çatıb. "Hakken" də yeni mövsümə planlar qurur. Komandanın heyətində müqaviləsi başa çatacaq futbolçular var. Onlar daha yaxşı klublara keçmək üçün özlərini göstərmək istəyəcəklər. Skandinaviyalılar fiziki futbola daha çox üstünlük verirlər. Cinahlardan hücumlar zamanı təhlükə yaratmağı bacarırlar. Lakin “Qarabağ” heç bir halda oyuna rahat çıxmayacaq. Yenə də vurğulayıram, Qurban Qurbanovun kollektivi ilk hissədə matçın taleyini həll edəcək və ikinci hissəyə rahat çıxacaq.

**- Azərbaycanlı futbolçu Musa Qurbanlı da İsveçin "Yurqarden" komandasında çıxış edir. Gənc oyunçu hələ də komandaya adaptasiya olmaqda çətinlik çəkir. Hətta bəzi oyunlarda əlinə düşən 100 faizlik qol imkanlarından yararlana bilmir. Musanın hazırkı durumunu necə şərh edərdiniz?**

- Musanın İsveçdəki oyunlarına baxmışam. Düzdür, bəzi oyunlarda əlinə düşən fürsətləri boşa verir. Bu da adaptasiya ilə bağlı olan məsələdir. Zinəddin Zidan da “Real”a əvvəl gəldiyi zamanlarda çətinlik çəkirdi. Amma sonra Madrid təmsilçisinin tarixinə adını yazdırdı. İnsan evdən, yaxınlarından uzaq qaldığında problem yaşayır. Musa öz üzərində işləməlidir. Artıq son mövsümdə “Yurqarden”in heyətinə oyunlarda iştirak edərək təcrübə qazanıb. İnanıram ki, hər şey yaxşı olacaq.

**Yalçın Bağırov**

**AZƏRTAC**
**2023, 8 dekabr**

**Ağdam Sənaye Parkında yerləşən ayaqqabı fabrikinin istehsal gücü 900 minə çatdırılacaq VİDEO**

“BAFCO İnvest” MMC tərəfindən Ağdam Sənaye Parkında ayaqqabı fabrikinin tikintisinə bu ilin iyun ayında başlanılıb və inşaat işləri 75 faiz yekunlaşıb.

Bunu AZƏRTAC-ın bölgə müxbirinə açıqlamasında “BAFCO İnvest” MMC-nin direktoru Elnur Allahverdiyev deyib.

Onun sözlərinə görə, bu ayın sonunadək tikinti işləri bitəcək və Almaniyadan avadanlıqlar gətiriləcək. Elnur Allahverdiyev bildirib ki, yanvar ayının birinci həftəsində avadanlıqların quraşdırılmasına başlanılacaq.

“Əsasən təhlükəsizlik tipli ayaqqabılar və poliuretan çəkmələr istehsal olunacaq. Fabrik ildə 510 min cüt ayaqqabı istehsalı gücünə malikdir ki, bunun da 350 min cütü təhlükəsizlik ayaqqabıları, 160 min cütünü isə poliuretan çəkmələr təşkil edəcək. İstehsal olunan məhsulların 65 faizi yerli bazara, 35 faizi xarici bazara çıxarılacaq. Müəssisə ölkədə Avropa sertifikatına malik yeganə fabrik olacaq və Avropaya məhsul ixracı planlaşdırılır. İşçilərin Ağdamdan və ətraf rayonlardan götürülməsi nəzərdə tutulur. Birinci mərhələdə 60 nəfər, sonra isə 120 nəfər işlə təmin olunacaq. İki iş rejiminə keçəndən sonra istehsal gücü 510 min cütdən 900 minə kimi artacaq”, - deyə Elnur Allahverdiyev vurğulayıb.

Qeyd edək ki, Ağdam sənaye parkında 25 sahibkarlıq subyekti qeydiyyatdan keçib. İnvestorlar tərəfindən Sənaye Parkına 175 milyon manatdan çox investisiyanın yatırılması, 1600-dən artıq daimi iş yerinin yaradılması nəzərdə tutulur. Hazırda 10-dan çox rezident tikinti-quraşdırma işlərinə başlayıb.

**Tahir Ağaməmmədov**

**AZƏRTAC**
**2023, 9 dekabr**

**https://video.azertag.az/site/video/194335**

**Ağdam Sənaye Parkında qazobeton zavodunun inşası yekunlaşıb**
**VİDEO**

Ağdam Sənaye Parkının 7 hektar ərazisində “Eos Qrup” MMC-nin qazobeton blok istehsalı zavodunun birinci mərhələsinin inşası yekunlaşıb və son tamamlanma işləri görülür. Şirkət tərəfindən müəssisənin qurulmasına bu günədək (birinci mərhələdə) 2,7 milyon manatdan çox investisiya yatırılıb.

Qazobeton zavodunun direktoru Cavid Qurbanov AZƏRTAC-ın bölgə müxbirinə bildirib ki, istehsal gücü birinci mərhələdə illik 120 min kubmetr olacaq müəssisə gələn il istifadəyə veriləcək.

“Zavodda gündəlik bir xətt üzrə 200 kubmetr, iki xətt üzrə isə 400 kubmetr qazobeton istehsal ediləcək. Fəxr edirik ki, Qarabağın tikintisində bizim də faydamız, rolumuz olacaq”, – deyə müəssisənin direktoru bildirib.

Qeyd edək ki, Ağdam sənaye parkında 25 sahibkarlıq subyekti qeydiyyatdan keçib. İnvestorlar tərəfindən Sənaye Parkına 175 milyon manatdan çox investisiyanın yatırılması, 1600-dən artıq daimi iş yerinin yaradılması nəzərdə tutulur. Hazırda 10-dan çox rezident tikinti-quraşdırma işləri həyata keçirir.

**Tahir Ağaməmmədov**

**AZƏRTAC**
**2023, 9 dekabr**

**https://video.azertag.az/site/video/194355**

**“Aqroservis” ASC-nin sədri Elmin Rəhmanov Ağdamda vətəndaşları qəbul edəcək**

Sentyabr ayından başlayaraq Kənd Təsərrüfatı Nazirliyinin vəzifəli şəxsləri tərəfindən bölgələrdə vətəndaş qəbulları keçirilir.

Azərbaycan Respublikasının kənd təsərrüfatı naziri Məcnun Məmmədovun imzaladığı əmrə əsasən, “Aqroservis” ASC-nin İdarə Heyətinin sədri Elmin Rəhmanov dekabrın 15-də, saat 10:00-da Ağdam Dövlət Aqrar İnkişaf Mərkəzinin inzibati binasında vətəndaşları qəbul edəcək.

“Aqroservis” ASC-dən AZƏRTAC-a bildirilib ki, qəbul zamanı vətəndaşların Kənd Təsərrüfatı Nazirliyinin səlahiyyət dairəsinə aid məsələlərlə bağlı müraciətləri cavablandırılacaq, müraciətlərdə əksini tapan məsələlərin həlli ilə əlaqədar tədbirlər görüləcək.

Vətəndaş qəbulunda iştirak etmək istəyən şəxslər Kənd Təsərrüfatı Nazirliyinin “Çağrı Mərkəzi”nə (1652) və Ağdam Dövlət Aqrar İnkişaf Mərkəzinə (050-201-81-79) zəng etməklə qeydiyyatdan keçə bilərlər.

Qəbula gələn vətəndaşlar əvvəlcədən qeydiyyatdan keçməli və şəxsiyyətlərini təsdiq edən sənədləri özləri ilə gətirməlidirlər.

**AZƏRTAC**
**2023, 11 dekabr**

**Ağdamın Xıdırlı kəndində ilk mərhələdə 719 ev inşa olunacaq**
**VİDEO**

İşğaldan azad olunan digər ərazilərdə olduğu kimi, Ağdam rayonunda da quruculuq işləri geniş vüsət alıb. Ağdam şəhəri ilə yanaşı, rayonun Kəngərli, Sarıcalı və Xıdırlı kəndlərinin tikintisi həyata keçirilir.

Birinci mərhələdə kəndə 2951 nəfərin köçürülməsi üçün 719 fərdi ev inşa olunacaq. Evlərin 263-ü ikiotaqlı, 332-si üçotaqlı, 121-i dördotaqlı, 3-ü isə beşotaqlıdır. Kəndin inşasında yerli tikinti materiallarından, o cümlədən Şahbulaq yüksəkliyində istehsal edilən ağ daşlardan istifadə edilir. Ümumiyyətlə, Ağdam şəhərinin mərkəzindən 3 kilometr məsafədə yerləşən Xıdırlı kəndində 5990 nəfərin (1500 ailə) məskunlaşması planlaşdırılır.

"Qarabağ İqtisadi Rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidməti" publik hüquqi şəxsin icraçı direktoru Övsət Həmidov AZƏRTAC-ın bölgə müxbirinə bildirib ki, Xıdırlı kəndinin tikintisi də digər yaşayış məntəqələri kimi dörd mərhələdən ibarət olacaq: ərazinin hamarlanması və inşaat tullantılarından təmizlənməsi, fərdi yaşayış evlərinin tikintisi, qeyri-yaşayış evlərinin tikintisi, kommunikasiya şəbəkəsinin və yolların inşası. Artıq ərazidə vertikal hamarlama işləri başa çatıb, yaşayış evlərinin tikintisi həyata keçirilir.

Evlər əsasən birmərtəbəli, beşotaqlı evlər isə ikimərtəbəli olacaq. Kəndin mərkəzi kommunikasiya xətləri Ağdam şəhərinin şəbəkəsinə qoşulacaq. Sarıcalı və Kəngərli kəndləri ilə müqayisədə Xıdırlı kəndinin relyefi daha sərtdir. Bu səbəbdən vertikal şaquli planlama işləri həyata keçirilməlidir. Kanalizasiya və yağış sularının mərkəzi şəbəkəyə ötürülməsi üçün işlər görülür.

Övsət Həmidovun sözlərinə görə, Xıdırlıda torpaqların şişən və çökən qrunt olması evlərin tikintisində olduğu kimi, yol tikintisi zamanı da ciddi torpaq kütləsinin çıxarılmasını tələb edir: "Daha yüksək texnoloji materiallardan istifadə etməklə bunun həllinə çalışırıq. Düşünürəm ki, bu materialların tətbiqi ilə biz ciddi qənaət edəcəyik. Torpaq kütləsinin ərazidən çıxarılmasının qarşısı alınacaq. Bu da yekun nəticədə büdcədə qənaətə səbəb olacaq. Eyni zamanda, yolların gələcəkdə çökmə təhlükəsi az olacaq. Bu materialların tətbiqi üçün müvafiq hesabatlar aparılıb".

Xıdırlı kəndinin tikintisində çalışanlarla söhbət zamanı onların hər birində yüksək əhvali-ruhiyyənin şahidi olduq. İnşaatçılar işğaldan azad edilmiş ərazilərdə çalışdıqları üçün sevinc və qürur hissi keçirdiklərini bildirirlər. Hörgü işində çalışan Elşən Əliyev deyib: "Çox sevinirik ki, işğalda olan bütün torpaqlarımız azad edildi və aparılan tikinti işlərində mənim də əməyim var. Bundan əvvəl Laçın rayonunun tikintisində iştirak etmişəm. Allah ordumuzu qorusun! Allah şəhidlərə rəhmət eləsin, qazilərə cansağlığı versin".

Qeyd edək ki, Ağdam rayonunda ilkin mərhələdə 1 şəhər və 12 kəndin bərpası nəzərdə tutulur. Sarıcalı, Xıdırlı və Kəngərli kəndlərində 2024-cü ilin sonuna kimi işlərin birinci mərhələsinin yekunlaşdırılması planlaşdırılır.

**AZƏRTAC**
**2023, 12 dekabr**

**https://video.azertag.az/site/video/194587**

**ADY sədri: Bərdə-Ağdam dəmiryolunda işlərin 85 faizi tamamlanıb**

Qarabağda “Azərbaycan Dəmir Yolları” QSC tərəfindən iki layihə yerinə yetirilir. Bunlardan biri Bərdə-Ağdam layihəsidir ki, artıq layihənin böyük hissəsi tamamlanıb.

AZƏRTAC xəbər verir ki, bunu “Azərbaycan Dəmir Yolları” (ADY) QSC-nin sədri Rövşən Rüstəmov jurnalistlərə açıqlamasında deyib.

Onun sözlərinə görə, Ağdam şəhərinə qədər dəmiryolu xətti çəkilib və işlərin bütövlükdə 85 faizi icra olunub. QSC sədri onu da əlavə edib ki, son qalan işlər Təzəkənd, Köçərli və Bərdə stansiyaları ilə bağlıdır.

“Hazırda onların da tikintisi həyata keçirilir. Yaxın vaxtlarda tikinti işləri yekunlaşacaq. Ağdam avtovağzal və dəmiryolu komplekslərinin də tikintisinə başlanılması üçün layihə razılaşdırılma işləri həyata keçirilir. Horadiz-Ağbənd layihəsinin isə 45 faizi həyata keçirilib. Layihə sürətlə davam etdirilir. Layihənin tam yekunlaşdırılması 2025-ci il üçün nəzərdə tutulub. Hazırda 72-ci kilometrə qədər dəmiryolu xətti çəkilib”, - deyə R.Rüstəmov qeyd edib.

**AZƏRTAC**
**2023, 12 dekabr**

**Bərdə-Ağdam dəmir yolunun inşası yekunlaşır**

İşğaldan azad olunmuş ərazilərdə bərpa prosesi iddialı və tarixi layihədir. Burada hər şey yenidən qurulur. Ağdam şəhərində Bərdə-Ağdam yolu yekunlaşmaq üzrədir. Ağdam-Füzuli, Ağdam-Ağcabədi yolunun növbəti il yekunlaşması gözlənilir.

AZƏRTAC xəbər verir ki, bunu Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Prezidentinin xüsusi nümayəndəsinin müavini Bəşir Hacıyev Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş “Güclü iqtisadiyyat üçün Azərbaycanda peşə təhsilinin inkişaf yolu: gələcəyə baxış” mövzusunda konfransda çıxışı zamanı deyib.

O bildirib ki, Bərdə-Ağdam dəmir yolunun inşasının yekunlaşması gözlənilir və ərazidə “AzərEnerji” ASC tərəfindən iki yarımstansiya istifadəyə verilib.

“Böyük Qayıdış Proqramına uyğun olaraq 2026-cı ilin sonunadək 5 yaşayış məhəlləsi inşa olunacaq, 12 kənd salınaraq əhaliyə təhvil veriləcək.

Həmçinin tarixi-mədəni abidələrimiz bərpa olunur. Burada mərkəzi meşə parkları layihələndirilir və yaxın günlərdə inşasına başlanılacaq. Bütün şəhərlərdə dövlətimizin başçısının tapşırığına uyğun olaraq açıq səma altında Zəfər muzeyləri inşa olunacaq. Ağdam sənaye şəhəri kimi tanınıb. Şəhərdə zavod və fabriklərin inşasına başlanılıb və növbəti il bir neçəsinin açılışı gözlənilir. İş yerləri yaradılacaq və məskunlaşacaq əhalinin işlə təmin olunması həyata keçiriləcək”, - deyə Bəşir Hacıyev qeyd edib.

**AZƏRTAC**
**2023, 13 dekabr**

**Gələn il Ağdamda divar kağızlarının istehsalına başlanılacaq**

Ağdam Sənaye Parkında "Mister dekor" MMC tərəfindən divar kağızları istehsalı müəssisəsinin inşasının ilin sonunadək yekunlaşdırılması nəzərdə tutulur. Fabrik təkcə Azərbaycanda deyil, Qafqazda divar kağızı istehsal edən ilk müəssisə olacaq.

MMC-nin rəhbəri Əli Əliyev AZƏRTAC-ın bölgə müxbirinə bildirib ki, investisiya dəyəri 7 milyon manat olan müəssisənin 2024-cü ilin yazında istehsala başlaması planlaşdırılır: "Artıq avadanlıqlar gətirilib. Xaricdən mütəxəssislər dəvət edilib. Müəssisədə filizilin tərkibli yuyulan və yuyulmayan divar kağızları istehsal olunacaq. Müəssisə tam gücü ilə işə düşəndə illik 2 milyon rulon divar kağızı istehsal etməyi hədəfləmişik. Məhsulların daxili bazarın tələbatını ödəməklə yanaşı, ixracı da nəzərdə tutulur. Fabrikdə 60 nəfər işlə təmin olunacaq".

**AZƏRTAC**
**2023, 14 dekabr**

**Ağdamda "İşğaldan azad olunmuş ərazilərdə turizmin bərpası və inkişafı" elmi-praktik konfransı keçirilir**

Bu gün Dövlət Turizm Agentliyinin təşkilatçılığı ilə Ağdamda "İşğaldan azad olunmuş ərazilərdə turizmin bərpası və inkişafı" mövzusunda elmi-praktik konfrans keçirilir.

AZƏRTAC xəbər verir ki, Qarabağ və Şərqi Zəngəzur bölgəsində turizm potensialı və mövcud resurslardan səmərəli istifadə üsullarının və sektorun sürətli inkişafı üçün təkliflərin müzakirə olunması məqsədilə təşkil olunan konfransda dövlət orqanlarının nümayəndələri, investorlar, turizm sənayesinin təmsilçiləri və turizm ixtisası üzrə təhsil alan tələbələr iştirak edirlər.

**AZƏRTAC**
**2023, 14 dekabr**

**Ağdamda "İşğaldan azad olunmuş ərazilərdə turizmin bərpası və inkişafı" I elmi-praktiki konfrans keçirilib – VİDEO**

Dekabrın 14-də Dövlət Turizm Agentliyinin təşkilatçılığı ilə Ağdamda "İşğaldan azad olunmuş ərazilərdə turizmin bərpası və inkişafı" mövzusunda I elmi-praktiki konfrans keçirilib.

AZƏRTAC xəbər verir ki, Qarabağ və Şərqi Zəngəzur bölgəsində turizm potensialı və mövcud resurslardan səmərəli istifadə üsullarının, eləcə də sektorun sürətli inkişafı üçün təkliflərin müzakirə olunması məqsədilə təşkil olunan konfransda dövlət orqanlarının nümayəndələri, investorlar, turizm sənayesinin təmsilçiləri və turizm ixtisası üzrə təhsil alan tələbələr iştirak ediblər.

Konfransdan öncə Memorial Xatirə Kompleksi ziyarət edilib, şəhidlərin ruhuna ehtiram olaraq kompleksin önünə gül dəstələri düzülüb.

Tədbirdə açılış nitqi ilə çıxış edən Dövlət Turizm Agentliyinin sədrinin müavini Azadə Hüseynova Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə şanlı Ordumuzun işğaldan azad etdiyi bölgələrdə qurulan yeni turizm infrastrukturu haqqında məlumat verib. A.Hüseynova Xocavəndin Tuğ, Hadrut kəndləri, Şuşanın Daşaltı kəndində turizm infrastrukturunun yaradılması üçün inkişaf konsepsiyaları üzrə layihələndirmə işlərinin aparıldığını qeyd edib. Tərtər rayonunun Suqovuşan qəsəbəsində istirahət parkının açılışı, "Tuğ" Dövlət Tarix-Memarlıq və Təbiət Qoruğunun yaradılması, Şuşaya turist səfərlərindən söz açan A.Hüseynova bu istiqamətdə işlərin davam etdiriləcəyini vurğulayıb.

Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsinin məsləhətçisi Faiq Hacıyev çıxış edərək Ağdamda, o cümlədən digər ərazilərdə "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"na əsasən genişmiqyaslı bərpa və quruculuq işlərinin aparıldığını, Qarabağda turizmin müxtəlif növlərinin inkişafı üçün geniş turizm potensialının mövcudluğunu, turizmin bölgənin bərpasında əsas sahələrdən biri olacağını qeyd edib.

Sonra postkonflikt dövründə turizmin inkişafı üzrə ən yaxşı təcrübələr, təbliğat işlərinin gücləndirilməsi mövzusu ilə Azərbaycan Turizm Bürosunun baş icraçı direktoru Florian Zenqstşmid, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında turizmin inkişafı və bərpa istiqamətləri, mövcud potensialın səmərəli istifadəsi mövzusu ilə isə Dövlət Turizm Agentliyinin Regional turizm və mədəni irs şöbəsinin müdiri Elgün Cavadov çıxış ediblər.

"İşğaldan azad edilmiş ərazilərin investisiya mühitinin turizm aspektləri: mövcud çağırışlar və imkanlar" adlı paneldə bölgənin investisiya ehtiyacları, sərmayə mühiti, o cümlədən investorların ərazilərə cəlb edilməsi prosesi müzakirə edilib. Aidiyyəti dövlət qurumlarının və biznes təmsilçilərinin iştirak etdiyi müzakirələrin sonunda auditoriyanın sualları cavablandırılıb.

"İşğaldan azad edilmiş ərazilərə turizmin inkişafına elmi baxış" adlı sessiyada Bakı Dövlət Universiteti, Azərbaycan Turizm və Menecment Universiteti, Azərbaycan Dövlət İqtisad Universiteti, ADA Universiteti və Xəzər Universitetindən olan turizm ixtisası üzrə təhsil alan tələbə qrupları mövzu ilə bağlı layihələrini təqdim ediblər.

Konfransda, həmçinin "İşğaldan azad edilmiş ərazilərdə turizm xidmətləri infrastrukturunun genişləndirilməsi və xidmət keyfiyyətinin artırılması" mövzusunda dəyirmi masa təşkil olunub. Azərbaycan Hotel Assosiasiyası, Azərbaycan Turizm Agentlikləri Assosiasiyası, Azərbaycan Turizm Bələdçiləri Assosiasiyası, Azərbaycan Sağlamlıq və Termal Turizmə dəstək Assosiasiyasının təmsilçiləri və bir sıra hotel və turizm şirkətlərinin nümayəndələri mövzu ətrafında müzakirələr aparıblar. Müzakirələrdə Şuşa ilə yanaşı, digər ərazilərə turların təşkil edilməsi, həmçinin Suqovuşan və digər istiqamətlərdə yeni turizm məhsullarının yaradılması, turistlərin xidmətlərə əlçatanlığının artırılması, dövlət-özəl tərəfdaşlığı modellərinin inkişaf etdirilməsi haqqında fikir mübadiləsi aparılıb.

**AZƏRTAC**
**2023, 14 dekabr**

**https://video.azertag.az/site/video/194875**

**“Aqroservis”in sədri Ağdamda vətəndaşların müraciətlərini dinləyib**

“Aqroservis” ASC-nin İdarə Heyətinin sədri Elmin Rəhmanov Ağdam Dövlət Aqrar İnkişaf Mərkəzinin inzibati binasında Ağdam rayonundan olan vətəndaşlarla görüşüb, onların müraciətlərini dinləyib, ərizə və şikayətlərinə baxıb.

Kənd Təsərrüfatı Nazirliyindən AZƏRTAC-a bildirilib ki, qəbulda vətəndaşların müraciətləri əsasən regionda olan texnikaların yenilənməsi, texnikaların lizinq yolu ilə əldə edilməsi, satış qaydaları, mövsüm zamanı texnikaların istifadəyə götürülməsi, texnika ehtiyat hissələri ilə təminat və digər məsələlərlə bağlı olub. “Aqroservis” sədri hər bir vətəndaşın müraciətini diqqətlə dinləyib, qaldırılan məsələlərin hərtərəfli öyrənilməsi və qanunvericiliyin tələblərinə uyğun qısa müddətdə həll edilməsi üçün müvafiq tapşırıqlar verib.

Vətəndaşların müraciətlərinin bir qismi yerindəcə həllini tapıb, qaldırılan bəzi məsələlər isə araşdırılması üçün nəzarətə götürülüb. Nazirliyin fəaliyyət dairəsinə aid olmayan müraciətlər müvafiq qurumlara çatdırılmaq üçün qeydiyyata alınıb. “Aqroservis” sədri vətəndaşlarla görüş zamanı dövlət başçısının kənd təsərrüfatının inkişafı ilə bağlı imzaladığı sərəncamların kənd təsərrüfatı istehsalçılarının rifah halının yaxşılaşdırılmasına və ölkəmizdə bu sahənin inkişafına təkan verəcəyini vurğulayıb. Qəbula gələn vətəndaşlar göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

**AZƏRTAC**
**2023, 15 dekabr**

**Ağdamda Avtomatika və telemexanika istehsalı zavodu gələn il işə salınacaq**

Ağdam sənaye parkında qeydiyyatdan keçən 25 rezidentin 10-dan çoxu tikinti-quraşdırma işlərinə başlayıb. 2024-cü il yaz aylarının sonuna bir sıra müəssisələrin açılışı gözlənilir. Onlardan biri də “Rail Trans Service” MMC tərəfindən inşa olunan Avtomatika və telemexanika istehsalı zavodudur.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, zavodun tikintisi üçün Ağdam Sənaye Parkı ərazisində 0,90 hektar torpaq sahəsi ayrılıb. Müəssisənin tikinti sahəsi 2738,9 kvadratmetrdir.

Layihə rəhbəri Seymur Qəhrəmanov bildirib ki, Avtomatika və telemexanika istehsalı zavodunun tikintisinə cari ilin oktyabr ayında başlanılıb. 2024-cü ilin may ayında inşaat işlərinin başa çatdırılaraq zavodun işə salınması nəzərdə tutulur. Zavodda dəmir yolu siqnal sahəsi üçün avadanlıqlar istehsal olunacaq. Müəssisədə 45 nəfərin işlə təmin olunması planlaşdırılır.

Qeyd edək ki, Ağdam Sənaye Parkına investorlar tərəfindən 175 milyon manatdan çox investisiyanın yatırılması, 1600-dən artıq daimi iş yerinin yaradılması nəzərdə tutulur. Hazırda 10-dan çox sahibkarlıq subyekti tərəfindən aktiv tikinti-quraşdırma, digərləri isə layihələndirmə və ərazinin topoqrafik işləri həyata keçirir.

**Tahir Ağaməmmədov**

**AZƏRTAC**
**2023, 19 dekabr**

**Azərbaycan Prezidenti: Bir neçə aydan sonra Ağdam şəhərində "İmarət" stadionunun yenidən inşasına başlanılacaq – VİDEO**

Bütün başqa şəhərlər kimi bu gün Ağdam şəhəri də yenidən qurulur. O cümlədən bir neçə aydan sonra Ağdam şəhərində "İmarət" stadionunun yenidən inşasına başlanılacaq.

AZƏRTAC xəbər verir ki, bu fikri Prezident İlham Əliyev dekabrın 21-də futbol üzrə Azərbaycan Kubokunun səkkizdəbir final mərhələsində Ağdamın "Qarabağ" və Bakının MOİK komandaları arasında Xankəndi stadionunda keçirilən oyundan əvvəl çıxışında deyib.

"Bugünkü oyunun nəticələrindən asılı olmayaraq qalib bəllidir. Qalib Azərbaycan xalqıdır, Azərbaycan dövlətidir. Bugünkü oyunda "Qarabağ" və Mərkəzi Ordu İdman Klubunun qarşılaşması təbii ki, böyük rəmzi məna daşıyır. Qarabağ-Ordu-Xalq birliyi bizim Zəfərimizin əsas mənbəyidir", - deyə dövlətimizin başçısı vurğulayıb.

**AZƏRTAC**
**2023, 21 dekabr**

**https://video.azertag.az/site/video/195355**

**Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın Ağdam rayonuna səfəri "AzərEnerji" ASC-nin 110/35/10 kV-luq "Ağdam" qovşaq yarımstansiyasının açılışı olub – VİDEO**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağdam rayonuna səfər ediblər.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı "AzərEnerji" Açıq Səhmdar Cəmiyyətinin 110/35/10 kV-luq "Ağdam" qovşaq yarımstansiyasının açılışında iştirak edib.

"AzərEnerji" ASC-nin prezidenti Baba Rzayev dövlətimizin başçısına stansiyada görülən işlər barədə məlumat verdi.

Ağdam rayonunun Xocalı rayonu ilə sərhədində yerləşən Şelli kəndi ərazisində "AzərEnerji" tərəfindən 110/35/10 kV-luq "Ağdam" qovşaq yarımstansiyası inşa edilib. "Ağdam" qovşaq yarımstansiyasına "Ağdam-1" yarımstansiyasından 10 kilometr məsafədə ikidövrəli olmaqla 110 kilovoltluq ötürmə xətti və bu xəttin üstündəki ildırımötürücü trosun içində 24 damarlı fiberoptik kabel xətti çəkilib.

Qeyd olunub ki, bu yarımstansiyanın Ağdamın Xocalı ilə sərhədində tikilməsinin xüsusi əhəmiyyəti vardır. Yəni, "Ağdam" qovşaq yarımstansiyası rayonun bəzi kəndləri ilə yanaşı, əsasən Xocalı, Əsgəran, Xocavənd, Ağdərə və Xankəndini ölkə enerjisisteminə qoşmaqla bərabər, həmçinin ehtiyat qida mənbəyi kimi regionun enerji təchizatında etibarlılığı təmin edir. Bunun üçün yarımstansiyada ehtiyat yuvalar da quraşdırılmışdı. Regionda suverenliyimiz bərpa olunduğundan yaxın vaxtlarda "Ağdam" qovşaq yarımstansiyasından Xankəndiyə 110 kilovoltluq ötürmə xətti çəkilərək 110/35/10 kilovoltluq "Şuşa" və "Füzuli" yarımstansiyaları ilə əlaqələndiriləcək. Bununla da ikitərəfli elektrik təchizatına nail olunacaq. Eyni zamanda, Xocalı, Əsgəran və digər kənd və qəsəbələrin 35 kV-luq elektrik təchizatı da "Ağdam" qovşaq yarımstansiyasından təmin ediləcək.

"Ağdam" qovşaq yarımstansiyasında 110 kV-luq açıq paylayıcı qurğu yaradılıb və açarların, ayırıcıların və digər texniki avadanlıqların açılıb-qoşulması, o cümlədən aktivlərin, proseslərin, resursların idarə edilməsi, qüsurların təcili aradan qaldırılması və başqa əməliyyatların proqram təminatı vasitəsilə avtomatik həyata keçirilməsi təmin edilib. Yarımstansiyanın yeni tikilən İdarəetmə Mərkəzində isə 35 və 10 kV-luq rəqəmsal qapalı paylayıcı qurğular yerləşdirilib. Bununla yanaşı, Mərkəz əks-qəza avtomatikası, mikroprosessor tipli rele mühafizəsi, avtomatika və idarəetmə panelləri, sabit və dəyişən cərəyan qurğuları ilə təmin edilib. Yarımstansiyada müasir tələblərə cavab verən mikro SCADA sistemi yaradılıb və "AzərEnerji"nin mərkəzi SCADA sistemi ilə sinxronlaşdırılıb.

Dövlətimizin başçısı "Ağdam" qovşaq yarımstansiyasını işə saldı.

Qeyd edək ki, buna qədər 2022-ci il fevralın 13-də Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə "AzərEnerji"nin yeni tikilən 110/35/10 kV-luq "Ağdam-1" yarımstansiyası və onun yaxınlığında tikilən "Qarabağ" Regional Rəqəmsal İdarəetmə Mərkəzi istismara verilib.

**AZƏRTAC**
**2023, 24 dekabr**

**https://video.azertag.az/site/video/195793**

**Ağdam şəhərində beşinci yaşayış kompleksinin təməli qoyulub – VİDEO**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağdam şəhərində salınacaq beşinci yaşayış kompleksinin təməlinin qoyulması mərasimində iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov dövlətimizin başçısına və birinci xanıma yaşayış kompleksi barədə məlumat verdi.

Bildirildi ki, ümumi sahəsi 12 hektar olan yaşayış kompleksinin ərazisinin böyük bir hissəsi yaşıllıq zonasından ibarət olacaq. Kompleks şəhərin təsdiq edilmiş ümumi Baş planına uyğun salınacaq. Bu kompleksdə tikiləcək yaşayış binalarında ümumilikdə 1115 mənzil olacaq. Mənzillərdən 25-nin birotaqlı, 314-nün ikiotaqlı, 552-sinin üçotaqlı, 224-nün isə dördotaqlı olacaq.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva yaşayış kompleksi barədə videoçarxa baxdılar.

Qeyd edildi ki, kompleksdəki binaların inşasında modern memarlıq yanaşmalarından və milli naxış elementlərindən istifadə olunacaq. Burada idman meydançalarının, istirahət guşələrinin, velosiped dayanacaqlarının və digər zəruri infrastruktur obyektlərinin yaradılması nəzərdə tutulur.

Bütün binalar daimi su, elektrik enerjisi və yüksəksürətli internet ilə təmin ediləcək. İstilik və isti su təchizatı mərkəzi qazanxana sistemi ilə həyata keçiriləcək. Binaların inşasında istilik tutumlu təbii inşaat materiallarından istifadə ediləcək.

Dövlətimizin başçısı Ağdam şəhərində beşinci yaşayış kompleksinin təməlini qoydu.

**AZƏRTAC**
**2023, 24 dekabr**

**https://video.azertag.az/site/video/195796**

**Ağdam şəhərində dördüncü yaşayış kompleksinin təməlqoyma mərasimi olub - VİDEO**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağdam şəhərində salınacaq dördüncü yaşayış kompleksinin təməlinin qoyulması mərasimində də iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısına və birinci xanıma yaşayış kompleksi barədə məlumat verildi.

Bildirildi ki, ümumi sahəsi 14 hektara yaxın olan yaşayış kompleksinin salınacağı ərazinin bir hissəsi çoxfunksiyalı zonanı əhatə edir. Bu kompleksdə tikiləcək yaşayış binalarında ümumi sahəsi 137 min kvadratmetr təşkil edən 1080, o cümlədən 36 birotaqlı, 363 ikiotaqlı, 484 üçotaqlı, 197 dördotaqlı mənzil olacaq.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva yaşayış kompleksi barədə videoçarxa baxdılar.

Qeyd edildi ki, yaşayış kompleksindəki binaların inşasında istilik tutumlu təbii materiallardan istifadə olunacaq. Binalar daimi su, elektrik enerjisi və yüksəksürətli internet ilə təmin ediləcək. İstilik və isti su təchizatı mərkəzi qazanxana sistemi ilə həyata keçiriləcək.

Kompleksdə, həmçinin idman meydançaları, istirahət guşələri, uşaq oyun meydançaları, velosiped yolları və avtomobil dayanacaqları yaradılacaq.

Dövlətimizin başçısı Ağdam şəhərində dördüncü yaşayış kompleksinin təməlini qoydu.

**AZƏRTAC**
**2023, 24 dekabr**

**https://video.azertag.az/site/video/195799**

**Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağdamda "İmarət" Kompleksində aparılan təmir-bərpa işləri ilə tanış olublar – VİDEO**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağdam şəhərində "İmarət" Kompleksində aparılan təmir-bərpa işləri ilə tanış olublar.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısına və birinci xanıma görülən işlər barədə məlumat verildi.

Ağdam rayonunda erməni vandalizminə məruz qalan tarixi-memarlıq abidələrindən biri də Qarabağ xanlığının banisi Pənahəli xanın sarayıdır. XVIII əsrə aid bu tarix-memarlıq abidəsi Azərbaycan ərazisində yayılmış digər xan saraylarından fərqlənərək dəbdəbəli ev xüsusiyyəti daşıyıb. İşğal altında olmuş ərazilərdəki digər tarixi-mədəni, dini abidələr kimi, Pənahəli xanın imarəti də işğalçılar tərəfindən təhqir edilib, vandalizmə məruz qalıb.

Burada Qarabağ xanlığının əsasını qoymuş Pənahəli xanın və xanlıqda müxtəlif illərdə hakimiyyətdə olmuş hökmdarlar - İbrahimxəlil xanın və onun oğlu Mehdiqulu xanın qəbirüstü türbələri, həmçinin Mehdiqulu xanın qızı Xurşidbanu Natəvanın məzarı olub. Qarabağ xanlarının nəslindən olan digər görkəmli şəxslər də bu qəbiristanlıqda dəfn edilib. Lakin Ağdam şəhəri işğal olunduqdan sonra qəbiristanlıq da erməni vandalizminə məruz qalıb. İbrahimxəlil xanın türbəsi və Qarabağın sonuncu hakimi Mehdiqulu xan Cavanşirin qızı Xurşidbanu Natəvanın qəbirüstü abidəsi ermənilər tərəfindən dağıdılıb.

Prezident İlham Əliyevin müvafiq tapşırığına uyğun olaraq Pənahəli xanın sarayının yerləşdiyi "İmarət" Kompleksinin bərpa edilməsi üçün işlərə başlanılıb. Kompleksin bərpası ilə bağlı xarici mütəxəssislər tərəfindən hazırlanmış konsepsiya 2022-ci il oktyabrın 4-də dövlətimizin başçısına təqdim olunub və işlərə başlanılıb. Konsepsiyaya əsasən, kompleks Pənahəli xanın sarayı, türbələr və Qarabağ atları parkından ibarət olacaq, xanın sarayı bərpa edilərək interaktiv muzey kimi fəaliyyət göstərəcək.

Xarici mütəxəssislərin Ağdama səfərləri çərçivəsində sahənin inspeksiyası və çəkilişləri aparılıb, arxiv materialları araşdırılıb, beynəlxalq təcrübəyə əsaslanaraq bərpa və dizayn layihələri hazırlanıb. Kompleks ümumilikdə 3,3 hektar ərazini əhatə edəcək.

"İmarət" Kompleksindəki tarixi qəbiristanlıqda mövcud beş türbə qalığı tədqiqat sahəsinə daxil edilib. Türbələrin içi və ətrafı erməni işğalçılarının bu abidələrin daxilində qurduğu donuzçuluq təsərrüfatının tullantılarından və digər qalıqlardan təmizlənib.

Tədqiqat nəticəsində burada çox sayda müsəlman qəbirləri, daş abidələrin fraqmentləri - başdaşıları, sinədaşıları, antik dövr sütun bazası, antropomorf büt aşkarlanıb. Ərazidə xüsusilə kəllə və alt çənə sümükləri, çox sayda insan skeletinin fraqmentləri tapılıb. Onların arasında xan nəslinə aid olan qədim sərdabə tipli qəbirlər də yer alıb. Burada sovet dövründə dəfn edilənlərin qəbirlərinin böyük bir hissəsi vandalizmə məruz qalıb. Ərazidə aşkarlanan sümüklərdən DNT nümunələri götürülüb, qəbirlərin identifikasiyası üzərində araşdırmalar davam etdirilir.

Erməni işğalçılar tərəfindən məzarların sinədaşı və başdaşıları sındırılıb, bir çoxu müxtəlif məqsədlə istifadə üçün qəbiristanlıq ərazisindən çıxarılıb.

Kompleksin ərazisində arxeoloji tədqiqatların aparılması məqsədilə AMEA-nın Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutu bu ilin aprelində Ağdam şəhərinə mütəxəssislərdən ibarət elmi ekspedisiya göndərib. Tədqiqatlar zamanı tapıntıların foto və videoçəkilişləri həm fotoaparat, həm də kvadrokopterlə aparılıb. Tədqiqatlar nəticəsində müəyyən edilib ki, "İmarət" Kompleksinə aid olan tarixi qəbiristanlığın ərazisi 6 min kvadratmetrdir. Cari ilin sonunadək Kompleksin ərazisindəki tarixi qəbiristanlıqda arxeoloji tədqiqat işlərinin birinci mərhələsi yekunlaşacaq. Burada tədqiqat işlərinin ikinci mərhələsinə başlanılacaq.

Kompleksin tam bərpası üçün vəsaitin Qarabağ Dirçəliş Fondu tərəfindən ayrılması nəzərdə tutulur

**AZƏRTAC**
**2023, 24 dekabr**

**https://video.azertag.az/site/video/195802**

**Ağdam şəhər Mərkəzi parkının təməli qoyulub – VİDEO**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağdam şəhər Mərkəzi parkının təməlinin qoyulması mərasimində iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısına və birinci xanıma parkda görüləcək işlər barədə məlumat verildi.

İşğaldan azad olunmuş ərazilərdə infrastrukturun yenidən qurulması ilə yanaşı, həmin yerlərdə ekoloji tarazlığın bərpası, yeni yaşıllıq sahələrinin və parkların salınması istiqamətində də ciddi addımlar atılır.

Ağdam şəhərinin yeni Baş planına əsasən salınacaq park 5 hektar ərazini əhatə edəcək. Parkın layihəsi Prezident İlham Əliyevin tapşırıq və tövsiyələri nəzərə alınmaqla hazırlanıb.

Mərkəzi parkın ümumi ərazisi dörd zonaya ayrılacaq. Şəhər meydanı, Botanika bağı, Çəmənlik və Meşəlik zonalarında mədəni-kütləvi tədbirlərin keçirilməsi üçün hər cür şərait yaradılacaq. Burada, həmçinin su oyun zonaları, çay evləri, istirahət və iaşə obyektləri, mədəni və öyrədici meydançalar, təhsil və sağlamlıq sahələri və aktiv oyun zonaları fəaliyyət göstərəcək. Müxtəlif ağac növlərinin və dekorativ kolların əkiləcəyi Ağdam şəhər Mərkəzi parkında istirahət etmək, idmanla məşğul olmaq istəyənlər üçün hər cür şərait yaradılacaq.

Parkın salınması ərazidə ekoloji tarazlığın bərpasına ciddi töhfə verməklə yanaşı, həm Ağdam sakinlərinin, həm də şəhərin qonaqlarının, turistlərin istirahəti üçün ən gözəl məkanlardan birinə çevriləcək.

Prezident İlham Əliyev Ağdam şəhər Mərkəzi parkının təməlini qoydu.

Sonra dövlətimizin başçısı və birinci xanım Mərkəzi parkın ərazisində ağac əkdilər.

**AZƏRTAC**
**2023, 24 dekabr**

**https://video.azertag.az/site/video/195808**

**Ağdam şəhərinin daxili yollarında aparılan işlərlə tanışlıq – VİDEO**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ağdam şəhərinin daxili yollarında aparılan işlərlə tanış olub.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov dövlətimizin başçısına görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi tərəfindən təsdiq edilmiş Ağdam şəhərinin Baş planına əsasən şəhərin daxili yollarının ümumi uzunluğu 189,7 kilometr təşkil edir. Şəhərin daxili yol və kommunikasiya şəbəkəsinin təməli 2022-ci il oktyabrın 4-də Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə qoyulub.

Ağdam şəhərinin daxili yollarının 6 tip en kəsiyinə uyğun tikilməsi nəzərdə tutulub. Hər bir tip en kəsiyinin əhəmiyyətinə uyğun olaraq, hərəkət zolaqlarının sayı 2-8 ədəd, yaşıllıq zolağının eni 1,5-3 metr, velosiped zolağının eni 1,5 metr, piyada zolağının eni isə 4-6 metr təşkil edir. Bu yolların birinci mərhələdə uzunluğu 58,7 kilometr təşkil edən hissəsi müsbət ekspertiza rəyi alıb.

Qeyd edildi ki, magistral şəhər yollarının uzunluğu 17,5 kilometrdir. Eni 55-60 metr təşkil edəcək bu yol 6-8 hərəkət zolağından ibarət olacaq. Ümumşəhər əhəmiyyətli yolların uzunluğu 50, yerli əhəmiyyətli yolların ümumi uzunluğu isə 122,2 kilometr təşkil edəcək. Böyük Qayıdışa dair I Dövlət Proqramına uyğun olaraq Ağdam şəhərinin daxili yollarının tikintisi 2026-cı ildə başa çatdırılacaq.

**AZƏRTAC**
**2023, 24 dekabr**

**https://video.azertag.az/site/video/195805**

**Prezident İlham Əliyev Ağdamın Qiyaslı kəndinin təməlini qoyub – VİDEO**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ağdam rayonunun Qiyaslı kəndinin təməlini qoyub.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısına kənddə görüləcək işlər barədə məlumat verildi.

Bildirildi ki, kənd tarixi ənənələri qorumaqla müasir üslubda layihələndirilib. Kəndin ümumi ərazisi 400 hektara yaxındır. Qiyaslı kəndində 4972 nəfərin məskunlaşması planlaşdırılıb. Kənddə ümumilikdə 1323 fərdi evin tikilməsi nəzərdə tutulub.

Burada məskunlaşacaq əhalinin yaşayış yükünü nəzərə alaraq, məhəllələrin salınmasının birinci mərhələsi üçün 145 hektar torpaq sahəsi ayrılıb. Birinci mərhələdə kəndə 2546 nəfərin köçürülməsi üçün 656 fərdi ev tikiləcək.

Vurğulandı ki, kənddə əhalinin məşğulluğunun təmin edilməsi üçün də hər cür şərait yaradılacaq. Burada əhali mədəniyyət və əyləncə mərkəzləri, dini, xidmət, kommersiya müəssisələri, iqtisadi inkişaf obyektləri, təhsil, idarəetmə və kənd təsərrüfatı sahələri üzrə işlə təmin olunacaqlar.

Qiyaslı kəndində 540 şagird yerlik məktəb, 180 yerlik isə iki uşaq bağçası və digər sosial obyektlər inşa olunacaq.

Kənddə enerji daşıyıcılarına qənaət etmək məqsədilə alternativ enerjidən istifadə olunacaq.

Prezident İlham Əliyev Qiyaslı kəndinin təməlini qoydu.

**AZƏRTAC**
**2023, 24 dekabr**

**https://video.azertag.az/site/video/195811**

**Ağdam rayonunun Salahlı Kəngərli kəndinin təməli qoyulub - VİDEO**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ağdam rayonunun Salahlı Kəngərli kəndinin təməlini qoyub.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısına kənddə görüləcək işlər barədə məlumat verildi.

Bildirildi ki, kənd tarixi ənənələri qorumaqla müasir üslubda layihələndirilib. Kəndin ümumi ərazisi 178 hektara yaxındır. Salahlı Kəngərli kəndində 1376 nəfərin məskunlaşması nəzərdə tutulub. Layihə üzrə kənddə ümumilikdə 418 fərdi ev tikiləcək.

Burada məskunlaşacaq əhalinin yaşayış yükünü nəzərə alaraq, məhəllələrin salınmasının birinci mərhələsi üçün 99 hektar torpaq sahəsi ayrılıb. Birinci mərhələdə kəndə 850 nəfərin köçürülməsi üçün 150 fərdi evin tikilməsi planlaşdırılır.

Diqqətə çatdırıldı ki, kənddə əhalinin məşğulluğunun təmin edilməsi üçün də hər cür şərait yaradılacaq. Burada əhali müxtəlif təyinatlı obyektlərdə və kənd təsərrüfatı sahələrində işlə təmin olunacaqlar.

Salahlı Kəngərli kəndində 480 şagird yerlik məktəb, 80 yerlik isə uşaq bağçası və digər sosial obyektlər inşa olunacaq.

Kənddə enerji daşıyıcılarına qənaət etmək məqsədilə alternativ enerjidən istifadə olunması nəzərdə tutulur.

Prezident İlham Əliyev Salahlı Kəngərli kəndinin təməlini qoydu.

**AZƏRTAC**
**2023, 24 dekabr**

**https://video.azertag.az/site/video/195817**

**Uzunluğu 44,5 kilometr olan Bərdə-Ağdam avtomobil yolu istifadəyə verilib – VİDEO**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bərdə-Ağdam avtomobil yolunun açılışında iştirak edib.
AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısına görülən işlər barədə məlumat verildi.
Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları ərazisində icra edilən yol infrastrukturu layihələrindən biri olan Bərdə-Ağdam avtomobil yolunun təməli 2021-ci il mayın 28-də Prezident İlham Əliyev tərəfindən qoyulub.
Bildirildi ki, başlanğıcını Bərdə şəhərindən götürən avtomobil yolunun uzunluğu 44,5 kilometrdir. Avtomobil yolu dörd hərəkət zolaqlı olmaqla I texniki dərəcəyə uyğun inşa edilib.
Bərdə-Ağdam avtomobil yolunun 25-ci və 40-cı kilometrlik hissələrində 91,3 metr və 18,2 metr uzunluğunda avtomobil körpülərinin, yolun 14-cü və 42-ci kilometrlik hissələrində isə 66 metr və 43 metr uzunluğunda yol qovşaqlarının və 4-cü, 14-cü və 16-cı kilometrlik hissələrində yerüstü piyada keçidlərinin tikintisi uğurla icra olunub. Nəqliyyat vasitələrinin normal hərəkətinin təşkili üçün yolboyu üfüqi nişanlanma xətlərinin çəkilişi, yol nişanlarının və məsafə göstəricilərinin, həmçinin müasir məlumatverici lövhələrin quraşdırılması işləri icra olunmaqla yol beynəlxalq standartlar çərçivəsində istifadəyə verilib.
Qeyd edək ki, Bərdə-Ağdam avtomobil yolunun ilk 14 kilometrlik hissəsi Bərdə şəhəri və rayonun bir neçə yaşayış məntəqəsinin daxilindən keçir. Ümumilikdə isə yol Bərdə və Ağdam şəhərləri də daxil olmaqla, sözügedən həmin rayonların 20-dən çox yaşayış məntəqəsini əhatə edir.

**AZƏRTAC**
**2023, 24 dekabr**

**https://video.azertag.az/site/video/195820**

**Ağdam rayonunun Baş Qərvənd kəndinin də təməli qoyulub – VİDEO**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ağdam rayonunun Baş Qərvənd kəndinin təməlqoyma mərasimində iştirak edib.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısına kənddə görüləcək işlər barədə məlumat verildi.

Bildirildi ki, kənd tarixi ənənələri qorumaqla müasir üslubda layihələndirilib. Kəndin ümumi ərazisi 476 hektardır. Kənddə 6057 nəfərin məskunlaşması və ümumilikdə 1495 fərdi evin tikilməsi nəzərdə tutulub.

Layihənin birinci mərhələsi üçün 202 hektardan çox torpaq sahəsi ayrılıb. Birinci mərhələdə kəndə 851 ailənin - 3703 nəfərin köçürülməsi planlaşdırılır. Bunun üçün bu mərhələdə 851 ev inşa ediləcək. Bu evlərin 170-i ikiotaqlı, 425-i üçotaqlı, 213-ü dördotaqlı, 43-ü isə beşotaqlı olacaq.

Prezident İlham Əliyev görüləcək işlər barədə videoçarxa baxdı.

Vurğulandı ki, kənddə əhalinin məşğulluğunun və istirahətinin təmin edilməsi üçün də hər cür şərait yaradılacaq. Burada uşaq bağçası, məktəb, kollec binaları, kollektiv istirahət və təhsil obyektləri, inzibati bina, klub icma mərkəzi, tibb məntəqəsi, aptek, mehmanxana, bazar və bir sıra xidmət müəssisələri yaradılacaq. Kənddə enerji daşıyıcılarına qənaət etmək məqsədilə alternativ enerjidən istifadə olunacaq.

Prezident İlham Əliyev Baş Qərvənd kəndinin təməlini qoydu.

**AZƏRTAC**
**2023, 24 dekabr**

**https://video.azertag.az/site/video/195823**

**Ağdamda ekoloji məsələlər üzrə işçi qrupunun iclası keçirilir - YENİLƏNİB**

Ağdam şəhərində ekoloji məsələlər üzrə işçi qrupunun iclası keçirilir.

AZƏRTAC xəbər verir ki, İşçi qrupun iclası ekologiya və təbii sərvətlər nazirinin müavini Vüqar Kərimovun rəhbərliyi ilə keçirilir.

İclasda Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə ( Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov, AMEA-nın vitse-prezidenti Elm və Təhsil Nazirliyinin Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutunun baş direktoru İradə Hüseynova, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Ekoloji siyasət şöbəsinin tullantıların idarə olunması sektorunun müdiri Mehman Nəbiyev, Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Qubadlı, Cəbrayıl və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin Xüsusi Nümayəndəliyinin böyük məsləhətçisi Nərgiz Qaracayeva və başqaları iştirak edirlər.

İclasda 9 məsələ - Qarabağ iqtisadi rayonunun sosial-iqtisadi inkişafında ekoloji amillərin qiymətləndirilməsi, Qarabağ iqtisadi rayonunun biomüxtəlifliyi, mineral xammal ehtiyatları və yeraltı suların monitorinqi və təftişi işləri, Ağdam rayonunda su təchizatı sistemləri, Qarabağ iqtisadi rayonunda meliorasiya və su təsərrüfatı obyektlərinin bərpası və inkişafı, mövcud mineral xammal yataqlarının vəziyyəti və istifadə perspektivləri müzakirə olunur.

Həmçinin Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında "yaşıl enerji'nin inkişafı və ekoloji mühitin keyfiyyətinin artırılması, işğaldan azad edilmiş ərazilərdə bərk məişət tullantılarının idarə olunması, Qarabağ iqtisadi rayonunda yaranan tikinti-söküntü tullantılarının səmərəli idarə olunması və onlardan xammal kimi təkrar istifadə edilməsi haqqında müzakirələr aparılır.

**Göyçək Mahmudlu**

**AZƏRTAC**
**2023, 25 dekabr**

## Emin Hüseynov: Ağdamda 59 kəhriz kompleksi mövcuddur

Hazırda işğaldan azad edilən ərazilərdə bərpa-quruculuq işlərində dağıdılmış kəhrizlərə rast gəlinir. Təkcə Ağdamda 59 kəhriz kompleksi mövcuddur. Həmin kəhrizlər gələcək yaşayış məntəqələri üçün olduqca önəmli su mənbəyidir. Onların bərpası bərpa-quruculuq prosesində effektiv rol oyana bilər. Bərpa olunan kəndlərin dayanıqlı şəkildə ekologiyaya ziyan vurmadan suvarma suyu ilə təminatı, ərazilərdə mövcud müxtəlif çoxsaylı yataqlardan, geoloji ehtiyatlardan bərpa prosesində istifadə olunması, iqtisadi dövriyyəyə cəlb olunması önəmli məsələlərdəndir.

AZƏRTAC xəbər verir ki, bunu Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov jurnalistlərə müsahibəsində deyib.

Onun sözlərinə görə, Ağdamda quruculuq işlərində artıq yerli yataqlardan istifadə olunur: "Bərpa olunan kəndlərdə bu yataqlardan çıxarılan tikinti materialları - Ağdamın məşhur ağ daşı artıq istehsal olunaraq tikinti şirkətlərinə verilir. Tikinti layihələrində istifadə olunur. Bu ehtiyatların daha geniş və dayanıqlı istismarı layihələrin yüksək keyfiyyətli şəkildə icra olunmasına gətirib çıxaracaq, həm onların icra müddətini kifayət qədər qısaldacaq, həm də məsrəfləri azaldacaq, eyni zamanda quruculuq işlərini sürətləndirəcək.

Meydana çıxan digər məsələ söküntü materiallarının utilizasiyası ilə bağlıdır. Düşmən 30 il ərzində 8 şəhəri yerlə-yeksan edib. Ərazidə həyata keçirilən bərpa prosesləri zamanı çoxsaylı söküntü tullantıları yaranır, onların təkrar emal olunaraq layihələrə cəlb olunması, yenidən istifadə olunması, sıfır tullantı səviyyəsində layihələrin icra olunması olduqca vacibdir və bu, bütün işğaldan azad edilmiş ərazilərdə nəzərə alınır. Bu, gələcəkdə həmin bölgədə dayanıqlı və yaşıl iqtisadiyyatın formalaşmasına və yaşıl zona konsepsiyasının tam mənada həyata keçirilməsinə öz töhfəsini verəcək".

**Göyçək Mahmudlu**

**AZƏRTAC**
**2023, 25 dekabr**

**Ağdamda müxtəlif mənşəli 15 yataq mövcuddur**

Ağdamda 15 yataq mövcuddur ki, onlardan 13-ü qeyri-filiz və tikinti materialları, 2-si yeraltı içməli sudur.

AZƏRTAC xəbər verir ki, bunu Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Geoloji Kəşfiyyat Agentliyinin İdarə Heyətinin sədri Əli Əliyev ekoloji məsələlər üzrə işçi qrupun Ağdamda keçirilən iclasında deyib.

Ağdamda 60-a yaxın kəhrizin olduğunu deyən Ə.Əliyev minalarla əlaqədar hələ monitorinqlərin başa çatmadığını da qeyd edib. Onun sözlərinə görə, partladılan hər bir mina kəhriz tunelində uçmalara səbəb ola bilir.

Agentliyin İdarə Heyətinin sədri işğaldan azad edilən ərazilərdə 1991-ci ilədək 167 filiz və qeyri-filiz, inşaat və tikinti materialları, yeraltı içməli şirin və termal-mineral su yataqlarının kəşf edildiyini, ehtiyatlarının hesablanaraq dövlət və sahə balanslarında qeydiyyata alındığını qeyd edib.

**Göyçək Mahmudlu**

**AZƏRTAC**
**2023, 25 dekabr**

**ANAMA-nın əməkdaşı Ağdamda minaya düşüb**

Dekabrın 26-da işğaldan azad edilmiş Ağdam rayonunun Sarıcalı kəndi ərazisində Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) əməkdaşı 1982-ci il təvəllüdlü Mahmudov Zaur Eldar oğlu xidməti vəzifəsini yerinə yetirərkən piyada əleyhinə mina partlayışı baş verib.

Bu barədə AZƏRTAC-a ANAMA-nın mətbuat xidmətindən məlumat verilib.

Xəsarət alan şəxs hadisə yerindən təxliyə edilərək, rayon xəstəxanasına çatdırılır. Onun vəziyyəti qənaətbəxşdir.

**AZƏRTAC**
**2023, 26 dekabr**

**Baş prokurorluq: Ağdamda ANAMA əməkdaşının minaya düşərək xəsarət alması faktı ilə bağlı araşdırma aparılır**

Ağdam rayonunda ANAMA əməkdaşının minaya düşərək xəsarət alması faktı ilə bağlı araşdırma aparılır.

Bu barədə Baş prokurorluğun mətbuat xidmətindən AZƏRTAC-a məlumat verilib.

Qeyd olunub ki, dekabrın 26-da Ağdam rayonunun işğaldan azad edilmiş Sarıcalı kəndi ərazisində Azərbaycan Respublikası Minatəmizləmə Agentliyinin (ANAMA) əməkdaşı 1982-ci il təvəllüdlü Mahmudov Zaur Eldar oğlunun mina partlaması nəticəsində xəsarət alması faktı ilə bağlı rayon prokurorluğunda araşdırma aparılır.

**AZƏRTAC**
**2023, 26 dekabr**

**Ağdamda mina hadisəsi zamanı xəsarət alan ANAMA əməkdaşının həyati təhlükəsi yoxdur**

Ağdam rayonunun Sarıcalı kəndi ərazisində mina hadisəsində xəsarət alan Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin (ANAMA) əməkdaşı - 1982-ci il təvəllüdlü Mahmudov Zaur Eldar oğlunun həyatı təhlükəsi yoxdur.

Bu barədə AZƏRTAC-a ANAMA-nın mətbuat xidmətindən məlumat verilib.

Bildirilib ki, dekabrın 26-da xidməti vəzifəsini yerinə yetirən zaman baş vermiş piyada əleyhinə mina partlayışı nəticəsində xəsarət alan Z.Mahmudovun ilkin müayinəsi zamanı daban sümüyü və ayaq daraq sümüklərinin sınığı aşkarlanıb.

“Xəsarət alan şəxsə bütün zəruri tibbi dəstək göstərildikdən sonra stasionar müalicəsinin davamı məqsədilə Azərbaycan Tibb Universitetinin Tədris Cərrahiyyə Klinikasına yerləşdirilib. Həyatı təhlükəsi yoxdur. Xəsarət alan əməkdaşın durumu ilə bağlı əlavə məlumat veriləcək”, - məlumatda deyilir.

**AZƏRTAC**
**2023, 27 dekabr**

**Ağdamda məşhur "Çay evi" yenidən inşa olunacaq**

Ağdam şəhərində məşhur "Çay evi" yenidən inşa olunacaq.

Bunu AZƏRTAC-ın bölgə müxbirinə açıqlamasında Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Prezidentinin xüsusi nümayəndəsinin müavini Bəşir Hacıyev deyib.

Prezidentin xüsusi nümayəndəsi bildirib ki, "Çay evi" Ağdam şəhər mərkəzi parkının ərazisində, əvvəlki yerində tikiləcək.

**Tahir Ağaməmmədov**

**AZƏRTAC**
**2023, 27 dekabr**

**Ağdamdakı Mərkəzi park botanika bağı, çəmənlik və meşəlik zonalarına ayrılacaq**

Ağdam şəhər Mərkəzi parkının ümumi ərazisi dörd zonaya ayrılacaq. Şəhər meydanı, botanika bağı, məmənlik və meşəlik zonalarında mədəni-kütləvi tədbirlərin keçirilməsi üçün hər cür şərait yaradılacaq.

Bunu AZƏRTAC-ın bölgə müxbirinə açıqlamasında Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Prezidentinin xüsusi nümayəndəsinin müavini Bəşir Hacıyev deyib.

O bildirib ki, Ağdam şəhərinin yeni Baş planına əsasən salınacaq park 5,5 hektar ərazini əhatə edəcək. Onun 70 faizi yaşıllıqlar, 25 faizi səki və meydançalar, 5 faizini tikililər təşkil edəcək. Parkın ərazisində su oyun zonaları, istirahət və iaşə obyektləri, mədəni və öyrədici meydançalar, təhsil və sağlamlıq sahələri və oyun zonaları fəaliyyət göstərəcək. Parkın ərazisində bir zamanlar Ağdamda mövcud olmuş məşhur Çay evi də inşa ediləcək. Müxtəlif ağac növlərinin və dekorativ kolların əkiləcəyi Ağdam şəhər Mərkəzi parkında istirahət etmək, idmanla məşğul olmaq istəyənlər üçün hər cür şərait yaradılacaq.

Park ərazidə ekoloji tarazlığın bərpasına ciddi töhfə verməklə yanaşı, həm Ağdam sakinlərinin, həm də şəhərin qonaqlarının, turistlərin istirahəti üçün ən gözəl məkanlardan birinə çevriləcək.

Qeyd edək ki, işğaldan azad olunmuş ərazilərdə infrastrukturun yenidən qurulması ilə yanaşı, həmin yerlərdə ekoloji tarazlığın bərpası, yeni yaşıllıq sahələrinin və parkların salınması istiqamətində də ciddi addımlar atılır.

**T.Ağaməmmədov**

**AZƏRTAC**
**2023, 27 dekabr**

**Ağdamın Salahlı Kəngərli kəndi tarixi ənənələri qorunmaqla müasir üslubda inşa ediləcək**

Ağdam rayonunun Salahlı Kəngərli kəndi tarixi ənənələri qorumaqla müasir üslubda inşa ediləcək. Kənddə enerji daşıyıcılarına qənaət etmək məqsədilə alternativ enerjidən istifadə olunması nəzərdə tutulur.

Bunu AZƏRTAC-ın bölgə müxbirinə açıqlamasında Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Prezidentinin xüsusi nümayəndəsinin müavini Bəşir Hacıyev deyib.

O bildirib ki, Salahlı Kəngərli kəndinin ümumi ərazisi 178 hektara yaxındır. Kənddə 1376 nəfərin məskunlaşması nəzərdə tutulur. Layihə üzrə kənddə, ümumilikdə 418 ev tikiləcək. Kənddə məskunlaşacaq əhalinin yaşayış yükünü nəzərə alaraq, məhəllələrin salınmasının birinci mərhələsi üçün 99 hektar torpaq sahəsi ayrılıb. Birinci mərhələdə kəndə 850 nəfərin köçürülməsi üçün 150 evin tikilməsi planlaşdırılır.

Salahlı Kəngərli kəndində 480 şagird yerlik məktəb, 80 yerlik uşaq bağçası və digər sosial obyektlər inşa olunacaq. Kənddə əhalinin məşğulluğunun təmin edilməsi üçün də hər cür şərait yaradılacaq. Burada əhali müxtəlif təyinatlı obyektlərdə və kənd təsərrüfatı sahələrində işlə təmin olunacaqlar.

**T.Ağaməmmədov**

**AZƏRTAC**
**2023, 27 dekabr**

**Ağdam şəhərində daxili yolların ümumi uzunluğu 189,7 kilometr təşkil edəcək**

Ağdam şəhərinin Baş planına əsasən, şəhərin daxili yollarının ümumi uzunluğu 189,7 kilometr təşkil edəcək.

Bunu AZƏRTAC-ın bölgə müxbirinə açıqlamasında Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin əməkdaşı Məmməd Məmmədov deyib.

O bildirib ki, Ağdam şəhərinin daxili yollarının 6 tip en kəsiyinə uyğun tikilməsi nəzərdə tutulub. Hər bir tip en kəsiyinin əhəmiyyətinə uyğun olaraq, hərəkət zolaqlarının sayı 2-8 ədəd, yaşıllıq zolağının eni 1,5-3 metr, velosiped zolağının eni 1,5 metr, piyada zolağının eni isə 4-6 metr təşkil edir.

Magistral şəhər yollarının uzunluğu 17,5 kilometr olacaq. Yolun torpaq yatağının eni 55-60 metr təşkil edəcək və 6-8 hərəkət zolağından ibarət olacaq. Yolların 50 kilometr hissəsində hərəkət zolaqlarının sayı 4 olmaqla, torpaq yatağının eni 34-40 metr, 122,2 kilometr hissədə isə hərəkət zolaqlarının sayı 2 olmaqla, torpaq yatağının eni 20-24 metr təşkil edəcək. Artıq ikinti işlərinə başlanılıb.

Birinci mərhələ üzrə avtomobil yolunun 58,7 kilometr hissəsinin tikintisi nəzərdə tutulur. Ümumilikdə isə Böyük Qayıdışa dair I Dövlət Proqramına uyğun olaraq, Ağdam şəhərinin daxili yollarının tikintisi 2026-cı ildə başa çatdırılacaq.

**T.Ağaməmmədov**

**AZƏRTAC**
**2023, 27 dekabr**

## Dörd hərəkət zolağı olan Bərdə-Ağdam avtomobil yolu I texniki dərəcəyə uyğun inşa edilib

Bərdə-Ağdam avtomobil yolu dörd hərəkət zolaqlı olmaqla, I texniki dərəcəyə uyğun inşa edilib. Başlanğıcını Bərdə şəhərindən götürən avtomobil yolunun uzunluğu 44,5 kilometrdir.

Bunu AZƏRTAC-ın bölgə müxbirinə açıqlamasında Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin əməkdaşı Məmməd Məmmədov deyib.

Onun sözlərinə görə, Bərdə-Ağdam avtomobil yolunun 25-ci və 40-cı kilometrliyində paralel olaraq 91,3 metr və 18,2 metr uzunluğunda avtomobil körpülərinin, yolun 14-cü və 42-ci kilometrlik hissələrində isə 66 metr və 43 metr uzunluğunda yol qovşaqlarının, 4-cü, 14-cü və 16-cı kilometrlik hissələrində yerüstü piyada keçidlərinin tikintisi uğurla icra olunub. Nəqliyyat vasitələrinin normal hərəkətinin təşkili üçün yolboyu üfiqi nişanlanma xətlərinin çəkilişi, yol nişanlarının və məsafə göstəricilərinin, həmçinin müasir məlumatverici lövhələrin quraşdırılması işləri icra olunmaqla, yol beynəlxalq standartlar çərçivəsində istifadəyə verilib.

Bərdə-Ağdam avtomobil yolunun ilk 14 kilometrlik hissəsi Bərdə şəhəri və rayonun bir neçə yaşayış məntəqəsinin daxilindən keçir. Ümumilikdə isə yol Bərdə və Ağdam şəhərləri də daxil olmaqla, sözügedən həmin rayonların 20-dən çox yaşayış məntəqəsini əhatə edir.

Qeyd edək ki, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları ərazisində icra edilən yol infrastrukturu layihələrindən biri olan Bərdə-Ağdam avtomobil yolunun təməli 2021-ci il mayın 28-də Prezident İlham Əliyev tərəfindən qoyulub. Dövlətimizin başçısı bu il dekabrın 24-də Bərdə-Ağdam avtomobil yolunun açılışını edib.

**T.Ağaməmmədov**

**AZƏRTAC**
**2023, 27 dekabr**

**Ağdam şəhərindəki yaşayış binalarının inşasında istilik tutumlu təbii materiallardan istifadə ediləcək**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva dekabrın 24-də Ağdam şəhərində salınacaq dördüncü və beşinci yaşayış kompleksinin təməlinin qoyulması mərasimində iştirak ediblər. Dördüncü yaşayış kompleksinin ümumi sahəsi 14 hektara yaxındır. Bu kompleksdə 1080 mənzil, o cümlədən 36 birotaqlı, 363 ikiotaqlı, 484 üçotaqlı, 197 dördotaqlı mənzil olacaq. Ümumi sahəsi 12 hektar olan beşinci yaşayış kompleksində tikiləcək yaşayış binalarında isə 1115 mənzil olacaq. Mənzillərdən 25-nin birotaqlı, 314-nün ikiotaqlı, 552-sinin üçotaqlı, 224-nün isə dördotaqlıdır.

Bunu AZƏRTAC-ın bölgə müxbirinə açıqlamasında Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad olunmuş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Prezidentinin xüsusi nümayəndəsinin müavini Bəşir Hacıyev deyib.

O bildirib ki, yaşayış binalarının inşasında istilik tutumlu təbii materiallardan istifadə olunacaq. Binalar daimi su, elektrik enerjisi və yüksəksürətli internet ilə təmin ediləcək. İstilik və isti su təchizatı mərkəzi qazanxana sistemi ilə həyata keçiriləcək. Komplekslərdə, həmçinin idman meydançaları, istirahət guşələri, uşaq oyun meydançaları, velosiped yolları və avtomobil dayanacaqları yaradılacaq.

**T.Ağaməmmədov**

**AZƏRTAC**
**2023, 27 dekabr**

**Ağdamın Baş Qərvənd kəndində birinci mərhələdə 851 ev tikiləcək**

Ağdam rayonunun Baş Qərvənd kəndi tarixi ənənələri qorumaqla müasir üslubda layihələndirilib. Ümumi ərazisi 476 hektar olan kənddə 6057 nəfərin məskunlaşması və 1495 evin tikilməsi nəzərdə tutulub.

Bunu AZƏRTAC-ın bölgə müxbirinə açıqlamasında Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Prezidentinin xüsusi nümayəndəsinin müavini Bəşir Hacıyev deyib.

O bildirib ki, layihənin birinci mərhələsi üçün 202 hektardan çox torpaq sahəsi ayrılıb. Birinci mərhələdə kəndə 851 ailənin - 3703 nəfərin köçürülməsi planlaşdırılır. Bunun üçün bu mərhələdə 851 ev inşa ediləcək. Bu evlərin 170-i ikiotaqlı, 425-i üçotaqlı, 213-ü dördotaqlı, 43-ü isə beşotaqlı olacaq.

Kənddə əhalinin məşğulluğunun və istirahətinin təmin edilməsi üçün də hər cür şərait yaradılacaq. Burada uşaq bağçası, məktəb, kollec binaları, kollektiv istirahət və təhsil obyektləri, inzibati bina, klub icma mərkəzi, tibb məntəqəsi, aptek, mehmanxana, bazar və bir sıra xidmət müəssisələri yaradılacaq. Kənddə enerji daşıyıcılarına qənaət etmək məqsədilə alternativ enerjidən istifadə olunacaq.

**T.Ağaməmmədov**

**AZƏRTAC**
**2023, 27 dekabr**

**Goranboy, Ağdam və Tərtər rayonlarından olan 1025 ailəyə bayram sovqatı çatdırılıb**

Milli Məclisin deputatı Ağalar Vəliyev Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə şəhid və qazi ailələrinə bayram sovqatları göndərib.

AZƏRTAC xəbər verir ki, deputat seçki dairəsi üzrə seçicilərinə Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni 2024-cü il münasibətilə təbrik ünvanlayıb və onlara ən xoş arzularını yetirib.

Təbrikdə deyilir: "Artıq üçüncü ildir ki, xalqımız bu bayramları son 200 illik tariximizin ən parlaq səhifəsi və əbədi qürur mənbəyimiz olan şanlı Zəfərimizin və Böyük Qayıdışımızın doğurduğu qalibiyyət ovqatı və fəxarət hissi ilə qeyd edir.

Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Silahlı Qüvvələrimizin Vətən müharibəsində əldə etdiyi böyük Qələbəmiz və 2023-cü ilin müstəsna əhəmiyyətli hadisəsi olan lokal antiterror tədbirlərinin qısa müddətdə uğurla başa çatdırılması ilə Qarabağımızda separatizmə birdəfəlik son qoyulub və bununla da doğma Azərbaycanımızın suverenliyi bütün ərazimizdə tam təmin olunub.

Ölkə Prezidentinin cari il oktyabrın 15-də - dövlət başçısı seçilməsinin 20 ilinin tamamında Xankəndidə Azərbaycan Bayrağını ucaltması xalqımızın ən böyük arzu və istəyinin həyata keçirilməsidir.

Azərbaycan xalqı müzəffər xalq, Azərbaycan dövləti isə qalib dövlət kimi bundan sonra da əbədi yaşayacaq. Bu bayram günlərində ölkəmizin ərazi bütövlüyü uğrunda canlarından keçən qəhrəman şəhidlərimizin ölməz xatirəsi ehtiramla yad olunur və igid qazilərimizə şəfa arzulanır".

Ağalar Vəliyevin təşəbbüsü və dəstəyi ilə bayramlar münasibətilə Goranboy, Ağdam və Tərtər rayonlarının seçki dairəsinə daxil olan 30-dan çox yaşayış məntəqəsində 1025 şəhid, qazi, əlil və aztəminatlı ailəyə təbrik açıqcaları ilə birgə bütün zəruri ərzaq məhsullarından ibarət bayram sovqatları çatdırılıb.

Seçicilər onlara göstərilən diqqət və qayğıya görə ölkə rəhbərliyinə minnətdarlığını ifadə edib və bu kimi aksiyaların bundan sonra da mütəmadi olaraq davam etdiriləcəyi onlara bildirilib.

**AZƏRTAC**
**2023, 29 dekabr**

**CBC telekanalının çəkiliş qrupu Ağdam və Xirosimanın tarixlərinin bənzərliyindən söhbət açan film hazırlayıb**

CBC telekanalının efirində “Ağdam-Xirosima: sülh naminə dirçəliş” adlı sənədli film yayımlanıb.

AZƏRTAC xəbər verir ki, ekran əsərinin müəllifi, aparıcı Anastasiya Lavrina Yaponiyanın 1945-ci ildə amerikalıların atdığı atom bombası ilə yer üzündən silinən Xirosima şəhəri ilə Azərbaycanın 28 illik erməni işğalı dövründə dağıdılan Ağdam şəhəri arasında müqayisə aparır.

Filmin çəkilişləri Yaponiyada – Xirosima, Tokio şəhərlərində və Azərbaycanın ermənilər tərəfindən törədilən dağıntıların miqyasına görə işğaldan azad olunandan sonra dərhal “Qafqazın Xirosiması” adını alan Ağdam şəhərində aparılıb.

Sənədli filmdə bir vaxtlar Xirosimada da olduğu kimi Ağdamda aparılan bərpa-tikinti işləri, infrastrukturun bərpası, tarixin qorunub saxlanılmasının vacibliyi və sakinlərin doğma yurdlarına qayıtmasından bəhs olunur.

Müəllif Anastasiya Lavrina AZƏRTAC ilə söhbətində bildirib ki, bu işdə Yaponiyanın Xirosimanın dirçəlişi üzrə təcrübəsini regionda sülhün rəmzi kimi göstərmək onun özü və komandası üçün çox vacib idi. O deyib: “Azərbaycan üçün bu təcrübə şübhəsiz, çox vacibdir, axı biz hələ ərazilərin minalardan təmizlənməsi və Ağdamın bərpası kimi uzun yol qət etməliyik. Şəhəri praktik olaraq, yenidən qurmaqla ölkəmizin rəhbəri müharibə səhifəsini çevirməyə çalışır. Lakin, eyni zamanda, Yaponiyanın Xirosima şəhərində olduğu kimi, biz bir vaxtlar Qarabağın çiçəklənən şəhərində erməni işğalı illərində nə baş verdiyi barədə xatirəni əbədi yadda saxlayacağıq”.

Filmin premyerası yanvarın 12-də olub. 1979-cu ilin həmin günü Ümummilli Lider Heydər Əliyev Ağdam-Xankəndi dəmir yolu xəttinin açılışında şəxsən iştirak edib. Bu dəmir yolu xətti nəinki logistikanı yaxşılaşdırmağa, həm də regionun iqtisadi göstəricilərinin əhəmiyyətli şəkildə artmasına imkan verirdi.

Bununla bağlı qeyd etmək yerinə düşər ki, 2024-cü ildə Ağdam-Xankəndi yeni dəmir yolu xəttinin tikintisinə start veriləcək.

**AZƏRTAC**
**2024, 13 yanvar**

## Ağdamda aşağı seçki komissiyalarının üzvləri üçün treninqlərə start verilib

Fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkiləri ilə əlaqədar Mərkəzi Seçki Komissiyasının maarifləndirmə proqramı çərçivəsində aşağı seçki komissiyalarının üzvləri üçün treninqlərə start verilib.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, treninqlərdə 118 saylı Ağdam şəhər və 119 saylı Ağdam kənd seçki dairələrinin 118 məntəqəsi üzrə, ümumilikdə, 700-dən artıq aşağı seçki komissiyası üzvünün iştirakı nəzərdə tutulur. Məşğələlər Mərkəzi Seçki Komissiyasının (MSK) təşkil etdiyi "Trenerlər üçün treninq" kursunda iştirak etmiş trenerlər tərəfindən aparılır. Beş gün davam edəcək treninqlər gün ərzində iki dəfə olmaqla, hər sessiyada 36 nəfər məntəqə seçki komissiyası üzvünün iştirakı ilə keçirilir.

Məntəqə seçki komissiyasının üzvləri seçki məntəqələrinin səsverməyə hazırlanması, səsvermə prosesi, seçki günü müstəsna hallar, səslərin sayılması və səsvermənin nəticələri haqqında rəsmi protokolların doldurulması da daxil olmaqla, bütün seçki günü prosedurları barədə aydın və müfəssəl məlumatlar əldə edirlər. Hər bir iştirakçıya təlimlərdə istifadə etmək və yaxından tanış olmaq üçün Mərkəzi Seçki Komissiyası tərəfindən hazırlanan "Seçki günü üçün yaddaş" kitabçası, eləcə də səsvermənin nəticələri haqqında protokol nümunəsi və bir sıra digər zəruri metodiki vəsaitlər, əyani materiallar da təqdim olunur.

**Tahir Ağaməmmədov**

**AZƏRTAC**
**2024, 17 yanvar**

**Bu il Şuşada, növbəti illərdə isə Ağdam, Cəbrayıl və Laçında "ASAN xidmət" mərkəzləri fəaliyyət göstərəcək**

Bu il Şuşa şəhərində "ASAN xidmət" mərkəzinin fəaliyyətə başlayacağı gözlənilir.

AZƏRTAC xəbər verir ki, bunu jurnalistlərə açıqlamasında Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev deyib.

"Növbəti illərdə Ağdam, Cəbrayıl və Laçın şəhərlərində regional "ASAN xidmət" mərkəzləri fəaliyyət göstərəcək", - deyə Ü.Mehdiyev bildirib.

**AZƏRTAC**
**2024, 20 yanvar**

**Ağdamda mina partlayıb, bir nəfər xəsarət alıb**

Yanvar 21-də saat 13:30 radələrində Ağdam rayonu ərazisində mina partlayışı ilə bağlı polisə məlumat daxil olub.

Daxili İşlər Nazirliyinin mətbuat xidmətinin regional qrupundan AZƏRTAC-a bildirilib ki, Ağcabədi rayon sakini 1980-ci il təvəllüdlü Abışov Faiq Səyyad oğlu ayağından xəsarət alıb.

Polis əməkdaşları tərəfindən vətəndaş xəstəxanaya təxliyyə edilib.

Araşdırma aparılır.

**AZƏRTAC**
**2024, 21 yanvar**

## Mina partlayışı ilə bağlı Ağdam rayon prokurorluğunda araşdırma aparılır

Şəxsin mina partlayışı nəticəsində xəsarət alması faktı üzrə araşdırma aparılır.

Baş Prokurorluğun mətbuat xidmətindən AZƏRTAC-ın sorğusuna cavab olaraq bildirilib ki, yanvarın 21-də saat 13 radələrində Ağdam rayonunun işğaldan azad edilmiş ərazisində mina partlayışı nəticəsində 1980-ci il təvəllüdlü Ağcabədi rayon Kürtlər kənd sakini Faiq Abışovun xəsarət alması barədə rayon prokurorluğuna məlumat daxil olub.

Prokurorluq əməkdaşları tərəfindən hadisə yerinə baxış keçirilib, digər zəruri istintaq hərəkətləri aparılıb.

Hazırda faktla bağlı Ağdam rayon prokurorluğunda araşdırma aparılır.

**AZƏRTAC**
**2024, 21 yanvar**

**Bu il Ağdam Sənaye Parkındakı şirkətlərdən biri ilk ixraca başlayacaq**

2024-cü ildə Ağdam Sənaye Parkında fəaliyyət göstərən şirkətlərdən biri ilk ixraca başlayacaq.

AZƏRTAC xəbər verir ki, bu barədə AZPROMO-nun icraçı direktoru Yusif Abdullayev ötən ilin yekunları ilə bağlı keçirdiyi mətbuat konfransında deyib.

O qeyd edib ki, şirkətə "Made in Karabakh-heart of Azerbaijan” əmtəə nişanı təqdim ediləcək.

**AZƏRTAC**
**2024, 29 yanvar**

**Parlamentlərarası İttifaqın Baş katibi Ağdam şəhərinə səfər edib**

Ölkəmizdə səfərdə olan Parlamentlərarası İttifaqın Baş katibi Martin Çunqonq fevralın 2-də Ağdam şəhərinə səfər edib.

Bu barədə AZƏRTAC-a Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən məlumat verilib.

Bildirilib ki, Parlamentlərarası İttifaqın Baş katibini Milli Məclisin deputatı, Avropa İttifaqı–Azərbaycan parlament əməkdaşlığı komitəsinin həmsədri Cavanşir Feyziyev, BMT-nin Cenevrə şəhərindəki bölməsində və digər beynəlxalq təşkilatlar yanında Azərbaycanın daimi nümayəndəsi Qalib İsrafilov və digər rəsmi şəxslər müşayiət ediblər.

Ağdama gələn Parlamentlərarası İttifaqın Baş katibinə Ermənistan silahlı qüvvələrinin Ağdamda törətdiyi vəhşiliklər, mədəni, tarixi, dini abidələrimizi məhv etmələri və şəhər işğaldan azad olunandan sonra Azərbaycan dövlətinin burada həyata keçirdiyi tikinti-quruculuq işləri barədə məlumat verilib.

Qonaqlar Ağdam şəhərində ermənilərin yerlə-yeksan etdikləri binaların, o cümlədən Ağdam Dram Teatrının qalıqlarına baxıblar, Şəhidlər xiyabanında erməni barbarlığının şahidi olublar. Məlumat verilib ki, Ağdamda hər şeyi məhv edən Ermənistanın vandalları buradakı qəbirləri də dağıdıblar.

Sonra Martin Çunqonq Ağdam şəhərinin Baş planı çərçivəsində həyata keçirilən quruculuq işləri, o cümlədən Qarabağ xanlarının türbələri və yaşayış evi - "İmarət" Kompleksində, Ağdam şəhər Cümə məscidində aparılan təmir-bərpa işləri ilə tanış olub. Qonağa məlumat verilib ki, erməni işğalçılarının "Qafqazın Xirosiması"na çevirdikləri Ağdam yaxın illərdə tamamilə yenidən bərpa olunacaq, regionun ən gözəl şəhərlərindən birinə çevriləcək və doğma yurdlarından 30 il ayrı düşmüş insanların bu torpaqlara təhlükəsiz şəraitdə qayıdışı təmin ediləcək.

**AZƏRTAC**
**2024, 2 fevral**

**Ağdam şəhəri növbədənkənar prezident seçkilərinə hazırdır**

Fevralın 7-nə təyin edilmiş növbədənkənar prezidenti seçkiləri Ağdam rayonunun işğaldan azad edilmiş ərazilərində 118 saylı seçki dairəsinin üç məntəqəsində keçiriləcək. 57 saylı məntəqə Ağdam Konfrans Mərkəzində, 58 saylı məntəqə "AzərEnerji" ASC-nin binasında, 59 saylı məntəqə isə Kəngərli kəndində təşkil edilib.

AZƏRTAC-ın bölgə müxbiri seçkiyə hazırlığın vəziyyəti ilə tanış olmaq üçün 57 saylı seçki məntəqəsinə baş çəkib, məntəqə seçki komissiyasının fəaliyyəti ilə maraqlanıb.

Məntəqə seçki komissiyasının sədri Arzu Rəhimova bildirib ki, məntəqədə səsverməyə hazırlıq prosesi tam başa çatıb. 57 saylı məntəqə üzrə 1414 seçici qeydiyyata alınıb. Seçki məntəqəsi zəruri texniki vasitə və metodiki vəsaitlə təmin olunub, seçici siyahıları və məlumat lövhələri asılıb. Seçicilərin öz səslərini sərbəst şəkildə vermələri üçün kabinələr qoyulub. Seçki məntəqəsində katib və üzvlər, habelə müşahidəçilər üçün yerlər müəyyənləşdirilib. Hər bir seçiciyə səsvermənin keçirilmə tarixi, vaxtı və yeri barədə bildirişlər paylanıb.

"Biz çox qürurluyuq ki, torpaqlarımız işğaldan azad edilib və bu ərazilərdə 30 ildən sonra ilk dəfə seçkilər keçiriləcək. Bu, Azərbaycan üçün, xalqımız üçün tarixi hadisədir və biz də bu mühüm hadisənin iştirakçıları və şahidləriyik", – deyə məntəqə seçki komissiyasını sədri bildirib.

Ağdam şəhərində təşkil edilmiş seçki məntəqələrində səs verəcək seçicilər də səsverməyə böyük ruh yüksəkliyi ilə gedəcəklərini bildirirlər. Ağdam Muğam Mərkəzinin tikintisində çalışan mühəndis Rəşad Qasımov deyib: "Çox fəxr edirəm ki, işğaldan azad olunmuş ərazilərin yenidən qurulmasında mühəndis kimi mənim də əməyim var. Həm də ona görə sevinirəm ki, bir neçə gündən sonra keçiriləcək prezident seçkilərində Ağdam şəhərində təşkil edilən seçki məntəqəsində səs verəcəyik. Tikintidə çalışan hər bir kəs səsvermədə böyük həvəslə iştirak edəcək. Allah dövlətimizi hər zaman qüdrətli eləsin".

**Tahir Ağaməmmədov**

**AZƏRTAC**
**2024, 4 fevral**

## Ağdam rayonunda əkinlərin suvarma suyu ilə təminatı yaxşılaşdırılır

Ağdam rayonunda əkinlərin suvarma suyu ilə təminatının yaxşılaşdırılması istiqamətində ardıcıl tədbirlər görülür. Vaxtında görülən meliorativ tədbirlər nəticəsində rayonda mexaniki üsulla aparılan suvarma yaxşılaşıb, nəticədə məhsuldarlıq artıb.

Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin Ağdam mexaniki suvarma idarəsinin rəisi Hafiz Əzimzadə AZƏRTAC-ın bölgə müxbirinə bildirib ki, tərtib edilmiş plana uyğun olaraq, 2024-cü ildə də meliorativ tədbirlər davam etdirilir. Bu xidmətlərin aparılması üçün idarənin balansında olan 986 subartezian quyusu, 4 nasos stansiyası, 4 su yığıcı göl, 11 kəhriz və bulaq, 365 kilometr uzunluqda suvarma kanalları, 236 ədəd hidrotexniki qurğu mövcuddur. Ağdam mexaniki suvarma idarəsi rayonun 36 min 10 hektar torpaq sahəsini və 82 min 334 nəfər sakinin içməli-məişət suyuna olan tələbatını ödəyir.

Ağdam rayonunda suvarma mexaniki üsulla aparılır, hər il yeni subartezian quyuları qazılır, mövcud quyular bərpa və təmir edilir.

Rayonda uzun illər istismar olunmuş subartezian quyularının yenidən bərpa olunaraq sakinlərin istifadəsinə verilməsi ilə əvvəlki illərdə yaşanan su problemi aradan qalxır. Rayonun Qaradağlı kəndində də sakinlər bərpa olunan quyudan artıq asanlıqla istifadə edə biləcəklər.

Kənd sakini Rizvan Zeynalov bildirib ki, uzun müddət istismar olunmayan subartezian quyusu təmir olunaraq yenidən istismara verildi. Subartezian quyusunun suyu ilə 40 hektar əkin sahəsi suvarılacaq. Eyni zamanda, 28 ailə içməli su kimi istifadə edəcək.

Hazırda Ağdam rayonunda əkilməsi nəzərdə tutulan 2225 hektar pambıq sahəsində arat davam edir. 2024-cü ilin məhsulu üçün 6000 hektara yaxın sahədə buğda və 4155 hektar arpa əkilərək suvarılıb.

**Tahir Ağaməmmədov**

**AZƏRTAC**
**2024, 5 fevral**

**Ağdamın işğaldan azad edilmiş ərazilərində 3 məntəqədə səsvermə təşkil olunub**

Növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkiləri Ağdam rayonunun işğaldan azad edilmiş ərazilərində 118 saylı seçki dairəsinin üç məntəqəsində keçirilir. 57 saylı məntəqə Ağdam şəhəri Konfrans mərkəzində, 58 saylı məntəqə “Azərenerji” ASC-nin binasında, 59 saylı məntəqə Kəngərli kəndində təşkil edilib.

AZƏRTAC-ın bölgə müxbiri 57 saylı seçki məntəqəsinə baş çəkib, səsvermənin gedişini müşahidə edib. Məntəqə seçki komissiyasının sədri Arzu Rəhimova bildirib ki, məntəqə üzrə 1414 seçici qeydiyyata alınıb. Seçki məntəqəsində seçkilərin şəffaf və demokratik keçirilməsi üçün hər cür şərait yaradılıb. Seçicilər səsvermədə fəallıq göstərir, məntəqəyə gələrək sərbəst və azad şəkildə öz vətəndaşlıq borclarını yerinə yetirirlər.

Məntəqəyə gələn seçicilərin hər biri səsvermədə böyük ruh yüksəkliyi ilə iştirak etdiyini bildirib. Ağdamda yol tikintisində çalışan Həbib Ağasiyev deyib: “Bu gün iş yoldaşlarımızla birlikdə böyük ruh yüksəkliyi ilə gəlib səsvermədə iştirak etdik. Azad ərazilərdə işləmək, səs vermək olduqca qürurvericidir”.

Səsvermənin gedişini izləyən müşahidəçilər Rahibə Süleymanova və Dürriyə Rəhimova seçkilərin seçicilərin fəallığı ilə, demokratik, şəffaf şəraitdə keçdiyini və heç bir qanun pozuntusuna rast gəlmədiklərini bildiriblər.

Qeyd edək ki, budəfəki seçkilər ilk dəfə Azərbaycanın beynəlxalq səviyyədə tanınan bütün ərazilərində keçirilir.

Ölkə üzrə səsvermə hüququ olan 6 milyon 478 min 623 seçici qeydə alınıb. Seçicilər 6537 məntəqədə səs verəcəklər. İşğaldan azad edilmiş ərazilərdə 26 məntəqə fəaliyyət göstərir. Həmçinin 37 ölkədə 23 minə yaxın seçici 49 məntəqədə səs verə biləcək.

Seçkiləri izləmək üçün 90 mindən artıq müşahidəçi qeydə alınıb. Bunun 790 nəfəri beynəlxalq müşahidəçidir. Müşahidəçilərin 50 mindən çoxu isə 19 siyasi partiyanın nümayəndəsidir. Bundan əlavə, Azərbaycanda fəaliyyət göstərən 83 qeyri-hökumət təşkilatı da müşahidələr aparır. Həmçinin seçkiləri 109 beynəlxalq media qurumunun 216 nümayəndəsi izləyir.

**Tahir Ağaməmmədov**

**AZƏRTAC**
**2024, 7 fevral**

**Elçin Cəfərov: Əvvəllər düşünürdüm ki, görəsən, mən haçansa Ağdamı yenidən görə biləcəyəm – MÜSAHİBƏ**

Fevralın 7-də 65 yaşı tamam olan Azərbaycan Güləş Federasiyasının (AGF) sabiq vitse-prezidenti Elçin Cəfərov AZƏRTAC-ın suallarını cavablandırıb. Həmin müsahibəni təqdim edirik.

**- Ad gününüzü təbrik edirik. Artıq 65 yaşınız tamam oldu. Geriyə dönüb boylananda nə düşünürsünüz?**

- Geriyə boylananda düşünürəm ki, dünyaya bir daha gəlsəydim, yenə bu həyatı yaşamaq istərdim. Bu günümdən çox razıyam. Bu zamana kimi olduqca çətin və ağır günlərdən keçmişəm. Amma xoşbəxt olduğumuz qədər, bizi kədərləndirən, məyus edən hadisələrlə üzləşməyimiz həyatın qanunudur. Hər insan ömründə bu duyğuları bir dəfə də olsa, yaşamalıdır. Mən də öz həyat yolumu keçmişəm.

**- 65 yaş sizin üçün nə ifadə edir?**

- Bəzən insan düşünür ki, 65 il necə də çoxdur. Bu yaşa gəlib çatmaq hər adama qismət olmur. Doğrudan da 65 yaş mənim üçün böyük yubileydir. Məndən kiçik olanlara da bu yaşa çatmağı arzu edirəm. Bəzi hallarda çətinliklərlə üzləşsək də, həyat gözəldir. Təbii ki, bu gün özüm 40-45 yaşımdakı kimi gümrah hiss edə bilmərəm. Ancaq özümü 50-55 yaşlı insan kimi görürəm. Heç bir problemim yoxdur. Həyatımda hər şey qaydasındadır və məni xoşbəxt edən də məhz budur.

**- İdman ictimaiyyətindən kimlər sizi təbrik etdi?**

- Demək olar ki, hər kəs. Cüdo və Güləş Federasiyalarından, futbol ictimaiyyətindən, bütün adlı-sanlı Olimpiya və dünya çempionlarından təbriklər aldım. Hamısına minnətdarlığımı bildirirəm.

- Doğum gününüz növbədənkənar prezident seçkilərinə təsadüf etdi...

- Mənim üçün tarixi gün oldu. Bu ölkənin bir vətəndaşı olaraq mən də öz seçimimi etdim. Qalib xalqın qalib liderinə səs verdim. Məncə, bütün idman ictimaiyyəti bu fikirdədir. Mənim üçün bundan sevindirici gün ola bilməzdi.

**- Uzun illər milli komandanın baş məşqçisi də kimi fəaliyyət göstərmisiniz. Həmin illəri necə xatırlayırsınız? Bu illər ərzində qazandığınız uğurlar sizi qane edirmi?**

- Əlbəttə, qane edir. Ümumiyyətlə, idman karyeramda çox yaddaqalan və qürurverici hadisələr olub. Baş məşqçi kimi xeyli nailiyyət əldə etmişəm. Yetişdirdiyim idmançılar dünya, Avropa və Olimpiya çempionu olublar. Belə tarixi hadisələri heç bir halda unutmaq olmur. Çünki bunun uğrunda insan can qoyur, əziyyət çəkir. Azərbaycan idmanı üçün fəxr olunası nəticələrə imza atmışam. Hesab edirəm ki, bu qələbələri unutmaq və heç nə ilə əvəzləmək olmaz. İdmançılarımın qazandığı yüksək nəticələr nə yuxumdan, nə beynimdən çıxır. Bu anları tarixdən də silmək mümkün deyil. Geriyə dönüb baxanda o qələbələrin hər biri gözümün önündə yenidən canlanır. Bu, təkcə mənim deyil, bütün Azərbaycan idmanının, Güləş Federasiyasının uğurudur. İnanıram ki, bu il Fransada təşkil ediləcək “Paris-2024” Yay Olimpiya Oyunlarında güləşçilərimiz ümidləri doğruldacaqlar. Yenə də ölkəmizin idman şərəfini yüksəklərə qaldıracaq, himnimizi səsləndirəcək, bayrağımızı dalğalandıracaqlar.

**- Həyatda reallaşdıra bilmədiyiniz arzularınız olub?**

- Heç vaxt böyük peşmanlıqlarım olmayıb. Sadəcə, bir qarabağlı kimi itkilərim olub. Onun peşmanlığını illərlə çəkmişəm. Amma bu il xalq olaraq xüsusi hadisəyə şahidlik etdik. Azərbaycanın bütün ərazilərində prezident seçkiləri keçirildi. Prezidentimiz sağ olsun ki, bizə bu günləri yaşatdı. Bütün qarabağlılar və ağdamlılar adından dövlət başçısına bir daha öz minnətdarlığımı bildirirəm. Əvvəllər düşünürdüm ki, görəsən, mən haçansa Ağdamı yenidən görə biləcəyəm. İçimdə hər zaman bununla bağlı qəhər və peşmanlıq hissi var idi. İllərlə bu arzu və istəklə yaşamışam. Enişli-yoxuşlu yollardan keçmişəm, amma hamısını həll edib, ortaq məxrəcə gətirib özüm üçün bir nəticə çıxarmışam. Bunun üçün əlimdən gələni etmişəm. Sevinirəm ki, bu gün təəssüfləndiyim, peşman olduğum heç bir məqam yoxdur.

**- Məşqçi kimi əldə etdiyiniz uğurları kimə və ya nəyə borclusunuz?**

- Buralara gəlib çatmağıma kömək edən hər kəsə, bütün əzizlərimə, xüsusilə, ailəmə və övladlarıma təşəkkür edirəm. Çətin və ağır günlərdə mənə dəstək olan insanlara minnətdarlığımı bildirirəm. Təbii ki, bütün uğurların arxasında möhtərəm Prezident İlham Əliyev durur. Onun idmana göstərdiyi diqqət və qayğını həmişə hiss etmişəm. Bu gün idmanımızın bu səviyyədə olması məhz onun əməyinin qarşılığıdır.

**- Hazırkı güləşçi nəslindən kimlərin gələcəyinə böyük ümid bəsləyirsiniz?**

- Yunan-Roma güləşçilərimizdən iki nəfər "Paris-2024" Yay Olimpiya Oyunlarına lisenziya əldə edib. Bunlar 67 kiloqramda Həsrət Cəfərov və 77 kiloqramda Sənan Süleymanovdur. Onlardan gözləntilərim hədsiz çoxdur. Qarşıda bizi lisenziya xarakterli daha iki turnir gözləyir. Biri aprel ayında Bakıda, digəri isə mayda Türkiyənin İstanbul şəhərində keçiriləcək. Bu yarışlarda daha bir neçə güləşçimizin lisenziya qazanacağına inanırıq. Lakin bu, idmandır, hər şey ola bilər. Dünya çempionu olan idmançılar Olimpiadadan medalsız dönürlər. Ona görə də hər şeyə hazır olmalıyıq. Hər an sürprizlərlə qarşılaşa bilərik. Bütün bunlara baxmayaraq, inanırıq ki, güləşçilərimiz Olimpiadada öz sözlərini deyəcəklər.

**- Yetişdirdiyiniz idmançılardan kimləri karyeranızın ən böyük uğuru hesab edirsiniz?**

- Məşqçi karyeramda əldə etdiyim uğurlar bu gün də Azərbaycan idman tarixində təkrarlanmayıb. Yunan-Roma güləşi üzrə ilk azərbaycanlı olimpiya çempionu Kamandar Məcidov olub. Lakin o, SSRİ-nin tərkibində Belarusun adından çıxış edib. Azərbaycanı təmsil edən tələbələrim arasında isə ilk dəfə Fərid Mansurov Olimpiada qızıl medalı qazanıb. İstərdim ki, bu uğur yenidən təkrarlansın.

**- Son olaraq, milli komandaların hazırkı vəziyyətini necə qiymətləndirirsiniz?**

- Buna yığma komandaların məşqçiləri daha dəqiq cavab verə bilər. Amma bilirəm ki, bütün komandalara hazırlıq planına uyğun yüksək səviyyəli məşqlər keçilir. Güləşçilərimiz fevralın ortalarında Rumıniyanın paytaxtı Buxarestə təşkil olunacaq Avropa Çempionatına yollanacaqlar. Əminəm ki, oradan çox yaxşı nəticələrlə Vətənə qayıdacaqlar.

**AZƏRTAC**
**2024, 8 fevral**

**Mərakeşli jurnalistlər Ağdam, Əsgəran və Şuşaya səfər ediblər**

Azərbaycana səfər çərçivəsində bir qrup mərakeşli jurnalist Qarabağ iqtisadi rayonunun Ağdam, Əsgəran və Şuşa şəhərlərinə səfər edib.

AZƏRTAC xəbər verir ki, jurnalistlər əvvəlcə Ağdam şəhərində Pənahəli xanın "İmarət" kompleksinə, Cümə məscidinə və Ağdam Dövlət Dram Teatrının qalıqlarına baxış keçirib, ermənilərin törətdikləri vandalizm aktlarının şahidi olub. Qonaqlara tarixi abidələrimizin dağıdılması, Ağdamın Baş planına uyğun olaraq aparılan bərpa və yenidənqurma işləri barədə ətraflı məlumat verilib.

Sonra Əsgərana yollanan nümayəndə heyəti burada aşkarlanmış kütləvi məzarlığa baxış keçirib, çəkilişlər aparıb.

Şuşa şəhəri ilə tanışlıq isə mərkəzi meydandan başlayıb. Burada jurnalistlər Azərbaycanın tanınmış şəxsiyyətləri Natəvan, Bülbül və Üzeyir Hacıbəylinin güllələnmiş heykəllərini, həmçinin Aşağı Gövhər Ağa məscidini, Şuşa qalasını, Cıdır düzünü ziyarət ediblər.

Azərbaycan Prezidentinin Şuşa rayonundakı xüsusi nümayəndəsi Aydın Kərimovla görüşdə jurnalistlərə qədim şəhərin tarixi, işğal illərində məruz qaldığı vandalizm aktları, burada aparılan bərpa və yenidənqurma işləri barədə ətraflı məlumat verib. Xüsusi nümayəndə 2023-cü il sentyabrın 25-də Qətər Dövlətinin paytaxtı Doha şəhərində keçirilən İslam Dünyası Mədəniyyət Nazirlərinin 12-ci Konfransında Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərinin 2024-cü il üçün "İslam dünyasının mədəniyyət paytaxtı" elan edildiyini diqqətə çatdırıb.

Sonra mərakeşli jurnalistlərin sualları cavablandırılıb.

**AZƏRTAC**
**2024, 10 fevral**

**Ağdamda sement və beton qatqıların istehsalı müəssisəsi yaradılır**

Ağdamda sement və beton qatqıların istehsalı müəssisəsi yaradılır.

AZƏRTAC xəbər verir ki, bu barədə iqtisadiyyat naziri Mikayıl Cabbarov deyib.

O bildirib ki, “Qreys.A." MMC-yə Ağdam Sənaye Parkının rezidenti statusu verilib. Şirkət tərəfindən sənaye parkının ərazisində sement və beton qatqıların istehsalı müəssisəsi yaradılacaq: “İnvestisiya dəyəri 6,5 milyon manat olan müəssisədə 35 nəfərlik daimi iş yerinin yaradılması nəzərdə tutulur”.

**AZƏRTAC**
**2024, 19 fevral**

**Ağdamın İmamqulubəyli kəndində “model müəssisə” prinsipi əsasında qurulmuş heyvan kəsimi məntəqəsi açılıb**

Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi (AQTA) yerli icra hakimiyyəti orqanları ilə birlikdə sahibkarlıq subyektlərinin cəlb olunması ilə baytarlıq-sanitariya və sanitariya-gigiyena tələblərinə uyğun müasir heyvan kəsimi məntəqələrinin yaradılması istiqamətində tədbirləri davam etdirir.

Agentliyin İnformasiya təminatı və innovativ həllər şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, həmin tədbirlərin davamı kimi, Azərbaycan Qida Təhlükəsizliyi İnstitutu tərəfindən Ağdam rayonunun İmamqulubəyli kəndində “model müəssisə” prinsipi əsasında yeni qurulmuş heyvan kəsimi məntəqəsinin açılışı olub.

Qeyd edilib ki, məntəqədə hər gün 12-15 baş iribuynuzlu və 20-25 baş xırdabuynuzlu heyvanın kəsimini həyata keçirməkdən ötrü hər cür şərait yaradılıb. Məntəqədə texnoloji ardıcıllıq gözlənilir və çarpaz çirklənmə mövcud deyil. Diri heyvanların, həmçinin hazır məhsulun gətirilməsi və aparılması üçün ayrı-ayrı qapılar qoyulub. Cəmdəklərin və submərhsulların çirklənməsinin qarşısının alınması məqsədilə kəsilmiş heyvanların mədə və dərilərinin təmizlənməsi üçün otaqlar ayrılıb. Baytarlıq-sanitariya ekspertizasını həyata keçirmək üçün lazımi avadanlıqlarla təchiz edilmiş həkim otağı var. Məntəqə dezinfeksiya işlərinin mütəmadi olaraq aparılması üçün avadanlıq və dezinfektantlarla təhciz edilib.

**AZƏRTAC**
**2024, 21 fevral**

**Gələn ay Ağdamda daha bir yaşayış məhəlləsinin inşasına başlanılacaq**

Ağdamın Baş Qərvənd kəndində “ağıllı kənd” layihəsi icra olunacaq. Layihənin icrası Slovakiyalı mütəxəssislərlə birgə aparılacaq.

AZƏRTAC xəbər verir ki, bunu Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Prezidentinin xüsusi nümayəndəsinin müavini Bəşir Hacıyev "Qarabağ bölgəsində su və kanalizasiya infrastrukturunun yenidən qurulması" mövzusunda keçirlən konfransda çıxışı zamanı deyib.

O qeyd edib ki, 2026-cı ilə qədər Qarabağ iqtisadi rayonu üzrə Ağdamda bir şəhər 12 kənd, Füzulidə 1 şəhər, 10 kənd, Xocavənd, Hardrut qəsəbəsi, Tuğ və ətraf kəndlər layihələndirilərək bir qisminin artıq başlanan tikinti işləri davam etdiriləcək, digər hissəsində isə layihə işləri tamamlanacaq.

“Hazırda Ağdamda 3 kəndin inşası gedir. Bunlar Sarıcalı, Xıdırlı və Kəmgərli kəndləridir. Cari ilin sonuna kimi işlərin ikinci mərhələsinin yekunlaşdırılması nəzərdə tutulub. 2025-ci ildə isə həmin əraziyə əhalinin köçürülməsi planlaşdırılıb. Növbəti ay Ağdamda bir yaşayış məhəlləsinin də inşasına başlanılması nəzərdə tutulub. Burada təkcə yaşayış yerləri deyil, digər infrastruktur işləri də paralel davam etdirilir", - deyə Bəşir Hacıyev bildirib.

**AZƏRTAC**
**2024, 21 fevral**

**İşğaldan azad edilmiş ərazilərdə müasir hidrometeoroloji stansiyalar qurulub**

Hidrometeoroloji şəbəkənin bərpası üzrə işğaldan azad edilmiş ərazilərdə yerüstü su ehtiyatlarının qiymətləndirilməsi məqsədilə 10 çay (Araz, Bəsitçay, Oxçuçay, Həkəriçay, Barguşadçay, Zabuxçay, Tutqunçay, Tərtərçay, Kircələnçay, Quruçay) üzərində 11 avtomat hidroloji stansiya yaradılıb və həmin stansiyalardan mütəmadi qaydada məlumatlar Milli Hidrometeorologiya Xidmətinin Situasiya mərkəzinə ötürülərək təhlil olunur.

AZƏRTAC xəbər verir ki, bunu Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətinin rəis müavini Əkbər Əsgərov "Qarabağ bölgəsində su kanalizasiya infrastrukturunun yenidən qurulması" adlı tədbirdə çıxışı zamanı bildirib.

Rəis müavini qeyd edib ki, "İşğaldan azad edilmiş ərazilərdə meteoroloji müşahidələrin öyrənilməsi" layihəsi çərçivəsində Şuşa, Ağdam, Füzuli, Kəlbəcər və Zəngilan rayonlarında bütün lazımi sensorlarla təchiz edilmiş 5 avtomat meteoroloji stansiya quraşdırılıb və həmin stansiyalardan mütəmadi qaydada daxil olan məlumatlar Milli Hidrometeorologiya Xidmətinin Situasiya mərkəzinə ötürülərək təhlil olunur.

“Proqramın icrası çərçivəsində 1 dast dopler hava radarının və 1 dəst aeroloji stansiyanın quraşdırılması məqsədilə işğaldan azad edilmiş ərazilərdə tədqiqat işləri aparılıb. Həmin stansiyaların 2024-cü ildə quraşdırılması nəzərdə tutulur. Bu stansiyaların fəaliyyət göstərməsi regionun iqlim şəraitinin qiymətləndirilməsinə, əldə olunan məlumatların kəmiyyət və keyfiyyətinin, meteoroloji proqnoz və xəbərdarlıqların dəqiqliyinin alınmasına və həmin ərazilərdə fəaliyyəti nəzərdə tutulan sahələrdə drometeoroloji xidmət səviyyəsinin artırılmasına imkan verir”, - deyə Əkbər Əsgərov vurğulayıb.

**AZƏRTAC**
**2024, 21 fevral**

**Direktor müavini: Azad edilən ərazilərdə 218 kilometr su xətti çəkilib**

İşğaldan azad edilən ərazilərdə 218 kilometr su xətti çəkilib. Bu il Ağdam, Cəbrayıl, Kəlbəcər şəhərində layihələrin icrasına başlanılacaq. Həkəriçay, Bərgüşadçay su anbarlarının layihə smeta sənədləri hazırlanacaq.

AZƏRTAC xəbər verir ki, bunu Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin Tikilməkdə olan obyektlərin müdiriyyətinin direktor müavini Fuad Abışev “Qarabağ bölgəsində su və kanalizasiya infrastrukturunun yenidən qurulması” mövzusunda keçirilən konfransda çıxışı zamanı deyib.

O qeyd edib ki, hazırda işğaldan azad edilən ərazilərdə su ehtiyatlarının bərpası ilə bağlı təxirəsalınmaz tədbirlər görülür.

**AZƏRTAC**
**2024, 21 fevral**

**İşğaldan azad olunmuş ərazilərə avtobus reyslərinin mart ayı üçün biletləri satışa çıxarılır**

Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində fəaliyyət göstərən Azərbaycan Yerüstü Nəqliyyat Agentliyinin (AYNA) işğaldan azad olunmuş ərazilərə təşkil etdiyi müntəzəm avtobus reyslərinə mart ayına olan biletlər fevralın 23-ü saat 11:00-da satışa çıxarılacaq.

AYNA-dan AZƏRTAC-a bildirilib ki, sərnişinlər müəyyən olunmuş marşrut xətləri üzrə biletləri www.yolumuzqarabaga.az portalı vasitəsilə onlayn qaydada ala bilərlər. Vətəndaşlar bilet almaq üçün şəxsiyyəti təsdiq edən sənəddəki məlumatları sistemə daxil etməlidirlər. Hər bir bilet yalnız şəxsiyyət vəsiqəsi ilə eyniləşdirilən vətəndaş tərəfindən istifadə oluna bilər. Onun başqa şəxsə ötürülməsi mümkün deyil.

Qeyd edək ki, Şuşa və Ağdam şəhərlərinə ilk müntəzəm avtobus marşrutları 2022-ci il yanvarın 24-də istifadəyə verilib. Bu günədək ümumilikdə 691 reys həyata keçirilib, 28227 sərnişin işğaldan azad olunmuş əraziləri ziyarət edib.

**AZƏRTAC**
**2024, 21 fevral**

**Keniyanın Baş prokuroru Ağdama səfər edib**

Baş prokuror Kamran Əliyevin dəvəti ilə Keniya Respublikasının Baş prokuroru Renson Mulele İnqonqanın rəhbərlik etdiyi nümayəndə heyəti ölkəmizdə işgüzar səfərdədir.
Baş Prokurorluqdan AZƏRTAC-a verilən məlumata görə, nümayəndə heyəti Azərbaycanın işğaldan azad edilmiş Ağdam şəhərində səfərdə olub.
Birinci Qarabağ müharibəsi dövründə ölkəmizin suverenliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini hörmətlə anaraq, xatirə abidəsi önünə gül dəstələri düzüblər.
Qonaqlar Prezident İlham Əliyevin və Heydər Əliyev Fondunun prezidenti, ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərliyi və diqqəti ilə aparılan genişmiqyaslı bərpa-quruculuq işlərinin onlarda böyük təəssürat yaratdığını vurğulayıblar.
Nümayəndə heyəti Qarabağ xanı Pənahəli xanın sarayı və ailə üzvlərinin məzarının yerləşdiyi İmarət kompleksində, Cümə Məscidi və Ağdam Dövlət Dram Teatrında aparılan bərpa-quruculuq işləri ilə tanış olublar.
Keniyalı prokurorlar yolboyu yaşayış məntəqələri və tarixi-mədəni abidələrdə erməni vandalizminin izlərinin şahidi olmuşlar.
Səfər çərçivəsində nümayəndə heyəti Bərdə Rayon Prokurorluğunun fəaliyyəti ilə tanış olub.

**AZƏRTAC**
**2024, 22 fevral**

**Ağdamda "Texniki təhlükəsizlik bizim prioritetimizdir" mövzusunda seminar-müşavirə keçirilib**

Fövqəladə Hallar Nazirliyi Sənayedə İşlərin Təhlükəsiz Görülməsi və Dağ-Mədən Nəzarəti Dövlət Agentliyinin təşkilatçılığı ilə Ağdam rayonunun Quzanlı qəsəbəsində “Texniki təhlükəsizlik bizim prioritetimizdir” mövzusunda seminar-müşavirə keçirilib.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, seminar-müşavirə təhlükə potensiallı obyektlərin istismarı ilə məşğul olan müxtəlif sənaye müəssisələrində texniki təhlükəsizliyin təmin edilməsinin təhlili və qabaqlayıcı profilaktik tədbirlərin görülməsi məqsədilə təşkil olunub. Tədbirdə FHN Sənayedə İşlərin Təhlükəsiz Görülməsi və Dağ-Mədən Nəzarəti Dövlət Agentliyinin məsul əməkdaşları, FHN-in Qarabağ Regional Mərkəzinin əhatə etdiyi ərazidə fəaliyyət göstərən yerli icra hakimiyyətinin nümayəndələri, iş adamları iştirak ediblər.

Tədbirdə çıxış edən Agentliyin rəis müavini İsmayıl Nəsirov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkədə həyata keçirilən mütərəqqi iqtisadi siyasətin əhəmiyyətindən, dövlət başçısı tərəfindən sahibkarlara, o cümlədən sənaye sahələrində fəaliyyət göstərən iş adamlarına göstərilən xüsusi diqqət və qayğıdan danışıb. Çıxışında müəssisələrdə texniki təhlükəsizliyin təmin olunmasının vacibliyini qeyd edərək, bu sahədə qabaqlayıcı profilaktik tədbirlərin görülməsinin zəruriliyini vurğulayıb.

Daha sonra Agentliyin Azərbaycan Dövlət Əməyin Mühafizəsi və Təhlükəsizlik Texnikası Elmi-Tədqiqat İnstitutunun Analitik informasiya, normativ texniki sənədlərin işlənməsi və patent şöbəsinin müdiri Vüqar Xəlilov sənayedə təhlükəsizliyin sistemli araşdırılması və texniki təhlükəsizliyin təmin olunmasında əsas istiqamətlər, eləcə də sənaye sahələrində texniki təhlükəsizliyin tənzimlənməsində istifadə olunan qaydalar, təlimatlar, normativ-texniki sənədlər barədə tədbir iştirakçılarına ətraflı məlumat verib.

Digər çıxış edənlər sənayedə və dağ-mədən işlərində texniki təhlükəsizliklə bağlı mövcud problemlərdən söz açıb, bədbəxt hadisələrin qarşısının vaxtında alınması üçün zəruri olan qabaqlayıcı profilaktik tədbirlər barədə təkliflər səsləndiriblər.

Sonra mövzu ətrafında geniş müzakirə aparılıb, suallar cavablandırılıb.

**Tahir Ağaməmmədov**

**AZƏRTAC**
**2024, 23 fevral**

**Ağdam rayonu ərazisində partlamamış döyüş sursatları aşkar edilib - VİDEO**

Azərbaycanın Qarabağ bölgəsində əraziyə baxış zamanı Ağdam rayonunda partlamamış döyüş sursatları aşkar edilib.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Ordumuzun mühəndis-istehkam bölmələri tərəfindən aşkar edilmiş müxtəlif çaplı artilleriya mərmiləri, əl qumbaraları və digər döyüş sursatları təhlükəsizlik qaydalarına riayət olunmaqla ərazidən müsadirə edilib.

Azad edilmiş ərazilərin mina və partlamamış döyüş sursatlarından təmizlənməsi üzrə fəaliyyətlər davam etdirilir.

**AZƏRTAC**
**2024, 23 fevral**

https://video.azertag.az/site/video/201623

**Keçmiş döyüşçü: Qara qaya yaxınlığında dəhşətli mənzərənin şahidi olduq**

1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni silahlı qüvvələri keçmiş sovet ordusunun Xankəndi şəhərində yerləşən 366-cı motoatıcı alayının zirehli texnikası və hərbi heyətinin köməyi ilə Xocalı şəhərini işğal edib. Üç istiqamətdən hücuma məruz qalan Xocalıda olan təqribən 2500 nəfər sakin şəhəri tərk edərək Ağdam rayonu istiqamətində qaçmağa məcbur qalıb. Lakin əhalinin qarşısı erməni silahlı dəstələri tərəfindən kəsilərək xüsusi qəddarlıqla məhv edilib, əsrin faciəsi törədilib.

Xocalı faciəsi zamanı qətlə yetirilənlərin, yaralıların çıxarılmasında o zaman Ağdamda yaradılmış könüllülərdən ibarət dəstələrin böyük rolu olub.

Keçmiş döyüşçü - Mehman Kərimov AZƏRTAC-ın bölgə müxbiri ilə söhbətində 32 il əvvəl şahidi olduğu dəhşətli hadisələrdən danışıb.

“Xocalı mühasirədə idi. Biz Ağdamdakı könüllülər Xocalını mühasirədən çıxarmaq, xocalılılara kömək etmək üçün hazır idik. Hücum əmri gözləyirdik. Amma hücum olmadı. Bir də eşitdik ki, artıq Xocalı işğal olunub, ermənilər camaatı qırıblar. Xocalılıların xilas edilməsi üçün Şelli kəndi istiqamətində sonuncu postumuz olan yerə getdik. Biz Qara qayaya çatanda gördük ki, “Qarabağ Şahinləri” batalyonunun könüllüləri buradakı erməni postunu götürüblər. Qara qayanın yaxınlığında dəhşətli mənzərənin şahidi olduq. Ermənilər Xocalıdan qaçan sakinlərin qarşısını kəsərək qətliam törətmişdilər. Hər tərəf meyit və yaralı ilə dolu idi. O zaman bütün Ağdam – həm könüllü döyüşçülər, həm də mülki sakinlər xocalılıların çıxarılmasında, yaralıların xəstəxanaya, meyitlərin Cümə məscidinə aparılmasında səfərbər olmuşdu. Çox çətin, dəhşətli günlər idi. Dinc insanları işgəncə ilə öldürmüşdülər. Bir cəsədin əli məftillə bağlanmışdı. Uşağın dərisini soymuşdular. Bir nəfəri baltalamışdılar. Qoca qadının ayağını bağlayıb sürütləmişdilər... Belə faciə, belə dəhşət dünyada görünməyib”, - deyən Mehman Kərimov Xocalı faciəsi zamanı törədilən vəhşilikləri unuda bilmədiyini söyləyib.

**Tahir Ağaməmmədov**

**AZƏRTAC**
**2024, 24 fevral**

**Keçmiş döyüşçü: Qaraqaya yaxınlığında amansız qətliamın şahidi olduq**

Soyuq qış günündə, Xocalı işğal edilən gecə şəhər sakinləri xilas olmaq üçün Qarqar çayından keçərək meşələrə sığınıb, Ağdam istiqamətinə doğru hərəkət ediblər. Lakin erməni silahlıları onları həm Ağdamla Xocalı arasında olan postlardan, həm də arxalarınca gələrək güllə-boran edib, amansız qanlı cinayətlər törədiblər.

Bunu AZƏRTAC-ın bölgə müxbirinə müsahibəsində Xocalı faciəsi zamanı qətlə yetirilənlərin, yaralıların çıxarılmasında iştirak etmiş keçmiş döyüşçü Cəfər Nuriyev deyib.

32 il əvvəl şahidi olduğu dəhşətli hadisələrdən danışan keçmiş döyüşçü ermənilərin dinc sakinlərə qarşı həyata keçirdiyi vəhşilikləri heç zaman unutmayacağını bildirib: “Xocalı mühasirədə idi. Xocalılılara kömək etmək üçün hələ fevralın 22-dən əmr gözləyirdik. Ancaq əmr verilmədi. Fevralın 25-dən 26-na keçən gecə ratsiyadan ataş, çığırışma səsləri eşitdik. Rabitə əlaqəsi zamanı Xocalı sakinləri təcili kömək istəyirdilər. Əmr verilməsə də, biz Şelli istiqamətinə getdik. Fevralın 26-sı səhər Qaraqaya yüksəkliyinə çatanda artıq Ağdamdakı “Qarabağ şahinləri” taborunun könüllüləri buradakı erməni postunu ələ keçirmişdi. Başqa bir dəstə isə düşmənlə döyüşə-döyüşə Xocalı sakinlərini gətirirdi. Qaraqaya yaxınlığında biz amansız qətliamın şahidi olduq. Erməni cəlladları Xocalıdan Ağdama qaçan insanları vəhşiliklə qətlə yetirmişdilər. Qışın soyuğunda qadın, uşaq, qoca ermənilərin atdığı güllələrdən qorunmaq üçün Qarqar çayının yatağı ilə gəlirdi. Suyun içi ilə gələn bir qadın bizi görəndə əllərini qaldırıb “Ay ağdamlılar, sizə qurban olum”, - deyə qışqırdı. Həmin vaxt çox ağır mənzərələrin şahidi oldum. Onları bu gün belə xatırlayanda təsirlənirəm...”.

Keçmiş döyüşçü torpaqlarımızın işğaldan azad edilməsi ilə bütün şəhidlərimizin, o cümlədən Xocalıda qətlə yetirilən dinc sakinlərin qisasının alındığını, onların ruhlarının dinclik tapdığını bildirib: “44 günlük Vətən müharibəsində Azərbaycan Ordusunun qazandığı Şanlı Zəfərlə Xocalı soyqırımı qurbanlarının da qisası alındı. Ötən ilin sentyabr ayında həyata keçirilən antiterror tədbirləri nəticəsində Xocalı və digər ərazilərimiz düşmənlərdən təmizləndi. İndi həm xocalılıların, həm də birinci Qarabağ müharibəsi zamanı şəhid olmuş silahdaşlarımın ruhu şaddır”.

**Tahir Ağaməmmədov**

**AZƏRTAC**
**2024, 26 fevral**

**Soyqırımı şahidi: Körpə uşağın alnına xaç çəkib, güllələmişdilər**

XX əsrin ən böyük faciələrindən olan Xocalı qətliamı təkcə azərbaycanlılara deyil, ümumilikdə, bütün bəşəriyyətə qarşı törədilən cinayətdir. Bu cinayəti törədənlərin insanlığa qənim kəsildiyini təkcə tarixi sənədlər, foto və videogörüntülər deyil, həm də faciənin canlı şahidi olmuş soydaşlarımızın xatirələri sübuta yetirir.

Üstündən illər ötsə də, Xocalı faciəsinin şahidləri hələ də ermənilərin dinc əhaliyə qarşı törətdikləri vəhşiliklərin təsirindən çıxa bilmirlər. Belə insanlardan biri - Xocalı faciəsi zamanı qətlə yetirilənlərin, yaralıların çıxarılmasında iştirak etmiş keçmiş döyüşçü Kamil Nəbiyev AZƏRTAC-ın bölgə müxbiri ilə söhbətində 32 il əvvəl şahidi olduğu dəhşətli hadisə barədə danışıb: “Eşidəndə ki, ermənilər Xocalıda qətliam törədiblər, silahlanıb Şelli tərəfə yollandıq. Çünki Xocalı sakinləri bu istiqamətdə gələrək, erməni postlarının yanından keçməklə Ağdama çatmağa çalışırdılar. Ermənilər də insanların qarşısını kəsib, qoca, qadın, uşaq demədən güllələyirdilər. İki saat döyüşəndən sonra erməni postunu aldıq. Postda iki zirehli texnika qoyub qaçdılar. Bir postu da bizdən əvvəl Orucgil götürmüşdü. Həmin istiqamətdən camaatın çıxması üçün dəhliz yaratdıq. Ermənilər Qaraağacı qəbiristanlığının yaxınlığındakı ağaclıqdan və Naxçıvanlı istiqamətindən də güclü atəşə tuturdular. Döyüşə-döyüşə xeyli Xocalı sakinini çıxarda bildik. Camaat həmin yerdən axın-axın gəlib keçirdi. O postlar götürülməsəydi, inanın ki, erməni cəlladları heç kimi sağ qoymayacaqdılar. Döyüş vaxtı ermənin zirehli texnikasına doğru qaçmağa başladım. Ermənilər atəşə tutsalar da qayıtmadım. Kənarda böyük bir daş var idi. Güllənin biri daşa dəyib bədənimə girdi. Döyüş yoldaşlarım məni sürüyərək çıxardılar”.

K.Nəbiyev Xocalı faciəsi zamanı şahidi olduğu erməni vəhşiliyini heç vaxt unutmayacağını bildirib: “Həmin vaxt elə dəhşətli mənzərələrin şahidi olmuşam ki, təsvir etməyə söz tapmıram. İnsan o vəhşilikləri törətməz... İnsanların gözünü çıxarmışdılar, başının dərisini soymuşdular, qadının döşünü kəsmişdilər. Bir nəfəri balta ilə doğramışdılar. Körpə uşağın alnına xaç çəkib, güllələmişdilər... Gördüyüm bu dəhşətləri heç vaxt unuda bilmərəm”.

**Tahir Ağaməmmədov**

**AZƏRTAC**
**2024, 26 fevral**

**Prezident İlham Əliyev: Gələn il Ağdama ilk köç başlanacaq**

Artıq beş yaşayış məntəqəsinə keçmiş köçkünlər qayıtmışlar. Bu il o yaşayış məntəqələrinin sayı 20-yə çatacaq.

AZƏRTAC xəbər verir ki, bu barədə Prezident İlham Əliyev fevralın 26-da Xocalı rayon ictimaiyyətinin nümayəndələri ilə görüşündə bildirib.

Bu il həm Xocalıda, həm də Xankəndidə həyatın bərpa olunacağını qeyd edən dövlətimizin başçısı deyib: "Malıbəyli, Kərkicahan, Şuşanın Turşsu kəndləri də bərpa ediləcək. Ağdam şəhəri bərpa olunur və gələn il Ağdama da ilk köç başlanacaq. Yəni, quruculuq işləri geniş vüsət alır".

**AZƏRTAC**
**2024, 26 fevral**

**Ağdam Dövlət Dram Teatrında “Qisas” tamaşasının premyerası olub**

Ağdam Dövlət Dram Teatrında Xanirə Röyanın “Qisas” əsəri əsasında hazırlanmış eyniadlı tamaşanın premyerası olub.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, tamaşanın quruluşçu rejissoru Kərim Həsənov, quruluşçu rəssamı M.Qarayev, musiqi tərtibatçısı A.Şükürov, rejissor assistenti isə X.Abdullazadədir. Tamaşada rolları teatrın aktyorları Əməkdar artist Aidə Qasımova, Kərim Həsənov, Afəridə Əhmədova, Xəyalə Xudadatova, Anar Əhmədov, Ülviyyə Əhmədova, Camal Zamanov, Vüqar Mərdanov və Rüstəm Məmmədov ifa ediblər.

Teatrın direktoru Məhəmməd Hüseynov bildirib ki, bu yaxınlarda Təranə Məmmədlinin “Tor” əsərinin təqdimatı olub. Hazırda Şahnaz Şahinin “Mübariz” tamaşası üzərində məşqlər gedir. Bu ilin repertuarına həmçinin M.F.Axundzadənin “Hacı Qara”, Ə.Haqverdiyevin “Yeyərsən qaz ətini, görərsən ləzzətini”, Çingiz Ələsgərlinin “Olmayanlar olanda” tamaşaları daxil edilib.

**Tahir Ağaməmmədov**

**AZƏRTAC**
**2024, 28 fevral**

**Ağdam sakini minaya düşüb**

Martın 3-də Ağdam rayonunun Əhmədağalı kəndi ərazisində mina hadisəsi baş verib.

AZƏRTAC xəbər verir ki, bununla bağlı Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi (DİN), Baş Prokurorluğu və Minatəmizləmə Agentliyi (ANAMA) məlumat yayıb.

Məlumatda bildirilib ki, 1995-ci il təvəllüdlü Ağdam rayon sakini Abbasov Bəxtiyar Yaqub oğlu keçmiş təmas xəttində, minalardan təmizlənməmiş ərazidə heyvan otararkən piyada əleyhinə mina partlayışı nəticəsində hər iki ayağından xəsarət alıb.

O, xəstəxanaya təxliyə edilib.

DİN, Baş Prokurorluq və ANAMA bir daha vətəndaşları təhlükəsizlik qaydalarına riayət etməyə, bələd olmadıqları ərazilərə daxil olmamağa, təhlükə bildirən bütün əlamətlərə diqqətlə yanaşmağa çağırır.

**AZƏRTAC**
**2024, 3 mart**

**Ağdamda baş vermiş mina partlayışı ilə əlaqədar rayon prokurorluğunda araşdırma aparılır – VİDEO**

Martın 3-də Ağdam rayonunun Əhmədağalı kəndi ərazisində 1995-ci il təvəllüdlü Abbasov Bəxtiyar Yaqub oğlunun mina partlayışı nəticəsində xəsarət alması faktı üzrə Ağdam rayon prokurorluğunda araşdırma aparılır.

Bu barədə AZƏRTAC-a Baş Prokurorluğun mətbuat xidmətindən bildirilib.

**AZƏRTAC**
**2024, 3 mart**

**https://video.azertag.az/site/video/202251**

**Mina partlayışı nəticəsində yaralanan Ağdam sakini əməliyyata götürülüb**

Ağdam rayonunun Əhmədağalı kəndi ərazisində baş vermiş mina partlayışı nəticəsində yaralanan 1995-ci il təvəllüdlü Abbasov Bəxtiyar Yaqub oğlu Bərdə Rayon Mərkəzi Xəstəxanasına yerləşdirilib.

Xəstəxanadan AZƏRTAC-ın bölgə müxbirinə bildirilib ki, yaralıya hər iki ayağın travmatik amputasiyası diaqnozu qoyulub. Hazırda əməliyyatdadır, vəziyyəti ağır qiymətləndirilir.

**Tahir Ağaməmmədov**

**AZƏRTAC**
**2024, 3 mart**

**Ağdam Sənaye Parkında əhəng və perlit istehsalı müəssisəsi yaradılacaq**

Ağdam Sənaye Parkının ərazisində əhəng və perlit istehsalı müəssisəsi yaradılacaq.

AZƏRTAC xəbər verir ki, bu barədə iqtisadiyyat naziri Mikayıl Cabbarov məlumat verib.

Nazir bildirib ki, "Ağdağ" MMC-yə Ağdam Sənaye Parkının rezidenti statusu verilib. Şirkət tərəfindən Sənaye Parkının ərazisində əhəng və perlit istehsalı müəssisəsi yaradılacaq: "İnvestisiya dəyəri 15 milyon manat olan müəssisədə 100 nəfərlik daimi iş yerinin yaradılması nəzərdə tutulur".

**AZƏRTAC**
**2024, 4 mart**

**Avstriya Milli Şurasının üzvlərinin Ağdama səfəri başlayıb**

Avstriya Milli Şurasının Avstriya-Cənubi Qafqaz parlament qrupunun üzvlərinin işğaldan azad olunmuş Ağdama səfəri başlayıb.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, səfər zamanı nümayəndə heyəti Ermənistanın 30 ilə yaxın işğal altında saxladığı Ağdamda törədilən müharibə cinayətləri ilə, həmçinin şəhər işğaldan azad olunandan sonra Azərbaycan dövləti tərəfindən həyata keçirilən bərpa-tikinti işləri ilə tanış olacaqlar.

**Tahir Ağaməmmədov**

**AZƏRTAC**
**2024, 5 mart**

**Avstriya Milli Şurasının Avstriya-Cənubi Qafqaz parlament qrupunun üzvləri Ağdamda olublar - YENİLƏNİB**

Avstriya Milli Şurasının Avstriya-Cənubi Qafqaz parlament qrupunun üzvləri Ağdamda erməni vandalizminin izləri, həmçinin şəhər işğaldan azad ediləndən sonra Azərbaycan dövləti tərəfindən həyata keçirilən bərpa-tikinti işləri ilə tanış olublar.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, əvvəlcə Qarabağ xanlığının banisi Pənahəli xanın sarayının yerləşdiyi İmarət kompleksinə gələn nümayəndə heyəti bu tarixi məkan barədə məlumatlandırılıb. Bildirilib ki, Ağdam rayonunda erməni vandalizminə məruz qalan tarixi-memarlıq tikililərindən biri də Qarabağ xanlığının banisi Pənahəli xanın imarətidir. XVIII əsrə aid bu tarix-memarlıq abidəsi xan nəslinin ilk mülklərindəndir. İşğal edilən ərazilərdəki digər tarixi-mədəni, dini abidələr kimi, Pənahəli xanın imarəti də ermənilər tərəfindən təhqir edilib, vandalizmə məruz qalıb. Tövlə kimi istifadə edilən xan sarayında inək və donuz saxlanılıb.

Burada Qarabağ xanlığının əsasını qoymuş Pənahəli xanın və xanlıqda müxtəlif illərdə hakimiyyətdə olmuş hökmdarlar - İbrahimxəlil xanın və onun oğlu Mehdiqulu xanın qəbirüstü türbələri, həmçinin Mehdiqulu xanın qızı Xurşidbanu Natəvanın məzarları olub. Qarabağ xanlarının nəslindən olmuş digər görkəmli şəxslər də bu qəbiristanlıqda dəfn edilib. Lakin Ağdam şəhəri işğal olunduqdan sonra qəbiristanlıq da erməni vandalizminə məruz qalıb. Erməni vandalları İbrahimxəlil xanın türbəsini və Qarabağın sonuncu hakimi Mehdiqulu xan Cavanşirin qızı Xurşidbanu Natəvanın qəbirüstü abidəsini də dağıdıblar.

Diqqətə çatdırılıb ki, işğaldan azad olunmuş Ağdam şəhərində həyata keçiriləcək quruculuq işləri çərçivəsində Xurşidbanu Natəvanın abidəsi bərpa edilib. Pənahəli Xanın Sarayı və İmarət kompleksində də bərpa işləri həyata keçirilir. Konsepsiyaya əsasən, kompleks Pənahəli xanın sarayı, türbələr və Qarabağ atları parkından ibarət olacaq, xanın sarayı bərpa edilərək interaktiv muzey kimi fəaliyyət göstərəcək.

Sonra Ağdam şəhər Cümə məscidinə gələn qonaqlara ermənilərin müharibə cinayətləri, mədəni, tarixi, dini abidələri məhv etmələri barədə məlumat verilib. Bildirilib ki, erməni vandalizminə məruz qalan tarixi-dini abidələrdən biri də Ağdam şəhər Cümə məscididir. Ağdam Cümə məscidi 1868-1870-ci illərdə memar Kərbəlayi Səfixan Qarabaği tərəfindən tikilib. Ölkə əhəmiyyətli abidələr siyahısında olan bu məscid "Qarabağ məscid memarlığı" məktəbinə aiddir. Ermənilər məscidi hərbi məqsədlərə görə dağıtmayıb, onun minarələrindən koordinasiya üçün istifadə ediblər. Məscidin minarələri daxildən sökülüb, tavanı bir neçə yerdən uçurulub, dizayn və yazıları bilərəkdən yararsız, tanınmaz vəziyyətə salınıb. Erməni vandalları Ağdam Cümə məscidində də mal-heyvan saxlamaqla azərbaycanlılara, müsəlman aləminə qarşı öz nifrətlərini nümayiş etdiriblər.

Qeyd edilib ki, Heydər Əliyev Fondu tərəfindən hazırda Cümə məscidində bərpa-restavrasiya işləri həyata keçirilir.

Avstriya Milli Şurasının Avstriya-Cənubi Qafqaz parlament qrupunun üzvləri Ağdam şəhərinin mərkəzi küçəsində ermənilərin yerlə-yeksan etdikləri binaların qalıqlarına da baxıblar.

Nümayəndə heyəti daha sonra Prezidentin xüsusi nümayəndəliyinin Ağdamdakı düşərgəsinə gəlib. Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov onlara Ağdamın tarixi, indiki vəziyyəti, "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın icrası üzrə, o cümlədən Ağdam şəhərinin Baş planına uyğun olaraq həyata keçirilən və nəzərdə tutulan layihələr barədə ətraflı məlumat verib.

Nümayəndə heyəti sonda Ağdam Konfrans Mərkəzi ilə tanış olub.

**13:33**

Avstriya Milli Şurasının Avstriya-Cənubi Qafqaz parlament qrupunun üzvlərinin işğaldan azad olunmuş Ağdama səfəri başlayıb.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, səfər zamanı nümayəndə heyəti Ermənistanın 30 ilə yaxın işğal altında saxladığı Ağdamda törədilən müharibə cinayətləri ilə, həmçinin şəhər işğaldan azad olunandan sonra Azərbaycan dövləti tərəfindən həyata keçirilən bərpa-tikinti işləri ilə tanış olacaqlar.

**Tahir Ağaməmmədov**

**AZƏRTAC**
**2024, 5 mart**

**Andreas Minnix: Ağdamda Xan sarayının bərpası prosesini izləməkdən məmnun olduq**

Ağdamda genişmiqyaslı bərpa və yenidənqurma işləri aparılır.

Bunu AZƏRTAC-ın bölgə müxbirinə açıqlamasında Avstriya Milli Şurasının Avstriya-Cənubi Qafqaz parlament qrupunun rəhbəri Andreas Minnix söyləyib.

“Bura yenidən qurulur və bərpa olunur. Qarabağın tarixinin başlandığı yerləri görmək çox xoşdur. Xan sarayının bərpası prosesini izləməkdən məmnun olduq”, – deyə o bildirib.

**Tahir Ağaməmmədov**

**AZƏRTAC**
**2024, 5 mart**

**Ağdamın Xıdırlı, Sarıcalı və Kəngərli kəndlərində ilin sonunadək tikiləcək evlərin sayı açıqlanıb – FOTO**

İşğaldan azad olunan digər ərazilərdə olduğu kimi, Ağdam rayonunda da quruculuq işləri geniş vüsət alıb. Ağdam şəhəri ilə yanaşı, rayonun Kəngərli, Sarıcalı və Xıdırlı kəndlərinin tikintisi həyata keçirilir.

AZƏRTAC-ın bölgə müxbiri Kəngərli kəndinə gedərək, inşaat işləri ilə tanış olub.

"Qarabağ İqtisadi Rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidməti" publik hüquqi şəxsin mətbuat katibi Leyla Sarabi bildirib ki, Xıdırlıda 719, Sarıcalıda 203, Kəngərlidə isə 292 evin tikintisinin bu ilin sonunadək yekunlaşdırılması nəzərdə tutulur. Kəngərli kəndində evlərin əksəriyyətində hörgü işləri tamamlanıb, hazırda dam örtüyünün vurulması və evlərin daxilində suvaq işləri davam edir. Tikintidə Ağdamın Şahbulaq yatağında istehsal olunan mişar daşlarından istifadə edilir. Hər bir evin damında Günəş paneli quraşdırılacaq, alternativ enerji mənbələrindən istifadə olunacaq. Yaxın zamanlarda məktəb, uşaq bağçası, rabitə qovşağı, tibb məntəqəsi, klub icma mərkəzi, inzibati mərkəzin tikintisinə başlanılacaq. Bu işlərin, həmçinin mərkəzi kommunikasiya sisteminin və yol infrastrukturunun da inşasının bu ilin sonunadək tamamlanması nəzərdə tutulur.

Qeyd edək ki, Ağdam rayonunda ilkin mərhələdə 1 şəhər və 12 kəndin bərpası nəzərdə tutulur. Sarıcalı, Xıdırlı və Kəngərli kəndlərində 2024-cü ilin sonunadək işlərin birinci mərhələsinin yekunlaşdırılması planlaşdırılır.

**Tahir Ağaməmmədov**

**AZƏRTAC**
**2024, 6 mart**

**“Ağdamda əhalinin məşğulluğu ilə bağlı heç bir problem olmayacaq” - AÇIQLAMA**

Ağdamda əhalinin məşğulluğu ilə bağlı heç bir problem olmayacaq. Ağdama köçəcək ailələrin üzvlərinin hansı peşələrə, ixtisaslara sahib olmaları barədə məlumatlar var. Bura köçən insanların bir hissəsi inşaat sektorunda çalışacaq. Ağdamda əhalinin məşğulluğunun təmin edilməsində Ağdam sənaye parkında yaradılan müəssisələrin böyük rolu olacaq.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, bunu Şuşa şəhərində "Böyük Qayıdışa dair I Dövlət Proqramı” çərçivəsində “Əhalinin peşə hazırlığının təşkili” mövzusunda keçirilən tədbirdə Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Prezidentinin xüsusi nümayəndəsinin müavini Bəşir Hacıyev deyib.

O qeyd edib ki, artıq Ağdam sənaye parkının 21 rezidenti, 6 qeyri rezidenti var: Bu ilin birinci yarısında bir neçə müəssisənin açılışı gözlənilir. Burada xeyli iş yeri yaradılır. Artıq burada çalışmaq istəyən insanlar müəssisə sahiblərinə yönəldilir. Həmçinin Ağdama köçəcək insanlar kənd təsərrüfatı sahəsində də çalışacaqlar”.

Bəşir Hacıyev onu da bildirib ki, hazırda Füzuli şəhərinə 527 ailənin köçü həyata keçirilib. Bu ayın 15-də daha 35 ailənin köçü planlaşdırılır. Cari ilin aprel ayının sonunadək 800-dən çox ailənin köçü başa çatacaq.

**Tahir Ağaməmmədov**

**AZƏRTAC**
**2024, 7 mart**

**Nazir müavini: İşğaldan azad olunmuş ərazilərdə 4G şəbəkəsinin əhatə dairəsi 79 faizdir**

Bakı şəhərində və regionlarda, o cümlədən ucqar kəndlərdə yüksəksürətli sabit genişzolaqlı internet xidmətlərinin əhatə dairəsinin və xidmət keyfiyyətinin artırılması, əhalinin internetə çıxışının təmin edilməsi istiqamətində "Onlayn Azərbaycan" layihəsi davam etdirilir.

AZƏRTAC xəbər verir ki, bu sözləri rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Samir Məmmədov “Biznes mühitinin yaxşılaşdırılması üzrə iqtisadi islahatlar və müasir çağırışlar” mövzusundakı konfransda deyib.

S.Məmmədov qeyd edib ki, görülmüş işlər çərçivəsində 2 milyondan artıq ev təsərrüfatı ve biznes subyekti yüksəksürətli genişzolaqlı internet xidmətləri ilə təmin edilib. Bununla da ölkədə mövcud ev təsərrüfatı və biznes subyektlərinin təxminən 70 faizi yüksəksürətli genişzolaqlı internetlə əhatə olunub.

"İşğaldan azad edilmiş ərazilərdə yaşayış təmin edilmiş məntəqələrdə və iş yerlərində, binalarda, təhsil və səhiyyə mərkəzlərində rabitə xidmətlərinə çıxış təmin edilib. Şuşa - Xankəndi, Xankəndi - Xocalı, Ağdam - Xocalı - Xankəndi, Ağdam - Bərdə, Beyləqan - Füzuli - Şuşa, Horadiz - Şükürbəyli, Xocavənd - Xankəndi arasında magistral fiber-optik kabel xətləri çəkilib və ya bu istiqamətdə işlərə başlanılıb", - deyə nazir müavini bildirib.

Onun sözlərinə görə, həmin ərazilərdə mobil rabitə şəbəkələrinin, o cümlədən dördüncü nəsil LTE baza stansiyalarının quraşdırılması istiqamətində işlər davam etdirilir: “Qeyd olunan ərazilərdə ümumilikdə 300 ədədə yaxın mobil radio-baza stansiyası fəaliyyət göstərir. Nəticədə işğaldan azad olunmuş əraziləri 2G şəbəkəsi 90 faiz, 3G şəbəkəsi 87 faiz, 4G şəbəkəsi isə 79 faiz əhatə edir”.

**AZƏRTAC**
**2024, 7 mart**

**Keçmiş məcburi köçkünlərin 95 faizi doğma yurd-yuvasına qayıtmaq niyyətindədir – Sorğu**

Azərbaycan Respublikası Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin dəstəyi ilə Azərbaycan Diplomatiya Akademiyası İnkişaf və Diplomatiya İnstitutu, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin İqtisadiyyat İnstitutu tərəfindən "Əhalinin geri qayıdışının və ərazilərə inteqrasiyasının təmin edilməsi məqsədilə məcburi köçkünlər arasında sosioloji sorğunun keçirilməsi və ilkin proqnozların hazırlanması" layihəsi həyata keçirilib.

Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi mətbuat xidməti departamentindən AZƏRTAC-a bildiriblər ki, layihənin Dövlət Komitəsində təşkil olunmuş təqdimatında onun məqsəd və məramı barədə ətraflı məlumat verilib. Layihənin koordinatoru Rəsmiyyə Abdullayeva diqqətə çatdırıb ki, sorğu zamanı məcburi köçkünlərin qayıdışla bağlı arzu və təklifləri öyrənilib, onların doğma yurda dönüş barədə qərarlarına təsir edən amillər müəyyənləşdirilib, ilkin proqnozlar hazırlanıb.

Qeyd olunub ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən Böyük Qayıdışa dair I Dövlət Proqramı Qarabağ və Şərqi Zəngəzurun işğaldan azad edilmiş ərazilərində dayanıqlı məskunlaşma, iqtisadi dirçəliş üçün bütün zəruri şəraitin yaradılmasını nəzərdə tutur. Hazırda Dövlət Proqramının Tədbirlər Planı üzrə intensiv iş aparılır, qayıdış prosesi uğurla davam etdirilir.

Layihə çərçivəsində "fokus-qrup" sorğular tədqiqatın əsas metodu kimi seçilib. Sorğulara Şuşa, Qubadlı, Ağdam, Kəlbəcər, Laçın, Zəngilan, Cəbrayıl, Xocavənd, Xocalı və Füzulidən olan 170 respondent cəlb olunub.

Sorğu zamanı keçmiş məcburi köçkünlərin 95 faizinin öz doğma yurd-yuvasına qayıtmaq niyyətində olduğu bir daha təsdiqlənib.

Dövlət Komitəsinin məsul əməkdaşlarının iştirakı ilə keçirilən təqdimatda tədqiqatın nəticələri geniş müzakirə edilib, rəy və təkliflər bildirilib. Tədqiqata dair yekun hesabatda bunların nəzərə alınacağı bildirilib.

**AZƏRTAC**
**2024, 13 mart**

**Dövlət Məşğulluq Agentliyi Laçın, Füzuli və Ağdamda peşə kursları təşkil edib**

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Məşğulluq Agentliyi işğaldan azad olunan ərazilərə köçürülən vətəndaşlar üçün aktiv məşğulluq tədbirlərini davam etdirir.

Nazirliyin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, bu istiqamətdə növbəti tədbir olaraq agentlik Laçın şəhərində qaz avadanlıqlarının təmiri və istismarı üzrə çilingər, Füzuli şəhərində mebel ustası və Ağdam şəhərindəki "Ağdam Sənaye Parkı"nda genişprofilli dəzgahçı peşələri üzrə peşə hazırlığı kursları təşkil edib.

Qarabağ Peşə Hazırlığı Mərkəzi və işəgötürənlərlə birgə təşkil edilən kurslara Laçın, Füzuli və Ağdam rayonları üzrə 30 nəfər cəlb olunub.

Təlimlər xüsusi meyarlar üzrə qiymətləndirilmiş mütəxəssislər tərəfindən həyata keçirilir. Kursları uğurla başa vuran şəxslərin yeni yiyələndikləri peşələr üzrə işlə təminatına da dəstək göstəriləcək.

**AZƏRTAC**
**2024, 13 mart**

**“Füzuli Könüllüləri” qrupuna qəbula start verilib**

Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin Xüsusi Nümayəndəliyi və Azərbaycan Respublikasının Gənclər Fondunun dəstəyi, “Böyük Qayıdış” Gənclər Təşkilatının təşkilatçılığı ilə “Qayıdış Könüllüləri” Proqramı çərçivəsində “Füzuli Könüllüləri” qrupuna qeydiyyat başlanıb.

AZƏRTAC xəbər verir ki, Müzəffər Ali Baş Komandan İlham Əliyevin işğaldan azad olunmuş ərazilərimizdə həyata keçirilən işlərə gənc nəslin, xüsusilə də kökləri bu torpaqlara bağlı olan gənclərin daha geniş cəlb olunması çağırışına uyğun olaraq başladılan “Qayıdış Könüllüləri” proqramının əsas məqsədi, işğaldan azad olunmuş ərazilərdə könüllülük fəaliyyətini dəstəkləmək, əslən həmin bölgələrdən olan gənclərin öz doğma torpaqlarında yenidənqurma və bərpa işlərində, eləcə də bölgənin zəngin tarixi-mədəni irsinin təbliğində iştirakını təşviq etmək və Böyük Qayıdış prosesinə töhfə verməkdir.

Tədbirdə “Böyük Qayıdış” Gənclər Təşkilatının sədri Nail Şükürov, Azərbaycan Respublikasının Gənclər Fondunun icraçı direktorunun müavini Orxan Ərəbov, Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin Xüsusi Nümayəndəliyinin əməkdaşı iştirak ediblər.

Bildirilib ki, proqrama qoşulmaq istəyən, 18-29 yaş arası, əslən Füzuli rayonundan olan hər bir gənc təhsil səviyyəsindən asılı olmayaraq “qayidish.konullu.az” saytında qeydiyyatdan keçə bilər.

Qeydiyyat cari il aprelin 1-nə kimi aparılacaq.

Müraciəti müsbət dəyərləndirilmiş gənclər ardıcıl olaraq müsahibə, baza təlimləndirmə kursu və imtahan mərhələsindən keçəcəklər. Seçilmiş gənclər müvafiq təlim və hazırlıq keçdikdən sonra Füzuli rayonu ərazisində müxtəlif könüllü fəaliyyəti göstərəcək, o cümlədən tədbirlərin təşkilində iştirak edəcək, bölgəyə səfər edən yerli və xarici qonaqlarla işləyəcək, bərpa və yenidənqurma işlərinə dəstək verəcək, qayıdışa hazırlıq və məskunlaşmaya könüllü dəstəyinin göstərilməsinə cəlb olunacaqlar.

Könüllülərin hazırlanması üçün baza təlimləri peşəkar təlimçilər tərəfindən “Könüllülük fəaliyyətinin əsasları”, “Könüllü xidmətin təşkili”, “Gənclərin ideoloji hazırlığı”, “Yumşaq bacarıqlar”, “Psixoloji inkişaf”, “Liderlik və natiqlik bacarıqları” və “Minalardan qorunma qaydaları” mövzularında həyata keçiriləcək. Təlimlərin keçirilməsində məqsəd gənclərin könüllülüyün prinsip və dəyərləri, könüllülük kodeksi, vətəndaşlar və xarici qonaqlarla ünsiyyət qaydaları, tapşırıqların yerinə yetirilməsi və subordinasiya, peşəkar fəaliyyətlərdə emosiaların idarəolunması, situasiyalardan çıxış yolları, effektiv ünsiyyət, Azərbaycan Gənclər siyasətinin prioritetləri, həmçinin təhlükəsizlik qaydaları haqqında bilik və bacarıqlarının artırılmasıdır.

Qeyd edək ki, hazırda “Qayıdış Könüllüləri” Proqramı çərçivəsində “Şuşa Könüllüləri”, “Ağdam Könüllüləri” və “Zəngilan Könüllüləri” qrupları fəaliyyət göstərir. Sözügedən qruplar üzrə fəaliyyət göstərən könüllülər müvafiq ərazilərdə müxtəlif könüllü fəaliyyətlərinə cəlb olunur və aktiv iştirak edirlər.

**AZƏRTAC**
**2024, 14 mart**

**Ağdamda Bahar bayramı şənliyi keçirilib**

Xalqımızın ən qədim bayramlarından olan Novruz ölkəmizin hər yerində olduğu kimi, Ağdam rayonunda da yüksək əhvali-ruhiyyə ilə qeyd edilir.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, Quzanlı qəsəbəsində keçirilən bayram tədbirində rayon icra hakimiyyətinin, hüquq-mühafizə orqanlarının rəhbərləri, YAP rayon təşkilatının sədri, idarə və müəssisələrin kollektivləri, mədəniyyət işçiləri, şəhid ailələri və qazilər iştirak ediblər.

Novruz şənliyində bayram tonqalı qalanıb, milli mətbəx nümunələri, qədim xalq oyunları, kitablardan, muzey eksponatlarından və rəsm əsərlərindən ibarət sərgilər nümayiş olunub, idmançılar məharətlərini göstəriblər. Tədbir keçirilən məkana Qarabağ atlarının gəlişi maraqla qarşılanıb.

Muğam Mərkəzində davam edən tədbirdə əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət Himni səsləndirilib. Çıxış edənlər bayram münasibətilə ağdamlıları təbrik edərək ruzi-bərəkət və firəvanlıq arzulayıblar. Bildirilib ki, artır dördüncü ildir xalqımız Novruz bayramını daha böyük coşqu ilə, daha yüksək əhvalla qeyd edir. 30 il işğal altında olan dədə-baba yurdlarımızda indi bayram tonqalları qalanır.

Bayram tədbirində Ağdam Musiqi Kollecinin “Qarabağ” instrumental ansamblının müşayiəti ilə Xalq artisti Nəzakət Teymurovanın, Əməkdar artistlər Fehruz Səxavətin və Səbuhi İbayevin, “Nənə qızlar” folklor ansamblının ifasında rəngarəng musiqi nömrələri təqdim edilib. Bayramın personajları hesab olunan Bahar qız, Kosa və Keçəlin çıxışları tədbirə xoş ovqat qatıb.

Tədbirin sonunda Prezident İlham Əliyevin Sərəncamı ilə "Heydər Əliyevin 100 illiyi (1923-2023)" yubiley medalı ilə təltif edilmiş Rəhimova Arzu Məhərrəm qızına və Əzimzadə Hafiz Səlim oğluna medallar təqdim olunub.

**Tahir Ağaməmmədov**

**AZƏRTAC**
**2024, 18 mart**

**Avstriya Teleradiosunda Azərbaycanın işğaldan azad edilmiş əraziləri barədə geniş reportaj yayımlanıb – VİDEO**

Avstriyanın ən böyük telekanalı - Avstriya Teleradiosunun (ORF) əsas xəbərlər buraxılışında işğal başa çatdıqdan sonra azərbaycanlıların doğma yurdlarına qayıdışından bəhs edən reportaj yayımlanıb.

AZƏRTAC xəbər verir ki, ORF-in çəkiliş qrupu bu məqsədlə Azərbaycanın işğaldan azad olunmuş Ağdam və Füzuli rayonlarına səfər edib, erməni vandallığı nəticəsində dağıdılmış yaşayış məntəqələri və xarabalıqları lentə alıb, aparılan bərpa və quruculuq işləri, ərazilərin minalardan təmizlənməsi ilə tanış olub, bir sıra şəxslərdən müsahibələr götürüb.

ORF-in təcrübəli jurnalisti Karola Şnayderin hazırladığı reportajın əvvəlində 2020-ci ildə Vətən müharibəsi və müharibədən sonra yaranmış vəziyyət, hazırda həmin ərazilərdə aparılan işlərdən söz açıb. Bildirilib ki, Azərbaycan Ermənistan tərəfindən işğal edilmiş əraziləri azad etdikdən sonra həmin torpaqlarda sürətli bərpa-quruculuq işləri aparılır və 30 il əvvəl erməni işğalından qaçmağa məcbur olmuş insanlar artıq öz yurdlarına geri qayıdırlar.

Ağdamda çəkiliş aparan avstriyalı qrup tamamilə dağıdılmış və talan olunmuş şəhəri tamaşaçılara “ruhlar şəhəri” kimi təqdim edir. Bildirilir ki, Ermənistan bu əraziləri işğal etdikdən sonra buranı bufer zonasına çevirib. Lakin üç il əvvəl Azərbaycan tarixdə yeni səhifə açaraq Ağdamı və digər əraziləri işğaldan azad edib.

Diqqətə çatdırılır ki, bərpa və quruculuq işləri sürətlə aparılmasına baxmayaraq, ərazinin minalarla çirkləndirilməsi böyük əngəl olaraq qalmaqdadır. Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin (ANAMA) İdarə Heyəti sədrinin müavini Samir Poladov ilə müsahibədə qeyd olunub ki, minaların təmizlənməsi çətin və mürəkkəb prosesdir, lakin işlər davam edir. Ermənistan tərəfindən minalarla bağlı qeyri-dəqiq xəritələr təqdim edilib və buna görə də minaların hansı ərazilərdə basdırılması dəqiq bilinmir, bu isə öz növbəsində minatəmizləmə işlərini ləngidir.

Avstriyalı jurnalistlər Füzuli şəhərində də olub, çəkilişlər aparıblar. Bildirilib ki, xarabalıqlar içərisində artıq yeni həyat qaynayır, yeni tikilmiş ilk yaşayış binalarında iki mindən çox sakin məskunlaşıb. Keçmiş məcburi köçkün bir ailə doğma vətənlərində yenidən yaşamağın sevincini mənzilində qonaq olan avstriyalı jurnalistlərlə bölüşüb. Diqqətə çatdırılıb ki, vaxtilə tərk etməyə məcbur olduqları şəhərin xarabalıqlar içərisində olmasına baxmayaraq, Füzuliyə geri dönən sakinlərin xoşbəxt olduqları üzlərindən oxunur.

Reportajda qeyd edilib ki, Füzulidən məcburi köçkün düşmüş minlərlə sakinin bir neçə il ərzində geri qayıtması təmin ediləcək və bunun üçün hazırda böyük tikinti işləri həyata keçirilir.

Reportajın sonunda Ermənistanla aparılan sülh danışıqlarının hazırkı vəziyyətinə də nəzər salınıb. Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadə açıqlamasında bildirib ki, Azərbaycan ərazi bütövlüyünü bərpa edib və Ermənistanla münaqişəni artıq başa çatmış hesab edir. Lakin yekun sülh sazişi istiqamətində hələlik maneələr qalmaqdadır, Ermənistan Azərbaycanın səkkiz kəndini hələ də işğal altında saxlayır və həmin kəndlər azad edilməlidir.

Sonda sülh danışıqlarının ləng getdiyi, bir çox sualların hələ də cavabsız qaldığı diqqətə çatdırılır, müharibədən zəfərlə çıxmış Azərbaycanın qalib tərəf kimi irəli sürdüyü şərlər əsasında sülh müqaviləsi imzalamaqda israrlı olduğu vurğulanır.

**Elgün Niftəli**

**AZƏRTAC-ın xüsusi müxbiri**
**Vyana**

**AZƏRTAC**
**2024, 30 mart**

https://video.azertag.az/site/video/204189

**Ağdamda ANAMA əməkdaşı minaya düşərək xəsarət alıb**

Aprelin 2-də Ağdam rayonunun işğaldan azad edilmiş Sarıcalı kəndi ərazisində bir nəfərin xəsarət alması barədə rayon prokurorluğuna məlumat daxil olub.

Rayon prokurorluğundan AZƏRTAC-a bildirilib ki, hadisə nəticəsində ərazidə mina təmizləmə işləri aparan Azərbaycan Respublikası Minatəmizləmə Agentliyinin (ANAMA) əməkdaşı 1987-ci il təvəllüdlü Əliyev Xəyyam Qəmbər oğlu xəsarət alıb və istifadə olunan texnikaya maddi ziyan dəyib.

Hazırda Xəyyam Əliyevin vəziyyəti qənaətbəxşdir.

Prokurorluq əməkdaşları tərəfindən hadisə yerinə baxış keçirilib, digər zəruri prosessual hərəkətlər aparılıb.

Faktla bağlı Ağdam Rayon Prokurorluğunda araşdırma aparılır.

**AZƏRTAC**
**2024, 2 aprel**

**İşğaldan azad edilmiş ərazilərin sakinləri üçün peşə hazırlığı kursları təşkil olunur**

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Məşğulluq Agentliyi işğaldan azad olunmuş ərazilərimizin sakinləri üçün aktiv məşğulluq proqramlarını davam etdirir.

Nazirliyin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, həmin proqramların bir istiqaməti olaraq, Agentlik:

- Laçın şəhəri və Laçının Zabux, Sus, Bəylik, Güləbird kəndləri,
- Şuşa şəhəri və Şuşanın Turşsu qəsəbəsi,
- Füzuli şəhəri və Füzulinin Dövlətyarlı kəndi,
- Zəngilan şəhəri və Zəngilanın Ağalı, Cahangirbəyli kəndləri,
- Cəbrayıl şəhəri və Cəbrayılın Horovlu, Şükürbəyli kəndləri,
- Kəlbəcər şəhəri,
- Xocalı şəhəri və Xocalının Malıbəyli kəndi,
- Xankəndinin Kərkicahan qəsəbəsi,
- Qubadlının Mahruzlu, Zilanlı kəndləri,
- Ağdərənin Talış, Suqovuşan, Umudlu kəndləri,
- Ağdamın Xıdırlı, Kəngərli, Sarıcalı kəndləri,
- Xocavəndin Xocavənd kəndi üzrə peşə hazırlığı kursları təşkil edir.

Peşə kurslarına həmin yaşayış məntəqələrinə artıq köçürülmüş, habelə bu il ərzində köçürülməsi nəzərdə tutulan işsiz və ya işaxtaran şəxslər müraciət edə bilərlər.

Kənd təsərrüfatı, tikinti, sənaye, xidmət sahələrinə aid peşələr üzrə təşkil olunan kurslarda iştirak etməklə əmək bazarının tələblərinə uyğun peşələrə yiyələnmək və həmin peşələr üzrə işlə təmin olunmaq imkanına yiyələnmək mümkündür.

Peşə hazırlığı kurslarına, DOST mərkəzlərinə, məşğulluq filiallarına müraciət edərək və ya "sosial.gov.az" saytındakı "Qarabağ və Şərqi Zəngəzurda peşə hazırlığı" bölməsindəki linkə daxil olaraq müvafiq formanı doldurmaqla qeydiyyatdan keçmək olar.

Kursların müddəti 6 aya qədərdir və iştirak ödənişsizdir.

Peşə hazırlığı kursları işğaldan azad edilmiş digər ərazilərin sakinləri üçün də təşkil olunacaq.

**AZƏRTAC**
**4 aprel, 2024**

**Ağdamda detonator partlayıb, ANAMA əməkdaşı xəsarət alıb – VİDEO**

Aprelin 6-da Ağdam rayonunun Sarıcalı kəndi ərazisində detonator partlayışı hadisəsi baş verib.

Azərbaycan Respublikası Minatəmizləmə Agentliyinin (ANAMA) mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Agentliyin əməkdaşı 2000-ci il təvəllüdlü Piriyev Anar Mürşüd oğlu xidməti vəzifəsini yerinə yetirərkən alüminium gövdəli kiçik ölçülü detonatorun işə düşməsi nəticəsində əl və ayaq nahiyəsindən yüngül xəsarətlər alıb.

Xəsarət alan əməkdaş müayinə olunmaq üçün rayon xəstəxanasına çatdırılıb. Həyati təhlükəsi və ciddi xəsarəti yoxdur.

**AZƏRTAC**
**6 aprel, 2024**

https://video.azertag.az/site/video/204631

**Detonator partlayışı nəticəsində xəsarət alan ANAMA əməkdaşının vəziyyəti stabildir**

Ağdam rayonunun Sarıcalı kəndi ərazisində detonator partlayışı nəticəsində xəsarət alan Azərbaycan Respublikası Minatəmizləmə Agentliyinin (ANAMA) əməkdaşı Piriyev Anar Mürşüd oğlu Ağdam Rayon Mərkəzi Xəstəxanasına gətirilib.

Xəstəxanadan AZƏRTAC-ın bölgə müxbirinə bildirilib ki, sağ baldırın yuxarı 3/1 ön səthinin kiçik ölçülü qəlpə yaraları, sağ əlin iç səthinin kəsilmiş yarası ilə xəstəxanaya gətirilən Anar Piriyevə ilkin tibbi yardım göstərilib.

Hazırda onun vəziyyəti stabildir.

**AZƏRTAC**
**6 aprel, 2024**

**Ağdamda baş verən partlayışla bağlı rayon prokurorluğunda araşdırma aparılır**

Aprelin 6-da Ağdam rayonunun Sarıcalı kəndi ərazisində bir nəfərin partlayış nəticəsində xəsarət alması barədə rayon prokurorluğuna məlumat daxil olub.

Bu barədə AZƏRTAC-a Ağdam rayon Prokurorluğundan məlumat verilib.

Araşdırma zamanı Azərbaycan Respublikası Minatəmizləmə Agentliyinin (ANAMA) əməkdaşı, 2000-ci il təvəllüdlü Piriyev Anar Mürşüd oğlunun ərazidə mina təmizləmə işləri aparan zaman alışdırıcı kapsulun partlaması nəticəsində xəsarət alması müəyyən edilib. Prokurorluq əməkdaşları tərəfindən hadisə yerinə baxış keçirilib, digər zəruri prosessual hərəkətlər aparılıb.

Bildirilib ki, faktla bağlı Ağdam Rayon Prokurorluğunda araşdırma aparılır.

**AZƏRTAC**
**6 aprel, 2024**

## Ağdamda ekskavator piyada əleyhinə minaya düşüb

Aprelin 7-də Ağdam rayonunun Novruzlu kəndi ərazisində mina hadisəsi baş verib.

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi, Baş Prokurorluğu və Minatəmizləmə Agentliyinin (ANAMA) mətbuat xidmətləri birgə məlumat yayıb.

Bildirilib ki, minalardan təmizlənməmiş ərazidə ekskavator piyada əleyhinə minaya düşüb. Ekskavator zədələnib, xəsarət alan yoxdur.

Faktla bağlı Ağdam Rayon Prokurorluğunda araşdırma aparılır.

Daxili İşlər Nazirliyi, Baş Prokurorluq və ANAMA bir daha vətəndaşları təhlükəsizlik qaydalarına riayət etməyə, mina təhlükəsi işarələrinin göstəricilərinə diqqətlə yanaşmağa və bələd olmadıqları ərazilərə daxil olmamağa çağırır.

**AZƏRTAC**
**7 aprel, 2024**

**Laçında ödənişsiz peşə hazırlıq kursları təşkil olunur**

Böyük Qayıdış proqramına uyğun olaraq, işğaldan azad edilmiş ərazilərimizə köçürülən sakinlərin fəal məşğulluq proqramları ilə əhatə olunması tədbirləri davam etdirilir. Yaxın zamanlarda sakinlər üçün həm də ödənişsiz peşə hazırlığı kurslarının təşkili nəzərdə tutulub və bu istiqamətdə işlərə start verilib.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Məşğulluq Agentliyindən AZƏRTAC-ın bölgə müxbirinə bildirilib ki, işğaldan azad olunmuş ərazilərimizin sakinləri üçün peşə hazırlığı kursları təşkil edilir. Həmçinin Laçın şəhəri və rayonun Zabux, Sus, Bəylik, Güləbird kəndləri üzrə kənd təsərrüfatı, tikinti, sənaye, xidmət sahələri üzrə peşə kurslarına həmin yaşayış məntəqələrinə artıq köçürülmüş, habelə bu il ərzində köçürülməsi nəzərdə tutulan işsiz və ya işaxtaran şəxslər müraciət edə bilərlər.

Peşə hazırlığı kurslarına yazılmaq üçün işaxtaranlar, DOST mərkəzlərinə, məşğulluq filiallarına müraciət edərək, yaxud "sosial.gov.az" saytındakı "Qarabağ və Şərqi Zəngəzurda peşə hazırlığı" bölməsindəki linkə daxil olaraq müvafiq formanı doldurmaqla qeydiyyatdan keçə bilərlər. Kursların müddəti 6 aya qədərdir və iştirak ödənişsizdir.

Qeydə edək ki, proqramın tərkib hissəsi olaraq Şuşa şəhəri və Şuşanın Turşsu qəsəbəsi, Füzuli şəhəri və Füzulinin Dövlətyarlı kəndi, Zəngilan şəhəri və Zəngilanın Ağalı, Cahangirbəyli kəndləri, Cəbrayıl şəhəri və Cəbrayılın Horovlu, Şükürbəyli kəndləri, Kəlbəcər şəhəri, Xocalı şəhəri və Xocalının Malıbəyli kəndi, Xankəndinin Kərkicahan qəsəbəsi, Qubadlının Mahruzlu, Zilanlı kəndləri, Ağdərənin Talış, Suqovuşan, Umudlu kəndləri, Ağdamın Xıdırlı, Kəngərli, Sarıcalı kəndləri, Xocavəndin Xocavənd kəndi üzrə də peşə hazırlıq kursları təşkil olunur.

**Aydın Yavərzadə**

**AZƏRTAC**
**7 aprel, 2024**

## Ağdamda Milli Qəhrəman Yelmar Edilovun xatirəsi anılıb

Ağdam rayonundakı Şəhidlər Abidə Kompleksinin önündə Azərbaycanın Milli Qəhrəmanı Yelmar Edilovun xatirəsi anılıb.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, Milli Qəhrəmanın ailə üzvləri, döyüş yoldaşları, şəhid ailələri, qazilər, rayon ictimaiyyətinin nümayəndələri abidə önünə gül-çiçək qoyub, şəhidlərin xatirəsini bir dəqiqəlik sükutla yad ediblər.

Mərasimdə çıxış edənlər Milli Qəhrəman Yelmar Edilovun mənalı həyat və qəhrəmanlıqla dolu döyüş yolundan danışıblar. Məlumat verilib ki, Yelmar Edilov 1991-ci ildə Ağdamda özünümüdafiə batalyonu yaradaraq Vətənimizin erməni işğalçılarından qorunmasında fədakarlıq göstərib. 1994-cü il aprelin 11-də Çəlik-Kökəltmə məntəqəsi uğrunda gedən döyüşlərdə qəhrəmancasına həlak olub. Bakı şəhərindəki ikinci Şəhidlər xiyabanında dəfn edilib. İgid komandir Yelmar Edilov Azərbaycan Respublikası Prezidentinin 1994-cü il 16 sentyabr tarixli Fərmanı ilə ölümündən sonra “Azərbaycanın Milli Qəhrəmanı” adına layiq görülüb.

**Tahir Ağaməmmədov**

**AZƏRTAC**
**2024, 9 aprel**

**Ağdamda mina partlayıb, iki nəfər xəsarət alıb**

Aprelin 12-də Ağdam rayonunun Əliağalı kəndi ərazisində mina hadisəsi baş verib.

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi (DİN), Baş Prokurorluğu və Minatəmizləmə Agentliyinin (ANAMA) mətbuat xidmətləri məlumat yayıb.

Bildirilib ki, hadisə nəticəsində 1965-ci il təvəllüdlü Bağırov Mirfəttah Bağır oğlu və 1973-cü il təvəllüdlü Teymurov Xəqani Allahverdi oğlu keçmiş təmas xətti yaxınlığında, minalardan təmizlənməmiş ərazidə piyada əleyhinə minaya düşüb. Hər iki şəxs ayağından xəsarət alıb.

Faktla bağlı Ağdam Rayon Prokurorluğunda araşdırma aparılır.

DİN, Baş Prokurorluq və ANAMA bir daha vətəndaşları təhlükəsizlik qaydalarına riayət etməyə, mina təhlükəsi işarələrinin göstəricilərinə diqqətlə yanaşmağa və bələd olmadıqları ərazilərə daxil olmamağa çağırır!

**AZƏRTAC**
**2024, 12 aprel**

**Ağdamda mina partlaması nəticəsində xəsarət alanların vəziyyəti açıqlanıb**

Ağdam rayonunun Əliağalı kəndi ərazisində baş verən mina hadisəsi nəticəsində xəsarət alan Bağırov Mirfəttah Bağır oğlu Bərdə Rayon Mərkəzi Xəstəxanasına yerləşdirilib.

Bərdə Rayon Mərkəzi Xəstəxanasının direktoru Vüsal Məmmədov AZƏRTAC-ın bölgə müxbirinə deyib: "Xəstəxanaya yerləşdirilən 1965-ci il təvəllüdlü xəstəyə sol baldırın aşağı üçdəbirinin pəncə nahiyəsi də daxil olmaqla travmatik amputasiyası, sol budun arxa üçdəbirinin çoxsahəli qəlpə yaralanması travmatik şok diaqnozu qoyulub. Yaralı yüksək şəkərli diabet xəstəsidir. Vaxtilə "Koroner angioplastika" əməliyyatı keçirib. Ona görə də xəstənin vəziyyəti ağır olaraq dəyərləndirilir. Hazırda lazımı ilkin tibbi müdaxilələr icra olunub, müayinələrdən keçirilib. Xəstənin vəziyyəti stabilləşəndən sonra cərrahi əməliyyat planlaşdırılır”.

Mina partlayışı nəticəsində xəsarət alan Teymurov Xəqani Allahverdi oğlu isə Yevlax Rayon Mərkəzi Xəstəxanasına yerləşdirilib. Xəstəxananın İctimaiyyətlə əlaqələr bölməsinin müdiri Elçin Baxşalızadə bildirib ki, xəstəyə sol baldırın aşağı üçdəbir hissəsinin mina partlayışı nəticəsində amputasiyası diaqnozu qoyulub və əməliyyata götürülüb.

**Tahir Ağaməmmədov**

**AZƏRTAC**
**2024, 12 aprel**

**ANAMA: Ötən həftə 725 partlamamış hərbi sursat zərərsizləşdirilib – VİDEO**

Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) işğaldan azad edilmiş ərazilərdə minatəmizləmə fəaliyyətinə cəlb olunmuş qurumlar tərəfindən aprelin 8-dən 14-dək icra edilən minatəmizləmə əməliyyatlarına dair məlumatı açıqlayıb.

ANAMA-dan AZƏRTAC-a bildirilib ki, ötən həftə Tərtər, Ağdərə, Kəlbəcər, Ağdam, Xocalı, Xankəndi, Xocavənd, Laçın, Şuşa, Füzuli, Qubadlı, Cəbrayıl və Zəngilan ərazilərində aparılmış minatəmizləmə əməliyyatları zamanı piyada əleyhinə 1, tank əleyhinə 5 mina və 725 partlamamış hərbi sursat aşkarlanaraq zərərsizləşdirilib.

Ötən həftə ərzində 476.7 hektar ərazi mina və partlamamış hərbi sursatdan təmizlənib.

**AZƏRTAC**
**15 aprel, 2024**

https://video.azertag.az/site/video/205023

**Əsgəran avtomobil yolunun inşasına start verilib**

Əsgəran avtomobil yolunun inşasına başlanılıb.

Avtomobil Yolları Dövlət Agentliyindən (AAYDA) AZƏRTAC-a bildirilib ki, Bərdə–Ağdam avtomobil yolunun 40-cı kilometrini Əsgəran qəsəbəsi ilə birləşdirən (Ağdam şəhərinin dairəvi yolu) və uzunluğu 18 kilometr olan avtomobil yolu Qarabağın inkişaf planı nəzərə alınmaqla II texniki dərəcəyə uyğun olaraq inşa edilir.

Hazırda avtomobil yolunda layihə üzrə torpaq işləri görülür. Belə ki, xüsusi texnikalardan istifadə olunmaqla yararsız qruntun çıxarılması, yolun genişləndirilərək profilə salınması işləri həyata keçirilir. Bunun üçün tikinti ərazisinə lazımi sayda qüvvə cəlb edilib.

Yeni inşa edilən yol boyunca layihəyə uyğun suların ötürülməsini təmin etmək məqsədilə müxtəlif ölçülü suötürücü borular, su keçidləri, həmçinin zəruri olan yerlərdə yeraltı və kommunikasiya xətləri üçün nəzərdə tutulan ehtiyat keçidlərinin inşası da aparılır.

Yeni avtomobil yolu Bərdə istiqamətindən Xankəndi, Şuşa və Laçın şəhərlərinə getmək istəyən sürücü və sərnişinlərə Ağdam şəhərinə daxil olmadan bu dairəvi yoldan istifadə edərək sürətlə və təhlükəsiz hərəkətlərini davam etmələrinə imkan verəcək.

**AZƏRTAC**
**17 aprel, 2024**

**Ağdamda minaatan qurğular aşkarlanıb**

Ağdamda minaatan qurğular aşkar edilib.

Daxili İşlər Nazirliyinin mətbuat xidmətinin Bərdə regional qrupundan AZƏRTAC-a verilən məlumata görə, Ağdam Rayon Polis Şöbəsinin əməkdaşları Yeni Qaralar kəndi ərazisindən 2 minaatan qurğusu, 3 avtomat, 53 mərmi, 1 qumbara, 2 partladıcı detonator, 2000-dən çox patron və digər sursatlar aşkar edərək aidiyyəti üzrə təhvil veriblər.

Araşdırma aparılır.

**AZƏRTAC**
**18 aprel, 2024**

**ABŞ səfiri Ağdamın işğaldan azad edilmiş ərazisində səfərdə olub**

Aprelin 18-də ABŞ-ın Azərbaycandakı səfiri Mark Libbi və səfirliyin nümayəndələri Ağdamın işğaldan azad edilmiş ərazilərində səfərdə olub, rayonda fəaliyyət göstərən minaaxtaranları ziyarət ediblər.

AZƏRTAC xəbər verir ki, səfər zamanı səfir Mark Libbi ABŞ Dövlət Departamenti tərəfindən maliyyələşdirilən ANAMA, Minalar üzrə Məsləhət Qrupu (MAG) və Beynəlxalq Avrasiya Mətbuat Fondu (BAMF) ilə birgə tərəfdaşlıqla həyata keçirilən “Məcburi köçkünlərin müharibədən zərər çəkmiş bölgələrə təhlükəsiz qayıdışına dəstək məqsədilə Azərbaycanın humanitar mina aksiyaları tədbirlərinə dəstək” layihəsinin heyəti, onların fəaliyyətləri və iş prosesləri ilə yaxından tanış olub. M.Libbi çıxışında mina qurbanlarının yaxınlarına, ailə üzvlərinə başsağlığı verib, mina hadisəsi zamanı xəsarət alanlara isə şəfa arzulayıb.

ABŞ səfiri Azərbaycanda qadın və kişilərdən ibarət ilk qarışıq minatəmizləmə qrupları ilə görüşü zamanı onların gördüyü işlərin əhəmiyyətindən danışıb. O deyib: “Çox sevinirəm ki, belə bir vacib işdə Azərbaycan qadınları da iştirak edirlər. Azərbaycanda mina ilə çirklənmiş ərazilərin tez bir zamanda təmizlənməsini arzu edirəm. ABŞ hökuməti də dünyada minaların təmizlənməsi prosesində yaxından iştirak edir. Dövlətimiz bu məqsədlər üçün böyük vəsait xərcləyib. 1999-cu ildən bəri ABŞ Azərbaycana minalarla mübarizə humanitar proqramlarını dəstəkləmək üçün təxminən 38 milyon dollar ayırıb. Bundan sonra da Azərbaycanda mina təmizlənməsi işində ABŞ dövləti niyyətinə sadiq qalacaq və Qarabağın işğaldan azad edilmiş ərazilərinin minalardan təmizlənməsi işinə yaxından dəstək olacaq".

Sonra Azərbaycan Respublikası Minatəmizləmə Agentliyinin (ANAMA) İdarə Heyəti sədrinin müavini Samir Poladov ölkəmizin mina problemindən, minaların insanlara və təbiətə mənfi təsirindən danışıb. O, ölkənin ən vacib məsələlərindən olan mina probleminin həlli istiqamətində ANAMA-nın gördüyü işləri, qurumun QHT-lərin və beynəlxalq təşkilatların fəaliyyətinə dəstəyini və uğurlu nəticələri qonaqların diqqətinə çatdırıb. O, həmçinin BAMF-ın mina aksiyası çərçivəsində indiyədək həyata keçirdiyi önəmli layihələri, təhlükəsiz və sağlam mühitin yaradılmasına töhfəsini və QHT kimi xüsusi rolunu vurğulayıb.

BAMF-ın prezidenti Umud Mirzəyev çıxışında ABŞ səfirinə və dövlətinə Azərbaycanda mina aksiyasına verdikləri dəstəyə görə təşəkkürünü bildirib.

“Azərbaycan bu gün çox ciddi bir problemlə üz-üzədir. Qarabağ başdan-başa minalarla çirkləndirilib, Azərbaycan xalqı hər an mina və partlayıcı sursatların təhlükəsi ilə yaşayır”, - deyə o əlavə edib.

Umud Mirzəyev, eyni zamanda, BAMF-ın tarixi, təşkilatın çoxillik fəaliyyəti və ABŞ dövlətinin dəstəyi ilə fondun həyata keçirdiyi layihələr haqqında məlumat verib.

Minalar üzrə Məsləhət Qrupunun (MAG) ölkə direktoru Cenet Dikstra MAG, BAMF və APOPO əməkdaşlığından, təşkilatın fəaliyyətindən söz açıb.

Sonra səfir Mark Libbinin, ANAMA-nın İdarə Heyəti sədrinin müavini Samir Poladovun, BAMF prezidenti Umud Mirzəyevin, MAG-ın ölkə direktoru Cenet Dikstra və Texniki Sahə Meneceri Bobbi be Dirin iştirakı ilə qadın minaaxtaranlara sertifikatlar təqdim olunub.

Qonaqlara minaaxtaran itlərlə və siçovullarla apardığı mina təmizləmə fəaliyyəti ilə seçilən APOPO təşkilatının fəaliyyəti haqqında da məlumat verilib. Səfir heyvanların minatəmizləmə fəaliyyətini izləyib və onların nəticələri ilə tanış olub.

Sonda ABŞ səfiri bu cür səfərlərin davamlı olacağını qeyd edib.

**AZƏRTAC**
**18 aprel, 2024**

**Ağdərə-Ağdam avtomobil yolunun inşasına başlanılıb - VİDEO**

Ağdərə-Ağdam avtomobil yolunun inşasına başlanılıb.

Avtomobil Yolları Dövlət Agentliyindən AZƏRTAC-a bildirilib ki, Suqovuşan-Kəlbəcər avtomobil yolunun 9-cu kilometrindən ayrılan və 33,5 kilometr uzunluğa malik Ağdərə-Ağdam avtomobil yolunun hərəkət hissəsinin eni 9 metrdir. Torpaq yatağının eni 15 metr təşkil edəcək yol 2 hərəkət zolaqlı II texniki dərəcəyə uyğun olaraq inşa edilir.

Hazırda avtomobil yolunda layihə üzrə torpaq işləri görülür. Belə ki, xüsusi texnikalardan istifadə olunmaqla yararsız qruntun çıxarılması və normativ hündürlüyə çatdırılması, yolun genişləndirilərək profilə salınması işləri həyata keçirilir.

Yolboyu layihəyə uyğun suların ötürülməsini təmin etmək məqsədilə müxtəlif diametrlərə malik dairəvi boru, düzbucaqlı su keçidlərinin tikintisi aparılır. Bundan başqa, layihə üzrə Ağdam ərazisində Xaçınçay çayı üzərində 5 aşırımlı körpü də inşa edilir. Hazırda körpü dayaqlarının tikintisi icra olunur.

**AZƏRTAC**
**19 aprel, 2024**

https://video.azertag.az/site/video/205261